DÜNYA ƏDƏBİYYATI
KLASSİKLƏRİ

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin
“Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında” 2007-ci il 24 avqust tarixli
sərəncamı ilə nəşr olunur.

“Şərq–Qərb”
Bakı – 2009

Victor

HUGO

MISÉRABLES

I-II

Viktor
HÜQO

1802–1885

SEÇİLMİŞ ƏSƏRLƏRİ
ÜÇ CİLDDƏ

I CİLD

SƏFİLLƏR
I-II hissələr

"Şərq–Qərb"
Bakı – 2009

ISBN 978-9952-448-59-7

Tərcümə edəni:	Mikayıl Rəfili
Ön sözün müəllifi:	Əsgər Zeynalov
Redaktor:	İlham Çərkəzoğlu
Korrektor:	Elsevər Muradov
Bədii tərtibat və dizaynın müəllifi:	Tərlan Qorçu
Kompüter düzümü:	Hikmət Aydınoğlu Həsən Yaqubov Mehman Musabəyli

Viktor Hüqo. Seçilmiş əsərləri üç cilddə,
I cild (Səfillər, I-II hissələr) – Bakı: "Şərq-Qərb", 2009, 680 səh.

Hüqo dühası, Hüqo irsi yer üzünün bütün xalqları üçün doğma və əzizdir. Hüqonun tükənməz yaradıcılıq aləmində "Səfillər" romanının xüsusi çəkisi var. Dahi rus yazıçısı Lev Tolstoyun "fransız ədəbiyyatının ən yaxşı romanı" adlandırdığı bu ölməz əsər, demək olar, bütün dünya dillərinə tərcümə olunmuş, müəllifinə əbədi şöhrət qazandırmışdır.

Mətn: Bakı Slavyan Universiteti, "Kitab aləmi" NPM, 2009
Bədii tərtibat, səhifələnmə: "Tutu" nəşriyyatı, 2009
© "Şərq-Qərb" ASC, 2009

VİKTOR HÜQONUN HƏYATI

Dünya ədəbiyyatının ən görkəmli simalarından olan Viktor Hüqo 1802-ci il fevralın 26-da Fransanın gözəl Bezanson şəhərində, Napoleon ordusunun batalyon komandiri Leopold Sijisberin ailəsində anadan olub.

Abel və Ejendən sonra ailənin üçüncü övladının adı Hüqolar ocağının yaxın dostu general Viktor Laqoritin şərəfinə Viktor qoyulur. Yaxşı savada və dünyagörüşə malik Hüqonun anası Sofi uşaqların tərbiyəsilə məşğul olur. Sonralar general rütbəsinə qədər yüksələn Sijisberin işi ilə əlaqədar ailə də tez-tez yaşayış yerini dəyişməli olur. Əlbəttə, bu səyahətlər gələcək sənətkarın həyatına güclü təsir edir.

Hüqo 1817-ci ildə Lui Po Qran liseyinə daxil olur. Həmin dövrdən ədib əsl yaradıcılıq yoluna qədəm qoyur. Bu vaxta qədər ədəbi aləmdə şeirləri ilə tanınan Hüqo bir il sonra ilk böyük əsərini – "Büq Jarqal" romanını yazır. Əsər ədəbiyyat aləminə nəhəng simanın gəldiyini xəbər verirdi.

1822-ci ildə Hüqonun "Mədhiyyələr və müxtəlif şeirlər" adlı ilk kitabı çapdan çıxır. Həmin ildə ədibin həyatında mühüm hadisə baş verir. O, hələ uşaqlıqdan tanıdığı Adel Fuşe ilə ailə qurur. Onu da xatırlatmaq lazımdır ki, bu izdivacdan yazıçının beş övladı dünyaya gəlir.

1823-cü ildə oğlu Leopold (o, həmin ildə də vəfat edir), 1828-ci ildə Fransua Viktor, 1830-cu ildə qızı Adelina anadan olur. Leopoldina da, Şarl da, Fransua Viktor da Hüqonun sağlığında dünyalarını dəyişirlər. Ancaq bir itki – qızı Leopoldinanın 1843-cü il sentyabrın 4-də Sena çayında boğulması ona daha ağır təsir edir...

Hüqo yaradıcılığını tədqiq edən alimlər onu əsasən üç mərhələyə ayırırlar:

1-ci mərhələ. Sürgündən əvvəl (ilkin yaradıcılığından 1850-ci ilə qədər olan dövr).
2-ci mərhələ. Sürgün dövrü (1850-1870).
3-cü mərhələ. Sürgündən sonrakı dövr (1870-1885).

Hüqo yaradıcılığının birinci mərhələsində "Odalar", "Balladalar", "Şərq motivləri", "Payız yarpaqları", "Şüalar və kölgələr" şeir kitabları ilə yanaşı, "Kromvel" (1827), "Hernari" (1830), "Şahzadə əylənir" (1832), "Mari Tüdor", "Lükres Borjiya" (1833), "Rü Bla" (1838) dram əsərlərini, "İslandiyalı Qan" (1823) romanını, "Klod Kyo" (1834) povestini, məşhur "Paris Notrdam kilsəsi", "Edama məhkumun son günü" (1829), "Klod Ge" (1834) romanlarını yazır.

Həyatının 1850-ci ilə qədər olan dövründə Hüqo bir sıra səyahətlərdə olur, bir neçə əzizini itirir – anası Sofini, qızlarını və 1850-ci ildə böyük dostu Balzakı. Dörd dəfə Fransa Akademiyasına seçkilərdə iştirak edir, üç dəfə məğlubiyyətdən sonra, nəhayət, dördüncü dəfə – 1841-ci ildə bu möhtəşəm elm ocağına üzv seçilir.

Hüqo yaradıcılığının ikinci dövrü 1850-1870-ci illəri əhatə edir. Bu illər ərzində ədibin "İntiqam" (1852), "Tamaşalar" (1856), "Qərinələr əfsanəsi" (1858), "Küçələr və meşələr" şeir kitabları, "Mentana" poeması nəşr olunur.

Hüqo yaradıcılığının bu dövrdə yaratdığı ən böyük əsər, şübhəsiz ki, dahi Tolstoyun "fransız ədəbiyyatının ən yaxşı romanı" adlandırdığı "Səfillər" (1852) romanıdır. Bununla yanaşı, müəllif 1869-cu ildə "Gülən adam", 1866-cı ildə "Dəniz zəhmətkeşləri" romanlarını yazır.

Hüqo yaradıcılığının üçüncü – sürgündən sonrakı dövrü 1870-1885-ci illəri əhatə edir. 1870-ci ildə Fransa-Prussiya müharibəsi başlanır. Fransa məğlub olur, Prussiya qoşunları Fransanın böyük bir hissəsini işğal edir. Vətənpərvər Hüqonun səsi ucalır və bu səs bütün Fransa xalqını vətəni müdafiəyə qalxmağa çağırırdı: "Nəyin bahasına olursa olsun, vətəni müdafiə etmək lazımdır". Həmin illərdə Hüqo "Dəhşətli il" (1872), "Qərinələr əfsanəsi"nin II cildini (1877), "Baba olmuşam" (1877) kitabını, "Dörd ruh küləyi" (1881), "Qərinələr əfsanəsi" (1883) kitablarını, 1874-cü ildə isə "Doxsan üçüncü il" romanını nəşr etdirir, eyni zamanda,

1871-ci ildə Milli Məclisə seçkilər zamanı Parisdən deputat seçilir. Bu illərdə o, oğlu Fransua Viktoru (1873) itirir. Ancaq həmin vaxtların, bəlkə, ən yaddaqalan hadisələrindən biri olur: 1881-ci il fevral ayında təntənəli bir şəraitdə Viktor Hüqonun yubileyi keçirilir. Yazıçı nəvələri Jorj və Jannanı qucaqlayaraq açıq pəncərənin yanında dayanır. Ədibin 80 illik yubileyi münasibətilə altı saat davam edən bu mərasimdə saysız-hesabsız insan axını pəncərənin qarşısından keçir, Hüqonu təbrik edir.

Viktor Hüqo 1885-ci il may ayının 22-də 83 yaşında vəfat etmişdir. Sənətkarın ölüm günü Fransada milli matəm elan olunmuşdu.

Fransız tənqidçilərindən biri belə deyirdi: "Viktor Hüqo anadan olanda XIX əsrin ikicə yaşı var idi. Şair öləndə isə əsrin cəmi 15 illik ömrü qalmışdı. Bütün bunlara baxmayaraq, əsr Hüqodan əvvəl qocaldı".

Əsri özündən əvvəl qocaldan Hüqo həmişə lazım gəldikdə kəskin çıxışlar edirdi – istər senatda, istər Akademiyada, yubileylərdə, məhkəmələrdə, hətta dostlarının məzarları başında da. M.Qorki Hüqo haqqında demişdi: "Bu tribun şair dünyanın başı üzərində bir tufan kimi gurlayıb, insanın ruhunda olan bütün gözəlliklərə həyat verdi, can verdi... O, bütün insanlara həyatı, gözəlliyi, həqiqəti və Fransanı sevməyi öyrətdi".

Hüqonu səciyyələndirən cəhətlər çoxdur. Onlardan birini xüsusi qeyd etmək lazım gəlir: dostluğa sadiqlik. Öz dostları haqqında o qədər ağızdolusu, o qədər ürəklə, səxavətlə danışırdı ki... Onun öz müasirləri Balzak, Düma, Jorj Sand və digər fransız ədibləri haqqında fikirləri bunu təsdiq edir. Məsələn, 1850-ci il avqustun 20-də Balzakın dəfn mərasimi zamanı o demişdi: "Balzak XIX əsr yazıçılarının Napoleondan sonra gəlmiş nəslinə mənsub idi.

Bizim günlərimizdə istedadlı adamın itkisi cəmiyyətin geniş dairələrini kədərləndirir, dahinin itkisi bütün milləti kədərləndirir. Balzakın adı açıq şüa ilə işin elə zolağına axır ki, onu bizim era özündən sonraya saxlayır.

Cənab de Balzak dahilər arasında ən birinci, seçilənlər arasında ən yaxşısı idi".

1870-ci ildə Aleksandr Düma vəfat edərkən sürgündə olan Hüqo dostunun oğluna yazır: "Bilmirəm, bu kədərli mərasimdə danışmağa qadir ola biləcəyəmmi, qəlbimi kəskin bir həyəcan bürüyür... İcazə verin, demək istədiyimi sizə yazım".

Sonra Hüqo ürəkdolusu, geniş qəlblə qələm dostu haqqında fikrini davam etdirir: "Aleksandr Düma adamı məftun edir, valeh edir, əyləndirir, öyrədir. Onun bu qədər çoxlu, müxtəlif, bu qədər canlı, valehedici və qüdrətli olan əsərləri bütün Fransaya xas olan nur saçır...

Aleksandr Düma ilə mən – eyni bir zamanda gənc idik. Mən onu sevirdim, o da məni. Aleksandr Dümanın ağlı qədər ürəyi də böyük idi. O, nəcib və mehriban insan idi..."

1876-cı il iyunun 8-də Jorj Sand vəfat edərkən onun tabutu başında Hüqo kədər içərisində böyük səxavətlə öz dostu haqqında deyir: "Mən onu sevirdim, ona valeh idim, onun qarşısında pərəstiş edirdim. Haribaldinin möcüzələr törətdiyi bir dövrdə o, şah əsərlər yaradırdı. İndi bu qədər adamın Fransanı şərəfləndirdikləri bir zamanda, vətəni ucaldan insanlara daha böyük ehtiyac var..."

Fransada Floberi "Madam Bovari" romanı üstündə təqib etdikləri və hökumət orqanları yazıçını "dini və əxlaqı təhqir etdiyinə" görə polis məhkəməsinə cəlb etdikləri zaman Hüqo Floberə yazırdı: "Siz bütün küləklərin silkələdiyi, lakin sarsıda bilmədiyi dağ zirvələrinə mənsubsunuz. Bütün qəlbimlə sizinləyəm".

1857-ci ildə Hüqo dostu Şarl Bolderin "Şər çiçəkləri" kitabına verdiyi rəydə yazmışdı: "Mən sizin nəcib məktubunuzu və gözəl kitabınızı aldım. Sənət səma zirvəsinə oxşayır, onun hüdudu yoxdur, siz də elə indicə bunu sübut etdiniz. "Şər çiçəkləri" bu səmada ulduzlar kimi yanır, bu çiçəklər adamın gözünü qamaşdırır. Sizin cəsur zəkanızı ürəkdən alqışlayıram". Halbuki Hüqonun "Səfillər" romanı nəşr olunarkən, bu nəhəng əsərə kəskin hücumlar oldu. Onların arasında, çox təəssüf ki, yazıçının inandığı, dərin hörmət bəslədiyi "şeir pərisi" Lamartin kimi dostları da vardı. Ancaq zaman öz sözünü dedi. Hüqonun əsərləri dünyanın, demək olar, bütün dillərinə tərcümə olundu və dünya ədəbiyyatında müəllifinin yerini müəyyən etdi. "Səfillər", "Büq Jarqal", "Paris Notrdam kilsəsi", "Gülən adam", "Dəniz zəhmətkeşləri", "93-cü il" romanları, eləcə də poeziyası dünya oxucularının masaüstü kitabına çevrildi, dram əsərləri müxtəlif ölkələrin teatrlarının repertuarında özünə möhkəm yer tutdu.

* * *

Avropada Şərqə maraq çoxdan vardı. Tədqiqatçı alimlərin qeyd etdiyi kimi, XVIII əsrin sonunda bütöv bir elm, şərqşünaslıq elmi yarandı.

XVIII əsr Şərqi, Avropaya, xüsusən, iki mühüm hadisə ilə – "Min bir gecə" nağıllarının və "Avesta"nın tərcümələrilə tanıdıb, öz layiqli borcunu yerinə yetirdi. Ancaq bu dövrdə Avropada Şərq mövzusunda yazılmış əsərləri də qeyd etməmək olmaz. Müxtəlif əsrlərdə həmin ölkələrdə Şərq mövzulu əsərlərdən bəhs edən tədqiqatçı L.M.Kessel yazırdı: "Bu ədəbi faktlar göstərir ki, Qərb ədəbiyyatı əsrdən-əsrə Şərq obrazları ilə zənginləşirdi".

Bəs bu sahə XIX əsr Avropa ədəbiyyatında özünü necə əks etdirirdi?

Öncə onu qeyd etmək lazımdır ki, əgər XVIII əsrdə Qərbdə Şərq mövzuları ilə bağlı ən güclü əsərlər əsasən Fransada yaranırdısa, XIX əsrdə bu baxımdan qüvvətli sənət inciləri ayrı-ayrı ölkələrdə meydana çıxdı. Bunlardan iki əsərin adını xüsusi qeyd etmək lazım gəlir: ingilis şairi Bayronun "Şərq poemaları" (1813-1816), alman şairi Getenin "Qərb – Şərq divanı" (1814-1819). Ancaq bununla yanaşı, Avropa ədəbiyyatında T.Mur, V.Kott, T.Hop, H.Hayne, C.Morie və digər sənətkarlar Şərq mövzulu və yaxud Şərqlə bağlı əsərlərini yaratdılar. Bəs bu dövrdə fransız ədəbiyyatında vəziyyət necə idi?

XIX əsrdə fransız ədəbiyyatında Şərqə maraq, Şərq mövzularına müraciət daha geniş vüsət aldı. Bu yüzillikdə əksər fransız yazıçı və şairləri – Şatobrian, Jül Vern, Lamartin, Qotye, Jorj Sand, Balzak Şərq aləmiylə bağlı əsərlərini yaratdılar. Etiraf etmək lazımdır ki, bu dövrdə Şərq mövzusunda yaranmış əsərlərin, demək olar, heç biri nə "İran məktubları", nə "Zadiq", nə də "Zair" qədər diqqəti cəlb etmədi.

XIX əsr fransız ədəbiyyatında bu mövzuya müraciət edən sənətkarlardan biri görkəmli ədib Viktor Hüqo idi. Dünya ədəbiyyatının korifeylərindən olan Hüqo 1826-1828-ci illərdə həmin silsiləyə aid yazdığı şeirləri 1829-cu il yanvarın 14-də "Şərq motivləri" adı altında kitab şəklində nəşr etdirdi.

Azərbaycan oxucularının romanlar müəllifi kimi tanıdıqları Viktor Hüqo həm də böyük şairdir. On üç yaşında ikən ilk şeirlərini yazıb, 18 yaşında artıq "şeir magistri" adlandırılan şair, "Odalar" (1822), "Payız yarpaqları" (1831), "Şüalar və kölgələr" (1840),

"Daxildən gələn səslər" (1837), "İntiqam" (1853), "Tamaşalar" (1856), "Dəhşətli il" (1871), nəhayət, 1859-1870-ci illər arasında dördcildlik "Əsrin əfsanəsi" poetik əsərlərini yazmışdır. Müqayisə üçün demək lazımdır ki, Hüqo 20 cildlik romanlarla yanaşı, 26 cildlik də şeir kitablarının müəllifidir.

Bəs şairin Şərq mövzusuna müraciət etməsinə səbəb nə idi?

Türklərə qarşı "qəzəb" hissi olan bir çox tədqiqatçılar "Şərq motivləri"nin yaranmasının əsas səbəbini, məhz, bu dövrdə gedən Yunanıstan-Türkiyə müharibəsində (1821-1829) görürlər və yaxud şairin bu əsərindən söhbət açarkən, elə təqdim etməyə çalışırlar ki, guya, kitab Yunanıstan-Türkiyə müharibəsinə həsr olunmuş şeirlərdən, daha doğrusu, türklərə qarşı yönəlmiş şeirlərdən ibarətdir.

Əlbəttə, bu "kinli fikir" yeni deyildi. Bu, uzun əsrlər boyu – 1096-1270-ci illər Səlib müharibələri dövrü, xüsusilə 1453-cü il Bizans imperiyasının süqutu, Osmanlı imperiyasının yaranmasından sonra türklərə qarşı yönəldilmiş fikrin davamı idi.

Hələ XII əsrdə Roma papası sağa-sola əmrlər verir, "dinsiz" türklərə qarşı "müqəddəs müharibə"yə çağırırdı.

Orta əsrin bir sıra əsərlərində türklər ancaq döyüşdə təsvir olunurlar. Bəzi Qərb mənbələrindən bəlli olur ki, Avropada uzun müddət türklər "vəhşi" kimi qələmə verilmişdir. Lakin Avropanın böyük şəxsiyyətləri səhv fikirlərə qarşı özlərinin kəskin münasibətlərini bildirirdilər. Volterin fikri bu cəhətdən səciyyəvidir. "Türklər xristianlarla heç də həmişə, bizim düşündüyümüz, təsəvvür etdiyimiz tək vəhşi kimi rəftar etmirdilər. Türklər bütün yunanlara kilsə tikməyə icazə verirdilər ki, bu kilsələrin əksəriyyəti kollegial idi".

Türklər tutduqları ərazilərin nə əhalisi ilə, nə də tarixi abidələri ilə sərt davranmamışlar.

Hətta Konstantinopolu zəbt edəndən sonra sultan II Mehmet özünü yunan kilsəsinin müdafiəçisi elan etmişdir.

Türklərin göstərdiyi səmimi münasibət nəticəsində yunanlar onları Roma papasından üstün tuturdular.

Macarıstanda Sultan Səlimə qoyulan abidə təsdiq edir ki, türklər Avropaya öz yürüşləri ilə həm də mədəniyyət gətirmişlər.

Demək lazımdır ki, Yunanıstan-Türkiyə müharibəsi Hüqo yaradıcılığından da kənarda qala bilməzdi. Çünki bu müharibə bütün Avropa ölkələrinin diqqət mərkəzində idi. Xüsusən, 1824-cü il aprelin

19-da Bayronun Yunanıstanın Missolonji şəhərində vəfat etməsi, sanki, müharibənin yeni mərhələsini başladı və Qərb ölkələrində türklərə qarşı yaranmış əks-qığılcımı daha da alovlandırdı. Hüqonun qeyd etdiyi kimi, Bayronun ölümü bütün Avropa ölkələrində ümumi kədər, bədbəxtlik və milli matəm kimi qarşılandı.

Bu mənada Hüqonun Yunanıstan-Türkiyə müharibəsilə bağlı şeirlər yazması da təsadüfi deyildi. Fransız ədibləri Delfina Qe, Lamartin, Kazimir Delavin də Yunanıstanın mübarizəsi ilə bağlı şeirlər yazmışdılar.

Ancaq Hüqonun "Şərq motivləri"nin yaranmasının başlıca səbəbinin Yunanıstan-Türkiyə müharibəsi olduğu ideyası tamamilə yanlış və qərəzli fikirdən başqa bir şey deyildir. Çünki müharibə başlamazdan əvvəl hələ XIX əsrdə Şərq mövzusunda xeyli əsərlər yaranmışdır (Bayron, Gete).

Bəs bu silsilənin yaranmasına səbəb nə idi?

Həmin suala Hüqonun özü çox gözəl cavab verir: "Bu dövrdə misli görünməmiş dərəcədə Şərqlə məşğul olurlar. Şərqin öyrənilməsi heç vaxt bu dərəcədə inkişaf etməmişdir. Əgər XIV Lüdovikin dövründə (1643-1715-ci illər) onlar ellinist idilərsə, indi də şərqşünasdırlar".

Getenin "Qərb-Şərq divanı"ndan danışan məşhur alim Braginski XIX əsr Avropa şairlərinin bu mövzulara müraciətetmə səbəblərinə öz münasibətini bildirərək yazırdı: "Orientalizm Şərq ekzotikasına bağlı olduğu kimi, romantiklərin bədii priyomlarından idi".

Görkəmli fransız yazıçısı Andre Moruanın dililə desək, Şərq bu dövrdə "dəbdə" idi.

Bəs Hüqo "Şərq motivləri"ni yaradarkən hansı mənbələrdən istifadə etmişdir?

A.Morua qeyd edir ki, Şərq mövzusunda yaratmaq üçün kifayət qədər mənbə var idi: Bibliya, şərqşünas Ernest Fuine, Bayronun poemaları.

Bəzi tədqiqatçılar Hüqonun Bayron və Getedən öyrəndiyini göstərirlər.

Hüqonun "Şərq motivləri"ndə elə şeirlər var ki, onlar tipik Şərq mövzusudur. Onun "Cinlər" şeri belə mövzulardandır.

Şərq mifologiyasının, daha doğrusu, ərəb mifologiyasının məhsulu "olan" cin məfhumu sonralar islamı qəbul edən digər xalqlar

arasında da yayılmışdır. Şifahi xalq ədəbiyyatı abidələrində (“Min bir gecə” nağılları) özünə kök salmış bu surət getdikcə fransız yazılı ədəbiyyatına da daxil olmuşdur. Hüqo isə onu fransız poeziyasına gətirmişdir.

“Şərq motivləri”ndə maraqlı cəhətlərdən biri odur ki, şair hər şerin məzmununa uyğun epiqraf seçmişdir. Məsələn, “Cinlər” şerində Hüqo Dantenin “İlahi komediya”sından, “Durnalar havada öz uzun qatarını düzəldən kimi öz həzin iniltili nəğmələrini oxuyacaqlar, beləliklə, mən bu tufandan qopub, diqqəti cəlb edən kölgələrdə uzanıb gedən iniltini gördüm” – sözlərini epiqraf götürmüşdür.

Şerə “İlahi komediya”dan epiqraf gətirilməsi təsadüfi deyildir. Çünki bu əsərlər ruhən bir-birinə çox yaxındır.

Hüqo yaradıcılığında Şərq motivlərinin bir qolu da Yunanıstan-Türkiyə müharibəsidir.

Hüqo yaşayan dövrdə Fransanın özü də ağır vəziyyətdə idi. Burbonlar sülaləsinə (1814-1830) qarşı iğtişaşlar bütün ölkəni bürümüşdü və bu sülalə hökmranlığının son illərini yaşayırdı. Bir azdan nazirlər məhkəmə qarşısında əyləşəcəkdilər. Ancaq Hüqo Fransanın daxilində gedən mübarizələri, hərc-mərcliyi, çəkişmələri bir tərəfə qoyaraq, Yunanıstan-Türkiyə müharibəsinə aid, daha doğrusu, türklərin əleyhinə şeirlər yazırdı.

Hüqo böyük sənətkardır, nəhəng yaradıcılığa malikdir. Dünya ədəbiyyatının nadir simalarından biridir. Ancaq hər halda, o, Avropanın oğlu idi. Avropanın türklərə qarşı yönəlmiş “səlib yürüşü” gənc şairi də öz təsiri altına almışdı.

Hüqonun bu mövzuda yazdığı əsərlər içərisində “Uşaq” şeri xüsusi yer tutur. Onun, Şekspirin “Maqbet” əsərindən epiqraf götürdüyü “Oh, dəhşət, dəhşət” sözləri şeirdə təsvir olunacaq dəhşəti qabaqcadan xəbər verir.

Türklər oradan keçib. O yerlər indi xaraba və matəm içərisindədir. Bura şərab adası Xiosdur. Öz təbii gözəlliyi ilə insanı valeh edən bu ada boşdur. Yox, deyəsən, tam boş deyil. Qaralmış divarın dibində başı aşağı əyilmiş mavi gözlü bir yunan uşağı əyləşib. O, əlində silah vətənini müdafiə etmək əzmindədir:

Ayaqyalın, gözüyaşlı uşağın ürəyindən nələr keçir?
Nə dağıdar bu saat qəlbindəki kədəri?
Nə istəyirsən? Meyvə? Quş? Bahar çiçəkləri?

– Yox, – deyə cavab verdi, o gənc oğlan çox məğrur.
– İstədiyim barıtdır mənim, bir də güllədir.

(*Tərcümə M.Seyidzadənindir*)

Xatırladaq ki, Yunanıstanın tərəfini saxlayan bu adaya türklərin verdiyi "dərs" Avropada güclü əks-səda doğurmuş, hətta məşhur fransız rəssamı, Hüqonun dostu E.Delakrua 1824-cü ildə "Xios qırğını" tablosunu yaratmışdı. Şair də mühüm hadisəyə çevrilmiş bu mövzudan kənarda qala bilməmişdi.

Şairin Yunanıstan-Türkiyə müharibəsindən bəhs edən poetik əsərlərindən biri də "Dərviş" şeridir. Əsərdə hökmdar zülmkarlığına qarşı bir dərvişin açıq çıxışından danışılır.

Şeirlə Nizaminin "Sirlər xəzinəsi" əsərindəki "Zalım padşahla zahidin dastanı" hekayəti arasında bir yaxınlıq duyulur. Hər iki əsərdə qoca dərviş və zahid ölümü gözünün altına alaraq zalım hökmdarlara həqiqəti olduğu kimi söyləyir, daha doğrusu, qəddarlıqlarını üzlərinə çırpır.

Hüqo Yunanıstan-Türkiyə müharibəsiylə bağlı Bayronun ölümü ilə məşhurlaşmış Missolonjiyə aid bir şeir həsr etmişdir. Şairin "Türk marşı", "Hərəmxana başları", "Navərən" şeirləri də bu müharibədən bəhs edir. Hüqonun bu silsilə şeirlərinin bir qayəsi var: Yunanıstanın azad edilməsi.

Hüqonun "Şərq motivləri"nin bir qolu da İspaniya ilə bağlıdır. Şair yazır ki, Şərq Çindən başlayaraq Misirə qədər davam edir. Ancaq o, həmin coğrafi hüdudla qalmayıb, vaxtilə ərəb İspaniyası adı ilə tanınmış bu ölkəni də özünün Şərq məcmuəsinə daxil etmişdir. Ərəb mədəniyyətini özündə çox gözəl təcəssüm etdirən İspaniya "Şərq motivləri"ndə təsvir edilən yerlər içərisində şairin olduğu yeganə ölkə idi. 1811-ci ildə Hüqonun atası general Sijisberin hərbi xidməti ilə əlaqədar olaraq bir il orada yaşamışdı.

Şairin "Qrenada", "Peyğəmbər çiçəkləri", "Mavr romansı", "Kölgə" və digər şeirləri İspaniya həyatı ilə bağlıdır.

"Qrenada" şerində şair Şərq mədəniyyətinin kök saldığı ispan şəhəri Qrenadanın gözəlliklərini vəsf edir və mavrların bu ölkədəki tarixi-mədəni yadigarı – Əlhəmra (Qırmızı Qala) sarayını xatırlayır.

Qrenada o yerdir ki, Şərqdə ərəb xilafətinin və İspaniyanın şimal hissəsində mavrların (sarasinlərin) hakimiyyətinə son qoyulduğu halda, burada əmirlik hələ iki yüz il davam edir və mədəniyyətini inkişaf etdirir. İspaniyada güclü mədəniyyətə malik mavrların uzun müddət hakimiyyətdə olması təbii olaraq bu ölkənin yerli əhalisinə qüvvətli təsir göstərmişdi. Mavr romanslarının təsiri altında ispan romansları yaranmış və təsadüfi deyil ki, uzun əsrlər boyu (hətta mavrlar) İspaniyadan tamamilə qovulduqdan sonra hər iki xalqa məxsus romanslar yanaşı surətdə istifadə olunaraq geniş yayılmışdı. İspan romanslarını ilk dəfə fransız dilinə 1821-ci ildə şairin qardaşı Abel Hüqo tərcümə eləmişdi. Ancaq şair mavr romanslarını oxuduqdan sonra onların daha qüvvətli olduğunu qeyd etmişdi. Görünür, Hüqo bu romanslardan təsirlənərək özünün "Mavr romansı"nı yaratmışdı. Şair "Uduzulmuş döyüş" şerini də "Ümumi Romansero"nun (ispan və mavr romanslarının) təsiri altında yazmışdı.

Hüqonun "Şərq motivləri" hələ kitab şəklində çıxmazdan əvvəl müasirlərini heyran etmiş və haqqında yazılar yazılmışdı: "Viktor bizə eşidilməmiş, tamamilə eşidilməmiş "Şərq motivləri"ni oxudu... Bir dənə də olsun zəif şeir yoxdur" (Viktor Pavi). Ancaq yazıçı Andre Morua güman şəklində olsa da, öz baxış və dünyagörüşünə uyğun olaraq həmin şeirləri fərqləndirirdi. O qeyd edir ki, "bəlkə, bu şeirlərdən ("Şərq motivləri"ndən) ən yaxşısı Şərqdən də, Qərbdən də, zamandan da, məkandan da təcrid edilərək yaradılmış "Ekstaz" şeiridir. Şair Apokalipsisdən "Bəs mən güclü bir səs eşitdim" sözlərini epiqraf gətirir.

Bir ulduzlu gecədə tənha idim sahildə,
Nə dəniz tutqun idi, nə bulud vardı göydə.
Gözlərim dikilmişdi hüdudsuz uzaqlara,
Meşələr, həm də dağlar, bir də bütün təbiət,
Sanki, sual verirdi, asta-asta, ancaq pərt
Dənizdə, dalğada, səmada ulduzlara.

Dərdsiz, qəmsiz, kədərsiz aləm. Romantiklərin ən çox sevdiyi an və məkan: ulduzlu gecə, bir də dəniz və onu hüdudlandıran sahil. Görən sahildə dayanmış tənha, indi nə düşünür? Xəyal onu haralara aparmışdı? "Hüdudsuz uzaqlara dikilmiş gözlər hansı fikrin üstündə köklənmişdir?"

Hüqo "Şərq motivləri"nin müqəddiməsində yazırdı: "Şair sərbəstdir, qoy o, öz yolunu seçsin. Onun fantaziyasını məhdudlaşdırmağa heç kəsin haqqı yoxdur".

Bu fikir 27 yaşlı gənc Hüqonun bir növ gələcək dahi Hüqoya göstərdiyi yol idi. Onun nə fantaziyası, nə də bu fantaziyadan doğan yaradıcılığı heç vaxt heç nə ilə məhdudlaşmadı – şeirlər, dram əsərləri, romanlar, fəlsəfi əsərlər. Bu məhdudlaşmayan yaradıcılıq isə Hüqonu fransız ədəbi mühitindən dünya ədəbiyyatı mövqeyinə gətirib çıxardı.

Məlum olduğu kimi, "Şərq motivləri" yalnız Şərqlə əlaqəli deyildir. Hüqonun "Mazepa" şeri də belə əsərlərdəndir. Ancaq əslində, bu əsərin Şərqlə heç bir əlaqəsi yoxdur.

Hüqonun "Şərq motivləri"nin həm Avropada bu mövzuda yazılmış əsərlər içərisində, həm də ədibin ümumi yaradıcılığında özünəməxsus yeri vardır. Demək lazımdır ki, hələ şairin sağlığında bu əsər dəfələrlə nəşr olunmuşdu. "Şərq motivləri" həmişə fransız ədəbiyyatşünasları tərəfindən yüksək qiymətləndirilmişdir. Hüqonun ölümündən sonra akademiyada şairin yerinə seçilmiş Lekont de Lil "Şərq motivləri"ni özünün akademik çıxışında "bütün sonrakı nəsillər üçün müstəsna poeziya kəşfi" adlandırmışdır.

Həmin məcmuə dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Hələ 1876-cı ildə Hüqo yazırdı: "Türkiyə sultanı V Sultan (Əbdülhəmid) "Şərq motivləri"ni türk dilinə tərcümə etdirir".

Şair "Şərq motivləri" ilə kifayətlənməmiş, ayrı-ayrı şeirlərlə yenidən Şərq mövzularına müraciət etmişdir. Onun "İran hökmdarı", "Mən heç zaman Firdovsini görməmişdim" şeirləri bu baxımdan səciyyəvidir.

Birinci şeirdə Hüqo İran şahlarını yayda Tiflisə, qışda İsfahana göndərir – qızılgül bağlarına, onların ətir saçan kölgəsinə. Əlbəttə, bunlar yalnız şairin romantik aləminin və xülyasının məhsulu idi.

Yaxud "Mən heç zaman Firdovsini görməmişdim" şerində Hüqo iki dəfə xəyalən özündən səkkiz əsr əvvəl yaşamış böyük İran şairi Firdovsi ilə görüşür.

Birinci görüşdə fars sənətkarı qırmızı paltar geyinmişdi. Əmmaməsi par-par parıldayırdı. İkinci görüşdə şair qara arxalıq geymişdi. Səbəbini soruşduqda, "Bilirsən, mən sönürəm" – deyə cavab verir. Həyatın müxtəlif çağları – qaynar və tərki-dünyalıq anları. Və şairin həyata romantik baxışı.

* * *

...Hüqo 83 il yaşamışdır. İlk baxışda elə görünə bilər ki, şair qayğısız, şən ömür keçirmişdir. Ancaq Hüqonun həyatına yaxından bələd olan, yazıçının nə qədər kədərli həyat keçirdiyinin şahidi olar. O, 20 ilə yaxın sürgündə olmuşdur (1852-1870). Şair atasını, anasını, həyat yoldaşını, iki oğlunu və qızını itirmişdi. Əlbəttə, bura onun yaxın qohumlarını və dostlarını da əlavə etmək olar – xüsusilə qələm dostları Balzak və Dümanı. Ancaq bir itki xüsusilə ona ağır təsir göstərmiş və demək olar ki, ömür boyu onu tərk etməmişdir. Bu, şairin qızı Leopoldinanın faciəli ölümü idi. Altı ay əvvəl – 1843-cü il fevral ayının 15-də Leopoldina ailəliklə tanıdıqları Şarl Vakeri ilə ailə qurmuşdu. Həmin münasibətlə Hüqo bir şeir də yazmışdı.

Ancaq bu sevinc uzun çəkmir. Həmin sevincin ömrü cəmi 6 ay 19 gün çəkir.

...Şarl Vakeri yenicə ailə qurduğu 19 yaşlı Leopoldina ilə gəzməyə çıxmışdı. Sentyabr ayının 4-ü idi. Onlar Sena çayında gəzinti üçün qayığa minirlər. Külək əsir. Bir neçə dəqiqədən sonra gözlənilmədən külək qayığı çevirir. Leopoldina qayıqdan yapışıb batır. Yaxşı üzgüçü olan Şarl sevgilisini xilas etmək istəyir. Ancaq Leopoldina qayıqdan möhkəm tutmuşdu. Buna görə də Şarl onu xilas edə bilmir və hər ikisi suda boğulurlar...

Gecədən xeyli keçmiş Şarlın ortancıl qardaşı Ögüst faciəni Hüqonun xanımına xəbər verir. Onların hər ikisini bir tabutda dəfn edir və şəhərin balaca bir qəbiristanlığında torpağa tapşırırlar.

...Xeyli müddət idi ki, Hüqo Pireney və Alp dağları boyunca səyahətdə idi. Sentyabr ayının 8-də Hüqo Oliran adasında idi... O, həmin gün yazırdı: "Elə bil, ruhum ölmüşdür. Bu axşam mənim üçün hər şey matəm kimidir. Mənə elə gəlir ki, bu balaca ada dəniz-də böyük bir tabuta oxşayır".

Qızının ölümündən dörd gün keçirdi. Şairin hələ xəbəri olmasa da, nə isə bədbəxt bir hadisənin baş verdiyini duymuşdu.

...Leopoldinanın ölümünün 5-ci günü – sentyabrın 9-u... Hüqo təngnəfəs olduğu adadan tez qaçmaq istəyir. Dilicanın yola düş-məsini gözləyərkən o, bir kafeyə daxil olur və pivə istəyir. Birdən gözləri bir qəzetə sataşır. Bir nəfər gözlənilmədən şairin rənginin saraldığını, sanki, əli ilə ürəyini tutmasını və qalxıb dəli kimi sən-dələyə-səndələyə qala divarından yapışıb addımlamasını görür. Qəzetdə Viyekiyedə baş verən qəzadan danışılırdı. O, Sübizi şəhərindəki kafedən müsibət içərisində həyat yoldaşına yazırdı:

“Yazıq qadınım, ağlama! Taleyin hökmünə tabe olmalıyıq... Bir az iradəli olmaq lazımdır... İndi mən gəlirəm, bu bədbəxt əzizlərimizi birlikdə ağlayaq”.

Hüqo Parisə gələrkən hələ yolda dərdlə dolu ürəyini ağ vərəqlərə boşaltmağa başlayır...

Hüqonun kədəri heç bir ölçüyə sığmır. Həyat yoldaşı isə bütün günü Leopoldinanın saçını əlində tutub ağlayır. Hara baxırsan – divarda da, masanın üstündə də nakam qızının portreti.

Hüqo özünü ələ ala bilmir. Hüqo özünə gələ bilmir. Qələm dostları da onun kədərinin dərinliyini və böyüklüyünü yaxşı duyur, hiss edir. Onore de Balzak yazırdı: “Hüqo birdən-birə on il qocaldı”.

Şair tez-tez Viyekiyeyə qızının, üzərinə qızılgüllər əkilmiş qəbri üstə gedirdi. O, qızı haqqında yazırdı: “Mən bu bədbəxt körpəni o qədər istəyirdim ki, onu dillə ifadə etməkdə çətinlik çəkirəm”. Uzun müddət şairin qələmi susdu. Ancaq zaman keçdikcə müxtəlif illərdə şair sentyabr ayının 4-nə – qızının ölümünə şeirlər həsr etməyə başladı.

1844-cü il sentyabrın 4-ü – Leopoldinanın ölümünün birinci ildönümü... Xəyal onu 1834-cü ilə aparır. Onların Furkedə ailəlikcə istirahət etdiyi günlərə...

Şair öz aləmindəki yaş fərqini nəzərdə tutur. Həqiqətdə Leopoldina 1824-cü ildə anadan olmuşdu. O, 10 yaşında olanda, Hüqonun 32 yaşı vardı.

Romantik Hüqo qızını da öz romantik dünyasına apararaq bu ruhda bəsləyirdi.

Engels yazırdı ki, elə bil, dünən idi, Homer özünün “İliada” və “Odisseya” əsərini yaradırdı. Əgər bu nəhəng sima 2700-2800 il əvvəli dünən adlandırırsa, bəs Hüqo 10 il əvvəli necə adlandırsın, hansı vaxtla ölçsün:

Yanıma gələndə sevincək idi,
Səmimi fikirlə mehriban mələk.
O günlər necə də ehmalca keçdi
Ya bir xəyal kimi, ya həzin kövrək.

1845-ci il... Leopoldinanın vəfatının ikinci ildönümü... Hüqo qızına növbəti şerini həsr edir. Sentyabrın 4-ü günü.

Nə dəhşətli düşüncə?
Yaxşı, ya pis bu yazı,
Alnımıza yazılıb?
Allah, buna yox pozu?

1846-cı il. Leopoldinanın faciəli ölümünün 3-cü ildönümü. Sentyabr ayının 4-ü... Şair qızı ilə olan günlərini yada salır. Kövrək xatirələr şairi kədərləndirir:

O yerdə yaşadıq bir vaxt, daxil ol,
Ürək, xoş keçmişə, gör bir var nələr.
Duyardım pəncərəm altında yüz yol,
Sakitcə oynardı o, səhər-səhər.

Bu anda uşaqları üçün Hüqodan güclü nə böyük alim vardı, nə də şair. Buna görə uşaqlarının fikrini ifadə edən şair – "mən Aristoteldim, həm də ki Homer" – yazırdı.

1846-cı ildə Hüqo qızının ölümünə, əvvəlki illərdən fərqli olaraq bir neçə şeir həsr edir. Nədənsə onun müxtəlif illərdə yazdığı bu silsilə şeirlərinə "3 il sonra" adı ilə ümumi başlıq qoyulmuşdur.

Şair həmin il oktyabrın 12-də və noyabrın 10-da qızının ölümünə yeni şeirlər həsr edir. Görünür, şairin kədəri sinəsinə sığmır, onu silkələyir, narahat edir və bu kədər şairin özünün belə xəbəri olmadan artıq şerə çevrilir və onu bir az ovundurur. Artıq üç ildir ki, Hüqonun qəm üstündə köklənmiş ilhamı, sanki, rişə atmış, güclənmiş və qövr etmişdi. Buna görə də o, həmin silsilədən ardıcıl olaraq bir neçə şeir yazır.

1883-cü ildə şairin anadan olmasının 80 illiyi münasibətilə bayram keçiriləndən sonra Hüqo xahiş edir ki, onun yubileyində daha bayram etməsinlər. O deyir: "Həyatımda o qədər matəm vardır ki, mənim üçün daha bayram ola bilməz".

Şair həmin fikri hələ, təxminən, 40 il əvvəl buna uyğun şəkildə poetik dillə belə ifadə etmişdi:

Ancaq fikirləşin nə edirsiniz?
Mələyin siması gözəldir, heyhat.
Məni bayramlara çağıranda siz,
Bəlkə də, soyuqdur qəbri o saat.

Şairə elə gəlir ki, o, qızının qəbri üstə getsə, onun soyuq məzarı da isinəcək:

Olar ki, göyərmiş, rəngi də solmuş
Ensiz çarpayıda, o deyər bu an:
– Məgər atam məni belə unutmuş.
O, yanımda yoxdur, soyuqdur yaman

1847-ci il sentyabr ayının 3-ü...

Leopoldinanın faciəli ölümünün 4-cü ildönümünə bir gün qalır. Hüqo səhər tezdən qızının qəbri üstünə gül-çiçəklərlə pərişan, qüssəli halda yola düzəlir. Çünki qızı atasının onun qəbri üstə gec gəlməsindən "şikayətlənir".

Səhər tezdən sübh çağı. Kənddə ağaranda dan
Yola düşəcəyəm bax. Bilirəm, gözləyirsən.
Meşələrdən keçəcəm, dağlar aşacam inan.
Ta yaşaya bilmirəm, səndən ayrılıqda mən.

"Dərdli adamlar yol getdikləri zaman heç vaxt geriyə dönüb baxmırlar, çünki onlar öz qara talelərinin dallarınca gəldiklərini çox gözəl bilirlər". On altı ildən sonra deyəcəyi bu sözlər indi Hüqonun özünə aid idi:

Elə addımlayıram. Dalğın, fikrə gedərək,
Eşitmirəm nə səs-küy, görmürəm şeytan, nə cin.
Əllərim qabar-qabar, bel əyilib, qərib tək.
Gündüzüm gecə kimi mənə olacaq qəmgin.

Hüqo bu şeirlə kifayətlənmir, səhərisi gün, yəni sentyabrın 4-də ildönümü münasibətilə böyük bir şeir yazır.

Şair Parisin tüstü-dumanından, səs-küyündən kənara çəkilib, ağacın kölgəsində oturub, üzü göylərə özünün kədər aləminə dalıb. Gözünün önündən düzənliklər, meşələr, vadilər, çiçəklər gəlib-keçir. Onların arasında o, qızını da görür... Dərd, kədər şairə hücum edib, onu amansızcasına içəridən qurd kimi didib-dağıdaraq əldən salmış, özünün dediyi kimi, "bu gün elə zəifəm, necə bir qadın kimi". Göz yaşları, ağlamaq yorub əldən saldığına görə o taqətdən

düşmüşdü. Ancaq bununla yanaşı, o, göz yaşlarının kəsilməsini də istəmir:

Heyhat! Bəbəklərimdən qoyun axsın göz yaşım,
Bəzən də bunun üçün yaranıb, bəlkə, adam.
Qoyun məni əyilim üstə bu soyuq daşın
Uşağıma deməyə: hiss edirsən, buradayam?

Bir gün əvvəl "Yaşaya bilməyirəm daha ayrılıqda mən," – deyən şair bu gün yenə həmin fikrə qayıdır. Hüqo üçün Leopoldinasız həyatın dadı, ləzzəti qaçmışdı:

Heyhat! Ötən anlara baxıram qibtə ilə,
Onsuz təsəlli vermir mənə bu dünya, həyat.
Ömrümün bu anına hər vaxt baxanda belə
İndi uçub gedəcək, görürəm, açmış qanad.

1852-ci il sentyabrın 4-ü... Hüqonun itirdiyi əzizlərinin xatirəsinə şeirlər yazdığı sonuncu 4 sentyabr günü. Bir gündə iki şeir: şeirlərdən biri kürəkəninin adı ilə "Şarl Vakeri" adlanır. Hüqo özünü Şarl Vakeriyə borclu sayır və bu şeri ilə, sanki, ona olan borcunu, az da olsa, ödəmək istəyir... Şarl üzməyi bacardığı üçün xilas ola bilərdi, ancaq sevgilisinə olan güclü məhəbbət buna imkan vermədi, qucaqlaşaraq, hər ikisi çayda boğuldular:

Ruhları danışır, səs-küylü dalğa altda,
– Nə edirsən? – deyirdi. – "Ölürsən?" – sorur o da,
Lazımdır mən də öləm.
Qucaqlaşaraq qollar, sarılıb şən ər-arvad
Kölgədə yox olaraq gözdən itdi bu saat,
Çay da ağlayır bu dəm.

Şair Şarlın, qızının yolunda öldüyünü dönə-dönə minnətdarlıq hissi ilə yad edir: "Mənim göyərçinimə həyatını verdin sən", "Xilas edəmmədi onu, özü ölmək istədi".

Aylar, illər keçir... Nə vadilər, nə Viyekiye, nə səfalı, gözoxşayan yerlər, nə də cəsur qağayılar bu nakam aşiqin səsini eşitmir və bir daha eşitməyəcək.

Sena yenə öz gözəlliyində, külək də əsməyindədir.
Bütün sərin vadilər, Viyekiye, Kudabək,
daha eşitməyəcəkdir qışqırığınızı, gedək!
Sena necə gözəldir, həzincə əsir külək.
Bu möcüzəli yerlər, yaman qəmgin olubdur.
Cəsur qağayılar ta deməyəcək: "Bu odur".
Çiçəklər də "bu odur" söyləməyəcək daha.

Şair romantik arzuları ilə onlara xeyir-dua verir: "Məzarda xoşbəxt olun, o yerdə yatırsınız", "yat, sən, ey əziz oğlum, yanında əziz qızım", yaxud "yaşayın siz, sevin siz, əbədi xoşbəxt olun, oh, dalğın mələklərim, uğurlar olsun sizə".

Şair ikinci şerində "Ah! İlk zamanlarda mən, sanki, olmuşdum dəli. Ağlayacaqdım üç gün kədər içində, bəli" – deyə faciədən xəbər tutduğu ilk anları hadisənin ona necə dərin təsir etdiyini xatırlayır. O, qızının vəfasına inanır, vəfasına inandığı üçün də ölümünə inanmır.

O heç vaxt bacarmazdı belə tərk etsin məni,
Eşidərdim mən qonşu otaqda gülməyini...
Dəfələrlə söylədim "sakit", osa danışır
Burax! Budur əlində açar o səs-küy salır.
Gözləyiniz! O gəlir! Mən eşidim qoyun siz
Çünki o haradasa, bu evdədir, şübhəsiz.

Birinci – "İki atlı meşədə nə düşünürdü" şerini 1853-cü ilin oktyabrında, ikinci şeiri – "Yüyən ağızlığı"nı 1854-cü ilin mart ayında yazır. Şair 1843-cü ildən başlayıb 12 il müddətinə davam edən kədər dastanını 1854-cü ildə yazdığı həmin şeir ilə tamamlayır.

Bəzən düşünməli olursan... Nə üçün Hüqo 45 il bir yerdə ömür sürdüyü, 1867-ci il avqustun 27-də vəfat edən Adel Hüqoya şeirlər həsr etmədi, ancaq qızına həsr etdi?

Səbəb nə idi ki, o yalnız Leopoldinaya kədərli şeirlər yazdı? Bəlkə, o, şairin ilk övladı idi, ona görə?

Şair ilk nəvəsini həsrətlə gözləyirdi, ancaq tale onu bu qismətdən məhrum etmişdi. "Dünyada körpə qığıltısından gözəl himn yoxdur". Bu sözlər də Hüqoya məxsus idi. Çoxdan idi, şairin evi belə "himn"i eşitmirdi. Bəlkə, bu şeirlərin yazılmasında eşidilməyən qığıltının da payı vardı.

Bu sirlər yenə də az-çox şairin özünə bəlli olardı...

Bu kədər od, alov, atəş olub şairi yandırıb-yaxmışdı. Həmin od, alovun içərisindən Hüqonun qızı və kürəkəninə həsr etdiyi "1843-cü il, 4 sentyabr" silsilə şeirləri vulkan kimi püskürüb çıxmışdı. Bu şeirlər Viktor Hüqo kimi nəhəng sənətkarın onlara yaratdığı əzəmətli, əvəzsiz bir abidə idi.

Hər xoşagəlməz hadisənin yaxşı cəhəti də olur. Bir yerdə itiriləndə, haradasa qazanılır. Bəli, Hüqo çox itkiyə məruz qaldı və bu itki onun səhhətinə də, həyatına da, ömrünə də təsir etdi. Ancaq dünya ədəbiyyatını, təxminən, min misralıq şeir-abidə ilə zənginləşdirdi.

* * *

...Həyatın burulğanları içində çırpınan Fantina yaşamaq üçün yol tapa bilmir. Ancaq o yaşamaq istəyir, heç olmasa, bircə körpəsinin xatirəsi üçün. Dövran onu elə bir vəziyyətə salmışdır ki, o, artıq dostu ilə düşmənini seçə bilmir...

Haradan gəlirsən? – Küçədən.

Haraya gedirsən? – Küçəyə.

Tenardyelər yalnız qızlarına valideynlik edirlər. Onların oğlu Parisdə səfil bir həyat keçirir, küçədə böyüyür. Qavroş küçədə qalmış iki ac uşağı yedirdir, onları gətirib yanında yatırdır. Yıxılmış qadını qaldırır, sonra əvvəlki kimi yoluna sürətlə davam edir. O, hətta döyüş meydanında güllələrlə zarafat etməyi də bacarır. Bütün bu tərbiyəni o, küçədə almışdı.

...On yaşlı uşağı dəniz kənarında qoyub gedirlər. O isə qarşısına çıxan ayaq izilə irəliləyir. Yolda ölmüş ananın qucağından uşağı götürüb, əynindəki tək bir pencəyini ona büküb yoluna davam edir. Qarşısına çıxan şəhərin sonuncu evindən aldığı cavab: "Çıx get buradan, hamı xoşbəxt ola bilməz". Nə qədər sərrast ifadə! Müdrik adamlardan biri deyir ki, bütün xoşbəxt talelər bir-birinə oxşasa da, bütün bədbəxt talelər bir-birindən fərqlənir. Fantina, Kozetta surətlərində Hüqo nə qədər realistdirsə, Jan Valjan surətində bir o qədər romantikdir. Hüqonun bədbəxt surətlərini düşdükləri faciələrdən qurtarmaq üçün gəldiyi son nəticə və çıxış yolu belədir: "İki bədbəxtlik birləşib bir xoşbəxtlik əmələ gətirir": Madlen ata – Fantina, Madlen ata – Kozetta, Madlen ata – Foşlevan baba, Jan Valjan – Marius, Marius – Kozetta, sahilə atılan oğlan və təsadüf olunan qız uşağı.

Ancaq bu səfillər bəzən üsyan etməyi də bacarır, cəmiyyətin yetirdiyi "üst təbəqə"ni qorxuya da sala bilir. Həmin yüksək təbəqənin adamları lazım gəldikdə öz hiyləgərliklərindən əl çəkmirlər.

İnsanlığın naminə tikdim bu qalaları,
Ancaq sən qışqırırsan, hey qalxırsan yuxarı.

İnsanlıq naminə tikilmiş qalalar, həbsxanalar nə böyük səxavətdir. "O qala, həbsxanalar ki, orada azadlıq yolunda baş qaldırmış saysız-hesabsız insanlar çürümüş, başları gilyotinlərin altında üzülmüşdür. İnqilablar beşiyi Fransa üçün bu, xarakterik bir hal idi.

Səfillər dünyasının kədəri, bu kədərin son həddə çatıb, çevrildiyi qəzəb bəzən hökmdarları – Lantenakları öz taxtından tullayır, qovur. Cəmiyyətin ən yüksək silki – hökmdar kral, cəmiyyətin ən aşağı silkinin – dilənçinin himayəsində yaşayır. Bir az diqqət yetirilsə, aydın olur ki, hökmdar əvvəl də işləmirdi, indi də. Deməli, dilənçidən də aşağı mərtəbədə yaşayır. "Qoca dünya"nın kədərli və ziddiyyətli mənzərəsidir.

Viktor Hüqo ölüm ərəfəsində öz yaradıcılığına yekun vuraraq özü haqqında belə demişdir: "Mən öz kitablarımda, dram, nəsr əsərlərimdə kiçik və bədbəxt adamları müdafiə etmişəm, ...təlxəyin, nökərin, məhbusun və fahişənin də insan hüququ olduğunu göstərmişəm". Bu cəhətdən də onun kədər aləmi, səfillər dünyası olduqca rəngarəngdir.

Hüqonun ümmanlara bənzəyən, sahili görünməyən kədər dünyası qarşısında acizliyimizi etiraf edib, ədibin ümumi kədərinin ayrılmaz bir parçası olan "Səfillər" romanı haqqında bir az ətraflı söhbət açmaq istəyirik.

Hüqo "Səfillər" romanını 1862-ci il fevral ayının 13-də – "Paris Notrdam kilsəsi" kitabının nəşrindən düz otuz bir il sonra yazıb qurtarmışdır. "Səfillər" romanının birinci cildi 1862-ci il aprel ayının 3-də nəşr olunmuşdu. Əsər işıq üzü görən kimi çox böyük müvəffəqiyyətlə qarşılanır və sürətlə yayılmağa başlayır. Ancaq təbii olaraq, bununla yanaşı, roman tənqid atəşinə də tutulur. Çox təəssüfləndirici haldır ki, bunların sırasında tənqidçi Küvliye Fleri ilə yanaşı, Hüqonun dostları Bodler və Lamartin də var idi. Halbuki Hüqonun özü vaxtilə bu dostlarının yaradıcılığı haqqında məqalələr yazmış, onların uğurlarını böyük sevinclə qarşılamışdı.

Lamartinin fikrincə, Jan Valjan yalnız adi bir canidir, Fantina fahişə qadından başqa bir şey deyildir. Yepiskop Miriyel isə çox şübhəli bir şəxsiyyətdir. Lamartinə görə, romanın bədii forması da son dərəcə qüsurludur.

İstər Fransanın özündə, istərsə də ondan kənarda "Səfillər" romanı haqqında nə qədər tənqidi məqalə yazılsa da, bu ölməz əsər dünyanın, demək olar ki, bütün dillərinə tərcümə olunaraq müəllifinə geniş şöhrət qazandırdı.

Dahi rus yazıçısı Lev Tolstoy "Səfillər" romanını fransız ədəbiyyatının ən yaxşı romanı adlandırmışdı: "Bu əsəri Milan şəhərində italyan dilində nəşr etmiş cənab Daelli onun haqqında müəllifə yazmışdı ki, "Səfillər" bütün dünya xalqları üçün qələmə alınmış kitabdır".

Hüqo isə Daelliyə yazmışdı: "Bu kitabı hamı oxuyacaqmı, bunu bilmirəm, ancaq mən onu hamı üçün yazmışam. Bu, eyni dərəcədə həm İngiltərəyə, həm də İspaniyaya, həm İtaliyaya, həm də Fransaya, həm Almaniyaya, həm də İrlandiyaya, həm köləsi olan respublikalara, həm də təhkimli kəndlisi olan dövlətlərə aiddir. İctimai problemlər üçün dövlət sərhədi yoxdur. Dünya xəritəsində olan göy, ya qırmızı sərhəd xətləri insan cəmiyyətinin yaraları üçün, bütün yer kürəsini bürüyən bu dərin yaralar üçün maneə ola bilməz. O yerdə ki kişi cahildir, ümidsizlik içindədir, o yerdə ki qadın özünü bir parça çörəyə satır, o yerdə ki uşaq məlumat verən kitabdan, onu isidən ailədən məhrum olduğu üçün əzab çəkir, mənim "Səfillər"im: "Açın, biz sizə gəlmişik!" sözləri ilə qapıları döyür. Bəli, əvvəllər "Yoxsulluq" adlanan "Səfillər" romanı Avropanın hər hansı bir ölkəsi üçün xarakterikdir".

"Səfillər" romanından bəhs edən tədqiqatçılar onu tez-tez müəllifin "Klod Ge" povesti ilə müqayisə edirlər. Bəzən də "Klod Ge" povestində başlayan hadisələrin "Səfillər" romanında başa çatdırıldığı söylənilir.

Klod Ge ehtiyac üzündən oğurluq eləmişdi. Oğurluq etməsi bəlli olmasa da, həmin oğurluğun hesabına o və uşaq üç gün çörəyin və "isti bucağın" hənirtisini görmüşdülər. Klod Geyə beş il həbs cəzası verilir. Klod həbsxana yeməyi ilə doymur. Dünya isə yaxşı adamlardan xali deyil. Allen adında iyirmi yaşlı bir gənc öz yeməyinin yarısını Kloda verməklə bu məsələni həll edir. Həbsxanada Klodun nüfuzu günbəgün artır, burada baş verən çaxnaşma-

ların qarşısını almaqda direktor, rütbəli şəxslər aciz qaldıqları bir zamanda, o, bu məsələni asanlıqla həll edir. Buna paxıllıq edən direktor, Alleni oradan uzaqlaşdırır, bununla da yeni faciənin yaranmasına səbəb olur, sözün əsl mənasında, öz ölümünə fərman verir.

Həbsxana direktorunu balta ilə öldürən Kloda ölüm hökmü verilir...

Jan Valjan da oğurluq üstündə həbsxanaya salınmışdı. Bacısının yetim qalmış yeddi uşağını aclıq əzabından xilas etmək üçün çörək oğurlayarkən yaxalanır, beş il katorqa cəzasına məhkum edilir.

Hüqonun özü də "Səfillər" romanında bu surətlərin üzərinə qayıdaraq yazır ki, bu kitabın müəllifi, cinayət hüququ və qanun adına cəza vermək məsələlərini öyrənərkən ikinci dəfədir ki, insan taleyinin fəlakətə uğraması kimi çörək oğurluğu hadisəsinə rast gəlir. Klod Ge də çörək oğurlamışdı, Jan Valjan da.

Klod Geyə ölüm hökmü verilir. Sonda məhkəmə iclasçıları müttəhimdən bir sözü olub-olmadığını soruşduqda – "bir az əlavəm var, – deyə Klod dillənir. – Məsələ burasındadır ki, mən oğruyam, qatiləm, doğrudur, oğurluq etmişəm, nə səbəbə adam öldürmüşəm? Möhtərəm məhkəmə iclasçıları, bu sualların hər ikisini də o biri sualların yanına yazın. Axı bunlar da sualdır".

Məhkəmə iclasçıları bu iki suala cavab vermirlər. Bu sualların cavabı yalnız onun gözlərindən oxunur. Hüqonun dediyi kimi, insan gözləri elə bir pəncərədir ki, oradan insan beynində cövlan edən fikirlər aydınca görünür.

"Səfillər" romanında həmin sualı daha çox vermək olar: "Jan Valjan nə üçün həbsxanaya düşmüşdür?", "Nə üçün o uzun müddət gizli halda yaşamışdır?", "Nə üçün Fantina saçlarını kəsdirib satır?", "Nə üçün o, dişlərini çəkdirib satır?" və s.

Təbii ki, bu sualları zaman və cəmiyyət doğurmuşdu ki, onların cavabını da burada axtarmaq lazım idi.

Klod Genin fəaliyyəti zaman ölçüsü etibarilə qısa şəkildə davam edir – çörək oğurlamaq, həbsxana həyatı, ölümə məhkumluq. Bununla da onun həyat və fəaliyyəti sona çatır.

Jan Valjanla Klodun taleyində bir oxşarlıq olsa da, birincinin fəaliyyəti müqayisəolunmaz dərəcədə genişdir.

Beş il həbs cəzasına məhkum olunmuş Jan Valjan dəfələrlə qaçmağa cəhd göstərir, buna görə də on doqquz il katorqa cəzası çəkməli olur.

Hüqo əsərinin baş qəhrəmanı haqqında yazır ki, Jan Valjan katorqa həbsxanasına titrəyə-titrəyə və ağlaya-ağlaya girmişdi; oradan isə qəlbi daşa dönmüş halda çıxdı.

Azadlığa buraxılmış Jan Valjan hara getməlidir?

Burada onun taleyi dəniz kənarına atılmış Quənplənin taleyinə bənzəyir. Quənplən də qarşısına çıxan kəndin bütün qapılarını döyür, heç kəs onu qəbul etmir.

On doqquz illik katorqa cəzasından sonra Jan Valjanı da heç bir yerdə qəbul etmirlər – nə mehmanxanalarda, nə də evlərdə, Quənpləndən fərqli olaraq, qalacağı yerin haqqını ödəmək istəsə belə, ona yer tapılmır.

Jan Valjan özü də bilmədən it damına düşür, orada gecələmək istəyir. İt damından qovulduqda, "Ah, it də məndən yaxşı yaşayır," – deyir.

Nəhayət, Quənplənə Urs, Jan Valjana yepiskop yer verir. Göründüyü kimi, Hüqo qəhrəmanlarının həyatında müəyyən oxşarlıqlar mövcuddur.

"Səfillər" romanında maraqlı cəhətlərdən biri müəllifin öz qəhrəmanlarının xarakteri ilə bağlı izahlar verməsidir. Bu fikir romandakı hadisələrin gələcək istiqaməti barədə müəyyən təəssürat yaradır. Hüqo əsərinin baş qəhrəmanı haqqında yazır: "Gördüyümüz kimi, Jan Valjan təbiətən pis adam deyildi. Katorqaya düşdüyü zaman o, hələ rəhmli idi. Məhz katorqada o, cəmiyyəti müqəssir etdi və ürəyinin kinlə dolduğunu hiss elədi; məhz katorqada Tanrını təqsirləndirdikdən sonra allahsız olmağa başladığını hiss etdi".

"Burada biz bir dəqiqə fikirləşə bilməyəcəyik", – deyən Hüqo fikrini belə davam etdirir: "İnsan təbiəti kökündən, yerli-dibli dəyişilə bilərmi? Allahın rəhmli yaratdığı bir insan, başqa bir insanın təqsiri üzündən kinli ola bilərmi? İnsanın taleyi acı olmuşsa, onun qəlbi taleyin təsiri altında tamamilə dəyişilib kinli ola bilərmi?.. Tavanı həddindən artıq alçaq olan daxmada onurğa əyildiyi kimi, ürək də hədsiz qəm-qüssənin ağırlığı altında dəyişərək, əlacı olmayan xəstəliyə tutula bilərmi, pis və eybəcər ola bilərmi? Bəlkə də, hər bir insanın qəlbində, xüsusən Jan Valjanın qəlbində, bu dünyada sarsılmayan, o dünyada isə sönməyən, yaxşılığın təsiri altında alovlanıb parlaq bir işığa çevrilən, pisliyin isə qətiyyən söndürə bilmədiyi əzəli bir qığılcım vardır..."

Bəli, Jan Valjan katorqadan çıxdıqdan sonra "ürəyi kinlə" dolu idi. Ona yeganə yer vermiş yepiskopun evindən gecə ikən gümüş çəngəl-bıçaqları oğurlayıb qaçması da həmin kinin təzahürü idi.

Ancaq Jan Valjan üç nəfər polis adamı tərəfindən yaxalanarkən yepiskopun onu yenidən həbsxanaya düşməkdən xilas etməsi, hətta əlavə iki gümüş şamdan bağışlaması onu tamamilə başqa bir adama çevirir.

Gümüşləri verərkən yepiskopun dediyi sözlər Jan Valjanın qəlbində dərin iz salaraq, sanki, məşələ çevrilmişdi: "Unutmayın, heç bir zaman unutmayın ki, bu gümüşləri namuslu adam olmaq üçün sərf edəcəyinizi mənə vəd etmişdiniz.

...Jan Valjan, qardaşım, siz artıq şərə tabe deyilsiniz, xeyirin ixtiyarındasınız. Mən sizin ruhunuzu satın alıram. Mən sizin ruhunuzu qara fikirlərdən və zülmət dünyasından xilas edib Allaha tapşırıram".

Jan Valjan keşişin evində etdiyi oğurluqdan sonra yenə bir günah iş görür. Uşağın əlindən düşən qırx su pulun üstünə ayağını qoyur, uşağı kobud şəkildə qovur. Əgər çəngəl-bıçaqları oğurlayarkən, o heç bir əzab çəkmirdisə, indi tezliklə peşman olur. "Balaca Jerve!"– deyə qışqırıb uşağı axtarmağa başlayır, yolda rast gəldiyi adamlardan onu soruşur. Əlacsız qaldıqda, "Mən alçaq bir adamam"– deyə özünü məzəmmət edir. O, bu sözləri dönə-dönə təkrarlayır. Keşişin "Siz mənə namuslu adam olmağı vəd etdiniz" – sözləri onu daim təqib edir.

Hüqonun dediyi kimi, keşişin mərhəməti ömründə onu sarsıdan ən şiddətli hücum idi. Bu "şiddətli hücum" tərəddüd içində olan Jan Valjanın qəlbindən kini atıb, xeyirxahlığı rişələndirdi, gücləndirdi, şaxələndirdi.

Bu xeyirxahlığın əlaməti olaraq Monreyl şəhərində baş verən yanğın zamanı canından keçərək özünü odun içinə atıb, yanmaqda olan iki uşağı xilas etdi. Həmin hadisə onun xeyirxahlığının başlanğıcı oldu.

Madlen baba adı ilə tanınan Jan Valjan Monreyl şəhərində işə düzəlir və tətbiq etdiyi yeni üsulla xeyli qazanc əldə edir. Onun əldə etdiyi qazanclar o qədər çoxalır ki, artıq ikinci il o, böyük bir fabrik tikməyə nail olur. İndi düzgün yola qayıtmış Jan Valjan hər kəsi işə götürür və hamıdan da "namuslu adam olmağı, namuslu qadın" olmağı tələb edir. Qadın və kişilərin emalatxanalarını

bir-birindən ayırmaqla qızların da, qadınların da namuslu qalmasına xidmət edir.

Özü səfillikdən qurtaran Jan Valjan nə qədər səfillərə himayədar olmağa başlayır.

Sadəliyi, xeyirxahlığı ilə get-gedə Madlen baba cənab Madlenə çevrilir. Xəstəxanada öz hesabına çarpayıların sayını artırır. İki məktəb binası tikdirir – biri oğlanlar, digəri qızlar üçün. Səfilliyin ən aşağı səviyyəsinə yuvarlanmış Fantinaya qayğı göstərir. Tenardyelərə pul verib Kozettanı onların zülmündən qurtarır, gətirib yanında saxlayır, böyüdüb ərə verir, ağır arabanın altında qalıb, palçığın içində həyatla vidalaşmaqda olan Foşlevan babanı ölümdən xilas etməyi, döyüşdə ağır yaralanmış Mariusu zirzəmiyə çiynində gətirib həyata qaytarmağı, nəhayət, uzun illər onu təqib edən polis Javeri güllələmək imkanı elə düşdükdə, azadlığa buraxmağı bu insanın nə dərəcədə dəyişildiyinin əyani təsdiqidir.

"Səfillər" romanında XVIII yüzilliyin dahi fransız yazıçısı Volterin "Zadiq, yaxud tale" povestindəki oxşar epizodlar da özünü göstərir.

"Zadiq" əsərində Zadiq yolda rast gəldiyi kahinlə bir varlının evində gecələməli olur. Ev sahibi onları çox qonaqpərvərliklə qarşılayır. Qızıl teştdə qonaqların əllərini yudurur. Ancaq evdən çıxarkən kahin qızıl teşti və qaşıqları oğurlayır. İkinci bir evdə qalarkən onlara çox pis xidmət edilir. Buna baxmayaraq, kahin oğurladığı qızıl teşti və çəngəl-qaşıqları bu ev sahibinə verir. Zadiq bunun səbəbini soruşduqda, kahin cavab verir ki, birinci ev sahibi şöhrətpərəstliklə öz var-dövlətini göstərmək istəyirdi, ona görə bunları oğurladım, ikinciyə ona görə verdim ki, qoy o, xidmət etməyi öyrənsin.

"Səfillər" romanında da Jan Valjan yepiskopun evində qalarkən süfrəyə yalnız lazım olan üç dəst çəngəl-bıçaq qoyulur. Ancaq bu evin qaydasına görə, yepiskopun qonaqlarından biri axşam yeməyi üçün qaldıqda altı dəst gümüş çəngəl-bıçağın hamısı ortaya qoyulmalı idi.

Hüqonun yazdığı kimi, "ziyansız bir lovğalıq!" Əvvəldə qeyd olunduğu kimi, sanki, bu "lovğalığa" dərs vermək məqsədilə burada da oğurluq hadisəsi baş verir.

Əsər bir növ psixoloji gərginlik yaradan səhnələr üzərində qurulmuşdur. Mariusun atasının öz oğlunu görmək üçün həftədə bir dəfə kilsəyə gələrək sütunlar arxasından gizlin ona baxması,

Jan Valjanın həbsxanaya düşməsi, bacısının yeddi uşağının kimsəsiz qalması, katorqa cəzasından sonra yer tapa bilməməsi, oğurluq anları, Kozettanı apararkən meşədə Tenardye ilə rastlaşması, Tenardyenin qurduğu tələyə düşməsi, Javeri öldürməyə aparması belə səhnələrdəndir.

Hüqonun yazdığı kimi, "türk kimi qüvvətli olan Jan Valjan bir çox çətinliklərdən məhz öz ağlasığmaz fiziki gücünün köməkliyi ilə çıxır. Həbsxanada da bu qədər qüvvətli ikinci adam yox idi. Ağır dəmir kanatı çəkməkdə, yaxud gəminin çarxını döndərməkdə dörd nəfəri əvəz edən bu insan, bəzən çox ağır şeyləri çiynində saxladığı üçün yoldaşları tərəfindən Domkrat Jan ləqəbi qazanır. O, qüvvətli olmaqla yanaşı, həm də çox çevik idi".

"Səfillər" romanından söhbət açılarkən bir məsələyə münasibəti xüsusi bildirmək lazım gəlir. Bizcə, əsərdəki Kozetta surəti ilə müəllif 1843-cü ilin sentyabrında Sena çayında boğulmuş Leopoldinanın surətini yaratmışdı. Bu fikri əsaslandırmaq üçün müqayisə aparmaq lazım gəlir.

Hüqo 1844-cü ilin sentyabrında Leopoldinanın ölümünün birinci ildönümü münasibətilə "Hamımız bir yerdə" adlı şeirini yazır. Xəyalən o, 1834-cü ildə – on il əvvəl Furkedə ailəliklə istirahət etdiyi günlərə qayıdır. Bu şeirdən iki bəndə müraciət etmək istərdik.

O dəm ki mən onun əlindən tutar,
Onda şahanəlik qüruru vardı.
Yollarda kasıbı arayıb tapar,
Çöldə yorulmadan gül axtarardı.
O, mənə verərdi utancaq onu,
Hər şey gözlərində çıxardı yoxa.
Bir de, xatırlarsan gözəl donunu
Yadına düşürmü, vardı o vaxt ha!

"Səfillər" romanında Hüqo bu mənzərəni, demək olar, eynilə Kozettanın simasında təqdim edir... Kozettanın toy günü Jan Valjan toyda Marius və Kozettaya öz xeyir-duasını verəndən sonra, iyunun 4-də köçdükləri Silahlı adam küçəsindəki evlərinə qayıdır, tələsə-tələsə sandıqçaya yaxınlaşıb onu açır:

"Kozettanın uşaqlıq paltarlarını oradan yavaş-yavaş çıxarmağa başladı: Kozetta on il əvvəl Monfermeyldən bu paltarda getmişdi.

Əvvəl kiçicik qara donunu, sonra qara ləçəyini, sonra da qəşəng uşaq ayaqqabısını, ...xırdaca cibləri olan döşlüyünü, yun corabını çıxartdı; Kozettanın ayaqları elə balaca idi ki, bu ayaqqabıları indi də geyə bilərdi. Corablarda hələ də qəşəng uşaq ayaqlarının izi qalmışdı... Jan Valjan özü bu şeyləri Kozetta üçün Monfermeylə gətirmişdi. Bunları sandıqçadan çıxartdıqca yatağın üstünə, bir-birinin yanına qoyurdu. Jan Valjan düşünür, o günü yadına salırdı... Jan Valjan bu uşaq paltarını çarpayının üstünə qoydu... bir-bir onlara baxmağa başladı".

Hüqo qızıyla Furkedə keçirdiyi günləri göz önünə gətirərək "Bir bax, yol gedirdik, dumanda necə, qaçırdıq biz meşədə, dağda" – deyir.

"Səfillər"də isə: "Jan Valjan Monfermeyl meşəsini xatırladı; meşədən onlar ikisi bir yerdə keçib getmişdi; o, çovğunlu qış gününü, çılpaq ağacları, quşsuz meşəni, günəşsiz göyü xatırladı – hər necə olsa, bunlar gözəl xatirələrdir".

Hüqo qızı ilə birgə olduğu o xoş çağlara nəzər salır, "o günlər necə də ehmalca keçdi, həm bir xəyal kimi, həm də ki kövrək!" – deyərək kövrəlir.

"Səfillər" romanında isə Jan Valjan ötən zamanı yadına salaraq, daha ağır iztirab keçirir: "Birdən onun ağsaçlı başı yatağa sarı əyildi, ...bu zaman pilləkənlə bir adam qalxsaydı, ürək parçalayan hönkürtü səsi eşidərdi".

Fikrə daha geniş aydınlıq gətirmək məqsədilə bir məsələyə də öz münasibətimizi bildirmək istərdik.

1843-cü il fevral ayının 15-də Leopoldinanın toyu olur. Bu münasibətlə Hüqo qızına şeir həsr edir:

Eşqini əsirgəmə, sevgilinlə xoşbəxt ol.
Get ol ona xəzinə, bir vaxt bizimdin yalnız
Sevinc apar bir evdən o birinə, yaxşı yol,
Sən qovuş səadətə, nə eybi qalsaq yalqız.

"Səfillər" romanında da Jan Valjan Kozettaya, Mariusa öz xeyir-duasını verir: "Kozetta Marius üçün günəş, Marius Kozetta üçün kainat olsun. Kozetta, qoy ərinin təbəssümü sizin üçün aydın gün olsun; Marius, qoy arvadının göz yaşı sənin üçün yağmurlu gün olsun. Qoy sizin həyatınızda pis hava olmasın".

Əlbəttə, Jan Valjanın Kozetta və Mariusa verdiyi xeyir-dua çox genişdir. Bu, monoloqdan götürülmüş yalnız bir neçə cümlədir.

Beləliklə, Hüqo qızı Leopoldinanın ölümünə həsr etdiyi şeirlərlə kifayətlənməmiş, "Səfillər" romanında yaratdığı Kozetta surətilə bir daha həmin mövzuya qayıtmış, əziz Leopoldinanın surətini yenidən canlandırmışdı.

"Səfillər" romanını dəyərləndirən cəhətlərdən biri də Hüqonun bu əsərdə geniş şəkildə aforizmlər, hikmətli sözlər işlətməsidir. Onlardan bəzi nümunələri yada salmaq yerinə düşərdi:

"Dərdli adamlar geriyə baxmazlar. Onlar qara talelərinin dallarınca gəldiyini çox gözəl bilirlər.

Ağıllı o adama deyərlər ki, vaxtında özünü dustaq edə bilsin.

Hər əzablı yolun bir istirahəti var.

Gülmək günəş kimidir, o, insanların üzündən qış soyuğunu qovur.

Bəşər alicənablığının ən yüksək nümunəsi başqalarının işlədiyi günahın cəzasını çəkməkdir.

İndi ucuz olan nədir? Hər şey bahadır. Təkcə dərd ucuzdur. Bax bu dərdi lap havayıca alarsan.

Qəlbi soyutmaq olar. Taleyi dəyişmək olmaz.

Sağlam düşüncə yalan deyə bilməz."

Belə nümunələrin sayını istənilən qədər artırmaq olar.

Görkəmli ədəbiyyatşünas, "Səfillər" romanının ilk fəsillərinin Azərbaycan dilinə tərcüməçisi Mikayıl Rəfilinin dililə desək, "Hüqo yaradıcılığının şah əsəri "Səfillər" romanı hər bir insanın mənəvi cəhətdən zənginləşməsi üçün çox qiymətli mənbələrdəndir".

1885-ci ilin 22 may gününü Fransa xalqı milli matəm günü elan etdi. Həmin gün Paris Kommunasının sağ qalan nümayəndələri bir bəyannamə nəşr edərək, fransız xalqını şairə son ehtiramlarını bildirməyə çağırırdılar. Bu çağırışa səs verən bir milyon fransız onun dəfn mərasimində iştirak etmiş və şairə öz ehtiramını bildirmişdi.

* * *

Azərbaycan oxucusu Hüqo yaradıcılığı ilə çoxdan tanışdır. Hələ "Kəşkül" qəzeti 1885-ci ildə 24-cü nömrəsində yazıçı haqqında nekroloq vermiş, onun yaradıcılığını yüksək qiymətləndirmiş, ədibin şerindən tərcümə dərc etmişdi. Hacı F.Ağazadə 1912-ci ildə

Bakıda nəşr olunmuş "Ədəbiyyat" məcmuəsində Hüqo haqqında məqalə yazmış və şairin "Niyazi aziranə" şerini dərc etdirmişdir.

XX əsrin əvvəllərində Hüqo yaradıcılığına müraciət edənlərdən biri də görkəmli şair və tərcüməçi Abbas Səhhətdir. Fransız dilini gözəl bilən Səhhət şairin "Yatmış uşaq" şeirini orijinaldan tərcümə etmişdir. Şeri oxuculara təqdim edirik:

YATMIŞ UŞAQ

Bir körpə uşaq beşikdə yatmış,
Rahat əl-ayaqların uzatmış.
Dünya üzünə gözün qapatmış
Əflaka tərəf nəzarət eylər,
Cənnətdə gəzib səyahət eylər.

Bəşşaş oturub yanında madər
Hərdən beşiyi əl ilə yellər.
Gah layla deyər, öpər, gah iylər,
İstər başına durub dolansın
Qıymaz uşaq uyqudan oyansın.

Məsum uşağın bu halətindən
Madər sevinər bəşaşətindən,
Qəlbi döyünər məhəbbətindən,
Bilməz ki, dil ilə layla çalsın,
Ya ki, döşünə o tifli salsın.

1920-ci illərdən sonra Hüqonun əsərlərinin Azərbaycan dilinə tərcüməsi sürətlənir. Belə ki, görkəmli alim, mahir tərcüməçi Mikayıl Rəfili yazıçının "Gülən adam" (1927), "Paris Notrdam kilsəsi" (1936), "Doxsan üçüncü il" (1948) romanlarını Azərbaycan dilinə tərcümə edir. Hüqo ilə bağlı ilk tənqidi məqalələr də əsasən bu dövrdə işıq üzü görməyə başlayır. Tənqidçi M.Rəfili 1929-cu ildə "İnqilab və mədəniyyət" jurnalının 7-8-ci nömrələrində "Romantizm və Hüqo" adlı məqaləsini nəşr etdirir.

XX əsrin 50-ci illərində istər tərcümə sahəsində, istərsə də ədəbiyyatşünaslıqda Hüqo yaradıcılığına maraq daha da artır. Bunun bir başlıca səbəbi də Hüqonun anadan olmasının 150 illiyi münasibətilə keçirilən yubileyi idi.

1951-ci ildə Vyanada keçirilən Ümumdünya Sülh Şurasının ikinci sessiyasında məşhur Çin yazıçısı Dun fransız yazıçısı Viktor Hüqonun anadan olmasının 150 illiyini, İtaliyalı Ronili Qoqolun vəfatının 100 illiyini, İlya Erenburq isə Leonardo do Vinçinin 500 illiyini qeyd etmək təklifini irəli sürmüş, Ümumdünya Sülh Şurası da bu təklifləri qəbul etmişdi.

Həmin qərardan sonra yazıçının yubileyi ilə əlaqədar həm ümumittifaq, həm də keçmiş sovet respublikalarında yubiley komissiyaları yaradılır.

1952-ci il fevralın 15-də komissiyanın son hazırlıq iclası olur və Hüqonun anadan olduğu günü – fevralın 26-da Moskvada İttifaqlar Evinin Sütunlu salonunda dahi sənətkarın yubileyi təntənəli surətdə qeyd olunur. İclası K.Simonov açır, professor İ.İ.Anisimov əsas məruzəni edir, İ.Erenburq, K.Fedin, M.Bajan, Azərbaycan şairi Məmməd Rahim, türk şairi Nazim Hikmət, rus artistləri V.Pudovkin, A.A.Yabloçkina, A.Korova çıxış edirlər. Fransız şairi Pol Eluar parlaq cavab nitqi söyləyir. Hüqonun nəticəsi rəssam Jan Hüqo da iclasda iştirak edir.

1952-ci il fevralın 27-də Azərbaycan Sülhü Müdafiə Komitəsi, Azərbaycan Elmlər Akademiyası və Azərbaycan Yazıçılar İttifaqı birlikdə Hüqonun yubileyinə həsr olunmuş iclas keçirir. Təntənəli yığıncağı Azərbaycan Yazıçılar İttifaqının sədri M.İbrahimov açmış, prof. Əli Sultanlı Hüqonun həyat və yaradıcılığı haqqında məruzə etmiş, Mirzağa Quluzadə isə "Azadlıq və tərəqqi uğrunda çarpışan böyük mübariz" mövzusunda məruzə ilə çıxış etmişdir.

Həmin il respublikanın, demək olar, bütün dövri mətbuatında görkəmli ədəbiyyatşünas alimlər dahi sənətkarın yubileyi ilə bağlı yazılar dərc etdirirlər.

Professor Mikayıl Rəfili "Ədəbiyyat" qəzetinin 1952-ci il 23 fevral nömrəsində özünün "Fransa xalqının böyük yazıçısı" adlı məqaləsində Hüqonun həyat və yaradıcılığından bəhs edərək, ayrı-ayrı əsərlərini təhlil etməyə çalışır, rus yazıçısı Lev Tolstoyun "ən yaxşı fransız romanı" adlandırdığı "Səfillər" əsərini Hüqonun "şah əsəri" hesab edir və əsərin əsas qayəsinə öz münasibətini bildirirdi.

Professor Əli Sultanlı da fransız ədibinin anadan olmasının 150 illiyi münasibətilə yazdığı "Böyük fransız yazıçısı Viktor Hüqo" adlı məqaləsində ədibin həyat və yaradıcılığı ilə bağlı bir neçə

məqalə ilə çıxış etmişdir. Qərb ədəbiyyatı üzrə o zaman respublikada sayılan ən güclü iki mütəxəssisdən biri Əli Sultanlı Hüqonun yaradıcılığını təhlil edərkən maraqlı bir müqayisə aparır. O yazır ki, "Klod Ge" hekayəsi "Səfillər" romanının ilk və məhdud sxemidir. O qeyd edir ki, işsiz qalan namuslu fəhlə Klod Ge oğurluq etməyə məcbur olur. Onu tutub həbsxanaya aparırlar. Həbsxana müdirinin təhqirlərinə davam gətirməyərək Klod Ge intiqam alır, həbsxana müdirini öldürür. Fəhləyə edam cəzası kəsirlər.

Bəli, Klod Ge oğurluq üstündə həbsxanaya düşmüş, başı min cür bəlalar çəkmiş Jan Valjanın yığcam prototipidir. Onu da xatırlatmaq lazımdır ki, professor Əli Sultanlı hələ 1935-ci ildə Hüqonun vəfatının 50 illiyi münasibətilə "Ədəbiyyat" qəzetində "Viktor Hüqo" məqaləsini nəşr etdirmişdi.

Hüqonun anadan olmasının 150 illiyi münasibətilə diqqəti cəlb edən yazılardan biri də professor Əkbər Ağayevin "Fransız xalqının böyük oğlu" məqaləsidir. Ə.Ağayev Hüqonun ümumi yaradıcılığına müraciət etsə də, ölməz sənətkarın vətənpərvərliyini daha qabarıq surətdə təqdim etməyə çalışmışdır. ...Fransa-Prussiya müharibəsi zamanı Paris şəhəri mühasirəyə alınmışdı. Öz vətəninin qoca paytaxtının bu vəziyyətə düşməsi V.Hüqonu qəzəbləndirmişdi. 1870-ci ilin sentyabrın 17-də o demişdi: "Fransızlar! Prussiyalılar 800 min nəfərdir – siz isə 40 milyonsunuz. Ayağa qalxın! Heç bir istirahət, tənəffüs və yuxu lazım deyildir.

Vətən uğrunda dəhşətli bir vuruşma təşkil edin... hücum edin, çaylardan, sellərdən keçib gedin, qaranlıq gecələrdən istifadə edin, dərələrdən, çöllərdən sürünüb keçin, nişan alın, atəş açın, işğalçıları qırın!"

Həmin ildə yubileylə əlaqədar professor M.Rəfilinin "Kommunist" qəzetində "Alovlu vətənpərvər və demokrat" adlı məqaləsi də nəşr olunmuşdur.

Bu illər Azərbaycan şairləri də coşqun fəaliyyət göstərmişlər. O.Sarıvəlli Hüqonun "Dostlar, iki söz daha", Ə.Tələt "Lion fəhlələri", "Mədəniyyət", "Üfüqün iki tərəfi", Ə.Cəmil "Son söz", A.Aslanov "Şən həyat" şeirlərini tərcümə etmişlər.

1955-ci ildə Hüqonun vəfatının 70 illiyi münasibətilə görkəmli ədəbiyyatşünas M.C.Cəfərov "Vətənpərvər yazıçı", tədqiqatçı K.Qəhrəmanov "Böyük vətənpərvər" məqalələri ilə mətbuatda çıxış etmişdilər.

Azərbaycan alimləri bundan sonrakı illərdə də böyük ədibin yaradıcılıq irsinə müraciət etmiş, bu zəngin irslə bağlı tədqiqatlar aparmışlar.

50-ci illərdə Hüqonun əsərlərinin tərcüməsinə yenidən müraciət olunur. Mikayıl Rəfilinin tərcüməsilə 1958-ci ildə məşhur "Səfillər" romanının I-II hissələri, 1963-cü ildə Beydulla Musayevin tərcüməsilə III-IV hissələri, 1964-cü ildə isə V hissəsi işıq üzü gördü.

Həmid Qasımzadə 1963-cü ildə ədibin "Büq Jarqal" əsərini, Şamil Zaman isə 1976-cı ildə "Klod Ge" əsərlərini Azərbaycan dilinə tərcümə etmişlər.

Fransız ədibinin əsərləri dəfələrlə səhnələşdirilmiş, bu əsərlərin süjetləri əsasında opera və baletlər yaradılmışdır. Onun bir çox pyesləri Azərbaycan səhnəsində də tamaşaya qoyulmuşdur.

Şübhə yoxdur ki, Azərbaycanda dahi sənətkarın yaradıcılığı bundan sonra da ədəbi ictimaiyyətin diqqət mərkəzində olacaqdır.

Əsgər Zeynalov

Səfillər

I hissə

FANTİNA

Birinci kitab

PAK ADAM

Birinci fəsil

CƏNAB MİRİEL

1815-ci ildə Şarl-Fransua-Byenvenü Miriel Din şəhərinin yepiskopu idi. Miriel yetmiş beş yaşında bir qoca olub, 1806-cı ildən bəri Dində yepiskopluq taxtında əyləşmişdi.

Cənab Mirielin yeparxiyaya gəlməsi ilə doğan bütün dedi-qoduların danışacağımız əhvalat üçün heç bir cəhətdən əhəmiyyəti olmasa da, hər şeyi dürüst anlamaq üçün bunları qeyd etmək, bəlkə də, faydasız deyildir. Adamların yaydıqları şayiələr həqiqət, yaxud yalan da olsa, hər halda, insanın həyatında, xüsusən, sonrakı taleyində onun öz əməlləri qədər əhəmiyyətli rol oynayır. Cənab Miriel, Eksdə məhkəmə palatası müşavirinin oğlu idi və deməli, məhkəmə aristokratiyasına mənsub idi. Belə deyirdilər ki, atası öz vəzifəsini irsən oğluna vermək istədiyindən məhkəmə məmurları arasında çox yayılmış olan bir adət üzrə onu çox tez, on səkkiz-iyirmi yaşında ikən evləndirmişdi. Lakin şayiələrə görə, Şarl Miriel evlənəndən sonra da bir çox dedi-qodulara səbəb olmuşdu. O, boyu bir az qısa olsa da, təndürüst, zərif, çevik, zəkalı bir gənc idi, ömrünün birinci yarısını bütünlüklə kübar həyatına və eşq macəralarına sərf etmişdi.

Nəhayət, inqilab başlandı. Hadisələr sürətlə bir-birini təqib edirdi, məhkəmə məmurlarının seyrəlmiş, təqib edilən ailələrinin hərəsi bir yana qaçıb dağıldı. Şarl Miriel inqilabın hələ ilk günlərində İtaliyaya mühacirət etdi. Arvadı çoxdan bəri düçar olduğu döş xəstəliyindən orada öldü. Uşaqları yox idi. Bəs Mirielin sonrakı həyatı necə quruldu? Köhnə Fransa cəmiyyəti artıq süqut etmişdi. Mirielin öz ailəsi məhv olmuşdu. 93-cü ildə ümidləri üzülən mühacirlərin

nəzərində uzaqdan daha dəhşətli görünən faciəli hadisələr baş vermişdi. Mirielin tərki-dünya etməsinə və yalqızlığa çəkilməsinə səbəb, bəlkə də, bunlar olmuşdu? Yaxud, bəlkə də, eşqbazlıq və əyləncələr içində ömür sürərkən o, varlığını qıran və maddi rifahını pozan ictimai sarsıntılar qarşısında dayanmağa qadir bir insanın bəzən lap ürəyinə dəyib, onu yerlə yeksan edən gizli və dəhşətli zərbələrdən birinə düçar olmuşdu? Bu suallara heç kəs cavab verə bilməzdi: yalnız bu məlumdur ki, Miriel İtaliyadan qayıtdıqda artıq keşiş idi.

Cənab Miriel 1804-cü ildə Brinyolda məhəllə keşişi olmuşdu. O, artıq qocalmışdı və tək-tənha yaşayırdı.

Tacqoyma mərasimindən bir az əvvəl öz məhəlləsinə aid cüzi bir iş – bu işin nədən ibarət olduğunu indi təyin etmək artıq mümkün deyildi – onu Parisə getməyə məcbur etmişdi. Öz məhəllə adamlarının xahişləri üçün müraciət etdiyi hökumət adamlarından biri də kardinal Feş idi. Bir dəfə imperator öz əmisini ziyarət etmək üçün gəldiyi zaman qəbul otağında gözləyən möhtərəm küre[1] imperator həzrətləri ilə üz-üzə gəlmişdi. Napoleon qocanın onu maraqla nəzərdən keçirdiyini görüb, geri dönmüş və kəskin bir səslə soruşmuşdu:

– Mərhəmətli insan, niyə mənə elə baxırsan?

– Əlahəzrət, siz qarşınızda mərhəmətli bir insanı görürsünüz, mən isə böyük bir insanı seyr edirəm. Hər birimiz bu tamaşadan özü üçün müəyyən bir fayda ala bilər, – deyə Miriel cavab vermişdi.

İmperator həmin axşam kardinaldan bu keşişin adını soruşmuş, bir müddət sonra isə cənab Miriel özü belə gözləmədən Din şəhərinin yepiskopluğuna təyin olunduğunu eşitmişdi.

Lakin cənab Mirielin həyatının birinci yarısı haqqında söylənilənlərin nə dərəcədə doğru olduğunu heç kəs bilmirdi. İnqilabdan əvvəl Mirielin ailəsi o qədər də məşhur deyildi.

Cənab Miriel, boşboğazları çox, ağıllı adamları az olan balaca bir şəhərə təzə köçmüş hər bir adamın düçar olduğu bir vəziyyətə düşmüşdü. O, yepiskop olmasına baxmayaraq, daha doğrusu, məhz yepiskop olduğu üçün bu qismətdən yaxasını qurtara bilməmişdi. Lakin onun adı ətrafında gedən danışıqlar şayiə, dedi-qodu, boş söz və hətta, cənubluların ifadəli dili ilə desək, sadəcə, *cəfəngiyatdan* başqa bir şey deyildi.

[1] *Küre* – katolik keşişi

Hər halda, yepiskop Din şəhərində doqquz il qaldıqdan sonra ilk zamanlar balaca şəhəri və balaca adamları həmişə məşğul edən bütün bu danışıqlar və dedi-qodular tamamilə unuduldu. İndi heç kəs onları təkrar etməyə, xatırlamağa cürət etməzdi.

Cənab Miriel Din şəhərinə özündən on yaş kiçik olan bacısı, yaşı ötmüş və hələ ərə getməmiş madmazel Batistina ilə birlikdə gəlmişdi.

Onların yeganə qulluqçusu, madmazel Batistinanın yaşıdı olan madam Maqluar, əvvəllər "cənab kürenin xidmətçisi" ikən indi həm "madmazel Batistinanın qulluqçusu", həm də "yepiskop həzrətlərinin ev müdirəsi" olmuşdu.

Madmazel Batistina ucaboylu, solğun, arıq, mülayim bir adam idi, o, "hörmətə layiq" sözlərinin təşkil etdiyi idealı təcəssüm etdirirdi, çünki bizcə "möhtərəm" adlanmaq üçün qadınlara ancaq analıq haqqı verə bilər. O heç bir zaman gözəl olmamışdı, lakin bütün ömrü boyu yaxşı işlər gördüyündən üzündə nə isə bir ağlıq, bir nur vardı, onun siması "mərhəmət gözəlliyi" adlandırıla bilən bir gözəllik kəsb etmişdi. Gəncliyində arıq idisə, yaşa dolduqda bu arıqlıq, sanki, şəffaflığa çevrilmişdi və bu şəffaflıq içərisində, elə bil, mələk görünürdü. O, bir bakirə, daha doğrusu, ruhun özü idi. O, elə bil, kölgədən toxunmuşdu, cinsiyyətini bildirmək üçün lazım olan qədər cismi var idi, bir parça cism içində, sanki, bir nur parıldayırdı, iri gözləri daim yerə baxırdı, sanki, ruhu yer üzündə yaşamaq üçün bəhanə axtarırdı.

Madam Maqluar balacaboylu, ağsaçlı, dolğun, hətta şişman, çalışqan bir qarı idi, daim hərəkətdə olduğundan, həm də nəfəs darlığı xəstəliyinə tutulduğundan həmişə tövşüyürdü.

Cənab Miriel şəhərə varid olduğu zaman onu imperatorun verdiyi dekret üzrə böyük ehtiramla yepiskop sarayına gətirdilər. Bu dekretə əsasən yepiskoplar rütbə və şöhrət etibarilə, generalmayordan sonra birinci yeri tuturlar. Mer və məhkəmə sədri onu birinci olaraq ziyarət etdilər, generalın və prefektin yanına isə birinci olaraq Miriel özü getdi.

Yepiskop öz vəzifəsinə başladıqda bütün şəhər onun işdə özünü necə göstərəcəyini gözləyirdi.

İkinci fəsil

CƏNAB MİRİEL DÖNÜB MONSENYOR BYENVENÜ OLUR

Dindəki yepiskop sarayı xəstəxanaya bitişik idi.

Bu, keçən əsrin əvvəllərində Paris darülfünunun ilahiyyat elmləri doktoru və 1712-ci ildə Din şəhərində yepiskop olmuş Simor abbatı monsenyor Anri Püje tərəfindən daşdan tikilmiş gözəl və geniş bir bina idi. Bu bina, həqiqətən, bir knyaz sarayı idi. Burada hər şey: yepiskopun otaqları da, qonaq otaqları da, olduqca iri və qədim Florensiya zövqündə tikilmiş rəsmi qəbul otaqları da, tağlı qalereyaları olan həyət də, gözəl ağaclar əkilmiş bağçalar da çox əzəmətli bir görünüşə malik idi. Aşağı mərtəbədə yerləşən və bağçaya baxan uzun və dəbdəbəli qalereyadakı yemək otağında monsenyor Anri Püje, 1714-cü il iyulun 29-da Ambren knyazı arxiyepiskop Şarl Brülar de Janlis, kapusin[1] və Qras yepiskopu Antuan de Meqrin'i Fransanın böyük prioru Filipp de Vandom, abbat Sent-Onore de Leren, yepiskop, Van baronu Fransua de Berton de Krilyon, hökmdar Qlandev yepiskopu Sezar de Sabran de Forkalkye və bratori presviteri kralın saray vaizi, hökmdar Senez yepiskopu Jan Soanen üçün rəsmi ziyafət düzəltmişdi. Bu yeddi möhtərəm zatın portreti yemək otağının divarlarını bəzəyirdi və əlamətdar 1714-cü il 29 iyul tarixi qızıl hərflərlə ağ mərmər lövhə üzərində yazılmışdı.

Xəstəxana, qarşısında balaca bağçası olan ikimərtəbəli, alçaq, darısqal bir binada yerləşmişdi.

Yepiskop, gəldiyindən üç gün sonra xəstəxanaya baş çəkdi, sonra isə xəstəxana müdirindən xahiş etdi ki, onun yanına gəlsin.

– Cənab müdir, bu saat xəstəxanada neçə xəstəniz var? – deyə ondan soruşdu.

– İyirmi altı, monsenyor.

– Bəli, mənim hesabıma görə də o qədərdir, – yepiskop təsdiq etdi.

– Çarpayılar bir-birinə çox yaxındır, – xəstəxana müdiri əlavə etdi.

– Bəli, bu mənim də diqqətimi cəlb etdi.

[1] *Kapusin* – başlıqlı paltar geyən Roma katolik rahibi

– Otaqlar palata üçün yaramır, onların havasını dəyişdirmək olduqca çətindir.

– Bəli, mənə də elə göründü.

– Bir də, bilirsinizmi, yaxşı hava olanda, bağçamız sağalan xəstələrin hamısını tutmur.

– Bunu mən də düşündüm.

– Yoluxucu xəstəliklər yayılan zaman bəzən yüzə qədər xəstə olur, biz nə edəcəyimizi bilmirik; məsələn, bu il yatalaq, iki il bundan əvvəl isə isitmə xəstəliyi düşmüşdü.

– Bu fikir mənim də ağlıma gəldi.

– Əlac nədir, monsenyor, – xəstəxana müdiri davam etdi, – bütün bunlara dözməli oluruq.

Bu müsahibə alt mərtəbənin qalereya şəklində tikilmiş yemək salonunda gedirdi.

Yepiskop bir qədər sükut etdi, sonra birdən xəstəxana müdirindən soruşdu:

– Cənab, təkcə bu otaqda neçə çarpayı yerləşə bilər?

Müdir heyrətlə səsləndi:

– Zati-əqdəslərinin yemək salonundamı?

Yepiskop otağa göz gəzdirərək fikrində, elə bil, nəyi isə ölçüb-biçir və hesablayırdı.

O, öz-özünə danışır kimi:

– Bu otaqda azı iyirmi çarpayı yerləşdirmək olar, – dedi, sonra da ucadan sözünə davam etdi: – Cənab müdir, burada, görünür bir səhv vardır. Siz iyirmi altı nəfərsiniz, özünüz də beş, ya altı kiçik otaqda yerləşmisiniz. Biz isə cəmi üç nəfərik, amma altmış adamlıq yer tutmuşuq. Təkrar edirəm: burada, şübhəsiz, bir səhv vardır. Siz mənim yerimi tutmusunuz, mən də sizin. Mənim evimi özümə qaytarın. Bu evin sahibi isə sizsiniz.

Ertəsi gün xəstəxanada olan iyirmi altı nəfər yoxsul xəstə yepiskop sarayına köçürüldü, yepiskop isə xəstəxana evində yerləşdi.

Cənab Mirielin ailəsi inqilab zamanı hər şeyini itirdiyi üçün onun varı-dövləti yox idi. Bacısı ildə beş yüz frank renta alırdı ki, bu da kilsə evində sadə bir həyat sürdükləri üçün onun şəxsi xərclərini görürdü. Cənab Miriel dövlətdən on beş min livr[1] yepiskop maaşı alırdı. Xəstəxanaya köçdüyü gün o, bu məbləğin necə sərf ediləcəyini

[1] *Livr* – o dövrün Fransa pul vahidi

həmişəlik müəyyən etdi. Onun öz əli ilə yazmış olduğu cədvəli təqdim edirik:

EV XƏRCLƏRİMİN BÖLGÜSÜ CƏDVƏLİ

Kiçik seminariya üçün	min beş yüz livr
Missioner cəmiyyəti üçün	yüz livr
Mondid'e lazaristləri üçün	yüz livr
Parisdə olan əcnəbi ruhani missiyalarının seminariyaları üçün	iki yüz livr
Müqəddəs ruh cəmiyyəti üçün	yüz əlli livr
Müqəddəs torpağın ruhani idarələrinə	yüz livr
Yetimxana cəmiyyətləri üçün	üç yüz livr
Əlavə olaraq, Arledəki həmin cəmiyyətlər üçün	əlli livr
Həbsxanalarda dustaqların saxlanmasını yaxşılaşdıran xeyriyyə cəmiyyəti üçün	dörd yüz livr
Dustaqlara kömək edən və onları xilas edən cəmiyyət üçün	beş yüz livr
Borc üstündə dustaq olan ailə sahiblərini həbsdən çıxarmaq üçün	min livr
Yeparxiyada ehtiyacı olan müəllimlərin maaşına əlavə üçün	iki yüz livr
Yuxarı Alp departamentində ehtiyat çörək mağazaları üçün	yüz livr
Yoxsul qızları pulsuz oxutmaq üçün Din, Manok və Sisteron şəhərlərində təşkil edilmiş qadın cəmiyyətinə	min beş yüz livr
Yoxsullar üçün	altı min livr
Şəxsi xərclərim üçün	min livr
Cəmi:	on beş min livr

Yepiskop Miriel Dində olduğu müddətdə bu cədvəli, əsla, dəyişmədi. Gördüyümüz kimi, bu cədvəli o, "Ev xərclərimin bölgüsü cədvəli" adlandırırdı.

Madmazel Batistina heç bir etiraz göstərmədən bu bölgünü qəbul etdi. Bu müqəddəs qızın nəzərində Din yepiskopu həm qardaş, həm də keşiş idi, qan qohumluğu qanununa görə onun dostu,

kilsə qanununa görə rəhbəri idi. O, yepiskopu sevir və ona səmimiyyətlə pərəstiş edirdi. Cənab Miriel danışdığı zaman Batistina etiraz etmədən yepiskopa qulaq asar, hər bir hərəkətini sözsüz bəyənərdi. Yalnız xidmətçi qadın, madam Maqluar altdan-altdan donquldanırdı. Yuxarıda gördüyümüz kimi, yepiskop öz xərcləri üçün ancaq min livr ayırmışdı ki, bu da madmazel Batistinanın pensiyası ilə birlikdə ildə min beş yüz livr edirdi. İki qarı ilə bir qoca bu pulla dolanırdı.

Hətta Dinə bir keşiş gəldiyi zaman yepiskop madam Maqluarın ciddi qənaətcilliyi və madmazel Batistinanın evi bacarıqla idarə etməsi sayəsində onu yaxşı nahara qonaq edə bilirdi.

Cənab Mirielin Dinə gəldiyi gündən üç ay keçmişdi. Bir gün o dedi:

– Necə olsa, mən pul cəhətdən çox korluq çəkirəm!

– Bəs nə? – deyə madam Maqluar səsləndi. – Axı şəhərdə ekipaj saxlamaq və yeparxiyanı gəzmək üçün departamentin sizə verməli olduğu minik xərcini yepiskop həzrətləri hələ tələb etməmişdir. Qabaqkı yepiskoplar bu xərci həmişə alırdılar.

Yepiskop dedi:

– Bu doğrudur. Siz tamamilə haqlısınız, madam Maqluar.

Cənab Miriel ərizə yazıb həmin pulları tələb etdi. Bir az sonra ali şura yepiskopun tələbini nəzərə alaraq, ona "Cənab yepiskopun ekipaj saxlamaq, poçt karetaları tutmaq və yeparxiyanı gəzmək xərcləri" adı ilə ildə üç min frank verməyi qərara aldı.

Bu hadisə yerli burjuaziya arasında böyük gurultuya səbəb oldu. İmperiyanın bir senatoru, Beşyüzlər Şurasının keçmiş üzvü, özünü on səkkiz brümer tərəfdarı kimi göstərib şəhərin yaxınlığında gözəl senator mülkünə sahib olmuş bir zat bu münasibətlə ruhani işlər naziri cənab Biqo de Priamenenin adına qeyzlə dolu gizli bir məktub göndərmişdi. Aşağıda dərc etdiyimiz sətirlər həmin məktubdan götürülmüşdür.

"Ekipaj saxlamaq xərci! Heç dörd min nəfər əhalisi olmayan bir şəhərdə ekipaj nəyə lazımdır? Yeparxiyanı gəzmək xərci! Əvvələn, yeparxiyanı gəzmək kimə lazımdır? İkincisi, bu dağlıq yerlərdə poçt karetalarında necə gəzmək olar? Burada yol yoxdur, yalnız atla gəzmək mümkündür. Hətta Şato-Arnudakı Düransu körpüsü də ikitəkərli öküz arabasının ağırlığına güclə davam gətirə bilir. Bu keşişlərin

hamısı acgöz və xəsis olur. İndiki təzə gəldiyi zaman özünü ağır tuturdu. İndi isə o, keçmişdəkilər kimi hərəkət edir. Ona ekipaj və poçt karetaları lazım olmuşdur! Əvvəlki yepiskoplar kimi ona da dəbdəbə və zinət lazımdır. Ah, bu keşişlər! Cənab qraf, inanın ki, imperator bizi bütün bu uzunətəklərin əlindən qurtarmadıqca, işlər düzəlməyəcəkdir. Rədd olsun papa! (Roma ilə işlər dolaşmağa başlayırdı). Mənə gəldikdə, mən yalnız və yalnız Sezar tərəfdarıyam. Və sairə və sairə".

Yeni maaş təyin edilməsi madam Maqluarı çox sevindirdi.

O, madmazel Batistinaya:

– Nə yaxşı oldu, – dedi. – Monsenyor əvvəlcə başqalarının halına qaldısa, nəhayət, özünü də düşünməli oldu. O, özünün bütün xeyriyyə işlərini qaydaya salmışdır. Bu üç min frank isə artıq bizə çatacaqdır. Nəhayət!

Həmin axşam yepiskop aşağıdakı cədvəli yazıb bacısına verdi.

YOL VƏ EKİPAJ XƏRCLƏRİ ÜÇÜN ALINAN MƏBLƏĞ

Xəstəxanadakı xəstələrə ət suyu vermək üçün	min beş yüz livr
Eksdə yetimlərə kömək cəmiyyəti üçün	iki yüz əlli livr
Draqinyanda yetimlərə kömək cəmiyyəti üçün	iki yüz əlli livr
Küçəyə atılmış uşaqların bəslənməsi üçün	beş yüz livr
Yetimlər üçün	beş yüz livr
Cəmi:	üç min livr

Yepiskop Mirielin büdcəsi belə idi.

Ayinlərin icrası, xeyir-dua, xaç mərasimi, moizə, kilsələrin dualanması, nikah duası və sairə kimi mərasimdən toplanan əlavə yepiskop mədaxilinə gəlincə, cənab Miriel varlılardan mümkün qədər çox alır və aldığını yoxsullara paylayırdı.

Çox keçmədən yepiskopun üzərinə hər tərəfdən ianələr yağmağa başladı. Varlılar da, yoxsullar da hamı cənab Mirielin qapısını döyürdü, kimi sədəqə istəməyə, kimi də sədəqə verməyə gəlirdi. Bir il keçmədi ki, yepiskop bütün ianə verənlərin xəzinədarları və bütün ehtiyac içində olanların daxıldarı oldu. Onun əlindən çoxlu pullar gəlib keçirdi,

lakin heç bir şey onu öz həyat tərzini dəyişməyə və zəruri ehtiyacı ödəyən miqdardan artıq bir şey sərf etməyə vadar edə bilməzdi.

Əksinə, aşağılarda səfalət və ehtiyac həmişə yuxarı təbəqələrin mürüvvət və səxavətindən çox olduğu üçün, cənab Miriel aldıqlarını demək olar ki, almamışdan əvvəl paylayırdı – quru torpağa düşən su da bu cür dərhal yox olur. Yepiskopun əlinə nə qədər pul gəlirdisə, çatışmırdı. O da öz-özünü soyurdu.

Adətə görə, yepiskoplar yazdıqları dini fərman və əmrlərin başında xaç mərasimi zamanı onlara verilmiş adların hamısını qeyd edirdilər, yoxsul əhali də öz yepiskopuna məhəbbətini izhar etmək üçün bir çox adamların içərisindən onlara daha çox mənalı görünənini seçmişdilər. Onlar Mirieli monsenyor Byenvenü[1] çağırmağa başladılar. Biz də öz tərəfimizdən onu bu adla çağıracağıq. Bu ad onun özünün də xoşuna gəlirdi. O deyirdi: "Mən bu adı sevirəm. Byenvenü "monsenyorun" təshihi kimi bir şeydir".

Biz əsla iddia etmirik ki, burada yepiskopun portretini düzgün təsvir etdik. Biz yalnız bunu deyə bilərik ki, bu portret, hər halda, ona çox bənzəyir.

Üçüncü fəsil

MƏRHƏMƏTLİ YEPİSKOPUN PİS YEPARXİYASI

Yepiskop öz ixtiyarında olan yerləri gəzmək üçün aldığı maaşı yoxsullara paylamasına baxmayaraq, yeparxiyanı gəzməkdən əl çəkmirdi. Din yeparxiyasını gəzmək isə çətin idi. Orada düzənlik az, dağlar çox, yollar demək olar ki, yox idi. Orada otuz iki məhəllə kilsəsi, qırx bir vikariat[2] və monsenyora tabe olan iki yüz səksən beş kilsə vardı, bunların hamısını gəzib dolanmaq asan iş deyildi. Lakin yepiskop bütün çətinlikləri dəf edirdi, yaxına getməli olduqda piyada gedər, düzənlikləri təkatlı arabada gəzər, dağları isə at belində dolaşardı. Adətən, hər iki qarı onu müşayiət edərdi, yalnız səfər onlar üçün ağır olduğu zaman yepiskop yola tək çıxardı.

[1] *Byenvenü* – istəkli qonaq deməkdir.

[2] *Vikari* (*lat.*) – yepiskopun müavini, yaxud köməkçisi; *vikariat* – vikari idarəsi

Bir dəfə o, Senezdəki qədim yepiskop iqamətgahına eşşək belində gəlmişdi. O zaman pul kisəsi boş olduğundan, başqa bir vasitə ilə yola çıxmaq imkanı yox idi. Onu qarşılamaq üçün yepiskop sarayının bayır qapısına çıxan şəhər meri yepiskopun eşşəkdən düşməsini görüb hiddətlə ona baxmışdı. Burada olan bir neçə şəhərli də ona gülmüşdü. Yepiskop demişdi: "Cənab mer və cənab şəhərlilər, sizin hiddətinizin səbəbini başa düşürəm. Siz bu fikirdəsiniz ki, mənim kimi adi bir kilsə xadimi üçün Həzrəti-İsanın mindiyi bir heyvanın belində gəzmək böyük ədəbsizlikdir. Sizi əmin edirəm ki, bu hərəkətimə səbəb heç də şöhrətpərəstlik deyil, ehtiyac və zərurətdir".

Səyahət zamanı o, mərhəmətli, mülayim olur, adamlara moizə etməkdən daha çox onlara söhbət edərdi. Dəlil və timsal üçün uzağa getməzdi. Bir yerin əhalisinə qonşu yerin əhalisini nümunə göstərərdi. Yoxsullarla sərt rəftar edilən yerlərdə deyərdi: "Brianson əhalisinə baxsanız, onlar yoxsullara, dul arvadlara və yetimlərə hamıdan üç gün qabaq ot biçməyə icazə vermişlər və yoxsulların köhnə evləri uçduqda, təzədən onlar üçün pulsuz ev tikirlər. Bunun əvəzində Allah onların ölkəsini bərəkətli etmişdir. Bir əsr olar ki, o yerlərdə bir adam belə öldürülməmişdir".

Əhalisinin hamısı pula həris olan və öz məhsullarını tez yığmağa çalışan kəndlərdə isə deyərdi: "Ambren əhalisinə bir baxın, oğulları orduda, qızları isə şəhərdə xidmət edən bir ailə başçısı biçin vaxtı xəstələnib işləyə bilmədikdə, keşiş moizəsində əhalini ona yardım etməyə dəvət edir və bazar günü əhali – kişilər, qadınlar, uşaqlar – ibadətdən sonra o yoxsulun tarlasına gedib məhsulunu yığır, taxılını, küləşini anbara doldururlar". Pul, ya miras üstündə savaşan ailələrə: "Devolni dağlılarına baxsanız, – deyərdi, – onlar o qədər sərt bir ölkədə yaşayırlar ki, orada əlli ildə bir dəfə bülbül səsi eşitməzsən. Bununla belə, orada bir ailə başçısı öldükdə, oğulları çörək qazanmaq üçün başqa yerlərə çıxıb gedir və bütün əmlakı öz bacılarına verirlər ki, onlar özlərinə ər tapa bilsinlər". Əhalisi məhkəməbazlığı sevən vilayətlərdə, fermerlərin öz var-yoxlarını ərizə kağızlarına sərf etdiklərini gördükdə deyirdi: "Keyrass vadisinin xeyirxah kəndlilərinə bir baxın. Onlar üç min nəfərdir! İlahi! Onlar balaca bir respublika kimi yaşayırlar! Orada nə hakim, nə də məhkəmə məmuru var. Bütün işləri mer özü görür. O özü vergi təyin edir, özü vicdanla iş görür, şikayətlərə pulsuz baxır, mirası varislər arasında mükafatsız bölür, məhkəmə xərci tələb

etmədən qərar çıxarır və ədalətli adam olduğu üçün sadə adamlar da ona itaət edirlər". Məktəb müəllimləri olmayan kəndlərdə, o, yekə keyrasslıları nümunə göstərərək: "Bilirsinizmi, onlar nə edirlər? – deyirdi. – On iki-on beş evdən ibarət olan balaca bir kənd həmişə müəllim saxlaya bilmədiyi üçün, vadinin bütün əhalisi yığışıb bir neçə müəllim tutar, on gün birində qalıb, dərs verirlər. Bu müəllimlər yarmarkalarda olurlar, mən də onları orada görmüşəm. Onları şlyapalarının qaytanlarına taxılmış qaz lələklərindən dərhal tanıya bilərsiniz. Yalnız savad öyrədən müəllimlərin bir lələyi, həm savad, həm də hesab öyrədənlərin iki lələyi, savad, hesab və latın dili öyrədənlərin isə üç lələyi olur. Üç lələkli müəllimlər – böyük alim adamlardır! Belə halda nadan qalmaq eyib deyilmi? Siz də keyrasslılar kimi edin".

O, qayğıkeş ata kimi bu cür ciddi nitqlər söyləyərdi, münasib misallar olmayanda o, özündən ibrətli hekayələr uydurardı. Bu hekayələr çox qısa, lakin obrazlı olub, məqsədə uyğun gələrdi, – Həzrəti-İsanın da etiqadla dolu gözəl nitqlərində bu xüsusiyyət var, – ona görə də dedikləri həmişə inandırıcı olardı.

Dördüncü fəsil

SÖZƏ UYĞUN İŞ

Onun söhbəti xoş və şən olurdu. Yanında yaşayan iki qarı ilə daim onların anlaya biləcəyi bir şəkildə danışardı, güləndə uşaq kimi ürəkdən gülərdi.

Madam Maqluar onu "monsenyor cənabları" adlandırmağı sevərdi. Bir dəfə o, kitabxanasının rəflərindən bir kitab götürmək üçün kreslosundan ayağa qalxdı. Kitab üst rəflərin birində idi. Yepiskopun boyu qısa olduğuna görə əli çatmadı. O, madam Maqluara müraciətlə: "Madam Maqluar, mənə stul gətirin, – dedi, – Monsenyor cənabları o rəfə çatacaq qədər uca deyildi".

Onun uzaq qohumlarından biri olan qrafinya de Lo hər dəfə onun hüzurunda üç oğlunun "ümidləri" adlandırdığı bir şeyi xatırlatmaq üçün fürsəti əldən verməzdi. Qrafinyanın çox qocalmış və ehtimal ki, ölümü yaxınlaşan bir neçə qohumu vardı, bu qohumların bilavasitə varisi qrafinyanın oğulları idi. Kiçik oğluna nənəsinin

ölümündən sonra azı yüz min livrlik bir renta çatmalı idi; ortancıl oğlu əmisinin ölümündən sonra hersoq tituluna malik olacaqdı, böyük oğlu isə babasının ölümündən sonra per[1] titulu qazanacaqdı. Yepiskop, adətən, bu sadədil və bağışlana biləcək analıq lovğalığına dinməz-söyləməz qulaq asardı. Lakin bir daha madam de Lo bütün bu mirasların və "ümidlərin" təfsilatını təkrar etdiyi zaman yepiskop ona həmişəkindən çox dalğın görünmüşdü. Qrafinya küskün bir halda sözünü kəsərək demişdi: "Aman Allah! Əmioğlu, siz nə üçün fikrə getdiniz?" Yepiskop ona cavab vermişdi ki, mən, yanılmıramsa, mübarək Avqustinin əsərində oxuduğum qəribə bir şey haqqında fikirləşirəm. Orada yazılmışdır: "Ümidinizi o kəsə bağlayın ki, onun heç bir varisi yoxdur".

Bir dəfə də o, bir məktub almışdı. Bu məktubda ondan yerli dvoryanlardan birinin dəfnində iştirak etməyi xahiş edirdilər, məktubun bütöv bir səhifəsində mərhumun titulları, sonra da qohumlarının bütün feodal və aristokrat adları təntənə ilə göstərilirdi. Yepiskop bunu oxuyub demişdi: "Ölümün kürəkləri nə qədər möhkəm imiş! – Görün adamlar onun üzərinə nə qədər ağır titul yükü qoymuş və öz şöhrətləri üçün hətta qəbirdən də nə qədər ustalıqla istifadə etmişlər!"

Yeri gəldikdə o, zarafat etməyi sevərdi, ancaq onun yüngül istehzasında həmişə ciddi bir məna gizlənirdi. Bir dəfə pəhriz günlərində Dinə gənc bir vikari gəlmiş və böyük kilsədə moizə etmişdi. O, yaxşı bir natiq idi. Moizəsi mərhəmət məsələsinə həsr edilmişdi. Gənc vikari varlıları qorxunc boyalarla təsvir etdiyi cəhənnəmdən yaxa qurtarmaq və gözəl, fərəhli şəkildə təsvir etdiyi cənnətə layiq olmaq üçün yoxsullara yardım etməyə çağırırdı. Onu dinləyənlər arasında ticarət işlərindən uzaqlaşmış, lakin bəzən sələmçiliklə məşğul olan cənab Jeboran adında zəngin bir alverçi vardı: o, qalın mahud, cürbəcür astarlıq parça və fəs hazırlamaqla iki milyon frank pul qazanmışdı. Jeboran ömründə bir dəfə də olsun dilənçiyə sədəqə verməmişdi. Bu moizədən sonra isə hər bazar günü kilsənin qapısında duran bir neçə qoca dilənçi qadına onun bir su[2] verdiyini görmüşdülər. Bu sədəqə altı dilənçinin payına düşürdü. Bir gün yepiskop onun sədəqə verdiyini görüb gülümsəyərək, bacısına dedi: "Bax, cənab Jeboran bir su qiymətinə cənnəti satın alır!"

[1] *Per* – yüksək dvoryan ləqəbi
[2] *Su* – xırda fransız sikkəsidir

Məsələ sədəqəyə gəldikdə, yepiskop rədd cavabından belə ruhdan düşməzdi və bu kimi hallarda çox zaman elə sözlər tapardı ki, adamları fikirləşməyə məcbur edərdi. Bir dəfə o, şəhər salonlarının birində yoxsullar üçün sədəqə toplayırdı, qonaqlar arasında markiz de Şantersye adlı zəngin və xəsis bir qoca da vardı. O, eyni zamanda həm ultraroyalist[1], həm də ultravolterçi idi – o zaman belə hallar olurdu. Yepiskop markizə yanaşaraq əlini onun çiyninə qoyub demişdi: "Cənab markiz, siz mənə bir şey verməlisiniz". Markiz üzünü ona çevirib quru cavab vermişdi: "Monsenyor, mənim öz yoxsullarım vardır". Yepiskop isə demişdi: "Onları mənə verin".

Bir gün yepiskop böyük kilsədə belə bir moizə elədi: "Əziz qardaşlarım! Mehriban dostlarım! Fransada bir milyon üç yüz iyirmi min üçdeşikli, yəni ikipəncərəli və birqapılı, bir milyon səkkiz yüz on yeddi min – ikideşikli, yəni bir qapı ilə birpəncərəli kəndli evi, nəhayət, üç yüz qırx altı min də birdeşikli – birqapılı daxma vardır. Bunun səbəbi pəncərə və qapı vergisi deyilən şeydir. Bu evlərə yoxsul ailələrini, qarıları, kiçikyaşlı uşaqları köçürün, onda görərsiniz ki, isitmə xəstəliyi də, başqa xəstəliklər də belə yerlərdən törəyir! Heyhat! Allah insanlara yaşamaq üçün hava vermişdir, qanun isə Allahın verdiyi havanı satır. Mən qanunu pisləmək istəmirəm, mən Allaha şükür və sənа edirəm! İzerdə, Varda, Yuxarı və Aşağı Alp dağlarında kəndlilərin əl arabası belə yoxdur, onlar peyini bellərində daşıyırlar: onlarda şam da yoxdur, qətranlı talaşa və qətrana salınmış ip yandırırlar. Yuxarı Dofine tərəflərindəki kəndlərdə bu bir adətdir. Kəndlilər altı ayda bir dəfə çörək bişirirlər, yanacaq əvəzinə quru mal təzəyi işlədirlər. Qışda həmin çörəyi balta ilə doğrayaraq, bütün günü suda isladırlar ki, yemək mümkün olsun. Qardaşlar, mərhəmət edin, görün, ətrafınızdakı insanlar nə qədər əzab və əziyyət çəkirlər!"

Yepiskop Provansda anadan olduğundan, bütün Cənubi Fransa şivələrini mənimsəmişdi və yeri gəldikcə Aşağı Langedok, Aşağı Alp və Yuxarı Dofine ifadələrini işlədirdi. Bu isə sadə kəndlilərə olduqca xoş gəlir və onun sözlərinin daha çox təsir etməsinə və ürəklərə yol açmasına səbəb olurdu. Daxmalar və dağlar onun öz evi kimi idi. O ən yüksək fikirləri ən adi, xalqın anladığı bir dildə ifadə edə bilir, bütün şivələri bildiyi üçün, bütün ürəklərə yol tapırdı.

[1] *Ultraroyalist* – həddindən artıq, ifrat dərəcədə

Bunu da qeyd etmək lazımdır ki, o, istər zadəganlarla, istərsə də sadə adamlarla bir cür rəftar edərdi.

O, vəziyyəti dərindən öyrənmədən heç kəsi təqsirləndirməzdı. O deyərdi: "Günahın keçdiyi yolu nəzərdən keçirək!"

"Keçmiş günahkar" – o gülümsünərək özünü belə adlandırırdı. Çox sərtlik etməzdi, qəzəbli möminlər kimi qaşlarını çatmadan öz fikirlərini tamamilə açıq təbliğ edərdi. Onun təlimini qısaca olaraq, təxminən, bu surətdə ifadə etmək olar:

"İnsanın cismi vardır, bu cisim eyni zamanda onun üçün həm ağır bir yük, həm də vəsvəsədir. O, bu cismi sürüyür və ona tabe olur.

O, öz cisminə ciddi fikir verməli, cilovunu çəkməli, susdurmalı və yalnız əlacsız qaldıqda ona tabe olmalıdır. Bu itaətkarlıqda da günah gizlənə bilər, lakin bu cür günah bağışlanacaq bir günahdır. Bu, yıxılmaqdır, ancaq dizi üstə yıxılmaqdır və ibadətlə qurtara bilər.

Müqəddəs olmaq – müstəsna bir şeydir: ədalətli olmaq isə qaydadır. Yolunuzdan çıxın, yıxılın, günah iş görün, ancaq ədalətli olun.

Mümkün qədər az günah etmək – insan üçün qanun budur. Heç günah etməmək mələklərin arzusudur. Yer üzündə nə varsa, günaha tabedir. Günah cazibə qüvvəsinə malikdir".

Bir məsələ üstündə hamı ucadan qışqırmağa və öz qəzəbini bildirməyə başladığı zaman yepiskop gülümsəyərək deyərdi: "Oho! Yəqin burada söhbət hamının işlədiyi böyük bir günah haqqında gedir. Buna görə vicdanı təmiz olmayanlar qorxmuşlar və şübhəni özlərindən rədd etməyə tələsirlər".

O, insan cəmiyyətinin ağır yükünü daşıyan arvadlara və yoxsullara qarşı çox mərhəmətli idi. O deyirdi: "Arvadların, uşaqların, nökərlərin, zəiflərin, yoxsulların və cahillərin xəta etməsində ərlər, atalar, ağalar, güclülər, varlılar və alimlər müqəssirdir".

O, həmçinin deyərdi: "Cahillərə bacardığınızı öyrədin, onlara pulsuz təhsil verməməkdə cəmiyyətin özü müqəssirdir. Cəmiyyət yaydığı cəhalət üçün məsuldur. Qaranlıq içində olan qəlbdə günah doğar. Müqəssir günah edən deyil, bu qaranlığı yaradandır".

Göründüyü kimi, müxtəlif şeylər haqqında o, qəribə və xüsusi bir tərzdə mühakimə yürüdərdi. Mən belə zənn edirəm ki, o, bu fikirləri İncildən iqtibas etmişdi.

Bir dəfə o, istintaqı gedən və yaxın zamanda məhkəməsi təyin ediləcək cinayət işindən xəbər tutdu. Bədbəxt bir adam, qadını və

o qadından olan uşağını çox sevdiyindən, tamamilə pulsuz qaldığı zaman saxta pul kəsməyə başlayır. O zamanlar saxta pul kəsmək üçün ölüm cəzası verilirdi. Həmin qadın, sevgilisinin kəsdiyi birinci saxta pulu işə vermək istərkən tutulur. Onu həbs edirlər, lakin təkcə onun özünün təqsirini təsdiq edəcək sübutlar vardı. Yalnız o, öz etirafı ilə sevgilisini ələ verə bilər və məhv edə bilərdi. Qadın onun müqəssir olduğunu inkar edir. İstintaq davam edir. Qadın inadla susur. Bu zaman kral prokurorunun ağlına belə bir hiylə gəlir: o, qadının sevgilisinə böhtan ataraq onu xəyanətdə təqsirləndirir və onun yazmış olduğu məktublardan məharətlə seçdiyi parçaların köməyi ilə bu bədbəxt qadını inandırır ki, həmin adam onu aldatmışdır və başqasını sevir. Qadın qısqanclıqdan ağlını itirərək, sevgilisini ifşa edir. Hər şeyi boynuna alıb təsdiq edir. Kişi labüd məhv olacaqdı. Yaxın zamanda onu bu qadınla Eksdə mühakimə edəcəkdilər. Bu barədə hamı danışırdı və hamı prokurorun məharətinə heyran qalırdı. O, qısqanclığı işə salaraq, qəzəbdən həqiqət, intiqamdan isə ədalət doğurmuşdu. Yepiskop bunları sükutla dinləmiş, sonra isə soruşmuşdu:

– Bu kişini və bu qadını harada mühakimə edəcəklər?

– Cinayət məhkəməsində, – cavabını aldıqda isə:

– Kral prokurorunu harada mühakimə edəcəklər? – demişdi.

Din şəhərində faciəli bir hadisə baş vermişdi. Bir nəfər adam öldürdüyü üçün ölüm cəzasına məhkum edilmişdi. Bu yazıq nə çox oxumuş, nə də tamamilə cahil idi. Yarmarkada hoqqabazlıq və mirzəlik edərdi. Bütün şəhər əhli məhkəmə prosesini böyük maraqla izləyirdi. Edamdan bir gün əvvəl həbsxana keşişi xəstələnir. Dustağın ömrünün son dəqiqələrində onun yanında olmaq üçün başqa bir keşiş tapmaq lazım gəlir. Məhəllə keşişinə müraciət edirlər. Lakin keşiş rədd edir və deyir: "Bunun mənə dəxli yoxdur, mənim o ayinlə və o kəndirbazla nə işim var? Mən də xəstəyəm. Bir də ki, ora ümumiyyətlə mənim yerim deyil". Bu cavabı yepiskopa xəbər verirlər. O, "Cənab küre haqlıdır, – deyir. – Bu yer onun deyil, mənimdir".

O, dərhal həbsxanaya gedib kəndirbazın salındığı kameraya daxil olur, onu adı ilə səsləyir, əlindən tutub söhbət etməyə başlayır. O, yeməyini, yatmağını unudub, bütün gününü həbsxanada məhkumun ruhu üçün Allaha ibadət etməklə və onu da ibadətə təşviq etməklə keçirir. O, dustağa ən böyük və eyni zamanda ən sadə həqiqətlərdən danışır. O, bu dustağın ağası, qardaşı, dostu və – yalnız

ona xeyir-dua vermək üçün – yepiskopu olur. Dustağa təsəlli və ürək verməklə onun qəlbini işıqlandırır. Bu adam müsibətlə ölməli idi, ölüm onun təsəvvüründə bir uçurum idi. O, bu uçurumun kənarında titrəyərək dayanmışdı və dəhşətindən geri çəkilirdi. O, tamamilə laqeyd olacaq dərəcədə cahil deyildi. Ölüm hökmü onu çox bərk sarsıtmış və sanki, bizi Kainatın sirrindən ayıran və həyat adlandırdığımız səddi yarmışdı. O, bu məşum yarıqlardan bu dünyanın hüdudu xaricində olan şeyləri görmək üçün daim baxır və orada yalnız zülmət görürdü. Yepiskop işıq görməkdə ona kömək etdi.

Ertəsi gün, o bədbəxti aparmağa gəldikləri zaman yepiskop onun yanında idi. O, əynində bənövşəyi rəda, döşündə yepiskop xaçı olduğu halda dustağın dalınca çıxdı və camaat qarşısında qolları kəndirlə bağlı cani ilə yan-yana durdu.

O, cani ilə birlikdə arabaya mindi və onunla bir yerdə eşafota çıxdı. Bir gün əvvəl qəmgin və məyus olan məhkumun indi sifəti işıqlanmışdı. Cani ruhunun sakitləşdiyini hiss edirdi və Allaha ümid bağlamışdı. Yepiskop onu qucaqladı və gilyotinin bıçağı enməyə hazır olan zaman ona dedi: "İnsanlar tərəfindən öldürüləni Allah dirildir, qardaşları tərəfindən qovulan özünə ata tapır. Dua et, inan, əbədi həyata qədəm qoy! Atamız oradadır!" Yepiskop eşafotdan düşdüyü zaman gözlərində elə bir şey var idi ki, camaatı geri çəkilməyə vadar etdi. Onun üzünün solğunluğumu, yoxsa qayğısız sakitliyimi insanı heyrətə gətirdiyini söyləmək çətindir. O, zarafatla "saray" adlandırdığı sadə evinə qayıdanda bacısına dedi: "Mən indi təntənəli bir dəfn mərasimindən gəlirəm".

Böyük və gözəl niyyətlər çox zaman başa düşülmədiyindən şəhərdə yepiskopun hərəkətini bəyənməyən adamlar da tapıldı. Onlar deyirdilər: "Bu, özünü göstərmək arzusudur". Ancaq bu söhbət yalnız salonlarda gedirdi. Xoş əməllərə şübhə ilə baxmaq niyyətində olmayan camaat isə mütəəssir olmuş və heyran qalmışdı.

Yepiskopa gəlincə, gilyotin mənzərəsi ona bir zərbə kimi təsir etmişdi və bu zərbədən o, uzun zaman özünə gələ bilməmişdi.

Doğrudan da, eşafot qurulub qarşıda durduğu zaman adamı, elə bil, qara basır. Nə qədər ki siz gilyotini öz gözlərinizlə görməmisiniz, ölüm cəzasına az-çox laqeyd münasibət bəsləyə bilərsiniz, öz rəyinizi söyləməyə, "hə" və ya "yox" deyə bilərsiniz, lakin elə ki gilyotini gördünüz, sarsıntı o qədər dəhşətli olur ki, siz onun əleyhinə

və ya lehinə olduğunuzu qəti surətdə bildirməyə məcbursunuz. Bəziləri, de Mestr kimi, ona məftundur, bəziləri isə, Bekkari kimi, ona lənətlər oxuyur. Gilyotin – qanunun məğzidir, onun adı vindictadır[1], o bitərəf deyil və sizin bitərəf qalmağınıza da yol vermir. İnsan onu görəndə titrəyir, onu anlaşılmaz bir hiss bürüyür. Bütün ictimai problemlər gilyotin bıçağının ətrafında öz sual işarələrini qoyur. Eşafot kabusdur. Eşafot taxta səki deyil, eşafot maşın deyil, eşafot – taxtadan, dəmirdən və kanatdan düzəldilmiş və məşum bir təşəbbüsə malik canlı bir məxluqdur, elə bil, bu səki görür, bu maşın eşidir, bu mexanizm başa düşür, elə bil, bu taxtanın, dəmirin, kanatların öz iradəsi vardır. Eşafotu görəndə insanın qəlbini ölüm dəhşəti bürüyür və eşafot öz gördüyü işin müdhiş və şüurlu iştirakçısı kimi görünür. Eşafot – cəlladın yoldaşıdır; o, insanı məhv edir, ətini yeyir, qanını içir. Eşafot – hakimin və dülgərin icad etdiyi bir əjdaha, saysız-hesabsız qurbanların ölümündən əmələ gəlmiş, nə isə dəhşətli bir həyatla yaşayan kabusdur.

Yepiskopun aldığı təəssürat dəhşətli və dərin idi: edamın sabahı günü və çox-çox sonra belə, o, pərişan görünürdü. Məşum dəqiqənin qeyri-təbii sakitliyi artıq yox olmuşdu, ictimai məhkəmə kabusu onu daim təqib edirdi. Adətən, hər bir vəzifəsini ifa etdikdən sonra məmnun və fərəhli qayıdan bu din xadimi, sanki, indi nəyə görə isə özünü məzəmmət edirdi. Hərdənbir o, öz-özü ilə danışır və yavaş səslə ələmli monoloqlar söyləyirdi. O monoloqlardan birini burada qeyd edirik, onu bir dəfə axşamüstü bacısı eşitmiş və yadında saxlamışdı: "Mən bunun bu qədər dəhşətli olduğunu heç bir zaman düşünməzdim. İnsan qanunlarını görməyəcək dərəcədə ilahi qanunların dərinliklərinə varmaq cinayətdir. Ölüm məsələsində yalnız Tanrı hakimdir. Nə haqqa görə insanlar bu dərkedilməz aləmə əl atırlar."

Zaman keçdikcə bu təsir zəifləmiş və ehtimal ki, onun xatirəsindən silinib getmişdi. Lakin adamlar görmüşdülər ki, o gündən sonra yepiskop edam meydanından keçməkdən çəkinir.

Yepiskop Mirieli gündüz və gecə – hər zaman bir xəstənin və ya can verməkdə olan bir adamın yanına çağırmalı olurdular. O, başa düşürdü ki, bu, onun əsas vəzifəsi, həm də ən mühüm işidir. Başsız qalmış ailələr yepiskopu çağırmağa belə ehtiyac duymurdular, o özü onların yanına gəlirdi. O, sevdiyi arvadını itirmiş bir kişinin və ya

[1] *Vindicta* – cəza (*lat.*)

uşağını itirmiş bir ananın yanında saatlarla dinməzcə oturmağı bacarardı. Lakin nə zaman susmaq lazım gəldiyini bildiyi kimi, nə zaman söz söyləmək lazım olduğunu da bilirdi. Ah, o nə gözəl təsəlli verən bir adam idi! Yepiskop kədəri unutdurmağa çalışmazdı, əksinə, kədəri daha da dərinləşdirib, sonra ümid verməklə onu dağıdardı. O deyərdi: "Ölənlərə başqa nəzərlə baxmaqdan çəkinin. Torpağın altında çürüyən şeyi düşünməyin. Diqqətlə baxın, göylərdə canlı bir işıq görəcəksiniz, o, sizin əziz ölənizin ruhudur". O bilirdi ki, etiqad dərdə əlacdır. O, məyus olan adama təsəlli verməyə, onu sakit etməyə çalışır, öz qismətinə boyun əyən insanları ona nümunə göstərər və məzara doğru baxan kədəri ulduzlara doğru baxan kədərə çevirməyə çalışardı.

Beşinci fəsil

MONSENYOR BYENVENÜNÜN ÖZ CÜBBƏLƏRİNİ HƏDDİNDƏN ÇOX GEYİB KÖHNƏLTMƏSİ HAQQINDA

Cənab Mirielin ailə həyatı da onun dünyagörüşünü ailədənkənar həyatı kimi tamamilə əks etdirirdi. Din şəhəri yepiskopunun öz arzusu ilə keçirdiyi yoxsul həyat onu yaxından müşahidə etməyə imkanı olan hər bir şəxs üçün maraqlı və eyni zamanda ibrətli bir tamaşa idi.

Bütün qocalar və mütəfəkkirlərin əksəriyyəti kimi o da az yatardı. Ancaq bu qısa yuxu çox dərin olardı. Səhər yepiskop bir saata qədər düşüncəyə dalardı, sonra kilsədə və ya evində ibadət edərdi. İbadətdən sonra çovdar çörəyi ilə və inəklərinin südü ilə qəlyanaltı edərdi. Sonra işə girişərdi.

Yepiskop çox məşğul adamdır. O, hər gün yeparxiyanın katibi olan keşişi və öz baş vikarilərini qəbul etməlidir. O, ruhani cəmiyyətlərinin fəaliyyətinə nəzarət etməli, imtiyazları paylamalı, ayin, dua kitabları, kilsə katexizisi[1] və sairə kimi dini ədəbiyyatı araşdırmalı, keşiş nəsihətnamələri yazmalı, moizələri təsdiq etməli, məhəllə keşişləri ilə merləri barışdırmalı, ruhani və inzibati məktublar yazmalı

[1] *Katexizis* – şəriət mətnləri yazılmış kitablar

– bir yandan dövlət, o biri tərəfdən papa ilə rabitə saxlamalı idi, xülasə, min cür iş görməli olurdu.

Bu cür işdən, kilsə ibadətlərindən və ayinlərdən qalan vaxtını, hər şeydən əvvəl, yoxsullara, xəstələrə və ürəyi dərdlilərə sərf edərdi, dərdliləri, xəstələri və yoxsulları ziyarət etmək vəzifəsi qurtardıqdan sonra qalan saatları da işə sərf edərdi: öz bağını belləyər və ya oxuyub yazardı. Bu iki işə o, bir ad vermişdi: "Bağbanlıq etmək". O: "Ağıl – bağdır" deyərdi.

Günortaya yaxın, hava gözəl olduqda, o çıxıb şəhərdə, ya da şəhərin kənarında piyada gəzər və çox zaman yoxsul daxmalara girərdi. Pambıqla sarınmış isti bənövşəyi rədasına bürünmüş, ayağında da bənövşəyi corab, qaba ayaqqabı, başında isə yoğun qızılı qotazları olan yastı üçguşəli bir şlyapa, uzun əsasına dirənə-dirənə gözlərini yerə dikmiş, dərin düşüncələrə dalmış halda yalqız gəzərdi.

O, haraya qədəm qoysaydı, orada bayram olardı. Sanki, o, özü ilə işıq və istilik gətirərdi. Uşaqlar və qoca kişilər onu qarşılamaq üçün qapıya çıxardılar, sanki, onlar günəşi qarşılayırdılar. Yepiskop onlara, onlar da yepiskopa xeyir-dua verərdilər. Ehtiyac içində olanlara onun evini göstərərdilər.

Hərdənbir o dayanıb, kiçik oğlan və qızlarla söhbət edər, analarının üzünə gülümsərdi. Pulu olanda yoxsulların yanına, qurtaranda isə varlıların yanına gedərdi.

Cübbələrini uzun müddət geydiyindən və onların köhnəliyinin camaatın gözünə dəyməsini istəmədiyindən, pambıqlı bənövşəyi rədasını geyinməmiş şəhərə çıxmazdı. İsti yay günlərində bu ona bir qədər ağırlıq edərdi.

Gəzməkdən evə qayıtdıqda nahar edərdi. Nahar səhər yeməyinə bənzərdi.

Axşam saat doqquzun yarısında bacısı ilə bərabər şam edərdi, madam Maqluar isə masa başında onlara xidmət edərdi. Bu yeməklərdən sadə yemək ola bilməzdi. Lakin məhəllə keşişlərindən biri şama qonaq qaldıqda, madam Maqluar fürsətdən istifadə edərək, yepiskop həzrətlərinə gözəl göl balığı və ya dağdan gətirilmiş təzə ov quşundan ləzzətli xörək hazırlayıb süfrəyə qoyardı. Hər bir keşiş yaxşı şam etməyi üçün bir bəhanə idi və yepiskop buna mane olmazdı. Adi günlərdə isə yeməkləri suda bişmiş tərəvəzdən və zeytun yağı ilə hazırlanmış şorbadan ibarət idi. Buna görə də şəhərdə

deyərdilər: “Yepiskopumuzun keşiş qonağı olmadıqda, özü rahib kimi nahar edir”.

Axşam yeməyindən sonra o, yarım saata qədər madmazel Batistina və madam Maqluarla söhbət edərdi, sonra öz otağına girərək, gah ayrı-ayrı vərəqlər üzərində, gah da kitabların haşiyələrində yazı yazmağa başlardı. Yepiskop çox oxumuş adam idi, hətta bir qədər də alim idi. Öləndən sonra yepiskopun beş, yaxud altı, olduqca maraqlı əlyazması qalmışdı. Bunların arasında müqəddəs kitabdan götürülmüş “İbtidada ilahi ruh sular üzərində dolaşardı” şeri haqqındakı mülahizəsi də var idi. O, bu şeri üç mətnlə, yəni ərəbcə, “Tanrının külәkləri əsirdi” şeri və İosif Flavinin “Dağlardan yerə küləklər əsdi” sözləri ilə və nəhayət, Onkelosun “Tanrıdan doğan ruzigar sular üzərində əsirdi” sözlərini yəhudi təfsiri ilə müqayisə etmişdi. Başqa bir əsərində Ptolemaid yepiskopu və bu kitabın müəllifinin ulu babası olan Hüqonun ilahiyyat əsərlərini təhlil edir və müəyyən edir ki, keçən əsrdə Barleykur təxəllüsü ilə nəşr edilmiş müxtəlif kiçik əsərlər də həmin yepiskop tərəfindən yazılmışdır.

Yepiskop bəzən hər hansı bir kitabı oxuduğu yerdə birdən dərin fikrə dalardı, fikrindən ayıldığı zaman həmişə o, kitabın kənarında bir neçə şey yazardı. Çox zaman bu cür yazılarla onların qeyd olunduğu kitabın məzmunu arasında heç bir rabitə olmazdı. Bizim əlimizdə olan bir kitabın kənarlarında yepiskopun yazıları vardır. Bu kitabın adı belədir: *“Lord Jermenin general Klinton, general Kornvalis və Amerika hərbi donanmasının admiralları ilə yazışması. Versalda kitabçı Puensonun, Parisdə isə sahilboyu Avqustinlər küçəsindəki kitabçı Pisonun mağazasında satılır”*.

Kitabın üstündəki qeyd budur:

“Ey həzirül-vücud!

Ekkleziast sənə qadir Allah, Makkaveylərin kitabı Yaradan, efeslilərin adına yazılmış Namə Azadlıq deyir. Barux səni Namütənahi, Zəbur – Hikmət və Həqiqət, İohan – İşıq, Səltənətlər kitabı – Tanrı, İsxod – Qəzavü-qədər, Levit – Qüdsiyyət, Yezdra – Ədalət adlandırır, Kainat sənə Allah, insan – Ata deyir, Süleyman peyğəmbər isə sənə Mərhəmət adı vermişdir və bu, sənin adlarının ən yaxşısıdır”.

Axşam saat doqquza yaxın hər iki qadın yuxarı gedər, yepiskop da səhərə qədər birinci mərtəbədə tək qalardı.

Burada biz Din yepiskopunun mənzilini düzgün təsvir etməliyik.

Altıncı fəsil

YEPİSKOP EVİNİ QORUMAĞI KİMƏ TAPŞIRMIŞDI

Biz dedik ki, yepiskopun yaşadığı ev iki mərtəbədən ibarət idi: aşağıda üç otaq, üstdəki mərtəbədə də üç otaq vardı. Evin ən yuxarısı çardaq idi. Evin dal tərəfində – dörddəbir desyatinlik bir bağ vardı. Qadınlar ikinci mərtəbədə, yepiskop isə birinci mərtəbədə olurdu. Qapısı birbaş küçəyə açılan birinci otaq yemək otağı, ikincisi, yataq otağı, üçüncüsü də ibadət otağı idi. İbadət otağından çıxmaq üçün yataq otağından, yataq otağından çıxmaq üçün də yemək otağından keçmək lazım gəlirdi. İbadət otağının bir küncündə pərdə arxasında qonaqlar üçün çarpayı qoyulmuşdu. Kəndlərdən öz kilsələrinin işi və ehtiyacları üçün Din şəhərinə gələn keşişlərə yepiskop bu çarpayıda yatmaq üçün yer verirdi.

Keçmiş xəstəxana apteki – evə yapışıq olan və bağçaya baxan kiçik bina – mətbəxə və ərzaq anbarına çevrilmişdi.

Bundan başqa, bağçada bir pəyə də vardı ki, əvvəllər xəstəxana mətbəxi burada yerləşirdi, indi isə orada yepiskop iki inək saxlayırdı. Bu iki inəyin südü az da olsa, çox da olsa, yepiskop hər səhər yarısını xəstəxanaya göndərər və "Mən zəkatımı verirəm", – deyərdi.

Yepiskopun yataq otağı xeyli böyük idi. Qışda onu qızdırmaq asan deyildi. Dində odun çox baha olduğundan, yepiskop inəklərin olduğu pəyədə taxtadan arakəsmə edib, özü üçün balaca bir otaq düzəltmişdi. Bərk şaxta olanda gecələrini həmişə orada keçirirdi. Bu otağı o, özünün "qış salonu" adlandırmışdı.

İstər bu "qış salonu"nda, istərsə də yemək otağında dördguşəli sadə taxta masadan və dörd həsir stuldan başqa heç bir şey yox idi. Yemək otağında, bundan başqa, çəhrayı rənglə boyanmış köhnə bir bufet dururdu. Bunun kimi başqa bir bufetin üstünə yepiskop ağ dəsmal və ucuz krujeva örtüb mehrab halına salmışdı, bu mehrab ibadət otağını bəzəkli göstərirdi.

Yepiskopu özlərinə ruhani ata seçmiş varlı qadınlar və Din şəhərinin başqa dindar qadınları dəfələrlə yığışıb, monsenyorun ibadət otağı üçün təzə bəzəkli mehrab almağa pul toplamışdılar. Yepiskop hər dəfə pulları alıb, yoxsullara paylayardı. O deyirdi: "Ən yaxşı mehrab

təsəlli tapmış və Allaha şükür edən hər zavallının ruhudur!" İbadət otağında diz çökmək üçün qoyulmuş iki həsir oturacaq, yataq otağında isə bir həsir kreslo vardı. Birdən yepiskopun yanına yeddi, yaxud səkkiz qonaq, məsələn, prefekt, general, yerli qarnizon polkunun qərargah rəisi, ruhani məktəbinin bir neçə şagirdi gəldiyi zaman "qış salonu"nda, ibadət otağında olan stulları, yepiskopun yataq otağındakı kreslonu gətirmək lazım gəlirdi. Hər yeni qonaq üçün başqa otaqların birindən stul gətirilər və beləliklə, on birə qədər stul toplanardı.

Bəzən birdən on iki qonaq gəlirdi, onda yepiskop çətin vəziyyətdən çıxmaq üçün, qış günlərində buxarının yanında ayaq üstə durar, yay günlərində isə bağçada gəzişməyə başlardı.

Küncdə pərdənin arxasında bir stul da vardı, ancaq həsiri yırtıq və yalnız üç ayağı salamat olduğundan, onu yalnız divara dayadıqdan sonra üstündə oturmaq olardı. Madmazel Batistinanın otağında da vaxtilə zərli bəzəkləri olan, üzünə güllü Çin taftası çəkilmiş böyük bir kreslo vardı; ancaq pilləkən çox dar olduğu üçün onu ikinci otağa pəncərədən keçirmək lazım gəlmişdi, deməli, lazım olduğu zaman bu kresloya ümid bəsləmək olmazdı.

Bir zamanlar madmazel Batistina qırmızı ağacdan düzəldilmiş və üstünə sarı utrext məxməri[1] çəkilmiş divanı olan qonaq otağı mebeli almaq arzusunda idi. Lakin bu, ən azı, beş yüz franka tamam olardı; bu məqsəd üçün o, beş ildə yalnız qırx iki frank və on su yığa bildiyindən bir şey çıxmayacağını anlayaraq, bu arzusundan əl çəkmişdi. Bir də ki həyatda öz idealına nail olan varmıdır?

Yepiskopun yataq otağını təsəvvür etməkdən daha asan bir şey yoxdur. Bu evin aynabənd qapısı bağçaya çıxırdı, qapının qarşısında bir dəmir xəstəxana çarpayısı vardı. Çarpayının qabağına yaşıl sarjadan pərdə çəkilmişdi, çarpayının yanında pərdənin arxasında zərif tualet şeyləri vardı; bütün bunlar yepiskopun vaxtilə kübar bir adam olduğunu və keçmiş adətlərini xatırladırdı; bu otağın daha iki qapısı olub, biri buxarının yanından ibadət otağına, o biri də kitab şkafının yanından yemək otağına açılırdı, şüşə qapısı olan böyük kitab şkafının içi kitabla dolu idi, buxarı mərmər rəngində rənglənmişdi, üzü taxtadan idi, həm də heç vaxt qalanmazdı. Buxarının içində odun qoymaq üçün iki dəmir sacayaq vardı ki, bunların da qabaq tərəfində

[1] *Utrext məxməri* – Hollandiyanın Utrext şəhərində istehsal olunan məxmər növü

bir zaman gümüşlənmiş, çiçək hörüyünə bənzər naxışlar və şırımlarla bəzənmiş iki vaza vardı, bunlar yepiskop evində bir bəzək nümunəsi idi. Buxarının üstündə isə zəri tökülmüş taxta çərçivə içində köhnə qara məxmərin üstündə vaxtilə gümüşlənmiş olan, indi isə gümüşü getmiş misdən çarmıxa çəkilmiş İsanın heykəli vardı. Şüşə qapının qabağında böyük bir masa, onun da üstündə mürəkkəbqabı, kağız yığınları və bir neçə qalın kitab dururdu. Masanın qabağında bir həsir kreslo qoyulmuşdu. Çarpayının yanında ibadət otağından gətirilmiş bir kiçik oturacaq dururdu.

Çarpayının hər iki tərəfində divardan oval çərçivəli iki portret asılmışdı. Şəkillərin tutqun fonu üzərində qızıl hərflərlə yazılmış sözlərdən burada kimin təsvir edildiyi aydın olurdu: bunlardan biri Sen-Klod yepiskopu abbat Şalionun, o biri isə Aqd baş vikarisi, Şartr yeparxiyasında Sisterian rahibləri cəmiyyətinə mənsub olan Qranşan abbatı, abbat Turtonun portreti idi. Yepiskop bu otağı xəstələrdən aldığı zaman portretləri orada tapmış və əvvəlki yerlərində saxlamışdı. Bunlar keşiş idi və ehtimal ki, sədəqə verən keşişlər idi, – yepiskopun portretlərə ehtiram etməsi üçün bu iki əsas kifayət idi. O, bu portret sahibləri haqqında yalnız bunu bilirdi ki, hər ikisi bir gündə, yəni 1785-ci il aprelin 27-də kral tərəfindən biri yepiskop vəzifəsinə, o biri isə vikari vəzifəsinə təyin edilmişdir. Bu qeyd Qranşan abbatının portretinin arxasında dörd parça yapışqanla yapışdırılmış və zamanın gedişindən saralmış bir vərəq kağızın üzərində rəngi getmiş mürəkkəblə yazılmışdı. Madam Maqluar tozunu silmək üçün portretləri çıxardığı zaman yepiskop bu qeydi görmüş və oxumuş idi.

Yepiskopun yataq otağının pəncərəsindən qaba yun parçadan köhnə bir pərdə asılmışdı. Bu pərdə o qədər köhnəlmişdi ki, madam Maqluar təzəsini almamaq üçün onu lap ortasından tikməyə məcbur olmuşdu. Bu tikiş xaç şəklində idi. Yepiskop bunu tez-tez göstərər və deyərdi:

– Nə yaxşı olmuşdur!

Birinci və ikinci mərtəbələrdə olan otaqların hamısı, kazarmalarda və xəstəxanalarda olduğu kimi, əhənglə ağardılmışdı.

Doğrudur, sonrakı illərdə aşağıda görəcəyimiz kimi, madam Maqluar madmazel Batistinanın otağında divarlarda əhəngin altında bəzi rəsmlər kəşf etmişdi. Bu ev xəstəxanaya çevrilməmişdən əvvəl

şəhər əhalisinin yığıncaq yeri imiş. Bu rəsmlər də o vaxtdan divarlarda qalıbmış. Otaqların döşəməsi qırmızı kərpicdən idi və hər həftə yuyulurdu, çarpayıların qarşısında yerə həsir döşənmişdi. Ümumiyyətlə, demək lazımdır ki, bu iki qadın bütün evi olduqca təmiz saxlayırdı. Təmizlik yepiskopun yol verdiyi yeganə zinət idi. O deyərdi: "Təmizliyin yoxsullara ziyanı yoxdur".

Lakin etiraf etmək lazımdır ki, yepiskopun əvvəlki sərvətindən altı gümüş xörək dəsti, bir də xörək çəkən gümüş qaşıq qalmışdı; madam Maqluar bunların hər dəfə qaba kətan süfrə üzərində parladığını gördükcə fərəhlənirdi. Biz Din yepiskopunu həqiqətdə olduğu kimi təsvir etdiyimiz üçün bunu da gizlətməməliyik ki, o, tez-tez deyərdi: "Gümüş qaşıq və gümüş çəngəllə yemək adətindən mən asanlıqla əl çəkə bilməzdim".

Bu gümüş qablardan başqa, yepiskopun iki böyük gümüş şamdanı da vardı ki, nənəsindən ona miras qalmışdı. Mum şam keçirilmiş bu şamdanlar yepiskopun yataq otağında, buxarının üstündə olardı. Evdə qonaq olanda isə madam Maqluar şamdanları yandırıb masanın üstünə qoyardı.

Yenə orada, yepiskopun yataq otağında, onun çarpayısının baş tərəfində kiçik bir divar şkafı asılmışdı; madam Maqluar hər axşam altı gümüş xörək dəstini və xörək çəkən qaşığı oraya qoyardı. Qeyd etmək lazımdır ki, şkafın açarı həmişə üstündə olardı.

Yuxarıda dediyimiz biçimsiz tikililərdən görkəmi bir qədər pozulan bağda dörd xiyaban vardı; bu xiyabanlar bağın ortasında olan çirkab quyusunun yanından xaç şəklində ayrılırdı. Bağı əhatə edən ağ hasar boyunca da bir xiyaban keçirdi. Xiyabanların arasındakı dörd kvadratın ətrafında şümşad ağacları əkilmişdi. Bu kvadratların üçündə madam Maqluar tərəvəz əkərdi, dördüncüsündə isə yepiskop çiçəklik düzəltmişdi. Bağda bir neçə meyvə ağacı da vardı. Bir dəfə madam Maqluar zarafatyana demişdi: "Monsenyor, siz istəyirsiniz ki, hər şey fayda versin, ancaq bağın bu hissəsi heç bir fayda vermir. Burada çiçək əvəzinə kahı əkilsə idi, daha yaxşı olardı". Yepiskop demişdi: "Yanılırsınız, madam Maqluar. Gözəllik də faydalılar qədər faydalıdır". Bir qədər susduqdan sonra isə əlavə etmişdi: "Bəlkə, daha faydalıdır".

Üç və ya dörd ləkə bölünmüş bu bir parça yer yepiskopu kitablarından az məşğul etmirdi. O, həvəslə burada bir-iki saat vaxt keçirər,

bitkilərin ucunu vurar, alaq otlarını çıxarar, yer qazar, toxum əkərdi. Lakin həşərata qarşı həqiqi bağbanlar qədər düşmənçilik etməzdi. Bunu da qeyd etmək lazımdır ki, o, özünü heç də nəbatatçı hesab etmirdi. Onun təsnifatdan və növlərdən başı çıxmaz, Turneforla təbii üsul arasında heç bir fərq qoymaz, kisəli bitkiləri ləpəlilərdən üstün tutmaz, nə Jüsyenin lehinə, nə də Linneyin əleyhinə danışardı. O, bitkiləri öyrənməzdi, sadəcə olaraq, çiçəkləri sevərdi. Alimlərə qarşı dərin bir hörmət bəsləyər, lakin heç bir şey bilməyənlərə daha artıq ehtiram edər və onlara da, bunlara da hörmətində davam edərək hər yay axşamı yaşıl tənəkə suçiləyəni ilə öz ləklərini sulayardı.

Evin qapılarının heç biri açarla bağlanmırdı. Yemək otağının birbaş kilsə meydanına çıxan qapısı vaxtilə bir zindan qapısı kimi sürməli və kilidli idi. Yepiskop gələn kimi bu sürgüləri və kilidləri çıxarmağı əmr etdiyindən, bu qapı gecə-gündüz yalnız sürgü ilə bağlanardı. Hər bir yolçu gecə-gündüz istədiyi vaxt bu qapını sadəcə itələməklə aça bilərdi. Qapının belə açıq qalması əvvəllər hər iki qadını çox narahat edərdi, lakin Din yepiskopu onlara demişdi: "Siz istəyirsinizsə, öz otaqlarınıza sürmə düzəltdirin". Nəticədə yepiskopun arxayınlığı onlara keçmişdi, hər halda, onlar da özlərini elə göstərməyə çalışırdılar. Yalnız madam Maqluarın ürəyinə bəzən qorxu düşərdi. Yepiskopa gəldikdə isə, onun bu xüsusdakı fikrini Tövratın bir səhifəsi kənarında yazmış olduğu bu üç sətir izah və ya şərh edir: "Burada çətinliklə gözə çarpan bir nöqtə var: həkimin qapısı heç bir zaman bağlı olmamalı, keşişin qapısı da daim açıq olmalıdır".

"Tibb elminin fəlsəfəsi" adlı başqa bir kitabda da yepiskop belə bir qeyd etmişdi: "Mən də onlar kimi həkim deyiləmmi? Mənim də xəstələrim var: əvvəla, onların xəstə adlandırdıqları adamlar, ikincisi, mənim bədbəxt adlandırdığım adamlar..."

Kitabın başqa bir yerində də belə yazılmışdı: "Sizdən sığınacaq istəyən adamın adını soruşmayın. Məhz öz adını gizlədən adamın sığınacağa xüsusi ehtiyacı vardır".

Bir dəfə hörmətli bir küre, – onun Kulubru küresi, yaxud Pompyeri küresi olduğu yadımda deyil, – madam Maqluarın xahişinə görə monsenyor Byenvenüdən soruşmuşdu ki, monsenyor gecə-gündüz qapını içəri girmək istəyən hər adamın üzünə açıq qoymaqla

bir qədər ehtiyatsızlıq etmədiyinə tamamilə əmindirmi? Bu qədər pis mühafizə edilən evdə bir bədbəxtlik üz verə biləcəyindən qorxmurmu? Yepiskop bu sualı verən keşişin çiyninə toxunub, mülayim, lakin ciddi bir tərzdə demişdi: *"Nisi Dominus custodierit domum, in vanum vigilant qui custodiunt earm"*[1]. Bu sözdən sonra monsenyor söhbəti dəyişib, başqa məsələlərə keçmişdi.

O, tez-tez təkrar edirdi: "Keşiş də draqun[2] polkovniki qədər cəsarətli olmalıdır. Ancaq bizdəki cəsarət sakit cəsarət olmalıdır".

Yeddinci fəsil

KRAVAT

Burada bir hadisəni də xatırlatmağın yeridir, onun üstündən sükutla keçmək olmaz, çünki Din şəhəri yepiskopunun necə bir adam olduğunu bu cür hadisələr daha yaxşı göstərir.

Oliula dərələrini tamamilə var-yoxdan çıxarmış Qaspar Benin quldur dəstəsi məhv edildikdən sonra, onun ən yaxın köməkçilərindən biri olan Kravat dağlara qaçmışdı. O, bir müddət Qaspar Benin dəstəsindən qalmış bir neçə yoldaşı ilə Nitsa qraflığında gizlənmiş, sonra "Pyemonta keçmiş və birdən-birə yenə Fransaya qayıdaraq, Barseloneta yaxınlığında görünmüşdü. Əvvəlcə o, Jozyeyə, sonra isə Tyüilə baş vurmuşdu. O, Juq-de l'Eql mağaralarında gizlənmişdi, oradan da İbayya və İbayeta çaylarının dərələrindən keçərək, tez-tez kəndlərdə görünürdü. Bir dəfə gecə vaxtı Kravat lap Ambrenə qədər gəlmiş, böyük kilsəni qarət etmişdi. Onun qarətləri bütün ölkəni var-yoxdan çıxarırdı. Onu tutmaq üçün jandarmlar göndərilirdisə də, heç bir nəticə vermirdi. O, həmişə əldən çıxır, bəzən də açıqcasına müqavimət göstərirdi. Kravat cəsur bir cani idi. Hamı vahimə içərisində ikən, Şatelar vilayətini gəzən yepiskop o yerlərə gəldi. Mer onun yanına gələrək, geriyə qayıtmasını məsləhət gördü. Kravat Arşa qədər və Arşdan o yana olan dağları tutmuşdu. Hətta mühafizə dəstəsi ilə də yola çıxmaq təhlükəli idi – bu, üç, yaxud dörd nəfər bədbəxt jandarmın həyatını təhlükəyə salmaq demək idi.

[1] Tanrı evi qorumursa, onu mühafizə edənlər əbəs yerə qoruyurlar (*lat.*)
[2] *Draqun* – atlı qoşun nəfəri

Yepiskop dedi:

– Elə ona görə də mən mühafizəsiz getmək fikrindəyəm.

– Siz nə danışırsınız, monsenyor! – deyə mer etiraz etdi.

– Mən hər şeyi ətraflı fikirləşmişəm, jandarmları qətiyyən aparmayacağam, bir saat sonra yola düşəcəyəm.

– Yola düşəcəksiniz?

– Bəli, yola düşəcəyəm.

– Tək?

– Tək.

– Yox, yox, monsenyor! Siz bunu etməzsiniz.

Yepiskop dedi:

– Qulaq asın, o dağlarda balaca yoxsul bir kənd var, mən üç ildir ki, oranı görməmişəm. Orada mənim mehriban dostlarım – dinc və namuslu çobanlar yaşayırlar. Otardıqları hər otuz keçidən ancaq biri onlarındır; onlar yundan olduqca gözəl, əlvan qaytan toxuyurlar və altıdəşikli balaca tütəklərdə dağ havaları çalırlar. Ara-sıra Tanrı sözünü eşitməyə onların da ehtiyacı var. Bəs onlar hər şeydən qorxan bir yepiskop haqqında nə fikirdə ola bilərlər? Mən onların yanına getməsəm, nə deyərlər?

– Bəs quldurlar, monsenyor, quldurlar?

Yepiskop dedi:

– Doğrudan da, mən onları, az qala, unutmuşdum. Siz haqlısınız. Mən onlara rast gələ bilərəm. Çox ehtimal ki, onların da bir nəfərdən Tanrı sözü eşitməyə ehtiyacları vardır!

– Monsenyor, axı onlar bütöv bir quldur dəstəsidir, canavar sürüsüdür!

– Cənab mer, bəlkə, bu sürüyə çoban olmağı mənə İsa əmr edir? Qəzavü-qədəri bilmək olmaz!

– Monsenyor, onlar sizi qarət edərlər.

– Mənim heç bir şeyim yoxdur.

– Onlar sizi öldürərlər.

– Dua oxuya-oxuya öz yolu ilə gedən qoca bir keşişimi? Bəsdir, bəsdir! Bu, onların nəyinə lazımdır?

– Aman, ya rəb! Birdən onlara rast gəlsəniz, nə olar?

– Mən onlardan yoxsullarım üçün sədəqə istərəm.

– Monsenyor, Allah xatirinə, getməyin! Siz həyatınızı təhlükəyə salırsınız.

– Cənab mer, məgər bütün məsələ elə bundadır? Mən bu dünyada öz həyatımı qorumaq üçün yaşamıram, insanların ruhunun qayğısına qalmaq üçün yaşayıram.

Nəhayət, mer yepiskopdan əl çəkməli oldu. O yola düşdü. Yol göstərmək üçün onu yalnız bir uşaq müşayiət edirdi. Yepiskopun bu inadı xeyli gurultuya səbəb oldu və bütün mahalı böyük təşvişə saldı.

Yepiskop nə bacısını, nə də madam Maqluarı özü ilə bərabər aparmaq istəmişdi. O, qatır belində heç kəsə rast gəlmədən dağlara qalxdı və sağ-salamat "mərhəmətli dostlarının" – çobanların yanına çatdı. O, iki həftə onların yanında yaşadı, moizələr söylədi, lazım olan ayinləri icra etdi, nəsihətlər verdi. Yola düşməzdən əvvəl təntənəli günorta ibadəti düzəltmək istədi. O, bunu kənd keşişinə söylədi. Lakin nə etməli? Yepiskop libası yox idi. Keşiş ona yalnız saxta gümüş baftalı köhnəlmiş ipəkdən bir neçə geyim verə bilərdi.

Yepiskop dedi:

– Eybi yoxdur, cənab küre, hər halda, ibadət olacağını kafedradan elan edək. İş birtəhər düzələr.

Qonşu kilsələrdə axtarmağa başladılar, lakin bu yoxsul kilsələrin bütün sərvəti bir yerə toplandıqda belə, hətta kilsə müğənnisi üçün də səliqəli bir paltar düzəltmək olmazdı.

Bu axtarışlar zamanı iki naməlum atlı kənd keşişinin evinə yepiskop üçün böyük bir qutu gətirib qoymuş və dərhal çıxıb getmişdi. Qutunun içindən ipək mantiya[1], brilyantlarla bəzədilmiş mitra[2] arxiyepiskop xaçı, gözəl əsa çıxdı; bütün bu yepiskop geyimi bir ay bundan əvvəl Ambren Notrdam kilsəsindən qarət edilmişdi. Qutunun içindən çıxan bir vərəq kağızın üzərində bu sözlər yazılmışdı: "Monsenyor Byenvenüyə Kravatdan".

Yepiskop dedi:

– Mən demədimmi, hər şey düzələcək?

Sonra gülümsəyərək əlavə etdi:

– Sadə keşiş cübbəsi ilə kifayətlənən adama Tanrı arxiyepiskop mantiyası göndərir.

Keşiş başını yırğalayaraq, istehza ilə dedi:

– Bilmirəm, monsenyor, Tanrımı göndərmiş, yoxsa şeytan.

---

[1] *Mantiya* – qolsuz, uzun üst geyimi

[2] *Mitra* – keşiş papağı

Yepiskop keşişin üzünə diqqətlə baxdı və qəti bir səslə təkrar etdi:

– Tanrı!

Yepiskop Şatelara qayıdarkən bütün yol uzunu və Şatelarda qabağına çoxlu adam çıxdı. Hamı öz yepiskopuna baxmaq istəyirdi. Madmazel Batistina ilə madam Maqluar onu keşişin evində gözləyirdi. Yepiskop bacısına dedi:

– Mən haqlı deyildimmi? Yoxsul keşiş yoxsul dağlıların yanına əliboş getdi, əlidolu qayıtdı. Mən yalnız Allaha təvəkkül edərək yola düşdüm, ancaq böyük bir kilsənin bütün sərvətini gətirdim.

Axşam, yatmamışdan qabaq yepiskop dedi:

– Heç bir zaman nə oğrulardan, nə də qatillərdən qorxmaq lazım deyil. Bu yalnız zahiri və cüzi bir təhlükədir. İnsan öz-özündən qorxmalıdır. Əsl oğru xurafatdır, əsl qatillər isə qəbahətlər. Ən böyük təhlükə bizim özümüzdədir. Həyatımıza və cibimizə təhlükə törədən bir şeyin qeydinə qalmağa dəyərmi? Yalnız ruhumuza təhlükə törədən şey haqqında düşünək!

Sonra bacısına müraciətlə dedi:

– Bacım, keşiş heç bir zaman insanlardan ehtiyat etməməlidir. İnsanlar nə edirsə, hamısı Allahdandır. Təhlükənin bizə tərəf gəldiyini hiss etdikcə, ibadətlə kifayətlənək. Özümüz üçün deyil, qardaşımız üçün ibadət edək ki, bizim üstümüzdə günaha batmasın.

Lakin Yepiskopun həyatında hadisələr az olmuşdu. Biz yalnız bildiyimiz hadisələri təsvir edirik: ümumiyyətlə götürüldükdə isə, onun həyatı yeknəsəq keçirdi: hər gün, müəyyən vaxtlarda o, bir gün əvvəl gördüyü işləri təkrar edərdi. Bu hal ildən-ilə, aydan-aya davam edərdi.

Ambren kilsəsinin "sərvətlərinə" gəldikdə, onların nə olduğu sualına doğru cavab verməkdə çətinlik çəkirik. Bunlar çox gözəl, çox cazibədar, onları oğurlamaq fikrinə düşən bədbəxtlər üçün çox yararlı və faydalı şeylər idi. Onlar, hər halda, oğurlanmışdı da. İşin yarısı görülmüşdü; yalnız bu oğurlanmış şeylərdən başqa bir məqsədlə, yoxsulların xeyrinə istifadə etmək lazım gəlirdi. Lakin bu barədə biz qəti bir şey deyə bilmərik. Məlum olan yalnız budur ki, yepiskopun kağızları arasında kiçik bir qeyd tapılmışdı. Bu qeyd çox dumanlı yazılmışdı, lakin ola bilsin ki, bu məsələyə aid idi. Qeydin məzmunu belə idi: "Məsələ bundadır ki, bunları haraya qaytarmaq lazımdır – kilsəyəmi, yoxsa xəstəxanayamı?"

Səkkizinci fəsil

ŞƏRAB İÇƏRKƏN FƏLSƏFƏ

Yuxarıda adını çəkdiyimiz senator vicdan, and, ədalət və insanlıq borcu kimi maneələrlə hesablaşmadan öz məqsədinə doğru birbaşa gedən, yüksəliş və mənfəət yolunda bir dəfə belə büdrəməyən ağıllı bir adam idi. O, istefaya çıxmış prokuror idi, müvəffəqiyyət qazanması sayəsində yumşalmışdı, heç də kinli deyildi, yeri gəldikdə oğullarına, kürəkənlərinə, qohumlarına və hətta dostlarına həvəslə hər cür xırda qulluq göstərən, həyatın yaxşı tərəflərindən, xoş təsadüfdən, gözlənilməyən müvəffəqiyyətdən məharətlə istifadə edən bir adam idi. Yerdə qalan hər şey onun nəzərində bir heç idi. O, həqiqətdə Piqo-Lebrenin yetişdirməsi olsa da, özünü Epikurun ardıcılı hesab edəcək dərəcədə hazırcavab və bilikli bir adam idi. O, sonsuzluq və əbədiyyətə, habelə "sadədil yepiskopun başqa hədyanlarına" gülərək istehza etməyi sevərdi. Bəzən bu şeylərə hətta yepiskop Mirielin özünün hüzurunda belə cəsarət və mərhəmətlə gülərdi.

Bir dəfə yarımrəsmi bir ziyafət münasibətilə qraf (həmin senator) ilə yepiskop Miriel prefektin evində birgə nahar edirdilər. Desert zamanı bir qədər kefli olan, lakin vüqarını pozmayan senator birdənbirə qışqırdı:

– Vallah, cənab yepiskop, gəlin bir az laqqırtı vuraq! Senatorla yepiskopun bir-birinə göz eləmədən bir-birinin üzünə baxmaları mümkün deyil. Sizinlə biz – iki kahinik. Bu saat mən sizə bir şeyi etiraf edəcəyəm. Bilirsinizmi, mənim öz fəlsəfəm vardır.

– Siz haqlısınız, – deyə yepiskop cavab verdi. – Hər kəsin fəlsəfəsi necədirsə, həyatı da elədir. Yatağın necədirsə, yatmağın da elə olar. Siz atlaz yataq içində yatırsınız, cənab senator.

Bu sözlərdən şirnikən senator sözünə davam etdi:

– Gəlin açıq danışaq.

– Lap açıq danışaq, – deyə yepiskop razı oldu.

– Mən sizə bildirirəm ki, markiz d'Arjans, Pirron, Qobbs və Nejon heç də fırıldaqçı deyildirlər. Mənim bütün filosoflarımın əsərləri qızıl yazılı cildlərdə rəflərə düzülmüşdür.

– Onlar sizə bənzəyirlər, cənab qraf, – deyə yepiskop onun sözünü kəsdi.

Senator yenə sözünə davam edərək dedi:

– Mən Didroya nifrət edirəm. O, xəyalpərəst, boşboğaz və inqilabçıdır, ürəyində isə Allaha inanır və Volterdən daha artıq riyakardır. Volter Nidgemə gülür, özü də nahaq yerə gülür, çünki Nidgemin ilanbalıqları Allahın faydasız olduğunu isbat edir. Bir qaşıq xəmirin içindəki bir damcı sirkə *fiaz lux*-u[1] əvəz edir. Damcını bir qədər iri, qaşığı isə böyük təsəvvür etsəniz, dünya əmələ gələr. İnsan ki var, ilanbalığıdır. Madam ki belədir, əzəli Allah kimə lazımdır? Cənab yepiskop, Yəhva haqqındakı fərziyyə mənim zəhləmi aparmışdır. O, yalnız boş xəyallara qapılan arıq adamlar yaratmaq üçün yarayır. Rədd olsun mənim zəhləmi aparan bu böyük Küll! Yaşasın məni rahat buraxan. Sıfır!

Öz aramızda qalsın, cənab yepiskop, ürəyimdə nə varsa, hamısını sizə açıq demək və siz ruhani atamın qarşısında lazımınca tövbə etmək üçün sizə etiraf edirəm ki, mən ağlı başında olan bir adamam. Mən sizin hər addımda dünyadan əl çəkməyi və qurban verməyi təbliğ və vəz edən İsanıza məftun deyiləm. Bu, xəsis adamın dilənçilərə verdiyi məsləhətdən başqa bir şey deyildir. Dünyadan əl çəkmək! Nə üçün? Qurban vermək! Nədən ötrü? Başqa bir canavarın səadəti üçün özünü qurban verən canavar görməmişəm. Elə isə təbiətə sadiq qalaq. Biz dağın zirvəsindəyik, ona görə də ali fəlsəfəni mənimsəməməliyik. Öz yaxın adamının burnunun ucundan o tərəfi görmürsənsə, dağın təpəsində durmağın nə mənası vardır! Gəlin şən həyat sürək. Həyat – hər şeydir! Deyirlər ki, insanı yerdə deyil, guya, orada, yuxarıdamı, aşağıdamı – bir sözlə harada isə – başqa bir aləm, başqa bir həyat gözləyir, mən isə buna zərrə qədər inanmıram. Bəs belə! Məni dünyadan əl çəkməyə və qurban verməyə dəvət edirlər, mən hər bir hərəkətimi izləməli, yaxşını-yamanı, ədalətlini-ədalətsizi, *fas* və *nefas*-ı[2] ayırd etmək üçün başımı sındırmalıyam. Nə üçün? Çünki mən öz hərəkətlərim barəsində hesabat verməli olacağam. Nə zaman? Öləndən sonra. Nə böyük bir səhv! Öləndən sonra məni kim tuta bilərsə, tutsun! Kölgəni bir ovuc kül götürməyə məcbur edin görüm. Hər şeydən hali olan, İzidanın

[1] Qoy dünya yaransın (*lat.*)

[2] Doğrunu və yalanı (*lat.*)

rübəndini qaldıran məhrəm adamlar kimi açıqca deyək: nə xeyir var, nə şər, ancaq bitki həyatı var. Gəlin, həqiqətən mövcud olan bir şeyi axtaraq. Dərinliyə varaq. Məsələnin lap məğzini tapaq! Həqiqəti duymaq, axtarıb tapmaq və ondan yapışmaq lazımdır. O zaman bu həqiqət sizə yaxşıca nəşə verər. Onda siz güclü olarsınız, hər şeyə gülməyə başlarsınız. Mənə gəlincə, mən yerdə özümü möhkəm hiss edirəm, cənab yepiskop. İsanın əbədiliyi yaba ilə suya yazılmış bir əfsanədir. Ah! Gözəl vədlər! Heç onlara bel bağlamaq olar? Adama əcəb etibarlı bir veksel verilmişdir. Əvvəlcə insan ruhdur, sonra dönüb mələk olacaq, kürəyinin arasından mavi qanadlar çıxacaqdır. Yadıma salın görüm, bunu kim demişdir – yanılmıramsa, Tertullian demişdir ki – müqəddəs adamlar bir səyyarədən o biri səyyarəyə uçacaqlar! Çox yaxşı! Necə deyərlər, ulduz cırcıramasına çevriləcəklər. Sonra da Tanrını görəcəklər. Ta-ta-ta! Bütün bu göylər səltənəti mənasız şeydir! Allah isə tamamilə uydurmadır. Əlbəttə, mən bunu "Moniter"də dərc etmərəm, lakin nə üçün yavaşcadan dostuma söyləməyim? *İnter pocula*[1]. Cənnət üçün bu dünyanın nemətlərindən əl çəkmək axı nağd şikarı xəyal xatirinə əldən buraxmaq kimi bir şeydir. Mən özümü əbədilik haqqındakı əfsanə ilə aldadılacaq dərəcədə axmaq deyiləm! Mən bir heçəm. Mən cənab heçəm, senator və qrafam. Mən doğulmamışdan da varmı idim? Yox! Öləndən sonra yaşayacağammı? Yox! Bəs elə isə mən nəyəm? Birləşərək orqanizmə çevrilmiş bir ovuc toz. Bəs onda mən bu yer üzündə nə etməliyəm? Mənim üçün iki yol var: ya əzab çəkməli, ya da nəşələnməliyəm. Əzab məni haraya gətirib çıxaracaq? Faniliyə. Ancaq oraya mən kifayət qədər əzab çəkdikdən sonra gəlib çıxa bilərəm. Bəs nəşə haraya gətirib çıxaracaq? O da faniliyə. Ancaq mən oraya nəşə çəkdikdən sonra gəlib çıxacağam. Elə isə mən artıq nə edəcəyimi təyin etdim. Ya yeməlisən, ya da yeyilməli. Mən yeyirəm. Ot olub yeyilməkdənsə, diş olub yemək yaxşıdır. Mənim hikmətim bundan ibarətdir. Sonra isə hər şey öz qaydasında davam edir: məzarçı artıq oradadır, sizi də, məni də Panteon gözləyir, hamı bu dibsiz uçuruma yuvarlanır. Hər şey bitir. *Finis!* Son haqq-hesab! Hər şey tamamilə yox olur. Mənə inanın ki, ölüm – ölüdür. Məni orada bir nəfərin danışdıracağı haqqındakı söhbətlər də gülünc bir şeydir. Boş nağıldır. Uşaqlara xortdanı göstərən kimi böyüklərə Yəhvanı

[1] Şərab içərkən (*lat.*)

göstərirsiniz. Yox, sabah zülmət içərisindədir. Məzarda hamımız bir heçik, hamımız bərabərik. Siz istər Sardanapal olun, istər Vensen de Pol, fərqi yoxdur, heçliyə gedəcəksiniz. Həqiqət budur. Elə isə yaşayın, hər şeyə rəğmən yaşayın! Nə qədər ki "Mənliyiniz" öz əlinizdədir, ondan istifadə edin. Mən sizə doğru deyirəm, cənab yepiskop, mənim öz fəlsəfəm, öz filosoflarım vardır. Mən boş laqqırtıya aldanan deyiləm. Əlbəttə, aşağı təbəqələr, lütlər, küçələrdə bıçaqitiləyənlər – yoxsullar üçün təsəlli verən bir şey olmalıdır. Odur ki onların ağzını əfsanələrlə, əjdahalarla, ruh, əbədilik, cənnət və ulduzlarla yumurlar, onlar da bunun hamısını həzm edirlər. Onlar bunu öz quru çörəklərinə yavanlıq edirlər. Heç bir şeyi olmayanın başının üstə Allahı vardır. Bu da pis deyil! Mən bunun əleyhinə deyiləm, lakin özüm üçün Nejonu saxlayıram. Mərhəmətli Tanrı ancaq camaatın gözünə xoş gəlir.

Yepiskop əl çalıb qışqırdı:

– Gözəl sözlərdir! Materializm nə yaxşı şeydir! Doğrudan da, qəribədir. O, hər kəsin əlinə düşməz. Ona yiyələnən adamı aldatmaq olmaz, o, Katon kimi özünün vətəndən axmaqcasına qovulmasına, müqəddəs Stefan kimi daşlanmasına, Janna d'Ark kimi özünün diri-diri yandırılmasına yol verməz. Bu gözəl materializmi mənimsəyə bilmiş adamlar məsuliyyətsizlik kimi xoş bir şey hiss edir və belə hesab edirlər ki, onlar hər şeyi: vəzifələri, zəhməti az, xeyri çox olan yerləri, yüksək mənsəbləri, namuslu, ya namussuz yollarla qazanılmış hakimiyyəti rahatca uda bilərlər; özlərinə hər şeyi rəva görə bilərlər: əlverişli olduqda vədi pozar, faydalı olduqda xəyanət edər, zövq verə bilərsə, vicdanını satar, hər şeyi həzmi-rabedən aşırdıqdan sonra isə rahatca məzara gedə bilərlər. Bu nə qədər xoşdur! Cənab senator, mən sizin barənizdə danışmıram, ancaq, vallah, sizi təbrik etməyə bilmərəm. Böyük mənsəb sahibləri olan sizlərin, öz dediyiniz kimi, sizin özünüzə məxsus, nəfis, zərif, yalnız varlı adamlar üçün yarayan, hər şəkildə yarayan, həyatın nəşələrinə daha da ləzzət verən fəlsəfəniz var. Bu fəlsəfə naməlum dərinliklərdən əxz edilmişdir, onu xüsusi tədqiqatçılar işıqlı dünyaya çıxarmışlar. Lakin siz – mərhəmətli adamlarsınız, yoxsullar üçün şabalıdlı qaz qızartması göbələkli hind toyuğunu əvəz etdiyi kimi, Allaha etiqad etməyin də xalqın fəlsəfəsi kimi qalmasında zərərli bir şey görmürsünüz!

Doqquzuncu fəsil

BACISI ÖZ QARDAŞI HAQQINDA NƏ DEYİR

Din şəhəri yepiskopunun ev həyatı və iki dindar qadının öz hərəkətlərini, öz fikirlərini, həyata qarşı təbii, xalis qadın ehtiyatkarlıqlarını belə yepiskopun bütün adətlərinə, fikirlərinə və görüşlərinə tabe etməsi haqqında təsəvvür etmək üçün madmazel Batistinanın öz uşaqlıq dostu vikontessa de Buaşevrona yazdığı məktubu oxumaq hər şeydən yaxşı olar. Bu məktub bizdədir.

Din, 16 dekabr 18 ...

Mənim əzizim! Bir gün belə olmaz ki, sizi yad etməyək. Bu, bizim üçün bir adət olmuşdur, indi isə bunun xüsusi bir səbəbi də var. Bilirsinizmi, madam Maqluar evin tavanını və divarları yuyub təmizlərkən bir neçə kəşf etmişdir: bizim əvvəllər köhnə divar kağızı çəkilmiş və üstündən ağardılmış iki otağımız indi sizin sarayınız kimi bir saray üçün də zinət ola bilər. Madam Maqluar bu otaqların bütün kağızlarını soyduqda, kağızın altından çoxlu maraqlı şeylər çıxmışdır. Mənim salonumda mebel yoxdur, biz burada həmişə yuyulmuş paltar quruduruq, bu salonun hündürlüyü on beş fut, böyüklüyü isə, təqribən, on səkkiz kvadrat futdur. Salonun tavanı, köhnə dəb üzrə, qızıl suyu ilə çəkilmiş rəsmlərlə örtülüdür. Şalbanlar isə sizdə olduğu kimidir. Bura xəstəxana olduğu zaman bunların hamısı kətanla örtülmüşdü. Bundan başqa, divarlarda bizim nənələrimizin zəmanəsindən qalmış ağac haşiyələr vardır... Lakin hamıdan maraqlısı mənim yataq otağımdır. Madam Maqluar, ən azı, on təbəqə kağız altında, çox gözəl olmasa da, xoş rəsmlər tapmışdır. Bu rəsmlərdə Telemakın Minerva tərəfindən cəngavərliyə qəbul edilməsi mərasimi vardır, adını unutduğum, Roma matronalarının[1] birgecəliyə getdikləri bağlardan birində yenə də Telemak təsvir olunur. Daha nə? Romalılar, Roma qadınları (*bundan*

[1] *Matrona* – Romada böyük ailə başçısı olan ana

sonra gələn sözü oxumaq mümkün deyil) və bu kimi şeylər. Madam Maqluar bunların hamısını yuyub təmizləmişdir, bu yay o, bəzi korlanmış yerləri təmir edəcək, üstündən lak çəkəcək və mənim otağım əsl muzeyə çevriləcəkdir. Bundan əlavə, madam Maqluar çardaqdan qədim üslubla ağacdan düzəldilmiş iki balaca masa tapmışdır. Bu masaları təzədən pərvazlamaq üçün iki altı franklıq ekü istəyirlər, lakin bu pulları yoxsullara vermək daha yaxşıdır. Həm də masalar çox yaraşıqsızdır. Mən bunun əvəzinə qızılağacdan bir dəyirmi masa almaq istərdim.

Mən həmişəki kimi xoşbəxt yaşayıram. Qardaşım o qədər mərhəmətlidir ki, nəyi varsa, hamısını yoxsullara və xəstələrə paylayır. Biz puldan çox çətinlik çəkirik. Bu yerlərin qışı çox soyuqdur, odur ki ehtiyacı olanlara heç olmasa, bir şeylə kömək etmək lazımdır. Bizim evimiz, demək olar ki, həm isti, həm də işıqlıdır. Bu, hər halda, böyük bir sərvətdir, elə deyilmi?

Qardaşımın özünə məxsus adətləri var. O deyir ki, hər bir yepiskop belə olmalıdır. Təsəvvür edin ki, evimizin qapısı hər zaman açıqdır. Kim içəri girsə, dərhal qardaşımın otağına düşür; hətta gecə vaxtı da o, heç bir şeydən qorxmur. Onun igidliyi də bundan ibarətdir – bu, onun öz sözləridir.

O nə mənim, nə də madam Maqluarın ondan nigaran olmağımızı istəyir. O, özünü hər cür təhlükəyə salır və istəyir ki, biz hətta özümüzü bilməməzliyə vuraq. Onu anlamağı bacarmaq lazımdır.

O, yağışlı havada evdən çıxır, palçığın içində addımlayır, qışda səyahət edir – nə qaranlıqdan, nə təhlükəli yollardan və nə də quldura rast gəlməkdən qorxur.

Keçən il o, tək-tənha quldurların ağalıq etdiyi yerə getdi. Bizi özü ilə aparmaq istəmədi. Düz iki həftə evdə olmadı. Qayıtdıqdan sonra məlum oldu ki, ona heç nə olmamışdır; hamı onun orada öldürüldüyünü zənn edirdi, o isə sağ-salamat idi. Özü ilə bərabər bir çamadan da gətirmişdi. "Görün məni necə qarət ediblər!" – deyə çamadanı açdıqda məlum oldu ki, içindəkilər Ambren

Notrdam kilsəsinin cavahirləridir. Bunu ona oğrular bağışlamışdılar.

Bu dəfə o, evə qayıdarkən, mən özümü saxlaya bilməyib onu bir az danladım, ancaq bizi kimsə eşitməsin deyə, araba təkərləri guruldadığı zaman danışmağa çalışırdım.

İlk zamanlar öz-özümə fikirləşirdim: "Heç bir təhlükə onu dayandıra bilməz, o, qeyri-adi bir adamdır". İndi, nəhayət, buna adət etmişəm. Madam Maqluara işarə edirəm ki, ona söz qaytarmasın. O, istədiyi qədər canını təhlükəyə atır. Mən madam Maqluarı çağırıb, öz otağıma keçirəm, onun üçün dua edib, yuxuya gedirəm. Mən sakitəm, çünki qəti bilirəm ki, onun başına bir bədbəxtlik gələrsə, mənim də aqibətim pis olacaqdır. Mən qardaşım və yepiskopumla bərabər Allah-taalanın hüzuruna gedərəm. Madam Maqluar onun "ağılsızlıq" adlandırdığı hərəkətlərinə məndən çətin adət edirdi. İndi isə daha öyrənmişik. Birlikdə ibadət edirik, birlikdə qorxumuzdan titrəyirik və sonra yuxuya gedirik. İblis özü evimizə girmək istəsə, kimsə ona mane olmaz. Doğrudan da, bu evdə biz nədən qorxa bilərik? Hamıdan qüdrətli olan Tanrı hər zaman bizimlədir. İblis gəlirsə gedər, Allah-taala isə hər zaman bizim üstümüzdədir.

Bu, mənim üçün kifayətdir. İndi qardaşımın mənə bir kəlmə belə söz deməsi lazım deyil. Mən onu sözsüz də başa düşürəm. Odur ki ixtiyarımızı qəzavü-qədərə tapşırmışıq.

Ruhən böyük olan adamla belə rəftar etmək lazımdır.

Sizin de Fo ailəsi haqqında istədiyiniz məlumatı qardaşımdan soruşdum. Sizə məlumdur ki, o, hər şeyi bilir, onun zəngin hafizəsi var – axı o, indiyə qədər də royalist olaraq qalır. Soruşduğunuz ailə, doğrudan da, Kan dairəsində qədim bir normand ailəsidir. Hələ beş yüz il bundan əvvəl Raul de Fo, Jan de Fo və Toma de Fo dvoryan imişlər, həm də onlardan biri Roşforun sahibi imiş. Bu nəslin son nümayəndəsi olan Gi Etyen Aleksandr polk komandiri, habelə Bretanda yüngül süvari qoşunda nə isə bir vəzifədə olmuşdur. Qızı Mariya Luiza Fransa peri fransız qvardiyası polkovniki və ordu general-leytenantı

hersoq Lui de Qramonun oğlu Andrien-Şarl de Qramona ərə getmişdir. Sonluqları dəyişməklə "fo" müxtəlif şəkildə yazıla bilər: Faux, Fauq və Faoucq.

Mənim əzizim! Hörmətli qohumunuz cənab kardinaldan xahiş edin ki, bizə dua etsin. Sizin sevimli Silvaniyanıza gəlincə, sizin yanınızda keçirdiyi qısa anları mənə məktub yazmağa sərf etməməklə çox yaxşı iş görmüşdür. Axı o sağlamdır, sizin istədiyiniz kimi işləyir və məni əvvəlki kimi sevir. Elə bu mənim üçün kifayətdir. Sizin vasitənizlə o, mənə salam göndərmişdir; mən də bunu özüm üçün xoşbəxtlik hesab edirəm. Mən özümü pis hiss etmirəm, bununla belə, gündən-günə arıqlayıram. Salamat qalın, daha kağızım yoxdur, buna görə sizdən ayrılmağa məcburam. Salamlarımı, ehtiramlarımı qəbul edin.

Batistina.

P.S. Nəvəniz çox gözəldir. Bilirsinizmi, bu yaxında onun beş yaşı tamam olacaq! Dünən küçədən dizinə qayış bağlanmış bir at keçirdi. O, bu atı görüb soruşdu: "Atın dizinə nə olmuşdur?" Bu uşaq elə sevimlidir ki! Balaca qardaşı isə köhnə süpürgəni kareta zənn edərək, otaqda sürüyə-sürüyə, "dəh-dəh!" deyib çığırır.

Bu məktubdan aydın olur ki, hər iki qarı özlərini yepiskopun adətlərinə yaxşı uyğunlaşdıra bilmişdi – bu, kişini onun özündən yaxşı başa düşən qadınlara aid xüsusiyyətdir. Din şəhərinin yepiskopu öz təvazökar və sadə görünüşünü daim saxlamaqla, bəzən cəsarət tələb edən böyük və gözəl işlər görər və bunu hətta dərk etməzdi. Qadınlar titrər, lakin onun işinə qarışmazdılar. Bəzən madam Maqluar iş görülməzdən əvvəl ona xəbərdarlıq etməyə cəsarət edərdi, lakin nə iş görülən zaman, nə də işdən keçəndən sonra bunu eləməzdi. İş başlanmışdısa heç kəs, heç bir vaxt ona, hətta hərəkətlə də mane olmazdı. Bəzən – o, bu barədə qadınlara bir söz deməli olmurdu, bəlkə də, o qədər təvazökar idi ki, özü də bunu dərk etmirdi – qadınlar yepiskopun həqiqətən yepiskop kimi hərəkət etdiyini dumanlı surətdə hiss edir və bu zaman evdə süzən kölgəyə çevrilirdilər. Onlar öz iradələrinin təzahüründən əl çəkərək, yepiskopa

xidmət edirdilər, itaət etmək – yox olmaq demək idisə, onlar o saat yox olurdular. Bəzən qayğıkeşlik göstərmək adamı yalnız darıxdıra bilər. Onlar bunu çox incə bir həssaslıqla duyurdular. Buna görə yepiskopun hətta təhlükədə olduğunu bilsələr belə, onlar yepiskopun fikrini anlamasalar da, təbiətini o qədər yaxşı anlayırdılar ki, qayğısını çəkməz və onu Allaha tapşırardılar.

Həm də, məktubdan göründüyü kimi, Batistina deyirdi ki, qardaşının ölümü eyni zamanda onun da ölümü olacaqdır. Madam Maqluar bunu demirdi, lakin bunun belə olduğunu bilirdi.

Onuncu fəsil

YEPİSKOP NAMƏLUM İŞIQ QARŞISINDA

Yuxarıda göstərdiyimiz məktub yazıldıqdan bir qədər sonra yepiskop, bütün şəhərin rəyincə, quldurlar yatağı olan dağlara getməkdən daha ehtiyatsız bir hərəkət etdi.

Din şəhərinin kənarında büsbütün yalqız yaşayan bir adam var idi. Həmin adam – bu qorxulu sözü elə dərhal desək yaxşıdır – vaxtilə Konvent üzvü olmuşdu. Adı J. idi.

Kiçik Din şəhərinin əhalisi bu Konvent üzvünün adını, az qala, dəhşətlə çəkərdi. "Bir təsəvvür edin – Konvent üzvləri! Konvent üzvləri adamların bir-birini "vətəndaş" və "sən" deyə çağırdıqları zamanlar yaşayırdılar. Bu adam div kimi bir şey idi; o, kralın ölümünə səs verməmişdisə də, hər halda, buna yaxın bir şey etmişdi. O, az qala, padşah qatili idi. O, dəhşətli idi. Necə olmuşdu ki, qanuni padşahlar qayıtdıqdan sonra bu adamı xüsusi cinayət məhkəməsinə vermişdilər? Bəlkə də, onun başını kəsməzdilər – hər halda, mərhəmət göstərmək lazımdır – ancaq onu ömürlük sürgün etmək faydasız olmazdı! Heç olmazsa, başqalarına nümunə olmaq üçün! Və s. və i.a. Xüsusən, ona görə ki, bu cür adamların hamısı kimi o da allahsız idi..." Qazların çalağan haqqındakı mühakiməsi.

Ancaq J., həqiqətən, çalağan idimi? Onun sürdüyü sərt, tənha həyatına baxılacaq olursa, bəli, doğrudan da, o, çalağan idi. O, kralın ölümünə səs vermədiyinə görə, qara siyahıya düşməmişdi və Fransada qala bilmişdi.

O, şəhərdən qırx dəqiqəlik məsafədə, insan mənzilindən, yollardan uzaqda, unudulmuş vəhşi bir dərədə, dağlar arasında yaşayırdı. Deyildiyinə görə, orada onun bir parça yeri, bir daxması, bir mağarası var idi. Nə qonşusu vardı, nə də yoldan keçən. O bu dərəyə köçdüyü zamandan bəri həmin dərəyə gedən cığırı ot basmışdı. Bu yerdən danışanda, elə bil, cəllad yuvası haqqında danışırdılar.

Lakin yepiskop onu xatırlayar, ara-sıra üfüqdə görünən və qoca Konvent üzvünün yaşadığı dərəni göstərən ağaclığa tərəf baxaraq düşünürdü: "Orada yalqız qalmış bir ruh vardır".

Daxildən gələn bir səs də ona deyirdi: "Sən o adamın yanına getməlisən".

Lakin etiraf etmək lazımdır ki, əvvəldə çox təbii görünən bu fikir, bir qədər düşündükdən sonra, yepiskopa mənasız və qeyri-mümkün, hətta ikrahlandırıcı görünürdü. Çünki, əslində, o da hamının fikrinə şərik idi və özü belə açıq surətdə fərqinə varmadan, Konvent üzvü ona nifrətə yaxın olan və "ədavət" sözü ilə yaxşı ifadə olunan bir hiss təlqin edirdi.

Lakin yoluxucu xəstəliyə tutulmuş qoyundan uzaq qaçmağa çobanın haqqı varmı? Yox! Ancaq qoyunla qoyunda da fərq vardır.

Mərhəmətli yepiskop çox çətin vəziyyətə düşmüşdü. O, neçə dəfə dərəyə tərəf getmiş və yarı yoldan geri qayıtmışdı.

Lakin bir gün şəhərə xəbər yayıldı ki, mağarasında Konvent üzvünə xidmət edən balaca çoban həkim dalınca gəlmişdir; deyirdilər ki, qoca kafir ölüm yatağındadır, o iflic olmuşdur, bu gecəni çətin ki başa vursun. Bəziləri bu sözləri söylərkən: "Allaha şükür!" – deyə əlavə edirdilər.

Yepiskop əsasını götürdü, yuxarıda dediyimiz kimi, donu çox köhnə olduğundan və axşamlar, adətən, soyuq külək əsdiyindən mantiyasını geydi və yola düşdü.

Yepiskop adamların lənət yağdırdığı yerə çatdığı zaman günəş artıq üfüqə doğru enməkdə idi. Ürəyi yüngülcə çırpınaraq gördü ki, lap mağaraya çatmışdır. Xəndəyi adladı, təbii çəpərdən keçdi, qapının ağzını kəsən payanı qaldırdı, başlı-başına buraxılmış bir bostana girdi, irəliyə doğru bir neçə cürətli addım atdı və birdən sıx, hündür kollar arasından heyvanın yuvasını gördü.

Bu, kiçik, çox alçaq, yoxsul və təmiz bir daxma idi; onun qabaq tərəfini tənək bürümüşdü.

Qapının qabağında təkərli bir kresloda, sadə kəndli kreslosunda ağsaçlı bir adam oturub, günəşə baxaraq gülümsəyirdi.

Qocanın yanında bir yeniyetmə oğlan, balaca çoban duraraq əlindəki süd kasasını ona uzatmışdı.

Yepiskop dinməzcə bu səhnəyə tamaşa edirdi. Bu zaman qoca dilləndi. "Çox sağ ol, – dedi, – daha mənə heç bir şey lazım deyil". Onun gülümsəyən gözləri günəşdən ayrılaraq, uşağın üzünə zilləndi.

Yepiskop yaxın gəldi. Qoca ayaq səsini eşidib, başını çevirdi və onun üzündə uzun ömür sürmüş insanın hələ də ifadə edə biləcəyi dərin bir heyrət göründü.

– Burada yaşadığım gündən bəri birinci dəfədir ki, yanıma adam gəlir, – dedi. – Siz kimsiniz, cənab?

Yepiskop cavab verdi:

– Mənim adım Byenvenü Mirieldir.

– Byenvenü Miriel. Mən bu adı eşitmişəm. Camaatın monsenyor Byenvenü dedikləri adam siz deyilsinizmi?

– Bəli, mənəm.

Qoca xəfifcə gülümsəyərək davam etdi:

– Elə isə siz mənim yepiskopumsunuz.

– Müəyyən dərəcədə.

– Xoş gəlmişsiniz.

Konvent üzvü əlini yepiskopa uzatdı, lakin yepiskop onun əlini sıxmadı. O ancaq bunu dedi:

– Aldanmış olduğuma çox şadam. Siz heç də xəstəyə oxşamırsınız.

– Tezliklə yaxşı olaram, cənab, – deyə qoca cavab verdi. Bir qədər sükutdan sonra o dedi:

– Üç saatdan sonra mən öləcəyəm.

Sonra davam edərək:

– Mənim təbabətdən bir az başım çıxır, – dedi. – Ölümün necə yaxınlaşdığını bilirəm. Dünən yalnız ayaqlarımın altı soyumuşdu: bu gün soyuq dizlərimə qədər qalxdı, indi də soyuğun getdikcə yuxarı qalxaraq belimə çatdığını hiss edirəm, soyuq ürəyimə çatan kimi ürəyim dayanacaqdır. Amma günəş nə gözəldir! Kreslomu havaya çıxartdırdım ki, son dəfə dünyanı seyr edim. Siz mənimlə danışa bilərsiniz, bu, məni qətiyyən yormaz. Can verməkdə olan bir adama baxmağa gəlməkdə yaxşı etmişsiniz. Bu dəqiqələrin şahidi olmalıdır.

Hər kəsdə bir qəribəlik olur, bax, mən günəş doğana qədər yaşamaq istərdim. Lakin bilirəm ki, heç üç saat da yaşamayacağam. Hələ qaranlıq ikən ölüb qurtaracağam. Ancaq bunun nə fərqi var? Həyatı başa vurmaq çox sadə şeydir... Bunun üçün sabahın açılması lazım deyil. Qoy belə olsun. Mən ulduzların işığında öləcəyəm.

Qoca bu sözləri dedikdən sonra uşağa tərəf dönərək:

– Get yat, – dedi. – Bütün keçən gecəni sən mənim yanımda oturdun, yorğunsan.

Uşaq daxmaya getdi.

Qoca, uşağı gözləri ilə müşayiət edərək, öz-özünə danışırmış kimi əlavə etdi:

– O, yuxuda ikən mən öləcəyəm. Yuxu ilə ölüm bir-birinə yaxın qonşudur.

Bütün bunlar yepiskopa gözlənildiyindən az təsir etdi. O, bu ölümdə Allahın iştirak etdiyini nə isə hiss etmirdi. Açıq söyləyək – çünki böyük qəlblərin kiçik ziddiyyətləri də bütün qalanlar kimi eynilə dürüst qeyd olunmalıdır – onu "monsenyor" adlandırdıqlarına yeri gəldikcə istehza etməyi sevən yepiskopa burada "monsenyor" deyilməməsi ona bir qədər toxunmuşdu. O, buna cavab olaraq, az qala, "vətəndaş" deyə müraciət etmək istədi. O, həkimlərə və keşişlərə xas olan və özünün heç alışmamış olduğu kobud bir etinasızlıq göstərmək istədi. Axı bu adam, bu Konvent üzvü, bu xalq nümayəndəsi vaxtilə dünyanın böyüklərindən biri idi: yepiskop, bəlkə də, ömründə birinci dəfə olaraq, özündə bir sərtlik hiss etdi.

Konvent üzvü isə bu zaman təvazökar xoşhallıqla ona baxırdı. Bu baxışda məzara yaxınlaşmış insan üçün tamamilə təbii bir itaətkarlıq əlaməti vardı.

Maraqlanmağı təhqir hesab edən, buna görə də, adətən, maraqlanmaqdan çəkinən yepiskop isə Konvent üzvünü diqqətlə nəzərdən keçirirdi: rəğbətdən doğmayan bu diqqəti başqasına göstərmiş olsaydı, yəqin ki, vicdan əzabı çəkərdi. Konvent üzvü ona qanundan xaric, hətta mərhəmətə belə layiq olmayan bir adam kimi görünürdü.

Özünü düz tutan və ucadan, sakit bir səslə danışan J. fizioloqların heyrətinə səbəb olan səksənyaşlı qocalardan biri idi. İnqilab öz dövrünün təcəssümü olan bu cür adamlardan az görməmişdi. Bu qocanın hər cür sınaqdan çıxmış bir adam olduğu hiss edilirdi. Ölümə bu qədər yaxın olduğu halda hərəkətləri sağlam bir adamın

hərəkətləri kimi idi. Onun aydın baxışı, möhkəm səsi, qüvvətli və geniş çiyinləri ölümün özünü də çaşdıra bilərdi. Müsəlmanların Əzrayılı onu görmüş olsaydı, qapını yanıldığını zənn edərək, mütləq geri qayıdardı. J., sanki, özü ölmək istədiyi üçün ölürdü. Onun can çəkişməsində sərbəst iradə hiss olunurdu. Yalnız ayaqları hərəkətsiz idi. Ölüm əvvəlcə bu ayaqlardan bərk-bərk yapışmışdı. Ayaqları soyuq və ölü idi, başı isə bütün həyati qüvvəsilə yaşayır, görünür, tamamilə aydın işləyirdi. Bu təntənəli dəqiqədə J. Şərq nağıllarında təsvir edilən beldən yuxarısı ət, aşağısı mərmər olan padşaha bənzəyirdi.

Kreslonun yaxınlığında bir daş vardı. Yepiskop bu daşın üstündə oturdu. Söhbət *ex abrupto*[1] başlandı.

Yepiskop təqdiredici bir ahənglə dedi:

– Mən sizin üçün sevinirəm. Siz, hər halda, kralın ölümünə səs verməddiniz.

Konvent üzvü bu "hər halda" sözü arxasında gizlənən acı kinayəni, elə bil, hiss etmədi, lakin cavab verərkən üzündən təbəssüm silindi.

– Mənim üçün çox da sevinməyin, cənab, – dedi, – mən zalım hökmdarın məhv edilməsinə səs vermişəm.

Bu sərt ahəng yepiskopun ciddi ahənginə cavab idi.

– Siz bununla nə demək istəyirsiniz? – deyə yepiskop soruşdu.

– Mən demək istəyirəm ki, insan üçün yalnız bir zalım var – o da cəhalətdir. Mən də həmin zalımın məhvinə səs verdim. Kral hakimiyyətini, yəni mənbəyi yalandan ibarət olan hakimiyyəti bu zalım doğurmuşdur, bilik isə həqiqətdən doğmuş olan hakimiyyətdir. Yalnız bilik insanları idarə edə bilər.

Yepiskop:

– Bir də vicdan, – deyə əlavə etdi.

– Hər ikisi bir şeydir. Vicdan – bizdə fitrən mövcud olan biliklərin məcmusudur.

Monsenyor Byenvenü onun üçün tamamilə yeni olan bu sözləri bir qədər heyrətlə dinləyirdi.

Konvent üzvü sözünə davam edərək dedi:

– On altıncı Lüdovikə gəlincə, mən "yox" dedim. Mənim insanı öldürməyə haqqım yoxdur, lakin zülmü məhv etməyi özüm üçün bir vəzifə hesab edirəm. Mən zalımın məhv edilməsinə, yəni qadınlar

[1] Qəflətən, müqəddiməsiz (*lat.*)

üçün fahişəliyin, kişilər üçün köləliyin, uşaqlar üçün cəhalətin məhv edilməsinə səs verdim. Respublikaya səs verərkən, mən bütün bunlara səs vermiş oldum. Mən qardaşlıq üçün, sülh üçün, açılan sabah üçün səs verdim! Mən xurafatın və yanlış fikirlərin puç edilməsinə yardım etdim. Xurafatın və yanlış fikirlərin yox olmasından işıq doğur. Biz köhnə dünyanı yıxdıq və əzablar kasası olan bu köhnə dünya bəşər nəslinin üzərinə tökülərək, sevinc kasasına çevrildi.

Yepiskop dedi:

– Şübhəli bir sevinc.

– Narahat olmuş bir sevinc deyə bilərdiniz, indi isə adı min səkkiz yüz on dördüncü il olan keçmişə qayıtdıqdan sonra – yox olmuş sevinc. Heyhat, işimiz başa çatdırılmadı, mən bunu etiraf edirəm, biz köhnə quruluşu zahiri cəhətdən yıxdıqsa da, ideyalar aləmindən onu tamamilə məhv edə bilmədik. Cinayətləri məhv etmək kifayət deyil, adətləri dəyişdirmək lazımdır. Dəyirmanı dağıtdıq, külək isə qaldı.

Siz dağıtdınız. Dağıtmaq faydalı ola bilər, lakin mən qəzəb təsiri altında dağıtmaqdan qorxuram.

– Ədalətin də öz qəzəbi vardır, cənab yepiskop və bu ədalət qəzəbi tərəqqi ünsürüdür. Necə olur olsun və nə deyirlər desinlər, lakin Fransa inqilabı İsa zamanından bu günə qədər bəşəriyyətin ən qüdrətli hərəkatı olmuşdur. Düzdür, mükəmməl deyil, lakin çox nəcib və yüksək bir hərəkatdır. İnqilab ictimai təklikdə olan bütün məchulları mötərizədən kənara çıxartdı, beyinləri sakitləşdirdi; qəlbləri yumşaltdı, işıqlandırdı, o, yer üzünə mədəniyyət selləri axıtdı. O, xeyirxahlıqla dolu idi. Fransa inqilabı insanpərvərliyin özünün taxta çıxmasıdır.

Yepiskop özünü saxlaya bilmədi və pıçıldadı:

– Eləmi? Bəs doxsan üçüncü il?

Ölməkdə olan adam heybətli bir təntənə ilə kresloda bir qədər dikəldi və son qüvvələrini toplayaraq çığırdı:

– Aha! Bəs belə! Doxsan üçüncü il! Mən bu sözləri gözləyirdim. Min beş yüz il ərzində buludlar toplaşdı, sıxlaşdı. On beş əsr keçdi və nəhayət, göy guruldadı, ildırım çaxdı. Siz göy gurultusunu mühakimə etmək istəyirsiniz.

Yepiskop, ola bilsin, özü-özünə etiraf etmədən yüngül bir pərtlik hiss etdi. Lakin bunu bildirməyərək cavab verdi:

– Hakim ədalət adından, keşiş mərhəmət adından danışar. Mərhəmət özü də elə ədalətin eynidir, lakin onun daha yüksək dərəcəsidir. İldırımın zərbəsi sərrast olmalıdır.

Sonra Konvent üzvünün düz gözünün içinə baxaraq əlavə etdi:

– Bəs On yeddinci Lüdovik?

Konvent üzvü əlini uzadıb yepiskopun çiynindən yapışdı.

– On yeddinci Lüdovik! Mənə baxın! Siz kimin üçün yas tutursunuz? Günahsız bir uşaq üçün? Əgər belə olsaydı, mən də sizinlə birlikdə ağlardım. Lakin siz kral oğlu üçün ağlayırsınızsa, mənə imkan verin, bu barədə hələ bir qədər fikirləşim. Kartuşun qardaşı. Qrev meydanında asılmış və ölüncəyə qədər orada qoltuqlarından asılı qalmış günahsız uşaq, günahı yalnız Kartuşun qardaşı olmasından ibarət olan uşaq mənim nəzərimdə yalnız On beşinci Lüdovikin nəvəsi olduğu üçün Tampl həbsxanasına salınmış olan başqa bir günahsız uşaqdan, On beşinci Lüdovikin nəvəsindən daha artıq mərhəmətə layiqdir.

– Cənab, – deyə yepiskop onun sözünü kəsdi, – bu iki adın müqayisə edilməsi mənim xoşuma gəlmir.

– Kartuşla On beşinci Lüdovikinmi? Siz hansını müdafiə etmək niyyətindəsiniz?

Hər ikisi susdu. Yepiskop buraya gəldiyinə, az qala, peşman olmuşdu. Bununla bərabər o, qəlbində nəyin isə sarsıldığını tutqun surətdə hiss etdi.

Konvent üzvü yenə sözünə davam edərək:

– Ah, cənab keşiş! – dedi. – Siz kobud həqiqəti sevmirsiniz, halbuki İsa onu çox sevərdi. O, zalımları məbəddən qamçı ilə qovardı. Onun verdiyi cəza sərt həqiqətlərin gözəl bir carçısı idi. O, "*sinite parvulos*"[1] deyə çığırdıqda, uşaqlar arasında fərq qoymurdu. O, Varavqanın varisi ilə İrodun varisini yanaşı qoymaqdan çəkinməzdi. Günahsızlığın özü, cənab, ən gözəl bir zinətdir. Günahsızlığın "əlahəzrət" olmağa ehtiyacı yoxdur. Cır-cındır içində də o, gözəl libaslar içində olduğu qədər əzəmətlidir.

Yepiskop yavaş bir səslə:

– Bu doğrudur, – deyə dilləndi.

Konvent üzvü sözünə davam edərək dedi:

– Mən öz fikrimdə israr edirəm. Siz on yeddinci Lüdovikin adını çəkdiniz. Bir-birimizi anlamağa çalışaq. Deyin görək, biz kimə

[1] Uşaqları buraxın (*lat.*)

ağlayacağıq: bütün günahsızlara, əzab çəkənlərə, bütün uşaqlara – həm aşağıda, həm yuxarıda olanlaramı? Əgər belə isə, mən razıyam. Lakin təkrar edirəm, bu halda doxsan üçüncü ildən çox-çox əvvəlki illərə qayıtmaq və on yeddinci Lüdovikdən çox-çox qabaq həlak olmuş adamlar üçün göz yaşı tökmək lazımdır. Siz mənimlə birlikdə xalqın uşaqlarına ağlasanız, mən də sizinlə bərabər kral uşaqlarına ağlayaram.

Yepiskop:

– Mən hamı üçün ağlayıram, – dedi.

– Eyni dərəcədə! – deyə J. səsləndi. – Lakin tərəzinin müvazinəti pozularsa, qoy xalqın çəkdiyi iztirablar üstün gəlsin, çünki xalqın iztirabı daha uzun sürür.

Yenidən sükut çökdü. Birinci olaraq Konvent üzvü sükutu pozdu. O, dirsəyinə söykənərək bir az qalxdı və yatağını şəhadət barmağı ilə baş barmağının arasında yüngülcə sıxaraq – bu, həm soruşan, həm də mühakimə edən adama xas olan ani bir hərəkət idi, – gözünü yepiskopun üzünə zillədi. Bu baxışda qeyri-adi bir qüvvə, can çəkişmə qüvvəsi vardı. O, sözə başladı. Bu, partlayışa bənzəyirdi.

– Bəli, cənab, – xalq çoxdan zülm altında əzilir... Lakin dayanın, mənim demək istədiyim bu deyil. Siz nə üçün yanıma gəlib sorğusual edir və On yeddinci Lüdovik haqqında danışırsınız? Mən sizi tanımıram. Burada olduğum zamandan bəri mən tək yaşayıram və bu hasardan kənara bir addım belə atmamışam, mənə kömək edən bu uşaqdan başqa kimsəni görməmişəm. Doğrudur, adınızı bəzən ötəri eşidirdim və etiraf etməliyəm ki, sizin birinizdən o qədər də danışmırlar, lakin bu hələ heç bir şeyi sübut etmir. Mahir adamlar min bir vasitə ilə xalqın, bu sadə camaatın başını aldada bilirlər. Yeri gəlmişkən, deməliyəm ki, mən sizin karetanızın təkərlərinin gurultusunu nədənsə eşitmədim. Görünür, siz onu yolun döngəsində, meşənin arxasında qoyub gəlmişsiniz. Sizə deyirəm – mən sizi tanımıram. Yepiskop olduğunuzu söylədiniz, lakin bu hələ sizin əxlaqınız, şəxsiyyətiniz haqqında heç bir şey bildirmir. Sualımı yenə təkrar edirəm: siz kimsiniz? Siz bir yepiskopsunuz, yəni kilsə knyazısınız, illik renta ilə təmin olunmuş və qulluqdan böyük gəliri olan, zərli paltarları və gerbi olan adamlardan birisiniz. Din şəhəri yeparxiyasının on beş min frank maaşı və on min frank başqa gəliri, yəni cəmisi ildə 25 min frank gəliri var. Siz – yaxşı aşpazları, livreyalı

lakeyləri olan, yaxşı yeməyi sevən və cümə günləri toyuq əti yeyən, qabağında və arxasında lakeylər durmuş zinətli karetalarda sərilib özünü göstərən, Həzrəti-İsa naminə saraylarda yaşayan və karetalarda gəzən adamlardan birisiniz, halbuki Həzrəti-İsa özü ayaqyalın gəzərdi... Siz bir yüksək mənsəb sahibisiniz! Rentalar, saraylar, atlar, xidmətçilər, gözəl yeməklər, həyatın bütün cismani ləzzətləri – bunların hamısı sizin və eləcə də peşə yoldaşlarınızın ixtiyarındadır, onlar kimi siz də bunlardan ləzzət alırsınız. Bunların hamısı doğrudur, lakin bununla ya həddindən çox, ya da həddindən az söylənilmişdir. Bunlar sizin daxili qiymət və mahiyyətiniz haqqında, yəqin ki, mənə ağıl və hikmət öyrətmək üçün buraya gəlmiş adamın kim olduğu haqqında mənə heç bir şey izah etmir. Mən kimlə danışıram? Siz kimsiz?

Yepiskop başını əydi və:

– *Vermis sum*[1], – deyə cavab verdi.

Konvent üzvü öz-özünə donquldadı:

– Karetada gəzən həşərat!

Rollar dəyişmişdi, indi Konvent üzvü təkəbbürlü, yepiskop isə müti idi.

O, mülayimliklə:

– Elə olsun, cənab, – dedi, – lakin bir izah edin görək, mənim bu kolların arxasında, buradan iki addımlıqda dayanmış karetam, gözəl xörəklərim, cümə günləri yediyim toyuqlar, 25 min franklıq illik gəlirim, sarayım və lakeylərim məgər onu isbat edir ki, mərhəmət yaxşı sifət deyil, rəhm etmək hamının borcu deyil və doxsan üçüncü il amansız olmayıb?

Konvent üzvü bir kölgəni qovurmuş kimi, əlini alnına çəkdi və dedi:

– Sizə cavab verməzdən əvvəl, xahiş edirəm məni bağışlayasınız... Sizin qarşınızda müqəssirəm, cənab. Siz mənim yanıma gəlmişsiniz, siz mənim qonağımsınız. Sizə qarşı nəzakətli olmaq mənim borcumdur. Siz mənim fikirlərimi inkar edirsiniz, mən də yalnız sizin dəlillərinizə etiraz etməklə kifayətlənməliyəm. Sizin sərvətiniz və həyatdan aldığınız nəşələr bizim mübahisəmizdə mənim əlimdə sizin əleyhinizə gözəl bir silahdırsa da, bu silahdan istifadə etməmək daha nəzakətli olardı. Sizə söz verirəm, artıq mən bu məsələyə toxunmayacağam.

– Təşəkkür edirəm, – deyə yepiskop cavab verdi. J. sözünə davam edərək:

[1] Mən həşəratam (*lat.*)

– Mübahisəmizə qayıdaq, – dedi. – Biz nədən danışırdıq? Yanılmıramsa, siz doxsan üçüncü ilin amansız olduğunu söylədiniz?

Yepiskop:

– Bəli, amansız idi, – dedi. – Gilyotini alqışlayan Marat haqqında siz nə fikirdəsiniz?

– Bəs siz draqonadalar[1] münasibətilə "*Te Deut*"[2] deyə oxuyan Bossüe haqqında nə düşünürsünüz?

Cavab çox sərt idi və amansız polad tiyə kimi düz hədəfə dəymişdi. Yepiskop diksindi, o, etiraz etməyə söz tapmadı, lakin Bossüeyə bu cür isnad etmək onu təhqir etmişdi. Ən ağıllı adamların da öz pərəstişkarları var və məntiq tərəfindən bunlara kifayət qədər ehtiram edilmədikdə, onlar bəzən bundan bərk inciyirlər.

Konvent üzvü isə artıq boğulurdu, son dəqiqələrin adi rəfiqi olan ölüm xırıltısı onu danışmağa qoymurdu, bununla belə ağlının tamamilə aydın olduğu gözlərindən əks olunurdu. O, sözünə davam edərək dedi:

– Mən sizə daha bir neçə kəlmə demək istəyirəm. Doxsan üçüncü il, ümumiyyətlə, insanlığın təsdiqi olan inqilabdan təcrid edilmiş halda götürülərsə, bu il – heyhat! – onun təkzibi kimi görünə bilər. Siz doxsan üçüncü ili amansız hesab edirsiniz, cənab, lakin sizcə, monarxiya nə deməkdir? Kare quldur idi, lakin, bəs Monrevelə siz nə ad verərsiniz? Fukye-Tenvil əclafdır, lakin bəs Lamuanyon-Bavile haqqında siz nə fikirdəsiniz? Mayyar dəhşətlidir. Bəs So-Tavan? Düşen ata qaniçəndir, lakin bəs Letelye ataya siz nə ləqəb verərdiniz? Başkəsən Jurdan əjdahadır, lakin necə olsa, markiz de Luvua kimi deyil. Ah, cənab, cənab, mənim ershersoginya[3] və kraliça Mariya-Antuanettaya yazığım gəlir, lakin 1685-ci ildə Böyük Lüdovikin padşahlığı zamanında beldən yuxarı lüt halda dirəyə bağlanmış hugenot[4] qadına da eyni dərəcədə yazığım gəlir, onun südəmər uşağını bir qədər kənarda tutmuşdular. Qadının döşləri südlə, qəlbi isə əzab və iztirabla dolu idi. Ac və solğun uşaq anasının döşlərini görür və acından çığırırdı. Cəllad isə anaya deyirdi: "Məsləkindən əl çək!" Südəmər uşağı olan ana iki şeydən birini seçməli idi: ya uşağının acından ölməsinə, ya da vicdanının məhv olmasına razı olmalı idi. Anaya verilən bu cəhənnəm əzabına siz nə

[1] *Draqonada* – hökumətin müxalif partiyanı qəddarcasına təqib etməsi
[2] "Allah, sənə şükür" (*lat.*)
[3] *Ershersoginya* – kraliçadan aşağı titul
[4] *Hugenot* – fransız protestantı (kalvinist)

deyə bilərsiniz? Fransa inqilabının öz səbəbləri vardı, cənab, bunu unutmayın. Gələcək onun qəzəbinə bəraət verəcəkdir. Onun nəticələri isə dünyanın yaxşılaşmasıdır. İnqilabın ən dəhşətli zərbələrindən bütün bəşəriyyət üçün nəvazişlər yaranır. Yetər! Mən artıq susuram, mənim dəlillərim olduqca möhkəmdir, həm də ki, mən ölürəm.

Konvent üzvü gözlərini yepiskopun üzündən çəkərək öz fikrini bir neçə kəlmə ilə sakitcə tamamladı:

– Bəli, tərəqqinin kobud təzahürləri inqilab adlanır. İnqilab qurtardığı zaman aydın olur ki, bəşəriyyət şiddətli qulaqburması almışsa da, irəliyə doğru addım atmışdır.

Konvent üzvü yepiskopun daxili aləmini tədricən necə sarsıtdığını duymurdu. Lakin müqavimət üçün monsenyor Byenvenünün əlində yenə bir dəlil qalmışdı və o, bu dəlilə istinad edərək söhbətə başladığı eyni kəskinliklə etiraz etdi:

– Tərəqqi Allaha inanmalıdır. Xeyrin kafir xidmətçiləri ola bilməz. Allahsız – bəşəriyyət üçün pis rəhbərdir.

Qoca xalq nümayəndəsi cavab vermədi. Onun bədəninə bir lərzə gəldi. O, göyə baxdı və gözləri yaşla doldu. Saralmış yanaqlarından bir damcı yaş aşağı axmağa başladı və can verən bu adam gözlərini sonsuz fəzadan ayırmayaraq zorla eşidilən bir səslə, özözü ilə danışırmış kimi dedi:

– Sən! Ey mənim idealım! Yalnız sən varsan!

Yepiskop təsvirolunmaz bir həyəcan keçirirdi.

Konvent üzvü bir az susduqdan sonra əlini qaldırdı və göyləri göstərərək:

– Sonsuzluq mövcuddur. O, oradadır, – dedi. – Sonsuzluğun öz "mənliyi" olmasaydı, mənim "mənliyim" onun son həddi olardı və o, sonsuzluq olmazdı: başqa sözlə – sonsuzluq mövcud olmazdı. Lakin o mövcuddur. Deməli, onun öz "mənliyi" vardır. Bu "mənlik" də Allahdır.

Can verməkdə olan qoca son sözləri ucadan, vəcdlə dedi, sanki, qarşısında yalnız onun gözlərinə görünən naməlum bir adam dayanmışdı. O, sözünü qurtardıqda gözləri yumuldu. Gərginlik onun gücünü tükəndirmişdi. Aydın idi ki, bu bir an içərisində o, qalan bir neçə saatlıq ömrünü başa vurdu. Bir an onu məzarda gözləyən şeyə yaxınlaşdırdı. Son dəqiqə başlanırdı.

Yepiskop bunu başa düşdü, artıq ləngimək olmazdı, axı o, buraya bir keşiş kimi gəlmişdi, o, ifrat soyuqluqdan tədricən ifrat həyəcana

düşdü; o, bu qapalı gözlərə baxdı, bu bürüşmüş və solmuş əli tutdu və can verən adama doğru əyildi.

– Bu saat Allaha məxsusdur. Bizim görüşümüz əbəs olsaydı, siz təəssüf etməzdinizmi?

Konvent üzvü gözlərini açdı. Onun üzünə indi sərt, sanki kölgəli bir vüqar çökmüşdü.

O, fiziki qüvvələri zəiflədiyinə görə deyil, daha doğrusu, daxili ləyaqət hissindən doğan aram səslə dedi:

– Cənab yepiskop, mən ömrümü düşünməkdə, öyrənməkdə və seyr etməkdə keçirtdim. Vətənim məni öz işlərində iştirak etməyimi əmr etdiyi zaman, mən altmış yaşında idim. Mən bu əmrə itaət etdim. Cinayətlərə rast gəldiyim zaman onlarla mübarizə aparırdım. İstibdada rast gəldikdə onu məhv edirdim. Mən inandığım hüquq və prinsipləri elan və təbliğ edirdim. Düşmən ölkəmizə hücum çəkdi, mən vətənimi müdafiə etdim. Fransa təhlükədə idi, mən sinəmlə onu müdafiəyə qalxdım. Mən heç bir zaman varlı olmamışam, indi isə yoxsulam. Mən dövlət başçılarından biri idim. Xəzinələr cavahirlə dolu idi, qızıl və gümüşün ağırlığından divarlar çatlayırdı, onlara dayaq vermək lazım gəldi – mən isə Arbr-Sek küçəsində iyirmi su pula nahar edirdim. Məzlumların dadına çatırdım və əzab çəkənlərə təsəlli verirdim. Doğrudur, mən mehrabın örtüyünü parçaladım, lakin bundan məqsədim ancaq vətənin yaralarını sarımaq idi. Mən hər zaman bəşəriyyətin irəliyə, işığa doğru getməsinə kömək edirdim, lakin bəzən tərəqqi amansız olduqda, ona mane olurdum. Elə hallar da olurdu ki, mən öz düşmənlərimə, yəni sizlərə də kömək edirdim. Flandriyada, Petegemdə, merovinq kralların yay iqamətgahı olan yerdə urbanist rahiblər monastırı, Bolyedə müqəddəs Klara abbatlığı vardır – 1793-cü ildə mən bu monastırı təhlükədən xilas etdim. Mən öz vəzifəmi bacardığım qədər yerinə yetirib, əlimdən gələn yaxşılığı etmişəm. Bütün bunlardan sonra məni qovdular, təqib etdilər, mənə əzab verdilər, məni ləkələdilər, təhqir etdilər, ələ saldılar, lənətlər yağdırdılar, sürgün etdilər. Budur, neçə ildir ki, saçlarımın ağarmasına baxmayaraq, mənə nifrət etməkdə özlərini haqlı bilən bir çox adamlar olduğunu hiss edirəm. Yoxsul, avam camaatın nəzərində mən, Allahın lənətinə gəlmiş bir caniyəm. Mən də kimsəni məzəmmət etmədən, nifrətdən doğan yalqızlığımı qəbul edirəm. Artıq səksən altı yaşım var. Lakin ölürəm. Siz məndən nə istəyirsiniz?

Yepiskop:

– Xeyir-duanızı, – dedi və onun qarşısında diz çökdü.

Yepiskop başını qaldırdığı zaman Konvent üzvünün üzü əzəmətli və sakit idi. O keçinmişdi.

Yepiskop dərin düşüncələr içərisində evə qayıtdı. Bütün gecəni o, ibadətdə keçirtdi. Sabahı günü maraqlanan adamlardan bir neçə nəfəri Konvent üzvü J. haqqında onunla söhbət açmağa cürət etdisə də, yepiskop cavab əvəzinə yalnız göyləri göstərdi. O gündən sonra yepiskop fəqirlərə, kiçik adamlara qarşı öz məhəbbətini və qardaşlıq qayğısını daha da artırdı.

"Qoca kafir J."-nin adı çəkilən kimi onu qəribə bir dalğınlıq bürüyərdi. Kimsə deyə bilməzdi ki, yepiskopun təkamülə yanaşmasında bu şəxsin zəkası və böyük qəlbi ona nə dərəcədə təsir göstərmişdir.

Yepiskopun bu "ruhanilik ziyarəti", əlbəttə, yerli dedi-qodu həvəskarlarının boşboğazlığına səbəb oldu. "Can verən bu cür adamın başı üstündə olmaq heç yepiskopa layiqdirmi? Axı onu dinə gətirməyi heç gözləmək də olmazdı. Bu inqilabçıların hamısı islahedilməz dinsizlərdir. Elə isə oraya getmək yepiskopun nəyinə lazım idi? Orada nəyin qalmışdı? Yəqin, şeytanın insan ruhunu necə alıb aparmasına tamaşa etmək çox maraqlı imiş".

Bir dəfə özlərini çox ağıllı sayan həyasız adamlar sırasına mənsub olan kübar bir dul qadın yepiskopa belə hücum etmişdi:

– Monsenyor, hamı soruşur ki, zati-əqdəslərinizə nə zaman qırmızı qalpaq bəxş ediləcəkdir?

Yepiskop isə cavabında:

– Ah! Bu çox qaba rəngdir, – demişdi. – Xoşbəxtlikdən, yakobinçi qalpağında bu rəngə nifrət bəsləyənlər kardinal şlyapasında ona çox hörmət edirlər.

On birinci fəsil

QEYD-ŞƏRT

Yuxarıda deyilənlərə əsasən monsenyor Byenvenünün "filosof yepiskop" və ya "vətənpərvər yepiskop" olduğu nəticəsini çıxaranlar çox böyük səhv edə bilərlər. Onun Konvent üzvü J. ilə, bəlkə də, iki ulduzun təsadüfünə bənzədilə bilən görüşü onun qəlbində nə isə

bir heyrət hissi oyatmış və bu hiss onu daha artıq mülayim etmişdi. Vəssalam.

Monsenyor Byenvenü heç siyasət əhli deyildisə də, o zamankı hadisələrə olan münasibətindən, əgər monsenyor Byenvenünün bu hadisələrə bir zamanlar hər hansı bir münasibət bəslədiyi ehtimalı varsa, bir neçə kəlmə danışmaq yersiz olmazdı.

Beləliklə, bir neçə il geriyə dönək.

Cənab Miriel yepiskop vəzifəsinə təyin olunandan bir az sonra imperator ona, bir neçə başqa yepiskoplarla birlikdə İmperiya baronu rütbəsini vermişdi. Məlum olduğu üzrə, papa 1809-cu il iyulun 6-cı gecəsi həbs edilmişdi, bu hadisə ilə əlaqədar olaraq, Napoleon Fransa və İtaliya yepiskoplarının Parisdə çağırılmış sinoduna Mirieli də dəvət etmişdi. Bu sinod Notrdam kilsəsində toplaşmış və birinci iclası 1811-ci il iyun ayının 15-də kardinal Feşin sədrliyi altında olmuşdu. Oraya toplaşmış doxsan beş yepiskopun içərisində cənab Miriel də var idi, ancaq o yalnız bir iclasda və bir neçə xüsusi müşavirədə iştirak etmişdi. Dağlıq yerlərin yepiskopu və təbiətə bilavasitə yaxın olan, kənd sadəliyinə və məhrumiyyətə adət etmiş bir adam olduğundan o, deyəsən, bu yüksəkrütbəli adamlar məclisinin hərarətini soyudan bəzi fikirlər söyləmişdi. O, tezliklə Din şəhərinə qayıtdı. Bu qədər tez qayıtmasının səbəbini soruşanlara belə cavab verərdi: "Mən onlara mane olurdum. Mənimlə birlikdə oraya təzə hava doldu. Mən onlara bir növ taybatay açılmış qapı kimi göründüm".

Bir dəfə də o, belə demişdi: "Burada təəccüblü nə var ki? Bu monsenyorların hamısı kilsə knyazlarıdır, mən isə yalnız yoxsul bir kənd yepiskopuyam".

Məsələ burasında idi ki, o, saraydakıların xoşuna gəlməmişdi. Orada o, bir çox qəribə şeylər danışmışdı və bir axşam kollegiallardan birinin evində ikən ağzından belə bir söz qaçırmışdı: "Nə gözəl saat! Nə gözəl xalılar! Nə gözəl livreyalar! Bunlar adamı, yəqin ki, çox darıxdırır! Yox, mən bu cür ifrat zinət içərisində yaşamaq istəməzdim. Bunlar həmişə mənim qulağıma bağırardı ki, ac qalan insanlar var! Soyuqdan ölən insanlar var! Yoxsullar var! Dilənçilər var!"

Ötəri bunu da qeyd edək ki, zinətə nifrət bəsləmək ağılsızcasına bir nifrətdir. Bu, incəsənətə nifrət bəsləməyə səbəb olur. Lakin kilsə xadimləri arasında, kilsə mərasimi və bayram günləri nəzərə alınmazsa, dəbdəbə və zinət qəbahət hesab olunur. Bu zinət, sanki,

həqiqi mərhəmətin çatışmadığını göstərən adətləri ifşa edir. Varlı keşiş mənasız bir şeydir. Keşişin yeri daim yoxsulların yanında olmalıdır. Lakin daim, gündüz və gecə hər cür ehtiyac, hər cür məhrumiyyət və yoxsulluq içərisində yaşayaraq, bütün bu münasibətlərin bir hissəsini öz üzərinə götürməmək, necə deyərlər, zəhmət tozuna bulaşmamaq mümkündürmü? Qızğın bir ocağın yanında durub, onun hərarətini hiss etməyən bir adam təsəvvür edə bilərsinizmi? Daim alov saçan sobanın yanında işlədiyi halda, bir tükünü belə yandırmayan, dırnağı qaralmayan, üzünə bir damcı tər gəlməyən, üzünə his qonmayan bir adam tapılarmı? Keşişdə və xüsusilə yepiskopda mərhəmətin ən birinci sübutu yoxsulluqdur.

Görünür, Din yepiskopu da məhz belə düşünürdü.

Əlbəttə, buradan belə bir nəticə çıxarmamalıyıq ki, bəzi incə məsələlərdə o, "əsrin ideyaları" ilə şərik idi. Zamanın ilahiyyat mübahisələrinə o, nadir hallarda qarışar, kilsə və dövlətin nüfuzunu azalda biləcək məsələlər barəsində öz fikrini bildirməzdi, lakin ona kifayət qədər təzyiq göstərilsəydi, çox ehtimal ki, qallikandan[1] daha çox ultramontan olardı. Biz monsenyoru həqiqətdə olduğu kimi təsvir etməyə çalışdığımızdan və heç bir şey gizlətmək istəmədiyimizdən, bunu da əlavə etməliyik ki, cənab Miriel Napoleonun süqutu dövründə ona çox soyuqluq göstərmişdi. 1813-cü ildən başlayaraq o, imperator əleyhinə bütün düşmənçilik çıxışlarını bəyənir və ya hətta alqışlayırdı. Napoleon Elba adasından qayıdarkən Din şəhərindən keçdiyi zaman yepiskop onu görmək istəməmiş və Yüz gün ərzində imperatorun sağlığına dua oxumaq üçün özünə tabe olan yeparxiyaya əmr göndərməmişdi.

Yepiskopun bacısı Batistinadan başqa, iki qardaşı da var idi, biri general, o biri isə prefekt idi. Yepiskop onlara tez-tez məktub yazırdı. Lakin Provansda qoşunlara komandanlıq edən və min iki yüz nəfər əsgərdən ibarət bir dəstənin başçısı olan general, Kannda qoşun çıxarılan zaman, sanki, imperatorun qaçmasına imkan vermək istəyərək, onu zəif təqib etdiyi üçün yepiskop bu qardaşından bir qədər soyumuşdu. Yepiskopun Parisdə Kaset küçəsində yalqız yaşayan o biri qardaşı, istefa vermiş prefekt, ləyaqətli və namuslu bir adam idi: yepiskopun onunla məktublaşması daha səmimi bir şəkildə davam edirdi.

[1] *Qallikan* və *ultramontan* – XVIII əsrdə Fransada siyasi cərəyanlar

Deməli, monsenyor Byenvenü də siyasi ixtilaflardan yaxasını qurtara bilməmişdi, onun da acı dəqiqələri, əndişələri olmuşdu. Dövrü həyəcanlandıran ehtirasların kölgəsi əbədiyyət eşqi ilə yaşayan bu böyük və mülayim qəlbə də toxunmuşdu. Şübhəsiz ki, bu cür adam siyasi əqidələrdən uzaq olmağa layiq idi. Oxucular sözlərimizi yanlış anlamasınlar, biz "siyasi əqidələr" məfhumunu hər bir düşünən nəcib adamın dünyagörüşünün əsasını təşkil etməli olan yüksək tərəqqi arzusu ilə, vətənə, xalqa və insana dərin inamla qarışdırmırıq. Kitabımızın məzmununa yalnız dolayısı ilə dəxli olan bu məsələni dərinləşdirmədən, sadəcə, söyləyə bilərik: "Monsenyor Byenvenü royalist olmasaydı və onun nəzəri gurultulu məişət vurnuxmaları üzərində parlayan həqiqət, ədalət, mərhəmət kimi üç böyük fəzilətin seyrindən ayrılmasaydı, daha yaxşı olardı".

Monsenyor Byenvenünün Tanrı tərəfindən heç də siyasi fəaliyyət üçün yaranmadığını etiraf etməklə bərabər, biz onun haqq və azadlıq naminə qüdrətli Napoleona qarşı vüqarlı etirafını və təhlükəli, lakin ədalətli müqavimətini başa düşər və alqışlardıq. Lakin o, bu etirazını Napoleon taxtdan düşdükdən sonra deyil, o, qüvvətli olduğu zaman etsəydi, tərifəlayiq olardı. Mübarizə yalnız təhlükə ilə bağlı olduğu zaman bizi cəlb edir və əlbəttə, ilk zərbəni kim vurmuşsa, son zərbəni vurmağa da o haqlıdır. Xoşbəxtlik günlərində inadla ittiham irəli sürməyən adam süqut başlandığı zaman susmalıdır. Yalnız qüdrətli adamın açıqdan-açığa düşməni olan şəxs onun süqutundan sonra qanuni intiqamçı hesab olunur. Bizə gəlincə, məsələyə qəzavü-qədər qarışdıqda və cəza verdikdə, biz fəaliyyət meydanını ona buraxmalıyıq. 1812-ci il silahımızı əlimizdən almağa başlayır. 1813-cü ildə o zamana qədər susan və yalnız bir sıra fəlakətlərdən sonra cürətlənən qanunverici korpusun sükutu alçaqcasına pozması yalnız qəzəb oyada bildi və onu alqışlamaq səhv olardı. 1814-cü ildə xain marşalları gördükdə, dalbadal alçaqlıq edən və keçmişdə Tanrı kimi pərəstiş etdiyi adamı təhqir edən senatı gördükdə, qorxub geri çəkilən və bir az əvvəl sitayiş etdikləri bütə tüpürən bütpərəstləri gördükdə, biz üzümüzü yana çevirməyi özümüzə borc bildik. 1815-ci ildə dəhşətli fəlakətlərin yaxınlaşdığı hiss ediləndə, bütün Fransa bu təhlükələrdən lərzəyə gələndə, Napoleonun qarşısında açılan Vaterloo tutqun bir şəkildə görünəndə, imperatoru qarşılayan xalqın və ordunun acı alqışlarında heç bir gülünc şey yox

idi və Din yepiskopu kimi bir adam, zalıma nə qədər ədavət bəsləsə də, böyük insanın bu sıx qucaqlaşmasında gizlənən əzəmətli və təsiredici heç bir şeyə göz yummamalı idi.

Təkcə bu istisna edilirsə, yepiskop hər cəhətdən, doğrudan da, mömin, səmimi, ədalətli, ağıllı və ləyaqətli bir adam idi; o, yaxşılıq edirdi və xeyirxah idi ki, bu da həmin yaxşılığın başqa bir növüdür. O, keşiş, filosof və insan idi. Biz etiraf etməliyik ki, hətta indicə məzəmmət etdiyimiz və çox bərk pisləmək niyyətində olduğumuz siyasi görüşlərində də o, bu sətirləri yazan adamdan, bəlkə, daha çox mərhəmətli və səbirli idi.

Din şəhər idarəsinin qapıçısı vaxtilə bu vəzifəyə imperatorun özü tərəfindən təyin edilmişdi; o, Austerlis müharibəsində köhnə qvardiyanın xaçla təltif olunmuş qoca bir kiçik zabiti və imperator qartalından daha qeyrətli bonapartist idi. Bu bədbəxtin ağzından bəzən o qədər də düşünülməmiş sözlər çıxardı. O zamankı qanuna görə belə sözlər "üsyançı nitqləri" sayılardı. İmperatorun şəkli Fəxri legion ordenindən silindikdən sonra bu qoca, xaçını taxmamaq üçün özünün təbirilə – heç bir zaman nizamnamə üzrə geyinməzdi. O, Napoleonun özünün ona vermiş olduğu xaçdan imperatorun təsvirini böyük bir hörmətlə öz əli ilə çıxartdı və xaçda deşik əmələ gəldi, lakin o, bu deşiyin yerinə heç bir şey qoymaq istəmədi. O deyirdi: "Bu üç qurbağanı ürəyin üstündə gəzdirməkdənsə, ölmək yaxşıdır!" O, həvəslə və ucadan XVIII Lüdovikə istehza edirdi. "İngilis getri[1] geyinmiş podaqralı[2] qoca! Qoy pudralanmış hörüyü ilə birlikdə rədd olub Prussiyaya getsin!" – deyir və ən çox nifrət etdiyi iki şeyi – Prussiyanı və İngiltərəni bir söyüşdə birləşdirə bildiyinə sevinirdi. Ən nəhayət, onu vəzifəsindən kənar etdilər. Arvadı və uşaqları ilə birlikdə o, küçədə bir parça çörəyə möhtac qaldı. Yepiskop onu yanına çağırtdırıb bir az danladı, sonra isə kilsə qapıçısı vəzifəsinə təyin etdi.

Doqquz il ərzində monsenyor Byenvenü öz xeyir işləri və mülayim rəftarı ilə bütün Din şəhəri əhalisinin məhəbbətini və sanki, oğulluq hörmətini qazanmışdı. Hətta onun Napoleona qarşı pis münasibəti barəsində də xalq susur və bunu ona bağışlayırdı. İradəsiz və saf qəlbli əhali öz imperatoruna pərəstiş edir, lakin yepiskopunu da sevirdi.

[1] *Getr* – çəkmə boğazlığını əvəz edən qunc

[2] *Podaqra* – maddələr mübadiləsinin pozulması nəticəsində ayaqda və oynaqlarda baş verən xəstəlik

On ikinci fəsil

MONSENYOR BYENVENÜNÜN YALQIZLIĞI

Generalın ətrafına həmişə dəstə ilə gənc zabitlər toplaşdığı kimi, hər yepiskopun da ətrafına dəstə ilə ona tabe olan abbatlar toplaşır. Müqəddəs Fransisk qədimdən məhz bu cür abbatları harada isə "südəmər keşiş" adlandırmışdı. Həyatın hər bir sahəsinin öz qismət axtaranları vardır ki, bunlar həyatda artıq müvəffəqiyyət qazanmış adamların məiyyətini təşkil edirlər. Özünün yaxın adamları olmayan hökmdar, öz saray adamları olmayan tale sevimlisi yoxdur. Gələcəyi axtaranlar indiki gözəl zamanın ətrafında qasırğa kimi hərlənirlər. Hər yeparxiyanın öz qərargahı vardır. Hər bir az-çox nüfuzlu yepiskopun ətrafında bir dəstə qəşəng seminariya uşağı vardır ki, bunlar yepiskop sarayında keşik çəkir, qayda-qanuna göz yetirir, monsenyorun təbəssümünü marıtlayırlar. Yepiskopu razı salmaq – keşiş vəzifəsinə çatmaq üçün birinci pillədir. Hər kəs özü üçün yol açmalıdır – övliyalar da gəlirli yerdən çəkinməzlər.

İstər cəmiyyətin, istərsə kilsə aləminin öz nüfuzlu adamları var. Bunlar sarayın mərhəmətini qazanmış varlı, yaxşı mədaxili olan, zirək, yüksək cəmiyyət tərəfindən qəbul olunmuş, şübhəsiz ki, dua etməyi, lakin eyni zamanda onlara lazım olan şeyi unutmadan istəməyi də bacaran yepiskoplardır: bunlar bütöv bir yeparxiyanı təcəssüm etdirməklə bərabər, birisinin dəhlizində gözləməkdən utanmayan və ruhanilərlə diplomatiya arasında vasitə olan, keşişdən artıq abbat, yepiskopdan artıq prelat[1] olan yepiskoplardır. Bunlarla yaxınlıq edə bilən adam xoşbəxtdir! Bu nüfuzlu adamlar öz əlaltılarına, sevdikləri adamlara və onlara qulluq etməyi bacaran bütün bu gənclərə varlı kilsələr, kilsə əmlakından gələn mədaxili, baş keşiş və başqa mənfəətli kilsə vəzifələrini səxavətlə paylayırlar ki, bunlar da tədricən həmin adamları yepiskop mənsəbinə çatdırır. Özləri yüksəldikcə, öz dallarınca müridlərini, tərəfdarlarını da aparırlar. Bu, eynilə hərəkətdə olan Günəş sistemini xatırladır. Onların parıltısı ətrafındakıların da üzərinə şəfəq salır. Onların xoşbəxtlik süfrəsindən yaxın adamlarının payına isti yerlər düşür. Himayəçinin yeparxiyası böyük olduqca, onun yaxın

[1] *Abbat, prelat* – katolik dini rütbələri

adamlarının gəliri də çox olur. Roma isə lap yaxındır! Baş yepiskop rütbəsinə çatmış yepiskop, kardinal rütbəsinə yetişmiş baş yepiskop kardinal qulluqçusu kimi sizi kardinallar məclisinə aparır, siz Roma divanxanasına daxil olursunuz, omofor[1] alırsınız; budur, artıq siz divanxana üzvüsünüz, budur, siz kamerarisiniz[2], daha sonra monsenyorluğa çatırsınız. Monsenyorluqdan kardinallığa isə bir addımdır. Kardinallıqla papalığı isə yalnız yandırılan seçki biletinin tüstüsü ayırır. Hər bir *skufya*[3] *tiaraya*[4] çevrilmək arzusuna düşə bilər. Bizim zəmanəmizdə keşiş qanuni yolla taxta çıxa biləcək yeganə adamdır, həm də necə taxta! Hökmdarlar hökmdarı taxtına! Bunun əvəzində seminariya necə ümidlər məskənidir! Nə qədər qızaran müğənnilər, nə qədər cavan abbatlar başlarında Peretta kuzəsi gəzdirirlər! Şöhrətpərəstlik çox zaman özünü məsləkə kimi qələmə verir və kim bilir, bəlkə də, öz-özünü aldadaraq, bunu səmimiyyətlə edir. Xoş inananların halına!

Təvazökar, yoxsul, bir qədər də qəribə adam olan monsenyor Byenvenü bu cür "nüfuzlular" sırasına daxil edilməmişdi. Onun ətrafında gənc keşişlərin olmaması bunu göstərirdi. Hamı görürdü ki, Parisdə onun "işi gətirməmişdir". Gələcəyi olan heç bir kəs bu qocaya yaxınlaşmağa səy etmirdi. Hər hansı bir yetişməmiş şöhrətpərəst o qədər ağılsız deyildi ki, onun kölgəsi altında kök salsın. Onun kanonikləri və baş vikariləri safqəlbli, özü kimi bir qədər kəndlisayağı qocalar idi. Onlar da yepiskopun özü kimi yeparxiya xaricinə çıxmaz, kardinal sarayı ilə heç bir əlaqə saxlamaz və öz yepiskoplarına bənzəyərdilər. Fərq yalnız bunda idi ki, onlar ömürlərini keçirmiş, yepiskop isə kamil bir insan idi. Monsenyor Byenvenünün vasitəsilə yüksək vəzifəyə çatmağın mümkün olmadığı o qədər aydın idi ki, seminariyanı qurtarıb keşiş vəzifəsinə təyin edilmiş gənclər buradan getməyə tələsir və zəmanət üçün Eks, yaxud Oş arxiyepiskoplarına müraciət edirdilər. Çünki hər kəs artmaq üçün kömək istəyir – bunu bir daha təkrar edirik. Həyatını ancaq başqalarına həsr etmiş bir zahidin qonşuluğu təhlükəli ola bilər: ondan adama əlacsız bir yoxsulluq keçə bilər, yüksəlmək, müvəffəqiyyət qazanmaq üçün lazım olan üzvlərin iflici yoluxa bilər və ümumiyyətlə, sizin istədiyinizdən daha çox fədakarlıq arzusu sirayət edə bilər, bu

[1] *Omofor* – xaç təsvirli enli lent
[2] *Kamerari* – kamerlenqo, Müqəddəs taxtda ən ali vəzifələrdən biri
[3] Ucu şiş keşiş papağı
[4] Roma papasının üçmərtəbəli papağı

cür sirayətedici fəzilətdən hamı qaçır. Monsenyor Byenvenünün yalqızlığı da bununla izah edilir. Biz zülmətə bürünmüş bir cəmiyyətdə yaşayırıq. Müvəffəqiyyət – bəşəriyyətin başı üstünü almış tamahkarlıq buludlarından damcı-damcı düşən ən yüksək hikmət budur.

Müvəffəqiyyətin əslində nə qədər iyrənc bir şey olduğunu ötəri qeyd edək. Onun zahirən ləyaqətə bənzəməsi insanları aldadır. Müvəffəqiyyət camaat üçün, demək olar ki, üstünlük kimi bir şeydir. İstedadla əkiz olan müvəffəqiyyət yalnız tarixi azdıra bilər. Yalnız Yuvenal və Tasit onun barəsində bir qədər deyinirlər. Bizim zəmanəmizdə az-çox rəsmi olan hər cür fəlsəfə müvəffəqiyyətə xidmət edir, onun livreyasını daşıyır, qapısında nökərçilik edir. Müvəffəqiyyət qazanın – nəzəriyyə belədir! Varlanmaq, guya, qabiliyyətdəndir. Lotereyada udsanız, sizi ağıllı hesab edəcəklər. Qalib gələnlərə təzim edirlər. İş burasındadır ki, anadan gərək xoşbəxt doğulasan! Bəxtiniz gətirdimi – hamı sizi böyük bir insan hesab edər. Bütöv bir əsrə parlaqlıq verən beş və ya altı nəfər istisna edilərsə, müasirlərin bütün məftunluğu yalnız onların uzağı görmədikləri ilə izah olunur. Qızıl suyuna çəkilmiş bir şeyi qızıl zənn edirlər. Yoldan ötən də olsan, bunun maneçiliyi yoxdur, təki qarşına uğur çıxsın. Bayağılıq özüözünə vurulmuş və bayağılığı alqışlayan qocalmış Narsisdir. İnsanı Musa, Esxil, Dante, Mikelancelo, yaxud Napoleon edən o böyük istedadı camaat dərhal və yekdilliklə ,hər sahədə olursa olsun, öz məqsədinə çatmış adama xas edir. Bir notarius deputat olarsa, yalançı Kornel "Tiridata" yazarsa, bir hərəm ağası hərəmxana sahibi olarsa, axmaq bir hərbçi Prüdom öz dövrü üçün həlledici əhəmiyyəti olan bir vuruşmada təsadüfən qalib gələrsə, bir aptekçi Sambr və Maas departamentindəki ordu üçün karton çəkməaltı icad edərək, bunu gön əvəzinə satmaqla dörd yüz min livr gəlir verən bir kapital qazanarsa, bir çərçi sələmçi bir qadınla evlənərsə və bu nikahdan yeddi, yaxud səkkiz milyon doğularsa, bir vaiz öz boşboğazlığı sayəsində yepiskop mənsəbinə çatarsa, ticarət evinin müdiri işdən çıxarıldıqdan sonra çox varlı olduğuna görə maliyyə naziri təyin edilərsə – insanlar Muşketonun zahirində Gözəllik, Klavdinin boyunda isə Əzəmət gördükləri kimi, bütün bunlara da Dahilik adını verərlər. Onlar ördək ayaqlarının yumşaq palçıq üzərində buraxdığı ulduza bənzər izləri göyün dibsiz dərinliklərində ulduz topası hesab edirlər.

On üçüncü fəsil

O, NƏYƏ İNANIRDI

Biz Din yepiskopunun nə dərəcədə mömin olması məsələsinin dərinliklərinə varmayacağıq. Bu cür insanlara yalnız pərəstiş edə bilərik. Pak adamın sözünə inanmaq lazımdır. Bundan başqa, biz belə zənn edirik ki, bəzi müstəsna adamlarda dini görüşlərin bizimkindən fərqli olmasına baxmayaraq, insan fəzilətlərinin bütün formaları ahəngdar surətdə inkişaf edə bilər.

Filan dini mərasim, yaxud ehkam haqqında yepiskop nə fikirdə idi? Bu sirri yalnız ruhların çılpaq getdikləri məzar bilir. Bizim üçün yalnız bir şey şübhəsizdir. Mübahisəli dini məsələləri o heç bir zaman riyakarlıqla həll etməzdi. Almazın çürümək qorxusu yoxdur. Cənab Miriel qəlbinin dərinliklərinə qədər dindar idi. "*Credo in Patrem*"[1] – o, tez-tez təkrar edirdi. Həm də xeyir işlərdən o bir vicdanın insana "Tanrı səninlədir!" sözlərini yavaşdan söyləməsi üçün lazım olan qədər məmnun qalırdı.

Bunu da qeyd etmək borcumuzdur ki, yepiskopda imandan və necə deyərlər, fövqəladəlikdən başqa bir şey də vardı ki, o da məhəbbətin artıqlaması ilə olması idi. Məhz buna görə, "*quid multum amavit*"[2] onu, eqoizmin pedantizmə sözsüz tabe olduğu cəmiyyətimizin sevdiyi təbirlə "ciddi adamların", "ağıllı simaların", "müsbət xarakterlərin" içərisində zəif hesab edirdilər. Bəs bu məhəbbət artıqlığı nə ilə ifadə olunurdu? Yuxarıda göstərdiyimiz kimi, insanlara qarşı, yeri gəldikdə isə cansız əşyaya qarşı sakit xeyirxahlıqla. O, heç kəsə nifrət etməzdi. O, Tanrının yaratdığı hər şeyə qarşı mərhəmətli idi. Hər bir adamın, hətta ən yaxşı adamın da qəlbində heyvanlara qarşı qeyri-şüuri bir qəddarlıq gizlənmişdir. Din yepiskopunda bir çox keşişlərə xas olan bu qəddarlıq qətiyyən yox idi. O, brəhmənlər qədər ifrata varmasa da, Ekkleziastın bu hədisi üzərində, ehtimal ki, çox düşünərdi. "Heyvanların ruhunun haraya getdiyini kim bilir?" Zahiri çirkinlik, instinkt pozğunluğu onu pərt etməz, onda nifrət hissi oyatmazdı. Əksinə, bu onda həyəcan oyadar, onu mütəəs-

[1] Ataya etiqad edirəm (*lat.*) – katolik duasıdır.
[2] Məhəbbətin çoxluğuna görə (*lat.*)

sir edərdi. Sanki, o, dərin fikrə dalaraq, zülmün kökünü axtarmaq, anlamaq və ya ona bəraət tapmaq istərdi. Bəzən o, sanki, cəzanın yumşaldılması haqqında Allaha dua edərdi. O, köhnə perqamenti tədqiq edən bir dilçi alim kimi sakitcə, heç bir kin hiss etmədən, təbiətdə hələ də mövcud olan hərc-mərcliyin qalıqlarını öyrənirdi. O, bu cür fikirlərə dalarkən bəzən qəribə şeylər danışardı. Bir dəfə səhər bağçada gəzişdiyi zaman, bacısının arxadan gəldiyini görməyib, birdən dayanmış və yerdəki bir şeyi diqqətlə nəzərdən keçirməyə başlamışdı: bu iri, qara, iyrənc bir hörümçək idi. Madmazel Batistina, qardaşının bu sözləri söylədiyini eşitmişdi: "Bədbəxt məxluq! Onun bunda təqsiri yoxdur".

Nə üçün də bu uşaqcasına səmimi, bəlkə də, ilahi mərhəmətin təzahürlərindən danışmayaq? Uşaqlıqımı? Qoy belə olsun, ancaq bu cür ülvi bir uşaqlıq Assizli Fransiskdə də, Mark Avrelidə də vardı. Bir dəfə yepiskop qarışqanı tapdalamamaq üçün kənara çəkilmiş və yıxılıb ayağı çıxmışdı.

Bu pak adam belə bir həyat sürərdi. O, bəzən öz bağçasında yuxuya gedərdi və bundan artıq pərəstiş tələqin edən bir mənzərə təsəvvür etmək mümkün deyildi.

Deyilənlərə inanılarsa, monsenyor Byenvenü gəncliyində, hətta yaşa dolduğu zamanda coşqun və bəlkə də, ehtiraslı bir adam olmuşdur. Onun tükənməz mərhəməti, bəlkə də, təbiətdəngəlmə bir xüsusiyyətdən daha çox, həyatın özündən onun qəlbinə keçən və tədricən orada kök salan dərin etiqadın nəticəsi idi, çünki su damcısının deşdiyi qayada olduğu kimi, insanın da xarakterində dərin yarıqlar əmələ gələ bilər. Bu cür yarıqları doldurmaq mümkün deyil.

1815-ci ildə – deyəsən, yuxarıda bu barədə demişdik – yepiskopun yetmiş beş yaşı tamam olmuşdu, lakin zahirən ona altmışdan yuxarı yaş vermək olmazdı. O, orta boylu idi, bir qədər kökəlməyə meyilli idi, bunun qabağını almaq üçün yepiskop piyada çox gəzməyi sevərdi, yerişi möhkəm idi, belini həmişə dümdüz tutardı – lakin bu təfsilatdan biz heç bir nəticə çıxarmaq niyyətində deyilik: XVI Qriqori səksən yaşında ikən belini dümdüz saxlardı və daim gülümsərdi, lakin bununla belə, pis bir yepiskop idi. Monsenyor Byenvenünün isə, qara camaatın dili ilə desək, "mötəbər görkəmi" vardı, lakin üzünün ifadəsi o qədər xoş və nəvazişli idi ki, bu "mötəbərliyi" belə unutdururdu.

O, söhbət etdiyi zaman yuxarıda söylədiyimiz və onun ən cazibədar xüsusiyyətlərindən birini təşkil edən uşaq şənliyi adamların özünü onun yanında yüngül və sərbəst hiss etməsinə kömək edirdi, sanki, onun bütün varlığından şənlik yağırdı. Üzünün qırmızılığı, gülümsəyərkən parıldayan, çox yaxşı qalmış ağ dişləri onun üzünə bir şənlik, bir məlahət verirdi; bunun sayəsində belə adam haqqında, gəncdirsə, "nə yaxşı oğlandır", qocadırsa "nə mərhəmətli qocadır" deyirlər. Yadımızdadır ki, Napoleona da o, belə bir təsir bağışlamışdı. Doğrudan da, ilk baxışda, xüsusən, onu ilk dəfə görən adam üçün o, mehriban adam idi – vəssalam. Ancaq siz onunla bir neçə saat söhbət etməli olsaydınız və onun dalğınlığını seyr etsəydiniz görərdiniz ki, bu mehriban adam gözünüzün qarşısında dəyişilərək getdikcə ciddiləşir, onun saçlarının ağarması sayəsində əzəmətli görünən uca, sakit alnı dalğınlıqdan daha əzəmətli olurdu. Öz şəfəqini saçmaqda davam edən bu mehribanlıqda, sanki, yüksək bir ideal var idi, siz qəlbinizdə elə bir həyəcan hiss edirdiniz ki, sanki, gülümsəyən bir mələk qarşınızda qanadlarını yavaş-yavaş açaraq, öz təbəssümü ilə sizin üzərinizə daim işıq saçır. Yavaş-yavaş bütün varlığınıza ifadəedilməz bir hörmət hissi hakim olurdu, qəlbinizə soxulurdu və siz hiss edirdiniz ki, qarşınızdakı adam qüvvətli, dünyagörmüş və hər şeyi bağışlayan simalardan biridir, bu cür adamlarda fikir o qədər dərindir ki, o, mülayim olmaya bilməz.

Beləliklə, onun həyatının bütün günləri ibadətlə, kilsə ayinləri ilə, sədəqə paylamaq, məyus qəlblərə təsəlli vermək, bağçada işləmək, qardaşcasına mərhəmət, pəhrizkarlıq, qonaqpərəstlik, fədakarlıq, Allaha yalvarmaq, elm və zəhmətlə keçirdi. Yepiskopun günü, doğrudan da, xeyirxah fikirlər, işlər və sözlərlə dolu idi. Lakin axşam, yatmamışdan qabaq hər iki qadın öz otağına çıxıb getdiyi zaman, yağış olduğu üçün vaxtını iki-üç saat öz bağçasında keçirə bilməsəydi, gününü tamam saymazdı. Sanki, yuxudan qabaq ulduzlu səmanın əzəmətli mənzərəsi qarşısında fikrə dalmaq onun üçün bir adət olmuşdu. Bəzən hətta gecəyarısı, qarılar yata bilmədikləri zaman, onun xiyabanlarda aramla gəzişdiyini eşidərdilər. Orada o, daxili aləminə dalmış halda sakitcə dolaşar, öz-özü ilə tənha qalaraq, qəlbinin aydınlığını göylərin aydınlığı ilə müqayisə edərdi. Bu zülmət içərisində sayrışan ulduzların gözə görünən cah-calalı ilə Tanrının gözə görünməyən cah-calalından mütəəssir olan yepiskop

qəlbini məchulluq aləmindən gələn fikirlərə açaraq dərin düşüncələrə dalardı. Belə anlarda, gecə çiçəklərinin ətri səmaya doğru yüksələn dəqiqələrdə, o, qəlbən ucalar, ulduzlu gecədə yandırılmış çıraq kimi başdan-ayağa qədər işıq saçdığı halda, Kainatın hər şeyə nüfuz edən nuraniliyi qarşısında, sanki, vəcddən əriyər və qəlbində nələr baş verdiyini, ola bilsin ki, özü də deyə bilməzdi; hiss edirdi ki, ondan nə isə ayrılır və ona nə isə nazil olur. Ruhun sonsuzluğu ilə Kainatın sonsuzluğu arasında gedən əsrarəngiz mübadilə. O, böyük və haqq olan Allah haqqında, gələcəyin əbədiliyi – bu qəribə sirr haqqında, keçmişin əbədiliyi – daha qəribə sirr haqqında, sonsuzluğun bütün dərinliyi və ölçüyə gəlməyən müxtəlifliyi haqqında düşünər, ağlagəlməz şeyi başa düşməyə çalışmaz, onu seyr edərdi. O, Tanrını öyrənmirdi, ona heyran olurdu. O, materiyaya forma verən, qüvvənin mövcud olduğunu aşkara çıxaran, onu cana gətirən, vəhdətdə xüsusiyyət, məkanda tənasüb, sonsuzluqda hədsizlik yaradan və işıq vasitəsilə gözəllik doğuran atomların qəribə toqquşmaları haqqında düşünərdi. Bu toqquşmalar – bağlanma və açılmaların əbədi dövr etməsidir, həyat və ölüm də buradan əmələ gəlir.

O, tənək sarmaşan çürük köşkə söykənmiş oturacaqda oturar və öz meyvə ağaclarının sısqa əyri budaqları arasından ulduzlara baxardı. Ətrafı mərək və anbarlarla əhatə olunmuş bu bir çərək desyatin torpaq onun üçün əziz idi və onu tamamilə təmin edirdi.

Çox az olan boş vaxtını gündüz bağçada çalışmağa və gecə ulduzları seyr etməyə sərf edən qocaya daha nə lazım idi? Məgər tavanı göylərdən olan bu dar çəpərli yer Allaha ibadət etmək və onun yaratdığının əzəməti qarşısında heyran olmaq üçün kafi deyildimi? Doğrudan da, hər şey bundan ibarət deyildimi? Daha nə arzu etmək olardı? Gəzinti üçün balaca bir bağça, xəyalat üçün hüdudsuz bir aləm. Ayaqları altında əkilib, məhsulu toplanıla biləcək yer, başı üstündə düşünüləcək səma. Yerdə bir qədər çiçək, göydə isə bütün ulduzlar.

On dördüncü fəsil

ONUN DÜŞÜNCƏLƏRİ

Daha bir neçə söz.

Bütün bu təfsilat, xüsusilə bizim zəmanəmizdə, indi dəbdə olan təbirləri işlətsək, belə fikir oyada bilər ki, Din yepiskopu bir növ "panteist" idi və əsrimizə xas olan subyektiv fəlsəfə nəzəriyyələrindən birinə tərəfdar idi – bunun onun xeyrinəmi və ya zərərinəmi olması əlahiddə bir məsələdir – bu cür nəzəriyyələr bəzən tənha adamların qəlbində əmələ gələrək müəyyən şəkil alır və inkişaf edir ki, sonra orada dinin yerini tutsun. Buna görə də biz bütün qətiyyətlə bildiririk ki, monsenyor Byenvenünü yaxından tanıyanlardan heç kəs onun barəsində belə bir fikrə gələ bilməzdi. Bu adamın bilik mənbəyi onun qəlbi idi, onun hikməti də qəlbindən saçılan nurla işıqlanırdı.

Nəzəriyyəsizlik – və işin çoxluğu. Dolaşıq fəlsəfədə səhvlər gizlənir, yepiskopun bir zamanlar mücərrəd fikirlərin sirrinə dalmağa cürət etdiyini heç bir şey sübut etmirdi. Həvari cəsarətli ola bilər, yepiskop isə cürətli olmalıdır. Görünür, monsenyor Byenvenü yalnız böyük və qorxmaz adamların həll edə biləcəyi bəzi məsələlərin çox dərinliyinə varmazdı. Sirrin qapısında müqəddəs bir dəhşət yaşayır: bu qorxunc qapılar sizin üzünüzə açıqdır, lakin onun yanından keçən yolçuya nə isə deyir ki, oraya girmək olmaz. Vay o adamın halına ki, oraya girmiş olsun! Mücərrədlik dünyasının hüdudsuz dərinliklərinə dalan dahilər dinin ehkamlarından yüksəyə qalxaraq, öz ideyalarını Tanrıya izah edirlər. Onların ibadəti cəsarətlə mübahisəyə çağırır, onların sitayişi sualdır. Bu dinin heç bir vasitəçisi yoxdur, onun sıldırım yamaclarına dırmaşmağa cəhd edənlər təşviş və məsuliyyət hissi duyurlar.

İnsan təfəkküründün hüdudu yoxdur. O, cəsarət edib, öz korluğunu da tədqiq edir və öyrənir. Hətta, demək olar ki, o, öz parıltısı ilə, sanki, təbiətin özünü də kor edir. Bizi əhatə edən sirli aləm aldığını bizə qaytarır və çox ehtimal ki, seyr edənlərin özlərini də seyr edənlər var. Hər halda, yer üzündə insanlar var ki, (görəsən, onlar insandırlar?) uzaq xəyal üfüqlərində mütləq yüksəkliklərini aydınca görürlər,

gözəgörünməyən dağın qorxunc şəkli onların gözü qarşısında dayanır. Monsenyor Byenvenü dahi deyildi, hətta Svedenborq və Paskal kimi böyük insanları ağılsızlığa yuvarladan bu təfəkkür zirvələri onu qorxuda bilərdi. Şübhəsiz, bu əzəmətli xəyallar da müəyyən dərəcədə mənəvi fayda verir, adamlar da məhz bu çətin yollarla ideal kamilliyə yaxınlaşırlar. Din yepiskopu ən qısa bir yol seçmişdi ki, o da İncil idi.

O, öz geyimini Xızırın əbasına bənzətməyə çalışmırdı; o, baş verən hadisələrin dumanlı gələcəyinə işıq salmağa cəhd etmirdi, kiçik işlərin işıldayan qığılcımlarını vahid bir alova çevirmək üçün çırpınmırdı: ona peyğəmbəri, yaxud qeybdən xəbər verən bir adamı xatırladacaq heç bir şey yox idi, bu müti qəlb yalnız sevirdi.

Ola bilsin ki, o, duasını fövqəlbəşər bir yüksəkliyə çatdıra bilirdi, lakin heç bir zaman nə dua, nə də sevgi həddindən artıq ola bilməz; əgər müqəddəs kitabların mətnində olmayan dua küfr olsaydı, Müqəddəs Tereza və Müqəddəs İeronim də kafir olardılar.

O, dərdlilərə və tövbə edənlərə doğru meyil edirdi. Kainat ona böyük bir mərəz kimi görünürdü; o, hər yerdə qızdırmanı hiss edir, hər sinədə əzablar duyur, xəstəliyin səbəbini axtarmadan yaraları sağaltmağa çalışırdı. Yaranmışların həyata qayıtmasının qorxunc mənzərəsi onu mütəəssir edirdi. O yalnız bir şeyə: rəhm etmək və yardım göstərmək üçün ən yaxşı üsul axtarıb tapmağa və başqalarına da bunu öyrətməyə cəhd edirdi. Bütün varlıq bu saf qəlbli və nadir dərəcədə mərhəmətli olan keşiş üçün təsəlli həsrətində olan tükənməz ələm mənbəyi idi.

Adam var ki, zəhmət çəkib yerin altından qızıl çıxardır, o isə qəlblərdə mərhəmət oyatmaq üçün zəhmət çəkirdi. Dünyanın dərdi onun mədəni idi. Hər yerə yayılmış qəm-qüssə onun üçün yalnız yaxşılıq etməkdən ötrü daimi bir bəhanə idi. O, "bir-birinizi sevin!" deyir və belə hesab edirdi ki, bununla hər şey deyilmişdir; o, bundan artıq heç bir şey istəməzdi, onun bütün nəzəriyyəsi də bundan ibarət idi. Bir dəfə, yuxarıda adını çəkdiyimiz və özünü filosof sayan senator yepiskopa demişdi: "Bir görün, bu dünyada nələr olur; hamı hər kəsə qarşı vuruşur: kim güclüdürsə, o, ağıllı sayılır. Sizin "bir-birinizi sevin!" şüarınız axmaqlıqdır". Yepiskop mübahisəyə girişmədən: "Nə olsun, – demişdi, – əgər bu axmaqlıqdırsa, inci seyvanda gizləndiyi kimi, ruh da bunun içinə qapanmalıdır". Yepiskop,

doğrudan da, bu "axmaqlığın" içinə qapanaraq orada yaşayırdı və bundan tamamilə razı idi: o, bizi cəlb edən və eyni zamanda qorxuya salan böyük məsələləri, mücərrəd elmin ölçüyəgəlməz zirvələrini, metafizika uçurumlarını, taleyi, xeyri və şəri, bütün canlıların birbirilə mübarizəsini, insan şüurunu və heyvanların mürgülü seyrini, ölüm vasitəsilə dəyişməyi, varlıların məzarda yenidən doğulmasını, keçici hisslərin dəyişilməz "mənlik" üzərindəki anlaşılmaz hakimiyyətini, mahiyyəti, materiyanı, *Nil* və *Ens*[1], ruhu, təbiəti, azadlığı, zərurəti, çox böyük təfəkkürlü insanların düşündüyü bütün o kəskin problemləri, o məşum qalınlıqları; Lükretsi, Manu, müqəddəs Pavel və Dantenin sonsuzluğa dikilib orada, sanki, ulduzlar əmələ gətirə biləcək qədər parlaq nəzərlə seyr etdikləri böyük uçurumları özündən uzaqlaşdırırdı.

Monsenyor Byenvenü sirli hadisələri yalnız kənardan müşahidə edən, onları tədqiq etmədən və onlara yaxınlaşmadan, öz ağlını bununla yormadan, gözəgörünməzə qəlbən hörmət bəsləyən bir adam idi.

[1] Heçlik və varlıq (*lat.*) – orta əsrin fəlsəfə terminləri

İkinci kitab

SÜQUT

Birinci fəsil

BÜTÜN GÜN YOL GƏLƏNDƏN SONRA

1815-ci il oktyabr ayının əvvəllərində, günəşin batmasına, təqribən, bir saat qalmış balaca Din şəhərinə bir yolçu girdi. Bu zaman evlərinin pəncərəsindən baxan və ya qapılarının qabağında dayanmış olan tək-tək şəhər adamları bu dilənçiyə bir qədər təşvişlə baxırdılar. Ondan daha yoxsul görkəmli bir dilənçiyə rast gəlmək çətin idi. Bu, ortaboylu, enlikürək, dolu və qüvvətli bir adam idi. Ona qırx altı, qırx yeddi yaş vermək olardı. Başındakı papağının meşin günlüyü günəşdən yanıb qaralmış və tər basmış üzünün yarısını örtürdü. Boz kətandan tikilmiş qaba köynəyinin yaxasına gümüş lövbər nişanı sancılmışdısa da, köynəyin açıq yerindən tüklü sinəsi görünürdü, turna kimi burulmuş boyun yaylığı, əynində göy kətandan bir dizi ağarmış, o biri dizi yırtılmış köhnə şalvarı, bir dirsəyinə yaşıl mahuddan, vişlə yamaq salınmış köhnə və boz bluz, arxasında ağzına qədər dolu və qayışla möhkəm bağlanmış lap təzə bir əsgər çantası, əlində də zorba, düyünlü bir ağac var idi; yalın ayaqlarına dəmir mıxlarla nallanmış ayaqqabı geymişdi. Başı qırxılmış, saqqalı isə çox uzanmışdı.

Tər, bürkü, uzun günü piyada yeriməkdən əmələ gəlmiş yorğunluq və toz bu cır-cındır adamın buraxdığı pis təsiri daha da artırırdı.

Qısa tükləri biz-biz dayanmışdı. Saçlarının lap yaxında qırxıldığı və yenicə çıxmağa başladığı görünürdü.

Onu kimsə tanımırdı. Görünür, o, təsadüfi bir yolçu idi. O, haradan gəlirdi? Cənubdan. Bəlkə də, dəniz tərəfdən. Çünki o da Din şəhərinə yeddi ay bundan əvvəl Napoleon Kanndan Parisə gedən zaman keçdiyi həmin yoldan daxil olmuşdu. Yəqin ki, bu adam

bütün günü istirahət etmədən yol gəlmişdi. O, çox yorğun görünürdü. Şəhərin köhnə hissəsində yaşayan yerli qadınlar onun Qassendi bulvarındakı ağacların altında dayandığını və xiyabanın axırındakı fəvvarədən su içdiyini görmüşdülər. Görünür susuzluq onu çox incidirmiş, çünki arxasınca gələn uşaqlar iki yüz addım getdikdən sonra, yolçunun yenə dayanıb Bazar meydanının ortasındakı fəvvarədən su içdiyini görmüşdülər.

Puaşver küçəsinə çatdıqda o, sola dönüb şəhər idarəsinə tərəf getdi. Oraya girib, on beş dəqiqə orada qaldı. Qapının ağzında daş oturacaq üzərində bir jandarm oturmuşdu. Bu, həmin oturacaq idi ki, general Druo martın 4-də onun üstünə çıxaraq, Juan limanında yazılmış proklamasiyanı Din şəhərinin heyrət içərisində olan əhalisi qarşısında oxumuşdu. Yolçu şapkasını çıxarıb jandarmı hörmətlə salamlayaraq keçdi.

Jandarm yolçunun salamına cavab vermədi, diqqətlə ona baxdı, nəzərlərilə onu müşayiət etdi və şəhər idarəsinə girdi.

O zamanlar Din şəhərində "Kolbas xaçı" adlı gözəl bir karvansara vardı. O karvansaranın sahibi Jaken Labar, Qrenoblda "Üç delfin" adlı karvansara saxlayan, vaxtilə imperator ordusunda xidmət etmiş başqa bir Labarın qohumu olduğu üçün şəhərdə bütün əhalinin hörmətini qazanmışdı. Napoleon o tərəflərə gəldiyi zaman "Üç delfin" karvansarası haqqında çoxlu şayiə yayılmışdı. Deyirdilər ki, general Bertran yanvar ayında arabaçı paltarında bir neçə dəfə oraya gəlmiş və əsgərlərə xaç nişanı, şəhər əhalisinə isə ovuc-ovuc qızıl paylamışdı. Lakin yalnız bir şey qəti məlumdur ki, imperator Qrenobla daxil olduğu zaman prefektura binasında qalmaqdan imtina etmiş və merə təşəkkür edərək: "Burada tanıdığım namuslu bir adam var, mən onun yanında qalacağam", – deyib, "Üç delfin" mehmanxanasına getmişdi... "Üç delfin" ilə "Kolbas xaçı" arasında iyirmi beş lyö[1] məsafə olmasına baxmayaraq, "Üç delfin" sahibi Labarın şöhrəti "Kolbas xaçı" sahibi Labara da sirayət etmişdi. Şəhərdə onun barəsində deyirdilər: "Bu, o Qrenobldakının əmisi oğludur".

Yolçu şəhərdə ən yaxşı sayılan bu karvansaraya doğru yollandı. O, qapısı birbaş küçəyə açılan mətbəxə girdi. Bütün mətbəx peçləri qalanmışdı, buxarıda şən alov şölələnirdi. Meyxana sahibi eyni zamanda baş aşpaz olduğuna görə gah ocağa, gah qazanların yanına

[1] *Lyö* – fransız uzunluq ölçüsü

gəlib-gedir, qonşu otaqda ucadan danışıb gülüşən arabaçılar üçün əla nahar hazırlanmasına nəzarət edirdi. Səyahət edənlər yaxşı bilirlər ki, arabaçılar yaxşı yeməyi hamıdan çox sevirlər. Odun üstündə ağ kəkliklər və qırqovullarla dolu bir şiş dönür, plitənin üstündə isə Loze gölündən tutulmuş iki yağlı sazan balığı və Aloz gölündən tutulmuş alabalıq bişirdi.

Meyxana sahibi qapının açıldığını və təzə bir adamın içəri girdiyini eşitcək, gözlərini plitədən ayırmayaraq:

– Nə istəyirsiniz, cənab? – dedi.

Yolçu:

– Yemək və yatmaq istəyirəm, – deyə cavab verdi.

Meyxana sahibi:

– Olar, – dedi. Sonra dönüb yolçunu nəzərdən keçirərək əlavə etdi. – Əlbəttə, pulla.

Yolçu köynəyinin cibindən içi dolu dəri pul kisəsini çıxararaq:

– Pulum var, – dedi.

Meyxanaçı:

– Elə isə qulluğunuzda hazıram, – dedi.

Yolçu kisəsini yenə cibinə soxdu, çantasını çıxarıb qapının yanında döşəmənin üzərinə qoydu və əsasını əlindən buraxmayaraq ocaq qabağındakı alçaq oturacağın üstündə oturdu. Din şəhəri dağ yerindədir. Oktyabr gecələrində havalar orada çox soyuq olur.

Meyxana sahibi dala-qabağa gedib – gələndə yolçunu diqqətlə gözdən keçirirdi.

– Yemək tezmi hazır olar? – yolçu soruşdu.

– Bu saat hazır olacaq, – meyxanaçı cavab verdi.

Yolçu arxasını meyxanaçıya çevirib isinməkdə ikən, hörmətli meyxanaçı Jaken Labar cibindən bir karandaş çıxartdı və pəncərənin yanındakı kiçik masanın üstündə qalmış qəzetdən kiçik bir parça qopartdı, kənarında bir-iki sətir yazdıqdan sonra onu bükdü, yapışdırmadan mətbəxdə həm aşpaz şagirdi, həm də kuryer vəzifəsində işləyən bir uşağa verdi. Meyxanaçı uşağın qulağına nə isə pıçıldadı, o da dərhal şəhər idarəsinə doğru yüyürdü.

Yolçunun bu hadisədən əsla xəbəri olmadı.

O, yenə soruşdu:

– Yemək tezmi hazır olacaq?

– Bu saat hazır olar, – deyə meyxanaçı cavab verdi.

Uşaq qayıtdı. O apardığı məktubu geri gətirmişdi. Meyxanaçı cavab gözləyən adamlar kimi tələsik kağızı açdı. Kağızdakını diqqətlə oxuduqdan sonra başını yırğaladı və bir dəqiqə fikrə getdi. Nəhayət, kədərli fikirlərə dalmış kimi görünən yolçuya yaxınlaşaraq:

– Cənab, – dedi, – mən sizi burada saxlaya bilməyəcəyəm.

Yolçu oturacaqdan ayağa qalxdı.

– Nə üçün? Yoxsa qorxursunuz ki, mən sizə pul verməyəm? İstəsəniz, pulu qabaqca da verə bilərəm. Pulum vardır, deyirəm sizə.

– Məsələ bunda deyil.

– Bəs nədədir?

– Sizin pulunuz var...

– Bəli, – deyə yolçu bir daha təsdiq etdi.

– Amma mənim boş otağım yoxdur, – deyə meyxanaçı cavab verdi.

Yolçu sakitcə:

– Mənə tövlədə yer verin, – dedi.

– Verə bilmərəm.

– Nə üçün?

– Orada yer yoxdur, hər yeri atlar tutmuşdur.

Yolçu:

– Nə olar? – dedi, – elə isə çardağın bir küncündə mənə yer verərsiniz. Bir qucaq da küləş verin. Lakin bu barədə yeməkdən sonra ətraflı danışarıq.

– Mən sizə yemək verə bilmərəm.

Sakitcə, lakin qəti bir şəkildə verilən bu cavab yolçunun diqqətini cəlb etdi. O ayağa qalxdı.

– Bəs belə! – deyə o çığırdı. – Amma mən axı acından ölürəm! Mən gün doğandan bəri istirahət etmədən yol gəlirəm. On iki lyö yol gəlmişəm. Mən pul verirəm. Mən yemək istəyirəm.

Meyxanaçı dedi:

– Mənim heç bir şeyim yoxdur.

Yolçu güldü, buxarını və ocaqları göstərdi.

– Heç bir şeyiniz? Bəs bunlar?

– Bunların hamısını başqaları sifariş edibdir.

– Kimlər?

– Cənab arabaçılar.

– Onlar neçə nəfərdirlər?

– On iki.

– Burada iyirmi adamlıq yemək vardır.

– Bunların hamısını onlar özləri üçün sifariş ediblər, pulunu da qabaqcadan veriblər.

Yolçu əvvəlki yerində oturdu və yavaş bir səslə:

– Mən meyxanadayam, – dedi, – mən acam və burada qalıram.

Bu zaman meyxanaçı yolçunun qulağına tərəf əyildi və onun diksinməsinə səbəb olan bir səslə dedi:

– Buradan gedin!

Bu anda yolçu əyilərək əsasının dəmir ucu ilə kömürləri ocağa tərəf itələyirdi; o, cəld dönüb, etiraz etmək üçün ağzını açdısa da, meyxanaçı onun gözlərinə dik baxaraq yenə yavaş bir səslə əlavə etdi:

– Artıq söz lazım deyil. İstəyirsiniz sizin adınızı deyim? Sizin adınız Jan Valjandır. İndi istəyirsinizsə, sizin kim olduğunuzu da deyimmi? Siz içəri girdiyiniz zaman mən şübhələndim, şəhər idarəsinə adam göndərdim. Budur, onların verdikləri cavab. Oxumaq bilirsinizmi?

O, bu sözləri deyib bir az əvvəl meyxanadan şəhər idarəsinə və oradan geriyə səyahət edən kağızı açıq halda yolçuya uzatdı. Yolçu onu tez nəzərdən keçirtdi. Meyxanaçı bir az susandan sonra sözünə davam edərək dedi:

– Mən hamı ilə nəzakətli danışmağa adət etmişəm. Buradan gedin.

Yolçu başını aşağı saldı və döşəmənin üzərindəki çantasını götürüb getdi.

O, baş küçəyə çıxdı. Özünü evlərin yanına qısaraq, təhqir edilmiş və qəmgin bir halda, hara getdiyini özü belə bilmədən, Allaha təvəkkül gedirdi. O, bir dəfə də başını geri çevirmədi. Çevirmiş olsaydı, "Kolbas xaçı" sahibinin qapının ağzında öz müştəriləri və yoldan keçənlər arasında durub barmağı ilə onu göstərərək, hərarətlə nə isə danışdığını görər və oradakıların ona qorxulu və şübhəli nəzərlərlə baxmasından bilərdi ki, gəlişi şəhərə çaxnaşma salacaqdır.

Lakin o, bunları görmədi. Dərdli adamlar geriyə baxmazlar. Onlar qara talelərinin dallarınca gəldiyini çox gözəl bilirlər.

Beləliklə, o, haraya gedəcəyini bilmədən, tanımadığı küçələrlə bir müddət irəliyə getməkdə davam etdi. Ümidsizlik çağlarında olduğu kimi o, yorğunluğu da unutmuşdu. Birdən yenə bərk aclıq

hiss etdi. Gecə yaxınlaşırdı. Bir sığınacaq tapmaq ümidi ilə o, ətrafa nəzər saldı.

Abırlı aşxananın qapısı onun üzünə bağlanmışdı, indi o, adi bir meyxana və ya sadəcə bir daxma axtarırdı.

Birdən küçənin o biri başında işıq göründü; dəmir tirdən asılmış şam budağı toranlı səmanın solğun fonunda aydın görünürdü. Yolçu işıq gələn tərəfə yollandı.

Doğrudan da, bu, meyxana idi, – Şafo küçəsindəki meyxana.

Yolçu bir anlığa dayanıb meyxananın pəncərəsindən içəri baxdı; alçaq tavanlı salon masa üzərindəki bir lampa ilə və ocaqda yanan odun parlaq alovu ilə işıqlanmışdı. Orada bir neçə adam oturub içirdi. Meyxanaçı ocağın yanında isinirdi. Ocağın üzərində qarmaqdan asılmış dəmir qazanda nə isə qaynayırdı.

Eyni zamanda bir növ karvansara olan bu meyxananın iki qapısı vardı: biri küçəyə açılırdı, biri də peyinlə dolu kiçik həyətə çıxırdı.

Yolçu küçə qapısından girməyə cürət etmədi. Xəlvətcə həyətə girib yenə dayandı, sonra qorxa-qorxa rəzəni qaldırdı və qapını itələdi.

– Kimdir? – deyə meyxanaçı səsləndi.

– Yemək və yatmaq üçün yer axtaran bir adam.

– Bəs nə üçün dayandınız? Burada yemək də, yatmaq üçün yer də vardır.

Yolçu içəri girdi. Masanın başında oturub içən adamların hamısı dönüb ona baxdı. Bir tərəfdən lampanın, o biri tərəfdən də ocağın işığı onu işıqlandırdı. O, torbasını ciynindən çıxarmaqda ikən hamı onu diqqətlə nəzərdən keçirmişdi.

Meyxanaçı dedi:

– Budur ocaq, yemək də qazançada bişir. Yaxın gəlin, isinin, dost.

Yolçu ocağın qabağında oturdu. Yorğunluqdan sızıldayan ayaqlarını oda tərəf uzatdı, qazançadan xoş iy gəlirdi. Yolçunun şapkasının günlüyü altından görünən üzündə tutqun məmnuniyyət ifadəsi göründüsə də, uzun zamandan bəri adət etdiyi əzabın qəmli kölgəsi yenə də üzündən silinib getmədi.

Onun mərd, mətanətli və qəmli görkəmi vardı. Bu üz qəribə bir təsir bağışlayırdı: ilk baxışda o, çox itaətkar, axırda isə çox sərt görünürdü. Çırpı arasında alov necə parlayırsa, onun gözləri də kirpikləri altında elə parlayırdı.

Masanın başında oturanlardan biri – balıq alverçisi, bu meyxanaya girməzdən əvvəl Labar meyxanasına gedərək, atını onun tövləsinə bağlamışdı. Təsadüfən həmin gün səhər o, bu naməlum və şübhəli yolçunu Bra d'Ass ilə... (adını yadımdan çıxartdım, gərək ki, Eskublon idi) arasındakı yoldan gedərkən görmüşdü. Alverçiyə rast gəldiyi zaman olduqca yorğun görünən yolçu onu ata mindirməsini xahiş etmiş, balıq alverçisi isə cavab vermədən atını daha bərk sürmüşdü. Həmin balıq alverçisi yarım saat bundan əvvəl Jaken Labarı əhatə edən adamların içərisində idi və "Kolbas xaçı" meyxanasında olanlara özünün bu adama necə rast gəldiyini nağıl edirdi. İndi o, yerindən durmadan, meyxanaçıya gizlincə işarə elədi. Meyxanaçı ona yanaşdı. Onlar bir-birinə bir neçə kəlmə pıçıldadılar. Bu zaman yolçu yenə dərin düşüncələrə dalmışdı.

Meyxanaçı ocağın yanına gəlib, kobud bir hərəkətlə yolçunun çiynindən yapışdı və dedi:

– Tez buradan rədd ol!

Yolçu ona tərəf döndü və mülayimcəsinə soruşdu:

– Ah, demək, siz bilirsiniz?..

– Bəli, bilirəm.

– Məni o biri meyxanadan qovdular.

– İndi isə səni buradan qovurlar.

– Bəs mən haraya gedim?

– Haraya istəyirsən get!

Yolçu çantasını və əsasını götürüb getdi.

Meyxanadan çıxanda, "Kolbas xaçı" meyxanasından buraya qədər onu təqib etdikdən sonra indi burada gizlənən bir neçə uşaq onu daşa basdı. Yolçu qəzəblə geri döndü və əsası ilə onları hədələdi, uşaqlar bir dəstə quş kimi dağılışdılar.

O irəlilədi və həbsxananın qabağına çatdı. Darvazanın yanında iri zəngə bağlanmış dəmir zəncir sallanmışdı. O, zənciri dartaraq zəngi çaldı.

Darvazadakı kiçik pəncərə azacıq açıldı. Yolçu hörmətlə şapkasını çıxararaq:

– Cənab qapıçı, – dedi, – rəhm edin, qapını açın, mənə birgecəlik yer verin.

İçəridən bir səs cavab verdi:

– Həbsxana karvansara deyil. Qoy səni həbs etsinlər, onda qapını açarlar.

Kiçik pəncərə yenə qapandı.

Yolçu bağlarla əhatə olunmuş dar bir küçəyə girdi. Bu bağların bəzisinin ətrafına çəpər əvəzinə kollar əkilmişdi ki, bu da küçəni şən göstərirdi. Bağlar və çəpərlər arasında yolçu birmərtəbəli kiçik bir ev gördü; evin pəncərəsindən işıq gəlirdi. Yolçu meyxananın pəncərəsindən baxdığı kimi, bu evin də pəncərəsindən içəri baxdı və divarları ağardılmış xeyli geniş bir otaq gördü. Otağın bir tərəfində pərdə altında bir çarpayı, yanında da bir beşik, bir neçə taxta stul, divardan asılmış qoşalülə bir tüfəng var idi. Otağın ortasında süfrə hazırlanmışdı. Mis lampa qaba ağ örtüyü, gümüş kimi parlayan və şərabla dolu olan qalay bir kuzəni və içində şorba buğlanan saxsı qabı işıqlandırırdı. Masanın yanında qırx yaşlarında, ağbənizli, gülərüzlü bir kişi oturmuşdu və dizləri üstündə kiçik bir uşağı atıb-tuturdu. Yanında oturan cavan bir qadın o biri uşağa süd verirdi. Ata gülür, uşaq gülür, ana gülümsəyirdi.

Yolçu bu xoş və sakit mənzərə qarşısında bir az dayanaraq fikrə daldı. O, nələr düşünürdü? Bu suala yalnız özü cavab verə bilərdi. Yəqin, o fikirləşirdi ki, bu şən ailə ona qonaqpərəstlik göstərməkdən boyun qaçırmaz və burada, bu qədər məsud görünən bir evdə, bəlkə, ona da bir zərrə mərhəmət tapılar.

O, yavaşca pəncərəni döydü.

Eşitmədilər.

Bir də döydü.

Bu zaman qadın ərinə müraciətlə:

– Bura bax, kişi, deyəsən, qapını döyürlər, – dediyini eşitdi. Kişi:

– Yox, – deyə cavab verdi.

Yolçu pəncərəni üçüncü dəfə döydü.

Kişi ayağa qalxaraq, lampanı götürdü və qapıya yaxınlaşıb açdı. Ev sahibi ucaboylu, yarıkəndli, yarıpeşəkar bir adam idi. İri dəri önlüyü sol çiyninə qədər çatırdı. Önlüyün döş tərəfində qurşağa sancılmış çəkic, qırmızı yaylıq, barıt qabı və müxtəlif şeylər görünürdü. Ev sahibi başını yuxarı qaldıraraq dayanmışdı: köynəyinin geniş, açıq yaxasından öküz boynuna oxşayan ağ boynu görünürdü. Onun qalın qaşları, iri qara bakenbardları, bir qədər dəbərmiş gözləri vardı, alt çənəsi qabağa çıxmışdı, üzündə öz evində olduğunu bildirən adama məxsus təsvirəgəlməz bir ifadə vardı.

Yolçu onu görüncə:

– Bağışlayın, cənab, – dedi. – Pulla mənə bir boşqab şorba və yatmaq üçün bax, o bucaqdakı mərəkdə bir yer verərsinizmi? Pulla, verə bilərsinizmi?

Ev sahibi soruşdu:

– Siz kimsiniz?

Yolçu cavab verdi:

– Mən Pyui-Muasondan gəlirəm. Bütün günü piyada on iki lyö gəlmişəm. Mənə yer verərsinizmi? Əlbəttə, pulla.

Kəndli:

– Yaxşı adama pulla evimdə yer verməkdən boyun qaçırtmazdım, – dedi. – Ancaq siz nə üçün karvansaraya getmirsiniz?

– Orada yer yoxdur.

– Necə yoxdur? Ola bilməz. Bu gün nə bazar günüdür, nə də yarmarka. Labarın yanına getmədinizmi?

– Getmişdim.

– Bəs nə oldu?

Yolçu bir az pərt halda:

– Bilmirəm, o, məni oraya buraxmadı.

– Bəs oraya, nədir o, Şafo küçəsindəkinə, getdinizmi?

Yolçunun pərtliyi artırdı.

– O da məni içəri qoymadı, – deyə o mızıldandı.

Kəndlinin üzündə bir şübhə göründü; o, yolçunu başdan-ayağa süzərək birdən dəhşətlə:

– Yoxsa, siz həmin adamsınız? – dedi.

Sonra yenə yolçunu gözdən keçirtdi. Üç addım geri çəkildi, lampanı masanın üstünə qoydu və divardakı tüfəngi əlinə aldı.

Kəndlinin "Yoxsa, siz həmin adamsınız?" sözlərini eşidən qadın yerindən sıçradı və hər iki uşağını qucağına alaraq tələsik, hətta döşünü belə örtmədən ərinin arxasında gizləndi. O, qorxudan bərəlmiş gözlərini yolçunun üzünə zilləyərək və öz-özünə – "Oğru, sərsəri" – pıçıldayırdı.

Bütün bu hadisələr təsəvvür edilməyəcək dərəcədə tez baş verdi. Ev sahibi bir neçə saniyə naməlum adama elə baxdı ki, sanki, qarşısında duran zəhərli ilan idi, sonra yenə qapıya yanaşaraq:

– Rədd ol, – dedi.

Yolçu:

– Allah xatirinə, heç olmasa, bir stəkan su verin, – deyə xahiş etdi.

Kəndli:

– Alnına bir güllə çaxılmasını istəmirsən ki? – deyə cavab verdi.

Sonra qapını bərk örtdü və yolçu iki ağır dəmir sürmənin bir-bir necə cırıldadığını eşitdi. Bir dəqiqədən sonra pəncərənin taxtaları da örtüldü, dəmir tirin gurultu ilə yerinə qoyulduğu eşidildi.

Zülmət getdikcə qatılaşırdı. Alp dağlarından soyuq külək əsirdi. Yolçu sönən gündüzün zəif işığında küçəni əhatə edən bağlardan birində, sanki, çimlə örtülmüş daxma kimi bir şey gördü. O, cürətlə şəbəkə hasardan sıçrayaraq bağa düşdü və daxmaya yanaşdı, qapı əvəzində alçaq bir dəlik gördü; daxma şose fəhlələrinin yol kənarında tikdikləri komalara bənzəyirdi. Yəqin, yolçu bunun, doğrudan da, belə bir koma olduğunu düşünmüşdü. O, soyuqdan və acından əziyyət çəkirdi: aclığa çarə tapmırdı, lakin burada heç olmasa, soyuqdan qorunmaq üçün bir sığınacaq vardı. Bu cür yerlərdə, adətən, gecələr kimsə qalmır. O, qarnı üstə uzandı və sürünə-sürünə daxmanın dəliyindən keçdi. İçəri isti idi. Yerdə hətta küləş döşənək də vardı, yolçu bir dəqiqə bu döşənəyin üstündə uzandı, o qədər yorulmuşdu ki, hərəkət etməyə qadir deyildi. Sonra arxasındakı çantanın onu narahat etdiyini hiss edərək və bu çantanın bir yastıq ola biləcəyini düşünüb qayışlardan birini açmağa başladı. Bu anda qorxunc bir mırıltı eşitdi. O gözlərini qaldırdı. Daxmanın qaranlıq deşiyindən böyük bir köpəyin başı göründü.

Yolçu it damına düşmüşdü.

O, özü də çox qüvvətli və dəhşətli idi; dəyənəyini əlinə alaraq və çantasını qalxan kimi tutaraq birtəhər deşikdən bayıra çıxdı; onun cındır paltarındakı yırtıqlar daha da artmışdı.

O, əlindəki əsanı yellədə-yellədə dal-dalı qapıya tərəf geri çəkilərək birtəhər bağdan çıxdı, iti yaxına qoymamaq üçün o, qılınc təlimi ustaları arasında məşhur olan "qapalı qızılgül" üsuluna əl atmağa məcbur oldu.

Bir qədər əziyyətdən sonra o, hasarı aşdı. O, küçədə yenə yalqız, yurdsuz, pənahsız idi, hətta o miskin it damından da qovulmuş, o küləş döşənəkdən də məhrum edilmişdi. O, özünü bir daşın üstünə saldı. Deyirlər ki, bu zaman yoldan keçən bir nəfər onun: "Ah, it də məndən yaxşı yaşayır!" – dediyini eşitmişdi.

Bir az sonra o ayağa qalxdı və yenə yoluna davam etdi. Çöldə bir ağac və ya bir ot tayası tapıb altında sığınmaq ümidi ilə şəhərdən çıxdı.

O, başını aşağı sallamış halda xeyli yol getdi. Nəhayət, insan olan yerlərdən uzaqlaşdığını hiss edərək başını qaldırdı və ətrafına göz gəzdirdi. O, çöldə idi; qarşısında dibdən biçilmiş kövşəni olan yastı bir təpə görünürdü – biçindən sonra bu cür təpələr saçı qırxılmış başı xatırladır.

Üfüq tamamilə qaralmışdı – bu yalnız gecənin qaranlığı deyildi; qaranlığı qatılaşdıran alçaq buludlar idi; onlar, sanki, lap təpənin üstündə yatır və yuxarı qalxaraq bütün göyü bürüyürdü. Lakin tezliklə ay çıxacağından, göyün ortasında isə toran işığının parıltıları gəzişdiyindən yüksəklikdə bu buludlar bir növ ağımtıl qübbə əmələ gətirir və bu qübbədən yerə solğun işıq saçılırdı.

Buna görə yer göydən daha çox işıqlı idi ki, bu da həmişə olduqca müdhiş bir təsir bağışlayır. Təpənin yeknəsəq, kədərləndirici cizgiləri qaranlıq üfüqdə tutqun göyümtül bir ləkə kimi görünürdü. Bütün bu mənzərə iyrənc, miskin, kədərləndirici və cansıxıcı bir şeyi xatırladırdı. Tarlada və təpədə yolçudan bir neçə addım kənarda duraraq küləkdən titrəyən eybəcər bir ağacdan başqa heç bir şey yox idi.

Şübhəsiz ki, bu adam hadisələrin gizli cəhətini həssaslıqla qavrayan incə mənəvi və zehni xüsusiyyətlərə malik adamlardan deyildi, lakin bu göydə, bu təpədə, bu düzənlikdə və bu ağacda elə sonsuz bir kədər vardı ki, yolçu bir dəqiqə hərəkətsiz dayanıb, bu mənzərəni seyr etdikdən sonra birdən geri döndü. Bəzən təbiətin özü də insana düşmən kimi görünür.

Yolçu geri qayıtdı. Şəhər qapıları bağlanmışdı. Dini müharibələr dövründə üç mühasirəyə davam gətirmiş Din şəhəri 1815-ci ildə hələ köhnə qala divarları və dördbucaqlı bürclərlə əhatə olunmuşdu. Bu divarlar və bürclər yalnız sonralar uçurulmuşdu. Yolçu divarda bir uçuq yer tapıb yenə şəhərə girdi.

Saat, təqribən, səkkiz olardı. Yolçu küçələri tanımadığından, yenə qarşısına çıxan küçələrlə yol getməyə başladı.

Beləliklə, o, şəhər idarəsinin, sonra da seminariyanın yanına çatdı. Kilsə meydanından keçəndə yumruğunu qaldırıb hədələdi.

Bu meydanın tinində bir mətbəə vardı. İmperatorun və imperator qvardiyasının Elba adasından gətirilmiş bir orduya yazılmış olan bəyannamələri ilk dəfə məhz burada çap edilmişdi. Bu bəyannamələr Napoleon tərəfindən yazdırılmışdı.

Taqətdən düşmüş və bütün ümidini itirmiş yolçu bu mətbəənin qapısı ağzındakı daş oturacağın üstündə uzandı.

Bu zaman kilsədən bir qoca qadın çıxdı. Qaranlıqda oturacaqda uzanan adamı görüncə:

– Burada nə edirsiniz, dostum? – deyə soruşdu.

Yolçu kəskin və kinli bir səslə cavab verdi:

– Özünüz görmürsünüzmü, mərhəmətli qadın? Mən yatmaq istəyirəm.

Bu ada, həqiqətən, layiq olan mərhəmətli qadın markiza de R. idi.

– Bu daş oturacağın üstündəmi? – deyə o, yenə soruşdu.

– Mən on doqquz il quru taxtalar üstündə yatmışam, bu gün də daş üstə yataram.

– Siz əsgərlikmi edirdiniz?

– Bəli, mərhəmətli qadın, əsgərlik edirdim.

– Bəs nə üçün karvansaraya getmirsiniz?

– Çünki pulum yoxdur.

Xanım de R.

– Təəssüf! – dedi. – Mənim cibimdə ancaq dörd su vardır.

– Fərqi yoxdur, verin.

Yolçu bu pulu aldı. Xanım de R. sözünə davam etdi:

– Bu qəpik-quruşla sizi karvansaraya qəbul etməzlər. Ancaq bir deyin görək, gecələmək üçün bir yer axtarıb tapmağa cəhd etdinizmi? Axı bütün gecəni belə keçirə bilməzsiniz. Yəqin, çox üşümüşsünüz, həm də acsınız. Bəlkə, sizə yazığı gəlib bir sığınacaq verən oldu.

– Mən bütün qapıları döymüşəm.

– Bəs necə oldu?

– Məni hər yerdən qovdular.

"Mərhəmətli qadın" yolçunun çiyninə toxunaraq, meydançanın o biri tərəfində, yepiskop sarayının yanındakı kiçik bir evi göstərərək:

– Deyirsiniz ki, bütün qapıları döymüşsünüz? – deyə o bir də soruşdu.

– Bəli.

– Bu qapını da döydünüz?

– Yox.

– Elə isə döyün.

İkinci fəsil

HİKMƏTƏ VERİLƏN EHTİYAT DƏRSİ

O axşam Din yepiskopu adəti üzrə şəhəri gəzdikdən sonra öz otağına girib, qapısını bağlayaraq uzun müddət orada oturmuşdu. O, "İnsanın vəzifələri" mövzusunda böyük bir əsər yazırdı. Təəssüf ki, bu əsər tamamlanmamış qaldı. O, bu mühüm məsələ haqqında kilsə rəhbərlərinin və alimlərin yazdıqlarını böyük bir səylə toplayırdı. Onun əsəri iki hissədən ibarət idi: birinci hissəsində ümumbəşər vəzifələrindən, ikinci hissədə isə cəmiyyətdə tutduğu mövqeyə görə hər adamın öhdəsinə düşən vəzifələrdən bəhs olunurdu. Ümumbəşər vəzifələri böyük vəzifələrdir. Bunlar dörddür. Müqəddəs apostol Matvey bu vəzifələri bu cür bölüşdürür: Allaha qarşı vəzifələr (Matf. VI), insanın özünə qarşı vəzifələr (Matf. V, 29, 30), başqa insanlara qarşı vəzifələr (Matf. VII, 12), Tanrının xəlq etdiklərinə qarşı vəzifələr (Matf. VI. 20, 25). Qalan vəzifələrə gəlincə, yepiskop bunların başqa yerlərdə qeyd olunduğunu və yazıldığını tapmışdı: padşahların və rəiyyətlərin vəzifələrini – romalılara göndərilmiş məktubda, hakimlərin, arvadların, anaların və gənclərin vəzifələrini – müqəddəs Pyotrun yazılarında, ataların, ərlərin, uşaqların və nökərlərin vəzifələrini efeslilərə göndərilmiş məktubda; möminlərin vəzifələrini – yəhudilərə göndərilmiş məktubda, bakirə qızların vəzifələrini – korinflilərə göndərilmiş məktubda. O, böyük bir səylə bütün bu tapşırıqları toplayıb mövzunu bir küll şəklində birləşdirmişdi və onu insanlara təlqin etmək istəyirdi.

Axşam saat səkkizdə, madam Maqluar adəti üzrə, çarpayının yanında asılmış kiçik şkafdan gümüş qabları götürmək üçün içəri girdiyi zaman, yepiskop dizi üstündə açıq iri bir kitab tutaraq, kiçik kağız parçaları üzərində qeydlər edirdi. Bir dəqiqə sonra yepiskop süfrənin hazır olduğunu və bacısının, yəqin, onu gözlədiyini xatırlayaraq kitabı örtdü və ayağa qalxaraq yemək otağına getdi.

Yemək otağı buxarısı olan uzunsov bir otaq idi. Dediyimiz kimi, bu otağın qapısı küçəyə, pəncərəsi isə bağçaya açılırdı.

Madam Maqluar, doğrudan da, axşam yeməyi hazırlığını qurtarmaq üzrə idi.

O, öz işini görə-görə madmazel Batistina ilə söhbət edirdi. Masanın üstündə lampa yanırdı, masa yaxşıca qalanmış buxarıya yaxın qoyulmuşdu.

Hər birinin altmışdan artıq yaşı olan bu iki qadını təsəvvürə gətirmək çətin deyil; madam Maqluar qısaboylu, diribaş, kök bir qadın idi, madmazel Batistina isə mülayim, arıq və zəif, qardaşından bir az uca idi, əynində 1806-cı ildə dəbdə olan qırmızımtıl-qonur rəngdə ipək paltar vardı. Bu paltarı madmazel Batistina həmin ildə Parisdə almışdı və o zamandan indiyədək geyirdi. Sadə xalq dili ilə desək (bu xalq ifadələrinin qiymətli cəhəti bundadır ki, bir səhifə ilə izah ediləcək fikri bir sözlə ifadə etmək olur), madam Maqluar "avamlardan", madmazel Batistina isə "xanımlardan" idi. Madam Maqluarın başında qırçınlı ağ başlığı, boynunda isə qızıl xaç vardı – həmin xaç bu evdə olan yeganə qadın zinəti idi; ağappaq ləçəyi kobud parçadan tikilmiş, qısa və geniş qollu qara paltarına rövnəq verirdi. Qırmızı və yaşıl damalı, yaşıl belbağı ilə belindən bağlanmış döşlüyü, ucları yuxarıdan iki sancaqla sancılmış qənşərliyi onun geyimini tamamlayırdı, ayaqlarına Marsel qadınları kimi kobud çəkmələr, sarı corablar geymişdi. Madmazel Batistinanın paltarı 1806-cı ilin dəbi ilə tikilmişdi, lifi qısa, tumanı dar, qolları çiyinlikli, baftalı və düyməli idi. Ağarmış saçlarının üstünü "uşaq" tərzində burulmuş pariklə örtürdü. Madam Maqluar ağıllı, diribaş, sadədil qadın təsiri bağışlayırdı, lakin bir ucu aşağı, o biri ucu yuxarı olan ağzı və alt dodağından qalın olan üst dodağı ona bir qədər kobud və amiranə görünüş verirdi. Monsenyor susduqca madam Maqluar onunla hörmət və açıqlıqla qarışıq bir qətiyyətlə danışırdı; lakin monsenyor danışmağa başlarbaşlamaz, o da, gördüyümüz kimi, madmazel Batistinatək yepiskopa danışıqsız itaət edərdi. Madmazel Batistinaya gəlincə, o heç danışmazdı da. O, itaət və təqdir etməklə kifayətlənirdi, hətta gəncliyində də o heç bir zaman gözəl olmamışdı, bərəlmiş mavi gözləri, uzun donqar burnu var idi, lakin onun bütün üzündən, bütün varlığından (əvvəldə söylədiyimiz kimi) ifadəedilməz bir mərhəmət yağırdı. Onda həmişə bir mülayimlik hiss olunurdu: mərhəmət, ümid və inam – qəlbi isindirən bu üç fəzilət isə onun bu mülayimliyini yavaş-yavaş qüdsiyyət dərəcəsinə yüksəltmişdi. Təbiət onu mülayim yaratmış, din onu mələyə çevirmişdi. Zavallı müqəddəs qız! Yox olmuş əziz bir xatirə!

Sonralar madmazel Batistina yepiskopun evində həmin axşam baş verən bu hadisəni o qədər nağıl etmişdi ki, hələ də yaşayan bir çox adamlar bu hadisəni kiçik təfsilatına qədər xatırlayırlar.

Yepiskop içəri girdiyi zaman madam Maqluar madmazel Batistinaya hərarətlə nə isə danışırdı, madmazellə o, sevdiyi və yepiskopun artıq adət etdiyi mövzuda söhbət edirdi. Söhbət bayır qapının sürməsi haqqında gedirdi.

Görünür, madam Maqluar axşam yeməyi üçün bəzi şeylər almağa getdiyi zaman müxtəlif xəbərlər eşitmişdi. Şübhəli bir sərsəri haqqında danışırdılar. Deyirdilər ki, şəhərdə qorxulu, naməlum bir şəxs zahir olmuşdur, o, küçələri dolaşır və bu gecə evlərinə gec qayıdanları təhlükəli bir görüş gözləyir. Həm də deyirdilər ki, polis heç bir şeyə yaramır, çünki prefektlə mer bir-birilə yola getmədiklərindən, bir-birinə badalaq gəlməyə çalışaraq qəsdən müxtəlif hadisələr törədirlər. Odur ki ağlı başında olan adamlar polis vəzifəsini öz üzərlərinə götürməli, ayıq olmalı və çalışmalıdırlar ki, qapılar və sürmələr möhkəm olsun, bütün qapılar içəridən möhkəm bağlansın.

Madam Maqluar bu son sözləri xüsusilə qeyd etdi, lakin öz soyuq otağından yenicə gəlmiş yepiskop buxarının yanında oturub isinir və ümumiyyətlə, başqa bir şey haqqında düşünürdü. Madam Maqluarın son sözlərinə o heç diqqət vermədi. Madam Maqluar sözünü təkrar etdi. O zaman madmazel Batistina qardaşının narazılığına səbəb olmadan madam Maqluarı məmnun etmək məqsədilə çəkinə-çəkinə qardaşından soruşmağa cürət etdi:

– Madam Maqluarın dediyini eşidirsinizmi, qardaşım?

– Bəli, nə isə ötəri eşitdim, – deyə yepiskop cavab verdi. Sonra stulunu bir qədər irəli çəkib əllərini dizlərinə söykədi, aşağıdan buxarının alovu ilə işıqlanan mərhəmətli və gülər üzünü qoca xidmətçi qadına çevirərək soruşdu:

– Hə, nə var? Nə olmuşdur? Deməli, biz böyük bir təhlükə içərisindəyik?

Madam Maqluar bütün əhvalatı özü hiss etmədən, bir qədər mübaliğə ilə yenidən söyləməyə başladı. Belə məlum olurdu ki, şəhərdə bir qaraçı sərsəri, təhlükəli bir dilənçi dolaşmaqdadır. O, Jaken Labarın mehmanxanasında gecələmək istəmiş, lakin Labar onu içəri buraxmamışdır. Adamlar onun Qasendi bulvarından keçdiyini

və şər qarışanadək şəhəri dolandığını görmüşlər. Zahirdə o lap quldura bənzəyir – asılmağa layiq bir adamdır.

– Doğrudanmı? – deyə yepiskop soruşdu.

Bu sual madam Maqluarı ürəkləndirdi. Ona belə gəldi ki, yepiskop narahat olmağa başlayır, odur ki təntənə ilə sözünə davam etdi:

– Bəli, monsenyor, elədir ki, var. Bu gecə şəhərdə hökmən bir bədbəxtlik olacaqdır. Hamı belə deyir. Həm də polis heç bir şeyə yaramır (faydalı bir təkrar). Belə də iş olar ki, dağ yerində yaşayasan, küçələrdə belə fənər olmasın? Bayır lap zülmətdir. Monsenyor, xanım da mənim sözlərimi təsdiq edir, deyir ki...

Madmazel Batistina madam Maqluarın sözünü kəsərək:

– Mən heç bir söz demirəm, – dedi. – Qardaşım nə iş görürsə, hamısı yaxşıdır.

Madam Maqluar bu etirazı eşitməmiş kimi sözünə davam etdi:

– Biz onu deyirik ki, bizim ev heç etibarlı deyil, əgər monsenyor icazə verərsə, çilingərə deyim ki, qapının köhnə rəzələrini salsın, onlar xarab olmamışdır, ona görə bu, birdəqiqəlik işdir; mən sizə deyirəm, monsenyor, rəzələr, heç olmasa, bu gecəliyə salınmalıdır. Çünki mən sizə yenə deyirəm, sürgüsü yeşikdən olan və hər kəsin açа biləcəyi qapıdan qorxulu bir şey yoxdur. Həm də monsenyorun adətidir, gecə yarısı belə qapını döyən olsa, həmişə "buyurun" deyər. Aman Allah, nə deyim! İcazə almağa belə heç kəsin ehtiyacı yoxdur...

Bu zaman kim isə qapını bərk döydü.

Yepiskop:

– Buyurun, – dedi.

Üçüncü fəsil

KOR-KORANƏ İTAƏT ETMƏK QƏHRƏMANLIĞI

Qapı açıldı.

O, birdən-birə və taybatay açıldı, sanki, kimsə onu qəti bir hərəkətlə bərk itələmişdi.

İçəriyə bir adam girdi.

Bu adamı biz artıq tanıyırıq. Bu, gecələmək üçün yer axtara-axtara indicə şəhəri dolaşan həmin yolçu idi.

O, içəri girdi, qapını örtmədən irəliyə doğru bir addım atdı və dayandı. Onun çiynində çanta, əlində əsa vardı. Baxışından sərtlik, cəsarət, kin və yorğunluq yağırdı. Buxarının odu onu başdan-ayağa qədər işıqlandırırdı. O, çox dəhşətli idi. Birdən peyda olan bu adamda nə isə qorxunc bir şey vardı.

Madam Maqluar o qədər qorxdu ki, çığıra da bilmədi. O titrədi və sanki, yerində donub qaldı.

Madmazel Batistina dönüb, içəri girən adamı gördü və qorxub ayağa qalxdı, sonra başını yavaş-yavaş buxarıya tərəf çevirərək, qardaşının üzünə baxdı və üzü əvvəlki kimi sakit və aydın ifadə aldı.

Yepiskop içəri girən adama diqqətlə və sakitcə baxırdı. O, ağzını açıb, görünür, gələn adamdan ona nə lazım olduğunu soruşmağa hazırlaşırdı ki, yolçu əllərini əsasına dayayaraq, qocaya və iki qadına bir nəzər saldı və yepiskopun danışmasını gözləmədən uca səslə danışmağa başladı:

– Bilirsinizmi, nə var? Mənim adım Jan Valjandır. Katorqadan gəlirəm. Orada on doqquz il qalmışam. Məni dörd gün bundan əvvəl azad etmişlər. Pontarlyeyə gedirəm. Orada yaşamağıma icazə vermişlər. Budur, dörd gündür ki, Tulondan piyada gəlirəm. Bu gün on iki lyö yol gəlmişəm. Axşam bu şəhərə gəlib karvansaraya getdim, lakin şəhər idarəsində göstərdiyim sarı pasporta görə məni oradan qovdular. Nə edə bilərdim. Mən başqa karvansaraya gəldim. "Rədd ol!" dedilər. Əvvəlcə birində, sonra da o birində heç kəs məni içəri buraxmaq istəmədi. Mən həbsxanaya da getdim, qapıçı qapını açmadı. Bir it damında da sığınacaq üçün yer axtardım. İt də məni dişlədi və qovdu, sanki, o da adam idi. Elə bil, mənim kim olduğumu bilirdi. Mən açıq havada gecələmək üçün çölə çıxdım, lakin göyün üzünü buludlar aldı, yağış yağmağını və yağışın qarşısını ala biləcək Tanrının olmadığını düşünüb, heç olmasa, bir qapının arasında yatmaq üçün şəhərə qayıtdım. Burada, meydanın ortasında bir daş oturacağın üstündə uzanmaq istəyirdim ki, mərhəmətli bir qadın sizin evinizi göstərərək: "Bu qapını döy" – dedi, mən də sizin qapını döydüm. Bura nədir? Karvansaradır? Mənim pulum var. Özü də çox. On doqquz il katorqada işləyib, yüz doqquz frank on beş su qazanmışam. Haqqınızı verərəm. Nə üçün də verməyim? Mənim ki pulum vardır. Mən çox yorğunam. On iki lyö piyada gəlmişəm və bərk acmışam. Mənə burada qalmağa icazə verərsinizmi?

Yepiskop:

– Madam Maqluar, – dedi, – süfrəyə bir dəst də qab qoyun.

Yolçu bir neçə addım irəli gedərək, üstündə lampa yanan masaya yanaşdı və qulaqlarına inanmırmış kimi sözünə davam etdi:

– Dayanın, deyəsən, məni başa düşmədiniz. Mən katorqalıyam. Birbaş katorqadan gəlirəm. Mən dustaq idim. – O, bunu deyərək, cibindən iri bir kağız parçası çıxartdı və açdı: – Bu da mənim pasportum. Görürsünüzmü, rəngi sarıdır. Bu onun üçündür ki, məni hər yerdən qovsunlar. Oxumaq istəyirsinizmi? Mən özüm də oxuya bilirəm. Mən oxumağı dustaqxanada öyrənmişəm. Orada oxumaq istəyənlər üçün məktəb vardır. Görün, pasportumda onlar nə yazıblar: "Jan Valjan, katorqadan buraxılmış, doğulduğu yer..." Hə, bunu siz bilməsəniz də olar... – on doqquz il katorqada qalmışdır. Beş il qapını sındırmaqla oğurluq etdiyi üçün. On dörd il dörd dəfə qaçmaq istədiyi üçün. Bu adam çox təhlükəlidir. Gördünüzmü? Məni hər yerdən qovurlar. Bəs siz necə? Məni evinizə buraxmağa razısınızmı? Bura nədir? Karvansaradır? Mənə yemək və gecələmək üçün yer verməyə razısınızmı? Sizdə tövlə tapılarmı?

Yepiskop:

– Madam Maqluar, – dedi, – küncdəki çarpayıya təmiz mələfə salın.

Bu iki qadının yepiskopa olan itaətkarlığının nə xarakterdə olduğunu söyləmişdik.

Madam Maqluar yepiskopun hər iki əmrini yerinə yetirmək üçün bayıra çıxdı.

Yepiskop yolçuya müraciət edərək:

– Oturun, cənab, isinin, – dedi. – Biz bu saat yemək yeyəcəyik, sonra da sizə yataq hazırlayarlar.

Deyilən sözlərin mənası yalnız indi yolçunun şüuruna çatdı. Bu vaxta qədər sərt və qaşqabaqlı görünən üzündə qeyri-adi bir heyrət, şübhə və sevinc yarandı. O, sərsəri kimi mızıldamağa başladı:

– Doğrudanmı? Ola bilməz! Siz mənim burada qalmağıma icazə verirsiniz? Siz məni, katorqadan gələn adamı qovmayırsınız? Siz mənə "cənab" deyirsiniz? Siz mənə "sən" demirsiniz? Siz "rədd ol, köpək!" demirsiniz?.. Adamlar həmişə belə deyirlər. Mən sizin də məni qovacağınıza heç şübhə etmirdim. Axı mən kim olduğumu dərhal sizə söylədim. Mənə buranı göstərən mərhəmətli qadın sağ olsun. Mən bu saat yemək yeyəcəyəm! Başqa adamlar kimi mən də

döşəkli, mələfəli çarpayıda yatacağam! Çarpayı! On doqquz ildir ki, mən çarpayıda yatmamışam! Siz mənə burada qalmağa icazə verirsiniz! Siz, doğrudan da, ləyaqətli adamlarsınız! Onu da deyim ki, mənim pulum vardır. Mən sizə yaxşı pul verərəm. Bağışlayın, cənab meyxanaçı, sizin adınız nədir? Nə qədər pul lazım olsa, verərəm. Siz meyxanaçısınız, elə deyilmi?

Yepiskop:

– Mən keşişəm və bu evdə yaşayıram, – deyə cavab verdi.

Yolçu:

– Keşiş! – deyə təkrar etdi. – Ah, əcəb xeyirxah keşişsiniz! Deməli, siz məndən pul istəməyəcəksiniz? Siz keşişsiniz? Bu böyük kilsənin keşişi, eləmi? Doğrudan da, mən nə qədər axmağammış! Araqçınızı görmədim.

O, bu sözləri deyib çantasını və əsasını otağın küncünə, pasportunu isə cibinə qoydu və oturdu. Madmazel Batistina mərhəmətli nəzərlə ona baxırdı. O, sözünə davam edərək dedi:

– Cənab keşiş, siz çox rəhmli adamsınız, siz heç kəsdən iyrənmirsiniz. Yaxşı keşiş olmaq yaxşı şeydir. Demək, mənim pulum sizə lazım olmayacaqdır?

Yepiskop:

– Yox, – deyə cavab verdi, – pulunuzu özünüzə saxlayın. Nə qədər pulunuz var? Gərək ki, siz dediniz, yüz doqquz frank, eləmi?

Yolçu:

– Bir də on beş su, – deyə əlavə etdi.

– Yüz doqquz frank on beş su. Bu pulu qazanmaq üçün nə qədər vaxt sərf etmisiniz?

– On doqquz il.

Yepiskop dərindən ah çəkdi:

– On doqquz il!

Yolçu sözünə davam edərək dedi:

– Hələ ki, pulumun hamısı yerindədir. Dörd gündə ancaq Qrasda araba boşaltmaq üçün aldığım iyirmi beş sunu xərcləmişəm. Siz abbatsınız, odur ki mən sizə katorqadakı həbsxanada keşiş olduğunu demək istəyirəm. Bir dəfə də mən yepiskopu gördüm. Ona monsenyor deyirdilər. O, Marseldə mayork yepiskopu idi. Yepiskop bütün keşişlərin başçısıdır. Bağışlayın, mən yaxşı izah edə bilmərəm, ancaq bu ona görədir ki, belə şeylərdən çox başım çıxmır. Bir

təsəvvür edin – bizlər hara, o hara? O, həbsxana həyətində ibadət edirdi, orada taxt qurmuşdular, onun başında xalis qızıldan şişuclu bir şey vardı, günəşin şüaları altında par-par parıldayırdı. Biz üç tərəfdən cərgəyə düzülüb dayanmışdıq, fitilləri yandırılmış topların ağzını bizə tərəf çevirmişdilər. Biz onu yaxşı görmürdük. O nə isə danışırdı, lakin bizdən o qədər uzaq idi ki, heç bir şey eşitmirdik. Yepiskop belə olar.

Yepiskop onun sözünü kəsmədən ayağa durub, indiyədək taybatay açıq qalmış qapını örtdü.

Madam Maqluar içəri girdi və gətirdiyi qabları süfrənin üstünə qoydu. Yepiskop dedi:

– Madam Maqluar, o qabları mümkün qədər ocağa yaxın qoyun. – Sonra qonağına tərəf dönərək: – Alp dağlarında gecələr çox soyuq olur. Cənab, siz, yəqin, bərk üşümüşsünüz? – deyə əlavə etdi.

Yepiskop hər dəfə yolçuya müraciət edərək öz ciddi və nəvazişkar səsi ilə "cənab" deyəndə yolçunun üzü sevinclə işıqlanırdı. Katorqalıya "cənab" demək, "Meduza" gəmisi qərq olanda zərərçəkmiş adama bir stəkan su vermək kimi bir şeydir. Ləkələnmiş adamlar hörmət həsrətindədirlər.

Yepiskop:

– Bu lampanın işığı çox sönükdür, – dedi.

Madam Maqluar yepiskopun dediyini başa düşdü, yepiskopun yataq otağına gedib, buxarının üstündəki iki gümüş şamdanı götürdü, şamları yandırıb masanın üstünə qoydu.

Yolçu:

– Cənab keşiş, – dedi, – siz yaxşı adamsınız. Siz mənə nifrət etmədiniz. Siz mənə evinizdə yer verdiniz. Mənim üçün şam yandırdınız. Halbuki mən haradan gəldiyimi və cinayətkar olduğumu sizdən gizlətmədim.

Yanında oturmuş yepiskop yavaşca onun əlinə toxundu.

– Siz kim olduğunuzu mənə söyləməyə də bilərdiniz. Bu ev mənim deyil, Həzrət İsanın evidir. Bu qapıdan girən adamdan adı olub-olmadığını deyil, bir dərdi olub-olmadığını soruşurlar. Siz əzab çəkirsiniz, siz ac və susuzsunuz – xoş gəlmişsiniz. Mənə təşəkkür etməyin, deməyin ki, mən sizə evimdə yer vermişəm. Bu evin sahibi yalnız ehtiyacı olanlardır. Siz yoldan keçən olsanız da, mən sizə deyirəm, bu ev mənimki olmaqdan daha çox sizinkidir. Bu evdə nə varsa, hamısı sizindir. Belə olanda sizin adınızı bilmək mənim nəyimə

lazımdır? Həm də siz adınızı söyləməmişdən əvvəl, mən sizin başqa bir adınızı bilirdim.

Yolçu ona heyrətlə baxdı.

– Doğrudanmı? Siz mənim adımı bilirdiniz?

– Bəli, – deyə yepiskop cavab verdi, – sizin adınız "mənim qardaşım"dır.

– Bilirsinizmi nə var, cənab keşiş, – deyə yolçu səsləndi, – mən buraya gələrkən çox ac idim, lakin siz o qədər mərhəmətlisiniz ki, bu saat mən, bilmirəm nədəndir, ancaq... elə bil, heç ac deyiləm.

Yepiskop yolçunun üzünə baxaraq soruşdu:

– Çoxmu əzab çəkmişsiniz?

– Ah! O dustaq paltarı, ayaqlara zəncirlə vurulmuş kündə, yataq əvəzində quru taxta, isti, soyuq, iş, qalera[1], dəyənək zərbələri! Azacıq itaətsizlik üstündə ayaqlara vurulan ikiqat buxovlar! Bircə söz üçün karser! Hətta xəstə yatdığın zaman belə buxovlar açılmır. İtlər də bizdən xoşbəxtdir! On doqquz il! Mənim isə cəmi qırx altı yaşım var. Əlimə də sarı pasport vermişlər. Vəssalam.

Yepiskop:

– Bəli, – dedi. – Siz ələm yurdundan çıxmışsınız. Lakin qulaq asın. Peşman olmuş bir günahkarın göz yaşları göylərə yüz möminin pak paltarlarından daha artıq sevinc gətirir. Siz o ələm yurdunu qəlbinizdə insanlara qarşı kin və qəzəb hissi olduğu halda tərk etmişsiniz, acınmağa layiqsiniz, lakin siz oradan xeyirxahlıq, mərhəmət hissi ilə gəlmişsinizsə, o zaman siz bizim hamımızdan yaxşısınız.

Bunlar söhbət etməkdə ikən madam Maqluar axşam yeməyi gətirdi. Bu yemək zeytun yağı, çörək ovuntusu və duzla bişirilmiş şorbadan, bir qədər donuz piyindən, bir parça qoyun ətindən, bir neçə əncirdən və şordan ibarət idi. Süfrəyə bir böyük çovdar çörəyi də qoyuldu. Madam Maqluar yepiskopun həmişəki süfrəsinə bir şüşə köhnə şərab da əlavə etməyi unutmadı.

Dərhal yepiskopun üzündə qonaqcıl adamlara məxsus məmnuniyyət əlaməti göründü. O, şən bir halda:

– Buyurun süfrəyə, – dedi.

O, həmişə evdə kənar adam olduqda etdiyi kimi, qonağı sağ tərəfində oturtdu. Özünü çox sakit və təmkinli saxlayan madmuazel Batistina qardaşının sol tərəfində əyləşdi.

[1] *Qalera* – müqəssirlərə avar çəkdirməkdən ibarət icbari iş

Yepiskop dua oxudu, sonra adəti üzrə şorbanı özü payladı. Yolçu acgözlüklə yeməyə başladı.

Birdən yepiskop dedi:

– Deyəsən, süfrəmizdə bir şey çatışmır.

Doğrudan da, madam Maqluar süfrəyə yalnız lazım olan üç dəst çəngəl-bıçaq qoymuşdu. Halbuki bu evin qaydasına görə yepiskopun qonaqlarından biri axşam yeməyi üçün qaldığı zaman, altı dəst gümüş çəngəl-bıçağın hamısı süfrəyə qoyulmalı idi. Ziyansız bir lovğalıq! Bu cür sadəlövhcəsinə zinət iddiası bir uşaqlıq idi və yoxsulluğu ləyaqət hesab edən bu qonaqpərəst və eyni zamanda tələbkar ailədə bunun xüsusi bir cazibəsi vardı.

Madam Maqluar işarəni anladı, dinməzcə otaqdan çıxdı və bir dəqiqədən sonra oturanların qabağında simmetriya ilə düzülmüş gümüş çəngəl-bıçaq parıldadı.

Dördüncü fəsil

PONTARLYEDƏKİ PENDİRXANALAR HAQQINDA BƏZİ TƏFSİLAT

İndi isə bu süfrənin başında vaqe olan əhvalatı anlamaq üçün, madmazel Batistinanın madam Buaşevrona yazmış olduğu məktubun bəzi parçalarını burada qeyd etmək daha yaxşı olar. Bu məktubda katorqalı ilə yepiskop arasında olan bütün söhbət sadədil bir doğruluqla təsvir olunmuşdur:

"...Qonağımız heç kəsə əhəmiyyət vermirdi. O, çoxdan ac qalmış bir adam kimi böyük bir iştahla yeyirdi. Lakin yeyib qurtardıqdan sonra dedi:

– Cənab keşiş, Allah xadimi! Mənə görə bu masanın üstündəkilərin hamısı hətta həddindən artıq yaxşıdır, lakin etiraf etməliyəm ki, mənə özləri ilə bərabər yeməyə icazə verməyən arabaçılar sizdən çox-çox yaxşı yeyirlər.

Öz aramızdır, bu söz mənə bir qədər toxundu.

– Onların işi mənimkindən çoxdur, – deyə qardaşım cavab verdi.

– Yox, – deyə qonaq etiraz etdi. – Onların pulları çoxdur. Siz yoxsulsunuz, mən bunu yaxşı görürəm. Bəlkə, siz heç keşiş də

deyilsiniz? Siz, doğrudanmı, keşişsiniz? Allah, həqiqətən, adildirsə, siz, əlbəttə, keşiş olmalısınız.

– Allahın ədaləti hədsizdir, – deyə qardaşım cavab verdi və sonra soruşdu: – Cənab Jan Valjan, siz Pontarlyeyə gedirsiniz, deyilmi?

– Bəli, oraya getmək məcburiyyətindəyəm.

Gərək ki, bu adam məhz belə cavab verdi. Sonra sözünə davam edərək:

– Mən sabah gün çıxar-çıxmaz yola düşməliyəm, – dedi. – Piyada getmək adamı çox yorur. Gecələr soyuq, gündüzlər isə istidir.

Qardaşım dedi:

– Siz yaxşı yerlərə gedirsiniz. İnqilab vaxtı ailəmiz dağılmışdı, mən də əvvəlcə Franş-Kontedə sığınacaq tapdım və orada bir müddət əlimin əməyi ilə yaşadım. İşləməyə böyük həvəsim vardı. Odur ki, özümə iş tapdım. Orada iş çoxdur. Kağız fabrikləri, gön zavodları, şərab və yağ zavodları, böyük saat fabrikləri, polad və misəridən zavodlar, azı iyirmi dəmir istehsalı zavodu vardır: bunlardan dördü, yəni Lods, Şatilyon, Odenkur və Berdə olan zavodlar çox böyükdür...

Gərək ki, yanılmıram, qardaşım məhz bu yerlərin adını çəkdi. Sonra sözünü kəsərək, üzünü mənə çevirdi və dedi:

– Bacı, mənə elə gəlir ki, oralarda bizim qohumlarımız vardır.

– Bəli, var idi, – deyə mən cavab verdim. – Köhnə üsuli-idarə zamanı onlardan biri, cənab de Lüsene, Pontarlyedə şəhər keşikçi dəstəsinin rəisi idi.

– Bəli, belədir, – deyə qardaşım yenə danışmağa başladı, – ancaq doxsan üçüncü ildə bizim qohumlarımız qalmamışdı, yalnız öz əllərimiz vardı. Mən işləyirdim. Sizin gedəcəyiniz Pontarlyedə, cənab Jan Valjan, çox patriarxal və çox gözəl bir sənaye sahəsi vardır. Bacı, mən oradakı pendirxanaları nəzərdə tuturam.

Bu yerdə qardaşım həmin adamı yedirtməyi unutmayaraq, Pontarlyenin ictimai pendirhazırlama müəssisələri haqqında ətraflı izahat verirdi. O deyirdi ki, bunlar iki cür olur: varlıların qırx-əlli inək saxlanılan və ya yeddi mindən səkkiz min başa qədər pendir hazırlanan "böyük mərəkləri" və yoxsulların "pendir artelləri", burada dağ kəndliləri öz inəklərini birgə saxlayır və gəliri öz aralarında bölüşdürürlər. Onlar birlikdə pendirtutan tapırlar. Pendirtutan artel üzvlərindən gündə üç dəfə süd qəbul edir və miqdarını ağac üzərinə nişan

vurmaqla qeyd edir; pendirxanalar yalnız aprelin sonunda işə başlayır, iyunun ortalarında isə inəkləri dağlara otarmağa aparırlar.

Bu adam doyduqca özünə gəlirdi. Qardaşım hey onun üçün əla Möv şərabı tökürdü. Özü isə bu şərabı çox bahalı hesab edərək içmir. Qardaşım özünəməxsus təbii bir şənliklə bütün bu təfsilatı nağıl edir, ara-sıra nəvazişlə mənə müraciət edirdi. O, "pendirçilik" sənətini dönə-dönə tərifləyirdi: sanki, qonağımıza bu fikri təlqin etmək istəyirdi ki, bu məşğələ onun üçün münasib bir peşədir, lakin bunu doğrudan-doğruya və qaba bir şəkildə o adama məsləhət görmürdü. Mən bir şeyə heyrət etdim. Mən sizə dedim ki, bu adam kim idi. Qardaşım isə bütün yemək, hətta bütün axşam ərzində, yolçu içəri girdiyi zaman İsa haqqında söylədiyi bir neçə sözdən başqa, qonağın kim olduğuna, nəçi olduğuna, ya qardaşımın özünün kim olduğuna dair bir dəfə belə, bir sözlə də işarə etmədi. Halbuki bu görüş həmişəlik onun xatirində nəqş olunsun deyə, qardaşım bir yepiskop kimi balaca bir moizə deyə bilər və katorqalıya təsir edə bilərdi. Bəlkə də, qardaşımın yerinə başqası olsaydı, bu bədbəxtin öz evində olmasından istifadə edərək, onun qarnını doyuzdurmaqla bərabər onu məzəmmətləyər, əxlaq dərsinə və nəsihətə qulaq asmağa məcbur edər, gələcəkdə necə yaxşı həyat sürməyi öyrədərdi. Qardaşım isə onun haralı olduğunu, əvvəlcə necə həyat sürdüyünü belə soruşmadı. Axı onun cinayəti də həyatı ilə bağlı idi, qardaşım isə qonağına keçmişini xatırlada biləcək hər bir şeydən çəkinməyə çalışırdı. İş o yerə çatmışdı ki, dağlarda, lap buludların altında dinc əməklə məşğul olan və qardaşımın əlavə etdiyi kimi, "günahsız olduqları üçün xoşbəxt həyat sürən" Pontarlye əhalisi haqqında danışarkən belə, qardaşım, sanki, birdən-birə ağzından çıxan bu sözlərlə qonağı bilmədən təhqir edə biləcəyindən qorxub dərhal sözünü kəsdi. Bütün bunları yaxşıca fikirləşdikdən sonra mən, deyəsən, qardaşımın ürəyindən nələr keçdiyini başa düşdüm. Görünür, o düşünürdü ki, Jan Valjan deyilən bu adam öz biabırçılığı üzərində onsuz da həddindən artıq fikirləşir və onu bu fikirlərdən uzaqlaşdırmaq, onun da başqaları kimi bir adam olduğunu bir anlığa da olsa ona təlqin etmək üçün ən yaxşı üsul – onunla da bütün başqa adamlar kimi rəftar etməkdir. Həqiqi mərhəmət də elə bundan ibarət deyilmi? Mənim əzizim, sizin fikrinizcə, nəsihət və əxlaq dərslərindən, hər cür işarələrdən uzaq olan bu nəzakət İncildə

göstərilənlərə uyğun deyilmi və həqiqi mərhəmət əzab çəkən adamın yaralarına heç toxunmamaqdan ibarət deyilmi? Mənə elə gəlir ki, qardaşım da elə bu cür düşünürdü. Hər halda, mən yalnız bunu deyə bilərəm ki, o, belə düşünsə də, fikirlərini heç kəsə, hətta mənə də açıb söyləmədi, bütün axşamı o, həmişəki kimi idi və bu Jan Valjanla şam edərkən özünü elə aparırdı ki, guya, Tövrat həkəmi Gedeonla və ya bizim məhəllə keşişi ilə şam edir.

Yeməyin sonunda, biz əncir yeyəndə kim isə qapını döydü. Gələn Jerbo xala idi. O, qucağında uşaq içəri girdi. Qardaşım uşağın alnından öpdü və təsadüfən yanımda olan on beş sunu məndən alıb Jerbo xalaya verdi. Qonağımız bu zaman ətrafındakılara heç diqqət yetirmirdi. O daha danışmırdı və çox yorğun görünürdü. Yazıq Jerbo qarı getdikdən sonra qardaşım dua oxudu, sonra qonağa müraciətlə dedi: "İndi siz, yəqin, tezcə yatağa girmək istəyirsiniz, eləmi?" Madam Maqluar süfrəni yığmağa tələsdi. Yolçunun yatağa girməsi üçün bizim getməyimiz lazım olduğunu başa düşdüm və madam Maqluarla bərabər yuxarıya çıxdıq. Lakin bir az sonra mən otağımdakı keçi dərisini qonağın üstünə salmaq üçün madam Maqluarı aşağıya göndərdim. Burada gecələr çox soyuq olur, xəz isə adamı yaxşı isidir. Heyif ki, dəri köhnə idi, tükləri hey tökülürdü. Qardaşım onu Almaniyada olarkən Dunayın mənsəblərinə yaxın bir yerdən – Totlingendən almışdı, mənim süfrədə işlətdiyim, sapı fil sümüyündən olan kiçik bıçağı da oradan almışdır.

Madam Maqluar dərhal geri qayıtdı və hər ikimiz, adətən, camaşır sərdiyimiz otaqda ibadətə başladıq; sonra bir-birimizə heç bir şey demədən hər birimiz öz otağımıza çəkildik".

Beşinci fəsil

SAKİTLİK

Monsenyor Byenvenü bacısına "gecəniz xeyrə qalsın" dedikdən sonra, gümüş şamdanların birini masanın üstündən götürdü, o birini qonağına verdi və dedi:

– Cənab, gedək sizi otağınıza ötürüm.

Yolçu onun arxasınca getdi.

Yuxarıda dediklərimizdən məlum olduğu kimi, evdə otaqların quruluşu elə idi ki, çarpayı qoyulmuş ibadət otağına girmək və ya oradan çıxmaq üçün, hökmən yepiskopun yataq otağından keçmək lazım idi.

Onlar yataq otağından keçərkən madam Maqluar gümüş qabları yepiskopun çarpayısı üzərində asılı olan kiçik şkafa qoyurdu. Hər axşam yatmağa getməzdən əvvəl öz təsərrüfat işlərini bununla qurtarırdı.

Yepiskop qonağını pərdənin arxasındakı çarpayının yanına qədər ötürdü. Orada qonaq üçün təmiz yataq salınmışdı. Yolçu şamdanı kiçik masanın üstünə qoydu.

Yepiskop:

– Hələlik, gecəniz xeyrə qalsın, – dedi. – Səhər tezdən getməmişdən əvvəl inəklərimizin südündən isti-isti bir fincan içərsiniz. Yaxşı südümüz olur.

Yolçu:

– Çox sağ olun, cənab abbat, – dedi.

O, bu dinc sözləri söylədikdən sonra, birdən-birə gözlənilmədən onda qəribə bir dəyişiklik əmələ gəldi; möhtərəm qadınlar bu zaman burada olsa idilər, bundan dəhşətə gələrdilər. Həmin dəqiqə ona nə kimi bir hiss hakim olduğunu təsəvvürə gətirmək, hətta indi də, bizim üçün çətindir. Bu nə idi? Xəbərdarlıqmı, yoxsa təhdidmi? Yaxud o özü belə izah edə bilməyəcəyi sövq-təbii bir hissə tabe olurdu? O, sərt hərəkətlə üzünü qocaya doğru çevirdi, qollarını sinəsində çarpazladı və vəhşi bir nəzərlə ev sahibinə baxaraq, xırıltılı səslə qışqırdı:

– Bəs belə, demək, siz mənim evinizdə – bax burada, özünüzlə yanaşı yatmağıma imkan verirsiniz?

O susdu, sonra dodaqucu güldü, bu gülüşdə nə isə dəhşətli bir şey vardı.

– Siz nə etdiyinizi yaxşımı fikirləşmisiniz? Kim bilsin – bəlkə, mən vaxtilə adam da öldürmüşəm?

– Bunu yalnız Allah bilir, – deyə yepiskop cavab verdi. Sonra o, xaç çəkmək üçün bükülmüş barmaqlarını təntənə ilə yuxarı qaldırdı, dua oxuyurmuş kimi, yaxud öz-özünə danışırmış kimi dodaqlarını tərpədərək, yolçuya xeyir-dua verdi və geriyə belə baxmadan öz otağına girdi. Yolçu isə başını belə aşağı əymədi.

İbadət otağındakı çarpayıda bir adam yatan zaman, mehrab, divarın bir başından o biri başınadək çəkilmiş böyük pərdə ilə örtülərdi. Yepiskop bu pərdənin yanından ötərkən diz çökdü və qısa bir dua oxudu.

Bir dəqiqə sonra o, artıq bağda gəzişir və Tanrının gecələr oyaq olanların gözləri qarşısında açıb göstərdiyi böyük sirri bütün qəlbi və fikri ilə seyrə dalaraq düşünürdü.

Yolçuya gəlincə, o elə bərk yorulmuşdu ki, gözəl təmiz mələfələrə belə sevinmədi. Katorqalılar kimi burnunun bir deşiyini tutub o biri ilə üfləyərək, şamı söndürdü, paltarını soyunmadan uzandı və dərhal dərin yuxuya getdi.

Yepiskop bağdan öz yataq otağına qayıtdığı zaman gecəyarı idi. Bir neçə dəqiqə sonra kiçik evdə hamı yuxuya getmişdi.

Altıncı fəsil

JAN VALJAN

Gecəyarısı Jan Valjan oyandı.

Jan Valjan Bri əyalətində yoxsul bir kəndli ailəsində anadan olmuşdu. Uşaqlıqda savad öyrənməmişdi. Böyüdüyü zaman Faverolda ağac başı kəsməklə məşğul olurdu. Anasının adı Anna Matye, atasının isə Jan Valjan və ya Vlajan idi. Ehtimal ki, "Valjan" – *voila Jean*[1] sözlərinin ixtisar olunmasından əmələ gəlmiş ləqəb idi.

Jan Valjan xasiyyətcə dalğın idi, ancaq kədərli deyildi – bu, möhkəm ünsiyyət bağlayan adamlara xasdır. Ümumiyyətlə isə, Jan Valjan, hər halda, zahirən çox süst və əhəmiyyətsiz bir adama bənzəyirdi. Hələ lap uşaq ikən o, ata və anasını itirmişdi. Anası zahı yatarkən ona pis baxıldığından ölmüşdü. Atası da özü kimi ağac başı kəsməklə məşğul olduğundan, ağacdan yıxılaraq həlak olmuşdu. Jan Valjanın özündən böyük olan dul bacısından başqa heç kəsi qalmamışdı. Bacısının da yeddi uşağı vardı. Jan Valjanı da bu bacı böyütmüşdü. Nə qədər ki əri sağ idi, o, Jan Valjanı yedirib saxlayırdı. Əri öldü. Uşaqların ən böyüyü səkkiz yaşında, kiçiyi isə bir yaşında idi. Jan Valjanın o vaxt iyirmi dörd yaşı tamam olmuşdu. O, bu uşaqlara

[1] Budur Jan

ata oldu və onu bəsləmiş bacısına yardım etməyə başladı. Jan Valjan bunu düşünmədən, bir borc kimi, həm də gizli bir narazılıqla etdi. Beləliklə, onun gəncliyi ağır və ucuz əməyə həsr olundu. Həyatında nə vaxtsa rəfiqəsi olduğunu kimsə eşitməmişdi. Onun sevməyə vaxtı yox idi.

Axşamlar o, yorğun halda evə gəlib, dinməz-söyləməz şorbasını yeyərdi. Çox zaman o, yemək yeyərkən bacısı Janna onun qabından ən yaxşı ət parçasını, bir tikə quyruğu və ya kələm yarpağını çıxararaq, uşaqlarından birinə verərdi. O isə sanki, heç nə görmürmüş kimi, bacısına mane olmaz və süfrənin üzərinə əyilib çənəsini və burnunu az qala şorba qabına soxaraq, gözünün üstünə düşən və kasanın üzərində sallanan saçlarını yığışdırmadan yeməyinə davam edərdi. Faverolda Valjanın daxması yaxınlığında, dar küçənin o biri tərəfində Mari-Klod adında bir fermer qadın olurdu. Valjan ailəsinin, demək olar ki, həmişə ac olan uşaqları bəzən Mari-Klodun yanına qaçaraq, guya, analarının adından bir qab süd alar, bir hasarın altında və ya bir xiyabanın küncündə bir-birinin əlindən qapaqapa elə tələsik içərdilər ki, südün çoxunu ətəklərinə tökərdilər. Anaları onların bu kələklərini bilsəydi, müqəssirlərə şiddətli cəza verərdi. Kəskin sərt xasiyyətli Jan Valjan uşaqların içdiyi südün pulunu bacısından gizli olaraq fermer qadına verər və uşaqları cəzadan qurtarardı.

Ağackəsmə mövsümündə o, gündə on səkkiz su qazanardı, sonra isə biçinçilik edər, günəmuzd işləyər, fermada öküz otarar, fəhləlik eləyərdi. O, əlindən gələn hər işi görərdi. Bacısı da işləyərdi, ancaq yeddi uşağı yedirmək asan deyildi. Ehtiyac bu bədbəxt ailəni getdikcə daha artıq sıxırdı. Bir dəfə qış olduqca ağır keçdi. Jan Valjan işsiz idi. Ailəsi çörəksiz qaldı. Sözün tam mənası ilə. Yeddi uşaq çörəksiz qalmışdı.

Bir bazar axşamı Faverol meydanındakı çörəkxana sahibi Mober İzabo yatmağa hazırlaşırkən, dükanın qabağındakı dəmir şəbəkəli şüşə pəncərəyə nəyin isə bərk dəydiyini eşitdi. O, tez dükana girdikdə yumruqla sındırılmış şüşədən və deşilmiş şəbəkədən bir qolun içəri soxulduğunu gördü. Qol bir çörək götürüb yox oldu. İzabo dərhal küçəyə çıxdı, oğru var qüvvəsi ilə qaçırdı, İzabo oğrunun dalınca yüyürüb ona çatdı. Oğru çörəyi atmışdı, lakin əli qan içində idi. Bu, Jan Valjan idi.

Bu hadisə 1795-ci ildə baş vermişdi. Jan Valjan məhkəməyə verilərək "gecə vaxtı evi yarıb oğurluq etməkdə" ittiham olundu. Ondan bir tüfəng də tapdılar, o, gözəl atıcı idi və bəzən brakonyerlik edərdi. Brakonyerlərə qarşı tamamilə qanuni olan pis bir fikir var. Brakonyer də qaçaq mal gətirən kimi quldura yaxındır. Lakin ötəri qeyd etməliyik ki, bu cür adamlarla iyrənc şəhər qatilləri arasında böyük fərq vardır. Brakonyer meşədə yaşayır, qaçaqmalçı dağlarda, yaxud dənizdə. Şəhərlər qaniçən insanlar yaradır, çünki şəhər həyatı insanların əxlaqını pozur. Dağlar, dənizlər, meşələr isə vəhşi insanlar yaradır: onlar insanı sərtləşdirirsə də, çox zaman onun insanpərvərliyinə toxunmur.

Jan Valjan müqəssir hesab olundu. Qanun maddələrinin tamamilə müəyyən mənası vardır. Bizim dövrümüzdə qorxunc dəqiqələr olur: bu, həmin dəqiqələrdir ki, cəza sistemi insan həyatının sarsıldığını elan edir. Cəmiyyətin düşünən bir məxluqdan üz döndərdiyi, onu həmişəlik özündən rədd etdiyi bu an nə qədər məşumdur! Jan Valjan beş il katorqa cəzasına məhkum edildi.

1796-cı il aprelin 22-də, Parisdə italyan ordusu baş komandanının Montenote yaxınlığında çaldığı qələbə münasibətilə bayram edilirdi. Direktoriyanın Beşyüzlər Şurasına göndərdiyi IV il 2 floreal tarixli[1] məktubunda bu baş komandan Buona-Parte adlandırılmışdı. Həmin gün Bisetrdə bir böyük dəstə katorqalını buxovlayırdılar. Jan Valjan da bu dəstənin içində idi. Keçmiş həbsxana qapıçısı – indi onun doxsan yaşı vardır – həyətin şimal bucağında dördüncü zəncirin ucuna buxovlanmış bu biçarəni indi də yaxşı xatırlayır. O da hamı kimi yerdə oturmuşdu. Elə bil, o, öz vəziyyətini heç başa düşmürdü. Yalnız onun çox dəhşətli olduğunu dərk edirdi. Bəlkə də, bu yazıq, cahil adam taleyinin çox amansız olduğunu dumanlı bir şəkildə təsəvvür edirdi. Şiddətli çəkic zərbələri ilə dəmir xaltanı onun boynuna bənd etdikləri zaman o ağlayırdı, göz yaşları onu boğur, danışmağa qoymurdu. Yalnız ara-sıra: "Mən Faverolda ağac kəsirdim" – deyə bilirdi. Sonra yenə hönkürə-hönkürə sağ əlini yuxarı qaldırır və yeddi dəfə getdikcə daha aşağı salırdı, elə bil, yeddi uşağın başına toxunurdu. Onun bu hərəkətindən başa düşmək olurdu ki, onun cinayəti nədən ibarət olur olsun, yeddi körpəni yedirmək və geydirmək üçün edilmişdir.

O, Tulona göndərildi. Onu iyirmi yeddi günə boğazı zəncirli halda arabada oraya apardılar. Tulonda ona qırmızı dustaq köynəyi

[1] Fransa inqilabından sonra hesablanan yeni tarix

geydirdilər. Vaxtilə onun həyatını təşkil edən bütün keçmişi, hətta adı belə qeyb oldu. O artıq Jan Valjan deyildi: o, 24601-ci nömrə idi.

Bacısı necə oldu? Onun yeddi kiçik uşağı necə oldu? Kimə nə dəxli var! Cavan ağac kökündən kəsilərsə, üzərindəki bir ovuc yaşıl yarpaq necə olar?

Bu, köhnə macəradır. Öz arxasını, himayəkarını, yurdunu itirmiş olan bu bədbəxt biçarə canlı məxluqlar yalqız qalaraq dörd bir tərəfə – kim bilir, məhz haraya, bəlkə də, hərə öz yolu ilə dağılışıb getdi və tək qalmış biçarələri udan soyuq duman içərisində, bəşər övladının bu nəşəsiz yürüşündə bu qədər bədbəxtlərin yox olduğu kədərli zülmət içində dağılışıb yox oldular. Onlar öz ana yurdlarını buraxıb getdilər. Kənd kilsəsinin zəng qülləsi onları unutdu: öz əkin yerləri onları unutdu, bir neçə il katorqada qaldıqdan sonra Jan Valjan özü də onları unutdu. Onun yaralı qəlbində yalnız yara yeri qaldı. Vəssalam. Tulonda olduğu müddət ərzində ancaq bir dəfə bacısı haqqında məlumat aldı. Gərək ki, bu, həbs olunduğunun dördüncü ilinin sonunda idi. Doğrusu, bu məlumatı ona kim çatdırdığını bilmirəm. Onların ailəsini hələ kənddən tanıyan bir adam onun bacısına rast gəlmişdi. O, Parisdə idi. Sen-Sülpis yaxınlığında balaca və yoxsul Çörəkçilər küçəsində yaşayırdı. Yanında yalnız bir uşağı, ən kiçik oğlu qalmışdı. Bəs qalan altı uşaq harada idi? Yəqin, özü də bunu bilmirdi. Hər səhər Çəkməçilər küçəsində 3 nömrəli evdə olan mətbəəyə gedirdi, orada çap edilmiş vərəqləri bükməklə məşğul idi. İşə səhər saat altıda, qış vaxtı işıqlaşmağa hələ çox qalmış getmək lazım idi. Mətbəə olan evdə bir məktəb var idi. Yeddi yaşında olan kiçik uşağını o, bu məktəbə aparırdı. Lakin o özü mətbəəyə saat altıda gedirdi, məktəb isə saat yeddidə açılırdı, odur ki uşaq hər gün məktəbin qapısı açılana qədər bir saat həyətdə durmağa məcbur olurdu, qışda, qaranlıqda tam bir saat gözləməli olurdu. Onu mətbəəyə buraxmırdılar ki, işə mane olar. Fəhlələr işə gəlirkən hər gün bu yazıq uşağı qaranlıqda daşların üstündə büzüşüb kiçicik səbətinə söykənmiş halda mürgüləyən və ya çox zaman da yatmış görürdülər. Şiddətli yağış yağdığı zaman qapıçı qarının uşağa yazığı gələr, onu öz daxmasına aparardı, orada yalnız köhnə bir çarpayı, bir cəhrə və iki taxta stul var idi. Uşaq isinmək üçün pişiyi qucaqlayaraq bir küncdə yatardı. Saat yeddidə məktəb açılar, uşaq dərsə gedərdi. Jan Valjana verilən xəbər ancaq bundan ibarət idi. Bu xəbər birdən-birə

çaxan bir ildırım, qəflətən açılan pəncərə kimi, onun bir zaman sevdiyi bu adamların həyatını bir saniyəliyə görməyə imkan verdi, sonra yenə bağlandı, onlardan daha heç bir xəbər gəlmədi, o, onları heç bir zaman görmədi, onlara bir dəfə belə rast gəlmədi. Bu kədərli hekayəmizdə biz də onlardan bir daha bəhs etməyəcəyik.

Həmin dördüncü ilin sonunda Jan Valjanın katorqadan qaçmaq növbəsi çatdı. Bu nəşəsiz yerlərin adətinə görə, yoldaşları ona kömək etdilər. O qaçdı. İki gün düzlərdə azad dolaşdı, lakin təqib edilmək, hər saniyə dönüb geriyə baxmaq, cüzi xışıltıdan diksinmək, hər şeydən, bacadan çıxan tüstüdən, yoldan keçən adamdan, hürən itdən, çapan atdan, zəng qülləsindəki saatın səsindən qorxmaq: işıq olduğu üçün gündüzdən, qaranlıq olduğu üçün gecədən qorxmaq, yoldan, cığırdan, koldan, yatmaqdan qorxmaq – azadlıqdırmı? İkinci gün axşamçağı onu tutdular. Otuz altı saat o heç bir şey yeməmiş və yatmamışdı. Dəniz məhkəməsi bu hərəkəti üçün onun cəza müddətini üç il artırdı və bu surətdə cəzası səkkiz ilə çatdı. Altıncı il yenidən onun qaçmaq növbəsi gəldi, o, fürsətdən istifadə etdi, lakin qaça bilmədi. Dustaqlar yoxlandıqda, onu tapmadılar. Top atıldı və həmin gecə həbsxananı dolaşan qarovulçular onu axtararaq, tikilməkdə olan bir gəminin altında tapdılar: onu tutmaq istədikdə müqavimət göstərdi. Həm qaçmaq, həm də üsyan. Qanun məcəlləsinin xüsusi maddəsində nəzərdə tutulmuş bu cinayət cəza müddətinin beş il uzadılması ilə cəzalandırılır. Bunun da iki ilini Jan Valjan ikiqat qandal daşımalı idi. Oldu on üç il. Onuncu il yenə də onun qaçmaq növbəsi gəldi, o yenə bundan istifadə etdi. Yenə də müvəffəq olmadı. Bu eyni cəhd üçün işinin üstünə daha üç il əlavə olundu. Oldu on altı il. Nəhayət, gərək ki, on üçüncü ildə o, son dəfə qaçdı və dörd saatdan sonra tutuldu. Bu dörd saat yox olması üçün də üç il cəza aldı, oldu on doqquz il. 1815-ci ilin oktyabrında onu azad etdilər. Katorqaya isə 1796-cı ildə bir pəncərə sındırıb, bir çörək götürdüyü üçün göndərilmişdi.

Məsələdən bir az kənara çıxaq. Bu kitabın müəllifi, cinayət hüququ və qanun adına cəza vermək məsələlərini öyrənərkən ikinci dəfədir ki, insan taleyinin fəlakətə uğraması səbəbi kimi çörək oğurlamaq hadisəsinə rast gəlir. Klod Ge də çörək oğurlamışdı, Jan Valjan da. İngiltərə statistikası müəyyən etmişdir ki, Londonda beş oğurluqdan dördünə səbəb bilavasitə aclıq olmuşdur.

Jan Valjan katorqa həbsxanasına titrəyə-titrəyə və ağlaya-ağlaya girmişdi, oradan isə qəlbi daşa dönmüş halda çıxdı: katorqaya gedəndə ümidsizlikdən onun qəlbi parçalanırdı, çıxanda isə çox kədərli idi.

Bu adamın qəlbində nələr olmuşdu?

Yeddinci fəsil

ÜMİDSİZLİYİN DƏRİNLİYİ

Bunu izah etməyə çalışaq.

Cəmiyyət bu cür hadisələrə dərindən diqqət etməyə borcludur, çünki bunları özü yaradır.

Söylədiyimiz kimi, Jan Valjan cahil bir adam olsa da, ağılsız deyildi. Onda fitri bir zəka vardı. İnsanın gözünü bir növ açan bədbəxtlik isə onun qəlbindəki zəif odu alovlandırdı. Dəyənək zərbələri, qandallar, zəncirlər onu ayıltdı, qızğın günəşin altında, yorğun və taqətsiz bir halda həbsxananın quru taxtaları üzərinə uzanarkən o, öz vicdanını yoxladı və düşünməyə başladı.

O, özünü hakim elan etdi və hər kəsdən əvvəl özünü mühakimə etdi.

O, təqsırsız olmadığını və boş yerə cəzalandırılmadığın etiraf etdi: o başa düşdü ki, məzəmmətə layiq pis bir iş görmüşdür, çörəyi oğurlamaq deyil, istəmiş olsaydı, bəlkə də, ona verərdilər; hər halda, bu çörəyi bir sədəqə, yaxud iş muzdu olaraq ona vermələrini gözləsəydi, yaxşı olardı: "insan ac olduqda, gözləyə bilərmi?" sözlərinə etiraz etmək çətin deyildir: əvvəla, həqiqi mənada acından ölən insanlara çox az təsadüf edilir; ikincisi, xoşbəxtlikdənmi və ya bədbəxtlikdənmi, nədənsə, insan belə yaranmışdır ki, uzun müddət ölmədən istər cismani, istərsə də mənəvi əzab çəkə bilər: deməli, səbir etmək lazım idi, hətta onun yazıq balaca uşaqları üçün də belə yaxşı olardı: o aciz, əhəmiyyətsiz adam, axmaqcasına hərəkət etmiş, cəmiyyətin boğazından yapışaraq elə güman etmişdir ki, oğurluq etmək sayəsində yoxsulluqdan yaxa qurtarmaq olar; hər halda, insanı yoxsulluqdan şərəfsizliyə aparan yol yaxşı çıxış yolu deyildir. Bir sözlə, o, özünün müqəssir olduğunu etiraf etdi.

Sonra o, özünə belə bir sual verdi:

Bütün bu faciəli hadisədə müqəssir təkcə odurmu? Hər şeydən əvvəl, onun, fəhlənin işsiz qalması, onun kimi zəhmət sevən bir adamın bir parça çörəyə möhtac qalması mühüm bir məsələ deyilmi? Bundan başqa, öz cinayətini açıqcasına boynuna alan cinayətkar üçün bu cəza həddindən artıq ağır deyildimi? Ədalət məhkəməsi onu bu qədər şiddətli cəzalandırmaqla caninin özündən daha artıq cinayətə yol verməmişdirmi? Bütün bunlar mizan-tərəziyə qoyularsa, cəzanın qəbahətdən daha ağır olduğu meydana çıxmazmı? Cəzanın ağırlığı qəbahətin böyüklüyünü azaltmırmı? Cəza verənlərin cinayəti məhkum edilənin cinayətindən daha çox olmurmu? Müqəssir qurbana, borclu borc verənə çevrilmirmi? Haqq bu haqqı pozanın tərəfində durmurmu? Nəhayət, bir neçə dəfə qaçmaqla daha da ağırlaşmış cəza qüvvətlinin zəifə təcavüz etməsi, cəmiyyətin şəxsiyyətə qarşı cinayəti – hər gün təkrar olunan və on doqquz il davam edən bir cinayət deyilmi?

O, özünə belə bir sual verdi: bəşər cəmiyyətinin öz üzvlərinə qarşı bir tərəfdən axmaq qayğısızlıq, digər tərəfdən amansız bir ehtiyatkarlıq göstərərək, bədbəxt insanı ehtiyac və ifrat arasında – iş azlığı ilə cəzanın böyüklüyü arasında məngənəyə qoyub əzməyə haqqı varmı?

O, öz-özünə belə bir sual verdi: cəmiyyətin, həyat nemətlərini bölüşdürən təsadüf üzündən hamıdan pis qismət sahibi olan və bunun üçün də başqalarına nisbətən daha çox güzəştə layiq olan üzvlərinə qarşı bu cür münasibət bəsləməsi dəhşət deyilmi?

O, bütün bu məsələləri həll etdikdən sonra cəmiyyəti mühakimə etdi və hökm çıxartdı.

O, cəmiyyəti öz nifrətinə məhkum etdi.

O, taleyinin məsuliyyətini cəmiyyətin üzərinə qoyub, öz-özünə dedi: bəlkə, bir gün gələcək ki, o, bunun üçün cəmiyyətlə haqq-hesab çəkməyə cürət edəcəkdir. O, öz-özünə dedi ki, onun vurduğu ziyanla ona vurulmuş ziyan arasında heç bir müvazinət yoxdur: nəhayət, o, belə bir nəticəyə gəldi ki, ona verilən cəza, qanunsuz olmasa da, hər halda, ədalətli də deyildir.

İnsan düşünmədən və ətrafına nəzər salmadan qeyzlənə bilər, səbəbsiz özündən çıxa bilər, lakin qəzəb həmişə daxilən əsaslandırılmış olur. Jan Valjanın qəlbi qəzəblə dolu idi.

Həm də bəşər cəmiyyəti ona yalnız pislik etmişdi. Cəmiyyət ona ancaq "ədalət" dediyi və yalnız zərbə vurmaq istədiyi adamlara

göstərdiyi üzünü çevirmişdi. İnsanlar həmişə yalnız əzab vermək üçün ona yaxınlaşırdılar. Hər dəfə insanlara yaxın olmaq onun üçün yeni bir zərbə almaq deməkdi. Uşaqlıq çağlarından, anasından, bacısından ayrıldıqdan sonra o, bir dəfə də olsa şirin söz eşitməmiş, mehriban bir nəzər görməmişdi. O, əzabdan-əzaba düşərək, tədricən bu nəticəyə gəlmişdi ki, həyat müharibədir və bu müharibədə o, məğlub edilənlər sırasındadır. Onun yeganə silahı kin idi. O, bu silahı katorqada itiləməyi, azadlıq günü uçun gəldiyi zaman onu özü ilə bərabər aparmağı qət etdi.

Tulonda katorqalılar üçün bir məktəb vardı. Bu məktəbi inyorantlı rahiblər açmışdılar. Həvəsi olan bədbəxtlərə bu məktəbdə ən zəruri şeyləri öyrədirdilər. Jan Valjan da bu həvəskarlar sırasında idi. O, qırx yaşında məktəbə girdi, oxumaq, yazmaq və hesab öyrəndi. Ağıllandıqca kin və nifrətinin də artdığını hiss edirdi. Bəzən maarif və bilik yalnız şərin qüdrətini artırır.

Bu barədə danışmaq çox kədərli olsa da, etiraf etməliyik ki, Jan Valjan bədbəxtliyinə səbəb olan cəmiyyəti mühakimə etdikdən sonra, bu cəmiyyəti yaratmış olan Tanrını da mühakimə etdi və onun da barəsində hökm çıxartdı.

Beləliklə, on doqquz il əzab və köləlik həyatı keçirdikdən sonra bu adam həm yüksəldi, həm də alçaldı. Onun qəlbinə bir tərəfdən nur yağdı, o biri tərəfdən də zülmət çökdü.

Gördüyümüz kimi, Jan Valjan təbiətən pis adam deyildi. Katorqaya düşdüyü zaman o hələ rəhmli idi. Məhz katorqada o, cəmiyyəti müqəssir etdi və ürəyinin kinlə dolduğunu hiss etdi: məhz katorqada Tanrını təqsırləndirdikdən sonra, allahsız olmağa başladığını hiss etdi.

Burada biz bir dəqiqə fikirləşməyə bilməyəcəyik.

İnsan təbiəti kökündən, yerli-dibli dəyişilə bilərmi? Allahın rəhmli yaratdığı bir insan, başqa bir insanın təqsiri üzündən kinli ola bilərmi? İnsanın taleyi acı olmuşsa, onun qəlbi taleyin təsiri altında tamamilə dəyişilib kinli ola bilərmi? Tavanı həddindən artıq alçaq olan daxmada onurğa əyildiyi kimi, ürək də hədsiz qəmqüssənin ağırlığı altında dəyişərək, əlacı olmayan xəstəliyə tutula bilərmi, pis və eybəcər ola bilərmi? Bəlkə də, hər bir insanın qəlbində, xüsusən, Jan Valjanın qəlbində, bu dünyada sarsılmayan, o dünyada isə sönməyən yaxşılığın təsiri altında alovlanıb parlaq bir işığa

çevrilən, pisliyin isə qətiyyən söndürə bilmədiyi əzəli bir qığılcım vardır ki, bunun əsası Allah tərəfindən qoyulmuşdur?

Bunlar mühüm və öyrənilməmiş suallardır, belə ki, hər hansı bir fizioloq Jan Valjanı Tulonda, istirahət saatlarında, zəncirin ucunu sürünməsin deyə, çiyninə qoyaraq, qollarını çarpazlayıb qaşqabaqlı, ciddi, dinməz, dalğın halda gəminin çarxı üstündə oturan görsəydi, son suala "yox" cavabını verərdi. Qanunun kölgəsi olan, mədəniyyətdən kənara atılmış bu katorqalı düşüncə saatlarında insanlara qəzəblə baxar, göyləri hiddətlə seyr edərdi.

Bəli, bu şübhəsizdir, biz də qətiyyən gizlətmək istəmirik ki, bunu müşahidə edən fizioloq burada əlacsız bir xəstəliyin olduğunu söylərdi: o, bəlkə də, qanunun mərhəməti sayəsində şikəst edilmiş olan bu adama acıyardı, lakin onu müalicə etməkdən çəkinərdi, o, bu qəlbin içindəki uçurumları görməmək üçün üzünü yana çevirər və Dantenin cəhənnəm qapılarından sildiyi, Tanrının isə hər bir insanın alnında yazdığı "ümid" sözünü bu adamın üzərindən silərdi.

Jan Valjan özü təhlil etməyə çalışdığımız ruhi vəziyyətini bizim izahatımızdan sonra, bu kitabın oxucusunun təsəvvür etdiyi kimi aydın başa düşürdümü? Onun mənəvi xəstəliyini təşkil edən ünsürlər əmələ gəldikcə və müəyyən şəkil aldıqca, Jan Valjan özü bunları tamamilə aydın görə bilirdimi? Bu yonulmamış və savadsız adam, addım-addım onu gah yüksəldən, gah da uzun illərdən bəri onun həyat haqqındakı görüş dairəsini təşkil edən qorxunc təsəvvürlərə qədər endirən fikirlərin ardıcıl surətdə dəyişildiyini dürüst başa düşə bilərdimi? O, qəlbində nələr baş verdiyini, hansı hisslərin oyandığını dərk edirdimi? Biz bunu qəti söyləyə bilmərik. Hətta buna inanmırıq da. Jan Valjan çox cahil idi, hətta başına bu qədər bəlalar gəldikdən sonra öz daxilində olan bir çox şeylər onun üçün aydın deyildi. Bəzən o, öz hisslərindən çətinliklə baş çıxarırdı. Jan Valjan zülmət içində yaşayır, zülmət içində əzab çəkir, zülmət içində nifrət edirdi; demək olar ki, qabaqcadan hər kəsə və hər şeyə nifrət edirdi. O, bu zülmət içində dolaşaraq, korlar və ya xəyalpərəstlər kimi gözübağlı özünə yol axtarırdı. Lakin ara-sıra, daxili və xarici səbəblərin təsiri altında onun qəlbinə qəzəb hakim olur, əzab onu sıxırdı, zəif bir işığın ani parıltısı şimşək kimi birdən onun qəlbini işıqlandırır və bu işığın məşum parıltısında gələcəyin dəhşətli uçurumları və qaranlıq mənzərələri qəflətən üzə çıxıb onu hər tərəfdən əhatə edirdi.

Lakin şimşək sönür və yenə qaranlıq çökürdü. Bu nə idi? O özü də bunun nə olduğunu artıq xatırlamırdı.

Amansızlığın, yəni insanın ağlını kütləşdirən bir şeyin üstün gəldiyi bu cür cəzaların xüsusiyyəti ondan ibarətdir ki, onlar insanı mənasız surətdə dəyişdirərək, yavaş-yavaş vəhşi, bəzən də yırtıcı heyvana döndərir. Jan Valjanın daim inadla qaçmağa təşəbbüs etməsi özü qanunun insan qəlbinə nə qədər qəribə təsir etdiyini aydınca göstərir. Jan Valjan bu qədər faydasız və ağılsız olan bu təşəbbüsləri fürsət düşdükcə davam etdirməyə hazır idi və qaçmağın nə kimi nəticə verəcəyi üzərində bir an belə düşünmürdü. O, birdən-birə qəfəsinin açıq olduğunu görən bir canavar kimi sürətlə qaçırdı. Sövq-təbii ona "Qaç!" deyirdi. Ağıl isə "Qal!" deyə bilərdi. Lakin bu qədər şiddətli sınaq qarşısında ağıl susur, yalnız sövq-təbii hökm edirdi, yalnız vəhşi heyvan iş görürdü. Tutulduqdan sonra verilən yeni cəzalar onun daha da vəhşiləşməsinə səbəb olurdu.

Bunu da unutmamalıyıq ki, Jan Valjan çox böyük fiziki qüvvəyə malik idi: katorqada olanlar içərisində belə qüvvətli bir adam yox idi. Ağır dəmir kanatı çəkməkdə, yaxud gəminin çarxını döndərməkdə Jan Valjan dörd nəfəri əvəz edirdi. O, bəzən çox ağır şeyləri çiynində qaldırıb saxlaya bilir və yeri gəldikdə, indi "domkrat", keçmişdə isə "orgueil" adlanan aləti əvəz edirdi. Ötəri qeyd edək ki, Paris bazarlarının yaxınlığında olan Montorgeyl küçəsinin adı da bu sözdən əmələ gəlmişdir. Yoldaşları ona Domkrat Jan ləqəbi vermişdilər. Bir gün, Tulon şəhər idarəsinin balkonu təmir edilərkən, bu balkonu saxlayan gözəl Püje sütunlarından biri divardan ayrılıb, az qala, düşəcəkdi. Təsadüfən burada olan Jan Valjan çiynini bu sütuna vermiş və fəhlələr gəlib yetişənə qədər saxlamışdı.

Qüvvəti nə qədər çox idisə, çevikliyi ondan da çox idi. Daim qaçmaq arzusunda olan bəzi katorqalılar, ən nəhayət, çevikliyi qüvvə ilə birləşdirmək qabiliyyətindən xüsusi bir elm yaradırlar. Bu elm əzələləri idarə etmək elmidir. Bu, dustaqların, yəni daim həşərata və quşlara qibtə edən insanların hər gün təkmilləşdirdiyi gizli bir müvazinət ustalığıdır. Düz divara dırmaşmaq və divarın güclə görünən xırdaca bir çıxıntısında istinad nöqtəsi tapmaq Jan Valjan üçün uşaq oyunu kimi bir şey idi. O, kürək və ayaq əzələlərini gərginləşdirərək divarın bir bucağından yapışıb dirsəklərini və dabanlarını daşın kələ-kötür yerləri ilə sıxır və bir sehrbaz kimi dördüncü

mərtəbəyə dırmaşırdı. Bəzən bu üsulla həbsxananın damına belə çıxardı.

Jan Valjan az danışırdı. O heç zaman gülməzdi. İldə bir, ya iki dəfə çox şiddətli mənəvi bir sarsıntı nəticəsində o, iblis qəhqəhəsinin əks-sədası kimi səslənən katorqalı qəhqəhəsi ilə – məşum bir qəhqəhə ilə gülərdi. Görünüşü daim dəhşətli bir şeyi seyr etməklə məşğul olan adamı xatırladardı.

Doğrudan da, o, daim öz fikirlərinə aludə idi.

Naqis bir şüurun xəstə təəssüratı pərdəsi arasından o, başı üzərində qorxunc bir qüvvənin hakim olduğunu dumanlı surətdə hiss edirdi. İçində süründüyü tutqun və cansıxıcı alaqaranlıqdan gözlərini ayırıb ətrafa baxmaq istədikdə, o hər dəfə hiddət və dəhşət içində başının üzərində gözlərinin görə bilmədiyi yüksəkliklərə doğru bir çox şeylərin – qanunların, batil etiqadların, insanların və hadisələrin dəhşətli bir yığın kimi, pillə-pillə çıxdığını görürdü: cizgilərini sezə bilmədiyi bu yığınlar öz ağırlığı ilə onu əzərək, qəlbini ümidsizliklə doldururdu, gözləri qarşısında bizim mədəniyyət adlandırdığımız nəhəng bir ehramı görürdü.

Daim hərəkətdə olan biçimsiz yığın içində birdən-birə o, gah lap öz yanında, gah da uzaqlarda, əlçatmaz yüksəkliklərdə parlaq işıqlanmış bir dəstə, ya tək bir adam əli dəyənəkli bir həbsxana nəzarətçisi, qılınclı bir jandarm, yaxud başı mitralı bir arxiyepiskop, ən yüksək bir nöqtədə isə günəş haləsi ilə əhatə olunmuş, gözqamaşdırıcı, parlaq tac qoymuş imperatorun özünü görürdü. Ona elə gəlirdi ki, bu uzaq parıltı onu əhatə edən gecənin qaranlığını daha da qatılaşdırır, onu daha da dəhşətli edirdi.

Bütün bunlar – qanunlar, batil etiqadlar, hadisələr, insanlar, şeylər Tanrının mədəniyyətə verdiyi mürəkkəb və gizli əmrə tabe olaraq, onun başı üzərində fırlanır, sarsılmaz bir amansızlıq və amansız bir laqeydliklə onu əzir və məhv edirdi. İnsanların düşə biləcəyi fəlakətli uçurumun ən dərin yerinə düşmüş, heç kəsin baxmağa cəsarət etmədiyi uçurumlarda sürünən zavallı insanlar, qanunun rədd etdiyi biçarələr qanun xaricində olanlar üçün bu qədər qorxunc və altında olanlar üçün bu qədər dəhşətli olan bəşər cəmiyyətinin bütün ağırlığını öz üzərlərində hiss edirlər.

Fikirlərə dalmış Jan Valjan həmin vəziyyətdə idi. Onun fikirlərinin mahiyyəti nədən ibarət idi?

Dəyirman daşı altına düşmüş bir darı dənəsi düşünməyə qadir olsaydı, o da, ehtimal, Jan Valjan kimi düşünərdi.

Nəticə etibarilə xəyallarla dolu olan bu varlıq, real həyat surətləri ilə dolu olan bu fantasmaqoriya onda sözlə ifadə edilməsi mümkün olmayan xüsusi mənəvi bir vəziyyət doğurmuşdu.

Bəzən ağır, əzablı işin qızğın vaxtında o, birdən-birə dayanar, düşünməyə başlardı. Əvvəlkinə nisbətən daha çox yetişmiş, lakin eyni zamanda, daha çox həyəcanlı olan zehni üsyan edərdi. Başına gələn hadisələrin hamısı ona mənasız görünürdü. Ətrafındakı hər bir şey həqiqətdən uzaq bir təsir bağışlayırdı. O, öz-özünə: "Bu yuxudur!" – deyərdi. Bir neçə addımlıqda dayanmış olan nəzarətçiyə baxardı: nəzarətçi onun gözlərinə bir kabus kimi görünərdi və birdən bu kabus onun başına bir dəyənək endirərdi.

Zahiri aləm onun üçün yox kimi idi. Demək olar ki, Jan Valjan üçün nə günəş, nə gözəl yay günləri, nə parlaq və aydın göy, nə sərin aprel axşamları – heç bir şey yox idi. İşıq onun qəlbinə, sanki, dar bir yerdən daxil olurdu.

Yuxarıda söylədiyimizə yekun vurmaq üçün əgər buradan müsbət bir nəticə çıxarmaq mümkün olsaydı, bunu deməliyik ki, Faverolda yazıq bir ağackəsən olan Jan Valjan, qorxunc bir Tulon katorqalısı olan Jan Valjan, katorqa həbsxanasının ona verdiyi tərbiyə sayəsində artıq iki cür cinayət işləmək iqtidarı əldə etdi: əvvələn, birdən-birə, heç düşünmədən, sövq-təbii çəkdiyi əzablar üçün intiqam olaraq etdiyi pis əməllər, ikincisi, başına gələn müsibətlərin doğurduğu yanlış anlayışlara əsaslanan ciddi, əhəmiyyətli, qabaqcadan düşünülmüş cinayətlər... Əməllərindən qabaq başına gələn fikirlər yalnız müəyyən xasiyyətə malik olan insanlarda olduğu kimi, üç əsas ardıcıl mərhələdən keçirdi: ağıl, iradə, inad. Daimi bir etiraz hissi, qəlbinin iztirabları, çəkdiyi haqsızlıqları dərin bir surətdə düşünüb anlaması, yaxşı, günahsız, pis adamlara qarşı – əgər belə adamlar varsa – hiddət və qəzəb hissi onun hərəkətlərini idarə edirdi. Fikirlərinin son və çıxış nöqtəsi insan qanunlarına qarşı bəslədiyi kin və nifrət idi, elə bir kin ki, hələ əvvəlindən qurtuluş gətirən bir təsadüflə dayandırılmazsa, zaman keçdikcə cəmiyyətə qarşı, sonra isə bəşər nəslinə qarşı, ən axırda bütün varlığa qarşı çevrilərək, hər kəsə, hər bir canlı cismə zərər vermək üçün yaşayan tutqun, daimi və heyvani bir arzu halını alır. Gördüyümüz kimi, Jan Valjanın pasportu

üzərində çox təhlükəli adam olması haqqındakı qeyd heç də əsassız deyildi.

İllər keçdikcə onun qəlbi yavaş-yavaş arasıkəsilmədən sərtləşirdi. Sərtləşmiş, bərk qəlb isə göz yaşı tanımaz. Jan Valjan katorqadan xilas olduğu vaxta kimi, tam on doqquz ildən bəri idi ki, bir damcı göz yaşı axıtmamışdı.

Səkkizinci fəsil

DƏNİZ VƏ ZÜLMƏT

Dənizə insan düşmüşdür!

Nə olsun ki! Gəmi dayanmır. Külək şiddətlə əsir. Bu məşum gəminin öz yolu vardır, o, yoluna davam etməlidir. Gəmi irəliləyir.

İnsan suların altında yox olur və yenə görünür, gah batır, gah çıxır, əllərini uzadaraq köməyə çağırır. Lakin onun səsini eşidən yoxdur. Fırtına gəmini sarsıdır, lakin gəmi yoluna davam edir. Matroslar və sərnişinlər suda boğulan adamı daha görmürlər: bədbəxtin başı ucsuz-bucaqsız dalğalarda bir nöqtəyə bənzəyir.

Onun dəhşətli bağırtıları dənizin gurultusunda qeyb olur. Gözdən itməkdə olan bu yelkən boğulan adama nə qədər dəhşətli görünür! O, sərsəm, çılğın baxışlarla bu yelkənə baxır. Yelkən uzaqlaşır, solur, kiçilir. Bu adam bir neçə dəqiqə bundan əvvəl gəmidə idi, gəmi heyətinin üzvü idi, o da gəminin göyərtəsində başqaları ilə birlikdə gəzirdi, onun da hava və günəş payı vardı, o da başqaları kimi yaşayırdı. Görəsən, ona nə oldu? O sürüşüb yıxıldı – hər şey bitdi.

O, dəhşətli dəniz dalğalarının qoynundadır. Onun ayaqları altında hər şey axıb gedir, hər şey dağılır. Küləyin didib parçaladığı dalğalar onu qorxunc ağuşuna alır, burulğan onu dənizin diblərinə çəkir, köpüklü dalğalar başının üstündən aşır, azğın sular üzünə tüpürür, gözə görünməyən uçurumlar onu udmağa çalışır; hər dəfə suyun içinə batdıqda gözlərinə qaranlıq uçurumlar görünür; iyrənc məchul bitkilər ondan yapışıb, ayaqlarına dolaşır, özlərinə tərəf çəkir: o, özünün də bu girdablara qarışdığını, dəniz köpüyünün bir hissəciyinə çevrildiyini hiss edir. Dalğalar onu bir-birinə tərəf tullayır, o, dalğaların acılığını udur, qəddar okean onu qəzəblə qərq edir;

ucsuz-bucaqsız dəniz onun can çəkişməsindən həzz alır. Sanki, bütün bu sular, dalğalar nifrət və kin mücəssəməsidir.

Lakin o, yenə də mübarizə edir.

O, müqavimət göstərməyə, suyun üzündə dayanmağa çalışır, son gücünü toplayaraq üzür. O – heç dərəcəsində olan, tez qüvvədən düşən bir məxluq, qüvvəsi tükənməzlə vuruşur.

Bəs gəmi necə oldu? O uzaqdadır. Qaranlıq üfüqlərdə güclə görünür.

Boğulan adama hər tərəfdən fırtınalar hücum edir, dənizin köpüyü onu boğur. O, başını qaldıraraq gözləri qarşısında yalnız qara buludlar görür. Ölərkən o, dənizin təsvirəgəlməz quduzluğunun şahidi olur. O özü bu dəliliyin qurbanıdır. O, insanlara yad olan, gərək ki, o dünyadan gələn səslər eşidir.

İnsan müsibətlərinin üzərində uçan mələklər kimi, buludlarda quşlar süzür, lakin bunlar ona nə ilə kömək edə bilərlər? Quşlar uçur, oxuyur, göydə süzür. O isə əzabla can verir.

O, özünün iki nəhayətsizlik, yəni okean və göy arasında dəfn edildiyini hiss edir, okean – onun məzarı, göy isə kəfənidir.

Gecə çökür. Bir neçə saatdır ki, o, dalğalar arasında üzür, artıq lap taqətdən düşür: içində adamlar olan gəmi, o uzaq mayak gözdən itmişdir. O, bu dibsiz, qorxunc uçurumun içində lap yalqız qalmışdır: o boğulur, çırpınır, suyun altında gözə görünməyən formasız əjdahaların tərpəndiyini hiss edir; o, köməyə çağırır.

İnsanlar artıq görünmür. Bəs Tanrı hanı?

O, "Xilas edin! Xilas edin!" – deyə hey çağırır.

Heç bir şey görünmür. Göydə heç bir şey yoxdur.

O, fəzalara, dalğalara, yosunlara, qayalara müraciət edir – onlar eşitmir. O, fırtınaya yalvarır, lakin etinasız fırtına yalnız əbədiyyətə itaət edir.

Onu qaranlıq, duman, yalqızlıq, mənasız və gurultulu bir coşqunluq, azğın suların dalğaları əhatə edir. Onun özündə dəhşət və yorğunluq, altında isə girdabdan başqa bir şey yoxdur. Heç bir istinad nöqtəsi tapılmır. O, hədsiz zülmət içində meyitinin ələmlə dolaşdığını təsəvvürünə gətirir. Şiddətli soyuq onun bədənini hərəkətdən salır. Əlləri əsəbi bir halda boşluqdan yapışır. Küləklər, buludlar, faydasız ulduzlar! Nə etməli? Ümidini itirmiş adam özünü taleyin ixtiyarına verir: yorulmuş adam ölməyi qərara alır, o daha çarpışmır,

müqavimət göstərmir, dalğalara təslim olur; budur, okeanın qaranlıq dərinlikləri onu həmişəlik udur, o yox olur.

Ah, bəşər cəmiyyətinin amansız gedişi! Bu gediş yol üzərində duran nə qədər adamı, nə qədər insan qəlbini məhv edir! Qanunun tulladığı hər şeyi udan okean! Heç kəsdən yardım yoxdur! Ah, mənəvi ölüm!

Dəniz – amansız ictimai bir gecədir, cəzaverənlər məhkumedilənləri bu dənizdə qərq edir. Dəniz – hədsiz bir iztirabdır. Bu uçuruma düşən insan meyit ola bilər. Onu kim dirildəcəkdir?

Doqquzuncu fəsil

YENİ DƏRDLƏR

Həbsxananı tərk etmək vaxtı çatanda, "Sən azadsan!" sözləri Jan Valjanın qulaqlarında səslənəndə görünməmiş, eşidilməmiş bir şey oldu; onun qəlbini birdən-birə canlılar dünyasından gələn həqiqi işıq şüası bürüdü. Lakin bu şüa tez söndü.

Azadlıq fikri Jan Valjanın gözlərini qamaşdırdı. O, yeni həyat başlanacağına inandı. Lakin sarı pasport almış adam üçün azadlıq nə olduğunu çox tez başa düşdü.

O, bir çox acı dəqiqələr keçirdi. O hesablamışdı ki, katorqada olduğu müddətdə yüz yetmiş bir frank qazanmalı idi. Doğrudur, o, öz haqq-hesabında unutmuşdu ki, bazar və bayram günləri on doqquz il ərzində onun kapitalını, təxminən, iyirmi dörd frank azaltmışdır. Hər halda, ora-bura çıxmaq nəticəsində onun qazancı yüz doqquz frank on beş suya çatdırıldı və bu məbləğ dustaqxanadan çıxanda ona verildi.

Jan Valjan bu hesablardan heç bir şey anlamadı və özünü aldadılmış, sadəcə desək, qarət edilmiş hesab etdi.

Azad olduğu günün sabahı Qrass şəhərindən keçərkən, araq zavodunun qapıları qarşısında araba boşaldan adamları gördü. İşləmək istədiyini bildirdi. İş təcili olduğundan, onu qəbul etdilər. O, işə girişdi. O düşüncəli, qüvvətli və çevik bir adam idi: var qüvvəsi ilə çalışırdı: iş sahibi, görünür, ondan razı idi. İşlədiyi zaman yoldan keçən bir jandarm onu görüb, pasportunu soruşdu. Sarı pasportu

göstərməyə məcbur oldu. Sonra Jan Valjan yenə işləməyə başladı. Bir az bundan qabaq fəhlələrdən birinə müraciət edərək, onların gündə nə qədər aldıqlarını soruşmuşdu. "Otuz su" deyə fəhlə cavab vermişdi. Jan Valjan sabah tezdən yola düşməli olduğundan axşam zavod sahibinin yanına gələrək haqqını verməsini xahiş etdi. Sahibkar heç bir söz demədən ona on beş su pul verdi. Jan Valjan etiraz etdi. "Sənin üçün bu da bəsdir!" – dedilər. Yenə israr etdi. Sahibkar düz onun gözünün içinə baxaraq dedi: "Gözlə ki, yenidən ayaqlarına kündə vurulmasın!"

Jan Valjan özünü qarət edilmiş hesab edirdi.

Cəmiyyət, dövlət onun haqqını azaldaraq, onu bütöv soymuşdu. İndi də onu xırda-xırda soyan ayrı-ayrı şəxslərin növbəsi çatmışdı.

Azad olmaq hələ azadlıq əldə etmək demək deyildir. Dustaqxanadan çıxmaq hələ mühakimədən yaxa qurtarmaq demək deyildir.

Qrassda Jan Valjanın başına belə bir əhvalat gəldi. Dində isə necə qəbul edilmiş olduğunu bilirik.

Onuncu fəsil

ADAM YUXUDAN OYANDI

Gecə yarısından sonra, böyük kilsənin saatı ikini çalanda Jan Valjan oyandı.

Onun oyanmasına səbəb yatağın son dərəcə yumşaq olması idi. İyirmi il olardı ki, o, yataqda yatmamışdı və soyunmadan yatmış olduğuna baxmayaraq, bu rahatlıq hissi onun üçün o qədər yeni idi ki, yuxusu qaçmışdı.

O, dörd saatdan çox yatmışdı. Yorğunluğu getmişdi. O, çox istirahət etməyə adət etməmişdi.

Gözlərini açıb bir dəqiqəyə qədər ətrafdakı qaranlığa baxdı, sonra yenə yatmağa çalışaraq gözlərini yumdu.

İnsan gündüz çoxlu təəssürat aldıqda və beyni bir çox məsələlərlə məşğul olduqda axşamdan asanlıqla yatır, ancaq gecə oyanarsa, daha gözlərinə yuxu getməz. Birinci yuxu ikincidən çox tez gəlir. Jan Valjanda da belə bir hal oldu. O daha yata bilməyib, düşünməyə başladı.

İnsanda bəzən elə hallar olur ki, fikirləri və təsəvvürləri bir-birinə qarışır, Jan Valjan da belə bir hal keçirirdi. Beynində qəribə bir hərc-mərclik vardı. Keçmişin xatirələri və yeni təəssürat bir-birinə qarışır, şəklini dəyişir, hədsiz dərəcədə böyüyür və birdən coşqun bulanıq suda qeyb olan kimi yox olurdu. Başına bir çox fikirlər gəlir və gedirdi, yalnız bir fikir ondan əl çəkmir və başqalarını qovurdu; o, madam Maqluarın axşam süfrəyə qoyduğu altı dəst gümüş çəngəl-bıçağa və çömçəyə diqqət yetirmişdi.

Bu altı gümüş çəngəl-bıçaq ona rahatlıq vermirdi. Onlar burada... lap yaxında idi... O, indi yatdığı yerə gəlmək üçün qonşu otaqdan keçəndə, qoca xidmətçi arvadın bunları çarpayının baş tərəfindəki kiçik şkafa qoyduğunu görmüşdü... Həmin balaca şkafa yaxşıca diqqət etmişdi... Şkaf yemək otağından gələrkən sağ tərəfdə idi... çəngəl-bıçağın hamısı qədim gümüşdən hazırlanmışdı, ağır idi... Çömçə ilə birlikdə bunlara ən azı iki yüz frank verərlər, on doqquz ildə qazandığından iki qat artıq... Doğrudur, katorqadakı rəisləri onu "qarət" etməsə idi, o daha artıq qazanmış olardı.

O, düz bir saat tərəddüd və şübhə içində qaldı, onda daxili mübarizə gedirdi. Saat üçü vurdu. O, yenə gözlərini açdı, birdən yatağından qalxdı, əllərini uzatdı və çarpayının yanında küncə atmış olduğu çantasına toxundu, sonra ayaqlarını çarpayıdan salladı və birdən, özü də bunun necə olduğunu dərk etmədən, yerində oturdu.

O, bir müddət bu halda oturub qaldı. Hamının yatmış olduğu bu evdə qaranlıqda bu adamın belə oturduğunu görən olsaydı, əlbəttə, qorxardı. Birdən o əyildi, ayaqqabılarını çıxartdı, çarpayının qabağındakı həsirin üzərinə qoydu, sonra yenə əvvəlki vəziyyəti aldı, hərəkətsiz oturaraq dərin düşüncələrə daldı.

Başından gəlib-keçən bu dəhşətli fikirlər içində yuxarıda dediyimiz fikir bir dəqiqə belə onu rahat buraxmırdı, bu fikir zehnində dolaşaraq, gah yox olur, gah yenidən üzə çıxır, sanki, onu əzirdi: o nədənsə Breve adında tanış bir katorqalı haqqında hey düşünürdü: həmin katorqalının şalvarını toxunma bir aşırma saxlayırdı. Bu aşırmanın şahmatvari hörməsi gözlərinin önündə duraraq ondan əl çəkmək istəmirdi.

O, hərəkətsiz bir halda oturmaqda davam edirdi. Əgər saat on beş dəqiqə və ya yarım saat keçdiyini göstərmək üçün bir dəfə vurmasaydı,

kim bilir, o, bəlkə də, gün doğana kimi bu halda oturub qalacaq idi. Bu səs ona, sanki, "get!" dedi.

O ayağa durdu, bir neçə saniyə tərəddüd içində dayanıb qulaq asdı: evin içində dərin bir sükut vardı; o, ayaqlarını yavaş-yavaş basaraq, qaranlıqda solğun bir ləkə kimi görünən pəncərəyə doğru getdi. Gecə çox da qaranlıq deyildi, göydəki bədirlənmiş Ayın üzünü bəzən küləyin sürətlə qovduğu iri buludlar tuturdu. Buna görə də bayırda kölgə ilə işıq bir-birini əvəz edir, hava gah tutulur, gah açılırdı, otaqda isə alaqaranlıq vardı. Ətrafdakı şeyləri seçmək üçün kafi olan və Ayın üzərindən buludların keçməsi ilə arabir qatılaşan bu alaqaranlıq, qarşısından yolçuların oyan-buyana keçdiyi nəfəslikdən zirzəmiyə düşən göyümtül tüstüyə bənzəyirdi. Jan Valjan pəncərəyə yaxınlaşıb, onu diqqətlə nəzərdən keçirtdi. Pəncərənin barmaqlığı yox idi. O, bağçaya açılırdı, yerli adətə görə, kiçik bir rəzə ilə bağlanırdı. O, pəncərəni açdı, lakin otağa kəskin soyuq hava dolduğundan yenə pəncərəni qapadı. O, bağçaya sınayıcı bir nəzər saldı. Bağça alçaq ağ bir divarla əhatə olunmuşdu; bu divarı asanlıqla aşmaq olardı. Divarın o üzündə, bir qədər uzaqda Jan Valjan bir-birindən eyni məsafədə əkilmiş ağacların başlarını gördü; bu göstərirdi ki, bağçanın divarı arxasında bir bulvar xiyabanı və ya hər iki tərəfində ağac əkilmiş bir döngə vardır.

Hər tərəfi nəzərdən keçirdikdən və görünür, qəti qərara gəldikdən sonra o, çarpayının yanına qayıdaraq çantasını açdı, əli ilə içini eşələdi və oradan bir şey çıxarıb, çarpayının üstünə qoydu, ayaqqabılarını cibinə soxdu, çantasını yenə bağlayıb çiyninə atdı, şapkasını qoydu, günlüyünü gözünün üstünə basdı, əsasını əli ilə axtarıb tapdı və pəncərəyə söykədi. Sonra yenə çarpayının yanına qayıdaraq, üzərinə qoymuş olduğu şeyi tərəddüdsüz götürdü. Bu şey bir ucu nizə kimi olan dəmir tirə bənzəyirdi.

Qaranlıqda bu dəmir parçasının nə üçün olduğunu müəyyən etmək çətin idi. Ola bilsin, bu, bir çilingər aləti idi. Bəlkə də, kiçik dəyənək idi.

Gündüz olsaydı, bunun qazmaçı şamdanından başqa bir şey olmadığı görünərdi. O vaxt katorqalıları bəzən Tulonun ətrafındakı hündür təpələrdən qranit çıxarmaq üçün daş karxanalarında işlədər və onlara qazmaçı aləti verərdilər. Qazmaçı şamdanı ağır dəmirdən hazırlanar və daşı qırmaq üçün ucları şiş və iti olardı.

Jan Valjan şamdanı sağ əlinə aldı, nəfəsini gizlədərək, ayaqlarının ucunda qonşu otağa doğru yönəldi. Bu otaq, bildiyimiz kimi, yepiskopun yataq otağı idi. Qapıya çatdıqda onun yarıaçıq olduğunu gördü. Yepiskop qapını heç lazımınca örtməmişdi də.

On birinci fəsil

O NƏ EDİR?

Jan Valjan qulaq asdı. Heç bir səs-səda yox idi.

O, qapını itələdi.

Qapını gizlicə otağa girmək istəyən pişik kimi barmağının ucu ilə yavaşca itələdi.

Qapı səssizcə aralandı.

O, bir saniyə gözlədikdən sonra, qapını ikinci dəfə daha cəsarətlə itələdi.

Qapı səssizcə açılmaqda davam edirdi. İndi qapı keçmək üçün kafi dərəcədə geniş açılmışdı. Lakin qapının yanında kiçik bir masa var idi ki, onun küncü keçməyə mane olurdu.

Jan Valjan bu maneəni gördü. Necə olursa olsun, qapının arasını bir qədər də açmaq lazım idi.

O, qət etdi və qapını üçüncü dəfə, əvvəlki iki dəfədən daha bərk itələdi. Bu dəfə pas tutmuş rəzələrdən biri birdən qaranlıqda bərk və uzun-uzadı cırıldadı.

Jan Valjan titrədi. Bu rəzənin cırıltısı onun qulağında qiyamət günündə çalınan suri-İsrafil kimi qulaqbatırıcı və dəhşətli bir qüvvə ilə səsləndi.

Qeyri-təbii bir dəhşət içərisində ilk dəqiqələrdə ona elə gəldi ki, bu rəzə yatanlara xəbərdarlıq etmək və bütün evdəkiləri oyatmaq üçün qəflətən cana gəldi, dəhşətli canlı bir məxluqa çevrildi və it kimi hürdü.

O titrəyə-titrəyə, özünü itirmiş halda dayandı, barmaqları ucunda yerimək əvəzinə, bütün ayağını yerə basdı. Ona belə gəldi ki, gicgahlarında damarlar iki dəmirçi çəkici kimi taqqıldayır, nəfəsi isə mağaradan əsən külək kimi vıyıltı ilə çıxır. Qəzəblənmiş rəzənin bu dəhşətli fəryadının şiddətli bir zəlzələ kimi bütün evi titrətməyəcəyi

ona mümkün olmayan bir şey kimi görünürdü; onun itələdiyi qapı haray salmışdı və köməyə çağırırdı; bu saat qoca oyanacaq, qadınlar bağıracaq, adamlar gələcəklər; on beş dəqiqə keçməmiş şəhərdə gurultu qopacaq, bütün polis ayağa qaldırılacaqdır. Bir an o, özünü məhv olmuş hesab etdi.

O, daş kimi yerindəcə donub qalmışdı, barmağını belə tərpətməyə cürət etmirdi.

Bir neçə dəqiqə keçdi. Qapı taybatay açıq idi. O, başını uzadıb otağın içinə baxmağa cürət etdi. Orada heç bir şey tərpənmirdi. O, diqqətlə qulaq asdı. Evin içindən heç bir səs-səmir gəlmirdi. Paslı rəzənin cırıltısı heç kəsi oyatmamışdı.

Birinci təhlükə keçmişdi, amma Jan Valjanın ürəyi yenə böyük bir vəlvələ içində idi. Lakin o, geri qayıtmadı. Hətta özünü büsbütün məhv olmuş zənn etdiyi dəqiqədə geri çəkilmək fikrində olmadı. İndi o, yalnız bir şey istəyirdi – qərarını yerinə yetirib qurtarmaq. O, irəliyə doğru bir addım atdı və otağa girdi.

Otaqda tam sakitlik hökm sürürdü. Qaranlıqda bəzi şeylərin tutqun, qeyri-müəyyən cizgilərini seçmək olurdu – gündüz bunların masa üstünə dağılmış kağız parçaları, açıq kitablar, üzərinə paltar sərilmiş kreslo və ibadət rəhləsi olduğunu görmək olardı, indi isə, gecənin bir qaranlığında bütün bunlar tutqun bir kölgəyə və ya ağımtıl ləkəyə bənzəyirdi. Jan Valjan mebelə toxunmadan, qorxa-qorxa, ehtiyatla irəliyə doğru yeriyirdi. Otağın bir tərəfində yatmaqda olan yepiskopun yavaş-yavaş və sakit nəfəs aldığı eşidilirdi.

Jan Valjan birdən dayandı. O artıq çarpayının yanında idi. O, buraya gözlədiyindən tez çatmışdı.

Bəzən təbiət öz effektləri və hadisələri ilə qorxunc və təsiredici bir məharətlə tam vaxtında bizim işimizə qarışır, sanki, bizi fikirləşməyə vadar edir. Yarım saat olardı ki, bütün göyün üzünü böyük bir bulud bürümüşdü. Jan Valjan çarpayının yanında dayandığı zaman bu bulud, sanki, qəsdən parçalandı və Ay işığı hündür pəncərədən içəri düşərək, birdən-birə yepiskopun solğun üzünü işıqlandırdı. Yepiskop sakitcə yatırdı. Aşağı Alp dağlarında gecələr soyuq olduğundan, yepiskop əynində paltar yatırdı, darçını rəngdə yun donunun qolları əllərini biləklərinə qədər örtmüşdü; barmağında yepiskop üzüyü olan, bu qədər xeyirli və mərhəmətli işlər görmüş əli çarpayıdan aşağı sallanmışdı. Üzündən, sanki, bir məmnuniyyət,

ümid və sakitlik yağırdı. Bu üz gülümsəmirdi, nur saçırdı. Onun alnında gözə görünməyən bir işığın qəribə inikası vardı. Qəlbi pak olan adamlar yuxuda əsrarlı göyləri seyr edirlər.

Bu göyün parıltısı yepiskopun üzündə əks etmişdi.

Bu işıq eyni zamanda içəridən də parıldayırdı, çünki bu göy onun özündə təcəssüm edirdi. Bu, onun vicdanı idi.

Ayın işığı yepiskopun üzünə düşdüyü və sanki, bu daxili nurla birləşdiyi zaman o, bir nur haləsi arasında yatmış kimi göründü. Lakin təsvirəgəlməz bir toranlıq bu mənzərəni bir qədər yumşaltmışdı. Bu göydəki Ay, bu yatan təbiət, yuxuya dalmış bu bağ, bu sakit evciyəz, gecənin bu vaxtı, bu sükut – bütün bunlar bu insanın müqəddəs istirahətinə ifadə edilə bilməyəcək bir ehtişam verir, bu ağ saçları, bu qapalı gözləri, ümid və inam ifadə edən bu üzü, bu qoca başı və bu uşaq yuxusunu əzəmət və sakitlik haləsi ilə əhatə edirdi. Özü də bilmədən bu qədər əzəmətli olan bu insanda ilahi bir şey hiss olunurdu.

Jan Valjan əlində dəmir şamdan, kölgədə hərəkətsiz dayanmışdı və çaşqın halda bu nurani qocaya baxırdı. O, ömründə belə bir şey görməmişdi. Bu etibar onu dəhşətə gətirirdi. Mənəviyyat aləmində cinayət əməli qarşısında dayanıb pak bir adamın yuxusunu seyr edən pərişan və natəmiz bir vicdandan əzəmətli bir mənzərə ola bilməz.

Bu yalqızlıqda, onun kimi bir adamın yaxınlığında yatanın yuxusunda xüsusi bir ülviyyət vardı. Jan Valjan, dumanlı olsa da, yenilməz bir qüvvətlə bunu duyurdu.

Onun qəlbindən nələr gəlib-keçdiyini kimsə, hətta o özü belə söyləyə bilməzdi. Onun nələr hiss etdiyini təyin etmək üçün ən amansız bir şeylə ən mülayim bir şeyin qarşı-qarşıya durduğunu təsəvvür etmək lazımdır. Gözlərində də müəyyən bir ifadə görmək mümkün deyildi. Onlarda yalnız ələmli bir heyrət görünürdü. O baxırdı. Lakin o nələr düşünürdü? Bunu kim başa düşə bilərdi? Onun həyəcan keçirdiyi və dərindən mütəəssir olduğu hiss olunurdu. Lakin bu həyəcanın mənası nə idi?

O, nəzərini qocadan ayıra bilmirdi. Üzündən və ümumi görünüşündən yalnız bir şey aydın bilinirdi – o, qəribə bir tərəddüd içində idi. Sanki, iki uçurum arasında tərəddüd edirdi; bu uçurumlardan biri həlak edən, o biri qurtuluş gətirən idi. Sanki, o, bu başı əzməyə, yaxud bu əli öpməyə hazır idi.

Bir neçə saniyə sol əlini yavaş-yavaş qaldırıb, şapkasını çıxartdı; sonra əli yenə yavaşca aşağı endi. Jan Valjan sol əlində şapkanı, sağ əlində isə dəmir parçasını tutaraq yenə tamaşaya daldı. Qısa saçları qırışmış alnı üzərində biz-biz durmuşdu.

Yepiskop bu dəhşətli nəzərlər altında yenə də sakitcə yatırdı.

Ayın işığında, buxarının üstündə tutqun bir şəkildə İsanın surəti görünürdü: sanki, o, kiməsə xeyir-dua verir və ya kimisə bağışlayaraq, hər ikisinə öz ağuşunu açırdı.

Birdən Jan Valjan şapkasını başına qoydu, sonra yepiskopun üzünə belə baxmadan, tələsik yatağın yanından keçdi və onun baş tərəfində görünən rəfə tərəf getdi, qıfılı qırmaq üçün şamdanı qaldırdı, lakin açarın qıfılın üstündə olduğunu gördü, şkafı açdı: birinci gördüyü şey gümüşlərin qoyulduğu səbət idi, səbəti götürüb, heç bir ehtiyat eləmədən, hərəkətlərindən əmələ gələn gurultuya fikir vermədən iri addımlarla otaqdan keçdi, qapıya çatdı, ibadətxanaya girib, pəncərəni açdı, əsasını götürdü, pəncərədən aşdı, gümüşləri çantasına qoydu, səbəti yerə tulladı, yüyürə-yüyürə bağdan keçdi və pələng kimi hasardan sıçrayıb yox oldu.

On ikinci fəsil

YEPİSKOP İŞLƏRKƏN

Ertəsi gün, səhər tezdən monsenyor Byenvenü bağçada gəzişirdi. Birdən madam Maqluar böyük bir təşviş içərisində onun yanına gəldi:

– Monsenyor, monsenyor, – deyə o bağırdı, – siz gümüş çəngəlbıçağı saxladığım səbətin harada olduğunu bilirsinizmi?

Yepiskop:

– Bilirəm, – deyə cavab verdi.

– Allaha şükür, – deyə qadın sevindi, – yoxsa onun harada olduğunu başa düşə bilmirdim.

Yepiskop elə indicə çiçəkliyin içində səbəti tapmışdı. O, səbəti madam Maqluara verərək dedi:

– Budur.

– Bu nədir? – deyə madam Maqluar təəccüb etdi. – Bu ki boşdur. Bəs gümüşlər hanı?

Yepiskop:

– Ax, sizi gümüşlər narahat edir? Gümüşlərin harada olduğundan xəbərim yoxdur, – dedi.

Zirək bir qarı olan madam Maqluar bir anda yataq otağına gedərək ibadətxanaya baxdı və yenə sürətlə yepiskopun yanına qayıtdı. Yepiskop əyilərək, səbətin əzmiş olduğu qatıqotu şitilinə baxırdı. Madam Maqluarın bağırtısını eşitdikdə yepiskop dikəldi.

– Monsenyor! O adam getmişdir! Gümüşlər oğurlanmışdır!

Madam Maqluar bu sözləri söyləməkdə ikən, birdən gözləri bağın o biri başında qaçanın izlərini gördü. Divarın üzərindən bir neçə daş düşmüşdü.

– Baxın, baxın! O, buradan aşmışdır. Birbaş Koşfile döngəsinə düşmüşdür! Bu nə alçaqlıqdır! O, bizim gümüş çəngəl-bıçağımızı oğurlamışdır!

Yepiskop bir dəqiqə susdu, sonra ciddi bir nəzərlə madam Maqluara baxaraq, mülayimliklə etiraz etdi:

– Harada deyilmişdir ki, o gümüşlər bizim idi?

Madam Maqluar heyrətindən donub qaldı. Yenidən sükut çökdü, sonra yepiskop yenə sözünə davam edərək dedi:

– Madam Maqluar, bu gümüş çəngəl-bıçaqdan, həm də bu qədər uzun müddət istifadə etməkdə mən haqlı deyildim. Onlar yoxsulların malı idi. Bu adam kim idi? Şübhəsiz, yoxsul.

Madam Maqluar:

– Aman, ya rəbb! – dedi. – Mən nə özüm üçün deyirəm, nə də madmazel üçün. Bizim üçün hamısı birdir. Mən sizin üçün deyirəm, monsenyor. İndi zati-aliniz nə ilə yemək yeyəcəkdir?

Yepiskop madam Maqluarın üzünə heyrətlə baxdı.

– Nə olar? Məgər qalay çəngəl-bıçaq yoxdur?

Madam Maqluar çiyinlərini dartdı.

– Qalayın pis iyi olur.

– Bəs dəmir?

Madam Maqluar üzünü turşutdu:

– Dəmir də pis dad verir.

Yepiskop:

– Elə isə ağacdan düzəltdirərik, – dedi.

Bir neçə dəqiqə sonra yepiskop dünən axşam Jan Valjanın oturduğu masanın arxasında oturaraq səhər yeməyi yeyirdi. Yemək

zamanı o, dinməzcə qulaq asan bacısına və öz-özünə deyinən madam Maqluara gülə-gülə isbat edirdi ki, çörəyi südə batırmaq üçün nə qaşığa, nə də çəngələ, hətta ağac qaşığa və çəngələ belə ehtiyac yoxdur, bunlarsız da keçinmək olar.

Madam Maqluar masanın başında vurnuxaraq, öz-özünə donquldanırdı:

– Heç adamın ağlına gələn işdirmi? Belə bir adamı evə buraxmaq, gecə də öz yanında yatırmaq olar? Allaha şükür ki, o, ancaq oğurluq etmişdir! Aman, ya rəbb! Nə ola biləcəyini yada saldıqca adamın bədəni əsir!..

Yepiskop ilə bacısı süfrədən qalxmaq istəyirdilər ki, birdən qapı döyüldü.

Yepiskop:

– Buyurun, – dedi.

Qapı açıldı. Qapının astanasında bir dəstə qəribə və həyəcanlı adam göründü. Üç nəfər birisinin yaxasından tutmuşdu. Bu üç nəfər jandarm, dördüncü isə Jan Valjan idi.

Jandarmların başçısı, kiçik zabit, qapıda ayaq saxladı. Sonra içəri girib, yepiskopa yaxınlaşdı və ona əsgəri salam verdi.

– Monsenyor... – deyə o, sözə başladı. Məyus və pərişan bir halda dayanan Jan Valjan bu sözü eşitdikdə, heyrətlə başını qaldırdı.

– Monsenyor! – deyə o pıçıldadı. – Demək, bu, sadə keşiş deyilmiş...

Jandarmlardan biri:

– Sus, – dedi, – bu monsenyor cənab yepiskopdur.

Bu zaman monsenyor Byenvenü qocalığının imkan verdiyi qədər sürətlə onlara yaxınlaşdı və Jan Valjana müraciətlə dedi:

– Ah, sizsiniz? Sizi görməyimə çox şadam. Ancaq niyə belə edirsiniz? Axı, mən şamdanları da sizə vermişdim, onlar da gümüşdəndir, onları iki yüz franka sata bilərsiniz. Bəs nə üçün onları da çəngəl-bıçaqlarınızla birlikdə götürməmişsiniz?

Jan Valjan gözlərini geniş açaraq, təsvir edilməsi mümkün olmayan bir nəzərlə hörmətli yepiskopa baxdı.

Kiçik jandarm zabiti dedi:

– Monsenyor, demək, bu adamın bizə söylədikləri doğrudur? Biz yolda ona rast gəldik. Görünüşündən o, qaçağa bənzəyirdi. Hər təsadüfə qarşı onu tutduq, bu gümüşləri də onda tapdıq.

Yepiskop gülümsəyərək, zabitin sözünü kəsdi:

– O da sizə dedi ki, gecə evində yatdığı qoca bir keşiş bu gümüşləri ona bağışlamışdır, eləmi? Başa düşürəm, başa düşürəm. Siz də onu tutub buraya gətirdiniz, deyilmi? Bu, anlaşılmazlıqdır.

Kiçik zabit:

– Elə isə onu buraxa bilərik? – deyə soruşdu.

– Əlbəttə, – deyə yepiskop cavab verdi.

Jandarmlar Jan Valjanı buraxdılar. Jan Valjan qeyri-iradi olaraq geri çəkildi.

Yuxuda danışırmış kimi boğuq bir səslə:

– Məni, doğrudanmı, buraxırlar? – dedi.

Jandarmlardan biri:

– Bəli, əlbəttə, səni buraxırıq, eşitmirsən-nədir? – deyə cavab verdi.

Yepiskop:

– Dostum, – dedi, – getməmişdən əvvəl şamdanlarınızı götürməyi unutmayın. Budur, götürün.

O, buxarıya yaxınlaşıb gümüş şamdanları götürdü və Jan Valjana uzatdı. Qadınların ikisi də hərəkətsiz bir halda dinməzcə dayanaraq, heç bir şeylə yepiskopa mane olmamağa çalışırdı.

Jan Valjanın bütün bədəni titrəyirdi. O, ixtiyarsız və çaşqın bir halda hər iki şamdanı əlinə aldı.

Yepiskop:

– İndi sağlıqla gedin, – dedi, – həm də, dostum, sizə bir şey söyləyim: bir də mənim yanıma gələndə bağdan keçməyə heç bir ehtiyac yoxdur. Siz hər zaman baş qapıdan girib çıxa bilərsiniz. Bu qapı nə gecə, nə də gündüz, heç bir zaman bağlanmır.

Sonra jandarmlara tərəf dönərək:

– Cənablar, siz gedə bilərsiniz, – dedi.

Jandarmlar getdilər.

Jan Valjan, sanki, bu dəqiqə özündən gedəcəkdi.

Yepiskop ona yaxınlaşdı və yavaş bir səslə dedi:

– Unutmayın, heç bir zaman unutmayın ki, bu gümüşləri namuslu adam olmaq üçün sərf edəcəyinizi mənə vəd etmişdiniz.

Jan Valjan çaşqın bir halda durmuşdu, – o, belə bir vəd verdiyini qətiyyən xatırlamırdı. Yepiskop bu sözləri xüsusi bir qətiyyətlə dedi və təntənə ilə davam etdi:

– Jan Valjan, qardaşım, siz artıq şərə tabe deyilsiniz, xeyrin ixtiyarındasınız. Mən sizin ruhunuzu satın alıram. Mən sizin ruhunuzu qara fikirlərdən və zülmət dünyasından xilas edib Allaha tapşırıram.

On üçüncü fəsil

BALACA JERVE

Jan Valjan təqib edilən adamlar kimi sürətlə şəhərdən çıxdı. O, ilk qarşısına çıxan yolla və cığırla gedərək, sürətli addımlarla düzdən keçir və eyni yerdə fırlandığını hiss etmirdi. Bu sürətlə, heç bir şey etmədən və aclıq belə hiss etmədən, bütün şəhəri dolaşdı. Onu bir çox yeni hisslər təqib edirdi. Qəlbində gizli bir hiddət vardı. Bu hiddət kimə qarşı idi? – bunu bilmirdi. Mütəəssirmi olmuşdu, yoxsa təhqirmi edilmişdi – bu ona bəlli deyildi. Bəzən qəlbində qəribə bir riqqət hiss edirdi. O, var qüvvəsi ilə buna müqavimət göstərməyə çalışaraq, son iyirmi illik ömrünün bütün hiddətini buna qarşı qoyurdu. Bu hiss onu yorurdu. O, çəkdiyi müsibətlərin haqsızlığından irəli gəlmiş olan müdhiş daxili sakitliyinin məhv olduğunu təşvişlə görürdü. Bu sakitliyi nə ilə əvəz edəcəyini özündən soruşurdu. Bəzən ona elə gəlirdi ki, jandarmlar onu tutub həbsxanaya aparsa idi, bu, onun başına gələn əhvalatdan daha yaxşı olardı: o zaman bu qədər həyəcana düşməzdi. Payız fəslinin çoxdan başlanmış olmasına baxmayaraq, yanından keçdiyi çəpərin dibində ara-sıra bəzi çiçəklər görünürdü. Bu çiçəklərin ətri ona uşaqlıq günlərini xatırladırdı. Bu xatirələr onun üçün dözülməz idi, çünki çoxdan bəri idi ki, belə şeyləri xatırlamazdı.

Beləliklə, bütün günü onun zehnində sözlə ifadə edilməsi çətin olan bu kimi fikirlər dolaşırdı.

Günəş batmağa, ən kiçik daşlar belə uzun kölgə salmağa başlarkən Jan Valjan geniş, boz bir düzənlikdə bir kolun yanında oturmuşdu. Bu düzənlik boş və kimsəsiz idi. Üfüqdə Alp dağlarından başqa heç bir şey, hətta uzaq bir kənd kilsəsinin zəng qülləsi belə görünmürdü. Jan Valjan Din şəhərindən, təqribən, üç lyö uzaqlıqda idi. Kolun bir neçə addımlığında düzü kəsən bir cığır keçirdi.

Təsadüfi yolçunu qorxuya sala bilən cır-cındırlarına daha qorxunc görkəm verə biləcək qara fikirlərə dalmış halda oturan Jan Valjanın qulağına birdən şən bir nəğmə səsi gəldi.

O, başını çevirib, təxminən, on yaşında bir savoyalı uşağın nəğmə oxuya-oxuya yolla gəldiyini gördü: uşağın dalında bir qutunun içində çöl siçanı vardı, çiynindən kiçik bir şarmanka asılmışdı – bu, ölkədən-ölkəyə dolaşan, cırıq tumanından dizləri görünən şən və mehriban uşaqlardan biri idi.

Uşaq nəğmə oxuyaraq yoluna davam edir və arabir dayanaraq əlində olan və bəlkə də, bütün var-yoxunu təşkil edən bir neçə pulu atıb-tutaraq oynayırdı. Bu mis pullar arasında qırxsuluq gümüş pul da vardı.

Uşaq kolun yanında dayandı və Jan Valjanı görmədən bir az əvvəl havaya ataraq, sonra yenə məharətlə əlinin dalı ilə tutduğu pulları yenə yuxarı atdı.

Lakin bu dəfə qırxsuluq pul əlindən sıçradı və yerə düşərək kolluğa, Jan Valjanın oturduğu yerə tərəf dığırlandı.

Jan Valjan ayağını pulun üstünə qoydu. Lakin nəzərləri ilə pulunu təqib edən uşaq onun haraya düşdüyünü görmüşdü.

O heç təəccüb etmədi və birbaş Jan Valjanın yanına gəldi. Onların olduğu yer tamamilə izsiz idi. Göz işlədikcə nə düzdə, nə də yolda kimsə görünmürdü. Ancaq çox yüksəklərdə uçan köçəri quşların zəif səsləri eşidilirdi. Uşaq arxasını Günəşə tərəf çevirmişdi; günəşin son şüaları Jan Valjanın hiddətli üzünü qanlı bir işıqla işıqlandırdığı halda, uşağın saçlarına qızılı şüalar səpirdi. Uşaq bilməzlik və məsumluqdan doğan bir uşaqlıq etimadı ilə Jan Valjana:

– Cənab, – dedi, – mənim pulum hanı?

Jan Valjan:

– Adın nədir? – deyə soruşdu.

– Balaca Jerve, cənab.

Jan Valjan dedi:

– Rədd ol buradan.

Uşaq israr edərək:

– Cənab, – dedi, – mənim pulumu verin.

Jan Valjan başını aşağı saldı və cavab vermədi. Uşaq bir də təkrar etdi:

– Cənab, mənim pulumu verin!

Jan Valjanın gözləri əvvəlki kimi yerə zillənmişdi.

Uşaq çığıraraq:

– Pulumu verin, – deyirdi, – mənim parıldayan pulumu! Mənim gümüş pulumu!

Jan Valjan, sanki, heç bir şey eşitmirdi. Uşaq onun yaxasından tutub silkələməyə başladı. Eyni zamanda o, sərvətinin üzərinə basılmış olan dəmir nallı qalın ayaqqabını yerindən tərpətməyə çalışırdı.

– Mən öz pulumu istəyirəm! Qırxsuluq pulumu!

Uşaq ağlayırdı. Jan Valjan başını qaldırdı. O hələ də yerindən tərpənmədən oturmuşdu. Gözləri dumanlı idi. O, uşağa bir növ heyrətlə baxdı. Sonra əlini əsasına uzadaraq, dəhşətli bir səslə bağırdı:

– Bu kimdir?

– Mənəm, cənab, – deyə uşaq cavab verdi. – Balaca Jerve! Mənəm! Mənəm! Xahiş edirəm, mənim qırxsuluğumu verin! Ayağınızı götürün, cənab! Xahiş edirəm, ayağınızı götürün!

Birdən uşaq hirsləndi və balacalığına baxmayaraq, hədələyici bir səslə dedi:

– Bura baxın, ayağınızı çəkəcəksiniz, ya yox? Sizə deyirlər, ayağınızı çəkin!

– Ax, sən hələ də buradasan? – deyə Jan Valjan çığırdı və yerindən sıçrayaraq dümdüz dayandı; əvvəlki kimi ayağını gümüş pulun üstündən çəkməyərək, əlavə etdi:

– Nə qədər ki başın salamatdır, çıx get!

Uşaq qorxa-qorxa ona baxdı, bütün bədəni əsdi, bir neçə saniyə yerindəcə donub qaldıqdan sonra, geriyə baxmağa və ya qışqırmağa cəsarət etmədən var qüvvəsi ilə qaçmağa başladı.

Lakin bir qədər qaçdıqdan sonra nəfəsi elə tutuldu ki, dayanmağa məcbur oldu və fikrə qərq olmuş Jan Valjan uşağın ağladığını eşitdi.

Bir neçə dəqiqə sonra uşaq gözdən itdi.

Gün batdı. Jan Valjanın ətrafını getdikcə qaranlıq bürüyürdü. O bütün günü heç bir şey yeməmişdi, çox ehtimal ki, qızdırırdı.

Uşaq qaçandan bəri o, öz vəziyyətini dəyişməyərək, bir yerdə dayanıb durmuşdu. Kəsik-kəsik nəfəs almaqdan sinəsi qalxıb-enirdi. Gözləri on-on iki addım irəliyə zillənmişdi, sanki, otun üzərindəki göy saxsı parçasını diqqətlə öyrənirdi. Birdən o diksindi, axşam soyuğunun ona təsir etdiyini yalnız indi hiss etdi.

Furajkasını alnına çəkərək, ixtiyarsız bir halda köynəyini düymələdi, bir addım ataraq əyildi ki, əsasını götürsün.

Bu zaman o ayağı ilə yarıya qədər yerə basdığı və daşların arasında parlayan qırxsuluq pulu gördü.

Bu ona elektrik cərəyanı kimi təsir etdi. "Bu nədir?"– deyə o, özözünə mızıldandı. Üç addım geri çəkildi, sonra bir az bundan əvvəl ayağı ilə basdığı və qaranlıqda ona zillənmiş insan gözü kimi parıldayan puldan gözünü çəkə bilməyərək dayandı.

Beləliklə, bir neçə dəqiqə keçdi. Birdən o, əsəbi bir hərəkətlə gümüş pula sarı atıldı, onu götürüb dikəldi, düzənliyə göz gəzdirdi və sığınmağa yer axtaran ürkmüş vəhşi heyvan kimi ətrafa baxmağa başladı.

O heç bir şey görmədi. Gecə yaxınlaşır, düzənlik soyuğa bürünürdü. Alaqaranlıqda qalxan qatı bənövşəyi dumanda hər şey gözdən itməyə başlamışdı.

Jan Valjan dərin bir nəfəs aldı və uşağın yox olduğu səmtə tərəf sürətlə addımladı. Otuz addım getdikdən sonra o dayandı, ətrafa göz gəzdirdi və yenə heç bir şey görmədi.

Bu zaman o gücü gəldikcə: "Balaca Jerve! Balaca Jerve!" – deyə çığırdı.

Sonra susdu və qulaq asdı.

Cavab gəlmədi.

Çöl boş və qaranlıq idi. Sonsuzluq hər tərəfdən Jan Valjanı bürüyürdü. Ətrafda yalnız onun nəzərlərinin yox olduğu zülmətdən və səsini udan sükutdan başqa heç bir şey yox idi.

Kəskin soyuq külək əsərək, bütün ətrafda qorxulu bir hərəkət yaradırdı. Balaca ağaclar öz sısqa budaqlarını təsviredilməz bir hiddətlə yırğalayırdı. Onlar, sanki, kimi isə hədələyir, kimi isə təqib edirdilər.

O yenə yeridi, sonra qaçmağa başladı: arabir dayanır və bu səhrada mümkün ola biləcək ən qorxunc və ən kədərli səslə: "Balaca Jerve! Balaca Jerve!" – deyə çığırırdı.

Uşaq onun səsini eşitsəydi belə, şübhəsiz ki, qorxar və onun gözünə görünməkdən çəkinərdi. Lakin uşaq, çox ehtimal ki, artıq uzaqda idi.

Yolda Jan Valjan at üstündə gedən bir keşişə rast gəldi. Ona yaxınlaşıb soruşdu:

– Cənab küre, burada bir uşaq görmədiniz?

– Xeyr, – deyə keşiş cavab verdi.

– Balaca Jerve adında bir uşaqdır.

– Mən heç kəsə rast gəlmədim.

Jan Valjan kisəsindən iki beşfranklıq pul çıxardıb keşişə uzatdı.

– Cənab keşiş, bunu yoxsullarınıza verin, – dedi, – cənab keşiş, o uşağın on yaşı olar. Gərək ki, onun bir balaca şarmankası, bir də çöl siçanı vardır. O, buradan keçib-getdi... Bilirsinizmi, savoyalı bir uşaq idi.

– Mən onu görmədim.

– Balaca Jerve! Bu qonşu kəndlərin birisindən olmaya? Siz mənə deyə bilməzsinizmi?

– Uşaq sizin təsvir etdiyiniz kimi isə, dostum, onda, yəqin, yadellidir. Onlar bəzən bizim yerlərə gəlirlər. Ancaq onları heç kəs tanımır.

Jan Valjan tez cibindən daha iki beş franklıq pul çıxarıb keşişə verdi.

– Sizin yoxsullar üçün, – dedi.

Sonra birdən qeyzlə əlavə etdi:

– Cənab keşiş, əmr edin, məni tutsunlar. Mən oğruyam.

Keşiş atına bir qamçı çəkərək, bərk qorxmuş halda çapıb getdi.

Jan Valjan əvvəlki istiqamətdə yüyürməyə başladı.

Bu sürətlə xeyli yol getdi: o, ətrafa baxır, çağırır, qışqırırdı. Lakin daha heç kəsə rast gəlmədi. İki-üç dəfə o, yoldan çıxaraq, bardaş qurmuş uşağa bənzər bir şey görünən tərəfə atılırdı, lakin görünən şeyə yaxınlaşdıqda bunun kol və ya yastı bir daş olduğu məlum olurdu. Nəhayət, üç cığırın birləşdiyi bir yerə çatdıqda, Jan Valjan dayandı. Ay doğmuşdu. Ətrafına boylanaraq, son dəfə bağırdı:

– Balaca Jerve! Balaca Jerve! Balaca Jerve!

Səsi heç bir əks-səda oyatmadan duman içində qeyb oldu.

O bir daha "Balaca Jerve!" çağırdısa da bu dəfə səsi çox zəif idi, pıçıltı kimi eşidilirdi. Bu, onun son qeyrəti idi, sanki, ləkəli vicdanı görünməz bir qüvvə ilə birdən-birə bütün ağırlığı ilə onu basmış kimi, ayaqları titrəməyə başladı, ayaq üstə dura bilmədi, taqətdən düşmüş bir halda böyük daşın üstündə oturdu, saçlarını yolaraq və üzünü dizləri arasında gizlətməyə çalışaraq:

– Mən alçaq adamam! – deyə səsləndi.

Onun ürəyi daha davam gətirmədi, ağlamağa başladı. On doqquz ildən bəri birinci dəfə idi ki, ağlayırdı.

Jan Valjan yepiskopun yanından çıxdığı zaman, gördüyümüz kimi, indiyə qədər onun fikirlərini məşğul edən hər şeydən əl çəkmişdi. O, qəlbində nələr olduğunu özü belə başa düşmürdü. Jan Valjan qocanın mələk rəftarına və mülayim sözlərinə qarşı daxilən üsyan edirdi. "Siz mənə namuslu adam olmağı vəd etdiniz. Mən sizin ruhunuzu satın alıram. Mən sizin ruhunuzu qara fikirlərdən və zülmət dünyasından xilas edərək Allaha tapşırıram". Bu sözlər onu daim təqib edirdi. O, daxilimizdə şərin dayağı kimi yaşayan qüruru bu ilahi mərhəmətə qarşı qoyurdu. Keşişin mərhəmətinin ömründə onu sarsıdan ən şiddətli hücum olduğunu; bu mərhəmət və şəfqətə qarşı müqavimət göstərməyi bacararsa, ürəyinin həmişəlik bərkidiyini, güzəştə gedərsə – uzun illərdən bəri qəlbinə hakim olan və onu qane edən kin və nifrət hissindən əl çəkməyə məcbur olacağını dumanlı surətdə olsa da dərk edirdi, bu dəfə ya qalib gəlməli, ya da məğlub olmalı idi: indi onun kini ilə o adamın mərhəməti arasında böyük və qəti bir mübarizə başlanmışdı.

O, qarşısında duman arasından görünən işığa baxaraq sərxoş kimi addımlayırdı. Bu cür, çaşqın nəzərlərlə ətrafa baxaraq yol getdiyi zaman Dindəki hadisənin onun üçün nə cür nəticə verə biləcəyini aydın təsəvvür edirdimi? Həyatımızın müəyyən dəqiqələrində bizə xəbərdarlıq edən və ya bizi izləyən gizli səsləri o eşidirdimi? Bəlkə də, indicə onun taleyini həll edən təntənəli bir saat keçirdiyini, artıq onun üçün orta yol olmadığını və əgər o, insanların ən yaxşılarından olmazsa, ən alçağı olacağını; indi yepiskopdan daha yüksəklərə qalxmağa, yaxud katorqalıdan daha aşağıya enməyə məcbur olduğunu, yaxşı adam olmaq istəyirsə, mələyə dönməli, kinli qalmaq istəyirsə, qorxunc bir heyvana çevrilməli olduğunu kimsə ona pıçıldamışdımı?

Biz burada da, əvvəlki kimi, yenə eyni sualları verməyə məcburuq – o, qəlbində nələr olduğunu tutqun bir şəkildə olsa da, dərk edirdimi? Əlbəttə, dediyimiz kimi, bədbəxtlik zehni tərbiyə edir: lakin Jan Valjanın burada söylədiklərimizi başa düşə bilməsi şübhəlidir. Bu fikirlər onun ağlına gəlsə də, o, bunların üzərində düşünmür, onlar yalnız onun beynində dolaşaraq, izahedilməz, xəstə bir təşviş və qorxu oyadırdı. O, katorqa adlanan iyrənc və qaranlıq bir quyudan çıxdıqdan sonra yepiskop peyda oldu və qaranlıqdan yenicə çıxmış bir adamın gözlərini parlaq işıq qamaşdırdığı kimi, yepiskop

da onun qəlbinə toxunub onu ağrıtdı. Gələcək həyat, artıq onun üçün mümkün olan işıqlı və ləkəsiz həyat onu narahat edir, ürəyinə qorxu salırdı. Jan Valjan ona nə olduğunu artıq başa düşmürdü. Birdən-birə doğan günəş bayquşa necə təsir edirsə, xeyir işin saçdığı işıq da katorqalını çaşdırmış və sanki, onun gözlərini qamaşdırmışdı.

O, sanki, başqa bir adam olmuşdu, onun qəlbində hər şey dəyişmişdi, artıq yepiskopun qəlbinə toxunan sözlərinin təsirini puç etməyə qadir deyildi.

Balaca Jerveyə rast gəldiyi və onun qırxsuluq pulunu oğurladığı zaman, o belə bir hal keçirirdi. O, bunu nə üçün etmişdi? O özü də bunu izah edə bilməzdi: bu, katorqadan gətirdiyi pis fikirlərin son təzahürü, pis əməllərə olan meylin qalıqları və ya statikada[1] "ətalət qüvvəsi" deyilən şeyin nəticəsi idimi? Bəli, bu belə idi və eyni zamanda, bəlkə də, belə deyildi. Daha sadəcə desək, oğurlayan o deyil, insan deyil, heyvan idi: ağıl qeyri-adi və yeni olan bu qədər ideyalar əlində çırpındığı zaman o, adət və instinktə tabe olaraq, mənasız yerə ayağını götürüb bu pulun üzərinə qoymuşdu. Ağıl oyanaraq heyvanın tutduğu işi gördüyü zaman, Jan Valjan dəhşətlə geri çəkilmiş və ümidsizliklə bağırmışdı.

Çünki bu – yalnız Jan Valjanın vəziyyətində mümkün ola bilən qəribə bir hadisə idi: o, Balaca Jervenin pulunu oğurlamaqla artıq bacarmadığı bir qəbahətə yol vermişdi.

Hər halda, bu son cinayəti ona həlledici təsir göstərmişdi. O, zehnini xırpalayan xaosu birdən-birə parçalamış və dağıtmış, aydın olmayan, dumanlı şeyləri bir tərəfə, işığı isə o biri tərəfə atmışdı. Bəzi kimyəvi reaktivlər bulanıq qatışığa təsir edərək bəzi elementləri çökdürüb o biriləri şəffaflaşdırdığı kimi, onun da ruhunda qəribə bir hal əmələ gəlmişdi.

Hər şeydən əvvəl, baş verən hadisəni dərk etmədən, bu barədə düşünmədən o, pərişan bir halda, təqibdən qaçırmış kimi, pulu qaytarmaq üçün Balaca Jerveni tapmağa çalışırdı, onu tapmaq mümkün olmadığını anladıqdan sonra isə böyük bir ümidsizlik içərisində dayandı. "Mən alçaq bir adamam!" – deyə çığırdığı zaman, o, öz həqiqi simasını gördü, lakin o artıq əvvəlki varlığından o qədər uzaqlaşmışdı ki, öz-özünə bir xəyal kimi göründü, qarşısında isə əlində əsa, əynində cırıq köynək, çiynində oğurluq şeylərlə dolu olan

[1] *Statika* – sükunət halı

çanta, qaşqabaqlı və sərt üzlü, qəlbində min cür murdar fikirlər olan iyrənc katorqalı Jan Valjan dayanmışdı.

Söylədiyimiz kimi, çəkdiyi əzabların çoxluğu onu müəyyən dərəcədə qeybdən xəbər verən bir adam halına gətirmişdi. Bu surət də, sanki, kabus kimi bir şey idi. O, doğrudan da, bu Jan Valjanı, onun qorxunc sifətini qarşısında gördü. O, bu adamın kim olduğunu az qala özündən soruşacaqdı, bu adam ona iyrənc görünürdü.

Onun beyni elə gərgin və eyni zamanda dəhşət ediləcək qədər sakit bir halda idi ki, bu zaman dalğınlıq real həyatdan güclü olur. İnsan artıq ətrafdakı şeyləri görmür, xəyalının doğurduğu hər şey ona, onun özündən kənarda mövcud olan real həyat kimi görünür.

Beləliklə, Jan Valjan, sanki, öz-özü ilə üz-üzə dayanaraq, özünü nəzərdən keçirirdi və eyni zamanda xəyalının yaratdığı bu surətin arxasında əsrarəngiz dərinliklərdə göz qırpan bir işıq görürdü. O, bunu əvvəlcə məşəl zənn etmişdi. Lakin daha diqqətlə baxdıqda Jan Valjan şüurunun dərinliyində yanan bu odun bir insan sifətində olduğunu və bu məşəlin yepiskop olduğunu gördü.

Onun fikri şüuru qarşısında dayanmış bu iki insanı – yepiskopla Jan Valjanı növbə ilə seyr edirdi. İkincinin qəlbini birincidən başqa heç kəs yumşalda bilmədi. Bu cür qarabasmaların qəribə bir xüsusiyyəti vardır: hallüsinasiya davam etdikcə, yepiskopun xəyalı böyüyür və getdikcə daha nurani olurdu. Jan Valjan isə getdikcə kiçilirdi. Bir anda o, kölgəyə çevrildi. Birdən bu kölgə də yox oldu. Yalnız yepiskop qaldı.

O, bu bədbəxt insanın bütün qəlbini nurla doldurdu.

Jan Valjan uzun müddət ağladı. O, acı göz yaşları tökür, zəif qadınlar kimi, qorxmuş uşaqlar kimi hönkür-hönkür ağlayırdı.

O ağladıqca şüuru açılırdı və nəhayət, qəribə – həm fərəhli, həm də qorxunc bir işıqla işıqlandı. Keçmiş həyatı, birinci qəbahəti, uzun illər boyu çəkdiyi cəzalar, zahirən vəhşiləşməsi, daxilən sərtləşməsi, intiqam almaq ümidində olduğundan onu daha artıq sevindirən qurtuluş dəqiqəsi; yepiskopun evindəki hadisə və nəhayət, son qəbahəti, yepiskop onu əfv etdikdən sonra daha alçaq və daha dəhşətli görünən son cinayəti – uşaqdan qırxsuluq pul oğurlaması – bunlar hamısı onun yadına düşdü və əvvəlki kimi tamamilə aydın və eyni zamanda tamamilə yeni bir işıqda göründü. O, öz həyatına göz gəzdirdi və bu həyat ona eybəcər göründü; o, qəlbinə nəzər saldı:

qəlbi də iyrənc göründü. Bununla belə, bu həyat və bu qəlb üzərində yumşaq bir işıq parlayırdı. Ona elə gəlirdi ki, səmavi bir günəşin şüaları altında bir iblisi görür.

Görəsən, o, neçə saat ağladı? Susduqdan sonra nə etdi? Haraya getdi? Bunu heç kəs bilmir. Ancaq bu məlumdur ki, Qrenobl ilə Din arasında işləyən və səhər saat üçə yaxın Dinə varid olan dilicanın sürücüsü o gecə Yeparxiya küçəsindən keçərkən, monsenyor Byenvenünün qapısında qaranlıqda, küçə daşları üzərində bir adamın diz çöküb ibadət etdiyini görmüşdü.

Üçüncü kitab

1817-ci İLDƏ

Birinci fəsil

1817-ci İL

1817-ci il XVIII Lüdovikin bir qədər təkəbbürlə qarışıq əsl bir kral əzəməti ilə səltənətinin iyirmi ikinci ili adlandırdığı bir il idi. Bu il cənab Brüger de Sorsum üçün şöhrət ili idi. Bütün bərbərxanalar kirşan və burulmuş saclar dövrünə qayıtmaq ümidi ilə öz lövhələrini abı rəngə boyamış və ağ zanbaqlarla bəzəmişdilər. Bu, qraf Linçin hər bazar günü qırmızı orden lenti taxaraq, Fransa perinin bayram libasında Sen-Jermen-de Pre kilsəsində kilsə başçısının fəxri kürsüsündə əyləşib, uzun burnu və şanlı qəhrəmanlıq göstərmiş adamlara məxsus əzəmətli ədası ilə hamının diqqətini cəlb etdiyi sadə zamanlar idi. Cənab Linçin şanlı qəhrəmanlığı isə bundan ibarət idi: Bordo şəhərinin meri olduğu zaman 1814-cü il mart ayının 12-də o, bu şəhəri hersoq d'Anqulemə lazım olduğundan bir qədər əvvəl təslim etmiş və Per adını da buna görə almışdı. 1817-ci ildə dörd yaşından altı yaşına qədər balaca uşaqların başına tumacdan tikilmiş yekə, qulaqlı papaq qoymaq bir dəb olmuşdu. Bu papaqlar ucu şiş eskimos qalpaqlarına bənzəyirdi. Fransa ordusu Avstriya ordusu kimi ağ geyinmişdi; polklar legion adlanırdı; onları daha nömrə ilə göstərmirdilər, onlara departamentlərin adlarını vermişdilər. Napoleon müqəddəs Elena adasında idi və İngiltərə ona yaşıl mahud verməк istəmədiyinə görə, öz köhnə mundirlərini astar üzünə çevirtdirirdi. 1817-ci ildə Pelleqrini oxuyur, madmazel Biqottini isə rəqs edirdi; Pote hökmranlıq edirdi; Odri hələ şöhrət qazanmamışdı. Madam Saki Foriozonun yerini tutmuşdu. Prussiyalılar hələ Fransadan çəkilməmişdilər. Cənab Delalo böyük adam sayılırdı. Qanuni

intizam Plenye, Karbono və Tolleronun əvvəlcə əllərini, sonra isə başlarını kəsdikdən sonra yenicə möhkəmlənmişdi. Ober-kamerger knyaz Taleyran və maliyyə naziri olacağı ehtimal edilən abbat Lui iki şarlatan kimi bir-birinə rişxəndlə baxırdılar; hər ikisi 1790-cı il iyul ayının 14-də Mars meydanında, federasiya bayramı şərəfinə təntənəli bir ibadət keçirmişdi; Taleyran yepiskop, Lui isə dyakon sifətilə. 1817-ci ildə həmin Mars meydanının yan xiyabanlarında yağış altında və otun arasında, göy rəngə boyanmış iri taxta sütunlar çürüyürdü. Bu sütunların üzərində zəri tökülmüş qartal və arı təsvirləri vardı. Bu, iki il bundan qabaq May rəsm-keçidində imperator tribunasının altına vurulan dayaqlar idi. Sütunların bəzi yerləri Qro-Kayu yaxınlığında barak tikmiş avstriyalıların tonqallarından qapqara qaralmışdı. İki-üç sütun isə kayzer əsgərlərinin əllərini qızdırmaq üçün yanıb külə dönmüşdü. May rəsm-keçidinin xüsusiyyəti bunda idi ki, o, Mars meydanında, həm də mayda deyil, iyunda keçirilirdi[1]. 1817-ci ilin iki ən maraqlı hadisəsi Tuke tərəfindən nəşr edilmiş Volter, bir də içində konstitusiya haqqında fərman olan tütünqabı idi. Parisliləri həyəcana gətirən son hadisə öz qardaşının başını kəsib, Çiçək bazarındakı hovuza atmış olan Dotenin cinayəti idi. Bəhriyyə nazirliyində başıbəlalı "Meduza" freqatının işinə aid təhqiqata yenicə başlamışdılar, bu təhqiqat Şomareyə rüsvayçılıq, Jerikoya isə şöhrət gətirməli idi. Polkovnik Selv, Süleyman paşa olmaq üçün Misirə getmişdi. Laqarp küçəsindəki Term Sarayı bir çəlləkçi üçün alver dükanına çevrilmişdi. Klüni kaşanəsinin səkkizguşəli bürcünün meydançasında hələ də taxtadan inşa edilmiş kiçik bir köşk görmək olardı, bu, XVI Lüdovikin zamanında bəhriyyə idarəsinin astronomu Mesyenin rəsədxanası idi, hersoginya Düra divarlarına səmavi-göy rəngli atlaz çəkilmiş və ayaqları xaç şəklində olan kürsülər düzülmüş otağında üç, ya dörd nəfər dostuna hələ nəşr edilməmiş "Urika"nı oxuyurdu. Luvr sarayında hər yerdən "N" hərfini qazıyıb təmizləyirdilər. Austerlis körpüsü adını üstündən götürmüş və özünü Kral bağının körpüsü adlandırmışdı ki, bu da ikiqat bir müəmma idi, çünki bu ad altında əvvəlki adlar: Austerlis körpüsü və Nəbatat bağı körpüsü adları gizlənirdi. XVIII Lüdovik yenə əvvəlki kimi Horatsini oxuyur, kitabın haşiyələrində dırnağı ilə işarələr qoyurdu, lakin indi o, dönüb

[1] Bu sözlərin məcazi mənası var: *Champ-de-Mai* – May çölü (tarixən May rəsm-keçidi) və *Champ-de Mars* – Mars çölü (hərfi mənada Mart çölü) deməkdir.

imperator olan qəhrəmanların və şahzadə olan çəkməçilərin taleyi üzərində düşünməyə başlamışdı. Onun təşvişə düşməsinə iki nəfər səbəb idi: Napoleon və Matüren Brüno. Fransa akademiyası "Elmi məşğələlərin verdiyi səadət" mövzusunda bir müsabiqə elan etmişdi. Cənab Bellar rəsmi natiqlikdə şöhrət qazanmışdı. Onun kölgəsi altında gələcək prokuror müavini de Broe yetişməkdə idi: Pol-Lui-Kuryenin acı istehzalarına hədəf olmaq onun qismətinə yazılıbmış. Marşanjinin simasında yalançı Şatobrian tapılmışdı; d'Arlenkurun simasında yalançı Marşanji isə hələ zühur etməmişdi. "Klara Alba" və "Məlik Adil" nümunəvi əsərlərdən sayılırdı: madam Kotten əsrin ən yaxşı yazıçısı elan edilmişdi. Fransa institutu akademik Napoleon Bonapartın adını öz siyahısından pozmuşdu. Kralın xüsusi fərmanı ilə bütün Anqulem bəhriyyə məktəbinə çevrilmişdi: axı hersoq d'Anqulem general-admiral olmuşdu, ona görə də Anqulem haqlı olaraq bir dəniz limanı kimi qalmalı idi, yoxsa monarxiya üsuli-idarəsinin prinsipi pozulardı. Nazirlər Şurasında afişalarda akrobat oyunlarını təsvir edən şəkillərin dərc edilməsinə icazə verilib-verilməməsi məsələsi müzakirə edilirdi, çünki bu təsvirlər Frankoninin afişalarına xüsusi bir kəskinlik verir və afişaların qabağında dəstə-dəstə küçə uşaqları yığışırdı. "Aqneza"nın müəllifi, kvadrat sifətli, yanağı ziyilli cənab Paer, Vil-l'Evek küçəsində markiza de Sasenenin evində kiçik kamera konsertlərinə dirijorluq edirdi. Bütün cavan qızlar Sent-Avel rahibinin nəğməsini oxuyurdu: bunun mətnini Edmon Jero yazmışdı. "Sarı cırtdan" jurnalı "Güzgü" jurnalına çevrilmişdi. "Lamblen" kafesi Burbonların tərəfdarı olan "Valua" kafesinin acığına imperatora tərəf dururdu. Luvelin artıq qaranlıq bir yerdə pusduğu hersoq de Berrisk Siciliya şahzadəsi ilə yenicə evlənmişdi. Madam de Stalın vəfatından bir il keçirdi. Qvardiyaçılar madmazel Marsı fitə basırdılar. Böyük qəzetlər lap balaca olmuşdu. Bu qəzetlərin formatı məhdudlaşdırılmışdısa da, azadlığı məhdudlaşdırılmamışdı. "Məşrutəçi" qəzeti, doğrudan da, məşrutəçi olmuşdu. "Minerva" *Chateau-briand* familiyasını belə yazırdı: Chateau-briant[1]. "D" hərfi əvəzində adın axırında yazılan "t" burjuaların böyük yazıçıya ucadan istehza etməsinə səbəb olurdu. Vicdansız jurnalistlər 1815-ci ildə sürgün edilənləri satqın qəzetlərin səhifələrində təhqir edirdilər: David artıq istedadlı, Arno ağıllı, Karno isə namuslu deyildi; Sult artıq heç bir müharibədə

[1] Şatobrian

qələbə qazanmamışdı: Napoleon – bu bir həqiqətdir – daha dahi deyildi. Heç kimə gizli deyildir ki, Fransanın xaricində yaşayan şəxslərə poçtla göndərilən məktublar onlara çox nadir hallarda çatırdı, çünki polis idarəsi bu məktubları ələ keçirməyi öz müqəddəs vəzifəsi hesab edirdi. Bu, o qədər də təzə bir fakt deyil; hələ Dekart belə sürgündə yaşadığı zaman bundan şikayətlənirdi. Bir dəfə David Belçika qəzetlərindən birində ona göndərilən məktubları almadığından şikayətləndiyi zaman, royalist mətbuata bu çox məzəli göründü və sürgündə olan Davidin üzərinə istehzalar yağdırılmağa başlandı. Bəziləri "padşah qatilləri", deyirdi, o birilər "edama səs verənlər"; biri deyirdi: "düşmən", o biri deyirdi: "müttəfiqlər", biri deyirdi: "Napoleon", o biri deyirdi: "Buona-parte", bu da insanları ən dərin bir uçurum kimi bir-birindən ayırırdı. Bütün sağlam fikirli adamlar bu qərara gəlmişdilər ki, "Xartiyanın ölməz müəllifi" adı verilmiş kral XVIII Lüdovik inqilablar dövrünə həmişəlik son qoymuşdu. Yeni körpü yanında sahil enişində, IV Henrixin heykəlinə müntəzir olan pyedestalın üzərində *Redivivus*[1] sözünü qazmışdılar. Cənab Pyete, mütləqiyyəti möhkəmləndirmək məqsədilə, Tereza küçəsində, 4 nömrəli evdə gizli yığıncaq hazırlayırdı. Sağların başçıları çətin vəziyyətə düşəndə deyirdilər: "Bakoya yazmaq lazımdır". Kralın böyük qardaşı tərəfindən bir az təhrik edilən Kanüel, O' Maqoni və de Şapdelen sonralar "Sahil sui-qəsdi" deyə şöhrət tapan hadisənin layihəsini hazırlayırdılar. O biri tərəfdən "Qara sancaq" cəmiyyəti də sui-qəsdə hazırlaşırdı. Delaverdri Troqovla əlbir idi. Bir qədər liberal olan cənab Dekaz fikirlərə hakim idi. Şatobrian hər səhər Sen-Dominik küçəsindəki 27 nömrəli evinin pəncərəsi qabağında, əynində üzəngili uzun şalvar, ayaqlarında ev tuflisi, çal başında isə ipək yaylıq dayanardı. O, diş müalicə alətlərini qabağına düzüb, diqqətlə güzgüyə baxır və böyük diqqətlə qulluq etdiyi dişlərini qayğı ilə gözdən keçirərək, "Xartiyaya əsasən monarxiya" əsərinin müxtəlif variantlarını katibi cənab Pilorjuya diktə edərdi. Fikirlərə istiqamət verən tənqidçilər Lafonu Talmadan üstün tuturdular. De Feles "A" hərfi ilə, Qofman"Z" hərfi ilə imza edirdi. Şarl Nodye "Tereza Ober" əsərini yazırdı. Boşanma ləğv edilmişdi. Liseylər kollec adlanırdı. Yaxalıqlarında qızıl zanbaq nişanı olan kollec şagirdləri Roma kralı üstündə bir-birini kötəkləyirdilər. Sarayın gizli polis təşkilatı hersoginiya de

[1] Dirilmiş (*lat.*)

Şartra xəbər verirdi ki, hər yerdə qoyulmuş portretlərdə qusar polku general-polkovniki mundirində çəkilmiş hersoq d'Orlean draqun polkovniki mundirində çəkilmiş hersoq de Berridən daha görkəmlidir – bu, böyük qanqaralıq idi. Paris şəhəri Əlillər evini öz hesabına yenidən qızıl suyuna tutdurmuşdu. Ciddi adamlar bu və ya başqa vəziyyətdə cənab de Trenkelaqın necə hərəkət edəcəyini bir-birlərindən soruşurdular; cənab Klozel de Montal bəzi məsələlərdə cənab Klozel de Kuserqlə razılaşmırdı; cənab de Salaberi narazı idi. Komediya müəllifi Molyerin daxil ola bilmədiyi Akademiyanın üzvlüyünə qəbul edilən komediya müəllifi Pikar, Odeon teatrında "İki Filiber" pyesini tamaşaya qoyurdu, bu teatrın fasadında, qoparılmış hərflərin yerinə fikir verdikdə, "İmperatriçə teatrı" sözlərini oxumaq olardı. Bəziləri Künye de Montarlonun lehinə, bəziləri isə əleyhinə idi. Fabvye üsyançı idi, Bavu isə inqilabçı. Kitabçı Pelisye Volterin əsərlərini "Fransa akademiyasının üzvü Volterin əsərləri" sərlövhəsi ilə nəşr edirdi. Bu sadədil naşir deyirdi ki, "Bu, müştəriləri cəlb edir". Ümumun rəyincə, cənab Şarl Luazon əsrin dahisi olacaqdı; paxıllıq onu zəhərləməyə başlamışdı, bu isə şöhrət əlamətidir. Onun haqqında belə bir şeir qoşmuşdular:

Luazon oğrudur, fırıldaqçıdır,
Özünü bir şahin sanır o ancaq, –
Ayaqları ifşa eyləyir onu,
Luazon şahin yox, bir qaz imiş, bax[1].

Kardinal Feş, Lion yeparxiyasına olan hüququndan könüllü surətdə əl çəkmək istəmədiyinə görə, indi bu yeparxiyanı Amazi arxiyepiskopu de Pen idarə edirdi. İsveçrə ilə Fransa arasında Dapp vadisi üstündə deyişmə gedirdi; bu deyişmə sonralar general rütbəsinə qaldırılmış kapitan Düfurun məruzəsindən sonra başlamışdı. Hələ heç kəsin tanımadığı Sen-Simon öz əzəmətli xülyasını bəsləyirdi. Elmlər Akademiyasında nəsillərin çoxdan unutmuş olduğu məşhur Furye əyləşmişdi, bir damda isə başqa, naməlum bir Furye yaşayırdı. Bu Furyenin xatirəsi isə heç bir zaman unudulmayacaqdır. Lord Bayronun ulduzu parlamağa başlayırdı. Milvua bir şerinə yazdığı qeydində onun haqqında Fransaya məlumat verərək, onu

[1] Kitabdakı şeirlər İ.Soltan tərəfindən tərcümə edilmişdir.

“lord Bayron adlı birisi” adlandırırdı. David d’Anje mərmərə həyat vermək üçün təşəbbüs göstərməyə başlayırdı. İşsiz Felyantinlər dalanında, bir neçə seminaristin hüzurunda abbat Karon kimsənin tanımadığı bir keşişi mədh etmişdi. Bu keşiş sonralar Lameneyə çevrilən Felisite Rober idi. Suda çapalayan bir it kimi qəribə səslər çıxararaq, Sena çayında tüstüləyən və pıqqıldayan bir şey Tüilri sarayının pəncərələri qarşısında Kral körpüsündən XV Lüdovik körpüsünə qədər oyan-buyana gedib-gəlirdi. Bu, heç kəsə gərək olmayan, başı boş bir ixtiraçının uydurduğu mexaniki bir oyuncaq, bir utopiya, xülasə, paroxod idi. Parislilər bu faydasız əyləncəyə laqeyd baxırdılar. Dövlət çevrilişi, əmrlər və yeni təyinatlar vasitəsilə Fransa institutunda dəyişikliklər yaradan cənab Voblan bir neçə akademikin də yaranmasına səbəb oldu, lakin bu qəhrəmanlığı göstərməklə bərabər, özü onların sırasına daxil ola bilmədi. Sen-Jermen məhəlləsi ilə Marsen pavilyonu cənab Delavonu, dindarlığına görə, özlərinə polis prefekti istəmişdilər, Düpüitren və Rekamye Tibb məktəbinin anatomik teatrında bir-birilə söyüşür və Həzrəti-İsanın Allahın oğlu olub-olmaması barədə mübahisə edərək, bir-birini kötəkləməyə hazır idilər. Künye bir gözü ilə Tövrat kitabına, o biri gözü ilə təbiətə baxaraq, yerin altından qazılıb tapılanları Tövrat mətnləri ilə barışdırmağa çalışaraq və mastodontları Musanı mədh etməyə məcbur edərək, mürtəce möminlərə xoş görünməyə cəhd edirdi. Parmantyenin xatirəsini əziz tutan ləyaqətli Fransua de Nefşato “kartofel” sözünün “parmantofel” şəklində tələffüz olunması üçün çox səy göstərdisə də, buna müvəffəq ola bilmədi. Keçmiş yepiskop, keçmiş konvent üzvü, keçmiş senator abbat Qrequar royalistlərin mübahisələri nəticəsində “mənfur Qrequar” dərəcəsinə endirilmişdi. Bizim bu saat işlətdiyimiz “dərəcəsinə endirilmişdi” ifadəsi cənab Ruaye-Kollar tərəfindən neologizm elan edilmişdi. İen körpüsünün üçüncü tağı altında rənginin ağlığına görə başqalarından fərqlənən təzə bir daş vardı: körpünü barıt minası ilə partlatmaq istəyən Blüxerin əmələ gətirdiyi deşiyin yeri iki il bundan qabaq həmin daşla tutulmuşdu. Notrdam kilsəsinə girən qraf d’Artuanı görərkən ucadan “Lənət şeytana! Heyif o zamandan ki, Bonapartla Talma Vəhşilər balına qol-qola gəlirdilər!” deyən adamı ədalət məhkəməsi müqəssirlər skamyasında oturdu. Üsyankar sözlər: Yarım il həbs. Xainlər qol-qanad açmışdılar. Vuruşmadan bir gün qabaq düşmən

tərəfinə keçmiş adamlar aldıqları nişanları gizlətmir, utanmadan günün günorta çağında gəzişir, öz sərvətləri və rütbələri ilə həyasızcasına öyünürdülər. Lini və Katr-Bra fərariləri İngiltərədə ictimai ayaqyolularının içəri divarlarında yazılmış olan: *Please adjust your dress before leaving*[1] sözlərini yaddan çıxarıb, əclaf olduqlarını və sadiq təbəə hisslərini açıqdan-açığa nümayiş etdirirdilər.

Bu gün unudulmuş olan 1817-ci ildə bir-birinin ardınca aşkara çıxanlar budur. Tarix bu xüsusi təfsilata, demək olar ki, heç əhəmiyyət vermir, başqa cür də ola bilməz: əgər tarix başqa cür etsəydi, bu təfsilat sel kimi onu basıb məhv edərdi. Amma nahaq yerə xırda məsələ sayılan bu təfsilat faydalıdır, çünki bitki aləmi üçün həddindən artıq xırda yarpaqlar olmadığı kimi bəşəriyyət üçün də həddindən artıq kiçik faktlar yoxdur. Əsrlərin siması məhz ayrı-ayrı illərin simasından yaranır.

Həmin 1817-ci ildə dörd cavan parisli "məzəli hiylə" düzəltmişdi.

İkinci fəsil

İKİ KVARTET

Parisli dediyimiz bu dörd nəfərin biri tuluzalı, o biri limojlu, üçüncüsü kaqorlu, dördüncüsü isə montobanlı idi; lakin onlar tələbə idilər, tələbə olmaq isə parisli olmaq deməkdir, çünki Parisdə oxumaq – Parisdə anadan olmaq kimi bir şeydir.

Bu cavanların şəxsiyyətlərində heç bir maraqlı cəhət yox idi, bu cür cavanlara hamı təsadüf etmişdir. Elə "hər yoldan ötən" bu dörd nəfər üçün nümunə ola bilər. Bunlar nə mərhəmətli, nə kinli, nə alim, nə cahil, nə dahi, nə də axmaq idilər, lakin bunlarda bir sehr, bir cazibə var idi ki, buna da "iyirmi yaş" deyirlər. Bunlara sadəcə dörd Oskar da demək olardı, çünki o zaman hələ Arturlar yox idi. Bir romansda belə deyilirdi: "Onun yoluna Ərəbistan ətriyyatı səpin. Oskar gəlir, mən Oskarı görəcəyəm!" Ossiana qarşı maraq hələ sönməmişdi, skandinavlar və şotlandiyalılar zəriflik nümunəsi hesab olunurdular, əsl ingilis üslubu yalnız xeyli sonralar üstünlük qazandı və Arturların

[1] Çıxmamışdan qabaq paltarınızı düzəldin (*ing.*)

birincisi olan Vellinqton yalnız bu yaxınlarda, Vaterloo yanındakı vuruşmada qalib gəlmişdi.

Həmin Oskarların biri tuluzalı Tolomes, ikincisi kaqorlu Listolye, üçüncüsü limojlu Fameyl və dördüncüsü montobanlı Blaşvel idi. Əlbəttə, onların hər birinin məşuqəsi vardı. Blaşvel Favuritanı sevirdi, qız ingilis tərzində təhrif olunmuş bu adı İngiltərəyə gedəndən sonra almışdı: Listolye özünə çiçək adı seçmiş Daliyaya pərəstiş edirdi. Fameyl Jozefinadan qısaldılmış Zefina adını daşıyan bir qıza aşiq idi; Tolomes günəş rəngli gözəl saçları üçün Sarışın adı verilmiş Fantinanın sahibi idi.

Favurita, Daliya, Zefina və Fantina ətirli və parlaq olan dörd gözəl qız idi, bunlar işçi simasını hələ tamamilə itirməmiş və iynəsapdan hələ tamamilə əl çəkməmiş, sevgi macəraları ilə bir qədər yolundan çıxarılmış, lakin sifətlərində zəhmətin rəfiqəsi olan saflığı mühafizə etmişdilər. Bu dörd qızın birini, hamıdan kiçik olduğu üçün "cavan", o birini isə "qoca" adlandırırdılar. "Qoca"nın iyirmi üç yaşı vardı. Heç bir şey gizli qalmasın deyə etiraf edirik ki, birinci üç nəfər ilk xəyallar dövrünü keçirən sarışın Fantinadan daha artıq təcrübəli, daha yüngül idilər və həyatın gurultulu axını onları daha artıq cəlb etmişdi.

Daliya, Zefina və xüsusilə Favurita Fantina kimi təcrübəsiz deyildilər. Onların şairanə gəncliyinin yenicə başlanmış tarixində artıq bir neçə hadisə vardı və birinci fəsildə Adolf adlanan aşiq ikincidə Alfonsa, üçüncüdə isə Qustava çevrilirdi. Yoxsulluq və nasazlıq – pis məsləhətçilərdir: birisi deyinir, o birisi yaltaqlanır, yoxsul, lakin gözəl qızların qulağına hər ikisi nə isə pıçıldayır. Nəzarətsiz qəlblər bu səslərə qulaq asırlar. Nəticədə qızlar məhv olur, sonra da məhv olanlara daş atırlar. Günahsız və əlçatmaz olan şeylərin parıltısı ilə yazıqların gözünü qamaşdırır. Heyhat, Yunqfrau aclığa məruz qalsa idi, görəsən, onun işi necə olardı?

İngiltərədə olmuş Favuritanın iki pərəstişkarı vardı, – Zefina və Daliya, hələ ilk gəncliyində o, tamamilə tək yaşayırdı. Atası qoca riyaziyyat müəllimi idi. Kobud danışan və lovğalanmağı sevən bu adam evli deyildi və qocalığına baxmayaraq, evlərdə dərs deyərdi. Gəncliyində bu müəllim bir gün ev qulluqçusunun ətəyinin buxarı şəbəkəsinə ilişdiyini görür: bu, onun aşiq olması üçün kifayət edir. Bu sevginin nəticəsində Favurita dünyaya gəlir. Ara-sıra o, küçədə

atasına rast gəlir və atası onunla salamlaşırdı. Bir gün səhər zahirən müqəddəs adama oxşayan qoca bir qadın onun otağına girib dedi: "Xanım qız, məni tanımırsınızmı?" – "Yox" – "Mən sənin ananam". Sonra qarı bufeti açdı, yedi, içdi, öz döşəyinin dalınca adam göndərdi və qızının yanında qaldı. Deyingən və riyakar olan bu ana Favurita ilə heç bir kəlmə danışmaz, saatlarla dinməz oturar, dörd adamın payını yeyər, sonra isə aşağı enərək, qapıçı ilə boşboğazlığa başlar, qızının barəsində ona pis-pis şeylər danışardı.

Daliyanı Listolye ilə – bəlkə də, Listolyedən başqaları ilə birləşdirən və onu bekarçılığın ağuşuna atan onun olduqca qəşəng çəhrayı dırnaqları idi. Belə dırnaqları çirkin işlə necə korlamaq olar? Təmiz qalmaq istəyən qadın öz əllərini qorumamalıdır. Zefinaya gəldikdə isə onun hiddət və eyni zamanda nəvazişlə: "Bəli, cənab" – deməsi Fameyli ona aşiq etmişdi.

Gənclər dost idilər, gənc qızlar da dostlaşdılar. Bu cür sevgi əlaqələrində həmişə dostluğa rast gəlmək olar.

Ağıl və ismət müxtəlif şeylərdir. Favurita, Zefina və Daliya, əlbəttə, bu qeyri-qanuni izdivaclar haqqında bütün zəruri qeyd-şərtləri nəzərə alsaq, ağıllı qızlardı, Fantina isə ismətli qız idi.

"İsmətlimi? – deyə siz sual verəcəksiniz. – Bəs Tolomes?" Süleyman peyğəmbər cavab verərdi ki, məhəbbət ismətin bir hissəsidir. Biz isə ancaq bunu deyə bilərik ki, Fantinanın məhəbbəti ilk məhəbbət, yeganə və sadiq məhəbbət idi.

Bu dörd qızdan yalnız ona bircə nəfər kişi "sən" deyə müraciət etmişdi.

Fantina, necə deyərlər, xalqın lap içərilərində bəzən çiçəklənən məxluqlardan biri idi. İctimai zülmətin dibi görünməyən dərinliklərindən çıxaraq, o, alnında adsızlıq və məchulluq nişanəsi daşıyırdı. O, Monreyl-Sür-Mer şəhərində anadan olmuşdu. Onun ata-anası kim idi? Bu suala heç kim cavab verə bilməzdi. Adı Fantina idi. Nə üçün onu Fantina çağırırdılar? Onun başqa adı yox idi. O doğulduğu zaman hələ direktoriya dururdu. Onun ailəsi olmadığından familiyası da yox idi: onu xaç suyuna salanda verilən adı da yox idi, çünki o zaman kilsə ləğv olunmuşdu. Onu körpəlikdə ayaqyalın küçədə oynarkən təsadüfi bir yolçunun çağırdığı adla çağırmağa başladılar. O, yağış yağanda açıq başına sel kimi tökülən suyu necə itaətlə qəbul edirdisə, öz adını da eləcə itaətlə qəbul etmişdi və ona balaca

Fantina deyirdilər. Onun barəsində olan bütün məlumat bundan ibarət idi. Bu balaca bəşər övladı həyata bu cür qədəm qoymuşdu. On yaşında ikən Fantina şəhəri tərk etdi və şəhər ətrafında bir fermerin evində qulluq etməyə başladı. On beş yaşında ikən o, Parisə "səadət axtarmağa" gəldi. Fantina gözəl idi və bacardığı qədər özünü saxladı. Bu, gözəl dişləri olan qəşəng sarışın qız idi. Onun cehizi qızıl və mirvari idi: qızıl başında, mirvari isə ağzında idi.

O, yaşamaq üçün işləyirdi, sonra – yenə yaşamaq üçün sevdi, çünki adi aclıqdan başqa ürək aclığı da var.

O, Tolomesi sevmişdi.

Tolomes üçün bu – sevgi macərası, Fantina üçün – həqiqi ehtiras idi. Latın məhəlləsinin tələbələr və qrizentkalarla[1] qaynaşan küçələri onun sevdasının necə başlandığını görmüşdü. Panteon təpəsinin bu qədər eşq macəraları baş verən bu dolaşıq küçələrində Fantina uzun müddət Tolomesdən qaçırdı, lakin necə olurdusa, hər yerdə ona rast gəlirdi. Belə bir qaçmaq üsulu var ki, axtarmaq üsuluna çox oxşayır. Sözün qısası, çoban idilliyası başlanmışdı.

Blaşvel, Listolye və Fameyl dərnək kimi bir şey təşkil edirdilər ki, bunun da başçısı Tolomes idi. Bunların hamısından ağıllısı da o idi.

Tolomes getdikcə yox olan köhnə tələbə tipini təmsil edirdi: o varlı idi, ildə dörd min frank rentası vardı, dörd min franklıq rentamüqəddəs Jeneveva dağı üçün həddən artıq idi. Tolomes otuzyaşlı, tez xarab olmuş, dərisi qırışıq, dişləri tökülmüş əyyaş idi; bundan başqa, o dazlaşmağa başlayırdı və bu barədə özü qüssə ilə deyirdi ki, "otuz yaşında daz, qırx yaşında diz". Mədəsi yaxşı həzmə vermirdi və bir neçə vaxtdan bəri bir gözü sulanmağa başlamışdı. Lakin onun gəncliyi solduqca, o daha da şənləşirdi, dişlərini lətifələrlə, saçlarını şənliklə, sağlamlığını ironiya ilə əvəz etmişdi, onun ağlayan gözü isə hər an gülürdü. O köhnəlmişdi və eyni zamanda çiçək kimi təravətli idi. Onun vaxtından xeyli qabaq düşərgəsindən çıxmış gəncliyi tam qayda ilə, gülməkdən uğunaraq və parlaqlığı ilə hamının gözünü qamaşdıraraq geri çəkilirdi. "Vodevil" teatrı onun yazdığı pyesi rədd etmişdi. Ara-sıra o, zəif şeirlər yazardı. Dünyada heç nəyi bəyənməzdi ki, bu da zəiflərin nəzərində böyük qüvvədir. Beləliklə, öz ironiyası və daz başı ilə o başçılıq edirdi. *İron* – ingiliscə "dəmir" deməkdir. Belə "ironiya" sözü ondan əmələ gəlmişdi?

[1] *Qrizentka* – gənc qız, yüngüləxlaqlı qız (*fr.*)

Bir gün Tolomes cəmiyyətin qalan üç üzvünü kənara çəkdi və əsrarəngiz bir tövrlə onlara dedi:

– Az qala, bir ildir ki, Fantina, Daliya, Zefina və Favurita bizdən hədiyyə istəyirlər. Biz də təntənəli surətdə bunu onlara vəd etmişik. Onlar tez-tez bu vədi bizə, xüsusən, mənə xatırladırlar. Neapolda qarılar müqəddəs Yanuariyə: "Faccia qialluta, fa o miracolo!" – "Ay Sarı, bir möcüzə göstərsənə!" dedikləri kimi, bizim gözəllər də daim mənə təkrar edirlər: "Tolomes! Sürprizini nə zaman doğacaqsan?" Eyni zamanda ata-analarımız da bizə hey məktub göndərirlər. Bir sözlə, bizi hər iki tərəfdən didişdirirlər. Mənə elə gəlir ki, vaxt çatmışdır. Gəlin danışaq.

Bu yerdə Tolomes səsini alçaldaraq, gizli bir tərzdə elə gülməli bir şey söylədi ki, dördü də birdən bərk, şən qəhqəhə çəkdi və Blaşvel: "Bax bu ağıllı fikirdir!" deyə səsləndi.

Yolda bir meyxanaya rast gəldilər. Meyxana tütün tüstüsü ilə dolu idi. Onlar içəri girdilər və müşavirənin sonu bizə qaranlıq qaldı.

Bu xəlvət müşavirənin nəticəsi gələn bazar gününə təyin edilmiş bir gəzinti oldu. Dörd cavan oğlan bu gəzintiyə dörd cavan qızı dəvət etdi.

Üçüncü fəsil

DÖRD CÜT

Qırx beş il bundan əvvəl tələbələrlə yüngül əxlaqlı qızların şəhərkənarı gəzintisini bu gün təsəvvür etmək çətindir. Parisin ətrafı indi əvvəlkinə heç bənzəmir: "Parisə yaxın" deyilən həyatın siması yarım əsr ərzində tamamilə dəyişilmişdir. Keçmişdəki ikitəkərli arabanı vaqon, paketbotu paroxod əvəz etmişdi və bu gün Fekana səfər etmək Sen-Kluya səfər etmək kimi sadə bir işdir. 1862-ci ildə Paris bir şəhər, bütün Fransa isə onun ətrafı idi.

Gəzməyə çıxmış dörd cüt gənc, o zaman açıq havada mümkün olan hər cür səfeh hərəkətləri elədilər. Məktəblərdə tətil yenicə başlanmışdı, isti və günəşli bir yay günü idi. Qızların içində yeganə yazmağı bacaran Favurita bir gün ondan əvvəl dörd qızın hamısının adından Tolomesə belə bir məktub yazmışdı: "Çox yatmaq kəsalət gətirər". Bax buna görə də onlar səhər saat beşdə yuxudan

qalxdılar. Sonra dilicana minərək, Sen-Kluya getdilər. Orada olan susuz bir fəvvarəni seyr edərək: "Bu fəvvarəyə su buraxanda, yəqin ki, çox gözəl olur!" deyə çığırdılar, zəhər verən Kastenin hələ ayağı dəyməyən "Qara baş" meyxanasında nahar etdilər, böyük hovuz yanındakı, ətrafında çəp cərgələrlə ağac əkilmiş talada halqa oyunu oynadılar. Diogen fənərinin başına qalxdılar, Sevr körpüsü yanında badam qoğalı udmaq üçün ruletka oynadılar, Pütoda çiçək dərdilər, Nelidə tütək aldılar, bir neçə yerdə alma pirojnası yedilər, bir sözlə, tamamilə bəxtiyar idilər.

Qızlar qəfəsdən qaçmış birəbitdən quşları kimi gülüşüb ötürdülər. Sanki, başları duman içində idi. Arabir zarafatla gənclərə şapalaq çəkirdilər. Ah! Həyat baharının sərməstliyi! Gözəl dəmlər! Cırcıramaların titrək qanadları! Ey mənim oxucum, kim olursunuz olun, bu dəmləri xatırlayırsınızmı? Siz də sevdiyiniz qadınla yağışdan islanmış enişdə gülə-gülə sürüşərək oynamışsınızmı, o da əlinizdən tutaraq: "Heyif, mənim təzə botinlərimdən! Gör nə hala düşdü!" – deyə səslənmişdirmi?

Bunu deməliyik ki, bu dəfə bizim şən dəstəmizə yağış kimi nəşəli əngəl rast gəlmədi, ancaq yola düşməzdən əvvəl Favurita ana kimi öyüdverici bir tərzdə demişdi: "Uşaqlar, yollarda ilbizlər sürünür, deyəsən, yağış yağacaq!"

Qızların dördü də olduqca qəşəng idi. Vaxtilə böyük şöhrət qazanmış klassik bir şair, öz Elenorasını tərənnüm edən şevalye de Labius adlı mehriban bir qoca həmin gün səhər, saat ona yaxın, Sen-Kluda şabalıd ağaclarının kölgəsi altında dolaşarkən, bu dörd rəfiqəyə rast gəlmiş və üç gözəllik ilahəsini nəzərdə tutaraq: "Burada biri artıqdır!" deyə çığırmışdı. Blaşvelin sevgilisi hamısından böyük olduğu üçün "qarı" adlanan iyirmi üç yaşlı Favurita yaşıl ağacların qalın budaqları altında hamıdan irəlidə yüyürür, arxların üstündən tullanır, kolların üzərindən sıçrayır və bu şən dəstənin qabağında meşə pərisi kimi uça-uça gedirdi. Zefina ilə Daliyanı təsadüf elə yaratmışdı ki, onların gözəlliyi bir-birini tamamlayırdı, həm də onlar bir-birilə müqayisə edildikləri zaman daha gözəl görünürdülər. Bu iki rəfiqə dostluq ünsiyyətindən daha çox özlərinin təbii işvəkarlığı sayəsində bir-birindən ayrılmırdı və nazla bir-birinə söykənərək, özlərini ingilis ledilərinə bənzədərdilər; ilk "kipseklər" yenicə meydana çıxmışdı, bir az sonra kişilər arasında bayronizm dəb düşdüyü

kimi, qadınlar arasında da malxulya dəb düşmüşdü və bu zərif məxluqların saçları artıq hüznlü tellərlə sallanmağa başlamışdı. Zefina ilə Daliya saçlarını lülə kimi burub düzəldirdilər. Listolye ilə Fameyl öz professorları haqqında mübahisəyə girişmişdilər və cənab Delvenkurun cənab Blondodan nə ilə fərqləndiyini Fantinaya izah edirdilər.

Blaşvel, sanki, bazar günləri Favuritanın əlvan haşiyəli kəşmir şalını qolunun üstündə gəzdirmək üçün yaranmışdı.

Tolomes hamıdan dalda gedərək, bütün dəstəni idarə edirdi. O, çox şən idi, lakin onun başçı olduğunu dərk etdiyi görünürdü: zarafatlarında amirlik hiss olunurdu. Ən böyük zinəti "fil ayağı" fasonunda tikilmiş və mis zəncirdən üzəngiləri olan qumaş şalvarı idi, əlində 200 franklıq ağır əl ağacı vardı və o heç bir şeydən çəkinmədiyi üçün ağzında siqar adlanan qəribə bir şey görünürdü. Onun üçün heç bir müqəddəs şey yox idi – o tütün çəkirdi.

Dostları onun barəsində dərin bir hörmətlə deyirdilər:

"Bu Tolomes qiyamətdir! Belə də şalvar olar! Belə də enerji olar!"

Fantinaya gəldikdə, bu qız sevinc mücəssəməsi idi. Allah onun gözəl dişlərini yaradanda, yəqin ki, təbəssüm zamanı parlamağı onlara əmr etmişdi. Uzun ağ bağları olan sırınmış həsir şlyapasını başından çox qolunda gəzdirməyi sevərdi. Onun qalın, sarı, tez-tez dağılan, əfşan olan saçlarının daim sancağa ehtiyacı vardı və bu saçlar adama söyüdlər altında yüyürən Qalateyanı xatırladırdı. Çəhrayı dodaqlar vəcdlə nə isə söyləyirdi. Eriqonanın antik maskalarında olduğu kimi, dodaqlarının yuxarıya doğru qalxmış ucları sərbəstliyə sövq edir, lakin aşağı endirilmiş həyalı, sirli kirpikləri üzünün aşağı hissəsinin vədedici ifadəsini bir qədər yumşaldaraq, sanki, həyasız fikirlərdən saqındırırdı. Onun bütün geyimi ötən və parlayan bir şey təsəvvürü yaradırdı. Əynində çəhrayı-bənövşəyi rəngli ipək paltar, ayaqlarında nazik ağ şəbəkə corablar üzərində ipək lentlərlə bağlanan tünd-qırmızı kiçik başmaqlar, boynunda marsellilərin uydurduqları və kanberlilərin təhrif edərək, "kanzu" dedikləri muslin şərf vardı; quinze aout – avqustun on beşi, yəni "yaxşı hava", "isti", "günorta" deməkdir. Daha cəsarətli olan o biri üç qız yaxası çox açıq olan paltar geyinmişdilər və yay vaxtı olduğundan bu, onların çiçəklə bəzənmiş şlyapalarına çox yaraşır və özlərinə çox zərif və cəlbedici görünüş verirdi. Lakin bu açıq-saçıq geyimlərlə yanaşı, sarışın Fantinanın nəyi isə gizlədən və eyni zamanda, nəyi isə açıb göstərən ismətsiz kanzusu abırlılıq tapıntısı

kimi görünürdü və dəniz suyu rəngdə gözləri olan vikontessa de Setin sədrlik etdiyi məşhur məhəbbət məhkəməsi bu kanzuya, yəqin ki, iddia etdiyi ismətlilikdən daha çox işvəkarlıq üçün mükafat verərdi. Çox vaxt sadəlövhlüyün böyük məharət olduğu meydana çıxır.

Üzünün parlaq rəngi, zərif quruluşlu baş, mavi gözlər, ağır göz qapaqları, zərif balaca ayaqları, qolların valehedici cizgiləri, incə göy damarları bilinən ağ dəri, təravətli uşaq yanaqları, ekin yunonalarının[1] qüvvətli və zərif boynu, möhkəm peysər, sanki, Kustunun əli ilə yapılmış nazik muslinin altından görünən şəhvətli çuxurlar, xəyalpərvərliklə qarışıq şənlik, sanki, heykəltəraş əlindən çıxmış gözəl bədən təsəvvür edin – bu Fantinadır: parça və lentlər altında siz bir heykəl görər və bu heykəlin canlı ruha malik olduğunu hiss edərsiniz.

Fantina gözəl idi, lakin özü bunu dərk etmirdi. Bəzi xəyalpərvərlər, gözəllik allahının gördükləri hər şeyi dinməz mükəmməlliklə müqayisə edən əsrarəngiz xadimləri gənc tikişçi qızdakı Paris incəliyi arxasında antik və müqəddəs bir ahəngdarlıq hiss edərdi. Əsil-nəsəbi məlum olmayan qızda nəcabət hiss edilirdi. Onda həm stil, həm də ritm gözəlliyi vardı. Stil – idealın forması, ritm – onun hərəkətidir.

Yuxarıda demişdik ki, Fantina başdan-ayağa sevinc saçırdı, eyni zamanda çox həyalı idi.

Ona diqqət verən olsaydı, görərdi ki, gənclik, bahar və məhəbbət sərməstliyi arxasında bu qızda böyük bir təmkinlilik və təvazökarlıq duyulur. O, həmişə bir qədər heyrətlənmiş kimi görünürdü. Psixoeyanı Veneradan fərqləndirən də həmin bu bakiranə heyrətdir. Fantinanın barmaqları müqəddəs odun külünü qızıl sancaqla qarışdıran vestalkanın[2] barmaqları kimi uzun, ağ və nazik idi. İrəlidə aşkar görəcəyimiz kimi, o, Tolomesin heç bir xahişini rədd etməmişdisə də, sakitlik anlarında onun üzündə bir bəkarət ifadəsi olurdu: bəzən onda birdən-birə nə isə ciddi və demək olar ki, sərt bir ləyaqət görünürdü və bu üzdəki şənliyin sürətlə yox olaraq, sakit aydınlığın birdən dərin fikirlərlə əvəz olunduğuna heyrət və həyəcansız baxmaq olmurdu. Bəzən çox kəskin ifadə olunan bu gözlənməz ciddiyyət bir ilahənin təkəbbürünə bənzəyirdi. Fantinanın alnı, burnu və çənəsi ideal nisbətlərdən tamamilə fərqlənən və üzün cizgilərinin həmahəng olmasına səbəb olan ideal bir cizgidə idi: burunun qaidəsi ilə üst dodağı

[1] *Ekin yunonaları* – (*lat.: luno*), Qədim Romada qadınlıq, analıq, nikah və doğum ilahəsi
[2] *Vestalka* – Qədim Romada ilahə Vestanın kahinləri

arasında isə gizli bir ismət nişanəsi olan, güclə bilinən, valehedici bir çuxur vardı ki, Barbarossanın İkoniyada qazıntı zamanı tapılmış Dianaya aşiq olmasının da səbəbi bu çuxur idi.

Sevmək – günahdır, qoy elə olsun! Fantina günah girdabından üzə çıxmış günahsızlıq idi.

Dördüncü fəsil

TOLOMES ELƏ ŞƏNDİR Kİ, İSPAN MAHNISI OXUYUR

Bu gün, əvvəldən axıra qədər səhər günəşinin şüalarından toxunmuşdu. Sanki, bütün təbiəti tətilə buraxmışdılar və o şadyanalıq edirdi. Sen-Klunun çiçəklikləri ətir saçır, Sena çayının nəfəsi ağacların yarpaqlarını xışıldadır, yüngül meh budaqları tərpədir, arılar yasəmən koluna qonub onu qarət edirdi; bir dəstə kəpənək boymadərən, yonca və cır yulaf üstünə hücum etdi; Fransa kralının qoruq parkına bir dəstə hay-küyçü sərsəri doluşdu – bunlar quşlar idi.

Dörd cüt şən gənc, günəşə, tarlalara, çiçəklərə, meşəyə qovuşaraq, həyatın sevinci ilə nəşələnirdi.

Təbiətin behişti andıran bu bucağında gənc qızlar danışır, gülür, qaçışır, oynaşır, kəpənək qovur, zərif çəhrayı corablarını hündür otlar arasında isladaraq sarmaşıq qırırdılar, gənc, dəlisov, heç də tərs olmayan bu qızlar addımbaşı kişilərdən öpüş alırdılar, yalnız öz şüursuz, dalğın və ürkək fikirlərinə qapanmış Fantinadan, bu sevən qızdan başqa. Favurita ona deyərdi: "Sən həmişə özünü dağ başına qoyursan".

Həqiqi sevinclər belədir. Xoşbəxt cütlər həyata, təbiətə qüvvətli çağırışdır: onlar görünəndə bütün varlıq nəvaziş və işıq saçır. Bir zaman bir pəri varmış ki, ancaq sevgililər üçün meşə və çəmənlər yaratmışdır. Beləliklə, ölməz sevgililər məktəbi yaratmışdır. Nə qədər ki, meşələr və məktəblilər vardır, bu məktəb də həmişə mövcud olacaqdır. Buna görə də bahar mütəfəkkirləri cəlb edir. Patrisi və bıçaq itiləyən, per mənsəbinə qaldırılmış hersoq və xırda işçi, keçmişdə deyildiyi kimi, "saray əhli və şəhərlilər" – hamı bu pəriyə tabedir. Hamı gülür, hamı bir-birini axtarır. Havada bir apofeoz parıltısı

yayılmışdır – sevgi insanları gör necə dəyişdirir! Aciz bir notarius mirzəsi yarımallaha çevrilir. Bu yüngül sədalar, yaşıl otlar arasında bir-birinin dalınca qaçan bu gənclər, qaçaraq qucaqlanan bu qız beli, musiqi kimi səslənən bu sözlər, bircə hecanın ahəngi ilə özünü ələ verən bu pərəstiş, dodaqların dodaqlardan qopardıqları bu gilənarlar – hamısı səmavi bir mənliklə yanımızdan ötərək par-par yanır. Gözəllər şəhvət və səxavətlə özlərini bəxş edirlər. Hamıya elə gəlir ki, bu hal davam edəcəkdir. Filosoflar, şairlər, rəssamlar bu vəcdləri seyr edir və gözləri qamaşmış halda bunları necə əks etdirəcəyini bilmirlər. "Gəmi Kiferaya yola düşür!" – deyə Vatto səslənir; avamları əbədiləşdirmiş rəssam Lankre göylərə uçan şəhərlilərini seyr edir; Didro bütün aşiqlərə ağuşunu açır, d'Yurfe isə onların arasında druidləri görür.

Nahardan sonra dörd cüt gənc ozamankı kral çiçəkliyinə, bir az əvvəl Hindistandan gətirilən bitkiyə tamaşa etməyə getdilər: o zaman bütün Parisi Sen-Kluya cəlb edən bu bitkinin adı indi yadımızda deyil; bu, hündür gövdəli qəribə və gözəl bir kol idi, onun saysız-hesabsız sap kimi nazik, saçaqlanmış, yarpaqsız budaqları başdan-ayağa kimi xırdaca ağ güllərlə örtülmüşdü, buna görə kol üzərinə çiçək səpilmiş bir başı xatırladırdı. Onun ətrafı daim tamaşaçılarla dolu olurdu.

Ağaca tamaşa etdikdən sonra Tolomes: "Eşşəyə qonaq edirəm!" deyə çığırdı və sürücü ilə qiymət barəsində razılaşıb, dəstə Vanv və İssidən keçərək geriyə yola düşdü. İssidə bir hadisə baş verdi. İnqilab zamanı zəbt olunmuş və o zamana kimi ordu podratçısı Burgenin ixtiyarına keçmiş park təsadüfən açıq idi. Onlar parka girdilər, anaxoret oyuğu qoyulmuş mağaraya getdilər, məşhur güzgülü otağın – milyoner olmuş şöhrətpərəst satira və ya Priapa çevrilmiş Türkareyə layiq olan bu tələnin bütün əsrarəngiz təsirlərini hiss etdilər. Gənclər abbat de Berni tərəfindən mədh edilmiş iki şabalıd ağacının arasında asılan böyük torlu yelləncəyi lazımınca hərəkətə gətirdilər. Gözəl qızları növbə ilə yellədərək, gülüşür və qalxarkən, Qrezin özünü belə heyran edə biləcək qırışlar əmələ gətirən tumanlar arasında Tuluza əhli və bir qədər də ispaniyalı olan Tolomes – axı Tuluza Tolozanın xalası qızıdır – kədərli reçitativlə qədim ispan mahnısını oxuyurdu, bu mahnı da, yəqin, iki ağac arasında kəndirdə yellənərək yuxarı qalxan bir gözəlin təsirindən yaranmışdı:

Soy de Badajoz,
Amor me llama
Toda mi alma
Es en mis ojos,
Porque ensenas
A tus piernas[1].

Təkcə Fantina yellənmək istəmədi. Favurita xeyli kinayə ilə:

– Adamlar bu cür əzilib-büzüləndə lap zəhləm gedir, – deyə mırıldandı.

Eşşəklərə minib bir qədər gəzəndən sonra onlar başqa bir əyləncə tapdılar: qayıqla Senadan keçdilər və Passidən Ulduz qarovulxanasına qədər piyada getdilər. Gənclərin səhər saat beşdən ayaq üstündə olduqlarını unutmayın, lakin nə olsun ki! Favurita: "Bazar günü yorulmazlar, bazar günü yorğunluq özü də istirahətdir", – deyirdi. Saat üçə yaxın dörd cüt gənc bəxtiyarlıqdan sərməst olaraq, Bojon dağının təpəsindəki "rus dağları" deyilən qəribə bir qurğudan aşağıya yumbalandılar, bu dağların dolaşıqlı cizgiləri Yelisey yollarının ağacları üzərində görünürdü.

Favurita ara-sıra:

– Bəs sürpriz hanı? Mən sürpriz tələb edirəm! – deyə səslənirdi.

Tolomes: – Səbir edin, – deyirdi.

Beşinci fəsil

"BOMBARD MEYXANASINDA"

Gözəl rus dağlarında doyunca əyləndikdən sonra dostlar nahar barəsində düşünməyə başladılar və nəhayət, bir qədər yorulmuş səkkiz yoldaş, Rivoli küçəsində Delorm passajı yanında restoran saxlayan məşhur Bombardın Yelisey yollarındakı "Bombard" meyxanasına girdi.

[1] Mən balaxosluyam, ey gözəl afət,
Çağırır, "gəl" deyir mənə məhəbbət.
Zərif qıçlarının arabir, qəsdən
Üstünü açaraq sən göstərən vaxt
Mənim hissim, ruhum çıxır başımdan,
İkicə gözümdə cəm olur, inan.

Böyük, lakin çirkli bir otaq, otağın dərinliyində pərdə ilə örtülmüş bir çarpayı (meyxana bazar günü münasibətilə camaatla son dərəcə dolmuş olduğundan istər-istəməz bu otaqla kifayətlənməli oldular), ağacların yarpaqları arasından sahili və çayı seyr etməyə imkan verən iki pəncərə; pəncərələrdən içəri düşən parlaq avqust günəşinin şüaları, iki masa, birinin üzərində qadın və kişi şlyapaları ilə qarışıq bir yığın çiçək dəstəsi, o birinin arxasında isə boşqablar, şərab şüşələri, stəkanlar qarşısında oturmuş dörd cüt gənc, masa üstündə hər şeydə bir qədər qarışıqlıq, masanın altında isə daha çox tör-töküntü. Molyer demişkən:

Masa altda ayaqlar bir hay saldı ki, bir an
Sanki, çaxdı ildırım, lərzəyə düşdü hər yan.

Səhər saat beşdə bu qədər şairanə başlanan bu əyləncə axşam saat beşin yarısında bu halda idi. Günəş batır, iştah getdikcə azalırdı.

Günəş və camaatla dolmuş Yelisey yolları şəhərin iki tərkib hissəsi olan işıq və tozla dolu idi. Marlinin mərmər atları şahə qalxır və sanki, qızılı duman içində kişnəyirdilər. Ekipajlar oyan-buyana şütüyürdü. Neli küçəsi ilə, başda şeypurçu, bir eskadron ehtişamlı leyb – qvardiyaçı keçirdi: Tüilri sarayının qübbəsi üzərində axşam şəfəqinin şüalarından azacıq qızarmış ağ bayraq yellənirdi. İndi yenə XV Lüdovik meydanı adlanan Saziş meydanı gəzməyə çıxmış adamlarla qaynaşırdı. Bir çoxlarının yaxasında ağ muar[1] bantlar üzərində 1817-ci ildə hələ tamamilə yox olmamış gümüş zanbaqlar görünürdü. Alqışlayan tamaşaçıların dairəyə aldıqları dəstə ilə balaca qızlar o zaman məşhur olan bir nəğmə oxuyurdular. Bu nəğmədə Burbonlar tərif edilir. Yüz gün isə biabır edilirdi. Nəğmənin nəqəratı belə idi.

Gentdən bizim atamızı
Özümüzə qaytarın.

Paris ətrafının bayramsayağı geyinmiş, bəziləri isə burjualar kimi döşünə zanbaq taxmış əhalisi gurultulu dəstələrlə baş meydana və Marini meydanına yayılmışdı.

[1] *Muar* – iri dövri tor şəklin üst-üstə qoyulmasından alınan naxış (*fr.*)

Kimi oyun oynayır, kimi yelləncəkdə yellənir, kimi içirdi, mətbəə şagirdləri başlarına kağızdan papaq qoyub gəzirdilər, gurultulu qəhqəhə səsləri eşidilirdi. Şənlik hər yanı bürümüşdü. Bu dövr möhkəm sakitlik və royalistlər üçün tam təhlükəsizlik dövrü idi: məhz bu zamanlarda polis prefekti Anqlesin Parisin ətrafı haqqında krala verdiyi gizli və müfəssəl bəyanatlardan biri bu sözlərlə qurtarırdı: "Əlahəzrət, sağlam mülahizəyə görə, bu adamlardan qorxmağa heç bir əsas yoxdur. Onlar pişik kimi qayğısız və tənbəldirlər. Əyalət camaatı dinc durmur, amma Paris əhalisi belə deyil. Bunların hamısı balaca adamcığazlardır. Bu cırtdanların ən azı ikisindən əlahəzrətin bircə nəfər qrenadyor çıxar. Xeyr, paytaxtda yaşayan qara camaatdan heç bir qorxu ola bilməz. Maraqlı burasıdır ki, son əlli il ərzində bu adamların boyu daha da kiçilmişdir və indi Paris ətrafının əhalisi inqilabdan əvvəlkindən daha da cırdır. Onlar tamamilə təhlükəsizdir. Ümumiyyətlə, bunlar sadəlövh dələduzlardır". Polis prefektlərinin heç xəyalına belə gəlmir ki, pişik bəzən dönüb aslan ola bilər; lakin bu, mümkün bir şeydir və Paris camaatının ən gözəl xüsusiyyətidir. Ancaq qraf Anqlesin bu qədər həqarətlə baxdığı pişik antik respublikalarda hörmət sahibi idi, azadlığın timsalı sayılırdı və Pireydə qanadsız Afinanın heykəli yüksəldiyi kimi, Korinfdə şəhər meydanında tuncdan düzəldilmiş nəhəng bir pişik heykəli dururdu. Restavrasiya dövrünün sadəlövh polis idarəsi Paris camaatını həddindən artıq "dinc" zənn edirdi. Halbuki onlar bəzi adamların fikirləşdiyi kimi o qədər də "sadəlövh dələduzlar" deyildilər. Afinalı yunanlıdan necə fərqlənirdisə, parisli də fransızdan eləcə fərqlənir. Heç kəs onun kimi şirin yatmaz, heç kəsin yüngüllüyü və tənbəlliyi onunku kimi açıq-açığına deyil; sanki, heç kəs onun kimi tez unutmağı bacarmır, bununla belə, bu xassələrə o qədər də bel bağlamaq olmaz. Parisli hər cür qayğısızlıq göstərə bilər, lakin onun gözlərinə şöhrət günəşi göründüyü zaman o elə qızışır ki, siz heyrətdən donub qalırsınız. Siz ona nizə versəniz, 10 avqust gününü görərsiniz, silah versəniz, Austerlisi görərsiniz. Parisli Napoleonun istinadgahı və Dantonun köməkçisi deməkdir. Vətəni qorumaq lazım gələrsə, o, dərhal əsgər yazılır; azadlıq məsələsi doğarsa, o, küçənin daşlarını sökərək barrikada qurmağa başlayır. Özünüzü gözləyin! Əfsanəvi qəhrəmanlar kimi onun saçları qəzəb suyu ilə yuyulmuşdur. Onun pencəyi qədim yunanların rədasına bənzəyir. Ehtiyatlı olun! Parisli qarşısına

çıxan ilk küçəni, məsələn, Qrenet küçəsini Kavdin dərəsinə çevirə bilər. Vaxt gələr ki, Paris ətrafında yaşayan bu şəhərli, bu balaca adamcığaz boy atar, baxışları qorxunc, nəfəsi fırtına kimi coşqun olar, onun zəif, taqətsiz görünən sinəsindən elə bir qasırğa qopar ki, Alp dağlarının nəhəng zirvələri belə sarsılar. İnqilab məhz Paris ətrafının əhalisi sayəsində, ordu ilə birləşərək, bütün Avropanı fəth etmişdi.

Parisli nəğmə oxuyur – onun sevinci nəğmədədir. Oxuduğu nəğməni onun təbiəti ilə müqayisə etsəniz, nələr ola biləcəyini görərsiniz! Hələlik onun oxuduğu ancaq Karmanyoladır, o təkcə XVI Lüdoviki taxtından düşürür; qoyun o Marselyoza oxusun – o zaman bütün dünyanı azad edər.

Anqlesin təqdim etdiyi məlumat vərəqəsinin haşiyələrində bu sözləri yazdıqdan sonra biz yenə dörd qızla dörd oğlana qayıdırıq. Söylədiyimiz kimi, nahar qurtarmaq üzrə idi.

Altıncı fəsil

ONLAR BİR-BİRİNƏ PƏRƏSTİŞ EDİRLƏR

Süfrə söhbətləri və sevgi söhbətləri! Hər ikisi eyni dərəcədə ələ keçirilməz bir şeydir, "sevgi söhbətləri bir bulud, süfrə söhbətləri isə duman kimidir".

Fameyllə Daliya nə isə oxuyurdular; Tolomes içirdi; Zefina gülürdü, Fantina gülümsəyirdi. Listolye Sen-Kluda aldığı ağac tütəyi çalırdı. Favurita mehriban bir nəzərlə Blaşvelə baxaraq:

– Blaşvel, mən sənə pərəstiş edirəm, – deyə təkrar edirdi.

Bu sözlərə Blaşvel sualla cavab verdi:

– Favurita, mən səni daha sevməsəm, sən nə edərdin?

Favurita:

– Mənmi nə edərdim? – dedi. – Ah, sən bunu heç zarafatla da söyləmə! Mən sənin üstünə atılıb üzünü cırmaqlar, dişlərdim, başına su tökərdim, səni tutdurub həbsə saldırardım.

Blaşvel mənliyi qıcıqlanmış bər-bəzəkli və boş bir adam kimi özündən razı halda, çirkin bir əda ilə gülümsədi.

Favurita sözünə davam edərək dedi:

– Mən dərhal çığırardım ki, tutun onu! Mən sənin nazını çəkən deyiləm, yaramaz!

Blaşvel tam heyran olmuş halda stula söykəndi və təkəbbürlə gözlərini qıydı.

Daliya, nə isə çeynəyə-çeynəyə, ümumi gurultu içində pıçıltı ilə Favuritadan soruşdu:

– Demək, sən öz Blaşvelinə yaman vurulmusan, eləmi?

Favurita yenə yeməyə başlayaraq, yavaşca cavab verdi:

– Mənmi? Mən ona nifrət edirəm. O, çox xəsisdir. Mən otağımın qabağında yaşayan oğlanı sevirəm. Çox sevimli, cavan bir oğlandır. Sən onu tanımırsan? O saat görünür ki, o, aktyor olacaq. Mən aktyorları çox sevirəm. O, evə qayıdanda anası deyir: "Aman ya rəbb, rahatlığım qurtardı! O, yenə çığırmağa başlayacaqdır. Əzizim, mənim başım çatlayır!" Ona görə ki, oğlan bütün evi dolaşır, siçovulla dolu olan çardağa çıxır, bütün qaranlıq bucaqlara soxulur, nəğmə oxumağa, şeir deməyə başlayır, özü də elə bərkdən deyir ki, aşağıda eşidilir. Bir vəkilin yanında işləyir və hələ indidən gündə 20 su pul qazanır, vəkil üçün cürbəcür fitnəkar kağızlar yazır. Atası Sen-Jak-dü-O-Pa kilsəsində müğənni imiş. Ah, elə qəşəng oğlandır! Mənə elə vurulub! Bir gün mən oladya[1] üçün xəmir yoğuranda əllərimi xəmirli görüb: "Madmazel, əlcəklərinizdən oladya hazırlayın, verin yeyim" – dedi. Belə sözləri ancaq artistlər söyləyə bilər. Ah, elə sevimlidir! Az qalıram ona görə başımı itirəm. Ancaq bunun nə dəxli var? Mən Blaşvelə deyirəm ki, ona pərəstiş edirəm. Amma nə yalan deyirəm! Nə yalan!

Favurita bir qədər susdu, sonra yenə sözünə davam etdi:

– Bilirsənmi, Daliya, adam yaman darıxır! Yay uzunu elə hey yağış yağır, külək əsəblərimə toxunur, sakitləşmək istəmir. Blaşvel isə çox xəsisdir: bazarda heç nə yoxdur, təkcə göy noxud tapmaq olur. Adam bilmir nə etsin. İngilislər demişkən, məndə splin[2] xəstəliyi var! Yağ elə bahadır ki! Həm də, bax gör nə iyrənc səhnədir – biz çarpayı olan otaqda nahar edirik: bunu görəndə mən heç yaşamaq istəmirəm.

---

[1] *Oladya* – buğda unundan bişirilən kökə

[2] *Splin* – məyusluq, hüzn, kədər

Yeddinci fəsil

TOLOMESİN HİKMƏTİ

Bəziləri oxuyur, bəziləri bir-birinin səsini batırıb söhbət edirdilər; səslər bir-birinə qarışıb pozuq bir gurultuya çevrilirdi. Nəhayət, Tolomes səsini ucaltdı:

– Bəsdir boş-boş, özü də fasiləsiz danışdınız. Nitqin parlaq olmasını istəyirsinizsə, nə deyəcəyinizi yaxşıca düşünün. Çox hazırcavab olanın başı tez boşalar. Ağzı açıq qalmış pivə köpüklənməz. Tələsməyin, cənablar! Gəlin bu içki məclisimizə bir əzəmət verək, qayda ilə yeyək, aramla kef edək. Tələsmək lazım deyil. İlk bahardan nümunə götürün: çox tələsik addımlarla gedərsə, donar. Onun çox tələsməsi şaftalı və qaysı ağaclarını öldürür. Bizim də çox tələsməyimiz gözəl ziyafətlərin incəliyini və şənliyini öldürür. Cənablar, çox tələsməyin! Qrimo de la Renyer bu barədə Taleyranla tamamilə razılaşır.

Boğuq bir uğultu eşidildi. Hamı etiraz edirdi.

Blaşvel:

– Tolomes, bizi rahat burax, – dedi.

Fameyl:

– Rədd olsun müstəbid! – deyə bağırdı.

Listolye:

– Yaşasın meyxana, meyxana şərabı, meyxana şənliyi! – deyə çığırdı.

Fameyl sözünə davam edərək:

– Elə bazar günü də bunun üçündür, – dedi.

Listolye isə:

– Biz lap ayığıq, – deyə əlavə etdi.

Blaşvel dedi:

– Tolomes, mənim kanaliya səbrimə qiymət ver!

– Bəli, lap Monkalm səbridir.

Bu sözlərdəki zəif cinas gölə düşən bir daş kimi təsir etdi. Markiz Monkalm o dövrün məşhur royalisti idi. Dərhal qurbağaların səsi kəsildi.

Tolomes yenə nüfuza minmiş bir adam kimi sözünə davam edərək:

– Dostlar, başınızı itirməyin, – dedi. – Doğrusu, göydəndüşmə olan bu lətifə sizin bu qədər pərt olmağınıza dəyməz. Göydən düşən hər şey heyrətə və hörmətə layiq deyildir. Lətifə – yüksəklərdə qanad çalan bir zəkanın yerə buraxdığı zirzibildir. Zarafat təsadüfi bir hədəfə dəyir, zəka isə növbəti bir sarsaqlıq elədikdən sonra, göylərə ucalır. Qayada yayılan ağımtıl bir ləkə qaraquşun uçmasına mane olmur. Mən lətifəni pisləmək niyyətində deyiləm. Mən lətifəyə hörmət edirəm, ancaq ləyaqətinə görə, artıq yox. Bəşəriyyətdə, bəlkə də, bəşəriyyət xaricində ən ülvi, ən gözəl və ən cazibədar nə varsa, hamısı məcazi sözlərlə əylənmişdir. İsa müqəddəs Pyotr, Musa – İshaq, Esxil – Polinik, Kleopatra – Oktavi haqqında lətifə söyləmişlər. Unutmayın ki, Kleopatra öz lətifəsini Aksium vuruşmasından əvvəl söyləmişdi və bu lətifə olmasaydı, yunanca mənası "aşpaz şagirdi" olan Torin şəhərini kimsə xatırlamazdı. Bunu müəyyən etdikdən sonra, mən yenə öz çağırışıma qayıdıram. Qardaşlarım, yenə təkrar edirəm, tələsməyin, az səy edin və az vurnuxun, hər şeydə, hətta zarafatda, şənlikdə belə, bir həddi lazımdır. Amfiarayın zəkasına və Sezarın daz başına malik olan bir şəxsin sözlərinə qulaq asın. Hər şeyin, hətta cinasların da bir həddi olmalıdır. *Est modus in rebus*[1]. Gözəl yeməklərin belə həddi olmalıdır. Xanımlar, siz alma kökəsini sevirsiniz, amma ehtiyatlı olun, çox yeməyin. Alma kökəsi yemək üçün də bir az ağıl və zövq lazımdır. Çox yeməyi sevən adam həmişə öz qarınqululuğunun cəzasını çəkər – *gula punit Gulax*. Allah həzm pozğunluğunu mədələri tərbiyə etmək üçün yaratmışdır. Bunu yadınızda saxlayın: hər bir ehtirasımızın, hətta eşqin belə öz mədəsi vardır ki, onu çox yükləmək lazım deyil. Hər zaman, hər şeyin üzərində vaxtında "bəsdir" sözünü yazmağı bacarmaq lazımdır. Lazım gəldikdə özünüzü ələ almalı, iştahanızı qıfıllamalı, xəyalatınızı həbs etməli və hətta özünüzü polis idarəsinə belə aparmalısınız. Ağıllı o adama deyərlər ki, vaxtında özünü dustaq edə bilsin. Mənə, heç olmasa, bir az etimadınız olsun. Mən necə olsa da, hüquq elmləri ilə məşğul olmuşam, bunu mənim verdiyim imtahanlar təsdiq edir, mən istintaqa verilməli işlə istintaqda olan iş arasındakı fərqi bilirəm; mən Romada Munasi Demens, ata qətlinə dair işlər üzrə kvestor olduğu zaman tətbiq edilən edam üsulları haqqında latın dilində dissertasiya müdafiə etmişəm, mən, çox güman ki,

[1] Hər bir şeyin dərəcəsi olmalıdır (*lat.*)

hüquq doktoru olacağam; lakin bütün bunlardan mənim büsbütün axmaq olduğum haqqında elə də şəksiz nəticə çıxarmaq olmaz. Məsləhət görürəm, arzularınızda bir az mötədil olasınız. Adamın Feliks Tolomes olduğunu necə bilərəmsə, söylədiklərimin də doğru olduğunu elə bilirəm. Xoşbəxt o adamdır ki, qəhrəmanlıq tələb edən bir qərara vaxtında gələ bilir və Sulla, yaxud Origen kimi hakimiyyətən əl çəkir!

Favurita böyük bir diqqətlə dinləyirdi. Burada Tolomesin sözünü kəsərək dedi:

– Feliks! Nə gözəl sözdür! Bu ad mənim çox xoşuma gəlir. O, latın adıdır. Bizcə o, bəxtiyar deməkdir.

Tolomes sözünə davam edərək:

– Kviritlər, centlmenlər, kavalyerolar, dostlarım! – dedi. – Şəhvətə qapılmamaq, eşqsiz və izdivacsız yaşamaq yollarını bilmək istəyirsinizmi? Bundan sadə bir şey yoxdur! Budur bunun resepti: limonad için, hərəkət edin, ağır iş görün, əldən düşün, daş daşıyın, yatmayın, gecələri oyaq keçirin, selitralı içkilər və ağ nilufər həlimi için, xaşxaş və istiot suyundan ləzzət alın, bunların hamısına əlavə olaraq pəhriz saxlayın, acınızdan ölün, üstəlik, soyuq vannalar qəbul edin, quru otlardan kəmər bağlayın, boynunuza qurğuşundan bir lövhə yapışdırın, Saturn cövhəri məhlulu, sirkəli və şəkərli sudan islatma qoymağı unutmayın.

– Məncə, qadın bunlardan yaxşıdır, – deyə Listolye səsləndi.

– Qadın! – deyə Tolomes təkrar etdi. – Qadından özünüzü qoruyun! Vay o adamın halına ki, qadının dəyişkən qəlbinə inana! Qadın vəfasız və hiyləgərdir. Qadının ilandan ona görə zəhləsi gedir ki, ilana paxıllıq edir. İlan qadının rəqibidir.

– Tolomes, sən sərxoşsan! – deyə Blaşvel bağırdı.

– Özü də kefin istəyən kimi, – deyə Tolomes təsdiq etdi.

– Elə isə şən ol, şən, – deyə Blaşvel sözünə davam etdi.

– Razıyam.

Tolomes stəkanını doldurdu və ayağa qalxaraq sözünə davam etdi:

– Eşq olsun şəraba! *Nuno te, Bacche, canam*[1]. Xanımlardan üzr istəyirəm, – bu ispancadır. Senyorlar, sübutmu istəyirsiniz, buyurun, qabın həcmi də xalqın təbiətinə görədir. Kastiliya arrobası on altı litr,

[1] Bakx, səni mədh edirəm! (*lat.*)

Alikanta kantrosu – on iki litr. Kanar adalarının almudu – iyirmi beş, Balear adaları kuartini – iyirmi altı, çar Pyotrun çəlləyi – otuz litr tutur. Yaşasın nəhəng boylu olan bu padşah, yaşasın ondan da böyük olan çəlləyi! Xanımlar, sizə bir dost nəsihəti edəcəyəm: qonşularınızı dolaşıq salmaqdan çəkinməyin, səhv etmək – eşqin xasiyyətidir. Eşq macərası daim döşəmə yumaqdan dizləri qabar olan ingilis xidmətçi qadını kimi lap kütləşənədək dizi üstə sürünmək üçün yaranmamışdır. Eşq macərası, o gözəl və dadlı macəra, bunun üçün yaranmadığından şən-şən səhvlər edir! Kim isə demişdir: "Səhv etmək insana xas olan bir şeydir"; mən isə deyirəm ki, səhv etmək aşiqlərə xasdır. Xanımlar, mən hamınıza pərəstiş edirəm. Ah, Zefina, ah, Jozefina, sizin üzünüzdə hər şey yerində olsaydı, çox gözəl olardınız. Qəşəng üzünüzün elə görünüşü var ki, elə bil, kim isə bir dəfə səhvən onun üstündə əyləşmişdir. Favuritaya gəlincə, – ah! Ey pərilər, ey mələklər! Blaşvel bir dəfə Geren-Buasko küçəsindəki xəndəkdən keçərkən ayaqlarını yoldan keçənlərə göstərən ağ corablı gözəl bir qız gördü. Bu müqəddimə Blaşvelə çox xoş gəldi və qıza vuruldu. Onun vurulduğu qız Favurita idi. Oh, Favurita, sənin gözəl dodaqların yunan qızlarının dodaqlarına bənzəyir! Vaxtilə Yunanıstanda Evforion adlı bir rəssam vardı. Bu rəssam gözəl dodaqlar çəkməkdə böyük şöhrət qazanmışdı. Yalnız bu yunanlı sənin gözəl dodaqlarını çəkməyə layiqdir. Qulaq as! Dünyada sənə qədər bu ada layiq bir məxluq olmamışdır! Sən Venera kimi qızıl almanı almaq və ya Həvva kimi onu yemək üçün yaranmışsan! Gözəllik səndən başlanır. Mən indicə Həvvanın adını çəkdim, onu sən yaratmısan. Sən qəşəng qadın ixtira etmək üçün patent almağa tamamilə layiqsən. Uf, Favurita! Mən artıq sizə "sən" deməyəcəyəm, çünki artıq şeri buraxaraq nəsrə keçməkdəyəm. Siz mənim adımı çəkdiniz. Bu, mənə çox təsir etdi, lakin biz necə adam olsaq da, adlara inanmamalıyıq, adlar insanı aldadır. Mənim adım Feliksdir, lakin mən o qədər də xoşbəxt deyiləm. Sözlər yalançıdırlar; onların verdikləri mənaya kor-koranə inanmaq lazım deyil. Bearn probkası üçün Lejə, Lej əlcəkləri üçün Bearna getmək səhv olardı. Miss Daliya, mən sizin yerinizə olsaydım, adımı Qızılgül qoyardım. Çiçəyin gözəl ətri, qadının isə ağlı olmalıdır. Fantina haqqında mən heç bir söz deməyəcəyəm. O, xəyalpərvər, dalğın fikirli və həssas bir qızdır; o, pəri şəklində bir xəyaldır, o, yolunu azan və yüngül əxlaqlı bir

qız kimi yaşayan, lakin xəyal aləmində təsəlli axtaran, nə gördüyünü və nə etdiyini düşünmədən oxuyan, dua edən və göyləri seyrə dalan bakir bir rahibə donuna girmişdir; o, nəzərlərini göylərə zilləmiş bir xəyaldır, o, elə bir bağda gəzir ki, oradakı quşların sayı bütün həqiqi aləmdə olan quşların sayından qat-qat çoxdur! Ey Fantina, bil ki, mən, Tolomes – yalnız bir xəyalam. Lakin bu sarışın mələk məni heç dinləmir! O, başdan-ayağa qədər təravət, naz və gözəllik, gənclik mücəssəməsidir, onda aydın bir səhər saflığı görünür. Ey Fantina, ey qızçiçəyi və ya inci adlanmağa layiq olan qız, siz yenicə açılan şəfəqsiniz. Xanımlar! Sizə ikinci məsləhətim budur: ərə getməyin. İzdivac peyvənd kimi bir şeydir; ya yaxşı çıxa bilər, ya da pis; belə bir təhlükədən uzaq qaçın. Mən nə danışıram? Bu sözlər bihudədir. Toy söhbəti gedən yerdə qızlar əlacsız, çarəsiz bir xəstəyə çevrilirlər. Biz filosoflar nə desək də, dərzi və krujevaçı qızlar brilyant içində üzən ərlər arzulamaqdan əl çəkməzlər. Nə edək, elə olsun, lakin, gözəl qızlar, bir şeyi yadda saxlayın, siz həddindən çox şəkər yeyirsiniz! Ah qadınlar, sizin bircə nöqsanınız var: siz daim şəkər gəmirirsiniz! Ey gəmiricilər cinsindən olanlar, sizin qəşəng ağ dişləriniz şəkəri çox sevir! Ona görə diqqətlə qulaq asın: şəkər duz kimi bir şeydir. Hər cür duz adamı qurudur. Şəkər isə hər bir duzdan artıq qurudur. Şəkər qanın maye elementlərini damarlardan sorur; qanın laxtalanması, sonra büsbütün quruması, ciyərlərdəki düyünlər və nəhayət, ölüm bundan irəli gəlir. Məhz buna görə şəkər xəstəliyi ilə vərəm arasında fərq azdır. Odur ki şəkər yeməyin, o zaman çox yaşayarsınız. İndi mən kişilərə keçirəm. Ağalar, mümkün qədər çox qələbə çalmağa çalışın. Vicdan əzabı çəkmədən bir-birinizin sevgilisini qoparıb almağa çalışın. Rəqsdə olduğu kimi, qadınlarla birləşin, sonra yenə ayrılın. Eşqdə dostluq yoxdur. O yerdə ki qəşəng bir qadın var, orada hər an düşmənçilik törəyə bilər. Aman verməyin, ölüm-dirim müharibəsi aparın! Qəşəng qadın *Casus belli-gup*[1], cinayət üçün bir səbəbdir. Tarixdəki bütün basqınlar, toqquşmalar bir qadın tumanının araya qarışması nəticəsində olmuşdur. Qadın kişinin haqqıdır. Romul Sabinya qızlarını, Vilhelim Saksoniya qızlarını, Sezar isə Roma qızlarını qaçırmışdır. Sevgilisi olmayan adam, qırğı kimi özgələrinin sevgililəri üzərində uçar. Mənə gəldikdə, mən bu biçarə kişilərə Napoleonun İtaliya ordusuna dediyi gözəl sözləri

[1] Müharibə üçün bəhanədir (*lat.*)

deyirəm: “Əsgərlər, sizin heç bir şeyiniz yoxdur. Düşmənin hər şeyi vardır”.

Tolomes dayandı.

Blaşvel:

– Bir az nəfəs al, Tolomes, – dedi.

Bu halda Blaşvel həzin bir ahənglə oxunan fəhlə nəğmələrindən birini oxumağa başladı. Listolye və Fameyl də onun səsinə səs verdilər. Bu nəğmələr təsadüfən ağıza gələn, qafiyəli, yaxud tamamilə qafiyəsiz, ağac budaqlarının hərəkəti və küləyin gurultusu kimi mənasız olan sözlərdən ibarət idi. Onlar çubuqların tüstüsü içərisində doğaraq onunla birlikdə havaya uçur və yox olurdu. Bu üç adam Tolomesin nitqinə belə bir kupletlə cavab verdi:

Bizim axmaq, küt adamlar
Yedizdirdi keşişləri
Ki, Sen-Janda papa ola.
Bəlkə, Klermon-Toneri,
Kim yaranmış səfeh, qanmaz,
Əsla ondan papa olmaz.
Aldıqların qaytardılar
Bizim bu axmaq atalar.

Lakin bu nəğmə də Tolomesin natiqlik həyəcanını sakit etmədi. O, stəkanını boşaltdı, onu yenidən doldurdu və sözünə davam edərək:

– Yox olsun hikmət! – dedi. – Bütün söylədiklərimi yadınızdan çıxarın. Nəyə lazım ağıl, ədəb, əxlaq? Mən şadlıq eşqinə içməyi təklif edirəm. Şad olaq! Öyrəndiyimiz hüquq dərslərini əyləncələrlə, yeməklə tamamlayaq! Yaşasın məhkəmə boşboğazlığı və mədəmizin işi! Qoy Yustinian və Ziyafət bir-birilə evlənsin! Ey dərin sevinclər! Ey dünya, var ol! Kainat gözəl bir incidir. Mən xoşbəxtəm. Hər yerdə gözəl quşlar uçur, hər tərəfdə şənlik var! Bülbül də pulsuz Elevyüdür. Ey yay fəsli, xoş gəlmisən! Ah, ey Lüksemburq bağı! Ey Şahzadə xanım küçəsində və rəsədxana xiyabanında yaradılan dastanlar! Ey dalğın əsgərciyəzlər! Ey uşaqları gəzdirməklə bərabər, məhəbbət əyləncələrindən də çəkinməyən gözəl dayələr! Başımız üzərində Odeon qübbələri olmasaydı, Amerika pampasları mənim xoşuma gələ bilərdi. Mənim ruhum insan ayağı görməmiş meşələrə və ucsuz-bucaqsız

səhralara uçur. Hər şey gözəldir! Günəşin işığında milçəklər vızıldaşır. Günəş asqırdı, milçəkquşu doğuldu. Öp məni, Fantina!

Tolomes yanıldı və Favuritanı öpdü.

Səkkizinci fəsil

ATIN ÖLÜMÜ

Birdən Zefina çığırdı:

– Amma Edonun xörəkləri Bombardınkından daha ləzzətlidir.

Blaşvel dedi:

– Məncə, Bombard daha yaxşıdır. Burada dəbdəbə, asiyalılıq daha çoxdur. Hələ bir aşağı mərtəbəyə baxın. Divarlarda güzgülər gör necə parlayır.

Favurita cavabında:

– Divarlardansa boşqabları parlasaydı, daha yaxşı olardı, – dedi.

Blaşvel yenə israr edərək:

– Hələ bıçaqlara baxın. Bombardın bıçaqları gümüşdəndir. Edonunku sümükdən. Gümüş isə sümükdən daha bahalıdır.

Tolomes dedi:

– Lakin gümüşdən özlərinə diş düzəltdirənlər üçün yox, – Tolomes bu sözləri söylərkən meyxananın pəncərəsindən görünən Əlillər evinin qübbəsini seyr edirdi.

Hamı sükut etdi.

– Tolomes! – deyə Fameyl bağırdı. – İndicə Listolye ilə aramızda bir mübahisə gedirdi.

– Mübahisə yaxşı şeydir, – deyə Tolomes cavab verdi. – Lakin savaşmaq daha yaxşıdır.

– Biz filosoflar haqqında mübahisə edirdik.

– Çox gözəl.

– Sən kimi üstün tutursan – Dekartı, yoxsa Spinozanı?

– Dezojyeni, – deyə Tolomes cavab verdi.

Heç bir etiraza yol verməyən bu qərardan sonra o, şərabını içərək davam etdi:

– Mən yaşamağa razıyam. Nə qədər ki boşboğazlıq etmək mümkündür, demək, yer üzündə hələ hər şey bitməmişdir. Bundan ötrü

mən ölməz allahlara şükür edirəm. Biz yalan danışırıq, həm də gülürük. Biz fikrimizi qəti söyləsək də, yenə də şübhədən azad deyilik. Bu gözəldir. Gözlənilməyən hadisələr sillogizmdən əmələ gəlir. Yer üzündə hələ də içi paradokslarla dolu olan gizli qutunu şən-şən açıb-bağlamağı bacaran adamlar vardır. Xanımlar, bilin ki, sizin bu qədər həvəssiz içdiyiniz şərab – dəniz səthi üzərində üç yüz on yeddi tuaz[1] hündürlükdə bitən üzümdən hazırlanmış madera şərabıdır! Onu içərkən bu rəqəmə fikir verin. Üç yüz on yeddi tuaz! Bizim ehtişamlı meyxanaçımız cənab Bombard isə bu üç yüz on yeddi tuazı sizə dörd frank əlli qəpiyə verir.

Fameyl yenə onun sözünü kəsərək:

– Tolomes, – dedi, – sənin rəyin qanundur. Sənin sevdiyin müəllif kimdir?

– Ber...

– ...gen?

– Yox... şu.

Tolomes yenə davam etdi:

– Bombarda alqışlar olsun! O, mənim üçün bir rəqqasə tapmış olsaydı, Elefantlı Munofis mislində, gitara tapmış olsaydı, Tigelion de Kerone mislində ola bilərdi. Bilin, agah olun, xanımlar, Yunanıstanda, Misirdə də Bombardlar olmuşdur. Bunu bizə Apuley nağıl edir. Əfsus! Hər şey təkrar olunur, dünyada yeni heç bir şey yoxdur. Allahın yaratdıqlarında məlum olmayan bir zərrə belə qalmamışdır! Süleyman peyğəmbər deyir ki: "*Nil sub sole novum*"[2]. Vergili isə deyir ki, "*Amor omnibus idem*"[3]. Öz rəfiqəsi ilə Sen-Kluya gedən bir medikus qaliota, vaxtilə Samos donanmasının qaleralarından birinə minən Aspaziya və Perikl kimi əyləşir. Bir-iki söz daha deməliyəm. Xanımlar, Aspaziyanın kim olduğu sizə məlumdurmu? O, elə bir dövrdə yaşayırdı ki, o zamanlar qadınların hələ qəlbi yox idi, lakin onun qəlbi vardı. Bu qəlb qızılgül kimi al-qırmızı, alov kimi yandırıcı, səhər şəfəqi kimi təptəzə idi, Aspaziyanın varlığında bir-birinə zidd iki qadın tipi birləşmişdi: fahişə və ilahə. Onun qəlbində həm Sokrat yaşardı, həm də Manon Lesko. Əgər Prometeyin bir fahişəyə ehtiyacı olsa idi, onu axtarardı. Aspaziyanın yaradılmasından məqsəd də bu idi.

Tolomes coşmuşdu, bu halda sahil küçəsində bir at yıxılmasaydı, onu susdurmaq çətin olacaqdı. Sarsıntı o qədər qüvvətli idi

[1] *Tuaz* – Fransada uzunluq ölçüsü

[2] Günəş altında yeni bir şey yoxdur (*lat.*)

[3] Məhəbbət hamıda bir olan (*lat.*) – V e r g i l i, "Georgiklər".

ki, araba da, natiq də ikisi birdən dayandılar. Bu, ağır yüklü bir arabanı çəkən qoca və arıq bir at idi. Biçarə heyvan Bombard restoranının yanına çatdıqda, taqətdən düşmüş olduğuna görə artıq irəliyə getmək istəmədi. Bu hadisə bir çox yolçunun diqqətini cəlb etdi, atın ətrafına adamlar yığışdı. Qəzəblənmiş arabaçı ağızdolusu "çərdəymiş!" deyə söyərək, üstəlik, amansız bir qamçı vurduqda, biçarə heyvan bir daha ayağa qalxmamaq üçün yerə yıxıldı. Tolomesin şən dostları küçədəki səs-küyü eşidərək pəncərədən küçəyə baxdılar. Tolomes də bu fürsəti əldən qaçırmayıb öz qısa nitqini belə bir melanxolik şeirlə qurtardı:

O, yaşadı qara tale arabaya, karetaya
Düşmən olan bir həyatda, bir mühitdə zaman-zaman.
O da bütün yabılar tək doldu yaşa, çatdı boya,
Sısqalaşıb çiçək kimi sındı axır yazıq heyvan.

Fantina bir ah çəkərək:

– Biçarə at! – dedi.

Daliya isə:

– Buna bax! – deyə çığırdı. – Deyəsən, Fantina at üçün yas tutmağa hazırlaşır. Belə də axmaq qız olar!

Bu zaman Favurita qollarını sinəsində çarpazlayaraq, başını geriyə atdı. Tolomesə baxdı və qəti bir səslə:

– Bəs sürpriziniz hanı? – dedi.

Tolomes:

– Tamamilə doğrudur, – dedi. – Vaxtdır. Ağalar, xanımlarınızı heyrətdə qoymaq məqamı çatmışdır. Xanımlar, bir neçə dəqiqə burada bizi gözləyin...

Blaşvel:

– Sürpriz öpüşdən başlayır, – dedi.

Tolomes:

– Alnından öpək, – deyə əlavə etdi.

Hər biri təntənəli surətdə öz sevgilisinin alnından öpdü, sonra əsrarəngiz bir şəkildə barmaqlarını dodaqlarına qoyaraq, dördü də bir-birinin ardınca qapıya doğru yönəldi.

Favurita əl çalaraq:

– Bu elə indidən maraqlıdır, – dedi.

Fantina yavaş bir səslə:

– Ancaq tez qayıdın, – dedi. – Biz sizi gözləyirik.

Doqquzuncu fəsil

ƏYLƏNCƏNİN ƏYLƏNCƏLİ SONU

Gənc qızlar yalqız qaldıqdan sonra, iki-iki pəncərələrin yanında dayanıb dirsəklərini pəncərəyə söykəyərək, başlarını bayıra çıxarıb zarafatlaşmağa başladılar.

Onlar gənclərin Bombard meyxanasından qol-qola çıxdıqlarını gördülər; gənclər dönüb onlara gülümsəyərək, başları ilə işarə etdikdən sonra, hər gün Yelisey yollarını dolduran tozlu izdiham içində gözdən itdilər.

Fantina:

– Tez qayıdın, – deyə çığırdı.

Zefina:

– Görəsən, onlar bizə nə gətirəcəklər? – dedi.

– Yəqin ki, gözəl bir şey gətirəcəklər, – deyə Daliya cavab verdi.

Favurita:

– Mənə qalırsa, mən qızıl bir şey olmasını istərdim, – dedi.

Bir azdan sonra çay sahilindən keçən və uca ağacların budaqları arasından güclə görünən ekipajların hərəkəti onların diqqətini cəlb etdi; onlar bununla əylənməyə başladılar. Bu, poçt arabalarının və dilicanların yola çıxdığı saat idi. Qərbə və Şərqə doğru gedən bütün arabalar Yelisey yollarından keçirdi. Arabalar çayın kənarı ilə gedərək, Passi qarovulxanası yanında şəhərdən çıxırdılar. Ara-sıra qara ilə sarı rəngə boyanmış, üstü brezentlə örtülmüş bir çox sandıq və qutulardan olduqca biçimsiz bir şəkil almış ağıryüklü böyük bir araba küçə daşlarını sökərək və hər birini bir çaxmaqdaşına döndərərək, quduz kimi izdihamı yarır, kürə kimi qığılcımlar saçaraq, tüstü əvəzinə toza bürünmüş halda gurultu ilə keçib-gedirdi. Sandıqların arasında çoxlu başlar görünür və buradaca yox olurdular. Bütün bu səs-küy və gurultu gənc qızları əyləndirirdi. Favurita:

– Sən gurultuya bax? – deyə səslənirdi, – elə bil, bir yığın zənciri çəkə-çəkə aparırlar.

Sıx qarağac yarpaqları arasından çətinliklə seçilən bu arabaların biri, bir anlığa dayandı və sonra yenə sürətlə uzaqlaşdı. Bu, Fantinanı çox təəccübləndirdi.

– Nə qəribədir, – dedi, – mən elə bilirdim ki, dilicanlar heç bir zaman yolda dayanmırlar.

Favurita çiyinlərini çəkərək:

– Bu Fantina qəribə qızdır, – dedi. – Bəzən mən məhz maraq üçün onun yanına gedirəm. O ən adi şeylərə heyrət edir. Məsələn, təsəvvür edin ki, mən bir sərnişinəm, sürücüyə deyirəm ki, "Mən qabağa gedirəm, siz də yoldan keçəndə çay kənarında məni arabaya mindirərsiniz". Dilican gəlib mənə çatır, dayanır, mən də öz yerimdə otururam. Belə hadisələr hər gün ola bilər. Sənin dünyadan xəbərin yoxdur, quzum.

Bir müddət də keçdi. Birdən Favurita yuxudan oyanmış kimi diksindi və soruşdu:

– Bəs vəd edilən sürpriz necə oldu?

Daliya da ona qoşularaq:

– Doğrudan da, – dedi, – bəs bu sürpriz nə oldu?

– Görəsən, harada qaldılar, – deyə Fantina köksünü ötürdü. O, sözünü qurtarmamışdı ki, yemək yeyərkən onlara qulluq edən xidmətçi içəri girdi. Əlində məktuba oxşar bir şey vardı.

Favurita:

– O nədir? – deyə soruşdu.

Xidmətçi:

– Bu, o ağaların sizin üçün qoyduğu məktubdur, – dedi.

– Bəs nə üçün siz onu bizə dərhal gətirmədiniz?

– Çünki o ağalar bir saat keçdikdən sonra verilməsini tapşırmışdılar, – deyə xidmətçi cavab verdi:

Favurita tez məktubu xidmətçinin əlindən dartdı. Bu, doğrudan da, məktub idi.

– Çox qəribədir, – dedi, – məktubun üzərində ünvan yoxdur. Lakin yazılmışdır ki:

"Vəd olunan sürpriz budur!"

Favurita tələsik zərfi açdı, məktubu çıxarıb oxumağa başladı (oxumaq bilirdi):

“Ey sevgililərimiz!

Bilin ki, bizim valideynlərimiz vardır. Valideyn nə olduğunu siz yaxşı bilməzsiniz. Namuslu və sadə olan Mülki Qanun məcəlləsində ata-ana bu cür adlandırılır. Həmin bu valideyn ah-uf edir, bu qoca ata-analar bizi öz yanlarına çağırırlar. Bu namuslu ərlər və arvadlar bizi yolunu azmış övlad adlandırır; onlar bizim qayıtmağımızı gözləyərək, qurbanlar kəsməyə hazırlaşırlar. Yaxşı oğul olduğumuzdan onların sözlərinə qulaq asmaq borcumuzdur. Siz bu sətirləri oxuyan zaman, beş sürətli at bizi əziz analarımızın və atalarımızın yanına aparacaqdır. Bossüe demişkən, biz qaçırıq. Biz gedirik, biz artıq getdik. Biz Kalyarın qanadlarında Lafitin ağuşuna uçuruq, Tuluza gedən dilican bizi uçurumdan xilas edəcəkdir, uçurum isə – sizsiniz, siz, ey bizim gözəl qızlarımız! Biz saatda üç lyö sürəti ilə cəmiyyət, vəzifə və intizam dünyasına qayıdırıq. Vətənin mənafeyi bizim də vətəndaşlar kimi ailə sahibi, prefekt, məhkəmə məmuru, dövlət müşaviri olmağımızı tələb edir. Bizi dərin hörmətlə yad edin. Biz özümüzü vətənə fəda edirik. Bizim üçün az ağlayın və tezliklə bizi başqaları ilə əvəz etməyə çalışın. Bu məktub qəlbinizi parçalarsa, siz də onu parçalayın. Əlvida.

Biz iki il müddətində sizi bəxtiyar etdik. Odur ki bizdən inciməyin.

İmza etdilər: *Blaşvel*
Fameyl
Listolye
Feliks Tolomes.

Post scriptum. Yeməklərin pulu verilmişdir”.

Dörd qız bir-birinin üzünə baxdı.

Favurita birinci olaraq sükutu pozdu.

– Nə olsun ki, – deyə o səsləndi. – Pis zarafat deyil.

Zefina:

– Bəli, çox gülməlidir, – dedi.

– Bunu Blaşvel düşünmüş olacaqdır, – dedi, – elə isə mən ona aşiq olmağa hazıram. Kim qeyb olarsa, onu sevərlər. Bir işə bax.

– Yox, – deyə Daliya etiraz etdi, – bu fikir Tolomesin fikridir. Buna heç şübhə ola bilməz.

Favurita dedi:

– Elə isə yox olsun Blaşvel və yaşasın Tolomes!

Daliya ilə Zefina da:

– Yaşasın Tolomes! – deyə bağırdılar və gülməkdən uğundular.

Fantina da onlarla bərabər gülürdü.

Lakin bir saatdan sonra otağına qayıdaraq, Fantina hönkür-hönkür ağladı. Yuxarıda dediyimiz kimi, bu, onun ilk sevgisi idi. Biçarə qız Tolomesə bir ər kimi təslim olmuşdu və artıq zavallı qızın ondan uşağı vardı.

Dördüncü kitab

BAŞQASINA BİR ŞEYİ ETİBAR ETMƏK – BƏZƏN ONDAN GÖZ ÇƏKMƏK DEMƏKDİR

Birinci fəsil

İKİ ANANIN BİR-BİRİNƏ RAST GƏLMƏSİ

Hazırkı əsrin əvvəllərində Parisin yaxınlığında, Mon-Fermeyl kəndində bir meyxana vardı. O, bu gün artıq qalmamışdır. Bu meyxananı Tenardye adlı bir adamla arvadı saxlayırdı. Meyxana Bulanje döngəsində idi; qapısı üstünə bir taxta lövhə vurulmuşdu; bu taxta lövhə üzərində belinə enli qızıl general epoletli bir adam almış və insana bənzər bir şey, epoletin üzərində də iri gümüşü ulduzlar çəkilmişdi. Generalın paltarında qırmızı qan ləkələri vardı. Şəklin qalan hissəsini tüstü doldurmuşdu, bu da, yəqin, döyüş əlaməti idi. Rəsmin altında "*Vaterloo serjantı*" sözləri yazılmışdı.

Meyxana qapısı önündə araba görmək heç də təəccüblü bir şey deyildi. Ancaq "Vaterloo serjantı" meyxanasının qabağındakı küçəni tutan araba və ya, daha doğrusu, arabanın qırıq parçaları 1818-ci ilin yaz axşamında öz qəribə görünüşü ilə yoldan keçən rəssamın diqqətini mütləq cəlb etməli idi.

Bu araba meşəlik rayonlarda yoğun taxta-şalban daşınmaq üçün işlədilən arabaların qabaq təkərlərindən ibarətdi. Qabaq təkərlərin yoğun dəmir oxu və ağır dişlə taxılan topu vardı; oxu iki ağır təkər saxlamışdı. Bunların hamısı bir yerdə alçaq eybəcər bir şəkildə olub, nəhəng top dəzgahını andırırdı. Təkərlər, çənbər, top, ox və dişlə, adətən, kilsələrin boyandığı mənfur sarı boyağa bənzəyən qalın bir palçıq təbəqəsi altında görünməz olmuşdu. Ağac hissələrini palçıq

örtmüş, dəmir hissələri isə pas tutmuşdu. Oxun altında yarımdairə şəklində əsir düşmüş Qoliafa layiq yoğun bir zəncir sallanırdı. Bu zəncir yük daşındığı zaman bərkidilən şalbanları deyil, tamamilə ona qoşula biləcək mastodontları və mamontları xatırladırdı. Bu zəncirdə katorqanı, həm də siklopik və fövqəlbəşər katorqanı xatırladan bir şey vardı. Sanki, onu bir divin boynundan açmışdılar. Homer bu zəncirlə Polifemi, Şekspir isə Kalibanı bağlaya bilərdi.

Bu araba təkərlərinin yolun ortasına qoyulmasına səbəb nə ola bilərdi? Əvvəla, yolu kəsmək üçün, ikincisi, tamamilə pas tutmaq üçün. Çürük ictimai quruluşun bir çox müəssisələri vardır ki, heç bir başqa əsasları olmadığı halda, cəmiyyətin yolunu açıqdan-açığa kəsmişlər.

Zəncirin ortası yelləncək kəndirləri kimi, az qala, yerə dəyirdi; bu axşam iki kiçik qız uşağı onun üstündə bir-birilə qəşəngcə qucaqlaşıb oturmuşdu. Qızların birinə iki yaş yarım, o birinə isə yaş yarım vermək olardı. Böyük qız kiçik qızı qucaqlamışdı. Məharətlə zəncirə bağlanmış yaylıq onları yıxılmaqdan qoruyurdu. Yəqin, onların anası bu dəhşətli zənciri görüb: "Uşaqlarım üçün nə yaxşı bir əyləncədir" demişdi.

Bu iki qızcığaz çox sevimli bir surətdə geyindirilmişdi, bəzəkli olduqlarından, paslı dəmirlərin ortasına taxılmış iki gözəl çiçək kimi parlayırdılar; gözləri nur saçır, al yanaqları gülürdü. Birinin saçı şabalıdı, o birininki isə qara idi. Məsum üzlərində sevincli bir heyrət duyulurdu. Yaxınlıqda bitən çiçək açmış kollar ətrafa gözəl qoxu saçırdı. Adama elə gəlirdi ki, bu ətri saçan həmin uşaqlığa məxsus bir məsumluqla həya etmədən göstərirdi. Batmaqda olan günəşin işığı altında bəxtiyar görünən bu iki uşağın başları üzərində arabanın iri qozlası ucalırdı; pasdan qaralıb dəhşətli bir şəklə düşmüş bu araba hissəsi mağara qapısına oxşayırdı. Bir neçə addım uzaqda, meyxananın artırmasında bir qadın oturmuşdu. Bu, onların anası idi. Onun ümumi görünüşündə cəzbedici bir şey yox idisə də, uşaqları zəncirə bağlanmış uzun bir kəndirlə yelləndirməsi, onlara bir şəfqət nəzəri ilə baxması bu halda təsirli bir səhnə təşkil edirdi: qadın uşaqlarını qorxulu bir nəzərlə təqib edərək, bir bədbinlik üz verməsin deyə, heyvani və ilahi bir məhəbbət ifadəsi ilə onların yıxılmamalarına diqqət edirdi. Bu ifadə bütün analara məxsusdur. Kəndiri hər dəfə dartdıqda çirkin zəncirin halqaları kinli bir mırıltıya bənzəyən

dəhşətli, kəskin bir səs çıxarırdı. Qızcığazlar heyrətlə baxırdılar; batan günəşin son şüaları onları sevindirirdi; bu təsadüfi mənzərədən daha gözəl bir şey nə ola bilərdi? Nəhənglərin paslı, ağır zənciri mələklərin yelləncəyinə çevrilmişdi.

Ana öz qızcığazlarını əli ilə yelləndirərək, o vaxt dəbdə olan bir nəğməni cır səsi ilə oxuyurdu:

Belə də lazımdır, dedi cəngavər
Gözəl İmojinə, şux İmojinə.

Nəğmə səsi və qızlarını seyr etməsi onun yoldan ötənləri görüb eşitməsinə mane olurdu.

Qadın nəğmənin ikinci kupletinə keçərkən bir adam onun yanına gəldi. Qadın lap qulağının dibində belə bir söz eşitdi:

– Xanım, nə sevimli uşaqlarınız var!

Uşaqların anası oxuya-oxuya dönüb geri baxdı.

Bir neçə addım irəlidə bir qadın durmuşdu. Bu qadının da qucağında balaca bir uşaq vardı. Bundan başqa, əlində çox ağır görünən bir torba vardı.

Bu qadının uşağı mələk kimi gözəl idi. Uşağın iki-üç yaşı olardı. Paltarının qəşəngliyi ilə yelləncəkdə oturan kiçik qızlarla ciddi surətdə yarışa bilərdi; krujevalı çutqusunun üstündən zərif kətandan tikilmiş bir ləçək örtülmüşdü; koftası gözəl lentlə işlənmişdi. Ətəyi qalxmış kiçik tumanının altından ağ və kök baldırları görünürdü. Yanaqları gül kimi qızarırdı. Uşaq o qədər gözəl idi ki, adam onun alma kimi qırmızı olan yanaqlarını dişləmək istəyirdi. Gözəl kirpiklərlə dairələnmiş qapalı iri gözləri haqqında bir söz demək olmazdı. Qızcığaz yatırdı.

O, yaşına məxsus bir məsumluqla sakit bir yuxu içində idi. Ananın qollarında incə bir nəvaziş və şəfqət var. Uşaqlar ana qucağında şirin yatırlar.

Qızın anasına gəlincə, o, yoxsul və məyus görünürdü. Paltarından yenə kəndli olmağa hazırlaşan fəhlə qadına oxşayırdı. Gəncdi. Gözəl idi. Ola bilsin, lakin bu paltarda gözəl görünmürdü. Alnı üzərinə düşən sarışın saçları sıx və gözəldi, lakin bu saçlar boğazının altından bağlanmış qalın, yaraşıqsız və ensiz bir ləçək altında örtülmüşdü. Gözəl dişləri olanlar gülümsərkən dişlərini göstərərlər, siz də

bundan həzz alarsınız. Lakin o gülümsəmirdi. Gözlərinin yaşı, deyəsən, heç qurumurdu. Yanaqları saralmış, görünüşü yorğun və xəstə idi; qucağında yatan uşağına balasını öz döşü ilə əmizdirmiş analar kimi şəfqətli bir nəzərlə baxırdı. Əlillərin, adətən, öz burunlarını sildikləri yaylığa oxşayan iri göy bir yaylıq çiyinlərindən biçimsiz bir surətdə aşağı sallanmışdı. Əlləri gündən qaralmış və çil-çil ləkələrlə örtülmüşdü. Şəhadət barmağı iynədən deşik-deşik olmuş və üstündə döyənək əmələ gəlmişdi. Çiyinlərinə qəhvəyi, kobud və yun bir bürüncək örtmüşdü. Əyninə çit paltar geymişdi, ayaqlarında iri ayaqqabı vardı. Bu qadın Fantina idi.

Bəli, bu, Fantina idi. Onu tanımaq mümkün deyildi. Lakin ona daha diqqətlə baxdıqda, gözəlliyini hələ də itirmədiyi görünürdü. Sağ yanağında kinayəli bir ifadə sezilən incə bir qırışıq əmələ gəlmişdi. Onun muslin və lentlərdən tikilmiş, şənlik, dəlilik və musiqidən hörüldüyü zənn edilən, zınqırov kimi səslənən, yasəmən kimi ətir saçan şəffaf geyiminə gəlincə, o, günün altında brilyanta bənzəyən parlaq qrov ulduzları kimi, əriyib məhv olmuşdu. Bu ulduzlar əridikdə, budaqlar yenə əvvəlki kimi qapqara görünər.

"Əyləncəli zarafatdan" on ay keçmişdi.

Bu on ay içində nələr olmuşdu? Bunu asanlıqla duymaq olar.

Tərk edildikdən sonra Fantina dərhal ehtiyacın nə olduğunu anladı. O, rəfiqələrini: Favuritanı, Zefinanı, Daliyanı birdən-birə itirdi, onlar daha gözə görünmədilər. Kişilər onları atıb getdikdən sonra, qızların dostluğu da yox oldu. İki həftə sonra bir-birinin dostu olduqlarını söyləyən olsaydı, onlar çox heyrət edərdi; artıq onları bir-birinə bağlayan səbəb yox idi. Fantina tək qalmışdı. Uşağının atası getmişdi – heyhat! Belə ayrılıqlar çox vaxt həmişəlik olur. Fantina işləməyə adət etmədiyindən və əyləncələrə meyil etdiyindən artıq büsbütün yalqız qalmışdı. Tolomeslə əlaqəyə qızışaraq, öz sadə sənətini atmış və müştərilərinin başından dağılmasına səbəb olmuşdu. İndi artıq onların qapısı Fantinanın üzünə bağlı idi. Yaşamaq üçün daha heç bir gəlir mənbəyi yox idi. Fantina azacıq oxumaq bilirdi, yazmağı isə heç bacarmırdı; kənddə ancaq ona qol çəkməyi öyrətmişdilər. Küçə mirzələrinin birindən Tolomesə məktub yazmasını xahiş etdi, sonra ona ikinci bir məktub, daha sonra üçüncü bir məktub göndərdi. Tolomes məktubların heç birinə cavab vermədi. Bir gün Fantina iki qonşu arvadın onun qızına baxarkən:

“Belə uşaqlara əhəmiyyət verən varmı? Onu görənlər yalnız çiyinlərini çəkirlər!” dediklərini eşitmişdi. Onda Fantina düşündü ki, Tolomes də bu uşağa əhəmiyyət verməyib çiyinlərini çəkəcək və bu məsum məxluqu heç bir vaxt xatırlamayacaqdır; bunu düşündükdə ona qarşı qəlbində kəskin bir qəzəb oyanırdı. Lakin nə etməli? Onun müraciət ediləcək bir kimsəsi yoxdu. Günah bir iş görmüş olsa da, qabaqda dediyimiz kimi, həyalı və əxlaqlı idi. Ümidsizliyə qapıldığını və uçuruma yuvarlana biləcəyini dumanlı bir surətdə hiss edirdi. Cəsarətli olmaq lazım gəlirdi; cəsarətini topladı, dikəldi. Vətəni olan Monreyl şəhərinə qayıtmaq arzusuna düşdü; bəlkə, orada tanıyıb ona iş verənlər oldu. Ancaq bunun üçün öz günahını gizlətməli idi. Bunu düşündükcə, başqa daha qorxunc bir ayrılıq məcburiyyətində qalacağını anladı. Canı sıxıldı, lakin qərarından çəkinmədi. İrəlidə görəcəyik ki, Fantina uğursuzluq qarşısında cəsarət və səbatdan məhrum deyildi. O, artıq bəzəkli paltardan əl çəkmiş, bütün ipəklərini, bəzəklərini, lentlərini və krujevalarını qızına sərf edərək, olduqca sadə bir paltar geyirdi. Yer üzündə yeganə ümidi və iftixarı bu qızdı və bu iftixar müqəddəs bir şeydi. Fantina hər şeyini satıb iki yüz frank əldə etdi; bütün xırda borclarını verdikdən sonra, səksən franka qədər pulu qalmışdı. Gözəl bir yaz səhəri iyirmi iki yaşında olan bu gənc qadın uşağını götürüb Parisi tərk etdi. Onlara rast gələn olsaydı, dünyada yalnız bircə uşağı olan, uşağının isə anasından başqa kimsəsi olmayan bu qadına yazığı gələrdi. Fantina uşağını özü əmizdirdiyindən, döşü qüvvədən düşmüşdü, odur ki bir az öskürürdü.

Biz daha cənab Feliks Tolomesdən bəhs etməyəcəyik. Yalnız bunu deyə bilərik ki, bu hadisədən iyirmi il sonra, o kral Lui-Filippin səltənəti dövründə, görkəmli, nüfuzlu və varlı bir əyalət vəkili olmuşdu. O, ağlı başında bir seçici və çox ciddi bir məhkəmə üzvü idi. Yenə əvvəlki kimi əyyaşlığı sevirdi.

O zamanlar hər lyö üçün 3-4 su kirayə alan Paris ətrafında işləyən kiçik karetada yol gedərək, nəhayət, Fantina günortadan sonra Monfermeylə çatdı. Bulanje küçəsinə getdi.

Fantina Tenardyenin meyxanası yanından keçərkən, nəhəng yelləncəkdə yellənən iki kiçik qızcığazı görüb, heyrət içində qaldı; bu gözəl mənzərə onu büsbütün valeh etdi.

İnsanlar valeh ola bilirlər. Bu iki qızcığaz ananı məftun etmişdi.

Fantina durub böyük bir həyəcanla onlara baxırdı. Mələklərin burada olması cənnətin yaxında olduğuna bir işarədir. Fantina, sanki, bu meyxana üzərində taleyin təyin etdiyi əsrarlı "elə budur ki, var" sözlərini oxumuşdu. Uşaqlar, şübhəsiz ki, bəxtiyar idilər. Fantina heyran nəzərlərlə onlara baxırdı. O, bu mənzərəyə o qədər məftun olmuşdu ki, artırmada oturan qadın, nəğməsini oxuyarkən, bir az fasilə verdiyi zaman, Fantina özünü saxlaya bilmədi və yuxarıda qeyd etdiyimiz sözləri söylədi:

– Xanım, nə sevimli uşaqlarınız var!

Ən zalım insanlar belə uşaqlarının oxşadığını görüncə yumşalırlar. Qızların anası başını qaldırdı, təşəkkür etdi və sonra Fantinanı qapının qarşısındakı oturacaqda oturtdu, özü isə astanada oturmuşdu. Qadınlar söhbətə başladılar.

İki balaca qızın anası:

– Mənim adım madam Tenardyedir, – dedi. – Bu meyxana da mənimlə ərimindir.

Sonra yenə nəğməsinə davam edərək dişarası bir kuplet də oxudu.

Belə də lazımdır, – dedi cəngavər, –
Səfərə çıxıram mən Fələstinə.

Madam Tenardye kürənsaçlı, kök, kobud bir qadındı; zahirindən "tuman geymiş əsgərə" oxşayırdı. Çox qəribədir ki, bununla bərabər, onun üzündə, çoxlu roman oxuduğundan bir xumarlıq əlaməti sezilirdi; kişilərin hərəkətini təqlid etməsi ona qarşı nifrət oyadırdı. Köhnə romanları oxumaq bu cür meyxana qadınlarının xəyalatını zənginləşdirməklə bərabər, onlara qəribə bir təsir buraxır. O, hələ gənc idi, otuz yaşı ancaq ola bilərdi. Artırmada oturan bu qadın ayağa durmuş olsaydı, yarmarka balaqanlarını gəzib-dolaşan nəhəng qadınlar kimi uca boyu və enli çiyinləri yolçu qadını ürküdərək, ona qarşı etimadını büsbütün dağıdar və aşağıda söylədiyimiz hadisə də olmazdı. Bəzən bir adamın taleyi birisinin ayaq üstə və ya oturmuş halda olduğundan asılı ola bilər.

Yolçu qadın sərgüzəştini bir az dəyişmiş şəkildə söylədi.

Fəhlə bir qadındır, əri ölmüşdür; Parisdə iş tapmadığından, işləmək üçün öz vətəninə gəlmişdir, Parisi bu gün səhər tezdən tərk

edib piyada olaraq yola çıxmışdır; uşağını qucağında gətirdiyi üçün yorulmuş və Vilemonbla gedən bir dilicana minmişdir; Vilemonbldan Monfermeylə də piyada gəlmişdir; doğrudur, uşaq hərdənbir özü də azacıq ayaqla gəlmişdir, axı o, hələ körpədir, onu qucağına almış və indi də qucağında yatmışdır.

Bu sözləri deyərkən qızının yanağından elə bir ehtirasla öpdü ki, uşaq oyandı. Anasının gözləri kimi iri mavi gözlərini açdı, ətrafına baxdı. Görəsən, o, nəyə baxırdı? O, ciddi, bəzən də sərt bir nəzərlə heç bir şeyə və hər bir şeyə baxırdı. Bu hal balaca uşaqların məsumluğuna məxsus bir sirdir ki, xeyirxahlığımızın tökdüyü qaşqabağa qətiyyən bənzəməz. Elə zənn etmək olar ki, bu uşaqlar mələk olduqlarını bilir, bizə isə yalnız insana baxan kimi baxırlar. Sonra qızcığaz güldü və anasının onu tutmağa çalışmasına baxmayaraq, dəcəllik etmək istəyən kiçik bir məxluqun yenilməz mətanəti ilə sürüşüb yerə düşdü. Birdən yelləncəkdə yellənən iki qızcığazı görüb durdu və sevincindən dilini çıxardı.

Qızların anası uşaqları azad edib yelləncəkdən götürdü.

– Bir yerdə oynayın, – dedi.

Bu yaşlarda bir-birilə tanış olmaq asandır. Bir dəqiqədən sonra artıq uşaqlar bir yerdə oynayaraq, torpağın içində dəliklər, quyular qazırdılar. Uşaqlar bundan böyük zövq alırdılar.

Yeni gələn qızcığaz olduqca şən idi; ana nə qədər mərhəmətli olarsa, uşaq da o qədər şən olar; uşaq bir çöp tapıb, böyük bir sürət və ciddiyyətlə üsküdk boyda kiçik bir quyu qazmağa başladı. Məzarçının işini uşaqlar görəndə bu iş şən olur.

Qadınlar söhbətlərində davam edirdilər.

– Qızınızın adı nədir?

– Kozetta...

Kozetta – Efrazi. Qızın adı Efrazi idi. Anası, ümumiyyətlə, anaların və xalqın Xosefanı Pepitaya, Fransuazanı Siletaya dəyişməyə çalışdığı kimi, qəşəng olsun deyə, Efrazini Kozettaya çevirmişdi. Bu cür uydurma sözlər etimoloqların elmi nəticələrində böyük bir qarışıqlıq əmələ gətirir. Biz bir qarı tanıyırdıq ki, Teodoranı Nyona çevirmişdi.

– Neçə yaşındadır?

– Üç yaşına az qalıb.

– Mənim böyük qızımla yaşıddır.

Bu ara balaca qızlar bir yerə yığışıb böyük bir heyrət içində baxırdılar. Birdən mühüm bir hadisə oldu: torpağın içindən iri bir qurd çıxırdı; qızlar həm qorxur, həm də heyrət edirdilər.

Onların balaca başları bir-birinə toxunurdu; bu başlar, sanki, nur dairəsi içində idi.

Tenardye:

– Baxın, – dedi, – uşaqlar bir-birinə nə tez alışır! Kənardan baxan bunları üç bacı zənn edər!

Bu sözlər o biri ananın qəlbində bir qığılcım kimi parladı. Meyxanaçı qadının əlindən yapışıb diqqətlə ona baxdı:

– Razı olarsınızmı uşağım sizdə qalsın? – dedi.

Madam Tenardye nə "bəli", nə "yox" dedi, bəlkə, təəccübə oxşar bir hərəkət göstərdi.

Kozettanın anası sözünə davam edərək:

– Bilirsinizmi, – dedi, – mən qızımı özümlə bərabər vətənimə apara bilməyəcəyəm. Bu mənim işimə mane ola bilər. Uşaqla birlikdə iş tapmaq çətindir. Bizim yerlərdə adamlar çox qəribədirlər. Allah özü məni sizə rast gətirmişdir. Uşaqlarınızı bu qədər qəşəng, bu qədər təmiz, bu qədər məmnun gördükdə, ürəyim fərəhdən çırpındı, öz-özümə dedim: "Nə yaxşı anadır"; hə, bu yaxşı oldu: üç bacı olarlar. Bir də mən tezliklə qayıdacağam. Uşağımı yanınızda saxlamağa razısınızmı?

Madam Tenardye:

– Bu barədə fikirləşmək lazımdır, – dedi.

– Ayda altı frank verə bilərəm.

Bu halda meyxananın içindən bir kişi səsi gəldi:

– Yeddi frankdan aşağı olmaz. Həm də altı ay üçün qabaqca verməlisiniz.

Tenardye dedi:

– Altı dəfə yeddi – qırx iki.

Qadın:

– Verərəm, – deyə razılaşdı.

Kişi səsi:

– Bundan başqa, ilk xərclər üçün on beş frank da lazımdır, – dedi.

Madam Tenardye yenə nəğmə oxuya-oxuya hesab etdi:

– Cəmi əlli yeddi frank edir.

Belə də lazımdır, – dedi cəngavər.

Qadın:

– Verərəm, – dedi. – Mənim səksən frankım var. Hələ bir az da yol üçün qalar. Əlbəttə, piyada getməli olacağam, ancaq orada işləyib pul qazanaram və bir qədər topladıqdan sonra gəlib balaca qızımı apararam.

Kişi səsi:

– Bəs uşağın paltarı varmı? – dedi.

Madam Tenardye:

– Danışan mənim ərimdir, – dedi.

– Bəli, bəli, əziz balamın paltarı çoxdur. Onun əriniz olduğunu dərhal başa düşdüm, xanım. Bəli, onun gözəl üst-başı var! Hər dəstdən bir düjün, əsl bir xanım kimi ipək paltarları vardır. Budur, hamısı torbanın içindədir.

Kişi səsi:

– Torbadakı şeylərin hamısını verməlisiniz, – dedi.

Qadın:

– Əlbəttə, – dedi, – mən öz balamı heç çılpaq qoya bilərəmmi?

Bu halda meyxanaçı göründü.

– Çox yaxşı, – dedi.

Alver baş tutdu. Qızın anası o gecə meyxanada qaldı, pullarını verdi və qızını qoydu. Kozettanın paltarları çıxarıldıqdan sonra xeyli yüngülləşmiş olan torbasını bağlayıb ertəsi gün səhər sübhdən, tezliklə gedib yerinə çatmaq ümidi ilə yola düşdü. Belə ayrılıq zahirən adama sakit görünür, lakin, hər halda, ümidsizliklə dolu olur.

Tenardyegilin qonşuluğunda olan bir qadın yolda qızın anasına rast gəlmiş və evə döndüyü zaman demişdi:

– Yoldan hönkür-hönkür ağlayaraq gedən bir qadına rast gəldim, elə bərkdən ağlayırdı ki, ürəyim az qaldı partlasın.

Kozettanın anası getdikdən sonra meyxanaçı öz arvadına:

– İndi mən bu pulla sabah vaxtı qurtaran borcumu verə bilərəm, – dedi, – yüz on frank borcum var idi, ancaq əlli frank çatmırdı. Bilirsən, bu pul olmasaydı, yəqin ki, işim məhkəməyə veriləcək və vekselim də etibarsız hesab ediləcəkdi. Sən bu gün kiçik qızlarınla yaxşı tələ qurmuşdun. Tenardyenin arvadı:

– Sözün düzü, mən heç bu fikirdə deyildim, – deyə cavab verdi.

İkinci fəsil

İKİ ŞÜBHƏLİ ŞƏXSLƏ ÖTƏRİ TANIŞLIQ

Tələyə düşən siçan çox balaca idisə də, pişik belə pis ovla da məmnun qaldı.

Tenardyelər necə adam idilər?

Onlar haqqında bir neçə söz demək lazım gəlir, sonra əskik olanları tamamlarıq.

Bu iki məxluq nadan olsa da, işləri yaxşı gedən, oxumuş olsa da artıq düşkün olan insanların mənsub olduqları aralıq bir sinfə, orta deyilən siniflə aşağı deyilən sinif arasında mövcud olan və fəhlənin namuslu həyəcanlarından, həm də burjuanın düzlüyündən məhrum olmaqla bərabər, ikinci sinfin bəzi nöqsanlarını və birinci sinfin demək olar ki, bütün qəbahətlərini birləşdirən bir sinfə mənsub idi.

Tenardyelər məşum bir alovun təsadüfi təsiri altında azman bir şey ola biləcək kiçik təbiətli adamlar sırasına mənsub idilər. Arvadın təbiətində heyvani hisslər gizlənmişdi, ərin xasiyyətində isə fitri bir alçaqlıq vardı. Hər ikisi pislikdə sürətli bir tərəqqi göstərmək üçün son dərəcə bacarıqlı idi. Bəzi adamlar var ki, xərçəng kimi daim qaranlığa doğru çəkilir; ömürlərində irəliyə getmək əvəzinə geriyə gedirlər. Öz mənəvi eybəcərliklərini artırmaq üçün həyat təcrübələrini alət edirlər və pozularaq işıqdan qaranlığa doğru sürünürlər. Tenardyelərin də xasiyyəti belə idi.

Xüsusilə Tenardyenin özü elmi-sima aləminə pis təsir bağışlayacaq bir görünüşdə idi. Bəzi adamlar var ki, onlara bir dəfə baxmaqla etibarsız olduqlarını dərhal duyursan. Onlar hər bir cəhətdən şübhəli görünürlər. Bu cür adamların keçmişləri həyəcanlı, gələcəkləri isə dəhşətli olur. Burada hər şey gizlidir, onların nə etmiş olduqlarından və nə edəcəklərindən heç bir kəsin xəbəri olmur. Onların qaşqabaqlı görünüşü necə adam olduqlarını göstərir. Bir söz söyləmələrini eşidən və ya hərəkətlərini görən kimi o saat bunların keçmişlərində gizlənən və gələcəklərini dumanla bürüyən qorxunc sirləri müşahidə etmək olar.

Özünün dediyinə inanmaq mümkünsə, bu Tenardye vaxtilə əsgərlik etmişdi, hətta serjant olduğunu da söyləyirdi. Ola bilsin,

1815-ci il müharibəsində iştirak etmişdi və dediyinə görə, bir qədər qəhrəmanlıq da göstərmişdi. Bunun kim olduğunu irəlidə görəcəyik. Meyxananın üstündəki lövhə onun hərbi qəhrəmanlıqlarına bir işarə idi. Tenardye bu lövhəni özü çəkmişdi, çünki hər bir işdə alayarımçıq qabiliyyəti vardı, amma çox pis çəkmişdi.

O, elə bir dövr idi ki, köhnə klassik roman "Kleliya" səviyyəsindən "Lodoiske" səviyyəsinə düşmüş və aristokratik roman kimi qalmaqda davam edərək, getdikcə pozulmuş və madmazel de Sküderinin madam Burnon Malarma və madam de Lafayetin madam Bartelemi-Adoya çevrilməsi ilə Paris qapıçı qadınlarının eşqlə dolu qəlblərini alovlandırmış, Paris qəsəbələrində yaşayan qızların qəlblərini belə təxrib etmişdi. Madam Tenardyenin zehni inkişafı bu cür kitabların mütaliəsindən uzağa getmirdi. Bu, onun qidası idi. Madam Tenardye ağlının son əlamətlərini bu kitablar içində qərq edirdi. Məhz buna görədir ki, ilk cavanlıq illərində, hətta bir az sonra da o, ərinə nisbətən bir az xəyalpərəst görünürdü, əri isə dərrakədən məhrum olmayan bir quldur, qrammatikadan başqa bəzi hikmətlər əldə etmiş bir əxlaqsız, sadə görünən, lakin hiyləgər bir adam idi. Hissiyyat məsələlərinə gəlincə, o, Piqo-Lebrenin pərəstişkarlarından idi. Öz jarqonunda söylədiyi kimi, "arvad tayfası" məsələsində tam mənası ilə misli olmayan bir heyvan idi. Arvadı özündən on iki-on beş yaş cavan olardı. Zaman keçdikcə, onun şairanə bir surətdə sallanan telləri ağarmağa başladıqda, Pamellanın arxasından kinli qadın sifəti göründükdə, madam Tenardye başı axmaq romanlarla doldurulmuş yoğun bir qadına döndü. Lakin səfeh kitabların mütaliəsi nəticəsiz olmur. Bunun təsiri altında da böyük qızının adını Eponina qoymuşdular. Kiçik qızına gəlincə, bunun adını, az qala, Gülnarə qoymaq istəyirdilər, lakin taleyində baş vermiş xoşbəxtlikdən ona ancaq Azelma adını verməklə kifayətlənmişdilər. Buna səbəb də Dükre-Düminilin romanının nəşr edilməsi olmuşdu.

Sözarası bunu da deyək ki, bəhs etdiyimiz və adlar anarxiyasından ibarət olan bu məzəli dövrdə hər bir şey o qədər də gülünc və yüngül deyildi. Qeyd etdiyimiz bu romantik ünsürlərdən başqa bu dövrdə ictimai xarakterli əlamətlər də vardı. Bizim zəmanəmizdə, görürsən, sadə bir çoban uşağını Artur, Alfred, yaxud Alfons adlandırırlar; vikontları isə – əgər vikontlardan bir əsər qalmışsa – Tom, Pyer, yaxud Jak adlandırırlar. "Zərif" adların plebeylərə, kəndli adlarının

isə aristokratlara keçməsinin özü də bərabərliyin bir əks-sədasıdır, hər bir şeydə olduğu kimi, burada da yeni əhvali-ruhiyyənin sarsılmaz təsiri görünür. Zahirən uyğunsuzluq kimi görünən bu hadisədə böyük və dərin bir məna vardır ki, o da Fransa inqilabıdır.

Üçüncü fəsil

TORAĞAY

Həyatda müvəffəqiyyət qazanmaq üçün alçaq olmaq kifayət deyildir. Meyxananın işi pis gedirdi.

Yolçu qadının verdiyi əlli yeddi frank sayəsində Tenardye vekselinin etibarsız elan edilməməsinə və borcunun ödənilməsinə nail ola bilmişdi. Lakin bir ay keçmədi ki, yenə pula ehtiyac hiss etməyə başladılar. Arvadı Kozettanın paltarlarını Parisə aparıb lombardda altmış franka girov qoymuşdu. Bu pullar da xərclənib qurtardıqdan sonra Tenardyelər Kozettaya, evlərində yazıqları gəlib saxladıqları yoxsul bir qız nəzəri ilə baxmağa və o cür də rəftar etməyə başladılar. Qızın daha paltarı olmadığından, indi ona Tenardyenin qızlarının köhnə paltarlarını, yəni cır-cındır geyindirirdilər. Onu itdən bir az yaxşı, pişikdən bir az pis olaraq, yemək artığı ilə bəsləyirdilər. Əslinə baxsan, itlə pişik yemək vaxtı qızın daimi yoldaşları idi, Kozetta onlarla bərabər və onların yemək yedikləri qaba bənzər ağac bir boşqabda yemək yeyirdi.

İrəlidə görəcəyimiz kimi, qızın anası Monreyl-sür-Merdən hər ay məktub yazaraq, daha doğrusu, yazdıraraq balasının necə olduğunu xəbər alırdı. Tenardye hər dəfə ona Kozettanın yaxşı olduğunu kağızla bildirirdi.

Altı ay keçdikdən sonra Kozettanın anası yeddinci ay üçün yeddi frank göndərdi və aydan-aya müntəzəm surətdə pul göndərməyə başladı. Lakin bir il keçmədi ki, Tenardye bir gün:

– Amma bizim başımızı yaman tovlayır ha! – dedi. – Onun yeddi frankından bizə nə olacaq?

Bunu deyib məktub yazaraq ondan ayda on iki frank tələb etdi. Uşağının "gözəl" yaşadığına və bəxtiyar olduğuna əmin olan anası ayda on iki frank göndərməyə başladı.

Bəzi adamlar vardır ki, birinə nifrət bəsləmədən, başqalarını sevə bilməzlər. Madam Tenardye öz qızlarını çox sevdiyindən, yad qıza nifrət bəsləyirdi. Ana məhəbbətinin belə alçaq bir forma alacağını düşünmək ağır şeydir. Kozettanın evdə çox az bir yer tutduğuna baxmayaraq, madam Tenardye elə düşünürdü ki, guya, bu balaca uşaq onun qızlarının nəfəs aldığı havanı ağırlaşdırır. Bu qadın, özünə bənzər bir çox qadınlar kimi, hər gün müəyyən miqdarda oxşamaq və nəvaziş etmək duyğusuna malik olmaqla bərabər, savaşmaq və söyüşmək ehtiyacı da hiss edirdi. Kozetta yanında olmasaydı, çox ehtimal ki, öz qızlarını bu qədər sevdiyinə baxmayaraq, onları oxşadığı kimi kötəklərdi də, lakin bu yad uşaq kötəklərin hamısını öz üzərinə götürdüyü üçün Tenardyenin qızlarına böyük xidmət göstərirdi. Tenardyenin qızlarına isə yalnız nəvaziş göstərilirdi. Kozettanın hər bir hərəkəti başına bir çox kobud və haqsız cəzaların yağdırılmasına səbəb olurdu. Zavallı və aciz qızcığaz! Onun nə yer üzündə nələr olduğundan, nə də Allahdan xəbəri vardı; daim cəza alır, daim döyülür, söyülür və qarşısında ana məhəbbətinin səhər şəfəqləri altında yaşayan, özü kimi iki balaca məxluq görürdü.

Madam Tenardye Kozetta ilə çox pis rəftar edirdi; Eponina ilə Azelma da Kozetta ilə pis rəftar edirdi. Bu yaşlarda uşaqlar analarının eyni olurlar, yalnız həcmləri kiçik olur, bundan başqa heç bir fərqləri yoxdur.

Beləliklə, bir il, daha sonra bir il də keçdi.

Kənddə deyirdilər:

– Tenardyelər nə yaxşı adamlardır. Özləri varlı olmadıqları halda, kimsəsiz, yoxsul bir uşağı saxlayırlar.

Hamı Kozettanın anası tərəfindən atıldığını zənn edirdi.

Bir ara Tenardye, kim bilir, hansı gizli yollarla, uşağın bic olduğunu, anasının da bunu açıb meydana çıxarmayacağını öyrənərək, bu məxluqun böyüyüb boy atdığını və çox yediyini irəli sürməklə, anasından ayda on beş frank tələb etdi, əks təqdirdə uşağı qaytaracaqlarını anasına bildirdi. Meyxanaçı: "Qoy məni çox qızışdırmasın, – deyirdi, – yoxsa bu haramzadəni üstünə atar və bütün sirlərini açıb tökərəm; uşağın saxlanmaq haqqını artırmalıdır". Kozettanın anası da ayda on beş frank verməyə başladı.

İllər gəlib-keçirdi; uşaq böyüyür, böyüdükcə dərd-bəlası da artırdı.

Hələ Kozetta balaca ikən o biri iki uşağın əziyyətini çəkirdi; lakin bir az böyüdükdə, yəni beş yaşına çatdıqda, bütün evin xidmətçisi oldu.

İndi deyəcəklər ki, beş yaşında belə şey mümkün deyildir. Əfsus, bu belədir ki, var. İctimai münasibətlər baş verəndə adamın yaşına baxmaz. Hələ bir az bundan əvvəl Dümolar adlı birisinin məhkəməsi buna sübut deyildirmi? Dümolar yetim qalır və sonradan quldur olur. Rəsmi sənədlərin təsdiq etdiyinə görə, o, hələ beş yaşında ikən, ata-anasını itirdikdən sonra, "öz başını özü dolandırır və oğurluq edirmiş".

Kozettanı hər yerə göndərir, ona otaqları, həyəti, küçəni süpürtdürür, qabları yudurdur və hətta ağır işlər də gördürürdülər. Hələ də Monreyl-sür-Merdə olan anası axır zamanlarda pulları vaxtlı-vaxtında göndərmədiyi üçün Tenardyelər belə rəftar etməkdə özlərini büsbütün haqlı bilirdilər. Bir neçə ay olardı ki, Kozettanın anası pul göndərmirdi.

Fantina Monfermeylə bu üç il keçdikdən sonra qayıtmış olsaydı, qızını tanımazdı. Bu evə girərkən o qədər qəşəng, o qədər təravətli olan balaca Kozetta, indi xeyli arıqlamış və yazıq bir görünüş almışdı. Onun bütün hərəkətlərində qorxaqlıq hiss olunurdu.

Tenardyelər onun barəsində:

– Bədzat qızdır, – deyirdilər.

Haqsızlıq Kozettanı qüssələndirmiş, yoxsulluq isə çirkinləşdirmişdi. Onun iri və qəşəng gözlərindən başqa heç nəyi qalmamışdı; bunlara baxdıqda, adamın ona yazığı gəlirdi, çünki bu gözlər xırda olsaydı, bu qədər dərdi, qüssəni onlarda sezmək olmazdı.

Hələ altı yaşına çatmamış bu zavallı uşağın səhərin soyuğunda, günəş doğmadan, göyərmiş kiçicik əlləri ilə iri bir süpürgə alıb, cındır paltarı içində soyuqdan titrəyə-titrəyə soyuq yanağından göz yaşı axıdaraq, küçəni süpürdüyünü görmək son dərəcə qəmli bir mənzərə idi.

Məhəllədə ona "Torağay" deyirdilər. Xalq ad qoymağı çox sevir; kiçik bir quşdan çox yer tutmayan, daim titrəyən, qorxan, evin və kəndin içində hələ hamının yatdığı bir zamanda, dan yeri ağarmamış hər kəsdən əvvəl küçələrdə və çöldə görünən bu uşağı torağaya bənzətmiş və ona bu adı qoymuşdular.

Ancaq bu zavallı torağay heç ötməzdi.

Beşinci kitab

ENİŞ

Birinci fəsil

QARA ŞÜŞƏ İSTEHSALINDA TƏRƏQQİ

Monfermeyl əhalisinin sözünə görə, uşağını atıb getmiş olan bu ananın başına, görəsən, nə gəldi? O, harada idi? Nə edirdi?

Kiçik Kozettasını Tenardyenin evində qoyduqdan sonra o, yoluna davam edib, Monreyl-sür-Mer şəhərinə gəlib çatdı.

Biz artıq bu hadisənin 1818-ci ildə olduğunu bilirik.

Fantina öz vətənini buraxıb getdiyi zamandan on il keçmişdi. Monreyl şəhəri tamam dəyişmişdi. Fantina səfalət pillələri ilə aşağı enməkdə ikən, doğma şəhəri tərəqqi edib yüksəlirdi.

Onun gəlişindən, təqribən, iki il əvvəl kiçik ölkələr üçün böyük bir hadisə olan sənaye dönüşü əmələ gəlmişdi.

Bu hadisənin böyük əhəmiyyəti olduğundan, onu bütün təfərrüatı ilə izah etməyi və bəlkə də, xüsusilə qeyd etməyi lazım bilirik.

Monreyl şəhərində qədim zamanlardan bəri İngiltərə və Almaniyadakı istehsalatı təqlid edərək, daş kömürdən və qara şüşədən bəzək şeyləri hazırlamağı bir peşə halına gətirmişdilər. Lakin xammal bahalı və əmək haqqı çox olduğu üçün bu peşənin vəziyyəti çox pis idi, bu hal fəhlələrin əmək haqqına da təsir edirdi. Fantina vətəninə qayıtdığı zaman isə, bu "şüşə mal" sahəsində görünməmiş bir dəyişiklik əmələ gəlmişdi. 1815-ci ilin axırlarında oraya heç kəsin tanımadığı bir adam gəlib həmin məmulatı hazırlamaq işində qatranı yapışqanla və qolbaq hazırlayanda döymə üsulunu tökmə üsulu ilə əvəz etmək fikrinə düşmüşdü. Bu kiçik bir dəyişiklik böyük bir inqilab törətmişdi.

Əvvəla, bu kiçik dəyişiklik dərhal xammalı ucuzlaşdırdı və bu ucuzluq da əmək haqqının artırılmasına imkan verib ölkənin yüksəlişinə

səbəb oldu; ikincisi, bu yenilik məhsulun keyfiyyətini yaxşılaşdırdı, bununla da müştərilərin sayı artdı, üçüncüsü, bu məmulatı daha ucuz sataraq, qazancı üç dəfə artırmaqla bərabər, fabrikantın da gəlirini xeyli artırdı.

Beləliklə, bir ideya üç nəticə verdi.

Üç il keçmədi ki, bu ixtiranın sahibi varlı bir adam oldu və eyni zamanda ölkənin də varlanmasına səbəb oldu ki, bu daha yaxşı şeydir. Departamentdə onu tanıyan yox idi. Haradan gəldiyindən və keçmişindən heç kəs bir şey bilmirdi.

Bu ölkəyə onun ancaq bir neçə yüz frankdan ibarət kiçik bir sərmayə ilə gəldiyini söyləyirdilər.

Ağıllı bir fikrin yerinə yetirilməsi üçün sərf edilmiş olan bu kiçik sərmayə, intizam və təfəkkürün fəaliyyəti sayəsində həm özünün varlanmasına, həm də bir ölkənin varlanmasına səbəb olmuşdu.

Monreylə gəldiyi zaman o, paltarı ilə, danışığı və hərəkətləri ilə adi bir fəhləyə oxşayırdı.

Şayiəyə görə, bu adam balaca Monreyl şəhərinin küçələrində soyuq bir dekabr axşamı, torbası çiynində, əsası əlində kimsənin gözünə çarpmadan yeriməkdə ikən, şəhərdə böyük bir yanğın əmələ gəlmişdi, şəhər idarəsi yanırdı. Bu adam canından keçərək özünü odun içinə atıb, yanmaqda olan iki uşağı qurtarmışdı, bunlar jandarm kapitanının uşaqları idi. Bu təsadüfə görə kimsə ondan pasport soruşmadı. Adını sonralar öyrənmişdilər. Ona *Madlen baba* deyirdilər.

İkinci fəsil
MADLEN

Bu, əlli yaşlarında dalğın baxışlı və mərhəmətli bir adamdı. Onun haqqında bundan başqa heç bir şey söyləmək mümkün deyildi.

Onun kəşfi sayəsində sənayenin sürətlə inkişaf etməsi ilə Monreyl az bir müddət içində mühüm bir ticarət mərkəzinə çevrilmişdi. Hər il külli miqdarda qara şüşə tələb edən İspaniya böyük sifarişlər verirdi. Artıq Monreyl bu işdə London və Berlinlə rəqabət edəcək bir halda idi. Madlen babanın götürdüyü qazanclar o qədər çox idi ki, elə ikinci il böyük bir fabrik tikməyə nail oldu. Bu fabrikin iki hissəsi

vardı: biri kişilər üçün, o biri qadınlar üçün. Ehtiyacı olan hər kəs oraya gəldikdə, həm çörək, həm də iş tapacağına əmin idi. Madlen baba kişilərdən çalışqanlıq, qadınlardan əxlaq, hər kəsdən isə namuslu iş tələb edirdi. Qadın və kişilərin emalatxanalarını bir-birindən ayırmaqla qızların da, qadınların da namuslu qalmasına xidmət etmişdi. Bu məsələdə o, sarsılmaz bir iradəyə malikdi. Monreyl bir qarnizon şəhəri olduğundan, orada səfalətə daha çox təsadüf edilə bilərdi. Xülasə, onun bu şəhərə gəlişi və burada yaşaması əhali üçün böyük bir bəxtiyarlıq oldu. Madlenin bu şəhərə gəlişindən əvvəl ölkə büsbütün yuxu içində idi; indi isə şəhərdə böyük bir canlanma hiss olunur və hər yerdə sağlam əmək həyatı qaynamağa başlayırdı. Hər yerdə böyük bir ruh yüksəkliyi duyulurdu. İşsizlik və yoxsulluq unudulmuşdu. Artıq cibində azdan-çoxdan pulu olmayan adam tapılmazdı. İçində, heç olmasa, azacıq belə sevinc görünməyən heç bir yoxsul evi yox idi.

Madlen baba hamını işə götürürdü. O, adamlardan ancaq namuslu adam olmağı, namuslu "qadın olmağı" tələb edirdi.

Dediyimiz kimi, Madlen baba yaratmış olduğu və rəhbərlik etdiyi bu qızğın fəaliyyət içində özünə böyük bir sərvət qazanmışdı, lakin onda adi tacirləri təəccübləndirən bir hal vardı: onun üçün qazanc əsas məsələ deyildi. Başqalarını çox və özünü az düşünən kimi görünürdü. Hamıya məlum olduğuna görə, hələ 1820-ci ildə o, Lafit bankına öz adına altı yüz otuz min frank pul qoymuşdu; lakin bu altı yüz otuz min frankı özü üçün banka qoymazdan əvvəl, o, şəhər və yoxsullar üçün bir milyondan artıq pul sərf etmişdi.

Xəstəxana üçün çox az pul buraxılırdı; Madlen xəstəxanada öz hesabına daha on çarpayı düzəltmişdi. Monreyl iki məhəlləyə bölünmüşdü: yuxarı məhəllə, aşağı məhəllə. Madlenin yaşadığı aşağı məhəllədə yalnız bircə məktəb vardı ki, bu da uçmaqda olan yoxsul bir daxmaya bənzəyirdi. O, bu məhəllədə biri oğlanlar, o biri qızlar üçün iki yeni məktəb tikdirmişdi. Bu məktəbdəki iki müəllimə öz hesabına olaraq, hökumətin verdiyi maaşdan iki dəfə artıq maaş verirdi; buna görə də bir dəfə öz heyrətini bildirən bir şəxsə Madlen baba, "Dövlətin ən mühüm məmurları süd analarıdır" deyə cavab vermişdi. O, öz hesabına bir yetimxana düzəltmişdi ki, bu da o zamanlar Fransada böyük bir yenilikdi; bundan başqa, qoca və şikəst fəhlələr üçün də yardım kassası düzəltmişdi.

Fabrik bir məhəllə mərkəzinə çevrildiyi üçün, ətrafı az bir zamanda yeni bir məhəllə və evlərlə əhatə olunmuşdu; məhəllədə bir çox yoxsul ailə olduğundan, Madlen pulsuz bir aptek də açmışdı.

Fəaliyyətə təzə-təzə başladığı zamanlarda bəzi adamlar: "Bu varlanmaq istəyən bir hiyləgərdir" deyirdilər. Madlen babanın özü varlanmaqdan əvvəl ölkəni varlandırdığını gördükdə yenə o adamlar: "O, şöhrətpərəstdir" demişdilər. Bu adam dindar olduğundan və hətta müəyyən dərəcədə dini ayinlərə riayət etdiyindən – bu isə o zamanlar tərifəlayiq bir xasiyyət sayılırdı – bu ehtimal həqiqətə daha çox bənzəyirdi. O, hər bazar günü qayda ilə səhər ibadətinə gedərdi. Hər yerdə gözünə rəqib görünən yerli deputat bunun dindarlığından dərhal təşvişə düşdü. İmperiya dövründə qanunverici məclisdə əyləşən bu deputat, konqreqasiya üzvlərindən Fuşe adı ilə şöhrət tapmış Otrant hersoqunun dini görüşlərini qəbul edirdi. Fuşe onun dostu və hamisi idi. Bu deputat xəlvət yerlərdə Allaha azacıq istehza da edirdi. Bununla belə, varlı fabrikant Madlenin hər səhər saat yeddidə ibadətə getdiyini bildikdə, bu qərara gəldi ki, Madlen onun rəqibi ola bilər, buna görə də ibadət məsələsində Madleni ötüb keçmək fikrinə düşdü. O, yezuitlərdən birini özünə ruhani ata qəbul edərək, həm səhər, həm də axşam ibadətinə getməyə başladı. O zamanlar şöhrətpərəstlər dünya nemətlərinə Allaha səcdə etməklə nail olurdular. Rəqabətdən doğan bu qorxudan yalnız Allah-taala deyil, yoxsullar da qazanırdılar, çünki onun sayəsində hörmətli deputat da xəstəxanada iki çarpayının xərcini öz öhdəsinə götürdü və beləliklə, xəstəxanada on iki yer təmin edilmiş oldu.

1819-cu ildə günlərin birində şəhərə belə bir xəbər yayıldı: Madlen baba prefekt cənablarının tövsiyəsinə görə və ölkəyə göstərmiş böyük xidmətləri üçün kral tərəfindən Monreyl-sür-Mer şəhərinin meri təyin olunacaqdır. Bu adamı şöhrətpərəst hesab edənlər sevinərək hər yerdə: "Aha, gördünüzmü, biz deyən oldu" deyə bağırmağa başladılar. Bütün Monreyl əhalisi həyəcana gəldi. Xəbər əsassız deyildi. Bir neçə gündən sonra "Moniter" qəzetində Madlenin şəhər meri təyin edilməsi xəbəri dərc edildi. Madlen baba ertəsi gün bu vəzifədən boyun qaçırdığını bildirdi.

Yenə həmin 1819-cu ildə Madlenin icad etdiyi üsulda istehsal edilən məmulat sənaye sərgisində göründü; yoxlama heyətinin məruzəsi üzrə kral Madlenə Fəxri legion nişanı verdi. Şəhər yenə həyəcana

gəldi. Hamı: "Hə! Gördünüzmü! Məqsədi nişan almaq imiş!" – deyə bağırmağa başladı. Madlen baba nişanı da qəbul etmədi.

Bu adam, həqiqətən, bir müəmma idi. "Xeyirxah adamlar" bu dəfə də çətinlikdən çıxaraq: "Hər halda, bu bir fırıldaqçıdır" – qət etdilər.

Gördüyümüz kimi, ölkə ona bir çox cəhətdən, yoxsullar isə hər bir cəhətdən minnətdar idilər. O, camaata o qədər mənfəət vermişdi ki, ona hörmət bəsləməmək mümkün deyildi. Rəftarı da o qədər xoş idi ki, onu sevməmək mümkün deyildi. Fabrikdə çalışan fəhlələr ona pərəstiş edirdilər, o isə bu pərəstişi kədərli bir ciddiyyətlə qəbul edirdi. Onun sərvəti artıq bir həqiqət olduqda, "cəmiyyət adamları" onunla salamlaşmağa başladılar. İndi şəhərdə artıq onu "cənab Madlen" deyə çağırırdılar. Fəhlələr və uşaqlar isə onu yenə qabaqkı kimi, "Madlen baba" adlandırırdılar. O, bunu eşitdiyi zaman həmişə xeyirxah bir təbəssümlə gülümsərdi. Sərvəti artdıqca, onu hər yerə dəvət etməyə çalışırdılar. "Cəmiyyət" ona yaltaqlıq edirdi. Şəhər mehmanxanalarının dəbdəbəli kiçik salonları, vaxtilə sənətkarı qəbul etmədikləri halda, milyoner üçün öz qapılarını taybatay açmışdılar. Ona min cür hörmətlər, təkliflər edirdilər. O, bu təklifləri rədd edirdi.

"Xeyirxah adamlar" bu dəfə də sakit olmadılar: "Bu, cahil və tərbiyəsiz bir adamdır. Kim bilir, haradan gəlmişdir. O, yəqin, özünü qabiliyyətli bir cəmiyyət daxilində apara bilməz. Çox ehtimal ki, heç savadı da yoxdur".

Onun pul qazanmağa başladığını gördükdə: "Bu alverçidir" – dedilər. Öz pullarını ümumun ehtiyacı üçün sərf etdiyini gördükdə: "Şöhrətpərəstdir" – dedilər. Hər bir hörmət və təzimdən çəkindiyini gördükdə: "Fırıldaqçıdır" – dedilər. Nəhayət, cəmiyyətdən çəkindiyini gördükdə: "Kobud adamdır" – dedilər.

1820-ci ildə, Monreyl şəhərinə gəldiyi gündən beş il sonra onun ölkəyə etdiyi xidmətlər o qədər aydın və əhalinin iradəsi o qədər yekdil idi ki, kral onu yenə şəhər meri təyin etdi. Madlen bu dəfə də vəzifədən boyun qaçırdısa da, prefekt onun etirazını rədd etdi; bütün ağsaqqallar gəlib ondan razı olmasını xahiş etdilər. Küçəyə dolmuş camaat ona yalvarırdı; nəhayət, camaatın israrlı xahişinə tabe olaraq, Madlen şəhər meri vəzifəsini qəbul etdi. Sadə bir qarının öz evinin qapısından acıqlı-acıqlı bağıraraq: "*Yaxşı mer ölkəyə çoxlu*

fayda verə bilər. Yaxşılıq etmək imkanından qaçmaq heç vicdana yaraşarmı?" – deməsi ona hamıdan çox təsir etmişdi.

Bu, onun yüksəlişinin üçüncü dövrü idi. Madlen baba artıq cənab Madlenə, cənab Madlen isə cənab şəhər merinə çevrilmişdi.

Üçüncü fəsil

LAFİT BANKINA QOYULMUŞ PUL

Madlen əvvəlki sadəliyini əsla dəyişmirdi. Saçları ağarmış, baxışlarında ciddiyyət görünürdü; üzü fəhlə üzü kimi gündən yanmışdı, dalğınlığı ilə o, bir filosofa bənzəyirdi. Adətən, başına enli bir şlyapa qoyar və boğazına qədər düymələnmiş uzun bir sürtuk geyərdi. Şəhər rəisi vəzifəsini namusla icra edərdi, vəzifə xaricində isə yenə əvvəlki kimi sadə həyat keçirərdi. Adamlarla çox az danışardı, təzim və hörmətdən çəkinməyə çalışaraq, salam verib keçərdi; söhbətdən qaçmaq üçün cavab vermək əvəzinə, gülümsər və gülümsəməyə məcbur olmamaq üçün pul verərdi. Qadınlar onun barəsində: "Nə yaxşı avam adamdır!" – deyərdilər. Ən çox sevdiyi əyləncə şəhər ətrafında gəzib-dolaşmaqdan ibarətdi.

Daim yalqız yemək yeyərdi: yemək yeyərkən kitab oxuyardı. Kiçik, lakin səliqəli bir kitabxanası vardı. Kitabları çox sevərdi; kitablar onun soyuq, ancaq vəfalı dostu idi. Sərvəti artdıqca boş vaxtı da çoxalırdı, boş vaxtlarını zehninin inkişafına verər və biliyini artırardı. Monreylə gəldiyi gündən bəri dili də xeyli dəyişmişdi; daha incə və nəzakətli bir tərzdə danışdığı duyulurdu.

Gəzməyə getdiyi zaman özü ilə bir tüfəng götürərdisə də, bunu çox az işlədərdi. Təsadüfən tüfəng atmaq lazım gəldikdə, o qədər gözəl nişan alıb vururdu ki, adam qorxardı. Heç vaxt zərərsiz bir heyvanı öldürməzdi, heç vaxt xırda quşlara güllə atmazdı.

Artıq çox da cavan olmadığına baxmayaraq, xariqüladə bir qüvvətə malik olduğunu söyləyirdilər. O, ehtiyacı olan hər kəsə kömək əlini uzadardı. Yolda yıxılan atı qaldırar, palçığa girən arabaların çıxarılmasına kömək edər, qaçmış öküzün buynuzundan tutub saxlardı. Evdən çıxarkən həmişə cibləri pulla dolu və evə qayıdarkən boş olardı. Kənddən keçərkən qabağına çıxan cındır paltarlı

balaca uşaqlar arı kimi şən dəstə ilə onu dövrəyə alar, ardınca yüyürərdilər.

Kənd işləri haqqında kəndlilərə bir çox məlumat söylədiyindən, bir zaman kənddə yaşamış olduğu görünürdü. O, kəndlilərə buğdaya bit düşdüyü zaman, anbarlara və döşəmə dəliklərinə duzlu su tökməyi və hər yerdə, divarlarda, damların tirində, düzlərdə və evlərdə çiçək açmış şalfey sərməklə uzunburun cücüdən təmizləməyi məsləhət görürdü. Taxılı qalxmağa qoymayan bütün alaq otlarını: qaramuqotunu, durnanoxudunu, xoruzpipiyini təmizləmək üçün onun xüsusi "reseptləri" vardı. Ada dovşanları damını siçovullardan hind donuzu ilə qoruyardı: siçovullar hind donuzunun iyini sevməzlər.

Bir dəfə Madlen baba yerli əhalinin böyük bir səylə gicitkəni məhv etdiyini görmüşdü. Kökündən qoparılmış və artıq qurumuş gicitkəni görən Madlen: "Quruyub, – demişdi, – ancaq göy olsaydı, işə yaraya bilərdi. Cavan gicitkənin yarpaqları yemək üçün çox dadlı olur, qoca gicitkən isə çətənə və kətan kimi istifadə edilə bilər; onun da toxumaları və telləri var. Xırda doğranmış gicitkən ev quşlarına yem kimi verilə bilər, əzilmiş gicitkən isə qaramal üçün yarayır. Gicitkənin toxumu yemə qatıldıqda, heyvanların dərisinə parlaqlıq verir, kökünü duza qarışdırdıqda isə ondan gözəl sarı boya hazırlamaq mümkündür. Bundan başqa, gicitkən gözəl bir otdur ki, yayda iki dəfə biçilə bilər. Gicitkəni bəsləmək üçün nə lazımdır? Ona bir az torpaq kifayətdir, daha onu bəsləmək lazım deyil. Doğrudur, gicitkənin toxumu yetişdikcə dibinə tökülür və onu yığmaq çətin olur. Gicitkənə bir az zəhmət sərf etsən, o çox faydalı ola bilər. Ancaq ona baş qoşmayanlar üçün zərərli olur. O zaman onu məhv edirlər. Həyatda da gicitkən kimi adamlar çoxdur! – Bir an susduqdan sonra dedi: – Unutmayın, dostlarım, nə pis otlar var, nə də pis adamlar. Ancaq pis sahibkarlar var!"

Uşaqlar onu daha bir şey üçün də sevirdilər: o, onlar üçün samandan və hind qozundan olduqca gözəl oyuncaqlar düzəldə bilirdi.

Kilsə qapısına matəm qarası çəkildiyini gördükdə, içəri girərdi. Başqalarını ad qoymaq bayramı cəlb etdiyi kimi, onu da dəfn mərasimləri cəlb edərdi. Ürəyi mərhəmətli olduğundan, özgələrin müsibət və fəlakətləri onu cəlb edərdi. O, qəmli dostların, qara geymiş qohumların, mərhum üçün dua oxuyan keşişlərin arasına

qarışardı. Başqa bir aləmin xəyalatı ilə dolu dəfn dualarını dinlərkən dərin fikirlərə həvəslə daldığı görünürdü. Sanki, nəhayətsiz bir dünyanın sirlərinə doğru meyil edərək, gözlərini göylərə doğru çevirərək, ölüm deyilən qaranlıq bir uçurum kənarında səslənən ələmli avazlara qulaq asardı.

O, bir çox yaxşılıqlar etmişdi, lakin başqaları öz pis işlərini gizlətdiyi kimi, o da öz yaxşılıqlarını gizlədərdi. Axşamlar yoxsul evlərini ziyarət edərək, yavaş-yavaş pilləkənlə çıxardı; yoxsullar evlərinə qayıdarkən bəzən öz qapılarını açıq, hətta qıfıllarını qırılmış görərdilər. Biçarə yoxsul: "Evimə oğru gəlmişdir!" – deyə bağırmağa başlardı. İçəri girdikdə masanın üstündə kiminsə unutmuş olduğu bir qızıl pul görərdi. Demə, buraya gəlmiş "oğru" Madlen baba imiş.

O, daim xoş sifətli və həzin görünərdi. Xalq onun haqqında deyirdi ki, "Varlı olsa da, təkəbbürlü deyildir. Xoşbəxtdir, ancaq zahirindən dərdli adama oxşayır".

Bir çoxları onu müəmmalı bir adam sayırdılar, yataq otağına heç bir kəsin girmədiyini və bu otağın qədim qum saatı, insan kəlləsi və ələngələri ilə bəzənmiş sadə bir hücrədən ibarət olduğunu söyləyirdilər. Bu xüsusda çox danışırdılar. Bir gün Monreyldə yaşayan gənc qadınlardan bir neçəsi qəşəng paltar geyib onun yanına gələrək xahiş edirlər ki, "Cənab mer, yataq otağınızı bizə göstərin. Deyirlər ki, bu otaq mağaraya bənzəyir". Madlen baba gülümsəyib onları öz "mağarasına" apardı. Xanımlar maraqlarının cəzasını çəkdilər. Otaqda qırmızı ağacdan adi və görkəmsiz mebel vardı; divarlara on iki suya satılan ucuz kağız çəkilmişdi. Bu otağın içində buxarının üstünə qoyulmuş iki şamdanın "üstündə əyarı olduğundan", gümüş olduğunu anladılar. Kiçik şəhər əhalisinin belə şeylərə diqqət etməsi təəccüblü deyildi.

Bununla belə, bu otaq haqqındakı söhbətlərə son qoyulmadı. Hamı Madlen babanın bir mağarada, bir rahib hücrəsində, bir məzar içində yaşadığını söyləməkdə davam etdi.

Adamlar, Madlen babanın Lafit bankına "böyük məbləğlər" qoyduğu haqqında da pıçıltı ilə danışırdılar. Deyirdilər ki, Madlen hər vaxt istəsə gəlib pullarını geri götürmək və qəbzi imzalayıb on dəqiqə içində iki-üç milyon pul aparmaq şərtilə, pullarını bu banka qoymuşdur. Həqiqətdə isə, dediyimiz kimi, bu "iki-üç milyon" ancaq altı yüz otuz və ya altı yüz qırx min frankdan ibarət idi.

Dördüncü fəsil

CƏNAB MADLENİN YAS SAXLAMASI

1821-ci ilin əvvəllərində qəzetlər *monsenyor* adı ilə şöhrət qazanmış Din yepiskopu Cənab Mirielin səksən iki yaşında vəfat etdiyini xəbər verdilər.

Biz qəzetlərin nəzərdə tutmamış olduğu bir təfsilatı da qeyd edə bilərik: Din yepiskopu hələ ölümündən bir neçə il əvvəl kor olmuşdu, bacısı yanında olduğundan o, öz korluğuna sevinirdi.

Ötəri olaraq bunu da söyləyə bilərik ki, hər bir şeyi kamil olmayan bu dünyada kor olmaq və sevilmək, həqiqətən, səadətin ən gözəl və fövqəladə şəkillərindən biridir. Daim öz arvadını, qızını, bacısını, əziz bildiyin bir insanı yanında hiss etməkdən böyük bir xoşbəxtlik nə ola bilər? Həm də onun sizin yanınızda olmağına səbəb sizin ona möhtac olmağınız, onun da sizsiz yaşaya bilməməsidir. Siz onun məhəbbətini daim sizə sərf etdiyi vaxtla ölçə bilərsiniz və daim düşünə bilərsiniz: "O, bütün vaxtını mənə həsr edir, demək, onun könlü tam mənası ilə mənə bağlıdır". Üzünü görə bilmədiyi üçün fikirlərini görmək, bu vəfasız dünyada sevdiyin bir insanın vəfa və sədaqətinə inanmaq, qanadların səsi kimi paltarının xışıltısını eşitmək, onun necə içəri daxil olub, necə bayıra çıxdığını, necə hərəkət etdiyini, danışdığını, oxuduğunu duymaq, bu addımların, bu sözlərin, bu nəğmənin qayəsi özünüz olduğunu bilmək, hər dəqiqə öz şəfqət və məhəbbətini göstərə bilmək, vücudunuz zəifləşdikcə özünüzü daha qüvvətli hiss etmək, qaranlıqda, məhz, qaranlıq sayəsində bu mələki cəzb edən bir günəşə çevrilmək – bu, elə bir sevincdir ki, yer üzündə heç bərabəri yoxdur. Həyatın ən ülvi səadəti – sevildiyinizə əmin olmaqdır, sizi öz xatirinizə, daha doğrusu, sizdən asılı olmadan sevməkdir. Kor adamlar da buna əmindirlər. Dərin bir ümidsizlik içində sizə qarşı qayğı göstərildiyini duymaq, – nəvaziş duymaq deməkdir. O, bir şeydən məhrum edilmişdimi? Xeyr. Onun məhəbbəti var, demək, onun gözləri nursuz deyil. Həm də necə bir məhəbbət! Bütün varlığı yaxşılıqla aşılanmış bir məhəbbət! Əmniyyət olan yerdə insan öz korluğunu hiss etməz. Bir qəlb başqa bir qəlbi görmədən belə, axtarıb tapa bilər. Tapılan və sınaqdan çıxarılan

qəlb isə – qadındır. Sizi bir adamın əli qoruyur. O da həmin qadının əlidir; – sizin alnınızdan öpən dodaqlar həmin qadının dodaqlarıdır; siz lap yaxınlıqda kiminsə xoş nəfəsini duyursunuz – bu da o qadının nəfəsidir. Qadının pərəstişkarlığından başlayaraq onun mərhəmətinə qədər hər bir şeyə sahib olmaq, heç bir zaman yalqızlıq nə olduğunu duymamaq, onun itaətkarlığından və zəifliyindən qüvvət almaq, bu əyilmək bilməyən nazik ağaca söykənmək, öz əllərinizlə öz səadətinizə toxunmaq, onu bağrınıza basmaq – aman Allah, bundan da böyük səadət olarmı? Göylərin müəmmalı bir çiçəyi olan qəlb sirlər içində yüksəlir, canlanır. Siz bu qaranlığı yer üzünün bütün işıqlarına dəyişməzsiniz. O mələk qəlbli insan daim burada, daim sizin yanınızdadır. O, yanınızdan çəkilərsə, yenə sizin yanınıza qayıtmaq üçün çəkilir. O, bir yuxu kimi yox olur, həqiqət kimi doğur. O, sizə yaxınlaşdığı zaman bədəninizin isindiyini hiss edirsiniz. Ürəyiniz şadlıq, fərəh, nurla dolur. Siz qaranlıq bir gecədə günəş kimi parlayırsınız. Hələ qayğılar, sizin üçün çəkilən minlərcə qayğılar! Bunlar bu geniş səhrada böyük yer tutan cüzi şeylərdir. Qadın səsinin ən incə, ən zərif ahəngi sizə dərin bir təsəlli verir, məhrum olduğunuz kainatı əvəz edir. Siz qəlbin nəvazişini duyursunuz. Siz heç bir şey görmürsünüz, siz ancaq bir qadının sizə pərəstiş etdiyini hiss edirsiniz. Bu, qaranlıqda bir cənnətdir.

Monsenyor Byenvenü bu cənnətdən ayrılıb başqa bir cənnətə köçmüşdü.

Onun ölüm xəbəri Monreyldə çıxan yerli bir qəzetdə dərc edilmişdi. Ertəsi gün cənab Madlen qara paltar geyindi, şlyapasına matəm qarası taxaraq şəhərdə göründü.

Şəhərdə cənab Madlenin bu cür yas saxlamağına cürbəcür məna verməyə başladılar. Yerli əhalinin zənnincə, bu məsələ cənab Madlenin mənşəyini bir qədər aydınlaşdırırdı. Yəqin onun hörmətli yepiskopla qohumluğu var imiş. Salonlarda "Din yepiskopu üçün matəm tutduğunu" deyirdilər. Bu ehtimal cənab Madlenə qarşı olan hörməti daha da artırdı. Hamı tezliklə ona hörmət etməyə başladı. Şəhərin ən kiçik olan Sen-Jermen məhəlləsinin əhalisi, cənab Madlenə bəslədiyi şübhəni yepiskopla qohumluğuna görə unutmağa başladı. Cənab Madlen hörmətinin artdığını gördü; qoca qarılar ikiqat olub ona salam verirdilər; gənc qadınlar da onu gördükdə gülümsəyirdilər. Bir axşam bu kiçik kübar cəmiyyətinin görkəmli

nümayəndələrindən biri qocalığının ona verdiyi haqqa güvənərək maraqla soruşdu:

– Cənab mer, siz mərhum Din yepiskopunun yaxın qohumlarındansınızmı?

Cənab Madlen cavab verdi:

– Xeyr, xanım.

– Bəs siz niyə onun üçün yas saxlayırsınız? – deyə bir də soruşdu.

Cənab Madlen:

– Gəncliyimdə onun yanında xidmətçi idim, onun üçün, – deyə cavab verdi.

Yerli əhali şəhər rəisinin halında qəribə bir şey də müşahidə etmişdi: şəhərə bir savoyalının gəldiyini gördükdə, cənab Madlen onu öz yanına çağırıb, adını soruşar və ona pul verərdi. Kiçik savoyalılar bunu bir-birlərinə söylər və Monreylə çox tez-tez gəlib-gedərdilər.

Beşinci fəsil

ÜFÜQDƏ PARLAYAN İLDIRIMLAR

Zaman keçdikcə bütün ədavət və yad münasibətlər yavaş-yavaş sakitləşirdi. Əvvəlcə cənab Madlen görkəmli mövqe tutan adamların, ümumiyyətlə, düçar olduqları iyrənc iftiralar və dedi-qodular eşitməyə başladı; sonra bunları kinli sözlər, daha sonra acı istehzalar əvəz etdi. Nəhayət, bunlar da aradan qalxdı; şəhər rəisinə qarşı böyük, səmimi, yekdil bir hörmət göstərməyə başladılar. 1821-ci ildə isə elə bir vaxt oldu ki, "cənab mer" sözü Din şəhərində 1815-ci ildə "monsenyor yepiskop" sözü kimi ayrıca pərəstişkarlıqla tələffüz edilməyə başladı. Cənab Madlenin yanına adamlar on lyöluq məsafədən məsləhətə gəlirdilər; o, mübahisələri həll edər, məhkəməyə düşməyin qarşısını alar, düşmənləri bir-birilə barışdırardı. Hər kəs haqlı olduğunu müdafiə etmək üçün meri özünə havadar çağırardı. Sanki, onun qəlbi təbii qanunların bir məcəlləsi idi. Ona qarşı olan hörmət ətrafa sirayət edərək, altı-yeddi il ərzində bütün ölkəyə yayıldı.

Şəhərdə və bütün əyalətdə yalnız bir adam vardı ki, ona hörmət bəsləməkdən tamamilə çəkinirdi. Cənab Madlenin göstərdiyi yaxşılıqlara

baxmayaraq, bu adam yenə bu xəstəliyə tutulmurdu. Onda, cənab Madlenə qarşı şübhə oyadan sarsılmaz bir instinkt hökm sürürdü. Görünür, bəzi adamlarda, doğrudan da, əsl heyvani bir instinkt var; hər bir instinkt kimi o da təbiidir və onu məhv etmək mümkün deyildir; o, simpatiya və antipatiyanın yaranmasına səbəb olur, fəlakətli bir şəkildə insandan insana fərq qoyur, heç bir zaman tərəddüd etməz, halını pozmaz, sayıqlığını itirməz və özünə xəyanət etməz; onun gözünü pərdə tutsa da, baxışları aydındır, səhv etməz, hökm edər, zəkanın heç bir məsləhətinə, şüurun heç bir pozucu təsirinə tabe olmaz və taleyin insanları haraya gətirib çıxardığından asılı olmayaraq, it təbiətli insana pişik təbiətli insanın və tülkü təbiətli insana aslan təbiətli insanın yaxında olduğunu xəlvətcə xəbər verir.

Cənab Madlen çox zaman, hər kəsdən razılıq və səmimi münasibət görməklə sakit-sakit küçədən keçərkən, uzun boylu boz paltolu, əlində yoğun bir əsa və başında üzünü yarıya qədər örtən geniş bir şlyapa olan bir adama təsadüf edərdi. Cənab şəhər rəisi bu adamın ona şübhə ilə baxdığını və gözündən qeyb oluncaya qədər təqib etdiyini görərdi; sonra bu adam qollarını qoltuğuna qoyaraq dayanar, başını yavaş-yavaş yırğalamağa başlar və dodaqlarını nifrətli bir tərzdə büzüşdürərək baxardı; sanki: "Bu adam kimdir? Mən bunu keçmişdə harada isə görmüşəm. Hər halda, o, məni aldada bilməyəcəkdir" – sözlərini deyirdi.

Bu adam olduqca sərt, hər kəsi qorxudacaq dərəcədə sərt görünürdü: ötəri bir təsadüfdə belə, qorxu oyada biləcək adamlardan idi.

Onun adı Javer idi, özü də polis idarəsində xidmət edirdi.

O, Monreyl şəhərində çətin, lakin cəmiyyət üçün faydalı bir vəzifə ifa edirdi ki, bu da polis müfəttişi vəzifəsi idi. Madlen ilk dəfə bu şəhərdə göründüyü zaman, o, burada deyildi. Onun bu vəzifəyə təyin edilməsinə səbəb sonradan nazir, o zaman isə Paris polis idarəsinin prefekti olan qraf Anqlesin katibi cənab Şabulye olmuşdu. Javer ilk dəfə Monreyl-sür-Mer şəhərinə gəldiyi zaman, Madlen artıq iri bir fabrikant, böyük bir sərvət sahibi idi. Madlen babadan çevrilib cənab Madlen olmuşdu.

Bəzi polis məmurlarının üzündə qəribə ifadə olur: bu ifadədə iki şey – alçaqlıq və hökmranlıq hissi qəribə bir şəkildə qarışmış olur. Javerin üzündə də belə bir ifadə vardı, ancaq bu ifadədə alçaqlıq əlaməti görünmürdü.

Əgər insan qəlbini gözlə görmək mümkün olsaydı, bizim dərin etiqadımıza görə, hamının gözləri qarşısında qəribə bir şey canlanardı, o da insan nəsli nümayəndələrindən hər birinin heyvanat aləminin bir növünə uyğun gəlməsidir. Bunun sayəsində mütəfəkkir üçün hələ dumanlı bir həqiqəti aydınlaşdırmaq mümkün olardı ki, o da budur: ilbizdən tutmuş qartala qədər, donuzdan tutmuş pələngə qədər bütün heyvanların və quşların təbiəti insanlarda və ayrı-ayrı heyvanların və quşların təbiəti isə ayrı-ayrı insanda gizlənmişdir. Bəzən bir neçə heyvanın təbiəti bir adamın təbiətində belə birləşmiş olur.

Heyvanlar bizim xeyir və şər işlərimizin ana surətləridir, ruhumuzun gözə görünən və gözlərimizin qarşısında dolaşan kabuslarıdır. Allah onları bizə göstərir ki, bizi fikirləşməyə məcbur etsin. Lakin heyvanlar ancaq kölgə olduqlarından, Allah onlara tam mənada tərbiyə olunmaq qabiliyyəti verməmişdir. Bir də onların tərbiyəyə nə ehtiyacı var? Əksinə, bizim ruhumuz real bir şəkildə yaşadığından və qəti bir məqsədə malik olduğundan, Allahdan ağıl, yəni tərbiyə olunmaq qabiliyyəti almışdır. İctimai tərbiyə düzgün təşkil edildiyi zaman, ruhumuzun içərisindən, o necə olursa olsun, mənfəətli şeyləri üzə çıxarmaq mümkündür.

Əlbəttə, bizim bu söylədiklərimiz, yalnız gözə görünən dünya həyatına tətbiq edilmək nöqteyi-nəzərindən doğru ola bilər və insan olmayan məxluqatın əvvəlki və sonrakı surətlərinə aid mürəkkəb məsələni həll etmək üçün yaramır. Zahirdəki "mənliyin" batindəki "mənliyi" inkar etməsi üçün mütəfəkkirə heç bir haqq vermir. Bu qeydi etdikdən sonra yenə öz sözümüzə davam edirik.

Beləcə, oxucumuz bizimlə birlikdə hər bir insanda heyvanat aləminin bir nümayəndəsinin gizləndiyini bir fərziyyə kimi müvəqqəti olaraq qəbul etsə, polis məmuru Javerin kim olduğunu təyin etmək bizim üçün asan olar.

Asturiya kəndlilərinin etiqadınca, bəzən canavar balaları içərisində eləsinə təsadüf edilir ki, anaları onu öldürməsə, böyüdükdən sonra, mütləq qalan balaları yeyəcəkdir.

Bu canavar balasına insan sifəti versəniz, Javer barəsində aydın bir təsəvvürünüz olar.

Javer həbsxanada doğulmuşdu; anası falçı idi, atası isə katorqaya sürgün edilmişdi. Bir qədər böyüdükdə cəmiyyət daxilində özü

üçün yer olmadığını anlamış və bu cəmiyyətin üzvü olmaq ümidini itirmişdi. O anlamışdı ki, bu cəmiyyət, adətən, öz sırasından iki insan zümrəsini amansızcasına xaric edir: əvvələn, ona hücum edənləri və ikincisi, onu müdafiə edənləri; o yalnız bu iki zümrədən birini seçməyə məcbur idi; özündə qanuniyyətə, səbat və qeyrətə yenilməz bir meyil və eyni zamanda, mənsub olduğu qaraçı təbəqəsinə böyük bir nifrət bəsləyirdi. Javer polis idarəsinə girdi. Orada müvəffəqiyyət qazandı. Qırx yaşında artıq müfəttiş idi.

Gəncliyində cənubdakı qalerada nəzarətçi vəzifəsində xidmət etmişdi.

Lakin sözümüzə davam etmək üçün Javerdən bəhs edərkən "insan sifəti" sözü ilə nə demək istədiyimizi aydınlaşdırmalıyıq.

Javerdəki insan sifəti dik bir burunla, burunun iki geniş və dərin dəliyindən və bunlara bitişik olan enli və sıx bakenbardlardan ibarətdi. Onu ilk dəfə görən adam, özünü bir qədər pis hiss edir, bu sıx meşəliyə və dərin mağaralara bənzəyən böyük burun dəliklərinə diqqət edərdi, Javer az gülərdi, lakin güldüyü zaman qəhqəhəsi qorxunc olardı; nazik dodaqlarını açaraq, yalnız dişləri deyil, bəlkə, damağını da göstərərdi, burnunun ətrafında isə, vəhşi heyvanların üzündəki kimi dərin qırışıqlar əmələ gəlirdi. Javer ciddi olduğu zaman yekə bir itə, güldüyü zaman isə bir pələngə bənzərdi. Kəlləsi alçaq və kiçik, çənəsi enli idi; iki qaşı arasında qəzəbdən əmələ gəlmiş iki dərin bir qırışıq, baxışında qorxunc və amiranə bir şey vardı; sıxılmış kinli dodaqları dəhşətli görünürdü. Javer belə idi.

Bu adam iki xeyli sadə və nisbətən pis olmayan duyğuya malik idi ki, bunları ifrat dərəcəyə gətirdikdə çox pis bir şeyə çevrilirdi, bu duyğular amirlərə qarşı hörmət və üsyana qarşı nifrətdən ibarətdi; onun nəzərində oğurluq, qətl və ümumiyyətlə, bütün cinayətlər üsyan əlamətlərindən başqa bir şey deyildi. Nazirdən başlayaraq adi kənd qoruqçusuna qədər dövlətə xidmət edən nə qədər adam varsa, onda hamısına qarşı gözübağlı bir etimad və hədsiz bir hörmət vardı. Qanunu bir dəfə belə pozmuş olan hər kəsə qarşı nifrət, kin və ədavət bəslərdi. Birincilər haqqında: "Məmur heç bir zaman səhv etməz, hakim həmişə haqlıdır" deyərdi, qanunu pozmuş adamlar haqqında isə: "Onlar artıq həmişəlik məhv olurlar; onlardan heç bir yaxşı şey gözləmək olmaz" – deyərdi. O, bu mənhus insanları yaratmaq və daha doğrusu, meydana çıxarmaq üçün insan qanunlarına

mütləq bir haqq verən və cəmiyyətin aşağı təbəqələrini Stiks sahillərinə qovan ifrat etiqadlara tam mənası ilə şərik çıxardı. O, zahid kimi möhkəm, ciddi və sərt fanatiklər kimi məyus və dalğın, təvazökar və mütəkəbbir idi. Baxışı balta kimi soyuq və kəskin idi, baxdığı şeyi dəlir kimi görünürdü. Bütün həyatı iki sözdən ibarətdi: izləmək və güdmək. İnsan həyatının ən əyri yolları üzərindən düz bir xətt çəkmişdi; gördüyü işin faydalı olduğunu şüurunda bütünlüklə yerləşdirmişdi; vəzifələrini müqəddəs hesab edirdi, bəzi adamlar keşiş olduğu kimi, o da xəfiyyə idi. Əlinə düşənin vay halına! Atası belə katorqadan qaçmış olsaydı, onu tutmaq üçün heç tərəddüd etməzdi; anası polis nəzarətindən qaçmış olsaydı, onu da tutub həbs edərdi. O, bununla özündə xeyir işin əta etdiyi mənəvi bir məmnuniyyət hiss edirdi. Bununla bərabər, həyatı pis keçirdi; aza qənaət edərək, tək yaşardı, qadın tanımaz, zövq və əyləncəni əsla sevməzdi. Amansız bir vəzifənin təcəssümü, polis idarəsini spartalıların Spartanı anladıqları kimi anlaması, amansız bir nəzarətçi, yırtıcı bir intizam, mərmərdən düzəldilmış bir casus, Vidok cildində bir Brut – bax Javer bu idi.

Bütün varlığı daim izləyən və gizlənən bir adam olduğunu bildirirdi. İfrat royalist ruhlu qəzetlərin uydurmalarını o dövrdə yüksək kosmoqoniya fikirlərilə aşılayan Jozef de Mestrin dini məktəbi Javeri bir simvol kimi təsvir etməkdən çəkinməzdi. Alnı görünməzdi, çünki şlyapasının altında idi; gözləri də görünməzdi, çünki qaşları altında gizlənmişdi; çənəsi geniş bir boyunbağının içində idi, əlləri də görünməzdi, çünki qolları içində gizlənmişdi; həmişə gəzdirdiyi əsası da görünməzdi, çünki sürtuku altında tutardı. Lakin vaxtı gələndə, onun bütün vücudu qaranlığın içində pusqudan çıxar kimi olurdu; ensiz və yastı bir alın, qorxunc bir baxış, hirsli bir çənə, yekə əllər, yoğun və qorxunc bir dəyənək çıxdığı görünərdi.

Az olan boş vaxtlarında, kitabları heç sevməsə də, kitab oxuyardı; ona görə də büsbütün cahil deyildi. Bu, bir az dəbdəbə təsiri bağışlayan sözlərindən də anlaşılırdı.

Onun heç bir eybi olmadığını söylədik. Yalnız özündən məmnun olduğu zamanlar bir az burunotu çəkməyi özünə rəva görərdi. Bəşəriyyətlə onu bağlayan da yalnız bu vərdiş idi.

Heç şübhəsiz ki, Javerin ədliyyə nazirliyinin illik statistika hesabatında "*şübhəli adamlar*" siyahısında göstərilən bir zümrə adamlara

dəhşətli bir şey kimi göründüyünü hər kəs anlar. Onlar Javerin adını eşidən kimi qaçardılar; yalnız onun görünməsi dəhşət saçardı.

Bu qorxunc adam belə idi.

Javer hər zaman cənab Madleni şübhəli, ayıq bir baxışla təqib edərdi. Bu baxışda bir çox eyhamlar və şübhələr görünürdü. Nəhayət, cənab Madlen bu baxışı duydusa da, anlaşıldığına görə, buna heç əhəmiyyət vermədi. Hətta Javerdən heç bir izahat belə istəməz, nə onu axtarar, nə də ondan qaçardı; Javerin ağır baxışını açıq bir qeydsizliklə qarşılardı. Javerə də, ümumiyyətlə, hər kəsə etdiyi kimi, sərbəst və xeyirxahlıqla müraciət edərdi.

Javerin ağzından qaçırdığı bir neçə sözdən anlaşılırdı ki, o, bu zümrə adamlara məxsus bir maraqla gizli axtarışlarını davam etdirirdi. Onun bu marağında instinktlə qarışıq bir iradə vardı: cənab Madlenin keçmişi haqqında nə öyrənmək mümkün idisə, Javer aydınlaşdırmaq istəyirdi. Məsələni bir az aydınlaşdırmış olduğu hiss edilirdi; bəzən işarə edərək bunu müəmmalı sözlərlə xatırladırdı; harada isə qeyb olmuş bir ailəni axtaran bir adam haqqında da bəzən şeylər söyləyirdi. Bir gün: "Deyəsən, artıq o, mənim əlimdədir!" sözlərini ağzından qaçırmışdı. Bu sözlərdən sonra o, üç gün dalğın-dalğın dolaşaraq düşünürdü. Yəqin, kələfin ucunu itirmişdi.

Xülasə, insan təbiəti heç də ləkəsiz olmur – söylədiyimiz bəzi sözlərə bu təshihi verməliyik, əks təqdirdə bu sözlərin mənası həddindən artıq qəti görünər. İnstinktin mahiyyəti məhz bundadır ki, o sarsıla bilər, yolunu aza bilər. Başqa cür olsaydı, instinkt şüura qalib gələr; heyvan isə insandan ağıllı çıxa bilərdi.

Cənab Madlenin sakitliyi və özünü saxlaya bilməsi Javerin zənnini bir qədər itirdi.

Lakin bir dəfə Javerin qəribə hərəkətləri, deyəsən, cənab Madlenə təsir etdi. Əhvalat belə idi.

Altıncı fəsil

FOŞLEVAN BABA

Bir gün səhər tezdən cənab Madlen Monreyl-sür-Mer şəhərinin daş döşənməmiş bir küçəsindən keçirdi. Bir gurultu eşidib dayandı, bir az irəlidə toplaşmış bir dəstə adam gördü. Onlara yanaşdı. Foşlevan baba adlı bir qoca kəndli yıxılmış olan atı qaldırmaq istədikdə, özü arabanın altında qalmışdı.

Bu qoca, cənab Madlenin o vaxt az olan düşmənlərindən biri idi. Cənab Madlen Monreylə gəldiyi zaman, keçmiş kənd notariusu və xeyli savadlı olan Foşlevan ticarətlə məşğul idisə də, son zamanlar işləri çox pis bir halda idi. Bu şəhərə yeni gələn adi bir fəhlənin get-gedə varlandığını, özünün isə yoxsullaşdığını görən Foşlevanın cənab Madlenə bərk paxıllığı tuturdu. Odur ki ona zərər yetirmək üçün hər bir vasitədən istifadə etməyə çalışırdı. Nəhayət, tamamilə iflas edib yalnız var-yoxundan bir atı, bir də arabasından başqa heç bir şeyi qalmadıqdan sonra yaşaya bilmək üçün adi arabaçı olmaq məcburiyyətində qalmışdı.

Atı yerə yıxıldıqda iki ayağını qırmışdı və artıq dura bilmirdi. Qoca, arabanın təkərləri altına düşmüşdü. Araba o qədər tərs əyilmişdi ki, onun bütün ağırlığı zavallının sinəsi üzərində idi. Arabanın yükü isə çox ağır idi. Foşlevan baba dəli kimi bağırırdı. Onu çıxarmağa çalışmışdılarsa da, bir nəticə verməmişdi. Kiçik bir hərəkət, yanlış bir tərpəniş, məharətsiz bir kömək onu büsbütün məhv edə bilərdi. Yalnız arabanı yuxarıya qaldırdıqdan sonra qocanı oradan xilas etmək olardı, lakin bunun üçün arabanın altına girmək lazım gəlirdi. Bu halda Javer yoldan ötərkən bu hadisəni görüb, arabanı qaldırmaqdan ötrü domkrat üçün adam göndərmişdi. Cənab Madlen də yetişdi. Hamı hörmətlə kənara çəkildi. Foşlevan:

– Kömək edin! – deyə bağırırdı, – bu yazıq qocaya kömək edəcək rəhmli bir adam yoxdurmu?

Cənab Madlen oradakılara dönərək:

– Sizdə domkrat yoxdurmu? – dedi.

Kəndlilərdən biri:

– Gətirməyə gediblər.

– Nə vaxt gətirəcəklər?

– Yaxında Flaşo küçəsindəki dəmirçixanaya gediblər, hər halda, on beş dəqiqədən az çəkməz...

Madlen:

– On beş dəqiqə? – deyə bağırdı.

Keçən axşam yağış yağmışdı, torpaq büsbütün yaş idi, ona görə araba getdikcə palçığın içinə girməkdə və qoca Foşlevanın sinəsini daha şiddətlə əzməkdə idi. Beş dəqiqə daha keçsəydi, onun bütün qabırğaları qırılacaqdı.

Madlen ətrafındakı kəndlilərə tərəf dönərək:

– On beş dəqiqə gözləmək mümkün deyil, – dedi.

– Çarə yoxdur!

– Axı bir az sonra iş-işdən keçəcək! Görmürsünüzmü, araba getdikcə daha dərinə batır?

– Necə görmürük!

Madlen:

– Qulaq asın, – dedi, – arabanın altında, bir adamın oraya girib, kürəyi ilə arabanı qaldıra bilməsi üçün hələ yer var. Bunu eləyən olsa, yarım dəqiqədə bu zavallı adam ölümdən qurtular. Aranızda ürəkli və qüvvətli bir adam vardırmı? Kim beş luidor qazanmaq istəyir?

Heç kəs yerindən tərpənmədi.

Madlen:

– On luidor, – dedi.

Oradakıların hamısı başlarını aşağı saldı. Yalnız biri:

– Buna div qüvvəsi lazımdır. Arabanın altında əzilib ölməyi kim istər! – dedi.

Madlen:

– Yaxşı, – dedi, – iyirmi luidor verərəm!

Yenə sükut.

Bir səs:

– Arzu edən var, ancaq bacarıq lazımdır, – dedi.

Madlen dönüb Javeri gördü. Ancaq buraya yaxınlaşdığı zaman onu görməmişdi.

Javer sözünə davam edərək:

– Buna gücləri çatmaz, – dedi. – Bu qədər ağır bir arabanı kürəyi ilə qaldırmaq üçün müdhiş bir qüvvəyə malik olmaq lazımdır.

Sonra cənab Madlenə kəskin bir nəzər saldı, sözlərini mənalı bir tərzdə söyləyərək əlavə etdi:

– Cənab Madlen, mən sizin istədiyiniz bu işi görə biləcək yalnız bir adam tanıyırdım.

Madlen vücudunun titrədiyini hiss etdi.

Javer qeydsiz bir görünüşlə, lakin gözlərini cənab Madlendən ayırmayaraq:

– Bu adam bir katorqalı idi, – dedi.

Madlen:

– Eləmi! – deyə dilləndi.

– Tulon həbsxanasında bir dustaq idi.

Madlenin rəngi qaçdı.

Araba isə getdikcə palçığın içinə batmaqda idi. Qoca Foşlevan inləyir və bağırırdı:

– Öldüm! Boğuldum! Bu saat qabırğalarım parça-parça olacaq! Kömək edin! Amandır! Oh!

Madlen ətrafına göz gəzdirdi.

– Əcəba, iyirmi luidor qazanıb, bu zavallı qocanı qurtaracaq bir adam yoxdurmu? – dedi.

Kimsə yerindən tərpənmədi. Javer sözünə davam etdi:

– Mən ömrümdə ancaq bir adam tanıyırdım ki, o, domkratın işini görə bilərdi, – dedi, – o da dediyim həmin katorqalıdır.

Qoca:

– Aman! Öldüm, əzildim! – deyə bağırdı.

Madlen başını qaldırdı, gözləri ona zillənmiş Javerin qırğı baxışını gördü; ətrafındakı kəndlilərə baxdı və həzin-həzin gülümsündü. Sonra heç bir söz söyləmədən, dizlərini yerə qoydu və kimsəyə bir heyrət nidası çıxarmağa macal vermədən, cəld arabanın altına girdi.

Bir dəqiqə qorxunc və sakit bir intizarla keçdi.

Madlenin, qarnı üstə uzanıb, iki dəfə dirsəklərini dizlərinə yaxınlaşdıraraq ağır arabanı əbəs yerə qaldırmağa çalışdığını görürdülər. Müvəffəq olmadığını gördükdə hamı: "Madlen baba! Arabanın altından çıxın!" – deyə bağırdılar.

Qoca Foşlevan özü də:

– Cənab Madlen, çıxın gedin! Görünür, əcəlim çatıbdır! – dedi. – Buraxın! Yoxsa siz özünüz də məhv olarsınız!

Madlen cavab vermədi.

Ətrafdakılar ağır-ağır nəfəs alırdılar. Təkərlər getdikcə yaş torpağa batmaqda davam edirdi. Madlen artıq arabanın altından çıxa bilməyəcək bir vəziyyətdə idi.

Birdən yekə arabanın titrədiyini gördülər, araba yavaş-yavaş yuxarı qalxmağa başladı və təkərlər palçığın içindən yarıya qədər çıxdı. Boğuq bir səs: "Tez olun, kömək edin!" – deyə bağırdı. Madlen son gücünü verməkdə idi. Bu onun səsi idi.

Hamı kömək etməyə başladı. Birinin fədakarlığı hamıya qüvvət və cəsarət vermişdi. İyirmi cüt qol arabanı yuxarıya qaldırdı. Qoca Foşlevan xilas oldu.

Madlen ayağa durdu. Rəngi bərk qaçmışdı. Üzündən tər axırdı. Paltarı parça-parça olmuş və palçığa bulaşmışdı. Hamı ağlayırdı. Qoca onun dizlərindən öpür və "sən mənim tanrımsan" – deyirdi. Madlenin üzündə isə asimani səadətdən doğan bir iztirab əlaməti vardı; kəskin nəzərlərini qətiyyən ondan ayırmaq istəməyən Javerə tərəf dönərək, sakit-sakit onun üzünə baxırdı.

Yeddinci fəsil

FOŞLEVAN PARİSDƏ BAĞBAN OLUR

Foşlevan yıxıldıqda diz qapağını qırmışdı. Madlen baba zavallını fəhlələr üçün fabrikin içində düzəltdiyi və xəstələrə baxmaq işini iki şəfqət bacısına tapşırdığı xəstəxanaya aparmağı əmr etdi. Ertəsi gün bu qoca səhər tezdən çarpayısının yanındakı kiçik masanın üstündə min franklıq bir əsginasla Madlen baba tərəfindən aşağıdakı məzmunda yazılmış bir məktub tapdı: "Arabanızı və atınızı satın alıram". Araba sınmış, at isə ölmüşdü. Foşlevan sağaldı, lakin dizini əyib düzəldə bilmirdi. Cənab Madlen, xəstəxanadakı şəfqət bacılarının və yerli keşişin vasitəsilə qocanı Parisdə Sent-Antuan məhəlləsindəki qadınlar monastırında bağban vəzifəsinə düzəltdi.

Bundan bir az sonra cənab Madlen Monreyl şəhərinin rəisliyinə təyin olundu. Javer birinci dəfə cənab Madleni şəhərdə ona baş hakimiyyət ixtiyarı verən rəsmi libasda gördükdə, öz ağasının libası altında canavarı duymuş olan it kimi qorxudan titrədi. O zamandan bəri Javer mümkün qədər cənab Madlenə təsadüf etməkdən

çəkinməyə çalışırdı. Lakin vəzifə dolayısı ilə istər-istəməz şəhər rəisinin yanına gəlməyə məcbur olduqda, Javer daim onunla böyük hörmət və təzimlə danışardı.

Madlen babanın Monreyl-sür-Mer şəhərində yaratdığı firavanlığı, artıq qeyd etdiyimiz zahiri əlamətlərdən başqa, gözə görünməsə də, az əhəmiyyəti olmayan bir əlamət də sübut edirdi. Bu əlamət isə qəti və aydın idi. Əhali ehtiyac içində olanda, iş azlıq edəndə, ticarət yaxşı getməyəndə, əhali pulsuz olduğundan, istər-istəməz vergi verməkdən boyun qaçırmağa məcbur olur, verginin vaxtı keçir, dövlət vergini zorla yığmaq üçün böyük pullar sərf etməli olur. İş çox olduğu, ölkə xoşbəxt və varlı bir həyat sürdüyü zaman isə vergilər də asanlıqla verilir, vergini yığmaq işi də dövlətə ucuz başa gəlir. Demək olar ki, ictimai səfalətin və ictimai sərvətin dərəcəsini təyin etmək üçün yeganə bir barometr vardır ki, o da vergiləri yığmaq üçün sərf edilən pullardır. Yeddi il ərzində Monreyl dairəsində vergi yığmaq xərcləri dörddə üç dəfə azalmışdı. Odur ki o zaman maliyyə naziri olan cənab de Vilel bu dairəni həmişə başqa dairələrə bir misal kimi göstərərdi.

Fantina vətəninə qayıtdığı zaman ölkənin vəziyyəti belə idi. Onu heç kəs xatırlamırdı. Xoşbəxtlikdən cənab Madlenin fabriki qonaqsevən bir ev kimi, hamının üzünə açıqdı. Fantina fabrikə gəldi, onu qadın emalatxanasına qəbul etdilər. Bu, Fantina üçün tamamilə yeni bir iş olduğuna görə, o çox da müvəffəqiyyətlə çalışa bilmirdi və qazancı az olurdu, lakin ona kifayət edirdi; yaşamaq məsələsi həll edilmişdi; artıq öz əməyi ilə yaşaya bilirdi.

Səkkizinci fəsil

MADAM VİKTÜRNYEN ƏXLAQ NAMİNƏ OTUZ BEŞ FRANK SƏRF EDİR

Fantina müstəqil yaşaya biləcəyini anladıqda, fərəhləndi. Öz əllərinin zəhməti ilə və namusla yaşaya bilmək nə böyük bir səadətdir! Doğrudan da, zəhmətə qarşı onda bir məhəbbət doğmuşdu. Bir güzgü alıb gəncliyini, gözəl saçlarını və ağ dişlərini seyr etdiyi zaman sevinmişdi; öz ağır keçmişini unutmağa çalışaraq Kozettasını düşünür

və özünü xoşbəxt hiss edirdi. Balaca bir otaq tutdu, gələcək qazancı hesabına borc edərək otağa avadanlıq aldı; Fantinanın bu hərəkətində keçmiş pozğun həyatdan qalma bir vərdiş görünürdü.

Özünü ərli qadın kimi göstərməyə çalışaraq, yuxarıda söylədiyimiz kimi, öz kiçik qızı haqqında danışmaqdan çəkinirdi.

İlk zamanlar qızı üçün, bildiyimiz kimi, Tenardye ailəsinə müntəzəm surətdə pul göndərirdi. Savadsız olduğundan və yalnız öz imzasını yaza bildiyindən, hər dəfə məktub göndərmək lazım gəldikdə ərizə yazana müraciət edirdi.

O, tez-tez məktub yazırdı. Buna diqqət etmişdilər. Emalatxanada işləyən qadınlar bir-birinin qulağına Fantinanın "məktub yazdığını" və "aşnası" olduğunu danışmağa başladılar.

Başqalarının hərəkətlərini qısqanclıqla izləyənlər, adətən, bu hərəkətlərlə heç bir əlaqəsi olmayan adamlardır. "Görəsən, bu cənab nə üçün ancaq axşamlar evdən bayıra çıxır? Nə üçün filankəs cümə axşamları heç bir zaman öz otağının açarını divardan asmır? Nə üçün o, həmişə döngələrdə gəzir? Nə üçün filan xanım minik arabasından evinə çatmamış düşür? Niyə o xanım evində bolluca kağızı olduğu halda, poçt kağızı almaq üçün xidmətçisini göndərir?" və sairə və sairə. Bəzi adamlar var ki, özləri üçün heç bir əhəmiyyəti olmayan bu müəmmaların mənasını anlamaq məqsədilə, bir çox xeyirxah işlərə sərf ediləcək pullardan artıq pul sərf edir, vaxt sərf edir, qüvvət sərf edirlər. Həm də onlar heç bir mənfəət güdməzlər, bunu sadəcə, maraq üçün edərlər, bu marağın nəticəsində isə onlar yalnız öz maraqlarını təmin edərlər, başqa heç bir şey qazanmazlar. Onlar günlərlə filan qadın, ya kişinin hərəkətlərini izlər, saatlarla dalanlarda, yol ağzında, gecənin qaranlığında, qışın soyuğunda, yağışın altında dayanar, məktub aparanlara rüşvət verib kimə göndərildiyini öyrənər, arabaçılara və lakeylərə peşkəş verər, qulluqçu qızları tovlar, qapıçıya pul verərlər. Məqsəd nədir? Elə-belə. Ehtirasla arzu etdikləri bir şey varsa, o da öyrənmək, qazıb çıxarmaqdır. Buna səbəb boş-boş danışmaq ehtiyacını təmin etməkdir. Halbuki bu üstü açılmış sirlər, bu faş edilmiş gizli işlər, mənası tapılmış müəmmalar müsibətlərə, duellərə, iflaslara səbəb olur, bir çox ailələri iflas dərəcəsinə gətirir, bir çox insanların həyatını məhv edir, heç bir mənfəəti olmayan, sadəcə, kor bir arzuya tabe olaraq "hər bir şeyi ifşa edənlərin" böyük sevinclərinə səbəb olur. Ah, bütün bunlar nə qədər kədərli bir haldır!

Bəzi adamlar da vardır ki, ancaq söhbət etmək xatirinə kinli olurlar. Onların söhbətləri, salonlarda gedən dedi-qodular, dəhlizlərdə yürüdülən mühakimələr, odunu tezliklə və çox tələf edən buxarılara bənzər, bu buxarılar daim yandırmaq üçün yanacaq tələb edir, bu yanacaq da yaxın adamlardır.

Bu surətlə Fantinanın da hərəkətlərini izləməyə başladılar.

Bir çoxları onun sarışın saçlarına və ağ dişlərinə paxıllıq edirdilər.

Bu da müəyyən edilmişdi ki, Fantina bəzən emalatxanada üzünü çevirib gözünün yaşını silərmiş. O, öz uşağını, bəlkə də, vaxtilə sevdiyi bir adamı xatırladığı zaman göz yaşını silərdi.

İnsanı keçmiş həyatla bağlayan sirli telləri qırmaq çətin və əziyyətli bir işdir.

Onun ayda iki dəfə və hər zaman eyni ünvana məktub yazdığını görmüşdülər; məktublar sifarişli göndərilirdi. Bir az sonra məktubun ünvanını da öyrəndilər: "Monfermeyl, meyxanaçı cənab Tenardye". Monreyldəki kiçik bir meyxanada ərizə yazanı sərxoş edib danışdırdılar. Qoca ərizə yazan qarnını qırmızı şərabla dolduran kimi məktublarda yazılmış olan müxtəlif sirləri açıb söyləyirdi. Xülasə, Fantinanın bir uşağı olduğunu öyrəndilər. "Görünür ki, bu, fahişə imiş" dedilər. Dedi-qodu sevən bir qadın da tapıldı ki, Monfermeylə getmək üçün tənbəllik etməyib, Tenardye ilə görüşdükdən sonra geri qayıtdıqda: "Sərf etdiyim otuz beş frankla öz istədiyimə nail oldum; indi ürəyim sakitdir. Uşağı öz gözümlə gördüm!" – dedi.

Bu işi görən Viktürnyen adında bir ziyanəvər idi. Madam Viktürnyen hamının əxlaqına diqqət edən bir əxlaq qoruqçusu idi. Əlli altı yaşı vardı; qocalığı üzünün çirkinliyini daha da artırırdı. Səsi titrək, xasiyyəti dözülməz idi. Bu qadının vaxtilə gənc olduğuna belə inanmaq insana qəribə gəlirdi. Gəncliyində, 93-cü ilin qızğın günlərində, qırmızı qalpaq geyərək, bernadçılardan yakobinçilərin tərəfinə keçən bir rahibə ərə getmişdi. Bu, arıq, acıqlı, tikanlı, gözüdoymaz, inadkar və acıdil bir qadındı; o hələ onu dul qoymuş və həyatında qorxu və itaət altında saxlanmış olan rahibini unutmamışdı. Ona, rahib iyi verən bir murdar təbiət demək olardı.

Restavrasiya zamanı mömin bir qadın olmuşdu, o dərəcədə ki, keşişlər belə onun ərə getmiş olduğu rahibin günahından keçdilər. Kiçik bir mülkü vardı və hər yerdə onu ruhani dairəsinə bağışlayacağını bağıra-bağıra söylərdi. Arras yepiskopluğu dairəsində ona xeyli

hörmət bəsləyirdilər. Monfermeylə gedib oradan qayıtdıqdan sonra: "Uşağı öz gözümlə gördüm" – deyən madam Viktürnyen həmin qadındı.

Axtarışlara xeyli vaxt sərf olundu. Fantina fabrikdə bir ildən artıq idi ki, işləyirdi. Bir gün emalatxananın nəzarətçisi, cənab merin adından ona əlli frank verib, artıq işdən xaric edildiyini söylədi və yenə cənab merin adından ona şəhəri tərk edib getməsini təklif etdi.

Bu o zaman idi ki, Tenardyelər ondan yeddi frank əvəzinə ayda on iki frank istədikdən sonra, artıq on beş frank tələb edirdilər.

Fantina dəhşətə gəldi. O heç bir yerə gedə bilməzdi, çünki yaşadığı otaq və mebel üçün borca düşmüşdü. Əlli frankla o, öz borcunu ödəyə bilməzdi. Bir neçə yalvarışlı sözlər söylədi. Nəzarətçi dərhal emalatxananı tərk edib getməsini əmr etdi. Fantina adi bir işçi idi. Ümidsizlik və xəcalətdən məyus bir halda, emalatxanadan çıxıb evinə getdi. Artıq onun qəbahətini hər kəs bilirdi.

Fantina hiss etdi ki, artıq özünü müdafiə etməyə taqəti qalmamışdır. Kimsə ona cənab merlə görüşməyi məsləhət gördü. Fantina cəsarət etmədi. Cənab mer xeyirxah olduğu üçün ona əlli frank vermiş, ədalətli olduğu üçün isə onu fabrikdən qovmuşdu. Fantina bu qərara tabe oldu.

Doqquzuncu fəsil

MADAM VİKTÜRNYENİN MÜVƏFFƏQİYYƏTİ

Demək, rahibin dul arvadı da kara gəldi.

Cənab Madlenin isə bu əhvalatdan əsla xəbəri yox idi. Həyatda belə mürəkkəb hallara tez-tez rast gəlmək olur! Cənab Madlen, adətən, qadın emalatxanasına çox az gələrdi. O, emalatxananın idarə edilməsini yerli keşişin tövsiyəsi ilə qoca bir qadına tapşırmışdı və buna tamamilə etibar edirdi. Bu qadın, həqiqətən, hörmətli, ədalətli və mərhəmətli idi, möhkəm qaydalara riayət edərdi, lakin sədəqə verməyi bacardığı halda, anlamaq və bağışlamaq qabiliyyətinə malik deyildi. Cənab Madlen hər bir işi ona tapşırmışdı. Yaxşı adamlar çox zaman öz imtiyazlarını başqalarına etibar etməyə məcbur olurlar. Odur ki əlində ixtiyarı olan və haqlı olduğuna inanan nəzarətçi

qadın təhqiqat aparmış, işi nəzərdən keçirmiş, Fantinanı günahkar hesab edib cəzasını vermişdi.

Əlli frank məsələsinə gəlincə, nəzarətçi bu pulu ehtiyacı olan işçi qadınlara kömək etmək üçün cənab Madlenin onun ixtiyarına verdiyi məbləğdən götürmüşdü.

Fantina xidmətçi yeri axtarmağa başladı; qapı-qapı gəzdi. Heç kəs onu işə götürmək istəmədi. Şəhərdən çıxıb getməyə imkanı yox idi. Mebel üçün borclu qaldığı alverçi (amma, nə mebel idi) ona dedi: "Şəhərdən qaçıb gizlənsəniz, sizi bir oğru kimi həbs edərlər". Otaq üçün borclu qaldığı ev sahibi ona dedi ki, siz gənc və gözəlsiniz, odur ki borcunuzu vermək üçün pul tapa bilərsiniz. Fantina əlli frankı ev sahibi ilə alverçi arasında böldü: özünə ancaq ən çox lazım olan şeyi saxlayaraq ev şeylərinin dörddə üçünü alverçiyə qaytardı. Artıq işsiz, köməksiz qaldı, bir çarpayısı var idi, amma yüz franka qədər borca girmişdi.

Şəhər qarnizon əsgərləri üçün üst köynəkləri tikməyə başlayaraq, gündə on iki su qazanırdı. Qızına gündə on su göndərməli idi. Bax bu səbəbdən də axır zamanlarda qızı üçün Tenardyeyə pulu müntəzəm göndərmirdi.

Fantina axşamlar evə qayıtdığı zaman qonşu qarının otağında öz şamını yandırırdı, bu qarı ona yoxsul yaşamağın yolunu öyrətdi. Aza qənaət etməyin axırı heç nə ilə yaşamaqdır. Bu, iki otaq kimi bir şeydir: otağın biri qaranlıq, o biri isə məzar kimi zülmətdir.

Fantina qışda odunsuz keçinməyin yolunu da öyrəndi: iki gündə bir ovuc darı yeyən balaca bir quşu belə saxlamaqdan boyun qaçırmağı; tumanı yorğan və yorğanı tuman eləməyi, qonşu evin lampasından düşən işıqda axşam yeməyi yeyərək şam yandırmamağı öyrəndi. Yoxsul və namuslu yaşayıb qocalan aciz bir insanın bir su puldan nə qədər mənfəət ala biləcəyi kimsənin ağlına gəlməz. Nəhayət, bu böyük bir məharətə çevrilir. Fantina bu gözəl məharətə vərdiş edərək, bir az ürəkləndi.

Həyatının bu dövründə o, bir dəfə qonşu qadınlardan birinə dedi: "Bilirsiniz, əgər mən gündə beş saat yatıb qalan saatlarımı tikişlə məşğul olsam, birtəhər özümə çörəkpulu qazanaram, həm də adam məyus olanda, çörək də az yeyir. Nə eybi var! İztirab, həyəcan, bir parça çörək bir tərəfdən, dərd də o biri tərəfdən, bunların hamısı məni doydurar".

Bu qədər acı bir həyat şəraitində Kozetta yanında olsaydı, Fantina özünü tamamilə xoşbəxt hiss edərdi. Gedib onu yanına gətirmək fikrinə düşdü. Lakin yoxsulluğunu yadına saldıqda öz arzusunu boğmağa məcbur oldu. Həm də Tenardyeyə çoxlu borcu var idi. Bu borcu necə ödəyə bilərdi? Hələ yol xərci! Bunu haradan düzəldəcəkdi?

Fantinaya, təbir caizsə, səfalət dərsi verən Marqarita adlı qarı müqəddəs, həqiqətən, dindar, yoxsul bir qadın idi; o yoxsullara, hətta varlılara belə hər zaman kömək etməyə hazır idi; savadı yalnız öz adını – *Marqarita* – yaza biləcək bir dərəcədə idi; bununla belə, Allaha inanırdı, bu isə savadın ən yüksək dərəcəsidir.

Aşağılarda, həyatın dibində, bir çox belə müqəddəs qadınlar var; bir vaxt olar, onlar yuxarı qalxarlar. Bu həyatın öz "sabahı" vardır.

İlk zamanlar Fantina küçəyə çıxmağa belə cəsarət etmirdi, çox utanırdı.

Küçədə gedərkən yoldan ötənlərin dönüb ona baxdıqlarını və onu barmaqla göstərdiklərini hiss edirdi; hamı ona baxar və kimsə salam verməzdi; adamların ona qarşı acı və soyuq nifrəti soyuq külək kimi iliklərinə qədər işləyirdi.

Kiçik şəhərdə belə bir çarəsiz qadın camaatın istehzalı baxışları altında özünü çılpaq kimi hiss edir. Parisdə sizi, heç olmasa, tanıyan olmaz, bu tanınmazlıq da sizin üçün palтarı əvəz edə bilər. Ah! Parisdə yaşamağı nə qədər istərdi. Lakin bu mümkün deyildi.

Yoxsulluğa adət etdiyi kimi, bu təhqirlərə də istər-istəməz öyrəşdi. Buna da yavaş-yavaş alışdı. İki-üç aydan sonra xəcaləti bir tərəfə ataraq, heç bir şey olmamış kimi, küçəyə çıxardı. "Məndə nə var ki!" deyərdi. Başını uca qaldıraraq, acı bir təbəssümlə yolçularla qarşılaşaraq, getdikcə arsızlaşdığını hiss edirdi.

Madam Viktürnyen bəzən öz pəncərəsindən Fantinanın keçdiyini görüb, "bu murdar məxluqun" miskin görünüşünü seyr edərək, onu bu müsibətə sala bildiyi üçün sevinirdi. Kinli adamların özlərinə məxsus alçaqcasına sevincləri olur.

İşin ağırlığı Fantinanı yorurdu; onda əvvəldən olan quru öskürək indi şiddətlənmişdi. Bəzən öz qonşusuna deyərdi: "Əlimə baxın, görəsən, nə üçün belə yanır?!"

Bununla belə, səhərlər öz sıx, ipək kimi yumşaq saçlarını sınıq bir daraqla darayarkən, bir dəqiqəliyə nazlanaraq özünü bəxtiyar hesab edirdi.

Onuncu fəsil

MÜVƏFFƏQİYYƏTİN NƏTİCƏLƏRİ

Fantina fabrikdən qışın ortalarında qovulmuşdu; yay gəlib-keçdi və yenə qış gəldi. Günlər qısa olduğundan çox iş görə bilmirdi. Qışda isti yox, işıq yox, günorta yox; axşam səhərə qovuşur, hava hər zaman dumanlı olur, göy üzünü bulud alır, pəncərədən işıq az düşdüyü üçün otaqda bir şey görmək mümkün olmur! Göy bir bacaya bənzəyir, gündüzlər isə zirzəmi kimi qaranlıq olur. Günəş bir dilənçi kimi görünür. İlin ən qorxunc bir fəsli! Qış hər şeyi daşa çevirir – göylərin suyunu da, insanların qəlbini də. Borclular Fantinaya rahatlıq vermirdilər.

Fantina çox az qazanırdı. Borcları getdikcə artırdı. Pulu müntəzəm almadığından acıqlanmış olan Tenardyenin ona yazdığı məktubların məzmunu onu dəhşətə salır və poçt xərcləri cibini boşaldırdı. Bir dəfə Tenardye balaca Kozettanın qışın soyuğunda çılpaq gəzdiyini və isti bir tumana ehtiyacı olduğunu yazaraq, bunun üçün anasından, heç olmasa, on frank pul göndərməsini tələb etmişdi. Fantina məktubu alaraq onu bütün günü əlindən yerə qoymadı. Axşam tindəki dəllək dükanına gedərək, darağını saçlarından çıxardı. Gözəl sarışın saçları süzülərək belinə qədər düşdü. Dəllək:

– Nə gözəl saçlar! – dedi.

– Bu saçlara neçə verərsiniz? – deyə Fantina soruşdu.

– On frank.

– Kəsin.

Fantina bu pula yun tuman alıb qızı üçün Tenardyeyə göndərdi.

Bu tuman Tenardyelərin qəzəbinə səbəb oldu. Onlara pul lazımdı. Tumanı Eponinaya verdilər. Zavallı Torağay isə yenə üşüyə-üşüyə qaldı.

Fantina düşünürdü: "Artıq balam üşümür. Onu öz saçlarımla geyindirdim". Fantina qırxılmış başına yuvarlaq ağ bir təsək geydi, bununla belə, yenə də gözəl görünürdü.

Fantinanın qəlbi getdikcə qaralırdı. O, öz qalın saçlarını daramaq səadətindən məhrum edildiyini görüncə, yavaş-yavaş bütün

aləmə qarşı nifrət bəsləməyə başladı. Əvvəllər o da Madlen babanın şəxsiyyətinə qarşı hamının hörmət və pərəstişinə şərik olurdu; lakin öz bədbəxtliyinə Madlenin səbəb olduğunu və onu işsiz qoyub rəhmsizcəsinə fabrikdən qovduğunu, nəhayət, bu hala gətirdiyini daima düşündüyündən, hamıdan artıq ona qarşı nifrət bəsləməyə başladı. İstirahət saatlarında fəhlələr darvaza qarşısında durduqları zaman fabrikin yanından keçərkən, Fantina qəsdən ucadan gülərək mahnı oxuyardı.

Qoca bir fəhlə qadın bir dəfə onun nəğmə və qəhqəhəsini eşitdikdə: "Bu qızın axırı pis olacaq" demişdi.

Bir dəfə Fantina, qəlbində hiss etdiyi bir dəliliklə, ilk təsadüf etdiyi bir adamı sevmədən, özünə aşna qəbul etdi. Bu avara bir çalğıçı, alçaq, tənbəl və çaşqın bir adamdı, Fantinanı tez-tez döyərdi, çox çəkmədən, eynən Fantinanın ona bəslədiyi nifrətlə onu buraxıb getdi.

Fantina uşağını son dərəcə sevirdi.

Süqut etdikcə, həyatı get-gedə qaranlıqlaşdıqca, bu balaca məsum mələyə qarşı qəlbindəki məhəbbəti də daha parlaq bir surətdə yanırdı. Öz-özünə: "Varlandığım zaman Kozetta öz yanımda olacaq" – deyib gülərdi. Öskürəyi kəsilmir və bədəni tez-tez tərləyirdi.

Bir dəfə Tenardyedən aşağıdakı məzmunda bir məktub aldı: "Kozetta bizim yerlərdə yayılan yoluxucu xəstəliyə tutulmuşdur. Buna səpkili qızdırma deyirlər. Bahalı dərmanlara ehtiyac var. Bu xərclər bizi var-yoxdan çıxarıb, daha dərman almağa imkanımız yoxdur. Əgər bir həftə ərzində qırx frank pul göndərməsəniz, qızınız öləcəkdir".

Fantina qəhqəhə ilə gülüb, qonşu qadına dedi:

– Bunlar lap dəli olublar! Qırx frank! Bu, iki napoleondor deməkdir. Mən bunu haradan alacağam? Doğrudan da, bu kəndlilər nə axmaq adamdırlar!

Bununla belə, otaqdan çıxıb pilləkənin başındakı kiçik pəncərənin qabağında məktubu bir daha oxudu.

Sonra pilləkənlə düşüb, gülməyində davam edərək atıla-atıla küçə ilə yüyürdü.

Yolçulardan biri ondan soruşdu:

– Sizə nə olub ki, kefiniz belə kökdür?

O cavab verdi:

– Mən kənddən axmaq bir məktub almışam. Məndən qırx frank pul istəyirlər. Kəndlidirlər, fayda verməz!

Meydandan keçərkən, camaatın qəribə şəkilli bir araba ətrafında toplaşdığını gördü; arabada qırmızı paltarlı və ucadan danışan bir adam durmuşdu. Bu adam süni diş düzəldən, cürbəcür toz və dərmanlar satan fırıldaqçı bir diş həkimi idi.

Fantina da camaata qarışaraq bu adamın qara camaat üçün kobud sözlər, kübar adamlar üçün isə anlaşılmaz lətifələr söyləməsinə hamı ilə birlikdə qəhqəhə çəkib gülməyə başladı. Diş həkimi gülən qızı görüb birdən ona müraciətlə səsləndi:

– Nə gözəl dişlərin var, ay güləyən qız! Tiyələrindən ikisini mənə satsan, hər biri üçün sənə bir napoleondor verərəm.

Fantina:

– Bu nə deməkdir? Siz tiyə nəyə deyirsiniz? – deyə soruşdu.

– Tiyə qabaq dişlərə deyirlər, – deyə diş həkimi vüqarla cavab verdi. – İki qabaq dişinizi satın.

Fantina:

– Nə dəhşətli bir şey! – deyə bağırdı.

Arxa tərəfdə duran dişsiz bir qarı:

– İki napoleondor! – deyə mızıldandı. – Bəxti yaman gətirib!

Fantina arxasınca çığırmaqda olan diş həkiminin xırıltılı səsini eşitməmək üçün qulaqlarını tıxayaraq qaçdı. Bu adam isə bağırırdı:

– Yaxşı fikirləş, gözəl xanım! İki napoleondor az deyil! Razı olsanız, axşam "Gümüş göyərtə" mehmanxanasına gəlin, mən orada olacağam.

Fantina acıqlı halda evə qayıtdı və əhvalatı qonşusu Marqaritaya söylədi.

– Görürsünüz, – dedi, – belə də cəllad olar? Bu cür adamlara şəhərləri gəzməyə niyə izn verirlər? İki qabaq dişimi çıxarmaq! Onda mən lap eybəcər bir qız olaram! Saçlarım yenə uzanar, amma dişlərim! Ah cəllad! Mən altıncı mərtəbədən özümü başı aşağı ataram, amma "Gümüş göyərtə" mehmanxanasına getmərəm.

Marqarita:

– Dişlərin üçün o sənə nə qədər verirdi? – deyə soruşdu.

– İki napoleondor.

– Bu qırx frank edir.

– Bəli, – deyə Fantina cavab verdi, – qırx frank.

Fantina dərin fikrə gedib işləməyə başladı. On beş dəqiqədən sonra işini atıb Tenardyenin məktubunu bir də oxumaq üçün pillə-kənə çıxdı.

Geriyə qayıtdıqda burada işləyən Marqaritaya dönərək dedi:

– Səpkili qızdırma nə deməkdir? Bilirsinizmi?

Qoca arvad:

– Bu bir xəstəlikdir, – dedi.

– Bunu sağaltmaq üçün çoxmu dərman lazımdır?

– Bəli, çox dərman lazımdır.

– Bu xəstəlikdən adamın harası ağrayır?

– Hər yeri, bütün bədəni ağrayır.

– Bu uşaqlarda da olurmu?

– Hamıdan çox uşaqlarda olur.

– Bu xəstəlikdən ölən olurmu?

– Ölən çox olur, – deyə Marqarita cavab verdi.

Fantina küçəyə çıxdı və məktubu bir də oxudu.

Axşam evdən çıxdı; adamlar onun çoxlu meyxanası olan Paris küçəsinə doğru getdiyini gördülər.

Ertəsi gün səhər tezdən Marqarita adəti üzrə işləmək üçün Fantinanın otağına girdikdə (onlar şama qənaət etmək üçün bir yerdə işləyirdilər), Fantinanın rəngi qaçmış və donmuş bir halda çarpayıda oturduğunu gördü. Fantina heç yatmamışdı. Təsəyi başından dizi üstünə düşmüşdü. Bütün gecəni yanan şam qurtar-maq üzrə idi.

Marqarita bu qorxunc halı görüncə heyrət içində astanada dayanaraq:

– Aman Allah! – deyə bağırdı. – Şam yanıb qurtarmış! Yoxsa bir müsibət olmuşdur?

Sonra saçı vurulmuş başını ona tərəf çevirən Fantinaya baxdı. Bu gecənin ərzində Fantina on il qocalmışdı.

Marqarita heyrətlə:

– Aman, ya rəbbi! Fantina, sənə nə olmuşdur? – dedi.

– Heç bir şey, – deyə Fantina cavab verdi. – Əksinə, mən çox xoşbəxtəm, çünki qızım bu qorxunc xəstəlikdən artıq ölməyəcəkdir. Ona dərman alacaqlar. Mən məmnunam.

Fantina masanın üzərində parlayan iki napoleondoru qarıya göstərdi.

– Ah, ya rəbb! – deyə Marqarita yenə bağırdı. – Bu ki böyük bir sərvətdir! Bu qızılları haradan aldın?

– Tapdım, – deyə Fantina cavab verdi.

O, bu sözləri deyərkən gülümsədi. Şamın şöləsi üzünü işıqlandırdı. Bu, qanlı bir təbəssüm idi. Dodaqlarının kənarında qanlı tüpürcək, ağzında isə qara bir deşik göründü.

İki qabaq dişi çıxarılmışdı.

Fantina Monfermeylə qırx frank göndərdi.

Lakin qızın xəstələnməsi yalnız Tenardye tərəfindən uydurulmuş bir hiylə idi. Kozetta xəstə deyildi.

Fantina güzgüsünü pəncərədən bayıra atdı. O, üçüncü mərtəbədə olan otağını çoxdan buraxmış və damın lap altındakı kiçik bir çardaqda yerləşmişdi, bu yer, tavanı döşəmənin kənarları ilə birləşərək bir bucaq təşkil edən və hər bir zaman başınıza toxunan hindən başqa bir şey deyildi. Yoxsul adama istər öz həyatının sonuna qədər, istərsə də otağının sonuna qədər getmək üçün ikiqat əyilmək lazım gəlir. Fantinanın artıq çarpayısı yox idi, yalnız yorğan adlandırdığı bir cındırı qalmışdı, yerdə bir döşək, küncdə isə həsirdən cırıq bir stulu vardı. Dibçəkdə əkilmiş çiçək quruyub otağın bir küncünə atılmışdı. Otağın o biri küncündə bir yağ küpü vardı, indi onun içinə su tökürdü. Qışda küpdəki su donduğu üçün küpün divarlarında buz dairəcikləri əmələ gəlirdi. Həyasını itirən Fantina, naz-qəmzəsini də itirmişdi. Bu, səfalətin son pilləsi idi. Kirli bir təsək geyərək küçəyə çıxardı. Vaxtının azlığındanmı və ya əhəmiyyət vermədiyindənmi, hər nədən isə paltarını yamamazdı. Corabının altı cırıldıqca, cırıq yerini ayaqqabının içinə soxardı, bunu corabda əmələ gələn çirkin qırışıqlardan görmək olardı. Dağılmış korsetini bez parçaları ilə yamardı, lakin azacıq tərpənən kimi bunlar cırıqcırıq olurdu. Borcluları onu rahat buraxmır və daim onunla qalmaqal salırdılar. Onlar qadını hər vaxt küçədə qabaqlar və ya pilləkənin ayağında gözlərdilər. Gecələri göz yaşları və ağır düşüncələr içində keçirirdi. Gözlərində qəribə bir parıltı görünürdü, sol kürəyinin üstündə ağır bir ağrı vardı. Öskürək onu təngə gətirmişdi. Madlen babaya dərin bir nifrət bəsləyirdi, lakin öz taleyi üçün kimsəyə şikayət etməzdi. Gündə on yeddi saat çalışaraq tikiş tikərdi, lakin bir gün dustaq qadınların işini idarə edən və onları çox alçaq muzdla işlədən podratçı köynək tikmək muzdunu birdən-birə o qədər aşağı saldı ki,

kənarda işləyən bir dərzi qadının gündəlik muzdu doqquz sudan çox olmurdu. On yeddi saatlıq iş günü üçün doqquz su! Borcluların mərhəmətsizliyi get-gedə artırdı. Ev avadanlığının demək olar ki, hamısını geri almış olan mebel satıcısı daim təkrar edərək: "Ay həyasız, bəs borcunu nə vaxt verəcəksən?". Ya rəbb, bu adamlar ondan nə istəyirdi! O, özünü daim təqib edilən bir insan kimi hiss edirdi, ona görə də halı vəhşi heyvanların halına oxşayırdı. Elə bu vaxtlarda o, Tenardyedən bir məktub aldı, məktubda Tenardye, bu qədər gözləməkdə həddindən artıq mərhəmətli olduğunu xəbər verərək, ondan yüz frank pul tələb edirdi; bu pulu göndərməsə, Kozetta keçirdiyi ağır xəstəlikdən yenicə qurtulmağa başlasa da onu küçəyə, soyuğa atacaqlarını yazırdı, küçədə qaldıqdan sonra da soyuq və aclıqdan məhv olub gedəcəkdir, özü bilsin. Fantina öz-özünə düşündü: "Yüz frank! Lakin gündə heç yüz su qazanmaq üçün bir sənət vardırmı?"

– Nə olsun ki! Özümü sataram! – dedi və zavallı qız fahişə oldu.

On birinci fəsil

CHRİSTUS NOS LİBERAVİT[1]

Fantinanın keçirdiyi macəra nədir? Bu macəra qul satın alan cəmiyyətin macərasıdır.

Cəmiyyət bu qulları kimdən satın alır? Səfalətdən.

Aclıqdan, soyuqdan, yalqızlıqdan, kimsəsizlikdən, ehtiyacdan satın alır. Bu, olduqca kədərli bir alverdir. İnsan qəlbi bir parça çörəyə satılır. Səfalət təklif edir, cəmiyyət isə bu təklifi qəbul edir.

Həzrəti-İsanın müqəddəs hədisi bizim mədəniyyətimizi idarə edir, lakin bu hədis hələ mədəniyyətə sirayət etməmişdir. Deyirlər ki, köləlik Avropa mədəniyyəti sayəsində yox olmuşdur. Bu səhv fikirdir. Köləlik hələ də mövcuddur, lakin onun ağırlığı indi yalnız qadınların üzərinə düşür ki, buna da fahişəlik deyirlər.

Kölәliyin ağırlığı qadın üzərinə, yəni zəriflik; gözəllik, analıq üzərinə düşür. Bu hal bütün kişilər üçün bir ləkə, həm də ən böyük bir ləkədir.

[1] İsa bizim xilaskarımızdır (*lat.*)

Hekayə etdiyimiz bu kədərli faciə elə bir dərəcəyə gəlib çatmışdı ki, artıq əvvəlki Fantinadan heç bir şey qalmamışdı. Palçığa düşən qadın dönüb daş olur. Bu daşa bir əl toxunarsa, soyuğun şiddətindən geri çəkilər. Bu qadın sizin yanınızdan ötər, sizə dözər, lakin sizi tanımaz! Onun namusu ləkələndiyi üçün sərt bir qadın olmuşdur. Həyat və ictimai quruluş ona son hökmünü vermişdir. Taleyinə yazılmış bütün hadisələr artıq onun başına gəlmişdir. O, hər bir müsibəti görmüş, hər bir şeyə qatlaşmış, hər bir şeyi duymuş, həmişə əzab və işgəncə çəkmiş, hər bir şeyindən məhrum olmuş, hər bir şey üçün yas saxlamışdı. Ölüm yuxuya nə qədər bənzərsə, o da laqeydliyə bənzəyən bir itaətkarlıqla öz taleyinə tabe olmuşdu. O, artıq heç bir şeydən çəkinməz. O artıq heç bir şeydən qorxmaz. Bütün göylərin qarı-yağışı üstünə tökülsə, bütün dənizlər onun başı üzərindən aşıb-daşsa belə, ondan ötrü heç bir fərqi yoxdur! Ona nə var ki? O, həddindən artıq islanmış bir süngərə bənzər.

Hər halda, o özü belə zənn edir, lakin insanlar öz taleyinin başa çatdığını və qəm kasasının artıq dolduğunu zənn edirlərsə, yanılmış olarlar.

Heyhat! İntizamsız bir şəkildə irəliyə doğru sürüklənən bu talelərin mənası nədir? Onlar haraya gedirlər? Nə üçün bu insan taleləri elə deyil, belədir?

Bu sirri bilənin gözləri qaranlıqda da görər.

Bu sirrə agah olan varsa, o da Allahdır!

On ikinci fəsil

CƏNAB BAMATABUANIN BOŞ VAXTLARI

Bütün balaca şəhərlərdə olduğu kimi, Monreyldə də elə gənclər vardır ki, Parisdə özlərinə bənzər tüfeylilər ildə iki yüz min franklıq bir məbləği təşəxxüslə sərf etdikləri kimi, bunlar da eyni təşəxxüslə min beş yüz livr pulu sərf edirlər; onlar heç bir işə yaramadıqları üçün heçlikdən başqa bir şey deyildirlər; bu cür tüfeylilərin bir az torpağı, bir az axmaqlığı, bir az ağlı vardır; salonlarda özlərini cahil göstərər, meyxanalarda isə alicənab sayarlar. Daim "mənim torpaqlarım, mənim meşələrim, mənim kəndlilərim" deyərlər; aktrisaları

teatrda fıştırığa basarlar ki, zövq sahibi olduqlarını göstərsinlər; qarnizon zabitlərinə sataşarlar ki, igid olduqlarını, ova getdiklərini, tütün çəkdiklərini, əsnədiklərini, içdiklərini, tütün qoxusu verdiklərini, bilyard oynadıqlarını sübut etsinlər: dilicanlardan düşən sərnişinləri seyr edərlər; gecələrini, gündüzlərini qəhvəxanalarda keçirərlər, meyxanalarda nahar edərlər, masa altında sümük gəmirmək üçün də it saxlar, süfrəyə xörək qoymaq üçün də aşna saxlarlar; bir qəpik üçün çənə döyərlər, dəb haqqında ifrat dərəcəyə vararlar, faciəli oyunlara heyran qalarlar, qadınlara nifrət edərlər, köhnə çəkmələrini yırtılınca geyərlər. Paris gözü ilə baxaraq Londonu, Ponta-Muson gözü ilə baxaraq Parisi təqlid edərlər, qocalanda büsbütün keyləşərək heç bir iş görməzlər, heç bir xeyrə-şərə yaramazlar, ancaq özlərinin də başqasına bir o qədər zərəri olmaz.

Cənab Feliks Tolomes də, öz əyalətindən heç bir zaman çıxmasaydı və Parisə bir dəfə belə gəlməmiş olsaydı, bu cür ağalardan biri olacağına şübhə yoxdur.

Əgər bunlar bir az da varlı olsaydılar, onlara "modabazlar" deyərdilər, yoxsul olsaydılar "tənbəldir" deyərdilər. Lakin, əslində, bunlar müftəxor idilər. Bu müftəxorların bəziləri damaqsız görünür, bəziləri darıxır, bəziləri isə xəyalpərəst olur; bəzən bunların içərisində qəribələrinə də rast gəlmək mümkündür.

O zaman modabaz, adətən, belə olardı: yaxalıqları dik, qalstukları enli, saatları zəncirli, bir-birinin üstündən geyilmiş jiletləri üç rəngli olardı, göy və qırmızı jilet altdan geyilirdi. Bundan başqa, beli nazik, yaşılaçalar sarı rəngli frakları olardı ki, bunların da uzun, ucları şiş ətəkləri, iki sıraya sıx düzülmüş və çiyninə qədər uzanmış gümüş düymələri olardı; şalvarları da bir az açıq-yaşıl rəngli olardı və yanlarını birdən on birə qədər ipək kantlar bəzəyərdi. On birdən artıq isə kant olmazdı, təsviri tamamlamaq üçün dabanlarına dəmir nal vurulmuş gödəkboğaz çəkmələri, kənarları ensiz silindrləri, topa saçları, iri əsaları və Potye cinasları ilə dolu danışıqları əlavə etmək lazımdır. Bütün bunları qəşəng bağlar və mahmızlar tamamlayırdı. O illərdə bığ qoymaq sivil adamlara, mahmızlar isə piyadalara aid bir xüsusiyyət idi.

Əyalət modabazlarının mahmızları uzun, bığları isə heybətli olardı.

Modabazların bu qiyafəti Cənubi Amerika respublikalarının İspaniya Kralı ilə, Bolivarın Morilo ilə mübarizə apardığı zamanlara aid idi. Kənarları ensiz şlyapalar royalistlərə məxsus olduğu və "morilyo"

adlandırıldığı halda, liberallar "bolivar" adlanan kənarları enli şlyapalar qoyardılar.

Qabaqkı səhifələrdə təsvir etdiyimiz hadisələrdən səkkiz-on ay sonra, 1823-cü il yanvar ayının əvvəllərində, bir axşam təzəcə yağmış qarla örtülü bir küçədə, başında "morilyo" şlyapa olduğu üçün "etibarlı" adamlardan sayılan bu frantlardan[1], avaralardan biri o zamanlar dəbdə olan enli bir plaş geyərək, qəhvəxana qarşısında dolaşan qadınlardan birini ələ salmaqla əylənirdi. Bu qadın açıq bal paltarı geymiş, saçlarına çiçək taxmışdı, zabitlər qəhvəxanasının vitrinası qabağında gəzinirdi. Şıq geyimli cənab siqar çəkirdi, çünki dəb bunu tələb edirdi.

Qadın hər dəfə onun yanından keçdikdə şıq geyimli cənab siqarından onun üzünə ağızdolusu tüstü buraxaraq, çox məzəli və şən zənn etdiyi sözlər və təhqirlər yağdırırdı. Məsələn, "Sən nə idbarsan! İtilib getsənə! Dişsiz ifritə!" və sair sözlər deyirdi. Bu cənabın adı Bamatabua idi. Həzin bir xəyala bənzəyən bu qadın ona heç cavab vermir, qarın üzərində oyan-buyana gedib-gələrək, bu cənabın təhqir və istehzalarına əhəmiyyət belə vermədən, səsini çıxarmadan gəzinməkdə davam edərək, hər beş dəqiqədən bir dönür və sıradakı əsgərlər tərəfindən qatarlama döyülən bir əsgər kimi onun yeni təhqirini dinləyirdi. Qadının əhəmiyyət verməməsi avara adama toxunduğundan, qadın o biri tərəfə döndükdə, fürsət taparaq xəlvətcə ona yanaşdı və gülməyini boğaraq əyildi, bir ovuc qar götürüb qadının çılpaq kürəkləri arasına basdı. Qız qıy çəkdi, geriyə dönərək qızmış bir bəbir kimi kişinin üstünə atıldı, iti dırnaqlarını üzünə batırdı; yalnız sərxoş əsgərlərin uydura biləcəkləri kobud sözlərlə onu söyməyə başladı. Bu söyüşlər arağın təsirindən boğuq çıxan bir səslə söylənirdi; iyrənc sözləri fışıltı ilə yağdıran açıq dodaqlar arasından iki qabaq dişinin boş yeri görünürdü. Bu qız Fantina idi.

Bu gurultuya qəhvəxanadan bir dəstə zabit çıxdı; yoldan ötənlər toplandı. Adamlar kişi ilə qadından ibarət olan bu səhnəni divar kimi əhatə etdilər; hamı bağırışır, gülüşür, əl çalır, boğuşan bu iki adama tamaşa edirdi; kişinin şlyapası başından yerə düşmüşdü, o, üzərinə yağan zərbələrdən özünü qorumağa çalışırdı, qadın isə başı açıq, saçsız, dişsiz, qəzəbindən gömgöy göyərmiş, dəhşətli bir halda qışqıraraq, onu əlləri ilə, ayaqları ilə döyəcləyirdi.

[1] *Frant* – ədabaz (*pol.*)

Birdən camaatın arasından uzun boylu bir adam irəliləyib, qadının palçığa batmış atlaz paltarının yaxalığından yapışaraq: "Dalımca gəl" – dedi.

Qadın başını qaldırdı, qəzəbli səsi birdən kəsildi. Gözləri bir nöqtəyə dikilərək mat qaldı; acığından gömgöy olmuş üzü ölü sifəti kimi saraldı. Qorxusundan bütün bədəni tir-tir əsdi. Qadın Javeri tanıdı.

Şıq geyimli cənab isə fürsətdən istifadə edib əkildi.

On üçüncü fəsil

ŞƏHƏR POLİS İDARƏSİNƏ AİD OLAN BƏZİ MƏSƏLƏLƏRİN HƏLLİ

Javer camaatı yararaq, zavallı qadını sürüyə-sürüyə, iri addımlarla meydançanın o biri tərəfində olan polis idarəsinə doğru getdi. Qadın heç bir müqavimət göstərmədən onun ardınca gedirdi. Javer də, qadın da heç dinmirdilər. Avara adamlar gülüşə-gülüşə, bağıraraq, kinayəli sözlər ataraq, qara bir bulud kimi onları ötürürdülər. İnsan müsibəti nə qədər böyük olursa, söyüşlər və təhqirlər də o qədər şiddətli olur.

Alçaq bir otaqdan ibarət, bir peçlə qızdırılan və qarovulçularla mühafizə edilən polis idarəsinə çatdıqda, Javer barmaqlıqlı şüşəbənd qapını açdı və Fantina ilə bərabər içəri girib ümidləri puç olan camaatın üzünə qapını örtdü; maraqlananlar pəncələri üstə qalxaraq, boyunlarını uzadır, içəridəki hadisəni tutqun şüşənin arxasından seyr edirdilər. Marağın gözü ac olar, görmək də yemək kimi bir şeydir.

Fantina içəri girərək aciz və dilsiz bir halda yerə oturub, otağın bir bucağına qısıldı, qorxmuş bir it kimi büzüşüb qaldı.

Növbətçi serjant yanan bir şam gətirərək, masanın üstünə qoydu. Javer oturdu, cibindən möhürlü bir kağız çıxarıb yazmağa başladı.

Fantina kimi qadınları qanunlarımız büsbütün polisin ixtiyarına vermişdir. Polis bunlarla nə istəyirsə edir, kefi istədiyi kimi onlara cəza verir, onları iki kədərli nemətdən, yəni öz peşələri adlandırdıqları işi görməkdən və azadlıqdan məhrum edir. Javerin görünüşü çox laqeyd idi, üzündə ciddiyyətdən başqa heç bir hissiyyat əlaməti

görünmürdü, halbuki ciddi və dərin bir fikrə dalmışdı. Elə bir dəqiqə gəlib çatdı ki, o, öz vicdan səsasına qulaq asaraq, tamamilə sərbəst bir surətdə dəhşətli və hüdudsuz bir hökm verməli idi. Hiss edirdi ki, bu saat əlində böyük bir ixtiyar var, adi bir polis xəfiyyəsinin hökmü tam bir məhkəmə hökmünə bərabərdir. Javer məhkəmə qururdu. Məhkəmə qurur və hökm çıxarırdı. Qarşısındakı böyük məsələni düzgün həll etmək üçün bütün ağlını, qabiliyyətini toplayırdı. Bu qadının tutduğu işi bütün təfsilatı ilə düşündükcə, daha da hiddətlənirdi. Bir az bundan əvvəl baş vermiş bir cinayətin şahidi olmuşdu, bu, şübhəsiz idi. Orada, küçənin ortasında, mülk sahiblərindən və seçicilərdən olub, nəcabətli cəmiyyətin nümayəndəsi olan bir şəxsin, cəmiyyətdən büsbütün kənar yaramaz bir qadın tərəfindən təhqir olunduğunu görmüşdü. Fahişə bir burjuaya əl qaldırmışdı. Javer bu müdhiş hadisəni öz gözü ilə görmüşdü. O, sükutunu pozmadan yazırdı.

Yazıb qurtardıqdan sonra kağıza qol çəkdi, sonra onu qatlayaraq növbətçi serjanta verib dedi:

– Üç əsgər götürüb bu qızı həbsxanaya aparın! – Sonra Fantinaya tərəf dönərək əlavə etdi: – Orada altı ay yatacaqsan.

Zavallı qadın diksindi.

– Altı ay! Altı ay həbsxanada yatmaq! – deyə bağırdı. – Altı ay gündə yalnız yeddi su qazanmaq? Bəs Kozetta nə olacaq? Bəs mənim qızım? Mənim qızım? Axı mənim Tanerdyeyə yüz frankdan artıq borcum var, bunu bilirsinizmi, cənab müfəttiş?

O, polis nəfərlərinin palçıqlı çəkmələrindən kirlənmiş daş döşəmə üzərində dizi üstə sürünür və dərin bir ümidsizliklə yalvarırdı:

– Cənab Javer, yalvarıram sizə, rəhm edin. İnandırıram sizi ki, təqsir məndə deyil. Əvvəldən siz orada olsaydınız görərdiniz ki, mən doğru deyirəm. Allaha and olsun, müqəssir mən deyiləm. Tanıdığım o cənab heç bir səbəb olmadan kürəyimə qar tökdü. Küçədə sakit gəzişdiyimiz, kimsəyə toxunmadığımız bir halda, boynumuzun ardına qar basmağa kimin ixtiyarı var? Bu hərəkət mənə yaman toxundu. Bilirsiniz, mən bir az xəstəyəm! Həm də o, çoxdan mənə sataşırdı. "İdbarın biri, ağzında dişləri yoxdur" deyirdi. Mən onsuz da bilirəm ki, dişlərim yoxdur. Heç bir şey eləmir və öz-özümə düşünürdüm: "Bu cənab bir az əylənmək istəyir". Mən ona qarşı özümü yaxşı aparırdım və heç bir söz demirdim. Birdən o, kürəyimə qar topası

basdı. Cənab Javer, mərhəmətli cənab müfəttiş! Bayırda söylədiyim şeyləri görüb və doğruluğuma şahid olacaq bir adam yoxdurmu? Mən gərək qızışmayaydım. Ancaq, bilirsinizmi, adam əvvəlcə özünü saxlaya bilmir. İstər-istəməz qızışır. Xüsusən, kürəyinə qəflətən soyuq qar basdıqda... O cənabın şlyapasını əzməkdə mən yaxşı iş görmədim. O, nə üçün getdi? Mən ondan üzr istərdim. Aman Allah, gündə yeddi su! Üzr istəmək çətin şey deyil. Cənab Javer, məni bu dəfə bağışlayın. Axı siz yaxşı bilirsiniz ki, həbsxanada yalnız gündə yeddi su qazanmaq olur, burada hökumətin təqsiri yoxdur, axı mənim yüz frank borcum var. Verməsəm, qızcığazımı gətirib üstümə atacaqlar. Pərvərdigara! Mən uşağımı yanımda saxlaya bilmərəm, mənim gördüyüm iş o qədər murdar bir işdir ki!.. Ah, mənim Kozettam! Ah, mənim balam, müqəddəs mələyim, sənin halın necə olacaq! Ah, gözümün işığı! Bilirsiniz, bu Tenardyelər adi bir kəndlidirlər. Meyxana saxlayırlar, onlara heç bir şey qandırmaq olmur. Onlara ancaq bir şey lazımdır ki, o da puldur. Məni həbsxanaya salmayın! Axı mənim balamı qışın soyuğunda çölə atarlar. Ona yazığınız gəlsin, cənab Javer, siz mərhəmətli adamsınız. O, böyük olsaydı, öz-özünü dolandırardı, lakin hələ balacadır. Mən, əslində pis qadın deyiləm, məni bu hala salan nə tamahkarlıqdır, nə də qorxaqlıq. Araq içsəm də dərdimin çoxluğundan içirəm; mən arağı sevən deyiləm, ancaq o, dərdimi dağıdır. Mənim yaxşı vaxtlarımı görsəydiniz, ədabaz olmadığımı, nizam-qayda sevdiyimi anlardınız. Dolabım paltarla dolu olardı. Cənab Javer, mənə yazığınız gəlsin!

Fantina bu sözləri ikiqat əyilib, dizi üstündən qalxmayaraq, yaşarmış gözləri ilə heç bir şey görməyərək danışırdı. Əllərini ovaraq, yarıçılpaq sinəsinə sıxırdı, quru və qırıq-qırıq öskürdüyü üçün səsi can verən adamların qorxunc pıçıltısı kimi yavaşcadan çıxırdı. Böyük kədər zavallı adamların üzünə nur salan ilahi və qorxunc bir qüvvədir. Bu halda Fantina yenə gözəl görünürdü. Arabir sükut edərək miskincəsinə xəfiyyənin ətəyini öpürdü. Onun yalvarışları daş qəlbləri belə yumşalda bilərdi, lakin ağac bir qəlbi yumşaltmaq mümkün deyildir.

Javer:

– Yaxşı, yetər, – dedi, – dediklərinə qulaq asdım! Gərək ki, nə lazımsa, hamısını söylədin. Di get. Altı ay həbsxanada yatacaqsan; lap Allahın özü də burada bir iş görə bilməz.

Javer “lap Allahın özü də burada bir iş görə bilməz” sözlərini təntənəli bir surətdə dedikdə, Fantina hökmün artıq verilmiş olduğunu hiss etdi. O lap soyuq döşəmənin üzərinə düşərək:

– Rəhm edin, – deyə yalvardı.

Javer arxasını ona çevirdi.

Əsgərlər Fantinanın qollarından yapışdılar.

Bir neçə dəqiqə bundan əvvəl bir adam gözə çarpmadan otağa girmişdi. O, qapını örtdükdən sonra ona söykənib Fantinanın ümidsiz yalvarışlarını dinləmişdi.

Əsgərlər dizi üstündən qalxmaq istəməyən zavallı qadının qollarını tutub bağlamaq istədikləri zaman bu adam, qaranlıqdan çıxaraq, bir addım irəli yeridi və:

– Bir dəqiqə dayanın! – dedi.

Javer başını qaldırıb cənab Madleni tanıdı. Şlyapasını götürdü, məcburiyyətlə salam verərək təəssüflə dedi:

– Bağışlayın, cənab mer...

Bu “cənab mer” sözləri Fantinada qəribə bir təsir buraxdı. O, birdən-birə ayağa qalxdı, yerin altından çıxan bir kabus kimi dikəldi. Əlləri ilə əsgərləri itələyərək, cənab Madlenə yaxınlaşdı və dik-dik üzünə baxaraq bağırdı:

– Aha! Cənab mer, sənsən?!

Bu sözləri deyərkən vəhşi bir qəhqəhə ilə güldü və cənab Madlenin üzünə tüpürdü.

Cənab Madlen üzünü silərək:

– Müfəttiş Javer, bu qadını azad edin, – dedi.

Javerə elə gəldi ki, ağlını itirir. Bir dəqiqə özündə bir-birinin ardınca bütün ömrü boyu keçirməmiş qüvvətli ruhi sarsıntılar hiss etdi. Bir fahişənin merin üzünə tüpürdüyünü görmək o qədər dəhşətli bir hadisə idi ki, o, öz xəyalında belə şeyi təsəvvür etməyə cürət etməzdi. Bununla bərabər, fikrinin dərin bir guşəsində bu qadının kim olduğunu və cənab merin vaxtilə kim olduğunu düşünərək, bu fahişənin onun üzünə tüpürməsini tamamilə təbii bir şey kimi dumanlı bir şəkildə təsəvvür etməyə başladı və özündə nifrət duydu. Sonra bu merin, dövlət məmurunun sakit bir halda üzünü silib, “Bu qadını azad edin!” dediyini eşitdikdə, Javer birdən-birə çaşıb qaldı. O, düşünmək və daşınmaq qabiliyyətini itirdi. Heyrəti son dərəcəyə varmışdı. Dili tutulmuşdu.

Bu sözlər Fantinaya böyük təsir bağışladı. O, başı gicəlmiş adam kimi, çılpaq qolunu qaldırıb peçin çıxıntısından yapışdı. Sonra ətrafına boylanaraq öz-özünə danışır kimi yavaşca dedi:

– Azad etmək! Məni azad etmək! Demək, altı ay həbsxanada yatmayacağam! Bunu kim dedi? Yox, bunu heç kəs demədi, yəqin, səhv eşitmişəm. Bu cəllad mer bu sözləri deyə bilməzdi! Yox, bunu siz söylədiniz, mənim əziz ağam Javer, siz əmr verdiniz ki, məni azad etsinlər? Qoy mən bu saat sizə hər şeyi nağıl edim, onda siz məni azad edərsiniz. Mənim bütün bədbəxtliklərimin səbəbi bu cəllad sifətli, bu qoca və alçaq merdir! İnanın ki, cənab Javer, məni fabrikdən o qovdu, emalatxanada ağalıq edən yaramaz qadınların dedi-qoduları ucundan məni oradan qovdu. Bu, dəhşətli şey deyilmi? Namusla çalışan yoxsul bir qızı işdən qovmaq! Qovduqdan sonra qazandığım pulla özümü dolandıra bilmirdim, mənim müsibətlərim də buradan başladı. Hər şeydən əvvəl, siz, cənab polislər, bir dəyişiklik etməlisiniz; siz həbsxana podratçılarına yoxsul adamlara zərər verməyi qadağan etməlisiniz. Qoy məsələni bir-bir söyləyim. Mən köynək tikməkdən on iki su qazanırdım, birdən haqqımı doqquz suya qədər endirdilər. Bu pula heç cürə yaşamaq mümkün deyil, necə istəyirsən, elə də yaşa. Axı mənim balaca Kozettam vardı, mən onu da dolandırmalı idim. Odur ki pis yola düşməyə məcbur oldum. İndi görürsünüz ki, mənim bütün müsibətlərimə səbəb yalnız bu əclaf merdir. Doğrudur, mən zabitlər qəhvəxanasının qabağında o cənabın şlyapasını ayaq altına salıb əzmişəm, lakin o da mənim paltarımı qarla xarab eləyib. Bizim kimi qadınların axşamlar küçəyə çıxmaq üçün yalnız bircə ipək paltarı olur. Sizi inandırıram, cənab Javer, mən heç zaman kimsəyə qəsdən pislik etməmişəm, qadınlar var ki, məndən daha kinli və pisdirlər, amma məndən daha xoşbəxt yaşayırlar. Ah, cənab Javer, məni azad etməyi əmr edən siz idiniz, eləmi? Mənim haqqımda ev sahibindən soruşa bilərsiniz, mən mənzil haqqını vaxtlı-vaxtında verirəm, hər kəs mənim namuslu bir qadın olduğumu söylər. Aman Allah! Məni bağışlayın, mən bilmədən peçin qapağına toxunmuşam, otaq tüstü ilə dolmuşdur.

Cənab Madlen Fantinanın söylədiklərini böyük bir diqqətlə dinləyirdi. O, danışarkən əlini cibinə salıb yoxladı, cibindən pul kisəsini çıxarıb açdı. Kisə boş idi. Onu yenə cibinə qoyub Fantinaya dedi:

– Nə qədər borcunuz var dediniz?

İndiyədək gözlərini Javerdən ayırmayan Fantina ona tərəf dönüb dedi:

– Mən səninlə danışmıram!

Sonra əsgərlərə müraciət edərək:

– Onun sifətinə tüpürdüyümü gördünüzmü? – dedi. – Qoca fırıldaqçı mer, sən buraya məni qorxutmaq üçün gəlmisən, mən isə səndən qorxmuram! Mən yalnız cənab Javerdən, mənim mərhəmətli ağam Javerdən qorxuram.

Bu sözlərlə yenə müfəttişə müraciət edərək sözünə davam etdi:

– Görürsünüzmü, cənab müfəttiş, hər halda, ədalətli olmaq lazımdır. Mən sizin ədalətli olduğunuzu bilirəm, cənab Javer. Doğrudan da, bu hadisə çox sadə bir şeydir; bir kişi əylənmək istəyərək mənim kürəyimə bir parça qar basdı, bu da bütün zabitləri güldürdü. Axı onlar da bir şeylə əylənməlidir! Biz nə üçün yaşayırıq, kişiləri əyləndirmək üçün, deyilmi? Sonra bu səs-küyə siz gəldiniz, sizin də vəzifəniz qalmaqala son qoymaqdır. Günahı olan bir qadını tutub buraya gətirdiniz, lakin siz mərhəmətli olduğunuzdan, fikirləşib mənim azad edilməyimi əmr etdiniz, siz bilirsiniz ki, bu qadının balaca bir qızcığazı var. Həbsxanada altı ay yatarsa, balasını saxlaya bilməz. Yəqin, siz düşünürsünüz: "Bax bir də mənim əlimə düşmə, yaramaz!" Sizi inandırıram ki, bir daha belə bir iş tutmaram, cənab Javer! Qoy mənə nə edirlər etsinlər, mən cınqırımı da çəkmərəm. Bu gün mən ona görə bağırdım ki, çox qorxmuşdum, o cənabın kürəyimə qar basacağını heç gözləməzdim; həm də sizə söylədim ki, bir az xəstəyəm, öskürürəm, mədəmdə də illətli bir şey hiss edirəm, məni bərk ağrıdır. Həkim mənə deyir ki, özünü müalicə et. Budur, baxın, əlinizi verin, qorxmayın, burada bir ağrı var...

Fantina artıq ağlamırdı. Səsində bir məsumiyyət və nəvaziş duyulurdu; Javerin yekə kobud əlini ağ yumşaq döşləri üzərinə qoydu və təbəssümlə ona baxdı.

Sonra birdən-birə tələsik paltarını düzəltdi, dizinə qədər çırmanmış tumanını aşağı saldı; sonra qapıya tərəf gedərək əsgərlərə dostanə baş əydi və yavaşcadan:

– Uşaqlar, – dedi, – eşitdinizmi, cənab müfəttiş məni azad etmək əmrini verdi, mən də gedirəm.

Əlini qapının rəzəsinə uzatdı. Bir addım da atsaydı, küçəyə çıxmış olacaqdı.

Javer bütün bu müddət ərzində gözlərini yerə dikib hərəkətsiz durmuşdu, bu saat o, öz yerindən başqa yerə köçürülmüş və yenə başqa bir yerə qoyulacağını gözləyən bir heykələ bənzəyirdi.

Qapı rəzəsinin şaqqıltısı onu bu dalğınlıqdan oyatdı. Hüdudsuz bir ixtiyara malik olmaq şüurunu, bu hakimiyyətə malik olan bir adamın nə qədər alçaq vəzifədə olarsa, bir o qədər vəhşi heyvana məxsus quduzluğunu və rəzil bir adamın amansızlığını göstərən bir ifadə ilə başını qaldırdı.

Javer bağırdı:

– Serjant, görmürsünüzmü, bu alçaq qadın qaçmaq istəyir? Onu buraxmağa sizə kim icazə verdi?

Cənab Madlen:

– Mən, – dedi.

Fantina Javerin səsini eşitdikdə, bütün vücudu ilə titrəyərək, oğurladığı şeyi tez əlindən buraxan bir oğru kimi qapının rəzəsini buraxdı. Madlenin səsini eşidincə döndü və bu dəqiqədən nəfəsini belə çəkməyə cəsarət etmədən, kimin danışmasından asılı olaraq gözlərini gah Madlendən Javerə, gah Javerdən Madlenə tərəf gəzdirməyə başladı.

Mer Fantinanın azad edilməsini əmr etdikdən sonra, Javerin serjanta belə bir söz deməsi onun ağlının bir qədər "azdığını" göstərirdi. Cənab merin burada olduğunu unutmuşdumu? "Hökumət adamlarının" bu cür hərəkət etməyəcəyini və mer cənablarının belə bir sözü istəməyərək söylədiyini fikirləşmişdimi? Yoxsa iki saat ərzində onun gözü qabağında baş verən bu dəhşətli hadisənin xüsusi tədbirlər tələb etməsi fikrinəmi gəlmişdi? Bəlkə də, verdiyi qərardan dönməyə razı olmayaraq, alçaq vəzifəli bir adamın tam bir hökumət sahibi olduğu kimi, xəfiyyənin də bir hakim, bir polisin də qanun adamı ola biləcəyini və bütün ictimai quruluşun, nizamın, qanunun, əxlaqın, hökumətin onun, yəni Javerin şəxsiyyətində təcəssüm etdiyinimi hiss edirdi?

Hər nə isə, cənab Madlen "mən" sözünü dediyi zaman polis müfəttişi Javer, cənab merə tərəf döndü, rəngi sapsarı, dodaqları göyərmiş, məyus baxışla, bütün vücudu titrəyə-titrəyə və mətin bir səslə dedi:

– Cənab mer, bu ola bilməz!

– Nə üçün? – deyə Madlen soruşdu.

– Bu alçaq qadın hörmətli bir burjuanı təhqir etmişdir.

Cənab Madlen yumşaq və həlim bir səslə:

– Müfəttiş Javer, qulaq asın, – dedi. – Siz namuslu bir adamsınız, ümidvaram ki, bir-birimizi asan başa düşərik. Məsələ belə olmuşdur: siz bu qadını tutub apararkən mən meydançadan keçirdim; orada hələ çoxlu adam vardı. Mən onlardan soruşub işin həqiqətini öyrəndim; təqsir həmin cənabın özündə imiş, iş ədalətə gəldikdə, bu qadını yox, onu tutmaq lazım idi.

Javer etiraz edərək:

– Bu alçaq qadın indicə sizi də təhqir etdi, cənab mer, – dedi.

– Bu, mənim işimdir, – cənab Madlen cavab verdi, – təhqir mənə aiddir. Ona görə də bu məsələni yalnız mən özüm həll edə bilərəm.

– Bağışlayın, cənab mer, təhqir yalnız sizə aid deyil, qanun və hökumətə aiddir.

– Müfəttiş Javer! – cənab Madlen cavab verdi. – Qanun və hökumət vicdan deməkdir. Mən bu qadının dediklərini eşitdim, ona görə də nə etdiyimi bilirəm.

– Mən isə, cənab mer, öz gözlərimə inana bilmirəm.

– O halda sizə yalnız bir şey qalır – əmrə tabe olmaq.

– Mən yalnız vəzifəyə tabe oluram. Mənim vəzifəm bu qadını altı ay həbsxanaya salmağı tələb edir.

Cənab Madlen yumşaq bir səslə ona cavab verdi:

– Bunu yaxşıca yadınızda saxlayın ki, bu qadın həbsxanada bir gün də qalmayacaqdır.

Javer cənab Madlenin bu qəti cavabını eşidincə, dik-dik onun üzünə baxdı və yenə hörmətlə dedi:

– Doğrusu, ömrümdə ilk dəfə olaraq cənab merin sözünə qulaq asmamağa məcbur olduğum üçün təəssüf edirəm, lakin mən öz vəzifəm və səlahiyyətim dairəsində hərəkət edirəm. İcazənizlə, mən bu işin necə baş verdiyini sizin üçün təkrar edərəm. Mən özüm orada idim. Bu qadın cənab Bamatabuanın üstünə atıldı; o cənab məhbuslar məclisinin seçicisi və meydanın tinindəki gözəl bir daş evin sahibidir; ev dördmərtəbəli və balkonlu, yonma daşdan tikilmiş bir evdir. Bu dünyada azmı işlər olur! Hər halda, bu hadisə küçə intizamsızlığına aid bir şeydir, bu da küçə polisinə aid bir iş olduğundan, tamamilə mənə aiddir. Ona görə də mən Fantina adlı bir qadını tutmağa haqlıyam.

Cənab Madlen əllərini sinəsi üzərində çarpazladı və bu vaxta qədər şəhər əhalisindən kimsənin eşitmədiyi amiranə və sərt bir səslə:

– Dediyiniz məsələ şəhər polisi idarəsinə aid bir işdir, – dedi. – Cinayət Məcəlləsinin 9-cu, 11-ci, 15-ci və 66-cı bəndinə görə, bu işin hökmünü yalnız mən verə bilərəm. Əmr edirəm, bu qadını azad edəsiniz.

Javer bir də etiraz etmək istədi:

– Lakin, cənab mer...

– Bundan başqa, özbaşına həbsə aid 1799-cu il 13 dekabr tarixli qanunun 81-ci bəndini də sizə xatırladıram.

– Cənab mer, icazə verin...

– Artıq yetər.

– Lakin mən...

– Gedin, – deyə cənab Madlen onun sözünü kəsdi.

Javer, bir rus əsgəri kimi gözünü qırpmadan bu zərbəni sinəsi ilə qarşıladı. O, merə ikiqat təzim edərək, polis idarəsindən çıxdı.

Fantina qapıdan kənara çəkilərək, Javerin keçib-getməsinə heyrətlə baxdı.

Qəribə bir həyəcan içində idi. İndicə o, iki düşmən qüvvənin bir-birilə dəhşətli döyüşünü görmüşdü. Onun taleyini, azadlığını, həyatını, ruhunu, balasını öz əllərində saxlayan iki adam onun gözü qarşısında çarpışırdı: bunların biri onu qaranlığa, o biri işığa doğru çəkirdi. Qorxuya xas olan mübaliğələr, şübhələr arasından seyr etdiyi bu mübarizədə bu iki adam iki divə bənzəyirdi; biri şəri təmsil edən Əhrimən, o biri isə xeyri təmsil edən Hürmüz kimi danışırdı. Hürmüz Əhrimənə qalib gəldi, bu Hürmüz, bu xilaskar da onun nifrət etdiyi adam, bütün müsibətlərinə səbəb olduğunu zənn etdiyi haman mer, haman Madlen idi! Bu adam ona qurtuluş əlini uzatmışdı, həm də ən dəhşətli bir şəkildə təhqir edildiyi zaman uzatmışdı. O, səhv etmişdimi? Öz qəlbini kökündən dəyişməli idimi?.. O, büsbütün özünü itirmişdi, bütün bədəni titrəyirdi. O, çaşqın, pərişan bir halda dinləyir, baxır və cənab Madlenin hər bir sözü ilə qəlbində dəhşət saçan nifrət dünyası dağılır, əriyir, məhv olur və sevinc, etimad və məhəbbət gətirən, anlaşılmaz və ürəyi qızdıran bir şey doğmağa başlayırdı.

Javer gedəndən sonra cənab Madlen Fantinaya tərəf döndü, özü üçün yersiz görünən göz yaşlarını çətinliklə boğaraq yavaş bir səslə dedi:

– Söylədiklərinizi eşitdim. Başınıza gələn hadisələrdən mənim heç xəbərim yoxdur. Mənə elə gəlir ki, doğru olduğunu hiss edirəm. Mən hətta sizin mənim emalatxanamda işlədiyinizi də bilmirdim. Nə üçün bu barədə birbaşa mənə müraciət etmədiniz? İndi artıq olan olub-keçib, bu barədə danışmaq artıq gecdir; borclarınızı verəcəyəm, uşağınızı buraya gətirdəcəyəm və ya siz özünüz gedib gətirərsiniz. İstəsəniz burada, istəsəniz Parisdə yaşaya bilərsiniz. Sizin və uşağınızın qeydinə qalmağı öz öhdəmə götürürəm, özünüz istəməsəniz, işləməyə bilərsiniz. Sizə istədiyiniz qədər pul verə bilərəm. Siz yenə xoşbəxt olacaqsınız, xoşbəxt olduqdan sonra isə yenə namuslu bir qadın olarsınız, hətta hər şey dediyiniz kimidirsə, buna da mən şübhə etmirəm, siz Allah qarşısında həmişə namuslu və pak olmuşsunuz, zavallı qadın!

Zavallı Fantinanın sevinci həddindən artıq idi. Kozetta onunla bərabər olacaqdı! Dəhşətli və iyrənc həyatı atacaqdı! O, qızı ilə bərabər sərbəst, namuslu, xoşbəxt və varlı bir həyat sürəcəkdi!

Birdən-birə qarşısında səfalət qaranlığı içində cənnət qapıları açılmışdı! Fantina bu adama çaşqın bir nəzərlə baxdı və yalnız üç dəfə hıçqıra bildi: “Of! Of! Of!” Ayaqları bükülürdü, birdən cənab Madlen çəkilməyə macal tapmadan, əlinin Fantinanın əlləri arasında olduğunu və qızın dodaqlarının ona toxunduğunu hiss etdi.

Bu anda qız huşunu itirdi.

Altıncı kitab

JAVER

Birinci fəsil

DİNCLİYİN BAŞLANĞICI

Cənab Madlen Fantinanı evində olan xəstəxanaya aparmağı əmr edib, şəfqət bacılarına tapşırdı, onlar da onu soyundurub yatağa uzatdılar. Bir azdan sonra zavallı qadına şiddətli bir qızdırma gəldi. Gecənin çox yarısını huşsuz halda ucadan sayıqladı. Nəhayət, səhərə yaxın yuxuya getdi.

Ertəsi gün, günortaya yaxın, Fantina oyandığı zaman yatağının yanında, lap yaxınlıqda birinin nəfəsini duydu; pərdəni qaldırdıqda bu adamın cənab Madlen olduğunu anladı; o, ayaq üstə dayanıb Fantinanın başı üzərindəki bir şeyə diqqətlə baxırdı. Onun baxışında təşviş və mərhəmət hissi duyulurdu, o nə barədə isə yalvarırdı. Fantina cənab Madlenin haraya baxdığına diqqət edib, divardan asılmış Həzrəti-İsanın təsvirinə baxdığını anladı.

İndi cənab Madlen Fantinanın nəzərində büsbütün dəyişmişdi. Fantina onun üzündən nur yağdığını zənn edirdi. Cənab Madlenin ibadətə daldığı hiss olunurdu. Fantina bu sükutu pozmağa cəsarət etmədən, uzun müddət ona baxa-baxa qaldı. Nəhayət, qorxa-qorxa soruşdu:

– Siz nə edirsiniz?

Cənab Madlen bir saat idi ki, bu vəziyyətdə dayanmışdı. O, Fantinanın oyanmağını gözləyirdi. Əlini əlinə alıb nəbzini yoxladıqdan sonra soruşdu:

– Özünüzü necə hiss edirsiniz?

– Yaxşı hiss edirəm, yatmışdım, – dedi. – Zənnimcə, halım bir az yaxşılaşıbdır. Keçib gedər.

Cənab Madlen onun əvvəlcə vermiş olduğu sualına, yenicə eşitmiş kimi, cavab verərək dedi:

– Mən göylərdəki müsibətzədəyə dua edirdim.

Fikrində isə bunu əlavə etdi:

"Yerlərdəki müsibətzədə üçün".

Cənab Madlen bütün gecəni və səhəri məlumat toplamaqla məşğul olmuşdu. İndi artıq hər bir şeyi bilirdi. Fantinanın macərasını bütün təfsilatı ilə öyrənmişdi. Sözünə davam edərək dedi:

– Siz çox müsibətlər çəkmisiniz, zavallı ana. Qəm çəkməyin, sizin taleyiniz müqəddəs insanların taleyidir! İnsanlar bu vasitə ilə mələk yaradırlar. Sizin müsibətlərinizdə insanlar müqəssir deyil, onların başqa çarəsi yoxdur. Sizin tərk etdiyiniz cəhənnəm behiştin qapısıdır. Bu qapıdan keçməyiniz vacib idi.

O, dərin nəfəs aldı. Fantina isə ona baxaraq, özünəməxsus bir təbəssümlə gülümsəyirdi. Bu təbəssüm məhrum olduğu iki qabaq dişi sayəsində ona ülvi bir gözəllik verirdi; bu onun fədakarlığına bir dəlalət idi.

Javer o gecə bir məktub yazdı. Səhər tezdən məktubu özü Monreyldəki poçt idarəsinə apardı. Məktub aşağıdakı ünvanla Parisə göndərilirdi: "*Cənab polis prefektinin katibi cənab Şabulyeyə*". Polis idarəsində baş verən hadisənin xəbəri ətrafa yayılmışdı; məktubu göndərməzdən əvvəl onu görən poçt müdirinin arvadı və bir neçə başqa adamlar konvert üzərində Javerin xəttini tanıyıb, istefa vermək üçün ərizə göndərmiş olduğunu zənn etdilər.

Cənab Madlen dərhal Tenardye ailəsinə məktub yazdı. Fantinanın onlara yüz iyirmi frank borcu var idi. Cənab Madlen onlara üç yüz frank göndərdi, bu puldan öz borclarını götürüb, qızcığazı dərhal Monreylə göndərmələrini tapşırdı, çünki qızın anası burada xəstə yatır və qızı ilə görüşmək istəyirdi.

Tenardye bu hadisəyə heyran qaldı.

Meyxanaçı öz arvadına dedi ki, uşağı əlimizdən buraxmamalıyıq. Bu sərçə bizim üçün sağmal bir inək ola bilər. Mən məsələnin nə yerdə olduğunu anlayıram. Yəqin, sarsağın biri bu sərçənin anasına bənd olmuşdu.

Tenardye məktuba cavab olaraq məharətlə tərtib olunmuş beş yüz franklıq bir hesab göndərdi. Hesaba Tenardyenin qızları Eponina və Azelmanın uzun sürən xəstəliklərini müalicə edən və dərman

verən həkimdən və aptekçidən aldıqları iki qəbzi də əlavə etmişdi. Yuxarıda söylədiyimiz kimi, Kozetta bu vaxt ərzində xəstələnməmişdi. Bu sənədlərdə ancaq adlar dəyişmişdi. Tenardye hesabın altında: "Veriləsi pulun hesabına üç yüz frank çatmışdır" sözlərini əlavə etmişdi.

Cənab Madlen dərhal üç yüz frank da göndərib: "Kozettanı tezliklə gətirin" deyə yazdı.

– Çox qəribə işdir! – deyə Tenardye bağırdı. – Biz heç bir vəchlə Kozettanı əlimizdən verməməliyik.

Fantinanın halı yaxşılaşmırdı. O, hələ də xəstəxanada idi.

Əvvəlcə şəfqət bacıları bu "şortunu" istəmədən qəbul etmişdilər və ikrahla ona baxırdılar. Reyms kilsəsinin barelyeflərini görənlər ağıllı qızların dodaqlarını büzərək yüngülməzac qızlara nifrətlə baxdıqlarını xatırlamaya bilməzlər. Mömin qadınların əxlaqsız qadınlara qarşı bəslədikləri əzəli nifrət qadın vüqarını doğuran ən dərin insan instinktlərinə əsaslanır. Bacılar bu instinktə qapılmışdılar, dini hisslər onların nifrətini daha da artırmışdı. Lakin Fantina onları tezliklə məftun etdi. Onun bütün sözlərində məmnuniyyət və həlimlik hiss olunurdu; onun vücudunda yaşayan analıq hissi istər-istəməz qəlbləri yumşaldırdı. Bir dəfə şəfqət bacıları Fantinanın qızdırma içində sayıqladığını eşitmişdilər. O, ucadan deyirdi: "Mən günah işlər dalınca getmişəm, lakin balam yanıma qayıdarsa, Allah mənim günahımdan keçər. Mən pis həyat sürdüyüm zamanlar Kozettanın yanımda olmağını istəməzdim, onun heyrətli və qüssəli gözləri məni məhv edə bilərdi. Mənim günahlara yol verməyimə səbəb də ancaq o olmuşdur, bax buna görə də Allah məni bağışlar. Kozetta buraya gəldiyi zaman mən Allah-taalanın mənə şəfa verəcəyini hiss edirəm. Ürəyimin sakit olması üçün məsum uşağa bir dəfə baxmağım belə kifayətdir. Ah, bacılar, onun bir mələk olduğunu bilsəydiniz! Onlar balaca olduqları zaman çiyinlərində qanadları da olur".

Cənab Madlen Fantinanın yanına gündə iki dəfə gələrdi və hər dəfə Fantina ondan soruşardı:

– Mən Kozettamı tezmi görəcəyəm?

O isə cavab verərdi:

– Ola bilsin, sabah səhər görə biləsiniz. Mən hər dəqiqə onun gəlişini gözləyirəm.

Bu zaman biçarə ananın solğun üzü nur kimi parlardı. O deyərdi ki:

– Mənim nə qədər xoşbəxt olacağımı bilsəydiniz!

Biz irəlidə söylədik ki, Fantinanın halı yaxşılaşmırdı. Əksinə, onun vəziyyəti həftədən-həftəyə daha da pozulurdu. Çılpaq kürəkləri arasına basılmış qar birdən-birə onun tərləməyinə son qoymuş və neçə ildən bəri artmaqda olan xəstəlik birdən-birə şiddətlə inkişaf etməyə başlamışdı. O zamanlar döş xəstəliklərinin müayinə və müalicəsində artıq Lazinekin faydalı göstərişlərindən istifadə edirdilər. Həkim Fantinanı müayinə etdikdən sonra başını buladı.

Cənab Madlen həkimdən soruşdu:

– Halı necədir?

– Onun, deyəsən, görmək istədiyi bir uşağı var? – həkim soruşdu.

– Var.

– O halda uşağı tezliklə yanına gətizdirin.

Cənab Madlen diksindi.

Fantina ondan soruşdu:

– Həkim nə deyir?

Cənab Madlen çətinliklə gülümsəyərək cavab verdi:

– O deyir ki, uşağınızı tezliklə yanınıza gətirmək lazımdır. Onu görən kimi sağalarsınız.

– Ah, elədir, o doğru deyir! – deyə xəstə sevindi. – Lakin bu Tenardye ailəsi nə üçün mənim Kozettamı buraxmaq istəmir? Ah, Kozettam gələcəkdir. Xoşbəxtliyimə az qalmışdır, bəli, mən xoşbəxt olacağam!

Lakin Tenardye ailəsi min cür bəhanə ilə uşağı buraxmaq istəmirdi. Gah Kozettanın hələ bir az xəstə olduğunu, ona görə də qış vaxtı yola çıxmağın qorxulu olduğunu yazırdılar, gah da bəhanə edirdilər ki, kənddə xırda alacaqları var və ancaq bunu yığdıqdan sonra uşağı göndərə biləcəklər və sairə.

Nəhayət, Madlen baba Fantinaya dedi:

– Kozetta üçün mən adam göndərəcəyəm, lazım gələrsə, lap özüm də gedərəm.

Sonra Fantinanın dilindən bir məktub yazaraq, ona imza etdirdi:

> "Cənab Tenardye!
>
> Kozettanı bu məktubu gətirən adama verin. Nə xərciniz olmuşsa, hamısını sizə verəcəklər. Hörmətlə
>
> *Fantina*".

Elə bu vaxt mühüm bir hadisə baş verdi. Biz həyat adlandırdığımız sirli bir qayanı əbəs yerə məharətlə yonmağa səy edirik. Fələyin qara damarı hər zaman bu qayanın üzərində görünür.

İkinci fəsil

JAN NECƏ DÖNÜB ŞAN OLUR

Bir gün səhər cənab Madlen öz otağında oturub çalışırdı; kağızları oxuyaraq, Monfermeylə səyahət etmək lazım gələ biləcəyini düşündüyündən, bəzi təcili işləri imzalayıb qurtarmaq istəyirdi; birdən polis müfəttişi Javerin onu görmək istədiyini xəbər verdilər. Cənab Madlen bu adı eşidincə özündə doğan bir nifrət hissini boğa bilmədi. Polis idarəsində baş verən hadisədən sonra Javer cənab Madlenlə görüşməkdən qaçırdı, o vaxtdan bəri cənab Madlen bir dəfə belə onu görməmişdi.

Mer:

– Gəlsin! – dedi.

Javer içəri girdi.

Cənab Madlen əlində qələm, buxarının yanında oturmuşdu, masanın üzərində qovluqdakı kağızları oxuyurdu, bu, ictimai yollarda nizam və qaydanın pozulmasına aid protokollar idi. Javer içəri girdiyi zaman o, yerindən tərpənmədi. Zavallı Fantinanın halını düşündüyü üçün soyuq görünməyi münasib bildi.

Javer, ona arxasını çevirib oturmuş cənab merə hörmətlə təzim etdi. Cənab mer dönüb baxmadan, yenə də kağızların üzərində qeydlər edirdi.

Javer iki-üç addım irəlilədikdən sonra sükutu pozmadan birdənbirə durdu.

Javerin təbiətinə bələd olan bir fizionomist mədəniyyətə xidmət edən bu vəhşini, romalı ilə spartalıdan əmələ gələn bu qəribə tərkibi, bu rahib ilə soldafonu, yalan danışmağı bacarmayan bu casusu və günahsız kəşfiyyatçını uzun müddətdən bəri öyrənən bir fizionomist, Javerin cənab Madlenə qarşı bəslədiyi köhnə və gizli nifrətini və Fantina üstündə merlə toqquşduğunu bilən bu fizionomist, bu dəqiqədə onu müşahidə etmiş olsaydı, öz-özünə mütləq bu

sözləri deyərdi: “Bir hadisə baş vermişdir”. Onun vicdanına, sarsılmaz, aydın, səmimi, namuslu, sərt və yırtıcı vicdanına bələd olanlar Javerin mənəvi həyatında nə isə bir hadisə, mühüm bir hadisə baş vermiş olduğunu dərhal başa düşə bilərdilər. Javerin ürəyində nə vardısa, dərhal üzündə görünərdi. Böyük ehtiraslara malik adamlar kimi onun da əhvalı kəskin bir şəkildə dəyişə bilərdi, lakin üzünün ifadəsi heç vaxt bu qədər qəribə və fövqəladə bir təsir bağışlamazdı. Javer içəri girdikdə cənab Madlenə baş əydi, onun baxışlarında bu saat nə qəzəb, nə kin, nə də bir şübhə var idi. Javer merdən bir neçə addım uzaqda, onun kreslosunun arxasında dayandı. O heç bir zaman həlimlik göstərməsə də, həmişə səbirli olan bir insanın təbii və sərt soyuqqanlılığı ilə dik dayanmışdı. O, bir kəlmə belə söyləmədən, bir hərəkət belə göstərmədən, təbii bir mülayimlik və sakit bir itaətkarlıqla cənab merin ona tərəf dönmək üçün iltifat buyuracağını gözləyirdi. O, zabit qarşısında bir əsgər, hakim qarşısında bir cani kimi papağını çıxarıb, başını aşağı salıb, ciddi və pozulmaz bir şəkildə gözləyirdi. Onun varlığında fərz edilə biləcək bütün hadisələr və xatirələr artıq yox olmuşdu. Qranit kimi qılınc batmaz və sadə üzündə artıq kədərdən başqa heç bir şey görünmürdü. Onun bütün varlığında bir miskinlik, qətiyyət və bir növ mərdanə qüssə əlamətləri sezilirdi. Nəhayət, cənab mer qələmi masanın üstünə qoyub, bir qədər Javerə tərəf dönərək soruşdu:

– Hə, nə olmuşdur, Javer?

Javer fikrini toplayırmış kimi bir qədər sükut etdi; sonra məyus bir tərzdə ilə, sadə bir surətdə səsini ucaldaraq:

– Cənab mer, mühüm bir cinayət olmuşdur, – dedi.

– Nə cinayət?

– Hökumətin kiçik bir məmuru ali bir mənsəb sahibi barəsində çox kobud bir hörmətsizlik etmişdir. Bunu sizə xəbər verməyi özümə borc bilirəm.

– Bu kiçik məmur kimdir? – deyə cənab Madlen soruşdu.

Javer:

– Mənəm! – dedi.

– Sizmi?

– Bəli, mən özüm!

– Kiçik məmurun hərəkəti ilə özünü təhqir edilmiş hesab edən o mənsəb sahibi kimdir?

– Sizsiniz, cənab mer.

Cənab Madlen kreslodan bir az ayağa qalxan kimi oldu. Javer başını aşağı dikmiş halda, yenə eyni ciddi görünüşlə danışmağında davam edirdi:

– Cənab mer, mənim işdən kənar edilməyimi müdiriyyətdən tələb etməyinizi xahiş etməyə gəlmişəm, – dedi.

Cənab Madlen mat qalıb bir şey söyləmək istədi, lakin Javer onun sözünü kəsərək dedi:

– Siz bilirsiniz ki, mən özüm istefaya çıxa bilərəm, lakin bu kifayət deyildir. İstefa vermək – hörmətli işdir. Mən cinayət eləmişəm, buna görə də cəzaya layiqəm. Siz məni vəzifəmdən qovmalısınız.

Bir az sükut etdikdən sonra əlavə etdi:

– Cənab mer, keçən dəfə siz mənimlə çox sərt rəftar etməklə ədalətsizlik etdiniz. Bu gün isə rəftarınız çox ədalətli olacaqdır.

– Lakin nə üçün? Nə səbəbə? – deyə cənab Madlen heyrət etdi. – Nə mənasız sözlər danışırsınız! Bu nə deməkdir? Mənə qarşı siz nə kimi haqsızlıq eləmişsiniz? Məni nə ilə təhqir etmişsiniz? Siz özünüzü təqsirləndirirsiniz, istəyirsiniz ki, sizi başqası ilə əvəz etsinlər...

– Mən istəyirəm ki, məni buradan qovasınız.

– Yaxşı, qovarıq. Qoy belə olsun. Lakin mən bunun səbəbini başa düşmürəm.

– Bu saat başa düşərsiniz, cənab mer.

Javer dərin nəfəs aldı və yenə eyni soyuq və həzin bir tövrlə sözünə davam etdi:

– Cənab mer, ay yarım bundan əvvəl o qadın əhvalatından sonra mən bərk acığa düşüb, əlinizdən məlumat verdim.

– Məlumat verdiniz?

– Bəli, Paris polis prefekturasına xəbər verdim.

Javerdən yalnız bir qədər çox gülən cənab Madlen birdən qəhqəhə ilə güldü:

– Siz merin polisin sərəncamına qarışdığı üçünmü xəbər vermişsiniz?

– Xeyr, mən merin keçmiş bir katorqalı olduğunu xəbər vermişəm.

Merin rəngi sapsarı saraldı.

Javer hələ də gözlərini qaldırmadan sözünə davam etdi:

– Mən elə güman edirdim. Məndə artıq çoxdan bəri bəzi şübhələr oyanmışdı. Bəzi bənzəyişlər, Faveroldan aldığım bəzi məlumat, qollarınızdakı qüvvət, Foşlevan baba ilə olan hadisə, sizin gözəl nişan atmağınız, yeriyərkən ayağınızı bir az sürüməyiniz, qərəz ki, bir çox bu kimi axmaq cəhətlər məni şübhəyə salırdı. Hər nə isə, mən sizi Jan Valjan adlı bir caniyə oxşadırdım.

– Necə? Kimə oxşadırdınız?

– Jan Valjana. İyirmi il bundan əvvəl Tulon həbsxanasında nəzarətçi müavini olduğum zaman gördüyüm katorqalıdır. Eşitdiyimə görə, bu Jan Valjan katorqadan çıxdıqdan sonra bir yepiskopun evini qarət etmiş, sonra əli silahlı yollarda qarətə başlamışdır. O, kiçik bir savoyalını soymuşdur. Artıq səkkiz ildən bəridir ki, onu hey axtarırlar, lakin harada gizləndiyini heç kəs bilmir. Mən də zənn etdim ki... Xülasə, mən sizin barənizdə xəbər vermişəm! Bu işi acığımdan tutmuşam, öz şübhələrim haqqında prefekturaya məlumat vermişəm.

Cənab Madlen yenə kağızları vərəqləməyə başlayaraq, tamamilə laqeyd bir tövrlə soruşdu:

– Bəs oradan sizə nə cavab verdilər?

– Yazdılar ki, mən dəli olmuşam.

– Bəs sonra?

– Sonra... onlar haqlıdırlar.

– Yaxşı ki, siz özünüz bunu etiraf edirsiniz.

– Necə etiraf etməyim ki, əsl Jan Valjan tapılmışdır.

Cənab Madlenin əlindəki kağız barmaqları arasından sürüşüb düşdü, başını qaldırıb diqqətlə Javerin üzünə baxdı və anlaşılmaz bir ifadə ilə dedi:

– Necə?

Javer sözünə davam etdi:

– Məsələ belə olmuşdur, cənab mer. Deyirlər, bizim mahalda Alile-Klonin yaxınlığında Şanmatye adlı bir qoca varmış. Bu lüt, səfil bir adam idi, ona görə də heç kəs ona əhəmiyyət verməzdi. Bilmək olmur ki, bu cür adamlar nə ilə yaşayırlar. Bu Şanmatye keçən payız fəslində alma oğurluğu üstündə tutulmuşdu. Bu almadan sidr hazırlayırlar. Alma bağı sahibinin kim olduğu əhəmiyyətli deyil! Hər halda, oğurluq bağda olmuşdur. Şanmatye divardan aşaraq alma ağacının budaqlarını sındırır. Onu tuturlar. Ağac budağını hələ də əlindən buraxmır. Bu alçaq hərifi həbsə salırlar. Bilirsiniz, bu oğurluq üçün onu ancaq

həbsxanaya sala bilərdilər. Lakin tale məsələyə qarışır. Yerli həbsxana binası pis vəziyyətdə olduğundan, məhkəmə müstəntiqi Şanmatyenin departamentin həbsxanası olan Arrasa aparılmasını əmr edir. Arras həbsxanasında da Breve adlı qoca bir katorqalı vardı; onun nə üçün tutulmuş olduğunu bilmirəm, lakin həbsxanada özünü yaxşı apardığı üçün, onu otaq başçısı təyin etmişdilər. Beləliklə, cənab mer, bilirsinizmi nə olur? Şanmatyeni oraya gətirən kimi Breve ucadan bağırır:

– Aha! Mən bu adamı tanıyıram! Bu köhnə jiqandır. Dostum, bir mənə bax görüm, sən Jan Valjan deyilsənmi?

Şanmatye heç bir şey başa düşmür kimi, təəccüblə:

– Nə Jan Valjan? Jan Valjan kimdir? – deyir.

Breve:

– Yaxşı, yaxşı, özünü tülkülüyə vurma! – deyə cavab verir.

– Sən Jan Valjanın özüsən. İyirmi il bundan qabaq Tulon katorqasında olmusan. Mən də səninlə orada idim.

Şanmatye inkar edir. Nə üçün inkar edir, məlumdur. Nəhayət, təhqiqat başlanır. Yavaş-yavaş işlərinin üstü açılır və belə bir şey məlum olur. Həmin Şanmatye otuz il bundan əvvəl müxtəlif yerlərdə, o cümlədən Faverolda ağac kəsməklə məşğul imiş. Sonralar o, gözdən itir. Bundan xeyli vaxt sonra yenə Overndə, sonra Parisdə, öz dediyinə görə, araba ustası olaraq yaşamışdır; orada, guya, paltaryuyan bir qızı varmış, lakin bu, qəti surətdə isbat olunmamışdır; nəhayət, o, bizim yerlərdə görünməyə başlayır. Belə, Jan Valjan katorqaya düşməzdən əvvəl nə ilə məşğul olurdu? Ağac kəsməklə. Harada? Faverolda. Başqa bir sübut daha. Jan Valjanın adı Jan imiş, anasının familiyası isə Matye imiş. Katorqadan qurtulduqdan sonra, yəqin ki, əsl adını gizlətmək üçün, anasının familiyasını qəbul edərək, özünü Jan Matye adlandırmışdır, bu da təəccüblü deyildir. Sonra o, Overnə gəlir. Yerli tələffüz sayəsində Jan dəyişərək Şan olur və onu Şanmatye deyə çağırmağa başlayırlar. Bizim dostumuz da məsələnin üstünü açmadan Şanmatye olur! Siz məni diqqətlə dinləyirsiniz, deyilmi? Sonra Faverolda təhqiqat aparırlar. Orada artıq Jan Valjanın ailəsindən heç bir kəsin izini tapmırlar. Heç kəs bu ailənin necə olduğunu bilmir. Bilirsiniz, cəmiyyətin bu təbəqələrində tam bir ailənin yox olmasına təsadüf etmək mümkündür. Ailəni axtarırlar, tapılmır. Bu cür adamlar palçıq, ya da toz kimi bir şeydir. Bu əhvalat otuz il bundan qabaq olduğundan, Faverolda Jan

Valjanı xatırlayan adam tapılmır. Belə olduqda Tulondan məlumat tələb edirlər. Brevedən başqa, Jan Valjanı iki başqa katorqalı da tanıyırmış. Bunlar ömürlük katorqaya məhkum edilmiş canilərdən Koşpayl və Şenildye idi. Bunları katorqadan Arrasa gətirdir və Şanmatye ilə üzləşdirirlər. Onlar heç bir tərəddüd etmədən, Şanmatyenin şübhəsiz Jan Valjan olduğunu söyləyirlər. Onun eyni əlli dörd yaşı, eyni boyu və eyni görünüşü vardı. Müxtəsər, həmin adamın özü idi. Məhz bu zaman mən Paris prefekturasına buradan məlumat verdim. Mənə cavab verdilər ki, yəqin, ağlımı itirmişəm, çünki Jan Valjan Arrasda polisin əlindədir. Heç bilirsinizmi, bu, məni nə qədər heyrətləndirirdi! Mən bu ümiddə idim ki, Jan Valjan burada, mənim əlimdədir. Sonra məhkəmə müstəntiqinə məktub yazdım. O, məni çağırtdırıb Şanmatyeni mənə göstərdi...

Cənab Madlen, Javerin sözünü kəsərək:

– Hə, nə oldu? – dedi.

Yalan danışmağı bacarmayan Javerin üzü kədərli idi. O cavab verdi:

– Cənab mer, həqiqət daim həqiqətdir. Mən çox təəssüf edirəm, lakin bu adam şübhəsiz Jan Valjandır. Mən özüm də onu tanıdım.

Cənab Madlen çox yavaş bir səslə dedi:

– Siz buna arxayınsınızmı?

Javer öz sözlərinin həqiqət olduğuna dərindən əmin olan bir adam kimi acı bir qəhqəhə ilə gülərək:

– Əlbəttə, arxayınam! – dedi.

Javer bir dəqiqə fikrə gedərək, barmaqları ilə masa üstündə duran boşqabın içindəki mürəkkəbqurudan qumu qarışdırdı, sonra əlavə etdi:

– İndi, mən həqiqi Jan Valjanı gördükdən sonra, indiyə qədər başqasının Jan Valjan olduğuna necə inandığıma təəccüb edirəm. Məni bağışlayın, cənab mer!

Ay yarım bundan əvvəl polis idarəsində "Gedin" deyə onu təhqir etmiş bir adama qarşı bu qədər hörmətlə müraciət edən mütəkəbbir Javer, indi bir sadəlik və ləyaqət mücəssəməsi idi. Cənab Madlen onun bu xahişinə gözlənilməz bir sualla cavab verdi:

– Bəs bu adam özü nə deyir?

– Nə deyəcək, cənab mer, onun işi çox şuluqdur. Əgər o adam, doğrudan da, Jan Valjan isə, burada təkrar cinayət məsələsi var.

Divarı aşmaq, ağacı sındırmaq və bir neçə alma oğurlamaq – balaca bir uşaq üçün adi bir dəcəllikdir, böyük adam üçün bu bir qəbahətdir, bir katorqalı üçün isə bu bir cinayətdir, oğurluq və qarət deməkdir. Buna polis idarəsi yox, dairə məhkəməsi baxacaqdır. Bundan ötrü adi bir oğrunu bir neçə günlüyə həbsə alacaqları halda, katorqalı əbədi olaraq məhkum edilə bilər. Sonra, çox ehtimal ki, balaca savoyalının məsələsi də meydana çıxacaqdır. Burada adam lap başını itirə bilər, deyilmi? Hər kəs başını itirsə də, Jan Valjan heç çaşmır. O, çox hiyləgər adamdır! Onun bu hərəkətindən də Jan Valjan olduğunu tanıyıram. Başqası onun yerinə olsaydı, özünü itirərdi, bağırmağa, etiraz etməyə, Jan Valjan olmadığına inandırmağa başlardı, – qazanı odun üstünə qoyanda qaynar, – o, Jan Valjan olmaq istəməzdi və ilaxır. Lakin o heç bir şey anlamırmış kimi, yalnız bir şey söyləyir: "Mən Şanmatyeyəm və katorqada-filanda olmamışam!" Təəccüb edirmiş kimi görünür, özünü gicliyə vurur və ağıllı iş görür. Oho! Bu çox usta adamdır. Ancaq nə edir etsin, sübut meydandadır. Onu dörd adam tanımışdır. Artıq qoca fırıldaqçının işi bitib. İşə Arras məhkəməsində baxılacaqdır. Məni də bir şahid kimi çağırıblar, ora gedirəm.

Cənab Madlen yenə masaya doğru çevrilib kağızları vərəqləməyə başladı, çox məşğul görünən bir adam kimi gah oxuyur, gah da bəzi şeyləri qeyd edirdi. Nəhayət, Javerə tərəf dönərək dedi:

– Yaxşı, yetər, Javer. Bütün bu təfsilat məni heç də maraqlandırmır. Biz vaxtımızı əbəs yerə itiririk, halbuki təcili işlərimiz çoxdur. Bilirsinizmi, nə var, Javer, bu saat Büzopye xalanın yanına gedərsiniz, o, Sen-Solv küçəsinin tinində göyərti satır, ona deyərsiniz ki, arabaçı Pyer Şenelonqdan şikayət ərizəsi yazsın. Bu heyvan az qalmışdı öz arabası ilə onun özünü də, uşağını da bassın. Şenelonq cəzaya layiqdir. Sonra, Montr-de-Şampini küçəsində yaşayan cənab Şarselenin yanına gedərsiniz. Cənab Şarselenin şikayətinə görə, qonşu evin novçasından axan yağış suyu düz onun evinin bünövrəsinə töküldüyü üçün bünövrəni dağıdır. Bir də Gibur küçəsində yaşayan dul arvad Dorisin və Qaro-Blan küçəsində yaşayan madam Rene de Bosenin evində doğrudandamı polis qaydalarının pozulub-pozulmadığını yoxlayıb protokol yazarsınız. Mən sizə həddindən artıq sifariş verməyə məcbur oldum. Yanılmıramsa, siz dediniz ki, səkkiz ya on iki gündən sonra bu işdən ötrü Arrasa getməlisiniz.

– Xeyr, daha tez, cənab mer.

– Nə zaman?

– Cənab mer, əgər səhv etmirəmsə, mən sizə söylədim, bu işə sabah baxılacaqdır, mən də bu axşam dilicanla oraya getməliyəm.

Cənab Madlen gözə çarpmayan bir hərəkətlə soruşdu:

– Məhkəmə çoxmu çəkəcəkdir?

– Ancaq bir gün, artıq çəkməz. Məhkəmənin qərarı ən geci sabah axşam çıxarılacaqdır. Lakin mən məhkəmə qərarını gözləməyəcəyəm. Onun bəraət qazanmayacağına heç bir şübhə ola bilməz. Şahidlik etdikdən sonra yenə dərhal buraya qayıdacağam.

– Çox yaxşı, – deyə cənab Madlen cavab verdi. Əl işarəsi ilə getmək üçün Javerə izn verdi.

Lakin Javer getmədi.

– Cənab mer, bağışlayın, – dedi.

– Yenə nə var? – cənab Madlen soruşdu.

– Cənab mer, bir şeyi də sizin yadınıza salmaq istəyirəm.

– Nə şeyi?

– Siz məni vəzifəmdən kənar etməlisiniz.

Cənab Madlen ayağa durdu.

– Javer, siz namuslu bir adamsınız, mənim sizə hörmətim var. Siz öz təqsirinizi böyüdürsünüz. Bir də ki bu təhqir ancaq mənə aiddir. Javer, siz işdən çıxarılmağa deyil, bəlkə, daha yüksək vəzifəyə layiqsiniz. Mən öz vəzifənizdə qalmağınıza israr edirəm.

Javer cənab Madlenə diqqətlə baxdı, sanki, bu baxışda onun hakimanə olmayan, lakin təmiz və satılmaz bir vicdanı görünürdü.

O, sakit bir halda dedi:

– Cənab mer, mən sizin fikrinizlə razılaşa bilməyəcəyəm.

– Mən təkrar edirəm ki, bu yalnız mənə aid bir işdir, – cənab Madlen cavab verdi.

Lakin Javer yalnız bir fikrə qapılmış halda sözünə davam etdi:

– Mən öz təqsirimi heç də böyütmürəm. Xahiş edirəm, mənim düşündüklərimi dinləyin. Mən sizdən şübhə edirdim, şübhələrim əsassız çıxdı. Bu elə bir şey deyildir. Hər kəs haqqında şübhə etmək bizim haqqımızdır, polisin haqqıdır. Bununla bərabər, bizim yüksək adamlara qarşı şübhə etməyə haqqımız yoxdur. Amma mən heç bir dəlil və əsasım olmadığı halda, sizdən intiqam almaq məqsədilə, qəzəblənərək, sizin kimi möhtərəm bir adamın, mer cənablarının,

bir hökumət nümayəndəsinin keçmiş bir katorqalı olduğunu xəbər verdim! Bu yaramaz və ağır bir işdir. Sizin şəxsinizdə mən, bir hökumət nümayəndəsi olmaq etibarilə, hökuməti təhqir etdim! Əgər mənə tabe olan polis nəfərlərindən biri mənə qarşı belə bir iş tutmuş olsaydı, mən onu polis idarəsində işləməyə layiq görməzdim və heç bir tərəddüd etmədən qovardım. Siz soruşarsınız ki, bəs sonra nə olsun? İzn verin, cənab mer, hələ sözümü qurtarmamışam. Mən ömrümdə başqalarına qarşı çox zaman ciddi və qəddar olmuşam. Buna da haqqım vardı, çünki düzgün hərəkət edirdim. Əgər mən indi özümə qarşı eyni surətdə qəddar olmasam, mənim bütün əvvəlki hərəkətlərim ədalətsiz olacaqdır. Məgər mən özümə başqalarına nisbətən daha çox güzəştə gedə bilərəm? Xeyr! Belə də iş olar? Yalnız başqalarına cəza verib, özümə qarşı güzəştə getmək yaxşı işdirmi? Bu halda mən çox alçaq bir adam olardım! Onda mənə xain və alçaq deyənlər haqlı olardılar! Cənab mer, sizin mənə mərhəmət göstərməyinizi istəmirəm; başqalarına qarşı göstərdiyiniz mərhəməti gördükcə, mən qanımı çox qaraltmışam; şəxsən mən bu mərhəməti qəbul etmək istəmirəm. Mötəbər bir burjuaya qarşı fahişəyə, bir merə qarşı polisə göstərilən mərhəmət zərərli mərhəmətdir. Məhz bu cür mərhəmət ictimai quruluşa xələl yetirə bilər. Aman Allah! Mərhəmətli olmaq asan işdir, ədalətli olmaq isə çətindir! Əgər siz mən zənn etdiyim adam olsaydınız, inanın ki, sizə qarşı əsla mərhəmət göstərməzdim. Onda görərdiniz! Cənab mer, mən başqaları ilə nə cür rəftar etmişəmsə, özümlə də elə rəftar etməliyəm, hər cür qatilləri, xainləri təqib edərkən, öz-özümə həmişə deyirdim: "Javer, əgər sən bir dəfə belə büdrəsən, səni yanlış bir hərəkətdə görmüş olsam, o zaman məndən aman gözləmə!" İndi mən səhv etmişəm, büdrəmişəm. Artıq mənimki qurtardı! Cəza çəkməli, qovulmalı, küçəyə atılmalıyam! Mən yalnız buna layiqəm. Mənim qüvvətli əllərim var, əkin əkə bilərəm, özümə iş taparam, nə olar! Cənab mer, vəzifə ibrət göstərməyi tələb edir. Mən xahiş edirəm, polis müfəttişi Javerin istefasını qəbul edəsiniz.

Javer bu sözləri müti, vüqarlı, ümidsiz və inamlı bir tövrlə söyləmişdi. Bu qəribə namus sahibinin sözlərində ayrıca bir əzəmət duyulurdu.

– Yaxşı, baxarıq, – deyə cənab Madlen qeyri-müəyyən bir tərzdə cavab verdi və əlini Javerə uzatdı.

Javer geriyə çəkilərək amansız, sərt bir səslə:

– Bağışlayın, cənab mer, – dedi, – bu ola bilməz. Mer xəfiyyəyə əl verməz.

Sonra ağızucu əlavə etdi:

– Bəli, xəfiyyəyə! Mən acığa düşüb öz polis zorumu göstərməklə ancaq xəfiyyədən başqa bir şey deyiləm.

Javer bu sözləri dedikdən sonra baş əyib qapıya doğru yönəldi. Qapının ağzında dönüb gözlərini qaldırmayaraq dedi:

– Cənab mer, yerimə adam təyin edilənə qədər vəzifəmə davam edəcəyəm.

Javer getdi. Cənab Madlen dərin fikrə dalaraq, dəhlizin daş döşəməsi üzərində Javerin möhkəm və inamlı addımlarının səsinə qulaq asdı; bir az sonra səslər kəsildi.

Yeddinci kitab

ŞANMATYENİN İŞİ

Birinci fəsil

SİMPLİSİYA BACI

Oxucuya söyləyəcəyimiz hadisələrin yalnız bir qismi Monreyl-sür-Mer əhalisinə məlum idi; lakin oraya kənardan nüfuz etmiş şayiələr o qədər sarsıdıcı bir xatirə buraxmışdı ki, bunları bütün təfsilatı ilə oxucuya xəbər verməmək bizim əsərimiz üçün böyük bir nöqsan olardı.

Oxucular bu təfsilatın içində həqiqətə uyğun görünməyən iki və ya üç hadisəyə təsadüf etsələr də, biz həqiqətə qarşı ehtiram məqsədilə, bunları təsvir etməyi lazım bildik.

Javerin cənab meri ziyarət etdiyi günün günorta çağı cənab Madlen adəti üzrə Fantinanı görməyə getdi.

Fantinanın yanına keçməzdən əvvəl Simplisiya bacını yanına çağırdı.

Xəstəxanada şəfqət bacısı vəzifəsində iki rahibə xidmət edirdi; bunlardan birinin adı Perepetuya, o birininki Simplisiya idi.

Xəstəyə baxmaqla məşğul olan Perepetuya bacı hər hansı bir xidmətə girəcəyi kimi cənab Allahın xidmətinə girmiş sadə bir kəndli qadını idi. Onun üçün sahibə olmaq aşpaz qadın olmaq kimi bir şey idi. Bu cür tiplərə tez-tez təsadüf etmək olar. Bu kobud kəndli palçığından nə istəsən düzəltmək olar, bunlardan kapusin də ola bilər, ursulinka da, odur ki rahib icmaları bunlardan böyük bir həvəslə istifadə edirlər. Bu avam kəndliləri, adətən, ağır möminlik işlərinə göndərirlər. Öküz otaranların karmelitə[1] çevrilməsi çox asan bir işdir; birincinin ikinciyə çevrilməsi üçün heç bir çətinlik yoxdur; kəndlə monastırı birləşdirən nadanlıq yaxınlaşmaq üçün az bir zamanda

[1] *Karmelit* – qırmızı boyaq

zəmin hazırlayır və dərhal kənd əhlini rahiblə bir səviyyəyə qoyur. Rahib ləbbadəsinin ətəkli köynəkdən bircə fərqi var: ləbbadə daha genişdir. Perepetuya bacı zorbaca bir rahibə idi; əsli Pontuaza yaxınlığındakı Marindən idi; qırmızıyanaq, namuslu və bir az həyasız olan bu qadın sadə xalq dilində danışar, Zəburun surələrini mızıldar, donquldanar, xəstənin yalançı möminliyindən, yaxud ikiüzlülüyündən asılı olaraq, dərmanın şirinliyini artırar, xəstələrlə kobud rəftar edər, can verən xəstələrin üzünə deyinər, Allahı zorla onların yadına salar və son nəfəslərini dualarla hirsli-hirsli boğardı.

Simplisiya bacıya gəlincə, o, saf mum kimi ağappaq idi. Perepetuya bacının yanında o, piydən olan şamın yanındakı mum şamına bənzəyirdi. Vensen de Pol şəfqət bacısının surətini gözəl sözlərlə tərif etmişdir, burada hüdudsuz bir azadlığın mükəmməl bir əsarətlə birləşdiyini görmək mümkündür: "Onların xəstəxanadan başqa bir məskəni, hücrədən başqa bir bucağı, kənd kilsəsindən başqa bir ibadətxanası, şəhər küçəsindən, yaxud xəstəxana otaqlarından başqa bir monastır həyəti, itaətdən başqa bir hasarı, Allah qorxusundan başqa bir barmaqlığı, təvazökarlıqdan başqa bir örtüyü yoxdur". Simplisiya bacı bu idealın mücəssəməsi idi. Heç kəs Simplisiya bacının neçə yaşı olduğunu bilməzdi; o heç bir zaman gənc olmamışdı və deyəsən, heç bir zaman qocalmayacaqdı. Biz ona "qadın" deməyə cəsarət etməyərək, "bu şəxs" deyirik, bu şəxs mülayim, ciddi, gözəl tərbiyəli, soyuq təbiətli idi, o, ömründə bir dəfə də olsun yalan danışmamışdı. O qədər həlim görünürdü ki, bu saat sına biləcəyini zənn etmək olardı və eyni zamanda, qranitdən də möhkəm idi. O, əzab çəkən adamlara gözəl, incə və şəffaf barmaqları ilə toxunardı. Danışığı çox sakit və mülayim idi, lazım olduğundan artıq danışmazdı; səsinin ahəngi eyni dərəcədə ibadətxanada günahkarı düz yola gətirə bilər, kübar məclislərində isə qulaq asanları məftun edə bilərdi. Bu zərif məxluq əynindəki kobud yun paltara şükür edər, bu paltarın təmasını duyduqca, göyləri və Allahı yadına salardı. Bir təfsilatı da qeyd edək. Simplisiya bacının təbiətinə məxsus daha bir şey vardı ki, o da ömründə bir dəfə yalan danışmamaq, ehtiyac olsa belə, qeyri-ixtiyari olsa belə, həqiqətə uymayan bir şey danışmamaq idi, bu, onun fəzilətlərinin ən yüksək əlaməti idi. Bu sarsılmaz doğruçuluq ona bütün kilsə icmalarında şöhrət qazandırmışdı. Abbat Sikar lal-kar Masyeyə yazdığı məktubda Simplisiya bacıdan bəhs edir: "Biz nə

qədər səmimi, nə qədər safürəkli olsaq, yenə bizim doğruçuluğumuzda balaca bir çat yeri tapmaq mümkündür, bu da bizim cüzi məsum yalanlarımızdır. Ancaq belə bir nöqsana Simplisiya bacıda rast gəlmək olmaz". Xırda, məsum yalan! Bu cür yalanlar yer üzündə vardırmı? Yalan – şərin mücəssəməsidir. Az yalan danışmaq mümkün deyil; yalançı həmişə yalan danışar. Yalan iblis sifətidir; iblisin iki adı var: biri – Şeytan, o biri isə – Yalan. Simplisiya bacı belə düşünürdü. Düşündüyü kimi də hərəkət edirdi. Onun ağappaq və təmiz olmasına da səbəb bu idi, bu ağlığın parıltısı dodaqlarına, gözlərinə belə sirayət edirdi. O, saf və parlaq bir təbəssümlə gülümsər, saf və parlaq bir nəzərlə baxardı. Vicdanının pəncərəsində bir hörümçək teli, bir toz zərrəsi belə tapmaq olmazdı. Sen-Vensen de Pol icmasına daxil olduğu zaman Simplisiya adını qəbul etmişdi, bu da təsadüfi deyildi. Məlum olduğu kimi, siciliyalı Simplisiya elə müqəddəs bir qadındı ki, döşlərinin kəsilməsinə dözmüş, lakin Sirakus əhlindən olduğu halda, Sejestdə doğulduğunu söyləməyə razı olmamışdı, halbuki bu yalan onu ölümdən xilas edə bilərdi. O Simplisiya bizim müqəddəs qadın üçün gözəl bir şəfaətçi ola bilərdi.

Simplisiya bacının icmaya daxil olduğu zaman, iki zəif cəhəti vardı ki, yavaş-yavaş bundan da xilas oldu: o, şirniyyatı sevər, həm də məktub almaqdan xoşlanardı. O, latınca, iri hərflərlə yazılmış dua kitabından başqa heç bir şey oxumazdı. Latıncanı bilməsə də, dua kitabını başa düşürdü.

Bu mömin qız, Fantinanın təbiətindəki gizli fəzilətləri duyduğundan, ona dərin ünsiyyət bağlamışdı, onun bütün fikri-zikri bu xəstə qadına qulluq etmək idi.

Cənab Madlen Simplisiya bacını kənara çəkərək, Fantinanı ona tapşırdı; onun qəribə bir əda ilə xahiş etməsinə diqqət edən Simplisiya bacı, bu xahişin mənasını sonralar anlamışdı.

Simplisiya bacı ilə danışdıqdan sonra cənab Madlen Fantinanın yanına getdi.

Fantina hər gün istilik və sevinc gətirən Günəş şüasını gözlədiyi kimi, cənab Madlenin yolunu gözləyirdi. Şəfqət bacılarına deyirdi:

– Mən ancaq cənab meri gördüyüm zaman yaşadığımı hiss edirəm.

O gün şiddətli qızdırma içində idi. Cənab Madleni görən kimi ondan soruşdu:

– Bəs Kozetta hanı?

Cənab Madlen gülümsəyərək:

– Tezliklə gələcək, – dedi.

Cənab Madlen Fantina ilə həmişəki kimi söhbət edirdi, lakin bu dəfə onun yanında yarım saat əvəzində bir saat qaldı. Bu da Fantinanı son dərəcə məmnun etmişdi. Cənab Madlen xəstəxana qulluqçularından dəfələrlə xahiş etdi ki, Fantinaya yaxşı baxsınlar və onun heç bir şeyə ehtiyacı olmasın. Bir an onun üzündə dərin bir məyusluq duyuldu. Lakin bir az sonra bu məyusluğun səbəbini anladılar; həkim gedərkən onun qulağına:

– Halı çox pisdir, – demişdi.

Sonra cənab mer şəhər idarəsinə qayıtdı. Xidmətçi, cənab merin öz kabinetində divardan asılmış, Fransanın yollarını göstərən bir xəritəyə böyük bir diqqətlə baxdığını və bir kağız parçasına karandaşla bir neçə şey yazdığını görmüşdü.

İkinci fəsil

SKOFLER DAYININ FƏRASƏTİ

Cənab Madlen şəhər idarəsindən şəhərin o biri başında yaşayan flamandiyalı Skauflerin, yaxud fransızsayağı desək, Skoflerin yanına getdi. Bu adam at və minik arabaları kirayə verməklə məşğul idi.

Yolda cənab Madlen mənsub olduğu məhəllə kilsəsinin yanından keçməli oldu, kilsə boş və kimsəsiz küçələrdən birində idi. Bu məhəllənin keşişi dünyagörmüş, hörmətli bir adamdı, onun məsləhətlərinə həmişə qulaq asardılar. Cənab Madlen kilsənin yanından keçərkən, küçədə ona yalnız bir adam rast gəldi ki, o da belə bir şey söyləmişdi: cənab mer keşişin yaşadığı evin yanından keçib bir neçə addım irəlilədikdən sonra geri qayıtdı və bu evin darvazası qabağında dayandı, darvazanın kiçik qapısından dəmir bir toxmaq asılmışdı. Toxmağı əlinə alıb qapını döymək istəyirdi ki, birdən əl saxlayıb düşünməyə başladı; bir neçə saniyə sonra, böyük bir ehtiyatla toxmağı endirdi və yoluna davam edərək, bu dəfə daha sürətlə və tələsik yeriməyə başladı.

Cənab Madlen Skofleri evində tapdı. Skofler qoşqu şeylərini yamayırdı. Madlen:

– Cənab Skofler, – dedi, – sizdə yaxşı bir at varmı?

– Cənab mer, – deyə flamandiyalı cavab verdi, – mənim atlarımın hamısı yaxşıdır. Siz "yaxşı at" nəyə deyirsiniz?

– Elə bir at ki, gündə iyirmi lyö yol gedə bilsin.

– Necə? İyirmi lyö? – deyə flamandiyalı heyrət etdi.

– Bəli, iyirmi lyö.

– Kabrioletlə?

– Bəli, kabrioletlə.

– Belə bir məsafəni getdikdən sonra o, nə qədər istirahət edəcəkdir?

– Lazım gələrsə, o biri gün yenə geri qayıda bilməlidir.

– Yenə də bu qədər yol getməlidir?

– Bəli.

– Lənət şeytana! Necə dediniz? İyirmi lyö?

Cənab Madlen cibindən bir parça kağız çıxarıb flamandiyalıya göstərdi. Orada beş, altı və səkkiz yarım rəqəmləri yazılmışdı.

– Görürsünüzmü, – dedi, – yol cəmisi on doqquz lyö yarımdır, iyirmi lyö hesab edin.

– Cənab mer, – deyə flamandiyalı dilləndi, – mən sizə ürəyiniz istəyən atı verə bilərəm. Mənim ağ bir atım var, görmüş olarsınız. O, aşağı Bulone atlarındandır. At deyil, od parçasıdır. Əvvəlcə onu minik atı eləmək istəyirdilər. Lakin mümkün olmadı! Sıçrayır, təpik atır, üstünə minənləri yerə yıxırdı. "Heç bir şeyə yaramaz" deyə nə edəcəklərini bilmirdilər. Mən onu satın alıb kabrioletə[1] qoşdum. Bilirsinizmi, elə bil, at elə bunu arzu edirmiş; o, quzu kimi həlim və yel kimi itidir! O, heç kəsi üstünə minməyə qoymur, heç kəsi üzərində gəzdirmək istəmir. Yəhər altında yeriməyi sevmir. Hər atın bir şakəri olar. Arabaya qoşulduqda isə ondan yaxşısı yoxdur. Görünür, bu at, üstünə kimsəni mindirməməyi qərara almışdır.

– Bu uzun yola tab gətirərmi?

– İyirmi lyömü? Bu at iyirmi lyönü səkkiz saatdan da tez gedər, heç vecinə də gəlməz. Ancaq bir şərt var...

– Nə şərt?

– Əvvələn, yolun yarısında bir saat ona dinclik verəsiniz ki, yem yesin, ancaq özünüz göz olarsınız ki, karvansara xidmətçisi arpadan oğurlamasın; çünki karvansaralarda mehtərlər atın arpasından oğurlayıb şəraba verirlər.

[1] *Kabriolet* – təkatlı, üçtəkərli araba

– Yaxşı, bu düzələr.

– İkinci... Kabrioletdə siz özünüzmü gedəcəksiniz?

– Bəli.

– Cənab mer, siz sürmək bilirsinizmi?

– Bəli.

– Çox yaxşı, ancaq, cənab mer, at üçün ağır olmasın deyə, siz tək getməli və özünüzlə yük götürməməlisiniz.

– Razıyam.

– Lakin, cənab mer, siz tək getmiş olsanız, onda gərək atın yeminə zəhmət çəkib özünüz baxasınız.

– Bu barədə artıq danışdıq.

– Atın kirayəsi gündə otuz frankdır. İstirahət günləri üçün də bu qədər verməlisiniz. Bir quruş belə əskik olmaz. Atın yemi də sizin hesabınıza olacaqdır, cənab mer.

Cənab Madlen kisəsindən üç napoleondor çıxarıb masanın üstünə qoydu:

– Alın, iki günün pulunu qabaqcadan verirəm, – dedi.

– Dördüncü, belə uzaq yol üçün kabriolet çox ağır olar və atı yorar. Balaca bir tilburim[1] var, cənab mer razı olarsa...

– Yaxşı, razıyam.

– Bu yüngül şeydir. Ancaq üstü açıqdır.

– Mənim üçün təfavütü yoxdur.

– Cənab mer indi qış olduğunu fikirləşibmi?

Cənab Madlen cavab vermədi.

Flamandiyalı davam edərək:

– Havanın çox soyuq olduğunu unutmayın, – dedi.

Cənab Madlen yenə cavab vermədi.

– Bəlkə, yağış yağdı?

Cənab Madlen başını qaldırıb dedi:

– Sabah səhər saat beşin yarısında at qoşulmuş tilburi qapımın ağzında olmalıdır.

– Baş üstə, cənab mer, – deyə Skofler cavab verdi və baş barmağının dırnağı ilə masanın üzərindəki ləkəni qaşıyaraq, flamandiyalıların öz hiylələrini pərdələyə bildikləri laqeyd bir əda ilə davam etdi:

– Aman, lap yadımdan çıxmışdı, cənab mer, axı siz haraya gedəcəyinizi heç demədiniz. Haraya getmək istəyirsiniz, cənab mer?

[1] *Tilburi* – ikitəkərli, biratlı, üstüaçıq araba

Skofler söhbətin lap əvvəlindən bundan başqa bir şey düşünmürdü, lakin nədənsə bu xüsusda cənab merdən soruşmağa cəsarət etmirdi.

– Atınız büdrəmir ki? – deyə cənab Madlen soruşdu.

– Xeyr, cənab mer. Ancaq siz onu enişlərdə bir az saxlayın. Yolunuzda enişlər çoxdurmu, cənab mer?

– Səhər saat beşin yarısında qapımda hazır olmalısınız, yadınızdan çıxmasın, – deyə cənab Madlen cavab verib otaqdan çıxdı.

Flamandiyalı sonralar bu əhvalatı söylərkən, dediyi kimi, axmaq yerində qaldı.

Cənab mer çıxdıqdan iki-üç dəqiqə sonra qapı yenə açıldı; cənab mer qayıdaraq eyni soyuq və dalğın bir tövrlə soruşdu:

– Cənab Skofler, atınıza və arabanıza nə qədər qiymət qoyursunuz?

– Cənab mer, olmaya, bunları məndən satın almaq istəyirsiniz?

– Xeyr, lakin mən hər təsadüfə qarşı sizi təmin etmək istəyirəm. Qayıdandan sonra bu pulları mənə qaytararsınız. Atın və tilburinin qiyməti nə qədərdir?

– Beş yüz frank, cənab mer.

– Buyurun.

Cənab Madlen masanın üstünə beş yüz frank pul qoyub çıxdı və daha heç qayıtmadı.

Skofler min frank tələb etmədiyinə təəssüf etdi. Ancaq atla tilburinin qiyməti yüz eküdən artıq deyildi.

Flamandiyalı arvadını çağırıb əhvalatı ona danışdı. Görəsən, cənab mer haraya getməyə hazırlaşır? – deyə məsələni düşünməyə başladılar.

Arvadı:

– Parisə gedir, – dedi.

– Ağlım kəsmir, – deyə əri cavab verdi.

Cənab Madlen rəqəmlər yazılmış kağız parçasını buxarının üstündə unutmuşdu. Flamandiyalı kağızı götürüb diqqətlə gözdən keçirdi:

– Beş, altı, səkkiz yarım! Bu, yəqin, poçt mənzillərinin arasındakı məsafədir.

Sonra arvadına tərəf dönərək:

– Tapdım, – deyə səsləndi.

– Necə?

– Sadə bir şey. Buradan Esdenə beş mildir, Esdendən Sen-Pola altı mildir, Sen-Poldan da Arrasa səkkiz yarım mildir. O, Arrasa gedir.

Cənab Madlen evinə qayıtdı.

Geriyə dönərkən keşişin qapısı yanından keçməsin deyə, uzun və dolaşıq bir yolla getdi. Otağına girib qapını bağladı; bu da onun adəti idi, çünki o, tez yatmağı sevirdi. Fabrik qapıçısı və eyni zamanda cənab Madlenin yeganə xidmətçisi olan qadın otaqdakı işığın doqquzun yarısında söndüyünü görmüş və bunu xəzinədara söyləməklə bərabər:

– Cənab mer xəstələnmişdir-nədir? Bu gün görünüşü çox qəribədir, – demişdi.

Xəzinədarın otağı cənab Madlenin yataq otağının altında idi. Xəzinədar qapıçının sözlərinə əhəmiyyət verməyərək, uzanıb yatdı. Gecənin bir aləmində o birdən oyandı, yarımyuxulu bir halda başı üzərində bir gurultu eşitdi. Qulaq asdı. Üst otaqda kim isə ağır addımlarla oyan-buyana gəzişirdi; cənab Madlenin addımlarının səsini tanıdı. Bu, ona çox qəribə göründü; adətən, yataqdan qalxana qədər cənab merin otağında səs-səmir olmurdu. Bir az sonra xəzinədar şkaf qapısının açılmasına və yenə örtülməsinə oxşar bir səs eşitdi. Sonra bir şeyin yerindən tərpəndiyi eşidildi; bir az sükutdan sonra yenə addım səsləri gəldi. Xəzinədar çarpayıda dirsəklənərək yuxudan büsbütün oyandı və pəncərədən küçəyə baxıb, qarşı divarda işıqlı pəncərənin qırmızımtıl əksini gördü. İşığın istiqamətinə diqqət edərək, cənab Madlenin pəncərəsi olduğunu anladı. İşıq titrəyirdi, bundan da işığın yanan bir çıraqdan deyil, qalanmış bir buxarıdan düşdüyünü anladı. Pəncərə çərçivəsinin əksi divara düşməmişdi, bu da pəncərənin büsbütün açıq olduğunu göstərirdi. Belə bir soyuqda pəncərənin açıq olması adama qəribə görünürdü. Bir az sonra xəzinədar yenidən yatdı, lakin bir-iki saatdan sonra yenə oyandı. Başının üzərində yenə sakit və ağır addım səsləri eşidilirdi.

İşığın əksi yenə də qarşı divarda görünürdü, lakin bu işıq indi sönük və sakitdi; otaqda şam və ya çıraq yandığı anlaşılırdı. Pəncərə qabaqkı kimi yenə açıq idi.

Cənab Madlenin otağında baş verən hadisə bundan ibarətdir.

Üçüncü fəsil

İNSAN QƏLBİNDƏ FIRTINA

Oxucu, əlbəttə, cənab Madlenin həmin Jan Valjan olduğunu artıq duymuşdur.

Biz artıq bu vicdanın gizli dəfinələrini bir dəfə nəzərdən keçirmişik. Onu bir dəfə də yoxlamaq məqamı çatmışdır. Biz bu işə qədəm qoyarkən, qəlbimizdə həyəcan və qorxu olduğunu duyuruq. Yer üzündə vicdan dərinliklərinə tamaşa etməkdən dəhşətli bir şey ola bilməz. Mənəviyyatın gözləri heç bir zaman insanın qəlbindəki parlaq bir nur və dərin bir qaranlığa təsadüf edə bilməz. Bu gözlər nəyə baxırsa baxsın, insan qəlbi qədər dəhşətli, mürəkkəb, əsrarlı və hüdudsuz bir aləm görə bilməz. Dənizdən daha əzəmətli bir mənzərə vardır ki, o da göydür. Göydən daha əzəmətli bir mənzərə vardır ki, o da insan qəlbinin sirli dərinlikləridir.

İnsan vicdanının dastanını yaratmaq, bir nəfərin, ən vecsiz bir fərdin belə vicdanının dastanını yaratmaq – bütün epopeyaları ülvi və mükəmməl bir qəhrəmanlıq dastanında birləşdirmək deməkdir. Vicdan – xam xəyallar, ehtiraslar, arzular xaosu deməkdir, vicdan – xəyallar və həsrətlər dəfinəsi, özümüzün belə həya etdiyimiz fikirlərin mağarası deməkdir, sofizmlər pandemoniyası, ehtirasların döyüş meydanı deməkdir. Fikrə dalmış solğun bənizli bir insanın qəlbindən nələr keçdiyini duymağa, qəlbin dərinliklərinə, qaranlığa nəzər salmağa çalışın. Zahirən sakit görünən bu insan qəlbində Homerin nəhəngləri vuruşur, divlər əjdahalarla cəng edir. Miltonun kabusları kimi dəhşətli kabuslar meydan oxuyur. Dantenin əsərində olduğu kimi fantasmaqoriya dairələri cızılır. İnsan qəlbində yaşayan ucsuz-bucaqsız aləm, öz həsrət, meyil və hərəkətlərini ümidsiz bir halda ölçüb-biçdiyi aləm nə qədər dərin, nə qədər qaranlıqdır!

Bir dəfə Aligeri yol gedərkən məşum bir qapıya rast gəlir, lakin bu qapını açmağa cəsarət etmir. Bizim də qarşımızda belə bir qapı var, biz onun astanasında tərəddüd içində dayanmışıq. Bununla belə, qapıdan içəri girək!

Jan Valjanın taleyi haqqında oxucunun bildiyi şeylərə biz ancaq çox az bir şey əlavə edə bilərik; biz balaca Jerve ilə olan sərgüzəştdən

sonra Jan Valjanın başına nələr gəldiyini söylədik. Bu hadisədən sonra onun tamamilə dəyişib başqa bir adam olduğunu gördük. O, yepiskopun istədiyi kimi bir adam olmuşdu. Biz buna, Jan Valjan dəyişdi yox, tamamilə başqa bir adam oldu, deyə bilərik.

Jan Valjan yalnız şamdanları yadigar saxlayaraq, yepiskopun gümüşlərini satmışdı; gizlicə şəhərdən-şəhərə keçərək, bütün Fransanı dolaşmış, nəhayət, Monreyl-sür-Merə gəlib çıxmışdı. Burada ağlına yuxarıda söylədiyimiz xoşbəxt bir fikir gəlmişdi, söylədiyimiz işləri görmüş, tanınmaq və tutulmaq təhlükəsindən yaxasını qurtarmışdı. Monreyldə bugünkü həyatı ilə öz keçmişini məhv etdiyini, vicdanının təmizlənməyə başladığını və həyatının yaxşılaşdığını göründə, özünü xoşbəxt hiss edirdi. O, ümidlə dolu sakit və dinc bir həyat sürməyə başladı; qəlbində ancaq iki arzu vardı: kim olduğunu gizlətmək və pak bir həyat sürmək; insanlardan qaçmaq, Allahın dərgahına qayıtmaq!

Bu iki arzu: onun şüurunda birləşərək bir arzuya, bir meylə çevrilmişdi; hər ikisi Jan Valjanın varlığına hökm edir, onun hər bir hərəkətini təyin edirdi. Onlar, adətən, onun hərəkətlərini birgə idarə edirdi: hər ikisi onu kənarda gəzməyə sövq edir, ona xeyirxah və sadə olmağı öyrədir, hər ikisi eyni nəsihətləri verirdi. Lakin bəzən bunların arasında ziddiyyət əmələ gəlirdi. Biz bu kimi hallarda bütün dairədə cənab Madlen adı ilə tanınan adamın hörmət və yaxşılıq yolunda öz həyatını belə təhlükəyə verməkdən çəkinmədiyini gördük. Məsələn, heç bir tədbir və ehtiyatı gözləmədən, o, yenə də yepiskopun şamdanlarını saxlayır, onun üçün matəm tuturdu. Monreylə gələn bütün balaca savoyalı uşaqları yanına çağırır və onlardan Faverolda yaşayan ailələri xəbər alırdı. Hətta Javerin hədələyici kinayələrinə baxmayaraq, Foşlevan babanı ölümdən qurtarmışdı. Həkim, övliya və mömin insanlara timsal olaraq, bu fikirdə idi ki (biz bu barədə artıq danışmışıq), insan, hər şeydən əvvəl, başqalarının, sonra isə özünün qeydinə qalmalıdır.

Əlbəttə, qeyd etmək lazımdır ki, bu müddət ərzində onun başına heç vaxt bu hadisəyə bənzər bir iş gəlməmişdi. Bədbəxt adamı idarə edən fikirlər heç bir zaman bu qədər kəskin və ağır bir mübarizə ilə toqquşmamışdı. O, Javerin kabinetə girdiyi zaman söylədiyi ilk sözlərindən üzərinə çökməkdə olan təhlükəni duymuşdu. Əvvəlcə bunu dumanlı bir şəkildə, sonra isə dərindən dərk etmişdi. Dərin

bir zülmət içində dəfn etmiş olduğu bir adı eşitdiyi zaman böyük bir təhlükə hiss etmiş və eyni zamanda taleyin böyük bir zərbəsini xəbər verən daxili bir titrətmə keçirmişdi, bu titrətmə isə şiddətli sarsıntılardan xəbər verirdi. Şiddətli borandan əyilən bir palıd ağacı kimi, düşmən qarşısında sarsılan bir əsgər kimi başını əymişdi. Özü ilə göy gurultusu və şimşəklər gətirən buludların başının üstünü aldığını hiss edirdi. Javerin sözlərini dinlərkən, o, yüyürmək, özünü tanıtmaq, Şanmatyeni həbsdən qurtarmaq, onun yerini tutmaq istəmişdi; bu duyğu o qədər əzabverici və kəskin idi ki, elə bil, bədəninə bıçaq soxmuşdular; sonra bu duyğu yox oldu, "görək nə olar" düşündü. O, ilk alicənablıq hissini rədd edərək, fədakarlıq qarşısında geriyə çəkildi.

Əlbəttə, yepiskopun müqəddəs nəsihətlərindən, illər boyu keçirdiyi peşmançılıq və fədakarlıqdan sonra, günahlarını bu qədər gözəl bir şəkildə yumağa başladığı bir zamanda, bu adamın ən dəhşətli hadisələr qarşısında belə, dərinliklərində göylərin parladığı açıq bir uçuruma doğru zərrə qədər tərəddüd etmədən möhkəm addımlarla getməkdə davam etməsi daha gözəl olardı; əlbəttə, bu, gözəl olardı, lakin belə olmadı. Biz onun qəlbində qaynayan hər bir şeyi diqqətlə nəzərdən keçirməliyik, biz yalnız həqiqətən üz verən hallardan bəhs etməliyik. Birinci dəqiqələrdə, təbii, özünüqoruma hissi bütün başqa hisslərə qalib gəldi, cənab Madlen fikirlərini bir yerə topladı, öz həyəcanını boğdu. Javerin yaxında olduğunu və bununla əlaqədar olan təhlükəni dərk etdi; o, ümidsizlik qətiyyəti ilə, məsələnin həllini təxirə salaraq, görüləcək işdən diqqətini uzaqlaşdırmağa çalışdı, pəhləvanlar yerə düşən qalxanı əyilib sakitcə qaldırdıqları kimi sakit olmağı lazım bildi.

Bütün günü axşama qədər belə bir hal keçirdi; daxilində böyük bir fırtına, zahirində isə laqeydlik vardı. O, yalnız "ilk tədbirləri" görmüşdü. Başında dağınıq fikirlərin qızğın mübarizəsi gedirdi; beyni qəflətən, böyük bir zərbə ilə o qədər dumanlanmışdı ki, özü üçün heç bir müəyyən fikir əldə edə bilmirdi; yalnız onu deyə bilərdi ki, üzərinə amansız bir zərbə endirilmişdir. Hər şeydən əvvəl, adəti üzrə, yenə də Fantinanı görmək üçün xəstəxanaya getdi; təbii bir mərhəmət duyğusu ilə Fantinanın yanında xeyli dayandı, rahiblərdən və Fantinanın ətrafındakı bütün qadınlardan ona yaxşı baxmağı, şəhərdən başqa bir yerə gedəcək olarsa, Fantina üçün heç bir şey

əsirgəməməklərini xahiş etməyi lazım bildi. O, bəlkə də, Arrasa getməli olduğunu dumanlı şəkildə hiss edirdi, lakin hələ oraya getmək haqqında qəti bir qərara gəlməmişdi; öz-özünə dedi ki, heç kəsdə bir şübhə oyatmadığından, məsələnin nə ilə bitəcəyini öyrənmək üçün oraya gedib, şəxsən məhkəmədə iştirak etməsi pis olmaz; bu səbəbə görə də Skoflerin yanına gedib, hər ehtimala qarşı, tilburini hazırlamasını tapşırmışdı.

Böyük bir iştahla yemək yedi.

Özünə gələrək işin nə yerdə olduğunu düşünməyə başladı və vəziyyətinin olduqca dəhşətli olduğunu anladı, o qədər dəhşətli ki, dalğınlığının ən böhranlı dəqiqəsində, anlaşılmaz bir qorxu hissi ilə birdən-birə ayağa durub qapını cəftələdi. O, otağa bir başqasının girə biləcəyindən qorxurdu. O, baş verə biləcək hər bir hadisədən özünü qorumağa çalışırdı.

Bir dəqiqə də keçdikdən sonra şamı söndürdü. İşıq onu darıxdırırdı.

Ona elə gəlirdi ki, birdən onu görən olar.

Bu "görən" kim ola bilərdi?

Heyhat! Onun otaqdan qovmaq istədiyi qüvvə artıq otağın içində idi, qaranlıqda gözlərini kor etmək istədiyi qüvvə onun üzünə baxırdı. Bu, onun vicdanı idi.

Onun vicdanı; başqa sözlə desək – Allah.

Lakin o, ilk dəqiqədə özünü aldatmağa müvəffəq oldu; onu təhlükəsizlik, tənhalıq hissi bürüdü; qapını bağladıqdan sonra özünü əlçatmaz hesab etdi, şamı söndürərək özünü görünməz hesab etdi. O zaman özünü ələ aldı, oturdu və masanın üstünə dirsəklənərək, əlləri ilə üzünü örtdü, qaranlıqda fikirləşməyə başladı.

"Bu nə hadisədir? Gördüyüm yuxudurmu? Mənə nə dedilər? Mən Javeri doğrudanmı gördüm? O, mənimlə nə barədə danışdı? Bu Şanmatye kimdir? Deyirlər ki, mənə oxşayır. Bu mümkün ola bilərmi? Dünən mən o qədər sakit idim ki, heç bir şeydən şübhə etmirdim, belə bir şey heç təsəvvürümə də gəlməzdi. Dünən bu vaxt mən nə edirdim? Bu hadisənin mənə nə kimi zərəri ola bilər? Bu işlərin axırı nə olacaq? Mən nə edim?"

O, böyük bir əzab içində idi, qəlbində fırtına vardı. Beyni fikirlərin hücumuna tab gətirə bilmirdi, fikirlər dəniz dalğası kimi ondan uzaqlaşırdı, bunları tutub saxlamaq üçün əlləri ilə alnını sıxırdı.

İçərisində bir ümid yeri və qəti qərar axtardı, lakin iradə və idrakını sarsıdan bu fırtına, onda yalnız əzabverici bir tələş doğururdu.

Başı od kimi yanırdı. Pəncərəyə yaxınlaşaraq onu tamamilə açdı. Göydə bir ulduz belə yoxdu. Masanın yanına gəlib əvvəlki yerində oturdu. Bir saat belə keçdi.

Dağınıq, qaranlıq fikirlər onun şüurunda yavaş-yavaş müəyyən və sabit bir şəkil almağa başlayırdı; artıq o, məsələnin nə yerdə olduğunu aydın anlaya bilirdi. Gözləri qarşısında açılan bütün səhnəni əhatə edə bilməsə də, bəzi təfsilatı təsəvvürünə gətirirdi.

O, hər şeydən əvvəl, bir hadisəni aydınlaşdırdı: vəziyyətinin son dərəcə böhranlı olduğuna baxmayaraq, o yenə də bu vəziyyətə hakim idi və büsbütün sərbəst hərəkət edə bilərdi.

Lakin bundan onun şaşqınlığı daha da şiddətləndi. Onun hərəkətlərini təyin edən ciddi və müqəddəs məqsəddən asılı olmayaraq, indiyə qədər gördüyü iş ancaq öz adını dəfn etmək üçün qazdığı quyudan başqa bir şey deyildi. Dalğınlığının ən qızğın dəqiqələrində, yuxusuz gecələrdə onun dünyada ən çox qorxduğu bir şey vardısa, öz adını eşitmək idi, adını eşitdiyi gün artıq hər bir şeyə son veriləcəkdi, yeni həyatı, bəlkə də, yeni qəlbi büsbütün bərbad olacaqdı. Belə bir şeyin mümkün olduğunu xəyalına gətirdiyi zaman diksinirdi. Əlbəttə, həyatının belə dəqiqələrində birisi ona desəydi ki, bir zaman sənin adını ucadan söyləyəcəklər, bu iyrənc və dəhşətli "Jan Valjan" sözləri birdən-birə qaranlıqdan doğaraq, onun qarşısında canlanacaq, ətrafındakı sirri açmaq üçün doğan bu qorxunc işıq birdən-birə onun başı üzərində parlayaraq bu qaranlığı daha da artıracaq, Jan Valjan adı ona daha dəhşətli görünməyəcək, yırtılmış pərdə ancaq sirrin artmasına səbəb olacaq: bu zəlzələ onun qurduğu binanın bünövrəsini daha da möhkəmləndirəcək, əgər arzu edərsə, bu dəhşətli hadisədən sonra, sürdüyü həyat daha da işıqlı olacaq və heç bir qüvvə onu sarsıda bilməyəcək. Jan Valjanın kabusu ilə müqayisə edildikdən sonra xeyirxah və hörmətli vətəndaş olan "cənab Madlen" daha da hörmət qazanacaq, əvvəlkindən də sakit bir həyat sürəcək – əgər bu sözləri birisi ona desəydi, başını yırğalar və bu sözləri mənasız hesab edərdi. Halbuki bunların hamısı artıq bir həqiqət idi. Bu bir yığın qeyri-mümkün şeylər artıq real bir hadisəyə çevrilmişdi, Tanrı da bu sayıqlamaların bir həqiqətə çevrilməsini rəva görmüşdü.

Onun fikirləri artıq aydınlaşırdı. Öz vəziyyətini getdikcə daha aydın dərk etməyə başlayırdı.

Dəhşətli bir yuxudan oyandığını, indi qaranlıq içində, uçurum kənarındakı bir enişlə aşağıya doğru yuvarlandığını, titrədiyini və uçurumdan özünü qoruya bilmədiyini hiss edirdi. Gözləri qarşısında qaranlıqda yad, tanımadığı bir adam görürdü; fələk onu Jan Valjan zənn edərək uçuruma doğru yuvarladırdı. Bu uçurumun ağzını yenə qapamaq üçün buraya istər-istəməz birisi yuvarlanmalı idi – ya o, ya da bu.

Onun isə fələyin işlərinə qarışmamaqdan başqa bir çarəsi qalmırdı.

İndi onun şüurunda artıq hər bir şey aydınlaşmışdı. O, katorqada yeri boş olduğunu, heç bir şeydən asılı olmayaraq təkcə balaca Jerveni qarət etməsi ucundan oraya getməli olduğunu, bu yerin daim onu gözlədiyini etiraf etməyə məcbur oldu, bu boş yer onun intizarında idi, onu özünə cəlb edirdi, bu yeri nə zaman tutacağını gözləyirdi, bu, zəruri və labüd bir şeydi. Öz-özünə dedi: "Bu saat məni əvəz edəcək bir adam var ki, o da Şanmatyedir. Fələyin ağır zərbəsi bu adama düşmüşdür. Mən isə Şanmatye adı ilə katorqa cəzası çəkərək, hər kəsin hörmətini qazanmış cənab Madlen adı ilə yaşayacağam, artıq heç bir qorxum olmayacaqdır. Bunun üçün yalnız heç bir şeyə mane olmamalıdır ki, qanun Şanmatyenin başı üzərinə məzar daşını endirsin, bu daş da bir dəfə insanı yerə gömdükdən sonra artıq heç bir zaman yerindən qalxmaz".

Bütün bunlar o qədər əzabverici və qəribə idi ki, onun qəlbində insanların ömrü boyu yalnız iki-üç dəfə duya biləcəkləri vicdan əzabı deyilən daxili bir həyəcan əmələ gəlmişdi; qəlbinin dərinliklərində, istehza, sevinc və ümidsizlikdən doğan bir şey vardı ki, bunu da daxili qəhqəhə adlandırmaq olardı.

O, birdən-birə şamı yenə yandırdı.

– Yaxşı, nə olacaq? Mən nədən qorxuram? Niyə bu barədə fikirləşirəm? Mən artıq xilas oldum. Hər şey qurtardı. Yarıaçıq bir qapı vardı ki, oradan mənim keçmişim içəri soxula bilərdi, indi o da əbədi olaraq qapandı! Məni uzun müddət narahat edən, ov tulası kimi məni izləyən, məni tanıyan – bəli, yəqin, tanımışdır, buna and içə bilərəm! – bu qorxunc Javer də artıq çaşmış, izimi itirmiş və başqa ov dalınca düşmüşdür. O artıq təmin olunmuşdur, məni

daha rahat qoyacaqdır! Öz Jan Valjanını artıq əlinə keçirmişdir! Kim bilir, bəlkə, başqa şəhərə köçmək fikrindədir! Həm də bütün bu işlərin mənə heç dəxli yoxdur! Mənim nə işim var! Bir də burada bir pis iş yoxdur! Sözün düzü, indi məni bu halda görənlər deyə bilərlər ki, başıma böyük bir müsibət gəlmişdir! Birisinin başına müsibət gəlmişsə: hər halda, bunun səbəbi mən deyiləm. Bu, qəzavü-qədərin hökmüdür, görünür ki, qədər belə imiş. Mənim bu işə qarışmağa nə haqqım var? Mən indi nə üçün əlləşirəm? Kimin işinə qarışmaq istəyirəm? Axı bunun mənə nə dəxli var? Necə? Mən hələ razı deyiləm? Mənə bundan artıq nə lazımdır? Uzun illərdən bəri həsrətini çəkdiyim, yuxusuz gecələrdə Allahdan dilədiyim məqsədə – təhlükəsizliyə nail oldum! Görünür, Allah özü də belə məsləhət görüb. Mən Allahın əmrinə zidd gedə bilmərəm. Lakin Allahın əmri nə üçün belədir? Çünki mən başladığım işi davam etdirməliyəm, insanlara yaxşılıq göstərməliyəm, gələcəkdə başqalarına ali bir nümunə olmalıyam, nəhayət, mənim boynuma düşən mənəvi cəza və yenidən qazanmış olduğum fəzilətlər sayəsində, heç olmasa, bir az xoşbəxt olmalıyam! Doğrusu, mən nə üçün bu xeyirxah keşişin yanına gedib, hər şeyi ona etiraf etməkdən, onunla məsləhətləşməkdən qorxduğumu başa düşmürəm. Şübhə yox ki, o da eyni şeyləri mənə söylərdi. Artıq qərar verildi. Qoy hər şey öz yolu ilə getsin! Allahın əmri belədir.

O, "qəlbin uçurumu" adlandırıla bilən bir sıldırım üzərində əyilərək, öz vicdanının gizli aləmi ilə söhbət edirdi. Ayağa durub otaqda gəzişməyə başladı. "Bilirsənmi, nə var, – dedi, – bu barədə fikirləşmək yetər. Artıq qərar verildi!" Lakin bu sözləri söylərkən, zərrə qədər sevinmədi. Əksinə.

Dəniz dalğalarına sahilə qayıtmağı qadağan etmək mümkün olmadığı kimi, fikirlərin də müəyyən bir məsələyə qayıtmasına mane olmaq mümkün deyildir. Dənizçilər buna mədd deyirlər. Canilər isə – vicdan əzabı. Allah insan qəlbini bir okean kimi coşdurur.

Bir neçə saniyə sonra o, yenə öz iradəsindən asılı olmayaraq, bu kədərli mükaliməyə başladı: burada danışan da özü idi, dinləyən də; o sükut ilə keçmək istədiyi şeyləri danışmağa, dinləmək istəmədiyi şeylərə qulaq asmağa məcbur idi; iki min il bundan əvvəl ölümə məhkum olan bir insana "get!" deyən gizli bir qüvvə, ona indi "düşün!" deyə əmr edirdi.

Söylədiklərim də yaxşı anlaşılsın deyə, hekayətimizə davam etmədən əvvəl, lazımi bir qeyd üçün dayanmağa məcburuq.

İnsanların öz-özü ilə söhbət etdiyi hallar olur, hər bir düşünən məxluq bunu təcrübədən keçirmişdir. Hətta, bəlkə də, söz yalnız insanın daxilində yaşadığı zaman fikirdən vicdana və vicdandan fikrə keçərək, ən gözəl bir sirr dərəcəsinə yüksəlir. Bu fəsildə təsadüf edilən "dedi", "səsləndi" ifadələrini də ancaq bu mənada anlamaq lazım gəlir. Biz zahiri sükutu pozmadan öz "mənliyimizin" daxilində danışır, səslənir, söhbət edirik. Daxilimizdə hər şey təlaş içindədir, dodaqlardan başqa hər şey dilə gəlir. Həqiqi ruhi ehtizazlar gözə görünməsə də, duyula bilməsə də yenə həqiqidir.

Bu surətdə, o, nə nəticəyə gəldiyini özündən soruşdu. Özünə belə bir sual verdi: "Qəbul edilən qərar" nədən ibarət imiş? Ağlının yol verdiyi hiylələrin dəhşətli olduğunu, "qoy hər şey öz yolu ilə getsin, Allahın əmri belədir" sözlərinin nə qədər iyrənc olduğunu etiraf etməyə məcbur oldu. Taleyin və insanların buraxdığı səhvə yol vermək, buna mane olmamaq, onda sükutla iştirak etmək – xülasə, heç nə etməmək – hər şey etmək demək idi, bu, yaramaz bir ikiüzlülüyün son pilləsi idi. Bu ancaq rəzil, mənfur, xəyanətkar və murdar bir cinayət idi!

O, səkkiz il yaşadığı bir yeni həyatda ilk dəfə olaraq pis bir niyyətin və pis bir əməlin acı tamını dadırdı. Dərin bir nifrətlə tüpürdü.

Sonra yenə özünü sorğu-suala başladı. Amansız bir hakim ciddiyyəti ilə "məqsədimə nail oldum!" sözləri ilə nə demək istədiyini özündən soruşdu. Həyatda, həqiqətən, bir məqsədi olduğunu özünə etiraf etdi. Lakin hansı məqsəd? Adını gizlətməkmi? Polisi aldatmaqmı? Bütün bu gördüyü işlər yalnız belə bir xırda məqsəd üçün idimi? Onun başqa həqiqi, ülvi bir məqsədi yox idimi? Öz həyatını deyil, ruhunu qurtarmaq, yenə namuslu və təmiz bir adam olmaq, pak adam olmaq! O, bunu arzu edirdimi? Məqsədi bu deyildimi? Yepiskop ona məhz bunu əmr etmişdi. Keçmişinə açılan qapını bağlamaqmı? Aman Allah, qapını bu cür bağlamaq olarmı? Əksinə, bu hərəkətləri ilə o qapını yenə taybatay açar! O, yenə oğru, həm də ən iyrənc bir oğru olar! O, bir başqasının güzəranını, günəş altındakı yerini, həyatını, sakitliyini oğurlar! O, bir qatil olaraq zavallı bir insanı katorqa deyilən ən qorxunc ölümə, diri-diri ölməyə məhkum edər! Əksinə olaraq, polisə təslim olmaq, bu qədər qorxunc bir səhvin

qurbanı olan bir insanı təhlükədən qurtarmaq, öz borcunu yerinə yetirərək, yenə Jan Valjan, yenə katorqalı olmaq – ən həqiqi qurtuluş bu deməkdir, çıxmış olduğu cəhənnəmin qapılarını yalnız bu yolla həmişəlik bağlaya bilərdi. Cismən oraya düşdüyü halda, oradan ruhən qurtulardı. Bəli, o mütləq belə etməlidir. Əgər o bunu etməzsə, etdiyi bütün yaxşılıqlar heç olub gedəcəkdir! Onun bütün həyatı, bütün tövbələri, hər şeyi məhv olacaqdır! Yalnız: "Bütün bunları sən nə üçün etdin?" – demək qalırdı. O, yepiskopu öz yanında hiss edirdi. Bu adamın ölü olması burada diri olmasından daha da təsirli idi. O, diqqətlə cənab Madlenə baxırdı. İndən belə cənab mer qazandığı bütün hörmətlə bərabər, onun nəzərində iyrənc bir adam olacaq, katorqalı Jan Valjan isə öz pak fəzilətləri ilə yüksələcək. Adamlar onun yalnız zahirini görmüşlər, yepiskop isə onun əsl simasını görürdü. Adamlar onun həyatını görmüşdü, yepiskop isə onun vicdanını görürdü. Demək, dayanmadan Arrasa getmək, yalançı Jan Valjanı qurtarmaq və həqiqi Jan Valjanı məhkəməyə təslim etmək lazımdır! Heyhat! Bu ən böyük bir fədakarlıq, ən acı bir qələbə, son və qəti bir addımdır! Lakin bu addımı da atmaq lazım gəlirdi! Nə qədər acı bir tale! İnsanların nəzərində özünü ləkələrsə də, Allah yanında üzü ağ olar!

– Yaxşı, nə olar, – dedi, – qərar verməliyəm! Mən öz vəzifəmi yerinə yetirməliyəm! Bu adamı qurtarmaq lazımdır!

Bu sözləri, öz-özü ilə danışdığını belə duymadan ucadan söylədi.

Hesabat dəftərini götürüb nəzərdən keçirdi, kağızlarını nizama saldı; maddi vəziyyətləri yaxşı olmayan bəzi adamların pul qəbzlərini cırıb odun içinə atdı. Sonra bir məktub yazaraq konvertə qoydu və üzərində bu ünvanı yazdı: "Paris Artua küçəsində olan bankir cənab Lafitə".

Qutudan portmanatını çıxardı, içində bir neçə ədəd kağız pul və pasport vardı ki, bununla elə bu il seçki dairəsinə getmişdi.

Dərin fikirlərə dalmış cənab Madlenin bu işlərlə məşğul olduğunu görənlər onun ürəyində nələr olduğunu qətiyyən başa düşə bilməzdilər. Arabir yalnız dodaqları tərpənir, bəzən də başını qaldırıb gözlərini divarın bir nöqtəsinə zilləyirdi, sanki, orada bir şey vardı ki, onun suallarına cavab verməli, çətin məsələləri həll etməli idi.

Lafitə yazdığı məktubu qurtardıqdan sonra Madlen onu pul kisəsi ilə birlikdə cibinə qoyub, yenə otaqda gəzişməyə başladı.

Fikirləri əvvəlki istiqamətdən ayrılmırdı. O, yenə də parıldayan hərflərlə yazılmış vəzifəsini öz qarşısında aydınca görür; haraya baxırdısa, yalnız bu sözlərə rast gəlirdi: "*Get! Kim olduğunu söylə! Özünü ifşa et*!"

Qarşısında, sanki, əllə toxunula biləcək bir şəklə düşmüş, canlanmış və indiyə qədər həyatının iki qaydasını təşkil edən iki ideya canlanırdı: kim olduğunu gizlətmək, müqəddəs bir adam olmaq. O, bu iki ideyanı ilk dəfə ayrı-ayrılıqda gördü, bunları bir-birindən ayıran cəhətləri anladı. Bu ideyaların biri, şübhəsiz, xeyir işlərlə bağlı olduğu halda, o biri ancaq şər ola bilərdi; biri fədakarlıq, o biri isə xudbinlik demək idi. Biri "*qardaşım*" dediyi halda, o biri "*mən*" deyirdi; birinin mənbəyi nur, o birininki isə zülmət idi.

Nurla zülmət bir-birilə güləşirdi, o isə bu mübarizəni seyr edirdi. Dərin fikirlərə daldıqca, bu iki ideya onun mənəvi nəzərləri qarşısında böyüyür və nəhəngə çevrilirdi. Ona elə gəlirdi ki, şüurunun dərinliklərində, bir az əvvəl bəhs etdiyimiz ucsuz-bucaqsız üfüqlərdə, qaranlıqlara qarışan şəfəqlər arasında ilahi bir qüvvə bir divlə vuruşur.

O, büsbütün dəhşət içində idi, bununla belə, xeyrin şərə qalib gəlməyə başladığını görürdü.

O, vicdan və taleyinin yenə də qəti bir dəqiqə keçirdiyini hiss edirdi. Yepiskop onun yeni həyatının ilk dövrünü təyin etdiyi halda, Şanmatye ikinci dövrünü yaradırdı. Böyük bir dönüşdən sonra böyük bir imtahan!

Bu ara bir anlıq sakitləşmiş qızdırmalı həyəcan yenə coşmağa başladı. Beynindən minlərcə fikirlər keçirdi, lakin bu fikirlər qəbul edilmiş qərarı daha da möhkəmləndirirdi.

Bir an o, öz-özünə dedi ki, nahaq yerə bu həyəcanları keçirir, Şanmatye vecsiz bir adamdır, hər halda, oğurluq etmişdir.

Sonra öz-özünə cavab verdi: "Əgər bu adam, doğrudan da, bir neçə alma oğurlamışsa, bunun üçün ancaq iki ay həbs cəzası verə bilərlər. Bu, hər halda, katorqa demək deyildir. Bir də onun alma oğurladığı da şübhəlidir. Bu sübut edilmişdirmi? Jan Valjan adı onun işini korlayır, ona görə də sübuta ehtiyac görülmür. Kral prokurorlarının adəti belədir. Katorqalı – oğru deməkdir".

Bir an sonra onun ağlına başqa bir fikir gəldi: bəlkə, o, özünü təslim edirsə, yeddi il ərzində göstərdiyi fədakarlığı, sürdüyü müqəddəs həyatı, bu ölkə üçün etdiyi bütün yaxşılıqları nəzərə alaraq, onun

günahından keçərlər. Lakin bu fərziyyə tez yox olub getdi. O, balaca Jervenin qırx su pulunu oğurladığı üçün oğru olduğunu və istər-istəməz bu işin yenə ortalığa çıxacağını, qanuna əsasən yenə ömürlük katorqa cəzasına göndəriləcəyini düşünərək acı-acı gülümsədi.

Bütün bu xəyalları özündən uzaqlaşdırdı, dünyanın nemətlərindən göz çəkərək, başqa bir şeydə təsəlli və qüvvət axtarmağa başladı. O, öz-özünə dedi ki, vəzifəsini yerinə yetirməlidir, ola bilsin ki, onu yerinə yetirdikdən sonra nisbətən az bədbəxt olar "hər şeyin öz qaydası ilə getməsinə" yol verərsə, Monreyl-sür-Mer şəhərində qalarsa, qazandığı hörmət, şərəf, şöhrət, etdiyi yaxşılıqlar, ona qarşı bəslənən pərəstişkarlıq, qazandığı sərvət, fəzilət, xülasə, hər şey cinayətin acısı ilə zəhərlənmiş olacaqdır! Bu cür rəzil işlə nəticələnən bütün yaxşı əməlləri puç olub gedəcəkdir! Özünü qurban verərək fədakarlıq göstərdikdə isə hər şey – katorqa da, rüsvayçılıq da, dəmir xalta da, yaşıl qalpaq da, məşəqqətli zəhmət də, amansız təhqirlər də, – hər bir şey ilahi bir səfa və şəfa ilə aşılanmış olacaqdır!

Nəhayət, öz-özünə dedi ki, o ancaq belə hərəkət etməli, onun taleyi belədir, fələyin əmrini poza bilməz, istəsə də, istəməsə də, o, iki şeydən birini seçməlidir: ya zahiri fəzilət və gerçək bir alçaqlıq, ya həqiqi bir qüdsiyyət və zahiri bir rüsvayçılıq!

Bu saysız-hesabsız qorxunc fikirləri bir-bir başından keçirərkən yenə də ruhdan düşmür, mərdliyini itirmirdi, lakin beyni artıq yorulmağa başlayırdı. İstər-istəməz başqa şeyləri, tamamilə mənasız şeyləri fikirləşməyə başladı.

Gicgah damarları şiddətlə vururdu. O, hələ də otaqda gəzişirdi. Yaxındakı kilsənin və bir az sonra şəhər idarəsinin zəngləri gecə saat on ikini vurdu. O, əvvəlcə bir zəngin, sonra o birisinin on iki dəfə vurmasını saydı və səslərini bir-birilə müqayisə etdi. Bir neçə gün bundan əvvəl bir köhnə dəmir alverçisinin dükanında, üzərində "Romenvilli Antuan Alben" yazılı köhnə bir zəng görmüş olduğunu xatırladı.

Üşüyürdü. Buxarını qaladı. Pəncərəni örtmək isə ağlına gəlmədi. Sonra yenə keylik onu bürüdü. O, böyük bir çətinliklə, saat on ikini vurmazdan əvvəl nə düşündüyünü yada salmağa çalışdı. Nəhayət, buna nail oldu.

"Hə, – düşündü, – mən özümü məhkəməyə təslim etmək qərarına gəlmişdim".

Birdən Fantina yadına düşdü.

"Aman Allah! Bəs bu zavallı qadının taleyi necə olacaq!" – dedi.

Fikrində yeni bir şübhə böhranı başladı.

Fantina birdən-birə yadına düşməklə fikirlərində ani bir işıq doğdu, bütün düşündükləri ona tamamilə başqa bir şəkildə görünməyə başladı, öz-özünə:

"Mən nə edirəm? – deyə səsləndi, – mən indiyə qədər yalnız özümü düşünməklə məşğul olmuşam! Susmaq və ya özümü təslim etmək; öz şəxsiyyətimi gizlətmək və ya canımı qurtarmaq, hamının hörmət bəslədiyi, lakin mənfur bir vəzifə sahibi, ya da rüsvay olmuş, lakin hörmətə layiq bir katorqalı olmaq, mənim qarşımda duran yalnız öz nəfsim idi! Lakin, aman Allah, bütün bunlar xudbinlikdir, xudbinliyin adi bir şəkli olmasa da, yenə xudbinlikdir! Halbuki başqalarını da düşünmək lazımdır! Axı ən müqəddəs şey başqalarını düşünməkdir! Diqqətli olaq, məsələni daha dərindən düşünək. Tutaq ki, mən yoxam, mən aradan çıxmışam, unudulmuşam – bundan nə hasil ola bilər? Tutaq ki, özümü ələ verdim. Məni tutub, Şanmatyeni azad edərlər, məni yenə katorqaya göndərərlər; bəs sonra? Sonra nə olacaq? Burada nələr olacaq? Bəli, burada. Bu ölkə, bu şəhər, bu sənaye, fəhlələr, kişilər, qadınlar, uşaqlar – bütün bu kasıb camaat nə olacaq? Bütün bunları mən yaratmışam. Onlara mən həyat vermişəm; hər yerdə tüstülənən ocaqların yanacağını, qaynayan qazanların ətini mən vermişəm; onlara rahatlıq verən, onlara ticarət, kredit yaradan mən olmuşam, məndən qabaq heç nə yox idi, bütün ölkəni yuxudan oyadan, ona dirilik və qüvvət verən mən olmuşam, mən buradan getsəm, bütün bunlar yenə də məhv olub gedəcək. Bəs o qadın! Bu qədər əzablar çəkmiş və alçalmasına baxmayaraq, yenə yüksək və ülvi olan bu qadın, o qadın ki, bədbəxtliyinə, bilmədən, mən səbəb olmuşam! Mən ki uşağını onun yanına gətirəcəyimi, qızını onunla görüşdürəcəyimi vəd etmişdim! Mənim ucumdan müsibətə düçar olmuş bu qadına yaxşılıq etmək mənim borcum deyildirmi? Mən ortadan yox olaramsa, hər şey məhv olub gedəcək, qadın öləcək, uşaq kimsəsiz qalacaqdır. Mən özümü polisə təslim etsəm, bax belə olacaq! Yaxşı, bəs özümü təslim etməsəm, nə olar?"

Öz-özünə bu sualı verdikdən sonra tərəddüd içində dayandı, lakin bu tərəddüd çox sürmədi, özünü toplayaraq, sakit bir halda sualına cavab verdi:

“O adam katorqaya gedəcək! Nə olsun ki, bu doğrudur, lakin lənət şeytana, o oğrudur axı! Mən özümü nə qədər inandırsam da, bir şeyi inkar edə bilmərəm ki, o oğrudur, bəli, oğrudur! Mən isə burada qalıb başladığım işimə davam edərəm, on ildən sonra on milyonluq bir sərmayəm olar. Bunun hamısını ölkəyə paylaram, çünki mənə heç bir şey lazım deyil. Pul mənim nəyimə lazımdır? Mən ki özüm üçün çalışmıram! Əhalinin rifah halı yaxşılaşar, sənaye işləri canlanar, fabrik və zavodlar artar, yüzlərcə və minlərcə ailə xoşbəxt olar! Əhalinin sayı artar, ayrı-ayrı fermaların yerində yeni-yeni kəndlər yaranar, quru çöllərdə fermalar əmələ gələr. Yoxsulluq və ehtiyac yox olar. Bununla da səfalət, fahişəlik, oğurluq, bütün qəbahətlər, bütün cinayətlər yox olub gedər. Bu zavallı ana da öz balasına tərbiyə verər! Bütün ölkədə sərvət və namus yüksələr! Yox, yox, özümü ələ vermək, məhkəməyə təslim olmaq! Mən dəlimi olmuşam? Yox! Ehtiyatlı olmaq, tələsməmək lazımdır. Mən alicənab və mərd bir hərəkət göstərmək istəyirdim, lakin bu ki mənasız bir faciədir! Mən yalnız özümü düşünürdüm! Birisini, tanımadığım bir adamı, bir oğrunu, alçaq bir adamı, bəlkə də, bir az haqsız olaraq məhkum edildiyi cəzadan qurtarmaq üçün bütün ölkənin rahatlığını qurban vermək! Zavallı bir qadının xəstəxanada, dəhşətli bir halda ölməsinə razı olmaq! Onun qızının it kimi küçədə gəbərməsinə yol vermək! Bu haqsızlıqdır, bu dəhşətli bir şeydir. Ana öz uşağının üzünü belə görməyəcək! Uşaq öz anasını, demək olar ki, heç tanımadan məhv olub gedəcəkdir! Bütün bunlar alma oğurlamış, bir hərəkəti üçün olmasa da, başqa bir hərəkəti ucundan, bəlkə də, katorqaya layiq olan bir oğrunu xilas etmək üçün imiş! Amma nə gözəl fikir! Nə gözəl vicdan! Canini qurtarmaq, günahsızları isə məhv etmək! Ömrünün axırına bir neçə il qalan, katorqada güzəranını indiki səfil həyatından bir az pis keçirəcək qoca bir sərsərini qurtarmaq üçün bütün bir ölkəni, anaları, qadınları, uşaqları qurban vermək! Məndən başqa yer üzündə kimsəsi olmayan və kim bilir, bəlkə, bu gün o xain Tenardye ailəsində, onların murdar meyxanasında soyuq və aclıq keçirən zavallı Kozettanı fəda etmək! Bu adamlar nə qədər də əclafdırlar! Rəvadırmı mən bu zavallı adamlara qarşı öz borcumu yerinə yetirməyim? Gedib özümü polisin əlinə vermək fikrinə düşmüşəm. Bu ki böyük bir axmaqlıqdır! İndi məsələnin pis tərəfini fikirləşək. Tutaq ki, bu işin pis bir cəhəti var, ona görə də bir zaman

vicdan əzabı çəkəcəyəm. Başqa adamların səadəti üçün bu vicdan əzabına, yalnız mənim qəlbimi ləkələyən bu pis əmələ razılaşmaq özü fədakarlıq və fəzilətdir.

O, ayağa durub yenə otaqda gəzişməyə başladı. Bu dəfə ona elə gəldi ki, qane edilmişdir.

Almaz daşlarını yalnız yerin altında, həqiqəti isə yalnız insan fikrinin dərinliklərində tapmaq mümkündür. Ona elə gəlirdi ki, bu fikrin dərinliklərinə enərək, qaranlıq guşələri eşələyə-eşələyə, nəhayət, bu almaz daşlarından birini, bu həqiqətlərdən birini tapa bilmişdir, artıq bu həqiqət, bu qiymətli daş onun əlindədir. O, bunu seyr edir, parıltısından gözləri qamaşırdı.

"Bəli, bu belədir, – o düşündü. – Həqiqəti tapmışam. Məsələni həll etmişəm. Müəyyən bir qərara gəlmək lazımdır. Qərar verdim. Qoy hər şey öz yolu ilə getsin. Daha tərəddüd etmək, geri çəkilmək lazım deyil. Mən bunu öz rahatlığım üçün deyil, ümumun xeyri üçün edirəm. Mən Madlenəm və Madlen olaraq da qalmalıyam. Vay Jan Valjanın halına! Artıq mən Jan Valjan deyiləm, o adamı tanımıram, haradan gəldiyini də bilmirəm. Əgər belə bir adam varsa, qoy özü öz halına yansın, mənim nə işim var? Bu məşum ad gecənin qaranlığında kabus kimi dolaşır və bu kabus birinin başına düşərsə, vay onun halına!"

Buxarının üstündəki balaca güzgüyə baxıb dedi:

– Bəli! Artıq qərar verildi. İrəyim sakit oldu. İndi görünüşüm tamamilə başqadır.

Bir qədər də gəzdikdən sonra o, birdən-birə dayandı.

– Yetər! – dedi. – Mən daha tərəddüd etməməliyəm. Qəbul etdiyim qərarın heç bir nəticəsi məni qorxutmamalıdır. Məni hələ də Jan Valjanla bağlayan tellər var. Bunları qırmaq lazımdır. Bu otağın özündə mənim əleyhimə şahidlik edə biləcək şeylər var; bunlar nə qədər cansız olsa da, diri şahidlərdən qorxuncdur. Bunlar yox olmalı, puç edilməlidir.

Əlini cibinə salıb kisəsini çıxartdı və açıb içindən balaca bir açar götürdü.

Bu açarı divar kağızının qara naxışları arasında seçilməyən balaca bir deşiyə soxdu. Buxarının dəmir qalpağı ilə otağın küncü arasında düzəldilmiş gizli dolabın ağzını açdı. Bu gizli dolabın içində cındır şeylər, göy kətandan bir köynək, zağı getmiş bir şalvar, köhnə

bir çanta və iki ucu dəmirli yoğun bir əsa vardı. 1815-ci ilin oktyabr ayında Din şəhərinə girdiyi zaman Jan Valjanı görənlər, onun o vaxtı dilənçi paltarlarını asanlıqla tanıyardılar.

O, yepiskopun gümüş şamdanlarını saxladığı kimi, bunları da saxlamışdı ki, yeni həyata nə ilə qədəm qoyduğunu həmişəlik yadında saxlasın. Lakin o, katorqadan gətirdiyi şeyləri gizlətməklə bərabər, yepiskopun bağışladığı şamdanları büsbütün açıqda saxlayırdı.

Qapının açılmasından qorxmuş kimi, cəftələnmiş qapıya gizli bir nəzər saldı, cəld bir hərəkətlə bu cındırları, əsanı və çantanı buxarıya atdı, uzun illərdən bəri, təhlükəyə baxmayaraq, pərəstişlə saxladığı bu şeylər alovların içində yanmağa başladı.

Bir az sonra gizli dolabı böyük bir ehtiyatla bağladı. Dolab indi artıq boş olduğuna görə hər bir ehtiyat yersiz idi. Buna baxmayaraq, dolabın qapısını hündür bir kreslo ilə tutdu.

Bir neçə saniyədən sonra otaq və qarşıdakı evin divarı güclü bir alovun qırmızı və titrək şəfəqi ilə boyandı. Paltarlar yanır, əsa od içində cırıldayır və otağın ortasına qədər qığılcımlar sıçrayırdı.

Çanta ilə kirli cındırlar büsbütün yanıb qurtardıqdan sonra külün içində parlayan dəyirmi bir şey göründü. Əyildikdə bunun gümüş pul olduğunu seçmək asan idi. Bu pul, yəqin, savoyalıdan oğurladığı qırx su idi.

Lakin o, alov içinə baxmadan, eyni sakit addımlarla otaqda gəzinirdi.

Birdən gözləri buxarının üstündə duran və alovun əksindən parlayan gümüş şamdanlara sataşdı.

“Ah! Bunlar da Jan Valjanı xatırladır, – düşündü. – Bunları da məhv etmək lazımdır”.

Şamdanları götürdü. Od hələ şiddətlə yandığından, bunları tezliklə əridib xarab edə bilərdi.

Sonra ocağın üzərinə əyilərək, qızınmağa başladı. İsti bütün vücuduna yayıldı.

“Adamın canı qızanda, nə yaxşı olur!” – dedi.

Şamdanlardan biri ilə ocağı eşələdi. Bir saniyə də keçsəydi, onları bir-bir odun içinə atacaqdı.

Bu anda, sanki, içərisindən:

– Jan Valjan! Jan Valjan! – deyə bağıran bir səs eşitdi.

Tükləri ürpəçdi, dəhşətli bir səs eşidən adam kimi rəngi ağardı.

Bu səs:

– Bəli, bəli, işini qurtar! – deyirdi. – Başladığın işi tamamla! Şamdanları məhv et! Bu yadigarı tələf et! Yepiskopu unut! Hər şeyi unut! Şanmatyenin işini bitir! Çox gözəl olar! Qalib gəlməyinlə özünü təbrik et! Demək, son qəti qərara gəldin! Adamların ondan nə istədiyini belə bilməyən bu qoca kim bilir, bəlkə, heç bir pis iş görməmişdir, heç təqsiri yoxdur; bəlkə, yalnız sənin adın o biçarəni əzdiyi və uçuruma yuvarladığı üçün onu məhv edəcəklər. Nə olar! Qoy onu sənə oxşadıb məhkum etsinlər, qoy ömrünün axır çağları nifrətlər və lənətlər içərisində keçsin! Çox gözəl! Sənə nə var, sən namuslu bir adam ol, hər kəsin hörmət etdiyi, etibarlı mer olaraq qal: şəhəri zənginləşdir, yoxsulların qarnını doydur, yetimləri tərbiyə et, sən öz fəzilətli həyatında xoşbəxt yaşa! Sənə pərəstiş edəcəklər, sən şərəf və şöhrətlə yaşadığın müddətdə orada, katorqada bir başqası sənin köynəyini geyəcək, sənin qandalarını gəzdirəcək və sənin şərəfsiz adını daşıyacaqdır. Sən öz işlərini gözəl düzəltdin! Ah! Mənfur adam!

Üzündən tər sel kimi axırdı, dəhşət saçan gözlərini şamdanlardan ayırmırdı. İçindən gələn səs susmayaraq, davam edirdi.

– Jan Valjan! Sən öz ətrafında bir çox səslər eşidəcəksən; səni ucadan bağıraraq alqışlayacaqlar. Lakin qaranlıqdan heç kəsin eşitmədiyi bir səs gələcək və sənə lənətlər oxuyacaqdır. İndi qulaq as: ey alçaq və rəzil adam! Bütün bu xeyir-dualar göylərə çatmadan məhv olacaq, Allah-taala ancaq lənət səslərini eşidəcəkdir!

Onun qəlbinin dərinliklərindən əvvəlcə zəif gələn bu səs, getdikcə güclənir və indi onun qulağının dibində dəhşətlə gurlayırdı. Ona elə gəlirdi ki, bu səs onun varlığı içərisindən çıxaraq, indi artıq xaricində səslənirdi. Son sözləri o qədər aydın və açıq eşidirdi ki, dəhşətlə ətrafına bir nəzər saldı.

Özünü büsbütün itirmiş bir halda:

– Burada kim var? – deyə soruşdu.

Sonra mənasız bir qəhqəhə ilə gülərək dedi:

– Mən nə qədər axmağam! Buraya kim gələ bilər?

Yox, burada kimsə var idi, lakin bu kimsəni insan gözləri görməyə qadir deyildi.

Cənab Madlen şamdanı buxarının üstünə qoydu.

Sonra otaqda yenə yeknəsəq ağır addımlarla gəzməyə başladı ki, bu da aşağı mərtəbədə yatan adamı narahat edir və onun səksəkə ilə yerindən sıçramasına səbəb olurdu.

Bu gəzinti onu bir qədər sakitləşdirir və bir növ məst edirdi. Bəzən insan, həyatının belə müstəsna dəqiqələrində, sanki, qarşısına gələn hər şeylə məsləhətləşmək üçün gəzinmək istəyir, sanki, yolda rast gəldiyi şeylər ona yaxşı məsləhət verə bilər. Lakin bir neçə saniyədən sonra onun fikirləri tamamilə dolaşdı.

Bir-birinin dalınca qəbul etdiyi iki qərar indi eyni dərəcədə onu dəhşətə gətirirdi. Vaxtilə onun həyatını yoluna qoyan hər iki fikir indi ondan ötrü öldürücü idi. Nə qədər acı bir təsadüf! Bu Şanmatye təsadüfi ortaya çıxmasaydı, olmazdımı? Fələyin, guya, onun vəziyyətini möhkəmləndirmək üçün göndərdiyi bu təsadüf indi onu qəti olaraq məhv edəcəkdi!

Bir dəqiqəliyə öz gələcəyini düşündü. Özünü ələ vermək! Aman Allah! Polisə təslim olmaq! Ayrılacağı hər şeyi və qayıdacağı vəziyyəti fikrində hədsiz bir təəssüflə araşdırdı. Bu sakit həyatdan, fərəhli günlərdən əl çəkmək, əhalinin ona bəslədiyi hörmətdən ayrılmaq, namus və azadlıqdan məhrum olmaq lazım gəlirdi! Artıq o, düzlərə gedib may ayında quşların oxumağını dinləməyəcək, balaca uşaqlara sədəqə verməyəcəkdi! Artıq ona yönəldilən məhəbbətli və minnətdar gözləri görməyəcəkdi! Tikmiş olduğu bu evi, bu balaca otağı buraxmalı olacaqdı. Bütün bunlar indi ona nə qədər əziz, sevimli görünürdü. Artıq o, bu kitabları oxumayacaq, isfəndan ağacından düzəldilmiş masanın yanında oturub yazı yazmayacaqdı. Bütün bu müddət ərzində ona xidmət edən yeganə qoca qulluqçusu, artıq səhərlər qəhvəsini gətirməyəcəkdi. Ey böyük Allah! Bütün bunların əvəzində onu katorqa, dustaq paltarı, ağır iş, karser – artıq başına gəlmiş bütün bu dəhşətlər gözləyirdi! Keçirdiyi və adət etdiyi bu həyatdan sonra, həm də bu yaşda bu çox qorxunc bir şeydi! Barı cavan olaydı! Qoca vaxtında hər kəsin ona "sən" deyən kobud səsini eşitmək, nə dözülməz bir hal! Hər bir nəzarətçi onun ciblərini axtara bilər, hər bir gözətçi onu ağacla döyə bilərdi! Yalın ayaqlarına altı dəmir ayaqqabı geyməli olacaq. Hər səhər, hər axşam ayaqlarını qandal halqalarını yoxlamaq üçün işlədilən ağac çəkic altına qoymalı olacaqdır. Ona istehza ilə baxan hər bir avaraya deyəcəklər: "Monreyl-sür-Mer şəhərinin vaxtilə meri olan Jan Valjan budur!"

Axşamlar da yorğunluqdan ikiqat olaraq qan-tər içində, başında gözlərinin üstünü örtən qalpaq, serjantın qamçısı altında başqa bir cani ilə yan-yana üzən həbsxanaya qayıdacaq, gəmi pilləkəni ilə yuxarı qalxacaqdır. Oh, nə böyük işgəncə! Əcəba, fələk də insan kimi zülmkar və insan qəlbi kimi amansız ola bilərmi?

Düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün nə qədər çalışırdısa, yenə də bütün fikirlərini əhatə edən bu acı suala qayıdırdı; cənnətdə qalıb iblis olmalı, yoxsa cəhənnəmə qayıdıb mələk olmalı?

Nə etməli, pərvərdigara, nə etməli?

Böyük bir zəhmətlə susdurmuş olduğu fırtına, yenə coşaraq üzərinə çökmüşdü. Fikirləri yenə qarışmağa başladı. Bu fikirlərdə ümidsizliyə xas olan bir durğunluq və şüursuzluq vardı. Beynində çoxdan eşitdiyi kiçik bir nəğmə və "Romenvil" sözü səslənirdi. Romenvilin, Paris yaxınlığında balaca bir meşə olduğunu və aprel ayında sevişən gənclərin oraya gedib yasəmən dərdiklərini xatırladı.

O, mənən səndələdiyi kimi, cismən də səndələyirdi. Təzəcə ayaq tutan uşaq kimi yeriyirdi.

Ara-sıra yorğunluğunu dəf etməyə çalışaraq, fikirlərini bir yerə toplamaq istəyirdi. Son dəfə, artıq qəti olaraq onu taqətdən salmış olan bu sualı düşünməyə və qavramağa çalışdı. Özünü ələ verməkmi, yoxsa susmaqmı? O, qəbul ediləcək qərarı özü üçün heç cür aydın edə bilmirdi. Gətirdiyi bütün dəlillər xəyalında qarışaraq, duman kimi dağılırdı. O yalnız bir şey hiss edirdi ki, hansı bir qərara gəlirsə gəlsin, varlığının bir hissəsi mütləq məhv olub gedəcəkdir, başını hər yana – sağınamı, solunamı çevirsə, fərqi yoxdur, hər tərəfdə onu məzar gözləyir; bir tərəfə çevrilərsə səadətinin, o biri tərəfə çevrilərsə fəzilətinin can çəkdiyini görürdü.

Heyhat! O, yenə də şübhələr içərisində çırpınırdı. O, əvvəldə olduğu kimi, yenə də müəyyən bir qərara gəlməkdən uzaqda idi.

Bu bədbəxt insan qəlbi iztirablı qorxular içində çırpınırdı. Bu zavallı adamdan min səkkiz yüz il əvvəl yaşayan və bəşəriyyətin bütün iztirabları ilə qüdsiyyətini təcəssüm edən sirli bir insan da, hüdudsuz üfüqlərdə əsən şiddətli küləyin zərbələrindən zeytun ağacları titrərkən, ulduzlu göylərin dərinliklərində qaranlıq və zülmət saçan dəhşətli bir qədəhi uzun müddət əli ilə özündən uzaqlaşdırmışdı.

Dördüncü fəsil

İZTİRAB YUXUDA QƏRİBƏ ŞƏKİLLƏRƏ DÜŞÜR

Gecə yarısından üç saat keçmişdi. Düz beş saat idi ki, cənab Madlen yorğunluğunu almadan otaqda gəzinirdi. Nəhayət, taqətdən düşərək masanın üstünə yıxıldı.

O, buradaca yatdı və qəribə bir yuxu gördü.

Bu yuxu hər bir yuxu kimi həqiqətlə əlaqədar deyildi, o yalnız saçdığı dəhşət və iztirabla həyata bağlanırdı, bununla belə, yuxu ona çox təsir etdi. Bu dəhşətli yuxu onu o qədər sarsıtdı ki, sonralar bunu hətta yazmışdı da. Əli ilə yazılmış kağızlar içərisində bu əl yazısı da vardır. Onu olduğu kimi burada verməyi lazım bilirik.

Bu yuxu nədən ibarət olursa olsun, təsvir etmədən, həmin gecənin macərası natamam qalmış olardı. Bu – xəstə bir qəlbin ələmli sərgüzəştlərinin bir səhnəsidir.

Yuxu budur. Zərfin üzərində belə bir yazı oxuyuruq: *O gecə gördüyüm yuxu.*

"Çöldə idim. Geniş və fərəhsiz, ot bitməyən quru bir düzdə idim. Gündüz, yoxsa gecə olduğunu bilmirdim.

Uşaqlıq illərimin yoldaşı olan qardaşımla, etiraf etməliyəm, heç bir zaman yadıma salmadığım və demək olar ki, tamamilə unutduğum qardaşımla çöldə gəzirdim.

Biz söhbət edir, yoldan ötənlərə baxırdıq. Evimizin yaxınlığında yaşayan və pəncərəsi küçəyə baxan bir otağa köçdükdən sonra daima pəncərə qabağında oturub tikiş tikən qonşu bir qadından söhbət edirdik. Bu pəncərə açıq olduğundan, söhbət edə-edə üşüməyə başladığımızı hiss etdik.

Çöldə bir dənə belə ağac yox idi.

Yanımızdan bir atlı keçdi. Bu atlı çıl-çılpaq idi, bədəni kül rəngində, atı isə torpaq rəngində idi. Başında saçı yoxdu, biz onun quru kəlləsini və kəlləsi üzərindəki damarları görürdük. Atlının əlində üzüm tənəyi kimi əyilən və dəmir kimi ağır bir qamçı vardı. Atlı heç bir söz demədən yanımızdan keçdi.

Qardaşım mənə dedi: "Dərə ilə gedək".

Dərəyə endik. Burada nə bir kol, nə də bir çəngə mamır var idi. Hər şey, göylər belə torpaq rəngində idi. Bir neçə addım getdikdən sonra, sözlərimə heç kəsin cavab vermədiyini duydum. Qardaşımın artıq yanımda olmadığını anladım.

Qarşıma bir kənd çıxdı, kəndə girdim. Bu kəndin Romenvil (nə üçün Romenvil?)[1] olduğunu güman etdim.

Keçdiyim birinci küçə bomboş idi. O biri küçəyə keçdim. Küçə ayrıcında bir adam gördüm; o, divara söykənib dayanmışdı. Mən bu adamdan soruşdum: "Bura haradır? Mən haradayam?" O, mənə cavab vermədi. Bir ev qapısının açıq olduğunu görüb içəri girdim.

Birinci otaq bomboş idi. İkinci otağa keçdim. Bu otağın qapısı ağzında bir adam gördüm, o da divara söykənib dayanmışdı. Mən bu adamdan soruşdum: "Bu, kimin evidir? Mən haradayam?" O cavab vermədi.

Evin arxasında bağ vardı. Evdən çıxıb bağa girdim. Bağ da bomboş idi. Elə birinci ağacın arxasında dayanmış bir adam gördüm. Bu adamdan soruşdum: "Bu, kimin bağıdır? Mən haradayam? O cavab vermədi.

Kəndi dolaşmağa başladım, bunun bir şəhər olduğunu anladım. Bütün küçələr boş, bütün qapılar açıq idi. Bu küçələrdən kimsə keçmir, bu otaqlarda kimsə yaşamır, bu bağlarda kimsə gəzişmirdi. Lakin hər divarın yanında, hər bir ağacın arxasında bir adam dayanmışdı. Onlar sükut edirdi. Hər yerdə ancaq bir nəfər durmuşdu. Onlar yanlarından ötdüyüm zaman mənə baxırdılar.

Şəhərdən çıxıb çölləri dolaşmağa başladım.

Bir müddət sonra dönüb geri baxdıqda, arxamca bir yığın camaatın gəldiyini gördüm. Bu, şəhərdə gördüyüm həmin adamlar idi. Tanıdım. Qəribə baxışları vardı. Tələsdikləri gözə çarpmasa da, məndən tez yeriyirdilər. Onlar sükut içində, heç bir səs çıxarmadan gəlirdilər. Bir az sonra onlar mənə yetişib dövrəyə aldılar. Üzləri torpaq rəngində idi.

Şəhərə girdiyim zaman ilk dəfə gördüyüm və sual verdiyim adam məndən soruşdu: "Siz haraya gedirsiniz? Məgər ölü olduğunuzu bilmirsiniz?"

Pəncərədən evin həyəti və küçə görünürdü. Küçədən gələn quru və kəskin tappıltı, onu aşağı baxmağa məcbur etdi.

[1] Bu mötərizələr Jan Valjanın öz əli ilə yazılmışdır.

Ayağa durub pəncərəyə yaxınlaşdı. Göydə bir ulduz belə görünmürdü.

Mən ona cavab vermək istədim, lakin bir də baxdıqda yanımda heç kəsi görmədim".

O, yuxudan oyandı. Bərk üşüyürdü. Açıq pəncərənin taylarını soyuq səhər küləyi yelədirdi. Ocaq sönmüşdü. Şam yanıb qurtarmaq üzrə idi. Hələ qaranlıq idi.

Aşağıda iki qırmızı ulduz gördü. Ulduzların işığı gah qəribə bir halda uzanır, gah da gecənin qaranlığı içində qeyb olurdu.

Fikri hələ yuxunun dumanları içində idi. "Qəribə şeydir! – düşündü. – Ulduzlar artıq göydə deyil, yerdədir".

Lakin bir az sonra qaranlıq çəkildi, əvvəlkinə oxşayan bir səs onu tamamilə oyatdı; bir daha diqqətlə baxıb gördü ki, bu iki ulduz ekipajın fənərləridir. Fənərlərin işığında ekipajın özünü seçə bildi. Bu, ağ at qoşulmuş kiçik bir tilburi idi. Eşitdiyi tappıltı at dırnaqlarının səsi idi.

Öz-özünə: "Bu ekipaj nə üçün buraya gəlmişdir? – düşündü. – Bu tezdən gələn kim ola bilər?"

Bu halda kim isə qapını yavaşca döydü. O, bütün vücudu ilə titrədi və qorxunc bir səslə:

– Kimdir? – deyə bağırdı.

– Mənəm, cənab mer!

O, xidmətçi qarının səsini tanıdı.

– Hə, nə olmuşdur?

– Cənab mer, indicə saat beşi vurdu.

– Nə olsun ki?

– Cənab mer, kabriolet qapıdadır.

– Nə kabriolet?

– Tilburi.

– Nə tilburi?

– Cənab mer, siz tilburi qoşdurmağı tapşırmamışdınız?

– Yox.

– Bəs sürücü deyir ki, cənab merin dalınca gəlmişəm.

– Hansı sürücü?

– Cənab Skoflerin sürücüsü.

– Skoflerin?

Bu ad, gözləri qarşısında ildırım çaxan kimi, onun bütün vücudunu titrətdi.

– Hə, yadıma düşdü – cənab Skofler...

Xidmətçi qarı bu zaman ona baxsaydı, dəhşətdən qorxardı.

Araya sükut çökdü. O, çaşqın bir nəzərlə şamın işığına baxır, piltənin ətrafındakı yumşaq mumu qopararaq, barmaqları arasında şüursuz bir halda əzişdirirdi. Qarı gözləyirdi. Nəhayət, bir daha cəsarət edərək soruşdu:

– Cənab mer, sürücüyə nə cavab verim?

– Yaxşı, deyin ki, bu saat aşağı enirəm.

Beşinci fəsil

TƏKƏRLƏRİN TOQQUŞMASI

O dövrdə Arrasla Monreyl-sür-Mer arasında imperiya zamanına məxsus balaca karetalar poçt əlaqəsi saxlayırdılar. Bu karetalar yayları spiral şəklində düzəldilmiş ikitəkərli ekipajlardan ibarətdi; karetanın içinə, adətən, qonur rəngli meşin çəkilərdi, içində ancaq iki yer olardı: biri qasid üçün, o biri isə sərnişin üçün. Təkərlərin qorxunc görünüşü, olduqca qabarıq topları vardı ki, başqa karetaları uzaqdan keçməyə məcbur edirdi; bu cür təkər toplarına indi də Almaniya yollarında rast gəlmək mümkündür. Məktublara məxsus iri və uzunsov qutu karetanın arxasında yerləşirdi. Karetaya bitişik olan bu qutu qara, karetanın özü isə sarı rəngdə olurdu.

İndiki minik arabalarına heç də bənzəməyən bu karetalar eybəcər bir qozbelə bənzərdi. Üfüqdə aydın görünərək, yavaş-yavaş yolla süründüyünü uzaqdan seyr etdikdə, deyəsən, termit adlanan bir həşəratı xatırladırdı; onun bədəninin qabaq tərəfi qısa olduğu halda, yekə olan dal tərəfini ağır-ağır sürüməyə məcbur olur. Bununla belə, karetalar sürətlə gedərdi. Paris poçtu gəldikdən sonra, gecə saat birdə Arrasdan yola düşən kareta səhər saat beşdə gəlib Monreyl-sür-Mer şəhərinə çatardı.

O gecə Esden yolu ilə Monreyl-sür-Merə gedən poçt arabası şəhərin kənarlarındakı yola dönərkən, küçənin döngəsində ağ at qoşulmuş kiçik bir tilburiyə rast gəldi. O, sürətlə poçt arabasına doğru çapırdı. İçində geniş plaş geymiş bir sərnişin vardı. Tilburinin təkəri poçt arabasına bərk toxunmuşdu. Poçt xidmətçisi toqquşduğu

arabanın içindəki adama "dayan" deyə bağırdı, lakin yolçu onun sözlərinə qulaq asmayıb, öz yoluna davam etdi, atı çox sürətlə gedirdi.

Poçt xidmətçisi:

– Bu adam, görünür, çox tələsir! – dedi.

Bu qədər sürətlə gedən adam bir az əvvəl daxili mübarizələr, mərhəmətə layiq ruhi əzablar keçirən şəxs idi.

O, haraya gedirdi? Özü də bu suala cavab verə bilməzdi. Nə üçün tələsirdi? Özü də bilmirdi. Ümidlə gedirdi. Haraya? Əlbəttə, Arrasa, bəlkə, başqa bir yerə də gedirdi. Ara-sıra vücuduna şiddətli bir titrətmə düşürdü, gecənin qaranlığı içində dibsiz bir uçuruma doğru yuvarlandığını zənn edirdi. Nə isə ona təkan verir, nə isə onu sürükləyirdi. Onun qəlbində baş verən şeyləri heç kəs sözlə ifadə edə bilməzdi, amma hər kəs bunu anlardı. Yer üzündə ömrü uzunu, heç olmasa, bir dəfə məchul gələcəyin qaranlıq mağarasına girməyən bir adam tapılarmı?

O, hələ heç bir qərara gəlməmiş, heç bir şey müəyyən etməmiş, heç bir nəticə çıxarmamışdı. Mübarizənin birinci dəqiqəsində olduğu kimi o, yenə də tərəddüd içində idi.

Arrasa nə üçün gedirdi?

Skoflerdən kabriolet tutduğu zaman fikirləşdiyi şeyləri öz-özünə təkrar etdi ki, nəticəsi necə olursa olsun, əhvalatı öz gözü ilə görməli və özü bundan baş çıxarmalıdır. Burada, sadəcə, ehtiyatlı olmaq lazım gəlir. O, məsələnin nə yerdə olduğunu bilməlidir, bütün hadisələrin nə yerdə olduğunu öyrənmədən qərar vermək yaramaz, hər şey uzaqdan mübaliğəli görünür, bəlkə, Şanmatyeni gördükdən sonra onun katorqaya layiq alçaq bir adam olduğunu öyrənəcək və onu özü ilə əvəz etmək ona böyük bir dəlilik kimi görünəcəkdi. Doğrudur, məhkəmədə Javerdən başqa onu tanıyan Breve, Şenildye və Koşpayl da olacaqdılar, lakin onlar onu tanıyacaqdılarmı? – Nə axmaq bir fikir! – Hələ Javer də bu saat şübhədən-filandan çox uzaqdır, bütün fərziyyələr, duyğular Şanmatyeyə bağlıdır, insanların başında doğan fərziyyələr və duyğular isə çox tərs olur, demək, onun üçün heç bir təhlükə yoxdur.

Əlbəttə, o ağır dəqiqələr keçirəcək, lakin buna davam gətirmək üçün onda qüvvət tapılar, taleyi nə qədər amansız olsa da, yenə öz taleyinə hakimdir. O, bütün varlığı ilə bu fikirdən yapışaraq ayrılmırdı.

Lakin, doğrusunu desək, o, Arrasa getməməyi üstün tutardı.

Bununla belə, ora gedirdi.

O, fikirlərindən ayrılmayaraq, atı qamçılayırdı. At gözəl və müntəzəm bir yorğa yerişlə yeriyərək, saatda iki lyö yarım yol gedirdi.

Kabriolet irəliyə doğru hərəkət etdikcə, qəlbində bir şeyin geriyə doğru çəkildiyini hiss edirdi.

Günəş doğmağa başlarkən, o çöldən keçirdi. Monreyl-sür-Mer şəhəri artıq uzaqlarda qalmışdı. O, üfüqlərin qızarmağa başladığını seyr edirdi, baxır və soyuq qış səhərinin mənzərəsini görmürdü; axşamların ilğımları olduğu kimi, səhərlərin də ilğımları var. O, bu ilğımları görməsə də, təsadüf edilən ağacların və təpələrin qəmli siluetləri, onun şüurundan asılı olmayaraq, qəribə bir cismani nüfuzla, onun ruhunda hökm sürən xaosa cansıxıcı və məşum bir şey əlavə edirdi.

Yolların kənarında ara-sıra təsadüf etdiyi tənha evciyəzlərin yanından keçərkən o, hər dəfə öz-özünə: "Orada insanlar necə də sakitcə yatırlar!" – deyirdi.

Atın tappıltısı, qoşqu zınqırovlarının səsi, daş yol üzərində təkərlərin gurultusu xoş və yeknəsəq bir ahəngdə birləşirdi. İnsanın qəlbi şad olduğu zaman bu səslər gözəl göründüyü halda, ürəyi qəmli olduqda ələmli bir təsir bağışlayır.

Esdenə çatdığı zaman artıq hava büsbütün işıqlanmışdı. Karvansaranın yanında dayanaraq, ata bir az istirahət və yem verməyi qərara aldı.

Skoflerin bu at haqqında söylədiyi sözlər doğru idi; at, həqiqətən, Bulon cinsindən idi; onun iri başı və böyük qarnı var idi, boynu gödək olsa da, döşü enli, ombası geniş, aşıqları möhkəm, ayaqları qüvvətli idi, bu cins atlar gözəl deyil, lakin qüvvətli və dözümlüdürlər. Heyvancığaz iki saatda beş lyö yol getdiyi halda, heç də tərləməmişdi.

Cənab Madlen tilburidən düşməmişdi. Ata arpa gətirən mehtər birdən əyilib diqqətlə arabanın sol təkərinə baxmağa başladı.

– Çox uzaqdanmı gəlirsiniz? – deyə soruşdu.

Yolçu əvvəlki kimi dalğın bir halda cavab verdi:

– Nə olmuşdur ki?

– Uzaqdanmı gəlirsiniz? – deyə mehtər təkrar soruşdu.

– Beş lyö yol gəlmişəm.

– Oho!

– Niyə "oho" deyirsiniz?

Mehtər yenə əyilib təkərə baxdı, onu bir qədər nəzərdən keçirdikdən sonra dikəlib dedi:

– Çünki bu təkər beş lyö yol getmişsə də, əminəm ki, artıq bir çərək lyö belə yol getməyəcəkdir.

Yolçu arabadan yerə sıçrayaraq:

– Nə danışırsınız, dostum? – dedi.

– Deyirəm ki, sizin salamat gəlib çıxmağınız böyük bir möcüzədir, siz at-arabanızla birlikdə xəndəyə düşə bilərdiniz. Özünüz də baxın.

Doğrudan da, təkər bərk zədələnmişdi. Poçt arabasının toxunması onun iki dəndəsini qırmış və topunu zədələmişdi. Təkərin oxu yerindən oynamışdı.

Yolçu mehtərə müraciətlə:

– Dostum, – dedi, – yaxında bir arabadüzəldən tapılarmı?

– Əlbəttə, tapılar, ağa.

– Elə isə, xahiş edirəm, zəhmət çəkib onu çağırasınız.

– O lap iki addımlıqdadır. Ey, Burqalyar dayı!

Arabadüzəldən Burqalyar dayı öz evinin qapısında dayanmışdı. Gəlib təkəri nəzərdən keçirdi və sınmış ayağı müayinə edən təcrübəli bir cərrah kimi üzünü turşutdu.

Cənab Madlen soruşdu:

– Bu saat təkəri təmir edə bilərsinizmi?

– Olar, cənab.

– Mən yola nə zaman çıxa bilərəm?

– Sabah.

– Necə sabah?

– Burada bir günlük iş var. Siz çoxmu tələsirsiniz, cənab?

– Çox tələsirəm. Ən geci bir saatdan sonra yola düşməliyəm.

– Mümkün deyil, cənab.

– Nə qədər istəsəniz, verə bilərəm.

– Mümkün deyil.

– Yaxşı, iki saat sonra olsun.

– Xeyr, bu gün hazır ola bilməz. Axı iki dəndə düzəltmək və topu düzəltmək lazımdır. Xeyr, cənab, siz sabahdan tez yola düşə bilməyəcəksiniz.

– Mənim işim çox tələsikdir. Onu mən sabaha qoya bilmərəm. Təkəri təmir etmək əvəzinə, onu başqa bir təkərlə əvəz etmək mümkün olmazmı?

– Necə yəni?

– Siz arabadüzəldənsiniz, deyilmi?

– Bəli, cənab.

– Sizdə satlıq bir təkər olmazmı? Olsa, mən lap bu saat hərəkət edə bilərəm.

– Bu təkərin əvəzinə?

– Bəli.

– Sizin kabrioletiniz üçün yaraya biləcək hazır təkərim yoxdur. Təkərlər axı cüt olmalıdır. Cüt olmayan təkərləri bir-birinə quraşdırmaq olmaz.

– Elə isə mənə bir cüt təkər satın.

– Hər təkər sizin oxa düz gəlməz, cənab.

– Bəlkə, düz gəldi, bir yoxlayın.

– Faydası yoxdur, cənab. Məndə yalnız yük arabası təkərləri var. Axı bura ucqar bir yerdir.

– Bəlkə, siz mənə hazır bir kabriolet kirayə verəsiniz?

Arabadüzəldən ilk baxışdan tilburinin kirayə tutulduğunu anlamışdı. O, çiyinlərini dartaraq dedi:

– Siz kirayə tutduğunuz kabrioletlərlə çox pis rəftar edirsiniz. Mənim ekipajım olsaydı da, sizə etibar etməzdim.

– Nə olar, kabrioletin özünü mənə satarsınızmı?

– Mənim satlıq kabrioletim yoxdur.

– Necə? Sadə bir arabanız da yoxdur? Görürsünüz ki, mən xəsis adam deyiləm.

– Bizdə belə şey olmaz, bura ucqar bir yerdir. Doğrudur, orada – mərəkdə bir minik arabası var, bizim bir şəhərlinindir, saxlamaq üçün mənə verib, özü də onu çox az-az işlədir. Mən bunu sizə kirayə verə bilərdim, ancaq siz sürərkən sahibi rast gəlsə, onda pis olar; həm də təkatlı deyil, ona bir cüt at qoşmaq lazımdır.

– Mən iki poçt atı tutaram.

– Haraya gedirsiniz, cənab?

– Arrasa.

– Siz oraya bir günə çatmaqmı istəyirsiniz?

– Hökmən.

– Poçt atları iləmi?

– Nə üçün də olmasın?

– Sabah səhər saat dörddə oraya çatsanız necə olar?

– Yox, bu gecdir.

– Bilirsinizmi, bir məsələ var, siz poçt atlarını götürsəniz... Sizin icazə vərəqəniz varmı?

– Bəli...

– O halda siz poçt atları ilə Arrasa sabah çata bilərsiniz. Axı yolumuz kənd yoludur. Bu saat at azdır, atların hamısı tarladadır. İndi şum işləri başlayır, hər yerdən at istəyirlər, poçt atlarını da, xüsusi adamların atlarını da kirayə alırlar. Siz hər bir düşərgədə üç-dörd saat gözləməlisiniz. Bir də arabanızı ağır-ağır sürəcəklər. Bu yolda dərə-təpə çoxdur.

– Onda mən ata minib gedərəm. Atı arabadan açın. Ümidvaram ki, mənim üçün burada satlıq bir yəhər tapılar.

– Yəhər tapmaq mümkündür, lakin atınız yəhər altında gedərmi?

– Doğrudur, bunu mən lap unutdum. Xeyr, o, minik atı deyil.

– Demək, əlac yoxdur.

– Əcəba, kəndinizdə kirayə veriləcək bir at tapılmazmı?

– Arrasa qədər yorğunluğunu almadan getmək üçünmü?

– Bəli.

– Bizdə belə at tapılmaz. Əlbəttə, sizi burada heç kəs tanımadığından onu satın almaq lazım gələrdi. Lakin burada belə bir atı beş yüzə, hətta min franka belə nə kirayə tutmaq olar, nə də satın almaq.

– Bəs nə olsun?

– Ən yaxşısı budur ki, gözləyin, mən arabanızın təkərlərini düzəldim, sabah da sağ-salamat yola düşərsiniz.

– Sabah gec olar.

– Çarə nədir!

– Deyəsən, buradan Arrasa gedən poçt karetası olur. O, nə zaman buraya gələcək?

– Sabah gecə. Bir kareta o yandan gəlir, birisi bu yandan, hər ikisi gecə gəlib keçir.

– Bəyəm bu təkərin təmirinə bir günmü sərf etməlisiniz?

– Düz bir gün. Həm də iş çətin işdir.

– Bəlkə, özünüzə bir köməkçi də götürdünüz?

– Lap on nəfər də olsa düzəlməz!

– Təkərin dəndələrini iplə bağlasaq, necə olar?

– Dəndələri bağlamaq olar, topu isə yaramaz, bağlasanız da yenə davam gətirməyib dağılar.

– Şəhərdə at kirayə verən yoxdurmu?

– Yoxdur.

– Başqa bir arabadüzəldən yoxdurmu?

Mehtərlə usta başlarını yırğaladılar və bir səslə:

– Yoxdur, – deyə cavab verdilər.

O, özündə böyük bir məmnuniyyət və sevinc hiss etdi.

Görünür, qədər belə imiş – buna heç söz ola bilməzdi. Tale tilburinin təkərini qəsdən sındırmış və onu yarı yolda qoymuşdu. Uğursuzluğuna baxmayaraq, o, yenə də asanlıqla boynunu əymədi, vəzifəsini yerinə yetirmək üçün nə mümkünsə etdi, düşünmədiyi bir vasitə qalmadı, qışın soyuğundan, yolun ağırlığından, əziyyətdən, xərcdən qorxmadı. Onda heç bir təqsir yox idi. Əgər yolda dayanmağa məcbur olursa, günah onda deyildi. Burada iş onun iradəsindən deyil, Allahın iradəsindən asılı idi.

Nəfəsini dərdi. Javerlə görüşündən sonra ilk dəfə idi ki, sinədolusu və sərbəst nəfəs alırdı. Ona elə gəldi ki, iyirmi saatdan bəri qəlbini sıxmaqda olan dəmir əl indi onu bir az rahat buraxmışdı.

O, bu qərara gəldi ki, artıq Allah onun tərəfindədir, o artıq Allahtaalanın hüzuruna gəlmişdir.

Öz-özünə dedi ki, əlindən gələni etmişdir, artıq sakitcə evinə qayıda bilər.

Arabadüzəldənlə söhbəti meyxanada olsaydı, bunu heç kəs bilməz, şahidi olmazdı, bütün məsələ də bununla bitib gedərdi və irəlidə hekayə etdiyimiz hadisələr oxucuya gəlib çatmazdı, lakin bu söhbət küçədə olmuşdu, küçədə gedən hər bir söhbət isə daim adamların yığılmasına səbəb olur. Cənab Madlen arabadüzəldənə sual verərkən, bir neçə təsadüfi yolçu danışanların ətrafına toplaşdı. Söhbəti bir qədər dinlədikdən sonra heç kəsin gözə çarpmadığı bir uşaq camaatdan ayrılaraq haraya isə qaçdı.

İndicə söylədiyimiz düşüncələrdən sonra bizim yolçu, nəhayət, geriyə qayıtmağa qərar verdiyi dəqiqədə, həmin uşaq yenə qayıtdı, onun yanınca yaşlı bir qadın gəlmişdi.

Qadın:

– Cənab, – dedi, – oğlum deyir ki, sizə kabriolet lazımdır, bu düzdürmü?

Uşağın özü ilə gətirdiyi yaşlı qadın tərəfindən söylənən bu sadə sözlər ona elə təsir etdi ki, bütün bədənini tər basdı. Zənn etdi ki,

onu buraxmış olan dəhşətli əl qaranlıqda görünərək yenə onu tutmaq istəyir.

– Bəli, əzizim, mən kabriolet tutmaq istəyirəm, – deyə cavab verdi.

Sonra tələsik əlavə etdi:

– Lakin burada kabriolet yoxdur.

– Vardır, – deyə qadın cavab verdi.

– Kimdə var? – deyə arabadüzəldən soruşdu.

Qadın:

– Məndə, – deyə cavab verdi.

Yolçu titrədi. Dəhşətli əl yenə onu öz pəncəsinə aldı.

Qarının mərəyində, doğrudan da, kuzovu söyüd budaqlarından hörülmüş köhnə, təkatlı bir araba vardı. Arabadüzəldənlə meyxana lakeyi mənfəətli müştərinin əldən çıxacağını görüb, onu fikrindən daşındırmağa çalışdılar.

– Bu da minik arabasıdır! Bu ki qırıq-sökük bir şeydir. Oturacağı qayışla bağlanmışdırsa da, çox rütubət çəkmişdir, lap suyu axır. Təkərləri paslanmış və çürümüşdür, bir az yol getdin, dağılacaq – lap sarsaq şeydir. Belə arabaya etibar edib yola çıxan adamın vay halına!

Onlar doğru deyirdilər, lakin bu qırıq-sökük araba iki saz təkər üzərində durmuşdu və onu Arrasa aparıb çıxara bilərdi.

İstədikləri qədər pul verdi, tilburini təmir etmək üçün arabadüzəldənin yanında qoydu, geriyə qayıtdığı zaman aparacağını şərtləşdi, ağ atı qarının arabasına qoşmağı əmr etdi. Sonra arabaya minib, səhərdən bəri gəldiyi yola davam etdi.

Araba yerindən tərpəndiyi zaman, səfərin baş tutmayacağını düşündüyü dəqiqədə bir az sevinc hiss etdiyini xatırladı. İndi isə bu sevincə qarşı qəlbində bir hiddət duydu və onu mənasız gördü. Burada sevinməli bir şey yox idi. O ki öz arzusu ilə gedirdi. Onu heç kəs məcbur etmirdi.

Söz yox ki, istəməsə, ona heç bir şey ola bilməz.

Esendən yola çıxdığı zaman arxadan birisinin: “Dayanın, dayanın!” – deyə bağırdığını eşitdi. Ümidə bənzəyən həyəcanlı və əsəbi bir hərəkətlə atı birdən-birə saxladı.

Onu çağıran qarının oğlu idi.

– Cənab, – dedi, – axı arabanı sizə mən tapdım!

– Hə, nə olsun ki?

– Siz mənə bir şey vermədiniz.

Hər kəsə məmnuniyyət və səxavətlə pul verən adam bu xahişi çox iddialı və həyasız hesab etdi.

– Aha, həmin yaramaz uşaq sənsən? Sənə bir quruş da verməræm! – deyə atı qamçıladı və sürətlə getdi.

Esdendə çox vaxt itirmişdi, bunun əvəzini çıxmaq istəyirdi. Balaca at çox qüvvətli idi və iki atın əvəzini verirdi. Lakin fevral ayı olduğu üçün yağışlar yolu xarab eləmişdi. Bir də araba çox ağır və yöndəmsiz idi. Bundan başqa, yoxuşlar da çox idi.

Esdendən Sen-Pola qədər, təxminən, dörd saat vaxt sərf etmişdi. Beş lyö dörd saata!

Sen-Polda ilk təsadüf etdiyi meyxananın yanında atı açıb tövləyə aparmağı tapşırdı. Skoflerə verdiyi vədə sadiq qalaraq at yemini yeyib qurtarıncaya qədər axurun yanında dayandı. Başında kədərli və dumanlı fikirlər dolaşırdı.

Meyxanaçı qadın tövləyə girərək:

– Cənab, – dedi, – yemək arzu edirsinizmi?

O:

– Doğrudan da, – dedi, – mən çox acmışam.

Qadının dalınca getdi, gümrah və şən sifətli bu qadın onu aşağı mərtəbədəki bir otağa apardı, masaların üstünə süfrə əvəzinə müşəmbə salınmışdı.

– Ancaq bir az tez olun, – dedi, – Mən bu saat yola düşməliyəm. Tələsirəm.

Yoğun vücudlu flamandiyalı xidmətçi qadın tələsik qabları masanın üstünə qoydu. O, məmnun nəzərlərlə xidmətçiyə baxırdı.

"Səbəb ancaq bu ola bilər, – düşündü. – Səhərdən bir şey yeməmişəm".

Ona yemək gətirdilər. Çörəyin üstünə düşüb bir tikə dişlədi, sonra çörəyi yavaşca yenə masanın üstünə qoydu və bir daha ona əl uzatmadı.

Qonşu masada bir yük arabaçısı yemək yeyirdi. Yolçu ondan soruşdu:

– Bu çörəyin dadı niyə acıdır?

Arabaçı alman olduğundan yolçunun sualını başa düşmədi. Yolçu yenə tövləyə, atının yanına qayıtdı.

Bir saatdan sonra Sen-Poldan Tenkə doğru yola düşdü. Tenkdən Arrasa ancaq beş lyö idi.

Bu səfər zamanı o, nə ilə məşğul olurdu? Nə düşünürdü? Səhər olduğu kimi, indi də təsadüf etdiyi ağaclara, küləşli damlara, şumlanmış düzlərə, yolun dönüşlərində dəyişən təbiət mənzərələrinə baxırdı. Belə tamaşalar bəzən insanın qəlbini büsbütün məşğul edərək onu, demək olar ki, düşünmək zərurətindən azad edir. Minlərcə şeyləri birinci və son dəfə görməkdən kədərli və eyni zamanda dərin mənalı bir hal ola bilərmi? Səyahət etmək – hər saniyədə doğulmaq və ölmək deməkdir. Kim bilir, bəlkə də, fikirlərinin ən dumanlı bir guşəsində bu tez-tez dəyişən üfüqlər insan həyatı ilə qarşılaşdırılırdı!

Bütün həyat hadisələri arasıkəsilmədən bizdən qaçır. Hər bir qaranlığın işıqlı bir gündüzü var. Hər bir şimşəkdən sonra yenə qaranlıq çökür. Siz seyr edir, tələsir, keçici bir xəyalı tutmaq üçün əllərinizi uzadırsınız. Hər bir hadisə – yolun döngəsi deməkdir. Yolları dönə-dönə, birdən qocalıq başınızın üstünü alır. Siz bir təkan hiss edirsiniz, ətraf qaranlıqdır, qarşınızda duman arasından açıq bir qapı görürsünüz, sizi buraya gətirib çıxaran həyatın qəmli atı dayanır və qaranlıqda üzüörtülü bir kimsə, tanımadığınız bir kimsə atı açmağa başlayır.

Qaranlıq çökürdü, yolçu Tenkə girərkən uşaqlar artıq məktəbdən qayıdırdılar. Günlər hələ qısa idi. O, Tenkdə dayanmadı. Kənddən çıxdığı zaman yola daş döşəyən bir fəhlə başını qaldırıb ona dedi:

– Atı yaman yormusunuz.

Doğrudan da, yazıq heyvan ayaqlarını zorla sürüyürdü.

– Arrasamı gedirsiniz? – deyə fəhlə soruşdu.

– Bəli.

– Belə getsəniz, oraya çox gec çatarsınız.

Yolçu atını dayandıraraq fəhlədən soruşdu:

– Buradan Arrasa hələ çoxmu qalmışdır?

– Yeddi lyö olar.

– Necə, yeddi lyö? Poçt yolları cədvəlində ancaq beş lyö bir çərək yol olduğu göstərilmişdir.

– Aha, siz, yəqin, yolların bu saat təmir edildiyini bilmirsiniz. Buradan on beş dəqiqə yol getdikdən sonra, yolun kəsilmiş olduğunu görəcəksiniz.

– Siz bunu doğrumu deyirsiniz?

– Sol tərəfdən Karansiyə gedən yola dönərsiniz, orada bir çay keçəcəksiniz, Kamblenə çatandan sonra sağa dönərsiniz. Orada Mon-Sent-Eluadan Arrasa gedən yola düşərsiniz.

– Lakin qaranlıqlaşır, yolu aza bilərəm.

– Siz buralı deyilsiniz?

– Xeyr.

– O halda, əlbəttə, aza bilərsiniz. Həm də kəndarası yollarla getməli olacaqsınız. Dayanın, sizə bir məsləhət verim. Atınız yorğundur, Tenkə qayıdın. Orada yaxşı bir mehmanxana var. Gecəni orada qalıb, səhər Arrasa gedərsiniz.

– Mən bu axşam orada olmalıyam.

– Onda başqa məsələ. O halda yenə də qayıdın və atınıza kömək olmaq üçün daha bir at alın. Mehtər sizə yolu göstərər.

Yolçu fəhlənin məsləhətinə qulaq asaraq atı döndərdi və yarım saatdan sonra yenə həmin yola düşdü: ancaq bu dəfə arabaya iki at qoşulmuşdu və sürətlə gedirdi. Özünü bələdçi adlandıran mehtər arabanın qozlasında əyləşmişdi.

Yolçu çox vaxt itirdiyini hiss edirdi.

Hava lap qaranlıqlaşdı.

Kəndarası yola çıxdılar. Araba xəndəkdən xəndəyə düşürdü, yolçu sürücüyə dedi:

– Tez sür, araq pulunu ikiqat artıq verərəm.

Xəndəklərin birində arabanın dişləsi sındı.

Mehtər dedi:

– Cənab, dişlə sındı. İndi bilmirəm öz atımı necə qoşum. Gecə vaxtı bu yolla getmək çox çətindir. Tenkə qayıdıb gecələsəniz yaxşı olmazmı? Sabah biz səhər tezdən Arrasda olarıq.

– Səndə kəndir və bıçaq yoxdurmu?

– Var, cənab.

Ağacdan bir budaq kəsib dişlə düzəltdi.

Bu da iyirmi dəqiqə vaxt apardı; ancaq sonra atlar çaparaq getməyə başladılar.

Qaranlıq düzləri bürümüşdü. Qara duman parçaları təpələrin üstünə sərilir və birdən tüstü kimi onlardan ayrılıb yüksəlirdi. Buludlarda ağımtraq işıqlar görünürdü. Dəniz tərəfdən əsən şiddətli külək üfüqün hər bir tərəfində gurlayırdı, elə bil, görünməz əllər ağır bir

mebeli yerindən tərpədirdi. Sanki, bütün ətraf qorxudan titrəyirdi. Gecənin qüdrətli nəfəsində nə qədər gizli dəhşətlər var!

Soyuq hava yolçunun sümüyünə qədər işləyirdi. O, dünəndən bəri bir şey yeməmişdi. Din ətrafında geniş düzlərdə başqa bir gecə səyahəti yadına düşdü. O zamandan səkkiz il keçirdi, lakin ona bu, dünən kimi görünürdü.

Uzaqdan saat zənginin səsi gəldi. O, sürücüdən soruşdu:

– Saat neçədir?

– Yeddidir, cənab, səkkizdə Arrasa çatacağıq. Yalnız üç lyö yolumuz qalıb.

Bu dəqiqədə ilk dəfə olaraq ağlına bir fikir gəldi – indiyə kimi nə üçün bunu düşünmədiyinə heyrət etdi. – Etdiyi bütün səylər, bəlkə, tamamilə əbəsdi: o, məhkəmənin saat neçədə başlayacağını belə bilmirdi, heç olmasa, bunu gərək öyrənib biləydi, oraya getmək və bundan nə kimi bir nəticə çıxacağını bilməmək, ona mənasız bir iş kimi görünürdü. Sonra götür-qoy eləyib hesabladı ki, məhkəmə iclası, adətən, səhər saat doqquzda başlayır, bu işə baxmaq çox uzun sürməz, alma oğurluğu böyük bir məsələ deyil. Oğurluq işinə baxıldıqdan sonra, şübhəsiz, caninin kim olduğunu aydınlaşdırmaq məsələsi qalır; dörd-beş şahidin dindirilməsi çox vaxt almaz, buna görə də vəkillərin nitqi çox qısa olacaq, xülasə, o gəlib çatdığı zaman artıq hər bir şey qurtarmış olacaqdır.

Sürücü atları sürətlə sürürdü. Çayı keçdilər, Mon-Sent-Elua arxada qaldı.

Gecə get-gedə qaranlıqlaşırdı.

Altıncı fəsil

SİMPLİSİYA BACININ İMTAHANI

Elə bu əsnada Fantina şad və xürrəm idi.

Gecəni çox pis keçirmişdi. Şiddətlə öskürürdü, bərk qızdırması vardı: qorxulu yuxular onu narahat edirdi. Səhər yanına həkim gəldiyi zaman Fantina sayıqlayırdı. Həkim açıqdan-açığa təşvişə düşüb, cənab Madlen qayıdan kimi ona xəbər verməsini xahiş etdi.

Fantina səhər qəmli görünürdü, heç kəslə danışmırdı, barmaqları ilə mələfəni əzişdirərək, öz-özünə bəzi rəqəmlər söyləyirdi, sanki, məsafəni hesablayırdı. Gözləri tamam çuxura düşmüşdü, daim bir nöqtəyə baxırdı. Sanki, gözlərinin nuru sönmüşdü, lakin bəzən bu gözlər alışır, ulduz kimi parıldamağa başlayırdı. Bəlkə də, ölüm dəqiqəsi yaxınlaşanda artıq yer üzünü görməyəcək gözlərə göylər nur saçır.

Simplisiya bacı Fantinadan əhvalını soruşduğu zaman, o, hər dəfə cavab verirdi: "Yaxşıyam. Ancaq cənab Madleni görmək istərdim".

Fantina bir neçə ay bundan əvvəl, öz son həyasını və son sevincini itirdiyi zaman, vücudu kölgəyə bənzədiyi halda, indi xəyala bənzəyirdi. Cismani xəstəlik mənəvi xəstəliyin işini tamamlamışdı. Bu iyirmi beş yaşlı qadının alnı qırışlarla dolu, yanaqları batıq, burnu iti, dişlərinin əti qaçmış, üzü qurğuşun rəngində, boynu arıq, sinə sümükləri qabarıq, bədəni zəif idi, dərisi torpaq kimi bozarmışdı, yenidən uzanmağa başlayan sarışın saçlarına dən düşmüşdü. Heyhat! Xəstəlik böyük bir məharətlə üzümüzü qocaların üzünə bənzədir!

Günorta vaxtı həkim yenə gəldi, bəzi tapşırıqlar verdi, cənab merin xəstəxanaya gəlib-gəlmədiyini soruşdu və başını yırğaladı.

Cənab Madlen, adətən, xəstənin yanına saat üçdə gələrdi. Bu qədər dəqiq olmasına səbəb mərhəmətli olması idi: o, mərhəmətli olduğu üçün də dəqiq idi.

Fantina saat üçün yarısında həyəcan keçirməyə başladı. O, iyirmi dəqiqə ərzində rahibədən azı on dəfə "Bacı, saat neçədir?", – deyə soruşmuşdu.

Nəhayət, üç tamam oldu. Saatın üç dəfə vurduğunu eşidən Fantina, adətən, hərəkətsiz uzandığı halda durub yatağında oturdu, arıq, sarı əllərini əsəbi bir halda sıxdı və rahibə onun dərindən bir ah çəkdiyini eşitdi, deyirlər ki, bu ahları ürəkdən daş düşdüyü zaman çəkərlər. Sonra Fantina dönüb qapıya baxdı.

Lakin otağa kimsə daxil olmadı, qapı açılmadı.

Xəstə on beş dəqiqəyə qədər bu vəziyyətdə qaldı: gözlərini qapıya dikmişdi, hərəkət etmir, nəfəs almırdı. Simplisiya bacı onunla danışmağa cəsarət etmədi. Kilsə qülləsindəki saat yenə vurdu: saat dördə on beş dəqiqə işləmişdi. Fantina yenə balışın üzərinə yıxıldı.

O bir söz demədi və yenə mələfəni qatlamağa başladı.

Yarım saat keçdi, bir saat keçdi. Kimsə gəlmədi. Hər dəfə saat vurduğu zaman Fantina dik oturur, qapıya baxmağa başlayırdı, sonra isə yenə balışın üzərinə yıxılırdı.

Hamı onun nələr düşündüyünü anlayırdı, lakin Fantina heç kəsin adını çəkmir, şikayət etmir, heç kəsi təqsirləndirmirdi. O, yalnız dəhşətli, məşum bir öskürəklə öskürürdü. Sanki, onun üzərinə zülmət çökürdü. Üzü meyit kimi sapsarı, dodaqları isə gömgöy idi. Arabir gülümsəyirdi.

Saat beş oldu. Simplisiya bacı Fantinanın yavaşcadan və mülayim bir səslə: "Mən sabah gedərəm, o, bu gün gəlməməkdə yaxşı iş görmədi!" – dediyini eşitdi.

Simplisiya bacının özü də cənab Madlenin nə üçün gecikdiyinə təəccüb edirdi.

Xəstə Fantina isə artıq yuxarıya, yatağının örtüyünə baxır və sanki, bir şey axtarır və yaxud bir şeyi xatırlamaq istəyirdi. Birdən o, mehin əsməsi kimi zəif bir səslə oxumağa başladı. Rahibə onun nəğməsinə qulaq asırdı. Fantina belə bir nəğmə oxuyurdu:

Sakit qəsəbələrdə bazar günü alarıq
Biz qəribə şeyləri gəzə-gəzə, mələyim.
Ah, ey mənim ağ gülüm, ey mənim doğma körpəm,
Ah, ey mənim ağ gülüm, ah, ey zərif çiçəyim!
Keçən gün gözlərimə göründü Məryəm ana, –
İsti soba başında, əynində qızıl rəda,
Dilə gəlib söylədi: "Artıq çatdın arzuna, –
Sən övlad istəyirdin, bir qız bəxş etdim sənə,
– Tez ol görək, çıxıbdır yadımızdan bər-bələk,
Qaç, iynə-sap gətir sən, kətan gətir, mələyim;
Sakit qəsəbələrdə bazar günü alarıq
Biz qəribə şeyləri gəzə-gəzə, mələyim.
"Çarpayımın yanında, bir guşədə durur, bax,
Çiçək kimi, tərtəmiz, zərif, gözəl bir beşik,
O ilahi göylərdə ulduz olarmı tapmaq
Mənim qəşəng qızım tək işıqlı olsun, deyin?"
– Xanım, bəs bu kətanı de, neyləyim? – Əzizim,
Sən bu körpə qızıma, əyləş cehiz tik, düzəlt!
Ah, ey mənim ağ gülüm, ey mənim doğma körpəm,
Ah, ey mənim ağ gülüm, ah, ey zərif çiçəyim!

– Kətanı yu. – Harada? – Orda, sərincə arxda.
Ləkə salma, – sobanın başında əyləş görək,
Tuman-köynək tik qıza, əyninə olsun taraz,
Mən də çəkim üstünə sonra mavi gül-çiçək.
– Aman! Hanı, nə oldun, gözəl balam, indi sən!
Nə eləyim? – Ölürəm, hazırdır məzar, kəfən.
Sakit qəsəbələrdə, bazar günü alarıq
Biz qəribə şeyləri gəzə-gəzə, mələyim.
Ah, ey mənim ağ gülüm, ey mənim doğma körpəm,
Ah, ey mənim ağ gülüm, ah, ey zərif çiçəyim!

Bu nəğmə köhnə bir layla idi, vaxtilə Fantina öz balaca Kozettasını yatızdırmaq üçün bu laylanı çalardı. Qızını görmədiyi bu beş il ərzində o, bir dəfə belə bir nəğməni xatırlamamışdı. Fantina bu nəğməni elə həzin bir səslə və elə məsumanə oxuyurdu ki, onun bu halına hər kəsin, rahibənin belə yazığı gələ bilərdi. Sərt və ciddi bir həyat sürmüş, ürəyi bərkimiş şəfqət bacısı gözlərinin yaşardığını hiss etdi.

Kilsə saatı altı dəfə vurdu. Fantina, sanki, bu səsi eşitmədi. Ətrafında heç bir şeyə əhəmiyyət vermədiyi görünürdü.

Simplisiya bacı fabrik qapısının yanına adam göndərdi ki, cənab merin evinə qayıdıb-qayıtmadığını və xəstəxanaya tezmi gələcəyini öyrənsin. Xidmətçi qız bir neçə dəqiqə sonra qayıtdı.

Fantina yenə də hərəkətsiz uzanmışdı, fikrə daldığı görünürdü.

Xidmətçi qız Simplisiya bacıya bütün əhvalatı xəlvətcə xəbər verdi: cənab Madlen səhər tezdən, hələ saat altı olmamış, ağ at qoşulmuş balaca bir tilburidə hara isə getmişdir. Havanın soyuq olduğuna baxmayaraq, yalqızca, sürücüsüz yola düşmüşdü. Onun haraya getdiyini kimsə bilmirdi. Onun Arras yoluna doğru getdiyini görənlər olmuşdusa da, başqaları ona Paris yolunda rast gəldiklərini söyləyirdilər. Yola düşərkən o, həmişəki kimi, mehriban idi. Ancaq qapıçı qadına söyləmişdi ki, onu bu gecə gözləməsinlər.

Qadınlar arxalarını Fantinanın yatağına tərəf çevirib pıçıldaşırdılar. Şəfqət bacısı sual verir, xidmətçi qız öz mülahizələrini söyləyirdi. Bu zaman Fantina, bəzi üzvi xəstəliklərə məxsus və tam sərbəst hərəkətlərlə dəhşətli bir ölüm zəifliyindən doğan bir əsəbi qıvraqlıqla yatağın üzərində diz üstə oturdu və yumruqlarını balışa dirəyərək,

başını pərdələrin arasından uzadıb, iki qadının pıçıltısına qulaq asmağa başladı. Birdən Fantina çığırdı:

– Siz cənab Madlendən söhbət edirsiniz! Nə üçün pıçıldaşırsınız? Ona nə olmuşdur? Nə üçün buraya gəlmir?

Fantinanın səsi o qədər kəskin və xırıltılı idi ki, qadınlar bunu kişi səsi zənn edərək, diksinmiş bir halda boylanıb baxdılar.

Fantina çığıraraq:

– Niyə cavab vermirsiniz? – dedi.

Xidmətçi qız dili tutula-tutula cavab verdi:

– Qapıçı qadın mənə onun bu gün gələ bilməyəcəyini söylədi.

Şəfqət bacısı:

– Bala, – dedi, – sakit olun, uzanın.

Fantina vəziyyətini dəyişmədən, amiranə və eyni zamanda, ürək paralayan bir səslə ucadan danışmağa başladı:

– Gələ bilməyəcək? Niyə gələ bilməyəcək? Siz bunun səbəbini bilirsiniz. Bu saat siz bu barədə bir-birinizlə pıçıldaşırdınız. Mən həqiqəti bilmək istəyirəm.

Xidmətçi qız cəld şəfqət bacısına pıçıldadı: "Deyin ki, o, şəhər şurasındadır".

Simplisiya bacı bir az qızardı, xidmətçi qız ona yalan danışmağı məsləhət görürdü. O biri tərəfdən o özü də yaxşıca bilirdi ki, xəstəyə həqiqəti söyləmək ona ağır bir zərbə vurmaq kimi bir şeydir. Fantinanın indiki vəziyyətində isə belə bir zərbə çox təhlükəli ola bilərdi. Lakin üzünün qızartısı tez yox oldu. Şəfqət bacısı sakit və həzin bir baxışla Fantinaya baxıb dedi:

– Cənab mer getmişdir.

Fantina dikəlib çarpayının üstündə bardaş qurdu. Gözləri parıldadı. İztirablı üzündə hüdudsuz bir sevinc göründü. Çığıraraq:

– Getmişdir! – dedi. – O, Kozettanın dalınca getmişdir!

Fantina əllərini göyə qaldırdı. Üzündə misilsiz bir səadət parladı. Dodaqları tərpənir, yavaş bir səslə dua oxuyurdu.

Duanı qurtardıqdan sonra Fantina dedi:

– Bacıcan, mən bu saat uzanacağam, mənə nə desələr, əməl edəcəyəm. Mən kobudluq göstərdim, ucadan danışdığım üçüm məni bağışlayın, ucadan danışmağın yaxşı şey olmadığını bilirəm: ancaq, əziz bacı, nə qədər sevindiyimi görürsünüz. Allah-taala nə qədər mərhəmətlidir... Cənab Madlen nə qədər rəhmdildir... Təsəvvür

edin, o, Monfermeylə getmişdir, mənim balaca Kozettamı gətirəcəkdir!

Fantina yerinə uzandı, yastığı düzəldən rahibəyə kömək etdi. Simplisiya bacının bağışlamış olduğu və boynundan sallanan balaca gümüş xaçı öpdü. Şəfqət bacısı:

– Bala, – dedi, – indi sakit olmağa çalışın, daha danışmayın.

Fantina şəfqət bacısının əlini tərli əllərinə aldı, şəfqət bacısı onun tərli olduğunu kədərlə hiss etdi.

– Cənab Madlen bu səhər Parisə getmişdir. Halbuki o, Parisdən keçməyə də bilərdi. Monfermeyl bir az sol tərəfdədir. Yadınızdadırmı, dünən mən ona Kozettadan danışdığım zaman, o: "az qalıb, az qalıb!" – deyə cavab vermişdi. O, mənə sürpriz hazırlamaq istəmişdir. Bilirsiniz, uşağı Tenardyedən almaq üçün o, mənə bir məktub imzalatdırdı. Onlar, yəqin ki, etiraz etməzlər, deyilmi? Kozettanı verərlər. Axı haqları büsbütün verilmişdir. Haqqı verildikdən sonra hökumət onlara uşağı saxlamağı icazə verməz. Bacıcan, məni dayandırmayın, qoyun danışım. Mən nə qədər xoşbəxtəm... Lap sağlamam, mənim heç bir yerim ağrımır, mən Kozettanı görəcəyəm, hətta bir az acmışam da... Axı mən onu, az qala, beş ildir görməmişəm. Ürəyim uşağı necə istədiyini təsəvvürünüzə belə gətirə bilməzsiniz! Bir də Kozetta çox sevimli bir qızdır, özünüz görəcəksiniz! Ah, onun xırdaca barmaqlarını görsəydiniz, nə qədər qəşəng, lap gül kimidir! Onun əlləri çox gözəl olacaqdır! Amma hələ bir yaşında ikən əlləri biçimsizdi! Bax, belə! Yəqin, indi lap böyümüşdür. Zarafat deyil, yeddi yaşı var. Lap xanım qızdır. Mən ona Kozetta deyirəm, amma əsl adı Efrazidir. Bax bu gün mən buxarının üstündəki toza baxırdım, birdən mənə elə gəldi ki, tezliklə qızımı görəcəyəm. Ya rəbb, uşağın üzünü illərlə görməmək nə pis şeymiş! İnsanlar ömürlərinin əbədi olmadığını heç bir zaman unutmamalıdırlar. Cənab mer nə qədər mərhəmətlidir, Kozetta üçün özü getmişdir! Deyirlər ki, bayırda bərk soyuqdur, doğrudurmu? O, heç olmasa, plaşını özü ilə götürəydi. Siz nə fikirdəsiniz, o, sabah gələrmi? Sabah bayram olacaq. Bacıcan, xahiş edirəm mənim yadıma salasınız ki, sabah krujevalı başlığımı geyim! Monfermeyl böyük bir dairədir. Bir dəfə mən bu yolu piyada getmişəm. Yol mənə çox uzun görünmüşdü... Lakin dilicanlar sürətlə gedir! O, sabah Kozetta ilə birlikdə burada olacaq! Buradan Monfermeylə nə qədər yol olar?

Məsafələrdən qətiyyən başı çıxmayan şəfqət bacısı:

– Mən onun sabah burada olacağına əminəm! – deyə cavab verdi.

Fantina isə təkrar edərək:

– Sabah! Sabah! – deyirdi. – Sabah mən Kozettamı görəcəyəm! Mehriban bacı, siz mənim artıq sağlam olduğumu bilirsiniz. Şadlığımdan lap dəli oluram. Əgər istəsəniz, lap rəqs edə bilərəm!

On beş dəqiqə bundan əvvəl Fantinanı görənlər onda əmələ gələn bu dəyişikliyi qətiyyən anlamazlar. Üzünün rəngi açılmışdı, səsində canlılıq və təbiilik duyulurdu, üzü təbəssümlə parlayırdı. O hey gülür və yavaşcadan öz-özü ilə danışırdı. Ananın sevinci də uşağın sevinci kimi bir şeydir.

Rahibə dedi:

– Bilirsinizmi, siz bu saat xoşbəxtsiniz, odur ki sözə qulaq asmalısınız, sizə danışmaq yaramaz.

Fantina başını yastığın üstünə qoyub yavaşcadan dedi:

– Bəli, bəli, uzan, ağıllı ol, sabah sənin balanı gətirəcəklər. Simplisiya bacı haqlıdır. Buradakıların hamısı haqlıdır.

Sonra isə hərəkət etmədən, başını belə çevirmədən, geniş açılmış fərəhli gözləri ilə otağı seyr etməyə başladı. Daha bir kəlmə də danışmadı.

Şəfqət bacısı, Fantina yatsın deyə, pərdəni çəkdi.

Saat yeddi ilə səkkiz arasında həkim gəldi. Otaqda dərin bir sükut olduğundan o, Fantinanın yatdığını zənn edərək, yavaşca içəri girdi və ayaqları ucunda yeriyərək, çarpayıya yaxınlaşdı. Pərdəni açdı. Fantinanın iri və sakit gözləri çırağın işığında ona baxırdı.

Fantina həkimə dedi:

– Cənab doktor, onun üçün yanımda balaca bir çarpayı qoymağa icazə verərlərmi?

Həkim onun sayıqladığını zənn etdi. Fantina əlavə etdi:

– Baxın, – dedi, – balaca çarpayı burada lap yaxşı yerləşə bilər.

Həkim Simplisiya bacını kənara çağırdı və o, işin nə yerdə olduğunu anlatdı: cənab Madlen bir-iki günlüyə getmişdir, lakin haraya getdiyini bilmədiyi üçün Simplisiya bacı xəstəyə izahat verməyi lazım görməmişdir. Xəstə isə cənab merin Monfermeylə getdiyini zənn edir. Əslini axtarsan, bu, həqiqət də ola bilərdi. Həkim şəfqət bacısının hərəkətini bəyəndi.

O, yenə Fantinanın çarpayısına yaxınlaşdı. Fantina isə sözünə davam edərək:

– Bilirsinizmi, – deyirdi, – səhərlər oyandığı zaman, mən balaca balamla salamlaşa bilərəm, gecə vaxtı isə onun necə yatdığına tamaşa edərəm, – mən ki gecələr heç yatmıram. Quzumun necə nəfəs aldığına qulaq asmaq mənim üçün nə qədər xoş olardı.

Həkim dedi:

– Əlinizi verin.

Fantina əlini uzadıb qəhqəhə ilə çığırdı:

– Lap yadımdan çıxmışdı! Axı sizin hələ xəbəriniz yoxdur! Mən lap sağalmışam. Sabah Kozettam gələcəkdir!

Həkim heyrət içində idi. Fantinanın əhvalı, doğrudan da, yaxşılaşmışdı. Artıq rahat nəfəs alırdı. Nəbzi də yaxşı vururdu. Vücuduna birdən-birə yayılan həyat qüvvələri taqətdən düşmüş zavallı Fantinaya dirilik gətirmişdi. Fantina deyirdi:

– Cənab doktor, cənab merin mənim əziz balamı gətirmək üçün getdiyini şəfqət bacısı sizə söylədimi?

Həkim ona danışmağı qadağan etdi və hamıya tapşırdı ki, xəstəni hər bir ağır təəssüratdan qorusunlar. Xəstəyə qatışıqsız kinə suyu və gecə qızdırma yenə başlarsa, sakitləşdirici dərman verməyi tapşırdı. Gedərkən şəfqət bacısına dedi:

– Xəstənin halı yaxşılaşmışdır. Xoşbəxtlikdən, cənab mer, doğrudan da, sabah onun uşağını gətirsəydi – kim bilir? – Bəzən xəstəlikdə qəribə dəyişikliklər olur! Şiddətli bir sevinc xəstəliyi dayandıra bilər. Doğrudur, bunun xəstəliyi üzvidir, həm də dərin kök salmışdır. Lakin insan xəstəlikləri sirlərlə doludur! Kim bilir, bəlkə, bizə onu xilas etmək mümkün oldu.

Yeddinci fəsil

YOLÇU GERİ DÖNMƏYƏ HAZIRLAŞIR

Araba Arrasdakı Poçt mehmanxanası darvazasına yanaşdığı zaman, artıq axşam saat səkkiz olardı. Çoxdan bəri müşayiət etdiyimiz adam arabadan yerə endi, yandan qoşulan atı yola saldıqdan sonra mehmanxana xidmətçilərinin salamlarına pərişan bir halda

cavab verdi; balaca ağ atını isə öz əli ilə tövləyə apardı, sonra alt mərtəbədəki bilyard otağına girərək, masanın yanında əyləşdi və dirsəklənib düşüncələrə daldı. O, altı saat yolda olacağını güman etdiyi halda, on dörd saat yol gəlmişdi. Onun bu işdə təqsiri yox idi. Qəlbinin dərinliyində hətta bundan razı idi.

Mehmanxana sahibəsi bayıra çıxdı.

– Siz burada gecələyəcəksiniz, cənab? Yemək istəyirsinizmi?

Yolçu başını yırğaladı.

– Mehtərin dediyinə görə, atınız çox yorulmuşdur.

O, sükutu pozaraq:

– Sabah səhər tezdən geriyə dönmək üçün qüvvəti çatmazmı? – dedi.

– Yox, cənab, olmaz! At ən azı iki gün yorğunluğunu almalıdır.

Yenə soruşdu:

– Deyəsən, burada poçt kontoru yerləşir.

– Bəli, cənab.

Mehmanxana sahibəsi onu kontora apardı; yolçu pasportunu göstərib, "elə bu gecə poçt karetası ilə Monreyl-sür-Merə geri qayıtmaq olarmı" – deyə soruşdu. Sürücünün yanındakı yer hələ boş idi; o, bu yeri tutaraq yol pulunu verdi.

Kontor işçisi:

– Cənab, – dedi, – gecikməyin, kareta gecə, düz saat birdə yola düşəcək.

Bu işi də qurtardıqdan sonra yolçu mehmanxanadan çıxaraq, şəhəri dolaşmağa başladı.

O, Arrasa lap nabələd idi, küçələrdə camaat az görünürdü. O, yolu düz gedib-getmədiyini bilmirdi, lakin nədənsə heç kəsdən yol soruşmurdu. Kiçik Krenşon çayının üstündəki körpüdən keçdikdən sonra yolçu dolanbac və dar küçələrə düşdüyündən yolu lap azdı. Yoldan əlində yekə bir fənər tutmuş bir kişi keçirdi. Yolçu bir az tərəddüd etdikdən sonra rastına gələn bu adama müraciət etmək qərarına gəldi, lakin əvvəlcə o tərəf-bu tərəfə boylandı, sanki, soruşacağı şeyin eşidilə biləcəyindən ehtiyat edirdi.

– Cənab, – dedi, – xahiş edirəm, məhkəmə binasının harada olduğunu söyləyin.

Qoca yolçu:

– Görünür ki, cənab, siz buralı deyilsiniz, – dedi. – Bərabər gedək. Elə mən də məhkəmənin olduğu səmtə, daha doğrusu, prefekturaya

tərəf gedirəm, çünki bu saat məhkəmənin binası təmir edildiyindən, məhkəmə iclasları prefekturada keçirilir.

Yolçu soruşdu:

– Vəkillər məhkəməsi də orada keçirilir?

– Əlbəttə. Bilirsinizmi, cənab, prefekturanın indiki binası inqilabdan əvvəl yepiskop sarayı idi. Səksən ikinci ildə yepiskopluq edən monsenyor de Konzye orada böyük bir salon tikdirmişdi. Məhkəmənin iclasları da həmin salonda keçirilir.

Yolda qoca ona dedi:

– Cənab, siz məhkəmə iclasında iştirak etmək fikrindəsinizsə, bir az gecikmişsiniz. Məhkəmə iclasları, adətən, saat altıda qurtarır.

Bununla belə, geniş meydana qədəm basdıqları zaman, qoca, qaranlıqda görünən iri bir binanın dörd işıqlı hündür pəncərəsini göstərərək:

– Cənab, siz, deyəsən, gecikməmişsiniz, – dedi. – Bu dörd pəncərəni görürsünüzmü? Məhkəmə salonu budur ki, var. Orada hələ işıq yanır. Demək, iclas hələ qurtarmamışdır. Görünür, iş uzun çəkmiş, ona görə də axşam iclası təyin etmişlər. Bu iş sizi çoxmu maraqlandırır? Yəqin, cinayət işidir? Sizi şahid sifətiləmi dəvət etmişlər?

O cavab verdi:

– Mən buraya məhkəmə işi üçün gəlməmişəm. Burada ancaq bir vəkillə görüşməliyəm.

Qoca:

– Eləmi? – dedi. – Bax, bu da qapı, cənab. Yanında qarovulçu dayanmışdır. Siz böyük pilləkənlə qalxmalısınız.

Yolçu qocanın göstərişlərinə əməl edərək, bir neçə dəqiqədən sonra artıq salonun içində idi. Burada camaat çox idi, adamlar hakim rəsası geyinmiş vəkillərlə bərabər ayrı-ayrı dəstələrə bölünərək, bir-birilə pıçıldaşırdılar.

Məhkəmə astanasında bir-birilə pıçıldaşan bu qara paltarlı şəxslərə baxdıqda adamın ürəyi biixtiyar sıxılmağa başlayır. Onların ağzından nadir hallarda şəfqət və mərhəmət sözləri çıxır. Danışıqları, adətən, qabaqcadan təyin edilmiş təqsirnamələrdir. Bu dəstələrin yanından dalğın-dalğın keçən adamın nəzərində onlar vızıldayan ruhların birlikdə hazırladıqları dəhşətli fitnələrin məskəni olan qorxunc pətəklərə bənzərlər.

Yeganə bir çıraqla işıqlandırılmış bu geniş salon vaxtilə yepiskop sarayının qəbul salonlarından biri imiş, indi isə gözləmə salonu idi. Qapalı olan ikitaylı qapı bu salonu vəkillər məhkəməsinin iclas etdiyi böyük otaqdan ayırırdı.

Elə qaranlıq idi ki, yolçu heç bir şeydən ehtiyat etməyərək, rastına gələn bir vəkilə müraciət edib soruşdu:

– Cənab, iş nə vəziyyətdədir?

Vəkil cavab verdi:

– İş qurtarmışdır.

– Qurtarmışdır!

Yolçu bu sözü elə qəribə bir ahənglə təkrar etdi ki, vəkil biixtiyar dönüb ona baxdı.

– Bağışlayın, cənab, görünür ki, siz onun qohumlarındansınız?

– Xeyr. Mən burada heç kəsi tanımıram. Məhkəmənin qərarı necədir, cəzamı verilmiş?

– Əlbəttə. Başqa bir nəticə ola bilməzdi.

– Katorqayamı göndərilir?

– Ömürlük katorqaya.

Yolçu böyük bir çətinliklə eşidilən zəif bir səslə:

– Demək, onun həmin adam olduğu müəyyən edilmişdir?

– Necə yəni həmin adam? – deyə vəkil cavab verdi. – Heç bu barədə söhbət olmadı. Məsələ tamamilə aydındır. Bu qadın öz uşağını öldürmüşdür, uşağın öldürülməsi sübut edilmişdir, vəkillər isə bunun qabaqcadan düşünülmüş bir qəsd olduğu fikrini rədd etdilər, nəticədə qadın ömürlük katorqaya məhkum edildi.

Yolçu:

– Demək, bu qadınmış? – deyə soruşdu.

– Əlbəttə, qadındır. Limozen adlı bir qızdır. Bəs siz nə barədə danışırsınız?

– Elə-belə, heç bir şey. Bəs iş qurtarmışsa, nə üçün salonda hələ də işıq yanır?

– Bu saat orada başqa bir işə baxırlar. Bu iş iki saat bundan əvvəl başlanmışdır.

– O nə işdir?

– Sadəcə bir şey. Bir sərsəri, quldur, katorqalı oğurluq etmişdir. Adını unutmuşam. Sifətinə baxanda bilinir ki, əsl quldurdur. Elə mən onu bu sifətinə görə katorqaya göndərərdim.

Yolçu soruşdu:

– Cənab, salona daxil olmaq mümkündürmü?

– Zənnimcə, yox. Camaat çoxdur. Ancaq bu saat tənəffüs elan edilmişdir. Çoxları salondan çıxmışdır. İclas başlananda görün girə bilərsinizmi...

– Yol hayandandır?

– Bu tərəfdən. Bu iri qapıdan keçmək lazımdır.

Vəkil yolçudan ayrıldı. Yolçu bir neçə saniyə içində insan qəlbinin duya bildiyi bütün hissləri keçirdi, bütün hisslər birləşərək, onun qəlbini qapladı. Vəkilin qeydsiz sözləri gah onun qəlbini iti buz parçaları kimi sancır, gah da közərmiş bir dəmir kimi yandırırdı. Hələ işin qurtarmadığını öyrəndikdən sonra bir ah çəkdi: lakin yüngüllükmü, yaxud dərin bir kədərmi hiss etdiyini o özü belə təyin edə bilməzdi.

O gah bu dəstəyə, gah o dəstəyə yaxınlaşır, onların söhbətinə qulaq asırdı. Məhkəmə sessiyasının işi çox olduğundan, sədr bir günə iki sadə və qısa iş təyin etmişdi. Məhkəmə iclasını uşaq öldürmək işindən başladılar, indi isə quldur katorqalının, "geri dönəcək atın" işinə baxırdılar. Müqəssir bir neçə alma oğurlamışdı, lakin bu hələ tamamilə sübut edilməmişdi. Ancaq onun vaxtilə Tulon katorqasında olduğu sübut edilmişdi. Elə onun işini xarab edən də bu idi. Müqəssirin sorğu-sualı artıq qurtarmışdı, şahidlər də sözlərini demişdilər, yalnız müdafiə vəkili və prokurorun son sözü qalırdı ki, bu da ancaq gecəyarısı qurtara bilərdi. Caninin məhkum ediləcəyi aydınca görünürdü: prokuror müavini çox mahir adam idi, heç bir zaman müqəssirlərini əldən buraxmazdı. O, ağıllı adam idi, hətta şeir də yazırdı.

Məhkəmə salonunun qapısı önündə məhkəmə xidmətçisi dayanmışdı. Yolçu soruşdu:

– Qapını tezmi açacaqlar?

– Qapı heç açılmayacaqdır.

– Necə! İclas başlananda açmayacaqlarmı? Bu saat tənəffüs deyilmi?

– Məhkəmə başlanmışdır, – deyə xidmətçi cavab verdi, – lakin qapını açmayacaqlar.

– Nə üçün?

– Çünki salon adamla doludur.

– Necə? Heç boş yer yoxdurmu?

– Yoxdur. Qapı bağlıdır. Oraya girmək olmaz.

Bir az sükut etdikdən sonra xidmətçi sözünə davam etdi:

– Sədr kreslosunun arxasında iki-üç boş yer var, oraya da sədrin icazəsi ilə yalnız rəsmi adamlar buraxılır.

Xidmətçi bu sözləri deyib arxasını ona çevirdi.

Yolçu başını aşağı salıb ondan ayrıldı, gözləmə salonundan keçib düşünürmüş kimi hər pillədə dayanaraq, ağır-ağır pilləkəndən enməyə başladı. Bəlkə də, öz-özü ilə məsləhətləşirdi. Dünən axşamdan bəri qəlbində davam edən dəhşətli mübarizə hələ qurtarmamışdı, o hər dəqiqə bu mübarizənin yeni hücumlarına düçar olurdu. Pilləkənin başına çatınca, sürahıya söykəndi və əllərini qoltuğuna qoydu. Birdən pencəyini açaraq cibindən bir dəftərçə çıxartdı, karandaşını əlinə aldı və fənərin işığında cəld bu sözləri yazdı: "Cənab Madlen, Monreyl-sür-Mer şəhərinin meri". Sonra sürətli addımlarla pilləkəndən yuxarıya qalxdı, camaatı yararaq xidmətçiyə yanaşdı, kağızı ona verib amiranə bir səslə dedi:

– Bu kağızı cənab sədrə verin.

Xidmətçi kağızı alıb, ona bir göz gəzdirdikdən sonra dərhal buyruğu yerinə yetirməyə getdi.

Səkkizinci fəsil

İLTİFATLI QƏBUL

Monreyl-sür-Mer şəhərinin meri, özü belə bilmədən, məşhur bir adam sayılırdı. Onun fəzilətləri haqqında şayiələr yeddi il ərzində bütün Aşağı Bulona yayılmış, nəhayət, şöhrəti ölkə xaricinə çıxmış və hətta iki-üç qonşu departamentə də yayılmışdı. O yalnız qara şüşə emalı təşkil etdiyi şəhərə böyük xidmət göstərməmişdi; Monreyl dairəsinin yüz qırx bir icmasının hər biri bir şeylə ona minnətdar idi. Cənab Madlen lazım gəldiyi zaman, başqa dairələrin sənaye müəssisələrinə yardım göstərər və onların inkişafına kömək edərdi. Məsələn, bir dəfə Bulondakı tül fabrikinə, bir dəfə Frevandakı mexaniki kətantoxuma emalatxanasına, bir dəfə də Kanş çayı üzərində Buberdəki su mühərriki ilə işləyən kətan fabrikinə kredit və vəsait

buraxmaqla kömək etmişdi. Cənab Madlenin adını hər yerdə heyranlıqla təkrar edirdilər. Arras və Due şəhərləri belə bir merin idarə etdiyi Monreyl-sür-Mer kimi xoşbəxt bir şəhərə qibtə edirdilər.

Arrasda indiki məhkəmə sessiyasına sədrlik edən kral məhkəməsi üzvü Due, bir çox başqaları kimi, şərəfli və hörmətli cənab Madlenin adını eşitmişdi. Məhkəmə xidmətçisi müşavirə otağından məhkəmə salonuna açılan qapını ehtiyatla açıb sədrə tərəf əyildiyi və oxucunun bildiyi sətirlərin yazılmış olduğu kağızı ona verərək, "Bu cənab iclas salonunda olmağı arzu edir" – deyə yavaş bir səslə əlavə etdiyi zaman, sədr cəld razılıq işarəsi verdi və qələmi alaraq həmin kağızın üzərində bir neçə söz yazdı: kağızı xidmətçiyə verərək, "Buraxın gəlsin" – dedi.

Qəmli həyatını bu kitabda nağıl etdiyimiz bədbəxt adam salonun qapısı önündə, məhkəmə xidmətçisinin onu qoyub getdiyi vəziyyətdə yerindən qımıldanmayaraq durmuşdu. Dərin fikirlərə daldığından ona müraciətlə deyilən: "Buyurun, cənab, lütfən, dalımca gəlin!" sözlərini yuxuda eşidirmiş kimi oldu. Bu sözləri bir neçə dəqiqə bundan əvvəl ona arxasını çevirən həmin xidmətçi demişdi. İndi o, ikiqat olaraq ona təzim edir və cavab yazılmış kağızı təqdim edirdi. Yolçu kağızı açıb çırağın işığında bu sözləri oxudu:

"Məhkəmə sədri cənab Madlenə öz ehtiramını izhar edir".

Bu bir neçə söz yazılmış kağızı, ona qarşı acı bir kinayə imiş kimi, ovcunda əzib yumurladı.

O, xidmətçinin arxasınca getdi.

Bir neçə dəqiqədən sonra sərt görünüşlü, tünd kağızlı geniş bir kabinetdə idi: yaşıl mahudla örtülmüş masa üzərində iki şam yanırdı. Qulaqlarında hələ də məhkəmə xidmətçisinin son sözləri səslənirdi: "Müşavirə otağı budur, cənab! Qapının mis dəstəyini bursanız, məhkəmə salonuna girərsiniz, dərhal cənab sədrin kreslosu arxasında olarsınız". Bu sözlər zehnində bir az əvvəl keçmiş olduğu dar dəhlizlər və qaranlıq pilləkənlərlə qəribə bir halda qarışırdı.

Məhkəmə xidmətçisi onu tək buraxdı. Son qərar dəqiqəsi gəlmişdi. Fikrini toplamağa çalışırdı, lakin müvəffəq ola bilmirdi. Adətən, insan öz fikirlərini həyatın iztirablı həqiqətləri ilə bağlamaq istədikdə, bu bağlar tez-tez qırılır. İndi o, məhkəmə üzvlərinin müşavirə etdikləri və qərar çıxardıqları otaqda idi. Çaşqın bir sakitliklə bu sakit və eyni zamanda qorxunc otağı nəzərdən keçirirdi. Burada bir

çox insan həyatı məhv edilmişdi, bir az sonra onun da adı burada eşidiləcək, taleyinə qərar veriləcəkdi. Divarları seyr edir, özünə baxırdı, bu otaqda olduğuna təəccüb edirdi, buradakı adamın özü olduğuna inanmırdı.

İyirmi dörd saat ərzində heç bir şey yeməmişdi, arabanın silkələməsindən son dərəcə yorulmuşdu, lakin nə aclıq, nə yorğunluq – heç bir şey hiss etmirdi, bütün hisslərinin öldüyünü zənn edirdi.

O, divara yaxınlaşdı. Bu divardan şüşə altında qara çərçivəli bir məktub asılmışdı. Bu bir Paris meri və naziri Jan Nikol-Paş tərəfindən yazılmış və ehtimal ki, səhv olaraq II il doqquz iyun tarixilə qeyd olunmuşdu. Məktubda Paş yerli icma idarəsinə öz evlərində həbsdə olan nazirlərin və deputatların siyahısını göndərirdi. Yolçunu bu dəqiqədə görən və onun hərəkətlərinə tamaşa edən olsaydı, şübhəsiz, bu qərara gələrdi ki, o, məktubla son dərəcə maraqlanır, çünki gözlərini məktubdan ayırmayaraq, onu iki-üç dəfə başdan-başa oxudu. Halbuki o, məktubu tamamilə şüursuz oxuyur və mətninin mənasını düşünmürdü. Onun bu saat düşündüyü bir şey vardısa, o da ancaq Fantina və Kozetta idi.

Dalğın bir halda dönüb geriyə baxdı, gözü onu məhkəmə salonundan ayıran qapının mis dəstəyinə sataşdı. O, bunu büsbütün unutmuşdu. Əvvəlcə sakit olan nəzəri, qapının dəstəyinə dikilərək oradan ayrıla bilmirdi, yavaş-yavaş gözlərində əvvəlcə qorxu, sonra böyük bir dəhşət göründü. Alnından iri tər damcıları axırdı, saçları tərdən nəm olmuşdu.

Birdən nifrət və etiraz ifadə edən bir hərəkət etdi və sanki, özünə dedi: “Lənət şeytana! Bu işə məni məcbur edən kimdir!” Sonra birdən-birə dönüb bu otağa girdiyi qapıya baxdı, qapını açıb bayıra çıxdı. Artıq o, qorxunc otaqda deyil, uzun, dar bir dəhlizdə idi. Dəhlizin bir çox guşə və döngələr əmələ gətirən pillələri və keçidləri vardı, xəstənin başı üstündə yanan gecə çırağına bənzəyən fənərlərlə işıqlanmışdı. Xülasə, müşavirə otağına bu dəhlizdən keçib gəlmişdi. Nəfəs aldı. Dinlədi. Heç bir səs gəlmirdi, ətraf büsbütün sakit idi, onu qovlayırlarmış kimi birdən qaçmağa başladı.

Dəhlizlə bir qədər qaçdıqdan sonra yenə dayanıb dinlədi. Ətraf yenə sakit və qaranlıqdı. Nəfəs ala bilmirdi. Dizləri bükülürdü. Divara söykəndi. Divarın daşı soyuq idi, alnından axan tər üzünü buz kimi üşüdürdü. Birdən özünü dikəldərək titrəməyə başladı.

Qaranlıq dəhlizdə tək-tənha, soyuqdan, bəlkə də, həyəcandan titrəyərək fikrə getdi.

Bütün gecəni, bütün günü düşünmüşdü: indi isə içərisindən yalnız bir səs: "heyhat!" deyə bağırırdı.

Bir on beş dəqiqə də belə keçdi. Nəhayət, başını aşağı salıb dərin bir iztirab içində nəfəs aldı; qolları yanına düşdü, yavaş-yavaş geriyə döndü. Çox yavaş, taqətdən düşmüş adam kimi yeriyirdi. Sanki, birisi onu qaçarkən yaxalamışdı və indi zorla geriyə qaytarırdı.

Yenə müşavirə otağına girdi. Ən əvvəl gözünə çarpan şey qapının parlayan dəyirmi dəstəyi idi. Bu mis dəstək gözləri qarşısında bir dan ulduzu kimi parlayırdı. Bir qoyun pələngin gözünə necə baxırsa, o da elə bir dəhşətlə ona baxırdı.

Gözlərini qapının dəstəyindən ayıra bilmirdi.

Addım-addım qapıya yaxınlaşırdı.

Əgər bir az qulaq assa idi, salondan gələn qarışıq, anlaşılmaz danışığı eşidərdi, lakin o, heç bir şey dinləmir və heç bir şey eşitmirdi.

Birdən özü belə duymadan, qapının yanına çatdı. Qeyri-ixtiyari olaraq əlini qapının dəstəyinə atdı, qapı açıldı.

O artıq məhkəmə salonunda idi.

Doqquzuncu fəsil

MƏSLƏKLƏRİN YARANDIĞI YER

Bir addım irəli ataraq arxasınca qapını qeyri-ixtiyari bağladı; dayanıb ətrafına nəzər saldı.

Bu, zəif işıqlanmış geniş bir salondu, burada gah gurultular birbirinə qarışıb çoxalır, gah da səs-səmir büsbütün kəsilirdi. Toplanmış camaatın gözləri qarşısında miskin bir ciddiyyət və məşum bir təntənə ilə cinayət işinə baxılırdı.

Dayandığı salonun bu başında dalğın bir görünüşdə dırnaqlarını gəmirən, yaxud sadəcə, gözləri yarıya qədər yumulu oturan hakimdir; o biri başında isə – cır-cındır geyinmiş adamlar: müxtəlif vəziyyətdə əyləşən vəkillər, ciddi və sərt üzlü əsgərlər, köhnə və ləkəli kağızlarla örtülmüş divarlar, kirli tavan, yaşıl rəngini itirib saralmış

sarja[1] ilə örtülü masalar, minlərlə əllərin sürtülməsindən qaralmış qapılar görünürdü, divarlara çalınmış mıxlardan meyxanalarda yanan qara çıraqlar asılmışdı ki, bunların hisi işığından çox olur. Masaların üstündəki mis şamdanlarda piy şamlar yanırdı. Hər tərəf alaqaranlıq, çirkinlik, ələm içində idi. Bununla belə, bunların hamısı bir yerdə ciddiyyət və əzəmət təsiri bağışlayırdı, çünki burada qanun adlanan ülvi insan əsasının və ədalət adlanan ülvi Tanrı əsasının varlığı görünürdü.

Camaat arasında kimsə ona fikir vermirdi. Bütün gözlər bir nöqtəyə dikilmişdi. Bu nöqtə sədrin sol tərəfindəki divarın dibində qoyulmuş və qapının yanında olan taxta bir oturacaq idi. Bir neçə şamla işıqlanmış bu oturacağın üstündə iki jandarmın arasında bir adam oturmuşdu.

Bu adam həmin adamdı.

Madlen bu adamı axtarmadı, onu dərhal gördü. Gözləri qeyri-ixtiyari olaraq ona doğru çevrildi. Sanki, o, bu adamın harada olduğunu qabaqcadan bilirdi.

Ona elə gəldi ki, özünü, öz qocalığını görür, üzü tamamilə ona bənzəməsə də, ümumi görünüşü, hərəkətləri, dağınıq saçları, təşvişli və vəhşi baxışı, katorqada on doqquz il ərzində toplamış olduğu dəhşətli fikirlər xəzinəsini daşıyan kin və nifrət dolu qəlbi ilə Din şəhərinə gələn zaman əynində olan köynəyə oxşar köhnə köynəyi eynilə ona bənzəyirdi.

Dəhşətindən titrəyərək öz-özünə dedi:

“Pərvərdigara! Mən yenəmi belə olacağam?”

Zahiri görünüşünə görə bu adama altmış yaş vermək olardı. Onun qaba, vəhşi, çaşqın görkəmi vardı.

Açılan qapının cırıltısından içəri girən adama yol vermək üçün bəziləri kənara çəkildilər. Məhkəmə sədri başını çevirib, girən adamın Monreyl şəhərinin meri olduğunu anlayaraq salam verdi. Vəzifəsi dolayısı ilə Monreylə getdiyi zamanlar cənab Madlenlə görüşmüş olan prokuror müavini də onu tanıdı və salam verdi. İçəri girən adam onlara heç əhəmiyyət vermədi. Bir növ xəyalət təsiri altında idi, o, yalnız bir nöqtəyə baxırdı.

Hakimlər, məhkəmə katibi, jandarmlar, məhkəmə maraqlısı olan bir yığın camaat ona tanış görünürdü, bunları vaxtilə, uzaq keçmişdə, iyirmi yeddi il bundan əvvəl görmüşdü. Bu məşum sifətləri yada salmaq üçün çox çətinlik çəkmədi, onun gördüyü şeylər xəyal deyil,

[1] *Sarja* – astarlıq parça

bir həqiqət idi. Qarşısında oturanlar həqiqi jandarmlar, həqiqi hakimlər, həqiqi camaat idi, bunlar xəyal deyil, canlı insanlardı. Artıq hər şey bitdi. Keçmişin bütün qorxunc və dəhşətli xəyalları müdhiş bir həqiqət kimi yenidən gözləri qarşısında canlandı, qorxunc bir həqiqət kimi yenidən meydana çıxdı.

Gözləri önündə dərin bir uçurum açıldı.

Qorxub geriyə çəkildi, gözlərini yumdu, ürəyinin dərinliklərindən yalnız bir səs gəldi:

"Heç bir vaxt!"

Dəli olmağa başladığını zənn edirdi. Hadisələrin faciəli bir təsadüfü sayəsində, önündə oturan adamın onun "eyni" olduğunu dəhşətlə anladığı üçün fikirləri qarışırdı. Hamı mühakimə edilən bu adama Jan Valjan deyirdi!

Onun qarşısında ağlagəlməz bir şey baş verirdi, həyatının ən dəhşətli bir dəqiqəsi gözləri qarşısında bərpa olunurdu və öz rolunu onun öz xəyalı oynayırdı.

Hər şey eyni şəkildə idi, eyni mərasim, eyni gecə, eyni hakimlər, eyni əsgərlər, eyni tamaşaçılar, heç bir şey dəyişməmişdi. Yalnız sədrin başı üstündən çarmıxa çəkilmiş İsanın surəti asılmışdı. O, mühakimə ediləndə Allah orada yox idi.

Arxasında bir stul vardı, onu görə biləcəklərindən qorxaraq, özünü stulun üstünə yıxdı. Hakim masasının üzərində bir yığın qovluq vardı. Camaatdan üzünü gizlətmək üçün bu kağızların arxasında gizləndi. İndi artıq başqalarının gözünə görünmədiyi halda özü bütün salonu görürdü. Yavaş-yavaş özünə gəldi, həqiqəti hiss etmək qabiliyyəti tamamilə ona qayıtmışdı, artıq ətrafında söylənən sözləri dinləyib, anlaya biləcək dərəcədə sakit idi.

Məhkəmə üzvləri arasında cənab Bamatabua da vardı.

Madlen gözləri ilə Javeri axtardısa da, tapa bilmədi. Katibin stolu şahidlərin əyləşdiyi yeri görməyə mane olurdu. Bundan başqa, salonun zəif işıqlandırıldığı da unudulmamalıdır.

O, məhkəmə salonuna girdiyi zaman müttəhimin vəkili öz nitqini bitirməkdə idi. Hamı son dərəcə böyük bir diqqətlə dinləyirdi, iş üç saatdan bəri davam edirdi. Bu üç saat ərzində kim olduğunu meydana çıxarmaq üçün irəli sürülmüş ittihamların ağırlığı altında bir insanın əzilib məhv olduğunu hamı görürdü, bu məchul, zavallı, bəlkə, xeyli ağılsız, bəlkə də, xeyli hiyləgər olan adamın vəziyyəti

dəhşətli idi. Bildiyimiz kimi, bu sərsərini "Pyeronun bağçası" adlanan yerin yaxınlığında, çöldə tutmuşdular. O, əlində həmin bağdakı alma ağacından qırılmış və üzərində dəymiş almalar olan bir budaq tutmuşdu. Bu adamın kim olduğunu öyrənmək lazım gəldi. Sorğu-sual elədilər, şahidləri dinlədilər, göstərilən dəlillərin hamısı bir-birinə uyğun gəldi, məhkəmənin gedişi işin nə yerdə olduğunu tamamilə aydınlaşdırdı. İttihamnamədə deyilirdi: "Əlimizə düşən bu adam yalnız bir neçə alma oğurlamış oğru, soyğunçu deyildir, bu, Jan Valjan adlı keçmiş katorqalı, polis nəzarətindən qaçmış islahedilməz, təhlükəli bir yaramazdır ki, çoxdan bəri polis idarəsi onu axtarır. Səkkiz il bundan əvvəl Tulon həbsxanasından qayıdarkən yolda silahlı bir qarət etmişdi; qarət etdiyi adam Balaca Jerve adlı savoyalı bir uşaq idi. Bu cinayətə, Cinayət Məcəlləsinin 383-cü maddəsinə əsasən baxılır və bu cinayətə görə onu, şəxsiyyəti qanuni yolla aydınlaşdırıldıqdan sonra, mühakimə edə bilərik. İndi o, yeni bir oğurluq eləmiş və cani olduğu təkrar meydana çıxmışdır. O, əvvəlcə bu son günahı üçün, sonra isə keçmiş cinayəti üçün mühakimə edilməlidir". Müttəhim bütün bu ittihamları, şahidlərin bir səslə onun üzünə durduqlarını görüb heyrət edir kimi görünürdü, o, bəzən bu ittihamlara qarşı əl-qol atır, sanki, işarə ilə "Yox, yox" demək istəyir, bəzən də küt nəzərlərlə yuxarıya baxırdı. O, ağır-ağır danışır, cavab verə bilmirdi, lakin başdan-ayağa qədər bir inkar mücəssəməsi idi. Ona hücum edən alim adamlara nisbətən o, bir növ axmağa bənzəyir və onu öz pəncəsi arasına almış cəmiyyət arasında büsbütün yad kimi görünürdü. Halbuki onu ən müdhiş bir gələcək gözləyirdi: ittihamların düzgün olması getdikcə aydınlaşırdı, camaat böyük bir həyəcan içində bu faciənin bütün dəhşətlərini görürdü, hamı bu adamı məhv edəcək qorxunc məhkəmə qərarını gözləyirdi. Bir hadisə onu yalnız katorqaya göndəriləcəyini deyil, bəlkə, edam ediləcəyini fərz etməyə yol verirdi: Jan Valjan olduğu rəsmən aydınlaşdırıldıqdan sonra, Balaca Jerve məsələsi ona bir həyat bahasına oturacaqdı. Bu adam kim idi? Nə üçün o, bu qədər laqeyd idi? O hiyləgərdi, yoxsa axmaq? Ətrafında olan işləri anlayırdı, yoxsa anlamırdı? Bu kimi suallar iki cəbhəyə ayrılan camaatı düşündürür və hakimlər üçün də çətinlik törədirdi. Bu məhkəmə işində bir çox qorxulu və müəmmalı şeylər vardı, burada qaranlıq olmaqla bərabər məşum bir faciə oynanırdı.

Müdafiə vəkili pis nitq söyləmədi, o, məhkəmə silki arasında uzun illərdən bəri fəsahət və bəraət üçün bir nümunə sayılan əyalət dilində danışırdı. Bu dildə vaxtilə yalnız Romorantendə, yaxud Monbrizonda deyil, hətta Parisdə də danışırdılar. Həmin dil bu gün klassik bir dilə çevrilmiş, yalnız ədalət məhkəməsinin rəsmi nümayəndələrinin dili olmuşdur. Bu dil onları öz ehtişamlı ahəngdarlığı və dəbdəbəsi ilə cəzb edir. Məsələn, bu dildə ərə *zövc*, arvada isə *zövcə* deyirlər. Parisə – *sənət və mədəniyyət mərkəzi*, krala *padşah*, monsenyor yepiskopa – *müqəddəs prelat*, prokuror müavininə – *ittihamın bəlağətli nümayəndəsi*, müdafiə nitqinə – bizim indi dinləməyə məcbur olduğumuz kəlimət, XIV Lüdovik əsrinə – *böyük əsr*, teatra – *Melpomena məbədi*, səltənət sürən sülaləyə – *bizim ali xanədanımız*, konsertə – *musiqili müsamirə*, hərbi dairə rəisinə – *qəhrəman əsgərimiz* və sairə, darülmüəllimin müdaviminə – *bizim həlim din xadimlərimiz*, mətbuat səhvlərinə – *öz zəhərini mətbuat orqanları sütunlarında yayan iftira* və sairə və sairə deyilir. Bu surətlə, vəkil dəbdəbəli üslub üçün çox da yararlı olmayan alma oğurluğu məsələsindən başladı. Nə eybi var! Benin Bossüenin özü belə matəm nitqini söylədiyi zaman toyuqdan söhbət açmağa məcbur olmuş və işin içindən məharətlə çıxa bilmişdi. Vəkilin göstərdiyinə görə, alma oğurluğu qəti şəkildə sübut edilməmişdir. Kimsə onun müştərisini (vəkil bir müdafiəçi kimi onu təkidlə Şanmatye adlandırırdı) divarı aşdığı və alma budağını sındırdığı zaman görməmişdir, tutulduğu zaman əlində bir budaq vardı ki, bunu da vəkil balaca budaq adlandırırdı. Şanmatyenin dediyinə görə, o, bu budağı yolda tapıb götürmüşdü. Bunun əksini sübut edəcək bir dəlil varmıdır? Əlbəttə, bir qarətkar hasarı aşaraq bu budağı sındırmış və oğurlamışdır, sonra isə qorxub yola atmışdır. Əlbəttə, bu işi görən oğrudur, lakin bu oğrunun Şanmatye olduğunu kim sübut edə bilər? Arada ancaq bir məsələ var, o da məhbusun keçmiş katorqalı olması ehtimalıdır. Vəkil bir şeyi inkar etmirdi ki, bədbəxtlikdən, bu ehtimalı təsdiq edəcək bir sıra ciddi sübutlar var, müqəssir, doğrudan da, vaxtilə Faverolda yaşamış, orada ağac kəsməklə məşğul olmuşdur. Şanmatye adı isə Jan Matyedən əmələ gələ bilərdi – bunların hamısı haqlı sözlərdir. Nəhayət, dörd şahid, heç bir tərəddüd göstərmədən, Şanmatyenin katorqalı Jan Valjan olduğunu qəti surətdə etiraf etmişdir. Bütün bu bəyanata, bütün bu şəhadətlərə

vəkil ancaq bir şeyi qarşı qoya bilərdi ki, o da müdafiə etdiyi müqəssirin, yəni bu işlə əlaqədar olan bir şəxsin hər bir şeyi inkar etməsidir. Lakin müqəssirin, doğrudan da, Jan Valjan olduğu təsdiq edilsə belə, bu, onun alma oğurladığına sübut ola bilərmi? Bu, olsa-olsa, bir fərziyyə ola bilər, sübut isə ola bilməz. Əlbəttə, müqəssir özünü müdafiə etmək üçün "yaramaz bir üsul" seçmişdir, vəkil özü də bunu səmimiyyətlə etiraf edirdi. O, israrla hər bir şeyi inkar edir – oğurluğu da, vaxtilə katorqada olmasını da. O, katorqada olmasını boynuna alsaydı, əlbəttə, ağıllı iş görər və hakimlərin hüsn-rəğbətini qazanardı, vəkil də müqəssirə elə bunu məsləhət görürdü. Müqəssir isə, hər şeyi inkar etməklə, hər şeyi gizlədə biləcəyinə ümid edərək, qətiyyən vəkilin məsləhətini qəbul etmədi. O, yaxşı iş görmürdü, lakin onun görüşlərinin məhdudluğu, hər halda, nəzərə alınmalıdır. Bu, açıq-aşkar kütbeyin bir adamdır. Uzun müddət katorqada keçirdiyi müsibətlər, katorqadan sonra sürdüyü səfil həyat və yoxsulluq onun vəhşiləşməsinə səbəb olmuş və sairə və sairə. O, özünü müdafiə edə bilmir, lakin bu acizlik onu məhkum etmək üçün səbəb ola bilərmi? Balaca Jerve məsələsinə gəlincə, vəkil bu məsələni müzakirə etmək niyyətində deyildir, bu hadisənin indiki məhkəmə məsələsi ilə əlaqəsi yoxdur. Vəkil nitqinin sonunda hakimlərə müraciətlə, müqəssirin Jan Valjan olduğu təsdiq edilərsə, ona təyin edilmiş yerini icazəsiz olaraq tərk etmiş katorqalılara qarşı tətbiq edilən polis cəzası verilməsini xahiş etdi.

Prokuror müavini də cavab sözünü söylədi. O, hər bir prokuror müavini kimi hərarət və dəbdəbə ilə danışırdı.

O, müdafiə vəkilini özünü "bitərəf" göstərdiyinə görə tərifləyərək, bu "bitərəflikdən" məharətlə istifadə etdi. O, müdafiə vəkilinin etdiyi güzəştlərin hamısını müqəssirin əleyhinə çevirdi. Vəkil, müqəssirin Jan Valjan olduğunu etiraf edirmiş kimi görünürdü. İşin bu cəhəti də nəzərə alındı. Demək, bu adamın artıq Jan Valjan olduğu müəyyən edilmişdir. İttihamnamənin bu maddəsi təsdiq edildiyindən daha onu təkzib etmək mümkün deyildir. Bundan sonra prokuror cinayətin ilk mənbələri və ilk səbəblərindən bəhs edərək, süni bir şəkildə yaradılmış antonomaziyadan[1] istifadə ilə, o zamanlar dəbdə olan və "Həftəlik" ilə "Oriflamma" orqanlarının tənqidçiləri tərəfindən "iblislər məktəbi" adlandırılan romantik məktəbin əxlaqsızlığını

[1] Ümumi adın xüsusi ada və ya əksinə çevrilməsindən istifadə etmək

şiddətlə tənqid etməyə başladı, o, bir az həqiqətə bənzər bir şəkildə Şanmatyenin, yaxud, daha doğrusu, Jan Valjanın belə cinayətini həmin yaramaz ədəbiyyatın təsiri ilə bağladı. Bu mülahizələrə son verdikdən sonra, nəhayət, Jan Valjanın özünə keçdi. Bu Jan Valjan necə adamdır? Bu sualdan sonra Jan Valjanın xarakteristikası verildi. Belə məlum oldu ki, Jan Valjan bir iblis, bir div, bir cəhənnəm törəməsi imiş və sairə və sairə. Bu cür tərifl ərin nümunəsini Rasinin Feramenində, onun hekayətində tapa bilərsiniz. Feramenin tragediya üçün böyük bir əhəmiyyəti olmasa da, məhkəmə bəlağətinin həvəskarlarına hər gün böyük xidmətlər göstərir. İstər camaat və istərsə də hakimlər "dəhşətə gəldilər". Prokuror xarakteristikası qurtardıqdan sonra "Prefektura əxbarı"nın sabahkı nömrəsində heyrət oyatmaq məqsədilə, coşqun bir ilhama gələrək davam etdi: "Belə bir adam və sairə və sairə, səfil, dilənçi, yaşamaq üçün heç bir vəsaiti olmayan bir adam, keçmiş həyatı sayəsində cinayətlərə vərdiş etmiş və katorqada olmağına baxmayaraq, islah edilməmiş bir adam, bunu da balaca Jerveni qarət etməsi və aşdığı hasarın bir neçə addımlığında oğurladığı alma budağı ilə birlikdə tutulması sübut edir və sairə və sairə, belə bir adam həqiqəti, oğurluğu inkar edir, hasarı aşdığını, hər bir şeyi, öz adını belə, Jan Valjan olduğunu belə inkar edir. Burada bir daha təkrar etməyəcəyimiz yüzlərlə sübutlardan başqa, dörd şahid onun kim olduğunu təsdiq etmişdir. Bu şahidlərdən biri namuslu polis müfəttişi Javer, üçü isə onun bişərəf işlərinə keçmişdə şərik olan katorqalı Breve, Şenildye və Koşpayldır. Bu qaya kimi möhkəm olan rəylərə qarşı o, nə kimi dəlillər qoyur? İnkar, ancaq inkar. Cinayətkarlığın nə qədər dərin kök saldığını görürsünüzmü? Cənab hakimlər, mən sizdən ədalətli mühakimə və həqiqət tələb edirəm və sairə və sairə.

Prokuror müavini danışdıqca, müqəssir ağzını ayırıb təəccüblə, hətta bir qədər heyrətlə ona qulaq asırdı. Elə bil, insanın bu qədər gözəl danışa biləcəyinə heyrət edirdi. Ara-sıra, ittihamnamənin ən həyəcanlı yerlərində, nitqin öz sahillərini aşdığı, biabırçı təşbehlər selinə çevrildiyi, müqəssiri ildırım kimi vurduğu dəqiqələrdə, biçarə qoca başını yavaş-yavaş gah sağa, gah sola tərəf yırğalayırdı ki, bu, mübahisələrin başlanğıcından bəri onun izhar etdiyi kədərli və lal etirazın yeganə bir ifadəsi idi. Ona hamıdan yaxın oturan tamaşaçılar, qocanın bir-iki dəfə: "Cənab Baludan məlumat alsaydılar,

belə olmazdı" – dediyini eşitmişdilər. Prokuror müavini hakimlərin diqqətini müqəssirin gic görünüşünə cəlb etdi. Onun iddiasına görə, bu, qabaqcadan düşünülmüş, qətiyyən gicliyə bənzəməyən bir hiylə, fırıldaqdan başqa bir şey deyil, bu da ədalət məhkəməsini aldatmağa adət etdiyindəndir ki, bu da müttəhimin nə qədər "dərindən pozulmuş" olduğunu isbat edir. Balaca Jervenin işi ilə xüsusi məşğul olacağına işarə ilə, nitqini tamamlayaraq, sərt bir qərar çıxarılmasını tələb etdi.

Oxucunun yadındadır ki, bu qərar indi ömürlük katorqa demək idi.

Vəkil ayağa durdu və "cənab" prokuror müavinini "parlaq nitq" söyləməsi münasibətilə təbrik edərək, imkanı daxilində olan etirazlarını söylədi, lakin artıq taqəti qalmamışdı: mövqeyinin möhkəm olmadığını aydın görürdü.

Onuncu fəsil

İNKAR ÜSULU

Mübahisənin kəsilməsi vaxtı yetişmişdi. Məhkəmə sədri müttəhimə tərəf çevrilərək, ayağa durmasını əmr etdi və ona belə bir adi sual verdi:

– Özünüzü müdafiə etmək üçün başqa bir sözünüz varmı?

Müttəhim ayağa durdu; sədrin sualını eşitməmiş kimi görünürdü; əlində tutduğu əzilmiş papağını əzişdirərək sükut edirdi.

Sədr sualını təkrar etdi.

Bu dəfə müttəhim nə soruşulduğunu eşitdi. Ondan nə istədiklərini anlayan kimi görünürdü, yuxudan oyanmış adam kimi bir hərəkət elədi, camaata bir göz gəzdirdi, jandarmlara, öz vəkilinə, hakimlərə baxdı, yekə yumruğunu ağac məhəccərin kənarına qoydu, bir daha boylandı və gözlərini prokurora dikərək danışmağa başladı. Nitqi vulkan püskürməsinə bənzəyirdi. Sözləri rabitəsiz idi, bir-birini sıxışdıraraq, dağınıq, sürətli bir halda ağzından çıxırdı; nəfəsini belə almadan hər şeyi birdən söyləmək istəyirmiş kimi görünürdü.

O dedi:

– Belədir. Mən Parisdə araba ustası olmuşam, özüm də cənab Balunun yanında işləmişəm. Bu, çətin sənətdir. Araba ustaları həmişə

həyətdə, açıq havada işləyirlər; sahibkar yaxşı olarsa, bir talvar tikər, çünki bu iş üçün çox yer lazımdır, amma qapalı binalarda – heç vaxt. Qışda adam o qədər üşüyür ki, qızınmaq üçün əllərini əllərinə vurursan, amma sahibkarlar bunu sevmirlər, – çünki buna çox vaxt gedir. Buz bağlamış yerin üzərində oturub dəmiri əymək asan iş deyil. Adam lap taqətdən düşür. Bu iş cavanları da tezliklə qocaldır. Qırx yaşında adam daha heç bir şeyə yaramır. Mənim isə əlli üç yaşım var. Ona görə də çox yorulurdum. Bir də Paris camaatı çox zalımdır! Onlarla yaşlı bir adam işləyəndə ona "qoca kaftar, qoca sarsaq!" deyirlər. Mən gündə vur-tut otuz su qazanırdım; yaşımın çox olduğundan istifadə edərək, sahibkarlar mənə hamıdan az pul verirdilər. Doğrudur, mənim bir qızım vardı, çay qırağında paltar yuyardı. O da bir az qazanırdı, ikilikdə birtəhər keçinirdik. Ancaq onun da işi çox ağırdır. Bütün günü qurşağacan suya girir, küləkdən üşüyür, lap şaxtalı günlərdə paltar yumağa gedirdi, bir para adamların paltarı az olur, ona görə paltarlarını tez yudurtmaq istəyirlər, paltarlarını vaxtında yumasan, müştərilər əlindən çıxar.

Paltar yuyanların təknəsi çox pis olur. Su hər tərəfə sıçrayır, tumanları başdan-başa su içində olur. Qızım bəzən qırmızı yetimlər yurdunda paltar yuyardı; orada su kranlarla gəlir, paltarı təknə içində yumursan. Paltarı kranın altında yuyur, sonra da hovuzda suya çəkirsən. Dam örtülü olduğu üçün adam çox üşümür. Lakin isti suyun buxarı gözləri xarab eləyir. Qızım həmişə gecə evə qayıdar və dərhal yatardı; çox yorulurdu. Əri onu çox döyərdi. Nəhayət, öldü. Biz ömrümüzdə xoş gün görməmişik. O, namuslu bir qızdı, rəqs yerlərinə, müsamirələrə getməzdi, dinc xasiyyəti vardı. Yadımdadır, bir bayram günü hamı gəzməkdə, kefdə ikən, o, saat səkkizdə yatmışdı. Bəli, bəli! Sizi inandırıram, mən doğru deyirəm. Kimdən istəsəniz soruşa bilərsiniz. Bu nədir, deyirəm, – "Soruşsanız!" Mən nə axmaq adamam! Paris ki bir girdabdır. Orada qoca Şanmatyeni kim tanıyacaq? Amma cənab Balu tanıyar. Cənab Baludan soruşun. Yoxsa mən heç başa düşmürəm ki, məndən nə istəyirlər.

Müttəhim susdu, lakin oturmadı. O, ucadan kobud, boğuq və xırıltılı bir səslə danışırdı. Səsində bir sadəlik və eyni zamanda, vəhşi bir hiddət duyulurdu. Bir dəfə arada öz sözünü kəsib, camaatın içində oturan bir şəxslə salamlaşdı. Verdiyi qəribə ifadələr hıçqırığa bənzəyir və hər dəfə hıçqırdıqda, elə bil, odunçu odun yarırdı.

Susduğu zaman, birdən hamı gülməyə başladı. O, camaata baxdı, nə üçün güldüklərini anlamadan, özü də güldü.

Bu, dəhşətli bir səhnə idi.

Sədr, xeyirxah və vicdanlı bir adam olduğu üçün danışmağa söz aldı.

"Cənab hakimlər, – dedi, – müttəhimin, guya, yanında qulluq etdiyi keçmiş araba ustası cənab Baludan da heç bir nəticə çıxmadı; Balu iflas etdiyi üçün onu tapmaq mümkün olmadı". Sonra sədr müttəhimə tərəf döndü və söyləyəcəyi sözlərə diqqət etməsini xahiş edərək dedi: "Siz çox fikirləşməyi tələb edən bir vəziyyətdəsiniz. Sizə qarşı çox ciddi ittihamlar irəli sürülmüşdür. Bunun da nəticəsi sizin üçün çox ağır ola bilər. Müttəhim! Mən sizə son dəfə müraciət edərək deyirəm, öz xeyrinizə olaraq iki hadisə haqqında bizə aydın izahat verin: əvvələn, cavab verin görüm, Pyeron bağçasının divarını aşmısınızmı, alma oğurlamaq üçün alma ağacının budağını sındırmışsınızmı, başqa sözlə, özgə bir adamın mülkünə girərək, qəsdən oğurluq etmək istəmişsinizmi? İkinci, azad edilmiş katorqalı Jan Valjan, həqiqətən, sizsinizmi? Hə, ya yox?"

Müttəhim işi gözəl anlamış bir adam görünüşü ilə başını yırğaladı, nə cavab verəcəyini bilən adam kimi ağzını açdı və sədrə müraciətlə dedi:

– Əvvəla...

Sonra öz papağına, tavana baxdı və susdu.

Prokuror müavini kəskin bir səslə:

– Müttəhim, – dedi. – ehtiyatlı olun. Siz verilən suallara cavab vermirsiniz. Çaşqınlığınız sizi ifşa edir. Adınızın Şanmatye olmadığı bizim üçün aydındır. Siz keçmiş katorqalı Jan Valjansınız. Siz əvvəlcə ananızın familiyası ilə Jan Matye adlanaraq, gizli surətdə yaşamışsınız. Overində olmuşsunuz. Doğulduğunuz yer Faveroldur ki, orada ağac kəsməklə məşğul idiniz. Pyeron bağçasının divarından aşaraq alma ağacını sındırdığınıza və dəymiş alma oğurladığınıza heç şübhə yoxdur. Cənab hakimlər işin bu cəhətinə lazımınca diqqət edəcəklər.

İndi müttəhim yerində oturmuşdu. Prokuror müavini susduqda, o, dərhal yerindən sıçradı və uca səslə bağırdı:

– Siz çox pis adamsınız, çox pis! Mənim deyəcəyim budur. Ancaq əvvəldən özümü itirdim, nə deyəcəyimi birdən-birə düşünə

bilmədim. Mən heç bir şey oğurlamamışam. Mənə hamı kimi hər gün yemək də müyəssər olmur. Alyidən gəlirdim, şiddətli yağış təzəcə dayanmışdı, hər tərəfdə torpaq sapsarı idi, gölməçələrdən yerimək olmurdu. Yalnız yolun kənarında torpağın altından nazik, yaşıl otlar görünürdü, yolda sınıq bir alma budağı tapdım, üstündə alma vardı. Bunun üçün başıma bu qədər müsibət gələcəyini bilsəydim, heç budağı əlimə almazdım. İndi düz üç aydır ki, həbsxanadayam, məni oyan-buyana çəkirlər. Daha deməyə bundan artıq bir sözüm yoxdur, amma hamı üstümə şər atıb deyir ki, "Cavab ver!" Yaxşı oğlana bənzəyən bu jandarm da məni dirsəkləyərək yavaşcadan deyir ki, cavab versənə! Mən lazım olduğu kimi başa sala bilmirəm, alim deyiləm ki, yoxsul bir adamam. Nahaq yerə siz bunu anlamaq istəmirsiniz. Mən heç bir şey oğurlamamışam, mən yerə düşmüş bir şeyi götürmüşəm. Siz "Jan Valjan, Jan Matye!" deyirsiniz. Mən isə bu adamları tanımıram. Bunlar, yəqin, kəndlidirlər. Mən isə xəstəxana bulvarında cənab Balunun yanında işləyirdim. Adım Şanmatyedir. Siz çox hiyləgərsiniz, harada anadan olduğumu belə öyrənmişsiniz. Mən bunu heç özüm də bilmirəm. Axı dünyada doğulmaq üçün hamının evi yoxdur. Amma pis olmazdı. Mənə elə gəlir ki, atamla anam yollarda avara-avara dolaşarmış. Sözün düzü, mənim özümə də bu məlum deyil. Uşaqlıqda mənə "Balaca" deyərdilər, indi isə "Qoca" deyirlər. Mənə belə ad vermişlər, inanırsınız inanın, inanmırsınız yox. Mən Overndə olmuşam, Faverolda olmuşam, daha nə istəyirsiniz? Overndə, Faverolda olanların hamısı mütləq katorqa cəzası çəkməlidir? Mən sizə deyirəm ki, heç bir şey oğurlamamışam, adım da Şanmatye babadır. Cənab Balunun yanında işləmişəm, özüm də sərsəri olmamışam, mənzildə yaşamışam. Sizin boş-boş suallarınız zəhləmi apardı! Niyə hamınız dəli kimi dalımca düşmüşsünüz, məndən nə istəyirsiniz?

Hələ də ayaq üstə durmuş prokuror müavini məhkəmə sədrinə tərəf dönərək dedi:

– Cənab sədr, özünü axmaq bir adam kimi göstərməyə çalışan müttəhim təqsirini olduqca qarışıq, lakin xeyli məharətlə inkar etdiyinə görə, cənab hakimlərin razılığı olarsa, mən katorqalı Breve, Koşpayl və Şenildye adlı şahidlərin və polis müfəttişi Javerin yenidən çağırılmasını təklif edirəm; bu şahidlər müttəhimin şəxsiyyətini

təsdiq etmək üçün son dəfə dindirilməlidir, onların göstərişinə görə, müttəhim keçmiş katorqalı Jan Valjanın özüdür.

– Mən cənab prokuror müavininin yadına salıram ki, – deyə sədr cavab verdi, – polis müfəttişi Javer şahidlik etdikdən sonra məhkəmə salonunu və şəhərimizi belə tərk etmişdir. Onun qonşu dairədə təxirəsalınmaz bir işi vardır, biz də cənab prokuror müavini və həmçinin müdafiə vəkilinin razılığı ilə onu azad etməyi mümkün hesab etdik.

Prokuror müavini isə sözünə davam edərək:

– Doğru buyurursunuz, cənab sədr, – dedi. – Cənab Javer burada olmadığından, onun bir neçə saat əvvəl burada söylədiklərini cənab hakimlərin yadına salmağı özümə borc bilirəm. Javer vəzifəsinə görə vicdanlı və namuslu, mötəbər bir adamdır. Xidməti ikinci dərəcəli olsa da, bizim üçün çox əhəmiyyətlidir. Onun şahidliyi qısaca olaraq belədir: "Müttəhimin bütün ittihamları rədd etməsinə baxmayaraq, mənim heç bir əşyayi-dəlilə ehtiyacım yoxdur. Mən bu adamı o saat tanıdım və bilirəm ki, adı Şanmatye deyildir; bu, keçmiş katorqalı, çox kinli, çox qorxulu bir adamdır, adı da Jan Valjandır. Həbs müddəti qurtardıqda onu katorqadan könülsüz azad etmişlər. O, ağır təqsirləri olduğuna görə on doqquz il katorqada qalmışdır. Beş-altı dəfə qaçmağa çalışmışdır. Balaca Jerveni qarət etmək və alma oğurlamaqdan başqa, mən onu daha başqa bir cinayətdə müqəssir görürəm. O, mərhum Din yepiskopunun evindən oğurluq etmişdir. Mən Tulonda tərsanə caniləri nəzarətçisinin müavini ikən onu dəfələrlə görmüşdüm. Təkrar edirəm ki, mən onu yaxşı tanıdım".

Bu qədər müəyyən olan bir ifadə, camaata və hakimlərə böyük təsir bağışladı. Prokuror müavini öz nitqini qalan şahidlərin də yenidən dindirilməsini tələb etməklə qurtardı. O, Javerin burada olmadığını nəzərə alaraq, bu üç şahidin: Breve, Şenildye və Koşpaylın mütləq dindirilməsini tələb edirdi.

Məhkəmə sədri məhkəmə xidmətçilərindən birisinə əmr verdi. Bir dəqiqə sonra şahidlər olan otağın qapısı açıldı. Xidmətçi dustaqları sakitləşdirmək işində ona fəal yardım göstərməyə hazır olan jandarmla birlikdə dustaq Breveni gətirdi. Camaat böyük bir həyəcan içində gözləyirdi. Hamı nəfəsini belə çəkmədən oturmuşdu.

Brevenin əynində mərkəzi həbsxanaların dustaqlarına məxsus qara zolaqlı boz bir paltar vardı. Breveyə zahirən altmış yaş vermək

olardı; o, işgüzar bir adama, ya da adi bir fırıldaqçıya bənzəyirdi. Belə hallar az deyil.

Məhkəmə sədri ona tərəf dönərək:

– Breve, – dedi, – bu adama yaxşı baxın, siz onu məhv edə bilərsiniz, fikrinizi dəqiqləşdirin və vicdanla deyin, görüm bu adamın katorqa yoldaşınız Jan Valjan olduğunu yenə etiraf edirsinizmi?

Breve müttəhimə baxdıqdan sonra üzünü hakimlərə doğru çevirdi:

– Bəli, cənab sədr. Bunu əvvəlcə mən tanıdım, sözümün də üstündə dururam. Bu adam Jan Valjandır; o, 1796-cı ildə Tulon katorqasına gəlmiş və 1815-ci ildə oradan azad edilmişdir. Məni bir il sonra azad etdilər. İndi onun görünüşü bir az axmaqdır; görünür, qocalığın nəticəsidir; katorqada isə ağlı başında idi. Bəli, mən onu tanıyıram, buna heç şübhə ola bilməz.

Məhkəmə sədri:

– Oturun, – dedi, – müttəhim, siz isə ayaq üstə durun.

Sonra Şenildyeni gətirdilər. Qırmızı köynəyi ilə yaşıl qalpağından anlaşıldığına görə bu adam ömürlük katorqalılardan idi. Tulon katorqasında cəza çəkirdi. O, şahid sifətilə buraya gətirilmişdi. Əlli yaşında, qısaboylu, alnı qırışıqlı, zəif, həyasız, sarı üzlü, əsəbi, həyəcanlı bir adamdı: bütün vücudunda və hərəkətlərində xəstə bir zəiflik görünürdü. Lakin baxışında böyük bir qüvvə vardı. Katorqada yoldaşları ona Şelmadye[1] adını vermişdilər.

Məhkəmə sədri ona da, təqribən, Breveyə verdiyi sualları verdi. Sədr, ona kəsilmiş ağır cəzanın, onu and içmək haqqından məhrum etdiyini söylədiyi zaman o, başını qaldırıb cəsarətlə camaatın üzünə baxdı. Sədr cavabını yaxşı fikirləşməyi ona təklif etdi: Breve kimi onun da əvvəlki sözlərinin üstündə durub-durmadığını, müttəhimin Jan Valjan olub-olmadığını soruşdu.

Şenildye ucadan güldü.

– Bu nə sualdır? Mən bunu heç tanımaya bilərəm? Biz ikimiz beş il bir zəncirlə bağlı idik. Dost, niyə burnunu yana tutursan? Mənə nə üçün acıqlanırsan?

Sədr:

– Oturun, – dedi.

Məhkəmə pristavı Koşpaylı gətirdi. Bu adam da Şenildye kimi ömürlük katorqalılardan idi; o da qırmızı geyimli idi, katorqadan

[1] Mən Allaha inanıram.

gətirmişdilər. Lurd kəndlisi idi, lap Piriney ayısına oxşayırdı. Keçmişdə o, bir dağ çobanı idi, sonra quldur oldu. Koşpayl da müttəhim kimi küt və vəhşi görünürdü. Bu adam təbiətin heyvan sifətində yaratdığı, insan cəmiyyətinin isə katorqalı halına saldığı biçarə məxluqlardandı.

Sədr, təmtəraqlı və dəbdəbəli sözlərlə ona təsir etməyə çalışaraq, birinci şahidlərdən soruşduğu kimi, müttəhimin keçmiş katorqalı Jan Valjan olduğunu təsdiq edib-etmədiyini soruşdu.

Koşpayl:

– Bəli, bu Jan Valjandır, – dedi. – O, çox qüvvətli olduğu üçün, bizdə ona Jan Domkrat deyirdilər.

Şübhəsiz ki, tamamilə səmimi və ürəkdən danışan bu üç şahidin hər ifadəsi camaatın donquldanmasına səbəb olurdu və heç də müttəhimin xeyrinə deyildi; səslər getdikcə ucalır və hər bir yeni şahiddən sonra daha da şiddətlənirdi. Müttəhim isə böyük bir heyrətlə şahidləri dinləyirdi. Müttəhimin rəyincə, bu heyrət əsas müdafiə vasitəsindən başqa bir şey deyildi.

Müttəhimin yaxınında olan jandarmlar birinci şahid dindirildikdən sonra onun ağızucu: "Bu da bu yandan çıxdı" sözlərini eşitmişdilər. İkinci şahid dindirildikdən sonra o, bir qədər ucadan və bəyənirmiş kimi: "Nə uydurur!", üçüncü şahid dindirildikdən sonra isə: "Yalançıya bax!" demişdi.

Sədr ona belə bir sual verdi:

– Müttəhim, siz hamısını eşitdiniz. İndi nə deyə bilərsiniz?

– Elə mən də: "Yalançıya bir bax!" dedim, – deyə cavab verdi.

Camaatın arasında bir gurultu qopdu, hakimlər belə hərəkətə gəldilər. Bu adamın artıq məhv olduğu aydın idi.

Məhkəmə sədri:

– Növbətçilər, – dedi, – camaatı sakit edin. Müzakirə qurtardı.

Bu halda sədrin yaxınlığında bir hərəkət əmələ gəldi. Bir səs bağırdı.

– Breve, Şenildye, Koşpayl! Bir bura baxın!

Bu səsi eşidənlər bədənlərindən buz kimi bir soyuğun keçdiyini hiss etdilər – bu səs o qədər qorxunc və ələmli idi. Hamının gözü bu səsin gəldiyi tərəfə çevrildi. Kübar camaat arasında, sədrin arxasında oturan bir adam ayağa durdu; bu adam məhkəmə tribunasını camaatdan ayıran arakəsmənin alçaq qapısını açıb salonun ortasında

durdu. Məhkəmə sədri, prokuror müavini, cənab Bamatabua və bir çox başqaları onu tanıdılar və bir səslə bağırdılar:

– Cənab Madlen!

On birinci fəsil

ŞANMATYENİN HEYRƏTİ GETDİKCƏ ARTIR

Bu, doğrudan da, o idi. Məhkəmə katibinin stolundakı lampa üzünə işıq salmışdı. Şlyapasını əlində tutmuşdu; pencəyi diqqətlə, yuxarıdan aşağıya qədər düymələnmişdi. Üzü sapsarı idi. Xəfifcə titrəyirdi. Arrasa gəldiyi anda başında yalnız bir qədər ağ tük vardısa, məhkəmə salonunda olduğu müddət içində saçları büsbütün ağarmışdı.

Bütün başlar ona doğru çevrildi. Heyrət son dərəcədə artmışdı. İki dəqiqədə adamlar nə baş verdiyini birdən-birə dərk etmədilər. Bu sözləri dərin bir iztirabla söyləyən adam o qədər sakit idi ki, bu halda onu görənlər bir şey anlamadılar. Hamı çığıran adamın kim olduğunu öz-özündən soruşurdu. Heç kəs bu sakit görünən adamın sinəsindən bu qədər dəhşətli səs çıxdığına inanmırdı.

Lakin bu şaşqınlıq yalnız bir neçə saniyə çəkdi. Məhkəmə sədri ilə prokuror müavini hələ bir kəlmə danışmağa macal tapmamışdılar ki, hamının cənab Madlen deyə tanıdığı bu adam Koşpayl, Breve və Şenildyenin dayandığı yerə doğru yeridi və:

– Məni tanıyırsınızmı? – dedi.

Özlərini itirmiş bir halda duran şahidlərin üçü də başlarını yırğalayaraq, tanımadıqlarını söylədilər, hətta Koşpayl bir qədər qorxub, ona əsgər kimi salam verdi. Cənab Madlen hakimlərə doğru çevrilərək həlim bir səslə:

– Cənab hakimlər, əmr edin müttəhimi azad etsinlər, – dedi. – Cənab sədr, əmr edin məni həbs etsinlər. Sizin axtardığınız adam o deyil, mənəm, Jan Valjan mənəm!

Hamı donub qaldı. Ucalmaqda olan boğuq heyrət səsləri ağır bir məzar sükutuna çevrildi. Salonda, camaatın gözü qarşısında böyük bir hadisə baş verəndə olduğu kimi ülvi bir ehtizaz duyulurdu.

Məhkəmə sədrinin üzündə acı bir təəssüf hissi göründü; o, prokuror müavininin üzünə baxdıqdan sonra, iclasçılara pıçıltı ilə bir neçə söz söylədi. Sonra camaata tərəf dönərək, hamının dərhal anladığı bir ahənglə soruşdu:

– Burada həkim varmı?

Prokuror müavini sözə başlayaraq:

– Cənab hakimlər, – dedi, – məhkəmə iclasının gedişini pozan bu qəribə və xariqüladə bir hadisə bizdə səmimi bir təsadüf duyğusu doğurur və əlbəttə, heç bir izaha ehtiyacı yoxdur. Siz hamınız Monreyl-sür-Mer şəhərinin rəisi cənab Madleni tanıyırsınız, ya da eşitmişsiniz. Mən cənab sədrin xahişinə şərik olaraq, həkim çağırılmasını lazım bilirəm. Əgər içərinizdə belə bir adam varsa, cənab Madlenə tibbi yardım göstərsin və onu evlərinə ötürsün.

Cənab Madlen prokuror müavininin sözünü tamamlamağa imkan vermədi. O, etiraza yol verməyən mülayim bir tərzlə onun sözünü kəsdi. Aşağıdakı sözlər, doğrudan da, onun söylədiyi sözlərdir. Bu sözləri iclas qurtarar-qurtarmaz hadisə şahidlərindən biri qeyd etmişdi – bu hadisə qırx il bundan əvvəl üz verdiyinə baxmayaraq, onu eşidənlərin qulağında hələ də cingildəyir.

– Təşəkkür edirəm, cənab prokuror müavini, mən dəli deyiləm. Bu saat siz özünüz buna əmin olarsınız. Siz, az qala, böyük bir səhv edəcəkdiniz, bu adamı azad edin, mən öz vəzifəmi yerinə yetirirəm. Axtardığınız bədbəxt müttəhim mənəm. Burada həqiqəti görə bilən yalnız mənəm, ona görə də sizə doğrusunu söyləyəcəyəm. Mənim bu hərəkətimi Allah özü görür, bu isə mənə kifayətdir. Siz məni tuta bilərsiniz, çünki mən burada qarşınızdayam. Mən əlimdən gələn qədər gizlənməyə çalışdım. Özümə qondarma ad qoydum, varlandım, mer oldum, namuslu adamların sırasında yer tutmağa çalışdım. Görünür, bu mümkün deyilmiş. Bir çox şeylər var ki, bu saat açıb deyə bilmərəm, həyatımın tarixini sizə söyləməyin yeri deyil, bir gün gələr ki, öyrənərsiniz. Mən yepiskop həzrətlərinin evində oğurluq etdim – bu doğrudur, mən Balaca Jerveni qarət etdim – bu da doğrudur. Jan Valjanın qorxulu və zərərli bir adam olduğunu deyənlərin haqqı var. Lakin, bəlkə, buna müqəssir yalnız özü deyildir. Qulaq asın, cənab hakimlər, mənim kimi alçalan bir adam taleyindən şikayət etməkdə, yaxud cəmiyyətə məsləhətlər verməkdə haqlı deyil, lakin mənim qurtulmaq istədiyim bu mənfur həyat öz-özlüyündə

məhvedicidir. Katorqanın özü insanı cani edir. Xahiş edirəm, bu sözlərə dərindən fikir verin. Katorqa cəzasına qədər mən dar fikirli, gözü açılmamış, küt bir kəndli idim; katorqa məni dəyişib başqa bir adam elədi. Mən küt idim, kinli oldum; odun parçası idim, közərmiş bir kösöv oldum. Sərtlik məni məhv etdiyi kimi, sonralar təvazökarlıq və mərhəmət məni xilas etdi. Lakin bağışlayın, axı siz mənim deyəcəyim sözlərin hamısını başa düşə bilməzsiniz. Mənim otağımda, buxarının külü içində, yeddi il bundan əvvəl Balaca Jervedən oğurladığım qırx sunu taparsınız. Daha deyəcəyim başqa bir sözüm qalmadı. Məni həbs edin! Aman, ya rəbb! Cənab prokuror müşaviri başını yırğalayır, siz deyirsiniz ki, "Cənab Madlen dəli olmuşdur". Siz mənə inanmırsınız. Bu, çox əzabverici bir haldır. Xahiş edirəm, heç olmasa, bu günahsız adama cəza verməyin. Necə? Bu adamlar məni tanımırlar? Javerin burada olmasını istərdim. O, məni dərhal tanıyardı!

Bu sözlərdə səslənən mərhəmətli və ümidsiz bir hüznü ifadə etmək qabil deyildi.

O, üç katorqalıya tərəf dönərək dedi:

– Bax mən sizi dərhal tanıdım! Breve! Məni xatırlayırsınızmı?

Sonra sözünü kəsərək bir an tərəddüd içində dayandı və yenə davam etdi:

– Katorqada geydiyim dama-dama hörmə aşırmalarım yadındadırmı?

Breve təəccübündən diksindi və qorxu içində onu təpədən dırnağacan süzdü. O isə sözünə davam edərək dedi:

– Şenildye, yaxud özünü adlandırdığın kimi, Şelmadye, sən sağ çiynini tamam yandırmısan, çünki bir gün Ö. K. C.[1] hərflərini silmək üçün çiynini odu közərmiş ocağın üzərinə tutmuşdun. Lakin bu hərflər yenə də qalır. Cavab ver, bu doğrudurmu?

– Doğrudur! – deyə Şenildye cavab verdi.

Sonra Koşpayla tərəf dönərək dedi:

– Koşpayl, sənin sol qolunun büküyündə barıtla yazılmış göy bir yazı var. Bu yazı imperatorun *1815-ci il martın birində* Kannda sahilə çıxması tarixini göstərir. Qolunu çırmala!

Koşpayl qolunu çırmaladı, bütün gözlər onun açıq qoluna dikildi. Jandarm lampanı yaxına tutdu, tarix seçilirdi.

[1] *Ö.K.C.* – ömürlük katorqa cəzası

Zavallı adam camaata və hakimlərə tərəf dönərək, sonralar heç kimin tükləri ürpərmədən xatırlaya bilmədiyi bir təbəssümlə gülümsədi.

Bu təbəssüm bir vüqar, həm də bir ümidsizlik ifadə edirdi.

– İndi görürsünüzmü, Jan Valjan mənəm, – dedi.

Artıq bu salonda nə hakimlər, nə müttəhimlər, nə də jandarmlar vardı; burada yalnız ona zillənmiş gözlər və mütəəssir qəlblər vardı. Hamı oynadığı rolun nədən ibarət olduğunu unutmuşdu; prokuror müavini burada ittiham etmək, sədr – sədrlik etmək, vəkil isə müdafiə üçün olduğunu unutmuşdu. Çox qəribə bir hal – ona kimsə bir sual vermədi. Hökumət nümayəndələrindən heç kim məsələyə qarışmadı. Ülvi səhnələrin xüsusiyyəti də bundadır ki, onlar bütün qəlblərə təsir edir, şahidlər də tamaşa etməyə başlayırlar. Heç kəs öz hisslərini düşünmürdü; heç kəs qarşısında əzəmətli bir nur parladığını təsəvvür etmirdi. Bununla belə, hamı özünü daxilən kor kimi hiss edirdi.

İndi artıq məhkəmə qarşısında həqiqi Jan Valjan durduğuna heç şübhə qalmamışdı. Bu, gün kimi aydın idi. Bu adamın meydana çıxması bir neçə dəqiqə bundan qabaq işi çulğamış olan dumanı dərhal dağıtdı. Daha heç bir izahata ehtiyac yox idi, elektrik qığılcımı vurmuş kimi görünən adamlar öz yerinə məhkum edilən başqa bir adamı qurtarmaq üçün özünü ələ verən bu adamı əzəmətlə seyr edirdilər. Bu tamaşanın əzəməti qarşısında təfsilat, tərəddüdlər, bütün xırda məsələlər məhv olub gedirdi. Bu hərəkətin saçdığı nur hər bir şeyi bürümüşdü.

Təəssürat uzun sürmədi, lakin bu dəqiqədə ona qalib gələcək heç bir qüvvə yox idi. Jan Valjan sözünə davam edərək dedi:

– Mən daha məhkəmə iclasının gedişinə mane olmaq fikrində deyiləm. Məni həbs edən yoxdur, mən gedirəm. Mənim başqa işlərim də var. Cənab prokuror müavini mənim kim olduğumu, haraya getdiyimi bilir, arzu edərsə, məni tutdura bilər.

O, qapıya doğru yeridi. Kimsə səs çıxarmadı, ona mane olmaq üçün heç bir əl uzanmadı, camaat çəkilib ona yol verdi. O halda bu adam elə bir ilahi əzəmət ifadə edirdi ki, minlərlə adam qarşısından çəkilərək, sükut içində dayanıb pərəstişlə ona baxırdı. O, yavaş-yavaş camaatın arasından keçdi. Qapını kim açdığını görən olmadı, lakin qapıya çatdığı zaman qapı onun qarşısında taybatay açıldı. O, geriyə dönüb dedi:

– Cənab prokuror müavini, mən sizin ixtiyarınızdayam.

Sonra camaata müraciət etdi:

– Yəqin, siz hamınız məni mərhəmətə layiq hesab edirsiniz, deyilmi? Aman ya rəbb! Az qala, görməyə hazır olduğum işi düşündükdə özümü həsədə layiq bilirəm. Bununla bərabər, bütün bunlar olmasaydı, daha yaxşı olardı.

Salondan çıxdı, qapı öz-özünə açıldığı kimi, öz-özünə də bağlandı, çünki yüksək əməl sahibi əmin ola bilər ki, ona xidmət etməyə hazır olan adamlar yer üzündə az deyildir.

Bir saat keçmədi ki, hakimlər Şanmatye adlanan müttəhimə bəraət qərarı çıxardılar. Şanmatye dərhal azad edildi; başına gələn işlərdən, bu sayıqlamalardan o heç bir şey anlamamışdı. Hamını dəli zənn edirdi.

Səkkizinci kitab

ZƏRBƏNİN İNİKASI

Birinci fəsil

CƏNAB MADLEN ÖZ SAÇLARINI HANSI GÜZGÜDƏ GÖRÜR

İşıqlaşırdı. Fantina bu gecəni narahat keçirmişdi, o, qızdırmadan heç yata bilməmişdi; lakin başından gözəl xəyallar keçirdi; səhərə yaxın onu yuxu apardı. Simplisiya bacı bütün gecəni xəstənin yanından ayrılmamışdı. Fantinanın yuxuya getməsindən fürsət taparaq o, kinə suyu hazırlamağa getdi. Hörmətli qadın artıq bir neçə dəqiqə idi ki, xəstəxana aptekinə gəlmişdi və əyilərək sübhün alaqaranlığında dərman şüşələrini nəzərdən keçirirdi. Birdən o, başını çevirdi və yavaşca qışqırdı: cənab Madlen onun qarşısında durmuşdu. O, səssiz-səmirsiz otağa daxil olmuşdu.

– Cənab mer, sizsinizmi? – deyə qadın səsləndi.

Cənab Madlen yavaş bir səslə soruşdu:

– O zavallı qadın nə haldadır?

– İndi pis deyil, lakin dünən bizi çox qorxutdu.

Qadın dünən olanları ona söylədi: Fantina özünü çox pis hiss edirdi. İndi isə yaxşıdır, çünki elə bilir ki, cənab mer onun qızını gətirmək üçün Monfermeylə getmişdir. Simplisiya bacı cənab merdən soruşmağa cəsarət etmədi, lakin görünüşündən dərhal anladı ki, oraya getməmişdir.

Cənab Madlen:

– Yaxşı etmişsiniz, – dedi, – onu ruhdan salmamışsınız.

– Bəli, cənab mer, – deyə Simplisiya bacı davam etdi, – lakin indi sizi uşaqsız gördükdə, biz ona nə deyəcəyik?

Cənab Madlen bir az fikrə getdi.

– Allahın məsləhətinə baxarıq, – dedi.

Şəfqət bacısı:

– Axı yalan danışmaq olmaz, – dedi.

Otaq artıq büsbütün işıqlanmışdı. İndi cənab Madlenin üzü lap yaxşı görünürdü. Şəfqət bacısı təsadüfən başını qaldırdı və heyrətlə çığırdı:

– Aman ya rəbb! Sizə nə olmuşdur? Saçlarınız tamam ağarmışdır.

– Ağarmışdır? – deyə cənab Madlen təkrar etdi.

Simplisiya bacının güzgüsü yoxdu, o, alət çantasını araşdırıb, ölən xəstələrin nəfəs alıb-almadığını yoxlamaq üçün həkimin işlətdiyi balaca bir güzgünü çıxartdı. Cənab Madlen güzgünü alıb saçlarına baxdı və laqeyd tövrlə: "Doğrudan da!" – dedi.

Səsindən tamamilə başqa bir şey düşündüyü görünürdü.

Simplisiya bacı donub qalmışdı: bu hadisədə anlaşılmaz və eyni zamanda qorxunc bir şey vardı.

Cənab Madlen soruşdu:

– Xəstəni görə bilərəmmi?

– Bəs cənab mer onun uşağının dalınca adam göndərməyəcəkmi? – deyə qadın güclə cəsarətini toplayıb sual verdi.

– Əlbəttə, ancaq buna iki-üç gün vaxt lazımdır.

Qadın qorxaq bir səslə:

– Cənab mer, o vaxta qədər onun gözünə görünməsəniz yaxşı olardı, – dedi, – o zaman o, sizin qayıtdığınızı bilməz və hələ səbir edər; uşaq gətirildiyi zaman isə sizinlə gəldiyini zənn edər. Belə olarsa, yalan danışmağa da ehtiyac olmaz.

Cənab Madlen bir qədər düşündü. Sonra özünə məxsus sakit bir ciddiyyətlə:

– Xeyr, bacı, – dedi, – mən onu görməliyəm. Bəlkə, sonra vaxtım olmadı.

Simplisiya bacı bu "bəlkə" sözünə diqqət etmədi. Halbuki bu söz cənab merin sözlərinə anlaşılmaz və qəribə bir məna verirdi. O, başını aşağı salıb hörmətlə cavab verdi:

– O halda buyurun, cənab mer. Lakin o, yenicə yuxuya getmişdir.

Cənab Madlen cırıltı ilə örtülən və xəstəni narahat edə bilən bir qapı haqqında bəzi qeydlər söylədi; sonra Fantinanın yatdığı otağa

girdi; çarpayıya yanaşıb pərdəni azacıq açdı. Fantina yatırdı. O, bu xəstələrə məxsus olan və ölümə məhkum edilmiş uşağının yatağı yanında sübhə qədər gözünü yummayan analar kimi ürək parçalayan məşum bir xırıltı ilə nəfəs alırdı. Lakin bu qədər çətin nəfəs alması Fantinanın üzündəki misilsiz aydınlığı poza bilməmişdi, o, sanki, yuxuda büsbütün dəyişmişdi. Üzünün solğunluğu ağlığa çevrilmişdi, yanaqları azacıq qızarmışdı. Keçmiş məsumiyyətindən və gəncliyindən qalmış yeganə zinəti olan qızıl rəngli uzun kirpikləri yumulmuşdu və yavaşca tərpənirdi. Sanki, açılıb onu göylərə qaldırmaq istəyən gözəgörünməz və xışıldayan qanadların hərəkətindən bütün vücudu titrəyirdi. Onu bu halda görənlər yatan qızın ölümcül xəstə olduğunu qətiyyən güman etməzdilər. Fantina ölməyə deyil, uçmağa hazır olan bir məxluqa bənzəyirdi.

İnsan əli gülü qoparmaq üçün budağa yaxınlaşdığı zaman budaq titrər, həm geri çəkilər, həm də təslim olar. Ölümün sirli əli insanın ruhunu aparmaq üçün yaxınlaşdığı zaman insan bədəni də bu gül budağı kimi titrəyir.

Cənab Madlen bir müddət bu yatağın qarşısında dayandı. O, gah xəstəyə, gah da İsanın surətinə baxırdı. İki ay bundan əvvəl ilk dəfə Fantinanı görmək üçün bu sığınacağa gəldiyi zaman da belə olmuşdu: Fantina yatır, o isə dua edirdi. Yalnız bu iki ay ərzində Fantinanın saçlarına dən düşmüş, onun saçları isə tamam ağarmışdı.

Simplisiya bacı onunla birlikdə Fantinanın otağına girmədi, lakin cənab Madlen çarpayının yanında durub, barmaqlarını dodaqlarının üzərinə qoymuşdu və sanki, otaqda kimə isə sükutu pozmamaq üçün yalvarırdı.

Birdən Fantina gözlərini açdı, onu gördü və gülümsəyərək tamamilə sakit soruşdu:

– Bəs Kozetta?

İkinci fəsil

FANTİNA XOŞBƏXTDİR

Fantina heyrətini və ya sevincini bildirən heç bir hərəkət etmədi; o özü bir sevinc mücəssəməsi idi. Sadəcə, verdiyi “Bəs Kozetta?” sualı elə dərin bir inamla, elə bir sakitliklə verilmişdi, təşvişdən və

şübhədən elə azad idi ki, cənab Madlen nə cavab verəcəyini bilmədi. O isə sözünə davam edərək:

– Mən indi burada olduğunuzu bilirdim, – dedi, – Mən yatmışdım. Lakin sizi görürdüm. Çoxdan sizi görürəm. Bütün gecə gözlərim sizi izləyirdi. Sizi bir şəfəq bürümüşdü, ətrafınızda mələklər uçurdu.

Cənab Madlen gözlərini qaldırıb İsanın təsvirinə baxdı.

Fantina yenə davam edərək:

– Lakin deyin görüm, Kozetta haradadır? – dedi. – Nə üçün onu gətirən kimi mənim qucağıma qoymadınız ki, oyanan kimi onu yanımda görüm?

Cənab Madlen şüursuz olaraq ona nə isə cavab verdi, lakin nə demiş olduğunu sonralar nə qədər düşündüsə xatırlamadı.

Xoşbəxtlikdən, bu halda doktor otağa girdi. Onu xəbərdar etmişdilər. O tam vaxtında cənab Madlenin köməyinə çatdı.

– Quzum, sakit olun, – dedi. – Qızınız buradadır.

Fantinanın gözləri parlayaraq, üzünə şəfəq saldı. O, mehriban və atəşin bir yalvarışla əllərini sinəsində birləşdirdi.

– Ah, yalvarıram, onu yanıma gətirin! – deyə çığırdı.

Ananın müqəssir xülyası! Onun üçün Kozetta hələ də əldə gəzdirilən körpə idi.

Doktor:

– Bir az səbir edin, – dedi, – hələ olmaz. İsitməniz hələ qurtarmamışdır. Qızınızla görüşməniz sizi həyəcanlandırar, bu isə sizə zərərdir. Sağalın, sonra.

Fantina səbirsizliklə onun sözünü kəsərək:

– Axı mən tamam sağalmışam, – dedi. – Mən lap sağlamam. Bu doktor nə qədər axmaqdır! Eşidirsinizmi? Mən öz uşağımı görmək istəyirəm, vəssalam!

Doktor:

– Görürsünüzmü, nə qədər həyəcan içindəsiniz! – dedi. – Sakit olmayınca, qızınızla görüşməyə icazə verməyəcəyəm. Uşağı görmək kifayət deyil, siz onun üçün yaşamalısınız. Nə vaxt ki ağıllı oldunuz, qızınızı mən özüm yanınıza gətirərəm.

Yazıq ana başını aşağı saldı.

– Bağışlayın, cənab doktor! – dedi. – Çox xahiş edirəm, məni bağışlayın! Əvvəllər mən bu cür danışmazdım, lakin başıma o qədər

müsibətlər gəlib ki, artıq nə danışdığımı bilmirəm. Əlbəttə, siz qorxursunuz ki, mən yenə xəstələnəm; sözünüzə qulaq asacağam, gözləyəcəyəm, lakin sizi inandırıram ki, qızımla görüşmək mənə heç bir zərər yetirməzdi. Dünən axşamdan o, gözlərimin önündə durur. Bilirsinizmi, nə var? İndi onu yanıma gətirsəydiniz, onunla yavaş-yavaş danışardım. Uşağımı görmək istəməyim təəccüblümüdür? Axı onu yanıma gətirmək üçün Monfermeylə xüsusi adam göndərilib. Mən acıqlanmıram, tezliklə xoşbəxt olacağımı bilirəm. Bütün gecəni nə isə ağ şeylər və mənə gülümsəyən insanlar görmüşəm. Cənab doktor nə zaman istəsə, Kozettamı yanıma gətirəcək, elə deyilmi? Hərarətim yoxdur, mən axı sağalmışam. Hiss edirəm ki, xəstəliyim qurtarıb, lakin özümü elə aparacağam ki, elə bil, xəstəyəm, buradakı bacılara xoş gəlmək üçün heç yerimdən tərpənməyəcəyəm. Mənim sakit olduğumu gördükdə, deyərlər ki, indi uşağını ona vermək olar.

Cənab Madlen çarpayının yanındakı stulda oturdu. Fantina ona doğru çevrildi, görünürdü ki, o, var qüvvəsi ilə sakit görünməyə və "ağıllı qız olmağa" çalışır – bu onun ən sevimli bir sözü idi, – o çalışır ki, hamı onun sakit olduğunu görsün və Kozettanı yanına gətirməyə icazə versinlər. Lakin o nə qədər çalışırdısa, yenə də cənab Madlenə minlərcə sual verməkdən özünü saxlaya bilmirdi.

– Yolda əziyyət çəkmədiniz ki, cənab mer? Ah, nə qədər mərhəmətlisiniz, qızımı gətirməkdə nə qədər yaxşı iş görmüsünüz! Bircə deyin görüm, o salamatdırmı? Yolda özünü yaxşımı hiss edirdi? Heyhat! O, məni tanımayacaqdır. Yazıq körpəm, bu neçə vaxtda məni unutmuşdur. Uşaqlar balaca quşlar kimidir, tez unudurlar. Bu gün bir şey görürlər, sabah başqa bir şey, gördüklərini də unudurlar. Barı paltarı təmizdirmi? Bu Tenardyelər onu yaxşımı saxlayırdılar? Yaxşımı yedirdirdilər? Ah, bilsəydiniz yoxsulluq günlərimdə bütün bu sualları özümə verəndə nə qədər əzab çəkirdim! İndi bunlar keçib gedib. Mən çox şadam. Ah, mən onu nə qədər görmək istəyirəm! Qızımı bəyəndinizmi, cənab mer? Gözəl qızdır, deyilmi? Dilicanda üşümədiniz ki? Onu bir dəqiqəliyə yanıma gətirsəydiniz! Sonra yenə aparardınız. Siz axı buranın sahibisiniz.

Cənab Madlen onun əlindən tutaraq:

– Kozetta gözəl qızdır, – dedi. – Kozetta sağ və salamatdır, tezliklə onu görəcəksiniz, lakin sakitləşin. Siz çox tez-tez danışırsınız,

həm də əllərinizi yorğanın altından çıxarırsınız, ona görə də öskürürsünüz.

Doğrudan da, Fantina kəlməbaşı xırıltılı öskürəkdən boğulurdu.

Fantina etiraz etmədi, o, ətrafdakılarda özünə qarşı yaratmaq istədiyi etimadı öz danışığı ilə pozduğundan qorxdu və başqa şeylərdən danışmağa başladı.

– Monfermeyl gözəl yerdir, deyilmi? Yayda oraya gəzməyə gedirlər. Tenardye necədir, işləri nə haldadır? O yerlərə gəlib-gedən çox az olur. Onun karvansarası tamamilə bir meyxanaya bənzəyir.

Cənab Madlen Fantinanın əlini buraxmadan təşvişlə onun üzünə baxırdı, onun bu qadına nə isə bir şey deməyə gəldiyi, indi isə fikrindən döndüyü hiss olunurdu. Doktor xəstəni ziyarət etdikdən sonra getmiş və indi xəstənin yanında cənab Madlen ilə şəfqət bacısı qalmışdı.

Başlanan sükut içərisində birdən Fantinanın səsi gəldi:

– Mən onun səsini eşidirəm. Aman Allah, mən onun səsini eşidirəm!

Fantina əlini uzadaraq hamını susmağa çağırdı və nəfəs belə almadan qulaq asmağa başladı.

Həyətdə bir uşaq oynayırdı: bu, qapıçı arvadın, yaxud fəhlələrdən birinin qızı idi. Faciəli hadisələrin əsrarəngiz oyununda belə təsadüflər çox olur, sanki onların da burada özünəməxsus bir rolu var. Qızcığaz isinmək üçün atılıb-düşür, qaçır, gülür və ucadan oxuyurdu. Heyhat! Bəzən uşaq oyunları insan qəlbinin çox incə tellərinə toxunur! Fantinanın da eşitdiyi bu uşağın oxuması idi.

– Oh! – deyə o çığırdı. – Bu, mənim Kozettamdır! Mən onun səsini tanıyıram!

Uşağın səsi birdən kəsildi, o yox oldu. Fantina bir müddət yenə bu səsi eşitmək ümidilə qulaq asdı, sonra qaşqabağını salladı və cənab Madlen onun pıçıltı ilə bu sözləri dediyini eşitdi: "Bu doktor gör nə qədər pis adamdır ki, qızımı görməyə qoymur! Bu adamın üzündən belə, kin yağır!"

Lakin o, yenə fərəhli fikirlərə daldı. Başını yastığa qoyaraq özözünə danışırdı: "Ah, biz nə qədər xoşbəxt olacağıq! Əvvəla, bizim balaca bir bağçamız olacaq! Cənab Madlen bunu mənə vəd etmişdir. Qızcığazım hər zaman bağçada oynayacaqdır. O, yəqin, artıq əlifbanı bilir. Mən ona oxumaq öyrədəcəyəm. Kozetta çəməndə

kəpənək dalınca qaçacaq, mən də onu seyr edəcəyəm. Sonra o, kilsəyə dualanmağa gedəcəkdir. Ah, yaxşı yadıma düşdü! Bəs o, ilk dəfə dualanmaq üçün kilsəyə nə zaman gedəcəkdir?"

Fantina barmaqlarını saymağa başladı.

– Bir, iki, üç, dörd... İndi onun yeddi yaşı var. Demək, beş ildən sonra o, başına ağ vual salacaq, ayağına tor corab geyəcək, balaca bir qadına oxşayacaqdır. Ah, mərhəmətli bacım, siz hələ bilmirsiniz, mən nə qədər axmağam – görün mən nəyi fikirləşirəm, qızımın kilsəyə getməyini!

Fantına güldü.

Cənab Madlen Fantinanın əlini buraxmışdı. Gözlərini endirərək, dərin fikirlər içində, küləyin səsinə qulaq asırmış kimi bu sözləri dinləyirdi. Birdən Fantina susdu, cənab Madlen ixtiyarsız gözlərini qaldırdı. Fantinanın görünüşü onu qorxutdu.

O artıq danışmırdı, nəfəs almırdı, o, bir qədər yerindən qalxmışdı, yaxası açılmış köynəyin altından arıq çiyini görünürdü, bir az əvvəl sevincdən işıqlanan üzü indi meyit rəngi almış və kiçilmişdi. Dəhşətdən böyümüş gözləri ilə, sanki, otağın bir bucağında duran qorxunc bir şeyə diqqətlə baxırdı.

Cənab Madlen:

– Aman ya rəbb! – deyə çığırdı. – Sizə nə oldu, Fantina?

Fantina cavab vermədi, o, baxdığı şeydən gözlərini ayırmırdı. Əli ilə cənab Madlenin çiyninə toxunaraq geriyə baxmasını işarə etdi.

Cənab Madlen dönüb baxarkən Javeri gördü.

Üçüncü fəsil

JAVER SEVİNİR

Vaqe olan hadisə budur.

Cənab Madlen Arrasdakı məhkəmə salonundan çıxanda gecə saat birin yarısı idi. Dilican Arrasdan hərəkət etməyə hazırlaşan zaman o, mehmanxanaya qayıtmışdı. Oxucu, yəqin, xatırlayır ki, o, özü üçün dilicanda yer saxlatdırmışdı. Səhər saat altıya yaxın o, Monreyl-sür-Mer şəhərinə çatdı. O, hər şeydən əvvəl, Lafitə yazdığı məktubu poçtla göndərdi, sonra Fantinanı görmək üçün xəstəxanaya getdi.

Cənab Madlen Arrasda məhkəmə salonundan çıxdıqdan sonra bu hadisə qarşısında başını itirən prokuror müavini özünü toplayaraq bir nitq söylədi. Bu nitqində o, Monreyl-sür-Mer şəhərinin meri kimi hörmətli bir adamın ağlını itirdiyi üçün səmimi bir təəssüf izhar etdi və müttəhimin müqəssirliyinə olan inamının bu qəribə hadisədən heç də sarsılmadığını və əlbəttə, bütün bu şeylərin gələcəkdə aydınlaşacağını, hələlik isə hakimlərin başladığı işin davam etdirilməsini rica etdi və dedi ki, şübhəsiz həqiqi Jan Valjan olan müttəhim Şanmatyenin məhkum edilməsini tələb edir. Prokuror müavininin israrı camaatın və hakimlərin rəyinə tamamilə zidd idi. Müdafiəçi çox asanlıqla prokuror müavininin sözlərini rədd edərək, cənab Madlenin – yəni həqiqi Jan Valjanın – söylədikləri sayəsində bütün işin dəyişdiyini və hakimlərin qarşısında duran adamın tamamilə günahsız olduğunu isbat edə bildi. Buradan o, məhkəmə səhvləri və sairə haqqında bir neçə, təzə olmasa da, ümumi cümlələr söylədi, məhkəmə sədri son sözündə vəkilin rəyi ilə şərik oldu. Hakimlər bir neçə dəqiqə müşavirə etdikdən sonra, Şanmatyeyə bəraət qazandırdılar.

Lakin prokuror müavininə, hər halda, bir Jan Valjan lazım idi, Şanmatye əlindən çıxdıqdan sonra o, Madlendən yapışdı.

Şanmatye azad edilən kimi prokuror müavini məhkəmə sədri ilə birlikdə müşavirə otağına çəkildilər. Onlar yeni müttəhimə aid, Monreyl-sür-Mer şəhərinin cənab merinə və onu tutmaq zərurətinə aid məsələni müzakirə etdilər. Bu "aidlər" kolleksiyası prokuror müavininin qələminə məxsusdur və onun baş prokurora yazmış olduğu rəsmi məruzədə qeyd edilmişdir. Məhkəmə sədri artıq sakit olmuşdu və o qədər də etiraz etmədi, necə olsa, ədalət məhkəməsi öz işini görməli idi. Həm də açıq demək lazımdır, məhkəmə sədri kinli və heç də axmaq adam olmamaqla bərabər, sadiq, hətta fanatikcəsinə royalist idi və Monreyl-sür-Mer şəhəri rəisinin Kann hadisəsindən bəhs edərkən Buonaparte deyil, imperator deməsi ona acıq gəlmişdi.

Beləliklə, həbsə almaq əmri hazırlandı. Prokuror müavini əmri atlı vasitəsilə Monreylə göndərdi. Əmri aparan adama tapşırıldı ki, bütün gecəni çaparaq yol getsin və əmri polis müfəttişi Javerə versin.

Məlum olduğu kimi, Javer məhkəmədə şahidliyini qurtardıqdan sonra dərhal Monreylə qayıtmışdı.

O, yenicə durmuşdu ki, həbs haqqında qərarı, dustağı Arrasa gətirmək əmrini aldı.

Əmri gətirən adam da polis agentlərindən idi və bir-iki sözlə Arrasda baş verən hadisəni Javerə anlatdı. Prokuror müavini tərəfindən imza edilmiş həbs əmri belə yazılmışdı: *"Polis müfəttişi Javerə – filan vaxtda məhkəmə iclasında sabiq katorqalı Jan Valjan olduğu məhkəməyə aydın olan Monreyl-sür-Mer şəhərinin meri cənab Madleni tutmaq sizə əmr edilir".*

Javer xəstəxana qapısından içəri girəndə kənar bir adam onu görsə idi, zahiri görünüşündən onun daxilində nələr olduğunu heç vaxt bilməz və onda qeyri-adi bir şey görməzdi.

Javer soyuq, sakit, ciddi idi. Ağ saçları gicgahlarında səliqə ilə sığallanmışdı. O, adəti üzrə tələsmədən pilləkənlə qalxdı. Lakin onu daha yaxından tanıyan bir adam bu dəqiqədə onun üzündəki ifadəyə diqqət yetirsəydi, ruhunun dərinliyinə qədər titrərdi. Dəri yaxalığının düymələri dalda olmaq əvəzinə sol qulağının altında idi. Bu hadisə Javerin fövqəladə bir həyəcan keçirdiyinə dəlalət edirdi.

Javer mükəmməl təbiətli bir adamdı, nə vəzifələrində, nə də paltarında ən kiçik bir intizamsızlığa belə yol verməzdi, canilərlə olduqca ciddi və paltarının düymələrinə qarşı olduqca diqqətli idi.

Odur ki yaxalığı əyri düymələnmişdisə, demək, Javerin qəlbində elə bir tufan vardı ki, bunu ancaq daxili bir zəlzələ adlandırmaq olardı. O, yaxın polis idarəsindən beş nəfər əsgər və kapralı götürərək birbaşa xəstəxanaya gəldi, əsgərləri xəstəxananın həyətində qoydu, özü isə içəriyə girərək, Fantinanın yatdığı otağın ona göstərilməsini xahiş etdi, qapıçı qadın cənab Madlenin yanına silahlı adamların gəlməsinə öyrəncəli olduğundan heç bir şeydən şübhə etməmiş və xəstənin olduğu otağın qapısını göstərmişdi.

Javer Fantinanın yatdığı otağın qapısına çatdıqda xəstə baxıcılarına, bir də casuslara məxsus bir ehtiyatla qapını açaraq içəri girdi.

Daha doğrusu, içəri girmədi, qapını yarı açaraq şlyapasını çıxarmadan sol əlini düymələnmiş sürtukunun cibinə soxaraq durdu. Hər zaman daşıdığı böyük əl ağacının qurğuşunlu başı qoltuğundan görünürdü.

O, bir neçə dəqiqə bu vəziyyətdə durdu. Onu kimsə görmürdü. Birdən Fantina gözlərini qaldırıb onu gördü, cənab Madlenə işarə etdi və o dönərək Javeri gördü.

Cənab Madlenin gözləri Javerin gözləri ilə qarşılaşan dəqiqədə Javer dəhşətli görkəm aldı. O, yerindən tərpənmədən, bir addım belə atmadan, hərəkətsiz dayanıb baxırdı. Bəzən insanın heç bir hissi sevinc qədər dəhşət törədə bilmir.

Bu üz, öz günahkarını yenə ələ keçirmiş olan iblisin üzü idi. Jan Valjanın artıq onun pəncəsində olduğunu yəqin etməsi Javerin qəlbində qaynaşan bütün hissləri aşkara çıxarmışdı. Bulanıq suyun dibindəki bütün lil üzə çıxmışdı. Az qala, izi itirməsindən və bir neçə dəqiqəyə Şanmatyeni başqasına oxşatmasından əmələ gəlmiş alçalma hissi yox olmuş və həqiqəti əvvəldən duyması və onun yanılmayan casusluq hissinin aldadılmağa uzun müddət müqavimət göstərməsindən doğan bir iftixara çevrilmişdi. Javer sevinirdi və onun amiranə duruşu bunu aydın göstərirdi. Müvəffəqiyyətdə nə eybəcərlik varsa, hamısı onun ensiz alnında parlaq bir şəkildə əks olunurdu. Özündən razı olan insanın sifətindəki bütün dəhşətli ifadələr burada bütün çılpaqlığı ilə təzahür edirdi.

Javer bu anda özünü göyün yeddinci qatında hiss edirdi. Aydın bir təsəvvürü olmasa da, mənfəət verdiyini və müvəffəqiyyət qazandığını dumanlı və şüursuz bir şəkildə duyan Javer, artıq müqəddəs vəzifəsi pisliyi məhv etməkdən ibarət olan işığın, ədalət və həqiqətin bir mücəssəməsi idi. Hakimiyyət, sağlam şüur, məhkəmə qərarı, qanun ölçüsünə görə vicdan, ictimai cəza, bir sözlə, onun göylərinin bütün ulduzları onun arxasında, ətrafında, harada isə çox uzaqda dururdu. Javer nizam və intizamı qoruyur, ətrafa qanun şimşəkləri, qanun ildırımları saçır, cəmiyyətin intiqamını alır, mütləqiyyətə kömək edirdi. O, sanki, nura bürünür, yüksəlirdi, onun qabiliyyəti meydan oxuyurdu, günün günorta çağında, o, yırtıcı bir intiqam mələyinin xariqüladə heyvani təbiətini nümayiş etdirərək parlaq və vüqarlı halda dayanmışdı. Gördüyü işin qorxunc kölgəsi altında əlində möhkəm tutduğu alovlu ictimai ədalət qılıncı yavaş-yavaş görünməyə başlayırdı. Xoşbəxt və qəzəbnak olan Javer çəkmələrinin dabanları ilə cinayətləri, qəbahətləri, üsyankarlığı, günahı, cəhənnəmi tapdalayırdı; o, nur saçır, məhv edir, gülümsəyirdi və bu dəhşətli mələk Mikayılın görünüşündə, şübhəsiz, bir əzəmət vardı.

Javer dəhşətli idi, lakin onda heç bir alçaq şey yox idi.

Namus, səmimiyyət, düzlük, inam, vəzifəyə sədaqət kimi xassələr yanlış yola düşdükləri zaman iyrənc ola bilər, lakin burada da

onlar öz əhəmiyyətini itirmir, bu xassələr dəhşət saçan zamanlarda belə, insan vicdanına xas olan əzəmət onları tərk etmir. Bu fəzilətlərin yalnız bir nöqsanı vardır ki, o da yanlış yola düşməkdir. Bu təəssübkeşin rəhmsiz və səmimi sevinci nə qədər amansız olsa da, məşum, lakin hörmət tələb edən nur saçar. Javer, özü belə dərk etmədən, öz hüdudsuz sevincində, hər bir özündən çıxmış cahil kimi acınacaqlı idi. Və heç bir şey bu üz kimi bu qədər bağrı yaran və dəhşətli təsir bağışlaya bilməzdi, bu üzdə, demək mümkünsə, xeyirin bütün çirkinliyi əks olunmuşdu.

Dördüncü fəsil

QANUNİ HÖKUMƏT ÖZ HÜQUQUNU BƏRPA EDİR

Fantina cənab mer tərəfindən bu qorxunc adamın pəncəsindən qurtarıldığı gündən bəri Javeri görməmişdi. Qızın xəstə beyni heç bir şeyi araşdırmağa qabil deyildisə də, bununla bərabər Javerin onun dalınca gəldiyinə bir an belə şübhə etmədi. O, bu dəhşətli adamı görməyə tab gətirmədi: taqətdən düşdüyünü hiss edib, əlləri ilə üzünü örtdü və təşvişdən üzülərək çığırdı:

– Cənab Madlen, məni qurtarın!

Jan Valjan – biz artıq onu bu adla çağıracağıq – ayağa durdu, ən mülayim və ən sakit bir səslə Fantinaya:

– Qorxmayın, – dedi, – o, sizin dalınızca gəlməmişdir.

Sonra Javerə tərəf dönərək:

– Mən sizin nə üçün gəldiyinizi bilirəm, – dedi.

Javer cavab verdi:

– Tez ol! Gedək!

Bu üç qısa sözün deyildiyi ahəngdə nə isə bir vəhşilik, yırtıcılıq duyulurdu. Javer "Tez ol! Gedək" demədi, o üç sözü birləşdirərək "tezolgedək!" dedi. Bu sözlərin tələffüzünü heç bir imla qaydası ifadə edə bilməzdi, bu artıq insan nitqi deyildi, bu, vəhşi bir heyvanın nərəsi idi.

Bu dəfə Javer öz qaydasını bir qədər pozdu, o, öz gəlişinin məqsədini izah etmədi, həbs etmək əmrini belə oxumadı. Onun

üçün Jan Valjan – bir növ düşmən, əsrarəngiz bir adam, ələ keçməyən müəmmalı bir mübariz idi. Beş il idi ki, o, bu adamı təqib edir, lakin yıxa bilmirdi. Bu həbs işin başlanğıcı deyil, sonu idi. Odur ki Javer sadəcə "Tez ol! Gedək!" sözləri ilə kifayətləndi.

Bu sözləri söylərkən o, yerindən belə tərpənmədi, bir addım belə atmadı, yalnız çəngəl kimi öz zavallı qurbanlarına sancılan və özünə doğru çəkmiş qorxunc nəzərini Jan Valjana fırlatdı.

İki ay bundan əvvəl Fantina da öz üzərində belə bir baxış duymuş və bu baxış onun iliyinə qədər işləmişdi.

Javer çığıranda Fantina gözlərini açdı. Lakin axı cənab mer burada idi, nədən qorxmalı idi?

Javer irəliyə gəlib otağın ortasında dayandı.

– Ey! Adın nədir! Gedəcəksən, ya yox? – dedi.

Xəstə qadın ətrafına baxdı. Burada şəfqət bacısı ilə cənab merdən başqa kimsə yox idi. Javer bu iyrənc sözləri kimə deyə bilərdi? Yalnız ona. Fantina titrədi.

Bu zaman o, heç ağla gəlməyən bir şey gördü. Ən qarışıq və şiddətli sayıqlama zamanı belə o, bu qədər ağla sığmayan bir şeyi görə bilməzdi.

O, casus Javerin cənab merin yaxasından yapışdığını və cənab merin boynunu əydiyini gördü. Ona elə gəldi ki, dünya qopur.

Javer, doğrudan da, Jan Valjanın yaxasından tutmuşdu.

Fantina:

– Cənab mer! – deyə çığırdı.

Javer bir qəhqəhə ilə, bütün dişlərini ağardan qorxunc bir qəhqəhə ilə güldü.

– Burada daha cənab mer-filan yoxdur!

Jan Valjan redinqotunun yaxasından tutan əli rədd etməyə çalışmayaraq:

– Javer... – dedi.

Javer onun sözünü kəsərək:

– Mən sənin üçün cənab polis müfəttişiyəm, – dedi.

Jan Valjan sözünə davam edərək:

– Cənab, – dedi. – Sizə təklikdə bir neçə söz deməliyəm.

Javer:

– Ucadan danış, ucadan! – dedi. – Mənimlə pıçıldaşmaq olmaz!

Jan Valjan səsini alçaldaraq davam etdi:

– Mənim sizdən bir xahişim var...

– Ucadan danış, deyirəm sənə!

– Lakin deyəcəyim sözləri yalnız siz eşitməlisiniz...

– Mənə nə! Mən qulaq asmaq istəmirəm.

Jan Valjan üzünü Javerə çevirdi, tələsik və yavaşca dedi:

– Mənə üç gün möhlət verin. Yalnız üç gün! Gedib bu zavallı qadının uşağını buraya gətirim! Nə qədər pul lazım olsa, verərəm! İstəsəniz mənimlə bərabər gedə bilərsiniz.

– Mənimlə zarafat edirsən? – deyə Javer çığırdı. – Vallah mən səni axmaq hesab eləmirdim. Məndən üç gün möhlət istəyirsən ki, qaçasan, özü də deyirsən ki, bu fahişənin uşağı üçün gedəcəksən! Ha-ha-ha! Yaxşı, çox yaxşı!

Fantina birdən titrəyərək:

– Uşağımın dalınca! – deyə bağırdı. – Siz mənim uşağımı gedib gətirmək istəyirsiniz? Demək, o, burada deyil? Bacı, cavab verin, hanı mənim Kozettam, uşağımı mənə verin! Cənab mer! Cənab Madlen!

Javer hiddətlə ayağını yerə vurdu.

– Bu da bu yandan başladı! Səsini kəsəcəksənmi, həyasız! Bu nə qəribə məmləkətdir ki, katorqalılar hökumət vəzifələrindədir, fahişələrə isə qrafinyalar kimi qulluq edirlər! Xeyr a! İndi işlər dəyişəcək. Yetər! Artıq yetər!

O, dik-dik Fantinaya baxdı və yenə Jan Valjanın yaxasından, boyunbağısından və köynəyinin boğazından yapışaraq dedi:

– Sənə dedim ki, bu nə cənab mer, nə də cənab Madlendir. Burada duran məşhur bir oğru və cani, katorqalı Jan Valjandır! Budur, əlimlə tutmuşam və buraxmayacağam! Vəssalam.

Fantina birdən yerindən qalxaraq zəif qollarına söykəndi, Jan Valjana, Javerə, şəfqət bacısına baxdı. Bir söz demək istəyirmiş kimi ağzını açdı, lakin sinəsindən boğuq bir xırıltı çıxdı, dişləri şaqqıltı ilə birbirinə dəydi, o, boğulan adamlar kimi, dəhşət içində havadan yapışmaq istəyirmiş kimi əllərini irəliyə uzatdı və taqətsiz bir halda yastıq üzərinə yıxıldı. Başı çarpayının dəmirinə dəydi və sinəsinə doğru əyildi, ağzı açıq qaldı, gözləri bir nöqtəyə dikilərək söndü. Fantina öldü.

Jan Valjan əlini yaxasından yapışmış olan Javerin əli üzərinə qoydu, uşağın əlini açan kimi onu çox asanlıqla açdı, sonra Javerə dönərək:

– Siz bu qadını öldürdünüz, – dedi.

Javer hiddətlə:

– Bəsdir! – deyə bağırdı. – Mən buraya sənin nəsihətlərini dinləməyə gəlməmişəm. Onsuz da işim keçər! Keşikçilər aşağıda gözləyir. Dalımca gəl, yoxsa əmr edərəm, səni buxovlayarlar!

Otağın bir bucağında laxlamış köhnə dəmir çarpayı vardı, gecələr xəstənin yanında qalmaq lazım gəldikdə, şəfqət bacıları bu çarpayıda yatardılar. Jan Valjan bu çarpayıya yanaşdı, bir anda asanlıqla çarpayının onsuz da laxlayan baş dəmirini qopartdı, qüvvətli əlləri ilə ondan bir çubuq çəkib çıxartdı və Javerə baxdı. Javer qapıya doğru geri çəkildi.

Jan Valjan dəmir parçasını əlində tutaraq yavaş-yavaş Fantinanın yatdığı çarpayıya doğru getdi, çarpayıya yanaşaraq, dönüb Javerə baxdı və güclə eşidiləcək səslə dedi:

– Bu dəqiqədə mənə mane olmağınızı məsləhət görmürəm.

Javer titrədi – bu, şübhəsizdi.

Əvvəlcə aşağıya düşərək əsgərləri çağırmaq fikrinə gəldi, lakin Jan Valjan bundan istifadə edərək qaça bilərdi. Buna görə qapının yanında dayandı, ağacını əlində sıxaraq, gözlərini Jan Valjandan ayırmadan qapıya söykəndi.

Jan Valjan çarpayının baş tərəfinə dirsəkləndi, başını əlinə söykəyərək hərəkətsiz uzanmış Fantinaya baxmağa başladı. O, fikir dəryasına qərq olaraq, dünyada hər şeyi unutmuş kimi uzun müddət bu cür dinməz durub baxdı. Onun üzü və duruşu yalnız hədsiz bir mərhəmət ifadə edirdi. Bir neçə dəqiqə bu cür dalğın dayandıqdan sonra o, Fantinaya tərəf əyildi və ona nə isə pıçıldamağa başladı.

O, Fantinaya nə dedi? Qanunun məhkum etdiyi bir adam ölmüş bir qadına nə deyə bilərdi? Onun dediyi sözlər nə idi? Yer üzündə bu sözləri heç kim eşitmədi. Görəsən, ölən qadın bu sözləri eşitdimi? Bəzi təsirli xəyallar var ki, onlarda ən ülvi həqiqətlər gizlidir. Yalnız bir şey şübhəsiz idi: bu hadisənin yeganə şahidi olan Simplisiya bacı, sonralar belə nağıl edirdi ki, guya, Jan Valjan Fantinanın qulağına nə isə pıçıldayanda, qızın solğun dodaqlarında məsum bir təbəssüm göründü və məzarın sirri önündə duyulan heyrətlə dolu dumanlanmış gözlərində bir işıq yandı.

Jan Valjan iki əli ilə Fantinanın başını tutdu, bir ana öz uşağını yatıran kimi, onu rahatca yastığın üzərinə qoydu, köynəyinin bağlarını bağladı, saçlarını ləçəyinin altına yığdı. Sonra onun gözlərini qapadı.

Fantinanın üzünə bu anda, sanki, qəribə bir nur saçıldı. Ölüm – əbədi aydınlığa keçmək deməkdir. Fantinanın əli çarpayıdan sallanmışdı. Jan Valjan bu əlin önündə diz çökdü, yavaşca onu qaldırdı və öpdü. Sonra ayağa duraraq, Javerə tərəf dönərək:

– İndi sizin ixtiyarınızdayam! – dedi.

Beşinci fəsil

ÖLÜYƏ MÜNASİB MƏZAR

Javer Jan Valjanı şəhər həbsxanasına apardı.

Cənab Madlenin həbsə alınması Monreyl-sür-Mer şəhərində böyük bir təsir buraxdı. Daha doğrusu, misli görünməmiş bir çaxnaşma törətdi. Təəssüflə etiraf etməliyik ki, "bu adam keçmiş katorqalıdır" sözlərini eşidərək hamı ondan üz döndərdi. İki saat keçmədi ki, onun etdiyi bütün yaxşılıqlar yaddan çıxdı: indi o yalnız "katorqalı" idi. Şəhərdə səhərdən axşama qədər bu cür söhbətlər eşidilirdi.

– Hələ bilmirsiniz? Bu möhləti qurtarmış bir katorqalıdır. – Kim? – Bizim mer. – Necə, cənab Madlenmi? – Bəli. – Yox, ola bilməz! – Adı da heç Madlen deyilmiş, onun nə isə qorxunc bir adı var – Bejanmı, Bojanmı, yoxsa Bujanmı? – Aman ya rəbbi! – Onu tutmuşlar. – Tutmuşlar?! – Bəli, şəhər həbsxanasına salmışlar, sonra da sürgün edəcəklər. – Sürgünmü edəcəklər? Haraya sürəcəklər? – Onu keçmiş illərdə böyük yolda qarət etdiyi üçün dairə məhkəməsində mühakimə edəcəklər. – Gördünüzmü? Mən deyən oldu. O, həddindən artıq rəhmli, həddindən artıq yaxşı adamdı, lap şitini çıxardırdı. Ordeni qəbul eləmədi, pullarını ona-buna paylayırdı. Mən bu adamın şübhəli olduğunu həmişə düşünürdüm.

Xüsusilə "salonlar"dakı hiddət çox şiddətli idi.

"Ağ bayraq" qəzetinin abunəçisi olan xanımlardan biri, dilindən mənası çox dərin olan bir söz qaçırmışdı:

– Mən buna heç təəssüf etmirəm. Bu – bonapartistlərə yaxşı dərs oldu!

Bu surətlə Monreyl şəhərində bir zaman cənab Madlen adlanan mif dağılıb getdi. Bütün şəhərdə onu yaddan çıxarmayan yalnız

iki-üç adam idi. Onun evində xidmət edən qapıçı qadın da bu adamlar sırasında idi.

Həmin günün axşamı hələ qorxudan özünə gəlməmiş bu qarı kədərli fikirlərə dalaraq öz otağında oturmuşdu. Fabrik səhərdən bağlı idi, qapılar qapanmışdı, küçədə kimsə görünmürdü. Evdə iki rahibədən – Perepetuya bacı ilə Simplisiya bacıdan başqa kimsə yox idi, onlar da Fantinanın cənazəsi yanında oturmuşdular.

Cənab Madlenin, adətən, evə qayıtdığı vaxta yaxın vəfalı qadın tamamilə şüursuz olaraq yerindən qalxdı, cənab Madlenin otağının açarını yeşikdən çıxardı və onun həmişə pilləkənlə yuxarıya, öz otağına qalxanda götürdüyü şamdanı götürdü, açarı cənab Madlenin öz adəti üzrə asdığı mıxdan asdı və şamdanın yanında qoydu, sanki, ev yiyəsini gözləyirdi. Bütün bu işləri gördükdən sonra yenə öz yerində oturub, fikrə daldı. Zavallı qarı nə etdiyini özü də düşünmürdü.

Ancaq iki saat keçdikdən sonra fikirdən ayılıb nə etdiyini düşündükdə: "Aman, ya rəbb! – dedi. – Bir işə bax! Mən isə onun açarını mıxdan asdım".

Bu anda otağın pəncərəsi açıldı, bir əl uzanaraq açarla şamdanı götürdü və mum şamını masanın üstündə yanan piy şamının odu ilə yandırdı.

Qapıçı qadın gözlərini qaldırdı və heyrətindən donub qaldı, bağırmaq istədi, lakin özünü saxladı.

Qadın bu əli, bu barmaqları, bu redinqot qolunu tanıdı.

Bu, cənab Madlen idi.

Bir neçə saniyə qarı bir söz belə deyə bilmədi, daha sonralar "ürəyinin qopduğunu" söyləyirdi.

Nəhayət, yavaş bir səslə:

– Aman Allah, – dedi, – cənab mer, sizsinizmi? Mən isə elə bilirdim ki, siz...

Sözünü deyib qurtarmadı, çünki sözünün sonu əvvəlinə nisbətən hörmətsiz idi. Onun üçün Jan Valjan hələ yenə də cənab mer idi.

Jan Valjan qapıçı qadının fikrini tamamladı:

– ...Həbsxanadasınız! – dedi. – Bəli, mən həbsxanada idim. Pəncərənin dəmir şəbəkəsini qırdım, damdan enərək buraya gəldim. İndi mən öz otağıma gedirəm, siz isə Simplisiya bacını buraya çağırın! O, yəqin, zavallı qadının cənazəsi yanındadır.

Qoca qarı dərhal onun əmrinə itaət etdi.

O, qarıya bir söz demədisə də, bu qarının onu özündən daha yaxşı qoruyacağına əmin idi.

Jan Valjanın darvazanı açmadan həyətə necə girə bildiyi məlum olmadı. Onun yanında ikinci bir açarı olurdu ki, bununla o, yan qapını açardı, lakin üstünü axtardıqları zaman bu açarı ondan almalı idilər. Məsələnin bu cəhətini kimsə izah edə bilmədi.

O, otağına gedən pilləkənlə yuxarıya qalxdı.

Pilləkənin başına çatdıqda şamdanı axırıncı pillədə qoydu, yavaşca qapını açdı, qaranlıqda pəncərəni tapdı, pəncərənin özünü və içəri qapaqlarını bağladı, sonra qayıdıb şamı götürdü, yenə içəri girdi.

Bu ehtiyat əbəs deyildi, pəncərə küçədən görünürdü və diqqəti cəlb edə bilərdi.

O, otağa göz gəzdirdi, masaya, stula, üç gündən bəri əl dəyilməmiş çarpayıya baxdı. Üç gün bundan əvvəl əmələ gətirmiş olduğu intizamsızlıqdan bir əsər belə görmədi. Qapıçı qadın otağı "təmizləmişdi" və ocağın külündən onun əl ağacının iki dəmir ucluğunu və qırx suluq qaralmış bir pulu götürüb, səliqə ilə masanın üstünə düzmüşdü.

O, kağız çıxarıb bu sözləri yazdı: "Ağacımın hər iki ucluğu və Balaca Jervedən oğurlamış olduğum qırxsuluq pul bunlardır, bu xüsusda mən məhkəmədə danışmışdım". İçəriyə girən adamın gözlərinə dərhal çarpsın deyə, dəmir parçalarını və gümüş pulu kağızın üstünə qoydu. Sonra şkafdan köhnə köynəyini çıxarıb cırdı, ondan bir neçə parça düzəltdi, gümüş şamdanları bunlara bükdü. Bütün bu işləri tələsmədən və sakit bir halda görürdü. Yepiskopun şamdanlarını bağlarkən, ağzına bir tikə qara çörək atıb çeynəyirdi. Bu çörəyi, ehtimal ki, qaçanda həbsxanadan götürmüşdü. Bunun həbsxana çörəyi olduğu bir az sonra axtarış zamanı döşəmədəki qırıntılardan məlum olmuşdu.

Otağın qapısı yavaşcadan iki dəfə döyüldü.

O:

– Buyurun! – dedi.

Simplisiya bacı girdi. Qadının solğun üzündə göz yaşları görünürdü. Əlində tutduğu şam titrəyirdi. Taleyin amansız zərbələrində bir xüsusiyyət var: biz nə qədər kamil və ya nə qədər bərk ürəkli olsaq da, bu zərbələr yenə də mənliyimizin dərinliklərindən insan

təbiətini zahirə çıxarır. Bugünkü sarsıntılar rahibəni yenə qadına çevirmişdi. Simplisiya bacı bütün günü ağlamışdı və indi bütün bədəni titrəyirdi.

Jan Valjan kağız üzərində bir neçə sətir yazıb Simplisiya bacıya verərək:

– Bacı, – dedi, – bu kağızı bizim keşişə verərsiniz.

Kağız açıq idi. Qadın ona ötəri nəzər saldı. Jan Valjan:

– Oxuya bilərsiniz! – dedi.

Qadın oxudu:

"Cənab keşiş, rica edirəm ki, burada qoyduğum şeylərə əncam çəkəsiniz. Xahiş edirəm, mənim işimlə əlaqədar olan məhkəmə xərclərini ödəyəsiniz və bu gün vəfat edən qadını dəfn edəsiniz. Qalan pul yoxsullara paylanmalıdır".

Qadın bir söz demək istədi, lakin həyəcanlı olduğundan əvvəlcə danışa bilmədi. Nəhayət, özünü toplayaraq:

– Cənab mer bir daha o zavallı qadını görmək istəmirmi? – dedi.

– Yox, – deyə, o cavab verdi, – məni axtarırlar, məni onun otağında həbs edə bilərlər, bu da ölünün rahatlığını pozar.

Jan Valjan bu sözləri deyib qurtarmamışdı ki, pilləkəndə böyük bir gurultu qopdu. Bir neçə adamın ağır addımları eşidildi, qapıçı qadın kəskin bir səslə çığırdı:

– Cənab, and olsun Allaha, burada kimsə yoxdur, dünəndən bəri buraya kimsə gəlməmişdir, mən bütün günü qapının ağzında olmuşam!

Bir kişi səsi ona cavab verərək:

– Lakin otaqda işıq var, – dedi.

Onlar Javerin səsini tanıdılar.

Otağın quruluşu elə idi ki, qapı açılanda bucağı örtürdü. Jan Valjan şamı söndürüb bu bucaqda dayandı.

Simplisiya bacı masanın yanında diz çökdü.

Qapı açıldı.

Javer girdi.

Dəhlizdən bir neçə adamın pıçıltısı gəlirdi. Qapıçı qadın onları nəyə isə inandırmağa çalışırdı.

Rahibə gözlərini qaldırmırdı. O, ibadət edirdi. Onun buxarı üstünə qoyduğu şam yanırdı.

Javer rahibəni gördü və çaşqın halda qapıda dayandı.

Biz xatırlamalıyıq ki, Javerin mahiyyəti, əsası, onun ən təbii xassəsi hər bir hakimiyyətə qarşı dərin bir hörmət bəsləməkdən ibarət idi. O, bütöv xasiyyətli adam idi. Heç bir etiraza və məhdudluğa yol verməzdi. Əlbəttə, kilsə hakimiyyəti onun üçün hər şeydən yüksək idi, o, dindar bir adam idi, dini qaydalara riayət edərdi və hər şeydə olduğu kimi, bu işdə də pedant idi. Onun nəzərində keşiş yalnız bir ruh, rahibə isə günahsız bir məxluq idi. Onlar qalın bir divar arxasında yaşayan ruhlar idi və bu divarın yeganə qapısı ancaq bizim günahlarla dolu dünyamıza həqiqəti buraxmaq üçün açılırdı.

Rahibəni görəndə Javer ixtiyarsız geri çəkildi.

Lakin onda başqa bir qüvvə vardı ki, o da vəzifə hissi idi. Bu hiss ona irəli getməyi əmr edirdi. O getməməyə və rahibəyə sual verməyə cəsarət etdi.

Simplisiya bacı ömründə heç yalan danışmazdı. Javer bunu bilirdi və məhz buna görə ona xüsusi bir hörmət bəsləyirdi.

– Bacı, – dedi, – otaqda yalqızsınızmı?

Bu müdhiş bir dəqiqə idi, yazıq qapıçı qadın bihuş olmaq dərəcəsinə gəlmişdi.

Rahibə gözlərini qaldıraraq dedi:

– Bəli.

Javer sözünə davam etdi:

– Çox israr etdiyim üçün bağışlayın, demək, siz burada bu gün axşam bir adam görməmisiniz? O adam qaçıb, biz onu axtarırıq. Siz Jan Valjan adlı adamı görmədinizmi?

Rahibə cavab verdi:

– Yox.

O, yalan dedi. İki dəfə dalbadal, tərəddüd etmədən, özünü qurban verən adam kimi sürətlə yalan demişdi.

Javer:

– Bağışlayın, – dedi və hörmətlə təzim edərək otaqdan çıxdı.

Ey müqəddəs qız! Neçə illərdən bəridir ki, sən bu dünyada yoxsan, sən artıq çoxdan əbədiyyət və nur səltənətində öz bakirə bacılarınla və mələk qardaşlarınla birləşmisən. Sənin bu yalanını behiştdə bağışlarlar!

Rahibənin sözləri Javer üçün o qədər inandırıcı idi ki, o hətta qəribə bir şeyi görmədi, masanın üstündə indicə söndürülmüş və hələ də tüstülənən ikinci bir şam dururdu.

Bir saat sonra bir adam ağacların arasından və qalın duman içərisindən ehtiyatla keçərək sürətlə Monreyl-sür-Mer şəhərindən çıxıb Parisə doğru uzaqlaşırdı. Bu adam Jan Valjan idi. Yolda ona rast gələn iki arabaçı onun əlində bir boğça apardığını və özünün də köynək geymiş olduğunu söyləyirdilər. Bu köynəyi haradan almışdı? Məlum deyildi. Lakin bir neçə gün bundan qabaq xəstəxanada qoca bir fəhlə ölmüşdü, bu fəhlənin yalnız bir köynəyi qalmışdı. Bəlkə də, bu, həmin köynək idi?

Fantina haqqında daha bir söz.

Hamımızın ümumi bir anamız vardır ki, o da qara torpaqdır. Fantinanı həmin anaya qaytardılar.

Keşiş belə hesab edirdi ki, Jan Valjanın yoxsullar üçün ayırdığı pulların mümkün dərəcədə çox hissəsini saxlamaqda yaxşı iş görmüşdü – kim bilir, bəlkə, o, doğrudan da, yaxşı iş görmüşdü. Hər halda, bu məsələ kimə aid idi? Yalnız bir katorqalıya və bir fahişəyə. Bax buna görə də keşiş Fantinanın dəfn işini sadələşdirmiş və ən zəruri olan bir şeylə, yəni ümumi bir qəbirlə kifayətlənmişdi.

Beləliklə, Fantinanı qəbiristanlığın hər kəsə məxsus olan və heç kəsə məxsus olmayan bir guşəsində basdırdılar. Burada, adətən, pulsuz dəfn edirlər və burada yoxsullardan bir iz belə qalmır. Xoşbəxtlikdən, insan ruhunun harada olduğunu Allah yaxşı bilir. Fantinanı kimin olduğu məlum olmayan sümüklərin arasında basdırdılar, o, burada məzar zülmətinə çökdü, onun külü başqalarının külünə qarışdı. Onu ümumi məzara atdılar. Fantinanın məzarı da onun yatağı kimi idi.

Səfillər

II hissə

KOZETTA

Birinci kitab

VATERLOO

Birinci fəsil

NİVEL YOLUNDA NƏLƏRƏ TƏSADÜF ETMƏK OLAR

Bu əhvalatı nağıl edən yolçu keçən il, yəni 1866-cı ilin günəşli bir yaz səhərində Niveldən gələrək, La-Kulpə doğru gedirdi. O, ətrafında ağaclar əkilmiş və nəhəng dalğalar kimi gah enərək, gah da qalxaraq təpələrin üzəri ilə gedən şose ilə piyada yeriyirdi. O, Lilua və Bua-Senyer-İsaakı keçdi. Qərbdə Brenl-Allönün üzüaşağı çevrilmiş vazaya bənzəyən şiferli zəng qülləsi görünürdü. Təpə üzərindəki ağaclıq və yolun döngəsində, qurdların deşik-deşik etdiyi, üzərində "4 №-li köhnə qarovulxana" sözləri yazılmış olan dar ağacına bənzər bir şeyin yanında yerləşən və önündə "Dörd külək mehmanxanası. Eşabonun xüsusi mehmanxanası" lövhəsi asılmış meyxana artıq arxada qalmışdı.

Bir çərək lyö daha getdikdən sonra, yolçu kiçik bir dərəyə endi, şose yolunun tağı altından bu dərəyə çay axırdı. Yolun bir tərəfində olan və bu dərəni canlandıran bir az seyrək, lakin yamyaşıl ağaclar o biri tərəfdə çəmənliklərdə də bitir və zərif bir intizamsızlıqla Brenl'Allö tərəfə uzanıb gedirdi.

Sağda, yolun kənarında bir karvansara, onun darvazası qabağında dördtəkərli bir araba, maya sarmaşığı üçün hazırlanmış bir dəstə çubuq, kotan, yaşıl çəpərin yanında bir yığın çırpı, dördkünc çalada buğlanan əhəng, içərisində küləş arakəsmələr olan köhnə, açıq mərəyə söykənmiş nərdivan görünürdü. Gənc bir qız tarlada alaq edirdi, külək, çox ehtimal ki, kilsə bayramı münasibətilə veriləcək yarmarka tamaşası olacağını xəbər verən iri sarı afişanı yellədirdi.

Karvansaranın arxasında, içində bir dəstə ördək çimən gölməçənin yanından kolluğa tərəf çox pis döşənmiş bir yol gedirdi. Yolçu da bu yol tərəfə yönəldi.

Başında əlvan kərpiclərdən düzəldilmiş itiuclu bir üçbucaq görünən, on beşinci əsrə məxsus hasarın yanından, təxminən, yüz addım keçdikdən sonra, yolçu tağlı böyük daş bir darvazaya yaxınlaşdı. Tağları üzərində düz köndələn bir tir olan bu darvaza XIV Lüdovikin sərt üslubunda tikilmişdi, yan tərəflərində iki yastı medalyon görünürdü. Darvaza üzərində eyni üslubda tikilmiş bina yüksəlirdi. Fasada perpendikulyar olan divar lap darvazaya yaxınlaşır, düzbucaq təşkil edirdi. Darvazanın qabağındakı talada torpağa batmış üç malanın dişləri arasında cürbəcür bahar çiçəkləri bitmişdi. Darvaza bağlı idi. O, iki köhnə tayla bağlanırdı və üstündən pas basmış bir çəkic asılmışdı.

Günəş parlaq işıq saçırdı, ağacların budaqları küləyin tərpətdiyi yarpaqlardan artıq, sanki, yuvalardan gələn incə bir xışıltı ilə yavaş-yavaş yırğalanırdı. Aşiq olduğu görünən cəsur, balaca bir quşcuğaz geniş budaqlı bir ağacın yarpaqları arasında şən-şən ötürdü.

Yolçu əyildi və aşağıda, darvazanın sağ dayaq daşının sol tərəfində kürənin içinə bənzəyən xeyli geniş dəyirmi bir çökək gördü. Bu anda darvaza açıldı və bir kəndli qadın çıxdı.

O, yolçunu görərək onun nəyə baxdığını dərhal anladı və:

– Buraya fransız mərmisi dəymişdir, – dedi. – Bir qədər yuxarıda isə, qapıda mismarın yanındakı deşik – çarpana izidir, lakin o, ağacı deşib keçə bilməmişdir.

Yolçu soruşdu:

– Bu yerin adı nədir?

Kəndli qadın cavab verdi:

– Huqomon.

Yolçu başını qaldırdı, bir neçə addım atdı və çəpərdən o yana baxdı. Üfüqdə ağaclar arasından bir təpə və bu təpənin də üzərində uzaqdan şirə bənzəyən bir şey görünürdü.

Yolçu Vaterloo yanındakı döyüş meydanında idi.

İkinci fəsil

HUQOMON

Huqomon – Napoleon adlanan böyük Avropa meşəqıranının Vaterlooda ilk müqavimətə, ilk əks-hücuma rast gəldiyi məşum yerdir. Huqomon – onun baltasının kəsə bilmədiyi ilk budaq idi.

Keçmişdə burada bir qəsr vardı – indi isə ancaq bir ferma var. Qədimşünaslar üçün Huqomon – "Hüqomon" deməkdir. Bu qəsr sir de Somerel Hüqo tərəfindən tikdirilmişdir. Bu, həmin Hüqodur ki, Vilye abbatlığının altıncı kapellan idarəsinə qiymətli hədiyyə vermişdi.

Yolçu darvazanı itələdi və dirsəyi ilə tağın altındakı köhnə minik arabasına toxunaraq, həyətə daxil oldu.

İç həyətdə onun heyrətinə səbəb olan ilk şey XVI əsr üslubunda tikilmiş və bütün ətrafı uçduğu üçün tağa bənzəyən bir darvaza idi. Əksər xərabələrin əzəmətli bir mənzərəsi var. Tağın yanındakı divarda IV Henrix zamanından qalma başqa bir darvaza vardı ki, bu darvazanın arasından meyvə bağının ağacları görünürdü. Darvazanın yanında peyin çalası, toxa və kürəklər, bir neçə əl arabası, qabaq divarı tava daşdan olan dəmir çarxlı bir köhnə su quyusu, oynaqlayan bir dayça, quyruğunu yelpazə kimi açmış bir hind toyuğu, balaca zəng qülləsi olan bir ibadətxananın divarına budaqları ilə kölgə salan çiçəkləmiş bir armud ağacı vardı – bu, Napoleonun fəth etmək həsrətində olduğu həyət idi. Əgər Napoleon bu həyəti tuta bilsəydi, bəlkə də, yer üzünün bu guşəsi sayəsində, o, bütün dünyaya hakim olardı. Burada toyuqlar dimdikləri ilə torpağı eşələyirlər. Ağzını açaraq dişlərini göstərən yekə bir itin xırıltısı eşidilir, indi o, ingilisləri əvəz edir.

İngilislər burada, doğrudan da, heyrətə layiq idilər. Kukun dörd qvardiya rotası burada bütöv bir ordunun dəhşətli bir hücumuna yeddi saat müqavimət göstərə bilmişdi.

Horizontal planda çəkilmiş bütün tikintilər və hasarlı sahələrlə birlikdə təsvir edilmiş Huqomon, bucağı kəsik qeyri-düzgün bir düzbucaqlıdan ibarətdir. Cənub darvazaları da həmin bu bucaqda, divarın yanındadır ki, həmin divardan hücum edənlərə düzünə güllə

atmaq mümkündür. Huqomonda iki darvaza var: biri cənub tərəfdə qəsrin darvazası, o biri isə – şimal tərəfdə fermanın darvazasıdır. Napoleon Huqomona qarşı qardaşı Jeromu göndərmişdi: Gilyemino, Fua və Başlünün diviziyaları burada bir-birilə toqquşmuşdu. Reylin, demək olar ki, bütün korpusu burada döyüşə girmiş və məhv olmuşdu, Kellerman isə bütün mərmi ehtiyatını bu qəhrəman divara sərf etmişdi. Bodyuenin dəstəsi yalnız böyük bir çətinliklə şimal tərəfdən Huqomona daxil ola bilmişdi. Suanın briqadası isə cənub tərəfdən buraya keçmişdisə də, Huqomonu zəbt edə bilməmişdi.

Fermanın tikintiləri həyəti cənub tərəfdən əhatə edir. Fransızların dağıtdığı şimal darvazasının bir hissəsi divardan yapışıb asılı qalmışdır. Bu, köndələn qoyulan iki tirə mıxlanmış dörd taxtadan ibarətdir, bunların da üzərində hücum zamanı vurulan zədələr aşkar görünür.

Həyətin dal tərəfində yarıaçıq şimal darvazası görünür. Onun bir tayını fransızlar vurub salmışdılar, darvazanın tayı yenə də sallanır və ona taxtadan yamaq vurulmuşdur. Darvaza həyətin şimal tərəfindəki daş bünövrəli kərpic divardadır. Bu, bütün fermalarda təsadüf edilən dördküncbir darvazadır, o, yonulmamış taxtadan olan iki geniş taydan ibarətdir. Darvazanın arxasında çəmənlik uzanır. Bu keçidi ələ keçirmək üçün şiddətli bir vuruşma olmuşdu. Darvazanın çərçivəsində hələ də qanlı əl izlərini görmək mümkündür. Bodyuen həmin bu yerdə öldürülmüşdü.

Vuruşma tufanı hələ indiyə qədər bu həyətdə hiss olunmaqdadır, onun dəhşəti burada əks olunmuşdur, əlbəyaxa döyüşün qızğınlığı bütün şiddəti ilə burada mühafizə edilmişdir: biri yaşayır, o biri ölür, elə bil, bunlar yalnız dünən olmuşdur. Divarlar uçulur, daşlar düşür, yarpaqlar inləyir, açılan dəliklər yaraya bənzəyir, sallanaraq titrəyən ağaclar, sanki, buradan qaçmağa çalışır.

1815-ci ildə bu həyətdə indikindən daha çox tikinti vardı. Sonralar uçurulmuş tikintilər o zaman burada çıxıntılar, bucaqlar, kəskin dönüşlər əmələ gətirirdi.

İngilislər orada möhkəm yerləşmişdi, fransızlar oraya soxula bildilərsə də, qala bilmədilər. Kiçik ibadətxana ilə yanaşı, bir binanın uçulmuş, daha doğrusu, dağılmış bir tərəfi qalmışdı: Hüqonun qəsrindən qalan ancaq bu idi. Qəsr qala, ibadətxana isə barıt anbarı

xidmətini görmüşdü. Burada fransızlarla ingilislər bir-birini qırırdılar. Hər tərəfdən – divarların arxasından, taxtapuşların ardından, zirzəmilərdən, bacalardan, pəncərələrdən, divarlardakı bütün dəliklərdən gülləyə basılan fransızlar faşin gətirib, divarlara və insanlara od vurmuşdular. Karteçə yanğınla cavab verilmişdi.

Qəsrin uçmuş hissəsindən, dəmir şəbəkəli pəncərələrin arasından kərpicdən tikilmiş əsas binanın xarabaya çevrilmiş otaqlarının qalıqları görünürdü; ingilis qvardiyası bu otaqlarda yerləşmişdi. Aşağı mərtəbədən başlayaraq damın özünə qədər uçmuş dolama pilləkən sınıq bir seyvanın içinə bənzəyirdi. Bu pilləkən iki mərtəbədən keçirdi. Pilləkəndə mühasirəyə alınmış və yuxarı çəkilməyə məcbur olan ingilislər aşağı pillələri uçurmuşdular. Bir-biri üstə atılmış bu göyümtül enli daş pillələr ətrafı basmış gicitkən içində indi də durur. Ona qədər pillə hələ divarda qalmışdır, aşağıdakı pillənin üzərində üçbaşlı bir əsa nəqş edilmişdi. Bu pillələr öz yerlərində möhkəm durur. Pilləkənin qalan hissəsi isə dişsiz ağıza bənzəyir. Buradaca iki ağac yüksəlir. Ağacın biri qurumuş, o birinin isə kökü zədələnmişdi, bununla belə, hər il yaz başlayınca o yaşıllaşır. O, 1815-ci ildən sonra pilləkənlərin arasından göyərməyə başlamışdı.

Qırğın ibadətxanada olmuşdu. İndi ibadətxanada yenə sakitlikdir, lakin onun çox qəribə görünüşü vardır. O qanlı qırğından sonra burada ibadət keçirilmir. Lakin mehrab salamatdır. Taxtadan qayrılmış bu kobud mehrabı yonulmamış daş parçasına söykəmişdilər. Əhənglə ağardılmış dörd divar, mehrabın qarşısında bir qapı, iki kiçik dəyirmi pəncərə, qapının üstündə ağacdan İsanın dara çəkilməsi təsviri, onun üstündə ot çəngəsi ilə örtülmüş dördkünc bir baca, yerdə, bir bucaqda isə sınıq və köhnə bir pəncərə çərçivəsi – ibadətxana dediyimiz şey bunlardan ibarət idi. Mehrabın yanında ağacdan yonulmuş və on beşinci əsrə aid Müqəddəs Ana heykəli mıxlanmışdı. Çarpanaq balaca İsanın başını qoparmışdı. İbadətxananı bir müddət tutmağa müvəffəq olan, lakin sonra yenə buradan qovulan fransızlar çəkilərkən ibadətxananı yandırmışdılar. Alov köhnə tikintini bürümüş, qızğın bir ocağa döndərmişdi. Qapı yanmış, döşəmə yanmış, yalnız taxtadan qayrılmış İsanın surəti yanmamışdı. Alov İsanın ayaqlarını yandırıb qapqara kömürə döndərmiş, lakin bundan o yana getməmişdi. Yerli əhalinin dediyinə görə, bu, möcüzə idi. Başı kəsilən körpə İsanın taleyi nisbətən uğursuz oldu.

Bütün divarlar yazı ilə doludur. İsanın ayaqları altında "Henquines"[1] yazılmışdı, bir az aşağıda isə "Conde de Rio Maior, Marques de Marques Almagro (Nabana)"[2] sözlərini oxumaq olardı. Burada yanında qəzəb ifadə edən nida işarələri qoyulmuş fransız adları da görünürdü. 1849-cu ildə divarları ağartdılar, çünki burada millətlər bir-birinə söyüş yağdırırdılar.

Bu ibadətxananın qapısı yanında əlibaltalı bir cənazə tapılmışdı. Bu, podporuçik Leqronun cənazəsi idi.

İbadətxanadan çıxanda sağ tərəfdə bir su quyusu görünür. Bu həyətdə iki su quyusu var. Öz-özünə sual verirsən: niyə bu quyunun vedrəsi və çarxı yoxdur? Ona görə ki, daha bu quyudan su çəkmirlər. Nə üçün ondan daha su çəkmirlər? Çünki quyunun içi skeletlərlə doludur.

Bu quyudan ən sonuncu olaraq su çəkən adam Gilyom van Kilsom adlı bir kəndli olmuşdur. O, Huqomonda yaşayır və qəsrdə bağbanlıq edirdi. 1815-ci il iyunun 18-də onun ailəsi qaçıb meşədə gizlənmişdi.

Vilye abbatlığını əhatə edən meşə bir çox günlər və gecələr qaçıb dağılmış əhalini gizlətmişdi. İndi belə o zaman qalın kolluqların arasında gizlənən insanların miskin məskənləri olan yerləri göstərən, yanmış köhnə kötüklər şəklində aydın izlərə təsadüf etmək mümkündür.

Huqomonda qalan Gilyom van Kilsom "qəsri qorumaq" məqsədilə, zirzəmidə gizlənmişdi. İngilislər onu tapıb sığındığı yerdən bayıra çıxarmış və qılıncın qını ilə əzişdirdikdən sonra qorxmuş bu biçarəni özlərinə qulluq göstərməyə məcbur etmişdilər. Ürəkləri susuzluqdan yandığı üçün Gilyom bu quyudan su çəkməli və onlara içməli su gətirməli idi. Bir çoxları üçün bu su ömürlərində son dəfə içdikləri su olmuşdu. Ölümə məhkum olan bu qədər insanın su götürdüyü bu quyu da məhv olmalı idi.

Döyüş qurtardıqdan sonra cənazələri basdırmağa çox tələsirdilər. Ölümün özünəməxsus bir adəti var: qələbəni hiddətləndirmək üçün, şöhrət dalınca xəstəliklər göndərir. Yatalaq zəfərin zəruri bir əlavəsidir. Quyu dərin olduğundan onu məzara çevirdilər. Quyunun içinə 300 meyit atdılar. Ola bilsin ki, bu işi çox tələsik görmüşdülər. Doğrudanmı, bunların hamısı ölü idi? Rəvayətə görə, ölü olmayanlar

[1] Enkines (*isp.*)

[2] Qraf de Rio Mayor, markiz və markiza Almaqo (Nabana) – (*isp.*)

da varmış. Belə deyirlər ki, dəfndən sonrakı gecə quyunun içindən köməyə çağıran zəif insan səsləri eşidilirmiş.

Bu su quyusu həyətin ortasında xüsusi bir yerdə yerləşmişdi. Yarısı daşdan və yarısı kərpicdən tikilmiş üç divar su quyusunu üç tərəfdən əhatə edir. Divarlar arakəsmə kimi durur və dördkünc bürcə bənzəyir. Quyunun bir tərəfi açıqdır, suyu da həmişə bu tərəfdən çəkirdilər. Dal tərəfdəki divarda biçimsiz dəyirmi pəncərəyə bənzər bir dəlik vardır, onu, yəqin ki, partlayıcı mərmi əmələ gətirmişdir. Bir zamanlar bürcün damı varmış, indi isə ondan ancaq bir neçə dirək qalmışdı. Sağ divarın dəmir dayaqları xaça bənzəyir. Əyilib baxanda, kərpic quyunun zülmətindən başqa bir şey görünmür. Quyunun ətrafındakı divarların dibində gicitkən bitmişdi.

Belçikada, adətən, su quyularının qabaq divarını təşkil edən mavi rəngli tava daşı tirlə bənd edilmiş və iri skelet sümüklərinə oxşayan beş-altı biçimsiz, düyünlü və əyri-üyrü taxta parçası ilə əvəz edilmişdi. Artıq nə vedrə var, nə zəncir, nə də su çarxı, yalnız suyu axıtmaq üçün daş bir novça qalmışdır ki, yağış suyu bu novçaya yığılır. Arabir qonşuluqdakı ağaclıqlardan bir quşcuğaz uçub gəlir və bu novçadan su içərək, yenə geriyə dönür.

Bu xarabalar arasında fermadan başqa yaşayış evi yoxdur. Evin qapısı həyətə çıxır. Qotik üslubda qəşəng bir qapı kilidinin yanında çəpinə olaraq üçyarpaq şəklində dəmir qapı dəstəyi vurulmuşdu. Hannoverli leytenant Vilda fermada gizlənmək üçün bu dəstəyə əlini uzatdığı zaman fransız istehkamçısı balta ilə onun əlini vurub salmışdı.

Hal-hazırda bu evdə yaşayan ailə çoxdan ölmüş bağban van Kilsomun nəslindəndir. Ağsaçlı bir qadın mənə danışdı ki, mən bu hadisələrin şahidiyəm. O zaman mənim üç yaşım tamam olmuşdu. Böyük bacım qorxusundan ağlayırdı. Bizi meşəyə apardılar. Mən anamın qucağında idim. Yaxşı eşitmək üçün hamı qulağını yerə dirəyirdi. Top atıldıqca, mən də: "bum-bum" deyə təkrar edirdim.

Həyətin sol tərəfindəki darvaza, dediyimiz kimi, meyvə bağına çıxırdı.

Bu bağın dəhşətli bir mənzərəsi vardır.

O, üç hissədən, daha doğrusu, üçpərdəli bir dramdan ibarət idi. Birinci hissəsi çiçəklik, ikinci hissəsi meyvəlik, üçüncü hissəsi isə ağaclıq idi. Bağın dörd tərəfi də hasarlı idi: giriş tərəfdə qəsrin və fermanın tikintiləri, sol tərəfdə çəpər, sağda və arxada divar vardı. Sağ

tərəfdəki divar kərpicdən, arxadakı divar isə daşdan idi. Əvvəlcə çiçəkliyə daxil olursan. Meyvəliyə və ağaclığa nisbətən o ən aşağıda yerləşir, burada qarağat kolları əkilmişdi, hər tərəfi alaq otları bürümüşdü; çiçəklik dəyirmi sürahi sütunları olan yonma daşla hörülmüş iri xiyabanla tamamlanır. Bu, Lenotrdan qabaqkı fransız üslubunda düzəlmiş bir kübar bağı idi, indi isə bura xarabalıq və tikanlıqdı. Sütunların üstündə daş mərmilərə bənzəyən şarlar vardır. Qırx üçə qədər süvari sütunları indiyə kimi durur, qalanları isə otların arasına düşmüşdü. Çoxunun üzərində çarpana izləri görünməkdədir. Sütunlardan biri isə, zədələndiyinə baxmayaraq, sınıq bir ayaq kimi asılı qalmışdı.

Meyvəliyin aşağı tərəfində olan həmin bu bağçaya birinci piyada alayının altı əsgəri daxil olmuş və buradan çıxa bilməyərək, öz yuvasında tutulan ayılar kimi mühasirəyə alınmış, iki Hannover rotası ilə vuruşmağa məcbur olmuşdular. Bu rotaların biri karabinlə silahlanmışdı. Hannoverlilər həmin sürahi arxasında yerləşmişdilər və yuxarıdan aşağıya atırdılar. Mərd piyadalar aşağıdan yuxarıya atmağa məcbur olmuşdular; altı nəfər yüz nəfərə qarşı vuruşmuş və qarağat kollarından başqa qorunmaq üçün heç bir şey olmadığı halda, on beş dəqiqə müqavimət göstərmişdilər.

Bir neçə pillə yuxarı qalxaraq, çiçəklikdən meyvəliyə keçirsən. Burada, bir neçə kvadrat sajınlıq bir sahədə, bir saatın ərzində min beş yüz nəfər həlak olmuşdu. Buradakı divarlar, elə bil, indi də vuruşmaq üçün can atırlar. Bu divarlarda ingilislər müxtəlif yüksəkliklərdə otuz səkkiz baca açmışdılar. Bu bacaları bu gün belə görmək mümkündür. On altıncı bacanın qabaq tərəfində iki ingilis məzarı var: bu məzarların üstünə qranit tavalar qoyulmuşdur. Qala bacaları ancaq cənub tərəfdəki divardadır. Əsas hücum da elə bu tərəfdən başlamışdı. Bayır tərəfdən bu divar başdan-başa yaşıllıqla örtülüdür. Fransızlar hücum edərkən, bu yaşıl çəpəri hücumla alacaqlarını zənn etdikləri halda, divara, maneə və pusquda dayanmış olan ingilis qvardiyasına, hamısı bir vaxtda od yağdıran otuz səkkiz topa, mərmi və güllə atəşinə rast gəlmişdilər və Sua briqadası darmadağın edilmişdi. Vaterloo döyüşü bu cür başlamışdı.

Meyvə bağını tutdular. Pilləkən olmadığından, fransızlar dırnaqları ilə divara dırmaşırdılar. Ağacların altında əlbəyaxa vuruşma başladı. Ətrafda otlar qana boyandı. Nassaunun yeddi yüz nəfərdən ibarət batalyonu tamam məhv edildi. Qarşısında Kellermanın

iki batareyası dayanan divarın bayır tərəfi çarpanaqla dəlik-dəlik edilmişdi.

Lakin hər bir bağ kimi, bu meyvə bağı da yaz gələndə oyanır. Burada da çobanyastığı və qaymaqçiçəyi açılmağa başlayır. Hündür ot bitir, işlək atlar otlayır, ağacların arasından asılmış kəndirlərə sərilən paltar buradan keçənləri əyilməyə vadar edir, bu xam yerdən keçəndə ayağın tez-tez köstəbək yuvalarına düşür. Qalın otlar arasında yerə yıxılmış və rişələri bayıra çıxmış bir ağacın yaşıllaşan gövdəsi görünür. Mayor Blakman can verərkən, bu ağaca söykənmişdi. Əslən fransız olan, lakin Nant edikti ləğv edildikdən sonra ailəsi ilə birlikdə Fransadan mühacirət edən alman generalı Düpla da yaxınlıqdakı hündür ağacın altında həlak olmuşdu; küləş və gildən sarğı sarınmış qoca və xəstə alma ağacı lap yaxında budaqlarını sallamışdı. Alma ağaclarının əksəriyyəti qocalıqdan lap yerə əyilmişdi. Bir ağac belə tapılmaz ki, onda tüfəng, yaxud çarpanaq gülləsi qalmamış olsun. Bu bağ quru ağacla doludur. Budaqların arasında qarğalar uçur, uzaqlarda balaca bir meşə görünür: burada çoxlu bənövşə var.

Burada Bodyuen öldürülmüş, Fua yaralanmış, burada yanğın, qırğın, döyüş olmuşdu, ingilis, fransız və alman qanı bir-birinə qarışaraq sel kimi axmışdı, burada başdan-başa meyitlərlə dolu su quyusu vardır. Nassau polku və Braunşveyq polku burada məhv edildi: burada Düpla və Blakman öldürüldü, burada ingilis qvardiyasını qırdılar, qırx batalyondan ibarət olan Reyl korpusunun iyirmi batalyonu məhv oldu, yalnız Huqomon qəsrinin xarabalarında üç min nəfəri qılıncla doğradılar, boğdular, güllələdilər, yandırdılar, bütün bunlar onun üçün idi ki, adi bir kəndli bir səyyaha bu sözləri deyə bilsin: “Cənab, mənə üç frank verin, əgər istəsəniz, sizə Vaterloo əhvalatını danışa bilərəm”.

Üçüncü fəsil

18 İYUN 1815-ci İL

Hər bir hekayəçinin geriyə qayıtmağa ixtiyarı var, biz də geriyə, 1815-ci ilə, hətta bu kitabın birinci hissəsində söylədiyimiz hadisələrin başlandığı vaxtdan bir az əvvəllərə qayıdaq.

Əgər 1815-ci ilin iyun ayının 17-dən 18-nə keçən gecədə yağış yağmasaydı, Avropanın gələcəyi başqa cür olardı. Bir neçə damcı su Napoleonun məğlubiyyətinə səbəb oldu. Austerlis vuruşmasının Vaterloo ilə nəticələnməsi üçün qəzavü-qədərə yalnız yüngül bir yağış gərəkmiş, böyük bir dünyanın qəzaya uğraması üçün, yay fəslinə baxmayaraq, göydən bir qara buludun keçməsi kifayətmiş...

Vaterloo döyüşü ancaq saat on ikinin yarısında başlaya bilərdi ki, bu da Blüxerə vaxtında gəlmək imkanı verdi. Deyəcəksiniz ki, nə üçün? Ona görə ki, yer islanmışdı və topları çəkib gətirmək üçün yolların qurumasını gözləmək lazım gəlirdi.

Napoleon topçu zabiti idi və bunu özü də hiss edirdi. Bu qəribə sərkərdənin bütün varlığı Abukir döyüşü haqqında Direktoriyaya göndərdiyi məruzəsinin bir cümləsindən bilinir: "Mərmilərimizdən biri altı nəfəri öldürmüşdür". Onun bütün hərbi planları top gücünə əsaslanırdı. Napoleonun fikrinə görə, qələbə qazanmaq üçün topların hamısını müəyyən yerə cəmləşdirmək lazım idi. O, düşmən generalının strategiyasına bir qala kimi baxır və bu qalada yarıq açırdı. Zəif nöqtələrdə çarpana ilə üstünlük qazanır, döyüşə girişir və bu döyüşün nəticəsini top gücü ilə həll edirdi. Napoleonun dühası – dəqiq tuşlama dühası deməkdir. Düşmən səflərini dağıtmaq, polkları parçalamaq, sıraları pozmaq, sıx qoşun kolonnalarını məhv etmək və qovmaq – Napoleonun məqsədi bu idi: əzmək, əzmək, daim əzmək – bu işi o, hər zaman top mərmisinə tapşırardı. Bu qorxunc bir sistem idi ki, dahiliklə birləşərək on beş ilin ərzində hərb işinin bu məşum qəhrəmanını məğlubedilməz etmişdi.

1815-ci il iyun vuruşmasında o, artilleriyaya xüsusi olaraq ümid bəsləyirdi, çünki onun toplarının sayı düşmən toplarından xeyli çox idi. Vellinqtonun ixtiyarında yalnız yüz əlli top olduğu halda, Napoleonun iki yüz qırx topu vardı.

Təsəvvür edin ki, yer quru olsaydı, artilleriya vaxtında gəlib çıxar və vuruşma səhər saat altıda başlanardı. Bu halda o, gündüz saat ikiyə kimi, yəni prussiyalıların gəlişindən üç saat əvvəl qurtarmış olardı.

Vuruşmanın məğlubiyyətlə nəticələnməsində Napoleonun günahı çoxdurmu? Gəminin fəlakətə uğramasında sükançını təqsirləndirmək olarmı?

Bəlkə, bu dövrdə Napoleonun aşkar cismani zəifliyi onun mənəvi qüvvələrinin zəifləməsi nəticəsində daha da şiddətlənmişdi? Bəlkə

də, iyirmi il davam edən müharibədə qılınc da, qın da köhnəlmiş, ruhu da, bədəni də yorulmuşdu? Bəlkə, təəssüf ediləcək olsa belə, artıq köhnə döyüşçü sərkərdəyə üstün gəlirdi? Bir sözlə, bəlkə də, bu dahinin günəşi, bir çox görkəmli tarixçilərin zənn etdiyi kimi, artıq sönməkdə idi? Bəlkə də, onun hiddətlənməsi öz acizliyini özündən gizlətmək üçün idi? Bəlkə də, o, yaxınlaşdığını duyduğu xatalı gələcəyi ürəyinə damdığı üçün tərəddüd etməyə başlayırdı? Baş komandan üçün qorxulu bir şey var ki, o da təhlükəni dərk etməməkdir. Bəlkə, o artıq təhlükəni dərk etmirdi? Bəlkə də, real varlığın böyük insanları, bu hərəkət nəhəngləri üçün də elə bir yaş dərəcəsi vardır ki, bu zaman onların dühası uzaqgörənliyini itirir. Kamil dahilərə qocalıq təsir edə bilməz: Dante, yaxud Mikelancelo üçün qocalmaq – böyümək deməkdir, bəlkə, Hannibal və Napoleon üçün qocalmaq sönmək demək imiş? Bəlkə, Napoleon artıq qələbəni düzgün duymaq qabiliyyətini itirmişdi? Bəlkə, o dərəcəyə gəlmişdi ki, su altında qayalıqlar olduğunu anlaya bilmir, ətrafında tələlər qurulduğunu duya bilmir, uçurumun tam kənarında dayandığını görə bilmirdi? Bəlkə, o, fəlakəti qabaqcadan duymaq iqtidarını itirmişdi? O – vaxtilə bütün şöhrət və şərəf yollarına bələd olan adam, ildırımlardan yaranmış arabasından bir hökmran kimi bu yolları göstərən adam, bəlkə, indi gözləri kor olduğundan, öz gurultulu, itaətkar legionlarını uçuruma doğru sürükləyirdi? Bəlkə də, o, qırx altı yaşında ikən ağlını tamamilə itirmişdi? Bəlkə də, fələyin çarxını sürən və titanlar mislində olan bu şəxs, sadəcə, misilsiz bir başıpozuğa çevrilmişdi?

Biz qətiyyən bu fikirdə deyilik.

Hamının etiraf etdiyinə görə, Napoleonun tərtib etdiyi vuruşma planı nümunəvi plan idi. Hücum edərək düşmən sıralarını yarmaq, düşmən qoşununu iki hissəyə parçalamaq, ingilisləri Qala, prussiyalıları isə Tonqra doğru çəkilməyə məcbur etmək, Vellinqtonu Blüxerdən ayırmaq, Mon-Sen-Jan yaylasını tutmaq, Brüsseli ələ keçirmək, almanları Reyn çayına, ingilisləri isə dənizə tökmək niyyətində idi; bu vuruşmada o, bütün bu məqsədlərə nail olmalı idi. Bundan sonra necə hərəkət etmək lazım gəldiyini gələcək təyin etməli idi. Əlbəttə, bizim məqsədimiz burada Vaterloo döyüşünün tarixini şərh etmək deyil, nağıl etdiyimiz faciənin əsas pərdələrindən biri bu vuruşma ilə əlaqədar olsa da, əsas məqsədimiz bu vuruşmanı təsvir etmək deyildir, həm də o, bir nöqteyi-nəzərlə, özü də çox məharətlə

Napoleon tərəfindən başqa bir nöqteyi-nəzərlə bir qafilə tarixçilər[1] tərəfindən təsvir edilmişdir. Bizə gəlincə, biz bir-birilə mübahisə etməyi tarixçilərə həvalə edirik, özümüz ancaq uzaqdan seyr edən bir tamaşaçı, dərədən keçərək meyitlərlə gübrələnmiş bu torpaq üzərində əyilən, hər şeyi bilmək istəyən və ola bilsin ki, zahiri şeyi həqiqi bir şey kimi qəbul edən yolçu olaraq qalırıq. Elm naminə biz, şübhəsiz, bəzi xəyali şeylərlə aşılanmış faktları nəzərə almamaqda haqlı deyilik; bu və ya başqa bir görüş sisteminə bəraət qazandırmaq üçün bizdə nə hərbi təcrübə var, nə də strategiya elminə bələdlik. Biz yalnız belə güman edirik ki, Vaterloo müharibəsində hər iki sərkərdənin hərəkətləri bir sıra təsadüflərdən asılı idi. Müəmmalı müqəssir, yəni tale məsələsinə gəlincə, biz buna ən sadədil bir hakimin – xalqın nəzəri ilə baxırıq.

Dördüncü fəsil

A

Vaterloo döyüşünü aydınca təsəvvür etmək istəyənlər yerin üstünə sərilmiş nəhəng bir A hərfini təsəvvür edə bilərlər. Bu hərfin sol xətti – Nivel yolu, sağ xətti – Jenap yolu, orta xətti isə Oendən Brenl'Allöyə doğru qobudan keçən bir yoldur. A hərfinin üst nöqtəsi – Mon-Sen-Jandır. Vellinqton burada yerləşmişdi, aşağı sol nöqtəsi Huqomondur. Reyl və Jerom Bonapart da burada durmuşdular, aşağı sağ nöqtə – Napoleonun yerləşdiyi Bel-Alyansdır. Bir azca aşağıda, orta xəttin A hərfinin sağ xəttini kəsdiyi yerdə Ge-Sent yerləşmişdi. Vuruşmanın nəticəsi orta xəttin mərkəzi nöqtəsində həll edilmişdi. Sonralar elə həmin bu yerdə imperator qvardiyasının yüksək qəhrəmanlıq simvolu olan şir heykəli qoyulmuşdu.

A hərfinin təpəsində, iki yan və bir orta xəttin arasındakı üçbucaq – Mon-Sen-Jan yaylasıdır. Vuruşma bu yayla uğrunda mübarizədən ibarət idi.

Hər iki ordunun cinahları Jenap və Nivel yollarından sağa və sola doğru uzanırdı. D'Erlon Piktonun qarşısında, Reyl isə Gilin qarşısında dayanmışdı.

[1] Valter Skott, Lamartin, Volabel, Şaras, Kine, Tyer (*müəllifin qeydi*).

A hərfinin təpəsi arxasında, yəni Mon-Sen-Jan platosu arxasında Suan meşəsi yerləşmişdir.

Düzənliyin özünə gəlincə, dərəli-təpəli geniş bir sahə təsəvvür edin, burada hər təpə o biri üzərində yüksəlir, hamısı birlikdə isə Mon-Sen-Jan platosuna doğru qalxır və meşəliyə çatır.

Döyüş meydanında iki düşmən ordu – iki pəhləvana bənzər. Onlar bir-birilə əlbəyaxa vuruşurlar. Biri o birini yıxmağa çalışır. Hər şeydən yapışırlar, adi bir kol – bir istinadgah, divar bucağı – bir müdafiə mövqeyidir, qoşunun arxa tərəfini qorumaq üçün lazım olan uçuq bir daxmacığın olmaması bütün polku bəzən geriyə çəkilməyə məcbur edir. Vadidə bir çökək, yerin kələ-kötürlüyü, vaxtında qarşıya çıxan bir cığır, balaca bir ağaclıq, qobu – xülasə, hər bir şey ordu deyilən bir divin addımını ləngidə və onun geri çəkilməyinə mane ola bilər. Döyüş meydanından çəkilmək – məğlub olmaq deməkdir. Buna görə də komandan hər bir ağacı diqqətlə yoxlamalı, hər bir balaca təpəciyi belə nəzərdən keçirməlidir.

Hər iki sərkərdə indi Vaterloo düzü adlanan Mon-Sen-Jan düzünü diqqətlə yoxlamışdı. Hələ bir il bundan əvvəl Vellinqton "böyük bir vuruşma ola bilər" deyə müdrik bir uzaqgörənliklə bu yeri öyrənmişdi. Bu yerdə və bu vuruşmada ən yaxşı şərait Vellinqtonun tərəfində, ən pis şərait Napoleonun tərəfində idi. İngilis ordusu yuxarıda, fransız ordusu isə aşağıda idi.

1815-ci ilin 18 iyun səhərində Napoleon at belində, əlində durbin, Rossom təpəsində dayanmışdı. Burada onu yenidən təsvir etməyə ehtiyac yoxdur. Napoleonun görünüşü, onsuz da, çoxdan hamıya məlumdur. Brien məktəbinin balaca şlyapası altında görünən bu sakit sima, yaşıl mundir, ulduz nişanının üstünü örtən ağ yaxalar, epoletlərin üstünü örtən redinqot, jiletin altından ucu görünən qırmızı orden lenti, sığın dərisindən tikilmiş şalvar, uclarında N hərfi, tac və qartal naxışı vurulmuş al məxmər bir çul altında dayanmış ağ at, ipək corablar üstündən geyilmiş süvari botfortu, gümüş şporlar, Marenqo şpaqası, bir sözlə, bəzilərinin pərəstiş etdiyi, bəzilərinin isə pislədiyi bu sonuncu Sezarın canlı surəti hələ də hamının gözləri qarşısında durur.

Uzun illər bu surət şərəf və şövkət haləsi ilə əhatə olunmuşdu ki, bu da zehinlərə çökən əfsanəvi dumanın bir nəticəsi idi, bir çox qəhrəmanların şöhrətinin parıltısından zehinlər dumanlanır və az,

ya çox bir müddət üçün həqiqət pərdələnir, lakin indi tarixin gedişi ilə dumanlıqlar çəkilir, zehinlərə aydınlıq çökür.

Tarixin aydınlığı amansız bir şeydir. Tarixin qəribə və ilahi bir xüsusiyyəti var: özü nur olduğu halda və məhz nur olduğu üçün, indiyə qədər parlaq zənn edilən yerlərə kölgə salmağa başlayır. Tarix bir şəxsi iki müxtəlif kabusa çevirir, biri o birinə hücum edir, ona divan tutur və müstəbid bir hökmdarın qorxunc sifətləri bir sərkərdənin cazibədar təsiri ilə qarşı-qarşıya gəlir. Xalqlar da bunun sayəsində tarixi şəxsiyyətlərə daha düzgün və qəti qiymət verə bilirlər. Rüsvay olmuş Babil – İskəndərin, zəlil olan Roma – Sezarın, dağıdılmış Beytül-müqəddəs Titin şöhrətini azaldır. Zülmün ömrü zalımın ömründən uzundur. Ölərkən surətində təcəssüm edən zülmətdən başqa bir şey qoymayıb gedənlərə ar olsun!

Beşinci fəsil

VURUŞMALARIN *QUİD OBSCURUM*-U[1]

Bu vuruşmanın birinci mərhələsi hamıya yaxşı məlumdur. Vuruşmanın başlanğıcı mütərəddid, dumanlı, qeyri-sabit, hər iki ordu üçün təhlükəli idi, lakin fransızlara nisbətən ingilislər üçün daha təhlükəli görünürdü.

Bütün gecə yağış yağırdı. Yağış selləri torpağı oyuq-soyuq eləmişdi. Vadidəki çökəklərdə su yığılıb, nohurlar əmələ gəlmişdi; bəzi yerlərdə su arabaların oxundan yuxarı qalxırdı, atların tapqırlarından palçıqlı su axırdı. Pərakəndə axında hərəkət edən bu arabaların tapdadığı buğda və çovdar sünbülləri çökək yerləri doldurmasa və təkərlərin altına yastıq kimi yatmasaydı, hər bir hərəkət, xüsusilə Papelot tərəfindəki balaca dərələrdəki hərəkət tamamilə dayanardı.

Vuruşma gec başlamışdı. Söylədiyimiz kimi, Napoleon, adətən, bütün artilleriyanı öz əlində toplar, döyüş meydanının gah bu tərəfini, gah da başqa bir tərəfini, sanki, tapançadan nişan alardı. İndi də o, atlı batareyaların sürətlə və sərbəst hərəkət edə biləcəyini gözləyirdi. Bunun üçün də günəşin çıxması və yerin quruması lazım gəlirdi. Lakin günəş görünmürdü. Austerlisdə günəş onu başqa cür

[1] Qaranlıq, məchul bir şey (*lat.*)

qarşılamışdı! Birinci top atəşi açıldığı zaman, ingilis generalı Kolvil saatına baxaraq, on ikiyə otuz beş dəqiqə işlədiyini təyin etmişdi.

Vuruşma sol fransız cinahının Huqomona hücumu ilə başlandı. Bu hücum imperatorun arzu etdiyindən, bəlkə də, daha şiddətli idi. Napoleon eyni zamanda Kionun briqadasını Ge-Sent üzərinə göndərərək, mərkəzə hücum etməyə başladı. Ney isə sağ fransız cinahını, arxasında Papelotun dayandığı sol ingilis cinahına doğru yeritdi.

Huqomon üzərinə aparılan hücum bir növ yalançı hücum idi. Napoleonun planına görə, Vellinqtonu aldadıb Huqomona sürükləmək, sonra isə sol tərəfə çəkilməyi məcbur etmək lazım idi. Dörd ingilis qvardiya rotası və Pernonşe diviziyasının cəsur belçikalıları öz mövqelərində möhkəm durmasa idilər və Vellinqton öz qoşunlarının əsas qüvvələrini buraya çəkib gətirmək əvəzinə, kömək üçün yalnız dörd ingilis qvardiya rotasını və bir Braunşveyq batalyonunu göndərməklə kifayətlənməmiş olsaydı, Napoleonun planı müvəffəqiyyət qazana bilərdi.

Sağ fransız cinahının Papelota hücum etməsində məqsəd ingilislərin sol cinahını əzmək, Brüssel yolunu tutmaq, prussiyalıları qabaqlamaq üçün yolu kəsmək, Mon-Sen-Janı tutmaq, Vellinqtonu Huqomona, oradan Bren-l'Alleyə, oradan da Qala doğru çəkilməyə məcbur etmək idi – bundan da aydın plan ola bilməzdi. Bəzi bədbəxt təsadüflər nəzərə alınmazsa, hücum müvəffəqiyyətli idi. Papelot tutulmuş, Ge-Sent isə hücumla alınmışdı.

Bir təfsilatı qeyd etməliyik. İngilis piyada qoşunlarında, xüsusilə Kemptin briqadasında yenicə əsgərliyə gələnlər çox idi. Bu cavan əsgərlər bizim qorxunc piyadalarımıza igidliklə müqavimət göstərirdilər. Təcrübənin azlığını cəsarət tamamlayırdı. Onlar bir nişançı kimi özlərini xüsusilə gözəl göstərə bilmişdilər. Qismən öz ixtiyarına buraxılmış nişançı əsgər, demək olar ki, özü-özlüyündə bir generaldır. Cavan əsgərlər burada fransızlara məxsus bir zirəklik və döyüş coşqunluğu göstərmişdilər. Cavan piyadalar həvəslə vuruşurdular. Bu, Vellinqtona xoş gəlməmişdi.

Ge-Sent alındıqdan sonra vuruşmanın nəticəsi şübhəli oldu. Həmin gün saat on iki ilə dörd arasında qaranlıq bir fasilə var, bu vuruşmanın orta dövrünü müəyyən etmək çətindir, o, əlbəyaxa vuruşmaların qorxunc qarmaqarışıqlığını xatırladır. Ətrafı birdən alaqaranlıq

bürüyür. Duman xəfif bir surətdə dalğalanır, üfüqdə qəribə bir sərab görünür, indi heç təsəvvür edilməyən və o zamana məxsus hərbi ləvazimat hissələri, atlıların hündür xəz papaqları, çantaları, döşlərdə çarpazlaşmış qayışlar, qumbara çantası, qusar mundirləri, qatlı uzunboğaz qırmızı çəkmələr, burma qaytanlı ağır şapkalar, qıpqırmızı ingilis piyadasına qarışmış qapqara Braunşveyq piyadası... bu piyadalarda ingilis əsgərlərinin epoletləri əvəzinə qoldibinin ətrafına qoyulmuş qalın ağ burmalar, mis zolaqları və sarı at qılından cıqqası olan uzunsov dəri dəbilqəli yüngül Hannover süvariləri, dizləri açıq, dama-dama pledli şotlandiyalılar, qrenadyorlarımızın ağ hündür getrləri görünür, bütün bu görünən şeylər strateji qayda ilə düzülmüş nizami qoşunlara deyil, bir sıra lövhəyə bənzəyir. Qriboval üçün deyil, Salvator Roza üçün maraqlı ola bilər.

Hər bir vuruşmada həmişə fırtınaya bənzər bir şey var. *Quid obscurum, quid divinum*[1] hər bir tarixçi bu vuruşmada ən çox heyrətləndirən bir neçə xüsusiyyəti təsvir edir. Sərkərdələrin mülahizələrindən asılı olmayaraq, silahlı kütlələr bir-birilə toqquşduğu zaman, mütləq ilk mülahizələr dəyişilir, həm də çox dəyişilir. Hər iki sərkərdənin icra olunmağa başlamış planları bir-birinə qarışır, bir-birini təhrif edir. Yumşaq torpaq, üzərinə tökülən suyu bəzi yerlərdə yavaş, bəzi yerlərdə isə sürətlə udduğu kimi, döyüş meydanında da bəzi yerlərdə az, başqa yerlərdə isə çox adam tələf olur. Ona görə çox tələfat verilən yerlərə nəzərdə tutulduğundan daha çox əsgər göndərmək lazım gəlir. Bu, qabaqcadan nəzərə alınması mümkün olmayan xərclərdir.

Qoşunların yerləşdiyi xətt sap kimi qıvrılır və titrəyir, mənasız yerə qan selləri axır; orduların cəbhəsi sarsılır, sıradan çıxarılan, yaxud döyüş meydanına atılan polklar körfəzlər və ya burunlar əmələ gətirir, bir az əvvəl piyada qoşunun vuruşduğu yerdə toplar görünür, topların olduğu yerə süvari qoşun cumur, batalyonlar tüstü kimi birdən görünür, bir az sonra yox olub gedir. Sıralarda əmələ gələn boşluqlar dolur, qara insan dalğaları gah irəliləyir, gah da geri çəkilir. Sanki, bir məzar küləyi bu faciəli insan yığınlarını qovur, dağıdır, şişirdir və yayır. Əlbəyaxa vuruşma nə deməkdir? Ehtizaz. Riyazi planın sabitliyi bütün günü deyil, ancaq bir dəqiqəni ifadə edir. Vuruşmanı təsvir etmək üçün fırçaları ilə xaosa hökm edən qüvvətli sənətkarlar

[1] Qaranlıq bir şey, ilahi bir şey (*lat.*)

lazımdır. Rembrandt vuruşmanı Vandermelendən daha gözəl təsvir edə bilər, çünki günorta çağını düz təsvir edən Vandermelen, saat üçə gəlincə, yalan satmağa başlayır. Həndəsə aldadır, ancaq qasırğa doğrusunu deyir. Bu da Folara ixtiyar verir ki, Polibiyə etiraz etsin. Bir də hər zaman elə bir dəqiqə gəlib çatır ki, vuruşma, sanki, cırlaşmağa başlayır, toqquşmaya keçir, bir çox kiçik faktlara parçalanır, yayılır ki, bunlar da, Napoleonun öz ifadəsinə görə "orduların tarixinə deyil, daha doğrusu, polkların tərcümeyi-halına aiddir". Belə hallarda tarixçi qısaca ümumi təsvirlə kifayətlənə bilər. O yalnız vuruşmanın əsas konturlarını təsvir edə bilər. Qorxunc bir qara bulud vardır ki, ona döyüş deyirlər. Bu qara buludu bütünlükdə təsvir etmək ən vicdanlı bir tarixçinin belə imkanı xaricindədir.

Bütün böyük silahlı toqquşmalar barəsində haqlı olan bu sözlər, Vaterloo döyüşünə xüsusilə tətbiq edilə bilər.

Bununla belə, günortadan sonra, müəyyən bir vaxtda vuruşmanın nəticəsi müəyyənləşməyə başladı.

Altıncı fəsil

GÜNORTADAN DÖRD SAAT SONRA

Saat dörddə ingilis ordusunun vəziyyəti xeyli ciddiləşdi. Prins d'Oranc mərkəzə, Gil – sağ cinaha, Pikton isə sol cinaha komanda edirdi. Cəsur prins d'Oranc özündən çıxaraq, belçikalılara və hollandiyalılara bağırırdı: "Nassau! Braunşveyq! Geriyə çəkilmək yaramaz!" Artıq taqətdən düşmüş Gili Vellinqton öz himayəsi altına aldı, Piktonu isə öldürmüşdülər. İngilislər 105-ci fransız piyada polkunun bayrağını ələ keçirdikləri anda, fransızlar general Piktonu başından güllə ilə vurdular, güllə bu tərəfdən girib, o biri tərəfdən çıxmışdı. Vellinqtonun bu vuruşmada ancaq iki istinad nöqtəsi vardı: Huqomon və Ge-Sent; Huqomon hələ vuruşsa da, od tutub yanırdı; Ge-Sent isə alınmışdı. Ge-Senti müdafiə edən alman batalyonundan ancaq qırx iki nəfər salamat qalmışdı; beş nəfərdən başqa bütün zabitlər ya öldürülmüş, ya da əsir düşmüşdü. Bu xırmanda vuruşan üç min nəfər bir-birini qırıb məhv etmişdi. İngiltərənin ən gözəl boksçusu, yoldaşları arasında öz qələbələri ilə şöhrət qazanmış olan qvardiya

serjantı, balacaboylu bir fransız barabançısı tərəfindən öldürülmüşdü. Beringq tutduğu mövqeyi tərk etməyə məcbur oldu, Alteni isə doğradılar. Bir neçə bayraq əldən çıxdı, Alten diviziyasının bayrağı, de Pon nəslinə mənsub bir prinsin apardığı Lüneburq batalyonunun bayrağı belə düşmən əlinə keçdi. Görkəmsiz şotlandiyalıların hamısı məhv oldu. Ponsonbinin qüdrətli draqunları doğrandı. Bu qəhrəman süvariləri Bro ulanları ilə Travers kirasirləri əzib məhv etdilər. Min iki yüz atdan ancaq altı yüzü qaldı, üç polkovnikdən ikisi məhv oldu. Hamilton yaralandı. Mater öldürüldü. Ponsonbini yeddi nizə zərbəsi ilə yerə sərdilər. Qordon öldü. Marx öldü. Beşinci və altıncı diviziya tar-mar edildi.

Huqomon, demək olar ki, ələ keçirilməkdə idi. Ge-Sent alınmışdı – yeganə bir istinadgah qalırdı – mərkəz. Mərkəz sarsılmamışdı. Vellinqton onu daha da gücləndirdi. O, Merb-Brenedə olan Gili mərkəzə çağırdı, Bren-l'Alledəki Şasseni də mərkəzə göndərdi.

İngilis ordusunun bir azca içəriyə doğru əyilmiş, çox sıx və qüvvətli olan mərkəzi olduqca möhkəm bir mövqe tutmuşdu. O, Mon-Sen-Jan platosunda yerləşmişdi, arxasında bir kənd, qabağında isə o zaman xeyli dik olan bir yamac vardı. Ordu bir iri daş binaya istinad edirdi, bu bina təsvir etdiyimiz dövrdə Nivel dövlət mülklərindən biri sayılır və yolların birləşdiyi yerdə yerləşirdi. On altıncı əsrdən qalmış bu bina o qədər möhkəm idi ki, top mərmiləri onu dələ bilməyərək, dəyib geriyə düşürdü. İngilislər bütün yaylanın ətrafına hasar çəkərək, yemişan ağacları arasında ambrazur düzəltmiş, budaqların arasında top qoyub, kolların içində mazğal açmışdılar. İngilis artilleriyası sıx kolluq arasında pusquda dayanmışdı. Tələ qurmağa icazə verən müharibə qanunlarının, şübhəsiz, yol verdiyi bu xaincəsinə üsul elə məharətlə həyata keçirilmişdi ki, səhər saat doqquzda düşmən batareyalarını kəşf etmək üçün göndərilmiş Hakso heç bir şey görə bilməmiş və qayıtdıqdan sonra, Nivellə Jenap yollarını kəsən iki barrikadadan başqa heç bir maneə olmadığını Napoleona bildirmişdi. O zaman çovdar artıq sünbül bağlamağa başlayırdı. Kempt briqadasının karabinlə silahlanmış 95-ci batalyonu platonun kənarında hündür taxılın içində gizlənmişdi.

Beləliklə, ingilis-holland ordusunun möhkəmləndirilmiş və köməklə təmin edilmiş mərkəzi əlverişli mövqe tutmuşdu.

Bu mövqenin yeganə bir zəif cəhəti vardısa, o da Suan meşəsi idi. O zamanlar Suan meşəsi döyüş meydanı ilə yanaşı olub, Qrenandal və Buafor gölləri ilə kəsilmişdi. Ordu, geri çəkilərək parçalanmalı, polklar pozulmalı, artilleriya isə bataqlıqlarda məhv olmalı idi. Etiraz edənlər olsa da, bir çox mütəxəssislərin rəyinə görə, burada geriyə çəkilmək – nizamsız qaçmaq demək idi.

Vellinqton sağ cinahdan götürdüyü Şasse briqadasını və sol cinahdan götürdüyü Uinki briqadasını mərkəzlə birləşdirdi və üstəlik, Klinton diviziyasını da mərkəzə verdi. Öz ingilis qoşunlarına gəlincə, Vellinqton Mitçelin briqadasına, Qalketin polklarına və Metlendin qvardiyasına arxadan və cinahlardan kömək etmək üçün Braunşveyq piyadasını, Nassau hissələrini, Kilmanseqge hannoverlilərini və Ompteda almanlarını göndərdi. Bu surətlə Vellinqtonun əli altında iyirmi altı batalyon vardı, Şarasın dediyinə görə, sağ cinah mərkəzin arxasına keçirilmişdi. İndi "Vaterloo muzeyi"nin yerləşdiyi yerdə olan qüvvətli batareyanın qabağına içi torpaq dolu kisələr düzərək onu gizlətdilər. Bundan başqa, Vellinqton ehtiyat üçün min dörd yüz nəfər Sommerset qvardiya draqunlarını qobuda gizlətmişdi. Bunlar təriflənən ingilis süvarilərinin ikinci yarısı idi. Ponsonbi məhv olmuşdusa da, Sommerset sağ idi.

Tamamlanmış halda redut kimi bir şey təşkil etməli olan bu batareya torpaq dolu kisələrlə və enli torpaq yamacla tələsik olaraq möhkəmləndirilmiş alçaq bağ hasarının arxasında idi. Lakin bu istehkam hazırlanıb qurtara bilmədi, ətrafına çəpər çəkməyə macal olmadı.

Təşviş içində olsa da, zahirən soyuq görünən Vellinqton səhərdən axşama kimi at belində, bu gün belə duran köhnə Mon-Sen-Jan dəyirmanının yaxınlığındakı bir qarağac altında dayanmışdı. Sonralar həmin bu qarağacı vəhşi həvəskar bir ingilis iki yüz franka satın alıb kəsdirmiş və aparmışdı. Vellinqton qəhrəmancasına sakit görünürdü. Ətrafına top mərmiləri tökülürdü. Adyutant Qordonu yanında öldürdülər. Lord Gil yaxınlığında partlayan qumbaraya işarə ilə "Milord, indi ki siz ölüm axtarırsınız, bizə nə kimi təlimatınız və əmriniz olacaqdır?" – deyə sual verdikdə; "Siz də mənim kimi edərsiniz!" – Vellinqton cavab verdi. Klintona isə qısaca əmr etdi: "Son nəfərə qədər dayanmalı!" Döyüşün məğlubiyyətlə qurtaracağı bəlli idi. Vellinqton Talavera, Vittoriya və Salamanka müharibələrində birlikdə

iştirak etdiyi köhnə döyüş yoldaşlarına xitabən bağırmışdı: "Geriyə çəkilməyi başınızdan atın, uşaqlar! Köhnə İngiltərəni unutmayın!"

Saat dördə yaxın ingilis qoşunları sarsılaraq geri çəkildilər. Hər bir şey yox oldu, platonun yanında artilleriyadan və nişançılardan başqa bir şey qalmadı. Fransızların qumbara və mərmilərlə təqib etdiyi polklar içərilərə çəkildi. Onların çəkildiyi yerdən indi belə Mon-Sen-Jan fermasının fəhlələri üçün bir cığır keçir. Bu – geriləmə hərəkəti idi, ingilis ordusunun cəbhəsi artıq görünmürdü, Vellinqton geriyə çəkilmişdi. Napoleon: "Geriyə çəkilmə başlandı!" deyə səslənmişdi.

Yeddinci fəsil

NAPOLEONUN KEFİ SAZDIR

İmperator özünü bir az xəstə hiss etsə və atın belində dayana bilməsə belə, heç bir zaman kefi o günkü qədər duru olmamışdı. Adətən, hissiyyatını gizlədən Napoleon bu gün səhərdən gülümsəyirdi. Mərmər bir maska altında gizlənmiş bu dərin qəlb, 1815-ci il iyunun18-də heç bir səbəb olmadan sevinirdi. Austerlis döyüşündə qaşqabaqlı olan bir şəxs, Vaterloo günündə şad görünürdü. Taleləri gülən ən yüksək simalar çox vaxt ağlazidd hərəkətlər edirlər. Yer üzündəki sevinclərimiz puç və əfsanədir. Son məsud təbəssümümüz Tanrıya məxsusdur.

Fulminatrix[1] legionunun əsgərləri: "*Ridet Caesar, Pompeius felebit*"[2] deyərdilər. Bu dəfə Pompey ağlamadı, lakin buna heç bir şübhə yoxdur ki, Sezar gülürdü.

Gecə saat birdə, tufan qopduğu və yağış yağdığı bir zamanda, Napoleon Bertranla birlikdə Rossom yaxınlığındakı təpələri gəzərkən, Frişmondan Bren-l'Alleyə qədər bütün üfüqü işıqlandıran ingilis tonqallarının uzun xəttindən məmnun qalaraq, təyin edilmiş gündə Vaterloo döyüş meydanına dəvət etdiyi taleyinin tam vaxtında hazır olacağına əmin görünürdü. O, atını saxladı və bir müddət hərəkətsiz dayanaraq, ildırımları seyr etdi, göy gurlamasına qulaq

[1] İldırım çaxan (*lat.*)

[2] Sezar gülürsə, Pompey ağlayacaqdır (*lat.*)

asdı və onu müşayiət edən şəxs bu fatalistin gecənin qaranlığına iki müəmmalı söz söylədiyini eşitdi: “Biz əlbirik”. Napoleon səhv edirdi. Artıq onlar əlbir deyildilər.

O, bir saniyə belə gözünü yummadı, bu gecənin hər bir saniyəsi onun üçün sevinc idi. Süvari qarovulların bütün xəttini yoxladı, ara-bir dayanaraq, qarovulçularla danışdı. Gecə saat üçün yarısında, Huqomon meşəsinin yaxınlığında Napoleon hərəkət edən düşmən qoşunlarının ayaq səslərini eşitdi. Bir an üçün ona elə gəldi ki, Vellinqton geri çəkilir. Öz-özünə dedi: “İngilis qoşunlarının aryerqardı öz mövqeyini tərk etmişdir. Mən Ostendeyə yenicə gəlmiş olan altı min ingilis əsgərini əsir alacağam”. O, hərarətlə danışırdı, o, yenə martın birində olduğu kimi, həvəsli görünürdü. O gün Napoleon sahilə çıxarkən, Juan limanı yaxınlığında onu şadlıqla qarşılayan bir kəndlini marşal Bertrana göstərərək: “Görürsünüzmü, Bertran, bu da bizim köməyimiz!” demişdi. 17 iyundan 18 iyuna keçən gecə Napoleon Vellinqtonu istehza ilə xatırlayaraq deyirdi: “Bu balaca ingilis ibrət dərsi almağa möhtacdır!” Yağış isə getdikcə şiddətlənir, imperator danışdıqca göy guruldayırdı.

Səhər saat dördün yarısında onun xam xəyallarından biri puça çıxdı, kəşfiyyat üçün göndərilmiş zabitlər düşmən qərargahında heç bir hərəkət müşahidə edilmədiyini bildirdilər. Hər şey sakit idi, düşərgə tonqallarının heç biri söndürülməmişdi. İngilis ordusu yatırdı. Yer üzündə dərin bir sükut hökm sürdüyü halda, yalnız göylərdə gurultu duyulurdu. Saat dörddə kəşfiyyatçılar Napoleonun yanına bir nəfər kəndli gətirdilər, bu kəndli ingilis süvari briqadasının və çox ehtimal ki, öz mövqeyini sol cinahın lap qurtaracağında olan Oen kəndinə keçirmiş olan Viven briqadasının bələdçisi idi. Saat beşdə iki belçikalı fərari öz polklarından yenicə qaçmış olduqlarını və ingilis ordusunun döyüşə hazırlaşdığını Napoleona xəbər verdi. Napoleon bu xəbərə qarşı: “Daha yaxşı! – demişdi. – Mənim üçün tar-mar edilən polklar geriyə çəkilən polklardan daha xoşdur!”

Səhər tezdən, Plansenya yolunda bir döngə əmələ gələn yerə çatdığı zaman, Napoleon atdan düşüb, düz palçığın içinə girdi. Rossom fermasından bir mətbəx masası və kəndli kürsüsü gətirilməsini əmr edərək əyləşdi, xalı yerinə ayaqları altına bir qucaq küləş sərdirdi, masanın üstündə xəritəni açaraq, Sulta bu sözləri söylədi: “Nə əyləncəli şahmat taxtasıdır!”

Gecə yağış yağdığından uçurulmuş yollarda palçığa batan ərzaq arabaları səhərə kimi gəlib yerinə çata bilməmişdi, əsgərlər yuxusuz, paltarları islanmış və ac idilər, bununla belə, Napoleon şən bir səslə Neyə bağırmışdı: "Bizim yüzdə doxsan şansımız var!" Saat səkkizdə imperatora yemək gətirdilər. Napoleon bir neçə generalı süfrəyə dəvət etdi. Yemək vaxtı kimsə Vellinqtonun üç gün bundan əvvəl Brüsseldə hersoginya Riçmondun balında iştirak etdiyini söylədikdə, sifətdən arxiyepiskopa bənzəyən və sərt bir döyüşçü olan Sult: "Əsl bal bu gündür!" – dedi. İmperator rişxəndlə Neyə gülürdü, çünki Ney ona: "Vellinqton o qədər də sadəlövh deyildir ki, əlahəzrəti gözləsin!" – demişdi. Zatən Napoleon üçün bu bir adət idi. Fler de Şabulon onun barəsində deyir: "O, həvəslə zarafat edərdi". Qurqonun dediyinə görə: "əslində onun şən bir təbiəti vardı". Benjamen Konstan isə deyir ki, o daim zarafat edərdi, bu zarafatlar isə ağıllı olmaqdan çox məzəli görünürdü". Nəhəng bir insanın zarafatları, hər halda, bəhsə layiq bir şeydir. Öz qrenadyorlarını "deyingən" adlandıran o idi, o, qrenadyorların qulaqlarını çimdiklər, bığlarını dartardı. Bunlardan birisinin dediyinə görə, "imperatorun peşəsi elə bizimlə zarafat edib əylənmək idi". Fevralın iyirmi yeddisində, Napoleon Elba adasından xəlvətcə Fransaya keçdiyi zaman, onun gizləndiyi "Vəfasız" gəmisinə açıq dənizdə rast gələn "Zefir" adlı fransız hərb gəmisi, imperatorun özünü necə hiss etdiyini soruşmuşdu. Elba adasında geyindiyi və arı təsvirləri ilə bəzənmiş ağ-qırmızı dimdikli şlyapasını hələ də mühafizə edən Napoleon, gülərək borunu götürmüş və özü cavab vermişdi: "İmperator özünü çox yaxşı hiss edir". Belə zarafatlar etməyi bacaranlar tale ilə dost-aşna sayılır. Vaterlooda səhər yeməyi zamanı Napoleon dəfələrlə qəhqəhə çəkib gülmüşdü. Yeməkdən sonra on beş dəqiqə fikrə daldı, sonra isə iki general küləş döşənəyin üstündə əyləşib, əllərinə qələm aldılar, dizlərinin üstünə kağız qoydular və Napoleon onlara döyüş planını yazdırdı.

Saat doqquzda beş kolonnaya düzülmüş fransız ordusu iki xətdən ibarət hərbi bir intizamla, briqadalar arasında toplar, başda səfər marşı çalan orkestr olduğu halda irəliyə doğru hərəkət etdikdə, təbillər çalınıb siqnal boruları səsləndikdə, bir sözlə, qüdrətli, əzəmətli, müzəffər bir ordu yeridiyi zaman üfüqdə dəniz kimi dalğalanan kaskaların, qılınçların və süngülərin mənzərəsindən həyəcana gələn imperator iki dəfə: "Mərhəba! Mərhəba!" deyə səslənmişdi.

Saat doqquzdan on birin yarısına qədər bütün ordu, ağlasığmaz bir sürətlə öz mövqelərini tutmuş və imperatorun özünün ifadəsi ilə "altı V rəqəmlərindən ibarət bir şəkil" təşkil edərək altı xəttə düzülmüşdü. Qoşun bütün cəbhə boyu hərbi nizamla düzüldükdən bir az sonra, böyük vuruşmaların müjdəsini verən və tufanı qabaqlayan dərin bir sükut içində imperatorun əmri ilə üç korpusdan – d'Erlon, Reyl və Lobonun korpuslarından ayrılmış və Nivellə Jenap yollarının çarpazlaşdığı nöqtədə Mon-Sen-Jana atəş açaraq, döyüşü başlamaq üçün təyin edilmiş on iki girvənkəlik toplardan ibarət üç batareyanın keçdiyini görən Napoleon, əlini Qaksonun çiyninə vuraraq "General, bu iyirmi dörd qız nə gözəldir!" – demişdi.

Vuruşmanın nəticəsinə heç bir şübhə etmədən o, yanından keçən birinci korpusun istehkamçına təbəssümlə ürək-dirək verirdi, bu sapyorlar, kənd ələ keçən kimi, Mon-Sen-Janda səngər qazmalı idilər. Bütün bu qayğısızlığı, o yalnız bircə dəfə təkəbbürlü təəssüf sözləri ilə pozmuşdu, sol tərəfində, indi böyük bir məzar təpəsinin yüksəldiyi yerdə, olduqca gözəl atlara minmiş, sıx bir kolonnaya düzülən boz paltarlı qəribə şotlandiyalıları gördüyü zaman Napoleon: "Heyif onlara!" demişdi.

Sonra atının belinə sıçrayaraq, Rosoma doğru sürdü. Jenapdan Brüsselə gedən yolun sağ tərəfində, ot basmış bir təpəciyin ensiz yalını özü üçün müşahidə məntəqəsi təyin etdi. Bu, onun döyüş müddətində dayandığı ikinci yer idi: üçüncü dəfə, axşam saat yeddidə, Bel-Alyansla Ge-Sent arasında dayandığı yer isə çox təhlükəli idi. Bu – indiyə kimi qalmış xeyli uca bir təpə idi. Təpənin arxasındakı yarğanda qvardiya yerləşmişdi. Mərmilər təpənin ətrafında daşla döşənmiş yola dəyərək sıçrayır və Napoleonun ayaqları altına düşürdü. Briendə olduğu kimi, burada da başı üzərində güllələr və çarpana vızıldayırdı. Sonralar imperatorun atının dayandığı yerin lap yaxınlığında, sanki, içini qurd gəmirmiş kimi görünən mərmilər, köhnə qılınclar və əzik-üzük, pas basmış qumbaralar – *scabra rubigine* tapmışdılar. Bir neçə il sonra həmin bu yer qazıldığı zaman, torpağın altından altmış santimetrlik partlamamış bir mərmi çıxarmışdılar. Mərminin atəş borusu dibdən sınmışdı. Həmin bu son dayanacaqda düşmən ruhlu, qorxuya düşmüş bələdçi Lakostaya, hər dəfə çarpanaq atəşi açıldıqca atlının arxasında gizlənməyə can atan və qusarın yəhərinə bağlanmış bu kəndliyə xitabən imperator bu sözləri söyləmişdi: "Sarsaq, heç utanmırsan? Arxana güllə dəyməyinimi istəyirsən?" Bu sətir-

ləri yazan şəxs yeri qazaraq, yamacın qumlu torpağı içində qırx altı ildən qalma pas basmış bir bomba boğazı qalıqlarını və barmaqların arasında mürvər budaqları kimi sınan köhnə dəmir qırıntılarını tapmışdı.

Napoleonla Vellinqtonun qarşılaşdığı vadinin təpəciklərindən artıq heç bir əsər qalmamışdır, lakin 1815-ci il iyunun 18-də bunların necə olduğu hamıya məlumdur. Bu matəmli düzdən onun özünə heykəl qoymaq üçün material götürməklə ona məxsus olan relyefi pozdular və çaşdırılmış tarix artıq bundan baş çıxara bilmədi. Vaterloo düzünü şöhrətləndirmək üçün onu eybəcər bir şəklə saldılar. İki il sonra Vellinqton Vaterloo düzünü görərək: "Siz mənim döyüş meydanımı dəyişmisiniz" deyə səslənmişdi. Bu gün təpəsi şir heykəli ilə bəzənmiş, torpaqdan tökmə böyük bir ehramın yüksəldiyi yerdə o zaman təpələr uzanır, Nivel yolu tərəfdə yastı, Jenap yolu tərəfdə isə dik olan bir yamac görünürdü. Bu yamacın yüksəkliyini indi belə, Brüsselə gedən Jenap yolunun hər iki tərəfindəki təpələrə, iki böyük məzar kurqanının yüksəkliyinə görə təyin etmək mümkündür. Sol tərəfdəki məzar ingilislərin, sağ tərəfdəki isə almanlarındır. Fransızların isə heç məzarı yoxdur. Fransa üçün bu düzənlik özü başdan-başa bir məzarıstandır. Yüksəkliyi yüz əlli fut və dairəsi, təxminən, yarım mil olan bir təpəni yaratmaq üçün minlərlə araba torpaq götürülməsi sayəsində, bu gün Mon-Sen-Jan yaylasının çökək yamacına qalxmaq çətin deyildir. Halbuki vuruşma günü bu yamac, xüsusilə Ge-Sent tərəfdə, çox dik və kələ-kötür idi. Bu tərəfdəki yamac o qədər sıldırım idi ki, ingilis topçuları aşağıda, dərənin dibində yerləşən və vuruşmanın mərkəz nöqtəsi olan fermanı görmürdülər. Bundan başqa, 1815-ci il iyunun 18-də şiddətli yağışlar bu yoxuşu o qədər yuyub aparmış və palçıq yuxarı qalxmağı o qədər çətinləşdirmişdi ki, buraya dırmaşmaq palçığa batıb qalmaq demək idi. Yaylanın yalı boyunca xəndəyə bənzər bir şey vardı, lakin belə bir şeyin mövcud olduğunu uzaqdan təyin etmək mümkün deyildi.

Bu xəndək nə ola bilərdi? Bunu izah edək. "Bren-l'Alle bir Belçika kəndinin, Oen başqa bir kəndin adıdır. Yerin əyri-üyrülüklərində gizlənmiş olan bu iki kəndi, təxminən, bir mil yarım uzunluğunda olan bir yol birləşdirir, bu yol düzün dalğalı səthindən keçir və çox yerdə təpələri bir şırım kimi yarır, buna görə də, bir çox yerdə yarğana çevrilir. Bu yol, indi olduğu kimi, 1815-ci ildə də Jenap və Nivel şoseləri arasında Mon-Sen-Jan platosunun yalını yarıb keçirdi,

indi isə bu yol həmin yerdə dərə ilə bir bərabərdədir, halbuki o zamanlar çox aşağılardan keçərdi. Yolun hər iki yamacı qazılmış və torpağı heykəl qurmaq üçün işlədilmişdi.

Bu yol, keçmişdə olduğu kimi, indi də bir çox yerlərdə səngərə bənzəyir, bəzən bu səngərin on iki fut dərinliyi var, yolun olduqca dik yanları, xüsusilə qış günlərində şiddətli yağışlar zamanı bəzi yerlərdə çökərdi. Bəzən burada bədbəxt hadisələr də baş verərdi. Bren-l'Alle kəndinə girən yerdə yol o qədər dardır ki, bir dəfə bir yolçu yoldan keçən bir arabanın altında qalıb ölmüşdü. Bu hadisəni kənd qəbiristanındakı bir daş xaç xatırladır. Xaçın üstündə yolçunun adı, yəni "Brüssel alverçisi cənab Bernar Debri" və ölüm tarixi, yəni "Fevral 1637" qeyd olunmuşdur![1] Yol Mon-Sen-Jan platosunu o qədər dərindən yarıb keçir ki, 1783-cü ildə yolun bir yanı uçmuş və Matye Nikez adlı bir kəndli torpağın altında qalıb həlak olmuşdu. Bu xüsusda da ikinci bir daş xaç qoyulmuşdur. Xaçın baş tərəfi şumlanmış yerin altında qalmışdır, tərsinə düşmüş ayaq tərəfini isə bu gün belə Ge-Sentlə Mon-Sen-Jan ferması arasında yolun sol tərəfindəki ot basmış enişdə görmək olar.

Mon-Sen-Jan yalı boyu gedən və dik bir yamacın təpəsində xəndəyə, yaxud əkin yerləri arasında gizlənmiş dərin bir təkər izinə bənzəyən bu yol, vuruşma günü, heç bir əlaməti olmadığından, gözə görünmürdü, buna görə də son dərəcə təhlükəli idi.

Səkkizinci fəsil

İMPERATOR BƏLƏDÇİ LAKOSTAYA SUAL VERİR

Demək, Vaterloo gününün səhəri Napoleon məmnun idi. Məmnun olmaq üçün onun hər bir əsası vardı, söylədiyimiz kimi, onun tərtib etdiyi vuruşma planı, həqiqətən, gözəl bir plan idi.

Vuruşma artıq başlanmışdı, lakin onun müxtəlif hadisələri – Huqomon və Ge-Sentin inadla müqavimət göstərməsi: Boduenin həlak

[1] Xaçın üstündəki yazı:
"Əziz və rahim olan Allah sənə rəhmət eləsin. Bədbəxt bir hadisə sayəsində Brüssel alverçisi cənab Bernerd Debri burada araba altında qalıb məhv olmuşdur. (Oxunmadı) fevral 1637".

olması, Fuanın sıradan çıxması, divar kimi gözlənilməyən bir maneəyə rast gələn Sua briqadasının məğlubiyyəti, nə fişəng, nə də barıtqabı tədarük etməyən Gilyominonun fəlakətli yüngüllüyü, palçığa batan batareyalar, Uqsbriçin aşağıdan keçən yola köməksiz göndərdiyi on beş top ingilislərin mövqelərinə düşərək, şiddətli yağışın yuyub apardığı torpağın içinə girən, palçıq vulkanları qaldıran və çarpananı palçıq sıçrantılarına çevirən bombaların həddindən artıq zəif təsir etməsi; Pirenin Bren-l'Alle yanında faydasız manevr etməsi, onun süvarilərindən on beş eskadronun tamamilə məhv olması; sağ ingilis cinahına qarşı edilən müvəffəqiyyətsiz hücum, sol cinahın isə yarıla bilməməsi, birinci korpusun dörd diviziyasını eşelonlara bölmək əvəzinə bir kolonnaya toplamış olan Neyin qəribə səhvi, bu diviziyaların hər biri iki yüz nəfərdən ibarət olan iyirmi yeddi sırasının sıx düzülərək, çarpanaq atəşi altında dayanmağa məhkum olması, kipləşmiş sıralara top mərmilərinin verdiyi dəhşətli tələfat, hücum kolonnalarının parçalanması, çəpinə yerləşmiş cinah batareyasının gözlənilmədən kəşf edilməsi, Burjua, Donzelo, Dürütün çaşıb qalması; Kionun geri oturdulması; politexnik məktəbin məzunlarından leytenant Vye kimi bir pəhləvanın Jenap yolunun Brüsselə doğru dönəcəyində, bir maneə yaratmış olan düşmən barrikadasının yaylım atəşi altında Ge-Sent darvazasını balta ilə sındırdığı zaman yaralanması, piyada ilə süvari arasında qalmış Markonye diviziyasının Best və Pakk tərəfindən çovdar zəmisində güllələbaran edilməsi və Ponsonbi tərəfindən doğranması, onun batareyasının yeddi topunun pərçimlənməsi; Frişmon və Smoeni tutmuş və qraf d'Erlonun səylərinə baxmayaraq, əlində saxlayan prins de Saksen-Veymar; 105 və 45-ci polkların ələ keçmiş bayraqları, Vavrla Plansenua arasında dolaşan və üç yüz nişançıdan ibarət olan səyyar koloniyanın kəşfiyyatçıları tərəfindən tutulmuş prussiyalı qara qusarın verdiyi qorxulu xəbər; Qruşinin gecikməsi; Huqomon meyvə bağında bir saatdan az bir müddətdə min beş yüz nəfərin öldürülməsi; bundan da qısa bir müddətdə Ge-Sent ətrafında min səkkiz yüz nəfərin həlak olması – vuruşma tufanı içərisində Napoleonun qarşısından qorxunc qara buludlar kimi gəlib-keçən bu coşqun hadisələr onun gözlərini dumanlandıra bilməmiş və onun şahanə sakit simasına zərrə qədər təsir etməmişdi. Napoleon müharibənin gözünün içinə baxmağı adət etmişdi. O heç bir zaman ələmli təfsilatı rəqəmbərəqəm

cəmləşdirməklə məşğul olmazdı, onun üçün cəmləşdirilən rəqəmlərin heç bir əhəmiyyəti yox idi, ona ancaq bir şey lazımdır ki, o da bu cəmləşmənin nəticəsində əmələ gələn yekun, yəni qələbə idi. Başlanğıc müvəffəqiyyətli olmasa da, Napoleonu bu, qətiyyən narahat eləmirdi, çünki o, özünü son yekunun ağası və hökmdarı zənn edirdi: o, qüvvələrinə olan inamı itirmədən gözləməyi bacarır və tale qarşısında məğrur və vüqarlı dayanırdı. Sanki, fələyə deyirdi: "Sənin cürətin çatmaz!"

İnsan təbiətinin işıqlı və qaranlıq cəhətlərini öz varlığında birləşdirmiş Napoleon xeyir iş gördüyü zaman – Allahın himayəsini, şər iş gördüyü zaman – Allahın ona qarşı səbirli olduğunu hiss edirdi. Hadisələr ona hər zaman yol verir, hətta ona kömək belə edirdi, yaxud o, bunun belə olduğuna inanırdı, bu isə qədimdə qılınckəsməz olmaq kimi bir şey idi.

Lakin keçmişində Berezina, Leypsiq və Fonteneblo olan bir şəxs, Vaterlooya çox da etibar etməməli idi. Artıq onun başı üzərində, göylərdə məşum qara buludlar görünürdü.

Vellinqton geriyə çəkildiyi zaman, Napoleon diksindi. O, birdən Mon-Sen-Jan platosunun, sanki, keçəlləşdiyini və ingilis ordusu cəbhəsinin yavaş-yavaş yox olduğunu gördü. İngilis ordusu çəkilərək, gözdən itirdi. İmperator üzəngilərinin üstünə qalxdı. Qələbə ildırım kimi onun gözləri qarşısında parladı.

Vellinqtonu Suan meşəsinə qovmaq və orada tar-mar etmək – fransızların ingilislər üzərində qəti qələbəsi ancaq bu ola bilərdi. Bu qələbə Kresi, Puatye, Monplake, Ramilyi üçün bir intiqam ola bilərdi. Marenqoda qalib gələn adam Azenkurun üstündən qələm çəkirdi.

O zaman müharibənin bu qorxunc nəticəsini düşünən imperator, durbinlə baxaraq, son dəfə bütün döyüş meydanını nəzərdən keçirdi. Arxasında silahlarını ayaqlarına dirəyərək dayanmış olan imperator qvardiyası dərin bir pərəstişlə aşağıdan yuxarı ona baxırdı. Napoleon düşünürdü; o, yamacları öyrənir, enişləri qeyd edir, diqqətlə ağaclara, taxıl yerlərinə, yollara, cığırlara baxırdı: o, sanki, hər bir kolu sayırdı. O, xüsusi bir diqqətlə hər iki yol üzərində yerə sərilmiş ağaclardan düzəldilmiş ingilis barrikadalarına baxırdı. Bunlardan biri Jenap yolunda idi və iki topu vardı ki, bunlar da bütün döyüş meydanını başdan-ayağa qədər atəş altında saxlaya biləcək yeganə toplar idi: ikinci barrikada isə Nivel yolunda idi, burada Şassenin

holland briqadasının süngüləri parlayırdı. Napoleon bu barrikadanın yaxınlığında, Bren-l'Alle yolunun dönəcəyində, ağ rəngə boyanmış köhnə müqəddəs Nikolay ibadətxanasını gördü. O əyilərək bələdçi Lakostadan yavaşca nə isə soruşdu. Bələdçi, yəqin ki, xain bir niyyətlə, "yox" – deyə başını yırğaladı.

İmperator belini düzəldib fikrə getdi.

Vellinqton geriyə çəkilmişdi.

Bu geriyəçəkilməni ancaq mükəmməl bir tar-marla tamamlamaqdan başqa bir şey qalmırdı.

Napoleon birdən geriyə boylandı və tələsik vuruşmada qələbə qazandığını xəbər verən bir estafet ilə Parisə qasid göndərdi.

Napoleon ildırım çaxan dahilərdən biri idi.

Ancaq bu dəfə ildırım onun özünü vurdu.

O, Milo kirasirlərinə[1] Mon-Sen-Jan yaylasını tutmaq əmrini verdi.

Doqquzuncu fəsil

GÖZLƏNİLMƏYƏN BİR ŞEY

Onlar üç min beş yüz nəfər idilər. Bir çərək mil cəbhə boyu uzanmışdılar. Bu – nəhəng atların belinə minmiş nəhəng insanlar idi. Onlar iyirmi altı eskadron idilər, arxalarında isə kömək üçün Lefevr – Denuet diviziyası, yüz altı seçmə süvari, min yüz doxsan yeddi nəfərdən ibarət qvardiya egerləri və səkkiz yüz səksən nizədən ibarət qvardiya ulanları dayanmışdı. Onların cıqqasız dəbilqələri və döymə zirehləri, yəhərlərində qoburlu tapançaları və süvari qılıncları vardı. Səhər saat doqquzda "Keşik duraq" havasını çalan orkestrlər gurlarkən və şeypurlar səslənərkən onlar bir batareya cinahda, bir batareya mərkəzdə olmaqla Jenap yolu ilə Frişmon arasında iki sıraya bölünüb, Napoleonun mahiranə bir tərzdə yaratdığı və sol ucunda Kellermanın kirasirləri, sağ ucunda isə Milonun kirasirləri yerləşməklə bir növ iki dəmir qanad təşkil edən qüdrətli ikinci xətdə öz döyüş yerlərini tutduqları zaman, bütün ordu məftuniyyətlə onları seyr edirdi.

Adyutant Bernar imperatorun əmrini onlara yetirdi. Ney qılıncını çıxarıb, baş tərəfə keçdi. Nəhəng eskadronlar yerindən tərpəndi.

[1] *Kirasir* – zireh geyimli süvarilər

Bu dəhşətli bir tamaşa idi.

Bütün bu süvarilər yalın qılıncları, yellənən bayraqları, yuxarıya qaldırılmış boruları ilə divizionlara düzülüb, bir nəfər kimi, bir ruhla, divarı dələn tunc mancanaq dəqiqliyi ilə, Bel-Alyans təpəsindən enərək, bu qədər insanları udmuş olan fəlakətli bir dərinliyə cumub, orada tüstü içində yox oldular, sonra bu zülmətdən çıxaraq, yenə möhkəm və sıx halda dərənin o biri tərəfində göründülər və üzərinə yağan çarpanaq buludunu yararaq, Mon-Sen-Jan platosunun palçıqla örtülən dəhşətli yamacını löhrəm yerişlə qalxmağa başladılar. Onlar ciddi, qorxunc, sarsılmaz bir halda yamaca qalxırdılar. Tüfənglərin yaylım atəşləri və artilleriya atəşi arasındakı fasilələrdə ağır tappıltı eşidilirdi. İki diviziyadan ibarət olan bu süvarilər iki kolonna ilə irəliləyirdi: "Batyenin diviziyası sağ, Delorun diviziyası isə sol tərəfdə idi. Uzaqdan baxdıqda, platonun yamacına iki böyük polad koramalın dırmaşdığı zənn edilirdi. Onlar döyüş meydanında bir möcüzə kimi peyda oldular.

Böyük Moskva istehkamının ağır süvari qoşun tərəfindən ələ keçirildiyi zamandan bəri belə bir şey görünməmişdi. Mürat burada olmasa da, Ney burada idi. Elə bil, bu yığın-yığın insanlar əfsanəvi bir divə çevrilmiş, bir ruh kimi birləşmişdilər. Bəzi yerləri yırtılmış böyük bir tüstü buludu arasında görünən eskadronlar polip halqaları kimi qıvrılır və şişib qabarırdı. Top atəşləri və şeypur səsləri arasında kaskalar, bağırtılar, qılınclar, at sağrılarının kəskin hərəkətləri, dəhşətli və eyni zamanda hərbi intizama tabe olan bir qarğaşalıq, bir sözlə, xaos yaranmışdı. Bütün bu xaosun da üzərində əjdaha pulları kimi kirasalar[1] görünürdü.

Bu təsvir edilən tamaşanın başqa əsrlərə aid olduğunu zənn etmək olar. Yarı insan, yarı at olan məxluqlardan, antik gipantroplardan, çaparaq Olimp dağına qalxan bu insanbaşlı və atgövdəli, həm Allah, həm də heyvan olan bu dəhşətli, yenilməz, ehtişamlı nəhənglərdən bəhs edən Orfey epopeyalarında, ehtimal ki, buna bənzər mənzərələr varmış.

Rəqəmlərin qəribə təsadüfü var, iyirmi altı batalyon bu iyirmi altı eskadronu qarşılamağa hazırlaşırdı. Platonun yalı arxasında, gizli batareyanın kölgəsində gözləyən və hər birində iki batalyon olmaqla on üç kareyə və birində yeddi kare, o birində isə altı kare olmaqla iki xəttə düzülmüş ingilis infanteriyası, silahlarını hazır tutub və qarşısında görünəcək bir şeyi nişan alaraq, sakit, səssiz və hərəkətsiz

[1] *Kirasa* – polad lövhələr

gözləyirdi. İngilis infanteriyası zirehliləri, kirasirlər isə onları görmürdü. İngilislər getdikcə artan bu insan dənizi dalğalarının səsinə qulaq asırdı. Onlar löhrəm yerişlə çapan üç min atın getdikcə artan tappıltısını, aramla və nizamla səsləşən at dırnaqlarının taqqıltısını, qılınc şaqqıltısını, kirasirlərin cingiltisini və qüdrətli, qəzəbli bir nəfəsin yaxınlaşdığını duyurdu. Qorxunc sükut yarandı, sonra birdən-birə yalın üzərində qılıncoynadan uzun bir sıra yuxarı qaldırılmış əllər, kaskalar, borular, bayraqlar və "Yaşasın imperator!" – deyə bağıran üç min çalbığlı baş göründü. Bütün bu süvarilər yaylaya hücum etdi. Bu hücum başlanmaqda olan bir zəlzələyə bənzəyirdi.

Birdən-birə – dəhşət! – ingilislərin sol tərəfində, bizim isə sağ tərəfimizdə, dəhşətli bir fəryad arasında, kolonnanın başında gələn kirasirlərin atları şahə qalxdı, Yaylanın yanına çatmış olan kirasirlər, hüdudsuz bir hiddət və qəzəbə qapılaraq kare[1] və batareyaya ölümcül bir hücuma hazır olduqları halda, birdən-birə ingilislərlə özləri arasında bir boşluq, bir uçurum olduğunu gördülər. Bu uçurum yarğanın içindən keçən Oen yolu idi.

Bu, dəhşətli bir dəqiqə idi. Kirasirlərin gözləri qarşısında gözlənilmədiyi bir halda, lap atların ayaqları altında, iki dikdirin arasında, iki tuaz dərinliyində sıldırım bir eniş, bir yarğan qaralırdı. Süvarilərin ikinci sırası birinci sıranı, üçüncü sıra isə ikinci sıranı yarğana itələdi, atlar şahə qalxır, geriyə atılır, arxası üstə yerə düşür, bellərindəki süvariləri ataraq və altlarında əzərək ayaqları yuxarı eniş aşağı sürüşürdülər. Geriyə çəkilmək üçün heç bir imkan yox idi, bütün kolonna, sanki, atılan bir mərmiyə çevrilmişdi. İngilisləri əzmək üçün toplanmış bir qüvvə fransızların özlərini əzmişdi. Amansız yarğanı ancaq başdan-başa doldurduqdan sonra keçmək olardı. Süvarilər və atlar bir-birinə qarışıb, bir-birini əzə-əzə aşağıya yuvarlanaraq insan bədənlərindən ibarət bir horra əmələ gətirmişdilər. Yalnız yarğan canlı insanlarla dolduqdan sonra, salamat qalanlar onları tapdayaraq yarğanı keçə bildilər. Dübua briqadasının, demək olar ki, üçdəbiri bu uçurumda məhv oldu.

Bu, məğlubiyyətin başlanğıcı idi.

Tələfatı, ehtimal ki, mübaliğə ilə xəbər verən yerli rəvayətlərə görə, həmin bu Oen yolunda iki min at və min beş yüz atlı öz məzarlarını tapdılar. Yəqin, bu rəqəmlərə ertəsi gün həmin yarğana atılmış olan başqa meyitlər də daxil edilmişdir.

[1] *Kare* – dördbucaq şəklində düzülmüş qoşun

Yeri gəlmişkən deməliyik ki, bu qədər dəhşətli bir tələfat verən Dübua briqadası, bir saat bundan əvvəl Lüneburq batalyonuna müstəqil hücum edərək, onun bayrağını ələ keçirən briqada idi.

Napoleon, Milo kirasirlərinə hücuma keçmək əmrini verməzdən əvvəl, ətrafı diqqətlə yoxlamışdı, lakin yaylanın səthi üzərində heç bir əlaməti olmayan bu yarğandakı yolu o görə bilməzdi. Bununla belə, bu yolun Nivel yolu ilə kəsildiyi yerdə balaca ağ bir ibadətxananı görmüş olan Napoleon, şübhələnib, bir manea olub-olmadığını bələdçi Lakostadan soruşdu. Bələdçi "yox" deyərək başını yırğaladı. Demək olar ki, Napoleonun fəlakətinə səbəb də bu kəndlinin başını yırğalaması idi.

Bundan sonra başqa fəlakətli hadisələr də üz verməli idi.

Napoleon bu vuruşmada qələbə qazana bilərdimi? Biz cavab veririk: yox. Nə üçün? Vellinqtonmu buna mane olurdu? Blüxermi? Yox. Buna mane olan Tanrı idi.

Bonapartın Vaterloo düzündə qələbə çalması artıq on doqquzuncu əsrin mülahizələrində nəzərə alınmamışdı. Bir sıra başqa hadisələr hazırlanırdı ki, bunların içində Napoleon üçün artıq yer yox idi. Taleyin onu gözdən salması bu hadisədən çox-çox əvvəl özünü göstərmişdi.

Artıq bu böyük insanın süqut vaxtı gəlib çatmışdı.

Xalqların taleyində onun həddindən artıq nüfuz qazanması ümumi müvazinəti pozurdu. Onun şəxsiyyəti özü-özlüyündə bütünlüklə bəşəriyyətdən daha artıq bir əhəmiyyət daşıyırdı. Bəşəriyyətin həyat qüvvələrinin bir başda mərkəzləşmiş olan bu bolluğu, nəticə etibarilə bir insanın beynində birləşmiş bütöv bir dünya, vəziyyət davam edərsə, artıq mədəniyyət üçün fəlakətli nəticələr verə bilərdi. Artıq elə bir zaman gəlmişdi ki, satılmaz ülvi ədalət sahibi öz nəzərini buna salmağa məcbur olurdu. Ola bilsin ki, istər mənəvi və istərsə maddi məsələlərdə mövcud olan daimi cazibə qüvvələrinin tabe olduğu prinsiplər və ünsürlər şikayət yazmağa məcbur olmuşdular. Buğlanan qanlar, başdan-başa dolmuş qəbiristanlar, anaların göz yaşları – bunların hamısı qorxunc ittihamçılardır.

Dünya həddindən artıq bir ağırlıqdan əzab çəkdiyi zaman, qaranlıqdan gizli nalə və fəğan səsləri gəlir, uçurum da onlara qulaq asır.

İmperatordan göylərə şikayət olunmuşdu və onun süqut məsələsi artıq həll edilmişdi.

O, Tanrıya mane olurdu.

Vaterloo heç də vuruşma deyildir. Vaterloo bütün kainatın simasının dəyişməsi deməkdir.

Onuncu fəsil

MON-SEN-JAN PLATOSU

Yarğanın mövcud olduğu aydın olan kimi batareyanın da mövcud olduğu aydın oldu.

Altmış top və on üç kare kirasirlərə tuşlama atəş açdılar. Qorxmaz general Delor ingilis batareyasına hərbi salyut verdi.

İngilislərin bütün atlı artilleriyası çaparaq öz karelərinə qayıtdılar. Kirasirlər bir an belə dayanmadılar. Xəndək fəlakəti onların sıralarını azaltsa da, cəsarətlərini poza bilməmişdi. Onlar sayca azalarkən şücaətləri daha da artan insanlardan idi.

Fəlakətə düşən ancaq Vatye kolonnası idi. Delorun kolonnasına gəlincə, sanki, tələ qurulduğunu duymuş olan Ney ona sol tərəfdən getməyi tapşırdığından, salamat gəlib çatdı.

Kirasirlər ingilis karelərinə hücuma keçdilər.

Onlar atların cilovlarını buraxıb, qılıncları dişlərində, tapançaları əllərində çapa-çapa gəlirdilər. Bu hücum belə bir hücum idi.

Vuruşmalarda elə dəqiqələr olur ki, insanın qəlbi sərtləşir, insan daş bir heykələ dönür və o zaman bütün bu canlı kütlə qranitə çevrilir. İngilis batalyonları bu dəhşətli hücum qarşısında heç sarsılmadılar.

O zaman dəhşətli bir şey başlandı.

İngilis kareləri bütün cəbhə boyu birdən-birə hücuma məruz qalmışdılar. Qızğın bir tufan onların başı üstünü almışdı. Lakin bu möhkəm piyadalar sarsılmadı. Birinci sıra dizi üstünə çökərək, kirasirləri süngü ilə qarşıladı, ikinci sıra isə onları atəşə tutdu. İkinci sıranın topçuları topları doldururdu. Kare cəbhəsi aralanır, çarpana atəşinin həmləsinə yol açır, sonra yenə qovuşurdu. Kirasirlər onlara yeni həmlə ilə cavab verirdilər. Nəhəng atlar şahə qalxır, kare sıralarının üstündən sıçrayıb keçir, süngülərin üstündən tullanır, nəhəng bir şey kimi bu dörd canlı divar arasına düşürdülər. Mərmilər kirasirlərin

sıralarını, kirasirlər isə karelərin sıralarını yarırdı. Bütöv sıralar atların ayaqları altında qalaraq məhv olurdu. Süngülər kentavrların qarınlarını yırtırdı. Bəlkə də, heç bir zaman başqa vuruşmalarda təsadüf edilməyən eybəcər yaraların səbəbləri də budur. Sanki, bu qudurmuş süvarilərin gəmirməkdə olduğu karelər qısalır, lakin geri çəkilmirdi. Onların çarpanaq ehtiyatları tükənməz olduğundan, hücum edənlər kütləsinin içərisində partlayışlar bir-birini təqib edirdi. Bu vuruşmanın dəhşətli bir mənzərəsi vardı! Karelər artıq batalyon deyildi, onlar kraterlərə çevrilmişdi, artıq kirasirlər süvari qoşun deyil, bir tufan idi. Hər bir kare qara bulud hücumuna məruz qalan bir vulkana dönmüşdü; lava seli ildırımla vuruşurdu.

Sol ucdakı kare, hər iki tərəfdən müdafiəsiz olduğu və ən çox təhlükəyə məruz qaldığı üçün elə birinci toqquşmada büsbütün məhv edilmiş kimi idi. Bu kare 75-ci şotland dağlıları polkundan ibarət idi. Hər tərəfdə qırğın getdiyi zaman, vuruşmanın ən qızğın bir yerində təbil üstündə əyləşən bir zurnaçı, doğma yurdunun gölləri və meşələrini əks edən malxulyalı gözlərini dərin bir sakitliklə aşağı endirib, dağlı nəğmələrini çalırdı. Arqosu xatırlayan yunanlar kimi şotlandiyalılar da Ben Lotianı düşünərək can verirdilər. Zurna ilə birlikdə onu tutan əli kəsmiş olan kirasir qılıncı, xanəndəni öldürməklə nəğməni susdurmuşdu.

Sayları nisbətən çox olmayan və bundan başqa, yarğan fəlakətində tələfat vermiş olan kirasirlərə, az qala, bütün ingilis ordusu qarşı dayanmışdı, lakin onlar, sanki, qat-qat artmışdılar, çünki onların hər biri on nəfərə dəyərdi. Bu əsnada bir neçə hannover batalyonu geri çəkildi. Vellinqton bunu görcək, öz süvarilərini xatırladı. Əgər Napoleon da elə bu dəqiqədə öz piyadasını yada salmış olsaydı, vuruşmada qalibiyyət qazana bilərdi. Piyada qoşununu yaddan çıxarması Napoleonun ən böyük və fəlakətli bir səhvi olmuşdur.

Hücum edənlər birdən-birə hücum olunanlara çevrildilər. İngilis süvariləri kirasirlərin arxasına keçdi. Qabaqda – kare, arxada – Sommerset; Sommerset min dörd yüz qvardiya draqunu demək idi. Sommersetin sağ tərəfində Dornberq öz yüngül alman süvariləri ilə, sol tərəfində isə Trip öz belçikalı karabinerləri ilə dayanmışdı; cinahdan və cəbhədən, qabaqdan və arxadan piyada və süvarilərin hücumuna məruz qalan kirasirlər hər tərəfdən özlərini müdafiə etməyə məcbur olmuşdular. Lakin onlar üçün bunun nə fərqi ola

bilərdi? Onlar ki bir tufan, bir qasırğa olmuşdular. Onların şücaəti bütün imkan hədlərini aşmışdı.

Bundan başqa, onların arxasında arası kəsilmədən toplar guruldayırdı. Bu insanlar yalnız belə bir şəraitdə arxadan yaralana bilərdilər. Sol kürəyi deşilmiş bu kirasalardan biri Vaterloo muzeyinin kolleksiyalarında mühafizə olunur.

Bu cür fransızlara yalnız belə ingilislər davam gətirə bilərdi.

Artıq bu döyüş meydanı deyildi, bu, bir zülmət, qəlblərin qəhrəmanlıqla, şiddət və qəzəblə dolu, başgicəlləndirici bir həyəcanı, qılınc ildırımının bir fırtınası idi. Bir an içində min dörd yüz draqundan yalnız səkkiz yüzü qaldı, onların komandiri podpolkovnik Fuller öldürüldü, Ney, Lefevr-Denuetın ulanları və egerləri ilə imdada yetdi. Mon-Sen-Jan yaylası alındı, sonra əldən verildi və yenə alındı. Kirasirlər yenə piyadanın üzərinə cummaq üçün süvarilərdən əl çəkirdi, daha doğrusu, insanlar bu dəhşətli basabasda döş-döşə gəlmiş, əlbəyaxa olmuşdular. Karelər hələ müqavimət göstərirdi.

Onlar on iki hücuma tab gətirdilər. Neyin altında dörd at öldürülmüşdü. Kirasirlərin yarısı yaylada məhv oldu. Vuruşma iki saat davam etdi.

İngilis qoşunları çox didişdirilmişdi. Şübhəsiz, kirasirlər elə ilk hücumda yarğan yolundakı fəlakətlə zəifləməmiş olsaydılar, mərkəzi dağıdaraq qələbə qazanmış olardılar. Bu xariqüladə süvarilər Talavera və Badaxos vuruşmalarını görən Klintonu heyrət içində buraxmışdı. Dörddə üç payı məğlub edilmiş Vellinqton, yavaş səslə "Mərhəba!"[1] deyə, qəhrəmancasına onları təqdir etmişdi.

Kirasirlər on üç karedən yeddisini məhv etdilər, altmış top ələ keçirdilər, yaxud xarab elədilər, ingilislərin əlindən altı bayrağını aldılar, həmin bu bayraqları üç kirasirlə üç qvardiya əsgəri Bel-Alyans fermasının yaxınlığında dayanmış imperatora apardılar.

Vellinqtonun vəziyyəti ağırlaşmışdı. Bu dəhşətli vuruşma iki qəzəbli yaralı əsgərin döyüşünə bənzəyirdi: hər ikisi qanı axa-axa həm hücum edir, həm də özünü müdafiə edirdi. Birinci kim yıxılacaq, kim məğlub olacaqdı?

Yayladakı mübarizə davam edirdi.

Kirasirlər haraya kimi çatmışdılar? Bunu heç kəs təyin edə bilməzdi. Yalnız bu məlumdur ki, vuruşmanın sabahı günü Nivel, Jenap,

[1] *Splendid!* – Vellinqtonun öz ifadəsidir (*müəllifin qeydi*).

La-Gülp və Brüssel yollarının çarpazlaşdığı yerdə Mon-Sen-Jan qapanı meydanında bir kirasirlə atının ölüsü tapılmışdı. Bu atlı ingilis xətlərini yarıb keçə bilmişdi. Bu ölünü götürənlərdən birisi indi belə Mon-Sen-Janda yaşayır. Adı Deqazdır. O zaman onun on səkkiz yaşı varmış.

Vellinqton ayaqlarının yerdən üzüldüyünü hiss edirdi. Vuruşmanın sonu yaxınlaşırdı.

Kirasirlər öz məqsədlərinə çata bilmədilər, mərkəz yarılmamışdı. Mon-Sen-Jan platosu isə həm fransızların, həm də ingilislərin əlində olduğu üçün, heç kəsinki sayıla bilməzdi, bununla belə yenə də böyük hissəsi ən axırda ingilislərin əlində qalmaqda idi. Vellinqton kəndi və yaylanın yuxarı hissəsini əlindən vermirdi. Neyin əlində isə yalnız təpə və yamac qalmışdı. Sanki, hər iki tərəf bu məzar torpağına rişə salmışdı.

Bununla belə, ingilislərin məğlubiyyəti labüd görünürdü: ingilis ordusunun tələfatı böyük idi. Sol cinahdan Kempt kömək tələb edirdi. Vellinqton: "Mümkün deyil, – deyə cavab verirdi, – qoy o özünü öldürtsün!" Elə eyni zamanda – bu qəribə təsadüf hər iki ordunun taqətdən düşdüyünü göstərir, – Ney də Napoleondan piyada tələb edirdi, Napoleon isə cavabında: "Piyadamı? – demişdi. – Piyadanı mən haradan alım? Mən onu yarada bilmərəm ki?"

Hər halda, ingilis ordusu daha artıq taqətdən düşmüşdü. Dəmir kirasalı və polad zirehli bu nəhəng eskadronların qızğın hücumları piyadanı əzmişdi. Yalnız bayrağı əhatə edən bir dəstə əsgərə görə burada bir polk olduğunu təsəvvür etmək olardı: bəzi batalyonlara indi yalnız kapitanlar, yaxud leytenantlar komanda verirdi; hələ Ge-Sentdə şiddətli tələfat vermiş olan Alten diviziyası, demək olar ki, tamamilə qırılıb qurtarmışdı. Van-Kluze briqadasının qorxubilməz belçikalıları Nivel yolu boyu çovdar zəmilərinə sərilmişdilər. 1811-ci ildə İspaniyada fransızlarla yan-yana Vellinqtonla vuruşan, 1815-ci ildə isə ingilislərlə birləşərək Napoleonla döyüşən holland qrenadyorlarından, demək olar ki, bir nəfər belə qalmamışdı. Komandirlər arasında böyük tələfat vardı. Ertəsi gün kəsilmiş ayağını dəfn etməyi tapşırmış olan lord Uqsbricin dizi əzilmişdi. Kirasirlər hücum etdiyi zaman, fransızlardan Delor, Leritye, Kolber, Dnop, Travers və Blankar sıradan çıxmışdısa, ingilislərdən Alten yaralanmış, Barn yaralanmış, Delanse, Van Meeren, Ompteda öldürülmüş, Vellinqtonun baş

qərargahı dağılmışdı. Bu qanlı müvazinətdə İngiltərənin payına daha acı qismət düşmüşdü. İkinci qvardiya piyada polku beş podpolkovnik, dörd kapitan və üç kiçik zabit itirmişdi; otuzuncu piyada polkunun birinci batalyonu iyirmi dörd zabit və yüz iyirmi əsgər itirmişdi, 79-cu dağlı polkunda iyirmi dörd zabit yaralanmış, on səkkiz zabit öldürülmüş, dörd yüz əlli əsgər məhv edilmişdi. Kamberlendin Hannover qusarlarından bir polku, polkovnik Qake başda olmaq üzrə – həmin Qakeni sonralar mühakimə edib rütbəsini aşağı salmışdılar – əlbəyaxa vuruşmaqdan qorxaraq, geriyə dönmüş və Brüsselə qədər vəlvələ sala-sala Suan meşəsi ilə qaçmışdı.

Fransızların irəlilədiklərini və meşəyə yaxınlaşdıqlarını görən fürştat[1], ərzaq arabaları, yüklü arabalar, yaralılarla dolu furqonlar da geriyə qaçmışdı. Fransız süvarilərinin qılınclarına təsadüf edən hollandiyalılar: "Kömək edin!" – deyə fəryad edirdilər. İndi belə sağ olan və bu hadisələri görənlərin dediyinə görə, Ver-Kukudan Qrenandala qədər, Brüsselə doğru ikimillik bir məsafədə hər yer qaçqınlarla dopdolu idi. Vəlvələ o qədər böyük idi ki, Mexelndə prins Kondeyə, Gentdə isə XVIII Lüdovikə qədər gedib çatmışdı. Mon-Sen-Jan fermasındakı hərbi xəstəxananın arxasında yerləşmiş zəif bir ehtiyat qoşunundan və sol cinahda Vavianla Vandelerin briqadalarından başqa, Vellinqtonun artıq heç bir süvari qoşunu qalmamışdı. Lafetlərindən salınmış bir çox toplar yerə sərilmişdi.

Bu faktları Siborn təsdiq edir. Prinql isə mübaliğəyə yol verərək, hətta belə deyir ki, guya, ingilis-holland ordusunun sayı otuz dörd min nəfərə endirilmişdi. Dəmir hersoq sarsılmadı, lakin dodaqlarının rəngi qaçmışdı. Vuruşma əsnasında ingilis baş qərargahında olan Avstriya krinq-komissarı Vinsent, İspaniya kriqs-komissarı Alava hersoqun artıq həlak olduğunu zənn edirdilər. Vellinqton saat beşdə saatını çıxarmışdı. Ətrafındakılar Vellinqtonun bu ələmli sözləri söylədiyini eşitmişdilər: "Ya Blüxer, ya gecə!"

Elə həmin bu dəqiqədə Frişmon tərəfindəki uzaq təpələrin üzərində sıra ilə süngülər parladı.

Bununla da bu nəhəng vuruşmada dönüş başlandı.

[1] *Fürştat* – ərzaq-sursat arabaları hissəsi

On birinci fəsil

NAPOLEONUN BƏLƏDÇİSİ PİS OLDUĞU HALDA, BÜLOVUN BƏLƏDÇİSİ YAXŞI İDİ

Napoleonun faciəli səhvi hamıya məlumdur: o, Qruşini gözlədiyi halda, Blüxer, yəni dirilik əvəzinə ölüm gəlmişdi.

Taleyin bəzən belə sərt dönüşləri olur; insan bütün dünyaya sahib olacağını zənn etdiyi halda, ona Müqəddəs Yelena adası qismət olur...

Əgər Blüxerin general-leytenantı Bülova bələdçilik eləyən balaca naxırçı ona Plansenuadan aşağıda deyil, Frişmondan yuxarıda meşədən çıxmağı məsləhət etmiş olsaydı, bəlkə də, on doqquzuncu əsrin taleyi tamamilə başqa cür olardı. Napoleon Vaterloo vuruşmasında qalib gələ bilərdi. Prussiya ordusu Plansenuanın aşağısından keçən yolla deyil, hər hansı başqa yolla getmiş olsaydı, artilleriya üçün keçilməsi mümkün olmayan bir yarğana rast gələr və Bülov vaxtında gəlib çata bilməzdi.

Halbuki Bülov yalnız bircə saat gecikmiş olsaydı (general Müflinqin iddiasıdır), Blüxer artıq əvvəlki Vellinqtonu görməzdi, "Vaterloo vuruşması məğlubiyyətlə nəticələnmiş olardı".

Söylədiklərimizdən aydın görünür ki, Blüxerin gəlməsi vaxtı çatmışdı. Ancaq o, xeyli gecikmişdi. Dion-le-Monda düşərgə elədi və şəfəq doğarkən yürüşə başladı. Lakin yollar xarab olduğundan, Blüxerin diviziyaları palçığa batırdı. Topların təkərləri yarıya qədər palçığa girirdi. Bundan başqa, ordu Dil çayını keçmək üçün dar Vavr körpüsünü keçməyə məcbur oldu. Körpüyə doğru gedən küçə fransızlar tərəfindən yandırılmışdı. Mərmi qutuları və artilleriya arabaları hər iki tərəfdə yanan evlərin arasından keçə bilməyərək, yanğının qurtarmasını gözləməyə məcbur olmuşdular. Bülovun avanqardı günortaya kimi hələ Şapel-Soen-Lamberə çatmamışdı.

Vuruşma iki saat əvvəl başlamış olsaydı, saat dördə kimi qurtarardı və beləliklə, Blüxer gəlib çatanda artıq Napoleon qalib gəlmiş olardı. Bizim dərk etmək iqtidarında olmadığımız nəhayətsizlik mislində olan bu böyük təsadüflər bunlardan ibarətdir.

Hələ günorta vaxtı imperator durbindən baxarkən, birinci olaraq, üfüqlərdə onun diqqətini cəlb edən bir şey görmüşdü. Napoleon: "Mən orada, uzaqda bir bulud görürəm, – məncə, o, qoşundur" – demişdi. Sonra Dalmasiya hersoquna müraciətlə soruşmuşdu: "Sult, Şapel-Sen-Lamber istiqamətində siz nə görürsünüz?" Marşal durbinini o tərəfə çevirib cavab vermişdi: "Dörd ya beş min nəfər görürəm, əlahəzrət. Qruşi olacaqdır!" Bununla belə, görünən bu şey duman içində olub hərəkət etmirdi. Baş qərargahın bütün durbinləri imperatorun gördüyü "buludu" diqqətlə gözdən keçirirdi. Bəziləri deyirdi: "Bu, düşərgə salmış kolonnalardır". Əksəriyyət isə: "Ağaclardır", – deyə qərar verirdi. Yalnız bir şeyi yəqin söyləmək olardı ki, bu bulud hərəkət etmirdi. İmperator kəşfiyyat üçün bu qara nöqtəyə doğru Domonun yüngül süvarilərindən bir divizion göndərdi.

Bülov, həqiqətən, hərəkət etmirdi. Avanqardı çox zəif olduğundan, vuruşmaya girişmək iqtidarında deyildi. Bülov korpusun əsas qüvvələrini gözləməyə məcbur olmuş və hərbi nizama düzülməkdən əvvəl qoşununu bir yerə toplamaq əmrini almışdı, lakin saat beşdə Vellinqtonun fəlakətli vəziyyətini görən Blüxer, Bülova hücum əmrini vermiş və məşhur sözləri söyləmişdi: "Qoy ingilis ordusu bir az nəfəs alsın".

Bir az sonra Losten, Giller, Qake və Risselin diviziyaları Lobo korpusunun qarşısında yerləşdi, prins Vilhelm Prusskinin süvariləri Paris meşəsindən yürüşə başladı, Plansenua alovlandı və prus mərmiləri dolu kimi yağaraq, Napoleonun arxasında ehtiyatda dayanan qvardiya sıralarına belə düşməyə başladı.

On ikinci fəsil

QVARDİYA

Qalan hər şey məlumdur: üçüncü ordunun vuruşmaya girişməsi, vuruşmanın dislokasiyası, birdən-birə gurlayan səksən altı top lüləsi Bülovla birlikdə Birinci Pirxin gəlib yetişməsi, Blüxerin şəxsən idarə etdiyi Siten süvariləri, fransızların sıxışdırılması. Oen platosundan aşağı atılan Markonye, Papelotdan çıxarılan Dürüt, geriyə çəkilən Donzelo və Kio, Lobonun mühasirəyə düşməsi, gecə başlananda sürətlə genişlənən yeni bir vuruşma, müdafiəsiz qalan polklarımız,

bütün ingilis piyadasının hücuma keçməsi və irəliyə hərəkət etməsi, fransız ordusunun yarılması, ingilis və prus çarpanaqlarının birgə səyləri, cəbhənin məhv və tar-mar olunması, cinahların darmadağın edilməsi və bu dəhşətli bərbadlıq içində döyüş meydanına girən qvardiya.

Qvardiya amansız bir ölümə doğru gedərkən bağırırdı: "Yaşasın imperator!" Salamlar və alqışlar yağdıran bu qədər təsirli bir can çəkişməsi tarixdə heç bir zaman olmamışdır.

Bütün günü göy tutqun idi. Axşam saat səkkiz olardı, birdən üfüqdəki buludlar parçalandı və Nivel yolu boyunca bitən qarağacların budaqları arasından batan günəşin məşum qırmızı şəfəqləri göründü. Austerlis döyüşündə isə günəş doğurdu.

Bu faciənin sonuna yaxın hər bir qvardiya batalyonu bir generalın komandası altında idi. Frian, Mişel, Roge, Qarle, Male, Pore de Morvan – hamısı burada idi! Qrenadyorların geniş günlüklərində qartal şəkli olan hündür papaqları bu cəng meydanının dumanı içərisində müntəzəm, düzgün, sarsılmaz, əzəmətli və vüqarlı sıralarla göründüyü zaman, düşmən Fransaya ehtiram hissi duymuşdu. Sanki, iyirmi zəfər ilahəsi qanadlarını açaraq, döyüş meydanına qədəm basdı və qalib gələnlər özlərini məğlub hesab edərək, geriyə çəkildilər, lakin Vellinqton bağırdı: "Qvardiyaçılar, yerinizdən tərpənməyin, düz nişan alın!" Çəpərlərin arxasında yerləşmiş qırmızı ingilis qvardiyaçıları polku ayağa qalxdı, yağış kimi yağan çarpanaqlar qartallarımızın başı üzərində dalğalanan üçrəngli bayrağı deşdi, əsgərlər birbirilə toqquşdu, misilsiz bir qırğın başlandı. Qaranlıqda imperator qvardiyası ətrafındakı qoşunların sarsıldığını, nizamsız bir halda geriyə çəkilən böyük bir dalğanın tərpəndiyini duyaraq, əvvəlki "Yaşasın imperator!" əvəzinə "Qaç, canını qurtar!" bağırtılarını eşitdi və arxasında hamının qaçdığını bilə-bilə, yenə də hücumuna davam etdi. Qvardiyanın başına getdikcə şiddətlənən mərmi dolusu yağır, o, hər addımda daha çox tələfat verirdi. Burada nə qorxaqlar vardı, nə də tərəddüd edənlər. Bu polkun hər bir əsgəri də, onun generalı da qəhrəman idi. Bir nəfər belə intihardan çəkinmədi.

Özündən çıxmış Ney, ölümü qəbul etmək qərarından doğan bir əzəmətlə, döşünü bu tufanın bütün zərbələrinə verirdi. O, beşinci ata mindi, onu da öldürdülər. O, başdan-ayağa kimi tər içində idi, gözləri od kimi yanır, dodaqları köpüklənmiş, mundirinin yaxası açıq,

epoletinin biri atlı ingilis qvardiyaçısının qılınc zərbəsi ilə parçalanmış, döşündəki Böyük qartal nişanı əzilmiş halda qana, palçığa batmış, bir əlində qırıq bir qılınc, möhtəşəm bir görünüşlə səslənirdi: "Tamaşa edin, görün Fransa marşalı döyüş meydanında necə ölür!" Lakin heyhat! O ölmədi. O, pərişan və qəzəbli idi. Drue d'Erlona müraciətlə bağırdı: "Bəs sən? Məgər sən öldürülmək istəmirsənmi?" Bir ovuc insana qarşı çevrilmiş bu sarsıdıcı top atəşi altında Ney bağırırdı: "Demək, mənim payıma bir şey düşmədi? Ah, mən istərdim ki, bütün bu ingilis mərmiləri mənim qarnıma dəysin! Zavallı, sən fransız güllələrindən ölmək üçün sağ qaldın!"

On üçüncü fəsil

FƏLAKƏT

Qvardiyanın arxasındakı ordunun geriyə çəkilməsi qorxunc idi.

Ordu birdən-birə hər tərəfdən – Huqomon, Ge-Sent, Papelot, Plansenua tərəfindən eyni zamanda sarsıldı. "Xəyanət!" bağırtıları ardınca "Canınızı qurtarın!" sədaları yüksəldi. Qaçıb dağılan ordu əriyən qara bənzər: hər şey çökür, çatlayır, tərpənir, titrəyir, yuvarlanıb toqquşur, tələsir, sürətlə hərəkət edir. Bu, təsviredilməz bir dağılmadır. Ney kiminsə atını əlindən alıb, atın belinə sıçrayır və şlyapasız, boyunbağısız, şpaqasız Brüssel yolunun ortasında dayanıb həm ingilislərin, həm də fransızların qabağını kəsir. Marşal ordunu dayandırmağa çalışır, onu qayıtmağa dəvət edir, təhqir edir, qaçanların yaxasından yapışır, yaxıb-yandırır. Əsgərlər onun yanından dolanıb keçərkən: "Yaşasın marşal Ney!" – deyə bağırırlar. Dürütün iki polku ulanların qılıncları və Kempt, Best, Pakk və Rilandtın briqadalarının atəşi arasında, top kimi oyan-buyana atılaraq, çaşqınlıq içində vurnuxurdu. Çarpışmaların ən qorxulusu qaçmaqdır, dostlar özlərini xilas etmək üçün bir-birini öldürür, eskadronlar və batalyonlar bir-birilə çarpışaraq, nəhəng bir cəng köpüyü kimi dağılırlar. Lobo bir tərəfdən, Reyl isə o biri tərəfdən bu axına düşmüşlər. Napoleon, qvardiyasından qalan döyüşçülərin köməyi ilə əbəs yerə bu axının qarşısını almağa çalışır, əbəs yerə son təşəbbüs kimi son şəxsi mühafizə eskadronlarını qurban verir. Kio Vivianın, Kellerman

Vandelerin, Lobo Bülovun, Morap Pirxin, Domon və Sübervik prins Vilhelm Prusskinin qarşısında geri çəkilir. İmperator eskadronlarını hücuma aparan Giyo ingilis draqunlarının atlarının ayaqları altında əzilib məhv olur. Napoleon atını çapa-çapa qaçqın dəstələrinin yanından keçir, nəsihət edir, israr edir, hədələyir, yalvarır. Hələ səhər"Yaşasın imperator!" – deyən ağızlar artıq susur, sanki, Napoleonu artıq heç kəs tanımır. Yenicə gəlmiş prus süvari qoşunları fransızlara hücum çəkərək vurur, çapır, kəsir, əzir, öldürür və məhv edir. Qoşqu taqımları bir-birilə toqquşur, toplar kənara qaçır, arabaçılar top arabalarının atlarını açaraq qaçırlar, çevrilmiş furqonlar yolu kəsir və yeni qırğına səbəb olur. İnsanlar bir-birini sıxışdırır, əzir, diriləri və ölüləri tapdalayıb keçirlər. Əllər kor-koranə qabağına nə rast gəlirsə məhv edir. Yığın-yığın insanlar yollara, cığırlara, körpülərə, düzlərə, təpələrə, dərələrə, meşələrə dolmuşlar – ətraf qaçan qırx min insan kütləsi ilə doludur. Nalə və fəğan səsləri gəlir, silahlar və çantalar taxılın içinə atılmışdır, qılınc zərbələri qalın taxılda yollar açmışdır, artıq nə yoldaş var, nə zabit var, nə də general – hər tərəfdə misilsiz bir dəhşət hökm sürür. Bir tərəfdə – Fransanı kefi istədiyi kimi kəsib doğrayan Siten, o biri tərəfdə – ceyrana dönmüş aslanlar. Bu qaçmaq belə bir qaçmaq idi!

Jenapda dayanmaq, möhkəmlənmək, düşməni dəf etmək istədilər. Lobo üç yüz adam topladı. Kəndin girəcəyində barrikadalar quruldu, lakin prus topları atəş açar-açmaz, hamı yenə qaçmağa üz qoydu. Lobo əsir düşdü. Yolun sağ tərəfində, Jenapdan bir neçə dəqiqəlik yolda, yarıuçulmuş kərpic bir evin damında bu gün belə həmin top atəşinin izləri görünür. Prussiyalılar, görünür, bu cür şərəfsiz qələbədən hiddətlənərək Jenapa üz tutdular. Fransızların təqib edilməsi dəhşətli bir şəkil aldı. Blüxer ümumi qətl əmrini verdi. Roge bunun üçün ələmli bir nümunə olmuşdu, o, hər bir prus əsirini yanına gətirmiş olan fransız qrenadyorunu ölümlə təhdid edirdi. Blüxer Rogeni də ötdü. Bir Jenap meyxanasının qapısına sıxışdırılmış olan gənc qvardiyanın generalı Düqem öz şpaqasını ölüm qusarına təslim etdi, o isə silahı alıb əsiri öldürdü. Qələbə məğlub olanların qırğını ilə tamamlandı. Madam ki, biz tarixi təmsil edirik, demək ki, qərar verməliyik: qoca Blüxer özünü biabır etdi. Bu amansızlıq fəlakəti tamamlamış oldu. Ümidlərini itirən qaçqınlar Jenapı keçdilər. Katr-Branı keçdilər. Qoseli, Franı və Şarleruanı keçdilər. Tüeni keçdilər

və ancaq sərhəddə dayandılar. Əfsus! Bu biabırçılıqla qaçan kim idi? Böyük ordu.

Məgər bu çaşqınlıq, bu dəhşət, tarixdə misli görünməmiş ən böyük bir mərdliyin məhv olması səbəbsiz idi? Yox, bunun səbəbləri var. Tanrı əlini uzatmış və onun böyük kölgəsi Vaterloo üzərinə düşmüşdü. Bu gün taleyin əmri yerinə yetmişdi. Bu günü ilahi bir qüvvə qabaqcadan təyin etmişdi. Buna görə də bütün bu başlar dəhşət içində əyilmişdi, buna görə də bu böyük insanlar silahlarını əldən buraxmağa məcbur olmuşdular. Avropaya qalib gələnlər yerlə yeksan olmuşdu, nə deyəcəklərini, nə iş görəcəklərini bilmədən, qaranlıqda dəhşətli bir şeyin olduğunu hiss edərək, məhv olmuşdular. *Hoc erat in fathis*[1]. O gün bütün bəşər nəslinin gələcəyi dəyişdi. Vaterloo bir mehvərdir ki, on doqquzuncu əsr onun üzərində dayanmışdır. Böyük bir əsrin başlanması üçün böyük bir insanın yox olması lazım gəlirdi. Bu vəzifəni öz öhdəsinə elə bir qüvvə götürdü ki, ona heç kəs bir söz deyə bilməzdi. Qəhrəmanların çaşqınlığını izah etmək olar. Vaterloo vuruşmasında buluddan daha mühüm bir şey göründü ki, o da meteor idi. Oraya Allah qədəm basmışdı.

Axşam qaranlığı çökərkən Jenap yaxınlığındakı bir düzdə Bernarla Bertran qaşqabaqlı, fikirlərə qərq olmuş bir şəxsi redinqotunun ətəyindən tutub dayandırdılar. Bu şəxs qaçqınların axını ilə buraya qədər gətirilərək, yenicə atdan düşmüş və cilovları qoltuğunun altına soxaraq, tək-tənha, gözləri dolaşa-dolaşa, geriyə, Vaterlooya doğru gedirdi. Bu şəxs yenə də qabağa getmək üçün can atan Napoleon, bu məhv olan xəyalın sürüklədiyi böyük lunatik idi.

On dördüncü fəsil

SON KARE

Geriyə çəkilənlərin qaynayan axını arasında burulğan ortasına düşmüş bir qaya kimi dayanan bir neçə qvardiya karesi gecəyə qədər müqavimət göstərməkdə davam etdi. Gecə və onunla bərabər ölüm gəlib çatdı; onlar bu ikiqat zülmətin intizarında idilər, sarsılmadan bu zülmətin onları bürüməsinə imkan verdilər. Bir-birindən

[1] Belə olmalı (*lat.*)

ayrı düşmüş və qəti bir məğlubiyyətə düçar olan ordu ilə əlaqəsi üzülmüş olan hər bir polk yalqızca can verirdi. Bu son qəhrəmanlığı göstərmək üçün bəzi karelər Rosom təpələrində, o birilər isə Mon-Sen-Jan düzündə yerləşdilər. Hamının atıb getdiyi bu məğlub olan, qorxunc, ələmli karelər bu təpələrdə, bu düzlərdə dəhşətli ölümlərini qarşılayırdılar. Onlarla birlikdə Ulm, Vaqram, İena və Fridland ölürdü.

Axşam saat doqquza yaxın alaqaranlıqda Mon-Sen-Jan yaylasının ətəyində yalnız bir kare hələ də müqavimət göstərirdi. Bu məşum dərədə – kirasirlərin aşdığı və artıq ingilis qoşunları tərəfindən tutulmuş olan yamacın ətəyində müzəffər düşmən artilleriyasının yaylım atəşi və sıx-sıx yağan mərmilər altında bu kare hələ də mübarizəni davam etdirirdi. Bu kareyə Kambron adlı görkəmsiz bir zabit komanda edirdi. Hər dəfə atəş açıldıqca, karedəkilərin sayı azalır, lakin kare yenə də müqavimət göstərirdi. Çarpanaq atəşinə o, tüfəng atəşi ilə cavab verir və getdikcə hər dörd tərəfdən qısalırdı. Qaçqınlar tövşüyə-tövşüyə bir anlığa dayanır və uzaqlarda, gecənin qaranlığı içində getdikcə sakitləşən bu qorxunc gurultuya qulaq asırdılar.

Bütün legion məhv olub yalnız bir ovuc adam qaldıqda, bayraqları parça-tikə olduqda, bütün güllələrini sərf etmiş olan tüfəngləri sadəcə bir dəyənəyə döndükdə, ölülərin sayı sağ qalanların sayına üstün gəldikdə bu ilahi əzəmətlə ölən cəngavərlərin qarşısında qaliblərin ürəyi müqəddəs bir dəhşətlə doldu və ingilis artilleriyası, sanki, nəfəs alırmış kimi susdu. Bu, sanki, ölüm müddətinin təxirə salınması idi. Sanki, vuruşanların ətrafında kabuslar, atlı siluetləri, topların qara lülələri dolaşırdı, təkərlər və lafetlər arasından ağımtıl göy görünürdü. Qəhrəmanların hər zaman vuruşma tüstüsü arasında dumanlı bir şəkildə görə bildikləri ölüm əjdahasının başı onlara doğru gəlir, onların gözlərinin içinə baxırdı. Axşam toranlığında tonların doldurulduğu eşidilirdi, gecənin qaranlığında pələng gözləri kimi parlayan yandırılmış fitillər onların başları üzərində bir dairə yaratmışdı, bütün ingilis batareyalarının tonlarına atəş vuranlar yaxınlaşırdı. Elə bu anda, bəzilərinin dediyinə görə, ingilis generalı Kolvil, başqalarının dediyinə görə – Metlend bu qəhrəmanların başı üzərində qalxan ölüm qılıncını saxlayaraq, həyəcanlı bir səslə bağırmışdı: "Qoçaqlar, təslim olun!" Kambron cavab vermişdi: *"Merde"*.

On beşinci fəsil

KAMBRON

Fransız oxucularına bir hörmət nişanəsi olaraq, bir fransızın söylədiyi bu ən gözəl sözü təkrar etmək lazım deyildir. Tarixdə fövqəlbəşər şeylərə şəhadət vermək qadağandır.

Biz heç şeydən qorxmadan qadağan edilən bu sözü söyləməyə cəsarət etdik.

Demək, bu nəhənglər arasında bir titan vardı ki, o da Kambron idi.

Bu sözü bağırmaq və sonra ölmək, bundan da əzəmətli bir şey ola bilərmi? Ölümü arzulamaq da ölmək deməkdir, özü çarpanaq atəşi ilə öldürüldüyü halda, adının qalmasında bu adam müqəssir deyildir.

Vaterloo vuruşmasında qələbə çalan adam qaçmağa məcbur olan Napoleon deyil, səhər saat dörddə geriyə çəkilərək, saat beşdə ümidsizliyə düçar olan Vellinqton deyil, qətiyyən vuruşmada iştirak etməyən Blüxer deyildir; Vaterloo vuruşmasında qələbə çalan adam Kambrondur.

Belə bir sözlə sizi öldürən bir ildırımı dəf etmək – qalib gəlmək deməkdir!

Fəlakətə belə bir cavab vermək, taleyə belə bir söz demək, gələcək aslan üçün belə bir əsas qoymaq, yağışa, gecəyə, Huqomonun xəyanətkar divarına, Oen yoluna Qruşinin gecikməsinə, Blüxerin gəlişinə qarşı belə bir replika atmaq, məzar içində belə istehza etmək, yerə yıxıldıqdan sonra belə sarsılmamaq, iki heca ilə bütün Avropa koalisiyasını basdırmaq, krallara sezarların getdiyi məlum bir yeri, yəni rahatxananı təklif etmək, ən sarsaq bir sözə Fransanın bütün rövnəqini verərək, onu ən gözəl bir sözə çevirmək, cürət edib Vaterloonu Leonidas karnavalı ilə tamamlamaq, Rableyə əlavə olaraq bir söz söyləmək, ucadan söylənilməyən bu ən kobud bir sözlə bu qələbəyə yekun vurmaq, yer üzündəki mövqeyini itirmək, lakin tarixdə bu yeri mühafizə etmək, belə bir qırğından sonra istehza edənləri öz tərəfinə çəkmək – bu, ağlasığmaz bir şeydir!

Bu – ildırımı təhqir etmək deməkdir. Bunda Esxil əzəməti vardır.

Kambronun bu sözü yerdə yarıq əmələ gələrkən çıxan bir səsə bənzər. Bu, həqarətin təzyiqindən partlayan bir sinə deməkdir.

Bu, partlayışa səbəb olan ölüm iztirablarının artığı idi. Qələbə çalan kim oldu?

Vellinqtonmu? Yox! Blüxer olmasaydı, Vellinqton məhv olardı. Bəlkə, qələbə çalan Blüxerdi? Yox! Vellinqton vuruşmanı başlamamış olsaydı, Blüxer onu tamamlaya bilməzdi. Son dəqiqədə gələn, heç kəsin tanımadığı sadə bir əsgər, müharibənin ən kiçik bir zərrəsi olan Kambron isə burada bir yalan olduğunu, fəlakətin özündə belə ikiqat dözülməz bir yalan olduğunu duymuşdu; onun hiddət dərəcəsinə gəldiyi bir zaman isə, ona gülünc bir şey, yəni yaşamaq təklif etdilər. O, necə özündən çıxmasın? Budur, bütün Avropa kralları, bəxtəvər generallar, ildırım çaxan Yupiterlər, hamısı göz qabağındadır, onların yüz min müzəffər qoşunu var, bu yüz minin arxasında isə bir milyon qoşun var; fitilləri yandırılmış, topları ağızlarını açmışdır, imperator qvardiyası və böyük ordu artıq onların ayaqları altındadır, onlar indicə Napoleonu yıxmışlar, ancaq Kambron qalmışdır; etiraz etmək üçün yalnız bu aciz soxulcan qalmışdır. O susmayacaq, o etiraz edəcək! Etiraz etmək üçün o, şpaqa seçilən kimi, söz seçir. Kambronun ağzı tüpürcəklə dolur, ona lazım olan söz də həmin bu tüpürcəkdir. O, bütün ümidləri qırılan bu şəxs, bu böyük və miskin qələbə qarşısında, qalibləri olmayan bu qələbə qarşısında ruhlanır, coşur, bu qələbənin dəhşətli ağırlığını daşıyan da odur, onun bir heç olduğunu etiraf edən də odur. O, qələbəyə yalnız tüpürmək deyil, say, qüvvə və kobud materiyanın təzyiqi altında üzülərək, öz qəlbində mənfur bir şeyi ifadə edən bir kəlmə tapır. Təkrar edirik, bu kəlməni söyləmək, bunu tapmaq, bunu etmək qalib olmaq deməkdir!

Bu fəlakətli dəqiqədə böyük günlərin ruhu bu naməlum şəxsin qəlbinə girmişdi. Ruje de Lil "Marselyoza"nı tapdığı kimi, Kambron da Vaterloonu təcəssüm edən bu sözü tapmışdı – buna səbəb Tanrının verdiyi ilham idi. İlahi bir tufanın nəfəsi bu insanlara çatmış, onları vurmuş, sarsıtmışdı, onlar titrəmişdilər, bu insanlardan biri müqəddəs bir nəğmə oxumuş, o biri isə dəhşətli bir fəryad qoparmışdı. Bu titanik bir nifrət ifadəsi idi ki, Kambron bunu yalnız imperiyanın adından Avropaya deyil – bu, əlbəttə, kifayət etməzdi – inqilab adından keçmişin üzünə çırpmışdı. Onun səsini eşitdilər. Kambronda keçmiş zamanların nəhəng insanlarının ruhu olduğunu anladılar. Sanki, Danton yenidən dil açmışdı və ya Kleber nərə çəkirdi.

Kambronun söylədiyi bu sözə cavab olaraq, ingilisin səsi "Atəş!" deyə komanda verdi. Batareyalar guruldadı, təpə sarsıldı, bu mis ağızlar son dəfə öldürücü çarpana fırlatdılar; doğan Ayın işığından gümüş rəng almış qalın bir tüstü qalxdı, o çəkildikdən sonra isə hər bir şey yox oldu. Qorxunc ordunun qalıqları məhv edilmiş, qvardiya ölmüşdü. Canlı redutun dörd divarı hərəkətsiz halda yerə sərilmişdi, yalnız arabir meyitlərin arasında bir titrəyiş duyulurdu. Roma lejionlarından da əzəmətli olan fransız lejionları belə məhv oldular. Onlar Mon-Sen-Jan platosunda, yağışdan və qandan islanmış torpaq üzərində, kömür kimi qaralmış sünbüllər arasında məhv oldular. İndi o yerdən səhər saat dörddə Nivelə gedən poçt karetasının arabaçısı Jozef fit çala-çala və atını ləzzətlə qamçılayaraq keçməkdədir.

On altıncı fəsil

QUT LİBRAS İN DUEL?[1]

Vaterloo vuruşması bir müəmmadır. Bu vuruşma istər qalib gələnlər, istərsə məğlub olanlar üçün eyni dərəcədə anlaşılmaz idi. Napoleon üçün bu bir vəlvələ idi[2], Blüxerin nəzərində bu, başdanbaşa bir atışma idi. Vellinqton isə bundan heç bir şey başa düşə bilmir. Raportları nəzərdən keçirə bilərsiniz. Verilən məlumat dumanlı, izahat dolaşıqdır. Bəzilərinin dili tutulur, bəzilərinin isə dili dolaşır. Jomini Vaterloo vuruşmasını dörd dövrə bölür; Muflinqə görə, vuruşma üç epizoddan ibarətdir; yalnız Şaras, bəzi fikirləri ilə və hadisələrə verdiyi qiymətlərlə şərik olmasaq belə – insan dühasının Tanrının təyin etdiyi bir təsadüflə mübarizədə düçar olduğu bu fəlakətin səciyyəvi əlamətlərini öz doğru baxışı ilə düzgün görə bilmişdir. Qalan tarixçilərin hamısı isə, gözlərinə bir növ pərdə çəkilmiş olduğundan, gözübağlı hərəkət edir. Həqiqətən, o gün ildırım çaxması kimi bir şey idi bu, hərbi mütləqiyyətin süqutu demək idi, bu süqut kralların böyük heyrətinə səbəb olaraq bütün kral hakimiyyətlərini də öz arxasınca sürükləmişdi, bu, qüvvətin süqutu, müharibənin məğlubiyyəti idi.

---

[1] Sərkərdənin qiyməti nədir? (*lat.*)

[2] "Qurtarmış bir döyüş, tamama yetmiş bir gün, yanlış tədbirlərin düzəlişi, sabah üçün təmin edilmiş böyük müvəffəqiyyət, xülasə, hər bir şey ani bir vəlvələ sayəsində məhv oldu" (*Napoleon. Xatirələr*).

Ali bir zərurət əlaməti daşıyan bu hadisədə insan heç bir rol oynamamışdı.

Məgər Vellinqtonu və Blüxeri Vaterloodan məhrum etmək İngiltərə və Almaniyanı bir şeydən məhrum etmək deməkdir? Xeyr! Vaterloo məsələsi müzakirə edilərkən, söhbət nə şanlı İngiltərədən gedir, nə də əzəmətli Almaniyadan. Şükür olsun Allaha ki, xalqların böyüklüyü qılınc və şpaqanın ələmli sərgüzəştlərindən asılı deyildir. Almaniya, İngiltərə və Fransanın şərəfi silah gücündə deyildir. Vaterloo qılınc şaqqırtısından başqa bir şey olmadığı dövrdə, Almaniyada Blüxerin üzərində Höte, İngiltərədə isə Vellinqtonun üzərində Bayron yüksəlirdi. Çoxlu ideyaların baş verməsi bizim əsrin xüsusiyyətidir; bu səhər şəfəqinin gözqamaşdırıcı işığına İngiltərənin də, Almaniyanın da parlaq şüaları qarışmışdır. İngiltərə və Almaniya əzəmətlə doludur, çünki onlar düşünürlər. Mədəniyyət səviyyəsinin yüksəlməsi onların təbii xassəsidir, onların mahiyyətindən doğur və qətiyyən təsadüfdən asılı deyildir. Onların XIX əsrdə yüksəlməsinə səbəb heç də Vaterloo olmamışdı. Yalnız barbar xalqlar qələbə qazandıqdan sonra birdən-birə yüksəlirlər. Tufandan sonra sellər də bir müddət üçün şişər, şiddətlənər. Mədəni xalqlar, xüsusilə yaşadığımız bu dövrdə bir sərkərdənin müvəffəqiyyət qazanıb-qazanmamasından asılı olaraq yüksəlməz və enməzlər. Onların xalqlar ailəsindəki vəzni vuruşmadan daha mühüm şeylərin nəticəsidir. Şükür olsun Allaha, onların namusu, şərəfi, ürfan və dühası qəhrəmanların və fatehlərin, yəni qumarbazların vuruşma lotereyalarında udmaq fikrində olduqları uduş bileti deyildir. Belə təsadüflər olur ki, vuruşmada məğlub olan bir xalq, tərəqqidə qalib gəlir. Şərəf və şöhrət az olsa da, azadlıq çox olur. Təbil səsi susur, idrakın səsi ucalır. Bu, elə bir oyundur ki, burada udan uduzandır. Vaterloonu soyuqqanlılıqla iki nöqteyinəzərdən müzakirə edək. Təsadüf olan şeyi təsadüfün ayağına, Allahın əmri olan şeyi isə Allahın ayağına yazaq. Vaterloo nədir? Qələbəmi? Xeyr. Bu – çalğıda zil sim kimi bir şeydir.

Uduş Avropaya çatdı, lakin pulunu Fransa verməyə məcbur oldu. Orada aslan heykəlini qoymağına dəyməzdi.

Hər halda, Vaterloo tarixin ən qəribə toqquşmalarından biridir. Napoleon və Vellinqton. Bunlar düşmən deyil, bir-birinin əksidir. Antitezaları sevən Allah heç bir zaman bu qədər təsirli bir təzad, bu qədər fövqəladə bir görüş yaratmamışdır. Bir tərəfdə – dəqiqlik,

riyazi bir mülahizə, ehtiyatlılıq, təmin edilmiş geriyə çəkilmə yolları, mühafizə edilmiş ehtiyat qüvvələri, sarsılmaz bir soyuqqanlılıq, pozulmaz bir ardıcıllıq, məkandan mənfəətbərdar olan strategiya, batalyonları müvazinətdə saxlayan bir taktika, təyin edilmiş qaydalara ciddiyyətlə riayət edən bir qırğın, saata baxa-baxa aparılan bir müharibə, təsadüfə heç bir ümid bəsləməmək, əski klassik bir cəsarət, heç bir səhvə yol verməmək: o biri tərəfdə isə – qəzaya inanmaq, xüsusi bir hərbi sənətkarlıq, qeyri-insani bir duyğu, parlaq bir nəzər, qartal kimi uzaqgörən və ildırım kimi vuran bir şey, təkəbbürlü bir qızğınlıqla uyuşan gözəl bir məharət, dərin bir qəlbin bütün sirləri, fələklə bağlanan bir əhdnamə, bir yerdə birləşdirilmiş və sanki, itaətə məcbur edilmiş bir çay, bir düz, bir meşə, bir təpə, öz istibdadına döyüş meydanlarını belə, tabe etdirən bir müstəbid, özü yüksəldib və özü pərişan etdiyi bir strategiya elmi ilə qarışıq olaraq öz bəxt ulduzuna bəslənilən bir inam. Vellinqton – müharibənin Baremi, Napoleon isə müharibənin Mikelancelosu deməkdir, lakin bu dəfə mülahizə dühaya qalib gəlmişdi.

Hər ikisi kimi isə gözləyirdi. Düz mülahizə yürüdən zəfər qazandı. Napoleon Qruşini gözləyirdi – Qruşi gəlmədi. Vellinqton Blüxeri gözləyirdi – o gəldi.

Vellinqton – keçmiş bir itki üçün intiqam alan klassik bir müharibədir. Napoleon hərbi karyerasının ilk günlərində İtaliyada belə bir müharibəyə təsadüf etmiş və parlaq bir qələbə qazanmışdı. Qoca bayquş cavan qırğı qarşısında təslim olmuşdu. Əvvəlki taktika yalnız tar-mar olmamışdı, o rüsvay olmuşdu. Bu iyirmi altı yaşlı korsikalı, əleyhinə hər bir şey olduğu halda, lehinə heç bir şeyi olmayan, ərzağı, hərbi sursatı, topu, ayaqqabısı, az qala, ordusu olmayan bir dəstə adamla böyük qoşunların qabağına çıxdı, Avropanın bütün birləşmiş qüvvələrinə hücum edən və qətiyyən mümkün olmayan bir yerdə ən mənasız bir şəkildə qələbə qazanan bu ehtişamlı cahil kim idi? Demək olar ki, nəfəsini belə almadan və eyni imkanlarla alman imperatorunun beş ordusunu bir-bir dağıdıb, Alvisin arxasınca Bolyeni, Bolyenin arxasınca Vürmseri, Vürmserin arxasınca Melası, Melasın arxasınca Makkı məğlub edən bu qorxunc dəli haradan gəlmişdi? Birinci dəfə döyüşə girdiyi halda, bir günəş kimi özünə cəsarətlə güvənən bu şəxs kim idi? Akademik hərbi sənət məktəbi onu rədd etmiş və bununla da öz acizliyini sübut etmişdi. Əski sezarçılığın yeniliyə

qarşı dərin nifrət və kin bəsləməsi, odlu bir qılınca qarşı təlimə öyrəşmiş bir qılıncın kini, dühaya qarşı şahmat taxtasının kini bax bundan irəli gəlirdi. 1815-ci il iyunun 18-də son söz bu inadlı kinin idi, o da Lodi, Montebello, Montenot, Mantuey, Marenqo və Arkolem vuruşmalarında ancaq bir söz həkk etmişdi – "Vaterloo". Vaterloo əksəriyyətə xoş olan bir adilik təntənəsi idi. Tale bu istehzaya yol verdi. Həyat və şöhrətinin söndüyü günlərdə Napoleon yenə gənc Vürmserlə qabaq-qabağa gəldi.

Həqiqi Vürmseri yaratmaq üçün Vellinqtonun saçlarını ağartmaq kifayət edirdi.

Vaterloo vuruşmasında heyran və məftun olmalı bir şey varsa, o da İngiltərə, ingilis səbatkarlığı, ingilis qətiyyəti, ingilis temperamentidir. Bu vuruşmada ən ehtişamlı bir şey – acığı tutmasın – İngiltərənin özü idi. Onun sərkərdəsi deyil, onun ordusu idi.

Vellinqton lord Batkerstə yazdığı bir məktubunda böyük naşükürlük göstərərək yazır ki, onun ordusu, yəni 1815-ci ilin 18 iyununda vuruşan ingilis ordusu "iyrənc bir ordu" idi. Bəs Vaterloo düzlərində dəfn edilmiş insan sümüklərinin ələmli yığınları bu barədə nə fikirdədir?

İngiltərə Vellinqton məsələsində həddindən artıq təvazökar olmuşdur. Vellinqtonu bu cür yüksəltmək – İngiltərəni alçaltmaq deməkdir. Vellinqton da başqaları kimi adi bir qəhrəmandır, ancaq bu qədər. Bəs bu boz şotlandiyalılar, bu Metlendin və Mitçelin polkları, Ponsonbi və Sommersetin süvariləri, çarpanaq yağarkən tütək çalan bu dağlılar, bu Rilandt batalyonları hələ silah işlətməyə vərdiş etməyən, lakin Eslinq və Rivoli kimi təcrübəli döyüşçüləri dəf etməyi bacaran bu cavan əsgərlər – bax əzəmət bunlardadır. Vellinqton səbat göstərdi, onun xidməti bundadır, bunu biz inkar etmirik, lakin onun ən görkəmsiz bir piyadası, yaxud süvarisi ondan az möhkəm olmamışdır. Dəmir əsgərlər öz dəmir hersoqlarına layiq idi. Bizə gəlincə, biz bütün afərinlərimizi ingilis əsgərinə veririk. Qələbə üçün heykəl qoyulmağa layiq olan varsa, o da İngiltərədir. Vaterloo sütunu bir nəfərin əvəzində xalqı təcəssüm edən bir heykəli buludlara doğru yüksəltmiş olsaydı, daha düzgün olardı.

Lakin bizim sözlərimiz bu böyük İngiltərəni hiddətləndirə bilər. İngiltərənin 1688-ci ili, bizim isə 1789-cu ilimiz olmasına baxmayaraq, o, yenə də öz feodalizm xəyallarından əl çəkməmişdir. İngiltərə

yenə də irsiyyət hüququna və iyerarxiyaya inanmaqda davam edir. Qüdrətdə və şöhrətdə heç kəsin üstün gələ bilmədiyi bu xalq, özünə bir xalq kimi deyil, bir millət kimi hörmət edir. Bir xalq kimi o, könüllü surətdə lorda tabe olur, lordu ağa deyə tanıyır. Bir fəhlə kimi o, özünə həqarətlə baxılmasına yol verir, bir əsgər kimi özünün ağacla döyülməsinə yol verir.

Unudulmamalıdır ki, İnkerman vuruşmasından sonra, məlum olduğu kimi, ordunu xilas etmiş olan bir serjantın adı lord Raqlan tərəfindən çəkilə bilmədi, çünki ingilis hərbi iyerarxiyası zabit rütbəsi olmayan qəhrəmanları raporta daxil etməyə yol vermir.

Lakin Vaterloo vuruşmasında bizim ən çox heyrətimizə səbəb olan bir şey varsa, o da təsadüfün göstərdiyi qəribə bir məharətdir. Gecə yağış yağması, Huqomon divarı, Oen yolu, top səsini eşitməyən Qruşi, Napoleonu aldadan bələdçi, Bülova düz yolu göstərən bələdçi – bütün bu təbii fəlakətlər gözəl hazırlanmış və həyata keçirilmişdi.

Nəticədə isə bunu da qeyd etməliyik ki, Vaterloo vuruşması döyüşdən artıq qırğına bənzəyirdi.

Qəbul edilən qaydalara görə hazırlanan vuruşmalar sırasında Vaterloo cəbhəsinin uzunluğu vuruşanların sayına nisbətən çox az idi. Napoleonun cəbhəsi üç çərək mil olduğu halda, Vellinqtonun cəbhəsi yarım mil qədərdir, hər tərəfdə isə yetmiş iki min adam vuruşurdu. Bu darısqallığın nəticəsində də qırğın əmələ gəlmişdi.

İtkilər hesablandıqdan sonra belə bir tənasüb olduğu aydınlaşmışdır. Austerlisdə insan tələfatı bu qədərdir: fransızların tələfatı on dörd faiz, rusların tələfatı otuz faiz, avstriyalıların tələfatı qırx dörd faiz təşkil edir; Vaqramda fransızların on üç faiz, avstriyalıların on dörd faiz tələfatı olmuşdur. Moskva altında fransızların otuz yeddi faiz, rusların qırx dörd faiz tələfatı olmuşdur. Bausendə fransızların on üç faiz, rusların və prussiyalıların on dörd faiz, Vaterlooda fransızların əlli altı faiz, müttəfiqlərin otuz bir faiz tələfatı olmuşdur. Vaterloo vuruşmasındakı tələfatın ümumi yekunu qırx bir faizdir. Vuruşan yüz qırx dörd min nəfər, ölən altmış min nəfər.

Bu gün Vaterloo düzü insanın hissiz bir istinadgahı olan torpağa məxsus bir sükunətlə nəfəs alır, artıq Vaterloo adi bir düzə bənzəyir.

Lakin gecələr bu düzü xəfif duman bürüyür və bu yerləri dolaşan bir yolçu diqqət etməyə, qulaq asmağa başlarsa, ələmli Filippin

düzlərində Vergili kimi xəyalata dalarsa, onu qara basar, bu fəlakətdə iştirak etdiyini zənn edər. Yolçunun gözləri qarşısında yenə dəhşətli 18 iyun günü canlanar, bu tökmə təpə, bu heykəl yox olar, aslan gözdən itər, döyüş meydanı yenə və həqiqi siması ilə görünər, düzlərdə piyada sıraları dalğalanar, üfüqlərdə sürətlə atlılar çapar, sarsılan xəyalpərəstin gözləri qarşısında qılınclar parlar, süngülər işıldar, partlayan bombalar od saçar, göylər səs-səsə verib guruldar, yolçu məzarların dərinliyindən gələn xırıltı səslərini, xəyali bir döyüşün xəfif bır gurultusunu eşidər; bax bu kölgələr fransız qrenadyorlarıdır, bu göz qırpan işıqlar ingilis kirasirləridir, bu skelet – Napoleon, bu skelet isə – Vellinqtondur. Hər şey çoxdan çürüyüb torpağa dönmüşdür, lakin yenə də vuruşma və mübarizə davam edir, dərələr qanla boyanır, ağaclar titrəyir, qızğın bir vuruşmanın iztirabları göylərə yüksəlir və qaranlığın arasından bu məşum təpələr, bir-birini qırmaqda olan kabusların yığın-yığın yerləşdiyi Mon-Sen-Jan, Huqomon, Frişmon, Papelot və Plansenua görünür.

On yeddinci fəsil

VATERLOONU MÜSBƏT HADİSƏ HESAB ETMƏK OLARMI?

Vaterloonu heç də pisləməyən çox hörmətli liberal bir məktəb vardır. Biz bu məktəbə mənsub deyilik, bizim üçün Vaterloo – yalnız qəribə bir azadlıq günüdür. Belə bir yumurtadan belə bir qartalın çıxa bilməsi tamamilə gözlənilməyən bir şey idi.

Əslində, Vaterloo öz qayəsi etibarilə əksinqilabın qələbəsi olmalı idi. Fransaya qarşı Avropa, Parisə qarşı Peterburq, Berlin, Vyana dururdu. Bu – təşəbbüsə qarşı bir *status quo*[1] demək idi; bu – 1815-ci il 20 mart vasitəsilə 1789-cu ilin 14 iyuluna hücum demək idi; bu – fransızların cilovlana bilməyən üsyankar ruhuna qarşı monarxist dövlətlərin hərb açması üçün bir işarə idi. Böyük bir xalqı cilovlamaq, iyirmi altı ildən bəri davam edən bu yanar dağı söndürmək, – arzu edilən şey bu idi. Braunşveyqlərin, Nassauların, Romanovların, Hogensollernlərin, Habsburqların Burbonlarla həmrəy olduğu burada

[1] Mövcud vəziyyət, durğunluq (*lat.*)

meydana çıxmışdı. Vaterloo "müqəddəs hüquq"u öz boynunda daşıyırdı. Doğrudur, imperiya müstəbiddirsə, kral hakimiyyəti, təbii reaksiya qanununa görə, zərurət etibarilə liberal olmalı idi və qaliblər bunu böyük bir təəssüflə qarşılasalar da, Vaterloonun təbii nəticəsi konstitusiya üsuli-idarəsi oldu. Axı inqilaba axıra qədər qalib gəlmək mümkün deyildir; inqilab qabaqcadan müəyyən edildiyindən və tamamilə labüd olduğundan, hər zaman – Vaterlooya qədər köhnə tac və taxtları yıxan Bonapart simasında, Vaterloodan sonra isə xartiyanı bəxş edən və özü buna tabe olan XVIII Lüdovik simasında yenidən baş verir. Bonapart bərabərliyi sübut etmək üçün bərabərsizlikdən istifadə edərək Neapol taxtına foreytoru, İsveç taxtına serjantı əyləşdirir. XVIII Lüdovik isə Sent-Ulendə insan hüquqlarının deklarasiyasını imzalayır. İnqilabın nə olduğunu bilmək istəyirsinizsə, onun adını Tərəqqi qoyun, tərəqqinin nə olduğunu öyrənməyi arzu edirsinizsə, onu Sabah adlandırın. Bu Sabah qabağı alına bilmədən öz işini görür və bu işi elə bu gündən başlayır. Ən xariqüladə bir vasitə ilə olsa da, o, hər zaman öz məqsədinə nail olur. Bu Sabah, Vellinqtondan istifadə edərək, adi bir əsgərdən başqa bir şey olmayan Fuanı natiq edir... Fua Huqomonda yerə yıxıldığı halda, yenidən tribunaya qalxır. Tərəqqinin işi belədir. Bu fəhlə üçün yaramayan bir alət yoxdur. O, öz ilahi işi üçün heç də sıxılmadan istər Alp dağlarını aşan bir insandan, istərsə qədim Tövrat kitabındakı Yeliseyin diriltdiyi və ayağı üstə möhkəm dayana bilməyən cansız bir qocadan istifadə edir. O, podaqra xəstəsindən istifadə etdiyi kimi, fatehdən də istifadə edir; fateh ona öz məqsədlərinə xaricdə nail olmaq üçün, podaqra xəstəsi isə eyni məqsədlərə daxildə nail olmaq üçün lazımdır. Avropa taxtlarını dağıdan qılıncı bir zərbə ilə heçə döndərən Vaterloonun nəticəsi bu olmuşdu ki, inqilab işi başqalarının əlinə keçmişdi. Əsgərlər öz işlərini qurtarmışdılar. İndi növbə mütəfəkkirlərin idi. Vaterloo bir əsrin hərəkətini dayandırmaq istəyirdi, o əsr isə Vaterloonu aşaraq, yoluna davam etdi. Bu ələmli qələbəyə də azadlıq qalib gəlmişdi.

Bir sözlə, şübhə edilməyəcək yalnız bir şey var. Vaterloo vuruşmasının zəfər çalan nə varsa, Vellinqtonun arxasında şadlığından gülən, ona necə deyərlər – Fransa da daxil olmaq üzrə – bütün Avropanın marşal əsalarını təqdim edən, aslan heykəlinə təpə hazırlamaq üçün ölülərin sümüyü ilə qarışıq torpağı balaca arabalara doldurub

şadlıqla daşıyan, bu pyedestal üzərində "1815-ci il 18 iyun" sözlərini müzəffər bir şəkildə yazan, geriyə çəkilənləri qılıncdan keçirmək üçün Blüxeri təşviq edən, Mon-Sen-Jan yaylası yüksəkliyindən, sanki, qapmaq istədiyi bir ov üzərində əyilən kimi, Fransa üzərində əyilən nə vardısa – "parçalamaq" kimi mənfur bir sözü pıçıldayan əksinqilabdan başqa bir şey deyildi. Əksinqilab Parisə gəldikdən sonra, yanar dağın kraterini yaxından görmüş və külün ayaqlarını yandırdığını hiss edərək, ağlı başına gəlmişdi. O, yenə xartiyanın pəltək dili ilə danışmağa başlamışdı.

Vaterlooda yalnız Vaterloonu görməyə çalışmalıyıq. Azadlıq qazanmaq heç də onun əvvəlcədən təyin edilmiş məqsədi deyildi. Napoleon yararlı bir fenomen sayəsində istər-istəməz inqilabçı olduğu kimi, əksinqilab da istər-istəməz liberal olmuşdu. 1815-ci il iyulun 18-də bu yeni Robespyer atından yerə düşürülmüşdü.

On səkkizinci fəsil

MÜQƏDDƏS HÜQUQUN BƏRPA EDİLMƏSİ

Diktaturaya son verildi. Bütün Avropa sistemi dağıldı.

Məhv olan antik dünya kimi, imperiya da zülmətə çökdü. Barbarlıq zamanlarında olduğu kimi, uçurumdan belə, çıxıb yüksəlmək olar. Lakin qısaca əksinqilab adlanan 1815-ci il barbarlarının nəfəsi çatmadı, o, tez tövşüdü və dayandı. Etiraf edilməlidir ki, İmperiya üçün ağlayanlar yox deyildi, həm də bu ağlayanlar qəhrəman insanlar idi. Əgər şöhrət skipetrə çevrilmiş bir qılıncdan ibarətsə, imperiyanın özü şöhrət idi. O, istibdadın saçmaq iqtidarında olduğu bütün işığı yer üzünə yayırdı, ancaq bu işıq qorxunc bir işıq idi. Həqiqi işığa nisbətən bu, gecə sayıla bilərdi. Lakin bu gecənin yox olması günəşin tutulması təsirini bağışlamışdı.

XVIII Lüdovik Parisə qayıtdı. 8 iyul xor mahnıları 20 mart heyrətlərini unutdurdu. Korsikalı Bearnlının əksi oldu. Tüilri qübbəsi üzərində ağ bayraq ucaldı. Sürgündən qayıdanların səltənəti başladı. Qartveldən gətirdilmiş küknar ağacından düzəldilmiş masa XIV Lüdovikin zanbaqlarla bəzənmiş kreslosunun qarşısında yerləşdirildi.

Austerlis köhnəlmiş olduğundan, Buvindən və Fontenuadan danışmağa başladılar, sanki, bu qələbələr elə dünən qazanılmışdı. Taxt və mehrab təntənəli surətdə qardaşlıq ittifaqı bağladılar. On doqquzuncu əsrdə ən çox yayılmış ictimai rifah formalarından biri Fransada və qitədə yer tutdu. Avropa ağ kokarda taxdı. Trestalyon şöhrət qazandı. Çay qırağındakı Orsey kazarmasının fasadında günəşi təmsil edən daş şüaların arasında yenə *non pluribus umpar*[1] devizi göründü. Vaxtilə imperator qvardiyasının yerləşdiyi binada artıq muşketyorlar yerləşdilər. Karusel meydanında, sanki, xəstələnmiş qələbə təsvirləri ilə bəzənmiş zəfər tağı bütün bu yeniliklərdən çaşıb qalaraq, ola bilsin ki, hətta Marenqo və Arkol qarşısında bir az utanırmış kimi, hersoq d'Anqulemin heykəli sayəsində bu çətin vəziyyətdən xilas ola bildi.

Madlen qəbiristanlığı, 93-cü ilin bu dəhşətli qardaş məzarı mərmər və yəşəm daşı ilə bəzəndi, çünki XVI Lüdovikin və Mariya-Antuanettanın külü onun torpağına qarışmışdı. Vensen xəndəyinin dərinliyindən üstü kəsik bir məzar sütunu qaldırıldı, bu sütun hersoq d'Engienin Napoleon başına tac qoyduğu ayda vəfat etdiyini xatırladırdı. Onun ölümündən bir az əvvəl bu cülus mərasimini keçirən papa VII Piy, yüksəlişi alqışladığı eyni bir sakitliklə süqutu da alqışlamışdı. Şenbrunda dörd yaşında balaca bir kabus göründü ki, bunu Roma kralı adlandırmaq dövlət cinayəti sayılırdı. Bütün bu hadisələr ona görə baş verdi, bütün krallar ona görə yenə öz yerlərində əyləşdilər. Avropanın hökmdarı ona görə zindana salındı, köhnə hökumət forması ona görə yeni bir formaya çevrildi, əvvəllər nur sayılan hər bir şey, habelə qaranlıq sayılan hər bir şey ona görə öz yerlərini dəyişdilər ki, bir dəfə, yay günü günortadan bir az sonra bir çoban meşədə rast gəldiyi bir prussiyalıya: "Oradan yox, buradan keçin" demişdi.

Bu 1815-ci il tutqun aprel günlərinə bənzəyirdi. Köhnə, zəhərli və xəstə varlıq baharda təzələnən təbiət kimi görünürdü. Yalan 1789-cu il ilə izdivac etdi; "müqəddəs hüquq" xartiya ilə pərdələndi; olmayan bir şey özünü konstitusiya kimi qələmə verdi; mövhumat, xurafat və gizli niyyətlər 14-cü maddəyə ümid bağlayaraq, rənglərini dəyişdilər, liberalizm boyasını üstlərinə çəkdilər. İlanlar da öz dərilərini belə dəyişir.

[1] Hər şeydən uca (*lat.*) – "Günəş – kral" adlanan XIV Lüdovikin devizidir.

Napoleon eyni zamanda insanı həm yüksəltmiş, həm də alçaltmışdı. Maddiyyatın bu ehtişamlı hakimiyyəti illərində ideal qəribə bir ad – ideologiya adını aldı. Gələcəyin rüsvay edilməsinə yol verməklə bu böyük insan nə qədər ehtiyatsızlıq etmişdi! Halbuki xalq – öz topçusuna məftun olan bu top qurbanları həsrətli gözlərlə onu axtarırdı. O haradadır, o nə edir? Bir yolçu Marenqo və Vaterloo vuruşmalarında iştirak etmiş bir əlilə: "Napoleon ölmüşdür" – demişdi. Əsgər heyrətlə: "Napoleon da ölərmi? – deyə bağırmışdı. – Siz heç bir şey bilmirsiniz". Yerlə yeksan olan bu qəhrəmanı xalq öz xəyalında allah dərəcəsinə yüksəltmişdi. Vaterloodan sonra Avropa üzərinə zülmət çökdü. Napoleonun yox olması ilə uzun müddət böyük, açıq bir boşluq hiss olunurdu.

Krallar da, güzgüyə baxan kimi, bu boşluğa baxırdılar. Köhnə Avropa özünü islah etmək üçün bu boşluqdan istifadə etdi. Müqəddəs ittifaq doğdu. Faciəli Vaterloo düzü əvvəlcədən öz "gözəl ittifaqı"[1] ilə bunu xəbər vermişdi[1].

Bu köhnə, islah edilmiş Avropanın siması qarşısında yeni Fransanın cizgiləri görünməyə başladı. İmperatorun rüsvay etdiyi gələcək öz hüququnu əlinə alırdı. Onun alnında bir ulduz – Azadlıq ulduzu parlayırdı. Gənc nəsil məftun nəzərlərini bu ulduza doğru çevirdi. Çox qəribədir: eyni zamanda həm bu gələcək – Azadlıq, həm də keçmiş – Napoleon insanları cəlb edirdi. Məğlubiyyət məğlub olanı yüksəltmişdi. Süqut edən Bonapart şan və şərəf günlərindəki Napoleondan uca görünürdü. Qaliblər qorxuya düşdülər. İngiltərə Bonapartın keşiyini Qudson Louya, Fransa isə ona nəzarət etməyi Monşenüyə tapşırdı. Onun sakitcə qollarını döşündə çarpazlaması kralları narahat edirdi: Aleksandr onu "mənim yuxusuz gecələrim" adlandırmışdı. Bu qorxu onda mövcud olan bir inqilabçılıq ruhundan doğurdu. Bonapartist liberalizminin mənası və bəraəti də bundadır. Bu kabus köhnə dünyanı titrəməyə məcbur edirdi. Üfüqlərdə müqəddəs Yelena qayası göründükcə, krallar səltənətdən həzz ala bilmirdilər.

Napoleon Lonqvudda dustaq olduğu zaman, Vaterloo düzündə həlak olmuş altmış min nəfər yerin altında sakitcə çürüyürdü və

[1] *Sainte Alliance* – Müqəddəs ittifaq deməkdir. *Bella Allianee* ("Bel-Alyans") – "gözəl ittifaq" deməkdir. "Gözəl ittifaq" isə Vaterloo vuruşmasında Napoleonun üçüncü döyüş yeri, o yerdə ki karvansaranın və təpənin adı idi.

onların sakitliyinin bir hissəsi bütün dünyaya yayılırdı. Vyana konqresi bunun təsiri altında 1815-ci il traktatlarını yaratdı və Avropa onu Restavrasiya adlandırdı.

Vaterloo belə bir şey idi.

Lakin əbədiyyətin Vaterloo ilə nə işi var? Bütün bu tufan, bu qara bulud, bu hərb, sonra isə bu sülh, bütün bu zülmət bir yarpaqdan o biri yarpağa keçən bir ot bitinin Paris Notrdam kilsəsinin bir zəng qülləsindən o biri zəng qülləsinə uçan bir qartala bərabər tutan o böyük çeşmin nurunu bir an belə söndürə bilmədi.

On doqquzuncu fəsil

DÖYÜŞ MEYDANI GECƏ VAXTINDA

Yenə fəlakətli döyüş meydanına qayıdaq. Kitabımız bunu tələb edir.

1815-ci il iyunun 18-də ay bədirlənmişdi. Gecənin aydınlığı Blüxerin qızğın təqibi üçün əlverişli idi, ay qaçqınların izlərini göstərir, bədbəxt qoşunları yırtıcı prus kavaleriyasının əlinə təslim edir, qırğın üçün imkan yaradırdı. Bəzən fəlakət zamanı gecənin zalımlara bu dəhşətli köməkçiliyini görmək olar.

Son top atəşi susduğu zaman Mon-Sen-Jan düzü boşaldı.

İngilislər fransızların düşərgəsini ələ keçirdilər, məğlub edilən düşmənin düşərgəsində gecələmək qaliblərin adətidir. Onlar öz çadırlarını Rossomun o biri tərəfində qurdular. Təqibə başları qarışmış prussiyalılar daha uzaqlara getmişdilər. Vellinqton lord Batkerstə raport hazırlamaq üçün Vaterloo kəndinə doğru hərəkət etdi.

Sic vos non vobis[1] kəlamını müvəffəqiyyətlə Vaterloo kəndinə tətbiq etmək olar. Orada heç bir vuruşma olmamışdı; kənd döyüş meydanından yarım millik bir məsafədə yerləşmişdir. Mon-Sen-Jan top atəşinə tutulmuşdu. Huqomon yandırılmışdı, Papelot yandırılmışdı, Plansenua yandırılmışdı. Ge-Sent hücumla alınmışdı. Bel-Alyans iki qalibin dostcasına qucaqlaşmalarının şahidi idi, lakin bütün bu yerlərin adı hafizədə dumanlı bir şəkildə qalmışdı, şərəflər

[1] "Demək siz özünüzdən ötrü deyilsiniz" (*lat.*). Vergiliyə istinad edilən şeirin başlanğıcıdır.

isə döyüş meydanından kənarda olan Vaterloo kəndinin payına düşmüşdü.

Biz hərb pərəstişkarlarından deyilik. Yeri gələndə biz həmişə həqiqəti müharibənin gözünün içinə söyləməyə hazırıq. Müharibənin də özünəməxsus qorxunc bir gözəlliyi var, biz bunu gizlətmirik, lakin etiraf etməliyik ki, onun özünəməxsus eybəcərliyi də var. Bu eybəcərliyin ən murdar şəkillərindən biri – qələbədən sonra meyitlərin tələsik qarət edilməsidir. Vuruşmadan sonra açılan səhər, adətən, çılpaq cənazələri işıqlandırır.

Bu meyitləri qarət edən kimdir? Qələbənin təntənəsini bu cür rüsvay edənlər kimdir? Oğrun-oğrun qələbənin cibinə girən bu murdar əl kimin əlidir? Şöhrət arxasında öz fırıldaqlarını işlədən alçaqlar kimlərdir? Bəzi filosoflar, o cümlədən Volter, belə iddia edirlər ki, bu alçaqlar şöhrət yaradıcılarının özləridir. Onlar deyirlər ki, bu qarətkarlar əsgərlərdir, başqa adam deyil, deyirlər ki, sağ qalanlar ölüləri qarət edirlər. Gündüz qəhrəman olanlar gecə qaniçən xortdana dönürlər. Guya, onların yerə sərdikləri ölülərə yüngülcə əl gəzdirməyə bir qədər haqları da var. Biz isə başqa fikirdəyik. Şərəf və şöhrət qazanan bir əl, eyni zamanda ölüləri soyub, çəkmələrini çıxarda bilməz.

Bununla belə, həmişə qaliblərin dalınca qarətkarların xəlvətcə süründüyü bir həqiqətdir. Lakin əsgərlərin, xüsusilə müasir əsgərlərin bu qarətlə heç bir əlaqəsi yoxdur.

Hər bir ordunun dalınca bir quyruq sürünür. Müqəssirləri də burada axtarmaq lazımdır. Təbiətcə yarasalara bənzəyən bu insanlar, bu yarımquldur və yarımnökərlər, müharibə adlanan alaqaranlığın doğurduğu bu növbənöv yarasalar, hərbi mundirlər geyinən, lakin heç bir zaman vuruşmayan insanlar, yalançı xəstələr, kinli axsaqlar, bəzən hətta öz arvadları ilə arabalarda dolaşan və özlərinin satdıqları şeyləri oğurlayan markitantlar[1], zabitlərə bələdçilik etməyi təklif edən dilənçilər, ərzaq arabalarının xidmətçiləri, soyğunçular – bir sözlə, bütün bu zirzibil keçmiş orduların arxasınca sürünərdi (biz müasir orduları nəzərdə tutmuruq) və buna görə də xüsusi bir dildə onlara "sürünənlər" adı verilmişdi. Heç bir ordu və heç bir millət onlar üçün məsuliyyət daşımır. Onlar italyanca danışdıqları halda, almanların dalınca sürünərdi; fransızca danışdıqları halda, ingilislərin dalınca gedərdi. Həmin bu xainlərdən birisi olan və fransızca dolaşıq bir

[1] *Markitant* – orduda ərzaq satan adamlar

pikard şivəsində danışan bir ispan "sürünəni" onun fransız olduğunu zənn edən markiz de Fervakı aldatmışdı. Markiz qələbədən sonrakı gecə Serizol vuruşması meydanının özündə öldürülmüş və qarət edilmişdi. Qanuniləşdirilmiş qarət qarətçi doğurmuşdu. Mənfur bir prinsipi: "Düşmən hesabına yaşamaq" prinsipinin nəticəsi olaraq bu iyrənc yara əmələ gəlmişdir ki, bunu da ancaq sərt bir intizam sağalda bilərdi. Aldadıcı ad-san da var: bəzən böyük olsalar belə, bəzi sərkərdələrin xariqüladə şöhrətinə nə səbəb olduğunu anlamaq çox çətindir. Əsgərlər, Türenni qarət etməyə yol verdiyi üçün sevərdilər, icazə verilən şər yaxşılığın təzahürlərindən biridir. Türenni o qədər mərhəmətli idi ki, Palatinatı qılıncdan və atəşdən keçirməyə icazə vermişdi. Ordunun bədəninə sarmaşan soyğunçuların sayı baş komandanın sərtliyi dərəcəsindən asılı olurdu. Qoş və Marsonun ordularından bir nəfər belə, "sürünən" tapılmazdı. Vellinqtona haqq qazandırmaq lazımdır: onun ordusunda da "sürünənlər" az idi.

Bununla belə, 18 iyundan 19 iyuna keçən gecə ölüləri soyundurmuşdular. Vellinqton sərt bir komandan idi: o, cinayət üstündə tutulan hər kəsi amansızcasına güllələmək əmrini vermişdi. Lakin qarət etmək adəti çox dərin kök salmışdı. Soyğunçular Vaterloo düzünün bir tərəfində güllələndikləri zaman, o biri tərəfində oğurluq edirdilər.

Ay, Vaterloo düzünə məşum bir işıq saçırdı.

Gecə yarısına yaxın Oen yoluna doğru bir adam yeriyir, daha doğrusu, sürünürdü. Görünür, o, bir az əvvəl bəhs etdiyimiz adamlardan biri idi: o nə fransız, nə ingilis, nə əsgər, nə əkinçi, nə insan deyildi, o, meyit iyini hiss edərək və qələbəni bir qarət kimi başa düşərək, Vaterloonu soymağa gələn bir goreşən idi. Onun əynində əsgər şinelinə bənzəyən bir pencək vardı, o qorxaq və həyasız idi, o, qabağa yeriyir, lakin tez-tez dönüb geriyə baxırdı. Bu adam kim idi? Görünür ki, gecə onu gündüzdən daha yaxşı tanıyırdı. Torbası yox idi. Lakin şinelinin cibləri geniş olduğu üçün, görünür, torbanı əvəz edirdi. O, bəzən dayanır, sanki, görən olub-olmadığını təyin etmək üçün düzü diqqətlə nəzərdən keçirir, tələsik əyilib yerdə nə isə dilsiz və hərəkətsiz bir şeyi əlləşdirir, sonra yenə belini düzəldərək, xəlvətcə uzaqlaşırdı. Sürüşən yerişi, duruşları, sürətli və gizli hərəkətləri gecələr xarabalar arasında dolaşan cinlərə bənzərdi ki, qədim Normand rəvayətlərində bunlara "veyl" deyilir.

Bəzi uzunqıç gecə quşlarının siluetləri də bataqlıq fonunda bu cür görünür.

Ətrafdakı dumanlığa diqqətlə baxdıqda bir qədər uzaqda Nivel yolunda, yolun Mon-Sen-Jandan Bren-l'Alleyə döndüyü yerdə duran daxmanın arxasında hərəkətsiz dayanmış balaca bir markitant arabasını görmək olardı: arabanın üstü qatranlanmış söyüd çubuqları ilə örtülü idi. Arabaya qoşulmuş arıq bir yabı, cilovu ağzında, gicitkən otlayırdı. Furqonun içindəki qutuların və bağlamaların üstündə bir qadın oturmuşdu. Ola bilsin ki, bu araba ilə bu sərsəri arasında bir əlaqə vardı.

Aydınlıq gecə idi. Göydə bir bulud belə görünmürdü, aşağılarda qana bulaşmış torpaq yatır, ay isə həmişəki kimi gümüşü bir nur saçırdı. Bu – göylərin qeydsizliyinin bir əlaməti idi. Çəmənlərdə çarpanaq atəşi ilə sındırılmış, qabığı sayəsində hələ də yerə düşməyən ağac budaqları gecənin küləyi əsdikcə yavaşca yırğalanırdı. Nəfəs kimi xəfif bir meh sıx kolluqları tərpədirdi. Bədənlərdən uçan ruhların son bir titrəyişi kimi otların üzərindən bir dalğa keçirdi.

Uzaqdan oyan-buyana gəzişən qarovulların ayaq səsləri gəlir, arabir ingilislərin düşərgəsindən qarovulçuların harayları eşidilirdi.

Huqomon və Ge-Sent hələ yanırdı, bu yanğın qərbdə və şərqdə iki parlaq şəfəq əmələ gətirmişdi, bunlar üfüqdə təpələr üzərində böyük bir yarımdairə kimi uzanan ingilis gözətçisi tonqallarının təşkil etdiyi bir silsilə ilə birləşərək, uclarında iki brilyant olan açılmış ləl bir həmayilə bənzəyirdi.

Biz Oen yolundakı müsibətdən yuxarıda danışmışdıq. Burada nə qədər qəhrəmanın və necə bir ölümlə həlak olduğunu düşündükdə, insanın ürəyi dəhşətdən sarsılır.

Yer üzündə dəhşətli bir şey varsa, ən dəhşətli bir yuxunu belə geridə qoyan bir həqiqət varsa, o da ancaq budur: yaşamaq, Günəşi seyr etmək, şad və sağlam olmaq, təhlükəyə gülmək, irəlidə, qabağında gördüyün parlaq şöhrətə qarşı qoşmaq, ciyərlərinin nəfəs aldığını, ürəyinin döyündüyünü duymaq, iradənin ağla tabe olduğunu hiss etmək, danışmaq, düşünmək, ümid etmək, sevmək, analı olmaq, arvad sahibi olmaq, uşaq sahibi olmaq, bilik sahibi olmaq – və birdən-birə, bir an içində, çığırmadan belə, uçuruma yıxılmaq, yuvarlanmaq, kimi isə əzmək, kiminsə altında qalmaq, əzilmək, başın üstündə taxıl sünbüllərini, çiçəkləri, yarpaqları,

budaqları görmək və heç bir şeydən yapışa bilməmək, qılıncının faydasız olduğunu anlamaq, altında insanlar, üstündə atlar olduğunu duymaq, əbəs yerə əlləşmək, qaranlıqda atın təpik ataraq sümüklərini sındırdığını, bir çəkmə dabanının gözlərinə girdiyini hiss etmək, dişlərinlə hiddət içində at nallarını gəmirmək, boğulmaq, böyürmək, qıvrılmaq və altda uzanıb: "Axı indicə mən yaşayırdım!" – düşünməkdir!

Bu dəhşətli fəlakətdən doğan xırıltı və inilti səslərinin gəldiyi yerlərdə artıq sükut hökm sürürdü. Yarğandakı yol başdan-başa at leşləri və atlı meyitlərlə dolmuşdu. Bu, dəhşətli bir mənzərə idi! Yamaclar yox olmuşdu. Meyitlər düzlə yolu bərabərləşdirərək, yarğanın kənarlarına qədər qalxaraq, yaxşıca silkələnmiş bir çanaq arpaya bənzəyirdi. Yuxarı hissədə bir yığın meyit, aşağıda isə çay kimi axan qan – 1815-ci il iyunun 18-də axşamçağı bu yol belə bir halda idi! Qan Nivel şosesindən belə axaraq, şosenin qabağını kəsən bir tala yanında böyük bir gölməçə əmələ gətirmişdi. Bu yerə indi belə səyyahlar diqqət verirlər. Oxucunun yadında olmalıdır ki, kirasirlər Oen yolundakı yarğana bu yerin o biri tərəfindən, yəni Jenap yolu tərəfdən uçmuşdular. Yoldakı meyitlərin miqdarı yolun çökəkliyi dərəcəsindən asılı idi. Yolun düz olduğu və Delor diviziyasının keçdiyi orta hissəsində meyitlərin təbəqəsi nazik idi.

Ötəri gördüyümüz gecə sərsərisi həmin bu istiqamətdə yol gedirdi. O, bu böyük məzarı eşələyirdi, onu yoxlayırdı. Ölüləri mənfur bir müayinədən keçirirdi. O, qan içində addımlayırdı.

Birdən o dayandı.

Bir neçə addımlıqda, meyit yığınlarının qurtardığı bir yerdə, yolun üzərində, at və insan cəmdəklərinin yığınları altında ayın işığında bir əl görünürdü.

Bu əlin barmaqlarından birində bir şey parlayırdı: parlayan qızıl üzük idi.

Sərsəri əyildi, bir anlığa çömbəldi, o yuxarı qalxdığı zaman, artıq barmaqda üzük yox idi.

Əslində o ayağa durmadı, arxasını ölülərə çevirib, uzaqlara baxaraq, belini bükmüş, barmaqlarını yerə dirəyib bədəninin bütün ağırlığını onların üzərinə salaraq, narahat və qorxmuş halda, ehtiyatla başını yarğanın kənarından qaldıraraq dayanmışdı. Çaqqalların da bəzi hərəkətləri buna bənzəyir.

Sonra o, belini düzəltdi, lakin dərhal yerindən sıçradı. O, daldan kiminsə ondan yapışdığını hiss etdi. Dönüb geri baxdı. Əlin uzadılmış barmaqları onun şinelinin ətəyindən yapışaraq, bükülmüşdü.

Namuslu adam qorxardı, o isə ancaq irişdi.

– Buna bax! – dedi. – Demə, bu ölü imiş! Məncə, o dünyadan xortlayıb gələnlər jandarmlardan daha xoşdur!

Əl isə zəifləyib sərsərinin ətəyini buraxdı. Məzarda göstərilən səylərin ömrü uzun olmaz.

Sərsəri:

– Belə de! – deyə mızıldandı. – Ölü sağ imiş ki! Baxaq görək, bu necə şeydir!

O, yenə əyildi, yığını dağıdıb mane olanları bir kənara atdı, ölünün qolundan yapışdı, başını azad etdi, bədənini yuxarı qaldırdı və bir neçə dəqiqə sonra, ölü olmasa da bihuş olan bu adamı yolun qaranlığında sürüdü. Bu kirasir idi, zabit idi, hətta görünür, lap yüksək bir rütbə sahibi idi, kirasanın altından qalın qızıl epoleti görünürdü, başında kaskası yox idi. Qana bulaşmış üzündən qılınc zərbəsindən əmələ gələn dərin bir yara keçirdi. Bununla belə, burada söylənilməsi münasib görülə bilərsə, xoşbəxt bir təsadüf sayəsində, meyitlər onun üzərində qübbə kimi bir şey təşkil etdiyindən o əzilməmişdi, qolu, qıçı sağ qalmışdı. Gözləri qapalı idi.

Kirasasında gümüş Fəxri legion xaçı görünürdü.

Sərsəri xaçı qopardıb şinelinin dərin və gizli ciblərindən birinə dürtdü.

Saat cibini yoxladı, saatı tapıb gizlətdi. Sonra jilet ciblərini axtardı, pul kisəsini tapdı, onu da mənimsədi.

Can verməkdə olan bu insana yardım etmək üçün göstərdiyi səylər bu dərəcəyə çatdıqda zabit birdən-birə gözlərini açdı. Zərif bir səslə:

– Sağ ol! – deyə mızıldadı.

Bədəninə toxunan adamın kəskin hərəkətləri, gecənin sərinliyi, sərbəst udduğu təmiz hava onu ayıltmışdı.

Sərsəri cavab vermədi. Diqqət verdi. Uzaqdan ayaq səsləri gəlirdi, yəqin, bir qarovul dəstəsi yaxınlaşırdı.

Zabit taqətsizlikdən zəif düşən bir səslə:

– Kim qalib gəldi? – deyə soruşdu.

Soyğunçu cavab verdi:

– İngilislər.

Zabit sözünə davam edərək:

– Ciblərimi axtarın, – dedi. – Orada saat və pul kisəsi var. Götürün sizin olsun.

Sərsəri buna artıq əməl eləmişdi.

Bununla belə, cibləri axtardığını göstərərək, bir az sonra cavab verdi:

– Ciblәriniz boşdur.

Zabit:

– Məni qarət etmişlər, – dedi, – heyif. Yoxsa sizə qismət olardı.

Patrulun ayaq səsləri lap yaxından gəlirdi.

Sərsəri ayağa qalxmaq istəyərək:

– Gələn var, – deyə pıçıldadı.

Zabit çətinliklə əlini qaldırıb onu saxladı.

– Siz məni ölümdən xilas etdiniz. Siz kimsiniz?

Soyğunçu tələsik pıçıldadı:

– Mən də sizin kimi fransız ordusunda xidmət edirəm. Lakin bu saat mən sizi tərk etməyə məcburam. Məni burada tutsalar, güllələrlər. Mən sizi ölümdən xilas etdim. İndi siz özünüz başınızı bəladan qurtarın.

– Sizin rütbəniz nədir?

– Mən serjantam.

– Familiyanız?

– Tenardye.

Zabit:

– Mən bunu unutmayacağam, – dedi. – Siz də mənim familiyamı yadınızda saxlayın. Mənim familiyam Ponmersidir.

İkinci kitab

"ORİON" GƏMİSİ

Birinci fəsil

24601 NÖMRƏ DƏYİŞİB 9430 NÖMRƏ OLUR

Jan Valjan yenidən tutulmuşdu.

Bu hadisənin kədərli təfsilatına toxunmadığımız üçün oxucular bizi bağışlasınlar. Biz yalnız Monreyl-sür-Merdə baş vermiş olan qəribə hadisədən bir neçə ay sonra qəzetlərdə dərc edilmiş iki məqaləni eynən nağıl etməklə kifayətlənəcəyik.

Bu məqalələr bir az qısa yazılmışdı. Unudulmamalıdır ki, o zamanlar hələ "Məhkəmə qəzeti" nəşr edilmirdi.

Birinci məqalə "Ağ bayraq" qəzetinin səhifələrində 1823-cü il iyulun 25-də dərc edilmişdi.

"Pa-de-Kale dairələrindən birində bir az bundan əvvəl fövqəladə bir hadisə baş vermişdi. Madlen adlı heç tanınmayan bir adam bir neçə il bundan qabaq bəzi yeni kəşflər sayəsində, süni qat-qat və qara şüşə məmulatının yerli istehsalatını son dərəcə genişləndirmişdi. Bu işdə o, xeyli sərvət qazanmış və – gizlətmək nə lazım! – eyni zamanda dairəni də xeyli zənginləşdirmişdi. Bu xidmətlərinə mükafat olaraq onu şəhər rəisi seçmişdilər. Lakin polis idarəsi aydınlaşdırmışdır ki, Madlen 1796-cı ildə oğurluq üstündə tutulub katorqaya göndərilmiş Jan Valjan adlı bir cani imiş. Jan Valjan yenə həbsxanaya salınmışdır. Anlaşıldığına görə o, tutulmazdan əvvəl cənab Lafitin bankir kontorundan yarım milyondan çox olan əmanətini götürə bilmişdir. Həmin bu pul, söylənildiyinə görə, müvəffəqiyyətli alver sayəsində tamamilə qanuni yollarla qazanılmış və saxlamaq üçün bu banka verilmişdi, həmin Jan Valjan deyilən adamın Tulon

katorqasına göndərilməsindən əvvəl bu məbləği harada gizlətdiyini təyin etmək mümkün olmadı".

İkinci məqalə bir az da müfəssəl şəkildə yazılmış və eyni tarixdə "Paris qəzeti"ndə dərc edilmişdi.

"Cəzasını çəkmiş və azad edilmiş katorqalı Jan Valjan diqqəti cəlb edəcək bir şəraitdə Var dairəsinin məhkəməsi hüzuruna gətirilmişdir. Bu cani polis idarəsini aldatmağa müvəffəq olmuşdu, adını dəyişərək, Fransanın şimalında, kiçik bir şəhərdə özünü şəhər rəisi seçdirə bilmişdi. Bu şəhərdə böyük bir ticarət açmışdı. Nəhayət, prokuror nəzarətinin səyləri nəticəsində ifşa edilmiş və tutulmuşdur. Onunla bərabər yaşayan adi bir fahişə o tutulduğu zaman qorxusundan ölmüşdür. Bir Herkules qüvvətinə malik olan bu alçaq, həbsxanadan qaça bilmişsə də, qaçdıqdan üç-dörd gün sonra polis idarəsi tərəfindən Parisdə yenidən tutulmuşdu. Onu paytaxtdan Monfermeyl (Sena və Uaz dairəsindədir) kəndinə gedən sərnişinləri aparan balaca bir dilicana minmək istədiyi zaman tutmuşlar. Deyildiyinə görə, azad keçirdiyi bu üç və ya dörd gün ərzində o ən varlı bankirlərimizdən birinin kontorundan böyük bir məbləğ götürə bilmişdi. Bu məbləğ altı yüz-yeddi yüz min franka qədər imiş. Təqsirnaməyə görə, bu pul yalnız ona məlum olan bir yerdə gizlədilmişdi, odur ki bu pulları ələ keçirmək mümkün olmamışdır. Hər halda, yuxarıda adı çəkilən Jan Valjan səkkiz il bundan əvvəl böyük yolda silahlı qarət etdiyi üçün Var dairəsi cinayət məhkəməsinə gətirilmişdi. Qarət etdiyi adam Ferney patriarxının ölməz şeirlərində tərənnüm etdiyi gözəl uşaqlardan biri idi.

Hər il gəlib təmizlərlər
Savoyadan o yoxsullar
Qurum basmış bacanızı.

Cani müdafiədən imtina etmişdir. Dövlət prokuroru ustalıqla qurduğu gözəl nitqində oğurluğun Fransanın cənubunda hərəkət edən bir dəstə quldur tərəfindən edildiyini və Jan Valjanın da bu dəstədən olduğunu sübut etmişdir. Buna əsasən Jan Valjanın təqsiri sübut edilmiş və o, ölüm cəzasına məhkum edilmişdi. Cani yenidən şikayət verməkdən imtina etmişdir. Kral, öz tükənməz mərhəməti sayəsində, ölüm cəzasını ömürlük katorqa ilə əvəz etməklə,

cəzanı azaltmağı arzu etmişdi. Jan Valjan dərhal Tulon katorqa həbsxanasına göndərilmişdir".

Jan Valjanın Monreyl-sür-Merdə ruhanilərlə əlaqə saxladığı da hələ unudulmamışdı. Bəzi qəzetlər və o cümlədən "Konstitusionalist" qəzeti qərarın yumşaldılmasını ruhanilər partiyasının qələbəsi kimi qiymətləndirirdilər.

Jan Valjan katorqada nömrəsini dəyişdi. O artıq 9430 nömrəsini daşıyırdı.

Məsələyə bir daha qayıtmamaq üçün bunu da deməliyik ki, cənab Madlenlə birlikdə Monreyl dairəsindən xoş güzəran da yox oldu. Hər halda, onun qorxu və şübhələrlə dolu gecədə düşündüyü şeylər bir həqiqət oldu, o getdi, şəhərin ruhu da yox oldu. Cənab Madlen yox olduqdan sonra Monreyldə hər şeyi xudbincəsinə bölüşdürdülər. Böyük bir insan məhv olduğu zaman həmişə belə olar. Gözəlcəsinə inkişaf edən işlərin hamısı fəlakətə uğrayaraq dağıldı. İnsan cəmiyyətində hər gün gizlində baş verən bu cür hadisələrə təsadüf etmək mümkündür, o yalnız bircə dəfə tarixin nəzərini özünə cəlb etmişdi, çünki Böyük İsgəndərin ölümündən sonra baş vermişdi. Leytenantlar başlarına kral tacları qoyur, usta şagirdləri özlərini sahibkar elan edirlər. Paxıllıq və rəqabət meydana çıxdı. Cənab Madlenin geniş emalatxanaları bağlandı, tikintilər xarabaya döndü, fəhlələr dağılışdılar, bəziləri ölkəni tərk edib getdilər, bəziləri isə öz sənətini dəyişməyə məcbur oldular. Artıq hər bir şey kiçildi, böyük işlər məhv oldu, ümumun xeyri üçün deyil, qazanc üçün iş görməyə başladılar. Hər şeyi bir yerdə cəmləşdirən əsas yox oldu, hər yerdə rəqabət, kin, ədavət başlandı. Cənab Madlen hər işin başında durur və hər şeyi idarə edirdi. Madlen yıxılar-yıxılmaz hər kəsi öz tərəfinə çəkməyə başladı. Yaradıcılıq ruhu dərhal mübarizə ruhu ilə əvəz olundu, səmimiyyət məhv oldu – ürəklər daşa döndü, təşkilatçının hər şeyə qarşı göstərdiyi xeyirxahlıq əvəzinə hamı bir-birinə nifrət bəsləməyə başladı. Cənab Madlenin bağladığı tellər bir-birinə dolaşıb qırıldı, istehsalat üsulunu dəyişdilər, məhsulat qiymətdən düşdü, etimadı məhv etdilər, sifarişlər azaldığı üçün satış da azaldı, fəhlələrin qazancı da azaldı, emalatxanalar işsiz qaldı, iflas etdilər. Artıq yoxsullar üçün heç bir şey edilmirdi. Hər şey yox oldu.

Dövlət belə harada isə bir şəxsin yerinin boş qaldığını gördü. Katorqa həbsxanalarının mənafeyini güdərək, cənab Madlenin Jan

Valjan olduğunu təsdiq edən cinayət məhkəməsinin qərarından sonra dörd il belə keçmədi ki, Monreyl-sür-Mer dairəsinin vergi kəsirləri ikiqat artdı və cənab Villel bu barədə 1827-ci ilin fevral ayında bəyanat verməyə məcbur oldu.

İkinci fəsil

BU FƏSİLDƏ, BƏLKƏ DƏ, İBLİS TƏRƏFİNDƏN YAZILMIŞ BİR BEYTƏ TƏSADÜF EDƏCƏKSİNİZ

Hekayətimizə davam etməzdən əvvəl, təxminən, elə bu zaman Monfermeyldə baş verən və bəlkə də, dövlət prokurorluğunun bəzi fərziyyələrini təsdiq edən qəribə bir hadisəni bəzi təfsilatı ilə nağıl etmək faydasız olmaz.

Monfermeyl ətrafında indi belə, çox qədim bir əfsanə eşitmək olar. Bu əfsanənin qəribəliyi və məzəliliyi burasındadır ki, xalq əfsanəsinin Parisin bu qədər yaxınlığında doğması Sibirdə əzvayın bitməsi kimi bir şeydir. Biz nadir bitkilərdən sayılan hər bir şeyə qarşı hörmət bəsləyən adamlardanıq. Monfermeyl əfsanəsinin məzmunu belədir. İblis çox qədim zamanlardan öz sərvətlərini Monfermeyl meşəsində gizlədərmiş. Arvadların dediyinə görə, axşam çağlarında meşənin qalın bir yerində sabo, kətan şalvar və köynək geyinmiş, həm yük arabaçısına, həm də odunçuya bənzəyən qara bir kişiyə təsadüf etmək o qədər də qəribə bir şey deyildir. Bu qara kişinin başında papaq, yaxud şlyapa əvəzində iri buynuzları vardır. Bu, doğrudan da, mühüm bir əlamətdir. Adətən, bu adam meşədə çala qazmaqla məşğul olur. Bu təsadüfdən istifadə etməyin üç yolu var. Birincisi – ona yaxınlaşıb söhbət açmaqdır. O zaman görəcəksən ki, bu adi bir kəndlidir, qara görünməsinə səbəb də qaranlığın çökməsi imiş, özü də o çala-zad qazmır, öz inəkləri üçün ot biçir. Buynuza bənzəyən şey isə, çiynindən görünən yabadır ki, ucları axşamın qaranlığında fərqli görünür və başda buynuza bənzəyir. Bu görünüşdən sonra evə qayıdıb, bir həftə içində öləcəksən. İkinci yol budur ki, həmin qara kişini pusmağa başlayasan. Çala qazıb qurtarmağını, ağzını bağlamağını və getməyini gözləyəsən. O, çaladan uzaqlaşar-uzaqlaşmaz, dərhal qaça-qaça gedib çalanı qazmaq və bu qara kişinin,

heç şübhəsiz, orada gizlətmiş olduğu "xəzinəni" çıxarmaq lazımdır. Belə olsa, bir aydan sonra öləcəksən. Nəhayət, üçüncü yol var: bu qara kişi ilə heç danışmamaq, onun üzünə baxmamaq, qaçıb canını qurtarmaq. Belə olsa, bir ilə kimi öləcəksən.

Bu yolların üçü də eynən namünasibdir, ancaq ikinci yolun, heç olmasa, bir üstünlüyü vardır ki, bir aydan artıq sürməsə də, hər halda, xəzinə sahibi olacaqsan, buna görə bu yol daha əlverişlidir. Deyildiyinə görə, hər yerdə bəxtlərini yoxlamaqdan çəkinməyən qoçaqlar, qara kişinin qazdığı çalanı açıb iblisi qarət etmək istəmişlər. Əfsanəyə və xüsusilə barbar latın şivəsində yazılmış iki müəmmalı şerə görə, bu kimi hərəkətlər həmişə çox əhəmiyyətsiz nəticə vermişdir. Bu şeirləri yazan Trifon adlı bir normandiyalı rahib olmuşdur ki, cadugərlikdən bir az başı çıxarmış. Həmin Trifon Ruan yaxınlığında, Boşervildə Sen-Jermen abbatlığında dəfn edilmişdir. Onun qəbri üstündə qurbağalar doğulur.

Demək, çox zəhmət çəkmək lazım gəlir, çünki bu çalalar, adətən, çox dərindir, bütün gecəni qan-tər tökə-tökə zəhmət çəkirsən (bunu ancaq gecə eləmək olar), qazırsan, köynəyin tər içində, şam yanıb qurtarır, toxa korşalır, nəhayət, çalanın dibinə çatırsan, yəqin edirsən ki, artıq "xəzinə" sənindir, amma tapdığın nə? İblisin bu xəzinəsi nədən ibarətdir? Bəzən birsuluq puldan, bəzən bir eküdən, yaxud daşdan, arabir də skeletdən, yaxud qanlı bir cənazədən, bəzən də pul kisəsindəki kağız kimi dörd bükülmüş bir xəyal, bir kölgə, bəzən ümumiyyətlə heç bir şey. Görünür ki, Trifonun şeirləri də təvazökarlıqdan uzaq və hər bir şeylə maraqlanan adamlara elə bu məlumatı verir:

Fodit, et in fossa thesauros condit opaca
As, nummos, lapides, cadaver, simula cra nihilgue[1]

Deyəsən, indi belə, bu çalalarda gah içində güllə olan barıtqabı, gah da, heç şübhəsiz, şəxsən iblisin oynadığı köhnə kirli-paslı və saralmış bir dəstə qumar kağızı tapırlar. Trifon bu son iki tapıntı haqqında bir kəlmə belə bəhs etmir, lakin nəzərə almaq lazımdır ki, Trifon on ikinci əsrdə yaşamışdır, bir də iblisin Rocer Bekondan əvvəl barıt və VI Karldan əvvəl qumar kağızı icad etməyə, çətin ki, qabiliyyəti çata bilərdi.

[1] O, çala qazır və bu dəfinədə pulları, sikkələri, qaşları, cənazələri, kölgələri və heçləri gizlədir (*lat.*).

Ancaq bu qumar kağızından istifadə etmək istəyənlər bütün varyoxlarını uduzacaqlarına əmin ola bilərlər. Barıtqabındakı barıta gəlincə, bu barıtın tüfəngi adamın lap üzünə tərəf partlatmaq kimi bir xüsusiyyəti var.

Prokuror nəzarəti katorqalı Jan Valjan qaçandan sonra bir neçə gün Monfermeyl ətrafında dolaşması haqqında bir fərziyyə irəli sürdüyü gündən, bu kəndin əhalisi həmin kənddə yaşayan Bulatruel adlı qoca bir yol fəhləsinin tez-tez meşəyə "getdiyini" görmüşdü. Bir çoxları həmin Bulatruelin, guya, vaxtilə katorqada olduğunu danışırdılar. O, polis nəzarəti altında idi və heç bir yerdə özünə iş tapa bilmədiyi üçün Qanyi ilə Lanyi arasındakı şose yolun təmiratı işində az bir muzdla xidmət edərdi.

Bütün yerli əhali həmin bu Bulatruelə çəpəki baxırdı. O, çox nəzakətli və çox fağır görünürdü, bir yolçuya rast gəldikdə tez şlyapasını çıxarıb, salam verərdi, jandarm gördüyü zaman titrər və yaltaq-yaltaq gülümsərdi. Deyirdilər ki, bir quldur dəstəsi ilə əlaqədə idi və gecələr, qaranlıq çökər-çökməz qarət etmək üçün kol-kos arasında pusqu düzəldirdi. Onun xeyrinə ancaq bir şey vardı ki, o da sərxoşluğu idi.

Bu adam haqqında əhali belə bir fikrə gəlmişdi.

Müəyyən zamanlardan bəri Bulatruel yol təmiratı və çınqıl döşəmək işini çox tez qurtarır və külüngünü götürüb meşəyə gedirdi. Axşamlar onu meşənin ən vəhşi və qalın yerlərində, kimsəsiz talalarda görərdilər. O, həmişə nə isə axtarır, bəzən də çala qazırdı. Kənd qarıları onu əvvəlcə iblis zənn edərdilər, sonra is Bulatruel olduğunu görsələr də, yenə sakit olmazdılar. Bu təsadüflər, görünür, Bulatrueli çox acıqlandırırdı. Gözə çarpmaq istəmədiyi və nə isə gizli bir iş gördüyü hiss olunurdu.

Kənddə deyirdilər: "Gün kimi aydındır, haradasa şeytana rast gəlmişdir. Bulatruel şeytanı görmüş, indi də qızıl xəzinəsini axtarır. Doğrusu, bu adam Lüsiferi belə aldadıb, xəzinəsini ələ keçirməyə qadirdir". Daha sərbəst fikirli adamlar da deyirdilər: "Baxarıq hələ, görək kim kimi aldadacaq". Qoca qarılar isə müttəsil xaç çevirərdilər.

Nəhayət, Bulatruelin meşə sərgüzəştləri qurtardı, o, yenə yol təmiratına başladı. Kənddə artıq başqa şeydən danışırdılar.

Bununla belə, bəzi adamlar yenə maraqlanaraq belə güman edirdilər ki, burada, yəqin, bir şey var, məsələ yalnız əfsanədə bəhs

edilən böyük xəzinədən ibarət deyil, yəqin, daha əsaslı və şeytanın pullarından daha ciddi bir şey tapılmışdır. Həmin yol fəhləsi, şübhəsiz, bunu öyrənmişdir. Ən çox "maraqlananlar" məktəb müəllimi ilə meyxanaçı Tenardye idi. Tenardye ağına-bozuna baxmadan hər kəslə dostluq etdiyi kimi, Bulatruellə tanış olmağa da tənəzzül etməmiş deyildi.

Tenardye deyərdi: "Doğrudur, o, katorqada olub. Lakin, vallah, kim bilir, nə olacaq, kim bilir ki, katorqada bu saat kimlər var və kimlər oraya düşməlidir!"

Bir axşam məktəb müəllimi dedi ki, keçmiş zaman olsa idi, polis bu Bulatrueli, yəqin ki, sorğu-sual edərdi. Onun meşədə nə etdiyini soruşardılar, cavab vermək istəməsə, zorla danışdırardılar, lazım gələrsə, işgəncəylə mütləq onun dilini açardılar.

Tenardye: "Çaxır işgəncəsi verək, görək nə olar!" – deyə təklif etmişdi.

Beləliklə, çox səy edib, qoca sərsərini içməyə məcbur etdilər. Bulatruel çox içdi, lakin çox az danışdı. Böyük bir məharət və dəqiq bir müvazinətlə sərxoş adamlar kimi içməyi və bir hakim kimi özünü təmkinli tutmağı bacardı. Bununla belə, çox çalışdıqdan və maraqlandıqları məsələyə tez-tez döndükdən sonra, Tenardye və məktəb müəllimi, Bulatruelin dilindən qaçan ayrı-ayrı dumanlı işarələrdən bunu yəqin edə bildilər.

Bulatruel bir dəfə səhər tezdən işə gedərkən meşədə bir ağac altında qəsdən gizlədilmiş kimi bir bel və bir külüng görüb xeyli heyrətlənmişdi. Əvvəlcə bu şeylərin su daşıyan Si-Fur babanın olduğunu zənn etmiş və sakitləşmişdi. Lakin həmin günün axşamı, gözə görünməmək üçün böyük bir ağacın arxasında gizlənərək, yerli əhalidən olmayan, lakin Bulatruelin "gözəlcə tanıdığı" bir adamın yolla meşənin dərinliklərinə getdiyini görmüşdü. Tenardyenin dilində "gözəlcə tanıdığı" sözləri "katorqa yoldaşı" demək idi. Bulatruel bu adamın adını qətiyyən söyləmək istəmədi. O adam əlində böyük bir qutu, yaxud balaca bir sandıqçaya bənzər dördbucaqlı bir şey aparırdı. Bulatruel təəccüb etdi. Yalnız yeddi-səkkiz dəqiqə keçəndən sonra bunun ardınca getmək Bulatruelin ağlına gəldi. Lakin artıq gec idi, yolçu meşənin içində gözdən itmişdi, qaranlıq çökdüyündən Bulatruel onun dalınca çata bilmədi. Bu zaman onu meşənin kənarında gözləməyə qərar verdi. Aylı bir gecə idi. İki, ya üç saat

sonra Bulatruel bu adamı yenə gördü, yolçu ağacların arxasından çıxırdı, lakin əlində sandıqça yox idi, ancaq külünglə beli isə yanında idi. Bulatruel onun keçib-getməsinə mane olmadı, onunla söhbət açmaq belə ağlına gəlmədi, çünki o, özündən üç dəfə güclü idi, həm də əlində külüngü vardı, tanınmış olduğunu görmüş və anlamış olsaydı, Bulatrueli öldürə bilərdi. Bu da bir-birinə rast gələn bu iki köhnə dostun məhəbbət izharı! Lakin külüng və bel Bulatrueldə gözəl bir fikir oyatdı. O, dərhal səhər olduğu yerə tərəf qaçdı, lakin orada nə bel tapdı, nə külüng. Bundan belə bir nəticəyə gəldi ki, yolçu meşəyə daxil olub, külünglə çala qazmış, sandıqçanı orada gizlədib, bellə üstünə torpaq tökmüşdür. Sandıqça isə çox balaca idi, içində meyit yerləşə bilməzdi, demək, onun içində pul varmış. Bax buna görə də Bulatruel axtarışa başladı. Meşənin hər yerini axtardı, araşdırdı, deşik-deşik elədi, torpağın yenicə qazılmış olduğunu zənn etdiyi hər bir yeri qazdı, yoxladı. Əbəs!

O heç bir şey tapmadı! Bir az sonra Monfermeyldə bu hadisəni unutmağa başladılar. Ancaq bəzi qorxu bilməyən qarılar yenə də bir-birinə deyərdi: "Əmin ola bilərsiniz ki, Qani yolunu təmir edən bu fəhlə bu gurultunu nahaq yerə qaldırmamışdır, bu işdə, hər halda, "şeytan" əli var".

Üçüncü fəsil

BU FƏSİLDƏN BELƏ MƏLUM OLUR Kİ, ZƏNCİRİ BİR ZƏRBƏ İLƏ QIRMAQ ÜÇÜN QABAQCADAN HALQANIN BİRİNİ KƏSMƏK LAZIMDIR

Yenə həmin 1829-cu ilin oktyabr ayının sonunda Tulon əhalisi, amansız bir fırtınadan sonra bəzi zədələrini təmir etmək üçün "Orion" gəmisinin limana gəldiyini gördü. Sonralar bu gəmi Brestə göndərilərək təlim gəmisi xidmətini daşıyırdı, o zamanlar isə hələ Aralıq dənizi eskadrasında hesab olunurdu.

Bu gəmi, fırtınadan zədələnmiş olduğuna baxmayaraq, reydə keçdiyi zaman, yerli əhaliyə yenə də böyük təsir bağışladı. Üzərində hansı bayraq olduğunu xatırlamıram, lakin liman, nizamnaməyə görə,

onu on bir top atəşi ilə salamladı. "Orion" gəmisi də hər güllәyə bir güllə ilə cavab verdi.

Cəmisi iyirmi iki top gülləsi atılmışdı. Bəzilərinin hesabına görə, bir gündə bütün yer üzündə kralların təbriki və hərbi salamlar, etiket qaydalarına görə tələb olunan zərif nəzakət salamları və həmçinin, limanlarda və qalalarda, gün çıxanda və gün batanda, limanlar açılanda və bağlananda və sair münasibətilə bütün qalalardan və bütün hərbi gəmilərdən açılan top atəşlərinin sayı olduqca böyükdür: bütün yer üzündə mədəniyyət dünyası hər iyirmi dörd saatda yüz əlli min faydasız top gülləsi atır. Hər bir top gülləsinin altı frank qiyməti olduğunu hesab etsəniz, gündə doqquz yüz min franklıq bir məbləğ edər, bu da ildə yalnız tüstü üçün üç yüz milyon frankın sərf edildiyini göstərir. Bu yalnız balaca bir təfsilatdır. Bununla belə, aclıqdan ölən nə qədər yoxsullar var!

1823-cü il Restavrasiyanın "İspaniya müharibəsi dövrü" adlandırdığı il idi.

Bu müharibənin bir çox hadisələri və bir çox xüsusiyyətləri olmuşdur. Burada məsələ Burbonların bir sıra mühüm ailə mənafeyi haqqında – Burbon sülaləsinin Madrid budağına kömək edən və himayə göstərən, başqa sözlə, böyük qardaş vəzifəsinə əməl edən fransız budağı haqqında, şimal kabinetlərinə tabelik və asılılıqla mürəkkəbləşmiş milli ənənələrimizə açıqdan-açığa qayıtmaq haqqında: liberal qəzetlərinin "Andüjar qəhrəmanı" adlandırdığı və laübali siması ilə bir qədər təzad təşkil edən bir fateh tövrü ilə liberalların xəyali terrorizmi ilə vuruşan əski həqiqi inkvizisiya terrorizmini özünə ram etməyə çalışan hersoq d'Anqulem haqqında: kübar dul qadınların böyük bir dəhşətinə səbəb olan sankülotların[1] *descamisados*[2] adı ilə yenidən xortlaması haqqında; anarxiya adını almış tərəqqiyə maneə törədən monarxizm haqqında; 89-cu il nəzəriyyələrinin birdən-birə kəsilmiş gizli fəaliyyəti haqqında; dünya səyahəti etməkdə olan fransız fikirlərinin Avropa tərəfindən qadağan edilməsi haqqında; qırmızı yundan qrenadyor epoletləri taxıb könüllü gedərək, kralların xalqlara qarşı apardığı səlib müharibəsində iştirak edən, Fransa vəliəhdi ilə bir cərgədə dayanan və sonralar Karle-Alberte adlanan generalissimus prins Karinyan haqqında gedirdi. Burada məsələ

[1] *Sankülot* – inqilab zamanı inqilabçılara verilmiş ad
[2] Köynəkçələr (*isp.*)

səkkizillik istirahətdən sonra qocalmış, qəmli olan və artıq ağ kokarda taxaraq yenə səfərə çıxmış imperiya əsgərləri haqqında, otuz il bundan əvvəl Koblensdə yellənən ağ bayraq kimi, indi də yad ölkədə bir dəstə qəhrəman fransızların başları üzərində yellənən üçrəngli bayraq haqqında veteranlarımızın sıralarına keçmiş rahiblər süngü gücünə sakitləşdirilən azadlıq və yenilik meyli, top atəşi ilə məhv edilən prinsiplər, öz fikri ilə yaratdıqlarını öz silahı ilə məhv edən Fransa haqqında gedirdi. Nəhayət, burada düşmən generallarının satqınlığı, əsgərlərin tərəddüd göstərməsi, minlərlə süngü tərəfindən deyil, milyon franklarla mühasirəyə alınmış şəhərlərin məsələsi, düşmən tərəfindən qəfildən alınmış minalanmış bir xəndəkdə olduğu kimi, partlayış imkanı ilə yanaşı olaraq hərbi təhlükənin olmaması məsələsi də vardı. Burada tökülən qan da, fatehlərin şərəfi də az idi.

Bəziləri üçün rüsvayçılıq olduğu halda, heç bir kəs şərəf və şöhrət qazana bilməmişdi. Kral xanədanı prinslərinin, yəni XIV Lüdovik nəvələrinin başladığı və Napoleon varisləri olan sərkərdələrin rəhbərlik etdiyi müharibə belə bir müharibə idi. Bu müharibənin ələmli bir taleyi olmuşdur. O, xatirələrdə nə böyük bir müharibə nümunəsi, nə də böyük bir siyasət nümunəsi kimi qala bildi.

Bu müharibədə bir neçə cəsarətli hücum olmuşdu, məsələn, Trokaderonun alınması bu hücumların arasında ən parlaq hərbi bir əməliyyatdır; lakin təkrar edirik ki, ümumiyyətlə, bu səfərin boruları boğuq səslənirdi, burada hər bir şey şübhə doğururdu və tarix Fransanın bu yalançı zəfəri birdən-birə etiraf etmədiyini təqdir edir. Müqavimət göstərməyə borclu olan bəzi İspaniya zabitlərinin həddindən tez təslim olduqları, müharibəyə rüşvətxorluq fikrinin qarışdığı gözə çarpırdı, müharibədə qələbə qazanmaq deyil, generalların satın alındığı hiss olunurdu, odur ki, qələbə çalan əsgərlər vətənlərinə başıaşağı qayıdırdılar. Bu müharibə, doğrudan da, millətin vüqarına toxunurdu – milli bayraqların qırışlarında "Fransız bankı" sözləri oxunurdu.

1808-ci il müharibəsində iştirak edən və mühasirə etdikləri Saraqossada böyük qurbanlar verən əsgərlər 1823-cü ildə qarşılarında qala qapılarının bu qədər asanlıqla açıldığını görərkən qaşqabaqlarını sallayır və Palafoks haqqında heyifsilənməyə başlayırdılar. Fransızların təbiəti belədir: onlar qabaqlarında Rastopçini görməyi Ballesterosu görməkdən üstün tuturlar.

Daha ciddi nöqteyi-nəzərlə baxılsa, bunu xüsusi olaraq qeyd etmək lazımdır ki, bu müharibə Fransada ordunun mənəviyyatını təhqir etdiyi kimi, demokratiyanı da hiddətləndirirdi. Bu müharibənin niyyəti əsarət idi. Bu müharibədə demokratiya övladı olan fransız əsgərlərinin əsas məqsədi başqaları üçün kölәlik qazanmaq idi. Mənfur bir təzad, Fransa xalqların ruhunu öldürmək üçün deyil, oyatmaq üçün yaranmışdır. 1792-ci ildən sonra Avropada baş verən bütün inqilablar – Fransa inqilabı deməkdir. Azadlıq işığını saçan Fransadır. Bu işıq günəş işığıdır. Bonapart: "Bunu görməyənlər kordur!" – deyə səslənmişdi.

Bu surətlə, 1823-cü il müharibəsi eyni zamanda həm alicənab İspaniya millətinə, həm də Fransa inqilabına qarşı bir sui-qəsd idi. Bu dəhşətli təcavüzə yol verən də Fransanın özü olmuşdur. Doğrudur, bu təcavüzü etmək üçün Fransaya təzyiq etmişdilər, çünki azadlıq müharibələrindən başqa, orduların elədiyi hər bir şey məcburiyyət altında olmuşdur. Onların hərəkətləri "passiv itaət" sözləri ilə təyin olunur. Ordu olduqca böyük bir məharətlə haqq-hesab üzərində qurulmuş bir şeydir ki, burada qüvvət gücsüzlüyün böyük yekunlarından doğur. Bəşəriyyətin bəşəriyyətə qarşı, bəşəriyyətin zərərinə olaraq başladığı müharibə belə bir müharibədir.

Burbonlara gəlincə, 1823-cü il müharibəsi onlar üçün fəlakətli bir müharibə olmuşdur. Onlar bu müharibəni müvəffəqiyyət zənn etdilər. Lakin onlar qadağan etmək yolu ilə ideyaların boğdurulmasında nə kimi bir təhlükə olduğunu tamamilə nəzərdən qaçırmışdılar. Sadəlikləri o dərəcəyə gəlib çatmışdı ki, hakimiyyət başına gəldikdən sonra bəzi cinayətlərə geniş surətdə güzəşt edilməsinə yol verdilər, həm də bu güzəşti qüdrətlərinin əsaslarından biri kimi qanuniləşdirdilər. Siyasətlərinə pis niyyət qarışdı. 1830-cu il 1823-cü ildə doğuldu. Onların qərarlarına görə, İspaniya səfəri təzyiqə və təhlükəli "müqəddəs hüquq" fırıldaqlarına bəraət qazandıran dəlillərdən biri oldu. İspaniyada *el rey neto*[1] bərpa edən Fransa öz evində qeyri-məhdud kral hakimiyyətinin bərpa edilməsinə asanlıqla yol verə bilərdi. Burbonlar əsgərin itaətkarlığını millətin razılığı kimi anlayaraq təhlükəli bir səhvə yol verdilər. Bu cür xeyirxahlıq, xanədanların yıxılmasına səbəb olur. Nə mansenil ağacının kölgəsində, nə də ordunun qanadı altında mürgüləmək yaramaz.

[1] Yeganə layiqli kral (*isp.*) – İspan mütləqiyyəti formulasıdır.

Lakin yenə “Orion” gəmisinə qayıdaq.

Prins-generalissimusun komandası altında orduda manevrlər keçirilərkən, Aralıq dənizində bir eskadra dolaşırdı. Biz yuxarıda demişdik ki, “Orion” gəmisi həmin bu eskadraya daxil idi və fırtına onu Tulon limanına girməyə məcbur etmişdi.

Hərbi gəminin limana gəlməsində qəribə cazibədar bir şey var. Camaat belə şeylərlə çox maraqlanır. Bu, əzəmətli bir mənzərədir, camaat isə əzəmətli şeyləri sevir.

Təbii qüvvələrlə çarpışan hərb gəmisi insan dühası ilə təbiət qüdrətinin ən gözəl toqquşmalarına misal ola bilər.

Hərb gəmisi mövcud olan ən ağır hissələrlə ən yüngül hissələrin tənasübündən ibarətdir, çünki o, eyni zamanda, maddənin üç vəziyyəti ilə, yəni bərk, maye və qazaoxşar vəziyyəti ilə toqquşmağa və onların hər üçünə qarşı mübarizə etməyə məcburdur. Hərb gəmisinin dənizin dibində qranitdən yapışmaq üçün on bir dəmir dırnağı var, buludlarda münasib küləklərdən istifadə etmək üçün qanadlarının və qanad uclarının sayı isə uçan həşəratın qanadlarından çoxdur. Hərb gəmisi iri və dəhşətli orkestr boruları kimi yüz iyirmi topdan nəfəs verir, guruldarkən göy gurultusunun bir əks-sədası kimi təkəbbürlə səslənir. Okean öz dalğalarının qorxunc yeknəsəqliyi ilə onu yolundan azdırmağa çalışır. Lakin gəminin kompas kimi bir ürəyi var, o, gəmiyə məsləhət verir və daim şimala doğru yol göstərir. Qaranlıq gecələrdə onun işarə fənərləri ulduzları əvəz edir. Demək, onun küləyə qarşı qanadı və yelkənləri, dalğalara qarşı ağacı, qayalara qarşı dəmiri, misi və qurğuşunu, qaranlığa qarşı işığı, hüdudsuz üfüqlərə qarşı maqnit əqrəbi var.

Bir küll halında hərb gəmisinin tərkibini təşkil edən bu ayrı-ayrı hissələrin nəhəng həcmini təsəvvürə gətirə bilmək üçün Brest, yaxud Tulon limanlarında altımərtəbəli stapelin içinə daxil olmaq kifayətdir. Stapel – inşa olunmaqda olan bir gəminin üstündə qoruyucu qalpaq kimi bir şeydir. Bax o iri tir – yelkən ağacıdır, yerə dayanan və göz baxdıqca uzanan o ağır taxta sütun – orta dordur. Ayağı gəmi anbarında, başı isə buludlarda olan orta dorun uzunluğu altmış sajın, ayağının diametri isə üç futdur. İngilis qrot-maçtası gəminin yük xətti üzərində iki yüz on yeddi fut yüksəlir. Babalarımızın donanmalarında lövbər kanatları olardı, bizim isə lövbər zəncirlərimiz var. Yüz toplu bir gəminin adi gəmi zəncirləri dairəsinin hündürlüyü dörd

fut, eni iyirmi fut, qalınlığı isə səkkiz futdur. Hələ siz soruşa bilərsiniz ki, belə bir gəmini düzəltmək üçün nə qədər inşaat materialı lazımdır? Üç min kubmetr. Bu, əsl üzən bir meşədir.

Bundan başqa, qeyd etmək lazımdır ki, bəhs etdiyimiz bu hərb gəmisi qırx il bundan qabaq inşa edilmiş bir gəmidir, həm də sadə yelkən gəmisidir. O zaman hələ ilk addımlarını atan buxar mühərriki hərb gəmisi adlanan bu qəribə tikintiyə sonralar bir çox möcüzələr əlavə etmişdir. Məsələn, hal-hazırda, qarışıq tipli vintli gəmi yelkənli qəribə bir maşına bənzər ki, səthi üç min kvadratmetrə bərabərdir, buxar qazanı isə iki min beş yüz at gücündədir.

Gəmi inşaatı işində əmələ gələn bu qəribə yeniliklər bir yana dursun, hələ Xristofor Kolumbun, yaxud Rüiterin qədim gəmisi belə insan ixtiraçılığının ən gözəl nümunələrindən biri sayıla bilər. Onun qüvvəsi də nəhayətsizlikdən göndərilən hava dalğaları kimi tükənməzdir. Küləkləri yelkənlərinə yığır, ucsuz-bucaqsız dalğaların arasında çaşıb qalmır, üzür, hökmranlıq edir.

Lakin elə məqam gəlir ki, fırtına altmış fut uzunluğu olan yelkən ağacını saman çöpü kimi sındırır, külək bu yüz fut hündürlüyü olan orta doru qamış kimi əyir, on min girvənkə ağırlığında olan bu lövbər durna balığının dişləri altında sınan balıqçı qarmağı kimi, dalğaların ağzında sınır, bu əjdaha ağızlı toplar miskin və aciz bir səslə nərildəyir, onların səsi qaranlıqlar, boşluqlar içində itib gedir, bütün bu qüdrət və bütün bu əzəmət ülvi əzəmət və qüdrət qarşısında yox olur.

Olduqca böyük bir acizlik dərəcəsinə gələn böyük bir qüdrətin mənzərəsi həmişə insanları düşündürür. Buna görə də limanlar hər zaman tamaşaçılarla dolu olur, onlar özləri belə səbəbini yaxşı anlamadan bu qəribə hərb və dənizçilik alətlərinin yanında dolaşırlar.

Hər gün səhərdən axşama qədər Tulon limanının sahil küçələri, şlyuzun bəndi və yanları camaatla və Parisdə deyildiyi kimi, "avaralarla" dopdolu olurdu. Bunların işi-peşəsi "Orion"a baxmaq idi.

"Orion" çoxdan təmirat tələb edən bir gəmi idi. Keçmiş səfərlərində dənizlərdə üzərkən, alt tərəfində balıqqulağından qalın bir qabıq əmələ gəldiyindən, sürəti yarıya qədər azalmışdı. Bir il bundan əvvəl bu qabığı qazımaq üçün gəmini quruya çəkmişdilər, sonra o, yenə dənizə çıxdı.

Lakin qabığının qazılması gəminin alt hissəsindəki dəmirləri zədələmişdi. Balear adalarının yaxınlığında gəminin üz dəmirləri küləkdən zədələnib açılmışdı və gəminin içəri kəməri hələ o zaman bütöv dəmirdən düzəldiyi üçün deşik əmələ gəlmiş və gəmiyə su keçmişdi. Qüvvətli və coşqun bir payız küləyi əvvəlcə onun bakbortundakı top istehkamını və qalyundakı şəbəkə körpünü deşmiş, sonra da ön dor ağacının dayaqlarını zədələmişdi. Bu fəlakət nəticəsində "Orion" gəmisi yenə Tulon limanına qayıtmışdı.

Gəmi tərsanənin yaxınlığında lövbər saldı. Gəminin zədələnən yerlərini təmir edirdilər. Sağ göyərtə tərəfdən gövdəsi zədələnməmişdi. Lakin yan taxtalarının bəziləri, gəminin içərisinə hava girsin deyə, qoparılmışdı.

Bir dəfə səhər tezdən sahildə dayanıb gəmiyə tamaşa edənlər bədbəxt bir hadisənin şahidi oldular.

Gəmiçilər yelkənləri qaldırmaqla məşğul idilər. Sağ göyərtədə arxa dor ağacının yuxarı ucunu qaldırmalı olan üst matros müvazinətini itirdi. O, birdən-birə yırğalandı. Sahildəki Arsenal küçəsinə yığışmış camaat qorxudan bağırdı: əyilən baş, dalınca bədəni çəkdi, insan əllərini uçuruma doğru uzadaraq, yelkən dirəyi ətrafına fırlandı. Yıxılarkən əvvəlcə bir əli ilə, sonra da iki əli ilə yelkən ağacının altındakı ip nərdivandan yapışıb, havada sallandı. Ayaqlarının altında, başgicəlləndirən dərinlikdə dəniz görünürdü. Yıxılarkən ipə bərk dəydiyindən ip şiddətlə yellənirdi. İnsan sapand daşı kimi bu ipin ucunda oyan-buyana gedib-gəlirdi.

Ona kömək etmək – böyük bir təhlükəni gözə almaq demək idi. Bir az bundan əvvəl hərbi qulluğa çağırılmış yerli balıqçılardan olan matrosların heç biri buna cəsarət etmədi. Zavallı matros isə artıq yorulmağa başlayırdı, onun üzünü və üzündəki ölüm qorxusunu görmək mümkün deyildi, lakin hərəkətlərindən taqətdən düşməkdə olduğu aydınca görünürdü. Əlləri dəhşətli bir şəkildə əyilib titrəyirdi. Yuxarıya qalxmaq üçün göstərdiyi hər bir səy ipin daha çox yellənməsinə səbəb olurdu. Son gücünü itirməmək üçün o hətta çığırmırdı. Hamı onun bu saat ipi buraxacağını gözləyirdi. Bəziləri, onun yıxıldığını görməmək üçün üzlərini belə o biri tərəfə çevirirdilər. Bəzi dəqiqələr olur ki, bir kəndir, bir ağac, bir ağac budağı bir həyat mücəssəməsinə dönür və canlı bir məxluqun onlardan qoparaq dəymiş bir meyvə kimi düşdüyünü görmək çox dəhşətlidir.

Birdən bir adamın bir pişik qıvraqlığı ilə ipə dırmaşdığını gördülər. Bu adam qırmızı paltarda idi – demək, bu bir katorqalı idi; başında yaşıl qalpağı vardı – demək, ömürlük katorqaya məhkum olan canilərdən idi. Dirəyin lap ucuna çatdıqda, külək başındakı yaşıl qalpağı qopardı, ağ saçlı bir baş göründü: demək, bu adam gənc deyildi.

Doğrudan da, gəmidə işləmək üçün həbsxanadan göndərilmiş katorqalılardan biri, dərhal növbətçi zabitin yanına yüyürdü və bütün matroslar qorxularından titrəyərək, yerlərindən tərpənmədikləri halda, ümumi qorxu və çaşqınlıq içində, matrosu qurtarmaq məqsədilə həyatını təhlükəyə qoymaq üçün zabitdən icazə istədi. Zabit başı ilə razılıq işarəsi verdi. Katorqalı ayağına halqa ilə bağlanmış olan zənciri dərhal bir çəkic zərbəsi ilə qıraraq, kəndiri götürdü və yuxarı dırmaşmağa başladı. Bu qorxunc dəqiqədə zəncirin nə qədər asanlıqla qırıldığına heç kəs əhəmiyyət vermədi. Bunu yalnız sonra xatırladılar.

O, bir an içində yelkən dirəyinin üstünə çıxdı. Dirəyin üstündə bir neçə saniyə durub, sanki, gözü ilə onun uzunluğunu ölçdü. Külək matrosu ipin ucunda yellətdiyi bu saniyələr tamaşa edənlərə bir əsr qədər uzun göründü. Nəhayət, katorqalı gözlərini göylərə qaldırdı, sonra bir addım irəli atdı. Camaat nəfəs aldı. Onun yüyürərək yelkən dirəyinin üstündən keçdiyini gördülər. Dirəyin kənarına çatdıqda özü ilə götürdüyü kəndirin bir ucunu dirəyə bağladı və bir ucunu aşağı sallayaraq, əlləri ilə kəndirdən yapışdı və əlləri üzərində bu iplə aşağı sürüşməyə başladı. Hamı təsvirəgəlməz bir qorxu içində idi; uçurum üzərində bir adam əvəzinə indi iki adam sallanırdı.

O, milçəyi tutmaq istəyən bir hörümçəyə bənzəyirdi. Yalnız bircə fərqi vardı ki, bu dəfə hörümçək ölüm əvəzinə dirilik gətirirdi. On min göz bu iki adama zillənmişdi. Kimsədən bir səs, bir söz eşidilmirdi, hamının ürəyində bir qorxu vardı, hamının qaşları çatılmışdı. İki zavallını yelləndirən küləyi azca belə artıra biləcəklərindən qorxurlarmış kimi, heç kim nəfəs belə almırdı.

Nəhayət, katorqalı matrosun yanına qədər yenə bildi. Lap vaxtı idi; bir dəqiqə daha keçsə idi, zavallı insan son gücünü itirdiyindən uçuruma yuvarlanacaqdı. Katorqalı bir əli ilə kəndiri matrosun belinə möhkəmcə bağladı, sonra isə onun yenə dirəyə qalxdığını və matrosu

dalınca qaldırdığını gördülər. Nəfəs almaq, qüvvətini toplamaq üçün matrosa imkan verərək, bir dəqiqə asılı saxladı, sonra qucağına alaraq dirəyin üstü ilə göyərtənin ortasına tərəf apardı, oradan da növbətçi körpücüyü üstünə çıxarıb, yoldaşlarının əlinə təslim etdi.

Xalq onu gurultu ilə alqışladı, qoca katorqa nəzarətçilərindən bəziləri hətta ağladı, qadınlar bir-birini qucaqlayırdılar, bütün camaat bir ağızdan nəsə bir mərhəmət hiddəti ilə dolu səslə bağırırdı: "Bağışlansın!"

O isə dərhal enməyi və katorqalı yoldaşlarının yanına qayıtmağı özünə bir borc bilərək və aşağı daha tez enmək istəyərək iplə sürüşdü və aşağıdakı dirəyin üstü ilə yüyürdü. Hamı gözlərini ona zilləmişdi. Bir an oldu ki, hamı qorxdu; bərk yorulduğundanmı, başı gicəlləndiyindənmi, o birdən dayandı və sarsılan kimi oldu. Birdən camaatdan bir fəryad qopdu – katorqalı dənizə düşdü.

Dənizə düşmək ölmək demək idi. "Aljeziras" freqatı "Orion" gəmisinin yanında lövbər salmışdı. Zavallı katorqalı iki gəminin arasına düşdü. O, bu gəmilərdən birinin altına düşə bilərdi. Dörd adam dərhal qayığa mindi. Camaat onlara ürək verirdi, yenə hamının ürəyinə qorxu düşmüşdü. Batan adam suyun üzərində görünmürdü. O, suyu dalğalandırmadan, yağ çəlləyinə düşmüş kimi, səssiz-səmirsiz batmışdı. Lot[1] salladılar, suya cumdular, hər yeri axtardılar. Nəticə vermədi. Axşama qədər axtardılar, nə dirisini tapdılar, nə də ölüsünü.

O biri gün Tulon qəzetində belə bir xəbər dərc edilmişdi: "17 noyabr 1823-cü il. Dünən, "Orion" gəmisində işləyən katorqalılardan biri, bir matrosu xilas edərkən dənizə düşüb batmışdır. Meyitini tapmaq mümkün olmadı. Arsenalın baş tərəfindəki dirəklərin arasına düşdüyü zənn edilir. Bu adam həbsxana siyahısında № 9430 kimi qeyd olunmuşdu. Adı Jan Valjan idi".

[1] *Lot* – dənizin dibini ölçmək üçün cihaz

Üçüncü kitab

ÖLÜYƏ VERİLƏN VƏDƏ ƏMƏL OLUNMASI

Birinci fəsil

MONFERMEYLDƏ SU MƏSƏLƏSİ

Monfermeyl Livri ilə Şel arasında, Urku Marnadan ayıran yüksək bir yaylanın cənub tərəfindədir. Hal-hazırda bu balaca kənd böyük bir ticarət qəsəbəsi olmuşdur; o, ağ vallarla bəzənmişdir, bazar günləri isə şən şəhərlilər buraya gəzməyə gəlirlər. 1823-cü ildə Monfermeyldə hələ bu qədər ağ villa və bu qədər məmnun şəhərli yox idi. Bu, meşəlik içində qeyb olmuş adi bir kənd idi. Doğrudur, bəzən kənddə keçən əsrin üslubunda tikilmiş villalara da rast gəlmək olardı, bu villaları ağayana görünüşündən bu dövrə məxsus olan burma dəmir balkonlarından və bağlı pəncərə qapaqlarının ağ rəngli fonunda müxtəlif yaşıl şüalarla parıldayan balaca şüşəli uzunsov pəncərələrdən tanımaq olardı. Bununla belə, Monfermeyl yenə də ancaq bir kənd sayılırdı. Nə işlərindən əl çəkmiş mahud alverçiləri, nə də bağda istirahət edən vəkillər bu kəndə hələ təsadüf etməmişdilər. Bu, böyük yollardan uzaqda olan sakit və gözəl bir bucaq idi. Burada ucuz, sadə və sərbəst kənd həyatı sürürdülər. Bu kəndin bircə eybi vardı ki, o da suyun azlığı idi, çünki kənd hündür yerdə yerləşmişdi.

Suyu xeyli uzaqdan gətirmək lazım gəlirdi. Kəndin Qanyiyə yaxın olan hissəsi suyu meşədəki gözəl göllərdən daşıyırdı. Kəndin Şel tərəfdəki kilsə olan hissəsində isə içməli suyu ancaq Şel yolunun yaxınlığındakı yamacda olan bulaqdan götürürdülər. Bu isə Monfermeyldən on beş dəqiqəlik bir məsafədə idi.

Beləliklə, su gətirmək hər bir ailə üçün çox ağır bir iş idi. Kəndin varlıları, kübarları, o cümlədən meyxanaçı Tenardye də qoca suçunun onlar üçün gətirdiyi hər bir vedrə suya bir livr pul verirdilər. Bu

qoca Monfermeyldə suçuluqla məşğul olar və gündə səkkiz suya qədər pul qazanardı. Lakin yay günləri o, axşam saat yeddiyə, qış günləri isə saat beşə qədər işlərdi; qaranlıq çökər-çökməz, bütün aşağı mərtəbələrdə pəncərələr bağlandığı zaman, suyu olmayanlar su dalınca ya özləri getməli, ya da gecəni səhərə qədər susuz qalmalı idilər.

Oxucunun, bəlkə də, unutmamış olduğu balaca zavallı qızcığaz, yəni balaca Kozetta üçün su daşımaq məsələsi bir dəhşət mənbəyi idi. Yadınızda olmalıdır ki, Kozettanı saxlamaq Tenardye və arvadı üçün iki cəhətdən xeyirli idi; anasından pul almaqla bərabər, qızını da qulluqçu kimi işlədirdilər. Odur ki daha yuxarıdakı fəsillərdən oxucunun bildiyi kimi, Kozettanın anası onun üçün artıq pul göndərmədiyi zaman, Tenardye yenə də qızı buraxmadı; Kozetta onlara qulluqçuluq edirdi. Su çatmayanda onlar hər dəfə Kozettanı bulağa göndərərdilər. Zavallı qız da gecə vaxtı qaranlıqda bulağa getməkdən bərk qorxduğu üçün evdə həmişə su olmasına diqqət edirdi.

1823-cü il Milad bayramı günü Monfermeyldə çox şən keçirildi. Qışın birinci yarısında havalar mülayim idi; hələ nə şaxta olmuş, nə də qar yağmışdı. Parisdən gələn hoqqabazlar merin icazəsi ilə kəndin baş küçəsində məzhəkə qurmuşdular, səyyar alverçilər şirkəti isə, yenə eyni imtiyaza görə, kilsə meydanında, Çörəkçilər küçəsinə qədər balaca taxta dükanlar tikmişdilər. Məlum olduğu kimi, Tenardyenin meyxanası da bu küçədə idi. Meyxanalara, karvansaralara dolan müştərilər bu sakit və tənha kəndin həyatına böyük bir gurultu gətirmiş və onu şənləndirmişdilər. Vicdanlı bir tarixçi kimi biz bunu da qeyd etməliyik ki, meydandakı cürbəcür əntiqə şeylər arasında bir də heyvanxana vardı ki, burada haradan gəldikləri məlum olmayan cındır paltarlı eybəcər oyunbazlar hələ 1823-cü ildə gözləri üçrəngli kokardaya bənzəyən qorxunc Braziliya kondorlarından[1] birini Monfermeyl kəndlilərinə göstərirdilər, halbuki kral muzeyi bunları ancaq 1845-ci ildə əldə edə bilmişdi. Səhv etmirəmsə, zooloqlar bu quşu Caracara Rolyborus adlandırırlar. O, yırtıcı quşlar cinsindən və qırğı ailəsindəndir. Kənddə yaşayan bir neçə qoca və qəhrəman bonapartist əsgər gəlib, bu quşa pərəstişkarlıqla tamaşa edirdilər. Oyunbazlar camaatı inandırırdılar ki, bu üçrəngli kokarda müstəsna bir xariqədir ki, cənab Allah bunu xüsusi olaraq onların heyvanxanası üçün yaratmışdır.

[1] *Kondor* – Cənubi Braziliyada yaşayan iri yırtıcı quş

Milad bayramının axşamı bir neçə arabaçı ilə bir neçə alverçi Tenardye meyxanasının alçaq salonunda masa ətrafında əyləşib içməkdə idilər. Masanın üstündə dörd-beş şam yanırdı. Bu alçaq tavanlı salon başqa meyxanaların salonlarından heç də fərqlənmirdi; burada da eyni masalar, qalay sovçalar, şüşələr; sərxoşlar, tütün çəkənlər vardı; işıq az, gurultu çox idi. Ancaq bir masanın üstündə o zaman şəhərlilər arasında yeni dəb düşən və 1823-cü il olduğunu göstərən iki şey vardı: biri kaleydoskop, o biri isə naxışlı ağ tənəkədən düzəldilmiş lampa idi. Tenardyenin arvadı axşam yeməyi hazırlayırdı, xörək yaxşıca qalanmış və alovlanaraq yanan ocağın üstündə bişməkdə idi. Tenardyenin özü isə qonaqlarla bərabər içərək, siyasətdən danışırdı. Söhbətlərinin əsas məzmunu İspaniya müharibəsi və cənab hersoq d'Anqulem idi.

Bu siyasi söhbətlərdən başqa, səs-küy arasında yerli əhəmiyyəti olan məsələlər haqqında da mülahizələr, sözlər eşitmək olurdu. Məsələn:

– Bax gör Nanter və Süren ətrafında nə qədər çaxır hazırlamışlar – on çəllək hazırlayacağını zənn edənlər on iki çəllək hazırlamışdır. Daşın altında şirə sel kimi axırdı. – Axı bu necə ola bilər? Üzüm ki hələ dəyməmişdir? – Bu yerlərdə üzümün dəyməyini gözləmək olmaz. Üzümü dəyəndən sonra dərəndə, yaz girən kimi çaxır qatılaşır. – Deməli, onların çaxırı lap zəif çaxırdır? – Onların çaxırı buradakından da zəifdir. Üzümü isə hələ dəyməmiş yığmaq lazımdır. Və i.a.

Sonra dəyirmançının da qışqırıqlarını eşitmək olardı:

– Məgər biz torbaya tökülən şeyə cavabdeh ola bilərik? Torbalarda istədiyin qədər xırda buğda var, onlarla əlləşməyə macalımız yoxdur, elə əlimizə nə keçirsə, veririk daşın altına. Üyütdüyümüz taxılın içində hər nə istəsən var: qaramıx, yonca, vələmir, sürmə, çətənə, koçal, nə bilim min cür zirzibil, hələ xırda daşları demirəm: bəzən taxılın içi, xüsusilə Breton taxılı daşlarla dolu olur. Mişarçının mismar vurulmuş kötüyü kəsməkdən necə xoşu gəlirsə, mənim də Breton çovdarını üyütməkdən elə xoşum gəlir. Özünüz fikirləşin, üyütmək üçün nələr gətirmirlər. Hələ bundan sonra unun yaxşı olmadığından bir şikayət də edirlər. Lap nahaq! Bu işdə bizim heç bir təqsirimiz yoxdur.

İki pəncərənin arasındakı kiçik masanın arxasında bir mülkədarla bir otçalan oturmuşdu. Onlar yazda ot çalmaq qiyməti barəsində sövdələşirdilər. Otçalan deyirdi:

– Otun nəm olmağının heç bir zərəri yoxdur. Elə nəm olanda daha da yaxşı çalmaq olur. Şehin xeyri çoxdur, cənab, amma bu var ki, otunuz çox göydür, çalıma gəlmir. Çox nazikdir, dəryaz vurursan yatır, üzülmür.

Kozetta həmişəki yerində: ocağın yanındakı mətbəx masasının atqısında oturmuşdu. Əynində cır-cındır paltar, yalın ayaqlarında taxta başmaq vardı. Ocağın işığında Tenardyenin balaca qızları üçün yun corab toxuyurdu. Stulların altında bir pişik balası oynayırdı. Qonşu otaqdan gülüş və uşaq səsləri gəlirdi: danışan Eponina ilə Azelma idi.

Ocağın yanındakı bucaqda divardan qamçı asılmışdı.

Ara-sıra meyxanadakı bu səs-küy və gurultu içində evin harasından isə qulaqbatırıcı bir uşaq çığırtısı eşidilirdi. Bu uşaq Tenardyenin balaca oğlu idi; keçən qışların birində, Tenardye qarının dediyi kimi, "naməlum bir səbəbə görə, bəlkə də, soyuqdan" doğulmuşdu. Uşağın üç yaşı vardı. Anası onu əmizdirib bəsləmişdisə də, lakin sevmirdi. Balacanın çığırtısı çox kəskinləşdiyi zaman, Tenardye arvadına deyirdi: "Eşitmirsənmi, oğlun necə zınqıldayır. Get gör nə istəyir". Uşağın anası isə belə cavab verərdi: "İtir o yana, lap zəhləmi aparıb!" Tərk edilmiş balaca uşaq isə qaranlıqda bağırmaqda davam edirdi.

İkinci fəsil

İKİ TAMAMLANMIŞ SURƏT

Bu vaxta qədər kitabda biz Tenardye ailəsini yalnız birtərəfli təsvir etmişdik; indi bu ailəni hər tərəfdən və bütün sifətləri ilə görməyin vaxtı çatmışdır.

Tenardyenin özünün əlli yaşı yenicə tamam olmuşdu. Madam Tenardyenin yaşı isə qırxa yaxınlaşırdı, bu da qadın üçün əlli yaşa bərabərdir; bu surətlə, ərlə arvadın arasında yaş cəhətdən tam uyğunluq vardı.

Bəlkə də, oxucu onu ilk dəfə gördüyü zamandan bəri tamamilə unutmamışdır. Tenardyenin arvadı ucaboylu, sarışın, alyanaqlı, ətlicanlı, enlikürək, çox iri və fəal bir qadın idi. Yuxarıda dediyimiz kimi, o, yarmarka məzhəkələrində saçlarından daş asaraq əzilib-büzülən

nəhəng arvadlar cinsindən idi. Evin bütün işini özü görərdi, yataqları yığar, otaqları təmizlər, qab yuyar, xörək bişirərdi – bir sözlə, bu meyxananın həm bəlası, həm gülü, həm də ev pərisi idi. Onun yeganə xidmətçisi Kozetta idi – filə xidmət edən balaca bir siçan. Madam Tenardyenin səsindən pəncərə şüşələri, ev əşyaları, insanlar – hər şey titrərdi. Çil-çil geniş üzü böyük bir kəfgirə bənzəyirdi. Onun saqqalı da vardı. Bu, qadın paltarı geymiş əsl bir hambal idi. Məharətlə söyüş söyər, yumruğu ilə qoz qırar və bununla fəxr edərdi. Oxumuş olduğu romanlar sayəsində bəzən bu meyxanaçı qadında qəribə bir şəkildə özünü əzib-büzmək meyli görünməsəydi, ona qadın adı vermək heç kəsin ağlına gəlməzdi. Madam Tenardye, sanki, bazar alıcısı ilə xəyalpərvər bir qızın birləşməsi idi. Danışanda bir jandarm kimi danışar, içəndə bir arabaçı kimi içərdi. Onun Kozetta ilə rəftarını görən onu cəllad adlandırardı. Susanda dişi ağzından bayıra çıxardı.

Tenardyenin özünə gəlincə, o, arıq, solğun, sümükləri çıxmış, zəif, taqətdən düşmüş bir adam idi. Zahirdən xəstəyə oxşayırdısa da, çox sağlam idi – ona xas olan hiyləgərlik elə buradan başlayırdı. Adətən, ehtiyatla gülümsər və hər kəslə, hətta sədəqə vermədiyi dilənçilərlə belə nəzakətli olardı. Baxışı qoxarcaya, görünüşü ədibə bənzərdi. Abbat Delilin portretlərinə çox oxşarı vardı. Arabaçılarla içki içdiyi ilə fəxr edərdi, heç kəs heç bir zaman onu içirdib sərxoşluq dərəcəsinə gətirə bilməmişdi. O, ağzındakı iri çubuğu yerə qoymaz, köynək geyər, köynəyin altında isə köhnə qara pencəyi olardı. Oxumuş və materialist bir adam təsiri bağışlamaq istərdi. Sözlərinin vəznini artırmaq üçün tez-tez Volterin, Renalın, Parninin və hətta, qəribə görünsə də, müqəddəs Avqustinin adını çəkərdi. Xüsusi bir "sistemi" olduğunu iddia edirdi. Eyni zamanda qəddar bir dələduz idi. Dələduz-filosof idi. Dünyada belə adamlar var. Özünü bir əsgər kimi qələmə verməsi, əlbəttə, oxucunun yadındadır. Keçmişdə altıncı və ya doqquzuncu legionun serjantı olduğunu və bir eskadron ölüm qusarlarına qarşı tək vuruşaraq: "bərk yaralı bir generalı" öz bədəni ilə örtdüyünü və dolu kimi yağan düşmən güllələri içindən xilas etdiyini bir az bəzəkli-düzəkli təfsilatla söylərdi. Bu hadisə evin divarına parlaq lövhə vurmaq üçün ondan ötrü bir bəhanə olmuşdu və Tenardye meyxanasına, adətən, "Vaterloo serjantının meyxanası" deyərdilər. Tenardye liberal, klassik və Bonapart tərəfdarı idi.

Adını qocalmış əsgərlər üçün ianə verənlərin siyahısına yazdırmışdı. Kənddə danışardılar ki, o, bir zamanlar keşiş olmağa hazırlaşırmış.

Amma bizim fikrimizcə, o, olsa-olsa, meyxanaçı olmaq üçün hazırlaşırmış. Qarışıq cinsli bu alçaq adam çox ehtimal ki, Flandriyada Lill tərəflərində yaşayan bir flamand, Parisdə – fransız, Brüsseldə – özünü belçikalı kimi qələmə verər və sərhədin o tayında da, bu tayında da özünü yerli kimi hiss edərdi. Onun Vaterlooda göstərdiyi qəhrəmanlıq bizə məlumdur. Oxucunun gördüyü kimi, o, bu qəhrəmanlığına yalnız bir az bəzək-düzək vermişdir. Həyatı müvəffəqiyyət və məğlubiyyətlərdən, hiyləgərliklərdən, təhlükəli işlərdən ibarət idi. Natəmiz vicdan hər zaman nizamsız bir yaşayışa səbəb olar. Belə ehtimal etmək olar ki, Tenardye 1815-ci il 18 iyun kimi fırtınalı bir vaxtda yuxarıda söylədiyimiz və hər yeri dolaşaraq, bəzilərinə mal satan, bəzilərini qarət edən, həmişə bir iy duyaraq ərli, arvadlı, uşaqlı, bütün ailə ilə axsaq yabılı bir arabaya minib, qalib ordunun irəliləyən hissələrinin dalınca sürünən alverçi soyğunçular cinsindən idi. Müharibə səfərini qurtardıqdan və dediyi kimi, bir azca var qazandıqdan sonra, Tenardye Monfermeyldə yerləşmiş və burada bir meyxana açmışdı.

Bu "var" dediyi şey cənazələrlə dolu düzlərdən "biçin" zamanı yığılmış pul kisələrindən, saatlardan, qızıl üzüklərdən, gümüş xaçlardan ibarət idi, lakin bunlar o qədər böyük bir sərvət deyildi ki, meyxanaçıya çevrilmiş bu əsgər saqisinin həyatını uzun zaman təmin edə bilsin.

Tenardyenin hərəkətlərində söyüş söydüyü zaman – əsgər qışlasını, xaç çevirdiyi zaman isə ruhani məktəbini xatırladan bir şey vardı. O, ağzıgöyçək bir adam idi və özünü alim kimi göstərərdi. Lakin məktəb müəllimi onun danışığında "nöqsan" olduğunu görmüşdü. Müsafirlərin haqq-hesabını çox gözəl düzəldərdi, ancaq usta adam bəzən bunlarda da imla xətalarına rast gələ bilərdi. Tenardye sirr verməyən, həris, tənbəl və hiyləgər bir adam idi. O, xidmətçi qızlara əl atardı, odur ki arvadı xidmətçi saxlamazdı. Nəhəng qadın qısqanc idi. Elə bilirdi ki, bu arıq, sarı adamcığaz bütün qadınların xoşuna gəlir.

Bundan başqa, xain, özünü idarə etməyi bacaran Tenardye dələduzdan ehtiyat edirdi. Bu cins – ən murdar bir cinsdir, çünki onda riyakarlıq var.

Bu o demək deyil ki, yeri düşəndə, Tenardye arvadı kimi hiddətlənə bilmirdi, lakin belə hallar nadir hallardan idi. Bir də, Tenardye bütün insan nəslinə kin bəslədiyindən, ürəyində daim ən dəhşətli bir kin və nifrət qaynadığından, daim intiqam almaqla məşğul olan adamlardan olduğundan, başına gələn fəlakət və müvəffəqiyyətsizliklərdə ətrafdakıların müqəssir olduğunu düşündüyündən, öz acılarını qanuni zənn edərək, məyusluqlarını, iflaslarını, fəlakətlərini hər zaman ilk qarşıya çıxan adamın üzərinə yıxmağa hazır olduğundan, bəzən bütün bu hisslər onun qəlbində coşar, ağzı köpüklənər, gözlərini hiddət tutar, o, dəhşət saçardı. Vay o kəslərin halına ki, bu anda onun qabağını kəsmiş ola!

Bütün başqa xasiyyətlərlə bərabər, Tenardye müşahidəçi və tez başa düşən bir adam idi, yerinə görə çox danışar, ya da sükut edərdi və həmişə olduqca zirək idi. Baxışı durbinlə baxanda gözlərini qıymağa adət etmiş dənizçinin baxışına oxşardı. Tenardye bir dövlət adamı idi.

Meyxanaya gələn hər bir yeni qonaq, Tenardyenin arvadına baxdıqda: "Evin əsl sahibi budur" – düşünərdi. Lakin bu düz deyildi! Tenardyenin arvadı ev sahibəsi belə deyildi. Tenardye həm evin sahibi, həm də sahibəsi idi. O, hər şeyi yaradar, arvadı isə əməl edərdi. O, sanki, gözə çarpmayan, lakin daimi bir maqnetik qüvvənin təsiri sayəsində hər şeyi idarə edərdi. Bu nəhəngi itaətə gətirmək üçün Tenardyenin yalnız bir sözü, bəzən bir işarəsi belə kafi idi. Tenardyenin arvadı üçün, bunu anlamasa da, öz əri xüsusi, ali bir məxluq idi. Tenardyenin arvadına bu barədə haqq vermək lazım idi: o heç bir zaman, ən xırda şeylərdə belə, cənab Tenardyeyə etiraz etməz və heç bir zaman, mübahisəyə səbəb olsa belə (bu qeyri-mümkün bir fərziyyədir), "özgələrinin yanında" onunla mübahisə etməzdi. O heç bir zaman, qadınların çox vaxt buraxdığı, parlament dilində "hökumətin nüfuzunu pozmaq" adlanan bir səhvə yol verməzdi. Doğrudur, onların bu sazişi həmişə pislik məqsədilə olmuşdur, lakin madam Tenardyenin ərinə itaətkarlığında bir pərəstiş duyulurdu. Bu ət qayası, bu fırtına arıq, cılız bir müstəbidin çeçələ barmağının işarəsinə tabe olardı. Burada təhrif edilmiş və məzəli bir şəkildə olsa da, böyük, ümumi bir qanun özünü göstərirdi: hər zaman materiya ruh qarşısında pərəstiş edər; bəzi eybəcərliklər hətta əbədi bir gözəlliyin dərinliklərində yaşamaqda haqlıdır. Tenardyedə

müəmmalı bir şey vardı, bu kişinin bu qadın üzərində hakimi-mütləq olması da bundan irəli gəlirdi. Bəzən Tenardye arvadının nəzərində bir yanan çırağa bənzəyirdi, bəzən isə o, ərinin yalnız caynaqlarını hiss edirdi.

Bu qadın dəhşətli bir məxluq idi. O yalnız öz uşaqlarını sevər və yalnız ərindən qorxardı. Analığına səbəb məməlilər cinsinə mənsub olması idi. Lakin onun analıq hissi də ancaq qızlarına aid idi və aşağıda görəcəyimiz kimi, o, oğlanları sevmirdi. Ərinə gəlincə, onun varlanmaqdan başqa heç bir arzusu yox idi.

Lakin o, buna müvəffəq ola bilmirdi. Bu qədər istedadlı bir adam üçün münasib bir meydan yox idi. Əgər adi bir sıfır üçün iflas etmək mümkünsə, Tenardye Monfermeyldə iflas edirdi. Bu lüt, İsveçrədə, yaxud Pireney dağlarında olsaydı, milyoner olardı. Lakin meyxanaçı harada olursa olsun, özünü dolandırmalı idi.

Əlbəttə, bu "meyxanaçı" sözünü biz burada dar mənada işlədirik və heç şübhəsiz ki, o, ümumiyyətlə, meyxanaçılar silkinə aid deyildir.

1823-cü ildə Tenardyenin min beş yüz franka qədər təxirəsalınmaz borcu vardı və bu, onu çox təşvişə salırdı.

Taleyin ona qarşı daim mərhəmətsiz olmasına baxmayaraq, Tenardye – vəhşilərdə xeyir əməl, mədəni xalqlarda isə ticarət mənbəyi olan şeyin, yəni qonaqpərəstliyin ən dərin və bugünkü mənasını çox gözəl başa düşən adamlardan idi. Bundan başqa, mahir bir ovçu idi, özgə meşələrində sərrast güllə ilə ov vurmaqda məşhur idi. Bəzən sakit və soyuq bir gülüşü vardı; onun bu gülüşü, xüsusən, qorxulu idi.

Bəzən bir işıq parıltısı kimi onun ağzından etiqad etdiyi meyxanaçılıq nəzəriyyələri çıxardı, onun öz sənətinə məxsus qaydaları vardı ki, bunları arvadının beyninə yeritməyə çalışardı. Bir dəfə hiddətli bir pıçıltı ilə arvadına bu sözləri başa salmışdı: "Meyxanaçının borcu hər yolçuya yemək, yataq, işıq, isti, kirli mələfə, xidmətçi qız, birə, təbəssüm satmağı, yolçuları dayandırmağı, nazik pul kisələrini boşaltmağı, qalın kisələri namuslu surətdə yüngülləşdirməyi; səyahət edən bir ailəyə hörmətlə yer təklif etməyi, kişinin dərisini soymağı, arvadın tükünü yolmağı, uşağın qabığını çıxarmağı bacarmaqdır; o, pəncərənin açıq və bağlı olmağını, ocağın yaxınlığındakı bucağı, kreslonu, stulu, kürsünü, oturacağı, tük döşəyi, yun döşəyi,

bir qucaq küləşi, bir sözlə, hər bir şeyi hesaba yazmalıdır. O, güzgünün qonaqların surətini nə dərəcə əyri göstərdiyini bilməli, bunun üçün də onlardan pul almalıdır, nəhayət, nə olursa olsun, hər bir vasitə ilə yolçudan hər bir şey üçün, hətta itinin udduğu milçəklər üçün belə pul qoparmalıdır!"

Bu kişi və bu qadın izdivac bağları ilə bir-birinə bağlanan hiyləgərlik və kin demək idi – bu, iyrənc və dəhşətli bir ittifaq idi.

Əri düşünüb mülahizə etdiyi zaman, arvadı uzaqda olan borcluları heç xatırlamadan, nə dünənki, nə də sabahkı günün fikrini çəkmədən yalnız həriscəsinə hazırkı dəqiqə ilə yaşayırdı.

Bu iki məxluq belə idi. Kozetta ər və arvadın arasında ikiqat zülm və əziyyət çəkirdi; onu, sanki, dəyirman daşları ilə üyüdüb, kəlbətinlə ətini qoparırdılar. Ər və arvad hərə öz bildiyi kimi onu incidirdi: arvad Kozettanı ölüncəyə qədər döyərdi, kişi isə onun qışda ayaqyalın gəzməsində müqəssir idi.

Kozetta pilləkənlə gah yuxarı, gah da aşağı qaçar, yuyar, təmizlər, sürtər, yüyürər, taqətdən düşər, ağır şeyləri daşımaqdan təngnəfəs olar və cansız olmasına baxmayaraq, çox ağır işlər görərdi. Ona bir damcı rəhm etməzdilər! Arvad vəhşi, kişi zalım! Tenardye meyxanası qalın bir hörümçək toru kimi idi. Kozetta da bu torun içində çapalayırdı. Bu bədbəxt balaca xidmətçi, sanki, köləliyin mücəssəməsi idi. O, hörümçəklərə qulluq edən bir milçəyə bənzəyirdi.

Zavallı uşaq hər şeyə dözür, səsini belə çıxarmırdı.

Allah dərgahından yenicə ayrılaraq ömürlərinin ilk çağlarından bu cür insanlar arasında yalqız, kimsəsiz, aciz qalmış bu qəlblərdə, görəsən, nələr olur?

Üçüncü fəsil

İNSANLARA ŞƏRAB, ATLARA SU

Meyxanaya dörd nəfər yeni yolçu gəldi.

Kozetta dərin düşüncələrə dalmışdı, səkkiz yaşı olmasına baxmayaraq, başına o qədər müsibət gəlmişdi ki, ələmli düşüncələrə daldığı zaman balaca bir qarıya bənzəyirdi.

Bir gözünün qapağı madam Tenardyenin vurmuş olduğu bir yumruqdan qapqara qaralmışdı. Arvad ara-sıra bunu gördükdə: "Gözünün altındakı ləkəyə bax, bu qız nə yaman eybəcər imiş!" deyirdi.

Demək, Kozetta düşünürdü ki, gecə olmuşdur, həm də qaranlıq bir gecədir. Tərslikdən o, yeni gələn müsafirlərin otaqlarındakı bütün bardaqları və qrafinləri bir az bundan əvvəl təzə su ilə doldurmuşdur və boçkada su qalmamışdır. Yalnız bir şey ona təskinlik verirdi. Tenardyenin meyxanasında nadir halda su içirdilər. Burada susayan adam az deyildi, lakin onlar öz yanğılarını su ilə deyil, şərabla söndürürdülər. Bir stəkan şərab əvəzinə bir stəkan su istəyən qonaq tapılsa idi, hamı onu vəhşi hesab edərdi. Lakin bir an oldu ki, qızcığaz tir-tir titrədi: Tenardye qarı ocağın üzərində qaynayan qazanlardan birinin qapağını açdı, sonra isə bir stəkan götürüb, sürətlə su boçkasının yanına gəldi, kranı açdı. Uşaq başını qaldırıb onun hərəkətlərini izləyirdi. Krandan nazikcə su axdı. Stəkan ancaq yarıya qədər doldu.

Tenardye qarı:

– Lənət şeytana! – dedi. – Su yoxmuş ki! – və bir dəqiqəliyə susdu. Qız nəfəsini gizlətdi.

Tenardye qarı yarıya qədər dolmuş stəkana baxaraq:

– Hə! – dedi, – keçib, elə bu da çatar.

Kozetta yenə işinə davam etdi, lakin hələ on beş dəqiqə sinəsində bir yumaq kimi sıxılmış ürəyinin necə bərk döyündüyünü duydu.

O, ötən dəqiqələri bir-bir sayaraq, səhərin tez açılmasını şiddətlə arzulayırdı.

Ara-sıra müsafirlərdən biri küçəyə baxaraq:

"Nə yaman qaranlıqdır!" və ya: "Bu qaranlıqda həyətdə ancaq pişiklər gəzə bilər!" deyirdi. Bu sözləri eşitdikcə Kozetta qorxudan tir-tir əsirdi.

Birdən, meyxanada müsafir qalan səyyar alverçilərdən biri içəri girdi və kobud bir səslə bağırdı:

– Nə üçün mənim atıma su verilməyib?

Tenardye qarı:

– Necə verilməyib? Onu sulayıblar, – deyə cavab verdi.

Alverçi yenə:

– Madam, mən isə sizə deyirəm ki, verilməyib! – deyə etiraz etdi.

Kozetta masanın altından çıxdı.

– Ağa, – dedi. – Vallah, sizin atınıza su verilmişdir, o, bir vedrə su içdi, lap dolu bir vedrə, mən özüm ona su verdim, hələ onunla söhbət də elədim.

Bu, düz deyildi. Kozetta yalan danışırdı.

– Bir buna bax, boyu bir qarışdır, amma dağ boyda yalan danışır! – deyə alverçi səsləndi. – Sənə deyirəm ki, at su içməmişdir, yaramaz! Mənim atım su istəyəndə o, bir cür fınxırır, mən onun xasiyyətinə bələdəm!

Kozetta yenə öz dediyində durmuşdu, kədərli bir təşvişdən xırıldayan səslə yavaşca təkrar edirdi:

– İçmişdir, lap doyunca içmişdir.

Alverçi qəzəblənərək:

– Bəsdir! – dedi, – At bir damcı da su içməmişdir. Bu saat ona su verin, vəssalam.

Kozetta yenə masanın altında gizləndi.

Meyxanaçı qadın:

– Düz sözə nə var ki, – dedi, – heyvan su içməmişsə, onu sulamaq lazımdır.

O, ətrafına boylandı.

– Bəs bu biri heyvan hanı?

Masanın altına baxıb Kozettanı gördü. Zavallı qız masanın o biri başında qonaqların lap ayaqları altında büzüşərək oturmuşdu.

Qarı:

– Di çıx görüm! – deyə bağırdı.

Kozetta sığındığı yerdən çıxmağa məcbur oldu.

– Vay səni, küçük! Get ata su ver!

Kozetta qorxa-qorxa etiraz etmək istədi:

– Xanım, axı suyumuz qurtarıb.

Tenardye qarı küçə qapısını taybatay açaraq:

– Qurtarıb get gətir. Cəld ol! – deyə bağırdı. Kozetta başını aşağı saldı və ocağın küncündəki boş vedrəni götürmək üçün getdi.

Vedrə qızın özündən böyük idi, qız onun içində lap rahatca yerləşə bilərdi.

Meyxanaçı qadın yenə ocağa yaxınlaşdı, taxta qaşığı qazanda qaynayan xörəyin içinə salıb dadına baxdı və öz-özünə:

– Bulaqda su çoxdur, – deyə donquldandı. – Buna bax, hələ bir danışır da. Amma nahaq yerə soğanı süzmədim.

Sonra istiot və sarımsaqla bir yerdə xırda pul saxladığı qutunu eşələyib:

– Mənə bax, ilan balası! – dedi. – Ala bu pulu, geriyə qayıdanda, çörəkçidən bir böyük çörək də alarsan. Budur, al, on beş su.

Kozettanın döşlüyündə balaca bir yan cibi vardı, o, dinməz-söyləməz pulu alıb cibinə qoydu.

O, əlində vedrə, açıq qapının qarşısında hərəkətsiz dayandı, sanki, kiminsə köməyə gələcəyini gözləyirdi.

Meyxanaçı qarı:

– Di cəld ol! – deyə bağırdı.

Kozetta çıxdı. Qapı örtüldü.

Dördüncü fəsil

KUKLA ƏHVALATI

Oxucunun xatırladığı kimi, açıq havada tikilmiş taxta dükanlar, kilsədən başlayaraq Tenardyenin meyxanasına qədər uzanırdı. Dükanların hamısı gecə duasına gedən ziyarətçilərin yolunda olduğu üçün kağız qıflar içində yanan şamlarla işıqlandırılmışdı və axşam, Tenardyenin meyxanasında oturmuş olan məktəb müəlliminin dediyi kimi, bu "füsunkar bir mənzərə" idi. Lakin göydə bir ulduz belə görünmürdü.

Meyxananın qapısı ilə üzbəüz olan dükanda oyuncaq satırdılar. Burada teldən, şüşədən, tənəkədən düzəldilmiş bir çox gözəl şeylər vardı. Vitrinin ön sırasında, ən görkəmli bir yerdə, ağ dəsmallar üzərində, təxminən, iki fut hündürlüyündə böyük bir kukla qoyulmuşdu. Kuklanın əyninə çəhrayı rəngli krepdən tikilmiş zərif bir paltar geyindirilmişdi. Başında qızıl sünbülləri, həqiqi saçları, minalı gözləri vardı. Bu qəribə oyuncaq bütün günü vitrində duraraq on yaşına qədər yolçuların heyrətinə səbəb olmuşdu. Lakin bütün Monfermeyldə bu kuklanı öz uşağı üçün almağa iqtidarı olan varlı, yaxud israfçı bir ana tapılmadı. Eponina ilə Azelma saatlarla bu kuklaya tamaşa edirdilər. Kozetta belə, gizlincə olsa da, bu kuklaya baxmağa cəsarət edirdi.

Kozetta əlində vedrə, qəmli və pərişan bir halda evdən çıxdığı zaman belə, "xanım" adlandırdığı bu gözəl kuklaya baxmaqdan özünü

saxlaya bilmədi. Yazıq qız mat-mat baxırdı. O, hələ bu kuklanı yaxından görməmişdi. Bu dükan ona bir saray, kukla isə – əfsanəvi bir xəyal kimi görünürdü. Səfalət, yoxsulluq, ehtiyac içində sürünən bu balaca zavallı uşağın gözləri qarşısından nur içində qərq olan bir sərab kimi heyrət, ehtişam, sərvət və səadət lövhələri keçdi. Kozetta, uşaqlara məxsus sadədil və həzin bir fəhmlə, onu da böyük kukladan nə qədər dərin bir uçurum ayırdığını duyurdu. O, öz-özünə deyirdi ki, belə bir "şeylə" oynamaq üçün ya bir kraliça, ya da heç olmasa, bir şahzadə olmaq lazımdır. O, bu qəşəng çəhrayı paltarı, bu gözəl saçları məftuniyyətlə seyr edir və fikirləşirdi: "Ah, bu kukla nə qədər xoşbəxtdir!" Qızcığaz gözlərini bu sehrkar dükandan ayıra bilmirdi. Oyuncaqlara baxdıqca, daha çox heyrət edirdi. Elə bilirdi ki, behişti görür. Böyük kuklanın arxasında ondan kiçik kuklalar vardı.

Bunlar Kozettanın gözlərinə pərilər, mələklər kimi görünürdü. Dükanın içərisində gəzişməkdə olan alverçi isə onun gözlərində az qala Allaha bənzəyirdi.

Qızcığaz o qədər heyranlıqla tamaşa edirdi ki, hər şeyi, hətta nə üçün göndərildiyini belə unutmuşdu. Birdən Tenardye qarının sərt səsi onu, sanki, yuxudan oyatdı:

– Necə! Sarsaq qız, sən hələ buradasan? Dayan bir, gör sənə nə edəcəyəm! De görüm, burada nə edirsən? Bu saat get, deyirəm sənə!

O, təsadüfən küçəyə baxdıqda, Kozettanın dükan qabağında heyran-heyran durub baxdığını görərək özündən çıxmışdı.

Kozetta vedrəni götürüb qaça-qaça su dalınca yüyürdü.

Beşinci fəsil

BALACA QIZ TƏK-TƏNHA

Tenardyenin meyxanası kəndin kilsə olan tərəfində idi; odur ki Kozetta su üçün Şel tərəfindəki meşədə olan bulağa getməli idi.

O artıq dükanların vitrinlərinə baxmırdı. Çörəkçilər küçəsi ilə və kilsənin yaxınlığından getdiyi müddətdə, o, hələ işıqlı dükanlar yanından keçirdi, lakin bir az sonra son dükanla son işıq da söndü. Zavallı qız qaranlıqda qaldı və qaranlığa batdı. Ürəyini bir qorxu

basırdı, buna görə o, yeriyə-yeriyə var qüvvəsi ilə vedrəni yellədirdi. Vedrə səsləndikcə, balaca qız da bir az ürəklənirdi.

Qız yol getdikcə qaranlıq daha da artırdı. Küçələr kimsəsiz idi. Lakin yenə də yolda bir qadına rast gəldi. Qadın ona çatdıqda dayandı və öz-özünə mızıldandı: "Bu balaca quzu haraya gedir? Cindir, şeytandır, nədir?" Sonra, diqqət etdikdə, Kozettanı tanıdı. "Buna bax, – dedi. – Bu ki bizim Torağaydır!"

Beləliklə, Kozetta Monfermeyl kəndinin Şel tərəfindəki kənarından əyri-üyrü, dolaşıq, kimsəsiz küçələrdən keçdi. Nə qədər ki yolu evlər və hətta hasarlar arasından keçirdi; o, xeyli cəsarətlə addımlayırdı. Ara-sıra pəncərə qapaqlarının deşikləri arasından şam işığı görünürdü – burada işıq, həyat vardı, burada insanlar yaşayırdı. Bunu düşündükcə, Kozetta sakitləşirdi. Lakin o irəlilədikcə şüursuz bir halda addımlarını saxlayırdı. Sonuncu evin tinini döndükdə Kozetta dayandı. Sonuncu dükanı keçəndən sonra yola davam etmək çətin idi; son evdən o yana yol getmək isə ona qeyri-mümkün görünürdü. Vedrəni yerə qoyaraq, əlini saçlarına uzatdı və yavaş-yavaş başını qaşımağa başladı; qorxmuş və cəsarətsiz uşaqlar, adətən, belə edirlər. Kozetta Monfermeylin lap kənarında dayanmışdı, bundan sonra tarlalar başlayırdı. Kozettanın qarşısında qaranlıq və izsiz bir çöl uzanırdı. Qız qorxu ilə bu qaranlığa baxırdı; burada insanlar yox idi, burada vəhşi heyvanlar ola bilərdi, kim bilir, bəlkə də, kabuslar dolaşırdı. Kozetta getdikcə daha artıq diqqətlə qaranlığa baxırdı, budur, otların arasında heyvanların ayaq səslərini eşitdi, ağaclar arasında tərpənən kabusları gördü. O zaman Kozetta tez vedrəni götürdü, qorxu ona cəsarət verdi. Öz-özünə dedi: "Nə olsun! Ona deyərəm ki, bulaqda su yoxdur!" Bu qərarla o, Monfermeylə qayıtdı.

Lakin yüz addım belə atmamış Kozetta dayandı və yenə başını qaşımağa başladı. İndi gözlərinə Tenardye qarı göründü, bu mənfur və dəhşətli qarı kaftar kimi ağzını ayırmışdı, gözləri hiddətdən parıldayırdı. Qızcığaz aciz bir halda ətrafına boylandı. Nə etsin? Haraya getsin? Qabaqda Tenardye qarının kabusu, arxada isə – qaranlığın və meşələrin bütün cinləri dururdu. Lakin Tenardye qarı daha qorxunc idi, Kozetta onun qabağında geri çəkildi. Qızcığaz yenə bulağa doğru yüyürməyə başladı. Qaça-qaça kənddən çıxdı, qaça-qaça meşəyə girdi, o artıq heç bir şeyə baxmır, artıq heç bir şeyə qulaq asmırdı. Yalnız nəfəsinin daraldığını hiss etdiyi zaman bir az ayaq

saxladı, lakin yenə də dayanmadı. O, ümidsizlik içərisində yoluna davam edirdi. O, ağlamağını güclə saxlayaraq yüyürürdü. Meşənin gecə səsləri onu hər tərəfdən bürüdü. O artıq heç bir şey düşünmür, heç bir şey görmürdü. Bu balaca məxluq gecənin nəhayətsizliyi ilə üz-üzə gəlmişdi. Bir tərəfdə dünyanı bürümüş zülmət, o biri tərəfdə isə – bir heç, bir zərrə.

Meşənin kənarından bulağa qədər yeddi-səkkiz dəqiqəlik yol vardı. Kozetta gündüzlər dəfələrlə su üçün buraya gəldiyindən yolu yaxşı tanıyırdı. Qəribə işdir, o, yolu azmadı. Təbii bir hiss dumanlı bir şəkildə onun hərəkətlərini idarə edirdi. Ağacların budaqları arasında, yaxud kolluqlar içində dəhşətli bir şey görəcəyindən qorxaraq, o nə sağına, nə soluna baxmadan yeriyirdi. Nəhayət, bulağa çatdı.

Burada təbii bir bulaq vardı; torpağın içindən qaynayan su iki fut dərinliyində bir yalaq açmışdı. Bulağın kənarlarını yosun və hündür otlar bürümüşdü, ətrafında isə bir neçə iri daş düzülmüşdü, bulağın içindən sakit bir şırıltı ilə su axırdı.

Kozetta nəfəs almağı belə düşünmədi. Çox qaranlıq idi, lakin o, bu bulağa su dalınca gəlməyə adət etmişdi. Qaranlıqda sol əli ilə bulağın üstünə doğru əyilən cavan palıd ağacını axtarıb tapdı. Bu ağac onun üçün, adətən, bir istinad nöqtəsi idi; o, əli ilə axtarıb bir budaq tapdı, budaqdan yapışdı, bulağa tərəf əyildi və vedrəni suyun içinə saldı, həyəcandan qüvvəsi üçqat artmışdı. Suya doğru əyilərkən o, döşlüyünün cibindəki pulun bulağın içinə düşdüyünü görmədi və səsini də eşitmədi. Pul suya batdı. Qız dolu vedrəni çəkib, otun üstünə qoydu.

Ancaq indi o, yorulduğunu və taqətdən düşdüyünü hiss etdi. O, çox istəyirdi ki, tez geriyə dönsün, lakin vedrəni doldurmaq üçün sərf etdiyi qüvvə həddindən artıq olduğundan, o bir addım belə ata bilmədi. İstər-istəməz istirahət etməli idi. Otun üstündə çömbəlib oturdu və yerindəcə donub qaldı.

Kozetta gözlərini yumdu, lakin sonra yenə açdı; o, bunu nə üçün etdiyini bilmirdi. Lakin başqa cür etməyə də qadir deyildi. Yanında, vedrənin içində, su dairələrlə yayılaraq, tənəkədən düzəldilmiş ilanlar kimi parıldayırdı.

Başının üstündə tüstü pərdələrinə bənzəyən ağır, qara buludlarla dolu göy qaralırdı. Sanki, gecənin qorxunc qaranlığı hər tərəfdən uşağın üzərinə çökürdü.

Göyün ucsuz-bucaqsız dərinliklərində Yupiter üfüqə doğru enirdi. Kozetta çaşqın bir nəzərlə bu tanımadığı və qorxulu böyük ulduza baxırdı. Bu zaman planet, həqiqətən, sıx dumanlıqları yararaq, üfüqün yaxınlığında görünürdü. Qalın duman qatı ona dəhşətli qara-qırmızı rəng verirdi. Məşum qırmızı duman planetin həcmini böyüdürdü. O, qızaran bir yaraya bənzəyirdi.

Düzdən soyuq külək əsirdi. Meşə zülmət içində, yarpaqlar hərəkətsiz idi, yaya məxsus gizli və canlı bir parıltı yox idi, qurumuş iri budaqlar hədələyici tərzdə uzanırdı. Çökəklərdə sısqa eybəcər kollar xışıldayırdı. Hündür otlar şimal küləyi altında əyilərək ilanbalığı kimi qıvrılırdı. Göyəm ağacının budaqları, ovunu ələ keçirməyə çalışan qorxunc caynaqlı əllər kimi uzanmışdı. Küləyin apardığı quru süpürgə kolları sürətlə qızın yanından ötürdü, onlar, sanki, böyük bir dəhşətlə öz canlarını düşməndən xilas etmək üçün qaçırdılar. Uzaqda qəmli çöllər uzanırdı.

Qaranlıqdan baş gicəllənir. İnsana işıq lazımdır, qaranlığa dalanlar ürəklərinin necə dayandığını hiss edirlər. İnsanın gözləri qarşısında qaranlıq olanda şüuru da qaralır. Gecənin gözgörməz qaranlığında ən cəsur insan üçün belə dəhşətli bir şey var. Gecə vaxtı heç kəs meşədən qorxusuz keçə bilməz. Kölgələr və ağaclar qaranlığın təhlükəli mücəssəməsidir. Gözgörməz qaranlıqda xəyallar, kabuslar, cinlər doğar. Bir neçə addımlıqda belə kabus kimi ağıl irməz şeylər görünməyə başlayır. Fəzada – öz beynində – mürgüləyən çiçəklərin xəyalları kimi gizli və dumanlı şeylər üzdüyünü görürsən. Üfüqlərdə qorxunc kölgələr doğur. Böyük qara bir boşluğun buxarları nəfəsinə dolur. Qorxursan da, dönüb baxmaq da istəyirsən. Gecənin qaranlığında dəhşət saçan uçurumlar, kölgələr, yaxınlaşdığın zaman yox olan səssiz heykəllər, tərpənən ağaclar, qaranlıqda ələmin inikası olan qurğuşun rəngli gölməçələr, məzar kimi dərin bir sükut, hər növ məchul məxluqlar, budaqların əsrarəngiz yırğalanması, ağacların qorxunc gövdələri, xışıldayan otların uzun telləri – bütün bunların qarşısında özünü aciz hiss edirsən, elə bir qorxmaz insan yoxdur ki, bu dəhşətlərdən sarsılmasın, təşvişə düşməsin. Bu, elə iyrənc bir hissdir ki, guya, ruhun qaranlığa qovuşur. Bu qaranlıqda əriyib yox olmaq uşaq üçün təsviredilməz dərəcədə dəhşətlidir.

Meşələr sirlər, dəhşətlərlə doludur və uşaq qəlbinin incə qanadlarının titrəyişi meşənin dəhşətli qübbəsi altında can verən insanın ahına bənzər.

Kozetta öz duyğularını özü belə anlaya bilməyərək, təbiətin bu nəhayətsiz qaranlığının onu bürüdüyünü hiss edirdi. Qorxu deyil, ondan daha dəhşətli bir şey onu bürüdü. O, başdan-ayağa kimi titrəyirdi. Qəlbini buz kimi donduran bu titrəyişdə elə xariqüladə bir şey vardı ki, bunu sözlə təsvir etmək mümkün deyildir. Onun gözlərində vəhşi bir şey göründü. Ona elə gəlirdi ki, sabah həmin vaxtda yenə buraya qayıtmaq arzusundan özünü saxlaya bilməyəcəkdir.

O zaman, sanki, bir sövq-təbii ilə anlamadığı, lakin qorxduğu bu qəribə vəziyyətdən xilas olmaq üçün o, ucadan "bir, iki, üç, dörd" deyə saymağa başladı. Ona qədər saydıqdan sonra yenidən başladı. Bunun sayəsində o, varlığı yenə düzgün dərk etdi. O, bulaqdan su götürərkən islanan əllərinin keyidiyini hiss etdi. Ayağa durdu. Yenə onu qorxu bürüdü, təbii və yenilməz bir qorxu. Fikrindən yalnız bir şey keçirdi: qaçmaq, geriyə baxmadan qaçmaq, bu meşədən, bu düzdən evlərə doğru, işıqlı pəncərələrə doğru qaçmaq... Gözləri yanındakı vedrəyə sataşdı. Tenardye qarının qorxusu o qədər böyük idi ki, su vedrəsini götürmədən qaçmağa cəsarət etmədi. İki əli ilə vedrənin qulpundan yapışdı və çətinliklə qaldırdı.

Dolu vedrəni aparmaq onun üçün çox çətin idi. O, iki addım getdikdən sonra dayanıb vedrəni yerə qoymağa məcbur oldu. Nəfəsini dərdi, yenə vedrənin qulpundan yapışıb yeriməyə başladı. Bu dəfə bir qədər çox yol getdi, lakin yenə dayanmağa məcbur oldu. Bir neçə saniyə istirahət etdikdən sonra yoluna davam etdi. Kozetta bir qoca qarı kimi əyilərək və başını sallayaraq yeriyirdi. Vedrənin ağırlığı nazik qollarını dartır, gərginləşdirirdi: vedrənin dəmir qulpu keyimiş barmaqlarını üşüdürdü. Ara-sıra Kozetta dayanır və hər dəfə dayandıqca, soyuq su vedrənin kənarından tökülərək onun yalın ayaqlarını isladırdı. Bu hadisə meşənin ortasında, qış gecəsində, insan nəzərlərindən uzaq bir yerdə baş verirdi, qızcığazın ancaq səkkiz yaşı vardı. Bu ürəkparçalayan mənzərəni yalnız Tanrı görürdü.

Əfsus ki, bunu, əlbəttə, anası da görürdü!

Çünki dünyada elə şeylər olur ki, ölüləri belə öz məzarlarından ayağa qaldırır.

Kozetta xəstə bir xırıltı ilə nəfəs alır, hıçqırıqlar onu boğurdu, lakin Tenardye qarıdan o qədər qorxurdu ki, ondan uzaqda belə ağlamağa cəsarət etmirdi. Kozetta bu qadının hər zaman və hər yerdə öz yanında olduğunu duymağa adət etmişdi.

O, çox yavaş yeridiyindən az yol getmişdi. Nə qədər az dayanmağa və çox yeriməyə çalışırdısa, yenə də yol azalmırdı. Monfermeylə qədər bir saatdan artıq yol getməli olduğunu və evə qayıtdıqda Tenardye qarının onu yenə döyəcəyini düşündükcə bədəni əsirdi. Bu qorxu meşədə gecə vaxtı yapyalqız qalmaqdan hiss etdiyi dəhşəti daha da şiddətləndirirdi. Tanıdığı qoca bir şabalıd ağacına çatdıqda Kozetta yorğunluğunu daha yaxşı almaq üçün son dəfə olaraq dayandı və sonra var qüvvəsini toplayaraq vedrəni qaldırdı və cəsarətlə yola düşdü. Bununla belə, zavallı qızcığaz dərin bir məyusluqla: "Aman Allah, aman Allah!" deyə inləməkdən özünü saxlaya bilmədi.

Bu anda o, vedrənin nədənsə yüngülləşdiyini hiss etdi. Onun gözlərinə böyük görünən bir əl vedrənin qulpundan yapışdı və asanlıqla yuxarı qaldırdı. Kozetta başını qaldırdı. Qaranlıqda ucaboylu və qara bir kölgənin onunla yanaşı yeridiyini gördü. Bu, Kozettanın dalınca gələn kişi idi. Qızcığaz onun addımlarını belə duymamışdı və yanaşdığını görməmişdi. Bu adam dinməz-söyləməz vedrəni onun əlindən aldı.

Həyatın bütün hadisələrində insan təbii bir hissin xəbərdaredici səsini eşidir.

Uşaq qorxmadı.

Altıncı fəsil

BU FƏSİLDƏ BULATRUELİN, BƏLKƏ DƏ, AXMAQ OLMADIĞI TƏSDİQ OLUNUR

Həmin o gün, yəni 1823-cü ilin Milad bayramı axşamında günortadan sonra Parisdə Xəstəxana bulvarının ən tənha bir yerində bir adam xeyli vaxt olardı ki, gəzinməkdə idi. Bu, özü üçün mənzil axtaran bir adama bənzəyirdi və görünür, Sen-Marso məhəlləsinin xaraba kənarlarındakı ən sadə, kiçik evləri üstün tuturdu.

Bu adamın, doğrudan da, bu uzaq məhəllədə otaq tutduğunu aşağıda görəcəyik.

Bu adam istər paltarı və istərsə ümumi görünüşü ilə nəcib dilənçi adlana biləcək yoxsullara bənzəyirdi. Çox yoxsul olmaqla bərabər,

olduqca təmiz geyinmişdi. Bu – çox az təsadüf edilən bir haldır ki, həssas ürəklərdə bu qədər yoxsul və bu qədər ləyaqətli bir adama qarşı ikiqat hörmət oyadır. Başında, çox köhnə olsa da, tərtəmiz bir şlyapa, əynində tünd-sarı rəngli qaba bir mahuddan tikilmiş – bu rəng o zamanlar çox da qəribə görünmürdü – sürtülüb köhnəlmiş bir redinqot, köhnədəbli, cibli və qapalı bir jilet, dizlərinin rəngi qaçmış qara pantalon, qara yun corab və mis toqqalı sadə, kobud çəkmələri vardı. O, keçmişdə bir zadəgan ailəsində mürəbbilik edən bir mühacirə bənzəyirdi. Ağappaq saçları, alnının qırışları, solğun dodaqları, üzündəki ələm və yorğunluq yaşının altmışı keçmiş olduğunu göstərirdi. Ahəstə, lakin möhkəm yerişi, hər bir hərəkətində gözə çarpan böyük bir qüvvət isə olsa-olsa, əlliyaşlı bir qocanın təsirini bağışlayırdı. Alnının qırışlarında elə bir nəcabət görünürdü ki, üzünə baxanlar ona hüsn-rəğbət bəsləməyə bilməzdi. İlk baxışda sərt görünən qapalı dodaqlarında eyni zamanda məzlumluq hiss olunurdu. Dərin baxışlarında nə isə həzin bir sakitlik vardı. Sol əlində cib yaylığına sarılı balaca bir bağlı, sağ əlində isə çəpərdən çıxarıldığı hiss olunan bir ağac vardı. Bu ağac çox diqqətlə yonulmuşdu və o qədər də kobud görünmürdü; şaxları kəsilmişdi, başında isə qırmızı surğucdan düzəldilmiş və mərcana bənzəyən iri bir başlığı vardı. Bu, dəyənək idi, lakin əsaya bənzəyirdi.

Xəstəxana bulvarında, xüsusilə qış günlərində, gediş-gəliş çox az idi. Bu adam isə büruzə vermədən buna çox da təəssüf etmir, sanki, adamlara rast gəlməkdən artıq, onlardan çəkinməyə çalışırdı.

O zamanlar kral XVIII Lüdovik hər gün Şuazi-le-Ruaya gedərdi. Bu, onun ən çox sevdiyi gəzintilərdən idi, hər gün, təqribən, saat ikidə, kral ekipajı və məiyyətinin çapa-çapa Xəstəxana bulvarının yanından keçdiyini görmək olardı. Məhəllədə yaşayan yoxsullar üçün kralın bulvardan keçməsi həm divar, həm də cib saatını əvəz edirdi. Onlar deyərdilər: "Artıq saat ikidir – odur, kral Tüilriyə qayıdır".

Bəziləri onun qabağına çıxar, bəziləri isə kənara çəkilərdi, çünki hər dəfə kralın görünməsi qarışıqlığa səbəb olurdu. XVIII Lüdovikin Paris küçələrində görünməsi və yox olması müəyyən bir təsir belə bağışlayırdı. Bu keçid ani olsa da, əzəmətli idi. Bu şikəst kral yoldan sürətlə keçməyi sevərdi: yerimək iqtidarında olmadığından, o çapa-çapa keçmək istəyirdi; bu axsaq kral, mümkün olsaydı, ildırımı cilovlardı. O, mühafizlərin yalın qılıncları arasında sakitcə və sərt

bir tövrlə keçərdi. Qapıları üzərində böyük zanbaq budaqları təsvir edilmiş ağır, yaldızlı kareta gurultu ilə küçədən keçərdi. Adamlar karetanın içini ancaq ötəri görərdilər. Karetanın içində, sağ küncündə ağ ipək yastıqlar üzərində geniş, alyanaqlı, möhkəmcə bir üz, kəkilli və təzəcə pudralanmış saçlar, təkəbbürlü, qəddar və hiyləgər bir baxış, incə bir təbəssüm, mülki palları üzərinə sallanan qızıl saçaqlı iki iri epolet, Qızıl gəri ordeni, Müqəddəs Lüdovik xaçı, Fəxri legion nişanı, gümüş Müqəddəs ruh ulduzu, yekə bir qarın və geniş mavi bir orden lenti görünərdi; bu, kral idi. Şəhərdən çıxandan sonra o, ağ plümajlı[1] şlyapasını uzun ingilis getrləri[2] sarınmış dizlərinin üstündə tutardı. Şəhərə girdiyi zaman şlyapasını başına qoyar, bəzən yolçuların salamlarına cavab verərdi. Kral xalqa soyuq baxdığı kimi, xalq da ona qarşı soyuq rəftar edərdi. Kral birinci dəfə Sen-Marso məhəlləsində görünərkən, onun qazana bildiyi bütün müvəffəqiyyət bir ustanın yoldaşına söylədiyi sözlərlə öz ifadəsini tapmışdı: "Bax, bu yoğun adam hökumətdir".

Beləliklə, kralın bu məhəllədə eyni saatda görünməsi hər gün Xəstəxana bulvarı əhalisi üçün bir hadisə idi.

Görünür, sarı redinqotlu adam bu məhəllə əhalisindən deyildi. Hətta Paris əhalisindən də deyildi. Çünki bu hadisədən xəbəri yox idi. Saat ikidə, bir eskadron gümüş baftalı qvardiyaçılarla əhatə olunmuş kral karetası Salpetrieri keçərək, bulvara çatdığı zaman, sarı redinqotlu adam heyrət etmiş və hətta qorxmuşdu. Yan tərəfdəki xiyabanda ondan başqa kimsə yox idi. O, dərhal hasarın arxasında gizləndisə də, hersoq d'Avre onu gördü. Həmin gün hersoq d'Avre növbətçi qvardiya zabiti olduğundan karetada kralla üzbəüz oturmuşdu, hersoq krala xitabən: "Bu, çox şübhəli adama oxşayır!" – dedi. Kralın yolunu diqqətlə nəzərdən keçirən polislər də bu adamı gördülər və onlardan birinə yolçunu izləmək əmri verildi. Lakin sarı redinqotlu adam məhəllənin tənha küçələrinə daldığından və həmçinin artıq qaranlıq çökməyə başladığından, polis nəfəri onu gözdən itirdi. Həmin axşam daxili işlər naziri və polis prefekti qraf Anqlesə verilən raportda bu xüsusda məlumat verilirdi.

Polis nəfərini azdırandan sonra sarı redinqotlu adam addımlarını sürətləndirdi, lakin dalınca heç kəsin gəlmədiyini müəyyən etmək

[1] *Plümaj* – papağa vurulan quş lələyindən bəzək
[2] *Getr* – bax: səh. 92.

üçün dəfələrlə dönüb geri baxırdı. Saat beşə on beş dəqiqə işlədiyi zaman, yəni artıq qaranlıqlaşandan sonra bu adam Port-Sen-Marten teatrının yanından keçirdi. O gecə burada "İki katorqalı" tamaşasını verirdilər. Teatr fənərləri ilə işıqlandırılmış afişa, görünür, onu heyrətləndirmişdi. Tələsik getsə də, afişanı oxumaq üçün ayaq saxladı. Bir an sonra bu adam dar Planşet dalanına çatdı, o zaman Laniyə gedən dilican kontorunun yerləşdiyi "Qalay boşqab" mehmanxanasına daxil oldu. Dilican saat beşin yarısında yola düşürdü. Atlar qoşulmuşdu, arabaçının çağırdığı sərnişinlər köhnə yol arabasının uca dəmir pilləkənini tələsik dırmaşırdılar.

Yolçu soruşdu:

– Boş yeriniz varmı?

– Yalnız bircə yer var, o da mənim yanımda, qozlada, – deyə arabaçı cavab verdi.

– Mən o yeri götürürəm.

– Əyləşin.

Lakin arabaçı yerindən tərpənməzdən əvvəl sərnişinin sadə paltarını, boğçasını nəzərdən keçirib, pulu qabaqcadan istədi.

– Siz Laniyə qədər gedəcəksiniz? – deyə soruşdu.

Yolçu:

– Bəli, – dedi və Laniyə qədər yol pulunu verdi.

Yola düşdülər. Qarovulxananı keçəndən sonra arabaçı yolçu ilə söhbətə girişmək istədi, lakin yolçu könülsüz cavab verirdi. Arabaçı fit çalmağa və atları söyməyə başladı.

Bir az sonra arabaçı bürüncəyinə sarındı. Hava soyuq idi. Lakin yolçu heç bir şeyə əhəmiyyət vermirmiş kimi görünürdü. Beləliklə, Qurne və Nelyi-sür-Marneni keçdilər.

Axşam saat altıya yaxın Şelə çatdılar. Atları dincəltmək üçün arabaçı karetanı kral abbatlığının köhnə binasındakı meyxananın qabağında saxladı.

Yolçu:

– Mən burada düşəcəyəm, – dedi.

O, boğçası ilə ağacını götürüb dilicandan aşağı tullandı. Bir dəqiqə sonra gözdən itdi.

O, meyxanaya girmədi.

Bir qədər sonra dilican yenə Laniyə doğru yola düşdükdə, bu adama Şelin baş küçəsində də rast gəlmədilər.

Arabaçı, dilicanın içində oturan yolçulara tərəf dönərək:

– Bu adam buralı deyildir, – dedi. – Mən onu tanımıram. Zahirən pulsuz adama oxşayır, amma pula heç heyfi gəlmir. Laniyə qədər yol pulunu verdiyi halda, ancaq Şelə qədər gəldi. Gecədir, hər kəs evində, qapıların hamısı bağlıdır, amma o, meyxanaya girmədi, yolda da görünmür. Elə bil, yer yarıldı, yerə batdı.

Yolçu isə yerə-zada batmamışdı, o, qaranlıqda sürətlə Şelin baş küçəsindən keçirdi, sonra kilsəyə çatmadan sola tərəf döndü, Monfermeylə gedən torpaq yola çıxdı, sanki, bu kəndin ətraflarını yaxşı tanıyırdı və dəfələrlə burada olmuşdu.

O, sürətlə Monfermeyl yolu ilə getməyə başladı. Bu yolun Qanidən Laniyə gedən ətrafı ağaclı köhnə şoseyə çıxdığı yerində ayaq səsləri eşitdi. Tələsik özünü bir xəndəyə verdi, yolçuların gəlib-keçməyini gözlədi. Söylədiyimiz kimi, dekabr ayının soyuq və qaranlıq gecələrindən biri olduğu üçün, bu ehtiyat artıq idi. Göydə ancaq iki, ya üç ulduz parlayırdı.

Elə həmin bu yerdə yoxuş başlayırdı. Lakin yolçu Monfermeyl yolu ilə düz getmədi. O, sağa döndü, tarlalardan keçib meşəyə girdi.

Meşədə yavaş-yavaş yeriməyə başladı. Diqqətlə hər bir ağaca baxır, addım-addım irəliləyir, sanki, bir şey axtarır və yalnız özünün bildiyi gizli bir yolla gedirdi. Birdən yolunu azmış kimi mütərəddid bir halda dayandı. Ehmal-ehmal yeriyərək, nəhayət, qaranlıqda ağaran bir yığın daşın yanına çatdı. Tələsik bu daşlara yanaşdı, gecənin dumanlı olmasına baxmayaraq, diqqətlə bu daşları gözdən keçirdi. Bu daş yığınından bir neçə addım o tayda, qocalıq əlaməti kimi düyünlərlə dolu iri bir ağac vardı. Yolçu ağaca yanaşıb, əlini ağacın gövdəsinə sürtdü, sanki, ağacın qabığındakı düyünləri yoxlamaq və saymaq istəyirdi.

Bu, göyrüş ağacı idi. Onun qarşısında bir şabalıd ağacı daha vardı. Ağaca xəstəlik düşdüyündən, qabığı soyulurdu. Üstünə sarğı əvəzinə bir sink parçası mıxlanmışdı. Yolçu pəncəsi üstə qalxaraq, bu sink parçasına toxundu.

Sonra o, ağacla daş yığını arasındakı yeri bir neçə dəfə dolaşdı, sanki, bu yerin qazılıb-qazılmadığını yoxlamaq istəyirdi.

Bunu edəndən sonra ətrafına baxdı, yenə meşə ilə yoluna davam etdi.

Bu, bir az bundan əvvəl Kozettaya rast gələn adam idi.

Monfermeylə doğru gedib ağacların arasından keçərkən, inildəyə-inildəyə yeriyən balaca bir kölgəyə rast gəldi. Bu kölgə gah dayanıb yükünü yerə qoyur, gah da yenə götürüb, yoluna davam edirdi. Yolçu yaxınlaşdıqda bu kölgənin böyük bir su vedrəsi aparan balaca bir qız olduğunu gördü. O, dərhal qızcığaza yanaşaraq, dinməz-söyləməz vedrənin qulpundan yapışdı.

Yeddinci fəsil

KOZETTA QARANLIQDA NAMƏLUM ADAMLA YOL GEDİR

Dediyimiz kimi, Kozetta qorxmadı.

Yolçu onunla danışmağa başladı. Səsi sakit və ciddi idi.

– Bala, bu yük sənin üçün çox ağırdır.

Kozetta başını qaldıraraq cavab verdi:

– Bəli, cənab.

O:

– Ver, mən götürüm, – dedi.

Kozetta vedrənin qulpunu buraxdı. Yolçu onunla yan-yana yeriməyə başladı. Öz-özünə:

– Doğrudan da, bu, çox ağırdır, – deyə mızıldandı. Sonra qızdan soruşdu:

– Balaca, sənin neçə yaşın var?

– Səkkiz yaşındayam, cənab.

– Haradan gəlirsən?

– Meşədəki bulaqdan.

– Yolun çox uzaqdır?

– Hələ on beş dəqiqəlik yolum var.

Yolçu bir az sükut etdikdən sonra birdən soruşdu:

– Demək, sənin anan yoxdur?

– Bilmirəm, – deyə uşaq cavab verdi və yolçu hələ ona söz söyləməyə macal tapmadan əlavə etdi:

– Mənə elə gəlir ki, anam yoxdur. Hamının anası var, amma mənim anam yoxdur.

Bir az susduqdan sonra, yenə davam etdi:

– Yəqin, mənim heç vaxt anam olmamışdır.

Yolçu dayandı. Vedrəni yerə qoydu, uşağa tərəf əyilib çiyinlərindən tutdu, diqqətlə üzünə baxdı. Qaranlıqda, sanki, onu tanımaq istəyirdi.

Kozettanın arıq və zavallı üzü göyün ağımtıl boz işığında tutqun bir şəkildə görünürdü.

– Sənin adın nədir?

– Kozetta.

Yolçu, ildırım vurmuş kimi diksindi. O, yenə uşağın üzünə baxdı, əllərini Kozettanın çiyinlərindən götürərək, vedrəni qaldırdı və addımladı.

Bir az sonra o soruşdu:

– Balaca, bəs sən harada olursan?

– Monfermeyldə. Bilirsinizmi, haradadır?

– Bu saat biz oramı gedirik?

– Bəli, cənab.

Bir az da keçdi. Yolçu yenə soruşdu:

– Bəs səni bu gecə vaxtında su üçün meşəyə kim göndərmişdir?

– Madam Tenardye.

Yolçu soyuqqanlılıqla danışmağa çalışırdısa da, səsində nədənsə qəribə bir titrəyiş vardı.

– Bu madam Tenardye nə ilə məşğuldur?

– O, mənim xanımımdır, – deyə uşaq cavab verdi. – Karvansara saxlayır.

– Karvansara? – deyə yolçu təkrar soruşdu. – Yaxşı oldu, bu gecəni mən də oraya gedərəm, – dedi.

Qız:

– Biz indi oraya gedirik, – dedi.

Yolçu xeyli sürətlə yeriyirdi, lakin Kozetta da ondan geri qalmırdı. Qızcığaz artıq yorğunluq hiss etmirdi. Ara-sıra sakit-sakit və nə isə sonsuz bir etimadla yolçuya baxırdı. Heç kəs ona dua etməyi öyrətməmişdi. Lakin o, göylərə çevrilmiş ümid və sevinc hissinə bənzəyən bir şey hiss edirdi.

Bir neçə dəqiqə keçdi. Yolçu yenə dilləndi:

– Məgər madam Tenardyenin qulluqçusu yoxdur?

– Yox, cənab.

– Elə tək sənsən?

– Bəli, cənab.

Yenə susdular. Sonra Kozetta dedi:

– Onun iki balaca qızı daha var.

– Hansı balaca qızlar?

– Polina və Zelma.

Meyxanaçıya bu qədər xoş gələn bu romantik adları Kozetta bu cür sadələşdirirdi.

– Bəs bu Polina ilə Zelma kimdir?

– Bunlar madam Tenardyenin qızlarıdır.

– Bəs bu qızlar nə edir?

– Ah! – deyə Kozetta səsləndi. – Onların gözəl kuklaları var, cürbəcür parıldayan oyuncaqları var. Onlar oynayır, əylənirlər...

– Elə bütün günü?

– Bəli, cənab.

– Bəs sən?

– Mən işləyirəm.

– Bütün günümü?

Qız iri gözlərini qaldırdı, yolçuya baxdı, gözlərində yaş vardı, lakin gecənin qaranlığında görünmürdü. Acizanə bir səslə cavab verdi:

– Bəli, cənab.

Bir az susduqdan sonra Kozetta əlavə etdi:

– Hərdənbir, işimi qurtaranda icazə versələr, mən də oynayıram.

– Bəs sən necə oynayırsan?

– Elə bildiyim kimi. Bir söz demirlər. Ancaq mənim oyuncağım azdır. Polina ilə Zelma istəmirlər ki, mən onların kuklaları ilə oynayım. Mənim ancaq bir balaca qalay qılıncım var, bax bu boyda.

Qız çeçələ barmağını göstərdi.

– Qılıncın bir şey kəsirmi?

– Bəli, cənab, – deyə qız cavab verdi. – Qılıncım salat kəsir, bir də milçək başı kəsir...

Kəndə çatdılar. Kozetta yolçunu küçələrlə apardı. Onlar çörəkxananın yanından keçdilər, lakin Kozettanın çörək almalı olduğu yadına düşmədi. Yolçu artıq ondan bir şey soruşmurdu. O, kədərli bir sükuta dalmışdı. Kilsəni keçəndən sonra yolçu açıq havada qurulmuş dükanları görüb, soruşdu:

– Burada bazarmı açılmışdır?

– Xeyr, cənab, Milad bayramıdır.

Mehmanxanaya bir neçə addım qaldıqda, Kozetta qorxa-qorxa yolçunun əlinə toxundu:

– Cənab! – dedi.

– Nə var, bala?

– İndi lap evə çatmışıq.

– Nə olsun ki?

– İndi mən vedrəni sizdən ala bilərəmmi?

– Nə üçün?

– Xanım görsə ki, vedrəni gətirəndə mənə kömək ediblər, məni döyər.

Yolçu vedrəni Kozettaya verdi. Bir dəqiqə sonra artıq onlar meyxananın qapısında idilər.

Səkkizinci fəsil

VARLI OLA BİLƏCƏK BİR YOXSULU QƏBUL ETMƏYİN PİS CƏHƏTLƏRİ

Kozetta oyuncaq dükanının pəncərəsində hələ də görünən böyük kuklaya oğrun-oğrun baxmaqdan özünü saxlaya bilmədi, sonra qapını döydü. Qapı açıldı. Meyxanaçı qarı əlində şam qapının ağzında göründü.

– Sənsən, avara? Axır ki, gəlib çıxdın! Harada itib-batmışdın? Haraları gəzirdin, utanmaz!?

Kozetta qorxusundan titrəyərək:

– Xanım, – dedi, – bu cənab gecəni sizdə qalmaq istəyir.

Tenardye qarının üzündəki kobudluq birdən silindi, o, iltifatla irişməyə başladı – bir anda dəyişmək meyxanaçılara xas olan bir şeydir. O, acgözlüklə yolçunu nəzərdən keçirirdi.

– Sizsinizmi, cənab? – dedi.

– Bəli, xanım, – deyə yolçu cavab verdi və əlini şlyapasına toxundurdu.

Varlı səyyahlar bu qədər nəzakətli olmurlar. Səyyahın bu hərəkəti, gözdən keçirilmiş paltarı və boğçası Tenardye qarını məyus

etdi. Nəvazişli irişmə üzündən yox oldu. Üzündə yenə kobud bir ifadə göründü. Quru bir səslə:

– Buyurun, – dedi.

Yolçu içəri girdi. Tenardye qarı bir daha ona baxdı, xeyli sürtülmüş redinqotuna, bir qədər əzilmiş şlyapasına xüsusi diqqət etdi, sonra başı ilə ona tərəf işarə edərək üzünü turşutdu və hələ də arabaçılarla içki içən ərinə göz vurub sualedici nəzərlə ona baxdı.

Əri buna cavab olaraq baş barmağını yavaşca oynatdı, dodaqlarını büzdü, bu isə: "Lütün birisidir!" demək idi. Bundan sonra Tenardye qarı:

– Vay, – dedi, – nə pis oldu, bizim heç boş otağımız yoxdur.

Yolçu:

– Məni istədiyiniz yerdə yerləşdirə bilərsiniz, – dedi, – istəyirsiniz çardaqda, istəyirsiniz tövlədə, mənim üçün fərqi yoxdur. Mən yenə ayrıca otağın pulunu verə bilərəm.

– Qırx su.

– Qırx su? Razıyam.

– Yaxşı.

Arabaçılardan biri Tenardye qarıya xəlvətcə pıçıldayaraq:

– Necə yəni qırx su? – dedi. – Otağın qiyməti ancaq iyirmi su deyilmi?

Tenardye qarı yavaşcadan cavab verdi:

– Bəli, ancaq bunun üçün otağın qiyməti qırx sudur. Mən yoxsullara bundan ucuz otaq vermirəm.

Bu halda əri mülayim bir səslə dedi:

– Doğru deyir, belə adamları gecələməyə buraxmaq karvansaranın nüfuzunu aşağı sala bilər.

Bu halda yolçu boğçası ilə ağacını oturacağın üstünə qoyub, masanın yanında əyləşdi. Kozetta dərhal masanın üstünə bir şüşə şərab və bir stəkan qoydu. Atı üçün su tələb edən alverçi, atını özü sulamağa getdi. Kozetta yenə mətbəx masasının altındakı yerində oturub, corab hörməyə başladı.

Yolçu özünə şərab süzdü və bir qurtum içib, qəribə bir diqqətlə uşağı nəzərdən keçirməyə başladı.

Kozetta gözəl deyildi. Lakin o xoşbəxt olsaydı, bəlkə də, sevimli olardı. Onun kiçik ələmli simasını sizə artıq ümumi şəkildə təsvir etmişdik. Kozetta arıq və solğunbənizli bir qız idi. Səkkiz yaşı vardı,

lakin ona altı yaşdan artıq vermək olmazdı. Qara dairə ilə əhatə olunmuş iri gözləri daim ağlamaqdan sönük görünürdü. Bu ifadə ölümə məhkum edilənlərdə və ümidsiz xəstələrdə olur. Əllərinin dərisi, anasının hiss etdiyi kimi, "soyuqdan çat-çat" olmuşdu. Alovun şöləsi Kozettanın üzünə düşərək son dərəcə arıq vücudunu daha da aydın göstərirdi. Onun sümüklərini bir-bir saymaq olardı. Daim soyuqdan titrədiyi üçün dizlərini bir-birinə sıxmağı vərdiş eləmişdi. Paltarı cır-cındırdan ibarət idi, bu paltar yayda mərhəmət, qışda isə dəhşət oyadırdı. Əynində bir parça yun şey yox idi, cındırlarının hamısı kətandan idi. Yırtıqlar arasından bədəni görünürdü; bu açıq yerlərdə göy, ya qara ləkələr gözə çarpırdı ki, bu da Tenardye qarının şapalaq izləri idi. Nazik, yalın ayaqları soyuqdan qıpqırmızı olmuşdu. Batıq sinəsini gördükdə adamın ona ağlamağı gəlirdi. Bu uşağın bütün siması: yerişi, hərəkətləri, səsi, qırıq-qırıq danışması, baxışı, sükutu, hər bir hərəkəti yalnız bir şeyi ifadə edir və büruzə verirdi ki, bu da qorxu hissi idi.

Qorxu Kozettanın bütün vücuduna yayılmışdı, sanki, onun bütün varlığını qorxu bürümüşdü. Qorxu onu dirsəklərini yanına sıxmağa, ayaqlarını tumanının altında gizlətməyə, mümkün qədər az yer tutmağa vadar edirdi, o, nəfəs almağa belə qorxurdu. Qorxu, demək olar ki, onun bədəni üçün bir vərdiş olmuşdu, o yalnız arta bilirdi. Gözlərinin dərinliyində isə dəhşət gizlənmişdi.

Bu qorxu o qədər böyük idi ki, üstü-başı islanmış bir halda evə qayıtdıqdan sonra belə, Kozetta cındırlarını qurutmaq üçün ocağın yanına yanaşmağa cəsarət etmədi, yavaşca oturub işləməyə başladı.

Bu səkkizyaşlı qızın nəzərləri elə ələmli, hətta o qədər faciəli idi ki, bəzən onu ağlı zəifləməyə, yaxud dəli olmağa başlayan bir adama bənzətmək olardı.

Söylədiyimiz kimi, Kozetta dua nə olduğunu heç bilmirdi, ömründə bir dəfə belə kilsəyə ayaq basmamışdı. Tenardye qarı: "Bunun üçün vaxtım haradadır?" – deyərdi.

Sarı redinqotlu adam Kozettadan gözlərini ayırmırdı. Birdən meyxanaçı qarı səsləndi:

– Yaxşı, bəs çörək necə oldu?

Kozetta xanımının səsini eşidincə, adəti üzrə, dərhal masanın altından çıxdı.

O, çörəyi lap yaddan çıxarmışdı. O, gözüqorxmuş uşaqların adəti olan bir hiyləyə əl atdı, yalan danışdı:

– Xanım, çörəkxana bağlı idi.

– Qapını döyəydin.

– Döydüm, xanım.

– Bəs nə oldu?

– Qapını açmadılar.

Tenardye qarı:

– Mən sabah soruşaram görüm sən doğru deyirsən, yoxsa yalan, – dedi. – Yalan danışmış olsan, görərsən sənə nə divan tutacağam. İndi isə on beş sunu bəri ver.

Kozetta əlini döşlüyünün cibinə saldı. Ölü kimi saraldı. Pul cibində deyildi.

Tenardye qarı hiddətlə bağırdı:

– Eşitmirsən, sənə nə deyirəm? Karsan?

Kozetta cibini tərsinə çevirdi. Cibi boş idi. Pul necə ola bilərdi? Zavallı qızcığaz nə edəcəyini bilmirdi, donub qalmışdı.

Tenardye qarı xırıltılı bir səslə:

– Demək, pulu itirmisən? Tam on beş su? Bəlkə, sən bu pulu məndən oğurlamaq istəyirsən?

Qarı əlini dərhal ocağın üstündən asılmış qamçıya uzatdı.

Bu qorxunc hərəkət Kozettanın dilini açdı, ondan bir nalə qopdu: “Bağışlayın, bağışlayın! Mən bir də belə şey etməyəcəyəm!”

Tenardye qarı qamçını əlinə aldı.

Bu halda sarı redinqotlu adam xəlvətcə jilet cibini eşələməyə başladı. Səyyahlar içməklə məşğul olduqları üçün, heç bir şeyə əhəmiyyət vermirdilər.

Kozetta dəhşət içərisində ocağın yanında bir küncə büzüşüb, yarıçılpaq yazıq vücudunu gizlətməyə çalışırdı. Meyxanaçı qarı əlini qaldırdı.

Birdən yolçu:

– Bağışlayın, xanım, – dedi, – mən bu saat bu balacanın döşlüyünün cibindən bir şey düşüb yuvarlandığını gördüm. Bəlkə, axtardığınız pul odur?

Yolçu tez əyilib döşəmənin üstündə, guya, bir şey axtarmağa başladı. Sonra:

– Elədir ki var, alın, – dedi və belini düzəldib gümüş pulu Tenardye qarıya uzatdı.

Tenardye qarı sevinclə:

– Həmin puldur! – deyə səsləndi.

Əlbəttə, bu "həmin pul" deyildi, yolçu ona iyirmisuluq gümüş bir pul vermişdi, lakin bu, Tenardye qarı üçün mənfəətli olduğuna görə etiraz etmədi. Pulu cibinə qoydu və acıqlı bir nəzərlə uşağa baxaraq: "Bax axırıncı dəfə olsun!" – dedi.

Kozetta yenə, Tenardye qarının dediyi kimi, öz "yuvasına" girdi. Qızın yolçuya baxan iri gözləri yavaş-yavaş tamamilə qəribə bir ifadə alırdı. Hələlik bu sadə bir heyrət idi, lakin ona biixtiyar bir etimad qarışmışdı.

Tenardye qarı yolçudan soruşdu:

– Siz yemək istəyirsinizmi?

Yolçu cavab vermədi. O, sanki, dərin fikrə dalmışdı.

Tenardye qarı öz-özünə mırıldanaraq;

– Bu adam, görəsən, kimdir? – dedi. – Əminəm ki, yeməyə pulu belə yoxdur. Heç olmasa, yataq pulunu verəydi. Hələ yaxşı ki, mənim bəxtimdən, yerdən tapdığı pulu oğurlamadı.

Bu halda qapı açıldı, Eponina ilə Azelma içəri girdilər.

Bunlar ikisi də qəşəng, çox sevimli qızlardı, kəndli qızından artıq şəhərli qızlarına bənzəyirdilər. Birinin şabalıdı rəngli parlaq hörükləri, o birinin isə belinə qədər tökülən uzun qara saçları vardı. İkisi də şən, tərtəmiz, gümrah və sağlam görünürdü. Onlara baxdıqda adamın könlü açılırdı. Onlar qalın geyinmişdilər, lakin analarının ustalığı sayəsində parçanın qalınlığı paltarın qəşəngliyini azaltmırdı. Paltarları qışa uyğun olsa da, zərifliyi ilə yaz paltarının təsirini bağışlayırdı. Bu iki uşaq nur saçırdı. Bundan başqa, onlar bu yerin hökmdarı idilər. Geyimlərində, şənliklərində, səs-küylərində öz ali hakimiyyətlərini dərk etdikləri hiss olunurdu. İçəri girdikləri zaman, Tenardye qarı onları: "Nəhayət, siz də buyurdunuz!" sözləri ilə qarşılamışdı. Bu sözlər bir az məzəmmətlə söylənilmiş olsa da, məhəbbət və pərəstişlə dolu idi.

O, qızların ikisini də qucağına aldı, saçlarını növbə ilə hamarladı, lentlərini düzəltdi, bir ana məhəbbəti ilə oxşayıb yerə qoydu və dedi:

– Qəşəngdirlər, buna söz ola bilməz!

Qızlar bucaqda, ocağın yanında oturdular. Əllərində bir kukla vardı, kuklanı gah o, gah da bu özünə tərəf dartır, dizlərinə alıb

şən-şən gülüşürdülər. Ara-sıra Kozetta işindən ayrılaraq, başını qaldırır və kədərli nəzərlərlə oynaşan qızlara baxırdı.

Eponina ilə Azelma Kozettaya heç fikir vermirdilər. Kozetta onların nəzərində küçük kimi bir şey idi. Bu üç uşağın birlikdə ancaq iyirmi dörd yaşı olardı, onlar isə artıq insan cəmiyyətini təmsil edirdi: bir tərəfdə həsəd, o biri tərəfdə isə sayğısızlıq vardı.

Tenardye bacılarının kuklası solub-saralmış lap köhnə, qırıq-sökük bir şey idi, lakin bununla belə o, Kozettanın gözlərində cazibədar görünürdü – axı onun bütün ömrü boyu kuklası, bütün uşaqların anlaya biləcəyi bir dillə söyləsək, əsl kuklası olmamışdı.

Birdən otaqda oyan-buyana gəzinən Tenardye qarı Kozettanın əyləndiyini və işləmək əvəzinə oynaşan uşaqlara baxdığını gördü.

– Bu nədir? – deyə o bağırdı. – Lap yerində tutmuşam. Sən bələmi işləyirsən? Dayan, qamçını götürüm, onda bilərsən bekar durmaq necə olar!

Yolçu stuldan qalxmayaraq, Tenardye qarıya tərəf döndü və bir az cəsarətlə gülümsəyərək:

– Xanım, – dedi, – nə olar ki, qoyun oynasın!

Bu qonaq bir parça qızartma ət yemiş və iki şüşə şərab içmiş olsaydı və bu qədər yoxsul təsiri bağışlamasaydı, bu arzu Tenardye qarı üçün bir əmrə bərabər olardı. Lakin köhnə şlyapalı bir adamın cürət edib bir şey arzu etməsinə, bu qədər köhnə bir redinqotu olan bir adamın öz iradəsini bildirməsinə Tenardye qarı yol verə bilməzdi. O, kəskin cavab verdi:

– Qız mənim çörəyimi yeyir, ona görə də işləməlidir. Mən ona avara-avara gəzmək üçün çörək vermirəm.

Yolçu, dilənçi paltarı və geniş hambal çiyni ilə qəribə bir təzad təşkil edən yumşaq bir səslə:

– O, nə edir ki? – deyə soruşdu.

Tenardye qarı ona cavab verməyə tənəzzül etdi:

– Nə etdiyini bilməkmi istəyirsiniz? Corab toxuyur. Mənim qızlarım üçün corab toxuyur. Köhnələri, az qala, yırtılmışdır. Bir az sonra uşaqlar büsbütün ayaqyalın qala bilər.

Yolçu Kozettanın qızarmış, yalın ayaqlarına baxdı və sözünə davam edərək:

– Bəs bu corabları o, nə zaman toxuyub qurtaracaq?

– Bunun kimi tənbəllər, ən azı, üç-dörd günə toxuya bilərlər.

– Bəs bu corablar hazır olandan sonra nə qədər qiyməti olacaq?

Meyxanaçı qadın onu həqarətlə süzdü:

– Ən azı otuz su.

– Siz bu corabları mənə beş franka sata bilərsinizmi? – deyə yolçu yenə soruşdu.

Bu söhbəti eşidən bir arabaçı kobud bir qəhqəhə ilə gülərək bağırdı:

– Lənət şeytana! Beş frank? Belə də şey olar? Əlbət ki, beş dənə gümüş pul!

Tenardye söhbətə qarışmağı lazım bildi.

– Yaxşı, cənab. Əgər belə arzunuz varsa, bu corabları sizə beş franka sata bilərlər. Biz qonaqlarımızın heç bir arzusunu rədd etmirik.

Tenardye qarı qəti və kəskin bir səslə:

– Ancaq pulu nağd verəcəksiniz! – dedi.

Yolçu cibindən beşfranklıq bir pul çıxarıb, masanın üstünə qoydu:

– Mən bu corabları alıram, – dedi. – Bu da onun pulu.

Sonra isə Kozettaya tərəf dönərək:

– İndi sənin görəcəyin iş mənimdir, – dedi, – Get, bala, oyna!

Arabaçı bu beş frankı gördükdə, o qədər mütəəssir olmuşdu ki, şərabdan əl çəkib, pula baxmaq üçün yerindən sıçradı.

– Lap gerçəkmiş! – deyə bağırdı. – Doğrudan da, beşfranklıq gümüş pul! Qəlp də deyil!

Tenardye yaxınlaşaraq, dinməz-söyləməz pulu götürüb jiletinin cibinə qoydu.

Tenardye qarının deyəcək bir sözü qalmamışdı. O, dodaqlarını gəmirirdi, üzündə kin əlaməti vardı.

Kozetta titrəyirdi. Lakin yenə də sual verməyə cəsarət etdi:

– Xanım, bu doğrudur? Mən oynaya bilərəm?

Tenardye qarı hiddətlə cavab verdi:

– Oyna!

Kozetta:

– Sağ ol, xanım! – dedi.

Lakin dodaqları xanımına təşəkkür söylədiyi halda, onun balaca qəlbi yolçuya təşəkkür edirdi.

Tenardye yenə içməyə başladı. Arvadı ona yaxınlaşıb qulağına pıçıldadı:

– Bu sarı adam kim ola bilər?

Tenardye əzəmətli bir tövrlə:

– Mən elə bu cür redinqotlar geyinən milyonerlərə rast gəlmişəm, – dedi.

Kozetta artıq corab toxumurdu, lakin yenə də yerindən durmamışdı. O, həmişə çox az hərəkət etməyə çalışırdı. Arxa tərəfində duran qutudan bir neçə köhnə parça qırığı və qalay qılıncını çıxartdı.

Eponina ilə Azelma ətrafda nə olduğuna fikir vermirdilər. Onlar indicə olduqca məsul bir işi başa çatdırmış – pişiyi tutmuşdular. Yaşca daha böyük olan Eponina kuklanı yerə ataraq pişiyin miyoldamasına və gərgin hərəkətlərinə baxmadan onu göy və qırmızı əsgiyə bələməklə məşğul idi. Bu ciddi və çətin işə başı qarışan Eponina bacısı ilə nazlı və cazibədar bir uşaq dilində söhbət edirdi. Kəpənək qanadlarına əl vuranda gözəlliyini itirdiyi kimi, uşaq söhbətini də təsvir etmək istəyəndə füsunkarlığı yox olur.

– Bilirsənmi, bacıcan, bax bu kukla o birisindən daha gülməlidir. Bax, gör necə tərpənir, civildəyir, özü də lap istidir. Bacıcan, bilirsənmi nə var, gəl onunla oynayaq. O, mənim qızım olsun. Mən də xanım olum. Mən sənə qonaq gələrəm, sən də ona baxarsan. Sonra sən yavaş-yavaş onun bığlarını görərsən, təəccüblənərsən. Sonra da qulaqlarını sənə göstərərəm, lap çox təəccüblənərsən. Sən mənə deyərsən: "Aman Allah!" Mən də sənə deyəcəyəm: "Bəli, xanım, bu, mənim balaca qızımdır. İndi balaca qızların hamısı belədir".

Azelma heyran-heyran Eponinanın sözlərinə qulaq asırdı.

Sərxoşlar isə bu halda biədəb bir mahnı oxumağa başladılar. Bərkdən elə gülürdülər ki, divarlar belə titrəyirdi. Tenardye də onları qızışdırır və həvəslə onlara səs verirdi.

Quşcuğazlar hər şeydən yuva tikdikləri kimi, uşaqlar da hər şeydən gəlin düzəldirlər. Azelma ilə Eponina pişiyi bələdikləri zaman, Kozetta da öz qılıncını bələyirdi. Qılıncı bələyib qurtardıqdan sonra qolları üstünə aldı və yavaş səslə layla deməyə başladı.

Kukla qızlar üçün ən zəruri ehtiyaclardan biri, həm də qızlarda ən gözəl qadın hisslərinin mücəssəməsidir. Oxşamaq, bəzəmək, geyindirmək, soyundurmaq, öyüd-nəsihət vermək, bir az danlamaq, yatızdırmaq, sığallamaq, yırğalamaq, bir şeyin bir kəs olduğunu təsəvvür etmək – qadının bütün gələcəyi bundan ibarət deyilmidir? Arzu edə-edə, danışa-danışa, gəlin cehizi və uşaq əsgisi hazırlaya-hazırlaya, paltar, xırdaca kofta tikə-tikə, körpə uşaq balaca qıza, balaca qız

böyük qıza, böyük qız isə qadına çevrilir. Birinci uşaq – sonuncu kukla deməkdir.

Kuklasız balaca qızcığaz uşaqsız qadın kimi təsəvvür edilə bilməyəcək dərəcədə bədbəxt bir insandır.

Kozetta da qılıncdan özünə kukla düzəltmişdi.

Bu halda Tenardye qarı sarı redinqotlu adama yaxınlaşdı. "Ərim haqlıdır, – deyə o, qərar verdi, – bəlkə, bu elə cənab Lafitin özüdür. Dünyada axı varlı sarsaqlar da olur".

O, masaya dirsəkləndi.

– Cənab... – dedi.

"Cənab" sözünü eşidən yolçu başını çevirdi. Bu vaxta qədər Tenardye qarı ona "əzizim" deyə müraciət edirdi.

Meyxanaçı qadın əvvəlki kobudluğundan daha mənfur görünən şit bir nəzakətlə sözünə davam edərək:

– Cənab, – dedi, – bilirsinizmi, mən bu uşağın oynamağına heç etiraz etmirəm, özüm də elə istəyirəm ki, o oynasın, lakin bu ancaq bir dəfə yaxşı ola bilər. Siz alicənab adamsınız. Lakin bilirsinizmi? Bu, yetim bir qızdır. O işləməlidir.

Yolçu:

– Demək, bu sizin uşağınız deyildir? – deyə soruşdu.

– Yox, cənab, Allah eləməsin! Bu bir yoxsul qızdır, yazığımız gəldi saxladıq. Bir az sərsəm kimidir. Yəqin ki, başında su var. Görürsünüz, başı necə iridir. Əlimizdən gələni onun üçün edirik, lakin özümüz də varlı deyilik. Budur, altı aydır ki, vətəninə hey məktub yazırıq, heç bir cavab vermirlər. Görünür, anası ölmüşdür.

Yolçu;

– Belə! – dedi və yenə fikrə daldı.

Meyxanaçı qarı isə əlavə etdi:

– Görünür, çox yaxşı ana imiş ki, öz uşağını atıb gedib.

Bütün bu söhbət müddətində Kozetta onun haqqında söhbət getdiyini anlayırmış kimi, gözlərini Tenardye qarının üzündən ayırmırdı. Lakin fikri dağınıq olduğundan, onu diqqətlə dinləmirdi, qulağına yalnız ayrı-ayrı sözlər çatırdı.

Qonaqlar isə sərxoş olduqlarından, öz biədəb nəqarətlərini ikiqat həvəslə təkrar edirdilər. Bu, son dərəcə ədəbsiz bir şey idi, Həzrət Məryəmi və balaca İsanı belə buraya qatmışdılar. Meyxanaçı qarı ümumi şənlikdə iştirak etmək məqsədilə onların yanına getdi.

Kozetta masanın altında oturub, hərəkətsiz gözlərində əks edən ocağa baxırdı. Özü üçün bir bəbə düzəltdiyi və bələdiyi qılıncı qucağında yırğalayır və layla deyərək oxuyurdu: "Mənim anam ölmüşdür! Mənim anam ölmüşdür!.. Mənim anam ölmüşdür!"

Meyxanaçı qarının bir çox yeni təkidlərindən sonra, "milyoner" sayılan sarı redinqotlu adam, nəhayət, şam etməyə razı oldu.

– Nə buyurursunuz?

– Bir az çörək və pendir verin, – deyə o cavab verdi. "Bu adam, yəqin, dilənçidir" – Tenardye qarı qərar verdi. Sərxoşlar öz mahnılarını, Kozetta da masa altında öz mahnısını oxuyurdu.

Birdən Kozetta səsini kəsdi, dönüb döşəmənin üstündə Tenardye qızlarının unutmuş olduqları kuklanı gördü; qızcığazların başı pişiyə qarışdığından, kuklalarını mətbəx masasının yanına atmışdılar.

Kozetta bələkli qılıncını yerə qoydu: bu oyuncaq onu qane etmirdi. Sonra yavaşcadan otağa göz gəzdirdi. Tenardye qarı əri ilə pıçıldaşır və pulları sayırdı. Eponina ilə Azelma pişik balası ilə oynayırdılar. Qonaqlardan kimi yeyir, kimi içir, kimi isə mahnı oxuyurdu – ona fikir verən yox idi. Bir dəqiqəni belə fövtə vermək olmazdı. Kozetta imələyərək, masanın altından çıxdı, bir daha baxıb heç kəsin onu görmədiyini yəqin etdikdən sonra tez dizi üstə kuklaya tərəf süründü və onu götürdü. Bir an sonra o, yenə öz yerində idi və qucağında tutduğu kukla görünməsin deyə arxasını işığa doğru çevirərək oturmuşdu. Kukla ilə oynamaq qız üçün elə nadir bir səadət idi ki, başı tamamilə bu işə qarışmışdı.

Öz pendir-çörəyini yavaş-yavaş yeməkdə olan yolçudan başqa heç kəs bunu görmədi.

Bu səadət on beş dəqiqəyə qədər davam etdi.

Lakin Kozetta nə qədər ehtiyatlı olsa da, kuklanın bir ayağının açıqda qalıb üstünə ocağın işığı düşdüyünü görməmişdi. Qaranlıqda görünən bu parlaq çəhrayı ayaq birdən-birə Azelmanın gözlərinə sataşdı. Azelma Eponinaya dedi: "Bacı, bir bax, bir bax!"

Qızlar çaşıb qaldılar. Kozetta onların kuklasını götürməyə cəsarət etmişdi!

Eponina ayağa durdu, pişiyi əlindən buraxmayaraq, anasının yanına gəldi və tumanını dartmağa başladı.

Anası:

– Əl çək məndən, qoy rahat oturum, – dedi. – Yenə nə istəyirsən?

Qız:

– Ana, – dedi, – bir bax! – və barmağı ilə Kozettanı göstərdi. Kozetta isə o qədər xoşbəxt idi ki, heç bir şey görmür, heç bir şey eşitmirdi.

Tenardye qarının üzündə, həyatda ən xırda bir səbəbdən qızışan və "ifritə" adı ilə şöhrət qazanan qadınların üzündə olan bir ifadə göründü.

Bu dəfə qüruruna toxunulmuş olduğundan həddindən artıq qəzəblənmişdi: Kozetta artıq hər bir həddi aşmışdı. Kozetta "xanım qızların" oyuncağını götürməyə cəsarət etmişdi!

Rus çariçası görsə idi ki, sadə bir kəndli onun şahzadə oğlunun göy orden lentini döşünə taxır, bu qədər hiddətlənməzdi.

Qəzəbindən xırıldayan bir səslə o:

– Kozetta! – deyə bağırdı.

Kozettanın, elə bil, ayaqları altından yer tərpəndi. O diksinərək səsə tərəf döndü.

Meyxanaçı qadın təkrar bağıraraq;

– Kozetta! – dedi.

Kozetta ümidsiz bir pərəstişlə kuklanı götürdü və böyük bir ehtiyatla onu yerinə qoydu. Sonra, gözlərini kukladan ayırmadan, əllərini sıxaraq qoynuna qoydu. Səkkiz yaşında bir uşağın əllərini qoynuna qoyması dəhşətli bir mənzərə idi. Bütün bir gün ərzində başına gələn şeylərin heç biri: nə meşəyə səyahəti, nə dolu vedrənin ağırlığı, nə pulun itməsi, nə qamçının acısı, nə də Tenardye qarının söylədiyi və öz qulağı ilə eşitdiyi ələmli sözlər – heç bir şey onu ağlada bilməmişdi, lakin burada Kozetta artıq özünü saxlaya bilmədi. O, hönkür-hönkür ağlamağa başladı.

Yolçu ayağa durdu.

– Nə olmuşdur? – deyə soruşdu.

Meyxanaçı qadın Kozettanın ayaqları yanındakı kuklanı bir cinayət sübutu kimi göstərərək:

– Nə olacaq? – dedi. – Görürsünüzmü?

Yolçu yenə soruşdu:

– Nə olsun ki?

– Bu murdar qız, – deyə Tenardye qarı cavab verdi, – mənin qızlarımın kuklasına toxunmağa cürət etmişdir!

Yolçu heyrətlə:

– Elə bu? – dedi. – O, bu kukla ilə oynasa nə olar ki?

Meyxanaçı arvad yenə sözünə davam edərək:

– Axı kirli əlləri ilə bu kuklaya toxunmuşdur! İyrənc əlləri ilə!

Bu sözləri eşidən Kozetta daha şiddətlə ağlamağa başladı.

Tenardye qarı bağıraraq:

– Səsini kəsəcəksən, ya yox? – dedi.

Yolçu qapıya tərəf yönəldi, qapını açdı, küçəyə çıxdı.

Meyxanaçı qadın dərhal qonağın getməsindən istifadə edərək, masanın altında Kozettaya elə bir təpik ilişdirdi ki, biçarə qız ucadan çığırdı.

Qapı açıldı, yenə yolçu göründü. Əlində bir az yuxarıda bəhs etdiyimiz və bütün günü kənd uşaqlarının məftunluqla seyr etdiyi həmin gözəl kuklanı tutmuşdu.

Kuklanı Kozettanın qabağına qoyaraq:

– Al, – dedi, – bu sənindir.

Yəqin ki, meyxanada keçirdiyi bir saata qədər vaxt ərzində dərin fikrə daldığı zaman buradan dumanlı bir şəkildə oyuncaq dükanını görmüşdü, dükan balaca çıraqlar və şamlarla parlaq bir surətdə işıqlanmışdı və meyxananın pəncərəsindən bəzəkli bir çıraqbana bənzəyirdi.

Kozetta başını qaldırdı. Əlində kukla ona tərəf gələn adam ona bir günəş kimi göründü. Ömründə eşitmədiyi "Bu sənindir" sözləri şüuruna çatdı. Kozetta bir yolçunun üzünə baxdı, bir kuklaya baxdı, sonra yavaşca geri çəkilib, masanın altına, lap divarın yanına soxuldu.

Kozetta artıq ağlamırdı, çığırmırdı, o, sanki, nəfəs almağa belə cəsarət etmirdi.

Tenardye qarı, Eponina və Azelma büt kimi donub qalmışdılar. Sərxoşlar belə sakit oldular. Meyxanada birdən-birə təntənəli bir sükut əmələ gəlmişdi.

Tenardye qarı, heyrətindən daşa dönmüş və dili tutulmuş bir halda, öz-özünə düşünürdü: "Görəsən, bu qoca kim ola bilər? Yoxsulmudur, milyonermidir? Bəlkə də, hər ikisindəndir, yəni oğrudur".

Tenardyenin sifətində, hər dəfə hakim bir hissin heyvani bir qüvvətlə büruzə çıxaraq, insanın xasiyyətini göstərən bir ifadə göründü. Meyxanaçı gah kuklaya, gah da yolçuya baxırdı; o, bu adamı qızıl torbasını yoxlayan kimi yoxlayırdı. Lakin bu yalnız bir an davam etdi. Tenardye arvadına yaxınlaşaraq pıçıldadı: "Bu kuklanın qiyməti, ən azı, otuz frankdır. Sarsaqlama! Bu adamın qabağında əyil!"

Qaba təbiətli insanlar sadədil insanlar kimidir: onlar bir hissdən başqa bir hissə tədricən keçməyi bacarmazlar.

Tenardye qarı nəvazişkar olmağa çalışan arvadlar kimi yarışirin, yarıacı bir səslə:

– Kozetta, öz kuklanı nə üçün götürmürsən? – dedi.

Yalnız bu zaman Kozetta yuvasından çıxmağa cəsarət etdi.

Tenardye tələsik mehribancasına dedi:

– Kozettacan, cənab sənə kukla bağışlayır. Götür. Sənindir.

Kozetta bir dəhşət hissi ilə bu sehrli kuklaya baxırdı. Üzündəki göz yaşları hələ qurumamışdı, lakin gözləri səhər səması kimi getdikcə aydınlaşırdı. Bu gözlərdə bir səadət günəşi parlayırdı. Əgər bu zaman ona: "Bala, sən Fransa kraliçasısan!" demiş olsaydılar, o, yenə də bu ləhzədə duyduğu səadəti duymazdı.

Ona elə gəlirdi ki, kuklaya toxunsa, göy gurlayacaq, ildırım çaxacaqdır.

Bu, müəyyən qədər doğru idi, çünki o, Tenardye qarının onu söyüb-döyəcəyinə şübhə etmirdi.

Lakin cazibə çox böyük idi. Kozetta, nəhayət, kuklaya yaxınlaşdı və meyxanaçı qadına tərəf dönərək, itaətkar bir səslə:

– Xanım, olarmı? – deyə pıçıldadı.

Qızın səsini heç bir şeylə ifadə etmək olmaz: bu səsdə həm məyusluq, həm qorxu, həm də sevinc vardı.

– Əlbəttə, olar! – deyə meyxanaçı qadın ona cavab verdi. – Kukla sənindir. Onu sənə cənab bağışlamışdır.

– Doğrudanmı, cənab? – deyə Kozetta yenə soruşdu. – Lap gerçəkdən? Bu xanım mənimkidir?

Yolçunun gözləri yaşla dolmuşdu. Onun keçirdiyi həyəcan o dərəcəyə çatmışdı ki, insan zar-zar ağlamamaq üçün susur. O, başı ilə Kozettaya razılıq işarəsi etdi və "xanım"ın əlini onun nazik əlinə qoydu.

Kozetta, "xanım"ın əli onun əlini yandırmış kimi, birdən-birə əlini çəkdi, başını aşağı saldı. Bunu qeyd etməliyik ki, bu halda onun dili həddindən artıq bayıra çıxmışdı.

Birdən o dönüb həyəcanla kukladan yapışdı.

– Onun adını Katerina qoyacağam, – dedi.

Bu, qəribə bir səhnə idi. Kozettanın cındırları kuklanın lentlərinə, parlaq, çəhrayı rəngli incə ipək paltarına toxundu, onlara qarışdı.

Kozetta soruşdu:

– Xanım, kuklanı stulun üstünə qoymaq olarmı?

Meyxanaçı qadın:

– Bəli, bala, olar, – dedi.

İndi Eponina ilə Azelma Kozettaya həsədlə baxırdılar.

Kozetta Katerinanı stulun üstündə əyləşdirdi, özü də onun qarşısında döşəmənin üstündə oturdu. Sakit, dilsiz halda kuklanın tamaşasına daldı.

Yolçu dedi:

– Kozetta, niyə oynamırsan?

– Ah, mən oynayıram! – deyə uşaq cavab verdi.

Bu yolçu, bu naməlum, bu yad adam Kozetta üçün bir səadət olduğu halda, Tenardye qarı üçün bu dəqiqə yer üzündə ən çox nifrət etdiyi bir adam idi. Bununla belə o, hissiyyatını gizlətməyə məcbur idi. Ərinin hər bir hərəkətini təqlid edərək, öz hisslərini gizlətməyə adət etmiş olsa da, həyəcanını gizlətməkdə çətinlik çəkirdi. Qızlarını tez yatmağa göndərdi, Kozettanı da yatmağa göndərmək üçün sarı adamdan "izn" istədi. Meyxanaçı qadın bir ana qayğısı ilə: "Bu gün o, çox yorulmuşdur" – dedi. Kozetta yatmağa getdi, Katerinasını qucağında apardı.

Ara-sıra Tenardye qarı, özü dediyi kimi, "ürəyini boşaltmaq" üçün zalın o başına, əri oturduğu yerə gedir, ona bir neçə söz deyirdi. Yavaş danışmağa məcbur olduğundan sözü daha qəzəbli çıxırdı.

– Qoca kaftar! Görəsən, ona nə olub? Lap ovqatımızı təlx elədi. Bu balaca eybəcər gərək oynaya imiş! Hələ ona bir kukla da bağışlayır! Bu it küçüyünə qırx franklıq bir kukla! Özü heç əlli-ayaqlı qırx suya dəyməz! Az qalıb hersoginya de Berri kimi ona da "əlahəzrət" desin! Bəlkə, heç ağlı başında deyil? Bəlkə, bu anlaşılmaz qoca dəli olub!

– Nə üçün dəli olub? Burada aydın olmayan nə var ki? – deyə Tenardye etiraz etdi. – Bəlkə, bu, onun xoşuna gəlir? Sənə qızın işləməyi xoş gəlir, ona da oynamağı. Onun buna haqqı var. Səyyah pul verirsə, istədiyini edə bilər. Bu qoca bir insanpərvərsə, sənə nə dəxli var? Əgər axmaqsa, bunun da sənə dəxli yoxdur. Onun pulu olduğunu gördükdən sonra sən nə üçün özünü araya soxursan?

O, evin sahibi və meyxanaçı idi, bunların heç biri etiraza yol vermirdi.

Yolçu masaya dirsəklənib yenə fikrə daldı. Bütün başqa müştərilər, alverçilər və arabaçılar yavaş-yavaş kənara çəkilib oxumağı kəsdilər. Onlar qəribə bir ehtiram və qorxu ilə yolçuya baxırdılar. Cibindən beşfranklıqları bu qədər saymazyana çıxaran və taxta başmaqlı çirkin qıza səxavətlə böyük kukla bağışlayan bu yoxsul geyimli qəribə adam, şübhəsiz, qəribə, lakin təhlükəli bir adamdı.

Bir neçə saat keçdi. Kilsədə gecə duası icra olunmuş, Milad axşamının şam yeməyi qurtarmışdı. Sərxoşlar dağıldılar, meyxana bağlandı, aşağı otaq boşaldı, ocağın odu söndü, lakin yolçu yenə də eyni yerdə, eyni vəziyyətdə oturmuşdu. Ara-sıra, masanın üstündə söykəndiyi əlini dəyişirdi, ancaq Kozettanın yatağa getdiyi vaxtdan bəri o, bir kəlmə danışmamışdı.

Tenardyelər həm maraqlandıqları, həm də nəzakət göstərdikləri üçün zaldan çıxmadılar. Tenardye qarı: "O, bütün gecəni belə keçirmək istəyir-nədir?" – deyə donquldanırdı. Saat ikini vurduqda Tenardye qarı artıq dözə bilməyərək ərinə dedi: Mən yatmağa gedirəm, onunla özün bilərsən, nə istəyirsən elə!" Meyxanaçı masanın yanında, bir bucaqda əyləşdi, şamı yandırdı və "Fransa xəbərləri"ni oxumağa başladı.

Bir saat da keçdi. Meyxanaçı böyük bir səbirlə "Fransa xəbərləri"ni üç dəfə nəzərdən keçirdi, üç dəfə qəzeti tarixindən tutmuş naşirin imzasına qədər oxudu. Yolçu yerindən tərpənmirdi.

Nəhayət, Tenardye hərəkət etdi, öskürdü, tüpürdü, burnunu sildi, stulu tərpətdi. Yolçu yenə hərəkət göstərmədi. Tenardye: "Bəlkə, yatıb?" – düşündü. Yolçu yatmamışdı, lakin heç bir qüvvə onu bu dalğınlıqdan oyada bilməzdi.

Bir az da keçdi. Tenardye qalpağını başından çıxarıb, ehtiyatla ona yanaşdı və cəsarət edərək:

– Cənab, – dedi, – istirahət etmək istəmirsinizmi?

"Yatmağa getmək" sözləri Tenardyenin nəzərində kobud və saymamazlıq kimi görünürdü. Amma "istirahət etmək" sözlərində nə isə bir dəbdəbə və ehtiram hiss olunurdu. Bu sözlərin o biri gün haqq-hesabı xeyli şişirtmək qabiliyyəti kimi əsrarəngiz və gözəl bir xüsusiyyəti vardır. Yataq otağının qiyməti iyirmi sudur; "istirahət" otağının qiyməti isə iyirmi frankdır.

Yolçu:

– Bəli, – dedi, – siz haqlısınız. Tövləniz haradadır?

Tenardye irişərək:

– Cənab, – dedi, – buyurun, cənabınızı ötürüm!

O, şamdanı, yolçu isə boğçası ilə ağacını götürdü.

Tenardye onu birinci mərtəbəyə apardı, dəbdəbə ilə döşənmiş bir otağa girdilər: mebelin hamısı qırmızı ağacdan idi, otaqda gəmi şəklində çarpayı qoyulmuş, qırmızı kolenkordan[1] pərdələr asılmışdı. Yolçu:

– Bu nədir? – deyə soruşdu.

Meyxanaçı:

– Bu, bizim yataq otağımızdır, – dedi. – İndi mən arvadımla başqa otaqda yatırıq. Buraya ildə ancaq iki-uç dəfə girən olur.

Yolçu kəskin bir səslə:

– Mənim üçün tövlə daha xoşdur, – dedi.

Tenardye yolçunun bu nəzakətsiz sözünü eşitməməzliyə saldı. İçində güclü bir od yanan buxarının üstündəki təptəzə mum şamları yandırdı.

Buxarının üstündə şüşə bir qalpaq altında gümüş məftildən və narınc çiçəklərindən ibarət bir qadın baş bəzəyi görünürdü. Yolçu soruşdu:

– Bəs bu nədir?

– Cənab, – deyə Tenardye cavab verdi, – bu, mənim arvadımın gəlinlik bəzəyidir.

Yolçu bu gəlin bəzəyinə qəribə bir nəzər saldı, sanki, o: "Bu ifritə də bir zamanlar məsum qız imiş!" – demək istəyirdi.

Lakin Tenardye yalan deyirdi. O, bu xaraba evi meyxana açmaq üçün icarə etdiyi zaman bu otaq elə indiki vəziyyətdə idi: Tenardye mebeli də, narınc çiçəklərini də, onun "zövcəsinə" incə bir şöhrət yarada biləcəyini və meyxanaya ingilislərin "respektabel"[2] dedikləri bir ruh verə biləcəyini nəzərə alaraq satın almışdı.

Səyyah başını çevirdikdə ev sahibi artıq getmişdi. Tenardye səhər tezdən cökə ağacının qabığını soyan kimi soymaq istədiyi bir adama təhqiranə bir səmimiyyət göstərmək istədiyi üçün "Gecəniz xeyrə qalsın!" deməyə cəsarət etməyərək, xəlvətcə getmişdi.

Meyxanaçı öz otağına girdi. Arvadı yataqda uzanmışdı, ancaq hələ yatmamışdı. Ərinin ayaq səslərini eşidib ona tərəf döndü və:

– Bilirsənmi, nə var, – dedi, – mən sabah Kozettanı qovacağam.

---

[1] *Kolenkor* – pambıq parça növü

[2] Ləyaqətli

Tenardye soyuq bir səslə:

– Yaman zirəksən, – dedi.

Başqa bir söz danışmadılar. Bir az sonra şamları söndü.

Səyyah isə meyxanaçı gedən kimi ağacını və boğçasını bir küncə qoydu, kresloya əyləşərək bir neçə dəqiqə fikrə daldı. Sonra ayaqqabılarını çıxartdı, şamın birini əlinə alıb o birini keçirtdi, qapını itələdi və ətrafına baxa-baxa bayıra çıxdı. O, sanki, kimi isə axtarırdı. Dəhlizdən keçib pilləkənə çatdı. Burada qulağına uşaq nəfəsinə oxşayan yavaş bir səs gəldi. O, bu səsə tərəf yeridi, pilləkənin altındakı üçbucaqlı bir deşiyə yaxınlaşdı. Bu deşik pilləkənin altı idi. Köhnə səbətlərin, qırıq qab-qaçağın, tozun, hörümçəyin arasında bir yataq görünürdü. Bunu heç yataq da adlandırmaq olmazdı. Ora samanı çıxmış cırıq bir döşək sərilmişdi, yorğan isə o qədər cırıq idi ki, arasından döşək görünürdü. Yatağın mələfəsi yox idi. Bütün bu şeylər quru daş döşəmənin üzərinə atılmışdı. Kozetta bu yatağın üstündə yatırdı.

Yolçu yaxına gəlib, qızın üzünə baxmağa başladı.

Kozetta dərin bir yuxuya dalmışdı, paltarını belə soyunmamışdı. Qış gecələrində üşüməsin deyə o, paltarını soyunmazdı.

Açıq iri gözləri qaranlıqda parıldayan kuklanı bağrına basmışdı. Kozetta ayılmaq istəyirmiş kimi hərdənbir ah çəkir və bərk-bərk kuklanı qucaqlayırdı. Taxta başmaqlarının yalnız bir tayı yatağının yanında idi.

Kozettanın daxması ilə yanaşı, açıq qapıdan xeyli geniş, qaranlıq bir otaq görünürdü. Yolçu bu otağa girdi. Otağın dərinliyində şüşə qapıdan ağappaq iki balaca çarpayı görünürdü. Bu, Eponina ilə Azelmanın çarpayıları idi. Bu çarpayıların yanında hörülmüş bir beşik vardı, beşiyin üstü açıq idi, içində balaca bir oğlan uşağı yatırdı, bu, bütün axşamı çığıran uşaq idi. Yolçu bu otağın Tenardyelərin otağı ilə qonşu olduğunu anladı. O artıq getmək istəyirdi ki, birdən gözlərinə buxarı sataşdı. Bu, iri meyxana buxarısı idi. Bunlar qalandığı zaman çox pis yanır, istilik əvəzinə onlardan həmişə soyuq gəlir. Buxarı yanmırdı, onda heç kül belə yox idi, lakin buxarıda olan bir şey yolçunun diqqətini cəlb etdi. Bu, zərif tikilmiş və eyni ölçüdə olan iki uşaq başmağı idi. Gözəl, qədim bir adətə görə, Milad bayramı axşamı uşaqlar öz başmaqlarının bir tayını buxarıya qoyardılar ki, gecə vaxtı mərhəmətli pərilər onların içinə qəşəng bir hədiyyə

qoysunlar. Bu adət yolçunun yadına düşdü. Eponina ilə Azelma belə bir fürsəti fövtə verməmiş və öz başmaqlarının bir tayını buxarının içinə qoymuşdular.

Yolçu əyildi.

Pəri, yəni qızların anası artıq buraya gəlmiş və hər ayaqqabının içinə onsuluq parlaq bir pul qoyub getmişdi.

Yolçu belini düzəltdi və getməyə hazırlaşırdı ki, birdən kənarda ocağın ən qaranlıq bir küncündə bir şey gördü. O, diqqət edərək bu taxta ayaqqabını tanıdı. Bu, palçığı qurumuş, külə batmış, sınıq, sökük, dəhşətli kəndli başmağı Kozettanın taxta başmağı idi. Kozetta heç bir zaman ümidini qırmayan, daim məyusluqlara dözməyə hazır olan və yalnız uşaqlara məxsus dərin bir etimadla öz ayaqqabısını da buraya qoymuşdu.

Dərddən başqa heç bir şey bilməyən bir uşağın qəlbindəki bu ümid nə qədər ilahi və təsirli olarmış!

Bu ayaqqabının içində heç bir şey yox idi.

Yolçu çibini eşələdi, əyilib Kozettanın ayaqqabısına bir luidor qoydu.

Sonra ehmalca yeriyərək, öz otağına qayıtdı.

Doqquzuncu fəsil

TENARDYE İŞƏ GİRİŞİR

Ertəsi gün, dan yerinin ağarmasından azı iki saat əvvəl Tenardye meyxananın aşağı zalında, masanın arxasında oturmuşdu. Masanın üstündə şam yanırdı. Tenardye əlində qələm oturub sarı redinqotlu yolçu üçün hesab çəkirdi.

Arvadı bir azca əyilərək onun başı üstündə dayanmışdı və ərinin yazdıqlarına baxırdı. Onlar bir kəlmə belə danışmırdılar. Tenardye dərin fikrə dalmış, arvadı isə insan zəkasının gözəl bir məhsulunun necə inkişaf etdiyini seyr edən bir adam kimi, Tenardyenin işinə dərin bir pərəstişkarlıqla tamaşa edirdi. Evdə xışıltı eşidilirdi, bu, Torağay idi, pilləkəni süpürürdü.

Düz on beş dəqiqə keçdikdən və bəzi təshihlər etdikdən sonra Tenardye belə bir xariqə yaratmışdı:

1 №-li otağın hesabı

Axşam yeməyi	3 frank
Otaq	10 frank
Şam	5 frank
Ocaq qalanması	4 frank
Xidmət	1 frank
Cəmi:	23 frank

Xidmət sözü "xitmət" şəklində yazılmışdı.

Arvadı bir az şübhə qarışıq bir heyrətlə:

– İyirmi üç frank! – deyə səsləndi.

Lakin Tenardye, bütün böyük artistlər kimi, özündən narazı idi.

– Puf, – deyə o pufuldadı.

Tenardyenin bu nidası eynilə Fransanın verəcəyi təzminat haqqında Vyana konqresində hesab tərtib edən Kastlyerinin nidası idi.

Meyxanaçının arvadı qızlarının yanında Kozettaya bağışlanan kuklanı yadına salaraq;

– Sən haqlısan, cənab Tenardye, – deyə mızıldandı, – o bizə, doğrudan da, bu qədər borcludur. Bu ədalətlidir, lakin bir az çoxdur. O, bu qədər pulu verməz.

Tenardye özünəməxsus soyuq bir gülüşlə gülərək:

– Verər! – dedi.

Bu gülüş böyük bir əmniyyət və üstünlük ifadə edirdi. Bu tövr söylənilən şey isə yerinə yetməyə bilməzdi. Arvadı etiraz etmədi. Masaların üstünü sahmana salmağa başladı. Əri otaqda oyan-buyana gəzinirdi. Bir az sonra o:

– Mənim axı min beş yüz frank borcum var! – deyə əlavə etdi.

O, buxarının yanında oturdu, ayaqlarını isti külün üstünə qoydu və fikrə getdi.

Arvadı yenə sözə başladı:

– Hə, – dedi, – sənin yadından çıxmayıb ki, mən bu gün Kozettanı bayıra atmaq fikrindəyəm? İlan balası! Onun kuklası mənə rahatlıq vermir. On səkkizinci Lüdovikə ərə getmək mənim üçün bu ilanı bir gün artıq evimdə saxlamaqdan asandır.

Tenardye çubuğunu yandırdı və bir qullab vurandan sonra:

– Bu hesabı qonağa verərsən, – dedi.

Sonra otaqdan çıxdı.

Tenardye otaqdan çıxar-çıxmaz, yolçu içəri girdi.

Onun dalınca Tenardye göründü. O, açıq qapıda dayandı. Yolçunun arxa tərəfində durduğu üçün onu ancaq arvadı görürdü.

Sarı redinqotlu adam əlində əsasını və boğçasını tutmuşdu.

Meyxanaçı qadın:

– Nə tez oyanmısınız? – deyə səsləndi. – Yoxsa bizi tərk edirsiniz, cənab? – Bunu deyərək o, çaşqın halda hesab kağızını əllərində əzib bükür, dırnağını kağızın büküşünə çəkirdi. Kobud üzündə ona məxsus olmayan bir pərtlik və tərəddüd hiss olunurdu.

"Lap dilənçiyə" bənzəyən bu adama bu cür hesabı təqdim etmək ona qeyri-münasib görünürdü.

Yolçu fikirli və dalğın idi.

– Bəli, xanım, – o cavab verdi. – Gedirəm.

– Demək, cənab, sizin Monfermeyldə heç bir işiniz yox idi?

– Yox, yolüstü buradan keçirdim. Başqa heç bir işim yoxdur. Mən sizə nə qədər borcluyam, xanım?

Tenardye qarı dinməz-söyləməz bükülmüş kağızı ona uzatdı.

Yolçu kağızı açıb baxdı, lakin tamamilə başqa şeylər düşündüyü görünürdü.

– Xanım, – o soruşdu, – burada, Monfermeyldə işləriniz yaxşımı gedir?

Meyxanaçı qadın hesabın yolçuda hiddət oyatmadığına təəccüb edərək:

– Birtəhər dolanırıq, cənab, – cavab verdi, sonra ağlamsınaraq yazıq-yazıq davam etdi: – Ah, cənab! Zəmanə çox ağırdır. Yaxınlığımızda varlı adamlar çox azdır! Özünüz görürsünüz, xırda-mırda adamlardır. Bizə ancaq hərdənbir sizin kimi səxavətli və varlı qonaqlar düşür, cənab. O qədər vergi veririk ki... Hələ bu balaca qızın özü bizə çox baha oturur!

– Hansı balaca qızı deyirsiniz?

– Bizim qızı da, yadınızdan çıxıb? Kozettanı deyirəm! Kənddə ona Torağay deyirlər.

Yolçu dedi:

– Hə-ə!

Tenardye qarı isə sözünə davam etdi:

– Bu kəndlilərin də çox axmaq adları var! Bu qız torağaya deyil, yarasaya daha çox oxşayır. Bilirsinizmi, cənab, biz dilənçi deyilik, sədəqə üçün əl uzatmarıq, ancaq başqalarına sədəqə verməyə də halımız yoxdur. Qazancımız çox az, verəcəyimiz həddindən artıq çoxdur. Patent, vergilər, qapı və pəncərə vergisi, əlavə vergilər, o qədərdir ki! Özünüz də bilirsiniz, cənab! Hökumət bizim lap dərimizi soyur, bizdən yaman pullar qırır! Bir də axı mənim öz qızlarım da var! Özgə uşağını saxlamaq mənim nəyimə gərəkdir!

O zaman yolçu səsində gizli bir həyəcan duyulsa da, mümkün olduqca laqeyd danışmağa çalışaraq soruşdu:

– Sizi ondan xilas edən olsaydı, nə deyərdiniz?

– Kimdən? Kozettadanmı?

– Bəli.

Meyxanaçı qarının qırmızı və vəhşi üzündə iyrənc bir təbəssüm göründü.

– Ah, cənab, aparın onu, qoy sizin olsun, özünüzlə bərabər aparın, başına şəkər-qənd tökün, yeralması ilə bəsləyin, yedirin, içirin, nə istəyirsiniz edin, cənab, həzrət Məryəm, bütün övliyalar sizin köməyiniz olsun!

– Yaxşı.

– Doğrumu deyirsiniz? Siz onu aparmaq istəyirsiniz?

– Bəli, aparacağam.

– Bu saatmı?

– Bu saat. Uşağı çağırın gəlsin.

Tenardye qarı:

– Kozetta! – deyə çığırdı.

Yolçu isə sözünə davam edərək:

– Hələlik isə mən hesab üzrə borcumu verim, – dedi. – Mən nə qədər verməliyəm?

O baxdıqda heyrətini gizlədə bilməyərək dedi:

– İyirmi üç frank!

Sonra meyxanaçı qadına baxdı və yenə təkrar etdi:

– İyirmi üç frank?

Bu üç sözü ikinci dəfə deməsindən, nida ilə sual arasındakı fərqi asanlıqla anlamaq olardı.

Tenardye qarının zərbəyə hazırlaşmaq üçün kifayət qədər vaxtı vardı, o, möhkəm səslə cavab verdi:

– Bəli, bəli, cənab! İyirmi üç frank.

Yolçu masanın üstünə beş dənə beşfranklıq pul qoydu.

– Qızı gətirin! – dedi.

Bu halda Tenardye özü otağın ortasına doğru gələrək:

– Bu cənab ancaq iyirmi altı su borcludur, – dedi.

Arvadı heyrətlə:

– Necə yəni iyirmi altı su? – deyə çığırdı.

Tenardye soyuq bir səslə cavab verdi:

– İyirmi su otaq üçün, altı su da yemək üçün. Qaldı ki uşaq məsələsi, bu barədə cənabla mən özüm bir qədər danışmalıyam. Bizi tək burax, arvad.

Tenardye qarı böyük bir istedadın birdən-birə təzahür etməsindən heyran qalan adamın hiss etdiyi bir şey duydu, böyük bir aktyorun səhnəyə çıxaraq öz rolunu oynamağa başladığını hiss etdi və heç bir söz demədən çıxıb getdi.

İki kişi otaqda yalqız qaldıqdan sonra, Tenardye yolçuya stul təklif etdi. Yolçu oturdu. Tenardye ayaq üstə qaldı və üzü qeyri-adi bir xeyirxahlıq və sadəlik ifadəsi aldı.

– Cənab, – deyə Tenardye sözə başladı. – Mənə qulaq asın, mən sözü açıq deməliyəm: mən bu uşağı çox sevirəm.

Yolçu diqqətlə onun üzünə baxdı:

– Hansı uşağı?

Tenardye davam edərək:

– Lap gülməlidir! – dedi. – Amma nə edəsən? Adamın ürəyi uşağa bağlıdır. Bütün bu pullar mənim nəyimə gərəkdir? Bu yüz suluq pullarınızı geri götürə bilərsiniz. Mən bu uşağa pərəstiş edirəm.

– Axı hansı uşağa? – deyə yolçu yenə soruşdu.

– Hansı uşaq olacaq? Bizim balaca Kozettaya. Deyəsən, axı siz onu bizdən ayırıb aparmaq istəyirsiniz? Mən də sizə düzünü deyim, siz namuslu adamsınız, bu bir həqiqətdir, lakin bu da həqiqətdir ki, mən uşaqdan ayrılmağa razı ola bilmərəm. Mən buna razılıq verə bilmərəm. Bir zaman bu qız məni məzəmmət edə bilər. Mən onu ilk dəfə görəndə, lap körpə idi. Doğrudur, o, bizə baha oturmuşdur; doğrudur, qızın nöqsanları da var, biz varlı deyilik; doğrudur, o, bircə dəfə xəstə olduğu zaman mən yalnız dərmana dörd yüz frankdan artıq sərf etmişəm! Lakin Allah rizası üçün də bir şey etmək lazımdır axı! Zavallının nə atası var, nə də anası; onu mən böyütmüşəm, hər halda, çörəyim ona da

çatar, özümə də. Bir sözlə, mən bu uşağa çox öyrəşmişəm. Bilirsinizmi, uşaq elə bir şeydir ki, alışdıqdan sonra əl çəkə bilmirsən, arvadım bir az açıqlansa da, bu qızı sevir. Bilirsinizmi, bu qız bizim üçün lap doğma uşağımız kimidir. Onun səsini evdə eşitməyə adət etmişəm.

Yolçu Tenardyenin üzünə diqqətlə baxırdı.

– Məni bağışlayın, cənab, – deyə Tenardye davam etdi, – adam öz uşağını elə-belə, hər yoldan ötənə verməz axı. Məgər mən haqlı deyiləm? Əlbəttə, söz yox ki, siz varlı adamsınız, özü də abırlı adama oxşayırsınız. Ola bilsin ki, bu, qıza xoşbəxtlik gətirər... Lakin mən bilməliyəm. Başa düşürsünüzmü? Tutaq ki, mən onu buraxdım və özümü fəda etdim, ancaq mən bilmək istərdim ki, o, hara gedəcək, mən onu gözdən qoymaq istəməzdim. Mən istəyirəm bilim ki, o, kimin yanında olacaq, bəlkə, hərdənbir onu görməyə gəldim, o hiss etməlidir ki, atalığı yaxındadır, onun keşiyini çəkir. Bir sözlə, elə şeylər var ki, onlar bizim qüvvəmiz xaricindədir. Mən heç sizin adınızı da bilmirəm. Siz onu aparacaqsınız, mən də öz-özümə deyəcəyəm: "Bəs bizim Torağay hanı? O, hara uçub getdi?" Mən, heç olmasa, bir parça kağız, heç olmasa, pasportun bir ucunu görməliyəm, elə deyilmi?

Yolçu Tenardyenin vicdanının ta dərinliklərinə qədər nüfuz edən bir nəzərlə müttəsil ona baxaraq, qəti və ciddi bir səslə cavab verdi:

– Cənab Tenardye, Parisdən beş lyölük bir yola çıxan adam özü ilə pasport götürməz. Mən Kozettanı aparacağamsa, heç bir izahat vermədən aparacağam, vəssalam! Siz nə mənim adımı biləcəksiniz, nə də harada yaşadığımı. Qızın harada olacağını bilməyəcəksiniz, mənim məqsədim elə budur ki, o, sizi bir daha ömründə görməsin. Mən onun bu evlə əlaqəsini tamam üzürəm, o artıq yox olur. Buna razısınızmı? Hə, ya yox?

İblislər və dahilər müəyyən əlamətlərə görə ali bir varlığı duya bildikləri kimi, Tenardye də olduqca qüvvətli bir adama rast gəldiyini anlamışdı. O, bunu intuisiya ilə bir an içində, ona məxsus olan zirəklik və dərrakə ilə anlamışdı. Arabaçılarla şərab içərkən, çubuq çəkərkən və nəğmə oxuyarkən belə, Tenardye bütün axşamı bu yad yolçunu gözləri ilə izləyir, pişik kimi pusur, riyaziyyatçı kimi öyrənirdi. O, bu adamı şəxsi mənafeyi üçün, həzz almaq üçün, bir sövq-təbii ilə izləyirdi, eyni zamanda mükafat alacaq bir casus kimi onun hər bir hərəkətini pusurdu. Sarı redinqotlu adamın heç bir hərəkəti onun nəzərindən qaçmırdı. Tenardye hələ yolçu Kozetta ilə maraqlandığını

büruzə verməzdən əvvəl onun belə edəcəyini başa düşmüşdü. O, qocanın daim uşağa doğru çevrilən dalğın nəzərlərini görmüşdü. Lakin o, nə üçün bu uşaqla maraqlana bilərdi? Bu adam kim idi? Nə üçün bu qoca, cibi dolu olduğu halda, bu qədər yoxsul geyinmişdi? Tenardye özünə verdiyi bu suallara cavab tapa bilmədiyindən əsəbiləşirdi. O, bütün gecəni bunu düşünmüşdü. Yad adam, hər halda, Kozettanın atası ola bilməzdi. Bəlkə, o, Kozettanın babasıdır? Elə isə, nə üçün özünü birdən-birə tanıtdırmadı? Əgər sənin haqqın qanuni isə, niyə gizlədirsən? Görünür, bu adamın Kozettaya heç bir ixtiyarı yox idi. Bəs elə isə, o kimdir? Tenardyenin ağlına cürbəcür fikirlər gəlirdi. O, bir çox şeylər fərz edir, lakin heç bir şey bilmirdi. Hər halda, bu adamla söhbətə girişdikdən sonra və burada bir sirr olduğuna əmin olduğundan, yolçunun tanınmaq istəmədiyini anladığından Tenardye özünü qüvvətli hiss etdi. Lakin yolçunun aydın və möhkəm cavablarını eşitdikdən sonra meyxanaçı bu müəmmalı adamın müəmmalı olmaqla bərabər, sadə olduğunu anladığı zaman, öz zəifliyini hiss etdi. Tenardye qətiyyən belə bir şey gözləmirdi. Onun bütün fərziyyələri puça çıxdı. O, bir saniyədə fikrini topladı, bütün bunları ölçüb-biçdi. Tenardye bir an içində öz vəziyyətini aydınlaşdırmağı bacaran adamlardan idi. Artıq düzünə və cəld hərəkət etmək vaxtı çatdığını qət edərək, o da böyük sərkərdələrin qəti dəqiqədə hərəkət etdiyi kimi etdi. Tenardye birdən-birə bütün fikirlərini açaraq:

– Cənab, – dedi, – mənə min beş yüz frank lazımdır.

Yolçu yan çibindən qara dəridən köhnə bir pul kisəsi çıxartdı, açdı, içindən üç bank bileti çıxartdı, masanın üstünə qoydu. Sonra yoğun baş barmağını bu biletlərin üstünə qoyaraq dedi:

– Kozettanı gətirin!

Bəs bu zaman Kozetta nə edirdi?

Kozetta taxta başmağını qoyduğu yerə yüyürdü. Başmağın içindən bir qızıl pul tapdı. Bu pul napoleondor deyildi. Restavrasiya dövrünün pullarından idi, iyirmifranklıq, təptəzə bir pul idi, üç tərəfində dəfnə çələnginin yerinə bir prus quyruğu çəkilmişdi. Kozetta mat və heyran qaldı. Artıq taleyi onu sərməst etməyə başlayırdı. O, qızıl pul nə olduğunu bilmirdi, ömründə bir dəfə də olsun qızıl pul görməmişdi. O, pulu götürdü, oğurlayıbmış kimi cəld önlüyünün cibində gizlətdi. Bununla belə, Kozetta bu qızıl pulun onunku olduğunu

duyurdu, o, bu hədiyyəni verənin də kim olduğunu anlayır, lakin qəlbində həm sevinc, həm də qorxu hiss edirdi. Kozetta məmnun idi, hətta heyran qalmışdı. Bu qədər zəngin, bu qədər gözəl olan bu hədiyyələri o, sanki, yuxuda görürdü, bu, həqiqət ola bilməzdi. Kukla da, qızıl pul da onda qorxu oyadırdı. O, bu dəbdəbə qarşısında şüursuz olaraq titrəyirdi. O yalnız yad adamdan qorxmurdu. Əksinə, onu düşünməyə başladıqda, dərhal sakit olurdu. O, hələ dünənki axşamdan bəri, bütün sarsıntılardan, yuxudan sonra öz balaca uşaq zəkası ilə, bu qədər qoca, zavallı və kədərli görünən, həqiqətdə isə bu qədər varlı və mərhəmətli olan bu adam haqqında düşünürdü. Meşədə bu qocaya rast gəldiyi dəqiqədən bəri onun üçün hər bir şey, sanki, dəyişmişdi. Ən balaca bir quşcuğazdan da az səadət görmüş olan Kozetta ana qanadı altında yaşamaq nə olduğunu bilmirdi. Beş yaşından, yəni özünü xatırladığı zamandan bəri, bu zavallı körpə həmişə qorxudan və soyuqdan titrəmişdi. O, həmişə fəlakətin dondurucu küləyi qarşısında çıl-çılpaq dayanmışdı, indi isə ona elə gəlirdi ki, bədəni isti bir şeylə örtülmüşdü. Əvvəllər qəlbində soyuqdan başqa bir şey hiss etmədiyi halda, indi bütün bədəninə hərarət yayılırdı. O artıq Tenardyedən belə əvvəlki kimi qorxmurdu. O artıq tək deyildi, yanında kimsə dayanmışdı.

Kozetta cəld hərgünkü səhər məşğələsinə başladı. Bir gün əvvəl içindən on beş suluq pul düşən cibindəki lüidor onun başını qarışdırırdı. Qızıla toxunmağa cəsarət etməsə də, hər dəfə beş dəqiqə dayanıb ona tamaşa edirdi, hətta dilini belə çıxardırdı. Kozetta pilləkəni süpürərkən birdən dayanır, bir yerdə donub qalır, tərpənir, süpürgəni, yer üzündə hər bir şeyi belə unudub, cibinin içində parlayan bu ulduza tamaşa edirdi.

Tenardye qarı belə bir dəqiqədə onun başının üstünü almışdı.

Ərinin əmri ilə o, qızın dalınca getdi. Ağlagəlməz bir hadisə idi! Tenardye qarı ona yumruq belə vurmadı, bir söyüş belə söymədi!

O, mülayim bir səslə:

– Kozetta, – dedi, – tez buraya gəl.

Bir dəqiqə sonra Kozetta artıq aşağı mərtəbədəki salonda idi. Yolçu gətirdiyi boğçanı açdı. Boğçanın içində yundan uşaq paltarı, döşlük, tuman, ləçək, yun corab, bir cüt çəkmə – bir sözlə, yeddiyaşlı bir qız uşağı üçün nə lazımsa, hər şey vardı. Şeylərin hamısı qara idi.

Yolçu:

– Bala, – dedi, – bunları götür, get tez geyin.

Səhər yenicə açılırdı. Oyanaraq qapılarını açan adamlar Paris küçəsi ilə yoxsul paltarlı bir qocanın əlində çəhrayı bir kukla olan qara geyimli balaca bir qızın qolundan tutaraq getdiyini gördülər. Onlar Livriyə doğru gedirdilər.

Bu, bizim yad yolçu ilə Kozetta idi.

Bu adamı kimsə tanımırdı, Kozettanı da kimsə tanımadı, çünki o, cındır paltarını atıb, başqa bir paltar geyinmişdi.

Kozetta bu yerlərdən gedirdi. Kiminlə? Haraya? O heç bir şey bilmirdi. O yalnız Tenardye meyxanasını qoyub getdiyini anlayırdı. Ayrılarkən kimsə onunla "vidalaşmadı", o da kimsə ilə salamatlaşmadı. Bu evdə o, hamıya nifrət edirdi və hamı da ona nifrət edirdi.

Müsibətdən başqa qəlbi bu vaxta qədər heç bir şey duymayan zavallı, yazıq uşaq!

Kozetta aramla iri gözlərini açıb, göylərə baxa-baxa gedirdi. Qızıl pulunu o, yeni döşlüyünün cibinə qoymuşdu. Arabir əyilib pula baxır, sonra isə qocaya nəzər salırdı. Ona elə gəlirdi ki, guya, yanınca yol gedən Allah-taala özüdür.

Onuncu fəsil

ARTIQ TAMAH BAŞ YARAR

Tenardye qarı, adəti üzrə, ərinin işinə qarışmırdı. O, böyük hadisələr olacağını gözləyirdi. Yolçu ilə Kozetta getdikdən sonra Tenardye, təqribən, on beş dəqiqə gözləyib, arvadını çağırdı və min beş yüz frankı ona göstərdi.

– Elə bucığaz? – deyə qadın təəccüb etdi.

Bütün ailə həyatları boyu birinci dəfə idi ki, Tenardye qarı öz hökmdarının hərəkətini tənqid etməyə cəsarət edirdi.

Zərbə hədəfə dəymişdi. Tenardye:

– Əlbəttə, sən haqlısan, – dedi. – Mən lap axmağammış! Şlyapamı buraya ver görüm!

Bank biletlərini qatlayıb cibinə soxdu, cəld otaqdan çıxdı, lakin əvvəlcə yanılıb sağa doğru getdi. Qonşulardan yolçu ilə uşağın

hansı tərəfə getdiyini öyrəndi, gedənlərin izinə düşdü. Torağayla yolçunun Livriyə doğru getdiklərini görmüşdülər. O, sürətlə yola doğru addımladı.

Öz-özünə düşünərək sürətlə yeriyirdi. "Bu adam, yəqin ki, sarı pencək geyinmiş bir milyonçudur, mən isə lap sarsağam. O, əvvəlcə iyirmi su, sonra beş frank, sonra isə əlli frank, lap sonra da min beş yüz frank verdi, özü də lap asanlıqla verdi. O, mənə on beş min frank da verə bilərdi. Lakin mən ona çatacağam. Bundan başqa, qız üçün əvvəlcədən hazırlanmış olan paltar boğçası çox qəribə bir şey idi, burada mütləq bir sirr var. Lakin kəşf edilən bir sirri asanlıqla əldən buraxmazlar. Varlıların sirləri qızılla dolu süngər kimi bir şeydir, yalnız bu süngəri sıxmağı bacarmaq lazımdır. Bu kimi fikirlər Tenardyenin başında dolaşırdı. "Mən lap axmağammış," – deyə o təkrar edirdi.

Monfermeyldən çıxıb, Livriyə doğru gedən yolun döndüyü yerə çatdıqda, bu yolun platodan keçdiyini ta uzaqlardan görmək olur. Tenardye bu yerə çatdıqdan sonra, qoca ilə qızı görə biləcəyini zənn edirdi. O, göz işlədikcə uzaqlara baxdı, lakin heç kəsi görə bilmədi. O, yenə yolçulardan soraq eləməyə başladı. Vaxt isə keçirdi. Rast gəldiyi adamlar onun soruşduğu uşaqla qocanın Qani tərəfdən meşəyə doğru yönəldiklərini söylədilər. Tenardye cəld bu tərəfə getdi.

Doğrudur, Tenardyeni qabaqlamışdılar, lakin uşaq axı yavaş yeriyir, Tenardye isə sürətlə gedirdi. Həm də Tenardye bu yerlərə yaxşı bələd idi.

Birdən Tenardye dayandı və ən mühüm bir şeyi unutmuş və geriyə dönməyə hazır bir adam kimi əlini alnına vurdu. Mızıldanaraq:

– Gərək özümlə tüfəng götürəydim, – dedi.

Tenardye bəzən aramızda görünən və tale onları yalnız bir tərəfdən göstərdiyi üçün anlaşılmamış qalan iki cür təbiətli adamlardan idi. Bir çox insanların taleyi belədir: onlar özlərini yalnız yarıya qədər göstərə bilirlər. Tenardye sakit və müvazinətli bir həyat sürəndə, hər halda, namuslu "olmasa" da, necə deyərlər, namuslu adı qazanacaq bir alverçi, yararlı bir vətəndaş olmaq üçün hər şeyə malik idi. Eyni zamanda başqa şəraitdə, onun gizli instinktlərini oyadan bəzi sarsıntılar baş verdikdə, Tenardye ən alçaq bir adama çevrilirdi. Bu, həm dükançı, həm də bir əjdaha idi. Kim bilir, bəlkə, iblisin özü belə Tenardyenin yaşadığı xarabanın bir küncündə çömbəlib otururaq,

insan alçaqlığının bu mükəmməl nümunəsi qarşısında dərin fikirlərə dalırdı.

Bir anlıq tərəddüddən sonra Tenardye bu qərara gəldi ki, qayıtmaq olmaz, yoxsa onlar gözdən itə bilərlər!

Tenardye kəklik sürüsünün izinə düşmüş bir tülkü kimi, səhv etmədən, sürətli və inamlı addımlarla yoluna davam etdi.

Doğrudan da, gölləri keçdikdən sonra Belvüyə gedən meşə yolunun sağ tərəfində olan böyük bir talanı çəpinə keçib, qədim Şel abbatlığının su kəmərinin üstündəki təpəni əhatə edən ot basmış xiyabana çatdıqda, Tenardye kolların üzərində bir şlyapa gördü. Bu, Tenardyenin xəyalında bir çox fərziyyələrə səbəb olan həmin şlyapa idi. Bu, yad adamın şlyapası idi. Kollar hündür deyildi. Tenardye yolçu ilə Kozettanın yorğunluq almaq üçün kolların altında oturduqlarını anladı. Qızın boyu balaca olduğundan görünmürdü, lakin kuklanın başı görünürdü.

Tenardye yanılmamışdı. Yolçu Kozettanın bir az dincini alması üçün oturmuşdu. Meyxanaçı kolluğun o tərəfinə keçib, birdən axtardıqları ilə üz-üzə gəldi.

O tövşüyərək:

– Bağışlayın, cənab, – dedi, – budur sizin min beş yüz frankınız, geri götürə bilərsiniz!

Bu sözlərlə Tenardye bank biletlərini yolçuya uzatdı.

Yolçu onun üzünə baxdı.

– Bu nə deməkdir?

Tenardye ehtiramla cavab verərək:

– Cənab, – dedi, – bu o deməkdir ki, mən Kozettanı geri götürürəm.

Kozetta titrəyərək qocaya sığındı.

Qoca diqqətlə Tenardyeyə baxaraq, hər bir hecanı ayıra-ayıra:

– Siz Ko-zet-ta-nı ge-ri gö-tü-rür-sü-nüz!

– Bəli, cənab, mən onu geriyə aparacağam. Bu saat mən nə üçün belə etdiyimi sizə anladaram. Mən fikrimi dəyişdim. Doğrusu, uşağı sizə verməyə mənim haqqım yoxdur. Bilirsinizmi, mən namuslu bir adamam. Bu uşaq mənim deyildir, onun öz anası var. Anası onu mənə etibar etmişdir, mən də onu ancaq anasına qaytara bilərəm. Siz mənə cavab verə bilərsiniz ki, "axı onun anası ölmüşdür!" Tutaq ki, belədir. Elə isə, mən uşağı anası tərəfindən qızın verilməsi üçün kağız gətirən adama verə bilərəm. Aydındır, deyilmi?

Yolçu cavab vermədən əlini cibinə salıb araşdırdı və Tenardye yenə içi bank biletləri ilə dolu pul kisəsini gördü.

Meyxanaçı sevincdən titrədi.

"Çox gözəl! – o düşündü. – Möhkəm dayan, Tenardye! O, mənə rüşvət vermək istəyir!"

Yolçu pul kisəsini açmazdan əvvəl, ətrafına baxdı. Tamamilə boş və kimsəsiz bir yer idi. Nə meşədə, nə dərədə heç kəs görünmürdü. Yolçu pul kisəsini açdı və içindən Tenardyenin gözlədiyi kimi bank biletləri deyil, adi bir kağız parçası çıxartdı, kağızı açıb meyxanaçıya verərək:

– Siz haqlısınız, – dedi, – oxuya bilərsiniz.

Tenardye kağızı alıb oxudu:

"Monreyl-sür-Mer,
25 mart 1823-cü il.

Cənab Tenardye!

Kozettanı bu kağızı gətirənə verərsiniz. Bütün xırda xərclərinizi ödəniləcəkdir.

Hörmətlərimi qəbul edin.

Fantina".

Yolçu dedi:

– Bu imza sizə tanışdır.

Bu, doğrudan da, Fantinanın imzası idi. Tenardye onu dərhal tanıdı.

Deyəcək bir şey qalmırdı. Tenardye çox bərk, həm də ikiqat acıqlanmışdı: o, həm almaq niyyətində olduğu puldan əl çəkməli idi, həm də məğlub edilmişdi.

Yolçu dedi:

– Bu məktubu bir bəraətnamə kimi saxlaya bilərsiniz.

Tenardye tam qayda ilə geriyə çəkilməyə məcbur oldu. Dişləri arasından mızıldanaraq:

– İmzanı pis oxşatmamışlar, – dedi. – Yaxşı, eybi yoxdur.

Sonra son ümidsiz bir təşəbbüs daha etdi.

– Qoy siz deyən olsun, cənab. Tutaq ki, elə siz, doğrudan da, həmin adamsınız. O halda, siz "bütün xırda xərcləri" ödəməlisiniz. Borc isə çox böyükdür.

Yolçu ayağa durdu və qolunun tozunu çırtığı ilə silərək:

– Cənab Tenardye, – dedi, – yanvar ayında qızın anası elə hesab edirdi ki, sizə yüz iyirmi frank borcludur, lakin fevralda siz ona beş yüz franklıq bir hesab göndərmişdiniz; fevralın axırında siz üç yüz frank, martın əvvəlində isə yenə üç yüz frank almısınız, o zamandan doqquz ay keçmişdir; şərtə görə siz hər ay on beş frank almalısınız, bu isə cəmisi yüz otuz beş frank edir. Siz yüz frank artıq almısınız. Demək, otuz beş frank borcu qalır. Mən isə indicə sizə min beş yüz frank vermişəm.

Tenardye tələnin polad dişləri arasına düşən bir canavarın çəkdiyini çəkirdi.

"Bu nə şeytan adammış!" – o düşündü.

Tələyə düşmüş canavar nə edərsə, Tenardye də onu etdi: dartınıb qurtulmaq istədi. Bir dəfə bu həyasızlıq onu xilas etməmişdimi...

Bütün nəzakətlərini bir tərəfə ataraq, bu dəfə qəti bir səslə:

– A-dı-nı – bil-mə-di-yim – cə-nab, – dedi. – Ya mən Kozettanı aparacağam, ya da siz mənə min ekü verəcəksiniz.

Yolçu sakitcə Kozettaya dedi:

– Gedək, Kozetta!

O, sol əlini Kozettaya verdi, sağ əlini isə uzadıb yerdəki ağacını götürdü.

Tenardye dəyənəyin yoğunluğunu və yerin kimsəsizliyini özözünə qeyd etdi.

Yolçu qızla bərabər meşəyə girdi, meyxanaçı isə çaşqın halda hərəkətsiz qaldı.

Yolçu ilə qız uzaqlaşdıqca, Tenardye yolçunun bir az əyilmiş, geniş çiyinlərinə və iricə yumruqlarına baxırdı.

Sonra özünə, zəif arıq əllərinə nəzər saldı. "Görünür, mən, doğrudan da, lap axmağammış, – düşündü. – Adam da ova tüfəngsiz çıxar?!"

Bununla belə, o, yenə təslim olmaq istəmədi.

– Mən onun haraya getdiyini bilməliyəm, – deyə mızıldandı və onları uzaqdan təqib etdi. Əlində yalnız iki şey qalırdı: biri – "Fantina" imzası ilə bir parça kağızdan ibarət olan bir istehza, o biri isə – min beş yüz frankdan ibarət bir təsəlli.

Yolçu Kozettanı Livriyə və Bondiyə doğru aparırdı. O, başı aşağı, dalğın və kədərli halda yavaş-yavaş gedirdi. Qış ağacların yarpaqlarını tökmüşdü, buna görə Tenardye onlardan xeyli uzaq bir

məsafədə yerisə də, gözdən itirə bilməzdi. Ara-sıra yolçu geriyə baxır və dalınca adam gəlib-gəlmədiyini yoxlayırdı. Birdən o, Tenardyeni gördü. Dərhal Kozetta ilə birlikdə qalın ağaclığa girdi, burada asanlıqla gizlənmək olardı.

Tenardye:

– Vay səni şeytan! – deyə səsləndi və sürətlə yeriməyə başladı.

Meşənin sıxlığı Tenardyeni onlara yaxınlaşmağa məcbur etdi. Yolçu qalın ağaclığa girdikdən sonra, dönüb geriyə baxdı. Tenardye kol-kos arasında gizlənmək istədisə də, qocanın gözlərindən qaça bilmədi. Qoca ona təşvişli bir nəzər saldı və yoluna davam etdi. Meyxanaçı yenə onları təqib etməyə başladı. Bu sürətlə iki yüz-üç yüz addım yeridilər. Birdən yolçu yenə dönüb baxdı və yenə Tenardye onun gözlərinə sataşdı. Bu dəfə yolçunun Tenardyeyə saldığı nəzər o qədər qorxunc idi ki, meyxanaçı artıq onları təqib etməyin "mənasız" olduğunu anladı. Tenardye geriyə döndü, evinə qayıtdı.

On birinci fəsil

9430-CU NÖMRƏ YENƏ MEYDANA ÇIXIR VƏ KOZETTA BU NÖMRƏNİ LOTEREYADA UDUR

Jan Valjan ölməmişdi.

Dənizə düşəndə, daha doğrusu, özünü dənizə atanda ayağında qandal yox idi. Suyun altı ilə üzə-üzə, lövbər salmış gəmiyə çatdı, ona bağlanmış qayığa çıxdı. Burada gizlənərək, axşama qədər gözlədi. Gecə yenə üzməyə başlayaraq, Bren burnunun yaxınlığındakı sahilə çatdı. Kifayət qədər pulu olduğundan, burada özü üçün paltar aldı. Balaqye ətrafında o zamanlar bir meyxana vardı, qaçqın katorqalılar burada öz paltarlarını dəyişərdilər, meyxanaçı da bundan yaxşı pul qazanardı. Sonra Jan Valjan, qanunun sayıqlığını aldatmağa və cəmiyyətin onlar üçün təyin etdiyi və acı talelərindən qurtulmağa çalışan bütün bu zavallı qaçqınlar kimi dolaşıq və qorxulu yollardan getməyə başladı. Birinci dəfə Bosse yaxınlığında Pradoda gecələdi. Sonra yuxarı Alp dağlarında Brianson yaxınlığındakı Qran-Vilara doğru getdi. O, daim qorxu içində, gözübağlı qaçırdı, bu

qaçmaq yeraltı yolları heç kimə məlum olmayan bir köstəbək qaçmağına bənzəyirdi. Sonralar onun izləri Sivrie vilayətindən En qəsəbəsində, Pireney dağlarında Qranjde-Dumek deyilən bir yerdə yerləşən Akonda, Şapel-Qonaq kantonunda Şavayl adlı bir kəndin yaxınlığında və Brünidə Perige ətrafında tapılmışdı. Nəhayət, Jan Valjan gəlib Parisə çatdı. Bir az əvvəl biz onu Monfermeyldə gördük.

Parisə gəldikdə birinci fikri yeddi-səkkiz yaşlı qız üçün yas paltarı almaq və mənzil tapmaq idi. Bunu etdikdən sonra o, Monfermeylə yola düşdü.

Ehtimal ki, oxucunun yadındadır: Jan Valjan son qaçışından əvvəl Monfermeylə, yaxud onun ətraflarına gizli bir səyahət etmişdi ki, bu barədə də polis idarəsinin bir qədər məlumatı vardı.

Lakin indi hamı onu ölmüş hesab etdiyindən, onun ətrafındakı qaranlıq bir qat daha artmışdı. Parisdə əlinə bir qəzet keçdi. Bu qəzet də onun öldüyünü təsdiq edirdi. Artıq o sakitləşmişdi, qəlbi yumşalmışdı, sanki, doğrudan da, ölmüşdü.

Jan Valjan Kozettanı Tenardyenin pəncəsindən qurtardığı günün axşamı, hava qaralan zaman Monso qarovulxanası tərəfdən uşaqla birlikdə Parisə daxil oldu. Burada bir kabrioletə minərək Rəsədxana meydanına qədər getdi. Orada kabrioletdən düşüb, sürücünün haqqını verdikdən sonra Kozettanın əlindən tutdu və hər ikisi gecənin qaranlığında, Ursin və Qlasyer tərəflərindəki kimsəsiz küçələrlə Xəstəxana bulvarına tərəf getməyə başladı.

Kozetta bütün günü həyəcan və təəssürat içərisində keçirmişdi. Yolda xəlvət bir meyxanadan bir qədər çörək və pendir alaraq bir hasar altında oturub yedilər. Tez-tez bir ekipajdan düşüb, o birinə minirdilər, yolun bir hissəsini isə piyada getmişdilər. Kozetta şikayət etməsə də, çox yorğun idi. Jan Valjan qızın yorulduğunu görüb onu dalına aldı. Kozetta Katerinanı əlindən buraxmayaraq, başını Jan Valjanın çiyninə qoydu və yuxuya getdi.

Dördüncü kitab

QORBONUN KOMASI

Birinci fəsil

SAHİBKAR QORBO

Bundan qırx il əvvəl tənha bir yolçu Parisin lap kənarında olan Salpetrier tərəfdə gəzişərək, bulvar boyunca italyan qarovulxanasına qədər qalxmış olsaydı, burada Parisin, demək olar ki, yox olduğunu görərdi. Demək olmaz ki, buralar tam mənada izsiz idi – burada yolçulara rast gəlmək olardı, buraya kənd də demək olmaz, çünki hər halda, kiçik şəhər evlərinə və dar küçələrə təsadüf edilirdi. Lakin bu yerləri şəhər də hesab etmək olmaz – küçələrdə böyük yollarda olduğu kimi dərin təkər izləri görünür, ot bitirdi; bu, böyük kənd də deyildi, çünki evlər kənd evlərinə nisbətən çox hündür idi. Elə isə həm məskun, həm də izsiz, həm boş, həm də adam yaşayan bu yerlərə nə ad qoymaq olardı? Bu, böyük bir şəhərin bulvarı, Parisin bir küçəsi idi, gecələr meşələrdən qorxunc, gündüzlər isə qəbiristanlıqdan daha ələmli bir yer idi.

Bu, At meydanının köhnə bir məhəlləsi idi. Əgər yolçu At meydanının dörd xaraba divarından o yana keçməyə cəsarət edib kiçik Bankir küçəsinə çatsaydı, sağ tərəfində uca bir divarla hasarlanmış balaca bir çətənə zəmisi, sonra nəhəng qunduzların yuvalarına bənzəyən bir çox palıd qabığı ovuntusu təpələri ilə örtülü bir düz, daha sonra isə hasarla dövrəyə alınmış və içərisi taxta-şalban, taxta kəpəyi, talaşa və kötük yığınları ilə dolu bir yer görərdi, bu yığınların üstündə bir it hürür və qarovul çəkirdi. Bundan sonra yolçu uçmuş və alçaq, uzun bir divar da görərdi ki, bu divarın yaz günlərində başdan-başa çiçəklə örtülən mamır basmış, qara, kirli balaca bir qapısı da vardı. Daha sonra məhəllənin ən tənha bir yerində murdar,

uçuq bir bina vardı ki, divarları üzərində baş hərflərlə bu sözlər yazılmışdı: “Elan asmaq qadağandır”. Həmin bu yerdə cəsarətli yolçu çox az tanınan Vin-Sen-Marsel küçəsinin axırına çatmış olardı. Orada, zavodun yaxınlığında bağları əhatə edən iki çəpərin arasında o zamanlar ilk görünüşdə balaca daxmaya bənzəyən köhnə bir ev vardı. Həqiqətdə isə bu ev kilsə böyüklüyündə idi. Evin küçəyə baxan tərəfi ensiz olduğu üçün, kənardan baxana bu ev balaca görünürdü. Demək olar ki, bütün ev yerin altında gizlənmişdi. Yalnız qapısı ilə bir pəncərəsi görünürdü. Bu koma ikimərtəbəli idi.

Komaya diqqətlə baxan adam, hər şeydən əvvəl, qəribə bir şey görərdi: evin qapısı yalnız balaca bir anbar qapısı ola bilərdi, halbuki qapı yumşaq daşdan deyil, bərk daşdan açılmış olsaydı, bir kaşanəni bəzəyə bilərdi.

Bu qapı yonulmamış kötüyə oxşayan köndələn direklərlə birləşdirilmiş bir neçə köhnə və qurd yemiş taxtadan ibarət idi. Qapı hündür pilləli, kirli, tozlu, dik bir pilləkənə açılırdı; suvağı tökülən pillələrin eni də qapı enində idi. Küçədən bu pilləkənin nərdivan kimi iki divarın arasına girdiyi və qaranlıqda yox olduğu görünürdü. Kobud qapı oyuğunun üst tərəfi ensiz bir taxta ilə qapanmışdı ki, bunun da ortasında olan üçbucaqlı bir deşik, həm pəncərə, həm də qapı bağlı olduğu zaman bir baca yerini görürdü. Qapının iç tərəfində mürəkkəbə batırılmış iri bir fırça ilə “52”, bayırda isə yenə həmin fırça ilə qapının üstündə “50” rəqəmi yazılmışdı. Bu, sizi çaşdırır. Harada olduğunuzu necə bilmək olar? Qapalı qapı buranın 50 nömrəli ev olduğunu göstərir, qapı açıq olduğu zaman isə 52 nömrəli ev olduğu anlaşılır. Bu üçbucaqlı pəncərədən pərdə əvəzinə kirli cındırlar asılmışdı.

Pəncərə geniş və hündür idi, şəbəkəli taxtaları və iri şüşələri vardı. Ancaq bu şüşələr bir çox yerdən sınmışdı, sınıq yerlərə isə məharətlə kağızdan yamaq qoyulduğundan, həm üstü örtülmüşdü, həm də dərhal gözə çarpırdı. Pəncərənin taxtaları isə yarıqopmuş və laxlamış olduğundan daxmada yaşayanlar üçün bir müdafiə olmaqdan artıq, yolçular üçün təhlükə təşkil edirdi. Pəncərələrin düşmüş köndələn pərvazları yerinə boy uzunu taxtalar mıxlanmışdı. Bu surətlə pəncərə pərvazları pəncərə qanadlarına çevrilmişdi.

İyrənc görünən bu qapı yamaqlı olsa da, ləyaqətli görünən bu pəncərə eyni evin fonunda təsadüfən bir-birinə rast gələn iki dilənçini

xatırladırdı: bunlar bir-birinə rast gəlib yan-yana gedirdilər, lakin cındırları bir olsa da, zahirən bir-birinə bənzəmirdilər; birisi peşəkar bir dilənçi olduğu halda, o birisi yoxsullaşmış bir zadəgana bənzəyirdi.

Pilləkən, yaşayış evinə çevrilmiş və anbara bənzəyən binanın geniş və əsas hissəsinə çıxırdı. Bu binanın daxilində uzun bir koridor vardı ki, bunun da sol və sağ tərəflərində müxtəlif böyüklükdə qəfəsələr yerləşmişdi. Ehtiyac böyük olduqda yaşayış üçün istifadə edilən bu qəfəsələr, daxmadan daha çox balaca anbara bənzəyirdi. Pəncərələri qonşuluqdakı boş sahəyə açılırdı. Bütün bu qaranlıq, cansıxıcı, tutqun və həzin binaya damın, yaxud binaların deşikləri arasından ya günəşin solğun işığı düşər, ya da buz kimi soyuq şimal küləyi girərdi. Bu kimi evlərin xüsusiyyətlərindən birisi də iri hörümçəklərin olmasıdır.

Bulvar tərəfə açılan qapının sonunda, adam boyu hündürlüyündə, divarın içində qapalı bir baca vardı, dördbucaqlı bir deşikdən ibarət olan bu baca küçədən keçən uşaqların atdıqları daşlarla dolu idi.

Binanın bir hissəsi bir az bundan əvvəl uçub-dağılmışdı. İndiyə kimi salamat qalan hissəsinə baxdıqda isə, bu binanın vaxtilə necə bir şey olduğunu təsəvvür etmək olar. Bu bina, ən uzağı, yüz il bundan əvvəl tikilmişdir. Yüz il kilsə üçün cavanlıq, yaşayış evi üçün isə qocalıq deməkdir. İnsanların ömrü puç və müvəqqəti olduğu kimi, evlər də müvəqqətidir, Allahın evi isə – Allahın əbədiyyəti deməkdir.

Poçtalyonlar bu komaya 50-52 nömrəli ev deyirdilər, lakin bütün məhəllədə bu bina "Qorbonun evi" adı ilə məşhur idi.

Bu adın haradan doğulduğunu aydınlaşdırmalıyıq.

Xüsusi zövqləri üçün lətifə kolleksiyaları toplayan və sancağa sancılmış cücülər kimi ən xırda hadisələri belə hafizələrində saxlayan xırda macəra həvəskarları keçən əsrdə, təxminən, 1770-ci ildə, Şatledə iki prokuror olduğunu yaxşı bilirdi. Prokurorlardan birinin adı Korbo, o birinin adı isə Renar[1] idi. Lafonten bu adların ikisini də qabaqcadan duymuşdu. Bu hadisə olduqca maraqlı olduğundan, məhkəmə kargüzarları bunu lağlağı üçün bəhanə etmişdilər. Ədalət sarayının bütün qalereyalarında çox biçimsiz olsa belə, şeir şəklində dərhal yayılan bir parodiya yazılmışdı:

[1] Fransızca *le corbeau* (korbo) qarğa, *le renard* (renar) isə tülkü deməkdir.

Bir qarğa ağzında dustaq orderi
İri qovluqların üstünə düşdü,
Ac-susuz dolaşan günlərdən bəri
Tülkünün meşədə burnu gicişdi –
Ağzı sulanaraq çıxdı meşədən,
Gəlib dedi: "Qarğa, xoş gəlmisən sən!"

və i.a.

Hörmətli qanunçular bu bayağı zarafatdan pərt olub, dallarınca gələn qəhqəhə səslərindən özlərini təhqir edilmiş bilərək, öz familiyalarını dəyişmək məqsədilə krala müraciət edirlər. Onların ərz-halı XV Lüdovikə təqdim edildiyi zaman sağda papa nunsisi, solda isə kardinal Laroş-Emon dindar bir tövrlə diz çökərək, əlahəzrətin hüzurunda öz yatağından qalxmaqda olan madam Dübarrinin yalın ayaqlarına tufli geyindirirdilər. Bu iki yepiskopa baxaraq qəhqəhə çəkən kral, indi də fərəhlə prokurorların halına gülməyə başlamış və mərhəmət əta edərək, həmin bu məhkəmə siçovullarına öz adlarını bir balaca dəyişməyə icazə vermişdi. Məsələn, cənab Korboya kralın adından icazə verilmişdi ki, familiyasının baş hərfinə bir balaca quyruq əlavə edərək, artıq Qorbo adlansın; cənab Renarın isə bəxti gətirməmişdi: ona ancaq R hərfinə P hərfini əlavə etmək üçün icazə verilmişdi; bu surətlə Renar artıq Prenar[1] adlanmağa başladı, bu surətlə yeni familiya da ona əvvəlkindən az yaraşmırdı.

Demək, yerli rəvayətə görə, Xəstəxana bulvarındakı 50-52 nömrəli evin sahibi elə həmin bu Qorbo idi. Bu böyük pəncərəni icad edən də bu Qorbo olmuşdu.

Elə bu səbəbə görə də bu koma Qorbonun evi adlanırdı.

50-52 nömrəli evin qabağında, bulvardakı başqa ağaclarla bərabər, bir də yekə bir qarağac yüksəlirdi. Bu qarağacın budaqlarının çoxu qurumuşdu. Elə bu ağacdan Qobelen qapısının küçəsi başlayırdı, bu küçə o zamanlar hələ daşla döşənməmişdi. Küçə boyu sısqa ağaclar əkilmişdi, bu ağaclar ilin fəsillərindən asılı olaraq gah yaşıl, gah da qonur rəng alırdı. Parisi əhatə edən hasara çatar-çatmaz bu ağaclar birdən-birə yox olurdu. Qonşuluqdakı fabrikin borularından qalaq-qalaq yüksələn tüstü bütün məhəlləyə göydaş iyi saçırdı.

[1] Fransızca *prenard* (prenar) rüşvətxor deməkdir.

Şəhər qapıları yaxınlıqda idi. Parisi əhatə edən hasar 1823-cü ildə hələ vardı.

Bu şəhər qapısı özü insanda ələmli xəyallar oyadırdı. Bisetrə gedən yol buradan keçirdi. İmperiya və Restavrasiya dövründə ölümə məhkum edilənlər edam günü Parisə həmin bu qapıdan daxil olardılar. 1829-cu ildə baş vermiş və "Fonteneblo qapısındakı cinayət" adlanan gizli bir hadisə həmin bu yerdə olmuşdu. Qanun bu cinayətin müqəssirlərini tapa bilmədi. Bu, aydınlaşdırılmamış qalan qaranlıq bir məsələ, kəşf edilməmiş olan dəhşətli müəmmadır. Bir neçə addım da qabağa getsəniz, faciəli Krulbarb küçəsinə çatacaqsınız, burada Ulbax, melodramda oynayan bir artist kimi göylər guruldarkən, xəncərlə ivrili bir çoban qızı öldürmüşdü. Bir neçə addım daha atsanız, Sen-Jak qapılarındakı təpələri kəsik murdar qarağaclarla, insanpərvərlərin eşafotu gizlətmək meylindən doğan bu şeyə, rəzil və şərəfsiz Qrev meydanına, ölüm cəzasının mənzərəsindən dəhşətə gələn, lakin nə mərd-mərdanə onu ləğv edə bilən, nə də öz nüfuzu ilə müdafiə edə bilən dükançıların və meşşanların əməlinə çatmış olacaqsınız.

Otuz yeddi il bundan əvvəl daim dəhşət saçmaq üçün yaranmış Sen-Jak meydanı nəzərə alınmasa, bütün bu qorxunc bulvarın ən dəhşətli yeri, ola bilsin ki, bizim zəmanəmizdə belə heç də gözəl olmayan bu yer idi ki, 50-52 nömrəli koma da burada yerləşirdi.

Yalnız iyirmi beş il keçəndən sonra burada şəhərlilər ev tikməyə başladılar. Bura çox ürəkdarıxdıran yer idi. Burada siz qəmli fikirlərə dalır, siz uca günbəzi buradan yaxşıca görünən Salpetrierlə hasarı yaxında olan Bisetr arasında olduğunu hiss edirdiniz; yəni siz özünüzü divanə bir qadınla divanə kişi arasında hiss edirdiniz. Gözlərinizin əhatə etdiyi bütün məsafədə yalnız sallaqxanalar, dairə hasarı və qışlalara, monastırlara bənzəyən tək-tük fabrik fasadları görünürdü. Hər yanda baraklar, tikinti zirzibili, matəm örtüyü kimi qara köhnə divarlar, kəfən kimi ağ yeni divarlar, hər yanda sıra ilə əkilmiş ağaclar, düz xətlə uzanan tikintilər, bəzəksiz fasadların uzun və soyuq xətləri, düzbucaqların qəm-qüssə gətirən yeknəsəqliyi. Nə yerdə bir qırışıqlıq, kələ-kötürlük, nə tikintilərdə bir bəzək. Başdan-başa soyuq, yeknəsəq, iyrənc bir mənzərə. Heç bir şey simmetriya kimi insan qəlbini əzmir. Çünki simmetriya – ürək darıxdırmaq deməkdir, ürək darıxdırmaq isə qəm və hüznün mahiyyətidir. Məyusluq hər zaman

əsnər. İnsanların əzab və iztirab çəkdiyi cəhənnəmdən də dəhşətli bir yer varsa, o da ancaq insanların ürəyi darıxdığı bir cəhənnəmdir. Doğrudan da, belə bir cəhənnəm olsaydı, Xəstəxana bulvarının bu hissəsi həmin cəhənnəmə gedən bir xiyaban ola bilərdi.

Bununla belə, gecə yaxınlaşdıqca, günəş sönən dəqiqələrdə, xüsusilə qış günlərində, qışın buz kimi soyuq nəfəsi qarağacların son qonur yarpaqlarını qoparan, qaranlıqda göz gözü görməyən və göydə ulduzlar sönən zaman, yaxud küləyin şiddətindən buludlarda Ay üçün pəncərə açıldıqda, bulvar birdən-birə dəhşətli olur. Onun qara xətləri qaranlığa doğru gedərək, nəhayətsiz sonsuzluğun bir parçası kimi yox olub gedir.

Yolçu dar ağacı ilə əlaqədar olan saysız-hesabsız xatirələri, bu yerə aid əfsanələri yadına salır. Bir çox cinayətlərin baş verdiyi bu məhəllənin tənhalığında qorxunc bir şey gizlənir. Adama elə gəlir ki, qaranlıqda hər yerdə tələlər qurulmuşdur, dumanlı kölgələr şübhə oyadır, ağaclar arasındakı uzun dördbucaqlı çuxurlar isə qəbirə bənzəyir. Gündüz bu şeylər çirkin görünür, axşam ələmli bir təsir bağışlayır, gecə isə məşum bir dəhşət saçırdı.

Yay günlərində axşamlar qarağacların altındakı köhnə, sökük oturacaqlarda qoca qarılar oturardı. Onlar sırtıqlıqla sədəqə dilərdilər.

Lakin qədimlikdən artıq köhnəlik təsiri bağışlayan bu məhəllə, hələ o zaman dəyişməyə doğru meyil edirdi. Onu görmək istəyənlər tələsməli idilər. Hər gün ümumi mənzərədən bir şey yox olurdu. Halhazırda son iyirmi il ərzində olduğu kimi, bu köhnə məhəllə ilə yanaşı yerləşmiş olan Orlean dəmir yolunun vağzalı məhəllənin tez dəyişməsinə səbəb olur. Paytaxtın ucqarlarında dəmir yol stansiyası yaranar-yaranmaz, dərhal qəsəbə məhv olur, şəhər doğulur. Sanki, insan hərəkətlərinin bu böyük mərkəzləri ətrafında bu qüvvətli maşınların gurultusundan, bu əjdaha kimi kömürü həzm edib alov püskürən mədəniyyət atlarının nəfəsindən yeni cücərtilərlə dolan bu torpaq sarsılır, titrəyir, insanın qədim mənzillərini udmaq və yenilərini doğurmaq üçün ağzını geniş-geniş açır. Köhnə evlər uçulur, yeni evlər ucalır.

Orlean dəmir yolu stansiyası Salpetrier mülkünə hücuma keçdiyi gündən bəri, Sen-Viktor xəndəkləri və Nəbatat bağı ilə həmhüdud olan qədim və dar küçələr sarsıldı, günün müəyyən vaxtlarında üç-dörd dəfə axın sürəti ilə keçən dilicanlar, fiakrlar və omnibuslar

evləri sağa və sola doğru çəkilməyə məcbur etdilər. İlk baxışda həqiqətdən uzaq görünən bəzi hadisələr var, bununla belə, onlar tamamilə həqiqətə uyğundur: iri şəhərlərdə günəş üzü cənuba doğru çevrilmiş evlər əmələ gəlməsinə səbəb olduğu kimi, şübhə yoxdur ki, küçələrdən sel kimi keçən ekipajlar da küçələrin genişlənməsinə səbəb olur. Yeni həyatın əlamətləri göz qabağındadır. Bu qədim əyalət məhəlləsində, ən tənha bucaqlarda belə, döşəmə yollar çəkilir, hələ yolçuların keçmədiyi yerlərdə belə hər tərəfdə səkilər uzanmağa başlayır. Bir dəfə, 1845-ci ilin unudulmaz iyul səhərində burada birdən-birə qara asfalt qazanları tüstülədi; demək olar ki, o gün mədəniyyət Lursin küçəsinə çatdı və Paris Sen-Marso qəsəbəsinə qədəm qoydu.

İkinci fəsil

BAYQUŞ VƏ BÜLBÜL YUVASI

Jan Valjan həmin bu Qorbonun koması qabağında dayandı. O, vəhşi quşlar kimi özünə yuva tikmək üçün bu kimsəsiz yeri seçmişdi.

Əlini jiletinin cibinə salıb oradan açar kimi bir şey çıxartdı, qapını açıb içəri girdi, sonra onu möhkəm bağladı və Kozetta qucağında, pilləkənlə yuxarı qalxdı.

Pilləkənin başında cibindən başqa bir açar çıxartdı, ikinci qapını açdı. İçəri girib dərhal qapını bağladığı otaq geniş bir çardağa bənzəyirdi. Avadanlığı yerə salınmış bir döşəkdən, masadan və bir neçə stuldan ibarət idi. Küncdə bir soba vardı. Soba qalanmışdı, içində közərmiş od görünürdü. Bulvarda yanan fənər bu miskin mənzili sönük işıqla işıqlandırırdı. Otağın dal tərəfində balaca bir dəhliz vardı, buraya qatlama dəmir bir çarpayı qoyulmuşdu. Jan Valjan qızı çarpayının üstünə elə ehmalca qoydu ki, qız oyanmadı.

Kibrit çəkib şamı yandırdı – bunlar əvvəlcədən hazırlanıb masanın üstünə qoyulmuşdu. Sonra əvvəlki kimi heyran bir nəzərlə Kozettaya baxmağa başladı. Baxışında, az qala, divanəlik dərəcəsinə çatan bir mərhəmət və riqqət görünürdü. Bu qızcığaz yalnız böyük bir qüvvə, yaxud böyük bir zəiflik əlaməti olan sakit bir etimadla yatmışdı. Kiminlə harada olduğunu belə bilmədən rahat-rahat yatırdı.

Jan Valjan əyilib bu uşağın əlini öpdü.

Doqquz ay bundan əvvəl o, bu qızın anasının əlini öpmüşdü. Anası da qızı kimi yatmışdı, lakin əbədi olaraq yatmışdı.

Qəlbi yenə ovaxtkı kimi acı, ağır, həzin bir hiss və pərəstişlə dolu idi.

O, Kozettanın çarpayısı qarşısında diz çökdü.

Gün çıxmışdı, Kozetta isə hələ yatırdı. Dekabr günəşinin solğun ziyası çardağın pəncərəsindən girərək, tavan üzərində uzun kölgələr və işıqlar cızırdı. Birdən-birə, bulvar şosesi ilə keçən, ağır daşla yüklənmiş bir araba göy guruldayırmış kimi bir gurultu salaraq, bütün komanı başdan-başa sarsıtdı və titrəməyə məcbur etdi.

Kozetta bu gurultudan birdən-birə oyanaraq çığırdı:

– Bəli, xanım, bəli! Bu saat, bu saat gəlirəm!

Gözlərinin qapaqları hələ yuxudan açılmamış bir halda çarpayıdan sıçrayaraq, əllərini otağın küncünə doğru uzatdı.

– Aman Allah! – deyə bağırdı. – Bəs mənim süpürgəm hanı?

Gözlərini geniş açdıqda Kozetta qarşısında Jan Valjanın gülər üzünü gördü. Qız:

– Ah, lap yadımdan çıxmışdı, – dedi. – Sabahınız xeyir olsun, cənab.

Uşaqlar öz təbiətləri etibarilə sevinc və səadəti təcəssüm etdiklərindən, sevinc və səadətə tez və səmimiyyətlə alışırlar.

Kozetta yatağının ayaq tərəfində Katerinanı görərək dərhal qucağına aldı. O, kuklası ilə oynaya-oynaya Jan Valjana min cür sual verirdi. O haradadır? Paris çoxmu böyükdür? Madam Tenardye ondan çoxmu uzaqdadır? Dalımca gələ bilməz ki? Birdən Kozetta çığırdı:

– Ah, bura nə gözəldir!

Bu, iyrənc bir daxma idi, lakin Kozetta burada özünü azad hiss edirdi. Nəhayət, yenə soruşdu:

– Otağı süpürümmü?

Jan Valjan cavab verdi:

– Oyna.

Bütün gün belə keçdi. Heç bir şey anlamağa çalışmayaraq Kozetta öz kuklası ilə bu adamın yanında özünü son dərəcə xoşbəxt hiss edirdi.

Üçüncü fəsil

İKİ BƏDBƏXTLİK BİRLƏŞƏNDƏ... SƏADƏT ƏMƏLƏ GƏLİR

Ertəsi gün səhər tezdən Jan Valjan yenə də Kozettanın yatağı yanında durmuşdu. O, hərəkətsiz dayanıb Kozettaya baxaraq onun oyanmasını gözləyirdi.

Qəlbində yeni qəribə duyğular yaranırdı.

Jan Valjan heç bir zaman heç bir kəsi sevməmişdi. İyirmi beş il idi ki, o, tamamilə yalqız idi. O heç bir zaman ata, məşuq, ər, dost olmamışdı. Katorqada acıqlı, qaşqabaqlı, bakir, nadan və vəhşi bir adam idi. Bu köhnə katorqalının qəlbinə hələ heç bir şey toxunmamışdı. Bacısı və bacısının uşaqları dumanlı və uzaq bir xatirə kimi yadına gəlirdi, lakin sonralar onlar da xatirəsindən tamamilə silindi. Jan Valjan onları tapmaq üçün çox əlləşdisə də, tapa bilmədi, unutdugetdi. İnsan təbiətinin xasiyyəti belədir. Gəncliyində başqa hisslər, meyillər olmuşsa, onlar da artıq yox olmuşdu.

O, Kozettanı gördüyü, balaca qızı götürüb özü ilə apardığı, azad etdiyi zaman bütün qəlbinin sarsıldığını hiss etdi. Qəlbinin bütün ehtirasları və mehribanlıq hissləri birdən-birə oyanaraq bu uşağa doğru meyil etdi. Jan Valjan Kozettanın yatdığı çarpayıya yaxınlaşarkən sevincindən titrəyirdi. O, doğum ağrılarını hiss edən və bunun nə olduğunu anlamayan gənc bir anaya bənzəyirdi. Bu ona görədir ki, sevməyə başlayan bir qəlbin böyük, əsrarəngiz hərəkətində dumanlı və şirin bir şey var.

Zavallı qoca, bakir qəlb!

Lakin Jan Valjanın əlli beş yaşı olduğu halda, Kozettanın səkkiz yaşı vardı, odur ki həyatında duya bilməyəcəyi bütün məhəbbət uşağa doğru yönələrək anlaşılmaz bir nurla parladı.

Bu, onun həyatında parlayan ikinci bir nurani xəyal idi. Yepiskop həyatının üfüqlərində mərhəmət şəfəqlərini saçdı, Kozetta isə məhəbbət şəfəqini alovlandırdı.

İlk günlər böyük bir səadət içində keçdi.

Kozettaya gəlincə, o da özü belə hiss etmədən dəyişmişdi. Zavallı körpə! Anası onu qoyub getdiyi vaxt, Kozetta o qədər balaca idi ki,

yadına belə gəlmirdi. Üzüm tənəyinin zoğları kimi hər şeyə yapışaraq sarmaşmağa çalışan bütün uşaqlar kimi, Kozetta da sevmək istəyirdi. Lakin bu, ona mümkün olmurdu. Hamı onu rədd etdi: Tenardyelər də, onların uşaqları da, başqa uşaqlar da, hamı rədd etdi. Kozetta bir itə məhəbbət bağlamışdı, o da öldü. Bundan sonra heç kəs və heç bir şey onunla maraqlanmadı. Bunu söyləmək belə insanda dəhşət oyadır, lakin bir dəfə biz bunu qeyd etdik: səkkiz yaşında ikən Kozettanın soyuq bir qəlbi vardı. Günah özündə deyildi, o, sevmək qabiliyyətini itirməmişdi, lakin, əfsus, o, sevmək imkanından məhrum edilmişdi. Odur ki elə ilk gündən o, bütün fikirləri, hissləri, qəlbi ilə bu qocaya bağlandı. Kozetta indiyə kimi hiss etmədiyi bir şey hiss edir, qəlbi sevinclə döyünürdü.

Bu mərhəmətli adam ona artıq nə qoca, nə də yoxsul görünürdü. Bu daxmanı gözəl saydığı kimi, Jan Valjan da ona gözəl görünürdü.

Şəfəqin, uşaqlığın, gəncliyin, sevincin təsiri belədir. Məkan və həyatın dəyişməsinin burada böyük əhəmiyyəti vardır. Yer üzündə ən gözəl bir şey varsa, o da çardaqda duyulan səadətin al şəfəqləridir. Bizim hər birimizin keçmişində belə işıqlı bir guşə var.

Təbiət Jan Valjanla Kozettanın arasında böyük bir hasar çəkmişdi: bunları bir-birindən yarım əsr ayırırdı. Lakin həyat bu hasarı yıxdı. Tale yaşları müxtəlif, lakin dərdləri bir olan və yaşamaq əsaslarından məhrum edilən bu iki insanı birdən-birə görüşdürmüş və ayrılmaz bağlarla birləşdirmişdi. Həqiqətən, bu iki həyat bir-birini tamamlayırdı. Kozetta təbii hisslə bir ata, Jan Valjan isə bir övlad axtarırdı. Bir-birinə rast gəlmələri – bir-birini tapmaları demək idi. Qoca ilə balaca qızın əlləri bir-birinə toxunduğu zaman, bu sirli dəqiqədə, sanki, onlar bir-birinə sarıldılar. Bu iki qəlb görüşdükdə, sanki, bir-birinə nə qədər lazım olduqlarını hiss edərək bir-birilə əbədi olaraq qovuşdular.

Sözləri ümumi və hamının başa düşdüyü mənada işlətsək, bunlar haqqında belə demək olardı: bütün aləmdən məzar divarı ilə ayrılmış olan Jan Valjanla Kozetta, sanki, iki şeyi təcəssüm edirdilər: Jan Valjan – dul qalanların, Kozetta isə yetim qalanların təcəssümü idi. Və Jan Valjan, sanki, göylərin əmri ilə Kozettanın atası oldu.

Beləcə, Şel meşəsinin qaranlığında Jan Valjanın Kozettanın əlini əlinə alması əsrarəngiz bir duyğu oyatmışdı. Bu duyğu xəyaldan yox,

bir həqiqətdən doğmuşdu. Jan Valjanın bu uşağın taleyinə qarışması Allahın əmri idi.

Demək, Jan Valjan özü üçün yaxşı bir sığınacaq tapmışdı. Burada onun üçün, deyəsən, heç bir qorxu yox idi.

Kozetta ilə Jan Valjanın yaşadığı otağın pəncərəsi bulvara açılırdı. Bütün evdə bu, yeganə pəncərə idi, odur ki evin həm yan, həm də qabaq tərəfində yaşayan qonşuların nəzərlərinə sataşmaq qorxusu yox idi.

50-52 nömrəli evin aşağı mərtəbəsi köhnə bir anbardan və bostançıların məhsullarını qoymaq üçün istifadə etdikləri bir damdan ibarət idi. Bu mərtəbənin üst mərtəbə ilə heç bir əlaqəsi yox idi, ondan nə pilləkəni, nə bacası olmayan taxta tavanla ayrılmışdı, bu mərtəbə bütün komanın mərtəbələrini ayıran, sanki, qapalı arakəsmə idi. Dediyimiz kimi, ikinci mərtəbə bir çox balaca otaqlardan və bir neçə çardaqdan ibarət idi: bunların yalnız birində Jan Valjanın təsərrüfatını idarə etməyə razılıq vermiş bir qarı yaşayırdı. Qalan otaqlar isə bomboş idi.

Qarı "evin baş kirayənişini" adlanırdı, ancaq, əslində, evin qapıçısı idi. Milad axşamı otağı Jan Valjana kirayəyə verən də elə bu qadın idi. Jan Valjan özünü İspaniya qiymətli kağızları sayəsində iflas etmiş bir rantye[1] kimi tanıtdıraraq, nəvəsi ilə birlikdə burada yaşamaq istədiyini söyləmişdi. Altı ayın kirayə pulunu qabaqcadan verərək, bildiyimiz kimi, qarıdan otağı və dəhlizi döşəməyi xahiş etmişdi. Qarı da axşamdan peçi qalamış və onların gəlişi üçün hər şeyi hazırlamışdı.

Beləcə həftələr keçir, qoca ilə uşaq bu miskin komada xoşbəxt bir həyat sürürdülər.

Kozetta səhərdən-axşama kimi gülüb-oynayır, danışır, mahnı oxuyurdu. Uşaqların da quşlar kimi, səhər nəğmələri var.

Bəzən Jan Valjan Kozettanın soyuqdan çatlamış və qızarmış kiçik əlini əlləri arasına alar və öpərdi. Yazıq qızcığaz yalnız döyülməyə adət etdiyindən bunun nə demək olduğunu anlamaz və utana-utana çəkilərdi.

Bəzən də Kozetta ciddi bir tövr alaraq öz qara paltarına baxmağa başlardı. Kozetta artıq cındır paltar geyinmirdi, o, yas əlaməti olan qara paltar geyinirdi. O, səfalətdən uzaqlaşaraq həyata qədəm basırdı.

[1] *Rantye* – haşiyəçi

Jan Valjan ona savad öyrətməyə başladı. Çox vaxt uşağın sözləri höccələməsini dinlərkən o, katorqada pis niyyətlə savad öyrəndiyini xatırlardı. İndi niyyəti dəyişmişdi, o, uşağa savad öyrədirdi. Qoca katorqalı bunu düşündükcə, dalğın bir mələk təbəssümü ilə gülümsərdi.

Jan Valjan bunu taleyin əmri, insana hökm edən bir varlığın iradəsi olduğunu hiss edir və xəyalata dalardı. Yaxşı niyyətlərin də, pis niyyətlərin də uçurum kimi yerləri var.

Kozettaya savad öyrətmək və ona istədiyi qədər oynamaq üçün imkan yaratmaq – Jan Valjan həyatının bütün mənasını, demək olar ki, bunda görürdü. Bəzən də Kozettaya anasından danışar və dua oxutdurardı.

Kozetta ona "ata" deyərdi, onun başqa adı olduğunu bilməzdi.

Jan Valjan saatlarca Kozettanın kuklasını geyindirib soyundurmasına baxar və onun civiltisini dinlərdi. Həyat indi onun üçün də maraqsız deyildi, insanlar ona mərhəmətli və ədalətli görünürdü, artıq bu uşaq onu sevdikdən sonra o heç kəsi fikrində məzəmmət etmirdi, təqsirləndirmirdi; o, tamam qocalıncaya qədər yaşamaq istəyirdi. Gələcək ona, sanki, Kozettanın saçdığı parlaq bir nurla işıqlaşmış kimi görünürdü. Ən yaxşı adamlar belə xudbin fikirlərdən çəkinə bilməzlər. O, bəzən qızın gözəl olmayacağını düşünərək sevinərdi.

Bu, bizim şəxsi rəyimiz olsa da, lakin mətləbi sonuna qədər söyləyəcək olursaq, zənnimizcə, Jan Valjan Kozettanı sevdiyi zaman qəlbində yaxşılığa olan meyli qüvvətləndirmək üçün məhəbbətə ehtiyacı vardı. O, bir az bundan əvvəl, artıq başqa bir şəkildə insanların kin və ədavətini və cəmiyyətin puç və boş olduğunu görmüşdü. Lakin onun gördükləri həyatı faciəli bir şəkildə daraldır, onun yalnız bir tərəfini büruzə verirdi ki, o da Fantinanın varlığında təcəssüm edən qadın taleyi və Javerin simasında təcəssüm edən ictimai rəy idi. Bu dəfə Jan Valjan katorqaya yaxşı iş gördüyü üçün göndərilmişdi, onun qəlbi yenə acılarla dolmuşdu, onu yenə nifrət və yorğunluq bürümüşdü. Yepiskopun xatirəsi belə bəzən, sanki, sönməyə başlayır, lakin yenidən zəfər çalaraq parlayırdı, nəhayət, bu müqəddəs xatirə də söndü. Kim bilir, bəlkə də, Jan Valjan artıq ümidsizlik qapılarını döyürdü, bəlkə, o, tamamilə süqut etmək ərəfəsində idi? Lakin o sevdi və yenə qüvvət qazandı. Əfsus! Həqiqətdə

o heç də Kozettadan möhkəm deyildi. Jan Valjan Kozettaya himayə göstərdisə, o da Jan Valjana qüvvət verdi. Kozetta onun sayəsində həyat yolunda irəliləyə bilərdi, Kozettanın sayəsində isə o, yaxşılıq yolu ilə irəliləməyə imkan tapdı. O, uşaq üçün bir kömək idisə, uşaq da onun üçün bir istinadgah idi. Sənin tərəzinin müvazinət sirri nə qədər dərin və müqəddəsdir, ey fələk!

Dördüncü fəsil

BAŞ KİRAYƏNİŞİNİN MÜŞAHİDƏLƏRİ

Jan Valjan ehtiyat üçün gündüzlər heç küçəyə çıxmazdı. Hər axşam qaranlıq çökərkən, bəzən yalqız, çox vaxt isə Kozetta ilə birlikdə ən tənha bulvarların kənar xiyabanlarında bir-iki saat gəzər, hava qaraldıqdan sonra isə bir kilsəyə girərdi. Xüsusilə evinə yaxın olan Sen-Medar kilsəsinə getməyi sevərdi. Kozettanı özü ilə bərabər aparmadığı zamanlar onu qarıya tapşırardı, lakin Kozetta üçün mehriban qoca ilə gəzmək böyük bir səadət idi. Bir saat onunla gəzməyi Kozetta Katerinası ilə şirin-şirin söhbət etməkdən belə xoş bilərdi. Qoca onunla gəzərkən, daim əlindən tutar və nəvazişlə danışardı.

Kozetta olduqca şən təbiətli bir qız idi.

Qarı təsərrüfatı idarə edir, xörək bişirir, bazara gedirdi.

Onlar sadə bir həyat sürürdülər, ən lazımlı şeylərə ehtiyacları olmasa da, sürdükləri həyat yoxsul adamların həyatına bənzəyirdi. Jan Valjan otağın içində heç bir şey dəyişdirmədi, hər şeyi elə birinci gün olduğu kimi saxladı, yalnız Kozettanın balaca daxmasının şüşəli qapısını dəyişdirib, yerinə taxta bir qapı qoydurdu.

O, yenə eyni sarı redinqotunu və eyni qara şalvarını geyir və eyni köhnə şlyapasını qoyurdu. Küçədə rast gələnlər onu yoxsul zənn edirdilər. Bəzən rəhmdil qarılar onu diləncı bilib, bir su belə verərdilər. Jan Valjan pulu alar və hörmətlə təşəkkür edərdi. Bəzən də sədəqə istəyən bir bədbəxtə rast gəldikdə yaxında kimsə olub-olmadığını bilmək üçün ətrafına boylanar və xəlvətcə yoxsula yanaşıb, ovcuna bir mis, çox zaman isə bir gümüş pul qoyar və sonra tez çəkilərdi. Bu işin öz mənfi cəhəti vardı. Məhəllədə onun bu hərəkətini görməyə başladılar və ona "sədəqə verən diləncı" adını verdilər.

Baş kirayənişin olan qarı hiyləgər, paxıllıqdan hər şeylə maraqlanan bir məxluq idi. Jan Valjanın özü belə duymadan onun hər bir hərəkətini diqqətlə izləyirdi. Bir az kar olduğundan boşboğazlıq edərdi. Keçmiş gözəlliyindən yalnız iki dişi qalmışdı: biri üstdə, biri altda. O, həmişə bu iki dişini şaqqıldadardı. Qarı Kozettadan bəzi şeylər soruşmağa başladı, lakin o özü də heç bir şey bilmədiyindən, qarıya heç bir şey deyə bilməmiş və ancaq özünün Monfermeyldən gəldiyini bildirmişdi. Bir dəfə bu sayıq gözətçi Jan Valjanın komanın boş otaqlarından birinə girdiyini gördü və bu, hər şeylə maraqlanan dedi-qoduçu qarıya şübhəli göründü. O, qoca pişik kimi səssiz-səmirsiz, gizlənə-gizlənə onun dalınca yeridi və xəlvətcə qapının deşiyindən pusmağa başladı. Jan Valjan, ehtimal ki, ehtiyat edərək arxasını qapıya tərəf çevirmişdi. Qarı Jan Valjanın əli ilə cibini eşələdiyini və oradan bir iynə, qayçı və sap çıxartdığını gördü. Sonra Jan Valjan redinqotunun ətəyinin astarını sökərək, oradan sarımtıl bir kağız çıxartdı və açdı. Qoca qarı bu sarı kağızın min franklıq bir bank bileti olduğunu anlayaraq dəhşətə gəldi. O, ömründə ancaq iki, ya üç dəfə minfranklıq bilet görmüşdü. Qarı bərk qorxmuş halda oradan çəkildi.

Bir dəqiqə sonra Jan Valjan qarının yanına gəlib, minfranklıq bileti xırdalamağını xahiş etdi və bu pulu dünən aldığını, həm də onun yarım illik rentası olduğunu söylədi. “Dünən haradan aldı? – deyə qoca qarı öz-özünə fikirləşdi. – Dünən axşam o ancaq saat altıda evdən bayıra çıxmışdı, xəzinənin kassası isə bu zamanlar bağlı olur”. Qarı cürbəcür fərziyyələr quraraq, pulu xırdalamağa getdi. Bu minfranklıq bilet əhvalatı yeni təfsilatla zənginləşərək və min frankdan bir neçə min franka çevrilərək, Vin-Sen-Marsel məhəlləsinin arvadlarının ağzına düşdü, bir çox dedi-qodulara və təşvişə səbəb oldu.

Bu əhvalatdan bir neçə gün sonra Jan Valjan əynində təkcə jilet dəhlizdə odun mişarlayırdı. Qoca qarı otaqda ev işləri ilə məşğul idi, Kozetta isə odunun mişarlanmasına tamaşa edirdi. Otaqda tək qalan qarı, redinqotun mıxdan asılmış olduğunu görüb diqqətlə onu yoxlamağa başladı. Astarı yenidən tikilmişdi. Qarı redinqotun hər yerini diqqətlə araşdırdı. Ona elə gəldi ki, redinqotun ətəklərində və qol diblərində qalın kağız bağlıları tikilmişdi. Şübhə yox ki, bunlar da minfranklıq biletlərdən idi.

Bundan başqa, qarı redinqotun ciblərində bir çox başqa şeylər gördü. Orada daha əvvəl görmüş olduğu iynə, qayçı və sapdan başqa, dolu bir pul kisəsi, böyük bir bıçaq və – bu çox şübhəli idi – müxtəlif rəngli bir neçə parik vardı. Bu redinqotun hər cibi hər bir ehtimala qarşı, gözlənilməyən hallarda lazım ola bilən şeylərlə dolu idi.

Beləliklə, komanın kirayənişinləri qışın axırlarına qədər yaşadılar.

Beşinci fəsil

BEŞFRANKLIQ PUL YERƏ DÜŞƏNDƏ CİNGİLDƏYİR

Sen-Medar kilsəsinin yaxınlığında, üstü örtülmüş camaatlıq bir su quyusunun kənarında hər gün bir dilənçi otururdu. Jan Valjan ona məmnuniyyətlə sədəqə verirdi. Onun bir neçə su vermədən bu dilənçinin yanından keçdiyi hallar çox az olardı. Bəzən onunla söhbətə belə girişərdi. Dilənçiyə paxıllıq edənlər onun polis adamlarından olduğunu iddia edirdilər. O, yetmiş beş yaşlı qoca idi, daim dodaqaltı dua oxuyardı.

Bir axşam Jan Valjan təkcə, Kozettasız, onun yanından keçərkən dilənçinin həmişəki yerində, yenicə yandırılmış olan küçə fənərinin altında oturduğunu gördü. Beli çox bükülmüş olan bu qoca dilənçi, sanki, həmişəki kimi dua oxuyurdu. Jan Valjan yaxınlaşıb ona sədəqə uzatdı. Dilənçi birdən başını qaldıraraq düz Jan Valjanın üzünə baxdı, sonra yenə cəld başını aşağı saldı. Bu hərəkət bir ildırım sürəti ilə keçsə də, Jan Valjan titrədi. Ona elə gəldi ki, küçə fənərinin işığı altında qoca dilənçinin miskin və abid üzünü deyil, yaxşı tanıdığı bir adamın qorxunc üzünü gördü. Jan Valjan özünü qaranlıqda pələnglə üz-üzə gəlmiş kimi zənn etdi. Dəhşətindən donub qalaraq geri sıçradı. O nə nəfəs almağa, nə danışmağa, nə dayanmağa, nə də qaçmağa cəsarət etmir, əsgi ilə sarınmış başını əyərək oturmuş olan dilənçiyə baxırdı. Dilənçi isə, sanki, Jan Valjanın qabağında dayandığını görmürdü. Bu xariqüladə bir dəqiqədə, Jan Valjan bir sövq-təbii ilə, bəlkə də, gizli bir özünümüdafiə duyğusu ilə səsini çıxarmadı. Dilənçinin görünüşü eyni idi; eyni boy, eyni cındırlar, eyni sima. Jan Valjan öz-özünə düşünərək: "Eh! Mən lap dəli

olmuşam, – dedi. – Məni qara basır! Belə şey ola bilməz!" O, böyük bir həyəcan içində evə qayıtdı.

Görmüş olduğu üzün Javerin üzü olduğunu özünə belə etiraf etməkdən qorxurdu.

Gecə, bu hadisəni fikirləşərkən, dilənçi ilə nə üçün danışmadığına təəssüf etdi, danışmış olsaydı, dilənçi bir daha başını qaldırmağa məcbur olardı.

O birisi gün axşam qaranlığında, Jan Valjan yenə oraya getdi. Dilənçi həmişəki yerində oturmuşdu. Jan Valjan ona bir su uzadaraq qəti bir səslə dedi: "Xoş gördük, baba!" Dilənçi başını qaldırdı və zarıyan bir səslə: "Sağ ol, mərhəmətli ağa" dedi. Bu adam, şübhəsiz, qoca və dua oxuyan dilənçinin özü idi.

Jan Valjan büsbütün sakit oldu. Hətta öz-özünə gülərək "Burada Javer nə gəzirdi? – düşündü. – Yoxsa gözlərim xarab olmağa başlayır?" O artıq bu barədə düşünmürdü.

Bir neçə gün sonra, axşam saat səkkizə yaxın, Jan Valjan öz otağında oturub Kozettaya dərsini hündürdən oxutdurmaqda ikən, birdən evin bayır qapısının açılıb, yenə bağlandığını eşitdi. Bu, ona qəribə göründü. Evdə özündən başqa yalnız qoca qarı olurdu ki, o da şam yandırmamaq üçün həmişə axşamdan yatardı. Jan Valjan sükut etmək üçün Kozettaya işarə etdi. O, kiminsə pilləkənlə yuxarı qalxdığını eşidirdi. Əlbəttə, bu, qarının özü də ola bilərdi, bəlkə, xəstələnmiş və dərman üçün aptekə gedibmiş. Jan Valjan qulaq verib dinlədi. Addımlar kişi addımları kimi ağır və gurultulu idi. Lakin qarı da kobud ayaqqabı geyirdi, bir də qarıların ayaq səsləri də kişilərin ayaq səsinə bənzər. Bununla belə, Jan Valjan şamı söndürdü.

Kozettaya: "Get, yavaşca yerində uzan!" – deyə pıçıldayıb, onu yatmağa göndərdi, Kozettanın alnından öpdüyü zaman, ayaq səsləri kəsildi. Jan Valjan oturduğu stulun üstündə arxası qapıya doğru qaranlıqda nəfəs belə almadan, hərəkətsiz oturmaqda davam edirdi. Bir xeyli müddət sonra, heç bir səs eşitməyərək səssizcə vəziyyətini dəyişdi və geriyə dönüb otağının qapısına baxdıqda, qapının açar dəliyindən işıq gəldiyini gördü. Bu işıq qaranlıq olan qapıda və divarda məşum bir ulduza bənzəyirdi. Şübhə yox ki, qapının arxasında bir adam dayanmışdı və əlində şam, qulaq asırdı.

Bir neçə dəqiqə daha keçdi, işıq yox oldu. Lakin Jan Valjan azca belə ayaq səsi eşitmədi, qapının arxasında dayanıb qulaq asan adam, yəqin ki, ayaqqabılarını çıxarmışdı.

Jan Valjan, paltarını soyunmadan yatağına atıldı və bütün gecəni gözlərini yummadı.

Səhərə yaxın, yorğunluqdan mürgüləməyə başladığı zaman birdən dəhlizin sonundakı boş otaqlardan birinin qapısının açıldığını eşidərək oyandı. Sonra axşam pilləkəndən qalxan kişinin tanış ayaq səslərini eşitdi. Ayaq səsləri yaxınlaşırdı. Jan Valjan çarpayısından sıçradı. Gözünü açar deşiyinə yaxınlaşdırdı. O, gecə komaya girərək, qapısının arxasında dayanıb pusan yad adamın kim olduğunu görməyə çalışırdı. Doğrudan da, Jan Valjanın qapısı yanından bu dəfə dayanmadan bir kişi keçdi. Dəhliz hələ çox qaranlıq idi, onun üzünü seçmək mümkün deyildi, lakin bu adam pilləkənə çatdığı zaman bayırdan gələn işıq onun üzünə düşdü və Jan Valjan onu arxadan aydınca gördü. Bu, ucaboylu, uzun redinqotlu və qoltuğunda yoğun dəyənəyi olan bir kişi idi. Bu, Javerin dəhşətli kölgəsi idi!

Jan Valjan bulvara doğru açılan pəncərədən bir daha ona baxa bilərdi, lakin bunun üçün pəncərəni açmaq lazım gəlirdi, buna da o, cəsarət etmədi.

Şübhəsiz, bu adam qapını öz açarı ilə açıb, öz evinə girər kimi içəri girmişdi. Lakin bu açarı ona kim vermişdi? Bütün bu şeylər nə demək idi?

Səhər saat yeddidə qarı otağı təmizləməyə gəldiyi zaman Jan Valjan ona diqqətli bir nəzər saldı, lakin heç bir şey soruşmadı. Qarı özünü həmişəki kimi aparırdı.

Otağı süpürərkən qarı dedi:

– Cənab, siz, yəqin, bu gecə bizim evə bir adam girdiyini eşitdiniz?

O zamanlar bu məhəllədə axşam saat səkkiz gecənin yarısı hesab olunurdu.

Jan Valjan olduqca təbii bir səslə:

– Doğrudan da, – dedi, – elə bir şey eşitdim. O kim idi?

– O, bizim yeni kirayənişinimizdir.

– Adı nədir?

– Yaxşı yadımda deyil. Bilmirəm Dümondur, yoxsa Domondur. Buna bənzər bir şeydir, – deyə qarı cavab verdi.

– Yaxşı, bəs bu cənab Dümon kimdir?

Qarı balaca, hiyləgər gözləri ilə ona baxdı və cavab verdi:

– O da elə sizin kimi bir rantyedir.

Qarı, bəlkə də, bu sözləri tamamilə məqsədsiz söyləmişdi, lakin Jan Valjan bu sözlərin mənasız olmadığını düşündü.

Qarı getdikdən sonra Jan Valjan şkafda saxladığı yüz frankı dəstələyib kağıza bükdü və cibinə qoydu. Pulun səsi çıxmasın deyə, bunu böyük bir ehtiyatla etdisə də, pullardan biri əlindən düşərək, cingilti ilə döşəmənin üstünə yuvarlandı.

Qaranlıq çökəndə o, aşağıya endi, bulvarın hər tərəfinə diqqətlə baxdı. Bulvarda kimsə görünmürdü. Lakin ağacların arxasında da gizlənmək olardı.

Jan Valjan üzüyuxarı qalxdı.

Kozettaya:

– Gedək, – dedi.

Kozettanın əlindən tutdu, ikisi birlikdə evdən çıxdılar.

Beşinci kitab

LAL BİR İT SÜRÜSÜ İLƏ GECƏ OVU

Birinci fəsil

STRATEJİ ÜSULLAR

Həm bu, həm də oxucunun bundan sonra təsadüf edəcəyi səhifələr haqqında izahat verməyə ehtiyac var.

Təəssüflər olsun ki, özündən bəhs etməyə məcbur olan bu əsərin müəllifi, bir çox illərdən bəri Parisdə yaşamır. O, Parisi tərk edəndən sonra Paris öz simasını dəyişmişdir. Onun yerində müəllifin bir çox cəhətdən tanımadığı yeni bir şəhər əmələ gəlmişdi. Onun Parisi nə qədər sevdiyini inandırmağa ehtiyac yoxdur. Paris – onun mənəvi vətənidir. Köhnə evlərin uçurulması və yeni evlərin tikilməsi sayəsində müəllifin gəncliyində gördüyü Paris, xatirəsini pərəstişlə və əziz saxladığı Paris artıq keçmişdən başqa bir şey deyildir. Lakin, hər halda, bu əsərin müəllifinə keçmişdəki Paris haqqında indiki Paris kimi bəhs etməyə icazə verilməlidir. Kim bilir, bəlkə də, müəllifin oxucunu aparacağı və "Bax, filan küçədə filan ev vardı" deyəcəyi yerdə artıq nə küçə qalmışdır, nə də evlər. Oxucular zəhmət çəkmək istəsələr, bunu yoxlaya bilərlər. Müəllifin özünə gəlincə, o, bugünkü Parisi tanımır, o, qəlbində əziz saxladığı xəyallara dalaraq keçmiş günlərdəki Parisi təsəvvürünə gətirib bu əsəri yazır. O, vaxtilə vətənində gördüyü bəzi şeylərin, sanki, hələ də qaldığını, sanki, hələ hər bir şeyin məhv olmadığını düşünməklə özünə təsəlli verir. Doğma şəhərdə yaşayan adama elə gəlir ki, bu küçələrin, pəncərələrin, eyvanların, qapıların onun üçün heç bir əhəmiyyəti yoxdur, bu divarlar ona yad divarlardır, bu ağaclar – yolunda rast gəldiyi təsadüfdən başqa bir şey deyil, daxil olmadığı bu evlər

ona lazım deyil, qədəm basdığı bu döşəmə yollar ancaq daş yığınıdır. Ancaq sonralar, artıq o yerləri tərk etdikdən sonra bu küçələrin sənin üçün nə qədər əziz olduğunu, bu eyvanlardan, bu pəncərələrdən, bu qapılardan ayrı düşdüyünü, bu divarlara ehtiyacın olduğunu, bu ağacları dərin bir məhəbbətlə sevdiyini, heç bir zaman daxil olmadığın bu evlərdə sənin hər zaman yaşamış olduğunu, bu daşlarda ruhundan, qəlbindən, qanından bir qətrə qaldığını hiss edirsən. Sənin artıq görmədiyin və bəlkə də, heç bir zaman görməyəcəyin, lakin xatirəndə şəklini saxladığın bu yerlər qəribə, xəstə bir hüsnlə parlamağa başlayır, ələmli kölgələr kimi daim sənin gözlərinə görünür. Onlar, sanki, bizim üçün müqəddəs bir torpaqdır, sanki, Fransanın timsalıdır. Biz onları sevirik, biz daim onları öz xatirəmizdə bir zaman olduqları kimi canlandırmağa çalışırıq, biz onları zərrə qədər belə dəyişmək istəmirik, çünki vətən xəyalı ana xəyalı kimi bizim üçün əzizdir.

Demək, keçmişdən indiki zaman kimi bəhs etmək üçün bizə icazə verilməlidir. Bu xüsusda oxucuya xəbərdarlıq etdikdən sonra sözümüzə davam edə bilərik.

Jan Valjan dərhal bulvardan küçələrə dönərək, izini azdırmaq məqsədilə, tez-tez səmti dəyişməyə başladı. Dalınca heç kəsin gəlmədiyinə əmin olmaq üçün çox zaman geri qayıdıb keçmiş olduğu küçələri yenidən keçirdi.

Marallar da ovçulardan xilas olmaq üçün belə edirlər. Maral ayaqlarının izi qalan yumşaq torpaqda bu üsulun bir yaxşı cəhəti daha vardır ki, geriyə qayıdarkən buraxdığı iz, adətən, ovçuları və ov tulalarını azdırır. Ovçuların dilində bu üsula "yalandan yuvaya çəkilmək" deyirlər.

Aydınlıq bir gecə idi. Jan Valjan üçün bu əlverişli idi. İlfüqdən hələ çox da yuxarı qalxmayan Ay küçəyə kölgə və işıq zolaqları salırdı. Jan Valjan evlərin və hasarların yanından kölgə düşən tərəfdən keçərək gedə bilir və eyni zamanda işıq düşən tərəfləri də görə bilərdi. Lakin o, bəlkə də, kölgəli tərəfin nəzərindən qaçdığını heç xəyalına belə gətirmirdi. Hər halda, o, Polivo küçəsinə bitişik olan bütün boş və dar küçələrdə dalınca heç kəsin gəlmədiyinə əmin idi.

Kozetta heç bir sual vermədən, dinməz-söyləməz gedirdi. Həyatının ilk altı ili ərzində çəkmiş olduğu çətinliklər onun təbiətində bir növ passivlik yaratmışdı. Bundan başqa, onun daha bir xüsusiyyəti

vardı – biz bundan hələ dəfələrlə bəhs edəcəyik – o, qocanın qəribə hərəkətlərinə, taleyin oyunlarına öyrəşmişdi. Həm də bunları dərindən anlaya da bilmirdi. Bir də Kozetta özünü Jan Valjanın yanında təhlükədən uzaq hiss edirdi.

Jan Valjan haraya getdiyini Kozettadan artıq bilmirdi. Kozetta ona pənah apardığı kimi, o da Allaha pənah aparırdı. Kozettaya da, Jan Valjana da elə gəlirdi ki, özündən də böyük bir qüvvə onun əlindən tutub aparır, görünməz bir varlıq onun hər addımına istiqamət verir. Ümumiyyətlə, onun heç bir müəyyən fikri, heç bir məqsədi, heç bir planı yox idi. O, hətta gördüyü adamın Javer olduğuna belə əmin deyildi. Əlbəttə, o adam Jan Valjan olduğunu bilməyən Javer idi. Axı o, qiyafəsini dəyişmişdi. Axı onu ölmüş zənn edirdilər. Bununla belə, son günlər ərzində ona qəribə görünən bəzi hadisələr baş vermişdi. Bunlar kifayət idi: o, bir daha Qorbonun evinə qayıtmamağa qərar verdi. Yuvasından ürküdülmüş bir heyvan kimi, Jan Valjan yeni bir sığınacaq tapana qədər gizlənmək üçün bir deşik axtarırdı.

Jan Valjan bir müddət Muftar məhəlləsində müxtəlif istiqamətlərdə dolaşdı. Məhəllə artıq yuxuya dalmışdı, sanki, orta əsrlərin sərt qanunları hələ də qüvvədə idi və işığı keçirmək haqqında hələ də siqnal verilirdi. Jan Valjan ali strateji qanunlarının tələblərinə görə müxtəlif vasitələrlə Vergi küçəsindən Talaşa küçəsinə, oradan da Batuar-Sen-Viktora və Püi l'Ermitə keçdi. Bu küçələrdə gecələmə evləri vardısa da, Jan Valjan oralara heç ayaq basmadı, o, başqa şey axtarırdı. Yeri gəlmişkən Jan Valjan, hətta təsadüfən onun izini tapmış olsalar da, indi yenə bu izi itirdiklərinə şübhə etmirdi.

Sent-Etyen-dü-Mon qülləsindəki saat düz on biri vurduğu zaman, Jan Valjan Pontuaz küçəsində 14 nömrəli evdə yerləşən polis komissarı idarəsinin qabağından keçirdi. Yuxarıda qeyd etmiş olduğumuz özünümüdafiə duyğusu bir neçə saniyə sonra onu geriyə baxmağa məcbur etdi. Bu zaman özündən xeyli yaxında dalınca üç adamın gəldiyini aydınca gördü. Onlar küçənin kölgə tərəfi ilə polis idarəsinin fənəri altından bir-birinin ardınca keçdikləri zaman fənərin işığı onları kəşf etdi. Üç nəfərdən biri 14 nömrəli evə doğru gedən kiçik xiyabana keçdi. Qabaqda gedən adam Jan Valjana son dərəcə şübhəli göründü.

O, Kozettaya:

– Gedək, bala, – dedi və Pontuaz küçəsindən çıxmağa tələsdi.

Jan Valjan qonşu küçələrdə dövrə vurdu, vaxt gec olduğuna görə bağlı olan Patriarx passajı ətrafına dolandı, sonra Ağac qılınc küçəsini, Nişançı küçəsini keçdi. Poçt küçəsinə daxil oldu.

Orada yolayrıcı vardı. Hal-hazırda həmin yerdə Rolen kolleci yerləşmişdir. Yeni Sent-Jenevyeva küçəsi də buradan ayrılır.

(Əlbəttə, Yeni Sent-Jenevyeva küçəsi köhnə küçədir. Poçt küçəsinə gəlincə isə buradan on ildə bir dəfə poçt karetası keçə, ya keçməyə. On üçüncü əsrdə bu Poçt küçəsində dibçəkçilər yaşarmış, küçənin indiki adı da elə Dibçək küçəsidir).

Ay bu yolayrıcını işıqlandırmışdı. Jan Valjan darvazanın arxasında gizlənərək dayandı, bu ehtimalla ki, həmin adamlar onu təqib etməkdə davam edirlərsə, ay işığı düşən yerdən keçdikləri zaman, mütləq onları görəcəkdir.

Doğrudan da, üç dəqiqə keçmədi ki, təqib edənlər yenə göründülər. İndi onlar dörd nəfər idi, hamısı ucaboylu, uzun, tünd redinqotlu, dəyirmi şlyapalı idilər, əllərində yoğun dəyənəklər vardı. Qorxunc görünüşlərindən, iri boylarından və zorba yumruqlarından başqa, onların qaranlıqda vahiməli yeriməsi dəhşət oyadırdı. Onlar şəhərli paltarı geyinmiş dörd kabusa bənzəyirdilər.

Yolayrıcının ortasında dayanıb bir yerə yığışdılar, bir şey müzakirə edirlərmiş kimi baş-başa verdilər. Tərəddüd içində olduqları görünürdü. Başçı sayılan adam dönüb bir əli ilə Jan Valjanın gizləndiyi tərəfi sürətlə göstərdi, o birisi isə xeyli inadla başqa səmti göstərirdi. Başdakı adam dönüb baxdıqda ayın işığı onun üzünə düşdü. Jan Valjan Javeri tanıdı.

İkinci fəsil

XOŞBƏXTLİKDƏN, AUSTERLİS KÖRPÜSÜNDƏN ARABALAR KEÇİR

Artıq Jan Valjan üçün şübhə qalmadı; xoşbəxtlikdən, onu təqib edən adamlar hələ tərəddüd içində idilər. Jan Valjan onların tərəddüd etməsindən istifadə etdi; onlar vaxtı itirdikləri halda, Jan Valjan vaxtı qazanırdı. Gizləndiyi darvazanın altından çıxıb, Poçt küçəsi ilə

Nəbatat bağına doğru irəlilədi. Kozetta yorulmağa başlayırdı. Jan Valjan onu qucağına alıb apardı. Yolda heç kəsə rast gəlmədi, aydınlıq olduğundan küçə fənərlərini yandırmamışdılar.

Jan Valjan sürətlə yeriməyə başladı.

Bir az sonra Qoblenin dibçək fabrikinə çatdılar. Fabrikin fasadında Ayın işığında qədim bir lövhə aydınca görünürdü. Üzərində belə yazı vardı:

Bu fabrik Qoblenin və oğlunundur.
Müştərilər, mal almağa tələsin siz.
Burada dibçək, ləyən, qazan, güvəc olur –
Nə desəniz, can-baş ilə verərik biz.

Çeşmə küçəsi və Sen-Viktor fəvvarəsi arxada qaldıqdan sonra Jan Valjan Nəbatat bağı boyu sahilə doğru enən küçələrlə yeriməyə başladı. Burada dayanıb geri baxdı. Küçələrdə heç kəs görünmürdü. Dalınca heç kəs gəlmirdi. Azad bir nəfəs aldı.

Austerlis körpüsünə çatmışdı.

O zamanlar körpüdən keçmək üçün hələ vergi alırdılar, Jan Valjan vergiyığanın budkasına yanaşıb bir su uzatdı.

Qoca əlil bir kişi:

– İki su verməlisiniz, – dedi. – Qucağınızda özü yeriyə bilən bir uşaq var. İki adamın haqqını verməlisiniz.

Jan Valjan körpüdən keçməsinin kiminsə diqqətini cəlb etdiyinə təəssüf edərək pulu verdi. Qaçan adam koramal kimi sivişib keçməlidir.

Onunla bərabər körpüdən böyük bir araba da keçirdi. O da Jan Valjan kimi çayın sağ sahilinə doğru gedirdi. Bu, Jan Valjanın xeyrinə idi. O, arabanın kölgəsində gizlənərək körpünü keçə bilərdi.

Körpünün ortasına çatdıqda, Kozetta ayaqlarının üyüşdüyünü hiss edərək, düşüb yerimək istədi. Jan Valjan onu yerə qoyub, əlindən tutdu.

Körpünü keçdikdən sonra sol tərəfdə odun anbarlarını gördü və o tərəfə getdi. Anbarlara çatmaq üçün geniş və açıq, işıqlı bir yerdən keçmək lazım gəlirdi. Jan Valjan tərəddüd etmədi. Onu təqib edənlər, görünür, izini itirmişdilər və Jan Valjan artıq özünü təhlükədən uzaq zənn edirdi. Doğrudur, onu axtarırdılar, lakin təqib edən yox idi.

Divarla əhatə olunmuş iki taxta anbar arasında Yaşıl yol adlı balaca bir küçə vardı. Bu küçə dar və qaranlıq idi, sanki, elə onun üçün yaranmışdı. Jan Valjan küçəyə girmədən boylanıb geri baxdı.

Dayandığı yerdən Austerlis körpüsü başdan-başa görünürdü.

Körpüyə dörd qara kölgənin çıxdığını gördü.

Kölgələr Nəbatat bağı tərəfdən çayın sağ sahilinə doğru gəlirdi.

Bu dörd kölgə onu təqib edən dörd ovçu idi.

Jan Valjan tələyə düşmüş bir heyvan kimi titrədi.

Onun yalnız bir ümidi qalmışdı; bəlkə də, o, Kozettanın qolundan tutaraq işıqlı yerdən keçdiyi zaman, bu adamlar hələ körpüyə çatmamış və onu görməmişdilər.

Əgər elə olsaydı, qarşısındakı dar küçəni keçərək odun anbarlarına, bostanlara, çöllərə, düzlərə çata bilər və artıq qurtulmuş olardı.

Ona elə gəldi ki, bu balaca və sakit küçəyə etimad edə bilər. Jan Valjan bu küçə ilə getdi.

Üçüncü fəsil

1727-ci İLDƏKİ PARİSİN PLANINA BAX

Üç yüz addım getdikdən sonra, Jan Valjan küçənin iki qola ayrıldığı bir yerə çatdı: küçənin bir qolu sağa, o biri qolu isə sola gedirdi. Jan Valjanın qarşısında, sanki, V hərfinin iki budağı dayanmışdı. O, hansı yolu seçməli idi?

O, tərəddüd etmədən, sağa doğru getdi.

Nə üçün?

Çünki sola gedən yol qəsəbəyə, yəni məskun bir yerə, sağa gedən küçə isə düzlərə, yəni kimsəsiz yerlərə doğru gedirdi.

Lakin onlar artıq o qədər sürətlə yerimirdilər. Kozettaya görə Jan Valjan da yavaş yeriməyə məcbur olurdu. Jan Valyan onu yenə qucağına aldı. Kozetta dinməz-söyləməz başını qocanın çiyninə qoydu.

Ara-sıra Jan Valjan dönüb geriyə baxırdı. O, qarşısında ox kimi uzanan küçənin kölgə tərəfindən getməyə çalışırdı. İki-üç dəfə dönüb baxdı, heç kəsi görmədi. Bütün küçə dərin bir sükut içində idi. Jan Valjan bir az sakitləşərək yoluna davam etdi. Birdən bir daha

dönüb geriyə baxdıqda arxada qalan küçənin uzaqlarında, qaranlıqda bir an içində hərəkətə bənzər bir şey gördü.

Jan Valjan bu dəfə yerimədi, sürətlə özünü qabağa atdı. Yan bir küçəyə rast gəlib, onu təqib edənləri yenə azdırmaq üçün gizlənə biləcəyinə ümid edirdi. Nəhayət, bir divarın yanına çatdı.

Lakin bu divar heç də onun qabağa getməyinə mane olmurdu. Bu divar Jan Valjanın getdiyi küçə ilə birləşən bir köndələn döngə boyu uzanırdı.

Yenə hansı yolla getməyi həll etmək lazım idi: sağamı, yoxsa solamı?

Sağ tərəfə baxdı. Balaca küçə həm mərəyə, həm də anbara bənzəyən tikililər arasından keçir və dar bir dalanla qurtarırdı. Bu dalanın sonunda uca, ağ bir divar olduğu aydınca görünürdü.

Jan Valjan sol tərəfə baxdı. Bu tərəfdən döngə açıq idi, təxminən, yüz addımdan sonra bir geniş küçəyə çıxırdı. Qurtuluş yalnız bu tərəfdə idi!

Jan Valjan döngənin sonunda dumanlı bir şəkildə görünən küçəyə yetişmək üçün sola doğru yenicə dönmək istəyirdi ki, birdən yol ayrıcında qara bir heykəl kimi hərəkətsiz dayanmış bir kölgə gördü.

Bu adamı, görünür, oraya qəsdən qoymuşdular ki, kiminsə yolunu kəssin. O, kimi isə pusurdu. Jan Valjan geriyə çəkildi.

Jan Valjanın olduğu yer Sent-Antuan qəsəbəsi ilə Şərab körpüsü arasında idi. Bu yaxınlarda başlanan tikinti işləri Parisin bu hissəsini də əsaslı surətdə dəyişmişdi. Bəzilərinin dediyinə görə, tikinti işləri bu yeri eybəcər bir şəklə salmış, başqalarının dediyinə görə isə, yaxşılaşdırmışdı. Şumlanmış tarlalar, odun anbarları, köhnə evlər artıq yox idi. İndi orada yeni geniş küçələr, meydanlar salınmış, sirklər, ippodromlar, dəmir yolu vağzalları əmələ gəlmiş, Mazas həbsxanası tikilmişdi; həm tərəqqi, həm də onun islahedici vasitəsi.

Yarım əsr bundan əvvəl, əfsanələrə əsaslanan və İnstituta "Dörd millət", Komediya operasına isə "Feydo" deyən adi xalq dilində Jan Valjanın düşdüyü yerə "Kiçik Pikpüs" deyirdilər. Sen-Jak qapıları, Paris qapıları, Serjantlar qapısı, Donuzçular, Qaliot, Selestinlər, Kapusinlər, Çəkiclər, Palçıqlı, Krakov ağacı, Kiçik Polşa, Kiçik Pikpüs kimi qədim adlar indiyə kimi qalmışdı. Keçmişin bu qırıntıları hələ də xalqın hafizəsində yaşamaqdadır.

Kiçik Pikpüsün ömrü çox da uzun sürməmişdi. O, Paris məhəlləsinə çox az bənzəyirdi. Ümumi görünüşü İspaniya şəhərinin monastırını xatırladırdı. Yolların əksəriyyəti döşənməmişdi, küçələrin ətrafında isə hələ çox az ev tikilmişdi. Sonralar bəhs edəcəyimiz iki-üç evdən başqa, küçə boyu ancaq hasarlar və boşluqlar uzanırdı. Nə yoldan keçən bir ekipaj, nə də bir şey görünürdü. Ara-sıra bəzi pəncərələrdə şam işığı parlardı. Axşam saat ondan sonra bütün işıqlar sönərdi. Hər yerdə bağlar, monastırlar, odun anbarları, bostanlar, bəzən də alçaqboylu balaca evlər və ev kimi uca, uzun divarlar.

Keçən əsrdə bu məhəllənin mənzərəsi belə idi. İnqilab dövründə artıq bu məhəllənin siması son dərəcə dəyişmişdi. Respublika hökumət idarələrinin əmri ilə məhəllə dəlinmiş, parçalanmış, uçurulmuş və burada çınqıl anbarları düzəldilmişdi. Otuz il bundan əvvəl bu məhəllə yüksələn yeni binaların altında tamamilə dəfn edilmişdi. Hal-hazırda bu məhəllədən heç bir əsər qalmamışdı. Müasir Parisin planlarında izi-tozu qalmayan kiçik Pikpüs 1727-ci il planında aydınca qeyd olunmuşdu. Bu plan Parisdə Suvaqçılar küçəsinin qabağındakı Sen-Jak küçəsində Deni Tyeri tərəfindən, Lionda isə Prüdansdakı Ticarət küçəsində Jan Jiren tərəfindən nəşr edilmişdi. Söylədiyimiz kimi, Kiçik Pikpüs məhəlləsinin şəkli V hərfinə bənzəyirdi ki, bu da Yaşıl yol küçəsinin qollarından əmələ gəlmişdi: sol qolu Pikpüs döngəsi, sağ qolu isə Polonso küçəsi adlanırdı. Bu V hərfinin iki qolunun ucları, sanki, bir atqı ilə birləşdirilmişdi. Bu atqı Düz divar küçəsi adlanırdı. Polonso küçəsi burada qurtardığı halda, Pikpüs döngəsi hələ davam edir və Lenuar bazarına qədər uzanırdı. Sena tərəfindən gələn və Polonso küçəsinin axırına çatan adamın solunda düzbucaq altında dönən Düz divar küçəsi, qabağında bu küçənin divarı, sağında isə yenə həmin küçənin davamı olardı ki, bu da Janro dalanı adlanan başıbağlı bir döngəyə keçirdi.

Jan Valjan həmin bu yerdə dayandı.

Dediyimiz kimi, Jan Valjan Düz divar küçəsi ilə Pikpüs döngəsinin tinində dayanmış qara kölgəni görər-görməz geri çəkildi. Artıq məsələ aydın idi. Bu kölgə Jan Valjanı gözləyirdi.

Bəs nə etməli?

Geriyə qayıtmaq artıq gec idi. Bir an əvvəl gördüyü və arxasında, qaranlıqda hərəkət edən kölgələr, heç şübhəsiz, Javer və onun

adamları idi. Javer, çox ehtimal ki, sonunda Jan Valjanın durmuş olduğu küçənin başında dayanmışdı. Görünür, Javer bu balaca dolanbac küçə ilə yaxşıca tanış idi və onun çıxış yerinin keşiyini çəkmək üçün adam qoymuşdu. Bu ehtimallar o qədər həqiqətə uyğun idi ki, Jan Valjanın qızğın beynində birdən-birə əsən bir küləyin sovurduğu bir ovuc toz kimi fırlandı. Jan Valjan Janro dalanına baxdı: orada maneə görünürdü. Pikpüs döngəsinə nəzər saldı, orada keşikçi dayanmışdı. Jan Valjan ayın gümüşü işığı düşən küçədə qara bir kölgə kimi gözə çarpan qara bir adamı gördü. Qabağa getmək – bu adamın əlinə düşmək demək idi. Geriyə dönmək – Javerin pəncəsinə düşmək demək idi. Jan Valjan kəməndin boynuna keçdiyini və yavaş-yavaş daraldığını hiss edirdi. O, ümidsiz bir nəzərlə göylərə baxdı.

Dördüncü fəsil

QURTULUŞ AXTARARKƏN

Bütün sonrakı hadisələri başa düşmək üçün Düz divar döngəsini və xüsusilə, Polonso küçəsindən bu döngəyə çıxanda sol tərəfdə qalan tini dürüst təsəvvür etmək lazımdır. Döngənin bütün sağ tərəfində, ta Pikpüs küçəsinə qədər, kiçik, yoxsul evlər tikilmişdi, döngənin sol tərəfində isə bir neçə kaşanədən ibarət ciddi görünüşlü bir tikili vardı. Bu kaşanələr Pikpüs küçəsinə yaxınlaşdıqca, yavaş-yavaş bir, ya iki mərtəbə artırdı. Beləliklə, bu tikinti Pikpüs küçəsi tərəfdən çox yüksək olduğu halda, Polonso küçəsi tərəfdən xeyli alçaq idi. Təsəvvür etdiyimiz küçənin tinində isə, bu tikinti xeyli alçalır və buradan divar başlayırdı. Lakin divar küçənin döngəsində qurtarmayaraq, məhəllənin son dərəcə kəsik görünən tərəfini əhatə edirdi. Əgər iki müşahidəçidən biri Polonso küçəsində, o biri isə Düz divar döngəsində dayanmış olsaydı, bu divarın iki tini bu nöqtədə onların gözünə görünməyə bilərdi.

Divar bu iki tindən başlayaraq Polonso küçəsində 49 nömrəli evə qədər, Düz divar küçəsində isə divar daha qısa olduğundan yuxarıda təsvir etdiyimiz qara tikiliyə qədər davam edir, bu tikilinin yan tərəfini kəsib içəriyə girən yeni bir tin əmələ gətirirdi. Tikilinin bu

yan tərəfi qəmli təsir bağışlayırdı, bu tərəfdə yalnız bir pəncərə, daha doğrusu, üzünə sink təbəqəsi çəkilmiş və daim bağlı olan iki pəncərə qanadı vardı.

Bu məhəllənin olduqca böyük bir dəqiqliklə bərpa etdiyimiz mənzərəsi, şübhəsiz, onun köhnə sakinlərində ən canlı xatirələr oyadacaqdır.

Tikilinin kəsik tinindəki divarın böyük hissəsini çox böyük və köhnə darvazaya bənzər bir şey təşkil edirdi. Bu darvaza bir-birinə əyri-üyrü mıxlanmış biçimsiz taxtalar yığınından ibarət idi; üst taxtalar aşağı taxtalardan daha enli idi və köndələn vurulmuş uzun dəmir zolaqları ilə bitişdirilmişdi. Darvazanın yanında isə adi ölçüdə ikinci bir darvaza vardı. Bu da, görünür, olsa-olsa, əlli il bundan əvvəl düzəldilmişdi.

Divarın bu yerinə cökə ağacı budaqlarının kölgəsi düşürdü. Polonso küçəsi tərəfdən isə onu sarmaşıq bürümüşdü.

Bu bina ələmli mənzərəsi və tənhalığı ilə həyatla ölüm arasında olan Jan Valjanı cəlb etdi. O, bu tikilinin içərisinə daxil ola bilərsə, bəlkə də, xilas ola biləcəyinə qərar verərək, cəld bu tərəfə bir nəzər saldı. Əvvəlcə, bu heç də bir niyyət deyil, yalnız bir fikir və ümid idi.

Düz divar küçəsinə baxan bu binanın qabaq fasadının orta hissəsində, mərtəbələrdəki bütün pəncərələrin yanında köhnə qurğuşun qıflar görünürdü. Yuxarı novçadan bütün bu qıflara doğru uzanan ən müxtəlif qollara ayrılan su boruları evin fasadı üzərində çəkilmiş qəribə bir ağac şəkli əmələ gətirirdi. Bu borular yüzlərlə əyintiləri ilə qədim fermaların fasadlarında yuxarıya doğru dırmaşan yarpağı tökülmüş və qurumuş üzüm tənəklərini xatırladırdı.

Jan Valjanın gözlərinə çarpan birinci şey elə bu tənəkə və dəmir budaqlı qəribə şpaler ağacı idi. O, Kozettanı arxası küçə sütununa tərəf oturdub dinməməyi tapşırdıqdan sonra su borusunun küçəyə qədər endiyi yerə tərəf yüyürdü. Bu boru ilə yuxarı qalxaraq, evin içinə girə bilsəydi! Lakin boru laxlamış, xarab olmuş və divara yaxşı pərçim edilməmişdi. Bundan başqa, dərin bir sükuta dalan bu evin bütün pəncərələri, hətta bacaları belə qalın dəmir şəbəkə ilə örtülmüşdü. Bir də ay bütün fasadı gün kimi işıqlandırdığından, küçənin o biri başından baxan adam divara dırmaşan Jan Valjanı görə bilərdi. Həm də Kozettanı necə eləsin! Bu üçmərtəbəli evin damına Kozettanı necə qaldırsın?

Jan Valjan su borusu ilə dırmaşmaq fikrindən əl çəkərək Polonso küçəsinə qayıtmaq üçün divarın yanı ilə yeriməyə başladı.

Məhəllənin kəsik tininə, Kozettanın oturduğu yerə çatdıqda, Jan Valjan burada onu heç kəsin görə bilməyəcəyini aşkar etdi. Yuxarıda söylədiyimiz kimi, hansı tərəfdən baxılırsa baxılsın, bu yer heç kəsin gözünə görünmürdü. Bundan başqa, Jan Valjan kölgədə dayanmışdı. Nəhayət, onun qarşısında iki darvaza vardı. Bəlkə, bu darvazaları sındırmaq mümkün oldu? Yuxarısında cökə budaqları və sarmaşıq zoğları görünən divar, şübhəsiz ki, bağ divarı idi, ağacların yarpaqları olmasa belə, hər halda, burada gizlənmək və səhərə kimi qalmaq mümkün olardı.

Vaxt keçirdi. Artıq gözləmək təhlükəli idi.

O, cəld darvazanı yoxladı və dərhal onun həm içəri, həm də bayır tərəfdən mıxlandığını anladı.

Daha böyük bir ümidlə o, böyük darvazaya yaxınlaşdı. Bu darvaza dəhşət doğuran qədər köhnə idi və həddindən artıq böyük olması onun daha az möhkəm olmasına səbəb olurdu; taxtaları çürümüşdü, üstündən köndələn çəkilmiş üç dəmir zolaq pas tutmuşdu. İçini qurd yemiş bu maneəni yıxmaq Jan Valjana mümkün göründü.

Darvazanı daha diqqətlə yoxladıqdan sonra bunun heç də darvaza olmadığını aydınlaşdırdı. Bunun nə rəzəsi, nə rəzə qarmağı, nə qıfılı, nə də ortasında deşiyi vardı. Bir-birinə birləşdirilmiş dəmir zolaqlar bu başdan o başa uzanırdı. Taxtaların arasından kobud bir şəkildə sementlənmiş kərpiclər və daşlar gözünə çarpdı; hələ on il bundan əvvəl buradan keçən yolçular da bunu görə bilərdilər. Jan Valjan sarsılaraq bu qapıya bənzər şeyin qonşu binanın taxta örtüsündən başqa bir şey olmadığını anladı. Taxtanı qoparmaq çətin deyildi, lakin taxtanı qopardıqdan sonra divarla üz-üzə gəlmiş olacaqdı.

Beşinci fəsil

QAZ İŞIĞINDA OLA BİLMƏYƏCƏK İŞLƏR

Bu anda uzaqdan boğuq və ağır addım səsləri eşitdi. Jan Valjan ehtiyatla küçənin tinindən başını çıxarıb baxmağa cəsarət etdi.

Yeddi-səkkiz nəfərdən ibarət bir əsgər dəstəsi Polonso küçəsinə doğru gəlməkdə idi. Jan Valjan süngülərin parladığını görürdü. Bunlar ona doğru gəlirdilər.

Başda Javerin uzun kölgəsi görünən bu əsgər dəstəsi yavaş-yavaş və ehtiyatla yaxınlaşırdı. Onlar tez-tez dayanırdılar. Görünür, divarlardakı hər bir çuxuru, qapıları, bütün kiçik keçidləri axtarırdılar.

Bu dəstənin yolda Javerə rast gəlib onun kömək üçün götürdüyü bir gecə qarovulu olduğuna Jan Valjanın heç bir şübhəsi yox idi.

Javerin iki köməkçisi də əsgərlərlə birlikdə gəlirdilər.

Onların yavaş-yavaş yeridiklərini və tez-tez dayandıqlarını nəzərə alanda, on beş dəqiqə sonra Jan Valjanın dayandığı yerə çatacaqlarını fərz etmək olardı. Bu, doğrudan da, dəhşətli bir dəqiqə idi! Jan Valjanı, qarşısında üçüncü dəfə açılan bu qorxunc uçurumdan yalnız bir neçə dəqiqə ayırırdı. Lakin bu dəfə onun üçün katorqa yalnız katorqa deyildi, bu katorqa əbədi olaraq Kozettadan məhrum olmaq, yəni qəbrə bənzər bir həyat sürmək demək idi.

Onun üçün yalnız bir çıxış yolu qalırdı. Jan Valjanın qəribə bir xüsusiyyəti vardı, əgər demək olarsa, onun varlığı bir heybəyə bənzəyirdi. Heybənin bir gözündə müqəddəs bir insana xas olan fikirlər, o biri gözündə isə bir katorqalının qorxulu istedadları vardı. Hadisələrin gedişindən asılı olaraq o, heybənin gah bu gözündə, gah da o gözündə olanlardan istifadə edərdi.

Oxucunun yadında olmalıdır ki, Jan Valjan dəfələrlə Tulon katorqasından qaçması sayəsində, böyük bir məharətlə nərdivansız, ipsiz, yalnız əzələlərinin köməyilə, boynu, çiyinləri, budları, dizləri ilə işləyərək, yalnız ara-sıra binanın çıxıntılarından istifadə etməklə, lazım gəldiyi zaman altımərtəbəli bir evin belə dümdüz divarlarından yuxarıya dırmana bilirdi. Bu – Parisdə Konsyerjeri həbsxanasının həyətindəki bir bucağa böyük və dəhşətli bir şöhrət qazandırmış məharətdir: iyirmi il bundan əvvəl bunun sayəsində ölüm cəzasına məhkum edilmiş Batmol buradan qaça bilmişdi.

Jan Valjan divarın hündürlüyünü gözləri ilə ölçdü. Divarın hündürlüyü, təxminən, on səkkiz fut olardı. Bu divarla böyük binanın yan fasadı arasında əmələ gələn bucaq iri daşlarla hörülmüşdü; bu daşlar üçbucaq şəklində düzülmüşdü ki, yolçu adlanan ikiayaqlıların bəzi ehtiyacları ödəməkdən ötrü dayanması üçün olduqca münasib olan

bu bucağı qorumaq mümkün olsun. Divarlardakı bucaqları bu cür doldurmaq Parisdə bir adətdir.

Bu daş yığını beş fut hündürlüyündə olardı, onun təpəsindən divarın yuxarısına qədər olan məsafə isə on dörd futdan artıq olmazdı. Divarın yuxarısına iri hamar daşlar düzülmüşdü.

Bəs Kozetta necə olsun? Axı Kozetta divara çıxa bilməzdi. Onu atmaq? Bu fikir Jan Valjanın ağlına belə gəlmirdi. Kozettanı belinə mindirib bu divara çıxmaq mümkün deyildi. Belə hündür bir divara dırmaşmaq üçün insan bütün qüvvəsini toplamalı idi. Ən kiçik ağırlıq belə müvazinəti poza bilər və onun yıxılmasına səbəb olardı.

Kəndir lazım idi. Lakin Jan Valjanın kəndiri yox idi. Gecə yarısı, Polonso küçəsində kəndiri haradan tapmaq olardı? Bu anda Jan Valjan kral olsaydı, bir parça kəndir üçün, şübhəsiz, bütün səltənətini verərdi.

Həyatın belə ağır, böhranlı dəqiqələrində insan fikri ildırım kimi çaxaraq, bütün ətrafı işıqlandırır, gah gözləri qamaşdırır, gah da aydınlıq saçır.

Jan Valjanın ümidsizliklə dolu olan gözləri Janro dalanındakı küçə fənərinin dirəyinə sataşdı.

O zamanlar Paris küçələrində hələ qaz işığı yox idi. Qaranlıq çökdükdə bir-birindən aralı olan küçə fənərləri yandırılmırdı. Fənərləri kəndirlə qaldırar və salardılar, kəndiri küçənin bu başından o başına çəkir və torpağa basdırılmış hündür bir dirəyə bağlardılar. Bu kəndirin dolandığı tağalaq fənərin altında balaca dəmir bir şkaf içinə qoyulardı, şkafın da açarı həmişə fənərçidə olardı. Kəndirin özü də bir dəmir futlyar içində yerləşərdi. Jan Valjan qüvvələrini xariqüladə bir tərzdə gərginləşdirərək, özünü bir sıçrayışla dalana verdi, bıçağın ucu ilə balaca şkafın qıfılını açdı və bir an sonra Kozettanın yanına qayıtdı. Onun əlində kəndir vardı. Təhlükəli vasitələr icad edən bu qorxunc adamlar tale ilə mübarizədə çox cəld hərəkət edərlər.

Biz o gecə küçə fənərinin yandırılmamış olduğunu söylədik. Təbiidir ki, başqa fənərlər kimi Janro dalanındakı fənər də yanmırdı, odur ki, fənərin həddindən artıq aşağı endirildiyini görmədən yanından keçmək olardı.

Bu arada vaxtın gec olması, küçənin qaranlığı və kimsəsizliyi, Jan Valjanın təşvişə düşməsi, gah yox olub, gah da qayıtması, qəribə hərəkətləri – bütün bunlar Kozettanı narahat etməyə başlayırdı.

Onun yerində başqa bir uşaq olsaydı, çoxdan ağlamışdı. Kozetta yavaşcadan Jan Valjanın redinqotunun ətəyindən dartdı. Yaxınlaşan qarovul dəstəsinin addımları get-gedə aydın eşidilməyə başlayırdı.

Kozetta yavaş bir səslə:

– Ata, mən qorxuram! – dedi. – O gələn kimdir?

Zavallı Jan Valjan:

– Sus! – deyə cavab verdi. – O, Tenardye qarıdır.

Kozetta titrədi. Jan Valjan yenə dedi:

– Səsini çıxarma. Mənə mane olma. Bağırmağa və ağlamağa başlasan, bil ki, Tenardye səni axtarır, o gəlib səni aparar.

Sonra tələsmədən və eyni zamanda vaxt itirmədən, Javerlə qarovulçular küçənin tinində elə bu dəqiqə görünə biləcəyi halda, böyük bir səbat və qətiyyətlə boyun yaylığını açdı. Kozettanı incitməmək üçün ehtiyatla yaylığı qoltuqlarının altından keçirib bədəninə bağladı, kəndirin bir ucunu bir dənizçi düyünü ilə bu yaylığa bağladı, o biri ucunu isə dişinə aldı, ayaqqabılarını çıxartdı, corablarını və çəkmələrini divarın o biri tərəfinə aşırdı, divarla evin yan fasadı arasındakı daş üçbucağın üstünə çıxdı və ayaqları altında pilləkən, əlləri altında isə sürahi varmış kimi, böyük bir qətiyyət və məharətlə divarla yuxarıya dırmaşmağa başladı. Yarım dəqiqə keçmədi ki, artıq divarın başında diz üstə dayanmışdı.

Kozetta heç bir söz söyləmədən heyrətlə ona baxırdı. Jan Valjanın xahişi və Tenardyenin adı onun vücudunu dondurmuş kimi görünürdü.

Birdən Kozetta Jan Valjanın yavaşca bu sözləri söylədiyini eşitdi:

– Divara söykən!

Qız itaət etdi.

Jan Valjan sözünə davam edərək:

– Heç bir söz danışma, özü də qorxma! – dedi.

Kozetta ayağının yerdən üzüldüyünü hiss etdi.

Nə olduğunu anlamağa macal tapmamış o, özünü divarın üstündə gördü.

Jan Valjan Kozettanı qaldırıb belinə aldı, kiçik əllərini sol əli ilə tutdu, sonra dümdüz uzanıb qarnı üstə sürünə-sürənə divarın kəsik tininə çatdı. Ehtimal etdiyi kimi, orada, doğrudan da, bir tikili vardı, bu tikilinin damı taxta darvazanın üstündən başlayaraq ta yerə qədər enir, cökə ağacının budaqları altından keçirdi.

Bu gözəl bir təsadüf idi, çünki bu tərəfdən divar küçə tərəfə nisbətən daha çox hündür idi. Jan Valjan yeri çox uzaqlarda, dərində görürdü.

Jan Valjan damın eniş səthinə çataraq, elə yenicə divarın başından enməyə hazırlaşırdı ki, birdən qarovulun yaxınlaşdığını xəbər verən bərk bir gurultu eşitdi. Javerin uca və kəskin səsi gəldi:

– Dalanı axtarın! Düz divar küçəsini güdürlər. Pikpüs döngəsi də göz altındadır. Onun bu dalanda olduğuna əminəm!

Əsgərlər Janro dalanına atıldılar.

Jan Valjan Kozettanı tutaraq, damın üstü ilə sürüşdü, cökə ağacına çatdı və yerə tullandı. Qorxusundanmı, cəsarətindənmi, hər nədənsə, Kozetta səsini belə çıxarmadı. Onun əlləri bir az siyrilmişdi.

Altıncı fəsil

MÜƏMMANIN BAŞLANĞICI

Jan Valjan çox geniş və qəribə bir bağa düşmüşdü. Bu, sanki, yalnız qış gecələrində baxmaq üçün qəsdən yaranmış olan qəmli bağlardan biri idi. Bu uzunsov bağın dərinliyində qovaq ağacından bir xiyaban görünürdü; künclərində bir neçə hündür qoca ağac, ortada isə açıq bir tala vardı. Talada çox böyük və tək bir ağac ucalırdı. Bundan başqa, hündür kollara bənzəyən və əyri budaqları bir-birinə dolaşmış bir neçə meyvə ağacı, tərəvəz ləkləri, şüşə qapaqları, Ay işığında parlayan qovun şitilliyi və işlənməyən bir çirkab quyusu görünürdü. Bağın bəzi yerlərində üstündə bitən yosundan qapqara qaralmış daş oturacaqlar dururdu. Cığırların hər iki tərəfində alçaqboylu, qara, düz, tündrəngli kollar əkilmişdi. Cığırları qismən ot basmış, qismən də yaşıl kif örtmüşdü.

Jan Valjanın yaxınlığında bir bina vardı. O, həmin bu binanın damından enmişdi. Burada bir yığın çırpı, çırpının da yanında, divarın lap yaxınlığında, daş bir heykəl görünürdü, heykəlin zədələnmiş üzü qaranlıqda tutqun bir şəkildə ağaran biçimsiz bir maska kimi idi.

Bu bina xarabaya bənzəyirdi; uçuq otaqlar görünürdü; otaqların biri köhnə şeylərlə dolduğundan, mərək olduğu anlaşılırdı. Düz divar küçəsi ilə Pikpüs döngəsinə baxan böyük bina düzbucaq təşkil

edən iki daxili fasadı ilə bağa baxırdı. Bu daxili fasadlar əsas fasaddan da ələmli görünürdü. Bütün pəncərələrə tor çəkilmişdi, heç bir yerdə işıq görünmürdü. Yuxarı mərtəbələrdəki pəncərələrin həbsxana pəncərələri kimi üstlükləri vardı. Bu binanın bir qanadı o biri qanadına kölgə salır və bu kölgə böyük, qara bir pərdə kimi bütün bağı örtürdü.

Başqa bir ev görünmürdü. Bağın sonu duman və qaranlıq içində itirdi. Lakin tutqun bir şəkildə olsa da, bir-birilə çarpazlaşan divarları görmək olurdu, sanki, bunların da arxasında əkilmiş yerlər vardı. Daha sonra Polonso küçəsindəki evlərin alçaq damları görünürdü.

Bu kimsəsiz bağdan daha boş və vəhşi bir şey təsəvvürə gətirmək olmazdı. Bağda kimsə yox idi ki, bu da gecəyarısı təbii idi. Lakin, görünür, bu yer gündüzlər belə gəzinti yeri deyildi.

Jan Valjanın birinci işi çəkmələrini tapıb geyinmək idi. Bunu etdikdən sonra Kozetta ilə birlikdə mərəyə girdi. Qaçqın heç vaxt özünü tamamilə xəlvətdə hiss etməz. Hələ də Tenardye qarını düşünən qız da onun mümkün qədər yaxşı gizlənmək arzusuna şərik idi.

Kozetta titrəyir və Jan Valjana qısılırdı. Bayırdan küçəni və dalanı axtaran qarovulçuların qarmaqarışıq gurultusu gəlirdi; tüfəng qundaqlarının küçənin daşlarına dəyib taqqıldaması, Javerin küçə başında qoyduğu polis agentlərini səsləməsi eşidilir, bəzən də Javerin anlaşılması çətin olan sözlərlə yanaşı yağdırdığı lənətlər gurlayırdı.

On beş dəqiqə sonra göy gurultusuna bənzəyən bu səs-küy yavaş-yavaş azalmağa başladı. Jan Valjan nəfəsini dərdi.

Əli ilə yavaşca Kozettanın ağzını tutdu.

Lakin onların olduğu bu tənha yerdə elə dərin bir sakitlik vardı ki, hətta yaxınlıqda eşidilən bu dəhşətli və qızğın gurultu belə onu poza bilmədi. Sanki, buranın divarları dini əfsanələrdə söylənən lal və kar daşlardan tikilmişdi.

Birdən bu dərin sükut içində başqa səslər eşidildi. Gözəl, ilahi, misilsiz səslər. Əvvəlki səslər nə qədər dəhşətli idisə, bunlar bir o qədər xoş və şirin idi. Bu, qaranlıqdan gələn bir nəğmə, ahəngdar duaların saçdığı gözqamaşdırıcı bir nur idi. Bu gecənin qara və qorxunc sükutunda məsuliyyət kimi saf və uşaq kimi sadədil qadın səsləri eşidilirdi. Bu səslər yenicə doğulmuş bir uşağın hələ də eşitdiyi və can verən bir insanın artıq duymağa başladığı ilahi səslər idi. Nəğmə bağın ağacları üzərində yüksələn o qaranlıq binadan gəlirdi.

İblislərin saldığı dəhşətli gurultu uzaqlaşdıqca, elə bil, qaranlıqdan mələklərin avazı yüksəlirdi.

Kozetta ilə Jan Valjan diz çökdülər.

Onlar nə olduğunu anlamır, harada olduqlarını da bilmirdilər, onların hər ikisi – bu tövbə edən kişi də, bu məsum uşaq da, hər ikisi diz çökmək lazım gəldiyini hiss edirdi.

Bu səslərdə qəribə bir şey vardı, onların eşidilməsinə baxmayaraq, bina yenə boş və kimsəsiz görünürdü. Sanki, bu səslər boş və kimsəsiz bir binadan gəlirdi, sanki, bu nəğmə göylər nəğməsi idi.

Bu səslər oxuduqca, Jan Valjan heç bir şey düşünmürdü. Artıq onun başı üzərində qaranlıq bir gecə deyil, mavi bir göy yüksəlirdi. O, ruhunun qanad çalıb uçduğunu zənn edirdi – o qanadlar ki, hər birimiz onları öz varlığımızda hiss edirik.

Nəğmə susdu. Ola bilsin ki, bu nəğmə uzun bir müddət davam etmişdi. Bunu Jan Valjan deyə bilməzdi. Həyəcan saatları bir an kimi gəlib-keçir.

Sonra hər şey yenə sükuta daldı. Nə küçədən bir səs gəlirdi, nə bağdan. Dəhşət saçan səslər də, ürək verən səslər də – hər şey yox olmuşdu. Yalnız divarın üstündə küləyin tərpətdiyi quru otların sakit və həzin xışıltısı eşidilirdi.

Yeddinci fəsil

MÜƏMMANIN DAVAMI

Sərin bir gecə yeli əsirdi – demək, gecə saat ikiyə yaxın olardı. Zavallı Kozetta susurdu. Jan Valjanın yanında oturub, başını onun dizinə söykədiyindən o, qızın yatmış olduğunu zənn etdi. Əyilib üzünə baxdı. Kozettanın gözləri geniş açılmışdı, gözlərində bir qorxu ifadəsi vardı. Jan Valjan təşvişə düşdü. Qız başdan-ayağa kimi titrəyirdi.

Jan Valjan:

– Sən yatmaq istəyirsən? – deyə soruşdu.

Qızcığaz:

– Üşüyürəm, – dedi.

Bir az sonra Kozetta soruşdu:

– Bəs o, hələ buradadır?

– Kim?

– Madam Tenardye.

Jan Valjan Kozettanı susdurmaq üçün işlətdiyi kələyi artıq unutmuşdu.

– Belə de! Yox, o, çoxdan getmişdir, – dedi. – Heç bir şeydən qorxma.

Uşaq, ürəyinin üstündən bir ağırlıq götürülmüş kimi sakit nəfəs aldı.

Torpaq nəm, mərək isə hər tərəfdən açıq idi, külək getdikcə güclənirdi. Qoca redinqotunu çıxarıb, Kozettanı bürüdü.

– İndi necə, istidirmi? – deyə soruşdu.

– Bəli, ata!

– Çox yaxşı, indi məni bir az gözlə. Bu saat qayıdaram.

Jan Valjan mərəkdən çıxıb, böyük binanın divarı boyu getdi. Sığınmaq üçün daha yaxşı yer axtarırdı. Qapılara rast gəlsə də, hamısı bağlı idi. Birinci mərtəbənin bütün pəncərələrində şəbəkə vardı.

Binanın daxili bucağını keçdikdən sonra uzunsov pəncərələrə yaxınlaşdı, oradan zəif bir işıq gəlirdi. Jan Valjan ayaq barmaqlarının üstə qalxaraq, pəncərədən içəriyə baxdı. Bütün pəncərələr, enli daş tavalarla döşənmiş, tağlar və sütunlarla bəzənmiş xeyli böyük bir salonun pəncərələri idi. Salonda sönük bir işıqdan və uzun kölgələrdən başqa heç bir şey görünmürdü. İşıq salonun bir küncündə yanan bir gecə lampasından düşürdü. Salon bomboş görünürdü, burada hər şey hərəkətsiz idi. Lakin Jan Valjan diqqətlə baxdıqda, yerdə kəfən kimi bir şeyə bürünmüş və insan kölgəsinə bənzər bir şey gördü. Bu adam tavaların üstündə üzüqoylu uzanmış, qollarını xaçvari uzatmışdı, ölü kimi hərəkətsiz idi. Onun yanında döşəmənin üzərində ilan kimi qıvrılan bir şey uzanırdı, güman etmək olardı ki, bu məşum kölgənin boynuna kəndir bağlanıb.

Bütün salon az işıqlanan böyük binalarda olduğu kimi, sıx bir duman içində idi, bu da mənzərəyə daha qorxunc bir şəkil verirdi.

Jan Valjan ömründə bir çox dəhşətli mənzərələr görmüş olduğunu, lakin bu qəribə və məchul salonda, sanki, gizli bir ayin icra edən bu müəmmalı kölgə qədər dəhşətli bir şey görmədiyini sonralar tez-tez söylərdi. Bu kölgənin bir ölü olduğunu təsəvvürə gətirmək

qorxunc bir şey olsa da, bunun diri bir adam olduğunu düşünmək daha dəhşətli idi.

Jan Valjan ürəklənib pəncərənin şüşəsinə yapışdı ki, bu kölgənin tərpənib-tərpənmədiyini görsün. O, xeyli gözlədi. Bu intizar ona çox uzun göründü. Lakin əbəs yerə: döşəmənin üzərinə sərilmiş kölgə hərəkətsiz idi. Birdən Jan Valjanı böyük bir dəhşət bürüdü, o artıq dayana bilməyib qaçmağa başladı. O, geriyə belə baxmağa cürət etməyərək, mərəyə doğru qaçırdı. Ona elə gəlirdi ki, dönüb geriyə baxarsa, bu ölünün qollarını oynada-oynada iri addımlarla onun dalınca yüyürdüyünü görəcəkdir.

Tövşüyə-tövşüyə özünü xarabaya yetirdi. Dizləri titrəyirdi, bədənini tər basmışdı.

O, harada idi? Parisin lap mərkəzində belə bir məqbərənin ola biləcəyini kim təsəvvürünə gətirə bilərdi? Bu nə qəribə evdir? Gecə sirləri ilə dolu olan bu bina nə binadır? Bu nə binadır ki, mələk səsləri ilə ruhları qaranlıqdan çağırır, ruhlar bu çağırışa gəldikləri zaman isə onların gözlərinə bu dəhşətli mənzərəni göstərir? O, cənnətin nurani qapılarını onların qarşısında açmağı vəd edir, sonra isə birdən onların qarşısında bu iyrənc sərdabənin qapılarını açır! Bununla belə, bu bina, həqiqətən, bir bina idi. Həqiqətən, bir ev idi, bu evin küçə nömrəsi belə vardı. Bu, yuxu deyildi. Jan Valjan buna inanmaq üçün xarabanın daşlarına toxunmağa məcbur oldu.

Soyuq, həyəcan, təşvişlər, gecənin təəssüratı – bütün bunlar Jan Valjanda həqiqi bir qızdırma oyatmışdı, başında fikirlər qarışırdı.

O, Kozettaya yaxınlaşdı. Kozetta yatırdı.

Səkkizinci fəsil

MÜƏMMA GETDİKCƏ MÜRƏKKƏBLƏŞİR

Kozetta başını daşın üstünə qoyub yatmışdı.

Jan Valjan qızın yanında oturub, üzünə baxmağa başladı. Qıza tamaşa etdikcə sakitləşir və başı yenə əvvəlki kimi işləməyə başlayırdı.

O artıq bu gündən sonra, həyatının əsasını təşkil edəcək bir həqiqəti aydınca dərk edirdi: nə qədər ki Kozetta onun yanındadır,

onun özünə heç bir şey lazım deyil, hər şey artıq Kozetta üçündür; o heç bir zaman özü üçün qorxmayacaq, bütün qorxusu ancaq Kozetta üçün olacaqdır. O hətta redinqotunu çıxarıb, Kozettanın üstünə salmışdısa da, soyuq hiss etmirdi.

Lakin dərin düşüncələrə daldığına baxmayaraq, Jan Valjan yenə qəribə bir səs eşitdi. Sanki, haradasa zınqırov səslənirdi. Səs bağdan gəlirdi, yavaş olsa da, aydın eşidilirdi. O, otlaqlarda heyvanların boynundan asılan zınqırovların rabitəsiz gecə nəğməsinə bənzəyirdi.

Bu səslər Jan Valjanı boylanmağa məcbur etdi.

Qaranlığa diqqətlə baxdıqda, bağda kiminsə olduğunu gördü.

Adama bənzəyən bu kölgə qovun ləklərinin şüşə qalpaqları arasında dolaşır, gah əyilir, gah qalxır, gah dayanır, yerdə bir şey sürüyür, yaxud yerə bir şey sərir kimi müvazinətlə hərəkət edirdi. Bu adamın axsadığı da görünürdü.

Jan Valjan titrədi: onu təqib edilənlərə xas olan bir qorxu titrətməsi bürüdü. Belə insanlara hər şey yad görünür, onlarda hər şey şübhə oyadır, onlar gündüz işığından qorxurlar, çünki bu işıq onları ələ verə bilər. Onlar gecənin qaranlığından da qorxurlar, çünki gecə onların qəfildən tutulmasına kömək edər. Bir az əvvəl o, bağın kimsəsiz olduğundan, indi isə bağda adam olduğundan qorxurdu.

Jan Valjan xəyali dəhşətlərdən həqiqi dəhşətlərə düşdü.

Öz-özünə deyirdi: "Bəlkə də, Javer və polis agentləri hələ getməmişlər, yəqin, onlar küçədə adam qoymuşlar. Əgər bağda gəzən bu adam mənim burada olduğumu anlarsa, "ey qarovul" deyə bağıracaq və bununla da məni ələ verəcəkdir". Jan Valjan yatmış Kozettanı ehtiyatla qucağına aldı, mərəyin ən uzaq bir bucağına çəkildi, qızı lazımsız ev şeylərinin arxasında gizlətdi. Kozetta heç tərpənmədi.

Buradan qovun ləkləri arasında gəzən adamın hər bir hərəkətinə diqqət etməyə başladı. Qəribə burası idi ki, o, hərəkət etdikcə zınqırov səslənirdi. Bu adam yaxınlaşdıqda, zınqırov da yaxınlaşırdı, uzaqlaşdıqca zınqırov da uzaqlaşırdı, o, kəskin bir hərəkət etdikdə, şiddətli zınqırov səsləri eşidilməyə başlayırdı. Dayandıqda isə səs də kəsilirdi. Görünür, zınqırov bu adamın bir yerinə bağlanmışdı. Lakin bu nə demək idi? Bir öküz, yaxud bir qoyun kimi boynuna zınqırov asılmış bu adam kim ola bilərdi?

Jan Valjan öz-özünə bu cür suallar verə-verə, Kozettanın əllərinə toxundu. Qızın əlləri buz kimi soyuq idi.

Jan Valjan:

– Aman Allah! – deyə mızıldandı. Sonra yavaşca qızı çağırdı:

– Kozetta!

Kozetta gözlərini açmadı. Jan Valjan onu bərk silkələdi. Kozetta oyanmadı.

Birdən o: "Yoxsa ölmüşdür?" – düşündü və ayağa qalxdı.

Bədəni başdan-ayağa qədər titrəyirdi.

Başından qarmaqarışıq qara fikirlər keçdi. Bəzən dəhşətli ehtimallar cin qoşunu kimi insana hücum edir və beynin bütün hüceyrələrində yer eləyir. Məsələ sevdiyimiz adamlara aidsə, onlar üçün çəkdiyimiz təşvişdən xəyalımızda min cür dəhşətli səhnələr yaranır. Jan Valjan soyuq gecədə açıq havada yatmağın bir ölüm yuxusuna çevrilə biləcəyini xatırladı.

Kozetta solğun, hərəkətsiz bir halda onun ayaqları altında yerə uzanmışdı.

O, qızın nəfəsinə qulaq asdı; qız nəfəs alırdı, lakin bu nəfəs o qədər zəif idi ki, elə bil, bu saat kəsiləcəkdi.

Onu necə qızdırsın? Necə oyatsın? Jan Valjanın düşündüyü yalnız bu idi. O, dəli kimi mərəkdən bayıra yüyürdü.

Nə olursa olsun, ən geci on beş dəqiqədən sonra, Kozetta ocaq yanında və yataq içində olmalı idi.

Doqquzuncu fəsil

ZINQIROVLU ADAM

Jan Valjan bir baş bağçada gördüyü adama tərəf getdi. Ehtiyat üçün jiletinin cibindən pul bağlısını çıxartmışdı.

Zınqırovlu adam başını aşağı salmış olduğundan, Jan Valjanın yaxınlaşdığını görmədi. Jan Valjan bir an içində onun yanına çatdı.

Üzünü ona çevirib:

– Yüz frank! – deyə çığırdı.

O adam diksinərək, gözlərini Jan Valjanın üzünə dikdi.

– Məni bir gecəliyə evinizə buraxsanız, yüz frank alarsınız.

Ayın işığı Jan Valjanın təşviş içində olan üzünə düşürdü.

Birdən zınqırovlu adam səsləndi:

– Necə?! Madlen baba, sizsiniz?

Bu gecə vaxtında, yad bir yerdə, yad bir adamın bu adı çəkməsi Jan Valjanı dəhşətlə geriyə çəkilməyə vadar etdi.

O, hər şeyə hazırdı, amma belə bir şey heç ağlına gəlməzdi. Qabağında kəndli kimi geyinmiş, belibüküк, axsaq bir qoca dayanmışdı. Onun sol ayağında göndən diz sarğısı vardı, bu sarğıdan da iricə bir zınqırov asılmışdı. Üzü kölgədə olduğundan üzünü yaxşı görmək mümkün deyildi.

Qoca papağını çıxarıb, həyəcandan titrəyərək:

– Aman Allah! – dedi. – Madlen baba, siz buraya necə gəldiniz? İsa xatirinə, siz buraya necə daxil oldunuz? Göydənmi düşdünüz? Göydən düşsəydiniz, heç də təəccüblü olmazdı. Göydən düşməyib də, siz yerə haradan düşə bilərsiniz? Lakin bu nə görkəmdir? Boyunbağınız yox, şlyapanız yox, pencəyiniz yox. Əgər sizin kim olduğunuzu bilməsəydim, vallah qorxardım. Pencəksiz! Pərvərdigara, məgər indi övliyalar da ağlını itirir? Lakin siz buraya necə gəldiniz?

Suallar yağış kimi yağırdı. Qoca danışmağı sevən kəndlilər kimi hey danışırdı, lakin onun sözlərində qorxuducu heç bir şey hiss olunmurdu. Qoca bütün sözlərini bir uşaq sadəlövhlüyü ilə heyrətlə söyləyirdi.

Jan Valjan soruşdu:

– Siz kimsiniz və bu ev nə evdir?

Qoca:

– Lənət şeytana! – deyə səsləndi. – Belə də iş olar! Əşi, mən həmin adamam ki, siz özünüz məni buraya qoymuşsunuz, bu ev də elə həmin evdir ki, siz özünüz məni ora yerləşdirmisiniz. Necə məgər, siz məni tanımırsınız?

Jan Valjan:

– Yox tanımıram! – deyə cavab verdi. – Lakin siz məni haradan tanıyırsınız?

O adam dedi:

– Siz məni ölümdən xilas etmişsiniz.

O, üzünü çevirdi, Ay işığı onu başdan-başa işıqlandırdı. Jan Valjan qoca Foşlevanı tanıdı.

– Ah, sizsiniz! İndi mən sizi tanıdım.

Qoca məzəmmətlə:

– Şükür Allaha! Axır ki, tanıdınız! – dedi.

Jan Valjan soruşdu:

– Bəs siz burada nə edirsiniz?

– Necə yəni nə edirəm? Budur, qovun ləklərinin üstünü örtürəm.

Doğrudan da, Jan Valjan qoca Foşlevana müraciət etdiyi zaman o, qovun ləkinin üstünə sərmək üçün əlində bir həsir parçası tutmuşdu. Bağçada çalışdığı müddətdə, bu həsirlərin bir neçəsini sərib qurtarmışdı. Jan Valjanın mərəkdə oturaraq gördüyü qəribə hərəkətlər də elə həmin bu işdən irəli gəlirdi.

Qoca sözünə davam edərək:

– Baxdım gördüm ki, gecə aydınlıqdır. Demək, səhər soyuq olacaq. Dedim: qoy gedim, qovunlarıma isti paltar geyindirim.

Sonra xeyirxah bir təbəssümlə Jan Valjana baxaraq əlavə etdi:

– Elə siz də isti paltar geyinsəydiniz, pis olmazdı. Lakin axı siz buraya necə gəldiniz?

Jan Valjan bu qocanın onu Madlen adı ilə olsa belə, hər halda, tanıdığını görüb, onunla artıq bir qədər ehtiyatla danışırdı. İndi o özü qocaya bir çox suallar verməyə başladı. Qəribə olsa da, bu iki adam rollarını dəyişmiş kimi görünürdü. İndi sual verən o, yəni çağırılmamış qonaq idi.

– Bəs dizinizə bağladığınız o zınqırov nədir?

– Bumu? Bunu asmışam ki, məndən qaçsınlar! – deyə Foşlevan cavab verdi.

– Necə yəni sizdən qaçsınlar?

Qoca Foşlevan mənalı bir surətdə göz vurdu:

– Elə-belə! Bu evdə yalnız arvadlar olur. Bir çox gənc qızlar var. Onlar elə bilir ki, mənə rast gəlmək onlar üçün qorxulu şeydir. Zınqırov onlara mənim gəldiyimi xəbər verir. Mən gələndə onlar qaçırlar.

– Bəs bu nə evdir?

– Əcəb işdir! Siz ki bunu özünüz yaxşı bilirsiniz.

– Yox, bilmirəm.

– Siz ki məni özünüz buraya bağban qoydurdunuz!

– Fərz edin ki, mən heç bir şey bilmirəm. Ona görə də cavab verin.

– Yaxşı, elə olsun! Bura Kiçik Pikpüs monastırıdır.

Jan Valjan yavaş-yavaş xatırlamağa başladı. Təsadüf, daha doğrusu, qəza onu Sent-Antuan məhəlləsinin monastırına atmışdı. Bu həmin monastır idi ki, iki il bundan əvvəl qoca Foşlevan araba

altında qalaraq şikəst olduqda onun tapşırığı ilə buraya bağban qəbul edilmişdi. O, öz-özünə: "Kiçik Pikpüs monastırı!" – təkrar etdi.

Foşlevan yenə soruşdu:

– Yenə də bir məni başa salın görüm, Madlen baba, siz buraya necə gəldiniz? Siz müqəddəs adam olsanız da, hər halda, kişisiniz, kişiləri isə buraya buraxmırlar.

– Siz burada yaşayırsınız?

– Elə təkcə mən burada yaşayıram.

Jan Valjan:

– Hər halda, mən burada qalmalıyam! – dedi.

– Aman Allah! – deyə Foşlevan səsləndi.

Jan Valjan qocaya yaxınlaşaraq, ciddi bir səslə:

– Foşlevan baba, – dedi, – mən sizi ölümdən qurtarmışam.

– Bunu mən sizdən əvvəl yada saldım! – deyə Foşlevan cavab verdi.

– Bax belə! Vaxtilə mənim sizin üçün etdiyimi bu gün siz də mənim üçün edə bilərsiniz.

Foşlevan qırışmış, titrəyən qoca əlləri ilə Jan Valjanın qüvvətli əllərini tutdu və bir neçə dəqiqə bir kəlmə belə danışa bilmədi. Nəhayət, dedi:

– Ah! Sizin yaxşılığınızın əvəzini verə bilsəydim, mən bunu Allahın bir mərhəməti sayardım! Sizi ölümdən xilas etmək! Mən sizin ixtiyarınızdayam, cənab mer!

Qocanın üzündə fərəhli bir heyrət doğdu, üzü işıqlandı.

– Mən nə etməliyəm? – deyə o soruşdu.

– Mən sizi başa salaram. Otağınız varmı?

– Mənim ayrıca balaca bir evim var; bax orada, köhnə monastırın xarabaları arxasında, küncdə, heç kəsin gözünə çarpmaz. Orada üç otaq var.

Doğrudan da, bu balaca ev xarabaların arxasında elə yaxşı gizlənmişdi, elə dalda yerdə idi ki, Jan Valjanın gözünə dəyməmişdi. Jan Valjan:

– Yaxşı, – dedi. – İndi mənim iki xahişimi yerinə yetirin.

– O xahişləriniz nədir, cənab mer?

– Birinci, siz mənim barəmdə heç kəsə bir söz deməyəcəksiniz. İkinci, özünüz məndən heç bir şey soruşmayacaqsınız.

– Necə istəyirsiniz, elə olsun. Mən sizin şərəfsiz bir iş görməyə qadir olmadığınızı, həmişə mərhəmətli adam olduğunuzu bilirəm.

Bir də, siz özünüz məni buraya qoymusunuz. Demək, sizin öz işinizdir. Mən sizin ixtiyarınızdayam.

– Bu belə! İndi dalımca gəlin. Biz uşağın dalınca getməliyik.

– A-a! Demək, bu arada uşaq da var! – deyə Foşlevan mızıldandı.

O artıq bir kəlmə də danışmadı. Bir it öz sahibinin dalınca getdiyi kimi, o da Jan Valjanın dalınca getdi.

Yarım saat sonra ocağın istisindən yanaqları qızarmış Kozetta qoca bağbanın yatağında yatırdı. Jan Valjan boyun yaylığını taxmış və redinqotunu geyinmişdi. Divarın üstündən tulladığı şlyapa tapılmış və gətirilmişdi. Jan Valjan geyimi ilə məşğul olduğu zaman, Foşlevan zınqırovlu diz bağını çıxarmışdı. İndi bu zınqırov, torpaq səbəti ilə bir yerdə divardan asılmışdı. Kişilər dirsəklərini masanın üstünə qoyaraq qızınırdılar. Foşlevan süfrəyə bir parça pendir, çörək və bir şüşə şərabla iki stəkan qoydu. Jan Valjanın dizinə toxunaraq, qoca dedi:

– Ah, Madlen baba, siz məni o saat tanımadınız! Siz insanları ölümdən xilas edirsiniz də, sonra onları yaddan çıxardırsınız! Bu, yaxşı deyildir. Amma onlar sizi unutmurlar. Siz naşükür adamsınız!

Onuncu fəsil

BURADA JAVERİN YANLIŞ MARITA DURDUĞUNDAN BƏHS OLUNUR

Necə deyərlər, iç üzünü indicə gördüyünüz hadisələr ən adi şəraitdə baş vermişdi.

Fantinanın ölüm yatağı yanında həbs edilmiş Jan Valjan həmin gecə Monreyl-sür-Mer şəhəri həbsxanasından qaçdığı zaman, polis idarəsi katorqalının Parisə qaçmış olduğunu güman etmişdi. Paris, içində hər şeyin yox olduğu bir burulğandır. Okeanın dərinliyində olduğu kimi, bu dünya mərkəzində də hər bir şey yox olur. İnsanın möhkəm gizlənə bildiyi bir qalın meşəlik varsa, o da camaat arasıdır. Bu həqiqət hər cür qaçqınlara məlumdur. Onlar girdabda qərq olan kimi Parisdə qərq olurlar. İnsana qurtuluş gətirə bilən girdablar da vardır. Bunu polis də bilir. Ona görə polis başqa bir yerdə nə

itirirsə, həmişə Parisdə axtarır. Polis Monreyl-sür-Merin sabiq merini də Parisdə axtarırdı. Bu axtarışları idarə etmək üçün Javeri Parisə çağırmışdılar. O, doğrudan da, Jan Valjanın tutulmasında böyük kömək göstərmişdi. Bu işdə Javerin göstərdiyi çalışqanlıq və zirəklik qraf Anqles dövründəki prefekturanın katibi cənab Şabulyenin diqqətini cəlb etmişdi. Bu səbəbə görə, keçmişdə də Javerə himayəçiik edən cənab Şabule, indi onu Monreyl-sür-Mer polis müfəttişi vəzifəsindən Paris prefekturasına köçürmüşdü. Burada Javerin hər bir cəhətdən faydalı və bunu da qeyd etməliyik, hörmətə layiq adam olduğu anlaşıldı. Biz burada hörmət sözünü işlətsək də, polis xidmətlərindən bəhs edildikdə bu söz bir az qəribə görünür.

O artıq Jan Valjanı unutmuşdu – ovçu tulalarının axı belə bir xasiyyəti var: onlar təzə canavara rast gəldikdə əvvəlkini unudurlar. Lakin birdən, 1823-cü ilin dekabr ayında, ümumiyyətlə, qəzet oxumağı sevməyən Javer qəzetə baxmışdı. Javer monarxist olduğundan, prins-generalissimusun Bayona şəhərinə təntənəli gəlişinin bütün təfsilatını öyrənmək istəmişdi. Maraqlandığı bir məqaləni oxuyub qurtarmaqda ikən, birdən səhifənin sonunda Javerin gözlərinə bir ad sataşdı, bu, Jan Valjanın adı idi. Qəzet katorqalı Jan Valjanın öldüyünü xəbər verirdi. Bu xəbər o qədər rəsmi bir şəkildə təsvir edilmişdi ki, Javer bunun doğru olduğuna qətiyyən şübhə etmədi. Ancaq bunu dedi: "Bax, bu, doğrudan da, möhkəm bir həbsxanadır". Bundan sonra Javer qəzeti bir kənara atdı, oxuduğunu yadından çıxartdı.

Bir qədər sonra Sena və Uaza prefekturası Monfermeyldə, deyildiyinə görə, çox əcaib bir şəkildə, bir uşağın oğurlanması haqqında Paris polis prefekturasına məlumat göndərmişdi. Məlumatda qızın yeddi-səkkiz yaşlarında olduğu, anası tərəfindən yerli bir meyxanaçıya saxlamaq üçün verildiyi və naməlum bir adam tərəfindən oğurlandığı qeyd olunurdu. Qızın adı Kozetta imiş, anası isə Fantina adlı bir qadınmış, harada isə xəstəxanada vəfat etmişdir. Məlumat Javerin əlinə keçdi və onu düşünməyə vadar etdi.

Fantinanın adı Javerə yaxşı tanış idi. O, Jan Valjanın ondan bu əxlaqsız qadının uşağını gətirmək üçün üç gün möhlət istəməsinə nə qədər gülmüş olduğunu xatırladı. Jan Valjanın Monfermeylə gedən bir dilicana minmək istədiyi zaman Parisdə tutulmuş olduğu da yadına düşdü. O zaman edilən bəzi müşahidələr hətta belə bir fikir oyadırdı ki, Jan Valjan ikinci dəfə bu dilicana minmiş və bir gün

əvvəl bu kəndin ətraflarına birinci dəfə səyahət etmişdi, çünki kəndin özündə onu görməmişdilər. Monfermeyldə onun nə işi olduğunu heç kəs başa düşə bilməmişdi. Lakin indi Javer bunu anlamışdı. Fantinanın qızı Monfermeyldə yaşayırdı. Jan Valjan oraya qızın dalınca getmişdi. İndi də naməlum bir adam bu uşağı oğurlamışdır. Bu naməlum adam kim ola bilərdi? Jan Valjanmı? Lakin Jan Valjan ölmüşdür. Javer, heç kəsə bir söz demədən, Odun dalanındakı "Qalay boşqab" mehmanxanasından yola düşən omnibusa[1] minərək, Monfermeylə getdi. O, bu işi yerində tamamilə aydınlaşdıra biləcəyini düşünürdü, lakin heç bir şey öyrənə bilmədi.

İlk günlər hiddətlənmiş Tenardyegil bu hadisə haqqında ağızlarına gələni danışırdılar. Torağayın yox olması kənddə gurultu qoparmışdı. Dərhal bu hadisəni cürbəcür şəkildə danışmağa başladılar. Nəhayət, hadisə uşağın oğurlanması əhvalatına çevrildi. Bunun da nəticəsində Paris prefekturasının aldığı məlumat göndərildi; halbuki, ilk hiddət dövrü keçəndən sonra Tenardye, qəribə instinkti sayəsində çox tezliklə başa düşdü ki, əlahəzrət kralın prokuror cənablarını narahat etmək hər zaman faydalı olmaz. Bir də "uşağın oğurlanması" haqqında şikayətlər, hər şeydən əvvəl, polis idarəsinin sayıq gözlərini onun özünə və bir çox şübhəli işlərinə tərəf çevirəcəkdir. Bayquşların ən çox qorxduğu bir şey varsa, o da işıqdır. Bundan başqa, min beş yüz frankı almasını necə izah etsin? Tenardye bu səbəblərə görə hərəkətlərini tamamilə dəyişdi, arvadının ağzını yumaraq, uşağın oğurlanması haqqında söhbət açıldıqda, guya, təəccüb etməyə başladı. Necə? O heç bir şey anlamır. Doğrudur, əvvəllər şikayət edir və əziz balanın bu qədər tez əlindən alındığından danışardı. Deyərdi ki, o, qızı çox sevir və istərdi ki, qızcığaz bir-iki gün də onun yanında qalsın. Lakin qızın dalınca "babası" gəlmişdi ki, bu da çox təbii bir şey idi. Tenardye, baba məsələsini özündən uydurmuşdu və bu, yaxşı təsir bağışlayırdı. Javer də Monfermeylə gəldiyi zaman, əhvalatı elə bu şəkildə eşitmişdi.

Bununla belə, Javer, məsələnin içinə zond salırmış kimi, Tenardyenin danışdıqlarını yoxlamağa başladı. "Bu baba dediyi adam kim idi, adı nə idi?" Tenardye özünü sadəlövhlüyə vuraraq cavab verirdi: "Varlı bir mülkədar idi. Adı da, yanılmıramsa, Gilom Lamberdir. Pasportunu görmüşəm".

[1] *Omnibus* – çoxyerli kareta

Lamber – namuslu və hər bir cəhətdən etibarlı adam adıdır. Javer Parisə qayıtdı. Öz-özünə: "Bu Jan Valjan, doğrudan da, ölmüşdür. Mən də lap sarsağam" – demişdi.

Javer bu əhvalatı unutmağa başlayırdı ki, birdən, 1824-cü ilin mart ayında qulağına Sen-Medar məhəlləsində "sədəqə verən dilənçi" adı ilə şöhrət qazanan qəribə bir adamın yaşaması haqqında bir xəbər çatdı. Belə deyirdilər ki, guya, bu adam varlı bir rantyedir. Heç kəs onun adını yaxşıca bilmirdi. Bu adam səkkiz yaşında bir qızla birlikdə yaşayırdı. Qızın isə yalnız o yadına gəlir ki, Monfermeyldən gəlmişdir. Yenə Monfermeyl! Bu adı eşidən Javer yenə qulaqlarını şəklədi. Bu adamın sədəqə verdiyi keçmiş kilsə xadimi, indi isə dilənçi paltarında olan polis casusu bəzi başqa təfsilat da əlavə etdi. "Bu rantye heç kəslə görüşməz, küçəyə ancaq axşamlar çıxar, yoxsullardan başqa heç kəslə danışmaz, heç kəslə əlaqə saxlamaz... Əynində astarının içi bank biletləri ilə dolu olduğundan bir neçə milyon dəyəri olan çox köhnə, sarı bir redinqotu var". Bu şok təfsilat Javerin marağını qat-qat artırdı. Bu fantastik rantyeni yaxından görmək və eyni zamanda onu ürkütməmək üçün Javer bir dəfə kilsə xadiminin cındırlarını geyindi, qoca casusun hər axşam bardaş qurub, mızıldana-mızıldana dua oxuyaraq yolçuları izlədiyi yerdə oturdu.

Doğrudan da, "şübhəli adam" qiyafətini dəyişmiş Javerə yaxınlaşdı və ona sədəqə uzatdı. Elə bu zaman Javer başını qaldırdı və Jan Valjanı tanıdığını zənn edərək, diksindi. Jan Valjan da Javeri tanıdığını güman edərək diksindi.

Lakin o, qaranlıqda yanıla bilərdi, axı Jan Valjanın ölümü haqqında rəsmi məlumat verilmişdi. Javerin ürəyində hələ ciddi şübhələr vardı, Javer isə vasvası olduğundan, belə hallarda heç vaxt heç kəsi tutmazdı.

Javer qocanın dalınca düşüb Qorbonun komasına gəldi, az bir zəhmətlə qarının dilini açıb danışdırdı. Qarı sarı redinqotun milyonlarla dolu olduğunu təsdiq edərək, minfranklıq bilet əhvalatını da ona danışdı. Dedi ki, öz gözümlə görmüşəm! Öz əlimlə toxunmuşam! Javer otaq kirayə edib, elə həmin axşam oraya köçdü. Gizli kirayənişinin səsini eşitmək ümidi ilə qapıya yaxınlaşdı, lakin Jan Valjan, qapının açar yerindən şam işığını gördüyü üçün bir kəlmə danışmadığından casusun planlarını pozdu.

O biri gün Jan Valjan buradan köçməyi qərara aldı. Yerə saldığı beşfranklıq pulun səsi qarının diqqətini cəlb etdi. O, pul səsini eşidib, kirayənişinin köçməyə hazırlaşdığını zənn edərək, dərhal bunu Javerə xəbər verdi. Gecə, Jan Valjan küçəyə çıxdığı zaman, Javer artıq iki nəfər köməkçisi ilə bulvarda ağacların arxasında gizlənib onu gözləyirdi.

Javer prefekturada özünə kömək üçün adam verilməsini xahiş etdi, lakin kimi tutmaq fikrində olduğunu demədi. Bu, onun sirri idi, həm də bu sirri üç səbəbə görə açmaq istəmirdi: birincisi, ən kiçik ehtiyatsız bir söz Jan Valjanda şübhə oyada bilərdi: ikincisi, ölmüş zənn edilən bir köhnə qaçqın katorqalını, polis dəftərlərində ən təhlükəli canilər maddəsində qeyd olunmuş bir canini ələ keçirmək elə parlaq bir iş idi ki, Paris polisinin köhnə tulaları, heç şübhəsiz, bunu Javer kimi təzə bir adamın əlinə verməzdilər, Javer də katorqalısının əlindən alına biləcəyindən qorxurdu; nəhayət, Javer öz işinin sənətkarı olduğundan, gözlənilməz şeyləri sevərdi. O, əvvəlcədən ölçülüb-biçilmiş müvəffəqiyyətlərə nifrət edərdi, çünki belə müvəffəqiyyətlər ətrafında çox söhbət edildiyindən, onlar öz təravətini və təzəliyini itirirdi. Javer, sonra birdən-birə elan etmək üçün ən mühüm işlərini gizlində hazırlamağı sevərdi.

Javer Jan Valjanın dalınca gələrək, bu ağacdan o ağaca, bu küçənin tinindən o biri küçənin tininə qədər, bir dəqiqə belə gözdən qaçırmadan onu izlədi. Jan Valjan özünü təhlükədən tamamilə uzaq zənn etdiyi zamanlarda belə, Javer gözünü ondan çəkmirdi.

Bəs nə üçün Javer Jan Valjanı tutmadı? Bunun bir səbəbi vardı: o hələ də şübhə edirdi.

Unudulmamalıdır ki, o dövrdə polis idarəsinin hərəkətləri sərbəst deyildi, azad mətbuat onu sıxırdı. Qəzetlərin ifşa etdiyi bir neçə özbaşına həbs palatanın nəzərinə çatdırılmış və prefekturanın cəsarətsizliyinə səbəb olmuşdu. Şəxsiyyət azadlığını pozmaq ciddi bir məsələ sayılırdı. Polis işçiləri səhv etməkdən qorxurdular. Prefekt bütün günahı onların boynuna yıxırdı. Hər bir səhv edən adam vəzifədən istefa verməyə məcbur olurdu. Tutaq ki, qəzetdə bu cür balaca bir məqalə çap olunmuşdur: "Dünən səkkiz yaşında nəvəsi ilə gəzməkdə olan ağsaçlı, hörmətli qoca bir rantye qaçaq bir katorqalı kimi həbs edilərək həbsxanaya göndərilmişdir". Bu məqaləni iyirmi qəzet nəşr etdikdən sonra Parisdə nə kimi bir həngamə qopa biləcəyini təsəvvür edə bilərsiniz.

Təkrar edirik, bundan başqa, Javerin özü də çox vasvası idi. Vicdanının tələbləri prefektin tələblərinə uyğun gəlirdi. O, doğrudan da, şübhə edirdi.

Jan Valjan Javerin qabağında, qaranlıqda yeriyirdi.

Ümidsizlik, narahatlıq, təşviş, yorğunluq, gecə vaxtı bu yenidən qaçmaq və Parisdə həm özü, həm də Kozetta üçün müvəqqəti yer axtarmaq dərdi, uşağın sürəti ilə ayaqlaşmağa məcbur olması Jan Valjanın yerişini özü belə duymadan o qədər dəyişmiş və görünüşü o qədər əldən düşmüş bir qoca görünüşünə bənzəmişdi ki, Javer kimi polis belə səhv edə bilərdi. Jan Valjana yaxınlaşmağın qeyri-mümkün olması, əynindəki qoca, mühacir mürəbbi paltarı, Jan Valjanı qızın babasına çevirmiş olan Tenardyenin bəyanatı, nəhayət, onun katorqada öldüyünə əmin olması – bunların hamısı Javerin tərəddüdünü daha da artırırdı.

Bir anlar Javerin beynində dərhal qocadan sənədlərini tələb etmək fikri doğdu. Lakin əgər bu adam Jan Valjan deyilsə, qoca, hörmətli bir rantye də deyilsə, bu, mütləq qaranlıq Paris cinayətlərində dərin və məharətli bir rol oynayan quldurlardan biri, başqa işlərinin üstünü örtmək üçün sədəqə paylayan qorxunc bir quldur dəstəbaşısı olmalı idi. Sədəqə paylamaq da başqa işlərinin üstünü örtmək üçün quldurların köhnə sınanmış üsuludur. Əlbəttə, onun əlbirləri, cinayət yoldaşları, gizlənmək istədiyi ehtiyat mənzilləri də var. Küçələri fırlanması, yol azdırması da bunun sadə bir qoca olmadığını sübut edirdi. Onu çox tez ələ keçirmək – "qızıl yumurta yumurtlayan bir toyuğu kəsmək" demək idi. Bir az gözləməyin nə eybi var? Javer bu qocanı əldən qaçırmayacağına tamamilə əmin idi.

Beləliklə, Javer bir az karıxmış halda yeriyərək bu müəmmalı adamın kim ola biləcəyini dəfələrlə özündən soruşurdu.

Yalnız Pontuaz küçəsində, bu adam meyxanadan düşən parlaq işığın yanından keçdikdə, Javer ovun Jan Valjan olduğunu anlamışdı, buna şübhə ola bilməzdi.

Bu dünyada eyni dərəcədə dərin daxili həyəcan keçirən iki xilqət var: biri – balasını tapmış bir ana, o biri isə ovunu tutmuş pələng. Javer də belə bir həyəcan keçirirdi.

İzlədiyi adamın qorxunc katorqalı Jan Valjan olduğuna inandıqdan sonra özü ilə bərabər yalnız iki adam götürdüyünə təəssüf etdi

və adam göndərərək Pontuaz küçəsinin polis komissarından kömək istədi. Tikanlı göyəm budağını qoparmadan əvvəl əlcək taxarlar.

Javerin gecikməsi və agentləri ilə məsləhətləşmək üçün Rolen döngəsinə dönməsi az qalmışdı ki, Jan Valjanı gözdən itirməsinə səbəb olsun. Lakin o, tez başa düşdü ki, Jan Valjan çayın o tayına keçməklə aralarında maneə yaratmağa çalışacaqdır. İzi itirməmək üçün yeri iyləyən bir ov tulası kimi Javer başını sallayıb fikrə daldı. Heç bir zaman onu aldatmayan bir sövqi-təbii ilə Javer düz Austerlis körpüsünə doğru getdi və vergiyığan adamdan soruşdu: "Bir balaca qızla bir kişini görmədiniz ki?". Vergiyığan: "Gördüm, hətta onu iki su verməyə məcbur etdim", – deyə cavab verdi. Bu cavab vəziyyəti aydınlaşdırdı. Jan Valjan Kozettanın əlindən tutaraq, Ay işığı düşmüş yerdən keçdiyi zaman Javer körpünün üstündə idi. Javer Jan Valjanın Yaşıl yol küçəsinə doğru getdiyini görüb, tələ kimi bir şey olan Janro dalanını xatırladı. Düz divar küçəsindən Pikpüs döngəsinə yalnız bircə yol olduğu da Javerin yadına düşdü. O, ovçuların dili ilə deyəcək olursaq, "ovu qabaqladı", tələsik kəsə yollarla adamlarından birini həmin çıxış yolunu tutmaq üçün göndərdi. Cəbbəxanaya növbəni dəyişmək üçün gedən qarovulçuları saxladı və dalınca getməyə məcbur etdi. Belə bir oyunda əsgərlər qumarda xal kimi bir şeydir. Bundan başqa, belə bir qayda da var: əgər qabanı vurmaq istəyirsənsə, təcrübəli bir ovçu olmalısan, itin də çox olmalıdır. Javer bu tədbirləri görüb Jan Valjanın sağ tərəfdə dalanla, sol tərəfdə polis agenti ilə, dalda isə onun özü ilə əhatə olunduğunu bildiyindən, bir çimdiklik burunotu götürdü.

Sonra oyun başlandı. Bu anda Javer yalnız iblislərin duya biləcəyi bir sevinc hiss etdi: o, bu adamın artıq onun ixtiyarında olduğunu bildiyindən tələsmədən onun ardınca gedir və vaxtı mümkün dərəcə uzatmağa, tutmağı təxirə salmağa çalışırdı. Zahirən azad olan bu adamın həqiqətdə tutulmuş olduğunu düşünməkdən həzz alırdı. Torun içində çırpınan bir hörümçəyə baxan, yaxud siçanı birdən-birə öldürməyərək oyan-buyana qaçmasına yol verən bir pişik kimi, şəhvətli gözlərini ondan ayırmırdı. Pəncə və caynaqlar öldürmək üçün tutmuş olduqları heyvanın çırpınmasından müdhiş bir ləzzət alırlar. Boğmaq – nə qədər dadlı bir zövqdür!

Javer sevinirdi! Qurmuş olduğu torun ipləri möhkəm idi. O, müvəffəqiyyət qazanacağına əmin idi. Yalnız bir şey qalırdı: yumruğunu sıxmaq!

Jan Valjan nə qədər qüvvətli və cəsur olsa da, nə qədər ümidsiz bir vəziyyətdə olsa da, onun müqavimət göstərə biləcəyi fikri bu qədər böyük bir dəstəsi olan Javerə qeyri-mümkün görünürdü.

Javer aramla irəliləyir, oğrunun ciblərini axtarırmış kimi küçənin bütün qaranlıq bucaqlarını, xəlvət yerlərini araşdırıb eşələyirdi.

Lakin hörümçək torunun mərkəzinə çatdıqda, milçəyi orada tapmadı.

Onun nə qədər hiddətləndiyini təsəvvür edə bilərsiniz. Düz divar və Pikpüs küçəsini qoruyan qarovulçudan xəbər aldı. O, bir dəqiqə belə yerindən tərpənməmişdi, yanından heç bir kişi gəlib-keçməmişdi.

Bəzən belə təsadüflər olur ki, maralın buynuzları lap ovçunun əlinə keçir, lakin birdən-birə maral yox olur. Başqa sözlə, ətrafını sürü ilə it bürüsə belə, maral qaçıb canını qurtarır. Belə hallarda ən təcrübəli ovçular belə mat qalırlar. Hətta Düvivye, Linyivil və Deprez belə, nə deyəcəklərini bilmirdilər. Artonj, belə bir müvəffəqiyyətsizliyə düçar olduqda: "Bu, maral deyil, cindir" demişdi.

Javer də məmnuniyyətlə bu sözləri təkrar edərdi.

Javerin indiki məyusluğu daha çox ümidsizliyə, qeyzə, hiddətə bənzəyirdi.

Napoleon – Rusiya ilə müharibədə, İsgəndər – Hindistanla müharibədə, Sezar – Afrika müharibəsində, Kir – Skif müharibəsində səhv etdiyi kimi, Javer də, şübhəsiz, Jan Valjana qarşı bu səfərində səhv buraxmışdı. Javer onun sabiq katorqalı olduğunu etiraf etməkdə ləngidiyi üçün, bəlkə də, səhv etmişdi. O, aldığı ilk təəssüratına inanmalı idi. Javer Jan Valjanı dərhal, Qorbo komasında həbs etməməkdə də səhv etmişdi. O, Pontuaz küçəsində Jan Valjanı qəti olaraq tanıdıqdan sonra həbs etməməkdə də səhv etmişdi. Rolen yolayrıcında, aydın ay işığında dayanıb, öz adamları ilə məsləhətləşərkən də Javer səhvə yol vermişdi. Əlbəttə, məsləhətləşmək yaxşı şeydir, etibarlı casusların bildiklərini və düşündüklərini öyrənmək pis olmaz. Lakin canavar və katorqalı kimi nadinc heyvanları təqib edən bir ovçu çox ehtiyatlı və tədbirli olmalıdır. Ov tulalarını izə doğru salmaqla həddindən artıq məşğul olan Javer, heyvanı ürkütmüşdü. Heyvanın it sürüsünü duyub qaçmağına imkan vermişdi. Javerin əsas səhvi isə bundan ibarət idi ki, Austerlis körpüsündə Jan Valjanın izinə düşdükdən sonra, Jan Valjan kimi bir adamı ipin ucunda

saxlaya biləcəyini güman edərək, onunla dəhşətli bir uşaq oyunu oynamağa başlamışdı. O, özünü həqiqətdə olduğundan daha qüvvətli zənn etmiş, aslanla siçan-pişik oyunu oynamağa başlamışdı. Eyni zamanda, özünü kifayət qədər qüvvətli saymayaraq, özünə kömək götürməyi belə lazım bilmişdi. Bu fəlakətli ehtiyatkarlıq da qızıl kimi qiymətli vaxtın itməsinə səbəb olmuşdu. Lakin Javer bütün bu səhvləri buraxmış olsa da, yenə də yer üzündə mövcud olan ən bilikli və işgüzar xəfiyyələrdən biri idi. Hər halda, o, ovçuların dediyi kimi, tam mənada "ağıllı" bir it sayıla bilərdi. Səhv etməyən kimdir?

Böyük strateqlərin də gözlərinə pərdə çəkilə bilər.

Bir-birinə hörülmüş nazik iplərdən qalın bir kanat əmələ gəldiyi kimi, bəzən böyük bir axmaqlıq da bir çox xırda axmaqlıqların yekunundan başqa bir şey deyildir. Kanatın hər bir ipini ayrıca, tel-tel açsanız, böyük axmaqlığa gətirib çıxaran ən xırda həlledici səbəbləri bir-bir görərsiniz, asanlıqla hamısına üstün gələ bilərsiniz. İndi siz: "Elə bumu?" – deyəcəksiniz. Lakin bu iplərin hamısını bir-birinə bağlayıb hörsəniz, dəhşətli bir şey əmələ gələr. Bu – Şərqdə Marsian, Qərbdə isə Valentinian arasında tərəddüd edən Atilla deməkdir, bu – Kapuyada ləngiyən Hannibal deməkdir. Bu – Arsis-sür-Obda yuxuya gedən Danton deməkdir.

Lakin nə olursa olsun, Javer Jan Valjanın onun əlindən çıxdığını gördükdə, başını itirmədi. Polis nəzarəti altından qaçan bir katorqalının çox da uzağa gedə bilməyəcəyinə əmin olduğundan hər yana qarovulçu qoydu, tələlər qurdu, bütün gecəni məhəlləni araşdırdı. Diqqətini ilk cəlb edən şey kəndiri kəsilmiş küçə fənəri idi. Bu, qiymətli bir əlamət idi, lakin bu əlamət onu aldatmış və Janro dalanına doğru aparmış, oraları araşdırmağa məcbur etmişdi.

Bu dalanda xeyli alçaq divarlar vardı ki, onların arxasında bağçalar və əkilməmiş böyük sahələr başlayırdı. Jan Valjan, yəqin ki, bu tərəfə qaçmışdı. Şübhəsiz, Jan Valjan Janro dalanının çox içərilərinə girmiş olsaydı, o mütləq məhv olacaqdı, Javer bir iynə axtarırmış kimi bütün bu bağları və düzləri diqqətlə araşdırmışdı.

Səhər açılanda orada iki nəfər bacarıqlı adam qoyub oğru tərəfindən tutulmuş bir polis xəfiyyəsi kimi utana-utana prefekturaya qayıtdı.

Altıncı kitab

KİÇİK PİKPÜS

Birinci fəsil

PİKPÜS KÜÇƏSİ, № 62

Yarım əsr bundan əvvəl Kiçik Pikpüs küçəsində 62 nömrəli evin darvazası başqa darvazalardan heç bir şeylə fərqlənmirdi, adətən, yarıya qədər açıq olan bu qonaqcıl darvazanın arxasında heç bir qəmli şey yox idi. Orada divarlarına tənək sarmaşmış hasarlı bir həyət və həyətdə gəzişən qapıçının üzündən başqa heç bir şey görünmürdü. Dal tərəfdə, divarın üstündə hündür ağaclar görünürdü. Günəşin şüaları həyəti canlandıran, bir stəkan şərab isə qapıçının üzünə canlılıq verən zaman Kiçik Pikpüs küçəsindəki 62 nömrəli evin yanından keçən yolçunun ürəyi qəribə bir fərəhlə dolurdu. Lakin gözləriniz qarşısından bir anlığa ötüb-keçən bu yer kədərli bir yer idi.

Evin astanası gülümsədiyi halda, ev özü ibadət edir və inləyirdi.

Qapıçının yanından keçməyə müvəffəq olduqda – bu, o qədər də sadə bir şey deyildi, hətta, demək olar ki, qeyri-mümkün bir şey idi, çünki burada “Sezam, açıl!” kimi bir əfsun vardı ki, bunu mütləq bilmək lazım gəlirdi – demək, qapıçının yanından keçməyə müvəffəq olduqda, siz sağ tərəfdə balaca bir dəhlizə girirdiniz, buradan iki divar arasında sıxılmış kimi görünən və ancaq bir nəfərin keçə biləcəyi dar bir pilləkən qalxırdı. Əgər bu pilləkən kəskin sarı boyası və qəhvəyi haşiyəsi ilə sizdə nifrət oyatmazsa və siz bu pilləkəni qalxmağa cəsarət etsəniz, o zaman siz əvvəl birinci meydançanı, sonra isə ikinci meydançanı keçərək, ikinci mərtəbənin koridoruna düşərsiniz. Bu dəhlizin yapışqanlı sarı boyası və qəhvəyi haşiyəsi isə, sakit bir amansızlıqla sizi təqib edir. Pilləkənə və koridora iki gözəl pəncərədən işıq düşür. Dəhliz dönür və qaranlıqlaşır. Bu döngəni

keçdikdən sonra bir neçə addım da atırsınız və qabağınıza qapı çıxır, bu qapı bağlı olmadığı üçün daha da əsrarəngiz görünür. Qapını itələyib, təqribən, altı fut böyüklüyündə kiçik kvadrat bir otağa daxil olursunuz. Tava döşənmiş bu otaq yuyulmuş, tərtəmiz, soyuq bir otaqdır, divarlarına yaşıl güllü, topu on beş su olan açıq-sarı kağız çəkilmişdir. Buraya sol tərəfdən, divarın bütün enini tutan böyük, torlu pəncərənin balaca şüşələri arasından solğun və toran bir işıq düşür. Ətrafınıza boylandıqda siz heç kəsi görmürsünüz, diqqətlə qulaq asmağa başlayırsınız, lakin heç bir şey, nə ayaq səsləri, nə insan səsi eşidirsiniz. Divarlar çılpaqdır, otaqda heç bir şey, hətta stul belə yoxdur.

Siz yenə boylanıb ətrafınıza baxırsınız və nəhayət, qapının qabağındakı divarda, təqribən, bir kvadrat fut böyüklüyündə dördbucaq bir deşik görürsünüz. Bu deşik diaqonal üzrə düym yarım uzunluğunda ilgəklər adlandırıla biləcək xırda kvadratlar əmələ gətirən möhkəm düyünlü qara çarpaz çubuqlardan ibarət dəmir bir torla örtülmüşdür. Açıq-sarı divar kağızlarının balaca yaşıl gülləri dümdüz və sakitcə bu dəmir çubuqlara qədər uzanır, nə onların yaxınlığından qorxur, nə də yel kimi hər tərəfə qaçırlar. Əgər bu kvadrat deşikdən girib-çıxa biləcək son dərəcə arıq bir canlı məxluq tapılsaydı da, bu tor ona mane olardı. Lakin o, bədənin keçməsinə mane olsa da, nəzərin, başqa sözlə desək, qəlbin keçməsinə mane olmurdu. Deyəsən, bu nəzərdə tutulmuşdu, çünki torun arxasında, lakin ondan azacıq aralı kəfgirin deşiklərindən də xırda deşikləri olan tənəkə bir lövhə pərçim edilmişdi. Bu lövhənin aşağısında, poçt qutularında olduğu kimi, bir deşik asılmışdı. Torlu dəliyin sağında isə zəngin linginə bağlanmış balaca bir məftil sallanırdı.

Bu məftili dartanda, zəng çalınmağa başlayırdı və o zaman lap yaxınlıqda sizi diksindirən bir səs eşidilirdi:

– Kimdir? – deyə bu səs soruşurdu.

Bu, incə bir qadın səsi idi, elə incə idi ki, ələmli görünürdü.

Lakin burada sehrli sözü bilmək lazım gəlirdi. Əgər siz bu sözü bilməsəniz, səs dərhal kəsilir və divar yenə dərin bir sükuta dalırdı, sanki, divarın o tərəfində sizin bir an üçün sükutunu pozduğunuz bir məzar qaranlığı hökm sürürdü.

Lakin siz bu sehrli sözü bilmiş olsanız, səs deyirdi:

– Sağ tərəfdən daxil olun.

O zaman pəncərənin qabağında, sağ tərəfdə siz şüşəli bir qapı görərdiniz. Qapının üstündə sarı rəngə boyanmış şüşəli bir çərçivə var. Qapının dəstəyini basaraq içəri girdikdə şəbəkə hələ enməyib çilçıraq hələ yanmadığı zaman siz benuar[1] lojasına girdikdə aldığınız təsiri alırsınız. Doğrudan da, sanki, dar bir teatr lojasına daxil olursunuz. Bura şüşəli qapıdan zəif işıq düşür. İçərisində iki stuldan və dağılmış həsirdən başqa heç bir şey yoxdur. Baryerin yuxarısında qara ağacdan bir lövhə var. Bu, yuxarısı qara taxtadan düzəldilmiş, adamın sinəsinə qədər hündür baryeri olan əsl lojadır. Loja şəbəkəlidir, lakin bu şəbəkə opera lojasında olduğu kimi taxtadan düzəldilmiş yaldızlı şəbəkə deyil, yumulmuş yumruqlara bənzəyən iri bəndlərlə divara pərçim edilmiş və iyrənc bir şəkildə bir-birinə qarışmış dəmir parçalarından eybəcər şəbəkəli bir çərçivədir.

Gözünüz bu zirzəmi alaqaranlığına alışmağa başladıqdan sonra siz şəbəkənin arxasına bir nəzər salmağa çalışırsınız. Lakin burada ən çoxu, altı düym məsafədə sarı-qəhvəyi rəngli taxtalarla bir-birinə bənd edilmiş qara pəncərə qanadlarından ibarət bir maneə görürsünüz. Bu, şəbəkəni başdan-ayağa kimi örtən uzun və nazik zolaqlardan ibarət bükmə pəncərə qanadlarıdır. Onlar həmişə bağlı olur.

Bir neçə dəqiqə sonra bu pəncərə qanadlarının arxasından yeni bir səs gəlir:

– Mən buradayam. Nə buyurursunuz?

Bu səs – sevdiyiniz, bəzən də pərəstiş etdiyiniz bir qadının səsidir. Lakin siz yenə də heç kimi görmədiniz. Yalnız xəfifcə bir nəfəs duymaq olur. Sanki, bu, əfsunla məzarından qalxan bir ruhun səsidir.

Çox nadir hallarda, sizin üçün əlverişli olan müəyyən şəraitdə bəzən bu pəncərə qanadlarının ensiz taxtalarından biri açılır və ruh dönüb bir kölgə olurdu. Şəbəkənin, pəncərə qanadlarının arxasında, şəbəkənin arxasından görünə biləcək qədər bir baş, daha doğrusu, bir ağız və bir çənə görünərdi. Bundan başqa, hər şey qara örtük altında gizli idi. Siz qara bir rahib başlığı və qara bir kəfənə bürünmüş tutqun bir kölgə görürdünüz. Bu baş sizinlə danışar, lakin bir dəfə belə sizin üzünüzə baxmaz, bir dəfə belə sizə gülümsəməzdi.

Dal tərəfinizdən düşən işıq elə qurulub ki, bu kölgə işıqlı göründüyü halda, siz qaranlıq içində görünürsünüz. Bu işığın özü də bir rəmz idi.

[1] *Benuar* – teatrda alt lojalar

Bu zaman sizin həris nəzərləriniz heç kimin baxması mümkün olmayan bir yerdə açılmış deşikdən içəridəkini görməyə çalışır. Bu matəm geyimli kölgəni dərin bir qaranlıq bürümüşdür. Gözləriniz bu kölgənin ətrafındakıları görmək üçün bu qaranlığı araşdırmağa başlayır. Lakin çox keçmir ki, siz heç bir şey görmək mümkün olmadığını başa düşürsünüz. Sizin gördüyünüz ancaq bir gecə, bir boşluq, bir qaranlıq məzar buxarları ilə qarışıq bir qış dumanıdır; ətraf qorxunc bir sükut içindədir, bir ah belə duyulmayan dərin bir sükut, bir kabus belə görünməyən dərin bir qaranlıq.

Sizin gördüklərin – monastırın daxilidir.

Bu, "Yorulmaz sitayiş" bernarçı[1] rahibələrinin monastırı adlanan ələmli və sərt görünüşlü evin daxilidir. Sizin olduğunuz bu loja – qəbul otağıdır. Burada birinci dəfə eşitdiyiniz səs – divarın arxasında, kvadrat deşiyin yanında daim hərəkətsiz oturmuş, dəmir torla və min deşikli bir lövhə ilə ikiqat bir zireh kimi qorunan növbətçi rahibənin səsidir.

Bu şəbəkəli lojanın qaranlığa çökməsinə səbəb odur ki, qəbul otağının işıqlı dünyaya yalnız bir pəncərəsi var, monastırın iç tərəfinə isə heç bir pəncərəsi yoxdur. Adi insanlar bu müqəddəs yerə nəzər sala bilməzlər.

Lakin bu qaranlığın bu tərəfində bir şey – işıq gizlənir, bu ölümdə bir həyat vardır. Bu monastır ən xəlvət monastırlardan biri olsa belə, biz onun içinə daxil olmalı və oxucunu da oraya aparmalıyıq. Biz, müsaidə edilən şeylərin hüdudunu keçmədən, hekayəçinin heç bir zaman görmədiyi və ona görə də nağıl edə bilməyəcəyi şeylərdən oxucuya danışmalıyıq.

İkinci fəsil

MARTİN VERQANIN NİZAMNAMƏSİ

Hələ 1834-cü ildən çox-çox əvvəl Kiçik Pikpüs küçəsində mövcud olan bu monastırda Martın Verqa nizamnaməsinə tabe olan bernarçı rahibələr icması yerləşmişdi.

[1] *Bernarçı və benediktçi* – Müqəddəs Bernara və Müqəddəs Benediktə sitayiş edən rahib və rahibələr

Demək, bu bernarçı rahibələr bernarçı rahiblər kimi Klervoya deyil, benediktçi rahiblər kimi Sitoya mənsub sayılırdılar, başqa sözlə, onlar müqəddəs Bernara deyil, müqəddəs Benediktə iqtida edirdilər.

Qalın dini kitabları vərəqləyənlər yaxşı bilirlər ki, Martin Verqa 1425-ci ildə bernarçı-benediktçi rahibələr cəmiyyətini təşkil etmişdilər. Bu cəmiyyətin baş kilsəsi Salamankada, tabe kilsəsi isə – Alkalada idi.

Bu cəmiyyət Avropanın bütün katolik məmləkətlərində qolbudaq atmışdı.

Bir ordenin başqa bir ordenlə bu cür birləşməsi latın kilsəsinin tarixində fövqəladə bir şey deyildi. Yalnız bəhs etdiyimiz müqəddəs Benedikt ordeni ilə, Martin Verqa nizamnaməsinə mənsub cəmiyyətdən başqa, daha dörd cəmiyyət əlaqədardır: İtaliyada – Monte-Kassini və müqəddəs Padualı Yustina cəmiyyəti, Fransada – Klüni və Sen-Mor cəmiyyəti. Bundan başqa, müqəddəs Benedikt ordeni ilə Valombroza, Qramon, selestinçi, kamaldulçu, karteziançı, miskinlər, Zeytun dağı, müqəddəs Silvestr və nəhayət, Sito ordenləri kimi daha doqquz orden əlaqədardır. Başqa ordenlər üçün gövdə orden sayılan Sito ordeninin özü müqəddəs Benedikt ordeninin budağından başqa bir şey deyildi. Sito ordeninin müqəddəs Robert, abbat de Molem tərəfindən 1098-ci ildə Lanqr yeparxiyasında təsis edildiyini xəbər verirlər. Lakin müqəddəs Benedikt, hələ 529-cu ildə, on yeddi yaşında ikən, qədim Apollon məbədində yaşayan iblisi qovmuş və iblis Subnako səhrasına çəkilmişdi (iblis o zaman artıq qoca imiş, kim bilir, bəlkə də, o, zahid olmaq istəmişdir?!)

Ayaqyalın gəzən, döşlərində söyüd çubuqlarından hörülmüş sinəbənd gəzdirən və heç bir zaman oturmamağa məcbur olan Karmelit rahibələri nizamnaməsindən sonra ən sərt nizamnamə varsa, o da Martin Verqanın bernarçı-benediktçi rahibələr nizamnaməsidir. Bu nizamnaməyə tabe olanlar qara paltar və ləbbadə geyinir və müqəddəs Benediktin əmrinə görə, bu ləbbadə çənələrinə qədər bütün bədənlərini örtür. Sarjadan tikilmiş geniş qollu don, geniş yun örpək, çənəyə qədər qalxan və döş tərəfi dördbucaq şəklində kəsilmiş bir ləbbadə, gözlərinə qədər enən baş sarğısı – sahibələrin geyindiyi libas bu idi. Ağ baş sarğısından başqa, bunların hamısı qaradır. Rahibəliyə hazırlaşanlar da eyni paltar geyinirlər, ancaq

rəngi ağ olur. Rahiblik əhdini qəbul edənlər kəmərlərində təsbeh də gəzdirirlər.

Martın Verqanın bernarçı-benediktçi rahibələri Müqəddəs Dua bacıları adlanan benediktçi rahibələr kimi, "Yorulmaz sitayiş" qanununa riayət edirlər. Həmin bu Müqəddəs Dua bacılarının Parisdə bu əsrin əvvəllərində iki monastırı vardı: biri Tamplda, o biri isə Yeni Sent-Jenevyeva küçəsində. Lakin bəhs etdiyimiz Kiçik Pikpüs bernarçı-benediktçi rahibələr ordeni qətiyyən Yeni Sent-Jenevyeva küçəsində və Tamplda olan Müqəddəs Dua bacıları ordeninə bənzəməzdi. Onların nizamnamələrində bir çox fərqlər vardı. Paltarları da bir-birindən fərqlənirdi. Kiçik Pikpüsdəki bernarçı-benediktçi qadınlar qara ləbbadə geyindikləri halda, Müqəddəs Dua bacıları və Yeni Sent-Jenevyeva küçəsində yaşayan bernarçı-benediktçi qadınlar ağ ləbbadə geyinərdi. Bundan başqa, onların sinəsində üç düym uzunluğunda müqəddəs nemətlər kasasının yaldızlı gümüş, yaxud mis təsviri olardı. Kiçik Pikpüs rahibələri bu müqəddəs nemətlər kasasının təsvirini gəzdirməzdilər, Kiçik Pikpüs monastırı ilə Tampl monastırının ümumi bir cəhəti olan "yorulmaz sitayiş" bu iki ordenin bir-birindən büsbütün fərqlənməsinə qətiyyən mane olmurdu. Müqəddəs dua bacıları ilə Martin Verqa bernarçı rahibələrinin bir-birinə bənzəyişi də elə ancaq bu qaydaya riayət etmələrindən ibarət idi. Eyni surətdə, Filipp de Nerinin Florensdə təşkil etdiyi italyan Oratoriyası ilə Pyer de Berülün Parisdə təşkil etdiyi fransız Oratoriyası bir-birindən kəskin surətdə fərqlənmələrinə, hətta bəzən bir-birinə düşmən olmalarına baxmayaraq, hər ikisi Həzrəti-İsa ilə Müqəddəs Məryəmin uşaqlığı, həyatı və ölümünə aid bütün sirli hadisələri ehtirasla öyrənməkdə və tərənnüm etməkdə bir-birinə bənzəyirdilər. Bundan başqa, bir də Paris Oratoriyası birincilik iddiasında idi, çünki Filipp de Neri yalnız övliya olduğu halda, Per de Berül həm də kardinal idi.

Martin Verqanın sərt ispan nizamnaməsinə qayıdaq.

Bu nizamnaməyə tabe olan benediktçi-bernarçı rahibələr bütün ilboyu ətsiz xörək yeyirlər, ümumiyyətlə, başqa icazə verilən günlərdə də pəhriz saxlayaraq yeməkdən çəkinirlər, ilk şirin yuxudan oyanaraq yataqdan durur, gecə saat birlə üç arasında dua kitabını oxuyur və səhər ibadətini keçirirlər. Bütün ilboyu qaba mələfə və küləş üstündə yatar, heç bir zaman soba yandırmaz, bədənlərini yumazlar, hər cümə günü özlərinə cəza verər, sükut əhdinə riayət edər, bir-birilə

ancaq az müddət sürən istirahət vaxtında danışarlar, 14 sentyabrdan, yəni Merac bayramı günündən başlamış pasxaya qədər, bədənlərinə iynə kimi batan yun köynək geyərlər. Altı ay hələ güzəşt deməkdir, nizamnaməyə görə, bu köynəyi bütün ilboyu geyinməlidirlər: lakin yay istisində dəhşətli bir şey olan bu yun köynək isitməyə və əsəb xəstəliyinə səbəb olur. Buna görə köynəyi geyinmək möhləti ixtisar edildi; lakin bu güzəştə baxmayaraq, 14 sentyabr günü yaxınlaşanda, yəni rahibələr yenidən bu köynəyi geyinən zaman, yenə də onları iki-üç gün isitmə tutur. İtaət, yoxsulluq, bəkarət, daim monastır divarları arasında yaşamaq – onların əhdləri budur. Nizamnamə bu əhdi daha da ağırlaşdırmışdır.

Monastır rəisi üç il müddətinə, "seçici analar" adlanan rahibələr tərəfindən seçilir. Bu rahibələr, kapitula[1] görə, həlledici səsə malik olduqlarından belə adlanırlar. Rəis yenidən yalnız iki dəfə seçilə bilər, beləliklə, monastır rəisi üçün ən uzun idarə müddəti doqquz ildir.

Onlar heç bir zaman ibadəti keçirən keşişin üzünü görməzlər, çünki keşişlə onların arasında beş fut hündürlükdə sarjadan bir pərdə olur. Moizə vaxtı, vaiz ibadətxanada dayandığı zaman, rahibələr örpəklərini üzlərinə çəkirlər. Onlar həmişə yavaş danışmalı, başlarını aşağı salıb, gözlərini yerə dikərək yeriməlidirlər. Monastıra yalnız bir kişi girə bilər ki, o da yeparxiya arxiyepiskopudur.

Monastıra bir nəfər daha girə bilər: o da bağbandır, lakin o, adətən, qoca olur; bağbanın daim bağda tək olması, rahibələrin isə onun gəlişindən xəbərdar olub ona rast gəlməmələri üçün bağbanın dizinə zınqırov bağlayırlar.

Rahibələr rəisə tabedir, bu itaət hüdudsuz və etirazsızdır. Bu tamamilə tərki-dünyalıq olan kanonik, mənəvi bir itaətkarlıqdır. Onlar İsanın səsinə *ut voci Christi*, hərəkətinə, ən kiçik bir işarəsinə *ad nutum, ad primum siqnum* tabe olan kimi dərhal sevinclə, qətiyyətlə, kor bir itaətkarlıqla tabe olurlar, *prompte, hilariter, perseveranter et caeca quadam obedientia* onlar fəhlənin əlindəki mişara bənzərlər, *quasi limam in manibus fabri*; icazə almadan onların heç bir şey yazmağa, oxumağa ixtiyarları yoxdur. *Legere vel scribere non addisceit sine expressa superioris licentia*.

Hər bir rahibə növbə ilə bağışlatma deyilən bir mərasimdən keçməlidir. Bağışlatma yer üzündə baş verən bütün günahlar, bütün

[1] *Kapitul* – Roma kilsəsində ruhanilər heyəti

səhvlər, bütün cinayətlər, bütün zülmlər, bütün haqsızlıqlar üçün edilən bir dua deməkdir. Bağışlatma mərasimini keçirən rahibə bacı on iki saat ərzində, gündüz saat dörddən ta səhər saat dördə qədər, yaxud səhər saat dörddən gündüz saat dördə qədər daş döşəmə üzərində, dizi üstündə, müqəddəs nemətlər qarşısında, qolubağlı, boynunda kəndir dayanmalıdır. Rahibə artıq taqətdən düşdüyü zaman, üzüüstə yerə yıxılır, qollarını xaç kimi yanlarına uzadır. O, vəziyyətini ancaq bu vasitə ilə yüngülləşdirə bilər. Rahibə bu vəziyyətdə bütün yer üzündəki günahkarlar üçün dua edir. Burada, demək olar ki, ilahi bir əzəmət var.

Bu ayin, təpəsində şam yanan bir dirəyin yanında icra edildiyindən monastırda bu ayinə həm "bağışlatma ayini", həm də "dirəyin yanında dayanma ayini" deyirlər. Hətta rahibələr zəlalət üçün son ifadəni daha çox üstünlük verirlər, çünki bu ifadədə həm cəza, həm də həqarət fikri var.

"Bağışlatma ayini" bütün ruhu məşğul edən bir ayindir. Dirək yanında dayanan rahibə bacı, arxasında ildırım çaxsa belə, dönüb geri baxmaz.

Bundan başqa, bir rahibə də dayanır. Bu dizi üstə dayanmaq bir saata qədər davam edir. Rahibələr qarovulda dayanmış əsgərlər kimi bir-birini növbə ilə əvəz edirlər. Yorulmadan sitayişin də mənası budur.

Monastır rəisləri və analar övliya, yaxud şəhidlərin adlarını deyil, Həzrəti-İsanın həyatında mühüm bir hadisəyə işarə edən bir ad daşıyırlar; məsələn: Milad ana, Maya ana. Düxul ana, Tanrı əzabları ana. Lakin övliya şərəfinə ad qoymaq da qadağan deyildir.

Rahibələrin üzünə baxdıqda yalnız ağızlarını görmək olur. Hamısının dişləri sarıdır. Diş fırçası heç bir zaman monastıra girməmişdir. Diş təmizləmək – aşağısında "ruhu məhv etmək" sözləri yazılmış bir pilləkənin üst pilləsinə qalxmaq deməkdir.

Rahibələr *mənim* deməzlər. Onların özlərinə aid heç bir şeyləri olmadığından, heç bir şeyi əziz tutmazlar. Onlar hər şeyə *bizim* deyərlər. Məsələn: bizim örpəyimiz, bizim təsbehimiz. Öz köynəklərindən bəhs etdikləri zaman belə, onlar "bizim köynəyimiz" deyirlər. Bəzən onlar əhəmiyyətsiz bir şeyə, bir dua kitabına, bir dini xatirəyə, bir surətə öyrəşirlər. Lakin bu şeyi əziz tutmağa başladıqlarını hiss edən kimi dərhal onu verməyə borcludurlar. Onlar müqəddəs Terezanın

sözlərini xatırlayırlar. Bir dəfə kübar bir xanım rahibəliyə daxil olduğu zaman: "Ana, icazə verin, mənim çox əziz tutduğum müqəddəs İncilin dalınca adam göndərim!" dedikdə, müqəddəs Tereza ona belə bir cavab vermişdi: "Ah! Demək, sizin əziz tutduğunuz bir şey varmış? Elə isə bizim sıramıza daxil olmaya bilərsiniz!"

Bütün rahibələrə otaqlarının qapısını bağlamaq, öz otağı, öz bucağı olması qadağan edilmişdir. Rahibələrin hücrələri hər zaman açıq olmalıdır. Bir rahibə başqa bir rahibəyə müraciət etdikdə: "Tanrı dərgahının müqəddəs nemətlərinə alqış və sitayiş!" deməlidir. O biri isə: "Amin!" deyə cavab verməlidir. Bu rahibə başqa bir rahibənin otağının qapısını döydükdə də, eyni sözlər təkrar olunmalıdır. Rahibə qapıya toxunar-toxunmaz, içəridən tələsik bir səs gəlir: "Amin!" Hər bir ayin kimi, bu da bir vərdiş olaraq təkrar edildiyindən, mexaniki bir şəkil alır. Çox zaman hücrənin içindəki rahibə, qapını döyən rahibənin "Tanrı dərgahının müqəddəs nemətlərinə alqış və pərəstiş!" sözlərini söyləməsini gözləmədən, "Amin!" – deyə cavab verir. Zatən, birinci ibarə xeyli uzun bir şeydir. Vizitandçı rahibələr adətən qapını döydükdə: *"Ave Maria"*[1] deyir, içəridəki rahibə isə: *"Gratia plena"*[2] – deyə cavab verir. Onların bu salamı, həqiqətən, ayrıca bir "gözəlliyə malikdir".

Monastır kilsəsində saatda üç dəfə əlavə zəng çalınır. Bu işarə ilə monastır rəisi, seçici analar, rahibə əhdini qəbul etmiş bacılar, tüllabələr, xidmətçilər dərhal danışıqlarını kəsir, fikirlərinə, işlərinə son verir və hamısı bir ağızdan, əgər saat beşi vurmuşsa: "Tanrı dərgahının müqəddəs nemətlərinə saat beşdə və hər saatda alqış və pərəstiş olsun!", saat səkkizi vurmuşsa: "Saat səkkizdə və hər saatda" və sairə deyirlər. Bu, saatın neçə dəfə vurmasından asılıdır.

Fikri dayandırıb daim Allaha doğru sövq etmək məqsədini daşıyan bu adətə bir çox icmalarda təsadüf edilir, onun yalnız forması dəyişir. Məsələn, Körpə İsa icmasında belə deyirlər: "Həm bu saatda, həm də hər saatda qəlbimdə İsa məhəbbəti alovlansın!"

Artıq əlli ildən bəridir ki, Martin Verqanın benediktçi-bernarçı rahibələri, yəni Balaca Piknüs guşənişinləri ibadəti təntənəli bir ahəngə icra edər və ciddi kilsə nəğməsinə riayət edərək, bütün ayin ərzində hər zaman gur səslə oxuyarlar. Dua kitabında ulduz işarəsi olan

[1] Şad ol, Məryəm! (*lat.*) – katolik duasıdır.
[2] Nemətkar (*lat.*) – hərfi mənası: "gözəlliklə dolu" deməkdir.

yerlərdə dayanar və yavaşcadan "İsa, Məryəm, Yusif" deyərlər. Onlar ölü duasını qadın səsinin edə biləcəyi ən pəs bir səslə oxuyarlar. Bu duanın çox böyük, faciəli bir təsiri olur.

Kiçik Pikpüs rahibələri öz icmalarına mənsub olan bacıları dəfn etmək üçün kilsənin baş mehrabının altında xüsusi bir sərdabə düzəltmişdilər. Lakin onların dediyi kimi, "hökumət" sərdabənin içinə tabut qoymağa icazə verməmişdi. Bu surətlə, bacılar öləndən sonra monastırı tərk etməyə məcbur olurdular. Bu isə, nizamnaməni pozduğundan, rahibələri məyus və pərişan edirdi.

Çox cüzi bir təsəlli almaq üçün onlar vaxtilə icmanın ixtiyarında olan bir sahədə yerləşmiş qədim Vojirar qəbiristanlığının xüsusi bir bucağında, xüsusi bir saatda öz ölülərini dəfn etmək hüququnu almağa müvəffəq ola bilmişdilər.

Rahibələr cümə günləri gündüz və axşam ibadətlərini və bütün dini ayinləri bazar günündə olduğu kimi icra edirdilər. Bundan başqa, onlar adi insanların təsəvvür belə etmədikləri kiçik bayramların hamısını ciddi bir şəkildə keçirirdilər. Bu bayramlar vaxtilə Fransada kilsənin səxavətli əli ilə müəyyən edildiyi kimi, İspaniyada və İtaliyada hələ indi də müəyyən edilməkdədir. Rahibələrin ibadətxanada keçirdiyi saatların sonu yoxdur. Dualarının sayı və müddətinə gəlincə, bu xüsusda bir rahibənin aşağıdakı sadədil sözləri gözəl bir təsəvvür verə bilər: "Tüllabələrin duaları ağır, rahibə şagirdlərinin duaları daha ağır, əhdi qəbul edilənlərin duası isə lap ağırdır".

Həftədə bir dəfə kapitul çağırılır. Burada seçici bacılar iştirak edir, monastır rəisi isə sədrlik edir. Hər bir rahibə növbə ilə onların qarşısında daş döşəmənin üstündə diz çökür və həftə ərzində işlətdiyi günahları, təqsirləri üçün hamının qabağında tövbə edir. Hər bir etirafdan sonra seçici bacılar məşvərət edir və hamının qabağında cəza təyin edirlər.

Rahibələrin hər biri az-çox ciddi günah üçün tövbə etdikləri bu açıq etirafdan başqa, bir də balaca günahlar üçün təyin edilən təqsirlilik var. Təqsirlilik ibadət vaxtında monastır rəisinin qabağında ölü kimi uzanaraq, hamının "ana" deyə çağırdığı monastır rəisi işarə edincəyə, yəni barmağını kilsə oturacağına vuruncaya qədər bu vəziyyətdə qalmaqdan ibarətdir. Təqsirlilik cəzası hər bir cüzi şey üçün verilə bilər; məsələn: stəkan sındırılanda, örtük cırılanda, rahibə təsadüfən ibadətə bir neçə saniyə gecikəndə, kilsə xorunda yanlış

səs çıxaranda və sairə. Bu cür günahlar üçün hər dəfə təqsirlilik cəzası təyin edilir. Təqsirlilik cəzası könüllü bir şeydir. Təqsirlilik çəkən (bu söz burada etimoloji cəhətdən tamamilə yerində işlədilir) öz-özünü təqsirləndirir və öz-özünə cəza təyin edir. Bayram və bazar günlərində dörd müğənni ana dörd süfrəli bir rəhlə qarşısında surə oxuyur. Bir dəfə müğənni analardan biri "Esse" sözü ilə başlanan surəni oxuduğu zaman, Esse əvəzində ucadan ut, si, sol notlarını götürmüşdü: müğənni ana huşsuzluq göstərdiyi üçün ayin davam edincəyə qədər cəza çəkməli idi. Kapitulun hamısı gülüşdüyü üçün, onun günahı qat-qat artmışdı.

Rahibələrdən biri qəbul salonuna çağırıldıqda o, monastır rəisinin özü belə olsa, yuxarıda qeyd etdiyimiz kimi, baş örtüyünü üzünə salmalı və ancaq ağzı görünməlidir.

Yad adamlarla yalnız monastır rəisi əlaqə saxlaya bilər. Qalan rahibələr isə yalnız qohumları ilə, həm də gec-gec görüşə bilərlər. Bəzən yad bir adam vaxtilə monastır xaricində tanıdığı, yaxud sevdiyi bir rahibə ilə görüşmək istəyirsə, bu xüsusda uzun müddət danışıq aparmağa məcbur olur. Əgər görüşmək istəyən qadınsa, bəzən buna icazə verirlər. Rahibə gəlir və pəncərə qanadları arasından söhbət etməyə başlayır. Pəncərə qanadları yalnız rahibənin anası, yaxud bacısı üçün açıla bilər. Təbiidir ki, kişilərin belə xahişləri hər zaman rədd edilir.

Müqəddəs Benediktin nizamnaməsi belə bir nizamnamədir. Martin Verqa bu nizamnaməni daha da ağırlaşdırmışdı.

Bu rahibələr başqa ordenlərə mənsub olan rahibələr kimi şadlıq nə olduğunu bilməzlər, üzlərində təravət, yanaqlarında qırmızılıq olmaz. Bu rahibələrin üzləri solğun, baxışları sərtdir. 1825-ci ildən 1830-cu ilədək bu rahibələrdən üçü dəli olmuşdu.

Üçüncü fəsil

SƏRT QAYDALAR

Bu monastırda hər bir rahibə ən azı iki il, bəzən dörd il xidmətçilikdə qalmalı, dörd ildə şagird olmalıdır. Rahibəlik əhdini çox nadir hallarda iyirmi üç – iyirmi dörd yaşlarında qəbul edirlər. Martin Verqa

cəmiyyətinə mənsub olan bernarçı-benediktçi qadınlar öz ordenlərinə dul arvadları qəbul etmirlər.

Onlar öz hücrələrində müxtəlif gizli vasitələrlə öz hisslərini öldürürlər. Bu barədə onlar heç bir zaman heç bir söz danışa bilməzlər.

Rahibə şagirdi əhd qəbul etdiyi zaman ən gözəl paltarını geyinir, onun saçlarına ağ güllər taxırlar, yağ sürtürlər, bururlar, sonra o, üzüqoylu düşür, üstünə böyük qara örtük salırlar, başı üstündə ölü duası oxuyurlar. Bundan sonra rahibələr iki cərgəyə düzülürlər: bir cərgə onun yanından keçərkən, ələmli bir səslə: "Bacımız öldü" deyə oxuyur, o biri cərgə isə fərəhlə: "Həzrəti-İsa dərgahında sağdır!" – deyə cavab verir.

Təsvir etdiyimiz bu dövrdə monastırın yanında qapalı pansion vardı. Bu pansionda tərbiyə olunan qızlar əksəriyyətlə kübar ailələrdən idi: əksəriyyəti varlı idi, bunların sırasında Sent-Oler və Belissen adlı iki qız, bir də kübar katolik familiyalarından olan Talbot adlı bir ingilis qızı vardı. Rahibələrin dörd divar arasında tərbiyə etdikləri bu gənc qızlara dünyaya və dünya mənfəətlərinə nifrət hissləri aşılanırdı. Bu qızlardan biri bir dəfə bizə: "Mən küçəyə baxdıqda başdanayağa qədər titrədim" demişdi. Bu qızların paltarları mavi, ləçəkləri ağ idi, döşlərinə yaldızlı gümüşdən, yaxud misdən düzəldilmiş müqəddəs ruh təsviri sancılırdı. Böyük bayram günlərində, xüsusilə müqəddəs Marta bayramında onlara böyük bir mərhəmət əlaməti olaraq ən böyük bir səadət üçün icazə verilirdi: onlar rahibə paltarını geyinib, kilsə mərasimində bütün günü ayaq üstə dayanar və müqəddəs Benediktin nizamnaməsinə görə ayinlər icra edərdilər. Rahibələr əvvəlcə onlara qara ləbbadə belə verirdilər. Lakin monastır rəisi bunu ədəbsizlik saydığından qadağan etmişdi. Paltarı rahibələrdən yalnız rahibə şagirdləri borc ala bilərdi. Maraqlı burasıdır ki, rahibə rolunu oynamaq pansionda olanlara dərin bir zövq və mənəvi bir istirahət verərdi. Monastırda buna imkan verməkdə gizli bir məqsəd vardı: bu vasitə ilə qızlarda rahibə həyatına qarşı meyil oyatmaqla yeni rahibələr ələ keçirildi. Qızlar üçün isə bu oyun və sadə bir əyləncə idi. Bu yenilik idi, onları əyləndirirdi. Lakin sadədil bir uşaq əyləncəsi bizim kimi dünya adamlarını, saatlarla əldə büxurdan mehrab qarşısında dayanmağın və vəcdlə surələr oxumağın ən böyük bir səadət olduğuna inandırmaqda acizdir.

Pansion qızları hissləri öldürməkdən başqa, bütün monastır qaydalarına əməl edirdilər. Bəzən gənc qadınlar monastırdan

çıxdıqdan və neçə il ərdə olduqdan sonra belə, hər dəfə qapıları döyüldüyü zaman, tələsik "Amin!" sözlərini söyləmək vərdişindən xilas ola bilmirdilər. Rahibələr kimi pansion qızları da, öz ata-anaları ilə yalnız qəbul salonunda görüşə bilərdilər. Anaların belə öz qızlarını öpməyə ixtiyarı yox idi. Bu sərt qaydalardan bir misal gətirmək olar. Bir dəfə bu qızlardan birinin yanına anası və üç yaşında bacısı gəlmişdi. Qız ağlayaraq, öz balaca bacısını qucaqlamaq, öpmək istəyirdi. Ancaq olmazdı. Qız xahiş etdi ki, heç olmasa, balaca bacısına icazə versinlər, öpmək üçün əlini torun arasından uzatsın. Lakin qızın bu xahişini də, hələ bir az hiddətlənərək belə, rədd etdilər.

Dördüncü fəsil

ŞƏNLİK

Bununla belə, bu sərt xanəgahda bu gənc qızlardan bir çox gözəl xatirələr qalmışdı.

Monastır müəyyən saatlarda, sanki, uşaq şənliyindən işıqlanmağa başlayırdı. Tənəffüs zəngi çalınardı. Qapılardan biri açılardı. Quşlar cəh-cəh vurmağa başlardı: "Nə gözəldir! Budur, uşaqlar da gəldi!" Kəfən kimi xaç şəklində biçilmiş bu bağa gənclik günəşi nur saçırdı. Fərəhli üzlər, balaca ağ alovlar, fərəhlə parlayan məsum gözlər – səhər şəfəqinin bütün boyaları bu qaranlığın hər tərəfini işıqlandırırdı. Surələr oxunduqdan, ibadətin başlandığını xəbər verən zəng – dəfn zəngləri çalındıqdan, ayinlər icra edildikdən sonra birdən-birə bütün monastıra arıların vızıltısından daha zərif bir gurultu yayılırdı – bu gurultunu salan balaca qızcığazlar idi. Şadlıq pətəyi açılır və hərə bu pətəyə bir az bal gətirirdi. Qızlar oynayır, səsləşir, dəstə-dəstə yığışır, yüyürüşürdülər, bucaqlarda mirvari dişli qəşəng ağızcığazlar cəh-cəh vururdu, qara ləbbadələr uzaqdan gülüşlərə nəzarət edir, kölgələr günəş şüalarını seyr edirdi. Nə olsun! Ətrafda hər şey işıq saçır, hər şey gülürdü. Bu qara divarların da bəzən parlaq dəqiqələri olur! Bu arılar dəstə-dəstə fırlandığı zaman bu divarlar da iştirak edir, sanki, bulaq kimi qaynayan bu sevincdən bu divarlar da bir az işıqlanırdı. Sanki, gül yarpaqları bir yağış kimi bu matəm

üzərinə yağırdı. Qızcığazlar rahibələrin pəncərələri altında oynaşırdı, pak nəzərlər günahsız ürəklərə mane olmaz. Bu uşaqların sayəsində ciddi saatlar silsiləsinə qayğısız bir saat saçılardı. Balaca qızlar atılıb-düşür, böyüklər rəqs edirdi. Bu uşaq oyunlarında göylərin pak ruhu hiss olunurdu. Yenicə çiçəklənməyə başlayan gənc ruhların füsunkar və əzəmətli bir tamaşası var. Homerlə Perro gənclik, cansağlığı, gurultular, bağırtılar, qayğısızlıq, sevinc və səadətin hökm sürdüyü bu ələmli bağa gülmək üçün məmnuniyyətlə gələrdilər. Bu mənzərə dastanlarda, əfsanələrdə, saraylarda və daxmalarda yaşayan, Gekubadan tutmuş ən köhnə nağıllardakı nənələrə qədər, bütün ulu nənələrin kefini açа bilərdi.

Bu monastırda, bəlkə də, bütün monastırlardan daha çox və tez-tez uşaq "sözləri" eşidilərdi, bu uşaq "sözləri" o qədər cazibədardır ki, insanı dalğın-dalğın gülümsəməyə vadar edir. Həmin bu qaranlıq divar arasında beş yaşında bir uşaq bir dəfə bu sözləri söyləmişdi: "Anacan, böyüklərdən biri bu saat mənə dedi ki, mən burada yalnız doqquz il on ay qalacağam. Nə böyük xoşbəxtlik!"

Burada daha başqa bir maraqlı söhbət də olmuşdu:

S e ç i c i a n a. Bala, sən niyə ağlayırsan?

U ş a q *(altı yaşında, ağlayaraq)*. Mən Fransa tarixi dərsini bildiyimi Alisaya söylədim. O isə mən bildiyim halda mənə deyir ki, bilmirəm.

A l i s a *(böyük qızdır, doqquz yaşında)*. Yox, o bilmir.

S e ç i c i a n a. Bu necə ola bilər, bala?

A l i s a. O, mənə dedi ki, kitabın bir səhifəsini açım, oradan ona bir sual verim və dedi ki, bu suala cavab verəcək.

– Yaxşı bəs sonra?

– Cavab verə bilmədi.

– Dayan! Bəs sən ondan nə soruşdun?

– Mən onun dediyi kimi kitabın bir səhifəsini açdım. Gözümə sataşan birinci sualı ona verdim.

– Bu nə sual idi?

– Sual belə idi: bəs sonra nə oldu?

Bu monastırda yaşayan bir arvada məxsus olan xeyli qarınqulu bir tutuquşu haqqında dərin mənalı bir söz də söylənmişdir:

"Gör nə sevimlidir! Yağ-çörəyin üzünü lap adam kimi dimdikləyir!"

Yenə həmin monastırda tava daşlarının biri üzərində yeddi yaşında günahkar bir qızın yaddaş üçün yazmış olduğu belə bir etiraf tapılmışdı:

"Ata, mən xəsis olduğum üçün günahkaram.

Ata, mən zina etdiyim üçün günahkaram.

Ata, mən kişilərə baxdığım üçün günahkaram".

Yenə həmin monastırın bağçasındakı çimli bir oturacaq üzərində altı yaşında bir qızcığazın balaca al dodaqları dörd, yaxud beş yaşında mavigözlü bir uşağın dinlədiyi bir nağılı söyləmişdi.

"Biri varmış, biri yoxmuş, üç xoruz varmış, bunların da bir ölkəsi varmış, burada çoxlu çiçək açarmış. Xoruzlar çiçəkləri dərib, ciblərində gizlətdilər. Sonra yarpaqları dərib, oyuncaqların içində gizlətdilər. Ölkədə bir canavar da varmış, bir də böyük bir meşə varmış. Canavar da o meşədə yaşarmış, canavar bu xoruzları yedi".

Başqa bir əsər:

"Bir dəfə ağacla bərk vurdular!

Bu Polişineldi, vurdu pişiyin başından.

Bu heç pişiyə xoş gəlmədi, başını ağrıtdı.

Onda bir xanım Polişineli tutdurub zindana saldı".

Yenə orada, monastırda mərhəmət göstərilərək tərbiyə edilən yurdsuz, tapılmış bir qız insan bağrını yaran təsirli sözlər söyləmişdi. Başqa qızların öz analarından bəhs etdiklərini eşidərək o, bu sözləri demişdi:

"Amma mən anadan olanda, mənim anam yanımda yox idi!".

Monastırda yoğun bir qapıçı bacı yaşayırdı. O, daim bir dəstə açarla dəhlizlərdən keçər, haraya isə tələsərdi. Bu qapıçının adı Aqata bacı idi. Böyüklər, yəni on yaşından böyük olanlar onun adını "Açar-Aqata" qoymuşdular.

Dördbucaq, uzunsov böyük yemək otağına işıq ancaq bağlı bir səthdə olan üstüörtülü, kəsmə tağlı qalereyadan düşürdü. Bu qaranlıq, rütubətli bir otaq idi, uşaqların dediyinə görə, içi heyvanlarla dolu idi. Yemək otağının qonşuluğundakı otaqların hər biri ona həşərat payı vermişdilər. Qızlar yemək otağının hər bir bucağına mənalı adlar qoymuşdular. Otaqda Hörümçək bucağı, Tırtıl bucağı, Məryəmqurdu bucağı, Cırcırama bucağı vardı. Cırcırama bucağı mətbəxə yaxın olduğundan, şərəfli bir bucaq sayılırdı. Bu bucaq hər yerdən isti olardı. Bu adlar yemək otağından pansiona keçmişdi.

Vaxtilə Mazarini kollecində olduğu kimi, pansion da bu adlara görə dörd icmaya bölünmüşdü. Hər bir qız yemək yediyi bucağa görə bu dörd icmadan birinə mənsub edilirdi. Bir dəfə monastırı ziyarət etmiş olan arxiyepiskop sinfə qırmızıyanaq, gözəl, sarışınsaçlı qəşəng bir qızın girdiyini görərək, yanında dayanmış, yanaqları təravətli, cazibədar, qaraşın başqa bir qızdan soruşur:

– Bu qız kimdir?

– Bu, hörümçəkdir, monsenyor.

– Belə de! Bəs o birisi qız kimdir?

– Cırcıramadır.

– Bəs bu kimdir?

– Tırtıldır.

– Doğrudanmı? Bəs sən kimsən?

– Məryəmqurduyam, monsenyor.

Belə qapalı pansionların hər birinin öz xüsusiyyəti var. Bu əsrin əvvəllərində Ekuan ən sərt və demək olar ki, təntənəli yerlərdən biri idi ki, burada gənc qızların uşaqlığı yalqızlıqda keçirdi. Müqəddəs dualanma günlərində, xaç mərasimi üçün bu qızları "bakirə" və "çiçəkçi" deyə iki hissəyə ayırardılar. Bundan başqa, qızların bəzilərinə "taxt-rəvanlılar", bəzilərinə isə "büxurdançı" da deyərdilər. "Taxt-rəvanlılar" taxt-rəvanın qotazlarını aparar, "büxurdançılar" isə müqəddəs nemətlər camının qabağında büxurdan daşıyardılar. "Çiçəkçilər" isə təbiidir ki, çiçək götürərdilər. Lap qabaqda isə dörd "bakirə" gedərdi. Bəzən bu təntənəli günün səhəri yataq otağında belə bir sual eşitmək olardı:

– Bizdə bakirə kimdir?

Madam Kampan mərasimin axırında gedən yeddi yaşlı balaca bir qızın mərasimin başında gedən on altı yaşlı böyük qıza bu sözləri söylədiyini qeyd edir: "Axı sən bakirəsən, amma mən bakirə deyiləm!"

Beşinci fəsil

ƏYLƏNCƏLƏR

Yemək otağının qapısı üstündə iri qara hərflərlə bir dua yazılmışdı, buna pansion qızları "Ağca müqəddəs atamız" deyərdilər. Bu duanı oxuyan adam düz behiştə girərdi.

"Sevimli ağca müqəddəs atamız, onu Tanrı yaratdı, Tanrı ona dil verdi, Tanrı onu behiştə qoydu. Axşam yatağıma uzananda yatağımın yanında üç mələikə görərdim, biri ayaq tərəfdə, ikisi də baş tərəfdə, fəzilətli Həzrəti-Məryəm də ortada. Fəzilətli Məryəm mənə: "qorxma, yat" – deyərdi. Atam – Tanrı, anam – Məryəm, qardaşlarım – üç apostol, bacılarım – üç saf və pak, bakirə qızlar. Balaca İsanın köynəyi bədənimi örtür, müqəddəs Marqaritanın xaçı sinəmin üstündə. Bizim xanımımız Tanrı anası düzlərə düşüb oğlu üçün ağlar, müqəddəs İohana rast gələr. "Ey Cənab müqəddəs İohan, haradan gəlirsiniz?" – "*Ave salus*[1]-dan gəlirəm". – "Mərhəmətli Tanrını görmədinmi, o ora adamıdır?" – "O, ağacdan düzəldilmiş bir xaç üstündədir, qolları, ayaqları mıxlı, başında ağ tikanlardan balaca bir çələng". Kim bu duanı üç dəfə axşam, üç dəfə səhər oxuyarsa, behiştlikdir".

Bu qəribə dua 1827-ci ildə üçqat əhəng altında qalıb yox oldu. Bizim günlərdə isə artıq qocalmış olan həmin qızların xatirəsindən onun son əlamətləri belə silinib məhv olur.

Yuxarıda qeyd etdiyimiz kimi, yeganə qapısı bağa açılan bu yemək otağının zinətini divardakı böyük bir xaç tamamlayırdı. Yemək otağının bu başından o başına ensiz iki masa uzanırdı, hər masanın da yanlarında iki oturacaq vardı. Divarlar ağ, masalar qara idi – monastırda yalnız bu iki matəm rənginə təsadüf etmək olardı. Xörəkləri yaxşı deyildi, uşaqları belə yaxşı yedirmirdilər. Süfrəyə ancaq bir xörək qoyulardı: göyərtili ət, yaxud duzlu balıq – bütün nahar bundan ibarət idi. Lakin həmişə bişirilən bu adi xörək belə yalnız pansion qızlarına verilərdi və monastır yeməklərində bir istisna sayılardı. Uşaqlar xörəklərini dinməz-söyləməz yeyər, hər həftə dəyişən rahibələr isə buna nəzarət edər, ara-sıra, nizamnaməni pozan bir milçək otaqda uçmağa və vızıldamağa başlarsa, kitab şəklində olan balaca sandıqçanı gurultu ilə açar və yenə örtərdi. Bu sükut övliya həyatına aid rəvayətlərin xaça mıxlanmış İsa surəti qarşısındakı kiçicik kafedradan oxunması ilə pozulardı. Oxucu bu həftə növbətçi olan böyük qızlardan biri olardı. Boş masanın otərəf-butərəfində şirli qablar görünərdi. Qızlar bunların içində fincanlarını və qablarını yuyar, bəzən də oraya yemədikləri bərk ətin, yaxud iylənmiş balığın qalıqlarını atardılar. Bunun üçün hər dəfə cəza verilərdi. Bu qablara "ümumi kasa" deyərdilər.

[1] Axşam duası (*lat.*)

Sükutu pozan bir uşaq dili ilə xaç işarəsi çəkməli idi. Harada? Döşəmənin üstündə. Uşaq döşəməni yalardı. Yer üzündəki bütün sevinclərin nəticəsi olan torpaq bu zavallı gül yarpaqlarına, xışırdadıqları üçün cəza verməli idi.

Monastırda yalnız bir nüsxədə çap olunan və oxunması qadağan edilən bir kitab vardı. Bu kitab müqəddəs Benediktin nizamnaməsi idi. Naməhrəm gözlər heç bir vəchlə bu sirrə toxunmamalı idi. "*Nemo regulas, seu constitutiones nostras, exrernis communicabit*"[1].

Bir dəfə pansion qızları bu kitabı oğurlayıb, acgözlüklə oxumağa başlayırlar. Lakin cinayət başında tutulmaq qorxusu onları tez-tez və tələsik kitabı örtməyə və mütaliəni dayandırmağa məcbur edirdi. Çox qorxulu olan bu kələkdən onlar çox az bir zövq aldılar. Onlara "ən maraqlı görünən" – yeniyetmələrin günahları haqqındakı bir neçə səhifə idi.

Onlar sısqa meyvə ağacları ilə əhatə olunmuş xiyabanda oynayırdılar. Ciddi nəzarətə və cəzanın şiddətinə baxmayaraq, külək əsərkən ağacların budaqları titrədiyi zaman yerə düşmüş kal almanı, çürük əriyi, yaxud qurdlu gavalını xəlvətcə götürə bilirdilər. Qoy burada mənim əvəzimdən qabağımdakı bir məktub danışsın. Bu məktubu iyirmi beş il bundan əvvəl həmin pansionda tərbiyə alan, indi isə Parisin ən zərif qadınlarından biri olan bir hersoginya yazmışdır. Məktubun mətnini eynilə verirəm: "Armudu, yaxud almanı mümkün dərəcədə yaxşı gizlətməyə çalışırsan. Şam yeməyindən əvvəl büründəyini çarpayının üstünə qoymaq üçün yuxarı qalxdığın zaman, onu balışın altında gizlədirsən, axşam isə çarpayıya uzandıqdan sonra, yeməyə başlayırsan, bu da mümkün olmasa ayaqyolunda yeməyə məcbur olursan". Bu – pansion qızlarının aldığı ən qızğın ləzzətlərdən biri idi.

Bir dəfə yenə arxiyepiskopun monastırı ziyarət etdiyi günlərdən birində Monmoransi ilə bir qədər qohumluğu olan gənc bir qız – madmazel Buşar mərc gəlir ki, ondan birgünlük məzuniyyət xahiş edəcəkdir: belə bir iş isə bu cür ciddi bir icmada ağlasığmaz bir sərbəstlik sayılırdı. Qızlar mərcləşdi, lakin yenə də heç birisi bu işdə müvəffəqiyyət qazanacağına inanmırdı. Hər halda, arxiyepiskop qızların yanından keçdiyi zaman, hərəkəti ilə yoldaşlarında böyük bir dəhşət oyadan madmuazel Buşar sıradan çıxıb, arxiyepiskopa müraciət

[1] Heç kəs bizim qayda və nizamlarımızı yadlara xəbər verməməlidir (*lat.*)

edir: “Monsenyor, məni birgünlüyə buraxmanızı xahiş edirəm!” Madmuazel Buşar ucaboylu, alyanaqlı, yetişmiş, gözəl bir qız idi. Cənab de Kelen gülümsəyərək cavab verir: “Necə, mənim sevimli qızım, elə yalnız birgünlüyə? İstəyirsinizsə, lap üçgünlüyə buraxım! Mən sizə üç gün icazə verirəm!” Monastır rəisi heç bir söz deyə bilmir – axı bu, arxiyepiskopun əmri idi. Monastır üçün biabırçı bir hadisə olsa belə, pansion qızları üçün böyük bir sevinc idi! Bunun necə bir təsir bağışladığını təsəvvür edə bilərsiniz!

Bununla belə, bu qəmli monastır o qədər də möhkəm qapalı deyildi ki, divarları xaricində qaynayan ehtiraslar aləmi, faciələr, hətta romanlar oraya keçə bilməsin! Sübut üçün hekayəmizə heç bir dəxli və əlaqəsi olmasa da, həqiqi bir hadisəni qısaca söyləyə bilərik. Biz oxucuda monastır haqqında yalnız tam bir təsəvvür yaratmaq üçün bu hadisəni qeyd etməyə məcburuq.

Bəli, təxminən, bu zamanlarda monastırda əsrarəngiz bir qadın yaşayırdı. Bu qadın rahibə olmasa da, hamı ona dərin hörmət bəslər və “madam Albertina” deyə müraciət edərdi. Onun haqqında yalnız ağlını itirmiş olduğu və monastır xaricində onun ölmüş sayıldığı məlum idi. Deyirdilər ki, bütün bu macəraya səbəb parlaq bir izdivac üçün lazım olan bəzi pul mülahizələri imiş.

Bu, otuz yaşına yenicə çatmış, iri qara gözlü, dalğın baxışlı, xeyli qəşəng, qaraşın bir gözəl idi. Onun bir şey görüb-görmədiyi şübhəli idi. O yeriməz, elə bil, sürüşərdi. Heç bir zaman danışmazdı. Nəfəs aldığını belə qəti bir şəkildə söyləmək olmazdı. Burnunun deşikləri daralmış və ölü kimi sapsarı idi. Əlinə toxunduqda qara toxunduğunuzu zənn etmək olardı. Onda bir kabus zərifliyi vardı. Həmişə özü ilə bərabər soyuq gətirərdi. Rahibələrdən biri onun bir kölgə kimi süzüb keçdiyini gördüyü zaman: “Onu ölü hesab edirlər” dedikdə, o biri rahibə: “Bəlkə, o, doğrudan da, ölüdür” deyə cavab vermişdi.

Madam Albertinadan bir çox əfsanələr danışırdılar. O, daim pansion qızlarında maraq oyadardı. İbadətxanada “öküz gözü” adlanan səki vardı. İşıq bu səkiyə ancaq yuvarlaq bir pəncərədən, yəni “öküz gözü”ndən düşərdi. Madam Albertina da, adətən, bu səkidə ibadət edərdi. İbadətxananın yuxarı hissəsində yerləşmiş olan bu səkidən ibadəti keçirən vaizi, yaxud keşişi görmək mümkün idi. Rahibələrin isə buna icazəsi müsaid olmadığından, madam Albertina da səkidə, adətən, yalqız ibadət edərdi. Bir dəfə kübar bir ailəyə mənsub olan

gənc bir keşiş mehrabdan moizə edirdi. Bu keşiş hələ 1815-ci ildə prins de Leon adlandığı zaman qırmızı muşketyorlar zabiti olan Fransa peri hersoq de Roqan idi ki, sonralar Bezansonda kardinal və arxiyepiskop olmuş, 1830-cu ildə isə burada vəfat etmişdi. O gün hersoq de Roqan Kiçik Pikpüs monastırında birinci dəfə moizə edirdi. Madam Albertina ibadət vaxtında, yaxud moizə edildiyi zaman, adətən, tamamilə sakit və hərəkətsiz dayanardı. O gün madam Albertina, hersoq de Roqanı görər-görməz, özünü xəfifcə düzəltmiş və ibadətxanadakı dərin bir sükutu pozaraq, ucadan: "Bu necə işdir, Ögüst?" – demişdi. Bütün monastır əhli heyrətlə ona baxmışdı, lakin madam Albertina yenə adi halını alaraq, donub qalmışdı. Bu sönmüş, hərəkətsiz sifətin üzərindən xarici aləmin bir nəsimi keçmiş, bir anlığa onu işıqlandırmış, sonra yenə hər bir şey yox olmuş, dəli gözəl yenə cənazəyə dönmüşdü.

Lakin bu iki söz monastırda boşboğazlığı bacaranların bir çoxunun dilini açdı. Bu nidada nələr gizlənirdi? "Bu necə işdir, Ögüst?" Bu nida ilə neçə sirlər açılırdı. Doğrudan da, hersoq de Roqanın adı Ogüst idi. Bu sözlərdən belə bir nəticə çıxarmaq olardı: madam Albertina cənab de Roqanı tanıyırdı, demək o, kübar cəmiyyətə mənsub idi, bu əyanın adını sərbəst söylədiyindən özünün də bu cəmiyyətdə yüksək mövqe tutduğu aydınlaşırdı. Bundan başqa, onun "xaç adını" bildiyi üçün qohumlarından, həm də yaxın qohumlarından biri də ola bilərdi.

Monastırı tez-tez madam de Şuazel və de Seran adlı iki qaraqabaq hersoginya ziyarət edərdi. Bu xanımlar – *Magnates mulieres*[1] imtiyazına görə monastıra sərbəst gəlib-gedə bilirdilər və hər dəfə monastıra gəldikdə, pansion qızlarının ürəyinə qorxu düşərdi. Bu iki qoca xanım gənc qızların yanından keçdikləri zaman, zavallıların bədəni əsər və onlar başlarını aşağı salardılar.

Lakin hersoq de Roqan, özü belə duymadan, pansion qızlarının diqqət mərkəzində idi. Hersoq o zamanlar yepiskopluq rütbəsi gözləyərək, Paris arxiyepiskopu yanına baş vikari vəzifəsinə təyin edilmişdi. O, Kiçik Pikpüs monastırının ibadətxanasında ibadət mərasimi keçirildiyi zaman, klirosda[2] oxumağı sevərdi. Gənc dustaqlardan heç biri onun üzünü sarja pərdəsi arxasından görə bilmədiyi halda,

[1] Kübar xanımlar (*lat.*)

[2] *Kliros* – kilsənin yuxarı başında kilsədə oxuyanlar üçün hündür yer

xeyli zil və yumşaq bir səsi olduğundan, qızlar dərhal onu tanıyar və səsini ayırd edərdilər. Vaxtilə o, muşketyor olmuşdu, zahiri görünüşü ilə çox məşğul olduğunu və saçlarına qəşəng sığal verdiyini danışırdılar. Qəşəng şabalıdı saçlarının gözəl qıvrımlarla alnına düşdüyündən, belində muardan[1] geniş bir kəməri olduğundan, qara ləbbadəsinin yer üzündə ən zərif bir biçimdə olduğundan da bəhs edirdilər. Hersoq bu on altı yaşlı qızların xəyalını çox məşğul edirdi.

Monastıra xarici aləmdən bir səs belə gəlməzdi. Bununla belə, bir il bu monastırda fleyta səsləri eşidilmişdi. Bu, böyük bir hadisə olduğundan, pansion qızları hələ də onu xatırlayırlar.

Qonşuluqda kimsə fleyta çalırdı. Fleytaçı həmişə indi köhnəlmiş olan eyni "Mənim Zetülbem, gəl könlümün sultanı ol!" ariyasını çalardı. Gənc qızlar saatlarla bu ariyaya qulaq asardılar, seçici analar dəhşətə gəlmişdilər, gənc beyinlər işləyir, cəzalar dolu kimi yağırdı. Bu hadisə bir neçə ay davam etdi. Bütün pansion qızları az-çox bu məchul musiqiçiyə aşiq olmuşdular. Hər bir qız özünü "Zetülbe" zənn edirdi. Fleyta səsləri Düz divar küçəsi tərəfdən gəlirdi. Pansion qızları onları valeh edən, özünün xəbəri belə olmadan bu qız qəlblərinin incə tellərinə toxunan bu fleytaçalan "gəncin" üzünü bir an görmək, doyunca onu seyr etmək üçün hər bir şeylərini fəda edər, heç bir təhlükə qarşısında dayanmazdılar; hətta bəzi qızlar, Düz divar küçəsinə baxan pəncərədən, heç olmasa, bir şey görə bilmək ümidi ilə həyət qapısından xəlvətcə keçib dördüncü mərtəbəyə belə qalxdılar, hələ qızlardan biri əlini pəncərənin torundan keçirərək ağ yaylığını yelləməyə başladı. Qızların ikisi isə daha cəsarətli çıxdı. Onlar heç bir şeydən qorxmayaraq, bir vasitə ilə damın üstünə çıxdılar və nəhayət, "gənc" fleytaçını gördülər. Bu fleytaçı iflas etmiş mühacir dvoryanlardan olan qoca, kor bir kişi imiş, ürəyi darıxdığından öz daxmasında fleyta çalarmış.

Altıncı fəsil

KİÇİK MONASTIR

Kiçik Pikpüs monastırının hasarları arasında bir-birindən tamamilə ayrı üç bina vardı: rahibələrin yaşadığı böyük monastır, monastırda

[1] *Muar* – xara, dalğavarı rənglərə malik parça

tərbiyə alan qızların yerləşdiyi pansion və nəhayət, kiçik monastır adlanan bina. Bu, ayrıca bir yan bina idi, qabağında bağı vardı, burada, hamı bir yerdə, inqilabın məhv etdiyi monastırların qırıntıları, müxtəlif ordenlərə mənsub olan qoca rahibələr yaşayırdı. Bunlar ən müxtəlif icmalara və ən müxtəlif təriqətlərə mənsub olan cürbəcür: qara, boz və ağ rahibələr yığınından ibarət idi. Əgər təbir caizsə, demək olar ki, bu, qırıntı monastırı idi.

Bütün ölkəyə yayılmış və hüquqdan məhrum edilən bu yazıq qadınlara İmperiya dövründən bəri burada, yəni benediktçi qadınlar monastırında yerləşməyə icazə verilmişdi. Hökumət onlara kiçik bir təqaüd verirdi. Kiçik Pikpüs rahibələri onları məmnuniyyətlə öz yanlarına qəbul etdilər. Bu, qəribə bir qarışıq idi. Hər qonaq öz nizamnaməsinə riayət edirdi. Bəzən pansion qızlarına xüsusi bir əyləncə kimi bunların yanına getməyə icazə verilirdi. Beləliklə, bu gənc qızların çoxu müqəddəs Vasiliya ananı, müqəddəs Sxolastika ananı və müqəddəs Yakoba ananı həmişəlik yadlarında saxlayırdılar.

Bu gəlmə rahibələrdən biri öz evinə düşmüş kimi idi. Bu – Sent-Ordan gəlmə, öz ordeni məhv olduqdan sonra sağ qalan yeganə bir rahibə idi. Sent-Or bacılarının sabiq monastırı on səkkizinci əsrin əvvəllərində elə həmin bu Kiçik Pikpüs monastırında yerləşirdi ki, sonralar o, Martin Verqa cəmiyyətinin benediktçi rahibələrinə keçmişdi. Öz ordeninin cah-calallı al-qırmızı çiyinliyi olan ağ paltarını geyinmək üçün yoxsul olan bu qoca rahibə, onu pərəstişlə balaca bir manekenə geydirərək, məmnuniyyətlə hamıya göstərərdi. Öldükdən sonra bu paltarı monastıra vəsiyyət etmişdi. Bu ordendən 1824-cü ildə yalnız bir rahibə qalmışdı; indi isə ondan ancaq bir maneken qalmışdır.

Bu ləyaqətli bacılardan başqa, madam Albertina kimi bir neçə qoca kübar xanım da monastır rəisindən kiçik monastırda yerləşmək üçün icazə almışdılar. Bu xanımlardan biri madam de Bosfor d'Otpul, o biri isə markiza Düfren idi. Bunlardan başqa, kiçik monastırda bir də bir qadın yaşayırdı ki, burnunu sildiyi zaman, həddindən artıq gurultu etməsi ilə şöhrət qazanmışdı. Pansion qızları onu "madam Gurultu" deyə adlandırmışdılar.

Təxminən, 1820 və yaxud 1821-ci ildə madam Janlis monastırda yaşamaq üçün icazə istəmişdi. O zamanlar madam Janlis "Qorxmaz" sərlövhəsi ilə balaca periodik bir məcmuə nəşr edirdi. Onun

üçün xahiş edən Orlean hersoqu idi. Arı pətəyinə vəlvələ düşdü! Seçici analar əsdilər. Madam Janlis roman yazırdı! Lakin onun özü bu romanlara nifrət etdiyini söyləmiş, bundan başqa, o, artıq şiddətli bir möminlik ehtirasına düşmüşdü. Həm Allahın, həm də hersoqun köməyi ilə o, monastıra daxil oldu. Lakin altı-yeddi ay keçmədi ki, madam Janlis monastır bağında kölgə olmadığını bəhanə edərək, Kiçik Pikpüsü tərk etdi. Rahibələr sevinirdilər. Madam Janlis artıq çox-çox qoca olsa da, yenə rübab çalar, həm də gözəl çalardı.

O, monastırı tərk edərkən, yaşadığı hücrədə bir xatirə qoyub getdi. Madam Janlis mövhumatçı, həm də latinist idi. Hələ bir neçə il bundan əvvəl onun, adətən, pul və cavahirat qoyduğu kiçicik bir dolabın iç tərəfinə yapışdırılmış balaca bir məktub görmək olardı. Bu məktub sarı kağız üzərində qırmızı mürəkkəblə madam Janlisin xətti ilə yazılmış bir şeirdən ibarət idi. Onun fikrinə görə, bu beş mənzum latın misraları oğruları qovmaq xassəsinə malik idi.

– İmparibus mentis pendent tria corpora ramis:
Dismas et Gesmas, media est divina rotestas:
Alta petit Dismas, infelix, infima, Gesmas.
Nos et res nostras conservet summa potestas,
Nos versus dicas, ne u furto tua perdas[1].

VI əsr latıncası ilə yazılmış bu şeir bir sual doğurur: Qolqofda dar ağacından asılan quldurların adı nə idi? Adətən deyildiyi kimi, Dimas və Gestas, yoxsa Dismas və Gesmas? Bu imlanın aydınlaşdırılması keçən əsrdə vikont Gesmasın tövbə etməyən həmin bu quldur nəslindən olması haqqında iddiasını rədd edə bilərdi. Hər halda, qospitalyer ordeninə mənsub olan rahibələr bu şeirin oğruları qovmaq kimi faydalı bir xüsusiyyəti olmasına inanırlar.

Böyük monastırı pansiondan, sanki, həqiqi bir qala səddi kimi ayıran monastır kilsəsinin, həm böyük monastır, həm pansion, həm də kiçik monastır üçün ümumi bir kilsə olduğu, əlbəttə, aydındır. Monastır kilsəsinə hətta kənar camaat da buraxılırdı. Onlar, adətən, küçədən xəstəxanaya girmək üçün açılmış xüsusi qapıdan keçərdilər.

[1] Müxtəlif xidmətləri olan üç bədən xaçdan asılmışdır: Dismas və Gesmasın bədəni, ortada isə göylər sahibi. Dismas yuxarıya doğru, Gesmas isə aşağıya doğru meyil edir. Allah bizi və bizim mülkümüzü saxlasın. Bu şeirləri oxu ki, sənin malını oğurlayan olmasın (*lat.*)

Bununla belə, hər bir şey elə qurulmuşdu ki, monastırda yaşayan qadınların heç biri kilsəyə gələnləri görə bilməzdi. Belə bir kilsə təsəvvürünüzə gətirin: sanki, nəhəng bir əllə tutulub əyilmiş olan kliros, adi kilsələrdə olduğu kimi, mehrabın arxasında davam etməyərək, ibadəti keçirən keşişin sağ tərəfində salon, yaxud qaranlıq bir mağara kimi bir şey əmələ gətirir, sonra təsəvvür edin ki, bu salon yeddi fut hündürlüyündə bir pərdə ilə örtülmüşdür (bu barədə biz yuxarıda demişdik), bu pərdənin arxasında isə taxta oturacaqlar üzərində, sol tərəfdə klirosçu rahibələr, sağ tərəfdə pansion qızları, mərkəzdə isə şagirdlər və tüllabələr sıx oturmuşdu. Bu dediklərimizi təsəvvürünüzə gətirə bilsəniz, demək olar ki, Kiçik Pikpüs rahibələrinin ibadət mərasimlərini necə keçirdikləri haqqında təsəvvürünüz olar. Kliros adlanan bu qaranlıq mağara dəhliz vasitəsilə monastırla birləşirdi. Buraya işıq bağça tərəfdən düşürdü. Rahibələrin nizamnaməyə görə, sükut içində dayanmaqları tələb olunan ibadət mərasimində, camaat onların burada olub-olmadıqlarını oturacaqların aşağı tərəflərindəki rəflərin enib-qalxmasından əmələ gələn səsə görə təyin edə bilərdi: ayaq üstündə dayanan rahibələr yorulduqları zaman, gizlincə bu rəflərə söykənə bilərdilər.

Yeddinci fəsil

QARANLIQDA BİR NEÇƏ KÖLGƏ

Altı il müddətində, yəni 1819-cu ildən 1825-ci ilə qədər Kiçik Pikpüs monastırının rəisi madmazel de Blemer olmuşdu. Rahibəlikdə onun adı Məsum ana idi. Madmuazel de Blemer "Müqəddəs Benedikt ordeni övliyasının həyatı" kitabının müəllifi Marqarita Blemerin nəslindən idi. Onu ikinci dəfə rəisliyə seçmişdilər. Altmış yaşında alçaqboylu, dolu bir qadın idi. Yuxarıda qeyd etdiyimiz məktubda deyildiyi kimi, "çatlamış dibçək" kimi titrəyən bir səsi vardı. Əslində isə çox xeyirxah bir qadın idi, bütün monastırda yeganə şən bir adam vardısa, o da bu idi, buna görə də hamı ona pərəstiş edərdi.

Öz ordeninin Dasyesi[1] olan ulu nənəsi Marqaritanın xasiyyəti irsən Məsum anaya keçmişdi. O, elmli, bilikli, oxumuş, kitabsevən

[1] *Dasye* – nüfuzlu adam

bir qadın idi, xüsusi bir tarixşünas sayılır, latın dili ilə yüklənmiş, yunan dili ilə aşılanmış, yəhudi dili ilə doldurulmuş idi. O, benediktçi rahibədən artıq benediktçi rahib idi.

Monastır rəisinin köməkçisi ispaniyalı, demək olar ki, kor, qoca bir rahibə idi. Ona Sineres ana deyərdilər.

Seçici analar arasında ən hörmətlisi xəzinədar müqəddəs Honoriya ana, rahibə şagirdlərinin başçısı müqəddəs Gertruda ana, onun köməkçisi müqəddəs Mələk ana, kilsə şeyləri anbarının müdirəsi Vəhy ana, xəstəxana müdirəsi və bütün monastırda ən kinli bir qadın olan müqəddəs Avqustina ana idi, bundan sonra, gözəl səsi olan, hələ çox gənc, müqəddəs Mextilda ana (madmazel Qoven), əvvəlcə Səyyah qəbul edənlər ordeni bacılarının monastırında və Jizorla Mani arasındakı Müqəddəs xəzinə monastırında olmuş Müqəddəs Mələklər ana (madmazel Drue), müqəddəs Yusifə ana (madmazel Koqolludo), müqəddəs Adelaida ana (madmuazel d'Overne), nizamnamənin şiddətinə tab gətirə bilməyən Mərhəmət ana (madmazel de Sifuentes), nizamnaməyə baxmayaraq, altmış yaşında ikən monastıra qəbul edilmiş, çox varlı bir qadın olan Şəfqət ana, Qəza ana (madmazel Lodinyer), 1847-ci ildə monastırda nazirə olan Müqəddimə ana (madmazel Sigensa) və nəhayət, dəli olan müqəddəs Selina ana (heykəltəraş Çerakkinin bacısı), yenə dəli olan müqəddəs Şantal ana (madmazel de Süzon) idi.

Ən gözəl rahibələrdən biri də kavaler Rozun kiçik nəvəsi, Burbon adasından gəlmə, iyirmi dörd yaşlı bir qız idi. Cəmiyyətdə o, madmazel Roz adlanardı, monastırda isə Merac ana adını daşıyırdı.

Klirosda nəğmə işlərini idarə edən Mextilda ana pansion qızlarını məmnuniyyətlə xor dəstəsinə cəlb edirdi. O, adətən, bütöv qamma seçərdi, yəni on yaşından tutmuş on altı yaşına qədər yeddi qız seçər, səslərini və boylarını tutuşdurar, balacadan böyüyə qədər bir sıraya düzüb oxutdurardı. Sanki, qarşınızda Panın mələklərdən ibarət canlı fleytası kimi gənc qızlardan ibarət bir ney çalırdı.

Şagirdlərdən ən çox müqəddəs Yefraziya bacını, müqəddəs Marqaritanı, uşaq kimi huşunu itirmiş müqəddəs Marfa bacını, bir də müqəddəs Mixailanı sevərdilər. Müqəddəs Mixailanın uzun burnu hamını güldürərdi.

Bu qadınların hamısı uşaqlarla çox mülayim rəftar edərdilər. Onlar yalnız özlərinə qarşı sərt idilər. Sobalar yalnız pansionda qalanardı,

pansion qızlarının yeməyi isə rahibələrin yeməyinə nisbətən, yaxşı sayılırdı. Bir də bunlardan başqa, hamı onların qayğısını çəkərdi. Lakin balaca qız, rahibənin yanından keçərkən, onunla söhbətə başlasaydı, rahibə heç bir zaman cavab verməzdi.

Sükut nizamnaməsi nəticəsində bütün monastırda danışmaq qabiliyyəti canlı insanlardan alınıb, qeyri-canlı varlıqlara verilmişdi. Gah kilsə zəngi gurlar, gah da bağbanın zınqırovu cingildərdi. Qapıçının yaxınlığındakı zil səsli və monastırın hər bir yerinə küy salan zəng, xüsusi bir akustika teleqrafı kimi müxtəlif səslər vasitəsilə adi monastır həyatının müxtəlif hadisələrini xəbər verər, lazım gəldikdə, monastırda yaşayan qadınlardan birini qəbul otağına çağırardı. Hər adamın və hər bir şeyin özünəməxsus zəngi vardı. Rəis üçün bir dəfə zəng çalınardı. Rəisin köməkçisi üçün bir zəng və bir də iki zəng çalınardı. Altı zəng və bir də beş zəngin mənası: "Sinfə getmək vaxtıdır" demək idi, odur ki, pansion qızları "sinfə getmək" sözləri əvəzində "altı-beş getmək" deyərdilər. Dörd zəng və bir də dörd zəng madam Janlis üçün çalınardı. Bu zəngin səsi tez-tez eşidilərdi. Mərhəmətdən məhrum olan pansion qızları: "Bu, cin üçün çalınan cin zəngidir" deyərdilər. Zəng on doqquz dəfə çalındıqda, mühüm bir hadisə xəbər verilirdi. Bu, monastır qapısının taybatay açılması demək idi. Monastır qapısı isə yalnız arxiyepiskopun şəxsiyyəti qarşısında rəzələri üzərində fırlanan və başdan-ayağa cəftələrlə dolu, dəhşətli dəmir bir lövhə idi.

Arxiyepiskopdan və bir də, söylədiyimiz kimi, bağbandan başqa, monastıra heç bir kişi girə bilməzdi. Bununla belə, pansion qızları iki kişi daha görə bilmişdilər: bu kişilərdən biri – qoca və eybəcər keşişabbat Banes idi ki, qızlar bunu klirosun toru arasından seyr edə bilərdi; o biri isə – yuxarıda qeyd etdiyimiz məktubda "qoca, dəhşətli qozbel Ansyoşka" adlanan rəsm müəllimi cənab Ansio idi.

Bundan da kişilərin nə qədər ciddi və diqqətlə seçilmiş olduğu məlum olurdu.

Bu maraqlı xanəgah belə bir xanəgah idi.

Səkkizinci fəsil

POST CORDA LAPİDES[1]

Monastırın daxili simasını təsvir etdikdən sonra xarici görünüşünü də bir neçə sözlə təsvir etmək pis olmazdı. Hər halda, monastırın xarici görünüşü haqqında oxucunun bir az təsəvvürü vardır. Sent-Antuan məhəlləsindəki Kiçik Pikpüs monastırı Polonso küçəsi, Düz divar küçəsi, Pikpüs döngəsi və qədim şəhər planlarında Omare küçəsi adlanan dar bir dalanın birləşdiyi dörd yol ayrıcında əmələ gələn və geniş bir trapesiyaya bənzəyən meydançanı, demək olar ki, başdan-başa tuturdu. Bu dörd küçə trapesiyanı xəndək kimi əhatə etmişdi. Monastır bir neçə binadan və bağdan ibarət idi. Binanın əsas korpusu, bütünlükdə götürüldükdə, qarışıq xarakterli binalardan ibarət idi. Yuxarıdan bu binalara nəzər saldıqda, bunlar eynilə üzüaşağı yerə sərilmiş bir dar ağacına bənzəyirdi. Dar ağacının dirəyi Pikpüs küçəsi ilə Polonso küçəsi arasındakı Düz divar küçəsi boyu uzanırdı. Evin şəbəkə ilə ayrılmış Pikpüs küçəsinə baxan uca və boz rəngli sərt fasadı isə dar ağacının atqısını təşkil edirdi, 62 nömrəli darvaza bu atqının ucunda yerləşmişdi. Fasadın ortasında isə üstünə yatmış toz və küldən ağarmış olan ikinci bir darvaza vardı ki, bunun tağı altında hörümçəklər tor toxuyurdu. Bu darvaza bazar günlərində və vəfat edən rahibənin cənazəsi monastırdan çıxarıldığı nadir hallarda bir və ya iki saatlığa açıq olardı. Adi camaat kilsəyə bu darvazadan keçərdi. Dirəklə atqının təşkil etdiyi bucaqda bufetxana sayılan kvadrat bir salon yerləşmişdi ki, pansion qızları buna "ərzaq anbarı" deyərdilər. Dar ağacının dirəyində anaların, bacıların və şagirdlərin hücrələri yerləşirdi. Atqıda isə mətbəx, yemək otağı (monastır yemək otağının şöbəsi) və kilsə yerləşirdi. 62 nömrəli darvaza ilə Omare dalanının tinində, xaricdən gözə çarpmayan pansion yerləşmişdi. Trapesiyanin qalan yerində isə bağ vardı. Bu bağın səthi Polonso küçəsinin səthindən aşağı olduğundan, hasarları iç tərəfdən bayır tərəfə nisbətən daha hündür görünürdü. Bağın ortasında balaca bir təpəcik vardı. Bu təpəciyin başında isə konussayağı, ucu nazik, gözəl bir küknar ağacı yüksəlirdi, bu küknar ağacından da, qalxanın ortasında olduğu kimi,

[1] Ürəklərdən sonra – daşlar haqqında (*lat.*)

dörd böyük və səkkiz balaca xiyaban ayrılırdı. Balaca xiyabanlar böyük xiyabanların arasında cüt-cüt elə şəkildə yerləşmişdi ki, əgər bu bağ dəyirmi olsa idi, bağın həndəsi planı təkərin üzərinə qoyulmuş bir xaça bənzərdi. Bağ hasarının çox əyri-üyrü olan xətlərinə bitişik xiyabanların hamısı müxtəlif uzunluqda idi: onların kənarlarında bir haşiyə kimi qarağat kolları əkilmişdi. Bağın dal tərəfində, Düz divar küçəsinin küncündə yerləşmiş köhnə monastırın xarabalarından tutmuş ta Omare dalanının tinindəki kiçik monastır binasına qədər qonaq xiyabanı uzanırdı. Kiçik monastırın qabağında "bala bağ" vardı. Buraya həyəti, içəri tikintilərin təşkil etdiyi cürbəcür guşələri, həbsxana divarlarını, qonşuluqda isə, Polonso küçəsinin o biri tərəfində, haşiyə kimi uzanan damların uzun qara xəttini də əlavə etmiş olsanız – qırx il bundan əvvəl Kiçik Pikpüs küçəsində bernardçı rahibələr monastırının necə bir şey olduğunu xeyli dəqiq bir şəkildə təsəvvür edə bilərsiniz. Bu xanəgahın tikildiyi yerdə on dördüncü əsrdən on altıncı əsrə qədər top oynamaq üçün məşhur bir salona malik bir bina vardı ki, buna "on bir min şeytan meyxanası" deyərdilər.

Bu küçələrin hamısı Parisin ən qədim küçələrindəndir. Düz divar və Omare – çox qədim küçə adlarıdır, bu adı daşıyan küçələr isə daha qədimdir. Omare dalanı Malqa dalanı, Düz divar küçəsi isə İtburnu küçəsi adlanırdı, çünki insan hələ daş yonmağa başlamamışdan çox-çox əvvəl Tanrı burada çiçək bitirməyə başlamışdı.

Doqquzuncu fəsil

YÜZ İL LƏBBADƏ İÇİNDƏ

İndi, Kiçik Pikpüs monastırının keçmişdə nə olduğu ilə müfəssəl tanış olduğumuzdan və öz sirrini qısqanaraq, mühafizə etməyə çalışan bu xanəgahın iç tərəfinə də bir nəzər salmağa cəsarət edəndən sonra oxucunun icazəsi ilə bir balaca ricətə də yol verməyə məcburuq. Bu ricət bu əsərin məzmunu ilə əlaqədar olmasa da, o mənada faydalı ola bilər ki, bu monastırda necə qəribə adamlara təsadüf edə biləcəyimizi aydınlaşdırır.

Kiçik monastırda yaşı yüzü ötmüş qoca bir qarı yaşayırdı: o, buraya Fontevro abbatlığından gəlmişdi. Bu qarı hətta inqilabdan əvvəl

kübar cəmiyyətə mənsub imiş. O, XVI Lüdovikin möhürdarı cənab Miromenil və vaxtilə yaxından tanış olduğu, məhkəmə sədrinin arvadı madam Düpla haqqında tez-tez söhbətlər edərdi. Bu qarı cənab Miromenillə madam Düplanı xatırlarkən, şöhrətpərəstlik və məmnuniyyət hissi ilə bundan ləzzət alardı. Fontevro abbatlığı haqqında o, cürbəcür qəribə şeylər danışardı: guya, bu abbatlıq şəhərə bənzərmiş, guya, monastırda lap həqiqi küçələr varmış.

Qarı Pikardiya ləhcəsində danışardı ki, bu da pansion qızlarını çox əyləndirərdi. O, hər il öz əhdlərini təntənə ilə yenidən elan edər və hər dəfə, əhd etməzdən əvvəl keşişə müraciətlə belə deyərdi: "Monsenyor müqəddəs Fransua öz əhdini monsenyor müqəddəs Evseviyə, monsenyor müqəddəs Evsevi isə öz əhdini monsenyor müqəddəs Prokopiyə tapşırmışdır... və sairə, və sairə, mən isə öz əhdimi sənə tapşırıram, ey müqəddəs ata". Pansion qızları isə xəlvətcə, daha doğrusu, bürüncəyin altından seçici anaları qaşlarını çatmağa məcbur edən lətif və təvazökar bir qəhqəhə ilə gülərdilər.

Bəzən bu qoca rahibə müxtəlif əhvalatlar danışardı. O, cavanlıq illərində "bernarçıların muşketyorlardan geri qalmadıqlarını" iddia edirdi. Onun dodaqları ilə böyük bir əsr danışırdı, lakin bu əsr on səkkizinci əsr idi. O, inqilabdan qabaq Şampanidə və Burqundiyada olan "dörd şərab" adətindən danışardı. Kübar bir şəxs, Fransa marşalı, prins, hersoq, yaxud per Şampani, yaxud Burqundiya şəhərlərindən keçdiyi zaman, şəhər şurası onu qarşılamağa çıxaraq salamlar və qayıq şəklində dörd gümüş kasa içində dörd cür şərab təqdim edərdi. Birinci kasanın üstündə "meymun şərabı", ikinci kasanın üstündə "aslan şərabı", üçüncü kasanın üstündə "qoyun şərabı" və dördüncü kasanın üstündə "donuz şərabı" sözləri yazılmış olardı. Bu dörd yazı sərxoşun endiyi dörd pilləyə işarə idi. Birinci sərxoşluq pilləsi insanı şadlandırır, ikinci pillə əsəbiləşdirir, üçüncü pillə sarsaqlaşdırır, nəhayət, dördüncü pillə heyvana döndərir.

Qarı bağlı bir dolabda çox əziz tutduğu sirli bir şey saxlardı. Fontevro abbatlığının nizamnaməsi buna yol verirdi. Qarı bu şeyi heç kəsə göstərmək istəməzdi. O, öz hücrəsinə çəkilər (nizamnaməyə görə bu, qadağan edilməmişdi) və orada gizli-gizli bir şeyi seyr edərdi. Koridordan keçən bir rahibənin ayaq səslərini eşidər-eşitməz, o, dərhal zəif qoca əllərinin qabil olduğu bir sürətlə dolabın ağzını bağlardı. Birisi bu barədə onun yanında söz açsaydı, o, adətən, boşboğazlıq etdiyi

halda, dərhal susardı. Ən çox maraq göstərən rahibələr belə onun sükutunu poza bilməzdi, ən çox inad göstərənlər isə onun inadı qarşısında təslim olurdular. Bu da, heç şübhəsiz, monastırdakı bütün avara, yaxud ürəkləri darıxan qadınlar üçün dedi-qoduya bir qida verirdi. Qoca kaftar bir qarının bir xəzinə kimi əziz tutduğu bir sirli şey, görəsən, nə ola bilərdi? Bəlkə, bu müqəddəs bir kitab idi? Bəlkə də, az tapılan bir təsbeh idi? Bəlkə də, ecazkar övliya sümükləri idi? Heç kəs bunun nə olduğundan baş çıxara bilmirdi. Zavallı qarı vəfat etdikdən sonra, ola bilsin ki, ədəb və nəzakətin yol verdiyindən daha böyük bir tələskənliklə dolaba tərəf atılaraq onu açdılar. Qarının gizlətdiyi bu şeyi, müqəddəs bir boşqab kimi üç dəfə qatlanmış bir kətan parçasına bükülmüş gördülər. Bu gizli şey bir çini nimçə idi, üstündə uçan amurlar[1] təsvir edilmişdi, bu amurları əllərində iri imalə boruları tutan əczaçı şagirdləri təqib edirdi... Bu təqib səhnəsində bir çox gülünc ifadələr və məzhəkəli vəziyyətlər vardı. Məsələn, bu gözəl balaca amurlardan biri artıq ələ keçmişdi. Amur özünü müdafiə edərək çapalayır, balaca qanadlarını çalaraq yenə göylərə uçmaq üçün can atır, lakin imaləçi iblisanə bir qəhqəhə ilə gülür. Bu səhnənin mənası budur, qarın ağrısı məhəbbətə qalib gəlir! Hər halda, olduqca maraqlı bir şey olan və bəlkə də, Molyeri belə ilhama gətirmiş olan bu nimçə 1845-ci ilin sentyabr ayında hələ salamat idi; nimçə Bomarşe bulvarında bir əntiq-füruşun dükanında satışa qoyulmuşdu.

Mərhəmətli qarı "qəbul otağı çox qaranlıqdır" – deyə, adi insanların onu ziyarət etməsini istəməzdi.

Onuncu fəsil

YORULMADAN SİTAYİŞ QAYDASININ MƏNŞƏYİ

Lakin haqqında bir az təsəvvür yaratmağa çalışdığımız və az qala, qəbirə bənzəyən bu qəbul otağı yerli bir hadisə sayıla bilərdi. Başqa monastırlarda o, eyni ciddiyyət və sərtliklə təkrar edilmir. Xüsusilə, Tampl küçəsində və doğrudur, başqa bir ordenə aid olan monastırda, qara pəncərə qanadları əvəzində qəhvəyi rəngli pərdələr asılmışdı, qəbul otağı isə parket döşəməsi və ağ kiseyidən pərdə

[1] *Amur* – Roma əsatirində eşq allahı

çəkilmiş pəncərələri olan bir qonaq salonuna bənzəyirdi. Divarlarında müxtəlif şəkillər asılmışdı: məsələn, üzü açıq benediktçi bir rahibənin portreti, çiçək dəstələri və hətta bir osmanlı başının təsviri vardı.

Tampl küçəsindəki monastırın bağında məşhur hind şabalıd ağacı vardı ki, Fransada ən gözəl və yüksək bir ağac sayılırdı. On səkkizinci əsrdə bu ağacı krallıqda mövcud olan bütün şabalıd ağaclarının patriarxı adlandırırdılar.

Söylədiyimiz kimi, Tampl küçəsindəki monastırı tutmuş olan "Yorulmadan sitayiş" ordeninə mənsub benediktçilər sisterçilərə tabe olan benediktçilərdən fərqlənirdilər. Bu "Yorulmadan sitayiş" ordeni çox qədim ordenlərdən deyildir, onun tarixi ancaq iki yüz il olar. 1649-cu ildə müqəddəs nemətlər bir neçə gün ərzində Sen-Sülpis və Sen-Jan-an-Qrev adlı iki Paris mabədində iki dəfə təhqir edilmişdi. Bu elə bir müstəsna və dəhşətli təhqir idi ki, bütün Paris həyəcana gəlmişdi. Sen-Jermen-de-Pre monastırının rəisi olan baş vikari bütün məhəllə ruhanilərinin təntənəli xaç mərasimini təyin etmişdi. Dua ayininin papa nunsisi[1] icra edirdi. Lakin bu tövbə mərasimi madam Kurten-markiza de Buk və qrafinya Şatovye kimi iki ləyaqətli qadını təmin etməmişdi. "Kilsənin müqəddəs məbudunun" təhqir edilməsi ani bir şey olsa da, bu iki dindar qadının xatirəsindən silinmədi, onların fikrinə görə, bu təhqir ancaq bir qadın monastırında "Yorulmadan sitayişlə" silinib gedə bilərdi. Bu qadınlardan biri 1652-ci ildə, o biri isə 1653-cü ildə Müqəddəs nemətlər cəmiyyətinə mənsub olan benediktçi rahibə Katerina de Bar anaya bu şərəfli məqsədlə müqəddəs Benedikt ordeninin monastırını təsis etmək üçün külli miqdarda pul bəxş etmişdilər. Belə bir monastırı təsis etmək üçün Katerina de Bara birinci icazəni Sen-Jermen abbatı cənab de Mes vermişdi, bu şərtlə ki, bu monastıra qəbul edilən qızlardan hər il iaşə üçün üç yüz livr alınsın; bu üç yüz livr də altı min livrlik əsas məbləğin mədaxili olmalı idi. Sen-Jermen abbatından sonra kral da fərman verdi, abbat xartiyası ilə kral fərmanı 1654-cü ildə hesab palatası və parlament tərəfindən təsdiq edildi.

Benediktçi qadınların "Müqəddəs nemətlərə yorulmadan sitayiş" adlı Paris cəmiyyətinin mənşəyi və qanuniləşdirilməsinin tarixi belədir. Bu cəmiyyətin birinci monastırı madam de Buk və qrafinya Şatovyenin verdiyi vəsait sayəsində Kasset küçəsində "yenidən tikilmişdi".

[1] *Nunsi* – Papanın dini nümayəndəsi

Gördüyümüz kimi, bu ordenin sisterçi adlanan Sito benediktçı rahibələr ordeni ilə heç bir əlaqəsi yoxdur. "İsanın ürəyi" ordeninin rahibələri iezuit ordeni generalına, Şəfqət ordeninin rahibələri isə lazaristlər ordeni generalına tabe olduqları kimi, bu ordenin də rahibələri Sen-Jermen-de-Pre abbatına tabe idi.

Bu orden yuxarıda həyatını təsvir etdiyimiz Kiçik Pikpüs benediktçi icmasına qətiyyən bənzəmirdi. 1657-ci ildə Papa VII Aleksandr Müqəddəs nemətlər ordeninin benediktçi rahibələri kimi, xüsusi fərmanla Kiçik Pikpüs monastırının benediktçi rahibələrinə də "yorulmadan sitayiş" üçün icazə vermişdi. Bununla belə, hər iki orden özlərinə xas olan xüsusiyyətlərini itirməmişdi.

On birinci fəsil

KİÇİK PİKPÜSÜN SONU

Kiçik Pikpüs monastırı Restavrasiyanın ilk günlərindən zəifləməyə başladı ki, bu da bu dövrdəki bütün rahib ordenləri kimi XVIII əsrdən sonra bu ordenin ümumi süqutunun təzahürlərindən biri idi. Baxıb düşünmək də, dua kimi, bəşəriyyətin ehtiyaclarındandır, lakin inqilabın toxunduğu hər bir şey kimi, o da dəyişəcək və tərəqqiyə düşmən olmaq əvəzinə onun üçün əlverişli olacaqdır.

Kiçik Pikpüs monastırında yaşayan rahibələrin sayı sürətlə azaldı. 1840-cı ildə kiçik monastır da, sonra pansion da yox oldu. Artıq burada nə kaftar qarılar vardı, nə də gənc qızlar. Birincilər ölmüş, ikincilər dağılışıb getmişdilər. *Volaverunt*[1].

"Yorulmadan sitayiş" cəmiyyətinin nizamnaməsi çox sərt olduğundan hamının gözünü qorxudurdu. Rahibəliyə girmək istəyənlərin sayı getdikcə azalırdı. Hələ 1845-ci ildə şagird bacılar sırasına daxil olmağı arzu edənlər tapılırdısa, klirosçu rahibələr sırasına bir nəfər belə daxil olmaq istəmirdi. Qırx il bundan əvvəl rahibələrin sayı yüzə çatırdı, on beş il bundan əvvəl isə monastırda ancaq iyirmi səkkiz rahibə qalmışdı. Görəsən, indi nə qədər olar? 1847-ci ildə monastırın rəisi artıq gənc bir qadın idi – bu da rəis olmaq istəyənlərin sayının azaldığını göstərirdi. Bu qadın qırx yaşına belə çatmamışdı.

[1] Uçdular (*lat.*)

Rahibələrin sayı azaldıqca, imtahanın da ağırlığı artırdı. Hər bir rahibənin vəzifəsi getdikcə ağırlaşırdı. Çox sürməz, bu monastırda müqəddəs Benedikt nizamnaməsinin ağır yükünü daşıya biləcək ancaq iyirmi nəfər beli bükülmüş, yorğun qarılar qalar. Bu yükün ağırlığı isə rahibələrin sayının az, ya çox olmasından asılı deyildir, o, hər zaman amansız və dəyişməzdir. Keçmişdə bu ağırlıq əzirdi, indi isə məhv edir. Rahibələr artıq ölməyə başlamışdı. Bu əsərin müəllifi Parisdə yaşadığı zaman iki rahibə vəfat etmişdi. Rahibənin biri iyirmi beş yaşında, o biri isə iyirmi üç yaşında idi. İyirmi üç yaşında vəfat edən rahibə Yuliya Alpinula kimi öz barəsində bu sözləri deyə bilərdi: *Hic jaceo. Vixi annos viqinti et tres*[1].

Monastır bu süqutun nəticəsində qızların tərbiyə işindən də əl çəkdi.

Bizim üçün bu qəribə və məchul evin yanından sadəcə keçmək və içəri daxil olmamaq və eyni zamanda Jan Valjanın bu qəmli macərasını oxuyacaq və bundan, bəlkə də, müəyyən bir mənfəət alacaq olanları oraya aparmamaq mümkün olmadı. Bu gün bizə bu qədər yeni görünən qədim ayinlərlə dolu bir xanəgaha daxil olduq. Bu, qapalı bir bağdır. *Nortus conclusus*.

Biz bu qəribə yer haqqında ətraflı, lakin eyni zamanda hörmətlə danışdıq. Hər halda, müfəssəl danışmaqla uyğun gələ biləcək bir hörmətlə danışdıq. Biz hər bir şeyi anlamasaq da, hər bir şeyi pisləmək niyyətində deyilik. Biz özümüz istər cəlladı mədh etmək dərəcəsinə gələn Xozef de Mestrin tərifləri̇ndən, istərsə də İsanın çarmıxa çəkilməsini belə istehzaya qoyan Volterin kinayələrindən eyni dərəcədə uzaqdayıq.

Sözarası, bunu da qeyd etməliyik: Volterin bu hərəkətində məntiq yoxdur, çünki o, Jan Kalası müdafiə etdiyi kimi, İsanı da müdafiə edərdi. Hətta qeyri-təbii təcəssümün həqiqi olduğunu inkar edənlər üçün belə – çarmıxa çəkilmək nə deməkdir? Pak bir adamın öldürülməsi.

On doqquzuncu əsrdə dini ideya böhran keçirirdi. İnsanlar çox şeyləri tərgidir, yaxşı da edirlər, yalnız bir şərtlə ki, bir şeyi tərgitməklə başqa bir şeyi öyrənmiş olsunlar. İnsan qəlbi heç bir zaman boş qalmamalıdır. Əgər müəyyən bir şey məhv olursa, qoy məhv olsun, – yalnız bir şərtlə ki, o məhv olmaqla, başqa bir şey yaranmış olsun.

[1] "Burada yatan mənəm. İyirmi üç il ömür sürdüm" (*lat.*)

Hələlik artıq mövcud olmayan hadisələri öyrənək. Bu hadisələri öyrənmək, ən azı, onlardan çəkinmək üçün lazım ola bilir. Keçmişin saxtakarlıqları başqa adlar qəbul edir və özlərini məmnuniyyətlə gələcək kimi qələmə verirlər. Keçmiş öz pasportunu pozub düzəldə biləcək bir kabusdur. Özümüzü qurulmuş tələlərdən qorumalıyıq. Ehtiyatlı olaq. Sayıq olaq! Keçmişin mövhumat kimi bir siması var. Onun riyakarlıq kimi bir maskası var. Keçmişin maskasını yırtaq, qoy onun siması aydın görünsün.

Monastırlar məsələsinə gəlincə, bu, mürəkkəb bir məsələdir. Mədəniyyət onları təqsirləndirsə də, azadlıq onları müdafiə edir.

Yeddinci kitab

MÖTƏRİZƏ ARASINDA

Birinci fəsil

MONASTIR – MÜCƏRRƏD BİR MƏFHUMDUR

Bu əsər – bir faciə, bu faciənin əsas qəhrəmanı isə sonsuzluqdur.

İnsan bu faciədə ikinci dərəcəli bir şəxsdir.

Biz yolumuzda monastıra təsadüf edərək, onun içinə daxil olduq. Nə üçün? Ona görə ki, istər Şərqin, istər Qərbin, istər qədim dünyanın, istərsə müasir dünyanın, istər bütpərəstlik, buddizm və müsəlmanlığın, istər də xristianlığın malı olan monastır sonsuzluğu dərketmədə insanın tətbiq etdiyi optik alətlərdən biridir.

Burada bəzi ideyaları çox da müfəssəl inkişaf etdirməyin qətiyyən yeri deyil. Bununla belə, biz heç də təmkinimizi pozmadan, fikri təshihlərimizi və hətta hiddətimizi unutmadan, bir şeyi etiraf etməyə məcburuq. Biz hər dəfə bir adamda sonsuzluğa doğru bir meyil duyduğumuz zaman, bunu yaxşı, yaxud pis başa düşməyimizdən asılı olmayaraq, bu adama qarşı hörmət bəsləyirik. Sinaqoqda[1], məsciddə, paqodada[2], viqvamda[3] bizim nifrət etdiyimiz bir cəhətlə bərabər, ehtiram etdiyimiz bir əzəmət də vardır. Bəşəriyyət kimi bir ekranda əks edən Tanrı – seyr üçün, sonsuz xəyalat üçün nə qədər gözəl bir mövzudur!

[1] *Sinaqoq* – yəhudi məbədi
[2] *Paqoda* – budda məbədi
[3] *Viqvam* – hindu daxması

İkinci fəsil

MONASTIR – TARİXİ BİR FAKTDIR

Tarix, ağıl və həqiqət nöqteyi-nəzərindən rahiblik pislənməlidir.

Bir millətin içində geniş bir şəkildə yayılmış və ölkədə çox yer tutmuş monastırlar bu millətin hərəkətinə mane olur, onun yolunu kəsir, sədd çəkir, zəhmət mərkəzinə çevrilməli olan bir yeri avaraçılıq mərkəzinə çevirir. Rahib icmalarının böyük ictimai icmalara nisbəti, bağa bürcünün palıd ağacına və ziyilin insan vücuduna nisbəti kimi bir şeydir. Onların tərəqqi və yüksəlişi ölkənin zəifləməsi, taqətdən düşməsi deməkdir. Mədəniyyətin uşaqlıq çağlarında faydalı olan və öz mənəvi təsiri ilə adətlərin sərtliyini yumşaldan monastır quruluşu xalqların həddi-büluğa çatdığı dövrdə ziyanlı bir şeydir. Bundan başqa, monastırlarda onların süqutu dövründə əxlaqsızlıq əmələ gəldikdən sonra bu quruluş hələ də bir nümunə olmaqda davam etdiyindən, pak olduğu zaman faydalı olduğu eyni səbəblərə görə artıq zərərli bir quruluşa çevrilir.

Tərki-dünyalıq dövrü artıq keçmişdir. Müasir mədəniyyətin yenicə əmələ gəldiyi dövrdə faydalı olan monastırlar, mədəniyyətin sonrakı inkişafına mane olmağa başladılar, onun inkişafı üçün bir təhlükə törətdilər. Bu monastırlar, insanı formalaşdıran bir institut, bir vasitə kimi onuncu əsrdə səmərəli olduqları halda, on beşinci əsrdə mübahisəli oldular, on doqquzuncu əsrdə isə iyrəncdirlər. Bu cüzam xəstəliyi İtaliya və İspaniya kimi iki gözəl milləti, demək olar ki, iliklərinə qədər məhv etdi, halbuki bir sıra əsrlər boyu bu ölkələrin biri Avropaya işıq, o biri isə zinət və calal gətirmişdir. Əgər bu iki şanlı millət müasir dövrdə həmin xəstəlikdən sağalmağa başlayırsa, buna yalnız 1789-cu ilin sağlam havası səbəb olmuşdur.

Əsrimizin əvvəllərində hələ də İtaliyada, Avstriyada, İspaniyada təsadüf etdiyimiz monastır, qədim monastır, xüsusilə qadın monastırı orta əsrlərin ən qorxunc təcəssümlərindən başqa bir şey deyildir. Belə monastırlar bütün dəhşətlərin özəyi deməkdir. Katolik monastırı öz varlığı etibarilə məşum ölüm parıltısı ilə doludur.

Ən qorxunc monastır İspaniya monastırlarıdır. Bu monastırların qaranlıqlarında zülmətlə dolu qübbələrin, bulanıq kölgələr içərisində

qərq olan günbəzlərin altında məbəd kimi uca, massiv və nəhəng mehrablar yüksəlir; orada zülmət içində, zəncirlərdən böyük ağ çarmıxlar sallanır, orada qarağacın üzərində fil sümüyündən böyük çılpaq İsalar uzanır; bu İsalar qana bulaşmışdır, daha doğrusu, onların bədənindən qanlar axır, dirsəklərinin sümükləri çıxmış, dizlərinin dərisi soyulmuş, yaralarının içindən ətləri görünən bu bədənlər eybəcər olmaqla bərabər, həm də gözəldir. Qızıl mıxlarla mıxlanmış olan bu İsaların başlarında gümüş tikanlardan çələnglər var, alınlarında yaqutdan qan damcıları, gözlərində isə almazdan göz yaşları parlayır. Bu almazlar və yaqutlar nəmli görünür, onlar çarmıxın ayaq tərəfindəki, örtüklərə bürünmüş insanları ağladır, bu ağlayan insanların bədəni dəmiruclu qamçılardan və qıl köynəklərdən yara olmuşdur, söyüd çubuqlarından toxunmuş qəfəs onların sinəsini sıxır, dizləri isə daim dua vaxtı dizüstə dayanmaqdan yaralıdır. Bunlar İsaya ərə getdiklərini zənn edən qadınlardır; özlərini mələk zənn edən kabuslardır. Bu qadınlar bir şey düşünürmü? Yox. Onların arzuları varmı? Yox. Onlar sevirmi? Yox. Onlar yaşayırmı? Yox. Onların əsəbləri sümüyə dönmüş, sümükləri isə daşa. Onların örtükləri gecə qaranlığından hörülmüşdür. Onların örtük altında nəfəs almaları faciəli bir ölüm nəfəsinə bənzər. Kabusa bənzəyən monastır rəisi həm onlara xeyir-dua verir, həm də onları qorxu içərisində saxlayır. Burada günahsızlıq bütün şiddəti ilə hökm sürür. Qədim İspaniya monastırları belə monastırlardır. Onlar qorxunc dindarlığın yuvası, bakirələrin cinayət ocağı, vəhşilik məskənidir.

Katolik İspaniyası Romanın özündən də artıq Roma təbiətinə malik idi. İspaniya monastırı başlıca olaraq, katolik monastırı idi. Orada Şərqin ruhu hiss olunurdu. Göylərin qızlar ağası olan arxiyepiskop Tanrının ehtiyacları üçün hazırlanmış ruhlar sarayında casusluq edir və onları qapalı saxlayırdı. Rahibə – hərəm, keşiş – xadim demək idi, ən çox dindar olanlar yuxuda İsanın sevgilisi və arvadı olurdular. Gecənin qaranlığından gözəl bir gənc xaçdan enər və hücrəni cuşa gətirərdi. Çarmıxa çəkilən sultan olduğu halda, onun mistik məşuqəsini canlı həyatın təəssüratından uca divarlar qoruyardı. Xarici aləmə salınan yeganə bir nəzər belə xəyanət sayılırdı. Dəri torbanı *in-pace*[1] əvəz edərdi. Şərq aləmində dənizə atılanları Qərb aləmində yerin dərinliklərinə atırdılar. İstər Şərqdə və istərsə də

[1] Ömürlük yeraltı zindan (*lat.*)

Qərbdə qadınlar ümidsiz halda qollarını sallayardılar; Şərq qadınlarının qisməti dalğalar, Qərb qadınlarının qisməti isə məzar idi; orada qadınlar suda boğular, burada qadınlar yerin altında dəfn edilərdi. Nə qədər dəhşətli bir təşbeh!

Bu faktları inkar etmək iqtidarında olmayan köhnəlik tərəfdarları bu gün istehzalı təbəssümlə yaxalarını qurtarmağa çalışırlar. Bu gün münasib və xüsusi bir əda ilə tarixin ifşalarını rədd etmək, fəlsəfənin şərhlərini məhv etmək, bütün əngəlli faktların və qaranlıq məsələlərin üstündən keçmək dəb düşmüşdür. Zirək adamlar bunu dəbdəbəli sözlər üçün bir bəhanə adlandırırlar. Sadəlövh adamlar isə onların sözlərini təkrar edərək: "Bu, dəbdəbəli sözdən başqa bir şey deyildir" – deyirlər. Jan-Jak cümləpərdazdır, Didro cümləpərdazdır, Kalası, Labarı və Sirveni müdafiə edən Volter cümləpərdazdır. Birisi – kim olduğu yadımda deyildir, – bir az bundan əvvəl isbat edirdi ki, Tasit də cümləpərdaz olmuşdur. Neron isə tarixin qurbanıdır, "zavallı Olofernə" gəlincə, mütləq onun taleyinə təəssüf edilməlidir.

Lakin faktlar inadlı olur, onları asanlıqla çaşdırmaq olmaz. Brüsseldən səkkiz lyö məsafədə – bu, daim əlimizin altında olan orta əsrlərin həqiqi bir nümunəsidir – Vilye abbatlığında, vaxtilə monastır həyəti olan bir çəməndə "daş torbalardan" qalma çalaları və Dil çayı sahilində, yarısı yerin, yarısı isə suyun altında olan daşdan tikilmiş dörd zindanı bu əsərin müəllifi öz gözləri ilə görmüşdür. Bunlar in-pace idi. Bu zindanların hər birində dəmir qapılar, ayaqyolu və şəbəkəli bir pəncərə qalmışdı, bayır tərəfdən bu pəncərə sudan iki fut, içəri tərəfdən isə – torpaqdan altı fut hündürdədir. Çay dörd fut hündürlükdə divarlar boyu axır. Zindanın döşəməsi həmişə yaşdır. Bu yaş torpaq – *in-pace* də həbs olunan adamın yatağı idi. Bu zindanların birində divara mıxlanmış dəmir bir xaltanın parçası qalmışdır. Başqa bir zindanda isə dörd qranit parçasından ibarət kvadrat bir qutu qalmışdır; bu qutu, içində uzanmaq üçün çox qısa olduğu halda, ayaq üstə dayanmaq üçün də çox alçaq idi. Canlı insanı bu qutu içinə qoyar, üstünü isə qranit tava ilə örtərlərmiş. Keçmişdə belə olub. Bunu görmək də olar. Buna toxunmaq belə olar. Bu *in-pace*-lər, bu zindanlar, bu dəmir qarmaqlar, bu xaltalar, bu yaxında axan çayla bir səthdə olan uca dəlmə bacalar, məzar kimi üstü qranitlə örtülən və məzardan yalnız içində canlı bir insanın olması

ilə fərqlənən bu daş qutular, yatağı əvəz edən bu palçıqlı yer, ayaq-yolu sayılan bu dəlik, arasından daim su sızan bu divar! Bu cümlə-pərdazlara bax!

Üçüncü fəsil

KEÇMİŞƏ HANSI ŞƏRTLƏ HÖRMƏT BƏSLƏMƏK OLAR

Vaxtilə İspaniyada və hələ indiyə qədər Tibetdə olduğu kimi rahiblik mədəniyyət üçün vərəm xəstəliyi kimi bir şeydir. Rahiblik həyatı tamamilə dayandırır. Rahiblik açıq-açığına ölkəni xarabaya döndərir. Monastıra qapanmaq – axtalanmaq deməkdir. Rahiblik Avropa üçün fəlakət olmuşdur. Hələ bu fəlakətə vicdani təcavüzləri, zorla rahib etməyi, monastıra istinad edən feodallıq quruluşunu, həddindən artıq böyük olan ailələrin başçılarına ailənin kiçik üzvlərini zorla monastırda dustaq etmək hüququnu verən böyüklük ixtiyarı, indicə bəhs etdiyimiz zülmkarlıqları, *in-pace*-ləri, qıfıl vurulmuş ağızları, zindana salınmış fikirləri, rahib əhdlərinin zindanına salınmış saysız-hesabsız bədbəxt insanları sxim[1] qəbulunu, diri-diri basdırılmağı da əlavə edə bilərsiniz. Bütün millətin düçar olduğu düşkünlüyə bu adamların da iztirablarını əlavə etsəniz, kim olursunuz olun, cübbə və bürüncək qarşısında, bəşəriyyətin icad etdiyi bu iki kəfən qarşısında mütləq sarsılacaqsınız.

Lakin fəlsəfəyə, tərəqqiyə baxmayaraq, on doqquzuncu əsrin ən qızğın dövründə, rahiblik bəzi yerlərdə və bəzi cəhətlərdən yenə də inadla yaşamaqda davam edir və hal-hazırda zahidliyin anlaşılmaz şiddətlənməsi mədəniyyət dünyasını heyrət içində qoyur. Vaxtı keçmiş əsasların yenə də inad göstərərək öz ömürlərini uzatmağa cəhd etmələri ona bənzəyir ki, xarab olmuş ətirlər zəhləmizi tökərək, yenə onlarla saçlarımızı ətirləməyi tələb etsin, yaxud iylənmiş bir balıq israr edə ki, onu yesinlər, ya da bir uşaq paltarı tələb edə ki, böyüklər də onu geyinsin, yaxud bir ölü yenidən bu dünyaya qayıdaraq, canlı insanları qucaqlamaq istəsin.

Paltar deyir: "Vəfasız! Mən sizi soyuqdan qorumuşam, bəs necə olur ki, indi mən sizə lazım olmuram?" Balıq deyir: "Mən dənizlər

[1] *Sxim* – xristianlıqda yüksək dini rütbə

qoynunda anadan olmuşam!" Ətir də deyir: "Bir zaman mən gül idim!" Ölü deyir: "Bir zaman mən sizi sevirdim!" Monastır isə deyir: "Bir zaman mən sizin gözünüzü açmışam".

Lakin bütün bu iddiaların ancaq bir cavabı var: "O zaman keçdi".

Çürümüş bir üsuli-idarənin axıra qədər davamını arzu etmək, mumiyalanmış bir cənazə vasitəsilə insanları idarə etmək üçün can atmaq, sarsılmış ehkamı bərpa etmək, rakanın[1] qızıl suyuna salmaqla təzələmək, monastırları təzələmək, yenə Nuhun gəmisinə və övliya sümüklərinə sitayiş etmək, mövhumatı diriltmək, fanatizmə qida vermək, buxurdanlara yeni dəstəklər və şpaqalara yeni saplar quraşdırmaq, rahibliyi və militarizmi diriltmək, parazitləri çoxaltmaq yolu ilə cəmiyyəti qurtarmağın mümkün olduğuna inanmaq, bu günün boğazına zorla keçmişi bağlamaq çox qəribə görünür. Bununla belə, bu cür nəzəriyyələri inkişaf etdirən nəzəriyyəçilər vardır. Bu nəzəriyyəçilər ağıllı adam olsalar da, çox sadə bir üsula əl atırlar, onlar keçmişin üstünə suvaq çəkir və buna ictimai quruluş, ilahi hüquq, ailə, əcdada hörmət, əsrlərin nüfuzu, müqəddəs ənənələr, qanunilik, din adını qoyurlar və "Buyurun, payınızı ala bilərsiniz, ey insanlar!" – deyə bağıra-bağıra gedirlər. Lakin bu cür məntiqə qədim insanlar da bələd idi. Bu məntiqi aruspisiyalar tətbiq edərdi. Onlar qara buzovun tüklərini tabaşirlə ağardıb deyərdilər: "Bu buzov ağdır". *Bos cretatus*[2] Bizə gəlincə, biz bəzən keçmişə hörmət bəsləyirik, ona hər yerdə rəhm edərik, təki qəbrində rahat yatmağa razı olsun. Lakin o, inadla qəbrindən xortlamaq istəyirsə, biz ona hücum edərək öldürməyə çalışarıq.

Mövhumat, riya, yalançı möminlik, xurafat, yəni xəyali bir şey olan bu kabuslar və kölgələr yenə də həyata sarmaşıb yox olmaq istəmirlər: onlar puç bir şey olsalar da, dişləri, caynaqları kəskindir; onlarla əlbəyaxa vuruşmalı, hərb etməli, nəfəs almağa qoymamalıyıq, çünki bəşəriyyətin ən məşum qismətlərindən biri daim kabuslarla mübarizə aparmaqdır. Kabusun və kölgənin boğazından yapışıb yerə çırpmaq isə çətindir.

On doqquzuncu əsrin ortasında Fransada monastır – gün işığında bir bayquş yığıncağı deməkdir. 1789, 1830 və 1848-ci illəri görmüş olan bir şəhərin mərkəzində açıqdan-açığa zahidliyi təbliğ edən monastır, Parisdə qol-qanad açan bu Roma həqiqi bir anaxronizmdir.

---

[1] Xristian kilsəsində müqəddəslərin nəşi saxlanılan sərdabə

[2] Tabaşirlə ağardılmış öküz (*lat.*). Bu ifadə Yuvenaldandır (satira 10).

Adi vaxtda anaxronizmi aşkar etmək və onu aradan qaldırmaq üçün yalnız sikkəsinin tarixinə baxmaq kifayətdir. Lakin yaşadığımız zəmanə adi bir zəmanə deyildir.

Mübarizə edək!

Mübarizə edək, lakin ehtiyatla mübarizə edək. Həqiqətin bir xüsusiyyəti var ki, o da heç bir zaman mübaliğəyə yol verməməkdir. Onun mübaliğəyə ehtiyacı yoxdur. Məhvi zəruri olan bəzi şeylər var, lakin bəzi şeylər də var ki, onu yalnız işıqlandırmaq və nə olduğunu aydınlaşdırmaq lazımdır. Məsələnin xeyirxahlıqla və ciddi bir şəkildə öyrənilməsində böyük bir qüvvə vardır! O yerdə ki sadə bir gün işığı kifayətdir, yanğın alovlarına nə ehtiyac var!

Demək, biz on doqquzuncu əsrdə yaşayaraq, istər Asiyada, yaxud Avropada, istər Hindistanda, yaxud Türkiyədə, bir sözlə, harada olursa olsun, tərki-dünyalıq və zahidliyə qarşı, ümumiyyətlə, düşmən münasibəti bəsləyirik. "Monastır" demək "bataqlıq" demək kimi bir şeydir. Hər ikisinin çürümək xassəsi olduğu aydındır, istər monastırın və istərsə bataqlığın axmaz suları zəhərlidir, onların qıcqırmasından insanlar qızdırmaya düçar olur, xalqlar taqətdən düşür. Onların artması insanlar üçün Misir müsibətinə çevrilir. Biz içində cürbəcür fikirlərin, bonzaların, müsəlman dərvişləri və zahidlərinin, kalugerlərin[1], marabutların[2], Budda ruhanilərinin və dərvişlərinin həşərat kimi qaynaşdığı ölkələrin müsibətlərini dəhşətlə düşünürük.

Bununla belə, din məsələsi mövcuddur. Bu məsələnin müəyyən əsrarlı, demək olar ki, qorxunc cəhətləri var. Bu cəhətləri diqqətlə nəzərdən keçirmək üçün bizə icazə verilsin.

Dördüncü fəsil

MONASTIR PRİNSİPLƏR NÖQTEYİ-NƏZƏRİNDƏN

İnsanlar bir yerə toplaşır və bir yerdə yaşayırlar. Hansı hüquqa görə? Birləşmək hüququna görə.

Onlar qapanıb dünyadan çəkilirlər. Hansı hüquqa görə? Bu hüquqa görə ki, hər bir insanın öz qapısını açmağa və bağlamağa ixtiyarı vardır.

[1] *Kaluger* – guşənişin adam

[2] *Marabut* – ərəbcə "mürabat" sözündəndir, Şimali Afrikada monastırda yaşayanlara deyilir

Onlar evlərinin dörd divarını tərk etmirlər. Hansı hüquqa görə? Çünki hər bir insanın sərbəst hərəkət etməyə və o cümlədən, öz evindən çıxmamağa ixtiyarı var.

Lakin onlar öz evlərində nə edirlər?

Danışanda pıçıltı ilə danışırlar, başlarını aşağı salırlar, işləyirlər. Onlar dünyadan, şəhərlərdən, zövqlərdən, nəşələrdən, boş-boşuna əlləşməkdən, lovğalıqdan, tamahkarlıqdan əl çəkirlər. Onlar qaba yundan, yaxud qaba kətandan paltar geyinirlər. Onların heç birinin heç bir mülkiyyəti yoxdur. Belə bir icmaya qədəm basanda varlı da dönüb yoxsul olur. Onun nəyi varsa, hamıya verir. Necə deyərlər, əsil-nəcabəti olanlar – dvoryanlar, zadəganlar artıq adi bir kəndli ilə bərabər olur. Hamının hücrəsi eynidir. Hamı eyni rahiblik əhdini verir, eyni ləbbadə geyinir, eyni qara çörəyi yeyir, eyni küləş üstündə yatır, eyni kül üstündə can verir. Əyinlərində eyni giş paltar, bellərində eyni kəndirlər. Əgər ayaqyalın getmək tələb olunursa, hamı ayaqyalın gəzir. Onların arasında da knyaz ola bilər, lakin knyaz da hamı kimi kölgədən başqa bir şey deyildir. Artıq heç bir rütbə yoxdur. Familiyalar belə artıq yox olur. Yalnız adlar qalır. Yeni qoyulan adlar hamını bərabərləşdirir. İnsanlar öz doğma ailələrindən, qan qohumlarından ayrılır, mənəvi ailələr yaradırlar. Artıq onların bütün bəşəriyyətdən başqa heç bir qohumları yoxdur. Onlar yoxsullara kömək edir, xəstələrə baxırlar. Tabe olmaq istədikləri adamları özləri seçirlər. Onlar bir-birinə "qardaş" deyə xitab edirlər.

Siz mənim sözümü kəsib deyirsiniz: "Bu ki ideal bir monastırdır!"

Bəli, əgər belə bir monastır mümkün olsaydı, mən onu nəzərə almalı idim.

Elə buna görə də kitabın daha əvvəlki hissəsində monastırdan hörmətlə bəhs etdim. Əgər orta əsrləri unutsaq, Asiyanı unutsaq, tarixi və siyasi məsələləri başqa bir zəmanəyə təxirə salsaq, o halda sırf fəlsəfi nöqteyi-nəzərindən, mübariz siyasət tələblərini nəzərə almadan, rahibliyə könüllü surətdə daxil olmaq və könüllü surətdə monastırda yaşamaq şərtilə, mən hər zaman rahibliyin icma əsaslarına müəyyən bir diqqətlə, bəzi hallarda isə hətta xeyirxah bir ciddiyyətlə yanaşmağa hazıram. İcma olan yerdə kommuna olar. Kommuna olan yerdə hüquq olar. Monastır bu düsturun məhsuludur. Bərabərlik, Qardaşlıq. Ey əzəmətli azadlıq! Bu azadlıqla nə qədər parlaq bir təbəddülat əlaqədardır! Azadlıq olsaydı, monastır respublikaya çevrilərdi.

Sözümüzə davam edirik.

Bu dörd divar arasında dustaq edilən, qaba ləbbadə geyinən bu kişilər, bu qadınlar hamısı bərabərdir, hamısı bir-birinə qardaş, bacı deyir. Çox gözəl, lakin onlar başqa işlə də məşğul olurlarmı?

Bəli, məşğul olurlar.

Onların məşğul olduğu iş nədir?

Onlar gözlərini qaranlığa dikir, diz çökür, qollarını bükürlər.

Bu nə deməkdir?

Beşinci fəsil

DUA

Onlar dua edirlər.

Kimə?

Allaha.

Allaha dua etmək nə deməkdir?

Bizdən xaric sonsuzluq deyilən bir şey varmı? O, vahidmidir, permanentmidir, immanentdirmi? Sonsuz olduğuna görə, mütləq substansionalmıdır[1]? Bir də orada, bizim xaricimizdə, substansiyası olmasaydı, o, məhdud ola bilərdimi? Sonsuz olduğuna görə, o, mütləq şüurludurmu? Bəs orada, bizim xaricimizdə, o, şüurlu olmasaydı, sonu olardımı? Biz özümüzə yalnız şəxsi varlıq ideyasını aid edə bildiyimiz halda, bu sonsuzluq bizdə kainatın mahiyyəti ideyasını oyadırmı? Başqa sözlə, biz ona nisbətən yalnız nisbi məfhum olduğumuz halda, özü mütləq bir məfhum deyilmi?

Bundan başqa, xaricimizdəki sonsuzluqla bir zamanda, daxilimizdə başqa bir sonsuzluq da vardırmı? Bu iki sonsuzluq (nə qədər də dəhşətli bir cəm rəqəmi) bir-biri üzərinə lay-lay yatmırmı? Bu ikinci sonsuzluq, necə deməli, birinci sonsuzluğun altında deyildir ki? Bəlkə, o, bir güzgü, bir inikas, bir əks-səda, bir uçurumdur ki, bunun da başqa bir uçurumla ümumi mərkəzi var? Bu ikinci sonsuzluğun da birinci sonsuzluq kimi ağlı vardırmı? O düşünürmü? Sevirmi? Arzu edirmi? Əgər hər iki sonsuzluğun ağlı varsa, o halda hər ikisinin iradə ibtidası var, istər ali və istərsə aşağı sonsuzluğun özünəməxsus "mənliyi" var. Bu aşağı "mənlik" – ruhdur, ali "mənlik" isə – Allahdır.

[1] *Substansiya* – hər şeyin əsasını təşkil edən maddə, əsas, cövhər

Fikrən aşağı sonsuzluğu ali sonsuzluqla təmas dərəcəsinə gətirmək də dua etmək deməkdir.

İnsan ruhundan heç bir şey iddia etməyək: ləğv etmək pis şeydir. İslah etmək və dəyişmək lazımdır. İnsanın bəzi qabiliyyətləri məchuliyyətə meyil edir məsələn, fikir, xəyal, dua. Məchulluq okean deməkdir. Bəs şüur nədir? Şüur məchulluğa doğru aparan bir kompas deməkdir. Fikir, xəyal, dua – əsrarın saçdığı qüdrətli bir nurdur. Onlara hörmət edək. Ruhun əzəmətlə saçdığı bu şüalar haraya meyil edir? Qaranlığa, yəni işığa.

Demokratiyanın da əzəməti bəşəriyyət aləmində heç bir şeyi rədd, inkar etməməkdədir. İnsan hüququ ilə yanaşı olaraq – hər halda, onun yaxınlığında – Ruhun da hüququ var.

Fanatizmi sarsıtmaq və sonsuzluğa pərəstiş etmək – qanun budur. Kainatın əsasları qarşısında diz çökərək, onun ulduzlarla dolu, saysız-hesabsız qollarının seyri ilə kifayətlənmək olmaz. Bizim borcumuz var: biz insan ruhunu bəsləməli, əsrarı möcüzədən müdafiə etməli, dərk etmədiyimizə hörmət bəsləyərək, mənasızlıqları rədd etməli, izah edilməyənlər sahəsinə yalnız zəruri olanları buraxmalı, etiqadları sağlamlaşdırmalı, dini mövhumatdan təmizləməli, Allah adı ilə tüfeyli həyat sürənləri məhv etməliyik.

Altıncı fəsil

DUANIN İNKAREDİLMƏZ ŞƏFALARI

Dua etmək üsullarına gəlincə, hər bir üsul yaxşıdır, təki o üsul səmimi olsun. Dua kitabınızı üzüaşağı çevirin və sonsuzluğa qovuşun.

Sonsuzluğu inkar edən bir fəlsəfə olduğu bizə məlumdur. Günəşi inkar edən bir fəlsəfə də var; patologiya sahəsinə aid olan bu fəlsəfəyə korluq deyirlər.

Məhrum olduğumuz bir hissi həqiqət mənbəyi zənn etməyi ancaq həyasızcasına özünə güvənən korlar bacarar.

Bu korlar kimi gözübağlı yeriyən fəlsəfənin, Allahı seyr edən fəlsəfəyə yuxarıdan aşağı, təkəbbür və tənəzzülə baxması da çox maraqlıdır. O, "Onların özləri də, günəşləri də nə qədər miskindir" deyə bağıran köstəbəklərə bənzər.

Şöhrət qazanmış müdrik ateistlər olduğu bizə məlumdur. Qəlblərinin dərinliyində öz hikmətləri sayəsində həqiqəti dərk etmək dərəcəsinə gələn bu ateistlər öz ateizmlərinə çox da inanmırlar. Onlara başqa ad qoyulsaydı, daha düz olardı. Hər halda, Allaha inanmasalar belə, ağıllarının əzəməti özü-özlüyündə Allahın varlığını sübut edir.

Biz onları filosof kimi alqışladığımız halda, onların fəlsəfəsini amansızcasına rədd edirik.

Bəzilərinin çox asanlıqla özlərini sözlə qoruması heyrətə layiqdir. Şimalda mövcud olan və dumanlı ibarələri sevən bir metafizika məktəbi "qüvvə" sözünü "iradə" sözü ilə əvəz edərək, insanların şüurunda inqilab yaratdığını güman etmişdi.

"Bitki göyərir" əvəzinə "bitki istəyir" demək, "kainat istəyir" sözləri də əlavə edilmiş olsaydı, əlbəttə, çox səmərəli ola bilərdi. Nə üçün? Çünki bunun nəticəsi belə ola bilərdi: bitki istəyir, demək, bitkinin öz "mənliyi" var, kainat da istəyir, demək, kainatın da öz Allahı var.

Bizə gəlincə, biz bu məktəbin əksinə olaraq, "*apriori*"[1] heç bir şey rədd etməsək də, yenə də bu məktəbin etiraf etdiyi kimi bitkidə iradə olduğunu güman etmək, bu məktəbin inkar etdiyi kimi kainatda iradə olduğunu fərz etməkdən daha çətindir.

Sonsuzluğun iradəsini, yəni Allahın iradəsini inkar etmək yalnız sonsuzluğu inkar etmək şərti ilə mümkündür. Bunu artıq isbat etdik.

Sonsuzluğun inkarı bilavasitə nihilizmə aparır. Hər bir şey "ağlın uydurması"na çevrilir.

Nihilizm ilə mübahisə etməyin heç bir mənası yoxdur, çünki məntiqi nihilist öz müsahibinin varlığına şübhə etməklə bərabər, öz varlığına da o qədər əmin deyildir.

Nihilistin nöqteyi-nəzərincə, onun özü özü üçün "ağıl uydurması" ola bilər.

Lakin o, nəzərə almır ki, "ağıl" sözünü işlədər-işlətməz bütün inkar etdiklərini yenə özü bir küll halında təsdiq edir.

Bir sözlə, hər bir şeyi birhecalı "yox" sözü ilə izah edən fəlsəfə üçün fikirləşmək yolu bağlıdır.

"Yox" sözünün yalnız bir cavabı var: "Hə!"

Nihilizm insanı çıxılmaz vəziyyətdə qoyur.

[1] Qabaqcadan, təcrübədən asılı olmayaraq (*lat.*)

Yoxluq yoxdur. Sıfır mövcud deyil. Hər şey bir şeydir. Heçin özü də bir şeydir.

İnsanı yaşadan yalnız çörək deyil, təsdiq və etirafdır.

Görmək və göstərmək kifayət deyil. Fəlsəfə fəal olmalıdır. Fəlsəfənin meyli və məqsədi insanın kamala yetişməsi olmalıdır. Sokrat Adəmdə təcəssüm etməli və Mark Avrelini yaratmalıdır. Başqa sözlə, həyatsevər insanda həkim insanı kəşf etməlidir. Behişti Aristotelin Ədəmi ilə əvəz etməlidir. Elm dirilik vasitəsi olmalıdır. Zövq, nəşə almaqdan da miskin bir məqsəd və puç bir şöhrətpərəstlik ola bilərmi? Heyvan da zövq alır. Düşünmək – budur insan ruhunun həqiqi qələbəsi! Susamış insanlıqda fikir badəsini ortaya çıxarmaq, Allahı dərk etmək hissini bütün insanlara bir həyat cövhəri kimi vermək, insanların qəlblərində vicdanı biliklə qardaş olmağa məcbur etmək, bu əsrarlı ittifaq sayəsində insanları ədalətli etmək – həqiqi fəlsəfənin qayə və məqsədi budur! Əxlaq – həqiqətlərin çiçəklənməsi deməkdir. Baxıb düşünməyin sonu hərəkətdir. Mütləq məqsədə uyğun olmalıdır. Elə bir vəziyyət yaranmalıdır ki, insan zəkası idealı bir hava kimi uda bilsin, sora bilsin, həzm edə bilsin. Məhz ideal bu sözləri deyə bilər: "Alın məni, yeyin məni, bu mənim bədənimdir, bu mənim qanımdır". Hikmət – müqəddəs nemətdir. O yalnız bu şərtlə elmə qarşı səmərəsiz bir məhəbbət dərəcəsindən çıxır və insanları birləşdirmək üçün yeganə və əsas vasitə olmaqla fəlsəfədən dinə çevrilir.

Fəlsəfə öz zövqü üçün və yalnız bir maraq xatirinə sirri seyr etməkdən ötrü yüksəldilmiş bir qüllə olmamalıdır.

Biz isə fikrimizi başqa bir zamanda inkişaf etdirmək niyyətində olduğumuzdan yalnız bunu deyə bilərik. İki hərəkətverici qüvvə olmadan nə bir çıxış nöqtəsi kimi insanın, nə də bir məqsəd kimi tərəqqinin mənası yoxdur.

Bu iki qüvvə isə – iman və məhəbbətdir.

Tərəqqi bir məqsəd, ideal bir nümunədir.

İdeal, mütləq, kamal, sonsuzluq – eyni mənanı ifadə edən sözlərdir.

Yeddinci fəsil

EHTİYATLA MƏZƏMMƏT ETMƏLİ

Tarixin və fəlsəfənin üzərində əbədi və eyni zamanda sadə vəzifələr var: ilk keşiş Kayafaya qarşı, hakim Əjdahaya qarşı, qanunverici Trimalxiona qarşı, imperator Tiveriyə qarşı mübarizə aparmaq – bunlar aydın, müəyyən, dəqiq bir şeydir, burada dumanlı və anlaşılmaz heç bir şey yoxdur. Lakin bir çox narahatlıqlar və sui-istifadə edilən cəhətlərlə bərabər, ayrıca yaşamaq hüququ etiraf və aman tələb edir. Tərki-dünyalıq – sırf bəşəri məsələdir.

Aldanma məskəni olmaqla bərabər, günahsızlıq məskəni, özünü aldatma məskəni olmaqla bərabər, yaxşı niyyətlər məskəni, iztirab və əziyyət məskəni olmaqla bərabər, şəhidlik məskəni olan monastırlardan bəhs edərkən, demək olar ki, hər zaman həm onlara yol verməli, həm də onları rədd etməlidir.

Monastır – ziddiyyətdir. Monastırın məqsədi qurtuluş olduğu halda, vasitəsi qurban verməkdir. Monastır – sonsuz bir fədakarlıqla əvəzi çıxan sonsuz bir xudbinlik deməkdir.

Hakim olmaq üçün hakimiyyətdən əl çəkmək – görünür, rahibliyin şüarı budur!

Monastırda zövq almaq üçün əzab çəkirlər. Borcu yalnız ölüm ödəyəcəyini bildikləri halda, veksel verirlər. Yer üzündəki qaranlıq bahasına işıqlı göylər dünyasını satın alırlar. Behişt səadətlərinin bir rəhni kimi zəhər içirlər.

Rahiblik əhdini vermək – haqqı əbədi həyatla verilən bir intihardır.

Bizcə, burada istehza yeri deyildir. Burada hər şey ciddidir: xeyir də, şər də.

Ədalətli insan qaşqabağını sallayar, lakin heç bir zaman istehza ilə gülməz. Bizim üçün kin deyil, qəzəb məqbuldur.

Səkkizinci fəsil

ETİQAD, QANUN

Bir neçə söz.

Biz kilsəni fitnəkarlıqla dolduğu zaman pisləyirik, mənəvi nemətlərin mühafizələri dünyəvi nemətlər eşqinə düşdükləri zaman onlara nifrət bəsləyirik, lakin fikrə dalanlara biz hər yerdə hörmət edirik.

Biz diz çökənləri alqışlayırıq.

Etiqad! İnsana lazım olan budur. Vay olsun heç bir şeyə inanmayanların halına!

Seyrə dalmaq hələ avara olmaq demək deyildir. Zəhmət iki cürdür: biri gözə görünən, biri görünməyən.

Seyrə dalmaq da zəhmət çəkmək kimi bir şeydir. Düşünmək də hərəkət etmək kimi bir şeydir. Sinədə çarpazlanan qollar işləyir, yuyulmuş barmaqlar yaradır. Göylərə dikilmiş nəzər – hərəkət deməkdir.

Fales dörd il hərəkətsiz qaldı. Fəlsəfənin əsaslarını da qoyan odur.

Gözlərimiz qarşısında inzivaya çəkilənlər avara adamlar deyildir, rahiblər tüfeyli deyildir.

Əsrar haqqında düşünməyin əzəməti vardır.

Yuxarıda söylədiyimiz fikirlərin heç birindən əl çəkməməklə bərabər, biz belə güman edirik ki, canlı insanlar heç bir zaman qəbri yaddan çıxarmamalıdırlar. Bu məsələdə keşiş də, filosof da birləşir. Ölüm labüddür. Bu məsələdə trapistlər ordeninin abbatı Horatsi ilə səs-səsə verir.

Ölüm fikrini damcı-damcı həyata yeritmək – filosof üçün də, zahid üçün də bir qaydadır. Bu məsələdə filosof da, zahid də birbirilə razılaşırlar.

Maddi inkişaf mövcuddur və biz bunu arzu edirik. Bundan başqa mənəvi əzəmət vardır ki, biz buna da can atırıq.

Yüngülməzac və tez nəticə çıxaran adamlar deyirlər ki, fikirləri əsrara doğru çevrilən bu hərəkətsiz kölgələrin nə mənası var? Onlar kimə lazımdır? Onlar nə ilə məşğuldurlar?

Heyhat! Bizi əhatə edən və bizi gözləyən qaranlıq qarşısında və son böyük çürümə nəticəsində nə şəklə düşəcəyimizi bilmədiyimiz halda, biz belə cavab verməyə məcbur oluruq: "Bəlkə də, bu ruhların etdiklərindən daha yüksək əməl yoxdur". Və əlavə edirik: "Bəlkə də, bundan daha faydalı zəhmət yoxdur".

Axı ömründə heç bir zaman dua etməyən adamların əvəzinə daim dua edəcək adamlara ehtiyac var.

Bizcə, məsələnin məğzi duaya nə qədər fikir qarışmasındadır.

Dua edən Leybnis – əzəmətlidir, Allaha sitayiş edən Volter gözəldir. *Deo erexit Voltaire*[1].

Biz dinlərə qarşı dini müdafiə etmək tərəfdarıyıq.

Biz duapərdazlığın bir heç olduğuna və eyni zamanda duanın ülviyyətinə inananlardanıq.

Lakin xoşbəxtlikdən on doqquzuncu əsrə təsiri olmayacağına inandığımız bugünkü dövrdə, yəni alçaq alınlı və alçaq ürəkli bu qədər insanların yaşadığı dövrdə, bu qədər məxluqun nəşəni əxlaqi bir prinsipə çevirdiyi və hamının keçici və mənfur maddi nemətlərə aludə olduqları dövrdə – bu dünyadan əl çəkən hər bir şəxs bizim nəzərimizdə hörmətə layiqdir. Monastır tərki-dünyalıq deməkdir. Yanlış bir səbəbə görə edilən fədakarlıq, hər halda, fədakarlıqdır. Sərt bir səhvi bir vəzifə kimi qarşıya qoymaq da bir alicənablıqdır.

Əgər həqiqət sonuna qədər və ətraflı tədqiq edilmiş olsaydı, monastırın öz-özlüyündə və mücərrəd bir məfhum kimi, şübhəsiz, müəyyən bir əzəmətə malik olduğunu etiraf etməyə məcbur olardıq. Xüsusilə, qadın monastırları belədir, çünki cəmiyyətimizdə ən çox iztirab çəkən qadındır və könüllü olaraq monastır inzivasına çəkilməyin özündə də bir etiraz ruhu vardır.

Bir az əvvəl bəzi xüsusiyyətlərini təsvir etdiyimiz bu qədər sərt və eyni zamanda qəmli olan monastır həyatı azadlıqdan məhrum olduğu üçün həyat adlana bilməz və təskinlik olmadığına görə qəbir də adlana bilməz. Bu, çox qəribə bir yerdir, o, yüksək bir dağ təpəsinə bənzər ki, bir tərəfində bizim bu saat olduğumuz, o biri tərəfində isə bizim sabah olacağımız uçurum görünür. Bu iki dünyanı bir-birindən ayıran dar və dumanlı bir sədd var ki, eyni zamanda hər iki tərəfdən həm işıqlanır, həm də qaranlıq çökür, elə bir yer ki, burada həyatın sönən işığı ölümün tutqun işığına qarışır, bu boz qaranlıq məzar qaranlığıdır.

[1] Allaha dua etdi Volter (*lat.*)

Bizə, yəni bu qadınların etiqad etdiklərinə etiqad etməyənlərə, lakin onlar kimi etiqadla yaşayanlara gəlincə, biz heç bir zaman bu titrəyən və tez inanan fədakar insanlara, bu təsəlli ilə yaşayan miskin və ülvi ruhlara, əsrarın tam kənarında, yəni onlar üçün bağlı olan dünya ilə onlar üçün hələ qapısı açılmamış olan göylər arasında yaşamağa cəsarət edən insanlara müqəddəs və mehriban bir qorxu duymadan, mərhəmət və hətta qibtə belə duymadan baxa bilmirik. Ruhları görünməz bir işığa doğru meyil edən, bu işığın harada olduğunu yalnız zənn etmək səadətinə malik olan, uçurum və məchuliyyəti axtaran bu insanlar dizi üstə, həyəcan içində, qorxu içində bəzən əbədiyyətin dərin təsirlərini duyaraq heyran və məftun nəzərlərini hərəkətsiz bir zülmətə dikmişlər.

Səkkizinci kitab

QƏBİRİSTANLAR ONLARA VERİLƏNİ QƏBUL EDİR

Birinci fəsil

BURADA MONASTIRA GİRMƏK ÜSULUNDAN BƏHS OLUNUR

Jan Valjan belə bir qadın monastırına düşmüşdü. Foşlevanın dediyi kimi, o, buraya "göydən enmişdi".

Jan Valjan Polonso küçəsinin tinindəki bağın hasarını aşmışdı. Gecənin qaranlığında gələn bu mələklər nəğməsi səhər duasını oxuyan rahibələrin xoru idi. Qaranlıqda rast gəldiyi bu salon ibadətxana idi: döşəmənin üstündə sərili gördüyü bu kölgə "tövbə ayini"ni icra edən bacılardan biri idi: heyrətinə səbəb olan bu zınqırov səsi Foşlevan babanın dizinə bağlanmış zınqırovun səsi idi.

Kozettanı yatızdırdıqdan sonra Jan Valjanla Foşlevan, yuxarıda söylədiyimiz kimi, yanar ocaq qabağında oturub bir stəkan şərab və bir parça pendirlə şam etdilər. Sonra onlar qarovulxanadakı yeganə çarpayıda Kozetta yatmış olduğundan, döşəmə üstünə küləş tökərək uzanıb tez yatdılar. Yatarkən Jan Valjan: "Mən burada həmişəlik qalmalıyam" – dedi. Bu sözlər bütün gecəni Foşlevanın beynindən çıxmırdı.

Doğrusunu söyləsək, heç biri bu gecə səhərə kimi yata bilmədi.

Jan Valjan Javerin onu tanımış olduğunu və izinə düşdüyünü hiss edərək Kozetta ilə birlikdə Parisə qayıdarsa, məhv olacaqlarını gözəlcə anlayırdı. Onun başı üstünü alan bu yeni fırtına qovalayaraq onu monastırın içinə soxmuşdu, odur ki, Jan Valjan yalnız bir şey düşünürdü: o, burada qalmalı idi. Bu saat belə vəziyyətdə qalan bir

bədbəxt üçün monastır həm ən qorxulu, həm də ən təhlükəsiz bir yer idi: qorxulu idi ona görə ki, bu monastıra bir kişi belə girməyə cəsarət etməzdi, burada onu tapmış olsaydılar, cinayət üstündə tutulduğundan ancaq məhv ola bilərdi – bu surətlə Jan Valjan üçün buradan yalnız bir yol vardı ki, o da həbsxanaya gedirdi, bura ən təhlükəsiz bir yer idi, ona görə ki, buraya girməyə müvəffəq olaraq qaldıqdan sonra onu burada axtarmaq heç kəsin ağlına gəlməzdi. Yaşamaq mümkün olmayan yerdə yaşamaq – qurtuluş demək idi.

Foşlevan da dərindən düşünməkdə idi. Hər şeydən əvvəl o heç bir şey başa düşmədiyini etiraf etməyə məcbur oldu. Ətrafında uca divarlar olduğu halda, cənab Madlen buraya nə cür gələ bilmişdi? Monastır divarlarını asanlıqla aşmaq olmaz. Bəs necə oldu ki, o, bu uşaqla bərabər monastırın içinə düşdü? Düz divarlara qucağında uşaq dırmaşmaq olmaz. Bu uşaq kimin uşağıdır, onlar ikisi də haradan gəldilər? Foşlevan monastırda yaşadığı zamandan Monreyl-sür-Merdən heç bir xəbəri yox idi və orada olan hadisələri bilmirdi. Madlen baba özünü elə aparırdı ki, ona sual vermək də ədəbsizlik olardı. Həm də Foşlevan öz-özünə deyirdi: "Müqəddəs adamlara sual verməzlər!" Cənab Madlen Foşlevanın nəzərində yenə də əvvəlki əhəmiyyətini mühafizə edirdi. Jan Valjanın ağzından qaçırdığı bir neçə sözdən Foşlevan yalnız cənab Madlenin zəmanə ağır olduğuna görə, bəlkə də, iflas etmiş olduğunu, borclularından qaçdığını anlaya bildi; bəlkə də, siyasi bir işə qarışmış və əngələ düşmüşdü. Lakin bu məsələlərə görə Foşlevan heç də cənab Madlendən üz döndərə bilməzdi; o da şimalda yaşayan bir çox kəndlilərimiz kimi köhnədən bonapartist ruhunda idi. Cənab Madlen bu təqiblərdən qaçmağa çalışaraq, bu monastırı sığınacaq bir yer seçmiş və təbii bir şeydir ki, burada qalmaq istəyir. Lakin Foşlevanın anlamadığı və daim düşünməyə məcbur olduğu ən qaranlıq məsələ cənab Madlenin buraya nə cür gəlməsi, həm də balaca bir uşaqla gəlməsi idi. Foşlevan cənab Madleni də, qızı da görür, onlara toxunur, onlarla danışır, lakin yenə də bunun bir həqiqət olduğuna inana bilmirdi. Birinci dəfə idi ki, Foşlevanın daxmasına ağlasığmaz bir şey qədəm basırdı. Foşlevan ehtimallar içində çaşıb qalır və heç bir şey təsəvvür edə bilmirdi. Onun üçün yalnız bircə şey aydın idi: cənab Madlen onu ölümdən qurtarmışdı. Bu məsələdə o, möhkəm idi və qərar verməsinə səbəb də, yəqin, bu oldu. Foşlevan öz-özünə dedi ki,

indi növbə mənimdir. Vicdanı isə bunu əlavə etdi: "Araba məni əzdiyi zaman cənab Madlen məni çıxarmaq üçün arabanın altına atılarkən, heç bu qədər fikirləşməmişdi". Foşlevan cənab Madleni qurtarmağa qərar verdi.

O yenə də özünə bir neçə sual verib, bu suallara cavab tapdı: "Əgər o, oğru olsaydı, onun məni xilas etdiyini yadıma salıb, mən də onu xilas edərdimmi? Əlbəttə. Əgər o, qatil olsaydı, mən onu xilas edərdimmi? Əlbəttə. Əgər o, müqəddəs adam olsaydı, onu xilas edərdimmi? Əlbəttə".

Lakin bütün çətinlik onu monastırda necə saxlamaqda idi. Bununla belə, Foşlevan belə fövqəladə bir çətinlik qarşısında geri çəkilmədi, qorxmadı. Foşlevan pikardiyalı sadə bir kəndli idi; o, sərt monastır qaydalarının və müqəddəs Benediktin sərt nizamnaməsinin qala hasarını aşmağa qərar verdi, ixtiyarında isə hücum nərdivanı deyil, yalnız sədaqət, səmimi bir arzu və bir də bir qədər köhnə kəndli hiyləgərliyi vardı ki, bu dəfə ona öz alicənab niyyətinə nail olması üçün kömək etməli idi. Bütün ömrünü xudbin bir adam kimi yaşamış qoca Foşlevan, həyatının bu son günlərində, şikəst və aciz qaldığı bir zamanda, artıq həyatda heç bir şeylə maraqlanmadığı halda, təşəkkür və minnətdarlıq hissində təsəlli taparaq yaxşılıq edə bilmək imkanına rast gəldi. Ömründə gözəl şərab dadı görməmiş can verən bir xəstə, yanında tapdığı bir stəkan gözəl şərabın üstünə atıldığı kimi, o da eyni tamarzı ilə bu yaxşılıq imkanından yapışdı. Bundan başqa, neçə illərdən bəri bu monastırda nəfəs aldığı hava onun xudpəsəndliyini məhv etmiş və qəlbində yaxşılıq etmək arzusu oyatmışdı.

Demək, Foşlevan özünü cənab Madlenin ixtiyarına verməyi qərara aldı.

Biz bir az əvvəl Foşlevanı "pikardiyalı, sadə bir kəndli" adlandırdıq. Tərifimiz düz tərifdir, ancaq natamamdır. Hekayətimizin bu mərhələsində Foşlevan babanı bir qədər psixoloji cəhətdən xarakterizə etmək faydalı olar. Foşlevan baba kəndli olsa da, vaxtilə notarius yanında kargüzar vəzifəsində qulluq etdiyindən, bir az hiyləgər olmuş, sadədilliyinə fərasət qarışmışdı. Bir çox müxtəlif səbəblərə görə işlərində iflas etdikdən sonra Foşlevan kargüzarlığı ataraq, arabaçı və günəmuzd işləyən bir fəhlə oldu. Bununla belə, məşğələsi söyüş söyməkdən və qamçı yelləməkdən ibarət olsa da

(Foşlevanın atlarının qamçısız dolana bilmədiyi hiss olunurdu), onun təbiəti hələ də kargüzar təbiəti idi. Foşlevan baba fitri bir zəkaya malik idi, o, adi kəndli kimi danışmazdı; söhbətdə məharətlə iştirak edərdi ki, belə şeylərə kəndlərdə az təsadüf edilər. Kəndlilər də onun barəsində: "O, şlyapalı ağa kimi bir şeydir" – deyərdilər. Foşlevan, doğrudan da, keçən əsrin cəsarətli və yüngül dilində "yarımşəhərli, yarımkəndli" deyilən sadə adamlar qəbilindən idi. Saraylarda daxmalar haqqında işlədilən məzaclarda bu adamlara: "Nə şəhərlidir, nə kəndli, nə ətdir, nə balıq" – deyərdilər. Foşlevan miskin, zavallı, bir ayağı qəbirdə olan kaftar bir qoca idi. Taleyi onu çox sarsıtmış və əziyyətlər çəkmiş olsa da, Foşlevan yenə də ilk niyyətinə, həm də könüllü olaraq, tabe olan bir insan idi. Bu isə elə qiymətli xasiyyətdir ki, heç bir zaman şər işə meyil etməyə yol verməz. Hər halda, onun da məhrum olmadığı nöqsanları və eyibləri səthi bir xarakter daşıyırdı. Bir sözlə, Foşlevan, yaxından tanış olduqda, yaxşı təsir bağışlayan adamlardan idi. Alnının yuxarı hissəsində olan və adətən kin, yaxud kütlük bildirən qırışlar onun üzündə yox idi.

Foşlevan bütün gecəni ağır fikirlərlə keçirdikdən sonra, səhər tezdən gözlərini açdıqda, cənab Madlenin küləş üstündə oturub yatan Kozettanı seyr etdiyini gördü. Foşlevan yerindən duraraq:

– Siz buraya gizli gəlmişsiniz, – dedi. – İndi isə deyin görüm, buraya öz qaydası ilə girmək üçün siz nə etmək istəyirsiniz?

Foşlevanın bu sözləri işin nə vəziyyətdə olduğunu göstərirdi və Jan Valjanı dalğınlıqdan oyatdı.

Qocalar məsləhətləşməyə başladılar.

Foşlevan dedi:

– Hər şeydən əvvəl, mən sizə bir şey söyləməliyəm. Nə siz, nə də bu qız bu otaqdan bayıra ayaq basmamalısınız. Qapıdan bayıra bir addım belə atsanız, biz məhv olarıq.

– Doğrudur.

– Cənab Madlen, siz buraya çox yaxşı vaxtda, yəni demək istəyirəm ki, çox pis vaxtda gəlmisiniz. Bu qoca rahibələrdən biri çox bərk xəstədir. Demək, bizə o qədər də əhəmiyyət verməzlər. Deyəsən, o lap can verir. Başı üstündə dua oxuyurlar. Bütün monastır gecə-gündüz ayaq üstədir. Başları bərk qarışıb. Can verən arvadın müqəddəs olduğunu söyləyirlər. Doğrusunu bilmək istəsəniz, biz elə hamımız burada müqəddəs adamlarıq. Aramızda bircə fərq var ki, onlar "bizim hücrəmiz"

dediyi halda, mən "mənim daxmam" deyirəm. Bu saat can təslimi duasını oxuyacaqlar, sonra isə ölü duasını. Bu gün biz qətiyyən narahat olmaya bilərik, ancaq sabah üçün söz verə bilmərəm.

Jan Valjan dedi:

– Lakin bu daxma divarın içindədir, qabağında xarabalar, ətrafında isə ağaclar var, monastır tərəfdən görünməz.

– Rahibələr də heç bir zaman bu tərəfə yaxınlaşmazlar.

– Bəs elə isə, nə var ki? – Jan Valjan soruşdu. Onun bu sözünün axırındakı sual işarəsi bu demək idi ki, burada, məncə, çox gözəl gizlənmək olar.

Foşlevanın da etiraz etdiyi elə bu məsələ idi:

– Bəs qızlar?

– Hansı qızlar? – deyə Jan Valjan heyrət etdi.

Foşlevan cavab vermək üçün yenicə ağzını açmışdı ki, birdən zəng səsi gəldi.

Foşlevan:

– Rahibə öldü, – dedi. – Ölüm zəngini eşidirsinizmi?

Zəng ikinci dəfə çalındı.

– Bu, ölüm zəngidir, cənab Madlen. Cənazə kilsədən çıxarılıncaya qədər bu zəng düz iyirmi dörd saat ərzində hər dəqiqə çalınacaqdır. Qızlar da, bilirsinizmi, oynayırlar. Tənəffüs vaxtı topları təsadüfən bu tərəfə dığırlanmış olsa, qadağan edilməsinə baxmayaraq, o saat yüyürə-yüyürə gəlib, burunlarını hər tərəfə soxmağa başlayacaqlar. Bu balaca mələklər lap cin tayfası kimi bir şeydir.

– Kimlər? – deyə Jan Valjan soruşdu.

– Qızlar. Onlar sizi lap tez taparlar, şübhə etməyə bilərsiniz. Tapandan sonra da başlayacaqlar bağırmağa: "Vay, burada kişi varmış!" Lakin bu gün buraya heç kəs gəlməz. Heç bir dəyişiklik olmayacaq. Bütün günü dua oxuyacaqlar. Zəngin çalındığını eşidirsinizmi? Mən sizə demədimmi, dəqiqədə bir dəfə vururlar. Bu, ölüm zəngidir.

– Başa düşdüm, Foşlevan baba. Burada pansion qızları var, eləmi?

Jan Valjan öz-özünə düşündü: "Kozettanın da tərbiyəsi işi düzəlir".

Foşlevan səsləndi:

– Bəs nə! Əlbəttə, burada balaca qızlar var! Gözlərinə sataşsanız, ətrafınızda bir civilti başlarlar ki! Sonra da dərhal qaçıb gedərlər!

Burada kişi taun kimi bir şeydir. Görmürsünüzmü, vəhşi bir heyvan kimi mənim də ayağıma bir zınqırov bağlamışlar.

Jan Valjan dərin bir fikrə daldı.

"Bu monastır – bizim qurtuluşumuzdur" – deyə öz-özünə pıçıldadı. Sonra ucadan:

– Bəli, – dedi. – Ən çətin şey burada qalmaqdır.

Foşlevan:

– Yox, – dedi, – ən çətin şey buradan çıxmaqdır.

Jan Valjan ürəyindən qanın çəkildiyini hiss etdi.

– Buradan çıxmaqmı?

– Bəli, cənab Madlen. Bir daha buraya qayıtmaq üçün əvvəlcə buradan çıxmaq lazımdır.

Foşlevan zəngin bir daha çalınmasını gözləyib sözünə davam etdi:

– Sizi birdən-birə burada görsələr, yaramaz. O saat haradan gəldiyinizi soruşarlar. Məncə, siz göydən də düşə bilərsiniz, çünki mən sizi tanıyıram. Amma rahibələrə sizin qapıdan içəri girməyiniz lazımdır.

Birdən ikinci bir zəngin daha qəribə bir səsi gəldi.

Foşlevan:

– Aha! – dedi. – İndi kapitulu dua üçün bir yerə çağırırlar. Seçici bacılar dua oxuyacaq. Rahibələrdən biri öləndə hər dəfə belə edirlər. Arvad səhər açılanda ölüb, adətən, hamı səhər açılanda ölür. Siz gəldiyiniz yolla çıxa bilməzsinizmi? Bura baxın, mən sizi sorğusual etmək fikrində deyiləm, lakin yenə də bir deyin görüm, siz buraya neçə gəldiniz?

Jan Valjan sapsarı oldu. Yenidən bu hasarı aşaraq bu dəhşətli küçəyə düşmək fikri ürəyinə titrətmə salırdı. Pələnglərlə dolu bir meşədən çıxaraq təhlükəsiz bir yerə düşdükdən sonra dostunuzun sizə yenə oraya qayıtmağı məsləhət gördüyünü təsəvvür edin.

Jan Valjan bütün məhəllədə polislər, agentlər qaynaşdığını təsəvvür edirdi. O, hər yerdə xəfiyyələr, qarovullar, yaxasından tutmaq istəyən dəhşətli pəncələr görürdü.

Kim bilir, bəlkə də, Javerin özü belə küçənin bir tərəfində dayanıb onu gözləyirdi.

– Mümkün deyil, Foşlevan baba, – dedi. – Mənim göydən düşdüyümü zənn etsəniz yaxşı olar.

Foşlevan cavab verdi:

– Elə mən də belə düşünürəm, mən lap inanıram, bu barədə danışmasanız da olar. Görünür, cənab Allah sizi yaxından görmək üçün yuxarı qaldırıb, əlinizdən tutmuş, sonra da buraxmışdır. Ancaq, görünür, o, sizi kişi monastırına atmaq istəyirmiş, amma yanılıb, qadın monastırına atıb. Bax, yenə zəng çalırlar. Bu zəngin mənası budur: qapıçı şəhər idarəsinə gedib rahibənin öldüyünü xəbər verməli, oradan da adam göndərib ölünü müayinə edən həkim çağırmalıdırlar. Bütün bu rəsmiyyət ölüm münasibətiledir. Bizim rahibələr bu müayinələri heç sevməzlər. Həkimlərin hamısı kafir adamlardır, heç bir şeyə inanmırlar. Onlar örtüyü qaldırırlar. Bəzən başqa bir şey də qaldırırlar. Görəsən, rahibələr bu dəfə həkim dalınca adam göndərməyə nə üçün tələsirlər? Görəsən, nə olmuşdur? Sizin balaca balanız da hələ yatır. Adı nədir?

– Kozetta.

– Bu sizin qızınızdır? Daha doğrusu, nəvənizdir, deyilmi?

– Bəli.

– Onun üçün buradan çıxmaq çətin olmaz. Bağçadan monastır həyətinə çıxan iş qapısı var. Mən qapını döyərəm. Qapıçı açar. Əlimə bir səbət alaram, səbətin də içinə balacanı qoyaram. Sadə bir şey. Burada qəribə bir şey yoxdur, – deyərlər ki, Foşlevan baba səbətlə küçəyə çıxmışdır. Ancaq siz qıza tapşırmalısınız ki, dinc otursun, dinibdanışmasın. Səbətin üstünü pərdə ilə örtərəm. Heç kəs onu görməz. Sonra mənim qoca bir dostum var, kar arvaddır. Yaşıl yol küçəsində meyvə satır, hələ evində bir uşaq çarpayısı da var. Nə qədər lazım olarsa, uşaq onun yanında qala bilər. Qarının qulağına bağıraram ki, bu qız mənim qardaşım qızıdır, sabaha qədər yanında qalmalıdır. Sonra balaca sizinlə birlikdə buraya qayıdar, hər halda, mən işi elə düzəldərəm ki, siz yenə buraya qayıdarsınız. Ancaq belə olmalıdır. Lakin siz buradan necə çıxacaqsınız?

Jan Valjan başını yırğaladı.

– Məni gərək heç kəs görməsin, Foşlevan baba, bütün məsələ bundadır. Kozetta kimi məni də səbətin içində, pərdə ilə örtüb çıxarmaq üçün bir çarə tapmalısınız.

Foşlevan qulağını qaşımağa başladı, bu da onun bərk pərt olduğunu göstərirdi.

Üçüncü dəfə zəng çalındıqda fikrində başqa bir dönüş əmələ gəldi. Foşlevan baba:

– Budur, mərhumları müayinə edən həkim çıxıb gedir, – dedi. – O baxıb demişdir: "Elədir ki var, o vəfat etmişdir". Həkim behiştin qəbzinə qol çəkdikdən sonra dəfn mərasimləri bürosu tabut göndərməlidir. Əgər ölən baş rahibə isə, onu baş rahibələr tabuta qoyurlar. Əgər ölən rahibə bacılardan biri isə, onu bacılar tabuta qoyurlar. Bundan sonra mən gedib tabutu mıxlayıram. Tabutu mıxlamaq da mənim, yəni bağbanın vəzifəsidir. Bağban da hər zaman bir qədər məzarçıya bənzər. Tabutu aşağı mərtəbədəki küçəyə baxan kilsə salonuna qoyacaqlar, oraya isə həkimdən başqa heç bir kişi girə bilməz. Məni, bir də bu tabut qaldıranları kişi saymırlar. Həmin salonda mən tabutu mıxlamalıyam. Sonra tabutu qaldıranlar gələr, tabutu tələsik götürüb apararlar, vəssalam! Göylərin, cənnətin yolu budur. Boş bir qutu gətirir, içinə bir şey qoyub aparırlar. Dəfn də bu deməkdir.

Səhər günəşinin çəp düşən şüası xəfifcə Kozettanın üzünə toxundu. Kozetta hələ də yatırdı, ağzı azca açılmışdı, günəşin nurunu içən bir mələyə bənzəyirdi. Jan Valjanın gözü Kozettada qaldı. O artıq Foşlevanı dinləmirdi.

Lakin səni dinləməsələr də hələ bu o demək deyildir ki, sən gərək susasan. Xeyirxah bağban sakitcə və boş-boşuna sözünə davam edirdi:

– Qəbri Vojirar qəbiristanında qazırlar. Belə deyirlər ki, guya, bu qəbiristanı bağlamaq istəyirlər. Qədim bir qəbiristandır, heç bir qaydaya, nizama tabe olmur, mundiri də yox, yaxınlarda istefa verməyə məcbur olacaqdır. Çox təəssüf olsun, hər halda, əlverişli yerdir. Orada mənim məzarçı bir dostum var. Metyen baba deyərlər. Bu monastırın rahibələrinə orada güzəşt edirlər – onları qəbiristana qaranlıq çökəndə aparırlar. Prefekturanın da bu xüsusda ayrıca qərarı var. Lakin dünəndən bəri nələr olmamışdır: Çarmıx ana ölmüş, Madlen baba isə...

Jan Valjan qəmli bir təbəssümlə:

– Basdırılmışdır, – dedi.

Foşlevan dərhal bu sözdən yapışaraq:

– Bəli, bəli, – dedi, – Siz həmişəlik burada qalsaydınız, doğrudan da, basdırılmış olardınız!

Dördüncü dəfə zəng səsləri gəldi. Foşlevan tələsik mıxdan asılmış zınqırovlu dizliyini götürdü və yenə dizinə bağladı.

– Bu dəfə məni çağırırlar, – dedi. – Rəis ana məni öz yanına çağırır. Lap elədir ki var. Toqqanın dəmiri əlimi yaralamışdır. Cənab Madlen, xahiş edirəm, yerinizdən tərpənməyin, məni gözləyin. Görünür, təzə xəbərlər var. Aclığınız olsa, orada şərab, çörək, pendir var.

Foşlevan "Gəlirəm, gəlirəm!" – deyə daxmadan çıxdı.

Jan Valjan Foşlevanın topal ayağının imkan verdiyi qədər sürətlə bağçaya tərəf getdiyini və yeriyə-yeriyə bir gözünün ucu ilə qovun ləklərinə baxdığını görürdü.

On dəqiqə belə keçmədən Foşlevan baba, zınqırovun səsi ilə yolda rast gələn rahibələri qaçıraraq, qapıya yanaşdı və yavaşcadan qapını döydü. İçəridən nazik bir səs: "Amin"– deyə cavab verdi, bu isə: "İçəri girin!" demək idi.

Foşlevanın döydüyü qapı, bağbanın qulluq işləri üçün girə bildiyi qəbul otağına açılırdı. Qəbul otağı isə kapitulun iclas salonunun yanında idi. Rəis bu otaqdakı təkcə stul üstündə oturub Foşlevanı gözləyirdi.

İkinci fəsil

FOŞLEVAN ÇƏTİN VƏZİYYƏTƏ DÜŞÜB

Müəyyən xarakterə malik olan insanlar və həmçinin müəyyən peşə sahibləri bəzi böhranlı vəziyyətlərdə həyəcanlı və eyni zamanda mənalı bir tövr almağı sevərlər. Bu, xüsusilə din xadimlərinə və rahiblərə aiddir. Foşlevan içəri girdikdə bir zaman məlahətli və təhsilli olan madmazel Blemarın, indi isə monastır rəisi olan Məsum ananın simasında məhz belə bir ikimənalı qayğılı ifadə görünürdü.

Bağban, hücrənin astanasında dayanıb, qorxa-qorxa baş əydi. Təsbeh çevirməkdə olan rəis onun üzünə baxaraq:

– Aha, Fovan baba, sizsiniz? – dedi.

Adətən, monastırda onu bu müxtəsər adla çağırardılar.

Foşlevan yenə baş əydi.

– Fovan baba, mən sizi yanıma çağırmağı əmr etmişdim.

– Budur, mən də gəlmişəm, şərəfli ana.

– Mən sizinlə danışmalıyam.

Foşlevan:

– Mən də sizinlə danışmalıyam, – dedi və öz cəsarətindən özü qorxdu. – Mən də sizə bir söz söyləməliyəm, şərəfli ana.

Rəis Foşlevanın üzünə baxdı.

– Aha, siz mənə, yəqin, bir xəbər söyləmək istəyirsiniz?

– Yox, mən xahiş etmək fikrindəyəm.

– Yaxşı, danışın.

Sabiq kargüzar, xeyirxah Foşlevan özünə qürrələnən kəndlilərdən biri idi. Nadanlıq hiyləgərliklə birləşdikdə, qüvvət yaranır. Belə nadanlıqdan qorxmazlar, ona görə həmişə onun tələsinə düşərlər. Foşlevan monastırda iki ildən artıq yaşadıqdan sonra, icmanın hörmətini qazanmışdı. O, bağbanlıq işlərini nəzərə almasaq, daim günlərini yalqızlıqda keçirdiyindən, istər-istəməz hər bir şeyə burnunu soxmağa başlaya bilərdi. Bu rahibə örtüyü altında gizlənərək oyan-buyana vurnuxan qadınlardan həmişə aralı yaşayan Foşlevan əvvəlcə qarşısında kölgələrin qımıldanmasından başqa bir şey görmürdü. Lakin müşahidəli və fərasətli olduğundan, nəhayət, bu kölgələrin canlı bir insan olduqlarını duymağa başladı. Foşlevanın nəzərində bütün bu ölülər dirildi, canlandı. O, gözləri uzağı görməyə başlayan bir kora, yaxud qulağı yaxşı eşitməyə başlayan bir kara bənzəyirdi. O, bu müxtəlif zəng səslərinin mənasını anlamağa çalışaraq, o dərəcəyə gəldi ki, artıq bu sirli və dilsiz məskəndə onun üçün anlaşılmaz heç bir şey qalmadı. Bu sfinks artıq onun qulağına bütün sirlərini bir-bir açıb söyləyirdi. Foşlevan hər bir şeyi bilir və hər şey haqqında sükut edirdi. Onun ustalığı da elə bunda idi. Monastırda onu səfeh zənn edirdilər. Din nəzərində bu, böyük bir məziyyətdir. Seçici analar üçün Foşlevan qiymətli bir adam idi. O, maraqlanan bir lal kimi idi. Ona inanmaq olardı. Bundan başqa, Foşlevan qaydaqanunu bilirdi, o, öz daxmasından ancaq bağda, yaxud bostanda mütləq bir iş olduğu zaman çıxardı. Onun bu təvazökarlığı da hörmətinin artmasına səbəb olmuşdu. Bununla belə, Foşlevan iki adamın dilini açmağa müvəffəq oldu: bunlardan biri monastırdakı qapıçı, o biri isə qəbiristandakı məzarçı idi. Buna görə də Foşlevan dəfn mərasiminin bütün xüsusi cəhətlərinə bələd idi. Qapıçı ilə məzarçının sayəsində o, rahibələr haqqında iki cür məlumat toplaya bildi: məlumatın bir qismi rahibələrin həyatını, o biri qismi isə ölümünü işıqlandırırdı. Lakin Foşlevan heç bir şeydən sui-istifadə etməzdi. İcma onu təqdir edərdi. Qoca, topal, heç bir şeydən başı çıxmayan

və şübhəsiz, kar olan bir kişi – bundan da artıq ləyaqətli bir adam ola bilərdimi? Belə adamı əvəz etmək çətin məsələ idi.

Özünün nə qədər qiymətli olduğunu başa düşən bir adam kimi, Foşlevan olduqca dərin mənalı və kəndlisayağı uzun bir nitqə başladı. O, hörmətli rəisə yaşından, xəstəliklərindən, işinin çətinliklərindən, artıq ikiqat artmış olan qocalığından, bağın genişliyindən və yuxusuz gecələrindən ətraflı danışdı. Misal belə gətirərək, elə bu gecə qovun ləklərini, aylı gecə olduğuna görə həsirlə örtməyə məcbur olduğunu söylədi. Nəhayət, bütün bu məsələləri qurtarıb əsl mətləbə gəldi: onun bir qardaşı var (rəis yerində qurdalandı), ancaq heç də cavan deyil (rəis yenə yerində qurdalandı, lakin bu dəfə nisbətən sakit idi), əgər arzu edilərsə, həmin bu qardaşı yanına köçər və ona kömək edə bilərdi. Qardaşı çox yaxşı bir bağban olduğundan icma üçün hələ ondan da çox faydalı ola bilərdi. Əgər onun qardaşını qəbul etməsələr, böyük Foşlevan yorğun və işə yaramaz olduğunu hiss etdiyindən, təəssüf etsə belə, buradan getməyə məcbur olacaqdır. Nəhayət, qardaşının balaca bir qızı var, onu da özü ilə gətirə bilərdi, qız da burada Allah qorxusu ilə tərbiyə alar, bir də kim bilir, bəlkə, günlərin gözəl bir günündə rahibəliyə belə daxil ola bilər.

Foşlevan sükut etdiyi zaman rəis artıq təsbeh çevirməyərək ona dedi:

– Siz elə bu gün axşama qədər möhkəm bir dəmir parçası tapa bilərsinizmi?

– Nə üçün lazımdır?

– Ling əvəzinə işlətmək üçün.

– Olar, şərəfli ana, – deyə Foşlevan cavab verdi.

Rəis artıq bir söz demədən ayağa durdu və qonşu otağa keçdi. Bu qonşu otaq kapitulun iclas salonu idi. Seçici bacıların buraya toplaşdığı hiss olunurdu. Foşlevan tək qaldı.

Üçüncü fəsil

MƏSUM ANA

Təxminən, on beş dəqiqə keçdi. Rəis qayıtdı və yenə stulda əyləşdi.

Hər iki müsahibin fikirli olduğu görünürdü. Onların mükaliməsini diqqətlə və incəliklə qeyd etməyə çalışaq.

– Fovan baba!

– Bəli, şərəfli ana!

– Siz ibadətxananı görmüşsünüzmü?

– Mənim orada xüsusi yerim var, oturub həmişə ibadətlərə qulaq asıram.

– Siz heç qulluq işləri üçün klirosa getmişsinizmi?

– İki-üç dəfə getmişəm.

– Məsələ burasındadır ki, klirosda bir daş var, onu qaldırmaq lazımdır.

– Daş ağırdırmı?

– Mehrabın yanındakı döşəmə daşıdır.

– Sərdabənin yolunu örtən daşımı deyirsiniz?

– Bəli.

– Lap yeridir, bir nəfər də kişi olsaydı, qiyamət olardı.

– Merac ana sizə kömək edər, o da kişi kimi qüvvətlidir.

– Arvad heç bir zaman kişini əvəz edə bilməz.

– Biz sizə kömək üçün yalnız arvad verə bilərik. Hər kəs ancaq bacardığını eləyə bilər. Mabilon ata müqəddəs Bernarın dörd yüz on yeddi surəsini zikr etdiyi halda, Merlonus Qorstius ancaq üç yüz altmış yeddi surə zikr edə bilirsə, mən Merlonus Qorstiusa həqarət gözü ilə baxa bilmərəm ki.

– Elə mən də həqarətlə baxmıram.

– Elə öz gücünə görə işləməyin özü də bir xidmətdir. Monastır odun anbarı deyil.

– Arvad da kişi deyil. Bax qardaşım çox güclü adamdır.

– Bir də sizin linginiz də olacaqdır.

– Belə qapıları açmaq üçün bu, yeganə açardır.

– Daşın bir halqası var.

– Lingi də o halqaya keçirərəm.

– Daşın quruluşu belədir ki, onu çevirmək mümkündür.

– Yaxşı, şərəfli ana. Mən sərdabəni açaram.

– Dörd müğənni ana da sizə kömək edər.

– Bəs sərdabə açıldıqdan sonra nə etmək lazımdır?

– Sonra yenə ağzını bağlamaq.

– Elə bu?

– Xeyr.

– Əmr edə bilərsiniz, şərəfli ana.

– Fovan, biz sizə inanırıq.
– Mən əmrinizə hazıram, şərəfli ana.
– Siz sükut etməlisiniz.
– Bəli, şərəfli ana.
– Sərdabə açıldıqdan sonra...
– Mən onu yenə örtməliyəm.
– Lakin əvvəlcə...
– Nə etməli, şərəfli ana?
– İçinə bir şey qoyulmalıdır.

Hər ikisi susdular. Rəis, bir şeyə şübhə edirmiş kimi, alt dodağını büzdü. Sonra sükutu pozaraq:

– Fovan baba! – dedi.
– Bəli, şərəfli ana!
– Bu gün səhər tezdən bir rahibənin vəfat etdiyindən xəbəriniz varmı?
– Xeyr.
– Bəs siz zəngin çalındığını eşitmədinizmi?
– Bağın dal tərəfində heç bir şey eşitmək olmur.
– Doğrudanmı?
– Hətta məni çağıran zəngi belə çətinliklə eşidirəm.
– Rahibə səhər tezdən vəfat etmişdir.
– Bir də bu gün külək mənə tərəf əsirdi.
– Vəfat edən Çarmıx anadır! Mömin bir qadın idi.

Rəis susdu, fikrində dua söyləyirmiş kimi, dodaqlarını tərpətdi və sözünə davam edərək:

– Üç il bundan qabaq yansençi madam Betun yalnız Çarmıx ananın necə dua etdiyini gördükdən sonra həqiqi dinə iman gətirdi.
– Bəli, bəli, elədir ki, var! Bax bu saat mən dəfn zəngini eşidirəm, şərəfli ana.
– Rahibəni kilsənin yanındakı ölüxanaya qoymuşlar.
– Bəli, yerini bilirəm.
– Sizdən başqa heç bir kişi bu otağa daxil ola bilməz. Buna yaxşı diqqət edin. Ölüxanaya bir kişi daxil olsaydı, gör nə olardı!
– Necə ki, necə!
– Nə?
– Necə ki, necə!

– Nə dediniz?

– Dedim ki, necə ki, necə!

– Necə ki, necə nədir?

– Şərəfli ana, mən "necə ki, necə nədir" demədim, mən ancaq "necə ki, necə" dedim.

– Mən sizi başa düşmürəm. Siz nə üçün "necə ki, necə" deyirsiniz?

– Sizin dediyinizi təsdiq etmək üçün, şərəfli ana.

– Lakin mən "necə ki, necə" demədim.

– Siz bunu demədiniz, lakin mən sizin dediyinizi təsdiq etmək üçün bunu dedim.

Bu halda saat doqquzun zəngi vurdu.

Rəis dedi:

– Saat doqquzda və hər bir saatda Allahın müqəddəs nemətlərinə alqış və sitayiş olsun!

Foşlevan dedi:

– Amin!

Saat lap vaxtında vurmuşdu. Bu zəng "necə ki, necə" məsələsinə son verdi. Əgər zəng çalınmasaydı, rəis də, Foşlevan da çətinlikdən çıxa bilməyəcəkdilər.

Foşlevan alnının tərini sildi.

Rəis yenə nə isə dodaqaltı bir şey söylədi, müqəddəs kitabdan zikr etdiyi görünürdü. Sonra səsini ucaldaraq buyurdu:

– Çarmıx ana hələ sağ ikən insanları dinə-imana gətirərdi. Öləndən sonra möcüzələr göstərəcəkdir.

– Bəli, əlbəttə, – deyə Foşlevan rəisin sözlərini təsdiq etdi. O artıq özünü rəisin sözlərinə uyğunlaşdırır və səhv etməməyə çalışırdı.

– Fovan baba, Çarmıx ana bütün monastır üçün bir Allah neməti idi. Əlbəttə, hamı kardinal Berülü kimi ölmək səadətinə nail ola bilməz. O, ibadət keçirərkən *"Hanc igitur oblationem"*[1] sözlərini söylədiyi zaman, ruhunu Allaha təslim etmişdi. Bizim mərhumə belə bir səadətə nail olmasa da, hər halda, ölümü qibtəyə layiq bir ölümdür. O, son dəqiqəyə qədər huşunu itirmədi. O, əvvəlcə bizlərlə, sonra mələklərlə danışdı. O, bizə son arzusunu bildirdi. Əgər sizin də imanınız möhkəm olsaydı və o dəqiqədə onun hücrəsində olsaydınız, yalnız əlinizi ona toxundurmaqla ayağınızı sağalda

[1] "Nəzir belə olar" (*lat.*) – katolik duasından

bilərdiniz. O gülümsəyirdi, onun Allah hüzurunda yenidən dirildiyi hiss olunurdu. Nə qədər xoşbəxt bir ölüm!

Foşlevan rəisin duanı tamamladığına qərar verdi. O:

– Amin! – dedi.

– Fovan baba, ölənlərin arzusunu yerinə yetirmək lazımdır.

Rəis təsbehini çevirərək, bir neçə dənəsini barmaqları arasından keçirdi. Foşlevan sükut edirdi. Rəis yenə sözə başladı:

– Bu barədə mən Həzrəti-İsa naminə rahiblik həyatının işlərini öyrənən bir çox ruhanilərin əsərlərinə müraciət etdim. Səylərinin gözəl səmərələri olmuşdur.

– Şərəfli ana, buradan dəfn zəngi bağçaya nisbətən, daha yaxşı eşidilir.

– Bundan başqa, o, sadəcə bir mərhum deyil, o, müqəddəs bir qadındır.

– Sizin kimi, şərəfli ana.

– O, müqəddəs atamız papa Yeddinci Piyin icazəsi ilə iyirmi il bu tabutda yatmışdı.

– Bu haman Piydir ki, impe... Bonapart taxta çıxanda ona xeyir-dua vermişdi.

Foşlevan kimi fərasətli bir adam üçün belə bir şeyi xatırlamaq müvəffəqiyyətsizlik idi. Xoşbəxtlikdən, tamamilə öz fikirlərinə dalmış olan rəis, Foşlevanın dediyi sözləri eşitmədi. O, sözünə davam edərək:

– Fovan baba! – dedi.

– Bəli, şərəfli ana.

– Kappadokiya arxiyepiskopu müqəddəs Diodor arzu etmişdi ki, onun sərdabəsi üzərində ancaq bir söz yazılsın: *"Acarus"* – bunun da mənası "yer qurdu" deməkdir, onun arzusuna əməl olundu. Elə deyilmi?

– Bəli, şərəfli ana!

– Akviliya abbatı müqəddəs Messokan arzu etmişdi ki, onu dar ağacının altında basdırsınlar. Onun arzusuna əməl olunmuşdu.

– Bəli, doğrudur.

– Tibr çayının dənizə töküldüyü bir nöqtədə yerləşmiş olan Porta şəhərinin yepiskopu müqəddəs Terensi arzu etmişdi ki, onun məzar daşı üzərində ata qatillərinin məzarı üstündə yazılan sözlər həkk olunsun. Məqsədi bu idi ki, yoldan keçənlər onun məzarına

tüpürsünlər. Buna da əməl olunmuşdu. Ölülərin vəsiyyətinə əməl olunmalıdır.

– Bəli, bəli.

– Fransada, Roş-Abeyl yaxınlığında anadan olmuş Bernar Qvidoninin cənazəsi, onun vəsiyyət etdiyi kimi, Kastiliya kralının etirazına baxmayaraq, Bernar Qvidoni Tuy adlı İspaniya şəhərinin yepiskopu olduğu halda, Limoj şəhərində Dominikanlar kilsəsində basdırılmışdı. Belə bir şeyə heç etiraz etmək olarmı?

– Əlbəttə olmaz, şərəfli ana.

– Plantavi de la Foes də belə təsadüfləri təsdiq edir.

Yenə bir az təsbehini çevirdikdən sonra rəis sözünə davam edərək:

– Fovan baba, – dedi, – Çarmıx ana da iyirmi ildən bəri içində yatdığı tabutda dəfn edilməlidir.

– Bəli, düz buyurursunuz.

– Bu da onun yuxusunun davamı olar.

– Demək, mən onu həmin tabutun içinə qoyub qapağını mıxlamalıyam?

– Bəli.

– Mülki tabutu isə istifadəsiz qoymalıyıq, eləmi?

– Bəli, elədir ki, var.

– Mən dərin hörmət bəslədiyim icmanın qulluğunda hazıram.

– Sizə dörd nəfər müğənni ana da kömək edəcəkdir.

– Tabutu mıxlamaq üçünmü? Onların köməyi olmasa da olar.

– Tabutu mıxlamaq üçün deyil, aşağıya salmaq üçün.

– Hansı aşağıya?

– Sərdabənin içinə.

– Hansı sərdabənin?

– Mehrabın altındakı sərdabənin.

Foşlevan yerindən dik qalxdı.

– Mehrabın altındakı sərdabəyə?

– Bəli, mehrabın altındakı sərdabəyə.

– Lakin...

– Sizin əlinizdə dəmir bir ling olacaqdır.

– Axı...

– Siz lingi məzar daşının üstündəki halqaya keçirib daşı qaldırmalısınız.

– Lakin...

– Ölülərin əmrinə itaət edilməlidir. İbadətxananın mehrabı altındakı sərdabədə dəfn edilmək, qeyri-müqəddəs bir torpaqda yatmamaq, öləndən sonra da sağ ikən dua oxunduğu yerdə qalmaq – Çarmıx ananın son arzusu budur. O, bunu bizdən xahiş etmişdi, başqa sözlə, bizə əmr etmişdi.

– Lakin bu qadağan edilmişdir.

– İnsanlar qadağan edir, Allah isə əmr edir.

– Bəs bundan xəbər tutsalar, necə olacaq?

– Biz sizə etibar edirik.

– Mən heç, mən monastır hasarının daşı kimi lalam.

– Kapitul toplaşmışdır. Bir az əvvəl yenə məsləhətləşdiyim və bu saat müzakirəni davam edən seçici bacılar qərara gəlmişlər ki, Çarmıx ana, öz arzusuna görə, mehrabımızın altındakı sərdabədə öz tabutunun içində dəfn edilməlidir. Bir düşünün, Fovan baba! Nə qədər möcüzə baş verəcəkdir. Xanəgahımız Allahın şərəfinə nə qədər böyük bir şöhrət qazanacaqdır! Möcüzələr də məzarlardan doğmurmu?

– Lakin, şərəfli ana, bəs səhiyyə komissiyasının vəkili...

– Müqəddəs İkinci Benedikt dəfn məsələsində Konstantin Poqonatın fikirləri ilə şərik olmurdu.

– Bəs polis komissarı...

– İmperator Konstansiya vaxtında Qalliyaya basqın edən yeddi alman kralından biri olan Xonodmer rahibələrin din dərgahında, yəni mehrab altında dəfn edilmək haqqını təsdiq etmişdir.

– Lakin prefektura müfəttişi...

– Bu dünyanın işləri kilsə qarşısında heç bir şeydir. Karteziançıların on birinci generalı Martın öz ordeninə belə bir şüar vermişdi: "*Stats crux dum volvitur orbis*"[1].

Foşlevan:

– Amin! – dedi.

O, latın dili sayəsində düşdüyü ağır vəziyyətdən həmişə "amin" deməklə canını qurtarardı.

Uzun zamanlardan bəri susanlar üçün hər bir dinləyici yaraya bilər. Ritor Gimnastoras zindandan çıxdığı gün, beynində bir çox yeni dilemmalar və sillogizmlər doğduğundan, rastına çıxan birinci ağacın yanında dayanıb, uzun bir nitq söyləmiş və ağacı inandırmaq

[1] Kainat fırlandıqca, xaç yenə öz yerində durur (*lat.*)

üçün böyük zəhmətlər çəkmişdi. Adətən, sükut əhdinə riayət edən rəis, danışmaq arzusu ilə çırpındığından ayağa durdu və açılmış şlüzə hücum edən bir sel kimi coşaraq, uzun bir nitq söylədi:

– Mənim sağ tərəfimdə Benedikt, sol tərəfimdə isə Bernar dayanmışdır. Bernar kimdir? Bernar Klervo monastırının birinci rəisi olmuşdur. Burqundiyada Fonten – şərəfli bir yerdir, çünki Bernar orada anadan olmuşdur. Atasının adı Teselin, anasının adı Aleta idi. O, öz qəhrəmancasına fəaliyyətini Sitoda başlayıb, Klervoda tamam elədi. Monastır rəisliyi vəzifəsinə isə ona Şalon sürgün yepiskopu Gilom de Şampo xeyir-dua vermişdir. Onun yeddi yüz tələbəsi vardı, yüz altmış monastırın binasını qoymuşdu. 1140-cı ildə San yığıncağında Abelyarı zir-zəbər etmiş Pyer de Brüi və onun şagirdi Henrixə, həmçinin "apostolçular" adlanan başqa yolunu azmışlara qalib gəlmişdi. Bernar Breşili Arnonu pərt etmiş, yəhudilərin qatili rahib Raulu tar-mar etmişdi. 1140-cı ildə Reymsdə ruhanilər məclisində öz arzusunu yeritmiş, Puatye yepiskopu Jilber de la Poreni təqsirləndirmiş, Eon de l'Etualı təqsirləndirmiş, Prinslərin ədavətinə son qoymuş, Kiçik Lüdoviki dinə-imana qaytarmış, papa Üçüncü Yevgeniyə məsləhətlər vermiş, Tampl monastırına rəhbərlik etmiş, səlib müharibəsi üçün təbliğat aparmış, bütün ömrü boyu, bəzən gündə otuz doqquz möcüzə göstərməklə, cəmi iki yüz əlli möcüzə göstərmişdir. Bəs Benedikt kimdir? O, Monte Kassininin patriarxıdır. O, monastır nizamnamələrinin ikinci banisidir, Qərbin Böyük Vasilisidir. Benediktin təsis etdiyi orden qırx papa, iki yüz kardinal, əlli patriarx, min altı yüz arxiyepiskop, dörd min altı yüz yepiskop, dörd imperator, qırx altı kral, qırx bir kraliça, üç min altı yüz təqdis edilmiş övliya vermişdir. Bu ordenin min dörd yüzillik tarixi var. Bir tərəfdə – müqəddəs Bernar, o biri tərəfdə isə – səhiyyə komissiyasının vəkili! Bir tərəfdə – müqəddəs Benedikt, o biri tərəfdə isə – şəhər zibilxanalarının müfəttişi! Bizim dövlət, müfəttişlik, dəfn mərasimləri idarəsi, müdiriyyətlə nə işimiz var? Hər bir yolçu onların bizimlə necə rəftar etdiklərini görmüş olsaydı, qəzəblənərdi. Bizim öləndən sonra külümüzü Həzrəti-İsaya verməyə də haqqımız yoxdur? Səhiyyə komissiyası – inqilabın uydurmasından başqa bir şey deyildir. Polis komissarına tabe edilmiş Tanrı – budur bizim əsrimiz! Susun, Fovan, susun!

Yağış kimi yağan bu sözlərdən Foşlevan özünü itirmiş kimi idi. Rəis davam edirdi:

– Monastırın dəfn hüququna malik olduğuna heç kim şübhə etmir. Bunu yalnız fanatiklər və kafirlər inkar edirlər. Biz dəhşətli günahlar dövründə yaşayırıq. O şeyi ki bilmək lazımdır, onu heç kəs bilmir, amma o şeyi ki bilmək lazım deyil, onu hamı bilir. İnsanlar cahil və dinsizdirlər. Zəmanəmizdə elə insanlar var ki, övliyaların ən böyüyü olan Bernarla yoxsul katoliklərin Bernarı deyilən, on üçüncü əsrdə yaşamış olan mərhəmətli bir keşiş arasında fərq qoymurlar. Bəziləri isə küfr etməklə o dərəcəyə çatırlar ki, On altıncı Lüdovikin eşafotda edam edilməsini Həzrəti-İsanın xaçda dara çəkilməsinə bənzədirlər. On altıncı Lüdovik yalnız kral idi. Allahın qəzəbindən qorxaq! Ancaq heç kim doğru ilə yalanı ayırd eləmir. Volterin adını hamı bilir, Sezar de Büsü isə heç kim tanımır. Halbuki Sezar de Büs rəhmətə layiq idi, Volter isə sadəcə dəlidir. Sonuncu arxiyepiskop kardinal Periqor, hətta Berüldən sonra Şarl de Qondran, Qondrandan sonra Fransua Burquen, Burquendən sonra Jan-Fransua Seno, Jan-Fransua Senodan sonra isə Sent-Mart atanın arxiyepiskop olduğunu bilmirdi. Koton atanın adını hamı bilir, lakin ona görə yox ki, o, oratoriyanın[1] binasını qoyan üç nəfərdən biri idi, bəlkə, ona görə ki, hugenot kral dördüncü Henrixin söyüş zərbi-məsəli üçün əsas vermişdir. Camaat arasında müqəddəs Fransua Salskini ona görə sevirlər ki, o, qumar oynayanda kələk gəlirdi. Bundan sonra da dini pisləyirlər. Nəyə görə? Ona görə yox ki, pis din xadimləri olmuşdur, ona görə ki, Qap yepiskopu Saqiter, Ambren yepiskopu Salonun qardaşı idi və onlar ikisi də Momola iqtida edirdilər. Nə olsun? Bu ki Turlu Martinin müqəddəs adam olmasına və öz rəhbərinin yarısını dilənçiyə verməsinə mane olmadı. Övliyaları təqib edirlər, həqiqətə göz yumurlar. Zülmətə alışmışlar. Yırtıcı heyvan isə kor olduqda daha qorxunc olur. Heç kəs cəhənnəmi yadına salmır. Oh, yaramaz xalq! "Kral naminə" sözləri indi "inqilab naminə" deməkdir; indi insanlar istər dirilərə, istərsə də ölülərə qarşı öz vəzifələrini unutmuşlar. Pak bir adam kimi ölmək indi qadağan edilmişdir. Dəfn mülki hakimiyyətin işi olmuşdur. Bu dəhşətdir. Zati əqdəs ikinci Lev bu barədə, rəhmətə gedənlərə aid məsələlərdə ekzarxın[2] başçılığını və imperatorun ali hakimiyyətini inkar etmək və devirmək məqsədilə iki müraciətnamə yazmışdır – birini Ryer

[1] *Oratoriya* – nitq, məruzə söylənilən yer
[2] *Ekzarx* – ayrıca bir kilsə dairəsinin başçısı

Noterə, o birini vestqotların kralına. Şalon yepiskopu Qotye yenə bu barədə Burqundiya hersoqu Otona müqavimət göstərmişdir. Əvvəllər magistraturanın da rəyi belə idi. Keçmişdə kapitulda biz dünyəvi işlər haqqında da öz fikrimizi deyə bilərdik. Ordenimizin generalı, abbat Sito, Burqundiyanın məhkəmə palatasının fəxri müşaviri idi. Biz ölülərimizlə lazım bildiyimiz kimi rəftar edirik. Məgər müqəddəs Benedikt İtaliyada, Monte Kassinidə, iyirmi bir mart, beş yüz qırx üçüncü ildə vəfat etdiyi halda, Fransada, Sen-Benua-Luar adlanan Fleri abbatlığında dəfn edilməmişdir? Bütün bunlara şübhə yoxdur. Mən tın-tın surə oxuyanlara nifrət edirəm, priorlardan zəhləm gedir, kafirlərdən iyrənirəm. Lakin mənim sözümün qabağında söz gətirən adama daha artıq nifrət edirəm. Hər kəs Arnu Vionu, Qabriel Busseleni, Tritemi Morolikuzu və Lük d'Aşerini vərəqləsə, mənimlə razılaşar.

Rəis nəfəs aldı və sonra Foşlevana dedi:

– Demək, qət olundu, Fovan baba?

– Bəli, şərəfli ana, qət olundu.

– Biz sizə bel bağlaya bilərikmi?

– Mən əmrə hazıram.

– Çox gözəl.

– Mən canla-başla monastıra qulluq etməyə hazıram.

– Çox yaxşı. Siz tabutu mıxlarsınız. Bacılar cənazəni götürüb ibadətxanaya apararlar. Dəfn duası oxunar. Sonra hamı yenə monastıra qayıdar. Gecə saat on birlə on iki arasında dəmir linginizi götürüb gələrsiniz. Bu işlər ən böyük bir sirr kimi icra edilməlidir. İbadətxanada dörd müğənni anadan, Merac anadan və sizdən başqa heç kəs olmayacaqdır.

– Bəs sütunun yanında dayanan bacı?

– O, geriyə baxmayacaqdır.

– Lakin o eşidə bilər.

– Onun qulaqları eşitməyəcəkdir. Bundan başqa, monastıra məlum olan dünyaya məlum deyildir.

Yenə sükut etdilər. Sonra rəis sözünə davam edərək:

– Siz zınqırovunuzu çıxarmalısınız. Sütunun yanında dayanmış bacı sizin orada olub-olmadığınızı bilməyə də bilər.

– Şərəfli ana!

– Nə var, Fovan baba?

– Mərhumları müayinə edən həkim gəlmişdimi?

– O, bu gün saat dörddə gələcəkdir. Həkimi dəvət edən zəng artıq çalınmışdır. Hə, axı siz heç bir zəng səsi eşitmirsiniz?

– Mən yalnız öz zəngimin səsinə qulaq asıram.

– Mərhəba, mərhəba, Fovan baba!

– Şərəfli ana, lingin uzunluğu, hər halda, altı futdan az olmamalıdır.

– Bəs bu uzunluqda lingi haradan tapacaqsınız?

– Dəmir tor olan yerdə dəmir parçası da tapıla bilər. Bağın dal tərəfində bir yığın dəmir qırıqları var.

– Təxminən, on birə on beş dəqiqə qalanda. Unutmayın.

– Şərəfli ana!

– Nə var?

– Əgər bir zaman yenə belə bir işiniz olarsa, qardaşımı unutmayın. Bax əsl pəhləvan odur! Lap türk kimidir!

– Siz bu işi mümkün qədər tez edərsiniz.

– Mən çox da qıvraq deyiləm. Topal qocayam. Ona görə köməkçim olsaydı, yaxşı olardı. Axsayıram.

– Axsamaq nöqsan deyil, hətta bu bir səadət də ola bilər. Yalançı papa Qriqorini taxtından düşürüb, səkkizinci Benedikti yenidən taxtına əyləşdirən imperator İkinci Henrixin iki adı vardı: "Müqəddəs" və "Topal".

Qulağı, doğrudan da, yaxşı eşitməyən Foşlevan:

– Əlbəttə, adamın iki atı olsa, yaxşı olar, – deyə mızıldandı.

– Fovan baba, mən belə güman edirəm ki, bu iş üçün bizə bir saat kifayət edər. Bu, o qədər də çox deyil. Gecə saat on birdə dəmir parçasını da götürüb, baş mehrabın yanında olarsınız. Ölü ibadəti gecə yarıda başlanacaqdır. Bu ibadətdən, heç olmasa, on beş dəqiqə əvvəl hər bir şey qurtarmalıdır.

– Mən icma üçün canla-başla qulluq etdiyimi sübut etmək üçün hər nə əlimdən gələrsə edəcəyəm. Mənim sözüm sözdür. Tabutun qapağını örtdükdən sonra, düz saat on birdə ibadətxanada olacağam. Müğənni analar da orada olacaqlar. Merac ana da orada olacaqdır. Əlbəttə, iki kişi olsaydı, bu işi daha yaxşı düzəltmək olardı. Eybi yoxdur, keçib, birtəhər düzəldərik! Mən ling gətirəcəyəm. Sərdabəni açıb, tabutu oraya sallayacağıq, sonra yenə sərdabənin ağzını örtəcəyik. Heç kəsin xəbəri olmaz. Hökumət sahiblərinin belə

bir şey heç ağıllarına gəlməz. Şərəfli ana, demək, hər şey öz yerindədir?

– Yox!

– Daha nə var?

– Bəs boş tabut?

Bu sözlər mükalimədə fasilə əmələ gəlməsinə səbəb oldu. Foşlevan fikrə getdi. Rəis də fikirləşirdi.

– Fovan baba, bəs boş tabut nə olsun?

– Onu qəbrin içinə sallayarıq.

– Elə boşmu?

Yenə sükut. Foşlevan beyninə girən bir fikirdən, sanki, uzaqlaşmaq arzusu ilə, sol əli ilə hərəkət etdi.

– Şərəfli ana, tabutu kilsənin aşağı otağında mən tək mıxlayacağam, oraya məndən başqa heç kəsin girməyə ixtiyarı yoxdur. Odur ki tabutun üstünə mən özüm pərdə çəkəcəyəm.

– Doğrudur, ancaq tabutçular tabutu dəfn arabasına qoyduqda və sonra qəbirə salladıqda, mütləq onun boş olduğunu duyacaqlar.

Foşlevan:

– Vay, səni şey... – deyə səsləndi.

Rəis xaç çevirmək niyyəti ilə əlini qaldırdı və diqqətlə bağbana baxdı. "Tan" hecası Foşlevanın boğazında qaldı.

– Şərəfli ana, mən tabutun içinə torpaq tökərəm. Elə bilərlər ki, içində cənazə var.

– Doğru deyirsiniz. Torpaq da insan kimi bir şeydir. Demək, siz boş tabut işini düzəldəcəksiniz?

– Mən bu işi öz öhdəmə götürürəm.

İndiyə qədər qaşqabaqlı və təşvişli görünən rəisin üzü açıldı. Bir rəis ədası ilə onun getməsinə icazə verdi. Foşlevan qapıya doğru getdi. Qapının astanasından keçərkən, rəis yavaşca onu səslədi:

– Fovan baba, mən sizdən razıyam. Sabah dəfn mərasimindən sonra qardaşınızı yanıma gətirərsiniz, ona deyərsiniz ki, qızını da yanıma gətirsin.

Dördüncü fəsil

BU FƏSİLDƏ ELƏ GÜMAN ETMƏK OLAR Kİ, JAN VALJAN OSTEN KASTİLXONU OXUMUŞDUR

Topalların addım atması çaş adamların göz vurmasına bənzər: onlar məqsədə tez çatmazlar. Bundan başqa, Foşlevan özünü itirmişdi. Monastırdan bağdakı komasına qədər yerimək üçün on beş dəqiqə vaxt lazım gəldi. Kozetta artıq oyanmışdı. Jan Valjan onu ocağın yanında əyləşdirmişdi. Foşlevan daxmasına girdiyi zaman, Jan Valjan divardan asılmış bağban səbətini qıza göstərərək:

– Sözlərimə yaxşı qulaq as, mənim balaca Kozettam, – deyirdi. – Biz bu evdən getməliyik, sonra yenə qayıdıb burada çox yaxşı günlər görəcəyik. Burada yaşayan qoca səni səbətə qoyub aparacaq. Sən məni bir yaxşı arvadın yanında gözləyəcəksən. Sənin dalınca gələcəyəm. Əgər sən yenə Tenardye qarının evinə qayıtmaq istəmirsənsə, sözümə qulaq as və heç kəsə bir söz demə.

Kozetta ciddi bir tövrlə başını əydi.

Jan Valjan Foşlevanın açdığı qapının cırıltısını eşidib döndü və geri baxdı.

– Hə, işlər necədir?

– Hər şey düzəldi, ancaq xeyri azdır, – deyə Foşlevan cavab verdi. – Mən sizi monastıra gətirmək üçün icazə aldım. Lakin sizi buraya girməzdən əvvəl, hələ buradan çıxarmaq lazımdır. Bütün çətinlik də buradadır. Uşağın işini düzəltmək isə asandır.

– Siz onu necə aparacaqsınız?

– O, səsini çıxarmaz ki?

– Mən ona cavabdehəm.

– Bəs siz özünüz, Madlen baba?

Foşlevan bir qədər sükut etdikdən sonra, təşvişli bir səslə:

– Siz buraya gəldiyiniz yolla da çıxarsınız, – dedi.

Jan Valjan birinci dəfə söylədiyi kimi, bu dəfə də:

– Mümkün deyil, – dedi.

Foşlevan Jan Valjandan artıq öz-özünə müraciət edərək:

– Məni bir şey də narahat edir, – deyə mızıldandı. – Mən ona tabutun içinə torpaq qoyacağımı söylədim. Ancaq mənə elə gəlir ki, tabutun içində insan bədəni əvəzində torpaq olarsa... – Yox, yox, belə şeydə aldatmaq olmaz, bundan heç bir şey çıxmaz, torpaq o yana töküləcək, bu yana töküləcək... hamballar dərhal başa düşəcəklər. Bilirsinizmi, Madlen baba, böyüklər mütləq bunu başa düşəcəklər.

Jan Valjan diqqətlə Foşlevanın üzünə baxdı, sayıqladığını düşündü. Foşlevan isə sözünə davam edərək:

– Lənət şey... Vallah, heç bilmirəm siz buradan necə çıxacaqsınız! İşin çətini burasındadır ki, hər bir şey sabaha kimi düzəlib qurtarmalıdır. Mənə tapşırılmışdır ki, sizi sabah monastıra gətirim, rəis sizi gözləyəcəkdir.

Foşlevan Jan Valjanı başa saldı ki, bu, onun monastıra göstərdiyi xidmətin əvəzində idi. Foşlevanın vəzifələrindən biri dəfn mərasimlərində iştirak etmək, tabutları mıxlamaq və qəbiristanlığa aparmaq üçün məzarçıya kömək etmək idi: bu səhər vəfat edən rahibə vəsiyyət etmişdi ki, onu həmişə içində yatdığı tabuta qoyub, ibadətxananın mehrabı altındakı sərdabədə dəfn etsinlər, bu isə polis idarəsi tərəfindən qadağan edilmişdir, lakin mərhumə vəsiyyəti pozula bilməyəcək qadınlardan biri idi, ona görə də monastır rəisi ilə başqa rahibələr mərhumənin arzusuna əməl etmək fikrindədirlər. Lap hökumətin acığına, Foşlevan tabutu hücrədə mıxlayacaq, sonra da ibadətxanada sərdabənin daşını götürüb, mərhuməni orada dəfn edəcək idi, monastır rəisi də, Foşlevanın bu xidmətinə qarşı bir minnətdarlıq olaraq, onun qardaşını monastıra bağban vəzifəsinə, qardaşı qızını isə pansiona qəbul etməyə razı olmuşdu, onun qardaşı cənab Madlenin özü, qardaşı qızı isə Kozetta idi, monastır rəisi qardaşını sabah axşam, qəbiristanlıqda bu yalançı dəfn mərasimini keçirdikdən sonra yanına gətirməyi əmr etmişdi, ancaq cənab Madleni, hələ monastırın içində olduğuna görə onun yanına aparmaq mümkün deyildi; birinci çətinlik də bu idi, nəhayət, ikinci bir çətinlik vardı ki, o da boş tabut məsələsi idi.

– Hansı boş tabutu deyirsiniz? – deyə Jan Valjan soruşdu.

– Mən hökumətlik tabutu deyirəm.

– Tabut niyə? Hökumətlik niyə?

– Yaxşı, rahibə vəfat etdi. Şəhər idarəsindən həkim gəlib dedi: "Burada rahibə vəfat etmişdir". Şəhər idarəsi bir tabut göndərdi.

Sabah da cənazə arabası və məzarçılar gəlir ki, tabutu götürüb qəbiristanlığa aparsınlar. Məzarçılar gəlib tabutu götürəndə, məlum olur ki, içi boş imiş.

– Nə olar ki, tabutun içinə bir şey qoyarsınız!

– Tabutun içinə nə qoyacağam? Ölümü? Bəs mən ölünü haradan tapım?

– Yox, ölü qoymazsınız.

– Bəs kimi qoyum?

– Diri adam qoyarsınız.

– Necə yəni diri adam?

Jan Valjan:

– Məni qoyarsınız, – dedi.

Foşlevan altında fişəng partlamış kimi, yerindən dik atıldı.

– Sizi?

– Mən olanda nə olar ki?

Jan Valjan bu sözlərlə qış göylərində günəş şüasına bənzəyən nadir bir təbəssümlə gülümsədi.

– Xatırınızdamıdır, Foşlevan, siz deyəndə ki, "Çarmıx ana vəfat etmişdir" mən əlavə etdim ki, "Madlen baba isə dəfn edilmişdir". Elə belə də olacaq.

– Yox, yox, siz zarafat edirsiniz, siz bunu ciddi demirsiniz!

– Lap ciddi deyirəm. Buradan çıxmaq lazımdırmı?

– Əlbəttə.

– Mən sizə dedimmi ki, mənim üçün örtülü bir səbət tapın?

– Bəli, düzdür.

– Səbət şam ağacından, örtüyü isə qara mahuddan olacaqdır.

– Əvvəla, qara deyil, ağ mahuddur. Rahibələr ağ mahudun içində dəfn edilir.

– Eybi yoxdur, ağ olsun.

– Siz başqa adamlara bənzəmirsiniz, Madlen baba.

Yolçu üçün bir dəniz qağayısının Sen-Deni küçəsindəki arxdan balıq tutduğunu görmək nə qədər əcaib idisə, Foşlevan üçün də vəhşi və cəsarətli katorqa ixtiraçılığının nümunəsindən başqa bir şey olmayan bu xəyal oyununun ətrafdakı sükut və asayiş şəraitində doğduğunu və "monastır güzəranı" adlandırdığı həyata əl uzatdığını görmək nə qədər əcaib idi.

Jan Valjan sözünə davam edərək:

– İşin çətinliyi buradan gözə görünmədən çıxmaqdır, – dedi. – Mənim dediyim də elə budur. Lakin siz əvvəlcə mənə təfsilatı danışmalısınız. Bunu necə edirlər? Tabut haradadır?

– Boş tabutmu?

– Bəli.

– Aşağıda, ölüxana deyilən yerdədir. Tabut iki dayaq üstünə qoyulmuş, üstünə də matəm örtüyü salınmışdır.

– Tabutun uzunluğu nə qədərdir?

– Altı fut olar.

– Bu ölüxana dediyiniz otaq necə şeydir?

– Bu otaq aşağı mərtəbədədir, bağçaya açılan şəbəkəli bir pəncərəsi var, bayırdan pəncərə qanadları ilə bağlanır. Bundan başqa, otağın iki qapısı var, biri monastıra, o biri isə kilsəyə açılır.

– Hansı kilsəyə?

– Bu küçədəki kilsəyə, ümumi kilsəyə.

– Sizdə bu iki qapının açarı varmı?

– Yox. Məndə ancaq monastıra çıxan qapının açarı var. Kilsəyə tərəf çıxan qapının açarı isə qapıçıdadır.

– Qapıçı bu qapını nə zaman açır?

– Məşəlçilər tabutu aparmağa gələndə. Tabutu aparan kimi dərhal qapı bağlanır.

– Tabutu kim mıxlayacaq?

– Mən.

– Siz bunu edəndə yalqızmı olursunuz?

– Ölüxanaya səhiyyə həkimindən başqa heç kəs girə bilməz. Bu hətta divarda da yazılmışdır.

– Siz məni bu gecə, monastırda hamı yatdıqdan sonra həmin otaqda gizlədə bilərsinizmi?

– Yox. Mən sizi ancaq ölüxananın balaca qaranlıq dəhlizində gizlədə bilərəm. Mən dəfn üçün lazım olan alətləri burada saxlayıram. Həmişə gözüm onun üstündədir, açarı da həmişə məndə olur.

– Cənazə arabası sabah tabutun dalınca nə zaman gələcəkdir?

– Günortadan sonra, saat üçdə. Qaranlıq çökdükdən sonra Vojirar qəbiristanlığında basdıracaqlar. Qəbiristanlıq buradan xeyli uzaqdır.

– Mən bütün gecəni və bütün səhəri alətləri qoyduğunuz dəhlizdə gizlənərəm. Bəs yemək məsələsi necə olsun? Axı mən aca bilərəm.

– Mən sizin üçün bir şey gətirərəm.

– Siz gecə saat ikidə gəlib tabutu mıxlaya bilərsiniz. Mən tabutun içində olacağam.

Foşlevan diksinərək geri çəkildi və barmaqlarını xırçıldatdı.

– Bu mümkün deyil!

– Bah! Çəkici alıb taxtaya bir neçə mıx çalmağın nə çətinliyi var!

Təkrar edirik: Foşlevan üçün ağlasığmaz görünən şey, Jan Valjan üçün adi bir iş idi. Jan Valjan bundan da çətin işlərdən çıxmışdı. Zindana düşənlər azadlığa doğru gedən yola görə balacalanmaq ustalığına bələddirlər. Bir xəstə sağalmağına, yaxud məhv olmağına səbəb olan bir böhrandan keçməyə məcbur olduğu kimi, dustaq da istər-istəməz qaçmaq fikrinə düşür. Yox olmaq – sağalmaq deməkdir. Sağalmaq üçün isə insan nəyə əl atmır! Tabutun içinə girib qapağını bağlamaq, mal bağlaması kimi götürüb aparılmaq, uzun müddət bu cür qutu içində qalmaq, hava olmayan yerdə hava tapmaq, saatlarla nəfəs almağa qənaət etmək, ölmədən boğulmağı bacarmaq – Jan Valjanın dəhşətli istedadlarından biri də bu idi!

Lakin katorqalının müraciət etdiyi bu vasitə, yəni içində canlı bir insanın uzandığı tabut eyni zamanda kralın əl atdığı bir vasitə olmuşdur. Rahib Osten Kastilxonun dediklərinə inanılacaq olursa, Beşinci Karl da taxtından əl çəkdikdən sonra son dəfə madam Plombla görüşmək üçün bu vasitə ilə onu müqəddəs Yust monastırına salmış və sonra yenə oradan çıxarmışdı.

Foşlevan bir az özünə gəldikdən sonra:

– Bəs siz orada necə nəfəs alacaqsınız? – dedi.

– Birtəhər nəfəs alaram.

– Bu qutunun içində nəfəs almaq! Mən bunu ağlıma gətirəndə belə boğulmağa başlayıram.

– Hər halda, sizdə balaca bir burğu tapılar, ağzım olan tərəfdə bir neçə deşik açarsınız, üst taxtanı isə bir az boş mıxlarsınız.

– Yaxşı. Bəs, bəlkə, öskürməyə, yaxud asqırmağa məcbur oldunuz?

– Qaçmaqla özünü ölümdən xilas etməyə məcbur olan adam nə öskürər, nə asqırar.

Sonra Jan Valjan bu sözləri əlavə etdi:

– Foşlevan baba, artıq qərar vermək lazımdır, ya mən burada ələ keçməliyəm, ya da cənazə arabasında buradan çıxmalıyam.

Pişiklərin açıq qapının ağzında dayanıb, onun tayları arasında gəzişməyə adət etdikləri hamıya məlumdur.

Hamımız pişiyə: "İçəri girsənə!" – demişik. Qeyri-müəyyən bir vəziyyətə düşüb, iki qərar arasında tərəddüd etməyə meyil edən insanlar da var: onlar birdən-birə qarşılarında bütün çıxış yollarını bağlayan taleyin ayaqları altında əzilib məhv olmaq təhlükəsinə məruz qalırlar. Çox ehtiyatlı olanlar bütün pişik xasiyyətlərinə baxmayaraq, daha doğrusu, elə bunun sayəsində, bəzən cəsur insanlara nisbətən daha çox təhlükəyə düşürlər. Foşlevan da bu cür mütərəddid təbiətli insanlardan idi. Lakin onun iradəsinə zidd olaraq, Jan Valjanın soyuqqanlılığı ona qalib gəlirdi.

Foşlevan dedi:

– Doğrudan da, bundan başqa heç bir çarə yoxdur.

Jan Valjan sözünə davam etdi:

– Məni yalnız bir şey narahat edir: bəs qəbiristanlıqda nə təhər olacaqdır?

Foşlevan dedi:

– Məni isə heç bu narahat eləmir. Əgər siz tabutun içindən sağsalamat çıxacağınıza əminsinizsə, mən də sizi qəbirin içindən çıxarmağıma əminəm. Oradakı məzarçı sərxoş bir adamdır, özü də mənim dostumdur. Ona Matyen dayı deyirlər. Köhnə sərxoşdur. Məzarçının ölüləri qəbrin içində, məzarçının özü isə mənim cibimdədir. Mən işlərin necə olacağını bu saat sizə başa salaram. Biz qaranlıq çökməmişdən bir az əvvəl, yəni qəbiristanlıq darvazasının bağlanmasından on beş dəqiqə əvvəl gəlib qəbiristanlığa çatacağıq. Dəfn arabası məzara qədər gedəcək. Mən də onun dalınca gedəcəyəm: bu, mənim vəzifəmdir. Cibimdə çəkic, iskənə, kəlbətin olacaqdır. Araba dayanacaq, məzarçılar tabutunuzu kəndirlə bağlayıb qəbirin içinə sallayacaqlar. Keşiş də dua oxuyacaq, xaç çevirəcək, müqəddəs su səpəcək – sonra da rədd olub gedəcəkdir. Biz də Matyen dayı ilə tək qalacağıq. Yenə təkrar edirəm, o, mənim dostumdur. İkisindən biri olacaq: o ya kefli olacaq, ya da kefli olmayacaq. Əgər kefli olmasa, mən ona deyəcəyəm ki, "Dəymiş heyva" hələ bağlanmamışdır, gedək hərəmiz bir stəkan şərab vuraq! Mən Matyen dayını aparıb qonaq edəcəyəm. Matyen dayını içirmək isə çox da çətin bir şey deyil, o, ümumiyyətlə, hər zaman dəmli olur. Sonra onu masanın altında uzandıraram, qəbiristanlıq kağızını götürüb, tək qayıdaram geriyə. Ondan

sonra sizin işiniz yalnız mənimlə olacaqdır. Əgər kefli olarsa, mən yenə deyəcəyəm ki, get işində ol, mən sənin əvəzində hər şeyi edərəm. Matyen dayı gedər, mən də sizi qəbirin içindən çıxardaram.

Jan Valjan əlini Foşlevana uzatdı, qoca təsirli bir kəndli səmimiyyəti ilə onun əlini tutdu.

– Şərtləşdik, Foşlevan baba, hər şey düzələcək!

Foşlevan öz-özünə:

– Sakit keçsəydi, nə yaxşı olardı! – dedi. – Allah eləməsin, başımıza bir bəla gəlsin!

Beşinci fəsil

SƏRXOŞ OLMAQ HƏLƏ ÖLMƏZ OLMAQ DEMƏK DEYİL

O biri gün Men bulvarından keçən tək-tək yolçular, kəllə, ayaq sümükləri şəkli və şüşə göz yaşları ilə bəzənmiş bir köhnə cənazə arabasına rast gələrək, şlyapalarını çıxarırdılar. Cənazə arabasında üzərində əlləri yanlarından sallanmış iri bir ölü bədəninə bənzəyən böyük qara xaç şəkli olan ağ bir örtük ilə örtülmüş bir tabut vardı.

Onun dalınca gedən rəsmi matəm karetasında cübbəli bir keşiş və qırmızı papaqlı balaca bir kilsə müğənnisi görünürdü. Qara haşiyəli boz paltar geyinmiş tabutçular cənazə arabasının sol və sağ tərəfində yeriyirdilər. Arabanın dalınca fəhlə paltarında axsaq bir qoca gedirdi. Onlar Vojirar qəbiristanlığına doğru getməkdə idilər.

Qocanın cibindən bir çəkic dəstəsi, bir iskənə və kəlbətin ucu görünürdü.

Vojirar qəbiristanlığı Paris qəbiristanlıqları arasında bir istisna təşkil edirdi. Onun özünəməxsus qaydaları, öz darvazası, öz bala qapısı vardı ki, bu məhəllədə yaşayan qocalar, köhnə adları mühafizə edərək, bunlara atlı darvazası və piyada darvazası deyirdilər. Kiçik Pikpüs monastırında yaşayan bernarçı-benediktçi rahibələr, söylədiyimiz kimi, öz ölülərini qəbiristanlığın xüsusi bir guşəsində, həm də axşamüstü dəfn etmək üçün icazə almışdılar. Bu yer hələ keçmiş zamanlarda monastırın ixtiyarında imiş. Bu surətlə, yayda axşamlar, qışda isə gecələr orada işləməyə məcbur olan məzarçılar

xüsusi bir qaydaya tabe olurdular. O zamanlar Paris qəbiristanlıqlarının darvazaları gün batanda bağlanardı, həm də bu əmr şəhər idarəsi tərəfindən verildiyi üçün Vojirar qəbiristanlığına da aid sayılırdı. Atlı darvazası ilə piyada darvazasının şəbəkələri hər iki tərəfdən memar Perronenin tikmiş olduğu və qəbiristanlıq qapıçısının evi olan bir köşklə yanaşı idi. Günəş Əlillər günbəzinin dal tərəfinə çökdüyü zaman, bu şəbəkələr də dərhal amansız bir surətdə öz rəzələri üzərinə çevrilərək bağlanardı. Bu zaman məzarçılardan biri içəridə qalmış olsaydı, qəbiristanlıqdan çıxmaq üçün onun yeganə bir çarəsi vardı: o, dəfn mərasimləri bürosunun verdiyi icazə vərəqəsini təqdim etməli idi. Qapıçının yaşadığı evin pəncərə qanadında poçt qutusuna bənzər bir şey düzəldilmişdi. Məzarçı icazə vərəqəsini bu qutuya atar, qapıçı da vərəqənin qutuya düşdüyünü hiss edən kimi, kəndirin ucundan dartar və piyada darvazası açılardı. Məzarçının icazə vərəqəsi olmasaydı, o, öz adını söylər, bəzən artıq yatmaqda olan qapıçı da yatağından durub məzarçının kim olduğunu öyrənər və tanıdığı surətdə darvazanı açarla açardı: lakin belə hallarda məzarçı on beş frank cərimə verdikdən sonra çıxıb gedə bilərdi.

Bu qəbiristanlıq, ümumi qaydaların çərçivəsi xaricinə çıxan bütün xüsusiyyətləri ilə, inzibati idarələrin yaratdığı yeknəsəqliyi pozurdu. 1830-cu ildən bir az sonra Vojirar qəbiristanlığını bağladılar. Onun yerində Mon-Parnas qəbiristanlığı əmələ gəldi. Vojirar qəbiristanlığı ilə bərabər, yaxınlıqda olan "Dəymiş heyva" lövhəli məşhur meyxana da irsən Mon-Parnasa keçdi. Bu meyxananın bir tərəfi qonaqların masalarına, o biri tərəfi isə məzarlara baxırdı. Lövhəsində iki söz yazılmışdı: "Dəymiş heyva".

Vojirar qəbiristanlığı, demək olar ki, məhv olurdu. Artıq ondan istifadə etmirdilər. Qəbiristanlığı kif basır, çiçəklər onu tərk edirdi. Burjualar Vojirar qəbiristanlığında dəfn olunmağa meyil göstərmirdilər, burada dəfn olunmaq yoxsulluq əlaməti idi. Amma Per-Laşez qəbiristanlığına gəlincə, bu, tamamilə başqa bir şey idi. Per-Laşez qəbiristanlığında dəfn olunmaq qırmızı ağacdan çarpayıda yatmaq kimi bir şey idi – bu, incə zövqün əlaməti sayılırdı. Köhnə fransız bağları kimi qurulmuş olan Vojirar qəbiristanlığı hasar arasına alınmış və hörmət hissi oyadan bir küçəyə bənzəyirdi. Burada dümdüz xiyabanlar, şümşad mazı, çobanpüskülü, abanos ağaclarının kölgə saldığı köhnə məzarlar görünür, hündür ot bitirdi. Axşamlar bu qəbiristanlıq

faciəli bir təsir bağışlayırdı. Onun cizgilərində bir ələm, bir hüzn hiss olunurdu.

Ağ mahudlu və qara xaçlı tabut qoyulmuş cənazə arabası Vojirar qəbiristanlığına doğru gedən xiyabanda göründüyü zaman günəş hələ batmamışdı. Cənazə arabasının dalınca gedən axsaq qoca, əlbəttə, Foşlevan idi.

Çarmıx ananın mehrabın altındakı sərdabədə basdırılması, Kozettanın monastırdan çıxarılması və Jan Valjanın meyitxanaya girməsi – bu işlər hamısı salamat keçmiş, heç bir maneəyə rast gəlməmişdi.

Ötəri qeyd etməliyik ki, Çarmıx ananın mehrab altındakı sərdabədə basdırılması tamamilə üzrlü bir hərəkət sayıla bilər. Bu da vəzifə ifasına bənzəyən günahlardan biridir. Rahibələr bunu etdikləri zaman qətiyyən pərişan olmamış, yalnız öz vicdanlarına tabe olmuşdular. Monastır aləmində hökumət deyilən şeyin hərəkətləri başqalarının hüququna qarışmaq kimi qiymətləndirilirdi, belə bir müdaxilə isə hər zaman rədd edilməlidir.

Monastır nizamnaməsi hər şeydən yüksəkdir, qanun məsələsinə gəlincə – baxarıq, görək nə olar. Ey insanlar, siz ürəyiniz istədiyi qədər qanunlar icad edə bilərsiniz, lakin bu qanunları özünüz üçün saxlayın! Padşahlara verilən son barat Allaha verilən baratdan qalmış qırıntılardan başqa bir şey deyildir. Ülvi hakimiyyət qarşısında yer hökmdarı bir heçdir.

Beləcə, Foşlevan axsaya-axsaya, məmnun bir halda tabutun dalınca gedirdi. Bir-birinə bağlı olan hər iki qəsdi müvəffəqiyyətlə düzəlmişdi. Bu qəsdin biri rahibələrə, o biri isə cənab Madlenə aid idi, biri – monastırın xeyrinə, o biri isə – monastırın zərərinə idi. Jan Valjanın sakitliyi başqalarına da sirayət edən sarsılmaz sakitlik idi. Foşlevan artıq müvəffəq olacağına şübhə etmirdi. Bundan sonra qalan iş əhəmiyyətsiz bir şey idi. Foşlevan son iki il ərzində dəfələrlə bu məzarçını, bu gülərüzlü, dolubədənli dostu Matyen dayını qonaq eləmişdi. O, bu Matyen dayını istədiyi kimi barmağında oynadardı, istədiyini edərdi. İstədiyi şeyi onun beyninə salardı. Odur ki Matyen dayı onun hər bir sözünə "bəli, bəli" deyərdi. Foşlevan tam mənada müvəffəqiyyət qazanacağına inanırdı.

Dəfn mərasimi qəbiristanlığın xiyabanına çatdığı zaman, xoşbəxt Foşlevan məmnuniyyətlə tabuta baxdı və əllərini ovuşdurараq:

– Amma nə gülməli oyundur! – dedi.

Birdən cənazə arabası dayandı, darvazaya çatmışdılar. Dəfn üçün icazə kağızını təqdim etmək lazım gəlirdi. Dəfn bürosunun xidmətçisi qəbiristanlıq qapıçısı ilə söhbətə girişdi. Adətən iki-üç dəqiqədən artıq sürməyən bu söhbət əsnasında, tanımadığı bir adam Foşlevana yanaşaraq, cənazə arabasının arxasında dayandı. Bu adam fəhləyə bənzəyirdi, əynində geniş cibli bir köynək, qoltuğunda isə bir bel vardı.

Foşlevan bu yad adama baxdı.

– Siz kimsiniz? – deyə soruşdu.

Yad adam cavab verdi:

– Məzarçıyam.

Bir adam sinəsinə top gülləsi dəyəndən sonra sağ qalarsa, onun da sifətinin ifadəsi bu anda Foşlevanın sifətində olan ifadəyə bənzərdi.

– Məzarçı? – dedi.

– Bəli.

– Sizmi?

– Bəli, mən.

– Burada məzarçı Matyen dayıdır.

– Bir vaxt o idi.

– Necə yəni bir vaxt o idi?

– O ölmüşdür.

Foşlevan hər şey gözləyə bilərdi, lakin məzarçının ölə biləcəyi heç bir zaman onun ağlına gələ bilməzdi. Halbuki bu, həqiqət idi; məzarçılar da, nəhayət, ölürlər. Başqalarına qəbir qazanların, özlərinə də qəbir qazırlar.

Foşlevan mat qaldı. Kəkələyə-kəkələyə ancaq bunu deyə bildi:

– Bu mümkün ola bilməz!

– Belədir ki, var.

Foşlevan zəif bir səslə:

– Axı məzarçı Matyen dayı olmalıdır, – dedi.

– Napoleondan sonra taxta On səkkizinci Lüdovik əyləşdi. Matyendən sonra da Qribye məzarçı oldu. Mənim adım Qribyedir, yekəbaş!

Foşlevan sapsarı saralaraq, bu Qribyenin üzünə baxırdı.

Bu, ucaboylu, arıq, rəngi torpaq kimi sarı, çox qaşqabaqlı bir adam idi. Müvəffəqiyyət qazanmadıqdan sonra öz peşəsini məzarçı peşəsinə dəyişən bir həkimə bənzəyirdi.

Foşlevan qəhqəhə çəkərək, gülməyə başladı.

– Ah, dünyada nə qədər gülməli şeylər olarmış? Matyen dayı öldü! Gülərüzlü Matyen dayı öldü isə, yaşasın gülərüzlü Lenuar dayı! Siz Lenuar dayını tanıyırsınızmı? Lenuar dayı altı suluq, ağzımöhürlü qırmızı bir şərab şüşəsidir! Bir şüşə suren şərabı! Buna nə söz ola bilər. Əsl Paris sureni. Ah, qoca Matyen ölmüşdür. Bəli, heyif olsun! O, bu dünyada yaşamağın qaydasını bilirdi. Bəs siz necə? Siz də, hər halda, yaşamağın qaydasını bilirsiniz! Elə deyilmi, dostum? Bu saat gedib hərəmiz bir stəkan şərab vurarıq.

Məzarçı:

– Mən təhsil almış adamam, – deyə cavab verdi. – Dörd sinif qurtarmışam. Ömrümdə şərab içmərəm.

Cənazə arabası yenə yola düşərək, qəbiristanlığın baş xiyabanı ilə getməyə başladı.

Foşlevan yavaşca yeriyirdi, həyəcanlandığından daha da bərk axsayırdı.

Məzarçı bir az irəlidə gedirdi.

Foşlevan yenə bu göydən düşən Qribyeni nəzərdən keçirməyə başladı.

Təzə məzarçı cavan ikən qoca görünən və arıq olmağına baxmayaraq, olduqca qüvvətli adam idi.

Foşlevan:

– Dostum! – deyə məzarçını çağırdı.

Məzarçı başını çevirdi.

– Mən də monastır məzarçısıyam.

Qribye:

– Demək, yoldaşıq, – dedi.

Foşlevan, azsavadlı olsa da, hər şeyi tez başa düşən bir adam idi. O, təhlükəli bir insan cinsinə, yəni boşboğaz bir adama rast gəldiyini anladı. Deyinərək:

– Demək, Matyen dayı öldü... – dedi.

Məzarçı cavab verdi:

– Tamamilə, Allah-taala veksel kitabına baxıb gördü ki, Matyen dayının vədəsi gəlib çatmışdır. Odur ki Matyen dayı da öldü.

Foşlevan mexaniki olaraq təkrar etdi:

– Allah-taala...

Məzarçı mənalı bir tövrlə:

– Bəli, Allah-taala, – dedi, – filosoflar ona əbədi xaliq deyirlər, yakobinçilər üçün isə o, vücudi-mütləqdir.

Foşlevan:

– Bəs biz daha yaxından tanış olmayaqmı? – deyə mızıldandı.

– Artıq tanış olduq. Siz kəndli-kündlüsünüz, mən isə parisliyəm.

– Bir yerdə şərab içməsək, yaxşı tanış ola bilmərik. Adam şərab şüşəsini açanda, ürəyini də açır. Gedək içək. Adət belədir. Bundan boyun qaçırmazlar.

– Yox, olmaz. İş hər şeydən vacibdir.

Foşlevan öz-özünə düşünərək:

– Məhv oldum! – dedi.

Rahibələrin, adətən, dəfn edildiyi yerə doğru gedən balaca xiyabana ancaq bir neçə dəqiqəlik yol qalmışdı.

Məzarçı yenə sözə başladı:

– Ay yekəbaş, mənim yeddi balaca uşağım var, onları bəsləməliyəm. Onların qarnı tox olsun deyə, içməməliyəm.

Sonra dərin bir fikir söyləyən mütəfəkkirlər kimi məmnun bir halda gülümsəyərək:

– Onların aclığı mənim susuzluğumun düşmənidir, – deyə sözlərini tamamladı.

Cənazə arabası sərv ağaclarının yanından keçdi, baş xiyabandan çıxıb, yan xiyabana girdi, sonra ot basmış bir yerdən keçərək, qalın ağaclığa girdi. Bu, dəfn yerinin lap yaxınlığında olduğunu göstərirdi. Foşlevan yavaş-yavaş yeriməyə çalışırdısa da, cənazə arabasının hərəkətini yavaşıtmaq iqtidarında deyildi. Xoşbəxtlikdən, bir az əvvəl yağmış qış yağışı torpağı islatmışdı, palçıq təkərlərə yapışır, arabanın sürətini azaldırdı.

Foşlevan yenə məzarçıya yanaşdı. Yavaş bir səslə:

– Orada əla Arjanteyl şərabı var, – dedi.

Məzarçı yenə sözə başladı:

– Ay kəndçi, mən məzarçı olacaq adam deyiləm. Mənim atam Pritanedə qapıçı vəzifəsində işləyirdi. O, mənim bir ədib olacağıma inanırdı. Lakin onu cürbəcür bədbəxtlik basdı. Atam birjada hər şeyini uduzdu. Mən də ədəbiyyatdan əl çəkməyə məcbur oldum. Bununla belə, mən indi də camaat üçün ərizə-zad yazıram.

Foşlevan saman çöpündən yapışan bir adam kimi, bu sözdən yapışaraq:

– Demək, siz məzarçı deyilsiniz? – deyə soruşdu.

– Bu iki sənət bir-birinə mane olmur. Hər ikisində də işləmək olar.

Foşlevan bu sözü başa düşmədi.

– Gedək içək, – dedi.

Burada bir izahat vermək lazım gəlir. Foşlevan böyük bir təşviş içində olmasına baxmayaraq, içməyi təklif edərkən, mühüm bir maddənin üstündən sükutla keçirdi, bəs şərabın pulunu kim verəcək? Foşlevan, adətən, içməyi təklif edər, pulunu isə Matyen dayı verərdi. Budəfəki içmək təklifi, təbii olaraq, yeni məzarçının meydana çıxması ilə yaranan yeni vəziyyətdən doğurdu. Belə bir təklif, əlbəttə, edilməli idi, lakin qoca bağban Rablenin on beş dəqiqəsi kimi, pul məsələsini qəsdən üstüörtülü qoymuşdu. Foşlevanın özünə gəlincə, həyəcan keçirməyinə baxmayaraq, əlini cibinə uzatmaq fikrində belə deyildi.

Məzarçı təkəbbürlə gülümsəyərək:

– Hər halda, yemək lazımdır! – dedi. – Mən Matyen dayının yerinə işə girdim. Adam, az qala, mükəmməl bir təhsil alandan sonra istər-istəməz filosof olur. Mən qələm işinə bel işini də əlavə etdim. Mənim dəftərxanam Sevr küçəsində olan bazardadır. O bazarı görmüşsünüzmü? Çətir bazarında. Qırmızı xaç xəstəxanalarının bütün aşpaz qadınları mənə müraciət edirlər. Mən onlar üçün sevdikləri əsgərlərə aşiqanə məktublar yazıram. Səhərlər sevgi məktubları yazıram, axşamlar isə qəbir qazıram. Yaşamaq çətindir, kəndçi!

Cənazə arabası getdikcə irəliləyirdi. Qorxu və həyəcanı son nöqtəyə çatmış olan Foşlevan, oyan-buyana boylanırdı. Alnından iri tər damcıları axırdı.

Məzarçı yenə sözünə davam edərək:

– Halbuki, – deyirdi, – iki ağaya qulluq etmək olmaz. Ya qələmdən əl çəkməliyəm, ya da beldən. Bel mənim xəttimi korlayır.

Araba dayandı.

Dəfn arabasından balaca bir müğənni, onun da dalınca keşiş endi.

Cənazə arabasının qabaq təkərlərindən biri torpaq yığını üstünə çıxmışdı. Bu yığının o tərəfində açıq bir qəbir görünürdü.

Foşlevan başını tamamilə itirmiş bir halda:

– Aman, nə gülməli oyundur! – deyə təkrar etdi.

Altıncı fəsil

DÖRD TAXTA ARASINDA

Tabutun içindəki kim idi? Biz bunun Jan Valjan olduğunu bilirik.

Jan Valjan tabutun içində elə uzanmışdı ki, boğulmasın, çətinliklə olsa da, nəfəs ala bilsin.

Çox qəribə şeydir: insanın vicdanı sakit olduğu zaman, özü də, ümumiyyətlə, sakit olarmış. Jan Valjanın düşünmüş olduğu bu kələk müvəffəqiyyətlə düzəlirdi, həm də dünəndən bəri işlər lap gözəl gedirdi. O da Foşlevan kimi, Matyen dayıya bel bağlamışdı, Jan Valjan nəticənin gözəl olacağına heç şübhə etmirdi. Bu qədər böhranlı bir vəziyyət ağla gəlmədiyi kimi, bu qədər dərin sakitlik də təsəvvür edilə bilməz.

Tabutun dörd taxtası arasında sakitləşdirici bir şey vardı. Sanki, Jan Valjanın sakitliyinə ölülərin sakitliyi qarışmışdı.

O, bu tabutun içindən ətrafda olan hadisələri izləyir, ölümlə apardığı bu qorxulu oyunun bütün mərhələlərini seyr edirdi.

Foşlevan tabutun üst qapağını mıxladıqdan bir az sonra, Jan Valjan onun götürülüb aparıldığını hiss etdi. Tabutun hərəkətinin azalmasından arabanın daş yoldan çıxaraq, torpaq yola keçdiyini, yəni küçələri keçib bulvarlara çatdığını hiss etdi. Təkərlərin boğuq səsindən Austerlis körpüsünə çatdıqlarını başa düşdü. Araba birinci dəfə dayandıqda, qəbiristanlığa çatdıqlarını anladı. İkinci dəfə dayandıqda, "Qəbrə çatdıq" – dedi.

Birdən tabutun götürülüb qaldırıldığını hiss etdi, sonra bir şeyin bərk-bərk tabuta sürtüldüyünü eşitdi, tabutu qəbirin içinə sallamaq üçün ətrafına bir kəndir doladıqlarını anladı.

Sonra başı gicəllənən kimi oldu.

Yəqin ki, tabutçu ilə məzarçı tabutu qaldırdıqları zaman silkələnmiş və onu qəbirə başıaşağı endirmişdilər. Jan Valjan yenə düz və hərəkətsiz vəziyyətə gəldiyini duyunca, artıq tamamilə özünə gəldi. Tabutu qəbirin dibinə qoymuşdular.

Bədənində xüsusi bir soyuqluq hiss etdi.

Başı üzərində insan qanını buz kimi donduran təntənəli bir səs eşidildi. Mənasını anlamadığı, lakin son dərəcə aramla söylənildiyindən hər bir sözü ayrıca tuta bildiyi latınca sözlər eşitdi:

"Qud mormiunt in terrae pulvere, evigilabunt: alii in vitam aeternarn et alii in opprobrium ut videant semper"[1]

Bir uşaq səsi cavab verdi:

"De preofundis"[2]

Sərt səs yenə davam etdi:

"Reguiem aeternam dona ei, Domine"[3]

Uşaq səsi isə cavab verdi:

"Et lux perpetua luceat ei"[4]

O, tabutun qapağı üzərində yağış yağırmış kimi yumşaq bir şey səpələndiyini hiss etdi. Yəqin, keşiş tabutun üzərinə müqəddəs su səpələyirdi.

Jan Valjan öz-özünə düşündü:

– Bu, çox uzun sürməz! Bir az da səbir etməliyəm. Bu saat keşiş çıxıb gedəcək. Foşlevan Matyeni içməyə aparacaq. Mən tək qalacağam. Sonra Foşlevan tək geri qayıdacaq, məni tabutun içindən çıxaracaqdır. Bunların hamısı üçün bir saat tamamilə kifayətdir.

Sərt bir səs yenə dedi:

"Requiescat in pace"[5]

Uşaq səsi isə:

"Amen"[6] – deyə cavab verdi.

Jan Valjan diqqətlə qulaq asaraq uzaqlaşmaqda olan ayaq səslərinə bənzər bir şey duydu.

– Artıq çıxıb gedirlər, – deyə düşündü, – mən təkəm.

Birdən başı üstündə, sanki, göy gurladığını eşitdi. Bu, tabutun üzərinə atılmış bir bel torpaq səsi idi.

Sonra bir bel daha tökdülər.

Nəfəs aldığı deşiklərin birisini torpaq örtdü.

Üçüncü dəfə torpaq tökdülər.

Yer üzündə ən qüvvətli insanın da qüvvəsindən xaric şeylər var. Jan Valjan özündən getdi.

---

[1] Torpaqda yatanlar oyanacaq, bəziləri əbədi yaşamaq, bəziləri isə əbədi əzab çəkmək üçün ayağa duracaqlar, bunu heç bir zaman yaddan çıxarmasınlar (*lat.*)

[2] "Dərinlikdən" (*lat.*)

[3] İlahi, ona əbədi rahatlıq bəxş et (*lat.*)

[4] Əbədi nur ona işıq saçsın (*lat.*)

[5] Allah rəhmət eləsin (*lat.*)

[6] Amin (*lat.*)

Yeddinci fəsil

BU FƏSİLDƏ – "HARADA TAPDIM, HARADA İTDİ" MƏSƏLİNİN NECƏ ƏMƏLƏ GƏLDİYİNDƏN BƏHS OLUNUR

Jan Valjanın yatdığı tabutun üstündə bu işlər baş vermişdi.

Cənazə arabası uzaqlaşdıqdan və keşişlə balaca müğənni matəm karetasına minərək getdikdən sonra məzarçını gözündən itirməyən Foşlevan, onun əyilib torpağa sancılmış beli götürdüyünü gördü.

O zaman Foşlevan qəti bir qərar qəbul etdi.

Məzarçı ilə qəbir arasında dayanaraq, qollarını sinəsində çarpazladı və:

– Pulunu mən verirəm! – dedi.

Məzarçı təəccüblə onun üzünə baxdı.

– Nə dedin, kəndçi?

– Pulunu mən verirəm!

– Nəyin pulunu?

– Şərabın.

– Hansı şərabın?

– Arjanteyl şərabının.

– Arjanteyl şərabı haradadır ki?

– "Dəymiş heyva" meyxanasında.

Məzarçı acıqlanaraq:

– Rədd ol cəhənnəmə! – dedi.

Məzarçı bu sözlə qəbirin içinə bir bel torpaq atdı.

Tabutun qapağından boğuq bir gurultu çıxdı. Foşlevan ayaqlarının yerdən üzüldüyünü hiss edərək dizləri titrədi, az qaldı, özü də qəbrin içinə yıxılsın. Həyəcanından boğularaq, xırıldayan bir səslə bağırdı:

– Dostum, tez ol, yoxsa "Dəymiş heyva" bağlana bilər.

Məzarçı yenə belini torpaqla doldurdu.

Foşlevan:

– Pulunu mən verirəm, – dedi və məzarçının qolundan tutdu.

– Dostum, mənə bax. Mən monastır məzarçısıyam, mən sənə kömək etməyə gəlmişəm. Qəbri gecə də doldura bilərik. İndi isə gedək hərəmiz bir stəkan vuraq.

Foşlevan bu sözləri deyərək israr edir, tələb edir, yalvarırdı və eyni zamanda öz-özünə fikirləşirdi: "Bəlkə, birdən içdi, amma sərxoş olmadı, bəs onda nə olacaq?"

Məzarçı:

– Ay kəndçi, indi ki siz belə içmək istəyirsiniz, mən razıyam. İçərik, – dedi. – Ancaq işimizi qurtarandan sonra. Ondan qabaq heç cür mümkün deyil.

Bunu deyərək yenə beli qaldırdı. Foşlevan qolundan tutdu.

– Arjanteyl şərabıdır. Arjanteyl. Qiyməti altı su!

Məzarçı:

– Amma yaman zurnaçısınız ha! – dedi. – Zır-zır, zır-zır. Bundan başqa bir şey bilmirsiniz. Gedin bir az gəzişin.

Bu sözlərlə məzarçı tabutun üstünə yenə torpaq atdı.

Foşlevan artıq elə bir dərəcəyə gəlmişdi ki, nə danışdığını belə bilmirdi:

– Gedək deyirəm sənə, gedək içək, – deyə bağırırdı, – qorxma, pulunu mən verəcəyəm!

– Ancaq uşağı yatırdandan sonra, – deyə məzarçı cavab verdi. Və üçüncü dəfə tabutun üstünə torpaq atdı.

Sonra isə beli torpağa sancaraq bu sözləri əlavə etdi:

– Bilirsinizmi, bu gecə hava soyuq olacaq, üstünü yorğansız qoysaq, ölü bizi çağıra bilər.

Məzarçı bu anda beli torpaqla doldurmaq üçün yenə əyildikdə, pencəyinin cibi açıldı.

Foşlevanın çaşqın nəzərləri təsadüfən bu cibə düşdü və ona sancılıb qaldı.

Günəş hələ batmamışdı; cibin içində nə isə bir şey ağardığını görmək olurdu. Foşlevanın gözlərində birdən ümid işığı parladı, bu gözlər pikardiyalı bir kəndli gözlərinin açıla biləcəyi dərəcədə açıldı. Birdən ağlına bir fikir gəldi.

Başı belə qarışmış olan məzarçı bir şey görməsin deyə, böyük bir ehtiyatla, əlini dal tərəfdən onun cibinə uzadıb cibindəki ağ şeyi ehmalca çıxartdı. Məzarçı qəbrin içinə bir bel də torpaq atdı.

Beşinci dəfə beli doldurmaq üçün əyildikdə, Foşlevan sakit və dərin bir nəzərlə ona baxaraq soruşdu:

– Bura baxın, siz təzə adamsınız, icazə vərəqəsi yanınızdadırmı?

Məzarçı dayandı.

– Hansı icazə vərəqəsi?

– Günəşin batdığını görmürsünüzmü?

– Nə olar ki, qoy gecə yorğanını başına çəkib yatsın.

– Bu saat qəbiristanlıq darvazasını bağlayacaqlar.

– Nə olsun ki?

– Bəs icazə vərəqəniz varmı?

Məzarçı, nəhayət, anlayaraq:

– Hə! İcazə vərəqəsi! – dedi.

Əvvəlcə əlini bir cibinə soxdu, sonra o biri cibini eşələdi, sonra jilet ciblərini yoxladı, bir cibini eşələdi, o birisini tərsinə çevirdi.

– Yoxdur, icazə vərəqəsi yanımda yoxdur, – dedi. – Yəqin, yadımdan çıxıb, evdə qalıb.

Foşlevan:

– On beş frank cəriməsi var, – dedi.

Məzarçının üzü yamyaşıl oldu. Yalnız üzü torpaq rəngində olan adamların rəngi qaçanda üzü yamyaşıl olar. Məzarçı:

– Ya Həzrəti-İsa, mərdimazarın boynu sınsın! – deyə bağırdı. – On beş frank cərimə!

Foşlevan:

– Bəli, düz üç dənə beşfranklıq, – dedi.

Məzarçı beli yerə atdı.

İndi də növbə Foşlevana çatmışdı. Foşlevan:

– Eybi yoxdur, dostum, – dedi, – qəm yemə. Böyründə hazır qəbir olsa belə, adam özünü belə şeylər üçün öldürməz. On beş frank nə böyük puldur ki! Vur-tut on beş frankdır, bir də istəsəniz onları verməyə də bilərsiniz. Mən dünyagörmüş adamam, siz isə südəmər uşaqsınız. Mən sizə yaxşı bir dost məsləhəti verərəm. Aydın məsələdir: günəş batır, o artıq Əlillər günbəzinə çatmışdır, beş dəqiqə sonra qəbiristanlığı bağlayacaqlar.

Məzarçı:

– Doğru deyirsiniz, – deyə cavab verdi.

– Siz beş dəqiqədə bu qəbiri doldura bilməzsiniz. Çox dərindir, lap cəhənnəm kimidir. Darvaza bağlandıqda buradan çıxa bilməyəcəksiniz.

– Doğru deyirsiniz.

– Odur ki on beş frank cərimə verməlisiniz.

– On beş frank!

– Lakin hələ vaxt var... Harada yaşayırsınız?

– Şəhər qapılarının iki addımlığında. Buradan on beş dəqiqəlik yol olar. Evim Vojirar küçəsindədir. Nömrə səksən yeddi.

– Hələ gec deyil, iki ayaq da satın alıb bu saat yola düşsəniz, çatarsınız.

– Elədir ki var.

– Darvazanı keçdikdən sonra quş kimi evinizə uçarsınız, icazə vərəqəsini götürüb yenə qaçarsınız geriyə, qapıçı sizi darvazadan buraxar. İcazə vərəqəsi yanınızda olandan sonra, artıq cərimə-zad vermək lazım gəlməz. Sonra da gəlib ölünü basdırarsınız. Mən də ölünün qarovulunu çəkərəm ki, qaçmasın.

– Məni ölümdən qurtardınız, kəndçi.

Foşlevan:

– Tez rədd olun gedin, – dedi.

Məzarçı sevincindən uçuna-uçuna, Foşlevanın əlini sıxdı və yüyürməyə başladı.

Məzarçı ağacların arasında gözdən itdikdən və ayaq səsləri tamamilə kəsildikdən sonra, Foşlevan qəbrin üstünə əyilib yavaş bir səslə:

– Madlen baba! – dedi.

Heç bir cavab gəlmədi.

Foşlevan titrədi. Yuvarlanaraq qəbrin içinə düşdü, tabutun baş tərəfinə atılıb çığırdı:

– Siz burdasınızmı?

Tabutun içində səs-səmir yox idi.

Foşlevan nəfəsi kəsiləcək dərəcədə tir-tir əsərək, iskənə ilə çəkici cibindən çıxarıb, tabutun üst taxtasını qopardı. Boz qaranlıq içində Jan Valjanın üzü göründü; gözləri yumulu, üzü sapsarı idi.

Foşlevan dəhşətə gəldi, tükləri biz-biz oldu, ayağa durmaq istədi, dizləri kəsildi, az qaldı tabutun içinə düşsün. Qəbrin iç divarına söykənib Jan Valjanın üzünə baxdı.

Foşlevan bir ah çəkirmiş kimi, yavaş bir səslə:

– Öldü! – deyə pıçıldadı.

Sonra yenə dik dayanaraq, əllərini elə bir hiddətlə sinəsində çarpazladı ki, yumulmuş yumruqları çiyinlərinə dəydi. O çığıraraq:

– Demək, mən onu belə xilas etdim! – dedi.

Zavallı hönkür-hönkür ağlamağa, özü ilə danışmağa başladı. Monoloqun insan təbiətinə xas olmadığı yanlış bir fikirdir. İnsan bəzən şiddətli iztirabların təsiri altında öz-özünə danışmağa başlayır:

Foşlevan deyirdi:

– Günah məndə deyil, Matyen dayıdadır. Axı bu sarsaq nə üçün öldü? Axı heç kim bu ölümü gözləmədiyi bir zamanda o nə üçün öldü? İndi də onun üzündən Madlen öldü. Ah, Madlen baba! Budur, tabutun içindədir! O, hər şeyə nail oldu! Hər şey bitdi! Ah, bütün bu işlərin bir mənası varmıdır? Aman ya rəbb! Öldü! Bəs onun balaca qızı, mən onu nə edəcəyəm? Bəs o meyvəsatan arvada nə deyəcəyəm? Belə bir adam da, belə bir ölümlə ölərmi? Bu rəvamıdır, ya rəbb? Ah, mənim arabamı çiyinləri ilə necə qaldırdığını görəydiniz! Madlen baba! Madlen baba! Vallah, o boğulub, mən deməddimmi, boğulub ölüb. O, mənim sözlərimə qulaq asmaq istəmədi! Bəli, yaxşıca oyun oynadıq, bu da onun axırı! O öldü! Bəs onun balası! Ah! Yox, yox, mən artıq ora qayıtmayacağam. Mən burada qalacağam. Elə yaxşı adam idi! Allaha yaxın adamların ən mərhəmətlisi idi. Ah, ah, belə də zarafat olar! Belə də iş olar ki, iki qoca bu yaşa çatsın, belə iş tutsun? Bəs o, bu monastıra necə gəldi? Elə hər şey buradan başladı. Belə şeylərə yol vermək olmazdı. Madlen baba! Madlen baba! Madlen baba! Madlen baba! Cənab Madlen! Cənab mer! O, məni eşitmir! Ah, indi bu işin içindən necə çıxaq?

Foşlevan bu sözlərlə saçlarını yolmağa başladı.

Uzaqdan, ağaclığın arxasından, kəskin bir cırıltı səsi gəldi. Qəbiristanlığın darvazasını bağladılar.

Foşlevan Jan Valjanın üstünə əyildi və birdən qəbrin içindən dəhşətlə geri çəkildi. Jan Valjan gözlərini açıb, ona baxırdı.

Ölünü görmək dəhşətli bir şeydir, ölünün titrədiyini görmək daha dəhşətlidir. Foşlevan daş kimi donub qalmışdı. Şiddətli iztirab və həyəcanlardan sarsılan qoca rəngi qaçmış halda qabağındakının bir ölü, yaxud diri olduğunu anlamadan çaşqın bir nəzərlə Jan Valjana, Jan Valjan da ona baxırdı.

Jan Valjan:

– Mən yatmışdım! – dedi. Durub tabutun içində oturdu.

Foşlevan diz çökdü.

– Aman Allah! Siz məni yaman qorxutdunuz, – dedi.

Sonra ayağa durub bağırdı:

– Çox sağ olun, Madlen baba!

Jan Valjan ancaq özündən getmişdi. Sərin hava onu ayıltdı. Sevinc – dəhşətin çəkilməsi deməkdir. Foşlevanın özünə gəlməsi

üçün də Jan Valjanın ayılması üçün lazım gələn qədər vaxt keçmişdi.

– Demək, siz ölməmişsiniz! Ah, siz nə ağıllı adamsınız! Mən sizi çağırdım, o qədər çağırdım ki, nəhayət, qayıtdınız! Gözlərinizin yumulu olduğunu gördüyüm zaman öz-özümə dedim ki, bəli, budur, boğulub öldü! Mən lap dəli olacaqdım, yaman dəli olacaqdım, başıma torba taxacaqdılar. Bisetr dəlixanasına qoyacaqdılar! Siz öləndən sonra mən bundan başqa nə edə bilərdim? Bəs sizin körpəniz nə olacaqdı? Bu meyvəsatan arvad da heç bir şey başa düşməyəcəkdi. Uşağı atdılar üstümə, uşağın babası isə öldü! Heç belə də kələk olar? Ey göyləri yaradan, bu nə iş idi biz düşmüşdük! Ah, şükür olsun Allaha, siz sağ-salamatsınız.

Jan Valjan:

– Üşüyürəm! – dedi.

Bu sözlər Foşlevanı tamamilə ayıltdı. O, özünə gəldi, vəzifəsi yadına düşdü. Bu iki adam özünə gəlmişdisə də, lakin özləri belə anlamadan, mənalı bir pərişanlıq, bu qaranlıq və dəhşətli yerin təsirindən əmələ gələn qəribə bir çaşqınlıq hiss edirdilər. Foşlevan:

– Tez buradan gedək, – dedi.

Əlini cibinə saldı, ehtiyat üçün götürmüş olduğu şüşəni çıxartdı.

– Əvvəlcə bu araqdan bir udum için, – dedi. Sərin havanın işini araq şüşəsi tamamlamış oldu. Jan Valjan bir udum içdikdən sonra tamamilə özünə gəldiyini hiss etdi.

Tabutun içindən çıxaraq, qapağı yenə mıxlamaq üçün Foşlevana kömək etdi.

Üç dəqiqədən sonra ikisi də qəbirin içindən çıxmışdılar.

Foşlevan tamamilə sakit idi, heç tələsmirdi. Qəbiristanlıq bağlı idi. Məzarçı Qribyenin birdən-birə qayıdıb gəlməsindən qorxmurdu. Bu "təzə adam" artıq evinə çatmışdı, icazə vərəqəsini axtarırdı, ancaq bunu tapmaq çətin bir şey idi, çünki vərəqə Foşlevanın cibində idi. Vərəqəsiz isə o artıq qəbiristanlığa qayıda bilməzdi.

Foşlevan kürəyi, Jan Valjan isə beli götürdü, az bir zaman içində boş tabutu basdırdılar.

Qəbiri doldurduqdan sonra Foşlevan Jan Valjana dedi:

– Gedək. Mən kürəyi götürərəm, siz də beli götürərsiniz.

Qaranlıq çökmüşdü.

Jan Valjan çətinliklə hərəkət edir və ayaqlarını sürüyürdü. Tabutun içində bədəni üşümüş, özü də meyit halına düşmüşdü. Tabutun dörd taxtası arasında bədənini bir ölüm hərəkətsizliyi bürümüşdü. Qəbirin içində bədəninə keçmiş soyuğun yox olması üçün vaxt lazım idi. Foşlevan:

– Yəqin, bədəniniz üşümüşdür? – deyə soruşdu. – Heyif ki, axsayıram, yoxsa yüyürə-yüyürə bədənimizi qızışdırardıq.

– Boş şeydir! – deyə Jan Valjan cavab verdi. – Bir neçə addım gedərək, yenə yeriməyə öyrəşərəm.

Onlar cənazə arabasının gəldiyi xiyabanlardan keçdilər. Bağlı darvazaya və qapıçının yaşadığı köşkə çatdıqda, Foşlevan əlindəki icazə vərəqəsini qutunun içinə tulladı, qapıçı qaytanı çəkdi, qapı açıldı, çıxdılar.

Foşlevan:

– İşlər nə yaxşı gedir! – dedi. – Madlen baba, ağlınıza nə gözəl fikir gəlibmiş!

Onlar tamamilə sakitcə Vojirar qarovulxanası yanından keçdilər. Qəbiristanlıq yaxınlığında kürəklə bel ən gözəl bir pasportdur.

Vojirar küçəsində heç kim görünmürdü.

Qabağa gedən Foşlevan evlərə baxa-baxa:

– Madlen baba, – dedi, – siz məndən yaxşı görə bilirsiniz. Zəhmət olmasa, səksən yeddi nömrəli evi mənə göstərərsinizmi?

Jan Valjan:

– Elə budur ki var, – dedi.

Foşlevan sözünə davam edərək:

– Küçədə heç kəs yoxdur, – dedi. – Beli mənə verin, bir dəqiqə məni burada gözləyin.

Foşlevan evin içinə girdi, yoxsulu çardağa tərəf çəkən bir sövqtəbii ilə lap üst mərtəbəyə qalxdı və qaranlıqda çardağın qapısını döydü.

İçəridən bir səs:

– Girə bilərsiniz, – dedi.

Bu səs Qribyenin səsi idi.

Foşlevan qapını açdı. Bütün bu yoxsul evlər kimi məzarçının da mənzili mebelsiz, qaranlıq bir daxmadan ibarət idi. Mal qablamaq üçün lazım olan bir qutu – bəlkə də, bir tabut – kamod yerini görür, yağ küpü – su qabını, küləşdən salınmış döşək – yatağı, tava döşəmə isə masa-oturacağı əvəz edirdi. Evin bir küncündə, köhnə bir

xalça parçasından ibarət olan cır-cındır üzərində, bir-birinə qısılaraq, arıq bir qadınla bir neçə uşaq oturmuşdu. Bu miskin otaqda bir ailə fırtınası olduğu hiss olunurdu. Burada hər şey bir "otaq" zəlzələsini xatırladırdı. Qazan qapaqları bir kənara atılmış, cındırlar dağılmış, kasa sınmış, uşaqların anası ağlamış, uşaqlar isə döyülmüşdü. Hər tərəfdə şiddətli və hiddətli axtarışların izləri görünürdü. Məzarçının icazə vərəqəsini dəli kimi axtardığı və itməyin məsuliyyətini otaqdakı hər bir şeyin üzərinə qoyduğu, yəni kasadan tutmuş ta arvadına qədər hər şeydən və hər kəsdən vərəqəni tələb etdiyi görünürdü. Üzündə dərin bir ümidsizlik hiss olunurdu.

Bununla belə, Foşlevan sərgüzəştə tez son vermək üçün çox tələsdiyindən, müvəffəqiyyətinin bu qəmli tərəfinə heç əhəmiyyət vermədi.

İçəri girər-girməz:

– Mən sizin kürəyinizi və belinizi gətirmişəm, – dedi.

Qribye heyrətlə onun üzünə baxdı:

– Kəndçi, sizsiniz?

– Sabah səhər icazə vərəqənizi qəbiristanlıq qapıçısından ala bilərsiniz.

Foşlevan bu sözlərlə kürəyi də, beli də yerə qoydu. Qribye:

– Bu nə deməkdir? – dedi.

– Bu o deməkdir ki, icazə vərəqəsi cibinizdən yerə düşüb, siz gedəndən sonra mən onu tapmışam, ölünü basdırmışam, qəbrin içini doldurmuşam, sizin görəcəyiniz işi görüb qurtarmışam, icazə vərəqənizi isə qapıçı sizə qaytarar, siz də on beş frank cərimə verməli olmazsınız. Təzə adamsınız, başa düşdünüzmü?

Qribye heyran və məftun qalaraq:

– Çox sağ ol, kəndçi! – dedi. – Gələn dəfə şərabın pulunu vermək mənim borcumdur.

Səkkizinci fəsil

MÜVƏFFƏQİYYƏTLİ SUAL-CAVAB

Bir saat sonra, gecə vaxtı iki kişi ilə bir uşaq Pikpüs küçəsindəki altmış iki nömrəli evə yaxınlaşdılar. Bu iki kişinin ən qocası çəkici götürüb qapını döydü.

Bunlar Foşlevan, Jan Valjan və Kozetta idi.

İki qoca əvvəl Kozettanın dalınca Yaşıl yol küçəsində yaşayan meyvəsatan arvadın evinə getdi. Foşlevan qızı bir gün qabaq aparıb onun yanına qoymuşdu. Kozetta başına nə gəldiyini anlamayaraq, bu iyirmi dörd saatı qorxu içində, xəlvətcə titrəyə-titrəyə keçirtdi. Qorxusundan hətta ağlamırdı. Heç bir şey yemədi, yatmadı. Meyvəsatan arvad ona min cür sual verdi, cavabında isə ancaq məyus bir baxış aldı. Kozetta bu iki gün ərzində gördükləri və eşitdikləri haqqında bir söz belə ağzından qaçırmadı. Həyatında böyük bir dönüş olduğunu hiss edirdi. Bütün varlığı ilə "ağıllı qız olmaq" lazım gəldiyini duyurdu. Balaca, gözü qorxmuş bir qızın qulağına müəyyən bir ifadə ilə söylənmiş "heç bir şey danışma" sözlərinin nə qədər böyük bir təsiri olduğunu hiss edən olmuşmu? Qorxu dilsiz olar. Həm də heç kəs uşaq qədər sirr saxlaya bilməz.

Lakin bu qaranlıq intizar saatlarından sonra Kozetta Jan Valjanı yenə gördüyü zaman elə heyran bir sevinclə bağırmışdı ki, diqqətli adam bunun uçurumdan qurtulan bir insanın səadət bağırtısı olduğunu anlardı.

Foşlevan monastırda yaşadığından, oraya girmək üçün söyləniləsi məşrut sözləri bilirdi. Bütün qapılar onun qabağında açıldı.

Bu surətlə ikiqat və dəhşətli məsələ, yəni çıxmaq və girmək məsələsi həll olundu.

Qapıçı xüsusi əmr almış olduğundan, həyətdən bağçaya baxan balaca qulluq qapısını açdı. Bu, hələ iyirmi il bundan qabaq çıxış darvazasının lap qabağında, həyətin dal tərəfində, divarın içində küçə tərəfdən görünən həmin qapı idi. Qapıçı üçünü də bu qapıdan keçirtdi, onlar həmin ayrıca daxili salona çatdılar. Bu salon, bir gün əvvəl Foşlevanın rəisin əmrlərini dinləmiş olduğu qəbul otağı idi.

Rəis onları gözləyərək, təsbehini çevirirdi. Yanında seçici analardan biri dayanmışdı, üzündə bir baş örtüsü vardı. Otaqda təkcə bir şam yanır və bunun zəif işığı otağa yayılırdı; daha doğrusu, otağa işıq düşdüyü zənn olunurdu.

Rəis Jan Valjanı nəzərdən keçirtdi. Qapalı göz qapaqları altından baxan gözlər hər bir şeyi görür. Sonra rəis sorğu-suala başladı:

– Siz onun qardaşısınızmı? – dedi.

– Bəli, şərəfli ana, – deyə Foşlevan cavab verdi.

– Adınız nədir?

Foşlevan cavab verdi:

– Ultim Foşlevan.

Doğrudan da, Foşlevanın bir zaman Ultim adlı ölmüş bir qardaşı vardı.

– Haralısınız?

Foşlevan cavab verdi:

– Amen yaxınlığındakı Pikinyadan.

– Neçə yaşınız var?

Foşlevan cavab verdi:

– Əlli.

– Sənətiniz nədir?

Foşlevan cavab verdi:

– Bağbanlıq.

– Mərhəmətli bir xristiansınızmı?

Foşlevan cavab verdi:

– Bəli, şərəfli ana.

– Siz bu qızın atasısınızmı?

Foşlevan cavab verdi:

– Mən onun babasıyam.

Seçici ana yavaş səslə dedi:

– Ağıllı cavab verir.

Jan Valjan bir kəlmə belə söyləmədi.

Rəis diqqətlə Kozettanı nəzərdən keçirdi və yavaş bir səslə rahibəyə dedi:

– Çirkin qız olacaqdır.

Rahibələr qəbul otağının küncündə yavaşca nə isə danışdıqdan sonra rəis Foşlevana tərəf dönərək:

– Fovan baba, – dedi, – sizə ikinci bir zınqırovlu dizlik verəcəklər, indi iki dənə lazım olacaqdır.

O biri gün bağçadan, doğrudan da, iki zınqırov səsi gəlirdi. Bu səsləri eşitdikcə, baş örtüklərinin bir ucunu qaldırıb baxmaq arzusundan özlərini saxlaya bilmirdilər. Bağçanın dal tərəfində, uzaqdakı ağaclar altında, iki kişi yan-yana yer qazırdı – biri Fovan, o biri isə özgə adam idi. Bu, fövqəladə bir hadisə idi. Rahibələr o gün vədi belə pozaraq, bir-birilə pıçıldaşmağa başladılar: “Bu, bağbanın köməkçisidir”.

Seçici analar isə izah edirdilər: "Bu, Fovan babanın qardaşıdır".

Jan Valjan, doğrudan da, tamamilə rəsmi surətdə, hər bir qaydaya riayət etmək şərtilə monastırda işləməyə başlamışdı, onun gen dizliyi və zınqırovu vardı, artıq o, rəsmi vəzifədə sayılırdı. Adı da Ultim Foşlevan idi.

Qulluğa qəbul olunmağının qəti səbəbi rəisin Kozetta haqqında "çirkin qız olacaqdır" deməsi olmuşdu.

Monastır rəisi bu fərziyyəni söylədikdən sonra dərhal Kozettaya qarşı bir təvəccöh hiss edərək onu monastır pansionuna pulsuz bir tələbə kimi qəbul etmişdi.

Bu, tamamilə ardıcıl bir hərəkət idi. Monastırda güzgü olmasa da, qadınlar gözəl olub-olmadıqlarını daxilən başa düşürdülər. Ona görə də gözəl olduqlarını bilən qızlar həvəssiz rahibə olurlar. Monastıra girənlər arasında gözəl qızlar çirkinlərə nisbətən az olduğundan gözəllərdən artıq eybəcərlərə bel bağlamaq olardı. Odur ki monastırda çirkin qızları sevərdilər.

Bu hadisə xeyirxah Foşlevanın nüfuzunu artırmışdı. Onun üç müvəffəqiyyəti vardı: əvvəla, o, qanadı altına aldığı və xilas etdiyi Jan Valjanın nəzərində nüfuz qazanmışdı. İkincisi, "o, məni cərimədən xilas etdi" – deyən məzarçı Qribyenin nəzərində nüfuz qazanmışdı. Nəhayət, onun sayəsində Çarmıxa çəkmə ananın tabutunu monastırın içindəki mehrabın altında saxlamağa müvəffəq olan və bu surətlə hakimləri aldadaraq, "Allahın payını" verən monastır əhalisinin nəzərində böyümüşdü. Mərhum rahibənin cənazəsi olan tabut Balaca Pikpüsdə, boş tabut isə Vojirar qəbiristanlığında idi. İctimai qaydaqanun ciddi bir şəkildə pozulsa da, bunu heç kəs görə bilməmişdi. Monastıra gəlincə, onun Foşlevana bəslədiyi minnətdarlıq çox böyük idi. Foşlevan monastırın ən yaxşı xidmətçilərindən biri və ən yaxşı bağban sayılmağa başladı. Arxiyepiskop bu hadisədən sonra birinci dəfə monastırı ziyarət etdiyi zaman, rəis bir az tövbə, bir az da fəxr edən kimi, bütün əhvalatı monsenyora danışdı. Arxiyepiskop da, monastırı tərk etdikdən sonra öz razılığını pıçıltı ilə əlahəzrətin xüsusi ruhanisi, sonra isə Reyme arxiyepiskopu və kardinal olan cənab de Latilə bildirmişdi. Foşlevanın şöhrəti bununla da qurtarmadı, lap Romaya qədər yayıldı.

Papa XII Levin öz qohumlarından olan və eyni della Jenqa familiyasını daşıyan Paris nunsisi və arxiyepiskopa yazdığı bir məktubda

– biz bu məktubu öz gözlərimizlə görmüşük – aşağıdakı sözlər qeyd edilmişdir: "Paris monastırlarının birində Fovan adlı gözəl bir bağban və müqəddəs adam olduğunu söyləyirlər". Lakin bu şöhrətin bir əks-sədası belə Foşlevanın komasına gəlib çatmadı, öz böyük məziyyətlərindən və müqəddəs adam olmağından bixəbər olan Foşlevan yenə də calaq vurur, alaq edir, qovun ləklərini soyuqdan qorumaq üçün həsir sərirdi. "*İllustrated London News*[1]" məcmuəsində təsvirini gördüyümüz və altında: "Qaramal sərgisində birinci mükafat almış öküz" sözləri yazılmış olan Dürham, yaxud Sürrey öküzü öz şöhrətindən bixəbər olduğu kimi, Foşlevan da bu qədər böyük bir şöhrət qazandığını bilmirdi.

Dördüncü fəsil

DOSTAQ KİMİ YAŞAMAQ

Kozetta monastırda da bir şey danışmazdı.

O, özünü Jan Valjanın qızı hesab edirdi, bu da təbii bir şey idi. Lakin özü belə bir şey bilmədiyindən, heç bir şey də deyə bilməzdi, bilsəydi belə, yenə də sükut edər, bir şey söyləməzdi. Uşaqları dünyada müsibət qədər susmağa öyrədən başqa bir şey yoxdur. Bunu biz bir dəfə dedik. Kozetta o qədər iztirab görmüşdü ki, o, hər şeydən: danışmaqdan, nəfəs almaqdan belə qorxardı. Söyləmiş olduğu ehtiyatsız bir söz sayəsində, dəfələrlə onun üzərinə dəhşətli bir söyüş yığını yağardı. Jan Valjanın yanına düşdüyü zamandan bəri o, yavaş-yavaş özünə gəlməyə başlamışdı. Monastıra da çox tez alışdı. Ancaq Katerinasının xiffətini çəkirdi, lakin bunu kimsəyə söyləməyə cəsarət etmirdi. Yalnız bir dəfə ürək edib Jan Valjana dedi:

– Ata, bilsəydim Katerinanı da özümlə götürərdim.

Kozetta monastır pansionunun talibəsi olduqdan sonra bu talibələrə məxsus paltar geyinməyə məcbur idi. Jan Valjan onun soyunduğu köhnə paltarın qaytarılması üçün icazə aldı. Bu paltar Kozettanı Tenardyenin meyxanasından apardığı zaman geyindirdiyi həmin matəm paltarı idi. Kozettanın bu paltarı hələ köhnəlməmişdi. Jan

[1] "Rəsmli London xəbərləri" (*ing.*)

Valjan bu paltarla yun corabları və çəkmələri haradansa tapmış olduğu balaca bir çamadanın içinə qoydu, şeylərin üstünə monastırlarda çox olan kafur və sairə ətirli şeylər tökdü. Çamadanı çarpayısının yanındakı stulun üstünə qoydu, açarını isə həmişə yanında saxlardı.

Bir dəfə Kozetta:

– Ata, – dedi, – sənin qutunda nə var, oradan nə yaxşı iy gəlir?

Foşlevan baba, bir az əvvəl bəhs etdiyimiz kimi, özünün xəbəri olmadığı şərəf və şöhrətdən başqa, elədiyi bu yaxşılıq üçün böyük bir mükafat almışdı: əvvəla, işi müvəffəqiyyətlə qurtardığı üçün o, xoşbəxt idi, ikincisi, köməkçisi olduğu üçün işi də xeyli azalmışdı. Bundan başqa o, tütünü çox sevdiyindən artıq gündə üç dəfə, həm də kefi istədiyi kimi işlədə bilərdi, çünki tütünün pulunu həmişə cənab Madlen verirdi.

Rahibələr Ultim adını qəbul etmədilər. Jan Valjana, adətən, "o biri Fovan" deyərdilər.

Bu mübarək qadınlar bir azacıq belə Javerin qabiliyyətinə malik olsaydılar, bağçaya aid sifarişlər üçün monastır xaricinə getmək lazım gəldiyi zaman, həmişə qoca, topal, xəstə, böyük Foşlevanın getdiyini və o birinin heç bir zaman monastırdan kənara çıxmadığını görərdilər. Lakin rahibələrin gözləri həmişə göylərə dikildiyindənmi, casusluq edə bilmədikləri üçünmü, yoxsa bir-birini pusduqları üçünmü, hər halda, onlar bu qəribə hadisəyə baş qoşmamışdılar.

Zatən, Jan Valjan gizlənib buradan tərpənməməkdə çox yaxşı iş görürdü. Javer tamam bir ay bu məhəlləni gözdən qaçırmadı.

Bu monastır Jan Valjan üçün hər tərəfdən uçurumlarla əhatə olunmuş bir ada kimi idi. Artıq monastırın bu dörd divarı Jan Valjan üçün bütün aləmi əvəz etməli idi. Jan Valjan geniş göyləri görür və bunlara baxdıqca ürəyi açılır, ruhən sakit olurdu. Bir də ki Kozetta burada idi – xoşbəxt olmaq üçün onu görmək kifayət idi.

Jan Valjan üçün yenə fərəhli bir həyat başladı.

O, qoca Foşlevanla birlikdə bağın dal tərəfində, daxmada yaşayırdı. Cürbəcür inşaat qırıntılarından tikilmiş olan bu evciyəz hələ 1845-ci ildə salamat idi, onun üç bomboş otaqdan, quru divarlardan ibarət olduğu məlumdur. Bu otaqların ən böyüyünü Foşlevan Jan Valjanın bihudə müqavimətlərinə baxmayaraq, cənab

Madlenə vermişdi. Otağın divarında, üstündən dizlik ilə səbət asılmış iki mıxçadan başqa daha bir bəzək vardı ki, bu da buxarının üstündən asılmış 1793-cü ilə aid bir royalist kredit bileti idi. Bu biletin surətini burada veririk.

KATOLİK
Kral naminə Ordu üçün tədarük edilən şeylərdən ötrü verilir. Sülh sazişi bağlandıqdan sonra ödənilməlidir. Seriya 3 № 10390 S t o f f l e
VƏ KRAL ORDUSU

Bu Vandeya əsginazını Foşlevandan qabaq işləyən və monastırda olan bir qoca şuan burada bağbanlıq etdiyi zaman divara mıxlamışdı.

Jan Valjan hər gün bağçada işlər və çox fayda verərdi. Vaxtilə ağac calamaqla məşğul olduğundan, yenə həvəslə bağbanlığa başladı. O, ağac bəsləməyin bir çox üsuluna və sirrinə bələd idi. İndi bu bilik onun işinə yaradı.

Bağçadakı ağacların çoxu cırlaşmışdı, Jan Valjan onlara calaq vurdu, ağaclar yenə yaxşı meyvə verməyə başladılar.

Kozettanın hər gün bir saatlığa Jan Valjanın yanına gəlməsi üçün icazə almışdılar. Rahibələr daim məyus, Jan Valjan isə mərhəmətli olduğundan, balaca qız onu rahibələrlə müqayisə edərək, pərəstiş etməyə başlamışdı. Kozetta günün müəyyən saatında yüyürə-yüyürə bağbanların damına gələrdi. Kozetta komanın qapısından girər-girməz ora cənnətə dönərdi. Jan Valjanın üzü parlar, Kozettaya səadət verdiyini anladığından, özü də xoşbəxt olardı. Başqalarına verdiyimiz sevincin də bir gözəlliyi var, o, başqa bir şüa kimi sönməz, daha parlaq bir nur kimi bizə tərəf qayıdar. Tənəffüs saatlarında Jan Valjan uzaqdan Kozettanın başqa qızlarla oynadığını və yüyürüşdüyünü seyr edərdi. Onun qəhqəhəsini və səsini eşitməyə alışmışdı.

Artıq Kozetta gülürdü.

Kozettanın üzü də bir qədər dəyişmişdi. Üzündəki qaranlıq kölgələr yox olmuşdu. Gülmək günəş kimidir, o, insanların üzündəki qış soyuğunu qovur.

Tənəffüs qurtaranda Kozetta da monastıra qaçardı. Jan Valjan Kozettanın dərs keçdiyi sinif pəncərələrinə baxar, gecələr isə yataq otağının pəncərələrinə baxmaq üçün yataqdan durardı.

Allahın işlərini bilmək olmaz, monastır da, Kozetta kimi, Jan Valjanın qəlbində yepiskopun xeyrə doğru yaratdığı dönüşü möhkəmlətmiş və tamamlamışdı. Şübhəsiz, xeyirxahlıq hər zaman bir cəhətdən təkəbbürlə təmas edir. İblisin tikdiyi bir körpü onları birbirinə bağlayır. Bəlkə də, Jan Valjan taleyin əmri ilə Kiçik Pikpüs monastırına düşdüyü zaman, şüursuz olaraq artıq bu cəhətə və bu körpüyə yaxınlaşmışdı. Nə qədər ki o, özünü yepiskopla müqayisə edirdi, ona layiq olmadığını hiss edir, zəlil və məlul olurdu. Lakin son zamanlar özünü başqa insanlarla müqayisə etməyə başlamış və qəlbində iftixar hissi oyanmışdı. Kim bilir? Bəlkə də, o özü belə hiss etmədən, yenə insanlara nifrət bəsləməyə öyrəşəcəkdi.

Bu yoldan onu monastır saxladı.

Bu, Jan Valjanın öz həyatında təsadüf etdiyi ikinci əsarət yeri idi. Gəncliyində, həyatın işıqlı dövrü adlandıra biləcəyimiz bir dövrdə və sonra, lap yaxın zamanlarda, o, ədalət məhkəməsinin ədalətsizliyi, qanunun qanunsuzluğu kimi təsəvvür etdiyi mənfur, dəhşətli, sərt bir yerə düşmüşdü. İndi katorqadan sonra o, monastıra düşmüşdü və vaxtilə katorqa həyatı sürdüyünü, indi isə monastır həyatını, sanki, seyr etdiyini düşündükcə, iztirab və qorxu içində bu iki şeyi bir-birilə müqayisə edirdi.

Bəzən əlindəki belə söykənərək, sonsuz burma bir pilləkənlə enirmiş kimi, yavaş-yavaş təfəkkür uçurumlarına qərq olardı.

Öz keçmiş yoldaşlarını xatırlayırdı. Onlar nə qədər bədbəxt insanlardı! Günəş doğmadan yataqlarından qalxar və gecənin yarısına qədər işlərdilər, yatmaq üçün çox az vaxt qalardı, onlar vur-tut iki barmaq qalınlığında döşəkləri olan əsgər çarpayısına uzanardılar, yalnız ən şiddətli şaxtalarda qızdırılan binalarda yatardılar, əyinlərində dəhşətli qırmızı pencəkləri vardı, mərhəmət göstərərək, onlara yayın istisində kətan şalvar, qışın soyuğunda isə yun köynək geyinməyə icazə verərdilər. Onlar ancaq xüsusi ağır işlərə göndərildikləri zaman şərab içər və ət yeyərdilər. Adlarını itirmiş bu adamları həmişə

nömrə ilə çağırardılar, onların hər biri, sanki, bir rəqəmə çevrilmişdi. Başlarını qaldırmadan, səslərini ucaltmadan, başları qırxıq bir halda, dəyənək qorxusu altında yaşardılar. Onların qisməti təhqirdən başqa bir şey deyildi.

Sonra yenə fikirləri gözləri qarşısında olan insanlara qayıdardı.

Bu insanlar da saçlarını kəsdirmişdilər, onlar da başıaşağı, səslərini ucaltmadan yaşayırdılar, onların qisməti təhqir olmasa da, istehza idi, bellərində dəyənək yarasının yeri görünməsə də, çiyinlərində şallaq izləri görünürdü. Onların da adları dünya üçün artıq məhv olmuşdu, onlar yalnız sərt və şərti adlar altında yaşayırdılar. Onlar heç bir zaman ət yeməz, heç bir zaman şərab içməzdilər. Bəzən axşama qədər ağızlarına çörək almazdılar, əyinlərində qırmızı pencək olmasa da, yay günləri üçün çox ağır, qış günləri üçün çox yüngül olan qara mahuddan kəfən geyərdilər, əyinlərindəki paltara nə bir şey əlavə etmək, nə də bir şey əksiltməyə ixtiyarları vardı, ilin fəsillərindən asılı olaraq, ehtiyat üçün nə kətan yorğanları vardı, nə də üst yun paltarları, ilin altı ayını qaba yun köynək geyinərdilər. Bu köynəyin dəhşətindən isitməyə düşərdilər, onlar yalnız şiddətli şaxta olan günlərdə ocaq qalanan binalarda deyil, heç bir zaman ocaq qalanmayan hücrələrdə yaşardılar, onlar iki barmaq qalınlığında döşəklər üstündə deyil, küləş üstündə yatardılar. Nəhayət, onlara yatmaq belə qadağan edilmişdi, ağır dəhşətdən sonra hər gecə yorğun düşərək, yenicə özlərini birtəhər qızdırıb mürgüləməyə başladıqları zaman ibadət etmək üçün şirin yuxularını kəsməli, qaranlıq ibadətxananın buz kimi soyuq daş döşəməsi üzərində diz çökməli idilər.

Bəzən də bu insanlar daş döşəmə üzərində on iki saat dalbadal, növbə ilə, diz üstə dayanmalı idilər, yaxud yerə yıxılıb, qollarını yanlarına ataraq uzanmalı idilər. O insanlar kişi, bu insanlar isə qadın idilər. Kişilərin günahı nə idi? Onlar oğurluq etmişdilər, adam öldürmüşdülər, qarət etmişdilər, zorlamışdılar, yol kəsmişdilər. Onlar quldur, saxta pul kəsən, ev yandıranlar, canilər, ata qatilləri idi. Bəs bu qadınların günahı nə idi? Onlar heç bir şey etməmişdilər.

Bir tərəfdə quldurluq, qarət, oğurluq, zorlama, qəbahət, qətl, hər cür xəyanətlər, hər cür cinayətlər, o biri tərəfdə isə yalnız bir şey: günahsızlıq.

Ən pak bir günahsızlıq, əsrarla dolu ülvi bir günahsızlıq, öz xeyirxah əməlləri ilə hələ bu dünyaya meyil etsə də, öz qüdsiyyəti ilə

artıq göylərə yüksələn bir günahsızlıq. Orada öz cinayətlərini pıçıltı ilə bir-birinə etiraf edənlər, burada öz günahlarını ucadan hamının qarşısında etiraf edənlər. Həm də onların cinayətləri nə cinayət, bunların günahları nə günah!

Orada – irinli yaralar, bu tərəfdə isə – ətirlər. O tərəfdə daim keşiyi çəkilən, daim topların lüləsi altında saxlanan mənəvi bir taun ki, yavaş-yavaş xəstələri məhv edir, burada isə bir ocaqdan yanan pak qəlblərin alovu. Orada qaranlıq, burada kölgə – ancaq şəfəq kimi parlayan bir kölgə, parlaq nur saçan bir şəfəq.

Hər ikisi əsarət yuvasıdır, lakin birincidə qurtuluş imkanı var, qanunun təyin etdiyi bir hüdud var, nəhayət, qaçmaq imkanı var. İkincidə isə əsarət əbədidir, burada yeganə bir ümid var. Həm də ən uzaq gələcəkdə parlayan bir ümid – insanların ölüm dedikləri bir ziya, bir azadlıq!

İnsanlar birinci əsarətə yalnız zəncirlə, ikinci əsarətə isə etiqadla bağlıdırlar.

Birinci əsarət yuvasından doğan nədir? Misilsiz lənətlər, dişlərin qıcırdaması, nifrət, hər bir şeydən ümidini kəsən bir kin, insan cəmiyyətinə qarşı çılğın bir etiraz, bir nalə, göylərə saçılan ittihamlar, küfrlər.

Bəs ikinci əsarət yuvasından doğan nədir? Xeyir-dua və məhəbbət.

Bu qədər bir-birinə bənzəyən və bu qədər bir-birindən fərqli olan iki əsarət yuvasında, bu qədər bir-birindən fərqli iki növ insanlar eyni iş görür – cəza çəkirdilər.

Jan Valjan birinci növ insanlar üçün cəza çəkməyi, öz şəxsi günahlarının cəzasını çəkməyi zəruri bilir, razılaşırdı. Lakin günahsız, məsum insanların özgələrinin günahlarını öz üzərinə götürərək, nə üçün cəza çəkdiklərini anlaya bilmirdi. O, dəhşətlə titrəyərək, özündən soruşdu: "Nəyin cəzasını? Hansı cəzanı?"

Vicdan səsi isə cavab verirdi: "Bəşər alicənablığının ən yüksək nümunəsi başqalarının işlədiyi günahın cəzasını çəkməkdir".

Bu barədə bizim öz rəyimizə gəlincə, bunu deməyə də bilərik, çünki bizim buradakı vəzifəmiz ancaq hekayəçi olmaqdır, biz ancaq Jan Valjanın düşündüklərini, təəssüratını nağıl edirik.

Jan Valjan öz qarşısında fədakarlığın ən yüksək bir dərəcəsini, xeyirxahlığın ən yüksək bir zirvəsini görürdü. İnsanların günahlarını bağışlayan və onların əvəzində cəza çəkən bir günahsızlıq, könüllü

qəbul edilmiş bir əsarət, əzabkeşlik, yolunu azmış ürəkləri iztirabdan xilas etmək üçün günahsız ürəklərin arzu etdiyi iztirab, Allaha qarşı bəslənilən bir məhəbbət içində qərq olan bəşəriyyətə qarşı məhəbbət, qərq olsa da məhv olmayan, dua edən bir məhəbbət, cəza çəkənlərin iztirablarını duyan mülayim, zəif insanlar, mərhəmətlə yaşayan insanların təbəssümü ilə gülümsəyən insanlar.

Jan Valjan bunları düşündükcə, şikayət etməkdə haqsız olduğunu xəyalına gətirirdi.

O bəzən gecəyarısı ayağa durub, şiddətli nizamnamələrin yükünü bellərində daşıyan bu məsum insanların minnətdar nəğmələrinə qulaq asardı. Haqlı olaraq cəza çəkən və üzlərini göylərə tərəf çevirdikləri zaman ancaq küfr saçan insanları, bir də özünün, yəni bədbəxt bir insanın bir zamanlar Allaha qarşı üsyan etdiyini xatırlayarkən, damarlarına buz kimi soyuq yayılırdı.

O, bir şeyə heyrət edirdi: divarın üstünə qalxması da, hasarı keçə bilməsi də, ölümlə nəticələnə biləcək təhlükəli oyunu da, bu ağır və sərt həyat yoxuşu da – birinci cəza yuvasından çıxmaq üçün göstərdiyi bütün bu səylər yalnız ikinci cəza yuvasına düşmək üçün imiş. Kim bilir, bəlkə, bu, onun taleyinin bir rəmzidir? O, sanki, öz taleyinin yavaş, ehtiyatkar səsinə qulaq asaraq dərin fikirlərə dalırdı.

Bu ev də zindandan başqa bir şey deyildi, bu da dəhşətli bir şəkildə o evə, onun qaçdığı evə bənzəyirdi, bununla belə, o heç bir zaman belə bir şey, təsəvvürünə gətirə bilməzdi.

O, yenə torlar, qəfəslər, qıfıllar, dəmir rəzələr görürdü, bəs onlar kimin keşiyini çəkirdi? Mələklərin.

O, bir zaman bu uca divarların pələngləri mühasirəyə aldığını görmüşdü, indi isə yenə bu uca divarları görürdü, lakin onların mühasirəyə aldıqları pələnglər deyil, məsum quzular idi.

Bu yer cəza yeri deyil, tövbə yeri idi, halbuki o, cəza yerindən daha sərt, daha qaranlıq, daha amansız görünürdü. Həyat bu bakirə qadınların belini katorqalılara nisbətən daha amansızcasına əymiş, bükmüşdü. Soyuq, bıçaq kimi kəsən bir külək, bir zaman gəncliyini buz kimi donduran bir külək o torlu pəncərəni yarar, o ağzı qıfıllı qırğı yuvasını dəlib keçərdi, bu göyərçinlərin qəfəsində isə daha şiddətli və daha dəhşətli bir şimal küləyi əsərdi. Nə üçün?

Jan Valjan bunu düşündükcə, bütün varlığı Allahın sirləri qarşısında əyilirdi.

Belə fikirlər qürurun yox olmağına səbəb olur. Jan Valjan özünü hər tərəfdən təhlil edir, heçdən başqa bir şey olmadığını anladıqda, dəfələrlə öz acı taleyinə ağlayırdı. Bu altı ay ərzində onun həyatına sirayət edən bu fikirlər onu yenə yepiskopun nəsihətləri dərgahına qaytarardı. Kozetta – məhəbbət yolu ilə, monastır – itaət yolu ilə.

Bəzən axşamlar qaranlıq çökərkən, bağçada heç kəs olmadığı zaman, Jan Valjanı ibadətxananın yaxınlığındakı xiyabanda görmək olardı. O, birinci dəfə buraya gəldiyi gecə baxdığı pəncərənin altında diz çöküb, üzünü tövbə və dua edən rahibə bacının uzanmış olduğu tərəfə çevirərdi. Jan Valjan onun qarşısında diz çöküb dua edərdi.

Sanki, o, Allahın qarşısında diz çökməyə cəsarət etmirdi.

Onun ətrafındakı hər bir şey – bu dinc bağça, bu ətirli çiçəklər, bu sevinclə bağıran uşaqlar, bu ciddi və sadə qadınlar, bu sakit monastır, – yavaş-yavaş onu ələ alır, yavaş-yavaş onun qəlbinə bu monastırın sükunəti, bu çiçəklərin ətri, bu bağın dincliyi, bu qadınların sadəliyi, bu uşaqların sevinci yayılırdı. O düşünürdü ki, bu iki ev, həyatının ən təhlükəli dəqiqələrində bir-birini ardınca ona yer və yuva vermiş olan Allah evləri idi. Birincisi, bütün qapılar onun üzünə bağlı olanda, bəşər cəmiyyəti onu rədd edəndə, ikincisi, bəşər cəmiyyəti onu təqib etməyə başladıqda və yenə onun üzünə katorqa qapıları açıldıqda. Birinci ev olmasaydı, o, yenə cinayət uçurumlarına yuvarlana bilərdi; ikinci ev olmasaydı, yenə iztirab uçurumlarına düşərdi.

Jan Valjanın qəlbi minnətdarlıqdan əriyirdi. O daha şiddətlə sevməyə başlayırdı.

Bir çox illər gəlib keçdi. Kozetta böyüyürdü.

İZAHLAR

Səfillər

FANTİNA

Beşyüzlər Şurasının keçmiş üzvü, özünü on səkkiz brümer tərəfdarı kimi göstərib... – ilk Fransa burjua inqilabının təqvimi üzrə VIII il 18 brümerdə (9 noyabr 1799-cu ildə) Napoleon Bonapart dövlət çevrilişi edərək, burjua diktaturası formasını dəyişdi: Beşyüzlər Şurası ilə Ağsaqqallar Şurasından ibarət olan Qanunverici korpus dağıdıldı. Diktatura ləğv edildi və hakimiyyət, başda Bonapart olmaqla, üç konsulun əlinə keçdi.

Bəziləri, de Mestr kimi, ona məftundur, bəziləri isə, Bekkari kimi, ona lənətlər oxuyur... – De Mestr Jozef (1753-1821) mürtəce fransız yazıçısı olub, katolik kilsəsinin və papanın ümumdünya hakimiyyətini təbliğ edirdi. Bekkaria Çezare (1738-1794) italyan hüquqşünası və publisistidir. İtaliyada fransız tərəqqiçilik ideyalarını yaymışdır. "Cinayətlər və cəzalar haqqında" adlı kitabında o, ölüm cəzası əleyhinə çıxış edir.

Turnefor, Jyusye – XVII əsrin sonunda və XVIII əsrin birinci yarısında yaşamış fransız botanika alimləridir.

Linney Karl (1707-1778) – İsveç təbiyyat alimi, bitkilərin elmi təsnifat sisteminin banisidir.

Piqo-Lebren Şarl Antuan (1753-1895) – fransız yazıçısı və dramaturqu, XIX əsrin 20-ci illərində şöhrət tapmış bir çox yüngül romanların müəllifidir.

...Markiz d'Arjans, Pirron, Qobbs və Nejon heç də fırıldaqçı deyildirlər. – Markiz d'Arjans XVIII əsrdə yaşamış ensiklopediyaçılara yaxın olan fransız yazıçısı, filosof-skeptikdir. *Pirron* antik skeptisizmin banisi sayılan yunan filosofudur (bizim eraya qədər 365-275-ci illərə yaxın). *Qobbs Tomas* ingilis materialist filosofudur (1588-1679). *Nejon* Didronun davamçısı və "Ensiklopediya" üzrə onun əməkdaşıdır.

Nidgemin ilan balıqları. – Nidgem – XVIII əsrdə yaşamış ingilis fizikşünasıdır. O isbat etmişdi ki, müəyyən şəraitdə (qıcqırma zamanı) öz-özünə canlı orqanizmlər – ilanbalığına oxşar cisimciklər əmələ gələ

bilər və belə hesab edirdi ki, bu, təbiətdə ilahi bir qüvvə mövcud olmasına sübutdur. Volter İngiltərədə olduğu zaman Nidgemə amansız istehza edirdi.

Tertullian (II-III əsrlər) – qədim Roma ilahiyyatçısı və hüquqşünasıdır.

Siz istər Sardanapal olun, istər Vensen de Pol... – Sardanapal – yarıməfsanəvi Assuri padşahıdır (e.ə. IX əsr). Rəvayətə görə, dəbdəbə və zövqlərlə dolu həyat sürərmiş. *Vensen de Pol* XVI əsrdə yaşamış Fransa missioneridir; kilsə əfsanəsi onu zahid, tərki-dünya nümunəsi kimi təsvir edir.

Telemakın Minerva tərəfindən cəngavərliyə qəbul edilməsi... – Telemak Homerin poemasında Odisseyin oğludur. Bu halda məsələ XVIII əsrin əvvəlində məşhur olan fransız yazıçısı Fenemonun "Telemakın sərgüzəştləri" adlı siyasi əxlaqi romanı haqqında gedir (1699).

Qara siyahı – qədim Romada qanundankənar elan edilmiş şəxslərin siyahısıdır (proscriptio – yazılı elan); Fransada Restavrasiya zamanı – qovulmalı olan inqilab iştirakçılarının siyahıları.

Kartuş – Paris qulduru, cəmiyyətin yüksək dairələrinə mənsub olan şəxslərlə əlaqəsi olan quldur dəstəsinin başçısıdır. Parisdə 1721-ci ildə Qrev meydanında edam olunmuşdur.

Draqonadalar münasibətilə "Te Deut" deyə oxuyan Bossüe... Jan Benin Bossüe – XVII əsrdə fransız ilahiyyatçısı və vaizi, mütləqiyyətçi monarxiya ideoloqudur. Draqonadalar – XVII əsrin 80-ci illərində kral və XIV Lüdovik tərəfindən hugenotlara qarşı göndərilən hərbi cəza dəstələridir.

Fukye-Tenvil – Birinci Fransa burjua inqilabının görkəmli xadimidir; 1793-cü ildə inqilabi tribunalda ictimai ittihamçı olmuşdur. *Lamuanyon-Bavil* – Fransanın cənubunda, Langedok əyalətində XIV Lüdovikin intendantı, qanlı draqonadaların başlıca təşəbbüskarlarından biridir.

Mayyar – xalqın irəli sürdüyü Fransa inqilabı qəhrəmanlarından biridir. 1789-cu ildə Bastiliyaya edilən hücuma başçılıq etmişdir. 1792-ci ildə, Paris həbsxanalarında həbsdə saxlanan xalq düşmənlərinin sentyabr edamları zamanı öz-özünə əmələ gəlmiş xalq tribunasının sədri olmuşdur. *So-Tavan* – 1572-ci ildə Varfolomey gecəsində hugenot qırğınında şəxsən iştirak etmiş Fransa marşalıdır.

Düşen ata – Birinci Fransa inqilabı dövründə xalqın aşağı təbəqələrinin rəhbəri, kordelyerlər klubunun başçısı Jak-Ren Eber tərəfindən nəşr edilən qəzetdir. *Letelye* – Markiz de-Luvuanın atası, XIV Lüdovikin əyanlarındandır. Nant ediktinin ləğv edilməsi haqqında əmri imza etmiş və hugenotları təqib etmişdir.

Başkəsən Jurdan (əsl adı Matye Juvdur) – 1791-ci ildə Fransanın cənubunda, Avinyonda katolik irticanın yatırılmasına rəhbərlik etmişdir. Markiz de Luvua XIV Lüdovikin hərbi naziridir. 1689-cu ildə, ələ keçirilmiş Pfaltsın əhalisinə, öz əsgərlərinə, həmçinin hugenotlara qarşı son dərəcə amansız olmuşdur.

...qallikandan daha çox ultramontan olardı. – Ultramontanlar Fransa kilsəsinin Romaya və papanın dünyəvi hakimiyyətinə tabe olmaq tərəfdarlarıdır.

Yüz gün – 1815-ci ildə Elba adasından Fransaya qayıtdıqdan sonra Napoleonun ikinci dəfə hökmranlıq etdiyi müddətdir.

"*Bu üç qurbağanı ürəyin üstündə gəzdirməkdənsə, ölmək yaxşıdır*" – Napoleon tərəfindən təsis edilmiş Fəxri legion ordenini qəbul edərək, Burbonlar onun üz tərəfində olan Napoleon surətini IV Henrix surəti ilə əvəz etdilər, ordenin arxa tərəfində isə qartal əvəzinə üç heraldik zanbaq yerləşdirdilər (bu çiçəklər bir qədər qurbağaya bənzəyirdi və bir rəvayətə görə, fransız krallarının gerbində olan bu şəklin mənşəyini elə qurbağalar təşkil edirdi).

Omofor – üstündə qara xaçlar olan ağ paltar idi ki, Roma papası bunu xüsusi fərqlənmə nişanı olaraq yepiskoplara göndərirdi.

Başlarında Peretta kuzəsi... – Peretta fransız yazıçısı Lafontenin təmsilində iştirak edənlərdən biridir (XVII əsr). Bazara gedərkən yolda satacağı südün puluna nə qədər şey alacağı haqqında xəyala dalmış Peretta kuzəni salıb sındırır və bütün xəyalları puça çıxır.

...yalançı Kornel "Tiridata" yazarsa... "Tiridat" Kampistronun epiqon faciəsidir, adı Rasinin "Mitridat" faciəsini (1673) xatırladır. Rasin də öz müasiri Pyer Kornel kimi fransız ədəbiyyatı klassiklərindəndir.

...hərbçi Prüdom öz dövrü üçün həlledici əhəmiyyəti olan bir vuruşmada təsadüfən qalib gələrsə... – Jozef Prüdom, Anri Monyenin "Jozef Prüdomun memuarları" adlı kitabının (1857) personajı özündən razı, məhdud burjua tipidir; bu ad pis zərbi-məsəl olmuşdur.

Svedenborq və Paskal kimi böyük insanları ağılsızlığa yuvarladan... – *Svedenborq* XVIII əsrdə yaşamış isveç filosofu, mistik filosofdur. Öz hallyusinasiyalarını təsvir etmişdir. *Blez Paskal* (1623-1662) – məşhur fransız riyaziyyatçısı, fizikşünası və filosofudur, ömrünün axırında dini əqidələri nəticəsində onda ruhi pozğunluq əmələ gəlmişdi.

Juan limanı – 1815-ci il martın 1-də Napoleon Bonapart Elba adasından qaçaraq, Fransanın cənubunda Juan limanında sahilə çıxmışdı.

Bisetr – Parisdə psixiatriya şöbəsi olan qədim kişi xəstəxanası və əlillər evi, dilənçi və sərsərilər üçün islah evi kimi təsis edilmişdi.

...Klod Ge də çörək oğurlamışdı, Jan Valjan da. – Hüqonun "Klod Ge" adlı povestində (1834) Jan Valjan əhvalatının ilk səpkisi verilmişdir.

1817-ci il XVIII Lüdovikin... kral əzəməti ilə səltənətinin iyirmi ikinci ili adlandırdığı... – Burbonların Fransaya "bəxş etdikləri" Konstitusiya üzrə Restavrasiyanın birinci ili (1814) XVIII Lüdovikin "qanuni" padşahlığının on doqquzuncu ili elan edilmişdi (XVII Lüdovikin öldüyü 1795-ci ildən hesab edildikdə). Bu aktla burbonlar bütün inqilab və Napoleonun hakimiyyəti dövrünün üstündən, sanki, qələm çəkirdilər.

Hersoq d'Anqulem – qraf d'Artuanın (sonralar kral X Karlın) böyük oğludur; XVII Lüdovik taxta çıxanda fransız royalist qoşunlarının komandanı idi. 1823-cü ildən Müqəddəs İttifaq tərəfindən inqilabi İspaniyaya qarşı təşkil edilmiş yürüşə başçılıq etmişdir.

Madam Saki – akrobat; *Foriozo* – məftil üstə oynayan rəqqasə (XIX əsrin əvvəli).

Delalo – 13 vandemyerdə (5 oktyabr 1795-ci ildə) Konvent əleyhinə qaldırılmış royalist üsyanın başçılarından biridir; Restavrasiya zamanı nümayəndələr palatasının üzvü olmuşdur.

Plenye, Karbono və Toleronun – bonapartistlərin gizli "vətənpərvərlər" cəmiyyətinin təşkilatçılarıdır.

...qartal və arı təsvirləri vardı... – Napoleonun bayraqlarında təsvir olunan qartallar və onun rədasında tikilmiş qızılı arılar Napoleon imperiyasının simvolu sayılırdı.

May rəsm-keçidində – feodalizm zamanı mühüm aktları elan etmək üçün toplaşan vassallar yığıncağı; Yüz gün dövründə Parisdə yeni konstitusiya elan etmək üçün Napoleon tərəfindən düzəldilmiş hərbi rəsm-keçid və qanunverici korpusun təntənəli yığıncağıdır, bu konstitusiyada o, liberal güzəştlərlə xalqı öz tərəfinə çəkməyə çalışırdı.

Tuke tərəfindən nəşr edilmiş Volter... – keçmişdə Napoleon ordusunun zabiti olan nəşriyyatçı – kitabsatan Tuke müxalifətçi müəlliflərin, həmçinin XVIII əsr maarifçilərinin – Volterin və Russonun əsərlərini nəşr etməklə, Restavrasiya rejiminə mənfi münasibətini ifadə edirdi.

"Meduza" freqatının işi... Şomareyə rüsvayçılıq, Jerikoya isə şöhrət gətirməli idi. – 1816-cı ildə "Meduza" adlı fransız gəmisi fəlakətə uğramışdı; qayıqlarda və sallarda xilas olmağa çalışan yüz qırx səkkiz sərnişindən doqquzu salamat qalmışdı. "Meduza"nın kapitanı Şomarey məhkəməyə verildi. Rəssam Jeriko "Meduzanın salı" adlı tablosu ilə özünə şöhrət qazandı.

Matüren Brüno – başmaqçı oğlu, özünü Navvara prinsi (XVII Lüdovik) adlandırırdı. 1818-ci ildə katorqaya göndərilmişdir.

Cənab Bellar rəsmi natiqlikdə şöhrət qazanmışdı. – Bellar Restavrasiya dövründə ağlar terroru zamanı öz amansızlığı ilə şöhrət tapmış baş prokurordur.

...Broe yetişməkdə idi: Pol-Lui-Kuryenin acı istehzalarına hədəf olmaq onun qismətinə yazılıbmış. – Broe – Restavrasiya dövrünün bir çox siyasi proseslərində, o cümlədən yazıçı Pol-Lui Kuryenin (1772-1825) də prosesində ittihamçı kimi iştirak etmişdir. Pol-Lui Kurye Fransada feodal irticasına qarşı kəskin və məzəli satiralar yazmışdır.

Marşanjinin simasında yalançı Şatobrian tapılmışdı; d'Arlenkurun simasında yalançı Marşanji isə hələ zühur etməmişdi... – Marşanji Lui-Antuan "Şairanə Qalliya" adlı mürtəce dastanın (1813) müəllifidir, bu dastanda o, Şatobrianın "Xristianlıq dahisi"ni və "şəhid"lərini təqlid edir. *D'Arlenkur Şarl, vikont* – Restavrasiya dövrünün çox məhsuldar, üçüncü dərəcəli yazıçısı, "Karolenda" poemasının müəllifidir; bu poemada o, Burbonları mədh edir.

...madam Kotten əsrin ən yaxşı yazıçısı elan edilmişdi. – Kotten Sofi (1773-1807) – fransız yazıçısı, aşiqanə romanların, o cümlədən "Klara Alba" və "Matilda"nın müəllifidir. İtaliya bəstəkarı Kosta öz "Məlik Adil" operası üçün süjet olaraq "Matilda" romanını götürmüşdür.

...Anqulem haqlı olaraq bir dəniz limanı kimi qalmalı idi... – burada ironiya bundan ibarətdir ki, Anqulem şəhəri dəniz sahilində deyil, Şarante çayı sahilində yerləşmişdir.

Frankoni – Parisdə sirk sahibidir.

"Aqneza"nın müəllifi, kvadrat sifətli, yanağı ziyilli cənab Paer... – Paer Ferdinando – operaları Parisdə səhnəyə qoyulan italyan bəstəkarı (1771-1839). "Aqneza" onun ən yaxşı əsəridir.

"*Sarı cırtdan*" 1814-cü ildə nəşr olunmağa başlamış və 1816-cı ildə Yüz gün zamanı Napoleona tərəfdar olduğu üçün bağlanmış ədəbi teatr və satira jurnalı.

Luvelin artıq qaranlıq bir yerdə pusduğu hersoq de Berri... – hersoq de Berri – qraf d'Artuanın (sonralar Fransa kralı olan X Karlın) ikinci oğludur; Burbonlar ona Fransa taxt-tacının gələcək varisi kimi baxırdılar: 13 fevral 1820-ci ildə dabbağ-fəhlə Pyer Lüvel tərəfindən öldürülmüşdür. Bu terrorçuluq aktı Restavrasiyanın ilk illərində amansızlıq edən ağ terrorun nəticəsində baş vermiş və irticanın şiddətlənməsinə səbəb olmuşdu.

Madam de Stal (1766-1817) – məşhur fransız yazıçısıdır.

Madmazel Mars (1779-1847) – məşhur fransız aktrisasıdır.

Bu qəzetlərin formatı məhdudlaşdırılmışdısa da, azadlığı məhdudlaşdırılmamışdı. – Burjua mətbuatının bu zahiri "azadlığı" ilk senzuranın

qısa müddətə ləğv edilməsindən ibarət idi (hersoq de Berri öldürüldükdən sonra, 1820-ci ildə ilk senzura yenə bərpa edildi).

"*Məşrutəçi*" – Restavrasiya dövründə sol (mötədil-liberal) burjua qrupunun ən məşhur qəzetlərindən biri.

David artıq istedadlı, Arno ağıllı, Karno isə namuslu deyildi... – David Jak-Lui (1748-1828) – məşhur fransız klassik rəssamı, inqilab iştirakçısı, Konvent üzvüdür. Restavrasiya zamanı sürgündə olmuşdur. *Arno* (1766-1834) – dramaturq və təmsilçidir. *Karno* (1753-1823) – Konventin və İctimai Xilas Komitəsinin görkəmli xadimi, siyasi despotizmin qəddar düşməni idi; Burbonlar onu Fransadan qovmuşdular.

Sult (1769-1851) – Napoleon ordusunun marşalıdır. Austerlis vuruşmasında və İspaniyadakı döyüşlərdə şöhrət qazanmışdır.

IV Henrixin heykəlinə müntəzir olan pyedestalın üzərində... – Restavrasiyanın əvvəlində Burbonlar öz sülalələrinin əsasını qoyan kral IV Henrixin (1589-1610-cu illərdə hökmdarlıq etmişdir) şəxsiyyətinə pərəstiş yaratmağa çox çalışırdılar. Onun inqilab zamanı devrilmiş olan heykəli 1819-cu ildə bərpa edilmişdi.

"*Bakoya yazmaq lazımdır*". *– Baron Bako de Roman* – qəddar royalist, 1815-1816-cı illərdə ən mürtəce "Misilsiz Palata"nın üzvü idi.

"*Qara sancaq*" *cəmiyyəti* – Restavrasiyaya müxalif olan liberal burjuaların gizli cəmiyyəti; onun iştirakçıları 1817-ci ildə məhkəməyə cəlb edilmişdi.

Bir qədər liberal olan cənab Dekaz – Dekaz XVIII Lüdovikin birinci naziridir, Restavrasiya dövrünün əvvəlində liberallarla ultraroyalistlər arasında mövqe tutmuşdu. Ultraroyalistlər Dekazı yıxmağa çalışaraq, onun əleyhinə "Sahil sui-qəsdi" təşkil etdilər; sonrakı illərdə Dekaz özü ən qəddar mürtəcelərdən biri oldu.

Şatobrian Fransua Rene, vikont (1768-1848) – XVIII əsrdə maarifçi ədəbiyyat və fəlsəfəyə qarşı çıxışlar edən mürtəce fransız yazıçısı ("İnqilablar haqqında təcrübə", "Xristianlığın dahisi"), mürtəce romantizmin başçısıdır ("Rene" və "Atala" povestləri).

...Tənqidçilər Lafonu Talmadan üstün tuturdular. – Fransua-Jozef Talma (1763-1826) – inqilabın ilk illərində şöhrət tapmış məşhur tragik aktyordur. *Lafon* həmçinin görkəmli aktyordur. Talmadan sonra səhnəyə çıxmışdır.

De Feles "A" hərfi ilə, Qofman "Z" hərfi ilə imza edirdi. – Qofman Fransua – fransız jurnalisti, tənqidçisi və dramaturqudur. *Feles Şarl-Mari* – tənqidçidir; 1817-ci ildə hər ikisi o zamanlar royalist cəbhəsində duran "Jurnal de Deba" qəzetində görkəmli rol oynayırdı.

Şarl Nodye (1780–1844) – fransız yazıçısı, XIX əsrin 20-ci illərinin əvvəlindəki romantik hərəkatın mərkəzi fiqurlarından biri idi.

...Roma kralı – Napoleonun və Avstriya imperatorunun qızı Mariya – Luizanın yeganə oğlu olub, anadan olanda Roma kralı titulu almışdır; Napoleonun süqutundan sonra anası ilə birlikdə Vyana yaxınlığındakı Şenbrun qəsrinə göndərilmişdi və burada Reyxştadt hersoqu adı ilə yaşayırdı.

...Əlillər evi – Sena çayının sol sahilində XVII əsrdə kral XIV Lüdovik tərəfindən müharibələrdə şikəst olmuş dvoryanlar üçün tikdirilmiş saray. XIX əsrdə orada kitabxana və hərbi muzey yerləşirdi.

Trenkelaq – ikinci dərəcəli mürtəce siyasi xadim.

Klozel de Montal (keşiş), *Klozel de Kuserq* (parlament üzvü) – iki qardaş, Restavrasiya dövrünün mürtəce siyasi xadimləri, ultraroyalistləridir.

Pikar Lui-Fransua – Restavrasiya illərində fransız aktyoru və dramaturqu.

Künye de Montarlo – Restavrasiya dövrünün siyasi xadimi; Burbonlar hökumətinə qarşı liberal oppozisiyada olub, onlara qarşı iki sui-qəsddə iştirak etmişdir. İspanların tərəfində hersoq d'Anqulemin qoşunları ilə vuruşmuş və 1824-cü ildə onun tərəfindən güllələnmişdir.

Şarl Luazon – mürtəce yazıçıdır, fransız Akademiyası müsabiqəsinə XVII Lüdovikə həsr olunmuş şeirlər kitabı təqdim etmişdir.

Elmlər Akademiyasında nəsillərin çoxdan unutmuş olduğu məşhur Furye əyləşmişdi... – böyük utopiyaçı ilə eyni familiya daşıyan, məşhur həndəsəşünas baron Jan-Batist-Jozef Furye (1768–1830) nəzərdə tutulur.

David d'Anje Pyer-Jan (1788–1856) məşhur fransız heykəltəraşı.

Lameneyə çevrilən Felisite Rober (1782–1854) – XIX əsrin 30-40-cı illərində xristian sosializminin başlıca nəzəriyyəçi və xadimlərindən biri.

Sen-Jermen məhəlləsi ilə Marsen pavilyonu – Sen Jermen məhəlləsi – Parisin aristokratlar rayonudur. *Marsen pavilyonu* – Tüilri kral sarayının bir qoludur ki, Restavrasiya zamanı burada hersoq de Berri yaşayırdı; ən sağ mürtəcələrin (ultraroyalistlərin) daimi yığıncaq yeri.

Ruaye-Kollar – Restavrasiya illərində "doktrinerlər" – mötədil monarxistlər siyasi qrupunun başçısı.

Blüxer – Napoleon müharibələri dövründə yaşamış və Vaterloo döyüşündə böyük rol oynamış prus feldmarşalı.

...Arturların birincisi olan Vellinqton – ingilis sərkərdəsi və mürtəce siyasi xadimi; Vaterloo döyüşündə Napoleonla vuruşan İngiltərə, Hollandiya, Hannover və Braunşveyq birləşmiş qüvvələrinin komandanı idi.

"*Gəmi Kiferaya yola düşür*" – fransız rokoko dövrünün zərif süjetlərlə məşhur olan ən böyük rəssamı Vattonun tablosu (1684-1721). *Lankre* – Vattonun dostu və həmin istiqamətdə işləyən rəssamdır, "zərif qonaqlıqlar rəssamı" adlandırılır.

D'Yurfe Onore – XVII əsrin fransız yazıçısı, şit, pastoral romanların müəllifidir. *Druidlər* – qədim keltlərin kahinləri.

... Priapa çevrilmiş Türkare. – Türkare varlanıb podratçı olmuş nökər, Lesajın eyni adlı komediyasının personajı (1707). *Priap* yunan mifologiyasında şəhvət allahı.

Qrez Jan-Batist (1725-1805) – məşhur fransız rəssamı, burjua məişətinə dair sentimental tabloların və qadın başları seriyasının müəllifi.

...Ona nizə versəniz 10 avqust gününü görərsiniz... – 10 avqust 1792-ci il – xalq üsyanı günüdür, bu üsyanın nəticəsində Fransada respublika elan edildi.

Kavdin dərəsi – qəti döyüş yeridir ki, bu döyüş zamanı Roma ordusu samnitlər tərəfindən məğlub edilmişdi (eramızdan əvvəl 321-ci il).

Qrimo de la Renyer bu barədə Taleyranla tamamilə razılaşır. – Burada Taleyranın siyasətçilərə müraciətlə dediyi həyasız sözləri nəzərdə tutulur: "Başlıcası budur ki, mümkün qədər az səy göstərməli". *Qrimo de la Renyer* – XVIII əsrin sonu və XIX əsrin əvvəlində yaşamış fransız ədibi, səkkizcildlik məzhəkəli "Qurmanlar almanaxı"nın müəllifidir.

Apuley Lutsi (II əsr) – qədim Roma yazıçısı, "Metamorfozlar və ya Qızıl eşşək" romanının müəllifidir, bu romanda dövrün əxlaq və adətləri geniş təsvir edilmişdir.

Aspaziya – Afina hökmdarı Periklin (b. e. əvvəl V əsr) rəfiqəsi olub, ağlı və gözəlliyi ilə məşhur idi. O zamanın ən görkəmli adamları, o cümlədən filosof Sokrat, onun ətrafına toplanırdı.

Manon Lesko – yüngül əxlaqlı gözəl qadın, fransız yazıçısı abbat Prevonun yazdığı "Kavaler de Qrie ilə Manon Leskonun əhvalatı" adlı romanın qəhrəmanı (1733).

"*Biz Kalyarın qanadlarında Lafitin ağuşuna uçuruq*" – yəni hüquqşünaslıq karyerası vasitəsilə sərvətə doğru gedirik. *Lafit* – "burjua kral" Lui-Filipp d'Orleanlı taxta oturdulmasında görkəmli rol oynamış Paris bankiridir. İyul monarxiyasında nazirliyə başçılıq etmiş, sonra isə maliyyə naziri olmuşdur. *Kalyar* – XVII əsrdə vəkil olmuşdur. Sərvət ardınca düşərək, ən mürəkkəb işlərdən yapışırdı.

Homer bu zəncirlə Polifemi, Şekspir isə Kalibanı bağlaya bilərdi. – Polifem – birgözlü nəhəng siklopdur ("Odisseya"); *Kaliban* – eybəcər div (Şekspirin "Tufan"ı).

...Köhnə klassik roman "Kleliya" səviyyəsindən "Lodoiske" səviyyəsinə düşmüş... – "*Kleliya*" – XVII əsrin aristokrat fransız yazıçısı madmazel Sküderinin romanıdır. Bu roman nəzakətli rəftar və salon məhəbbət oyunu üçün rəhbərlik idi. "*Lodoiske*" – Filyet-Loronun əsəridir, Kreytser və Kerubininin eyniadlı operaları üçün süjet olmuşdur.

Madam de'Lafayet – XVII əsrin fransız yazıçısı, psixoloji aşiqanə romanların müəllifidir.

Pamella – ingilis yazıçısı Riçardsonun eyni adlı romanının qəhrəmanı (1740), burjua əxlaqının mücəssəməsidir.

Dükre-Düminil – XIX əsrin əvvəlində Fransada geniş yayılmış bulvar romanlarının, komediya və melodramların müəllifidir.

"*Moniter*" – 1789-cu ildə buraxılmağa başlayan və siyasi hadisələr haqqında hesabat verən qəzetdir. "Moniter"in istiqaməti bir neçə dəfə dəyişmişdir. Restavrasiya dövründə "Moniter" Burbonlar hökumətinin rəsmi qəzeti olmuşdu.

...Balaca savoyalının məsələsi də meydana çıxacaqdır. – Savoyanın çox yoxsul olan əhalisi hər qış dəstə-dəstə Fransaya gələr və qazanc axtararaq, kəndləri və şəhərləri gəzərdi.

Kapusinlər, ursulinlər, karmelitlər – Fransada yayılmış rahib cəmiyyətləridir.

Miltonun kabusları kimi dəhşətli kabuslar meydan oxuyur. Dantenin əsərində olduğu kimi fantasmaqoriya dairələri cızılır. – *Milton Con* – (1608-1674) – şair və ingilis burjua inqilabının fəal iştirakçısıdır, "İtirilmiş cənnət" adlı poemasında o, başda iblis olmaqla cəhənnəm qüvvələrinin göylər hökmdarına qarşı üsyanını təsvir edir. *Fantasmaqorik dairələr* – böyük italyan şairi Dante-Aliqeri "İlahi komediya" adlı poemasında cəhənnəmi konsentrik dairələrə bölünmüş qıf şəklində təsvir etmişdir.

Antonomaziya – ismixası təsvir ifadəsi ilə, ismicinsi ismixasla əvəz edən ritorik fiquradır.

KOZETTA

Lenotr – XVII əsrdə dekorator – bağban olmuşdur. Versal, Fontenobloo kral bağlarını və b. düzəldən və "fransız" parkları üslubunu yaradan odur.

Nant edikti – 1598-ci il aprelin 13-də kral IV Henrix tərəfindən nəşr edilmişdir və Fransada dini müharibələr dövrünü rəsmi surətdə tamamlamışdır, katolisizm dövlət dini kimi qəbul olunmuşdur, lakin protestantlara (hugenotlara) din və ibadət azadlığı verilirdi (Parisdən və bəzi başqa

şəhərlərdən başqa), 1685-ci ildə Nant ediktinin XIV Lüdovik tərəfindən ləğv edilməsi hugenotların kütləvi mühacirətinə səbəb olmuşdur.

Abukir – Misirdə dəniz sahilində kənddir, 1798-ci il avqustun 1-də burada dəniz döyüşü olmuşdur, bu vuruşmada ingilislər fransız donanmasını məhv etmiş və Bonapart qoşunlarının Fransaya yolunu kəsmişdilər.

Jerom Bonapart – Napoleonun kiçik qardaşıdır. 1807-ci ildə Napoleon tərəfindən Vestfaliya krallığı taxtına çıxarılmışdır.

Salvator Roza (1615-1673) – italyan rəssamı, bir sıra döyüş tablolarının müəllifidir. *Qriboval* – XVIII əsrin ikinci yarısında yaşamış fransız hərbi mühəndisidir, topçuluqda bəzi təkmilləşmələr etmişdir.

Vandermelen (1634-1690) – Flamand məktəbinə mənsub rəssamdır, XIV Lüdovikin saray rəssamı olmuş və döyüş səhnələri çəkməkdə ixtisaslaşmışdır, detallarının çox dəqiq olması və personajlarının portretə oxşaması ilə fərqlənən tablolar çəkmişdir.

Bu da Folara ixtiyar verir ki, Polibiyə etiraz etsin. – Folar (1669-1752) – fransız strateqi, yunan tarixçisi Polibinin "Ümumi tarixi"nə yazılan "Kommentarilər"in müəllifidir (e. ə. III-II əsr). Bu kitabda qədim romalıların müharibələri, onların hərbi nizamı və intizamı təsvir edilmişdir.

Şaras Jan-Batist (1810-1865) – fransız hərbi yazıçısı, bonapartizmin düşmənidir. Lui Bonapartın dövlət çevrilişindən sonra, Hüqo ilə bir vaxtda Fransadan qovulmuş və onun kimi Avropa irticası tərəfindən təqib edilirdi. "Səfillər"lə demək olar ki, bir vaxtda Brüsseldə Şarasın "1815-ci il kompaniyası tarixi" adlı kitabı nəşr edilmişdi. Bu kitab Napoleon əfsanəsini ifşa etmək üçün edilən ilk ciddi təşəbbüs idi. Vaterloo döyüşünün təsvirində və şərh edilməsində Hüqo Şarasın ona məlum olan əsərlərinə istinad edir və eyni zamanda Şarasla mübahisə edirdi.

...Vellinqton Talavera, Vittoriya və Salamanka müharibələrində birlikdə iştirak etdiyi köhnə döyüş yoldaşlarına xitabən bağırmışdı... – İspaniyada Napoleon müharibələri dövründə ingilis qoşunları Vellinqtonun komandası altında ispanların tərəfində fransız qoşunlarına qarşı vuruşurdular. Talavera (1809), Vittoriya (1813) və Salamanka (1812) döyüşlərində fransızlar Vellinqtonun qoşunları qarşısında geri çəkildilər.

Bu dəfə Pompey ağlamadı, lakin buna heç bir şübhə yoxdur ki, Sezar gülürdü. – Roma sərkərdəsi və dövlət xadimi, Roma cəmiyyətinin mürtəce təbəqələrinin nümayəndəsi olan Qney Pompey (e. ə. 106-48-ci illər) inadlı və qanlı vətəndaş müharibəsi nəticəsində Yuli Sezar tərəfindən məğlub edilmişdi.

...Pirenin Bren-l'Alle yanında faydasız manevr...– general İppolit Pire Vaterloo döyüşündə Napoleon ordusunun sağ cinahında süvarilərə komandanlıq edirdi. O, öz bölməsini düşmənin zərbəsi altından çıxarıb,

Parisə doğru yönəltməyə müvəffəq oldu. Yolda, Versalın yaxınlığında Pire bir dəstə prus qusarlarını darmadağın etdi, lakin Napoleon Vaterlooda məğlub olduğundan, bu, faydasız idi.

Qruşinin gecikməsi – Napoleonun marşalı olan Qruşi Emmanuel Vaterloo döyüşünüdə ehtiyat kavaleriyasına komandanlıq edirdi və 16 iyunda Linyidə məğlub edilmiş prussiyalıları təqib etmək əmrini almışdı. Bir sıra təsadüflərə görə Blüxer Qruşidən aralanmağa müvəffəq oldu və Qruşi Napoleonla birləşməyə macal tapmamış 18 iyunda Vaterloo döyüş meydanında ingilislərə köməyə gəldi. Buna görə Napoleon öz məğlubiyyətində Qruşini müqəssir hesab edirdi.

Lakin keçmişində Berezina, Leypsiq və Fonteneblo olan bir şəxs ... – Berezina çayından keçmək (1812-ci il, noyabr) və bu keçid zamanı 10 min fransız əsgərinin həlak olması Rusiyadan geri çəkilən zaman Napoleon ordusunun tar-marını tamamladı. 1813-cü il, oktyabrın 16-19-da Leypsiq yanında Napoleon ordusu ilə müttəfiqlərin qoşunları arasında baş verən vuruşma nəticəsində, təxminən, 65 min nəfər adam itirmiş Napoleon geri çəkilməyə məcbur oldu. 1814-cü il, aprelin 6-da Paris müttəfiqlərin yüz min nəfərlik ordusu qarşısında danışıqsız təslim olandan sonra Fonteneblo sarayında Napoleon taxtdan əl çəkməsi haqqında sənədi imzaladı və bundan sonra Elba adasına göndərildi.

Bu qələbə Kresi, Puatye, Monplake, Ramilyi üçün bir intiqam ola bilərdi. – İngiltərə ilə Yüzillik müharibə zamanı *Kresi* (1346) və *Puatyedə* (1356) olan döyüşlərdə fransız qoşunları ingilislər tərəfindən məğlub edilmişdi. İspan varisliyi uğrunda müharibə adlanan müharibə zamanı Fransa kralı XIV Lüdovikin qoşunları *Monplake* (1709) və *Ramilyidə* (1706) ingilis qoşunları ilə döyüşlərdə amansız məğlubiyyətə uğramışdılar.

Marenqoda qalib gələn adam Azenkurun üstündən qələm çəkirdi. – 1800-cü il, iyunun 14-də Napoleon qoşunlarının Marenqo döyüşündə avstriyalılar üzərində qələbəsi nəzərdə tutulur, 1415-ci il, oktyabrın 25-dən ingilis kralı V Henrix Azenkur döyüşündə sayca ingilislərdən çox olan fransız qoşunlarını darmadağın etmişdi.

Mürat burada olmasa da, Ney burada idi. – Napoleon ordusu marşalı Yoaxim Mürat Napoleonun bacanağı olmuş və Napoleon Neapol krallığını ona vermişdi. Napoleonun Elba adasından qaçmasını eşitcək Mürat qəfildən avstraliyalılara hücum etmiş və Napoleon özü hərbi əməliyyata başlamamış məğlub edilmişdi. Napoleon belə hesab edirdi ki, Müratın ordusu onunla olsa idi, Vaterloo döyüşündə qalib gələrdi.

Arqosu xatırlayan qreklər kimi şotlandiyalılar da Ben Lotianı düşünərək can verirdilər. – *Lotian* Şotlandiyanın yerli vilayətidir və qədim

yunanlar üçün Arqos şəhəri olduğu kimi, burada şotlandiyalılar vətən simvolu kimi göstərilmişdir.

... Talavera və Badaxos vuruşmalarını görən Klintonu heyrət içində buraxmışdı. – Badaxos – İspan şəhəri, Napoleona tabe olmayan İspaniya qoşunlarının fransız qoşunları ilə amansız vuruşması yeridir.

Vəlvələ... Mexelndə prins Kondeyə, Gentdə isə XVIII Lüdovikə qədər gedib çatmışdı. – Prins Konde (Lui-Josef Burbon) əksinqilabçı mühacir fransız dvoryanları ordusunun komandanı idi. XVIII Lüdovik onu bütün piyada qoşunlarının rəisi təyin etdi. *Gent* XVIII Lüdovikin Yüz gün dövründə qaçdığı Belçika şəhəridir.

Dəmir hersoq – Vellinqtonun ləqəbi idi.

...sən fransız güllələrindən ölmək üçün sağ qaldın! – Napoleonun marşalı, onun bütün böyük yürüşlərinin iştirakçısı *Mişel Ney* (1769-1815) nəzərdə tutulur, Napoleon taxtdan əl çəkəndən sonra Burbonların tərəfinə keçmişdi. Yüz gün zamanı bir qrup kral qoşunları ilə yenə Napoleonun tərəfinə keçmiş və Vaterlooda onun tərəfində vuruşmuşdu. İmperiyanın ikinci süqutundan sonra İsveçrəyə qaçmış, lakin ələ keçmiş və 1815-ci il, dekabrın 7-də Perlər palatasının hökmü ilə güllələnmişdi.

Ulm, Vaqram, İena və Fridlyand – Napoleonun qələbə qazandığı döyüşlərdir. *Ulmda* (20 oktyabr, 1805-ci il) Avstriya ordusu danışıqsız təslim olmuşdur, *Vaqramda* (5-6 iyun, 1809-cu ildə) həmçinin Avstriya qoşunları darmadağın edilmişdi. *İena* döyüşündə (14 oktyabr, 1806-cı il) Prus ordusu, həqiqətən, məhv edilmişdi, *Fridland* vuruşmasında, Keniqsberq yaxınlığında (14 iyun, 1807-ci ildə) Napoleon Beniqsenin komandanlıq etdiyi rus qoşunlarını məğlub etmişdi.

Kambron – Napoleona ən çox yaxın olan zabitlərdən biridir. Sonra general olmuş, Napoleonu Elba adasında müşayiət etmiş və onun Fransaya qayıtmasının təşkilində fəal iştirak etmişdi. Qvardiya bölməsinə komandanlıq edərək, Vaterlooda həlak oldu.

...ən sarsaq bir sözə Fransanın bütün rövnəqini verərək... – Hüqonun müasirləri isbat edirdilər ki, Kambron başqa cür cavab vermişdir: "Qvardiya ölər, lakin təslim olmaz". Hüqo bu versiyanı inkar edərək, onun tarixi fakta bir qədər bəzək vermək üçün deyildiyini hesab edirdi. Romana aid materiallarda belə bir qeyd var: "Kambron. Mən onun söyüşü üçün dediyi sözü nə üçün dərc etdim? O haqlı olaraq mənim kitabıma daxil oldu. Bu, sözlərin ən pisidir. Lakin bir gün gələr ki, bu söz qəhrəmanlıq dərəcəsinə qədər yüksələrək, mərmiyə çevrilər. Söyüş böyük bir xidmət göstərir. Mən faktı qeyd edirəm".

... Ruje de Lil "Marselyoza"nı tapdığı kimi... – inqilabi mahnı olan "Marselyoza"nın musiqisini və sözlərini fransız sapyor kapitanı Ruje de

Lil 1792-ci il 24 aprel gecəsi Strasburqda inqilabi Fransaya qarşı böyük Avropa dövlətləri komissiyasının yaradılması xəbərini aldığı zaman vətənpərvərlik hissi ilə ruhlanaraq qoşmuşdu.

Kleber – Bonapartın Misir səfərində iştirak etmiş və sonra Misirdə fransız qoşunlarının komandanı olmuş fransız generalıdır.

Vellinqton – müharibənin Baremi... Barem (XVII əsr) – "Hesab aparma kitabı"nın pul işlərinə dair bir sıra "Rəhbərliklərin" və şeirlə yazılmış "Pul mədhnaməsi"nin müəllifidir. Fransada onun adı təcrübi hesabdan bacarıqla istifadə edilməsini göstərmək üçün zərbi-məsəl olmuşdur.

Qoca bayquş cavan qırğı qarşısında təslim olmuşdu. – 1796-cı ildə İtaliyada müharibə zamanı Napoleon Avstriya generalı Vurmseri üç dəfə məğlub edərək, bununla öz karyerasının əsasını möhkəmlətmişdi.

Filipp düzlərində... – görünür, qədim Romada vətəndaş müharibəsi zamanı (42 il eramızdan əvvəl) Makedoniyada Filippdəki vuruşma nəzərdə tutulur. Bu vuruşmada Brut Antoni və Oktavian tərəfindən məğlub edilmişdi. Hüqonun dediyi kimi, Vergili deyil, şair Horasi bu müharibənin şahidi olmuşdur.

Bu – 1815-ci il 20 mart vasitəsilə 1789-cu ilin 14 iyuluna hücum demək idi... – 14 iyul 1789-cu il – Bastiliyanın alınması günü, 20 mart 1815-ci il isə Elba adasından qayıdan Napoleonun Parisə daxil olması günü idi.

Bonapart... Neapol taxtına foreytoru, İsveç taxtına serjantı əyləşdirir. – 1808-ci ildə Neapol taxtına oturdulmuş marşal Mürat meyxanaçı oğlu idi və öz hərbi karyerasını sıravi əsgərlikdən başlamışdı. Napoleonun marşalı, vəkil oğlu, keçmişdə həmçinin sıravi əsgər olan Bernadot 1810-cu ilin sonunda regent seçilmiş, 1818-ci ildə isə XIV Kral adı ilə İsveç taxtına oturmuşdu.

Fua Huqomonda yerə yıxıldığı halda, yenidən tribunaya qalxır. – Vaterloo döyüşündə yaralanan Napoleon ordusu generalı Maksimilian Fua Restavrasiya zamanı deputatlar palatasına daxil olmuş və burada liberal müxalifət natiqi kimi görkəmli yer tutmuşdu (şəxsi azadlıq və mətbuat azadlığı haqqında nitq, 1820).

8 iyul xor mahnıları 20 mart heyrətlərini unutdurdu. – 8 iyul – Yüz gündən sonra XVIII Lüdovikin Parisə daxil olmasıdır.

Bearnalı – Bearn əyalətindən olan IV Henrixin ləqəbidir.

Qartveldən gətirdilmiş küknar ağacından düzəldilmiş masa. Qartvell – Londonun 60 kilometrində olan qəsrdir. XVIII Lüdovik Burbon Fransa taxtına çıxmazdan əvvəl uzun müddət burada yaşamışdır.

Buvin – burada 1214-cü il, iyulun 27-də vuruşma olmuş və bu vuruşmada fransız kralı II Filipp Avqust alman imperatoru IV Ottonu məğlub

etmişdir. *Fontenua* – Belçika kəndidir. 1745-ci ildə, mayın 11-də Avstriya taxtı uğrunda mübarizə zamanı fransız qoşunları saksoniyalı Morisin başçılığı ilə ingilis – Hannover qoşunlarını burada dağıtmış və qaçmağa məcbur etmişdi.

Trestalyon – 1815-ci ildə ağ terror zamanı Fransanın cənub əyalətlərində azğınlıq və monarxist quldur dəstələrindən birinin başçısıdır.

...Marenqo və Arkol qarşısında bir az utanırmış kimi, hersoq d'Anqulemin heykəli sayəsində bu çətin vəziyyətdən xilas ola bildi. – Napoleonun Marenqo və Arkoldakı (İtaliyada, 1796-cı ildə) qələbələri burada hersoq d'Anqulemin inqilabi İspaniyaya apardığı cəza ekspedisiyasına müqabil qoyulur.

Hersoq d'Engien – urbonlar sülaləsindən olan prinsdir. 1804-cü il 15 mart gecəsi Napoleon tərəfindən güllələnmişdir.

...14-cü maddəyə ümid bağlayaraq... – XVIII Lüdovik Xartiyasının 14-cü maddəsi kralın başqa hüquqları cümləsində bütün dövlət vəzifələrini bölüşdürmək hüququ olduğunu da müəyyən edirdi.

İngiltərə Bonapartın keşiyini Qudson Louya, Fransa isə ona nəzarət etməyi Monşenüyə tapşırdı. – Hudson Lou Napoleonun sürgün edildiyi Müqəddəs Yelena adasının qubernatoru idi. Adada Napoleona nəzarət etmək üçün Avropa dövlətlərinin dörd nümayəndəsi, o cümlədən Fransanın müvəkkili markiz de Monşenü vardı.

Villel – ən qəddar royalistlərin adamı idi, 1821-ci ildən 1827-ci ilə kimi XVIII Lüdovik və X Karl zamanı mürtəce hökumətə başçılıq etmişdir.

Rocer Bekon (1214-1294) – ingilis alimi, orta əsrlərin ən böyük təbiyyatçılarından biridir.

Prins Karinyane – Savoya knyazları nəslinin nümayəndəsidir, 1823-cü ildə milli azadlıq hərəkatını boğmaq üçün hersoq d'Anqulemin İtaliya səfərində iştirak etmişdir. 1831-ci ildə Karl Albert adı ilə Sardiniya kralı taxtına çıxdı. Liberal kral kimi tanındığına baxmayaraq, "Gənc İtaliya" respublika hərəkatını amansızcasına yatırtmışdı.

...yad ölkədə bir dəstə qəhrəman fransızların başları üzərində yellənən üçrəngli bayraq haqqında... – 1823-cü ildə hersoq d'Anqulemin İspaniya səfəri zamanı bir qrup fransız respublikaçıları ispan vətənpərvərlərinə qoşularaq üçrəngli bayraq altında fransız royalist qoşunlarına qarşı vuruşurdular.

...otuz il bundan əvvəl Koblensdə yellənən ağ bayraq kimi... – Koblens Prussiyanın Reyn əyalətində bir qala olub, ilk Fransa burjua inqilabı zamanı mühacir monarxistlərin yığıncaq yeri, Fransa inqilabına qarşı mübarizənin mərkəzi olmuşdur. *Ağ bayraq* – Burbonların bayrağıdır.

Palafoks – 1808-ci ilin İspaniya inqilabı zamanı fransız qoşunlarına qəhrəmancasına müqavimət göstərməklə şöhrət tapmış Saraqossa qalasının inqilabçı qarnizonunun başçısı.

...Rastopçini görməyi Balyesterosu görməkdən üstün tuturlar. – Burada Hüqo Rastopçini 1812-ci ildə rus xalqının Napoleona qarşı apardığı Vətən müharibəsinin timsalı kimi götürmüşdür. Napoleonun Rusiya və İspaniya ilə apardığı və fransız ordusunun məğlub edildiyi müharibələr 1823-cü ildə fransızların İspaniyada asanlıqla qazandıqları qələbələrə müqabil qoyulur. Bu zaman İspaniyanın mürtəce dvoryanları və ruhaniləri xalq inqilabından qorxaraq, Fransisko Balyesterosun başçılıq etdiyi müvəqqəti burjua hökumətinin zəifliyindən istifadə edib, yüz minlik fransız ordusuna qalaların qapısını açmışlar.

Şuazi-le-Rua – Parisin ətrafında kral qəsri.

Salpetrier – Parisdə dəlilər üçün şöbəsi olan böyük qadın xəstəxanası və qocalar sığınacağı. XVII əsrdə təsis edilərək, uzun müddət fahişələr və oğru qadınlar üçün həbs yeri olmuşdur.

...Ulbax... ivrili bir çoban qızını öldürmüşdü. – 1827-ci ildə Paris ətrafındakı Onore meyxanasının xidmətçisi Ulbax, onu rədd etmiş nişanlısını – "ivrili çoban qızı öldürmüşdü. Bu qızın obrazı ətrafında əfsanə yarandı, Torağay çölündə ona abidə qoyuldu".

Sen-Jak qapıları – Hüqonun zamanında Sen-Jak şəhər qapısı, Sen-Jak küçəsi və Sen-Jak kilsəsinin qülləsi hələ də var idi. Serjant qarovulxanası – qədimdə serjant adlanan notariusların müştəri gözlədikləri pavilyondur. *Donuzçular* (Porcherons) Paris şəhər qarovulxanasından kənarda başdan-başa meyxanalar tikilmiş qəsəbədir, XVIII əsrdə peşəkarlar, yüngül əxlaqlı qadınlar və hətta yüksək cəmiyyət üçün kef yeri idi. Sonralar burada şəhərin Monmartr hissəsi əmələ gəldi. Çəkiclər (Mails) adlı kürə oynatmaq üçün işlədilən taxta çəkiclərin adından əmələ gəlmişdir. Çəkiclər həmçinin oyun yerinin özünə, adətən, ağaclarla əhatə olunmuş, gəzinti üçün istifadə olunan meydançaya və ya xiyabana da deyilirdi. *Palçıqlı* (Bourbe) qədim şəhər xəstəxanası, dilənçi və məhbus qadınlar üçün doğum evi idi. *Krakov ağacı* – Pale-Royal sarayının bağında köhnə şabalıd ağacı idi. Bu ad ona XVIII əsrdə verilmişdir və Polşanın bölünməsi məsələsi ilə əlaqədardır.

...İnstituta "Dörd millət", Komediya operasına isə "Feydo" deyən... – Kardinal Mazarininin vəsiyyətinə görə, 1688-ci ildə "Dörd millət kolleci" açılmışdı, burada 15 italyan, 15 elzaslı, 15 flamand və 15 russilyon oxuyurdu. İnqilab zamanı kollec bağlandı və onun binası 1806-cı ildə İnstituta (akademiyalar birləşməsinə) verildi. *Feydo* – komik opera teatrının köhnə adı idi (Feydo küçəsində olduğuna görə).

...Kiçik Pikpüs – Fransiskanlar ordeninin rahib konqreqasiyalarından birinin adına "Pikpüs" deyilirdi, bu ad Parisin Sent-Antuan qəsəbəsinə bitişik olan bir kəndin adı idi, konqresasiyanın əsas müəssisələri burada yerləşirdi.

Atilla – hunların başçısı (453-cü ildə ölmüşdür).

Perro Şarl və onun oğlu *Pyer* XVII əsrin fransız yazıçıları, məşhur işlənmiş xalq nağıllarının müəlliflərıdir.

Öz ordeninin Dasyesi... – Anna Dasye, qızlıq familiyası Lefevr (1651-1720) – öz zəmanəsinin alim qadınıdır. "İliada"nı, "Odisseya"nı, Roma və yunan şair və dramaturqlarının bir sıra əsərlərini fransız dilinə tərcümə etmişdir.

Jan-Jak – yəni Jan-Jak Russo.

Kalası, Labarı və Sirveni müdafiə edən Bolter... – 1762-ci ildə qoca protestant Jan Kalas öz katolik oğlunu öldürməkdə yalandan ittiham edilərək edam edilmişdi. Həqiqətdə isə oğlu borc üzündən özünü öldürmüşdü.

Volter, Kalasın müdafiəsinə qalxaraq, dini fanatizmi cəsarətlə ifşa edirdi və üçillik inadlı mübarizə nəticəsində Kalasın ölümdən sonra bəraət almasına nail oldu və onun ailəsini xilas etdi. *Sirven* və *Labar* – dini fanatizmin qurbanlarıdır, Kalasdan bir az sonra Volter bunları müdafiə etmişdi.

Olofern – Tövrat əfsanəsinə görə, yəhudilərə etdiyi zülmlərin intiqamını almaqdan ötrü Yudifi adlı gözəl bir qadın tərəfindən öldürülmüş zülmkar Babil sərkərdəsidir.

...Behişti Aristotelin Ədəmi ilə əvəz etməlidir. – Ədəm Tövrata görə, ilk insanların – Adəmlə Həvvanın yaşadıqları yer yerdir. *Likey* –Afinadakı üç gimnaziyadan birisidir. Likeyli Apollonun məbədi yaxınlığında yerləşirdi. Ərəstun öz mühazirələrini burada oxuyurmuş.

MÜNDƏRİCAT

Viktor Hüqonun həyatı 5

Səfillər

Birinci hissə
FANTİNA

Birinci kitab
PAK ADAM

Birinci fəsil. Cənab Miriel 39
İkinci fəsil. Cənab Miriel dönüb monsenyor Byenvenü olur 42
Üçüncü fəsil. Mərhəmətli yepiskopun pis yeparxiyası 47
Dördüncü fəsil. Sözə uyğun iş 49
Beşinci fəsil. Monsenyor Byenvenünün öz cübbələrini həddindən çox geyib köhnəltməsi haqqında 56
Altıncı fəsil. Yepiskop evini qorumağı kimə tapşırmışdı 59
Yeddinci fəsil. Kravat 64
Səkkizinci fəsil. Şərab içərkən fəlsəfə 68
Doqquzuncu fəsil. Bacısı öz qardaşı haqqında nə deyir 72
Onuncu fəsil. Yepiskop naməlum işıq qarşısında 76
On birinci fəsil. Qeyd-şərt 88
On ikinci fəsil. Monsenyor Byenvenünün yalqızlığı 93
On üçüncü fəsil. O, nəyə inanırdı 96
On dördüncü fəsil. Onun düşüncələri 100

İkinci kitab
SÜQUT

Birinci fəsil. Bütün gün yol gələndən sonra 103
İkinci fəsil. Hikmətə verilən ehtiyat dərsi 115
Üçüncü fəsil. Kor-koranə itaət etmək qəhrəmanlığı 118

Dördüncü fəsil. Pontarlyedəki pendirxanalar haqqında bəzi təfsilat 124
Beşinci fəsil. Sakitlik 127
Altıncı fəsil. Jan Valjan 129
Yeddinci fəsil. Ümidsizliyin dərinliyi 134
Səkkizinci fəsil. Dəniz və zülmət 141
Doqquzuncu fəsil. Yeni dərdlər 143
Onuncu fəsil. Adam yuxuda oyandı 144
On birinci fəsil. O nə edir? 147
On ikinci fəsil. Yepiskop işlərkən 150
On üçüncü fəsil. Balaca Jerve 154

Üçüncü kitab

1817-ci İLDƏ

Birinci fəsil. 1817-ci il 163
İkinci fəsil. İki kvartet 169
Üçüncü fəsil. Dörd cüt 173
Dördüncü fəsil. Tolomes elə şəndir ki, ispan mahnısı oxuyur 177
Beşinci fəsil. "Bombard meyxanasında" 179
Altıncı fəsil. Onlar bir-birinə pərəstiş edirlər 182
Yeddinci fəsil. Tolomesin hikməti 184
Səkkizinci fəsil. Atın ölümü 190
Doqquzuncu fəsil. Əyləncənin əyləncəli sonu 193

Dördüncü kitab

BAŞQASINA BİR ŞEYİ ETİBAR ETMƏK – BƏZƏN ONDAN GÖZ ÇƏKMƏK DEMƏKDİR

Birinci fəsil. İki ananın bir-birinə rast gəlməsi 197
İkinci fəsil. İki şübhəli şəxslə ötəri tanışlıq 206
Üçüncü fəsil. Torağay 208

Beşinci kitab

ENİŞ

Birinci fəsil. Qara şüşə istehsalında tərəqqi 211
İkinci fəsil. Madlen 212
Üçüncü fəsil. Lafit bankına qoyulmuş pul 216
Dördüncü fəsil. Cənab Madlenin yas saxlaması 219
Beşinci fəsil. Üfüqdə parlayan ildırımlar 221
Altıncı fəsil. Foşlevan baba 227
Yeddinci fəsil. Foşlevan Parisdə bağban olur 230

Səkkizinci fəsil. Madam Viktürnyen əxlaq naminə otuz beş frank sərf edir . . 231
Doqquzuncu fəsil. Madam Viktürnyenin müvəffəqiyyəti 234
Onuncu fəsil. Müvəffəqiyyətin nəticələri 237
On birinci fəsil. Christus nos liberavit 242
On ikinci fəsil. Cənab Bamatabuanın boş vaxtları 243
On üçüncü fəsil. Şəhər polisi idarəsinə aid olan bəzi məsələlərin həlli 246

Altıncı kitab
JAVER

Birinci fəsil. Dincliyin başlanğıcı 256
İkinci fəsil. Jan necə dönüb Şan olur 260

Yeddinci kitab
ŞANMATYENİN İŞİ

Birinci fəsil. Simplisiya bacı 270
İkinci fəsil. Skofler dayının fərasəti 273
Üçüncü fəsil. İnsan qəlbində fırtına 278
Dördüncü fəsil. İztirab yuxuda qəribə şəkillərə düşür 296
Beşinci fəsil. Təkərlərin toqquşması 299
Altıncı fəsil. Simplisiya bacının imtahanı 310
Yeddinci fəsil. Yolçu geri dönməyə hazırlaşır 317
Səkkizinci fəsil. İltifatlı qəbul 322
Doqquzuncu fəsil. Məsləklərin yarandığı yer 325
Onuncu fəsil. İnkar üsulu 332
On birinci fəsil. Şanmatyenin heyrəti getdikcə artır 339

Səkkizinci kitab
ZƏRBƏNİN İNİKASI

Birinci fəsil. Cənab Madlen öz saçlarını hansı güzgüdə görür 344
İkinci fəsil. Fantina xoşbəxtdir 346
Üçüncü fəsil. Javer sevinir 350
Dördüncü fəsil. Qanuni hökumət öz hüququnu bərpa edir 354
Beşinci fəsil. Ölüyə münasib məzar 358

İkinci hissə

KOZETTA

Birinci kitab

VATERLOO

Birinci fəsil. Nivel yolunda nələrə təsadüf etmək olar 366
İkinci fəsil. Huqomon 368
Üçüncü fəsil. 18 iyun 1815-ci il 374
Dördüncü fəsil. A 377
Beşinci fəsil. Vuruşmaların Quid obscurum-u 379
Altıncı fəsil. Günortadan dörd saat sonra 382
Yeddinci fəsil. Napoleonun kefi sazdır 385
Səkkizinci fəsil. İmperator bələdçi Lakostaya sual verir 390
Doqquzuncu fəsil. Gözlənilməyən bir şey 393
Onuncu fəsil. Mon-Sen-Jan platosu 397
On birinci fəsil. Napoleonun bələdçisi pis olduğu halda, Bülovun bələdçisi yaxşı idi 402
On ikinci fəsil. Qvardiya 403
On üçüncü fəsil. Fəlakət 405
On dördüncü fəsil. Son kare 407
On beşinci fəsil. Kambron 409
On altıncı fəsil. Qut libras in duel? 411
On yeddinci fəsil. Vaterloonu müsbət hadisə hesab etmək olarmı? 416
On səkkizinci fəsil. Müqəddəs hüququn bərpa edilməsi 418
On doqquzuncu fəsil. Döyüş meydanı gecə vaxtında 421

İkinci kitab

"ORİON" GƏMİSİ

Birinci fəsil. 24601 nömrə dəyişib 9430 nömrə olur 428
İkinci fəsil. Bu fəsildə, bəlkə də, iblis tərəfindən yazılmış bir beytə təsadüf edəcəksiniz 431
Üçüncü fəsil. Bu fəsildən belə məlum olur ki, zənciri bir zərbə ilə qırmaq üçün qabaqcadan halqanın birini kəsmək lazımdır 435

Üçüncü kitab

ÖLÜYƏ VERİLƏN VƏDƏ ƏMƏL OLUNMASI

Birinci fəsil. Monfermeyldə su məsələsi 444
İkinci fəsil. İki tamamlanmış surət 447

Üçüncü fəsil. İnsanlara şərab, atlara su 452
Dördüncü fəsil. Kukla əhvalatı 455
Beşinci fəsil. Balaca qız tək-tənha 456
Altıncı fəsil. Bu fəsildə Bulatruelin, bəlkə də, axmaq olmadığı təsdiq olunur 461
Yeddinci fəsil. Kozetta qaranlıqda naməlum adamla yol gedir 466
Səkkizinci fəsil. Varlı ola biləcək bir yoxsulu qəbul etməyin pis cəhətləri . . . 469
Doqquzuncu fəsil. Tenardye işə girişir 486
Onuncu fəsil. Artıq tamah baş yarar 494
On birinci fəsil. 9430 nömrə yenə meydana çıxır və Kozetta bu nömrəni lotereyada udur 499

Dördüncü kitab

QORBONUN KOMASI

Birinci fəsil. Sahibkar Qorbo 501
İkinci fəsil. Bayquş və bülbül yuvası 507
Üçüncü fəsil. İki bədbəxtlik birləşəndə... səadət əmələ gəlir 509
Dördüncü fəsil. Baş kirayənişinin müşahidələri 513
Beşinci fəsil. Beşfranklıq pul yerə düşəndə cingildəyir 515

Beşinci kitab

LAL BİR İT SÜRÜSÜ İLƏ GECƏ OVU

Birinci fəsil. Strateji üsullar 519
İkinci fəsil. Xoşbəxtlikdən, Austerlis körpüsündən arabalar keçir 522
Üçüncü fəsil. 1727-ci ildəki Parisin planına bax 524
Dördüncü fəsil. Quruluş axtararkən 527
Beşinci fəsil. Qaz işığında ola bilməyəcək işlər 529
Altıncı fəsil. Müəmmanın başlanğıcı 533
Yeddinci fəsil. Müəmmanın davamı 535
Səkkizinci fəsil. Müəmma getdikcə mürəkkəbləşir 537
Doqquzuncu fəsil. Zınqırovlu adam 539
Onuncu fəsil. Burada Javerin yanlış marıta durduğundan bəhs olunur 543

Altıncı kitab

KİÇİK PİKPÜS

Birinci fəsil. Pikpüs küçəsi, № 62 552
İkinci fəsil. Martin Verqanın nizamnaməsi 555
Üçüncü fəsil. Sərt qaydalar 562
Dördüncü fəsil. Şənlik 564

Beşinci fəsil. Əyləncələr 567
Altıncı fəsil. Kiçik monastır 572
Yeddinci fəsil. Qaranlıqda bir neçə kölgə 575
Səkkizinci fəsil. Post corda lapides 578
Doqquzuncu fəsil. Yüz il ləbbadə içində 579
Onuncu fəsil. Yorulmadan sitayiş qaydasının mənşəyi 581
On birinci fəsil. Kiçik Pikpüsün sonu 583

Yeddinci kitab

MÖTƏRİZƏ ARASINDA

Birinci fəsil. Monastır – mücərrəd bir məfhumdur 586
İkinci fəsil. Monastır – tarixi bir faktdır 587
Üçüncü fəsil. Keçmişə hansı şərtlə hörmət bəsləmək olar 590
Dördüncü fəsil. Monastır prinsiplər nöqteyi-nəzərindən 592
Beşinci fəsil. Dua 594
Altıncı fəsil. Duanın inkaredilməz şəfaları 595
Yeddinci fəsil. Ehtiyatla məzəmmət etməli 598
Səkkizinci fəsil. Etiqad, qanun 599

Səkkizinci kitab

QƏBİRİSTANLAR ONLARA VERİLƏNİ QƏBUL EDİR

Birinci fəsil. Burada monastıra girmək üsulundan bəhs olunur 602
İkinci fəsil. Foşlevan çətin vəziyyətə düşüb 610
Üçüncü fəsil. Məsum ana 612
Dördüncü fəsil. Bu fəsildə elə güman etmək olar ki, Jan Valjan Osten Kastilxonu oxumuşdur 624
Beşinci fəsil. Sərxoş olmaq hələ ölməz olmaq demək deyil 630
Altıncı fəsil. Dörd taxta arasında 637
Yeddinci fəsil. Bu fəsildə – "harada tapdım, harada itdi" məsəlinin necə əmələ gəldiyindən bəhs olunur 639
Səkkizinci fəsil. Müvəffəqiyyətli sual-cavab 646
Doqquzuncu fəsil. Dustaq kimi yaşamaq 650

İzahlar 658

DÜNYA ƏDƏBİYYATI
KLASSİKLƏRİ

Viktor
HÜQO

SEÇİLMİŞ ƏSƏRLƏRİ
ÜÇ CİLDDƏ

I CİLD

SƏFİLLƏR
I-II hissələr

Çapa imzalanmışdır 04.11.2009. Format 60×90 $^{1}/_{16}$. Ofset çap üsulu.
Fiziki çap vərəqi 42,5. Sifariş 206. Tiraj 7000.

"Şərq-Qərb" ASC-də çap olunmuşdur
Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+994 12) 474-75-62
Faks: (+994 12) 470-18-49
e-mail: sharq.qarb@gmail.com